**AZƏRBAYCAN RESPUBLİKASI**
**SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASI**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**MEHMAN SÜLEYMANOV**

# SƏFƏVİLƏR

## V cild

## Şah Təhmasib

Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının Elmi şurasının 27 fevral 2020 cu il tarixli 1 nömrəli protokolu ilə çapa tövsiyə olunub

MAARİF
nəşriyyatı
**BAKI – 2020**

Baş məsləhətçilər: **Heydər Piriyev** – general-leytenant

**Yaqub Mahmudov** – AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı

Elmi redaktorlar: **Tofiq Nəcəfli** - tarix üzrə elmlər doktoru,

**Eynulla Mədətli** - tarix üzrə elmlər doktoru

**Səməd Bayramzadə**, tarix üzrə fəlsəfə doktoru

Mehman Süleymanov: Səfəvilər. Şah Təhmasib
Bakı, 2020, 800 səh.

Kitab Azərbaycan xalqının dövlətçilik tarixində xüsusi yer tutmuş və 52 il ərzində hökmdarlıq etmiş Şah Təhmasib Səfəvinin həyat və fəaliyyətinin tədqiqinə, Şah İsmayıldan miras qalmış səltənətin qorunması və inkişaf etdirilməsi istiqamətində gördüyü tarixi xidmətlərin obyektiv mənzərəsinin yaradılmasına həsr olunmuşdur.

**İSBN: 978-9952-37-141-8**

# I FƏSİL
# SƏLTƏNƏTİN MÖHKƏMLƏNDİRİLMƏSİ

## 1.Şirvanin mərkəzi hakimiyyətə tabe etdirilməsi

1501-cü ildə Şirvanşahlar dövləti Səfəvi dövlətindən asılılığını qəbul etsə də özünün nisbi müstəqilliyini saxlamaqda idi. Hakimiyyət şirvan şahları sülaləsinin əlində qalmaqda idi və bu vəziyyət Şah Təhmasibin taxta çıxmasına qədər davam etdi. Şah Təhmasib hakimiyyət başına gələndə Şirvanda Şeyxşah kimi tanınan II Şeyx İbrahim hakimiyyətdə idi. Şah İsmayılın Şirvan üzərinə yürüşü zamanı Şirvanşah Fərrux Yassar həlak olduqdan sonra onun oğlu Bəhram bəy hakimiyyəti öz üzərinə götürdü. Lakin onun hakimiyyəti çox da uzun sürmədi və Məhəmməd Qazi bəy onu bu hakimiyyətdə əvəzlədi. Qazi Məhəmmədin hakimiyyəti isə təxminən altı ay davam etdi. Onun səylərinə baxmayaraq Şirvanşahlar dövlətinin əvvəlki qüdrətini özünə qaytarmaq mümkün olmadı. Çünki Səfəvilər dövlətinin artan qüdrəti qarşısında Şirvan hakimlərinin yenidən müstəqilləşmək istəklərinin ümidli gələcəyi yox idi. 1502-ci ilə Qazi Məhəmməd qətlə yetirildikdən sonra Şirvanda çox qısa müddət ərzində onun oğlu Sultan Mahmud hakimiyyətdə oldu. Amma Şirvan əhalisi onun hakimiyyətini qəbul etmədi və ona qarşı qiyam qaldırdı. Eyni zamanda Şirvan əhalisi Fərrux Yasarın Gilanda olan üçüncü oğlu Şeyxşaha xəbər göndərdi və onu Şirvan hakimliyinə dəvət etdi. Şeyxşah da bu dəvəti qəbul edərək Şirvana döndü və burada xalqın dəstəyi ilə hakimiyyətə sahibləndi (1).

Şeyxşah hakimi olduğu Şirvanın Səfəvi dövlətindən asılılığını qəbul edirdi və bu çərçivədə qurulan münasibətlərə sadiq idi. Onun üçün idi ki, Şeyxşahla Şah İsmayıl arasında xoş münasibətlər formalaşmışdı və hətta iki sülalə arasında nikah qohumluğu da yaradılmışdı. Şah İsmayıl öz qızı Pərixan xanımı Şeyxşahın oğlu Sultan Xəlilə (II Xəlilullah) vermişdi. Sultan Xəlilin bacısını, yəni Şeyxşahın qızını isə Şah İsmayıl özünə nikah etdirmişdi (2).

“Tarix-e Aləmara-ye Abbasi” əsərində Şah Təhmasiblə şirvanşahlar arasında münasibətlərin necə formalaşması haqqında belə qeydlər vardır: “Cənnətməkan və behiştməskən şahın fəth dairəsinə çəkdiyi ölkələrdən birincisi bol mənfəətli Şirvan məmləkətidir. Onun valiləri Ənuşirəvan Kəsra nəslindən olub, şirvanşah [adı] ilə məşhurdurlar. Ata-babadan o vilayətdə hökmdar olan məzkur valilər zümrəsindən Fərrux Yəsar və onun atası Əmir Xəlilulla ibn Sultan İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubad ibn Fərruxzad ibn Fəramərz ibn Güştasb ibn Fərruxzad ibn Mənuçöhr - bu [sonuncusu] «Xaqan» [ləqəbi] ilə məşhurdur, Xaqani onun məddahı olmuş və buna görə də Xaqani təxəllüsü götürmüşdür - hörmətli Səfəviyyə sülaləsi ilə düşmənçilik edərək, öz yerində deyildiyi kimi, Sultan Cüneyd və Sultan Heydərlə savaşıb, [onları] şəhid etmişdilər. Axırda Fərrux Yəsar Süleyman şanlı xaqanın intiqam qılıncı ilə öldürüldü və o xanədanın halı sarsıldı. Fərrux Yəsar oğlu Şeyxşahın oğlu Sultan Xəlil incəlikləri bilən müdrikliklə Süleyman şanlı xaqanın dərgahına gəlib, itaət və köləlik yolunu güdərək, nəvaziş və mehribanlıq gördü və şahın lütfkarlığı sayəsində yüksək [Səfəvi sülaləsinə] qohum olmaq dərəcəsi və şərəfli şirvanşahlıq rütbəsi ilə başıuca oldu. O həzrətin (Şah İsmayılın) [vəfat] hadisəsindən sonra [Sultan Xəlil] vəsiyyətə görə cənnətməkan şahdan rəğbət və mərhəmətli münasibət görərək, bir neçə il əzəmət və səadətlə keçirdi” (3).

Nikah qohumluğunun yaradılması Şirvanın Səfəvi dövlətinə bağlılığını daha da artırmaqla həm də Şeyxşahın və oğlunun hakimiyyətinə bir sabitlik gətirdi. Çünki hakimiyyət iddiasında olan müəyyən qüvvələr Şah İsmayılın himayəsindən ehtiyatlanaraq Şeyxşahın və onun oğlunun hakimiyyətinə qarşı ciddi bir təhlükə yaratmadılar.

Sultan Xəlil 1535-ci ildə dünyasını dəyişdi. Yəni o, Şah Təhmasibin hakimiyyəti dövründə təxminən 12 il Şirvana hakimlik etdi. Bu dövrdə də Şirvanda sabit hərbi-siyasi vəziyyət mövcud oldu. Həm də Şirvan hakimləri ilə Səfəvi sarayı arasında qəbul olunmuş münasibətlər davam etməkdə idi. Sultan Xəlilin oğlan övladı olmadığı üçün onun qardaşı oğlu 15 yaşlı Şahrux haki-

miyyətə gətirildi. "Padşah Sultan Xəlil [ibn İbrahim Şeyxşah] ibn Fərrux Yəsar ibn Əmir Xəlululla ibn Əmir Şeyx İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubad sözügedən ilin cəmadiyüləvvəl ayının 9-cu günündə (05.11.1535) fani məkandan əbədi məkana köçdü və ondan heç bir nəsil qalmadı. Onun səltənət müddəti on iki il olmuşdur və məmləkəti Şirvan vilayəti idi. Onun vəfatından sonra azyaşlı Şahrux ibn Sultan Fərrux ibn Şeyxşah taxta əyləşdi" (4).

Şahruxun az yaşda olması Şirvan daxilindəki bəzi qüvvələrdə hakimiyyəti ələ keçirmək ümidləri yaratdı və həmin qüvvələr dərhal fəallaşmağa çalışdılar. Əslində, Şahruxun hakimiyyət başına gəlməsindən sonra Şirvan daxilində hərc-məcrlik də genişlənmişdi. Hakimiyyət idarəçiliyində təmsil olunan yerli əmirlər Şahruxun təcrübəsizliyindən istifadə edərək hərc-mərclik yaradır, asan yolla varlanmaq üçün yerli əhaliyə qarşı soyğunçu siyasət həyata keçirirdilər. Əmirlərin özbaşınalıqlarının artması əhali daxilində də Şahruxa qarşı narazılıqları genişləndirməkdə idi. Bu narazılıqlar isə ona gətirib çıxardı ki, vilayət daxilində Şahruxa qarşı qiyam qalxdı. Həmin qiyama özünü Şeyxşahın oğlu Sultan Məhəmməd adlandıran birisi rəhbərlik edirdi. Əmirlərin özbaşınalıqlarından əziyyət çəkən yerli əhalinin bir hissəsi də yalançı Sultan Məhəmməd hərəkatını dəstəkləməyə qərar verdi. Nəticədə Sultan Məhəmməd adlandırılan adamın ətrafında böyük qüvvə toplandı. Bu qüvvə Salyanı ələ keçirəndən sonra Şamaxıya doğru hərəkətə başladı. Salyan ətrafında qiyama qalxan qüvvələrə ciddi bir müqavimət göstərilmədiyi kimi, Şamaxı ətrafında da ciddi bir müqavimət formalaşmadı. Çünki Şahruxun vilayət hakimiyyətini öz əlində cəmləşdirə bilməməsi, onun ətrafında olan əmirlərin isə daxili çəkişmələrə qurşanması qiyamçıların sürətlə irəliləməsinə zəmin yaratdı. Şahrux və onun ətrafında olan əmirlər Şamaxını tərk edərək Buğurt qalasına sığındılar. Bunun nəticəsi kimi, qiyamçılar müqavimətə rast gəlmədən Şamaxıya daxil oldular. Lakin Şahruxa qarşı qiyam qaldıran qüvvələr də istər siyasi baxımdan, istər də təşkilati baxımdan yetkin bir qüvvə deyildi. Ona

görə çox tezliklə qiyamçılar daxilində də parçalanma, daxili didişmə özünü göstərməyə başladı (5).

"Əhsənüt-təvarix" əsərində bu hadisə ilə bağlı belə bir məlumat vardır: "Bu il bir qələndər Şirvanda iddia etdi ki, "mən Şeyxşahın oğlu Sultan Məhəmmədəm". O, çoxlu qoşun toplayıb Salyanı ələ keçirdi və oradan Şamaxıya gəldi. Müqavimət qüdrətinə malik olmayan Şahrux fərar edib Biqurd qalasına getdi. Qələndər Şamaxını ələ keçirib neçə gündən sonra səbəbsiz yerə geri qayıdış bayrağını qaldırdı. Elə ki Şahrux Biqurd qalasında qələndərin çıxıb getdiyini eşitdi, onun arxasından yola düşdü. Salyan ətrafında qoşunlar bir-biri ilə qarşılaşdılar. Döyüş və vuruşdan sonra qələndər məğlub olub aradan çıxdı. Şahrux arxasından gedib onu ələ keçirdi. Şeyx Padar çomaq zərbəsi ilə o nifaq əhlinin sərdarını gedər-gəlməzə göndərdi" (6).

"Tarix-i aləmara-yi Abbasi" əsərində isə Şirvanda Şahruxa qarşı qaldırılmış qiyam haqqında daha geniş məlumat mövcuddur: "942-ci ildə (02.07.1535 - 19.06.1536), ali şahlıq taxtına çıxmasından on iki il keçdikdən sonra Sultan Xəlil fani aləmlə vidalaşıb, əbədi dünyaya getdi. Ondan bir nəsil qalmadı. Şirvan əmirləri onun qardaşı oğlu olan uşaq yaşlarındakı Şahrux ibn Sultan Fərrux ibn Şeyxşahı səltənət taxtına oturtdular. Şirvan əmirlərinin özbaşınalığı və başıpozuqluğu nəticəsində o xanədanın dövlət qanunu qüvvədən düşüb, o sülalədə nizam-intizam qalmadı və o diyarda hərc-mərclik peyda oldu. Bu əsnada bir qələndər oğlan iddia etdi ki, mən Şeyxşahın oğlu Sultan Məhəmmədəm. Onun başına çoxlu qoşun yığıldı. [O], Salyanı ələ keçirdi və Şamaxıya gəldi. Şahruxun adamları əmirlərin özbaşınalığına və orduda birliyin olmadığına görə ona qarşı çıxa bilməyib, Şamaxıdan qaçaraq, Biqurd qalasına getdilər. Qələndər oğlan Şirvanşahın paytaxtı Şamaxını tutdu. Qələndərin ətrafındakılar da adsız-sansız, dağınıq, yersiz-yurdsuz adamlar olduğundan və o camaatın arasında ağıllı, işbilən bir adam olmadığından, nadanlıq və tədbirsizlik üzündən Şamaxını qoyub, Salyana tərəf qayıtdılar. Biqurd qalasında olan Şirvan böyükləri onun getməsindən agah olub, Şahrux mirzənin məiyyətində onun ardınca tələsdilər və

Salyan ətrafında ona yetişərək, döyüşə girdilər. Şahruxun adamları qalib gəldi. Qələndər məğlub oldu və şirvanlıların əlinə düşdü. Şeyx Padar onu qətlə yetirdi" (7).

Yalançı Sultan Məhəmmədin qiyamı yatırılsa da, yerli əmirlər heç də bundan nəticə çıxarmadılar. Vəziyyətlərinin möhkəmləndiyini güman edən bir çox əmirlər yenidən əhalini incitməyə, onlara qarşı haqsızlıqlara yol verməyə başladılar. "Bu il dinin pənahı olan şaha [belə bir] xəbər çatdı: "Şirvan əyanları Sultan Fərruxun oğlu Şahruxun iqtidarsızlığından bezmiş və təngə gəlmişlər. Əmirlər onun razılığı olmadan namus pərdəsini cırırlar və onun başsız ordusu nə istəyirsə, götürüb aparır. O diyarda şəriət qaydaları laxlamış və xeyriyyə mərkəzləri ("büqaül-xeyr") rövnəqsiz və məəttəl qalmışlar. Bundan başqa, onların fəaliyyəti nəticəsində işlərin nizamı pozulmuş, camaatın asayişi alt-üst olmuş, cəmiyyət və rifah qanunları düzgün səmtdən və doğru yoldan sapmışdır. Hər kəs öz qolunun gücünə güvənib öz tabeliyindəkilərə cürbəcür sitəmlər və acılar çəkdirir" (8). "Tarix-i aləmara-yi Abbasi"yə görə isə: "Şirvan əmirləri öncəkindən daha artıq ədalətsizliyə başlayıb, müsəlmanların malına və namusuna əl uzadırdılar. Şahrux azyaşlı olduğuna görə [onlara] mane ola bilmirdi. Xalq Şirvan zalımlarının zülmündən cana doyub, zəmanə hökmdarının dərgahına yalvar-yaxar etdi. Qorçubaşı Padar və hərbçilərdən də bir dəstə gəlib, fəryad etdilər" (9).

Yəni elə bir vəziyyət yarandı ki, hətta Şahruxa yaxın olan adamlar da çıxış yolu axtarmağa başladılar. Mövcud olan məlumatlara görə, həm Şeyxşahın xanımı, yəni Şah Təhmasibin bacısı Pərixan xanım, həm də Qorçubaşı Padar bəy bir qrup hərbçi ilə Təbrizə gəldilər, Şah Təhmasiblə görüşərək Şirvanın vəziyyəti haqqında öz mülahizələrini çatdırdılar. Şah Təhmasibdən xahiş olundu ki, Şirvana qoşun göndərsin və oradakı vəziyyətə son qoysun. Mövcud olan bəzi məlumatlara görə, Şirvan hakimi Şahrux həmin günlərdə Osmanlı sarayı ilə də əlaqə saxlamış və Şirvanda Osmanlı nüfuzunun güclənməsinə meylli olduğuna işarə etmişdi (10). Bir tərəfdən bacısının xahişi, digər tərəfdən də Şahruxun Osmanlı sarayı ilə əlaqələr qurması Şah Təhmasibi

Şirvana qoşun çıxarmağa sövq etdi. Osmanlı sarayı ilə gərgin münasibətlərin qaldığı bir zamanda Osmanlı qoşunlarının Şirvana gəlməsi və bu vilayətin Səfəvi nəzarətindən çıxması Şah Təhmasib üçün xoşagəlməz bir hal olardı. Böyük bir vilayətin əldən verilməsi əlverişli mövqelərin itirilməsi ilə bərabər, həm də təhlükəsizlik baxımından Səfəvi dövlətinin maraqlarına uyğun deyildi. Ona görə qərara alındı ki, Şirvanda sülalə hakimiyyətinə son qoyulsun, bu vilayətin nisbi müstəqilliyi ləğv edilsin və Şirvan birbaşa Səfəvi sarayına tabe olan və mərkəzi hakimiyyət tərəfindən idarə olunan vilayətlərdən birinə çevrilsin.

Bu məqsədlə Şah Təhmasibin göstərişi əsasında böyük bir qoşun dəstəsi formalaşdırıldı və bu qoşun dəstəsinə rəhbərlik Əlqas Mirzəyə tapşırıldı. Əlqas Mirzənin Şirvan üzərinə həyata keçirilən yürüşə rəhbər təyin edilməsi də Şah Təhmasibin bu vilayətin idarəçiliyinin daha etibarlı adamlara tapşırılmasının göstəricisi ola bilərdi. Məhz buna görə idi ki, Şah Təhmasib bu işi öz qardaşına həvalə etdi. Əlqas Mirzənin rəhbərliyi altına təcrübəli əmirlər verildi: "...ali fərman verildi ki, Əlqas mirzə, Məntəşa sultan Ustaclu, Sevindik bəy Qorçubaşı, Bədir xan Ustaclu, Yaqub sultan Qacar, Qara Vəli Ərəbgirlü, Məhəmməd bəy Talış, Qarabağ və Muğan ordusu və müzəffər qoşunlardan iyirmi min [nəfər] o zaman Şirvandan gələn və o vilayətin mədaxilindən, məxaricindən tam xəbərdar və agah olan Qorçubaşı Padarın müşayiəti ilə Şirvanın fəthinə yollansınlar. Əmirlər əmrə uyğun olaraq, yola üz tutdular və gəmiləri cəmləşdirib Kür çayından keçdilər" (11).

Amma mənbələrdə olan məlumatlar onu deməyə əsas verir ki, Şirvanın heç də bütün əhalisi Şirvanın nisbi müstəqilliyinin itirilməsinə razı deyildilər. Ona görə də müəyyən qüvvələr Səfəvi qoşunlarına müqavimət göstərmək yolunu tutdular. "Tarix-i aləmara-yi Abbasi"də olan məlumatlar da bunu təsdiq edir: "Cənnətməkan şah o səfalı vilayəti ələ keçirməyi, zalımları, azğınlıq və üsyan edənləri aradan götürməyi şahlıq öhdəsinin vəzifələrindən bilərək, 945-ci ildə (30.05.1538 - 18.05.1539) şahzadə Əlqası Məntəşa sultanla, bir sıra qacar və talış əmirləri ilə və

Qarabağ camaatı ilə birlikdə iyirmi min nəfərlə Qorçubaşı Padara qoşub, o vilayəti almaq üçün göndərdi. Qüvvətli dəstələr gəmi ilə Kür çayından keçib, Şirvana gəldilər. Şirvan camaatı itaətsizlik, üsyan və qiyam edərək, o vilayətin qalalarını bacarıqlı kişilərlə möhkəmlədib, müqavimətə, vuruşa və döyüşə qalxdılar. Qala fəth edən mübarizlər əvvəlcə Sürxab və Kilidi-Gilan [Gəldi- Gələn] qalasını aldılar, ondan sonra Qəbələ qalasını ələ keçirdilər. Buradan Şirvanın ən möhkəm qalası olan Gülüstanın bürcünə cəhd kəməndi ataraq, güclü dəstələrdən birinə onun mühasirəsini həvalə etdilər" (12).

Ola bilsin ki, adları çəkilən qalaların müdafiə imkanları zəif olmaqla onların qarnizonlarının sayı da çox deyildi. Gülüstan qalası ətrafında isə Səfəvi qoşunları daha ciddi müqavimətlə rastlaşmalı oldu və bu müqavimət o dərəcədə güclü oldu ki, həmin qalanı almadan yürüşünü davam etdirmək göstərişi verdi: "Gəldi-gələn [qalasının] yaxınlığında yerləşən Sürxab qalasının ətrafı dəniz kimi coşan və ildırım kimi gurlayan ordunun dayanacaq məkanına çevrildikdə qala adamları müxaliflik etməyə başladılar. Əsgərlər bir həmlədə o qalanı tutdular və qalanın içindəkiləri əsir edib onların xanimanını soyğun və tarac süpürgəsi ilə süpürdülər. Əmirlər Qəbələ qalasına bir dəstə [qoşun] göndərdilər. Qazilər [həmin] qalanı [da] ələ keçirdilər və o qalada olan üç yüz nəfəri tutub əmirlərin yanına gətirdilər. Həmin vaxt ali məqamlı əmirlər Şirvan qalalarının ən möhkəmi olan Gülüstan qalasının fəthinə səy kəməndini atdılar. O diyarın hakimi Nemətulla bəy qalaya sığındı. Şahın əmirləri Gülüstan qalasının ətrafında çadırlarının və alaçıqlarının qübbəsini hündür edib təxminən otuz gün orada qərar tutdular. [Daha sonra] onlar qala ətrafında bir dəstə qoyub Biqurd qalasına üz tutdular. Şirvan padşahı Şahrux qazilərin gəlişindən agah olduqda vəkili Hüseyn bəyi igidlik əlamətli bir qoşunla müharibə meydanına göndərdi və o iki şövkətli güruh Biqurd dərəsinin ortasında bir-birinə yetişdilər" (13).

Biqurd qalası elmi-tarixi ədəbiyyatda Buğurt qalası kimi də xatırlanmaqdadır. Şahrux yaxın əmirləri ilə bu qalaya sığındı-

ğından onun tabeliyində olan qoşunların da əsas hissəsi burada toplaşmışdı. Bu qala kifayət qədər möhkəm qala idi və onun müdafiə imkanları bu qalanın etibarını daha da artırırdı. Şahruxda və onun ətrafındakı əmirlərdə şübhə yox idi ki, Buğurt qalasına sığınmaqla Səfəvi qoşunlarından uzun müddət qoruna biləcəklər. Mənbələrdə bu qalanın müdafiə imkanları belə xarakterizə olunmuşdur: "Ora elə bir qala idi ki, son dərəcə hündür və istehkamlı idi və mavi rəngli asiman kimi əyyamın bəlalarından qorunmuşdu. Dərin xəndəyi əməl meydanı kimi olduqca enli, xəndək ətrafındakı hündür torpağı müdriklərin düşüncələri kimi son dərəcə yüksək idi. ... Aləmi işıqlandıran günəşdən başqa heç bir əcnəbinin narahatçılıq əli o qalanı və diyarı istila edə bilməmişdi. IV Xosrovdan başqa heç kimsənin fəth bayrağının quşu orada qol-qanad açmamışdı" (14). Bu cümlələrin ardınca verilən bir nəzm parçasında bildirilirdi ki, Buğurt qalası elə hündür idi ki, onun divarları üstündən yerə atılan bir daş yerə dəyib onu lərzəyə gətirə bilərdi.

Şirvan qoşunları həm də say baxımından o qədər çox idi ki, Şirvan əmirləri Səfəvi qoşunlarını Buğurt qalasından kənarda da qarşılamağa cəsarət etmişdilər. Mənbə məlumatlarına görə, Şirvan qoşunlarına Şahruxun vəkili Hüseyn bəy rəhbərlik edirdi. Onun rəhbərliyi altında olan qoşun dəstəsi əvvəlcə Buğurt dərəsində Səfəvi qoşunlarının qarşısına çıxdı. Həmin dərədə tərəflər arasında qanlı bir döyüş baş verdi. Hüseyn bəyin ciddi müqavimət göstərmək cəhdi hər iki tərəfdən çoxlu sayda itkilərin olmasına gətirib çıxardı. Bununla belə, göstərilən bütün cəhdlərə baxmayaraq Səfəvi qoşunlarının təzyiqinin qarşısını saxlamaq mümkün olmadı. Böyük döyüş təcrübəsinə malik olmaqdan əlavə Səfəvi qoşunlarının say üstünlüyünün ola bilməsi də Şirvan qoşunlarının geri çəkilməsinə səbəb ola bilərdi. Belə olanda Şirvan əmirləri bütün ümidlərini geri çəkilərək Buğurt qalasına sığınmağa bağladılar. Vəkil Hüseyn bəy qalaya çəkildikdən sonra onun daha da möhkəmləndirilməsi üçün lazımi tədbirləri də həyata keçirməyə başladı. Bu da son nəticədə Buğurt qalasının özünün də mühasirəsinin uzanmasına yol açdı (15).

“Qızılbaş qoşunları Biqurd qalasının böyründə yerləşən Gürci qalasını istla etdilər və şirvanlılar dilavərlərin xofundan [Biqurd] darvazasını bağlamağı unutdular. Qazilər istədilər ki, qalanın içinə girsinlər. Bədir xan onlara mane olub dedi ki, əgər zəfər şüarlı qoşunlar qalaya daxil olsalar, onların mallarını talan edəcəklər. Şirvanlılar fürsəti qənimət bilib darvazaları bağladılar və müzəffər orduya qarşı müqavimət, vuruşma və müdafiə məqamında sabitqədəm oldular. Qızılbaş qoşununun mübarizləri qalanın ətrafını və yan-yörəsini əhatəyə alıb döyüşə başladılar. İçəridən və bayırdan ox və tüfəng [atəşləri] yağış qətrələri kimi aşağı enməyə və mömin adamların duaları kimi yuxarı qalxmağa başladılar. Həmin günlərdə bəd aqibətli Şahrux ilə bir dəstə bədbəxt cahillər şirin candan əl çəkib fədakarlıqla səy göstərirdilər və qılınc tiyəsinin camından ölüm qurtumu içirdilər. Bu minvalla dörd ay ərzində yüksək məqamlı əmirlərlə o azğın tayfa arasında savaş və hərb atəşi alışdı. Günbəgün döyüşdə o camaatın cidd-cəhdi yüksəlirdi və saatbasaat inadkarlıq və üsyan əlamətləri daha çox müşahidə olunurdu” (16).

Buğurt qalasının dörd ay müddətində mühasirədə qalması yalnız bu qalanın müdafiə imkanları ilə bağlı deyildi. Qalaya toplanmış olan Şirvan qoşunları da idarə nümayiş etdirərək qalanın müdafiə etməyə çalışırdılar. Qarşıya qoyulan məqsədə çatmaq üçün Şahrux hətta Şəki hakimi Dərviş Məhəmməd xandan da kömək istədi. Məlumdur ki, Şəki də Səfəvi dövlətinə asılılığı qəbul etmişdi. Görünür, Dərviş Məhəmməd xan Şirvanın mərkəzi hakimiyyətin tabeliyinə gətirilməsindən sonra Səfəvi qoşunlarının zərbəsinin Şəkinin nisbi müstəqilliyinə qarşı istiqamətlənə biləcəyinə şübhə etmirdi və ona görə də Şirvan hakiminin köməyinə yollandı. Səfəvi qoşunlarının burada dayandırılması onların şimala doğru irəliləməsinin də qarşısını ala bilərdi. Şəki hakiminin hansı sayda olan qoşunla Şirvana gəldiyini söyləmək çətindir. Amma görünür ki, bu qoşun dəstəsi elə bir xüsusi say üstünlüyünə malik deyildi. Çünki Əlqas Mirzə rəhbərliyi altında olan qoşunların bir dəstəsini göndərməklə Şəki qoşunlarının qarşısını almağa çalışdı və buna nail də oldu (17).

“O əsnada Şəki hakimi Dərviş Məhəmməd xan dağ qoşununu toplayıb Şahruxun imdadına [yetmək üçün] qala ətrafına gəldi ki, əmirlərin düşərgəsinə gecə basqını etsin. O, həmin iddia ilə ordunun ətrafına gəlib nağara vurdurdu və şeypur çaldırdı. Məhəmməd bəy Şirbəxt oğlu Talış və qorçulardan bəziləri o azğınları dəf etməyə yönəldilər və onları məğlub edib [Dərviş Məhəmməd xanın] əksər adamlarını həyat paltarından üryan etdilər” (18).

Şəki qoşunlarının gəlişi Şirvan hakiminin son ümid yeri idi. Amma bu qoşunlar da qızılbaş döyüşçülərinin zərbəsi altında geri çəkilmək məcburiyyəti qarşısında qalanda Şahruxun Səfəvi sarayı ilə danışıqlara getməkdən başqa bir yolu qalmadı. Mənbə məlumatlarından belə bir qənaətə gəlmək mümkündür ki, istər Şirvan qoşunlarının fəaliyyətinə, istərsə də Şirvan sarayının Şah Təhmasiblə danışıqlara getməsinə Şahruxun vəkili Hüseyn bəy rəhbərlik edirdi. Elə onun təklifi ilə də Səfəvi qoşunlarına müqavimət göstərilməsi dayandırıldı və belə bir təklif irəli sürüldü ki, Şirvan elçiləri Şah Təhmasibin yanına göndərilsin. Şah Təhmasibə çatdırılmalı idi ki, onun Şirvana təşrif gətirməsi ilə Buğurt qalası dərhal təslim ediləcəkdir. Şirvan elçiləri Şah Təhmasiblə Mərənddə görüşə bildilər və Şirvan sarayının təklifi ona çatdırıldı. Şah Təhmasib bu təklifi qəbul etdi və Şirvana yollanmağı məqsədəuyğun saydı: “Dərviş Məhəmməd xanın yardımından ümid kəsən şirvanlılar bu üzrxahlığı izhar etmək üçün dil açıb [dedilər] ki, dinin pənahı olan şah nəfis vücudu ilə buraya gələrsə, qalanı təslim edərik. Əmirlər Şirvan padşahının sözü haqqında ərizə hazırlayıb ali taxtın ətəyinə göndərdilər. Qasid Mərənddə səadətli padşahın ordusuna çatdı və şirvanlılar hər nə demişdilərsə, ərz etdi. Bu səbəbdən ulduzlar kimi həşəmətli padşah Şirvana yollandı və qala ətrafına gəldi. Biqurd dərəsinin tamamı alaçıqlar, bayraqlar, tövlələr, ordu və bargah çadırı ilə doldu. ... Şirvanlılara məlum oldu ki, dinin pənahı olan şah nəfis vücudu ilə qala ətrafına çatmışdır. Onlar o həzrətin tanıdığı bir şəxsi elçi sifəti ilə göndərdilər ki, doğru-düzgün xəbər gətirsin. O şəxs ərşə bənzər bargaha gəlib şirvanlıların sözlərini birbaşa surətdə [şa-

hın] ərzinə yetirdi, nəvaziş görüb geri qayıtdı və nəyi ki görüb eşitmişdi, onlara xəbər verdi. Ertəsi gün Şahrux, Hüseyn bəy, Məhəmməd bəy və qalanın əyan-əşrəfi çoxlu töhfələrlə və hədiyyələrlə asiman dərəcəli astanaya gəldilər, bəndəlik izhar etdilər və baş əydilər" (19).

Güman etmək olar ki, Buğurt qalasını təslim etməyə Şirvan əmirlərin sövq edən yalnız hərbi gücsüzlüyü yox, həm də Şah Təhmasibin lütfünə arxalanaraq Şirvanın nisbi müstəqilliyinin saxlanması ümidi idi. Amma Şah Təhmasib bu ümidə son qoydu. O, Buğurt qalası ətrafına gəldi. Verilən məlumata görə, Şah Təhmasib çox böyük bir qoşun dəstəsi ilə gəlmişdi və Buğurt dərəsi tamamilə Səfəvi qoşunlarının çadırları ilə dolmuşdu. Səfəvi şahının Buğurt qalası ətrafına gəlməsi Şirvan əmirlərinə bir qədər inandırıcı görünmədi. Şahın doğrudan da Buğurt dərəsində olub-olmamasını dəqiqləşdirmək üçün ora adam göndərildi. Həmin adam Buğurt dərəsində oldu, Şah Təhmasibin doğrudan da bura gəlməsinə yəqinlik hasil etdi və sonra həmin xəbəri Şahruxa və Şirvan əmirlərinə çatdırdı. Səhəri gün Şahrux və Şirvan əmirləri Buğurt qalasına yollandılar, Şah Təhmasibin dərgahında oldular, ona itaətini bildirdilər, gətirdikləri hədiyyələrlə birlikdə Buğurt qalasının və bu qalada saxlanılan xəzinənin açarlarını Şah Təhmasibə təhvil verdilər. Təhvil verilən xəzinədə qızıl və zinət əşyalarından başqa, həm də qiymətli bir kitabxana saxlanılırmış. Tanınmış zəka sahibləri tərəfindən yazılmış çoxlu sayda kitablar uzun müddət ərzində Şirvan xəzinəsinə toplanmışdı. Bu kitabxana da təhvil alınaraq Təbrizə göndərildi. Səfəvi şahı və əmirləri Buğurt qalasında gözəlliyi ilə ətrafındakıları heyrətə salan çoxlu sayda gənc xanımlarla rastlaşdılar. Mənbələrdə bu gənc xanımların gözəlliyi xüsusi olaraq vəsf edilmişdir. Şah Təhmasib bu xanımlara qarşı şəriətdən kənar münasibət göstərilməsinə icazə vermədi və həmin gözəl xanımları öz qardaşlarına və əmirlərinə nikah etdirdi (20).

"Tarix-i aləmara-yi Abbasi"də Şah Təhmasibin Buğurt qalası ətrafına gəlməsi və Şirvan əmirləri ilə bağlı verilən qərar belə təsvir edilmişdir: "Dərviş Məhəmməd xan öz adamlarından bir

çoxunu ölümə verərək, heç bir iş görə bilməyib, geri döndü. Şirvanlılar üçün daha heç bir ümid [yeri] və kömək qalmadığından onlar müqavimət göstərməkdən və qalanı müdafiə etməkdən aciz qalaraq xəbər göndərdilər ki, əgər ali rütbəli şah səadət və xoşbəxtliklə təşrif gətirərsə, qalanı şah həzrətlərinə təslim edərik. Əmirlər həqiqəti [şaha] ərz etdilər. Cənnətməkan şah Mərənddən Şirvana tərəf yola düşərək, o vilayətin sahəsini padşahın fələyi bürüyən çətirinin günəşinin nuru ilə işıqlandırdı. Şah qalanın ətəyinə əzəmətlə çatdığına görə o biri gün vəkil Hüseyn bəy böyüklər və əyanlarla [qaladan] çıxdı. Şahrux mirzəni gətirdilər. Qalanın və xəzinələrin açarlarını fələkdən üstün sarayın xadimlərinə verdilər. Gülüstan qalasının kutvalı da bayıra çıxıb, qalanı təslim etdi. Vəkil Hüseyn bəy, Şirvan böyüklərinin əksəriyyəti ilə birlikdə düşmənçilik, ədəbsizlik və üsyan etdiklərinə görə cəzalandılar. Az sonra Şahrux mirzə də yoxluq diyarına getdi. O vilayətin hakimliyi şahzadə Əlqas mirzəyə verildi. [Şah Təhmasib] Azərbaycana tərəf üz çevirdi” (21).

Bu sətirlərdən də göründüyü kimi, Şirvan şahı və əmirləri Şah Təhmasib tərəfindən ciddi şəkildə cəzalandırıldı. Əvvəlcə Şahrux da daxil olmaqla onlar həbsə alındılar. Bir neçə gündən sonra isə Şahruxun vəkili Hüseyn bəy Lələ və digər Şirvan əmirləri qətlə yetirildilər. Şahrux isə Təbrizə göndərildi. O da həyatını cəzadan qurtara bilmədi. Məlumatlara görə, 1539-cu ildə o, Təbrizdə qətlə yetirildi. Buğurt qalası təhvil alınandan sonra şah Təhmasib onun dağıdılmasına göstəriş verdi. Bu qalanın alınmasından bir neçə gün sonra Gülüstan qalasının kutvalı Nemətulla bəy də hakimi olduğu qalanın Şah Təhmasibə təslim edildiyini bildirdi. Bununla Şirvan Şahı Təhmasibə itaət etmiş oldu. Bundan sonra şirvanşahlar xanədanının devrildiyi elan edildi və Şirvan bir vilayət şəklində Səfəvi dövlətinə birləşdirildi. Bu vilayətin idarəçiliyi Əlqas Mirzəyə tapşırıldı və Şirvanda yeni bir nizam yaradıldı. Başlıca olaraq bu vilayətin nüfuzlu əmirləri aradan qaldırıldı ki, onlar hakimiyyət üçün təhlükə yaratmasınlar (22).

“Əhsənüt-təvarix” əsərində Səfəvi qoşunlarının Şirvan yürüşünün nəticələri belə dəyərləndirilmişdir: “Cümə günü, cəmadi-

yüləvvəl [ayının] 3-də (27.09.1538) Gülüstan qalasının kutvalı Nemətulla bəy aşağıya enib qalanı təslim etdi. Cəmadiyüləvvəl [ayının] 18-də (12.10.1538) Şirvan ordusundan Hüseyn bəy qətlə yetirildi və Şahruxu həbs edib özləri ilə Təbrizə gətirdilər. Elə ki Şirvan məmləkəti Tanrının köməyi ilə ələ keçirildi, bəlağət şüarlı münşilər həmin zaman aləm sakinlərinin hökmdarından zühura gəlmiş böyük işlərin surətini gövhər yağdıran qələmin ucu ilə vərəq səhifələrinə yazıb Azərbaycan, İraq, Fars, Kirman, Xorasan, Xuzistan vilayətlərinə və Ümman dənizi sahillərinə göndərdilər. Dinin pənahı olan şah qılınc suyu ilə Şirvan qoşunlarının üsyan tozanağını yatırdı və onların tüğyanının şərini iti qılıncının nazil olması ilə məhv etdi. Hansı yerdə ki dikbaşlıq vardı, yox olub getdi. …O diyarın idarəçiliyi Əlqas mirzəyə verildi. Qələbə ayətli bayraqlar səltənət taxtının məkanına yollandılar. [Dünyanın insanla] məskunlaşmış ¼ hissəsinin padşahının [qədəmindən qalxan] tozdan Təbriz əhalisinin ümid gözünə sürmə gəldi. Həmin diyar o həzrətin gəlişinin parlaqlığından İram bağının və cənnət bağçasının tayına çevrildi” (23).

Şirvanın bir vilayət şəklində mərkəzi dövlətə birləşdirilməsi Şirvan daxilində bir neçə il sabitliyin bərqərar olmasına yol açdı. Bununla belə, sonrakı illərdə Şirvan daxilində mərkəzə hakimiyyətə qarşı itaətsizliklər və qiyamlar da yer almağa başladı. Mənbələrdə Şirvanın Əlqas Mirzənin hakimiyyəti altına verilməsindən sonra bu vilayət daxilində baş verən itaətsizlik halı Əmir Qazı xan Təkəlinin adı ilə bağlanılır. Əmir Qazı xan Təkəli qızılbaş əmirlərindən biri idi və Sultan Süleyman Azərbaycan üzərinə qoşun çəkəndə o, Səfəvi sarayına xəyanət edərək Osmanlı tərəfinə keçdi. Amma Əmir Qazi xanın Osmanlı sarayı ilə əməkdaşlığı uzun sürmədi və təkəlilərdən təşkil olunmuş 6 min nəfərlik qoşun dəstəsi ilə yenidən Şah Təhmasibə itaət göstərmək qərarına gəldi. Əmir Qazı xan geri qayıdaraq Sürlük yaylağında Şah Təhmasibin dərgahında ona yenidən öz itaətini bildirdi. Şah Təhmasib də onun üzrxahlığını qəbul etdi, onun günahından keçdi və hətta Şirvanın Salyan, Mahmudabad və Bakı mahallarını da ona bağışladı. Bununla belə, Əmir Qazı xan şahın lütfünü

layiqincə dəyərləndirmədi və 1540-cı ildə Şirvan daxilində mərkəzi hakimiyyətə qarşı qiyam qaldırdı. Bu qiyamın qaldırılmasına o, müəyyən sayda insanları da cəlb edə bilmişdi. Əmir Qazı xan hətta həmin il Bakı qalasını ələ keçirməyə nail oldu. Bu qiyamın təfərrüatı haqqında geniş məlumat mövcud deyil. Məlum olan odur ki, 1543-cü ildə Əmir Qazı xan qardaşları ilə birlikdə Şirvanda Əlqas Mirzə tərəfindən qətlə yetirildi (24). Bəlli deyil ki, həmin vaxta qədər Bakı qalası Əmir Qazı xanın əlində idi, ya yox.

Sonrakı dövrdə Şirvanda qeyri-sabitliyin baş verməsi Əlqas Mirzənin adı ilə balıdır. "Əlqas mirzə doqquz il Şirvanın mütləq hakimi oldu, padşaha layiq zinət və cəvahiratın bolluğu, dəbdəbə və ordunun çoxluğu ucbatından yoldan çıxıb, öz vəlinemətinə qarşı üsyan etdi və [yuxarıda] yazıldığı kimi, əbədi köməksiz qalmağa düçar oldu. Cənnətməkan şah o vilayəti öz möhtərəm oğlu İsmayıl mirzəyə verib, Gökcə sultan Qacarı onun xidmətində qoydu" (25).

Məlumdur ki, Əlqas Mirzə Səfəvi-Osmanlı münasibətlərinin gərgin olduğu bir vaxtda mərkəzi hakimiyyətə qarşı qiyam qaldırdı. Əlqas Mirzə tək Şirvana deyil, bütünlükdə Səfəvi şahlığına iddia irəli sürürdü. Onun bu qiyamı sözsüz ki, istər Səfəvi dövlətinin qüvvələrinin parçalanmasına, istərsə də Şirvan daxilində hərbi-siyasi vəziyyətin xeyli mürəkkəbləşməsinə yol açdı. Bununla belə, Şah Təhmasibin qətiyyəti və iradəsi nəticəsində Əlqas Mirzənin qiyamını yatırmaq mümkün oldu. Yəni Səfəvi dövləti o dərəcədə güclü idi ki, kənardan dəstəklənən Əlqas Mirzə qiyamı Səfəvi dövlətinin mövcudluğunu, Şah Təhmasibin hakimiyyətini sarsıda bilmədi. Şirvanda yerli qüvvələrin itaətsizlik hallarının baş verməsi ehtimalından əlavə, bu vilayətə həm də xarici müdaxilələrin risqi qalmaqda idi. Bu təhdidlərin daha etibarlı şəkildə qarşısının alınması və Şirvanın daxili sabitliyinə nail olunması üçün Şah Təhmasib oğlu İsmayıl Mirzəni bu vilayətin hakimi təyin etdi.

Şirvanda mərkəzi hakimiyyətə qarşı baş vermiş itaətsizliklərdən biri də Mirzə Bürhanın adı ilə bağlıdır. Bürhanəli (Bürhanəddin) ibn Sultan Xəlil ibn Şeyxşah Şirvanşahlar nəslindən idi.

Başqa sözlə, o, Şirvanın tanınmış hakimlərindən olan Şeyxşahın nəvəsi idi və Şirvanşahlar sülaləsinin hakimiyyətinə son qoyulanda Mirzə Bürhan Dağıstana çəkilmiş və bir müddət orada olan qohumlarının yanında həyat sürmüşdü. O, Şirvanşahların hakimiyyətinə son qoyulması ilə sözsüz barışmaq istəmirdi və bu hakimiyyətin geri qaytarılması arzusu ilə yaşayırdı. Bu məqsədlə o, Dağıstanda ətrafına müəyyən qüvvə də toplaya bilmişdi. Mirzə Bürhan Şirvan hakimiliyini ələ keçirmək üçün ilk dəfə hələ Əlqas Mirzənin vilayət hakimi olduğu zaman, 1544-cü ildə bu vilayət üzərinə qoşun çəkdi. Mövcud olan məlumatlara görə, Mirzə Bürhan (Bürhanəli) bir neçə dəfə Əlqas Mirzənin qoşun dəstəsi ilə döyüşə girdi. Lakin Əlqas Mirzənin qoşun dəstəsinə üstün gəlmək mümkün olmadı. Belə olanda Mirzə Bürhan geri çəkilmək məcburiyyətində qaldı. Bununla belə o yenə də Şirvana hakim olmaq niyyətindən əl çəkmədi və istəklərini həyata keçirməyə kömək almaq üçün Sultan Süleyman sarayına pənah apardı. Osmanlı sultanı Mirzə Bürhanın ona pənah gətirməsindən çox sevindi. Çünki Mirzə Bürhandan istifadə edilməsi ilə Səfəvi dövlətinə arzu edilən zərbəni vurmaq mümkün ola bilərdi. Şirvanın nəzarət altına alınması Səfəvi dövləti üçün ciddi təhlükə yaradılmasına yol aça bilərdi. Ona görə də Mirzə Bürhana Osmanlı sarayında xüsusi qayğı göstərildi və məqamı yetişəndə Şirvanın ələ keçirilməsi üçün ona böyük bir qoşun dəstəsi verildi. Mirzə Bürhan da həmin qoşun dəstəsi ilə birlikdə Şirvana doğru hərəkətə başladı. Lakin onun bu cəhdi bir nəticə vermədi. Mirzə Bürhan Şirvana yaxınlaşanda bu vilayətdə böyük sayda Səfəvi qoşunlarının olması haqqında məlumat aldı. Həmin məlumatı alandan sonra Mirzə Bürhan anladı ki, sərəncamında olan qoşun dəstəsi ilə Şirvanı ələ keçirmək mümkün deyil. Belə olanda o, Osmanlı qoşun dəstəsini geriyə yola saldı, özü isə yenidən Dağıstanda məskunlaşdı və Şirvan üzərinə uğurlu yürüş üçün münasib anı gözləməyə başladı. Belə bir an bir də 1548-ci ildə Əlqas Mirzənin təhriki ilə Osmanlı qoşunlarının Azərbaycan üzərinə hücumunun başlanması ilə yetişdi. Məlumdur ki, Osmanlı qoşunlarının əvvəlki yürüşündə olduğu kimi, bu yürüş zamanı da Şah Təhmasib

fəal müdafiə strategiyası seçdi və Osmanlı qoşunlarının yorub taqətdən salmaq üçün səltənətin içərilərinə doğru geri çəkilməyə başladı. Görünür, Mirzə Bürhanda belə bir güman yaranıbmış ki, Şah Təhmasibin Osmanlı qoşunları qarşısında geri çəkildiyi bir vaxtda Şirvana asanlıqla yiyələnmək olar. Ona görə də Mirzə Bürhan ətrafındakı qüvvə ilə yenidən Dağıstandan hərəkətə gəlib Sultan Süleymanın qoşun dəstəsi ilə birləşdi. Osmanlı sultanı bir daha ona qoşun dəstəsi verdi ki, Şirvanı ələ keçirsin və bu vilayəti Səfəvi dövlətindən qoparsın. Mirzə Bürhan da bu qoşun dəstəsini götürərək Şirvana doğru istiqamət götürdü (26).

Bu zaman Şirvan hakimi Şah Təhmasibin oğlu İsmayıl Mirzə idi. O, lələsi Gökçə sultanla vilayət daxilindəki qoşunları toplayaraq Mirzə Bürhana müqavimət göstərmək üçün yola düşdü və elə ilk döyüşdə onun dəstəsinə çox ciddi bir zərbə vurdu: " Şirvan sultanlarının nəvələrindən olan Bürhan hədsizlik və tüğyan cibindən üsyan başını çıxarıb, ayağını doğru yoldan kənara qoyaraq Qaytaqdan Şirvana gəldi. Elə ki bu xəbər aləmin və aləm sakinlərinin şahzadəsi, qalibiyyət sahibi İsmayıl mirzəyə çatdı, çoxlu ordu ilə o yaramazı dəf etməyə yollandı. Filan mövqeyində Bürhan çoxlu adamlarla cəngəllik kənarında çəpərlər tərtib edib, qarşıdurmaya və vuruşmaya hazırlaşaraq inad bayrağını qaldırdı. Bir dəstə qazi qabaqdangəlmişlik edib, ali bayraqların gəlişindən öncə həmin yağı, tüğyançı və azğın camaatla məşğul olaraq dava-qırğın atəşini alovlandırdılar və alışdırdılar. O əsnada yüksək şanlı şahzadə böyük bir qoşunla hərb meydanına çatdı. Qazilərin kos və şeypurunun hay-küyündən və şirvanlıların vəlvələsindən, fəryadından və iniltisindən dövr edən fələk tasına cingilti düşdü. Axırda "De ki, haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa məhkumdur!" [*Qurani-Kərim, "İsra" surəsi, 81-ci ayə*] hökmü ilə o həzrətə müqavimət göstərməyə tab gətirmədilər. …Bürhan bildi ki, xoşbəxtlik kələfinin ucunu əldən verib və ruzigar tərsinə dönüb. O, idbar üzünü fərar vadisinə çevirdi, ilan kimi çalan və atəş kimi yandıran oxun zərərindən balıq kimi yerə girdi, döyüşkən şahzadənin xofundan cüyür kimi arxasını çevirib aradan çıxdı, o həzrətin bayrağındakı aslanın qorxusundan tülkü kimi

dava-qırığından qaçdı, hərb atəşinin və döyüş girdabının dəhşətindən sel kimi səhraya tələsdi. Elə iti qaçırdı ki, səba küləyi yeyin atla onun yel ayaqlı atının tozuna belə çatmazdı. Enişdə sudan, yoxuşda atəşdən daha cəld idi. Sanki onun külək ayaqlı, tozanaq xasiyyətli kəhəri od xilqətinə tutuşub və onun balıq kimi gedən atı çay içində qaçsa da tərə qərq olar. Qazilər onları təqib edib onun adamlarından bir çoxlarını qətlə yetirdilər və başlarını bədənlərindən ayırıb [İsmayıl] mirzənin atının ayağı altına atdılar. O əsnada xəbər gəldi ki, Sultan Süleyman Əlqas mirzə ilə birlikdə Təbrizə hərəkət edir. [İsmayıl] mirzə həzrətləri dinin pənahı olan şahın ordusuna yollandı. Mirzənin getməsindən sonra Bürhan Şirvanı boş gördü və Kuhistandan (Dağıstandan) Şamaxıya gəlib o diyarı ələ keçirdi" (27).

Məlum olduğu kimi, Sultan Süleyman növbəti dəfə Azərbaycan üzərinə qoşun çəkəndə Şah Təhmasib səltənətin bütün potensialını bu hücumun qarşısını almağa səfərbər etdi. Doğrudur, o, Osmanlı qoşunları ilə açıq döyüşə girməkdən çəkindi. Lakin Şah Təhmasib sadəcə olaraq səltənətin içərilərinə doğru geriləmək taktikası seçmədi, həm də fəal müdafiə döyüşlərinin aparılmasına səy göstərdi. Belə bir məsuliyyətli zamanda İsmayıl Mirzə də ətrafında olan qoşun dəstəsi ilə Şirvanı tərk edib atasına qoşuldu. Yəni onun rəhbərliyi altında Şirvanda olan qoşun dəstəsi Şirvanı tərk etdi və Şirvan müdafiəsiz qaldı. Bürhan Mirzə də bundan dərhal istifadə etdi və yenidən Dağıstandan Şirvana gələrək bu vilayəti ələ keçirdi. Bundan sonra Bürhan Mirzə özünü Şirvanın hakimi elan etdi. Başqa sözlə, Şirvanın Səfəvi dövlətindən qoparıldığı və müstəqilləşdiyi elan edildi. Osmanlı qoşunlarının Azərbaycan üzərinə yürüşü uğursuzluqla başa çatdıqdan sonra Şah Təhmasib Şirvanda baş verən qiyamın yatırılması haqqında da konkret qərarlar qəbul etdi. Amma o, İsmayıl Mirzənin yenidən Şirvan hakimi kimi vilayətə qayıtmasını lazım bilmədi. Tanınmış qızılbaş əmirlərindən biri olan Abdulla xan Ustaclı Şirvan hakimi təyin edildi və Şirvanda vəziyyətin sabitləşdirilməsi də ona tapşırıldı. Abdulla xan 1549-cu ildə rəhbərliyi altında olan qoşun dəstəsi ilə Şirvana yollandı. Mövcud məlu-

matlara görə, Şamaxıya doğru istiqamət götürən Abdulla xan qoşun dəstəsi ilə Kür çayını adlayanda Bürhan Mirzə məlum olmayan xəstəlikdən dünyasını dəyişdi. Şirvanda öz mövqelərini itirmək istəməyən bəzi qüvvələr Şirvanşahlar nəslindən olan Mehrab adlı birisini Şirvan hakimi elan etdilər və müəyyən qüvvələri də onun ətrafında toplamağa çalışdılar. Mehrab da bundan cəsarətlənərək ətrafına toplanmış qoşun dəstəsi ilə Kür çayı sahilində yerləşən və Şirvanın sərhədlərindən kənarda olan Sığnax adlı məntəqəyə hücum çəkdi. Məlumata görə Abdulla xanın da Mehrabla ilk qarşılaşması elə Sığnax ətrafında baş verdi. Bu qarşılaşmada Abdulla xan uğur qazandı və bununla Mehrabın Şirvandakı hakimliyinə də son qoyuldu (28).

"Tarix-i aləmara-yi Abbasi" əsərində yazıldığına görə, "Sultan Süleymanın geri dönməsindən və Əlqasın ələ keçməsindən sonra, 956-cı (1549) ildə o vilayətin hakimliyi Süleyman şanlı xaqanın bacısı oğlu və kürəkəni olan, Xan Məhəmməd nəslinə mənsub Qaraxan oğlu Abdulla xan Ustacluya verildi. Şirvanlılar Bürhan mirzəyə bir neçə gün itaət etdiklərinə görə Abdulla xandan qorxuya düşərək, bir yerdə sığnaq etdilər, Bürhanın qohumlarından Mehrab adlı bir oğlanı səltənətə yüksəltdilər və müxaliflik zaviyəsində qərar tutdular. Abdulla xan onların üzərinə getdi. Şirvanlılar müqavimət göstərməyə tab gətirməyib məğlubiyyətə düçar oldular. Mehrab mirzə qaçıb aradan çıxdı. Onun əksər adamları qətlə yetirildi. Qılıncdan qurtulan şirvanlılar öz bədbəxtlikləri ucbatından yenə də fitnə-fəsada başladılar və Mehrabın qohumu Qurbanəli mirzəni özlərinə hakim edərək, Xəzər dənizindəki adalardan birinə pənah aparıb sığınacaq tapdılar. Xan neçə dəfə məktub göndərib [onları] çağırsa da, gəlməyə razı olmayıb, üsyan və tüğyan etməkdə davam etdilər. Abdulla xan onların üzərinə getdi. Qızılbaş qaziləri atlarını suya sürüb, o fitnəkar dəstənin üstünə gedərək, hərb odunu alovlandırdılar. O qiyamçı dəstənin əksəriyyəti qəzəb və cəza qılıncı ilə öldürüldü. Qazilər bol qənimət ələ keçirib, geri döndülər. Abdulla xan Şirvanda mütləq hakim olub, o tərəflərdə məşhur oldu və bir neçə il rahat və xoşbəxt [günlər] keçirdi" (29).

Qurbanəli Mirzənin ortaya atdığı qiyam hadisəsindən sonra Şirvanda uzunmüddətli bir sabitlik bərqərar oldu. Həm də bu hadisədən sonra Şirvanda Səfəvilər hakimiyyəti də kifayət qədər möhkəmləndi. Amma mənbələrdə mövcud olan məlumatlara görə, Şah Təhmasibin hakimiyyəti dövründə sonradan bir neçə dəfə də Şirvanda qiyam qaldırılmasına və hakimiyyətin ələ keçirilməsinə cəhd göstərildi. Onların arasında ən böyüyü və miqyaslısı 1554-cü ildə Osmanlı qoşunlarının Azərbaycan üzərinə son hücumu dövründə oldu. Əslində, bu qiyamın hərəkətverici qüvvəsi də elə Osmanlı sarayı idi. Bu saraya pənah aparmış Şirvanşahlar nəslinin nümayəndələrindən biri olan Qasım Mirzə adlı birisinə Osmanlı qoşun dəstəsi verildi və o, bu qoşun dəstəsi ilə birlikdə Şimali Qafqazdan adlamaqla Dağıstana və oradan da Şirvana istiqamət götürdü. Qasım Mirzəyə verilmiş qoşun dəstəsinin tərkibində yeniçəri dəstəsi də var idi ki, bu da Qasım Mirzənin gücünü artırırdı. Qasım Mirzənin Osmanlı qoşun dəstəsi ilə Şirvana yaxınlaşması bu vilayətdəki bəzi separatçı qüvvələri də hərəkətə gətirdi və onlar da Qasım Mirzəyə qoşuldular. Nəticədə Qasım Mirzənin ətrafı bir qədər də genişləndi. Elə bunun nəticəsi idi ki, Şirvan hakimi Abdulla xanın qoşun dəstəsi ilə Qasım Mirzənin qoşun dəstəsi arasında Quba yaxınlığındakı Təngə adlanan yerdə baş verən döyüşdə müxalif qüvvələr üstün gəldilər. Qasım Mirzənin Təngənin əlverişli təbii mövqelərini də ələ keçirməsi onun döyüş imkanlarını daha da artırdı. Şirvan qoşunlarının geri çəkilməsi ilə Qasım Mirzə Buğurt qalasını ələ keçirdi. Tərəflər arasındakı növbəti döyüş Gülüstan qalası ətrafında baş verdi. Burada Abdulla xan iki min nəfərlik atlı dəstəsi ilə müxaliflərin qarşısına çıxdı. Yenə tərəflər arasında çox qanlı bir döyüş baş verdi. Mövcud məlumata görə, Qasım Mirzə bu döyüşdə çoxlu itki ilə qarşılaşmalı oldu və Şirvan qoşunlarının əzmkarlığı qarşısında məğlubiyyətə düçar olaraq Dağıstan qaçmaq məcburiyyəti qarşısında qaldı (30).

"961-ci (1554) ildə Sultan Süleyman dördüncü dəfə Azərbaycana qoşun çəkdikdə keçmiş valilərin nəslindən olan Qasım adlı birini Kəfə yolu ilə Şirvana göndərdi. Adı çəkilən Qasım Dər-

bənddən keçib o vilayətə qədəm qoyduğu zaman şirvanlılar bir daha üsyana qalxdılar və Abdulla xandan üz çevirib, Qasımın başına toplaşdılar. Abdulla xan müzəffər qızılbaş qoşunları ilə onu dəf etməyə tələsdi. Möhkəm bir yer olan Təngədə iki tərəf üz-üzə gəldi. Abdulla xan o yerin istehkamlı olduğuna görə orada bir iş görə bilməyib, Şamaxıya qayıtdı. Qasım Biqurd qalasına gəlib, orada döyüş və toqquşmaya hazırlaşdı. [O], on iki min rumi, şirvanlı və yeniçəri ilə Abdulla xanın üstünə gəldi. Xanla birlikdə olan qızılbaş ağsaqqalları müzəffər qoşunun azlığından və azğın şirvanlıların sayca çoxluğundan narahat olaraq, döyüşə girməkdən çəkinirdilər. [Amma] Abdulla xan ilahi qüdrətin yardımına və padşahın səadətinin gücünə arxalanaraq, o vaxt ixtiyarında olan iki min nəfərlə birlikdə düşmənlə müharibəyə girdi. Gülüstan qalası yanında toqquşdular; aralarında döyüş və vuruşma alovu şiddətləndi. Müzəffər qoşunun döyüşçüləri və sınaqdan çıxmış bahadırlar o yolunu azmış düşmən dəstəsinin üzərinə cəsarətli hücumlar etdilər. Günün axırınadək döyüş və toqquşma davam etdi. Axşam vaxtı o fəlakətə məruz qalmışların bəxt ulduzu fanilik və zaval məğribində qürub etdi. Düşmən ordusu məğlubiyyətə uğradı. Qazilərin yəməni qılıncları başları [kəsib] səpələməyə başladı. O əcəli çatmışlardan bir çox adam fanilik dəryasına qərq oldular. O, başıpozuqların kəlləsindən minarələr tikildi, qılıncdan qurtulanlar isə Təbərsərana tərəf qaçdılar. Bu müharibədə ya öldürülmüş və yaxud fəlakət və unudulma diyarına tələsmiş Qasımın əhvalı bu səhifələri yazana naməlum qalmışdır. Amma Qazı Əhməd Qəffari «Tarix-i cahanara»da yazmışdır ki, məğlubiyyətdən sonra o, mərəkədən [sağ] çıxdı, [lakin] onun halının axırı məlum olmadı. Abdulla xan o diyarda öncəkindən daha uca əzəmət və iqtidar bayrağını qaldıraraq, üsyançıları iti qılıncla tərbiyələndirdi, rəiyyətləri və təbəələri ədalət və mərhəmət qanadı altına aldı və məmləkətin vəziyyətini sabitləşdirdi. Abdulla xan şirvanlıların, Təbərsəran və Dağıstan xalqının ürəyində elə qorxu və dəhşət yaratmışdı ki, ona qarşı çıxmaq fikri böyük və kiçiklərdən heç birinin xəyalına [belə] gəlmirdi. O, on altı il həmin vilayətdə müstəqil hakimiyyət sürdük-

dən sonra 974-cü ildə (19.07.1566 - 07.07.1567) əbədi dünyaya getdi. O vilayətin hakimliyi Araz xan Rumluya verildi. Cənnətməkan şahın həyatının sonunadək o vilayətin hakimliyi onun əlində idi" (31).

Qasım Mirzənin qiyamından sonra Şirvanda mərkəzi hakimiyyətə qarşı başqa bir ciddi qiyamın baş verməsi haqqında mənbələrdə məlumat yoxdur. Bir tərəfdən Osmanlı Türkiyəsi ilə Amasiya anlaşmasının əldə edilməsindən sonra Osmanlı sarayının Şirvana müdaxiləsi dayandırıldı. Digər tərəfdən də Şah Təhmasib öz hakimiyyətini kifayət qədər möhkəmləndirə bildi. Şübhə yox idi ki, Şirvanda mərkəzi hakimiyyətə qarşı başlana biləcək hər hansı bir hərəkat dövlətin gücü ilə yatırıla biləcəkdi.

## 2.Şəkinin mərkəzi hakimiyyətə tabe etdirilməsi

Şah Təhmasibin Azərbaycan hüdudlarında mərkəzi hakimiyyətə tabe etdirdiyi digər bir ərazi Şəki vilayəti idi. Şəki vilayəti hələ Şah İsmayılın dövründə Səfəvi hakimiyyətini tanımışdı və bu vilayətin hakimi Həsən bəy Şah İsmayıl ilə işgüzar münasibətlərə malik idi. Məlum idi ki, Şah İsmayıl həyatının son günlərində Şirvan və Şəkiyə yollanaraq orada ovla məşğul olmuş, lakin xəstəliyi üzündən bu məşğuliyyətini vaxtından tez dayandıraraq geri qayıtmalı olmuşdu. Həsən bəy Şah İsmayılın vəfatından sonra da Şəki hakimi olaraq qalmaqda idi. Amma gürcü qoşunlarının Şəki üzərinə hücumu zamanı o, iştirak etdiyi döyüşdə şəhid oldu. Həsən bəy istər Şah İsmayılın hakimiyyəti illərində, istərsə də Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi sarayı ilə xoş münasibətlər yaradılmasında maraqlı idi. Amma bu siyasət onun oğlu Dərviş Məhəmməd xanın hakimliyi dövründə davam etmədi (32).

Mövcud olan bəzi məlumatlara görə, Dərviş Məhəmməd xan da bir vaxtlar Səfəvi sarayı ilə işgüzar münasibətlərə malik idi. Məsələn, 1540 (1541)-cı ildə Şah Təhmasib Səhənd yaylağında olanda Şirvan hakimi olan Əlqas Mirzə ilə Şəki hakimi Dərviş Məhəmməd xan onun yanına yollandılar (33). Bu görüşün təfər-

rüatı haqqında mənbələrdə məlumat verilməmişdir. Mümkündür ki, sonradan Əlqas Mirzənin Səfəvi sarayına itaətsizliyi və Osmanlı sarayının bölgəyə müdaxiləsi Dərviş Məhəmməd xanı da Şah Təhmasibə qarşı itaətsizlik yolunu tutmağa sövq etmişdi.

Dərviş Məhəmməd xanın Şəki hakimliyini ələ keçirməsi ilə onun Səfəvi sarayı ilə necə münasibətlər formalaşdırılması haqqında "Tarix-i aləmara-yi Abbasi" əsərində belə bir məlumat vardır: "Cənnətməkan şahın fəth etdiyi məmləkətlərdən biri də Şəki vilayətidir. Onun iki tərəfi Şirvana, bir tərəfi Gürcüstana, o biri tərəfi isə Dağıstana və Elburz dağına bitişir. Ata-babadan oranın hakimi Həsən bəy idi. [Onlar] Şirvanşahlar nəslinin bir qoludurlar. Süleyman şanlı xaqan zamanında [Həsən bəy] Gürcüstan valilərinin istilası səbəbindən izzətli astanaya pənah gətirib, o həzrətdən (Şah İsmayıldan) yardım və iltifat gördü. Süleyman şanlı xaqanın vəfatından sonra, elə həmin ildə Gürcüstanın Kaxet hakimi Ləvənd xan Gürcü Şəkiyə qoşun çəkdi, onunla Şəki valisi arasında müharibə oldu. Həsən bəy gürcülərlə müharibədə şəhid oldu. Şəkinin böyükləri onun oğlu Dərviş Məhəmmədi özlərinə hakim qoydular. O, atasının əksinə olaraq, qüdrətli dövlətin başçıları ilə (Səfəvilərlə) düşmənçiliyə başladı və ondan dəfələrlə pis davranış müşahidə olundu. Bundan əvvəlki əhvalatda deyildiyi kimi, cənnətməkan şah Şirvanı almaq üçün qoşun göndərəndə, Dərviş Məhəmməd xan qızılbaş ordusuna gecə basqını etdi. Buna görə də 958-ci (1551) ildə səadətli qoşunların cah-calallı və müzəffər bayraqları o vilayəti almaq üçün o tərəfə hərəkət etdi" (34).

Yuxarıda qeyd edildiyi kimi, hətta Bəhram Mirzənin rəhbərliyi altında olan Səfəvi qoşun dəstəsi Şirvan qiyamının yatırılmasına göndəriləndə Dərviş Məhəmməd xan Şirvanın o zamankı hakimi Şahruxun köməyinə gəlmişdi. Amma məlumdur ki, Dərviş Məhəmməd xan Səfəvi qoşunlarının zərbəsindən çoxlu itki verdi və itaətsizlik yolunu tutmuş Şahruxa ümidində olduğu köməyi verə bilmədi. Dərviş Məhəmməd xan bununla həm də Səfəvi sarayına qarşı çox ciddi mövqe tutduğunu nümayiş etdirdi. Şah Təhmasib də bu asiliyin qarşısının alınması üçün Şəki üzərinə qoşun göndərməyi qərara aldı. 1551-ci ildə Səfəvi qoşunları

Şəkiyə doğru irəliləməyə başladılar. Şəki hakiminin itaətsizliyinin aradan qaldırılmasına verdiyi əhəmiyyətin nəticəsi idi ki, bu qoşun dəstəsinə Şah Təhmasib özü rəhbərlik edirdi. Şah Təhmasib Şəkiyə doğru yürüşü zamanı Kür çayını adlayıb Ərəş yaxınlığında düşərgə saldı.

"Şah həzrətlərinin yürüş xəbəri o ətrafdakı hakimlərin təmkin və asayişini təməldən sarsıtdı. Ləvənd xan Gürcü o həzrətə xidmətkarlıq kəmərini belinə bağlayıb, ümidlə aləmin pənahı olan dərgaha getdi, Ərəş şəhərində səltənət taxtının ayağına gəlib, şahın nəvazişləri ilə başucalığı qazandı. Dərviş Məhəmməd xanın adına cəlbedici və rəğbətli şah hökmü göndərildi və o, xidmətə, itaətə dəvət olundu. O, öz bəxtsizliyi üzündən əbədi səadət səbəbi olan bu dövlətdən üz çevirib, qalaların möhkəmliyinə güvənərək, öz üzərinə müxaliflik qalxanı çəkdi. Şəki sərdarlarının bəzisi Kiş qalasını möhkəmlədib, oraya sığındılar. Dərviş Məhəmməd xan özü Gələsən-Görəsən qalasına gedib, qalanı müdafiə etməyə hazırlaşdı. Ora elə bir qala idi ki, son dərəcə yüksək və möhkəm olduğundan heç bir calal sahibi oranı ələ keçirə bilməmişdi. Bir dəstə də Elburz dağının ətəyində möhkəm bir yeri sığınacaq («sığnaq») edib, vuruşa və döyüşə hazır durdular. Günəşlə müqayisədə bir zərrə olan o dəstənin müxalifət və itaətsizliyindən ali nəsəbli şahın qiyamət atəşinə bənzər qəzəb odu alovlandı və o, müzəffər məiyyət döyüşçülərindən Sevindik bəy Qorçubaşını, Bədr xanı və Şahqulu sultan Ustaclunu müzəffər əsgərlərdən bir dəstə ilə Kiş qalasını almağa göndərdi. Abdulla xan Ustaclu və Ləvənd xan Gürcünü isə Gələsən-Görəsən qalasını almağa göndərdilər. Şahqulu xəlifə Möhürdarı da güclü bir dəstə ilə Sığnağa qarşı getməyə təyin etdilər" (35).

Bu məlumatdan belə bir qənaət hasil olur ki, Şəki hakimi həm Kiş qalasında, həm də Gələsən-Görəsən qalasında Səfəvi qoşunlarına qarşı müqavimət göstərməyə hazırlaşırdı. Ola bilsin ki, bu qalaların möhkəmliyi və yüksək müdafiə imkanlarına malik olması Dərviş Məhəmməd xana müqavimət göstərmək cəsarəti verdi. Amma göründüyü kimi, Kaxet çarı Levan bölgəyə gəlmiş Səfəvi qoşunlarının qüdrətindən qorxaraq Şah Təhmasibin yanına

gəlib ona yenidən öz itaətini bildirdi. Şah Təhmasib Şəki üzərinə hücuma başlamazdan əvvəl Dərviş Məhəmməd xana təklif göndərdi və onu itaətə dəvət etdi. Bu təklif qəbul olunmadı və belə olanda Şah Təhmasib döyüş əmri verdi. "Əhsənüt-təvarix"in verdiyi məlumata görə, Ərəş yaxınlığında düşərgə salınan zaman Səfəvi qoşun dəstəsi Şəki hakiminin qarovul dəstəsi ilə qarşılaşmalı olmuş və bu qarovul dəstəsi qızılbaş döyüşçülərinin zərbəsinə davam gətirməyərək geri çəkilməli olmuşdu. Adı çəkilən mənbədə Şah Təhmasibin rəhbərliyi altında Səfəvi qoşunlarının Şəki üzərinə hücumu haqqında bəzi digər fərqli məlumatlar da vardır: "Şəki hakimi Dərviş Məhəmməd xandan dəfələrlə müxaliflik zahir olduğundan, dinin pənahı olan şah çoxlu ordu ilə Şəkiyə yollanıb Ərəş şəhərində cah-calalla dayandı. O əsnada Gürcüstan hakimi Ləvənd bəy itaət və xidmətkarlıq kəmərini belinə bağlayıb fələk şövkətli orduya qoşuldu. Fəth ayətli bayraqlar Şəkiyə tərəf hərəkətə gəldi. Dərviş Məhəmməd xan səadət mahiyyətli bayraqları qarşılamaq mərasimini yerinə yetirməkdən boyun qaçırdı. Dinin pənahı olan şah ona hüsn-rəğbət və hörmət göstərəcəyini vəd edib çağırdı. Lakin o, bədbəxtlik səbəbindən cəhalət üzünü zəlalət çölünə çevirdi və idbar arxasını qalanın möhkəmliyinə söykədi. Buna görə də [şahın] cahanı yandıran qəzəb atəşi alovlandı. O, Bədir xanla Şahqulu sultan Əfşarı mənqəlay [təyin] etdi. Onlar Dərviş Məhəmməd xanın qaravullarına çatdılar. Onları məğlub edib, Şəki hakiminin işlərinin əsas icraçısı olan Əmir Yusif adlı birisini əsir tutaraq aləmin pənahı olan dərgaha yolladılar. Qiyamət əlamətli əsgərlərin hərəkətindən dənizin və qurunun ətrafına zəlzələ, o bədbəxtlərin məmləkətinə vəlvələ düşdü. Dərviş Məhəmməd xan cahanın pənahı olan padşahın gəlişindən agah olduqda, Cövşən ağanın qardaşı Mahmud bəyi bəd etiqadlı adamlardan ibarət bir dəstə ilə Kiş qalasını mühafizə etməyə qoydu. Özü isə bəzi cahillərlə Gələsən-Görəsən qalasına pənah apardı. Sürətli düşünən müdrikin fikir kəməndi [bu qalanın] fələk misallı bürcünün küngürəsinə çata bilməzdi və kamal sahiblərinin yüksək uçan tərlanı onun uca qəsrinin başında mənzil edə bilməzdi" (36).

Dərviş Məhəmməd xanın müqavimət ocaqlarının biri də dağlar arasında qurulmuşdu və ona hesablanmışdı ki, ərazinin müdafiə imkanlarından istifadə etməklə Səfəvi qoşunlarına müqavimət göstərilsin. Bu istiqamətə göndərilən qızılbaş dəstəsinə Şahqulu xəlifə Möhürdar və digər əmirlər rəhbərlik edirdilər. Mənbə məlumatlarına görə, Şəki hakiminin mövqeləri üzərinə hücum Şah Təhmasibin hücuma qoşulması ilə başladı. Onun rəhbərliyi altında Şirvan hakimi Abdulla xan Ustaclının və Kaxet çarı Levanın qoşun dəstələri Gələsən-Görəsən qalasını mühasirəyə aldılar. Dərviş Məhəmməd xan bu qalada özünə sığınacaq tapmışdı və bu qala Kiş qalasına nisbətən daha möhkəm qala sayılırdı. Mənbə məlumatlarından aydın olur ki, Şəki qoşunları ciddi təchizata malik idilər və onlar Səfəvi qoşunlarına qarşı odlu silahdan da istifadə edirdilər. Məsələn bildirilir ki, dağlar arasında yaradılmış sığnaqda yerləşən Şəki müxalifləri qızılbaş döyüşçülərini tüfəng atəşləri ilə qarşıladılar. Hətta qızılbaş döyüşçülərinin müvəqqəti olaraq geri çəkildiyi də bildirilir. Bununla belə qızılbaş döyüşçüləri nəyə qadir olduqlarını nümayiş etdirə bildilər. Şəki silahlıları qızılbaş döyüşçülərinin iradəsi qarşısında duruş gətirə bilməyib qaçmağa üz tutdular və yalnız qalalara sığınmaqla canlarını xilas edə bildilər. Mövcud məlumata görə Kiş qalasında yerləşmiş Şəki qiyamçıları da hərbi təşəbbüsü ələ almağa çalışdılar və münasib fürsət tapıb qala kənarında qızılbaş döyüşçüləri üzərinə hücum etdilər. Amma istəklərinə nail ola bilmədilər. Onlar da qızılbaş döyüşçülərinin fədakarlıqları qarşısında diz çökməli oldular və itki verərək geri qaçdılar. Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsərində Şəki qiyamçılarına qarşı aparılan döyüşlərin gedişi barəsində nisbətən daha geniş məlumat verilmişdir: "Onlar (üsyançılar) həmçinin Elburz dağının arasında bir sığınacaq ("sığnaq") hazırlamışdılar. Dinin pənahı olan şah [ata] minib qalanı fəth etmək niyyəti ilə yola düşdü. Sevindik bəy Qorçubaşı, Bədir xan Ustaclu və Şahqulu sultan Ustaclu Kiş qalasını əhatəyə aldılar. Şahqulu xəlifə Möhürdar və b. yüksək dərəcəli əmirlər sığnağın yanında mövqe tutdular. Abdulla xan və Gürcüstan hakimi Ləvənd bəy Gələsən-görəsən

qalasının yanında məskən saldılar. Şahqulu xəlifə Möhürdar Zülqədər bir dəstə qələbə əlamətli dilavərlə sığnağa həmlə etdi. Müxaliflər onları tüfəng [atəşinə] tutub geri oturtdular. Amma onları (üsyançıları) tamam xof bürümüşdü. Abdulla xan və Ləvənd bəy qələbə şüarlı qoşunun bir dəstəsi ilə Gələsən-Görəsən qalasına hücum etdilər. Onlar (üsyançılar) da müdafiə olunmağa başladılar. Lakin qalibiyyətli qoşunların həmləsini müşahidə etdikdə acizlik ucbatından qaçmağa üz qoydular. Fələk nişanlı əsgərlər onların ardınca dəstə-dəstə dağa gəldilər. Elə ki fəth ayətli müzəffər bayraqlar gəlib çataraq öz kölgələrini o Xeybərə bənzər qalaların üzərinə saldılar, dilavərlər irəli gedib "sibə" hazırladılar, badlic, firəngi top və s. qala döyüşü ləvazimatını tərtib etməklə məşğul oldular. Topçular top atmağa başladılar. Peşəsi şücaət olanlar fədakarlıq göstərdilər. Aşağıdan və yuxarıdan top və tüfəng atıldı. Müxaliflərin bir dəstəsi [Kiş qalasından] çıxaraq əmirlərin mülazimlərindən bir neçə nəfəri qətlə yetirdilər və tam təcili şəkildə geri dönüb qalaya tələsdilər. Qazilər topu yuxarı çəkib aparmışdılar və "Üzərinə odda bişmiş (bir-birinə bitişik) bərk daşlar yağdırdıq" [ayəsinin] zərurətinə uyğun olaraq, o asimana bənzər qalanın başında dağ görkəmli qazanlar və top daşları (mərmiləri) zahir olurdu. İyirmi gün sonra firəngi topun və badlicin daşının zərbəsindən [qalanın] bürcü və divarı dağıldı. Həsən bəy Pinəkoğlu təxminən min tüfəngçi ilə qaladan hündür bir yamaca çıxıb müxalifləri tüfəng [atəşinə] tutdu. Hansı yerdən ki bir barmaq qədərincə bürcdən bir şey baş qaldırsaydı, yüz tüfəng gülləsi bir-birinin ardınca ona dəyirdi. Bir tərəfdən də bürcün altından lağım atırdılar. Bürcə od vurmazdan öncə bürc aşdı və qala əhlinin başına dəhşət və heyrət tüstüsü vurdu. Mahmud bəy zəiflik və biçarəlik meydanında peşmançılıq topu ilə oynamağa başladı, məcburiyyət üzündən təvazökarlıq etməyə gəldi, üzrxahlığı və ahu-zarı nicat vəsiləsi və xilas səbəbi bildi. ... Qala kutvalı Mahmud bəy qaladan çıxıb büsatı öpmək səadəti ilə baş ucalığı tapdı və qala qapılarının açarlarını dinin pənahı olan şahın vəkillərinə təslim etdi. ... O həzrət son dərəcə hüsn-rəğbətlə onun günahından keçdi. Heç bir xoşbəxtin iqtidar qartalı heç bir zaman

bu qalanı zəbt etmək havası ilə pərvaza gəlməsə də, qüdrətli dövlətin gücü ilə o adlı-sanlı qala qısa zaman ərzində zor və güc yolu ilə ələ keçirildi. Ali mənşəli padşahın göstərişinə əsasən, zəfər şüarlı ordu o qalanın bürcünü və divarını yerlə yeksan etdi. Dinin pənahı olan şah [ata] minib səadətli üzünü sığnaq tərəfə çevirdi. O həzrətin qoşununun heybətindən müxaliflərin zəhri suya düşdü. Sığnaq adamları Kiş qalasının fəthindən xəbərdar olduqda dəstə-dəstə (çox-çox) aləmin pənahı olan dərgaha gəldilər, acizlik və üzrxahlıq üzünü torpağa qoydular. Dərviş Məhəmməd xan bu halı gördükdə iztiraba düşdü. Dəhşət və qorxusunun çoxluğu ucbatından bir gecə qaladan çıxdı. … O, heyrətinin çoxluğu üzündən bilmirdi ki haraya getsin. Abdulla xanla Ləvənd bəyin ordusunun ətrafından keçdiyi əsnada Çərəndab sultan Şamlunun kiçik mülazimi olan Kosa Pirqulu onu öldürüb başını səltənət taxtının ətəyinə gətirdi. Qaladan onunla birlikdə fərar etmiş dörd yüz nəfərdən iki yüz əlli nəfər qətlə yetirildi. Dinin pənahı olan şah bütün Şəki vilayətini ələ keçirdi. [Şahın] ali adının və ləqəbinin şərəfinə [orada] sikkə vuruldu və xütbə oxundu. ... O diyarın idarəçiliyi Toyqun bəy Qacara həvalə edildi. O zaman Kiş qalasının kutvalı Mahmud bəy yersiz vahiməyə düşüb hökmdarın ordusundan fərar etdi” (37).

Şəkidə itaətsizlik bayrağını qaldırmış Dərviş Məhəmmədin həyatının son anları “Tarix-i aləmara-yi Abbasi” əsərində isə belə təsvir edilmişdir: “Dərviş Məhəmməd xan gördüyü işdən heyifsilənib peşman olaraq, bir gecə Gələsən-Görəsən qalasından çıxıb, son dərəcə çaşqınlıq və narahatlıqla özünü belə bir qanlı təhlükədən qurtarmaq üçün yol axtarırdı. Bədbəxtlikdən, fələkət rəhbərinin yol göstərməsi ilə özünün bəxtiqara qoşunlarından dörd yüz nəfərlə birgə [onun] yolu Abdulla xan və Ləvənd xan Gürcünün ordusu ətrafına düşdü. Cəsarətli qazilər onun qaçmasından xəbərdar olub, ardınca hərəkətə keçdilər. [Onlar] az bir məsafə qət etdikdən sonra o dəstəyə rast gəldilər. O camaat səmərəsizcəsinə döyüşə atıldı. Onların əksəriyyəti qazilərin iti qılıncı və qantökən xəncəri ilə qətl edildi. Dərviş Məhəmməd xan, Çərəndab sultan Şamlunun Kosa Pirqulu adlı mülazimi ilə

əlbəyaxa oldu. Gözəl davranışlı, bəyənilmiş xasiyyətli padşahın səadətinin gücü ilə Pirqulu ona qalib gəldi, başını bədənindən ayırdı, ali taxtın ətəyinə gətirərək, o həzrətin xoşbəxt atının ayağına atdı və mükafatlandırıldı" (38).

Yuxarıdakı məlumatlardan da görünür ki, Şah Təhmasib Şəki vilayətinin təbii-coğrafi şəraiti haqqında yetərli məlumata malik imiş. Ona görə də Şəki ərazisində yerləşən möhkəm qalaların alınması üçün onun tərəfindən ciddi hazırlıq görülmüşdü. O cümlədən top və badliclərdən geniş istifadə edilirdi. Bu silahlardan istifadə edilməsi yuxarıdakı məlumatlarda da bir neçə yerdə xüsusi olaraq qabardılmışdır. Mənbə müəllifləri ona da işarə edirdilər ki, toplar (firəngi) Avropadan gətirilmiş toplar idi. Məlumatlarda Şah Təhmasib qoşunlarında tüfənglərin də kifayət qədər olduğunu görmək mümkündür. Məhz buna görə idi ki, Həsən bəy Pinəkoğlu bir min nəfərlik tüfəngçi ilə Kiş qalasını atəşə tuta bilmişdi. Sözsüz ki, Səfəvi qoşunlarındakı tüfəngçilər yalnız bunlardan ibarət deyildi. Bundan əlavə, mühəndis işlərinin görülməsi üçün də lazımi hazırlıq aparılmış və qoşun dəstəsinə lağımçılar da əlavə olunmuşdu. Heç şübhəsiz ki, Şah Təhmasib həm də mövcud şəraitə uyğun olan fəal taktikanı tətbiq etməyə nail olmuşdu. Bütün bunlar isə öz növbəsində Şah Təhmasib qısa zaman ərzində Şəkidə yerləşən çox möhkəm qalaları almağa nail ola bilmişdi.

"Xülasüt-təvarix" əsərinin müəllifi yazırdı ki, Şah Təhmasib də şəxsən Kiş qalasının alınması üçün aparılan döyüşlərə qatıldı. Bildirilir ki, bu qala 20 gün ərzində mühasirədə saxlanıldı. Digər mənbələrdə olduğu kimi bu mənbədə də bildirilir ki, qalanın şah bürcünün altından lağım atılandan və bu bürc uçulandan sonra qala kutvalı (komendantı) Mahmud bəy təslim olmaq məcburiyyətində qaldı və o, Şah Təhmasibin yanına gələrək ondan aman istədi. Adı çəkilən mənbədə o da bildirilir ki, Kiş qalası süqut edəndən sonra Şah Təhmasib Şəki qiyamçılarının dağlar arasında qərarlaşdıqları sığnağa üz tutdu. Yuxarıdakı məlumatlardan bəllidir ki, həmin sığnağdakı qiyamçılara qarşı qızılbaş əmiri Şahqulu xəlifə Möhürdarın rəhbərliyi altında olan dəstə mövqe

tutmuşdu. "Xülasüt-təvarix"ə görə Şah Təhmasibin həmin mövqeyə gəlməsi orada Səfəvi qüvvələrini daha da gücləndirdi və qiyamçılar şahın özünün ora gəlməsindən qorxuya düşərək müqaviməti dayandırmalı oldular. Yalnız bundan sonra Şah Təhmasib bütün qoşunları Gələsən-Görəsən qalasına doğru istiqamətləndirdi və bu qala ətrafında həlledici hücuma başladı. Adı çəkilən mənbədə o da bildirilir ki, Səfəvi qoşunlarının hücum qətiyyətindən Dərviş Məhəmməd xan dəhşətə gəlib başını itirdi və bir gün qaladan çıxıb hara getmək istədiyini bilmədən irəlilədiyi halda qızılbaş döyüşçülərinin girinə keçdi (39) və qətlə yetirildi. Bununla Şəki hakimləri sülaləsinə son qoyuldu və bu vilayət də mərkəzi hakimiyyət tərəfindən idarə olunan bir ərazi vahidinə çevrildi.

### 3. Gürcüstanın fəth edilməsi

Gürcüstanın Səfəvi hakimiyyəti altına gətirilməsi cəhdləri hələ Şah İsmayılın (İsmayıl Mirzənin) Səfəvi dövlətini elan etməsindən əvvəl başlamışdı. 1500-cü ildə Şirvan istiqamətində planlaşdırılan hərbi yürüşü Şah İsmayıl Gürcüstan qalalarının ələ keçirilməsindən başladı. Çünki Gürcüstan da Şirvanla birlikdə Qafqaz dağ silsilələri ilə Şimali Qafqazdan ayrılmaqla vahid bir məkana daxil idi. Gürcüstanın fəth edilməsi Şirvan daxil olmaqla yaradılacaq dövlətin təhlükəsizliyinin təmin edilməsi baxımından strateji əhəmiyyət kəsb edirdi. Ona görə idi ki, Səfəvi dövlətinin mövcudluğu dövründə Gürcüstanın nəzarət altında olması hər zaman diqqət mərkəzində olmuşdu. Osmanlı dövlətini öz sərhədlərini genişləndirməsi ilə Gürcüstana olan diqqət daha da artdı. Çünki Gürcüstanın Osmanlı idarəçiliyi altına düşə bilməsi Səfəvi dövlətinin maraqlarına heç də cavab vermirdi.

Qızılbaş qoşunlarının Gürcüstan üzərinə yürüşü 1500-cü ilin payızının əvvəlinə təsadüf edir. İsmayıl Mirzə (Şah İsmayıl) və onun rəhbərliyi altında olan qızılbaş qoşun dəstəsi Pasin adlı məntəqədəki düşərgədə olarkən Xadim bəy Xüləfanın rəhbərliyi altında olan bir dəstə Gürcüstan istiqamətinə göndərildi. Mən-

bələrdə Gürcüstan üzərinə yürüş cihad yürüşü kimi dəyərləndirilmişdir. Amma yürüşün nəticəsi göstərdi ki, İsmayıl Mirzənin hələ Gürcüstanda möhkəmlənmək niyyəti yoxdur. Çünki həmin yürüşün gedişində kafir kimi qəbul edilən xeyli sayda gürcü qətlə yetiriləndən və xeyli də qənimət ələ keçiriləndən sonra dəstə geri qayıtdı (40).

Şah Təhmasibin hakimiyyəti dövründə mövcud olan daxili çəkişmələr və ixtilaflar üzündən Gürcüstan bir neçə çarlığa bölünmüşdü və bu çarlıqlar müstəqil idilər. Həmin çarlıqlar bunlar idi: Kaxet, Kartli, Mesxi, İmeretiya və Minqrel (41). Bu çarlıqların özlərinin qoşunları var idi və həmin qoşunlar müəyyən vaxtlarda Şirvan və Şəki üçün də təhlükələr yaradırdılar.

Şah İsmayılın həyatının sonlarına yaxın Gürcüstana olan diqqət daha da artdı. Çünki gürcü çarları öz aralarında apardıqları mübarizədə Səfəvi və Osmanlı dövlətlərinin dəstəyinə arxalanmağa çalışırdılar. Osmanlı dəstəyini qazanmış gürcü çarının hakimiyyət başına gəlməsi və öz mövqelərini möhkəmləndirməsi Səfəvi sarayını da ona pənah gətirmiş gürcü çarlarına hərbi dəstək verməyə və Gürcüstan ərazisinə qoşun dəstələri göndərməyə sövq edirdi.

Şirvan bütünlüklə mərkəzi hakimiyyətə tabe etdirildikdən sonra Şah Təhmasibin Gürcüstanla bağlı siyasətində də fəallaşmasını görmək mümkündür. Onun Gürcüstana olan siyasəti mənbələrdə kafirlərə qarşı cihad kimi qələmə verilmişdir. Mənbə məlumatlarından belə bir qənaət hasil olur ki, xristian gürcülərin üzərinə hücum edilməsi, onların müsəlmanlaşdırılması və yaşadıqları ərazilərdə məscidlərin qurulması savab bir iş kimi qəbul edilirdi. Guya Şah Təhmasib də savab qazanılması üçün belə bir addımı atırdı. Məsələn "Xülasüt-təvarix" əsərində bildirilir ki, dinin pənahı olan Şah Təhmasib 1541-ci ildə islamın yayılması və islam peyğəmbərinin dininin gücləndirilməsi üçün Gürcüstana tərəf istiqamət götürdü (42).

"Əhsənüt-təvarix" əsərində də Şah Təhmasibin Gürcüstan üzərinə hərbi yürüşünün səbəbi haqqında oxşar şərhi görmək mümkündür: "Bu il dinin pənahı olan şah islamın qələbəsi və

Rəsulun (Məhəmməd peyğəmbərin) – ona salam olsun – dininin qüvvətlənməsi üçün imansız gürcüləri darmadağın və ram etmək məqsədi ilə şikar edə-edə Bərgüşata yollandı. Əmirlər, dövlət ərkanı və məmləkət sərdarları hər diyarın əsgərləri ilə zəfər şüarlı orduya qoşuldular. Ondan sonra kama yetmiş hökmdar bahadırların bir dəstəsi ilə Gürcüstana tərəf sürətlə yürüdü" (43).

Sözsüz ki, islamın yayılmasını Şah Təhmasib savab kimi qəbul edə bilərdi. Amma Gürcüstan üzərinə yürüşün yalnız savab əldə edilməsi ilə məhdudlaşdırılması yəqin ki doğru olmazdı. Sərhədlərin genişlənməsi siyasi-iqtisadi imkanlardan başqa, həm də təhlükəsizlik əhəmiyyəti kəsb edirdi. Digər tərəfdən, Gürcüstana olan Osmanlı marağı da Şah Təhmasibi bu məsələdə fəallaşmağa sövq edirdi.

Mənbə məlumatlarından aydın olur ki, Şah Təhmasib gürcü çarlarını duyuq salmamaq üçün Şirvana ova getməsi görüntüsü yaratdı və qoşunlarla Şirvana yollandı. O da mümkündür ki, Şah Təhmasib bir neçə gün də elə Şirvan ərazisində qalmışdı. Sonra isə o, təcrübəli döyüşçülərdən təşkil olunmuş qoşun dəstəsi ilə Tiflis üzərinə sürətli hücum təşkil etdi. "Tarix-i aləmara-yi Abbasi" əsərində həmin hücumun təfərrüatı belə verilmişdir: "947-ci il aylarında (08.05.1540 - 26.04.1541) ədalətli təbiətə malik əşrəfin qəlbində dini müharibə və cihad etmək niyyəti qərarlaşdı. O, zahirən əyləncə, gəzinti və ova çıxmaq məqsədi ilə Qarabağa tərəf hərəkət etdi. Oradan isə sınaqdan çıxmış cəngavərlərdən bir dəstə ilə Gürcüstana tərəf yürüş edib, yolunu azmışların qara ürəklərindən daha da qaranlıq olan bir gecədə Tiflis şəhərinə basqın etdi. Kafirliyin o qaranlıq mərkəzində qətl və qarət atəşi yandırıldı. Onların kişiləri qılıncın yemi oldu, arvad-uşaqları isə müzəffər qazilərin əlində əsir və dustaq oldular. Luarsab tərəfindən Tiflis hakimi olan Gülbad Gürcü bir dəstə gürcü ilə qalaya qaçmışdı. İslamın heybət və əzəmətindən onu dəhşət və qorxu bürüdü. O, aman istəyi ilə qaladan çıxdı və islamı [qəbul etmək] səadətinə qovuşdu. Gürcü əmirlərindən bəzisi müzəffər əsgərlərin qorxusundan son dərəcə uca və yüksək, olduqca qüdrətli və möhkəm qala olan Bertis [qalasına] sığındılar.

İslam ordusunun döyüşçüləri fələk məqamlı və fəza ehtişamlı padşahın fərmanına görə, o əzəmətli qalanı dairəvari şəkildə araya aldılar. O fitnəkar dəstə hədsiz qorxuya düşüb, qalanı təslim etməkdən başqa bir çarə tapmadı. Müzəffər qazilər o məkanda sakin olan kafirlərin hamısını ələ keçirib, bəxti yar olan hər bir kəsə Allahın yol göstərən işarəsi ilə xeyirli kəlmeyi-şəhadəti dedirdib buraxırdılar. Başqa kafirlər isə cəhənnəm zaviyəsinə göndərildilər. Luarsab o azğınların başqa bir qismi ilə özünü Bumədkur adlı yüksəkliyə çəkdi. Bu, hündürlükdə Elburz dağı ilə bərabərlik iddiasında olan bir dağdır. Onun zirvəsinə çıxmağı yalnız xəyal və təsəvvür etmək olar. Mücahid qazi padşah son dərəcə təntənə və cah-calalla o azğın camaatın başçısını ələ keçirmək üçün çalışma tərlanını uçuşa buraxdı. Səadətli əsgərlər o dağların zirvələrini kəklik kimi ötüb, güclə və zorla Əlvənd [dağına] bənzər o zirvəyə dırmaşıb, o fitnəkar dəstəni ələ keçirdilər. Əxlaqsız kafirlərin çoxu o dağın dar keçidlərində öldürüldü, qılıncdan qurtulanlar isə fəlakət çölündə avara oldular. Luarsab oradan qaçaraq, özünü çətin [keçidli] dağlara və sıx ağaclı meşələrə saldı və döyüş meşəsi aslanlarının pəncəsindən xilas oldu. Hər halda, o cəzalandırıldığına görə şahın müzəffər bayraqları Tiflisə tərəf hərəkət edərək, o hüdudun sahəsini üsyankar kafirlərin murdar vücudundan təmizləyib, uğurla geri döndülər" (44).

Bu hücumun da bir xüsusiyyəti onda idi ki, Gürcüstana göndərilən qoşun dəstəsi sayca elə də böyük olmasa da, ona Şah Təhmasib özü rəhbərlik edirdi və döyüşlərin təşkilatçısı da o idi. Bu hücumun gedişində də Şah Təhmasib kifayət qədər təşəbbüskarlıq və qətiyyət göstərdi, gürcü qüvvələri ərazinin üstün şəraitindən istifadə etməyə çalışsalar da, Şah Təhmasib onların bütün cəhdlərinin qarşısını aldı, hündür dağ zirvələrində mövqe tutmuş gürcü döyüşçülərinə güclü zərbə endirildi. "Əhsənüt-təvarix" müəllifi də qızılbaş döyüşçülərinin dağ şəraitində mübarizlik göstərməsini xüsusi olaraq vəsf edirdi: "Fələk əlamətli ordu möhkəm yer və mətin mövqe olan o dağı zor və güc yolu ilə ələ keçirdi. Kafirlərin əxlaqsızlarından ibarət çoxsaylı bir dəstəni dağın dar keçidlərində və sığınacaqlarında qətlə yetirdilər və o

məlunların sabit bünövrəsini atəş həmləsinin küləyi ilə lərzəyə gətirdilər. O ümidsizlərin qılıncdan qurtulanları pərakəndə çəyirtkələr kimi çölə qaçdılar. Ali məqamlı şah pis etiqadlı kafirlərə qarşı cihad niyyəti ilə Kür çayı kənarına getdi. O diyarın hakimi olan Luarsab Gürcü fərar edib, özünü möhkəm dağlara və ağacla dolu meşələrə salaraq qazilərin əlindən xilas oldu. O zaman zəfər mahiyyətli bayraqlar səadət və iqbal ilə geri qayıdıb cah-calalla Təbrizə təşrif gətirdilər"(45).

Səfəvi qoşunlarının Gürcüstan üzərinə növbəti hücumu 1546-cı ilə təsadüf edir. Həmin il Şirvan hakimi olan Əlqas Mirzə mərkəzi hakimiyyətə qarşı itaətsizlik göstərmişdi. Sözsüz ki, onun bu itaətsizliyi Şah Təhmasibi ciddi şəkildə narahat etdi və o bu itaətsizliyin qarşısını almaq üçün qoşun dəstəsi ilə Şamaxıya yollanmaq qərarına gəldi. Qoşun dəstəsinin Şamaxı istiqamətinə hərəkətə başlaması ərəfəsində məlum olduğu kimi, Əlqas Mirzə anası ilə oğlunu üzrxahlıq etmək üçün Şah Təhmasibin yanına göndərdi. Bununla Əlqas Mirzə göstərdiyi itaətsizliyə görə peşman olduğunu və bir də bu yola düşməyəcəyini Şah Təhmasibə çatdırdı. Şah Təhmasib onun günahından keçdi. Lakin o, Şirvana yürüş üçün hazırlanmış qoşun dəstəsini buraxmadı və həmin dəstəni Gürcüstan üzərinə yeni yürüşə istiqamətləndirdi. Mövcud məlumata görə, Şah Təhmasib rəhbərliyi altında olan qoşun dəstəsi ilə Şurageldəki düşərgədən hərəkət edərək Aqşəhrə (Axalkalaki) gəldi. Burada növbəti düşərgə salındı. Bəzi gürcü hakimləri, o cümlədən Kaxetin Zəgəm və Girem hakimi Ləvənd xan və camaat arasında Bəgrat adı ilə məşhur olan Başı-açıq hakimi Məlik Baqrat qiymətli hədiyyələrlə Şah Təhmasibin yanına gəldilər və öz itaətlərini bildirdilər. Həmin hakimlər həm də Səfəvi qoşunlarının yürüşündə iştirak etdilər və bununla hakimi olduqları əraziləri də qoşunların zərbəsindən mühafizə edə bildilər. Gürcüstan üzərinə yürüş qış aylarına təsadüf edirdi və hava şəraitinin mürəkkəbliyi qoşunların fəaliyyətinə də ağır təsir göstərirdi. Belə bir mürəkkəb şərait olmasına baxmayaraq, mənbələrin şəhadətinə görə qızılbaş döyüşçüləri onlara tapşırılan vəzifələri yerinə yetirməyə müvəffəq oldular. Bununla həm də Səfəvi dövlətinə qarşı

laqeydlik nümayiş etdirən gürcü çarlarına da güclü zərbə vurulmuş oldu. "O zaman qışın soyuğu və şaxtanın şiddəti o dərəcədə idi ki Kür çayının suyu donub, bərklikdə qranitlə bərabərlik iddiasındaydı. Gecə-gündüz yağan qarın çoxluğundan Gürcüstanın dağı və çölü baxanların gözündə eyni cür görünürdü. Bu halda islam qoşunları kafirlərin və azğınların üzərinə basqın etdilər. İmansız gürcülərin məskən və yurdlarına çatdıqda qazilərin yəməni qılıncları baş kəsməyə başlayıb, o ölkənin torpağını kafirlərin və keşişlərin qanına boyadılar və o pis məzhəblilərin evini qəzəb odunda yandırdılar. Kinli qoşunun əlinə bol qənimət düşdü. [Onlar] çoxlu qənimət ələ keçirərək, zəfər və qələbə ilə o səadətli yürüşdən qayıtdılar və Bəndiyə gəldilər. Yol əsnasında Başı-açıq məliki getmək icazəsi alaraq, qiymətli xələt alıb nəvazişlər görərək, öz ölkəsinə getdi. Amma Ləvənd xan kama yetmiş əşrəfin xidmətində bir neçə xoş gün keçirdi. Nəhayət, Gəncə şəhərində onun səmimilik və köləlik nəqdi yenidən mübarək ürək sikkəxanasında qəbul edilərək, qızılla tikilmiş paltarlar, ərəb atları, daş-qaşla bəzədilmiş çalğı alətləri, başqa qiymətli xələtlər və çoxlu hədiyyələr alaraq, iftixar və başucalığı ilə öz vilayətinə getdi. Yaxşısını Allah bilər" (46).

"Əhsənüt-təvarix" müəllifi Həsən bəy Rumlu Şah Təhmasibin Gürcüstan üzərinə bu yürüşünün iştirakçısı idi. O öz əsərində bu yürüşlə bağlı təəssüratlarını belə tamamlamışdı: "O zaman bu sətirlərin müəllifi, Əmir sultan Rumlunun nəvəsi Həsən bir dəstə rumlu və çepni qorçuları ilə imansız gavurlardan ibarət bir dəstəyə düçar oldu. Bu həqir (Həsən bəy Rumlu) Şahqulu adlı çepni qorçusu ilə birgə həmlə etdik. Onları pərən-pərən salıb bir qismini yaraladıq və öldürdük. Neçə əsir tutub geri qayıtdıq. Bizə yoldaş olan qazilər mükəmməl dərəcədə "igid" olduqları üçün bir addım belə irəli atmadılar. Dinin pənahı olan şah Aqşəhrdən köç edib Tebediyə yollandı. Yol əsnasında Zəkəm və Girem hakimi Ləvənd bəy və Gürcüstan hakimi Başı-açıq (Məlik Baqrat), sultanların pənahı olan dərgaha yetdilər və şahanə nəvazişlə şərəfləndirildilər. Başı-açıq xələt geyib öz ölkəsinə döndü. Ləvənd bəy neçə gün səadətli padşahın xidmətində qaldı və hökmdar

məclisinin dövlətindən və səadətindən nəsibini aldı. Dinin pənahı olan şah dəyərli hədiyyələr, bol ənamlar, yorğa atlar və şahanə xələtlər [bağışlamaqla] onu əzizlədi. Daha sonra o, rüxsət alıb öz diyarına yollandı" (47).

Şah Təhmasib Gürcüstan üzərinə həyata keçirdiyi yürüşlər zamanı dinin yayılması istiqamətində müəyyən işlər görməklə bərabər, yerli hakimlərin ona itaətinə də nail oldu. Yəni gürcü çarlıqları Şah Təhmasib tərəfindən mərkəzləşdirilmiş dövlətin inzibati-ərazi vahidinə çevrilmədi və Səfəvi sarayına itaəti qəbul edən hakimlərin nisbi müstəqilliyi saxlanıldı. Lakin bir tərəfdən daxili çəkişmələr, bir tərəfdən də Osmanlı sarayının burada möhkəmlənmək cəhdi Gürcüstan daxilində sabitliyin bərqərar olmasına müəyyən problemlər yaradırdı. Şah Təhmasibin Gürcüstan üzərinə 1551-ci ildə baş vermiş növbəti yürüşü də əslində bu amillərlə bağlı idi. Belə ki, Şah Təhmasib Şəki qiyamının yatırılması üçün o vilayətə yollandığı günlərdə Mesxi hakimi Keyxosrov yerli hakimlərin təzyiqinə və təcavüzünə məruz qalmışdı. O da Şah Təhmasibin bölgədə olmasından istifadə edərək ondan hərbi yardım istədi. Şah Təhmasiblə Keyxosrov arasında yaxşı münasibətlər olduğu üçün Səfəvi şahı da ona kömək göstərməyə razı oldu. Çünki Keyxosrov Şah Təhmasibin hakimiyyətini tanıyırdı və davamlı şəkildə ona vergi verməyi öz üzərinə götürmüşdü. Digər tərəfdən isə elə həmin vaxtlarda Osmanlı sərkərdələrindən biri olan İsgəndər paşa Gürcüstan ərazisinə hücum edərək oranın bir sıra qalalarını ələ keçirmişdi. Bu isə Şah Təhmasib hakimiyyəti və Səfəvi maraqları üçün bir təhlükə idi. Ona görə Şah Təhmasib Şəki hakiminin itaətsizliyini aradan qaldırdıqdan sonra Gürcüstana yenidən qoşun çıxarmaq və burada daha da möhkəmlənmək qərarına gəldi.

"958-ci (1551) il aylarında Şəki vilayəti qüdrətli dövlətin başçılarının əlinə keçdi. Fələk calallı ordu hələ o vilayətdə olduğu zaman Qurqura oğlu Keyxosrov aləmin pənahı olan dərgaha xəbər göndərdi ki, Luarsab, Valhuş və Şermazan Gürcü onun vilayətinə zorakılıq əlini uzadaraq, onun bəzi ərazilərini almışlar, Ərzurumdan İsgəndər paşa da o tərəflərə gəlib, Ərduvanuh qala-

sını işğal etmişdir. Keyxosrov o həzrətin (Şah Təhmasibin) tabeçisi və xəracverəni olduğuna görə [şah] ona yardım göstərmək və cihad etmək qəsdi ilə qızıl qanadlı səadət quşunu o tərəfə uçmağa buraxdı. [Sah Təhmasib] Şəkidən yürüşə başlayıb, çoxlu dərə-təpədən keçərək Gürcüstan vilayətinə çatdı. Azmış kafirlər dağ ətəklərini və qaranlıq mağaraları özlərinə məskən etmiş, hər dəstə çətin gediləsi dağlardan birinə pənah aparmış, bəzi başqa böyüklər və aznavurlar qalalarda oturmuşdular" (48).

Səfəvi qoşunları yaxınlaşanda yerli əhali qaçıb dağlara, habelə qalalara sığındılar. Bunlar gürcüləri heç də xilas etmədi. Səfəvi hakimiyyətini tanımaq istəməyən hakimlərin ətrafı bu qalaların fəthi zamanı qətlə yetirildilər. Yəni, qızılbaş döyüşçüləri bu yürüş zamanı da ciddi qətiyyət və mübarizlik göstərmək məcburiyyətində qaldılar. Səfəvi hakimiyyətini tanımayaq istəməyənlər qızılbaş döyüşçülərinin qılıncına rast gəldilər. Mənbələrdə olan məlumata görə, gürcü böyüklərindən bir dəstə və bu dəstəni müşayiət edənlər qızılbaşların qılıncından salamat qalmaq üçün dağın sıldırım zirvəsində yerləşən Dilman (gürcü mənbələrinə görə Vardziya qalası) adlı qalaya toplaşdılar. Şah Təhmasib öz təcrübəli əmirlərini bu qalanın fəthinə göndərdi: "İslam ordusunun mücahidləri dinsizlərin daldalanıb pənah apardıqları sığınacaqlara igidlik və mərdliklə hücum etdilər. O pozğunlar dəstəsindən neçə min nəfər qazilərin oxunun və qılıncının zərbəsi ilə cəhənnəmə getdi. O vilayətin qalalarından bir neçəsini fəth edib, çoxlu gözəl gürcü qızlarını və Yusif sifətli qılman kimi qulamları əsir aldılar. Bol qənimətlər müzəffər ordunun əlinə keçdi. Gürcü böyüklərinin bir dəstəsi yüksək bir dağın belində, sıldırım qayanın üstündə olan və ucalıqda göy səması, mətinlik və möhkəmlikdə Xeybər qalası ilə bərabərlik [iddiasında] olan Dilman qalasına və oradakı kilsəyə sığınmışdılar. Yüksək məqamlı cənnətməkan şah həzrətləri Bədr xan Ustaclunu və Şahverdi sultan Ziyadoğlunu qüvvətli dəstələrin biri ilə həmin qalanın üzərinə göndərdi. Onlar o qalanı mərkəz kimi araya aldılar. Savaş tələb edən bahadırlar və ad-san axtaran döyüşçülər ətəklərini bellərinə yığaraq və gen ətəkli qalxanları başlarına çəkərək, mərdanə hücum və yürüş et-

dilər və Pərvərdigarın köməyi ilə divarın üstünə çıxdılar. Xristianlar (məsihilər) bu halı müşahidə etdikdə çaşıb heyran qaldılar, mübarək dinin möcüzəsi onların hərəkət yolunu bağladı; nə qaçmağa yol tapdılar, nə də döyüşməyə taqət" (49).

Qeyd edildiyi kimi, bu qala daxilində bir kilsə də var idi. Həmin kilsə mənbələrdə xüsusi olaraq vəsf olunmuşdur və bildirilir ki, bu kilsə insan əli ilə yaradılmış nadir sənət əsəri idi. Kilsənin özləlliyi ondan ibarət idi ki, o, möhkəm dağ süxurları daxilində qazılıb yaradılmışdı. Təəccübə səbəb olan o idi ki, bu dağ süxurları son dərəcə möhkəm süxurlar idi və o dövrün mövcud alətləri ilə onun yarılması və qazılması ağlasığmaz görünürdü. Bu möhkəm dağ süxurları daxilində dörd xüsusi otaq oyulmuşdu və bu otaqları birləşdirən sahə yaradılmışdı. Kilsənin bayır və daxili divarlarında qızıl və göy lacivərdlərlə büt şəkilləri çəkilmişdi Daxildə olan ikinci otağın mərkəzində bir taxt qoyulmuşdu. Həmin taxtın üzərində də qızıl və cəvahirlərdən hazırlanmış bir büt var idi. Bu bütün gözlərini son dərəcə gözəl və böyük qiymətə malik olan ləl təşkil edirdi. Mənbələrdə olan məlumatlara görə, bu ləlin hər birinin qiyməti də təəccüb doğuracaq dərəcədə böyük idi. Kilsənin daxilində həm də bayıra yol qazılmşdı və bu yol başqa bir tərəfdə evlərin yuxarı tərəfinə çıxırdı. Kilsədən bayıra açılan yerdə bayır tərəfdən polad qapılar, daxili tərəfdən isə qızıl qapılar qoyulmuşdu. Kilsədən bayıra aparan yol boyu sığınacaq üçün iki yerdə xüsusi məkanlar da düzəldilmişdi (50).

Bu kilsə qızılbaşları elə valeh etmişdi ki, hətta Şah Təhmasib də onun tamaşasına yollanmışdı. Bununla yanaşı yerli hakimlərə dərs verildi, onların arasında münasibətlər qurulmasına cəhd göstərildi. Yəni Gürcüstan daxilində ixtilafların qarşısının alınması və daha sabit durumun yaradılması üçün Şah Təhmasib tərəfindən zəruri olan addımlar da atıldı: "Cənnətməkan şah həmin kilsəyə tamaşa etmək üçün ayaqlarına əziyyət verib, dinsiz keşişlərdən iyirmi nəfəri kafirlik dininin o məbədində atəş yağdıran qılıncla cəhənnəmə göndərdi. Kilsənin yetmiş batman misdən tökülmüş olan zəngini gürcülərin həyat şirəsi kimi sındıraraq, polad və qızıl qapıları çıxarıb, o bədbəxt fəsadcıların anbarında

yığılmış başqa bəzək və zinət şeyləri və saysız-hesabsız mallarla birlikdə abad xəzinəyə nəql etdilər. O qalanı dağıdaraq, divarlarını yerlə yeksan etdilər. Qalanın dəlmə-deşiklərinə və gizli yerlərə sığınmış Ənan bəy, Levan, Şermazan və başqaları kimi gürcü əmirləri ayrı-ayrı gələrək, [şahın qarşısında] yer öpmək səadətinə nail oldular. Şahın məiyyətinin yetişməsi xəbərini alaraq, İsgəndər paşanın və Rum qoşunlarının hücumu barədə arxayınlaşan Qurqura oğlu Keyxosrov cahanın pənahı olan dərgaha layiq peşkəşlə gəlib, şahın mərhəmət və məhəbbətini qazandı. Müxaliflikdə inad göstərən Valhuş və Şermazan oğlu hər ikisi qətl edildi. Onlara [məxsus olan] Lumk ölkəsi və Aqşəhr Keyxosrova verildi" (51).

Səfəvi qoşunlarının əlinə həm də böyük həcmdə qənimət ələ keçdi. Şah Təhmasib yenə də gürcü çarlıqlarını ləğv etmədi. Amma həmin çarlıqların Səfəvi hakimiyyətini tanımasına nail oldu. Bununla belə, gürcü çarları Səfəvi hakimiyyətinə münasibətdə heç də birmənalı mövqe tutmadular və fürsət yarananda onlar Səfəvi təsirindən uzaqlaşmaq meylini əməli şəkildə nümayiş etdirdilər. Mənbələrdə olan məlumatlar bəyan edirlər ki, yerli əhali də din baxımından Səfəvi hakimiyyətinə heç də həmişə meylli münasibət nümayiş etdirmirdi. Ona görə də Gürcüstandakı vəziyyət Səfəvi sarayının davamlı diqqətini tələb edirdi.

1554-cü ildə Osmanlı sarayı ilə Səfəvi sarayı arasında Amasiya sülh anlaşmasının əldə edilməsi ilə Gürcüstan daxilində də Səfəvi və Osmanlı dövlətlərinin təsir dairələri müəyyənləşdirildi. Mesxi, Kaxet və Kartli çarlıqları Səfəvi dövlətinin təsir dairəsinə düşdü. Başıaçıq, Dadian və Quriyan əraziləri isə Osmanlı dövlətinin təsir dairəsinə daxil edildi. Amma mənbə məlumatlarına görə, Kartli çarı Səfəvi itaətini qəbul etmək istəmirdi və ona görə də Səfəvi qorxusundan canını qurtarmaq üçün hündür dağlarda məskən salmışdı. Fürsət düşən kimi isə Kartli çarı həm Tiflis vilayəti ərazilərinə, həm də Səfəvi təsir dairəsində olan ərazilərə talançı yürüşlər edirdi (52). "O zaman xəbərçilər cahan hökmdarının ərzinə çatdırdılar ki, saylarının bolluğuna, qüvvət və istiqlallarının çoxluğuna, dağların ucalığına və təpələrin hündürlü-

yünə arxayın olan gavurlar ayaqlarını inad dairəsindən kənara qoymuş və başlarını fəsad yaxasından çıxarmışlar. Onların natəmiz sinəsinin sahəsindən imanın təməli sarsılmış, o dinsizlərin bədşükümlüyündən və təcavüzkarlığından müsəlman şəhərlərinin və diyarlarının yolu qırılmışdır. Sanki "Yəcuc–Məcuc [tayfaları] bu ərazidə fitnə-fasad törədirlər" [*Qurani-Kərim, "Kəhf" surəsi, 94-cü ayə.*] mənası onların barəsində nazil olmuşdur və "Hər tərəfdən axın edərlər" [*Qurani-Kərim, "Ənbiya" surəsi, 96-cı ayə.*] məzmunu onların bəd əsilli nəslindən hasil olmuşdur. Elə ki bu xəbər ali [hökmdarın] qulağına çatdı, dinin pənahı olan şah məiyyət və ordu ilə peyğəmbərlər ağası olan həzrətin (Məhəmməd peyğəmbərin) dinini qüvvətləndirmək üçün və padşahanə şərəf hissinin kamilliyi üzündən gürcü kafirlərinin diyarının fəthi məqsədi ilə xoşbəxtlik və səadətlə hərəkət bayrağını Gürcüstana doğru yüksəltdi və Barat-elində cah-calalla dayandı. O diyar tamamilə cəngəllik idi. Belə ki, ağacların çoxluğundan külək oradan çətinliklə keçə bilirdi" (53).

Bu itaətsizliklərin və ixtilafların qarşısını almaq üçün Şah Təhmasib yenidən Gürcüstan üzərinə yürüş etməyi lazım bildi. "Tarix-i aləmara-yi Abbasi"də olan məlumata görə, Şah Təhmasib sadəcə olaraq itaətsizlik göstərənləri cəzalandırmağa yox, "bütün məmləkətin islam ölkələrinə" (54) birləşdirilməsi üçün növbəti Gürcüstan yürüşünə hazırlığa başladı. Görünür, gürcülərin də bundan xəbəri var idi və ona görə də itaətsizlik göstərən gürcü çarları Səfəvi qoşunlarına çox ciddi müqavimət göstərdilər. Qüvvələri sayca az olduğu üçün onlar yerli ərazinin müdafiə imkanlarından faydalanmaqla əlverişli mövqelər seçməyə və həmin mövqelərdən də Səfəvi qoşunlarına güclü zərbə vurmağa çalışırdılar.

Mənbələrdə olan məlumatlardan belə aydın olur ki, Səfəvi və gürcü qoşunlarının ilk ciddi qarşılaşması Baratlıda oldu. Gürcü qüvvələri burada Səfəvi qoşunlarının gücünü gördükdə dağılıb əraziyə səpələndilər. Onlar darısqal dərələrdə, ağaclarla dolu ormanlarda, sıx meşələrdə, dağların yüksəkliklərində tikilmiş qalalarda mövqe tutdular. Səfəvi qoşunları da yaranmış vəziyyətə

uyğun olan taktikanın tətbiqinə başladılar. Gürcü qüvvələri hər tərəfdə izlənildi, onlar hissə-hissə ələ keçirilərək məhv edildi. Gürcü hakimi Luarsab böyük əziyyətlə bu təqiblərdən canını qurtararaq qalalardan birində gizlənə bildi (55).

"Əhsənüt-təvarix" əsərindəki məlumata görə, Baratlı hakimi Luarsab (Ləvasan) hələ döyüşün əvvəlində meydandan qaçaraq təhlükəsiz bir yerə sığındı: "Zəfər şüarlı qoşunların yürüşünün xəbəri pozğun kafirlərə çatdıqda vahimənin çoxluğundan hərəsi bir guşəyə dağıldılar və avara oldular. Davudun oğlu Ləvasan həmin diyarın valisi idi. O, qalalardan, mahaldan və ailəsindən gözünü çəkib yarımcan halda, min hiylə ilə aradan çıxdı və özünü təhlükəsiz bir yerə çatdırdı. Digər gürcülər bu xəbəri və kosun, nağaranın səsini eşitdikdə onların ödləri yarıldı və ciyərləri para-para oldu. Dəniz kimi coşan və ildırım kimi gurlayan ordunun qorxusundan onların sabitlik və qətiyyət xırmanına xof və xətər atəşi düşdü. Onlar öz acizlik əllərini fərar ətəyinə vurub dağlara, mağaralara və cəngəlliklərə qaçdılar. Bir qismi isə möhkəm qalalara sığındılar. Qazilər ağacların arasına gedib, "Müşriklərin hamısı sizinlə vuruşduqları kimi, siz də onlarla vuruşun" [ayəsinin] zərurətinə əməl edərək o dinsizlərin əksərini amansız cihad qılıncından keçirdilər, onların arvadlarını və uşaqlarını əsir etdilər, çoxlu inək və qoyun qənimət götürdülər. Ondan sonra [Şah Təhmasib] Ləvasanın paytaxtı olan Qoriyə yürüş üçün aləmi bəzəyən bayrağı yüksəltməyə qərar verdi" (56).

Şah Təhmasibin məqsədi Qoriyə toplaşmış olan gürcü qüvvələrinə də güclü zərbə vurmaq idi. Bölgənin hakimi və onun ətrafında olanlar Məzərut adlı bir qalada özlərinə sığınacaq tapmışdılar. Mənbələrdə bu qalanın adı Mərdankub və Mərdkof kimi də xatırlanmaqdadır. Qori şəhərinin yaxınlığında olan bu qala da möhkəmliyi ilə fərqlənirdi. Bu qala hündür dağ yüksəkliyində tikilmişdi və divarların möhkəmliyi onun müdafiə imkanlarını artırırdı. Həmin qala əvvəlcə Səfəvi qoşunları tərəfindən mühasirə edildi. Qalaya gediş-gəliş yolları bağlandıqdan sonra onun necə fəth edilməsi yollarının aranmasına başlandı. Qızılbaş əmirləri qalanın zəif yerlərini taparaq həmin yerləri güclü zərbə-

lərə məruz qoydular. Bütünlükdə isə qala davamlı hücuma məruz qaldı. Görünür, Səfəvi qoşunları və qızılbaş əmirləri elə bir qətiyyətlə mübarizə aparmışdılar ki, qalanın komendantı Parsadan adlı birisi ümid yerinin qalmadığını görüb təslim olmağı qərara almışdı. O qalanı tərk edib qala açarlarını qızılbaş əmirlərinə təhvil verdi və bununla adı çəkilən qala da fəth edildi. Səfəvi qoşunları Gürcüstan ərazisində növbəti uğurunu qazandı və bununla itaətsizlik edən qüvvələrə növbəti dərs verildi. Amma gürcü qoşunlarının müqavimət ocaqları hələ də qalmaqda idi. Belə müqavimət ocaqlarından biri Aydın (Amdin, İdin) qalası idi. Bu qala da mənbələrdə Gürcüstan ərazisindəki möhkəm qalalardan biri kimi xarakterizə olunmuşdur. Bildirilir ki, qala divarları o dərəcədə hündür idi ki, hətta quşlar da onun zirvəsinə qonmağa çətinlik çəkirdilər. Qalanın ətrafında isə mühəndis işləri görülmüş və torpaq sədləri çəkilmişdi. Bu da kənar qüvvələrin qalaya yaxınlaşmasını çətinləşdirirdi. Qalanın müdafiə etibarlılığının böyük olmasının nəticəsi idi ki, bölgə hakimi Luarsab da öz anasını həmin qalada saxlayırdı. Amma bütün keyfiyyətlərinə baxmayaraq, adı çəkilən qala da qızılbaş döyüşçüləri qarşısında süqut etdi. Şah Təhmasibin göstərişi ilə qala divarları ətrafına toplar gətirildi və onların vasitəsi ilə qala divarları atəşə tutuldu. Digər tərəfdən isə qala divarları altından lağım atılmasına başlandı. Nəticədə qala divarlarını aşırmaq mümkün oldu və bununla da Səfəvi qüvvələri qala daxilinə yol tapdılar. Qala daxilində isə növbəti ciddi döyüş baş verdi. Gürcü qoşunları bütün qüvvələrini səfərbərliyə alaraq həyatlarının xilası üçün bu gərgin döyüşə atıldılar. Lakin onlar qızılbaş döyüşçülərinin fədakarlıqlarının qarşısında duruş gətirə bilmədilər. Luarsabın anası və çoxlu sayda gürcü döyüşçüləri qızılbaşların əsirinə çevrildilər və onlar Şah Təhmasibin hüzuruna gətirildi (57).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasibin rəhbərliyi altında Səfəvi qoşunlarının Qori ətrafındakı döyüşləri belə təsvir edilmişdir: "Baratlı vilayətinin ərazisi müşriklərin imansızlığa bulaşmış vücudundan təmizləndikdən sonra səadətli məiyyət Luarsabın paytaxtı Qoriyə tərəf hərəkət edərək, çətin yol-

lardan və sıx ağaclı yerlərdən keçib, o vilayətin sahəsini də Baratlıda olduğu kimi yaramaz kafirlərin vücudunun ot-alağından təmizlədilər. Gürcü böyükləri və aznavurları bir neçə qala və divarları möhkəmləndirib, hər yerdə hərbi adamlardan bir dəstə yerləşdirdiklərinə görə, ölkə fəth edən bayraqlar həmin qalalar tərəfə qaldırıldı. Əvvəlcə Mərdanqub qalasını mühasirə etdilər. Həmin qalaların mühafizəçiləri qala divarlarının möhkəmliyinə güvənərək, döyüşməyə və vuruşmağa başladılar. İgid qazilər qalanın ətrafında döyüşərək, mühasirədəkilərin işini çətinə saldılar. Bəd məzhəbli gürcülər aciz olduqlarını görərək, «aman», - deyə bağırdılar. Qalanın kutvalı Parsadan bəy bayıra çıxıb, qalanı təslim etdi. Adı çəkilən qalanı aldıqdan sonra oranın ən möhkəm qalası olan və Luarsabın anasının qaldığı Amdin qalası üzərinə getdilər. Ora yüksək bir qaladır, sanki əbədiyyət memarı dəyirmi asiman səviyyəsində onu bina etmişdir. Belə ki, təsəvvür və xəyal quşu hər nə qədər səylə qanad çalarsa, onun səviyyəsində uça bilməz və ruzigar hadisələrinin əli nə qədər uzanarsa, onun səddinin ətəyinə çata bilməz. O möhkəm qalanın gözətçiləri qaziləri dəf etməyə üz çevirdilər, onların arasında döyüş və vuruşma odu alovlandı. Səadət gücü ilə o Xeybərə bənzər qala az bir səylə alındı. Luarsabın anası aznavurların əksəriyyəti ilə birlikdə ələ keçdi. O dinsizləri cihad qılıncı ilə cəhənnəmə göndərdilər. Şahverdi sultan Ziyadoğlunun səyi və mərdliyi ilə neçə başqa qala da gündən-günə yüksələn dövlətin başçılarının əlinə keçdi. Dəniz kimi coşan qoşunların əlinə bu yürüşdə otuz mindən artıq əsir keçdi. O cümlədən gürcü böyüklərinin, əyanlarının və aznavurlarının qadınları, qızları və oğulları xüms əvəzinə şah cənablarına çatdı. Bu dəfə Luarsab özünü elə adsız-sansız etdi ki, onun yeri-məskəni heç məlum olmadı. Buna görə də saflıq nişanəli dindar padşah Gürcüstandan Qarabağa tərəf dönərək, o tərəflərdə gəzib ov etdikdən sonra zavalsız dövlətin paytaxtına (Təbrizə) yönəldi” (58).

İstinad olunan mənbələrdə Luarsabın əsir düşmüş anasının sonrakı taleyi haqqında məlumat verilmir. Luarsab isə ələ keçməmiş qaldı. Bu da Gürcüstan ərazisində Səfəvi sarayına qarşı

müxalifətçiliyin yenidən baş qaldırmasına bir zəmin yaratdı. Səfəvi mənbələrində də Luarsab gürcü hakimləri arasında öz cəsarəti və tədbirliliyi ilə seçilən hakimlərdən biri kimi xarakterizə edilmişdi. Görünür bu keyfiyyətləri həm də gürcülərin onun ətrafında birləşməsinə yol açırdı. O, Səfəvi hakimiyyətindən asılılığını qəbul etmiş və Səfəvi xəzinəsinə vergi verməyə başlamışdı. Lakin bu, davamlı deyildi. Ətrafındakı qüvvələr güclənən kimi Luarsab itaətsizlik yolunu tutur və Səfəvi xəzinəsinə vergi verməkdən imtina edirdi. Şah Təhmasib isə Səfəvi təsir dairəsində olan Gürcüstan ərazilərindən əl çəkmək fikrində deyildi. Onun Gürcüstandan çıxması ilə aydın idi ki, Gürcüstan bütünlüklə Osmanlı Türkiyəsinin təsir dairəsinə düşə bilər. Ona görə Luarsab kimi bir hakimin aradan qaldırılması Səfəvi təsirinə Gürcüstan ərazisində olan təhdidləri də aradan qaldıra bilərdi. Buna isə həyata keçirilmiş bir neçə yürüş zamanı nail olunmamışdı. Qori ətrafında aparılan döyüşlər zamanı Luarsab fürsət tapıb həyatını xilas etmiş və bölgədən qaça bilmişdi. Şah Təhmasib və Səfəvi qoşunları Qoru ətrafından geri qayıtdıqdan sonra Luvarsab yenidən bu şəhərə gəldi və ona sədaqətli olan qüvvələri də öz ətrafına toplaya bildi. O, bir müddət Səfəvi hakimiyyətinin tanınması ilə barışmalı olsa da, sonra yenidən itaətsizlik yolunu tutdu. Bunun nəticəsi idi ki, Luarsabın hətta Gürcüstan daxilindəki yerdəyişmələri Səfəvi sarayının nəzarəti altında idi və onun ələ keçirilməsi üçün münasib fürsət aranırdı. Belə fürsət 1556-cı ildə yarandı. Luvarsab Qorini tərk edib Kuməş ( mənbə və tarixi ədəbiyyatda Luhəş, Qaris, Kurəş kimi xatırlanmaqdadır) qalası üzərinə hücum etdi. Bu qala Səfəvi təsir dairəsində idi. Məsələdən xəbər tutan kimi Şahverdi xan Ziyadoğlu Qarabağın qoşun dəstəsini yanına alaraq Luarsabın üzərinə hücum çəkdi (59).

Bu hücumun gedişi "Tarix-i aləmara-yi Abbasi" əsərində aşağıdakı kimi təsvir edilmişdir: "[O], 963-cü ildə (16.11.1555 - 03.11.1556) Qoridən çıxıb, divanın amanında və ixtiyarında olan Luhəs qalasına və onun ətrafındakı ərazilərə gəlib, üsyan və qiyam əlamətləri göstərdi. O sərhədin mühafizəsinə məmur olan Qarabağ bəylərbəyisi Şahverdi sultan Ziyadoğlu Qacar onun qi-

yamından xəbər tutan kimi Qarabağ qoşununu yığıb, onu dəf etməyə yönəldi. O, Luarsabın olduğu yerə yaxınlaşdıqda Luarsab hiylə və tədbir üzündən, müqavimət qüdrəti olmadığına görə qaçmağı seçdi. Qızılbaş qoşunu gürcüləri təqib edərək, o vilayətin ətraf və kənarlarına səpələndilər, talan və qarətlə məşğul oldular. Bu əsnada Luarsab məkr və hiylə pusqusundan bayıra çıxıb, aznavurlardan bir dəstə ilə Şahverdi sultanın [ordusunun] mərkəzinə hücum etdi. Qızılbaş ordusunun əksəriyyəti dağıldığından Ziyadoğlunun yanında qalan bir kiçik dəstə var gücü ilə döyüşərək məğlubiyyətə uğradı. Ziyadoğlu müharibə qayda-qanunlarını nəzərə alaraq, hərb meydanından salamat bayıra çıxdı. Gürcülər qaziləri təqib edərək, səkkiz yüz nəfərədək qızılbaşı şəhid etdilər. Luarsab «İncil» oxuyan keşişlərdən bir dəstə ilə təpənin üstündə durmuşdu. Məhəmməd sultan Çepni qazilərin bir dəstəsi ilə ona rast gəldi və o camaatla döyüşə girişməyə məcbur oldu. Luarsab cəldlik və mərdlik atını cövlana gətirdi və Məhəmməd sultan Çepniyə hücum etdi. Allahın iradəsi ilə onun atı büdrədi, Luarsab atından ayrı düşdü. Çepni qazilərindən Zakir adlı birisi ona bir neçə öldürücü zərbə vurdu. Kafirlər onun üzərinə hücum etdilər. Məhəmməd sultan Luarsabın atını ələ keçirib mindi və oradan çıxdı. Gürcülər adı çəkilən Zakiri bir necə çepni qazisi ilə birlikdə öldürdülər. Luarsabın ömür və hakimiyyət bayrağı devrilərək, həmin anda öldü. Gürcülər onun cənazəsini götürdülər, qəbiristanlığa aparıb dəfn etdilər və onun oğlu Simayunu [Simonu] hakimiyyətə gətirib, Qoridə məskən saldılar" (60).

Doğrudur, Luarsabın dünyasını dəyişməsi ilə Gürcüstanda özünü göstərən mərkəzdənqaçma meyllərinə güclü zərbə vuruldu. Lakin bu meylin qarşısını almaq mümkün olmadı. Luarsabın oğlu Simon hakimiyyətdə yerini möhkəmləndirdikdən sonra o da Səfəvi təsirindən qopmaq üçün yollar aramağa başladı. Onun bu meyli bir sıra yerli dairələr tərəfindən də dəstəklənməyə başladı. Xüsusilə, din fərqi və din təəssübkeşliyi Səfəvi hakimiyyətinə qarşı müxalifətçiliyə əlavə bir təkan verdi. Səfəvi asılılığından qurtarmaq üçün Simon qonşu vilayətlərin hakimlə-

rinə də müraciət etdi. Onlar da müstəqilləşmək arzusu ilə Simonun sərəncamına qoşun dəstələri veriilər. Mənbə məlumatlarına görə, Kaxet hakimi Levonun oğlu Georgi də Səfəvi hakimiyyətindən qopmaq arzusu ilə Simonun başladığı hərəkata qoşuldu. Ətrafına kifayət qədər qüvvə toplanandan sonra Simon hətta Tiflis şəhərini də öz hakimiyyəti altına gətirmək fikrinə düşdü (61).

Bu hadisə 1561-ci ildə olmuşdu. Simonun Səfəvi hakimiyyətinə meydan oxumaq cəhdinə dərhal cavab verildi. Mənbə məlumatlarına görə, Şahverdi sultan Ziyadoğlu tabeliyində olan qoşun dəstəsi ilə Gürcüstan ərazisinə yollandı. Mənbələrdə məlumat verilməsə də, çox güman ki, Gürcüstan ərazisində mərkəzdənqaçma meylliyinin güclənməsi xəbəri Şah Təhmasibə çatdırılmış və o da Şahverdi sultan Ziyadoğluya Simonun itaətsizliyinin qarşısının alınmasını tapşırdı: "Bu xəbər Ziyadoğluya çatdıqda Qarabağ əmirlərini və o hüdudun qoşunlarını yığıb, müşrikləri aradan qaldırmağa yönəldi. Qazilər gürcü camaatının yolu bağlamaq üçün qazdıqları xəndəyi dolduraraq, onu keçdilər və müşriklərə yetişərək, o azğın camaatın qarşısında döyüş nizamı aldılar. İslam ordusunun çərxçiləri gürcülərlə döyüşə girişdilər və müharibə qızışdı. Hər iki tərəfdən mərd kişilər və döyüş meydanı dilavərləri böyük şücaət göstərirdilər. Azğın kafirlər mətanət və dözüm ayağı üstündə dayanaraq, qazilərin həmlələrini dəf edirdilər. Şahverdi sultan Ziyadoğlu kafirlərin vuruşma şiddətini və onların döyüş meydanında bu cürə təmkin və mətanət göstərdiyini gördükdə mərkəzdə duran qoşunla birdən çaparaq, gürcü qoşunu sıralarına hücum etdi. Döyüş meydanından [qopan] tozanaq tez gərdiş edən fələyə çatdı. Gürcülər onun hücumuna tab gətirməyib, qaçmağa üz qoydular. Ləvənd xanın oğlu Gürgin azğın kafirlərdən min nəfərlə birlikdə öldürüldü, [gürcülərin] sağ qalanları isə dağıldılar və səpələndilər. Simayun kiçik bir dəstə ilə Qori tərəfə qaçdı. Ziyadoğlu qələbə və zəfərlə Gəncəyə qayıtdı. Gürcülərin mötəbər əmirlərindən Cəcnə bəy aznavurların bir dəstəsi ilə tutulub, aləmin pənahı olan dərgaha göndərildi. Ləvənd xan öz oğlunun yasında boynundan qara palaz asdı.

Kaxetin aznavurları və mötəbər [adamları] onunla birlikdə qara [paltar] geyərək, matəm saxladılar" (62).

Bu hücumda Şah Təhmasib iştirak etmədi. Bununla belə, Şahverdi sultan Ziyadoğlu fədakarlıq göstərdi və döyüşün təşkilinin bütün ağırlığını öz üzərinə götürərək Simonun ətrafına toplaşmış olan gürcü qüvvələrinə güclü zərbə endirə bildi. Simon bu döyüşdə canını salamat qurtara bilsə də itaətsizlik yolundan heç də əl çəkmədi. Amma Simonun Davud adlı qardaşı heç də Simonun tutduğu yolu dəstəkləmək istəmirdi. Davudun ətrafına toplaşmış olan yaxınları da vaxtaşırı silahlı qarşıdurmalara gətirib çıxaran itaətsizliyi müdafiə etmirdilər. Ona görə Davud ona yaxın olan bir dəstə ilə Simondan ayrıldı və öz itaətini bir daha bəyan etmək üçün Qəzvinə yollandı. Burada o, Şah Təhmasibin dərgahında oldu, nəinki ona itaəti, hətta islam dinini də qəbul etdiyini bildirdi. Şah Təhmasib də onu mehribanlıqla qarşıladı, ona qayğı göstərdi. Mənbə məlumatlarına görə, Şah Təhmasib onu oğulluq məqamına qaldırdı, Tiflis vilayətini və ətraf əraziləri onun hakimiyyəti altına verdi. Bəzi vaxtlar qızılbaş əmirlərindən biri Davudun lələsi və Tiflis qalasının kutvalı (komedantı) təyin edilirdi. Mənbə məlumatlarından görünür ki, bu, müvəqqəti hal daşıyırdı. Görünür, Davudun Səfəvi sarayına sədaqəti şübhə doğurmadığı üçün onun müstəqil idarəçiliyinə imkan verilirdi. Öz siyasətindən əl çəkməyən Simon isə qardaşı Davudun idarəçiliyi altına verilmiş əraziləri də onun əlindən çıxarmaq istəyirdi. Simon və onun ətrafına toplanmış qüvvələr hətta bir neçə dəfə Davudun idarəçiliyi altında olan əraziləri ələ keçirmək üçün hücum da etdilər. Amma istədikləri nəticəyə nail ola bilmədən geri qayıtdılar (63).

Simonun öz qardaşı üzərinə etdiyi hücumlardan biri də 1567-ci ilə təsadüf edir. Bu hücumda məqsəd Tiflis qalasını ələ keçirmək və bu qalanı Səfəvi nəzarətindən çıxarmaq idi. Tiflisdə hakimlik edən Davudun yanında yerli qoşun dəstəsindən əlavə, həm də azsaylı qızılbaş qoşun dəstəsi var idi və İbrahim xəlifə Qaramanlı da bu dəstənin rəhbəri idi. Simonun qoşun dəstəsi yaxınlaşanda Davudun yanında olan qüvvələr qarşı tərəfin say üstünlüyünü müşahidə etdilər və ona görə də qoşun rəhbərləri açıq döyüşə

girməyin mənasız olduğunu bildirdilər. Onlar təklif etdilər ki, Tiflis qalasına geri dönməklə bu qalanın müdafiəsini təşkil etsinlər. Amma İbrahim xəlifə Qaramanlı bu təkliflə razı olmadı və mövcud vəziyyəti düzgün qiymətləndirmədən Simonun dəstəsi ilə döyüşə girməyi qərara aldı. Bu qərar onun üçün ağır nəticəyə gətirib çıxardı. İbrahim xəlifə çoxsaylı qüvvələrin müqavimətini qıra bilməyərək özü də döyüşdə həlak oldu. Mənbə məlumatlarına görə, Davud daha iki dəfə Səfəvi qoşunlarının köməyi ilə Simona qarşı döyüşə başladı. Lakin bu cəhdlər də nəticəsiz qaldı. Belə olanda Davud Tiflis qalası daxilində möhkəmlənməyi məqsədəuyğun saydı. Simon isə əldə etdiyi uğurlardan daha da ilhamlandı və yerli əhalinin dəstəyinə arxalanaraq Tiflisi ələ keçirməyə yeni cəhdlər göstərdi. Amma o ümidində olduğu nəticəni əldə edə bilmədi. Çünki bir tərəfdən Tiflis qalasındakı əhali onun səylərini dəstəkləmədi. Digər tərəfdən isə qalada olan qızılbaş döyüşçüləri Simona qarşı müqavimət göstərilməsində kifayət qədər fədakarlıqlar nümayiş etdirdilər. Belə olanda Simon öz dəstəsini də götürüb Qoriyə qayıtdı (64).

Simonun öz siyasətindən əl çəkməməsi və Səfəvi təsiri altında olan əraziləri ələ keçirməyə çalışması Şah Təhmasibi ona qarşı daha qətiyyətli qərarlar qəbul etməsinə sövq etdi. Belə bir qətiyyətli qərarın qəbul edilməsinin səbəbi ilə bağlı “Əhsənüt-təvarix” müəllifi belə yazırdı:

“Gürcüstan valisi Simaun doğru yöndən ayağını və düzgün yoldan qədəmini kənara çıxarmış və əlini məmləkətlərin sərhədinə və yollara uzatmışdı. O, Tiflis şəhərinə də həmlə etdi. Tiflis elə bir şəhərdir ki,

Beyt:

“Bostanında həmişə gül var,<br>
Torpağı lalə və sünbüllə doludur”.

Onun havası mülayim və xoşdur, çəməni ürək oxşayır. ... Onun çöllərindən səba və şimal yeli əsir. Yaz fəslində dağlarının başlarında və evlərində lalə, zahidlərin məbədlərindəki və kilsələrindəki əqiq qəndillər kimi uzaqdan parlayır. ...Onun qanovlarının və çeşmələrinin suları Kövsər və Zəmzəm suyu kimi lə-

tifdir və yaxşı həzm edilir. ... [Simaun belə bir şəhərdə] çoxlu dağıntı törədib o diyarın əhalisini kiçikli-böyüklü məşəqqətlə paymal etdi. Ona görə də [Şah Təhmasib tərəfindən] aləmin müti olduğu fərman verildi ki, Şamxal bəy Çərkəz, İbrahim xəlifə Alpavut və Əliqulu bəy Qacar, Davud bəylə ittifaqda Gürcüstana yollansınlar və Simaun bəyi tutub aləmin pənahı olan dərgaha göndərsinlər. Yüksək şanlı əmirlər ucsuz-bucaqsız qoşunlar və saysız-hesabsız ordu ilə Gürcüstana doğru hərəkət bayrağını ucaltdılar. Məsafələri qət etdikdən sonra o vilayətə çatdılar. Simaun bəy doğru üsul seçərək və ehtiyatkarlıq yoluna riayət edərək elə bir dağa sığındı ki, yüksəklikdə göy səma ilə baş-başa olmaq iddiası edirdi, mətanətdə Dəmavənd dağı ilə bərabərlikdən dəm vururdu. Onun beli Məntəqətül-büruc səthi ilə eyni səviyyədə idi və onun bulağı günəş çeşməsindən daha yüksək idi. Hündürlüyü o boyda idi ki, bir nəzərin xətti onun zirvəsinə çatana qədər neçə yerdə fasilə verərdi və düşüncə gözətçisi xəyal nərdivanından savayı heç nə ilə onun qayasının başına ayaq qoya bilməzdi"(65).

Simonun əməllərinə son qoyulması üçün Şamxal bəy Çərkəzin rəhbərliyi altında göndərilən Səfəvi qoşun dəstəsinin apardığı döyüş "Tarix-i aləmara-yi Abbasi" əsərində belə təsvir edilmişdir: "Böyük əmirlər bu əmri icra edərək, 976-cı ildə (26.06.1568 - 15.06.1569) Gürcüstana qoşun çəkdilər. Simayun səadətli qoşunların yetişməsi xəbərini biləndə özündə müqavimət gücü görmədiyindən o ətrafın yüksək dağlarına çəkildi. Qələbə nişanəli qazilər Elburz dağı ilə bərabər və Qaf zirvəsi ilə bir olan o dağa tərəf hərəkət edib, onun ətraf və ətəklərini tutdular. O möhkəm yeri özlərinə pənahgah və sığınacaq etmiş imansız kafirlər qazilərə qarşı müharibəyə və müdafiəyə başladılar. İki tərəf arasında hərb və qətl odu alovlandı. Simayun kiçik bir dəstə ilə cahillik və lovğalıq atını minib, qazilərə həmlə etdi, bir-iki nəfəri şəhidlik şərəfinə çatdırdı. Şamxal sultanın qulamlarından Cəmşid adlı birisi ona hücum edərək, onu öldürücü nizə zərbəsi ilə zəlillik torpağına saldı. Qazilərdən başqası onun köməyinə gəlib, [Simayunu] tutdular. Gürcülər öz başçılarını bəla kəməndinə düşmüş

görəndə qaçmağı fürsət bilərək, müharibədən üz çevirdilər. Simayunun ətrafındakı adamlardan bəzisi öldürüldü, bəzisi ələ keçdi"(66).

Səfəvi qoşun dəstəsi Gürcüstan ərazisində ciddi uğur qazandı. Simon və onun döyüşçülərinin xeyli hissəsi əsir götürülərək Qəzvinə, Şah Təhmasibin dərgahına göndərildi. Şah Təhmasib ona qarşı lütfkarlıq göstərdi və onun həyatına toxunulmadı. Simon bir müddət Qəzvində həbsdə saxlanıldı. Sonradan isə o, Ələmut qalasına göndərildi. Simonun həbs edilməsi ilə Gürcüstan ərazisində Səfəvi sarayına qarşı itaətsizlik ocağı da aradan qaldırılmış oldu. Bu hadisədən sonra Şah Təhmasibin hakimiyyəti illərində Gürcüstan ərazisində ciddi itaətsizlik halının baş verməsi haqqında məlumat mövcud deyil. Simonun sonrakı taleyinə gəlincə isə, mənbə məlumatlarına görə, Şah Təhmasibin dünyasını dəyişməsindən sonra o, islam dinini qəbul etdi. Bundan sonra o, Gürcüstanda yüksək məqama layiq görüldü və Səfəvi sarayına qarşı daha itaətsizlik yolunu tutmadı (67).

### 4. Qəndəharın yenidən fəthi

Səfəvi sarayının Qəndəhara olan marağı hələ Şah İsmayılın vaxtinda başlamışdı. Şah İsmayıl bu vilayət üzərinə qoşun çəkmədi. Lakin bölgədə cərəyan edən hərbi-siyasi proseslər Qəndəhar hakimi Şüca bəyi məcbur etmişdi ki, Səfəvi sarayına sığınsın və bununla özünün Qəndəhardakı hakimiyyətini də qorusun. Şah İsmayıl Xorasanı fəth edəndə Şüca bəy ona qiymətli hədiyyələr göndərdi və onun hakimiyyətini tanıdığını bəyan etdi. Şah İsmayıl bölgəni tərk edəndən sonra Kabul hakimi Zəhirəddin Babur Qəndəhar üzərinə qoşun çəkdi və Qəndəhar qalasını uzun müddət mühasirədə saxladı. 1520-ci ildə Qəndəhar hakimi Şüca bəy kömək məqsədi ilə Herat bəylərbəyi Durmuş xana müraciət etdi. Durmuş xan da Zəhirəddin Babura xəbər göndərdi, Şüca bəyin Şah İsmayılın himayəsi altında olduğunu bildirərək onu Qəndəharın mühasirəsindən çəkinməyə çağırdı. Baburun Şah İsmayıl ilə qarşılıqlı münasibətləri olduğu üçün onun adından edilən

çağırışı qəbul etdi və Qəndəharın mühasirəsindən əl çəkdi. Bir müddət sonra Səfəviköməyinə minnətdarlığını bildirmək üçün Şüca bəy Xorasana yollandı. Qəndəharın idarəçiliyini isə o, müvəqqəti olaraq Molla Baqi adlı yaxınlarından birinə tapşırdı. Amma Molla Baqi ona xəyanət etdi. O, Babura xəbər göndərərək Qəndəharı ona təslim etməyə hazır olduğunu çatdırdı. Babur da bu fürsətdən istifadə edərək Qəndəharı ələ keçirdi və bu qalanın hakimliyini oğlu Mirzə Kamrana tapşırdı (68).

Müvafiq fəsildə qeyd edildiyi kimi, 1535-ci ildə Herat bəylərbəyi ilə Şah Təhmasibin qardaşı Sam Mirzə və vilayətin əmirül-ümərası Ağzıvar xan vilayət qoşunu ilə Şah Təhmasibin icazəsi olmadan Qəndəhar üzərinə hücum etdilər. Bu hücumun təşəbbüskarı məlum olduğu kimi, Ağzıvar xan idi. O, zəifləmiş olan mövqeyinin gücləndirilməsi və Şah Təhmasib yanındakı nüfuzunun bərpa edilməsi və vəzifəsinin qorunub saxlanması üçün belə icazəsiz bir hərəkətə yol vermişdi. Həmin vaxt Qəndəharı Mirzə Kamranın tapşırığı əsasında Xoca Kəlan idarə edirdi. O, yaranmış vəziyyət haqqında Mirzə Kamrana xəbər göndərdi və ondan kömək istədi. Mirzə Kamran da qoşun dəstəsi ilə Qəndəharın müdafiəsinə gəldi. Tərəflər arasında baş verən döyüşdə Ağzıvar xan həyatını itirdi və Qəndəharı ələ keçirmək mümkün olmadı. 1535-ci ilin aprel ayında Şah Təhmasib özü Qəndəhar üzərinə hücum çəkdi və ciddi bir müqavimətə rast gəlmədən bu şəhəri yenidən ələ keçirdi (69).

“943-cü il aylarında (20.06.1536 - 09.06.1537) cənnətməkan şahın səadətli məiyyəti altıncı dəfə Übeyd xanın fitnəsini dəf etməkdən ötrü Xorasana gələn vaxt [Şah Təhmasib] Qəndəharı zəbt etmək və qızılbaşlarla döyüşdə igidlik göstərmiş cağatay camaatından intiqam almaq məqsədi ilə darüssəltənə Heratdan çıxıb, o tərəfə doğru hərəkət etdi. Cah-calallı bayraqların təntənəsi o hüdudda yayıldıqda və [şahın] mübarək çətiri o diyarın üzərinə öz gəlişinin kölgəsini saldıqda, həmin əhvalat yazılarkən qeyd olunduğu kimi, Xoca Kəlan orada qalmağa tab gətirməyib, Sind tərəfə getdi. Onun Qəndəharda qoyduğu Gənci Xoca səadətli məiyyəti qarşılamağa çıxıb, qalanın açarlarını təslim etdi.

Sözügedən vilayət qüdrətli dövlətin başçılarının əlinə keçdi. O mülkün hakimliyi Budaq xan Qacara şəfqət olundu” (70).

Amma bu dəfə də Qəndəharın Səfəvi hakimiyyəti altında olması çox da uzun sürmədi. Çünki Şah Təhmasibin səltənətin əyalətində yerləşmiş bu vilayətin mühafizəsi üçün kifayət qədər qüvvə ayırmaq imkanı yox idi. Xüsusi ilə, bir tərəfdən özbək qoşunlarının, digər tərəfdən də Osmanlı qoşunlarının vaxtaşırı səltənət hüdudlarını aşması Qəndəharın da diqqətdən kənarda qalmasına yol açırdı. Mirzə Kamran da bundan istifadə etdi və yenidən Qəndəharı öz nəzarəti altına aldı: “Dünya hökmdarının (Şah Təhmasibin) İraq tərəfə qayıtmasından sonra Mirzə Kamran yenidən qoşun toplayıb, Lahordan çoxsaylı bir dəstə ilə Qəndəhara gəldi. Rum sultanının gəlişi və Əlqasın yağı çıxması üzündən cənnətməkan şah həzrətlərinin İraqda və Azərbaycanda başı olduqca bərk qarışmışdı və onun Xorasana yürüş etməyə fürsəti yox idi. Buna görə də Budaq xan hərbçilik qaydalarına əsasən, vaxtın tələbinə əməl edərək, özünü mühasirəyə salmayıb, məmləkətdən əl çəkdi. Mirzə Kamran [Qəndəhar] qalasını möhkəmləndirib, geri qayıtdı” (71).

Yaranmış vəziyyət üzündən Budaq xanın Qəndəharı tərk etməsini Şah Təhmasib sakit qarşıladı və onu baş vermiş hadisə ilə bağlı ittihamlandırmadı. Amma Qəndəharın geri qaytarılması fikri də kənara qoyulmadı. Belə bir fürsət bir də 1558-ci ildə ələ düşdü. Həmin ilə qədər isə Qəndəharın taleyini həll edə biləcək bəzi tarixi hadisələr baş vermişdi. Belə ki, hicri qəməri tarixi ilə 951-ci ildə (25.03.1544 - 14.03.1545) Hind hakimi Hümayun padşah mərhum hökmdar əfqan qoşunlarının təzyiqi ilə öz məmləkətini tərk edərək Səfəvi sarayına sığınmalı oldu. Humayın padşah müəyyən vaxtlarda Səfəvi sarayı ilə xoş münasibətlərə malik olmuş Zəhirəddin Baburun oğlu idi. Mənbə məlumatlarına görə, Səfəvi sarayındakı görüşlər zamanı Hümayun padşah Qəndəhar məsələsi ilə bağlı Mirzə Kamranın əməllərinə təəssüf etdiyini bildirdi. O söz verdi ki, əgər hakimiyyətini yenidən geri qaytararsa və Qəndəhar üzərində nəzarət bərpa edilərsə, onda Qəndəharı Səfəvi sarayının nəzarəti altına verəcəkdir. Doğrudan

da sonradan Qəndəhar ələ keçiriləndə Hümayun şah bu şəhəri Səfəvi sarayının nəzarəti altına verdi. Şah Təhmasib oğlu Sultan Murad Mirzəni Qəndəhar hakimi təyin etdi. Budaq xan Qacar da onun lələsi oldu. Çox tezliklə Sultan Murad Mirzə dünyasını dəyişdi. Belə olanda Budaq xan da Qəndəhardan geri çağırıldı və Qəndəharın idarəçiliyi Bayram xan Türkmana tapşırıldı. Onun bu vəzifəyə təyin olunması Hümayun padşahın ətrafına toplaşmış olan cağataylarla yaxşı münasibətlər yaradılması istəyindən irəli gəlirdi. Şah Təhmasibə məlum idi ki, cağataylar Bayram xana etibarlı münasibət bəsləyirlər və onun bu vəzifəyə təyin olunması bütünlükdə Qəndəhar ətrafında münasib mühitin yaradılmasına kömək etmiş olardı. Amma tezliklə Hümayun padşahın özünün dünyasını dəyişməsi Qəndəhar məsələsində bir qeyri-müəyyənlik yaratdı: "Hümayun padşahın Kabildə və Bədəxşanda Mirzə Kamrana qarşı münaqişəyə məşğul olduğu illər ərzində Qəndəharı Bayram xan idarə etdi. Şah həzrətləri isə Hümayun padşaha hörmət əlaməti olaraq və Bayram xanın xidmətkarlığını və sədaqətini nəzərə alaraq, Qəndəhar məsələsinə göz yumub, oranı tələb etmirdi. Nəhayət, sözügedən mərhum [Hümayun] padşah kamına çatıb, Qəzneyn, Kabil və Hindistan səltənətində və padşahlığında istiqlal əldə etdi. Lakin o, hələ Qəndəharı qızılbaşlara təhvil verməzdən öncə vəfat etdi. Onun möhtərəm oğlu Cəlaləddin Məhəmməd Əkbər padşah öz yüksək rütbəli atasının yerinə əyləşdi" (72).

Hümayun padşah dünyasını dəyişəndə Qəndəhar Bayram xanın təyin etdiyi Şah Məhəmməd Qəlati adlı birisi tərəfindən idarə olunurdu. Onun idarəçiliyi illərində özbək hakimləri də Qəndəharı ələ keçirmək niyyətinə düşdülər. Zəmindavər hakimi Bahadır xan Özbək qoşun çəkməklə Qəndəharı işğal etmək istəyirdi: "Həmin vaxt Bayram xanın tərəfindən Şah Məhəmməd Qəlati Qəndəharı idarə edirdi. 963-cü ildə (16.11.1555 - 03.11.1556) Zəmindavər hakimi Bahadır xan Özbək Qəndəharın üzərinə qoşun çəkib istədi ki, [oranı] Şah Məhəmmədin əlindən alsın. Sözügedən [Şah Məhəmməd] əşrəfin hüzuruna adam göndərib bildirdi: «Qəndəhar Sizin dərgahınızın mülazimlərinə aid olduğu

üçün qızılbaş qoşunu təyin edin ki, özbaşına olaraq oranı zəbt etmək istəyən Bahadır xanın şərini dəf etsinlər və məmləkəti ələ keçirsinlər». Buna görə də cənnətməkan şah həzrətləri Bəhram mirzənin oğlu Sultan Hüseyn mirzəni Əliyar sultan Əfşar, Vəli xəlifə Şamlu və bəzi [digər] əmirlərlə ittifaqda Şah Məhəmməd Qəlatiyə yardım etməyə göndərdi. Vəli xəlifənin oğlu Şahverdi xəlifə şamlu qoşununun bir dəstəsi ilə Bahadır xanın üzərinə sürətlə hərəkət edib, qəflətən onun üstünə basqın etdi və tərəflər arasında şiddətli bir döyüş baş verdi. Döyüşdən və vuruşdan sonra Bahadır xan Hindistan tərəfə qaçdı. Amma Şah Məhəmməd Qəlati məkr və hiyləyə əl ataraq, Qəndəhar qalasını sözügedən [Sultan Hüseyn] mirzənin və əmirlərin üzünə bağlayıb, qalanı müdafiə etməyə başladı. Böyük əmirlər Zəmindavər vilayətini zəbt edib, Qəndəhar məsələsinin həqiqətini əşrəfin hüzuruna ərz etdilər" (73).

Yəni Qəndəhar yenidən məkrin qurbanı oldu. Şah Məhəmməd Qəlati özbək qoşunlarının hücumunun qarşısını almaq üçün əlavə Səfəvi qoşunlarının köməyinə arxalansa da, özbək qoşunları əziləndən sonra Səfəvi sarayından üz çevirdi. Şah Təhmasib isə səltənət daxilində və ətrafında yaranmış vəziyyət üzündən yenə də Qəndəhar məsələsinin həll edilməsini təxirə salmalı oldu. Bir də iki ildən sonra Qəndəhar məsələsinin üstünə gəlmək imkanı yarandı.

1558-ci ildə Şah Təhmasib təcrübəli qızılbaş əmirlərindən biri olan Əli sultan Tatıoğlu Zülqədəri çoxlu qoşunla Qəndəhar qalasını ələ keçirməyə göndərdi. Səfəvi şahı nəzərdə tutmuşdu ki, Qəndəhar alındıqdan sonra qardaşı Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzə oranın hakimi olsun. Qəndəharda özünü hakim kimi hiss edən Şah Məhəmməd Qəlati qızılbaş qoşunlarının gəlməsi xəbərini eşidəndə bütün qüvvələrini toplayaraq vuruşmaq qərarına gəldi. O güman edirdi ki, Qəndəhar qalasının müdafiə imkanlarından istifadə etməklə bu qalanı öz nəzarəti altında saxlaya biləcəkdir. Buna görə də Qəndəhar qalasının mühasirəsi dörd ay davam etdi. Amma göstərdiyi cəhdlərə baxmayaraq Şah Məhəmməd Qəlati qalanı qoruyub saxlaya bilmədi. Qızılbaş

döyüşçülərinin fədakarlıqları qarşısında aciz qalan Qəlati nəhayətdə aman dilədi və qalanı təhvil verib özü Hində tərəf yolandı. Qəndəhar Səfəvi səltənətinin hüdudlarına qatıldı. Bəhram Mirzənin oğlu Sultan Hüseyn Qəndəharın hakimi təyin edildi. O, Şah Təhmasibin hakimiyyətinin sonuna qədər bu vəzifədə qaldı və Qəndəharda möhkəm Səfəvi hakimiyyəti bərqərar oldu (74).

"Aləmara-ye Şah Təhmasib" əsərində Qəndəharın Səfəvi hakimiyyəti altına gətirilməsi məsələsi bir qədər fərqli şəkildə təsvir edilmişdir. Bu əsərdəki məlumata görə, Şah Məhəmməd Qəlati Qəndəhar hakimliyi vəzifəsinə Hümayun padşah tərəfindən təyin edilmişdi. Bildirilir ki, Mirzə Kamranla Hümayun arasında ixtilaf yaranmış və Mirzə Kamran Səfəvi sarayına pənah gətirmişdi. Sonradan Şah Təhmasib onu qızılbaş əmiri Əli sultan Tatıoğlunun müşayiəti ilə Hümayun padşahın sarayına göndərmişdi. Mirzə Kamran geri qayıtdıqdan sonra Hümayun padşah tərəfindən həbs edilir, sonradan isə onun gözləri kor edilir. Başlıcası isə Qəndəhar məsələsi həll edilməmiş qalır. Əli sultan Tatıoğlu da Səfəvi sarayına döndükdən sonra müşahidə etdiklərini, habelə Qəndəharın Hümayun padşah tərəfindən Səfəvi hakimiyyəti altına verilməməsini Şah Təhmasibə məruzə edir. Şah Təhmasib də Hind padşahının Səfəvi sarayından aldığı köməklik qarşısında naxələflik etməsini və verdiyi vədi icra etməməsini qəzəblə qarşılayır. Adı çəkilən mənbənin məlumatına görə, Şah Təhmasib bu hərəkətə qarşı öz münasibətini belə bildirir: "Hümayun şah Qəndəhar vilayətini bizim övladlarımıza vermişdi və bizimlə əhd etmişdi. Onun etdiklərini biz də bağışladıq. Amma o biləcək ki, biz və bizim adamlarımız heç də hərəkətsiz qalmayacağıq. Məmləkətində bir od qaldıracağıq ki, yanmamış quru ilə höyüşləri də yandırsın" (75).

Bundan sonra Şah Təhmasib qardaşı Bəhram Mirzənin oğlu Sultan Hüseynin adına sərəncam yazdırır, Qarabağa Şahverdi sultan Ziyadoğlunun ardınca çapar göndərir və onu da çağırtdırır. Məqsəd Qəndəhar istiqamətində böyük qoşun dəstəsi göndərmək idi. Əli sultan Tatioğlu Xorasan tərəfə göndərilir ki, orada olan Vəli xəlifəni də qoşun dəstəsi ilə birlikdə bu yürüşə cəlb etsin.

Bundan əlavə Şiraz hakimi Hüseyn xan da qoşun dəstəsi ilə Qəndəhar yürüşündə iştirak etmək idi. Qəndəhar istiqamətinə hərəkət edəcək bütün qoşunlara Sultan Hüseyn rəhbərlik etməli idi. "Aləmara-ye Şah Təhmasib"in məlumatına görə, Səfəvi qoşunları Qəndəhar şəhərini ələ keçirməli, sonra da Hümayun padşahın paytaxtına doğru hərəkət etməli və bütün Hindi tutmalı idi. Səfəvi qoşunları toplaşıb Herata doğru hərəkətə başlayandan sonra məlumat alındı ki, Hümayun padşah dünyasını dəyişib və oğlu Cəlaləddin Əkbər onun yerinə hakimiyyətə gəlib. Belə olanda qızılbaş əmirləri Şah Təhmasibə məlumat göndərirlər ki, nə etsinlər? Şah Təhmasib də belə bir göstəriş verir ki, Sultan Hüseynin rəhbərliyi altında Vəli xəlifə, Şahverdi xan Ziyadoğlu və Budaq xan Qacar Qəndəhara yollarını davam etdirsinlər, Qəndəhar şəhərini alıb sonrakı əmri gözləsinlər. Digər əmirlər isə qoşun dəstələri ilə birlikdə geri qayıtmalı idilər. Adları çəkilən əmirlər Fərahdan keçməklə Qəndəhara doğru hərəkətlərini davam etdirirlər. Qəndəhar hakimi Şah Məhəmməd Qəlati eşidəndə ki, Səfəvi qoşunları yaxınlaşmaqdadır qala daxilinə çoxlu ərzaq ehtiyatları toplayır və Cəlaləddin Əkbərə də xəbər göndərir ki, ona kömək etsin. Şah Məhəmməd Qəlati qala daxilində çəkilməklə müdafiə olunmaq niyyətində idi. Mənbənin məlumatına görə, Şah Məhəmməd Qəlatinin sərəncamında yeddi min nəfərlik bir qoşun dəstəsi var idi və bu qoşun üzvlərinin əksəriyyəti də tüfənglə silahlanmışdı. Səfəvi qoşunları bir ay müddətində Qəndəhar qalasını mühasirədə saxladılar. Mühasirənin uzandığı üçün qala divarları altından lağım atılmasına başlandı. Elə bu vaxt xəbər çatır ki, Hind padşahı tərəfindən Qəndəhar hakiminin köməyinə 12 min nəfərlik bir qoşun dəstəsi göndərilir. Şultan Hüseyn şübhə etmir ki, həmin qoşun dəstəsi Qəndəhar ətrafına yetişsə, onda Qəndəharın ələ keçirilməsi çətin olacaqdır. Ona görə də o, əmirlərə müraciət edərək belə deyir: "Bir igid, bir qəhrəman istəyirəm ki, bu dilavərlərdən bir dəstəsini götürüb o qoşunun qarşısına getsin və bütün o qoşunu bir-birinə qatsın. Əgər o qoşunlar bu qalanın ətəklərinə yetişsələr, xeyirli heç bir şey olmayacaqdır" (76).

Mənbədəki məlumata görə, bu vaxt aslan kimi şücaətli ola Şahverdi xan yerindən sıçradı və bildirdi ki, əgər rüxsət olsa, o, dörd minlik dəstə ilə həmin qoşunun qarşısına çıxar və yaradanın köməyi ilə əlindən gələni nümayiş etdirər. Budaq xan Qacar da Şahverdi xanla birlikdə getməyə və ona kömək göstərməyə hazır olduğunu bildirir. Beləliklə, qərara alınır ki, Şahverdi xanla Budaq xan dörd minlik bir qoşun dəstəsi ilə hind qoşunlarının qarşısını kəsməyə yollansınlar. Bu əmirlərin rəhbərliyi altında olan qoşun dəstəsi Qəndəhardan xeyli uzaqda, günorta vaxtı hind qoşunları ilə qarşılaşmalı olurlar. Uzun səfər yolçuluğu və bir də havanın xeyli isti olması hind qoşunlarını əldən salıbmış. Ona görə də bu qoşunlar hər hansı bir təhlükə hiss etmədən istirahətə dayanıbmış. Hind döyüşçüləri dərin bir yuxuya gedərək çadırlarında istirahətdə imişlər. Belə bir vaxtda qızılbaş qoşunları onların üstünə hücum çəkirlər. Hind qoşunları nə baş verdiyini duyunca onlara çox böyük itkilər yetirilir. Bu qoşunların böyük əmirlərindən biri təhlükəli vəziyyətə düşdüyünü görüncə atına minib qaçmaq istədi. Lakin Şahverdi xan özünü yetirib atdığı nizə ilə onu yerə saldı. Döyüşçülər isə onun əl-ayağını bağlayıb əsir götürdülər. Hind qoşunlarının baş komandanı da yaranmış vəziyyətdə yeganə çıxış yolunu ata minib qaçmaqda gördü. Şahverdi xan onun dalınca da at çapmağa başladı. Bu zaman hind qoşunları baş komandanının mehtəri öz əmirinin boynunu qılıncla vurdu və onun başını Şahverdi xanın ayaqları altına atdı. Mehtər görürmüş ki, Şahverdi xan yetişərək həm komandanın, həm də onun həyatına son qoyacaq. Belə vəziyyətdə mehtər heç olmasa öz canını qurtarmaq üçüm ağasının başını vurur və özü üçün aman diləyir. Şahverdi xan biləndə ki, qarşısındakı Hind əmirinin nökəridir, nökərinin ağasına qarşı belə hərəkətindən xoşu gəlmir və onun da həyatına son qoyur (77).

Qızılbaş qoşun dəstəsi ilə hind qoşunları arasında döyüş axşam namazına qədər davam edir. Göstərilən fədakarlıq nəticəsində hind qoşunları məhv edilir. Onların bir hissəsi qətlə yetirilir, bir hissəsi yaralanır, bir hissəsi də əsir götürülür. Verilən tapşırığı icra edəndən sonra qızılbaş qoşunları Qəndəhar ətrafına

qayıdırlar. Qəndəhar ətrafında isə Vəli xəlifənin rəhbərliyi altında olan qoşun dəstəsi qala bürclərinin birinin altına lağım atmaqla onu dağıtmağa müvəffəq olurlar. Bildirilir ki, bu zaman Vəli xəlifənin dəstəsi çoxlu şəhid versə də Qəndəharın azad edilməsi üçün ciddi bir uğur əldə edildi. Vəziyyəti belə görəndə Qəndəhar camaatı Sultan Hüseynin yanına elçilər göndərdilər, ondan aman dilədilər. Sultan Hüseyn həm Qəndəhar camaatını, həm də Qəndəharın iç qalasında gizlənmiş Qəlatini bağışladı, onların həyatına toxunmadı. Sonra da Şah Məhəmməd Qəlatiyə və qalada olan hind döyüşçülərini sağ-salamat qalanı tərk edib Hində yollanmaq icazəsi verildi. Adı çəkilən mənbənin məlumatına görə, Şah Təhmasib Qəndəharın azad edilməsindən çox sevindi və onun hökmü əsasında Budaq xan Qacar Qəndəhar yeni hakimi təyin edildi (78).

Bir daha qeyd edilməlidir ki, Şah Təhmasib haqqında olan əsas mənbələrdə və onun haqqında olan araşdırmalarda "Aləmara-ye Şah Təhmasib" əsərindəki məlumatlar təsdiq olunmamışdır.

## 5.Gilanın yenidən fəthi

Hələ Səfəvilər dövlətinin əsasının qoyulmasından əvvəl Şah İsmayıl (İsmayıl Mirzə) ilə Gilan arasında müəyyən münasibətlər formalaşmışdı. Məlumdur ki, İsmayıl Mirzənin həyatının ciddi təqiblərdən xilas edilməsində də Lahican hakimi Karkiya Mirzə Əlinin xüsusi xidmətləri var idi. Lahican Gilanın Biyəpiş hissəsinin mərkəzi idi. Gilanın digər böyük bir hissəsi isə Biyəpəs adlanırdı və bu hissənin mərkəzi şəhəri isə əvvəlcə Fumən, sonra da Rəşt olmuşdu. Şah Təhmasib hakimiyyət başına gələndə Biyəpişin hakimi Xan Əhməd ibn Sultan Həsən ibn Xan Əhməd Mazi idi. İsmayıl Mirzənin həyatını təqiblərdən xilas edən Karkiya Mirzə Əli Biyəpişin o zamankı hakimi Xan Əhməd Mazinin əmisi idi. Biyəpəsin hakimi isə Əmirə Dibac ibn Əmirə Hüsaməddin ibn Əmirə İshaq idi. Şah İsmayılın hakimiyyəti illərində Biyəpiş hakimləri ilə Səfəvi sarayı arasında xoş münasibətlər

mövcud idi. Amma Biyəpəsin o zamankı hakimi Əmirə Hüsaməddəin Səfəvi hakimiyyətini qəbul etmək istəmədi və vergi verməkdən imtina etdi. Belə olanda Şah İsmayılın göstərişi əsasında bölgəyə qoşun dəstəsi göndərildi. İtaətsizlik yolunu tutmuş olan Əmirə Hüsaməddinin qızılbaş qoşun dəstəsinə müqavimət göstərmək imkanı yox idi. Ona görə Şah İsmayılın ehtiramını qazanmış adamları vasitəçi etdi, onların vasitəsi ilə Şah İsmayıldan bağışlanmasını xahiş etdi. Şah İsmayıl də bu xahişi qəbul etdi. O, Əmirə Hüsaməddini cəzalandırmayaraq onu yenidən bölgənin hakimi vəzifəsində saxladı (79).

Biyəpiş hakimləri ilə Şah İsmayıl arasında xoş və sədaqətli münasibətlər formalaşdı və bu münasibətlər Şah Təhmasibin hakimiyyəti illərində də davam etdi. "Tarix-i aləmara-yi Abbasi" əsərində bununla bağlı belə qeydlər mövcuddur: "Hələ Süleyman şanlı xaqan [Şah İsmayıl nəzərdə tutulur] öz qardaşı Sultan Əli padşahın ölüm hadisəsindən sonra Gilana təşrif aparıb bir neçə il Lahicanda qaldığı zaman Xan Əhməd Mazinin əmisi Karkiya Əli və onun qardaşları Seyid Haşım və Sultan Həsən ona xoşagələn xidmətlər göstərmişdilər. Buna görə də cənnətməkan şah həzrətləri o sülalənin sabiq və birbaşa xidmətlərinin keyfiyyəti səbəbindən ona (Xan Əhmədə) münasibətdə lazımi qayğıkeşlik nümayiş etdirirdi. Belə ki, onun atası Sultan Həsənin 943-cü ildə (20.06.1536 - 09.06.1537) baş vermiş ölümündən sonra Xan Əhməd hələ bir yaşında südəmər körpə ola-ola [Şah Təhmasib tərəfindən] atasının yerinə [Biyəpiş hakimi] təyin edilmişdi. O sülaləyə (Biyəpiş hakimləri nəslinə) müxalif olan kəslərin və Gilanın iddia sahibi olan əmirlərinin ona (körpə Xan Əhmədə) münasibətdə ziyankarlıq edə biləcəklərini nəzərə alan Gilan əmirlərindən biri və [mərhum] Sultan Həsənin vəkili olan Kiya Xurkiya Talqaninin bir neçə dəfə təkrarladığı xahişləri nəticəsində [Şah Təhmasib] Bəhram mirzəni Gilana göndərdi ki, bir müddət əyaləti başqalarının qəsb etməsinə imkan verməsin. Lakin Bəhram mirzə zorakı adamların sözlərinə əməl edib, Kiya Xurkiyanı həbs etdi. Buna görə də gilanlılar ondan incidilər və o, Gilan vilayətini tərk etdi. Elə ki Xan Əhməd həddi-buluğa çatdı, cənnətməkan şah

günbəgün onun mövqeyini yüksəltdi. [Xan Əhməd] Neyney adlı bir qızla evləndi və bu izdivacdan Sultan Cəng adlı oğlu dünyaya gəldi. Cənnətməkan şah o oğlana Sultan Həsən adını qoyub, onunla öz oğlu kimi davrandı və axırda ona qohumluq müjdəsi verdi (onunla qohum oldu)” (80).

Səfəvi sarayının Biyəpəs hakimləri ilə münasibətləri isə bir qədər fərqli şəkildə davam edirdi. Nə qədər ki, Şah İsmayılın hakimiyyəti möhkəm idi Gilanda bu meyl özünü qabarıq şəkildə göstərmirdi. Şah İsmayılın hakimiyyətinin zəifləməsi hiss olunanda, xüsusi ilə Çaldıran döyüşündən sonra bölgədə mərkəzdənqaçma meylinin yenidən güclənməsi müşahidə olundu. 1519-cu ildə Şah İsmayıl Xəzərkənarı bölgələrdə ovda olarkən Biyəpəs hakimi Əmirə Dibacın itaətsizlik yolunu tutması haqqında məlumat aldı. Görünür, Əmirə Dibac ətrafına müəyyən qədər qüvvə toplaya bilmişdi və mərkəzi hakimiyyətə qarşı hansısa bir təhlükəni törədirdi. Çünki Şah İsmayıl bu itaətsizliyin qarşısının alınmasına çox ciddi yanaşdı və dərhal da Biyəpəsə güclü qoşun dəstəsi göndərmək haqqında göstəriş verdi. Onun tapşırığına əsasən bacısı oğlu Durmuş xanla təcrübəli qızılbaş əmirlərindən olan Zeynal xan Rəştə yollanacaq qızılbaş qoşun dəstəsinə rəhbərlik etməli idi. Mövcud olan məlumatlara görə, Mazandaran və Rüstəmdar hakimi Əmir Əbdülkərimlə Lahican hakimi Sultan Əhməd də öz qoşun dəstələri ilə Əmirə Dibacın qiyamının yatırılmasında iştirak etməli idilər. Hətta Şah İsmayılın özü də Rəştə yollanmaq qərarına gəldi. O, Tarom və Fuməndən keçməklə Rəştə doğru irəliləməli idi. Çaldıran döyüşündən sonra döyüş meydanlarına çıxmayan Şah İsmayıl yalnız Əmirə Dibacın qiyamının yatırılmasında iştirak etdi. Bu məqam özü də Əmirə Dibac qiyamının yatırılmasına Şah İsmayıl tərəfindən hansı əhəmiyyətin verildiyinin göstəricisi idi. Əmirə Dibac da biləndə ki, onun tərəfindən başlanan itaətsizliyin aradan qaldırılması üçün böyük qoşun dəstəsi ilə şəxsən Şah İsmayılın özü bölgəyə gəlir, onda əməlindən peşman oldu. O, həm bölgənin ağsaqqallarının vasitəçiliyi, həm də Biyəpiş hakimi Xan Əhmədin vasitəçiliyi Şah İsmayıl qarşısında günahlarının bağışlanmasını xahiş etdi. Bu

xahişlərdən sonra Şah İsmayıl Rəşt hakiminin günahlarını bağışladı və onu öz vəzifəsində saxladı. 1519-cu ildə Şah İsmayıl Həmədanda olarkən Əmirə Dibac özü də Şah İsmayılın görüşünə gəldi, əməlləri üçün peşmançılığının bir daha dilinə gətirdi. Şah İsmayıl da nəinki onun günahlarını bağışladı, verdiyi sözün səmimiliyinə inanaraq onunla qohumluq əlaqəsi qurdu, qızını ona nikah etdirdi və onu öz kürəkəninə çevirdi. Səfəvi şahı ona Müzəffər sultan ləqəbi verdi və Şah İsmayılın həyatının sonuna qədər Əmirə Dibac da ona olan itaətini itirmədi (81).

Şah Təhmasibin hakimiyyətə gəlişindən sonra Əmirə Dibac (Müzəffər sultan) ilə olan münasibətlərdə bir dəyişiklik yarandı. Bu dəyişikliyin səbəbi barəsində mənbələrdə yetərli bir məlumat yoxdur. Əmirə Dibacla Şah Təhmasib qohum olaraq qalmaqda idilər. Amma bu qohumluq onlar arasında heç də səmimi münasibətlərin zəmini olmadı. Şah Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş əmirləri arasında baş verən qarşıdurmaların iştirakçılarından biri olan Köpək sultan ona qarşı vəziyyətin dəyişdiyini görəndə rəhbərliyi altında olan qoşun dəstəsi ilə Rəştə çəkildi və Əmirə Dibaca sığındı. Əmirə Dibac da saraya qarşı müxalifət kimi qiymətləndirilən Köpək sultana və onun qüvvələrinə yanında yer verdi, onlar qayğı göstərdi. Məlumatlara görə, Köpək sultanla birlikdə Rəştə pənah gətirmiş bəzi qızılbaş əmirləri, o cümlədən Bədr xan, Həmzə sultan və digərləri Əmirə Dibacın qayğısından imtina etdilər və Şah Təhmasibin yanına dönərək ondan aman istədilər. Şah Təhmasib də onları bağışladı və onlara yüksək məqamlar lütf elədi. Əmirə Dibac və ona pənah gətirmiş qızılbaş əmirləri isə Şah Təhmasibə müxalif mövqe tutdular.

Əmirə Dibacda əvvəllər özünü göstərmiş olan mərkəzdən qaçma meyli yenidən güclənməyə başladı. Heç şübhəsiz ki, Şah Təhmasibin kiçik yaşda olması, dövlət idarəçiliyində kifayət qədər iqtidarlı olmaması, habelə qızılbaş əmirləri arasında qarşıdurmalar və çaxnaşmalar olması Əmirə Dibacın Səfəvi sarayından qopması üçün münasib zəmin yaradırdı. Yaranmış vəziyyətdən səmərəli istifadə edilməsi ehtimalı Əmirə Dibacda müstəqil olmaq ümidlərini artırırdı. Mövcud olan məlumatlara görə, Os-

manlı qoşunlarının Azərbaycan üzərinə ilk hücumundan əvvəl Əmirə Dibacın xanımı, Şah İsmayılın qızı, yəni Şah Təhmasibin bacısı dünyasını dəyişdi və Əmirə Dibac onu dəfn edilmək üçün Ərdəbilə göndərdi (82). Bundan sonra Əmirə Dibacın Səfəvi sarayı ilə qohumluq əlaqələri də qırılmış oldu. Bununla bir tərəfdən Əmirə Dibacın Səfəvi sarayı ilə bağlılığına son qoyuldu. Digər tərəfdən də Əmirə Dibacda belə bir nigarançılıq da yarandı ki, qohumluq əlaqələrinin mövcud olmadığı halda Şah Təhmasibin ona qarşı münasibəti kəskinləşə bilər. Sultan Süleymanın Azərbaycan üzərinə qoşun çəkməsi isə Əmirə Dibacın Səfəvi sarayından birdəfəlik üz döndərməsinə yol açdı. Dünyaya meydan oxuyan Sultan Süleymanın böyük sayda qoşunla Azərbaycan üzərinə gəlməsi Əmirə Dibacda belə bir təəssürat yaratdı ki, Səfəvi dövlətinin süqutu artıq qaçılmazdır. Ona görə də, Əmirə Dibac çoxlu sayda qiymətli hədiyyələrlə Rəşti tərk edib Sultan Süleymanın düşərgəsinə yollandı. O zaman Sultan Süleymanın düşərgəsi Ucanda qərar tutmuşdu. Rəşti tərk edəndə isə Əmirə Dibac vilayətin idarəçiliyini yaxın adamlarından saydığı Əmirə Hatəmə tapşırdı. Əmirə Dibac Osmanlı sultanını Azərbaycan ərazilərində bir xeyli müşayiət etdi. Amma onlar arasında ciddi münasibətlər yaranmadı və bütünlükdə Əmirə Dibacın Osmanlı sultanına bağladığı ümidlər özünü doğrultmadı. Başlıcası isə Əmirə Dibacın özünün də təəccübünə səbəb olan çoxsaylı Osmanlı qoşunları Səfəvi dövlətini süquta uğrada bilmədilər və Əmirə Dibac əli ətəyindən uzun geri qayıtmaq məcburiyyətində qaldı. O nəinki hakimiyyətinin müstəqilliyinə nail ola bilmədi. Hətta malik olduğu hakimiyyəti də itirməli oldu. Belə ki, Əmirə Dibac geri qayıdanda müvəqqəti olaraq öz yerinə təyin etdiyi Əmirə Hatəm onu Rəşt şəhərinə buraxmadı (83).

Əmirə Dibacın yoxluğu zamanı Əmirə Hatəm ətrafına sədaqətli olan qüvvələri toplamış və onlarla vədələşərək Əmirə Dibacı şəhərə buraxmamağı qərara almışdılar. Bu adamların tərəfdarları arasında Rəşt ətrafında güclü döyüş baş verdi. Mənbələr də təsdiq edirlər ki, bu döyüş kifayət qədər ağır bir döyüş oldu və sonda Əmirə Dibac uğursuzluğa düçar oldu. Bu yaranmış və-

ziyyətdə o öz həyatını belə çətinliklə xilas edə bildi. Əmirə Dibac xilas yolunu qayığa minib Xəzər sularına sığınmaqda gördü. O, Rəştdən qaçaraq bu şəhərin altı kilometrliyində olan Pirbazar adlanan məntəqəyə gəldi və burada qayığa minərək dənizə çıxdı. Bu qayıq bir neçə gün sərgərdan Xəzər sularında üzdü və bir neçə gündən sonra Əmirə Dibac Bakı yaxınlığında sahilə yan aldı. Şirvanşah Sultan Xəlil onun bu gəlişindən xəbər tutan kimi yanına apardı, ona qayğı göstərdi (84).

"Xülasüt-təvarix" əsərinin məlumatına görə, bir müddətdən sonra Əmirə Dibac kiçik bir dəstə ilə yurduna qayıtmaq istədi və Talış ətrafına gəldi. Amma tezliklə onun burada olmasından xəbər tutuldu və şahın adamları onu həbs edərək Təbrizə apardılar. Şah Təhmasibin göstərişi ilə bütün şəhər əhli onun qarşılanmasına çıxarıldı. Çoxlu sayda qaval vuranlar və məzhəkəçilər adamların diqqətini məhbusun üzərinə cəmlənməsinə çalışdılar. Əmirə Dibac isə təhqiramız bir şəkildə şəhərə gətirildi, əyninə cındır paltarlar geyindirildi və camaat qarşısında alçaldıldı. Təbrizin Şahibabad məhəlləsində Əmirə Dibac dəmir qəfəsə salındı. Sonra da od vurub onu yandırdılar (85).

"Tarix-i aləmara-yi Abbasi" əsərində isə Əmirə Dibacın qətlə yetirilməsi aşağıdakı kimi təsvir olunmuşdur: "Biyəpəs valisi Müzəffər sultan da [Səfəvi] xanədanı ilə qohumluq şərəfinə nail olsa da, sonradan xilaf çıxdı və üsyan qaldırdı. Belə ki, Rum xondgarı Sultan Süleymanın birinci dəfə Əcəm diyarına qoşun çəkdiyi il [Müzəffər sultan] bu əbədi dövlətdən (Səfəvi dövlətindən) üz çevirərək, Təbrizin Ucan adlı yerinə qədər onu qarşılamağa gedib, ona itaətkarlıq və tabeçilik izhar etdi. Sultan Süleymanın çıxıb getməsindən sonra [Müzəffər sultan] Gilana qayıtdı. Lakin onun mülazimlərindən olan Əmirə Xatəm Rəşti ona qarşı çıxıb, onun Rəştə getməsinə yol vermədi. Tərəflər arasında çox ağır bir müharibə baş verdi. Müzəffər sultan məğlub oldu və Gilanda qalmağa macal tapmadı. O, gəmiyə minib, dəniz yolu ilə Şirvana getdi. O vaxtlar Sultan Xəlil şirvanşah idi. O da bu [Səfəvi] sülaləsi ilə qohumluq şərəfinə nail olmuşdu. Həmin vaxt şirvanşah [Sultan Xəlil] Müzəffər sultanı tutub, yanında saxladı.

Onun məqsədi bu idi ki, əgər bacararsa Müzəffər sultanın günahının əfv olunmasını [Şah Təhmasibdən] xahiş etsin və əgər [bu xahiş şah tərəfindən] qəbul edilməsə, onda əşrəfin istəyi nə olacaqsa ona əməl etsin. Amma elə həmin günlərdə Sultan Xəlil axirət dünyasına köçdü. Cənnətməkan şah həzrətləri Müzəffər sultanı gətirmək üçün Şirvana adam yolladı. Şirvan əmirləri onu təhvil verməkdən özgə bir çarə tapa bilmədilər. Beləliklə, 942-ci ildə (02.07.1535-19.06.1536) Müzəffər sultan cahan şahının (Təhmasibin) bəxtəvərliyi sayəsində xilafət məqamlı [Səfəvi sülaləsinin] mülazimlərinin əlinə keçib, darüssəltənə Təbrizdə şahın hüzuruna gətirildi və hökmdar fərmanına uyğun olaraq, onu dəmir qəfəsə salıb, Həsən padşah məscidinin iki minarəsi arasından asaraq, ona od vurdular. Onun övladı Sultan Mahmud xan cənnətməkan şahın bacısı oğlu olmasına və atasının müxalifliyi və üsyanı zamanı heç bir xəta törətməməsinə baxmayaraq, öz iris mülkünün hökumətindən məhrum edildi. Onun ölkəsi (Biyə-pəs) [Xan Əhmədin oğlu] Sultan Həsənə verildi" (86).

Başqa bir məlumata görə isə, Əmirə Dibac hələ Şirvanda olduğu vaxt şirvanşah Sultan Xəlil dünyasını dəyişdi. Sultan Xəlilin xanımı da Şah İsmayılın qızlarından biri idi və Əmirə Dibac ona nikah kəsdirməyi təklif etdi. Sultan Xəlilin dul qalmış xanımı isə belə bir nikah mümkünlüyünün Şah Təhmasibin razılığına bağlı olduğunu bildirdi. Bununla da bu nikah alınmadı. Çünki Şah Təhmasibin belə bir nikaha icazə verməyəcəyi aydın idi və Şah Təhmasib də onun ələ keçirilməsi üçün yollar arıyırdı. Bu məqsədlə Şah Təhmasib təcrübəli əmirlərindən olan Bəyazid sultan Şamlıya yüz atlı verərək onu Şirvana göndərdi. Bəyazid sultan da Əmirə Dibacı Şirvanda ələ keçirib Təbrizə gətirdi. Təbrizdə onun uzunqulaq üstünə oturdub şəhərə daxil etdilər. Onun saqqalının və bığının da qırxılması haqqında məlumat vardır. Bir məlumata görə, Əmirə Dibac Təbrizə gətiriləndə onun yerinə Rəştdə hakimiyyəti ələ almış Əmirə Hatəm də tutularaq Təbrizə gətirilmişdi. Əmirə Dibac Şirvana qaçdıqdan sonra Əmirə Hatəm heç də Rəşdə rahat şəkildə hakimlik edə bilmədi. Yerli əmirlər onun hakimliyi ilə barışmadılar. Əmirə Dibacın

əmirlərindən biri olan Rüstəm Fumənі də həmin əmirlərdən biri idi. O, Əmirə Hatəmlə döyüşə girdi və onun məğlub edərək həbs etdi. Sonra da onun həbs edilməsi barəsində Şah Təhmasibə xəbər göndərildi. Şah Təhmasibin əmri ilə Əmirə Hatəm Təbrizə yola salındı və orada zindana atıldı. Deyilənə görə, həm Əmirə Dibac, həm də Əmirə Hatəm qətl edilməzdən əvvəl uzunqulaqlara mindirilib Təbriz küçələrinə çıxarılmışdı. Əmirə Dibac özünü saxlaya bilməyib Əmirə Hatəmə deyir ki, gördünmü ki, mənim çörəyim səni necə tutdu. Əmirə Hatəm də cavab verir ki, məni sənin çörəyin tutdusa, səni də Şah Təhmasibin çörəyi tutdu. Mövcud məlumata görə, onların arasında baş vermiş bu danışıq Şah Təhmasibə çatdırılır. Əmirə Hatəmin cavabı ona xoş gəldiyi üçün Şah Təhmasibi əmri ilə onu azad edirlər. Əmirə Hatəm Kirmana yollanır və həyatını da orada başa vurur. Əmirə Dibac (Müzəffər sultan) isə deyildiyi kimi dəmir qəfəsə salındı və od vurulub yandırıldı (87).

Şah Təhmasib yalnız Əmirə Dibacı qətlə yetirməklə kifayətlənmədi. Həm də onun nəslini Biyəpəsə hakimlikdən məhrum etdi. Baxmayaraq ki, Əmirə Dibacın övladları həm də Şah Təhmasibin bacısı uşaqları idi. Biyəpəsin hakimliyi yuxarıda qeyd edildiyi kimi, Biyəpiş hakimi Xan Əhmədin oğlu Sultan Həsənə həvalə olundu. Elə həmin vaxtlarda Sultan Həsən taun xəstəliyinə tutularaq dünyasını dəyişdi. Onun oğlan övladı da Xan Əhməd adlanırdı və bu vaxt onun cəmi bir yaşı var idi. Sultan Həsənin etibar etdiyi əmirlərindən olan Əmir Abbas onun atasının yerinə hakimiyyət başına gəlməsini təmin etdi. Əslində isə hakimiyyət real olaraq onun əlində idi və Xan Əhməd adından Piyəpişlə Biyəpəsin idarəçiliyini öz üzərinə götürə bilərdi. Sultan Həsənin vəkili olmuş Talqani isə, görünür, Əmir Abbasın hakimiyyəti öz əlində cəmləşdirməsi ilə razı deyilmiş. Ona görə də Talqani şah sarayına gəlir və Şah Təhmasib qarşısında Gilanın fəth edilməsinin məqsədəuyğunluğu barəsində məsələ qaldırır. Şah Təhmasib də bu təklifin icrasını məqsədəuyğun saydı və qardaşı Bəhram Mirzəni Gilan hakimi təyin etdi. Bəhram Mirzə qoşun dəstəsi ilə Gilana gəldi və buradakı hakimiyyətinin ilk altı ayı ərzində Dey-

ləmanda özünə məskən seçdi. Amma Gilan əmirlərinin heç də hamısı bu təyinatla razı deyildilər. Ona görə də Gilanın ənənəvi hakimliyinin bərpasını arzulayan bəzi əmirlər kiçik yaşlı Xan Əhmədi dağlara apardılar və orada yerləşdirdilər. Mövcud məlumatlara görə, Bəhram Mirzənin idarəçiliyi heç yerli əhalinin də müəyyən dairələrini razı salmırdı. Bəzi adamlar isə Bəhram Mirzənin etibarından sui-istifadə edərək insanları razı salmayacaq qərarların qəbul edilməsinə nail olurdular. O cümlədən, bəzi adamların təhriki isə Bəhram Mirzə onun bu bölgəyə hakim təyin edilməsinə vasitəçilik etmiş Xurkiya Talqaninin həbs edilməsinə nail oldular. Bu da Talqaniyə böyük hörmət və ehtiramla yanaşan insanları razı salmadı və bununla bölgədə Bəhram Mirzə əleyhinə bir hərəkat formalaşmağa başladı. Bu hərəkat sonda silahlı qarşıdurmaya çevrildi və həmin qarşıdurmada uğursuzluğa düçar olan Bəhram Mirzənin Gilanı tərk etməkdən başqa çıxış yolu qalmadı (88).

"Əhsənüt-tarix" əsərinin müəllifi Həsən bəy Rumluda Gilandan geri qayıdan Bəhram Mirzəni Qəzvində qarşılayanlar arasında idi. O, baş vermiş hadisəni belə təsvir edirdi: "…dinin pənahı olan şahın Herata və Xorasana getməsindən öncə Bəhram mirzəyə Gilan hakimliyini [verib onu oraya] göndərdilər. Mirzənin Gilana getməsinin səbəbi odur ki, Gilan valisi Karkiya Sultan Həsən Tanrının rəhmətinə qovuşduqdan sonra Sultan Həsənin vəkili Kiya Xurkiya Talqani aləmin pənahı olan dərgaha gəldi və Gilan vilayətinə bir hakim təyin edilməsini xahiş etdi. Dinin pənahı olan şah, Bəhram mirzəni çoxlu qoşunla Gilana göndərdi. Mirzə əbləhlərin məsləhəti ilə altı ay Deyləmanda qaldı və o vaxt Kiya Xurkiya igidlik əlamətli bahadırlardan beş yüz nəfərlə Əşkur yolundan qəflətən özünü Lahicana saldı. Bəhram mirzə aləmi yandıran qoşunla elə həmin gün Lahicana daxil oldu. Gilan əmirlərindən on səkkiz nəfər şahzadənin dərgahına gəldi. Mirzə o diyara gəldikdən sonra həmin vilayətin əksəriyyəti onun hakimiyyəti altına keçdi. O əsnada mirzə cənabları gilanlılar arasında tam etibar sahibi olan Kiya Xurkiya Talqanini hərcayi adamların sözü ilə həbs etdirdi və bu səbəbdən gilanlılar qazilərə

qarşı müxaliflik etməyə başladılar. Bəhram mirzə məğlub olub Dəryarək yaylağına gəldi. Neçə gündən sonra o, Qəzvinə gəldi. Bu sətirlərin müəllifi Həsən Rumlu o vaxt Qəzvində idi və həmin şəhər tiyul kimi onun babası Əmir sultana məxsus idi. Anamla birlikdə [Bəhram mirzəni] qarşılamaq mərasimini və təzim etmək şərtini yerinə yetirdik, peşkəş kimi xeymə, alaçıq, saray pərdəsi, bargah çadırı, nağd pul, yaxşı atlar, qumaşlar və dəyərli mallar təqdim etdik. Böyüklər və əyan-əşrəflər dua etmək və bəxşiş vermək vəzifəsini icra etdilər" (89).

Bəhram Mirzə Gilandan qayıtdıqdan sonra həmin bölgədə uzun müddət sabitliyi yaratmaq mümkün olmadı. Xüsusilə, Gilan hakimlərinin nəslinin davamçıları bölgədə hakimiyyət iddiasına düşdülər və öz niyyətlərinin həyata keçirilməsi üçün konkret addımlar da atdılar. Məlumdur ki, Bəhram Mirzədən sonra yaranmış hakimiyyətsizlikdən istifadə edən Əmir Şahrux adlı birisi Biyəpəsdə idarəçiliyi öz əlinə aldı. Əmir Şahrux qətlə yetirilmiş Əmirə Dibacın qardaşı oğlu idi və hakimiyyətin irsiliyi məsələsindən bəhrələnməklə idarəçiliyi ələ keçirə bilmişdi. Əmir Şahrux təxminən yeddi il ərzində Biyəpəsdə idarəçiliyi əlində saxlaya bildi. Mövcud məlumatlara görə, Əmir Şahrux çalışırdı ki, Səfəvi sarayı ilə qarşılıqlı əlaqələr qursun və öz idarəçiliyinin davamlılığını əldə etsin. Bu məqsədlə o, hətta Gilanda Şah Təhmasibin adına sikkə də vurdurmuşdu. Bir müddətdən sonra onu Səfəvi sarayına dəvət etdilər. Məlumatlara görə, o, təxminən yeddi ay Səfəvi sarayında qaldı. Bu müddət ərzində Əmirə Şahrux hakimiyyətinin Səfəvi sarayı tərəfindən qəbul edilməsinə nail olmadı. Yeddi aydan sonra Əmir Şahrux Səfəvi sarayı ilə razılaşdırmadan Gilana qayıtdı. Bu da Səfəvi sarayını razı salmadı. Saraydan verilən göstəriş əsasında Əmir Şahrux və tərəfdarları bölgəyə göndərilmiş qoşun dəstəsi tərəfindən həbs edilərək Təbrizə göndərildi. Burada Əmir Şahrux və onun tərəfdarları qətlə yetirildilər (90).

Gilanda bu hadisələrin baş verməsindən sonra Şah Təhmasib yerli hakimlərin idarəçiliyinin bərpasını məqsədəuyğun saydı və qətlə yetirdiyi Əmirə Dibacın (Müzəffər sultanın) oğlu Sultan

Mahmudu Biyəpəs hakimi elan etdi. Əmirə Dibacın bacısının əri olan Xalxal hakimi Daşdar bəy də Sultan Mahmudun lələsi təyin edildi. Ondan başqa Karkiya Əhməd sultan Fuməni adlı birisi də Sultan Mahmudun vəkili vəzifəsinə gətirildi. Bu adamlar həmin vəzifələrə seçilmişdilər ki, kiçi yaşlarında olan Sultan Mahmudun idarəçilik işlərinə kömək etsinlər. Beş il bu minvalla ötdü və bu beş ildən sonra Gilanda yeni bir şərait yarandı. Sultan Mahmudun vəkili vəzifəsinə təyin edilmiş Əhməd sultan Fuməni Şah Təhmasibə xahişlə müraciət etdi ki, onu Sultan Mahmudun yerinə hakim təyin etsin və yerli idarəçiliyi ona tapşırsın. Əhməd sultan Fuməni bəyan edirdi ki, Sultan Mahmud idarəçilik qabiliyyətinə malik deyildir və ona görə də bölgəni lazım olan qaydada idarə edə bilmir. Əhməd sultan vəd edirdi ki, hakim təyin ediləcəyi təqdirdə xəzinə vergilərini vaxtlı-vaxtında ödəyəcəkdir. Bu xahişdən sonra Şah Təhmasib həm Sultan Mahmudu, həm də Əhməd sultan Fumənini Qəzvinə çağırtdırdı və Sultan Mahmudu bölgə hakimliyi vəzifəsindən kənarlaşdırdı. Sultan Mahmud Şiraza göndərildi və Şah Təhmasib tərəfindən orada Mövlana Məhəmməd adlı birisi onun müəllimi təyin edildi. Nəzərdə tutulmuşdu ki, Mövlana Məhəmməd də Sultan Mahmudun təlim-tərbiyəsi ilə məşğul olsun. Əhməd sultan Fuməniyə gəlincə isə o arzu etdiyi vəzifəyə təyin edilmədi. Əhməd sultan daha geri qayıtmadı, Astaraya yolandı və ömrünün sonuna kimi orada qaldı (91).

Biyəpiş hakimi Karkiya Sultan Həsənin dünyasını dəyişməsindən sonra onun bir yaşlı oğlu Xan Əhmədin hakimiyyətə gətirilməsi ilə Şah Təhmasib razılaşmasa da, sonradan bu ailə ilə də xoş münasibətlərin yaradılmasını məqsədəuyğun saydı. Xan Əhməd Biyəpişin hakimi elan edildi. Onunla Şah Təhmasib arasında kifayət qədər xoş münasibətlər formalaşdı. Mövcud olan məlumatlara görə, Xan Əhməd kifayət qədər ağıllı, zəkalı, istedadlı və bilikli bir adam idi. Ədəbiyyata xüsusi marağı var idi və özünün də qələm nümunələri var idi. Bundan başqa onun musiqi və nücumla dərin bağlılığı var idi. Sənət adamlarını ətrafına toplayar və onları qayğı altına alardı. Bütün bu cəhətlərinə görə Xan Əhməd insanlar arasında da hörmət və ehtiramla qarşılanırdı.

Görünür, Şah Təhmasib də elə bu keyfiyyətlərinə görə ona ehtiramla yanaşırdı. Xan Əhmədin oğlu dünyaya gələndə Şah Təhmasibin təklifi ilə ona Sultan Həsən adı verildi. Şah Təhmasibin Xan Əhməd ailəsinə qarşı elə bir istəkli münasibəti yaranmışdı ki, Biyəpəsin hakimi olan Sultan Mahmudu hakimlikdən kənarlaşdırıb Şiraza göndərdikdən sonra onun vilayətini, yəni Biyəpəsi Xan Əhmədin kiçik yaşlı oğlu Sultan Həsənə bağışladı. Nəticədə Xan Əhməd həm Biyəpişin, həm də Biyəpəsin hakiminə çevrildi. Görünür, bu böyük səlahiyyətlər onun xarakterinin iddialığına da öz təsirini göstərdi. Çünki Xan Əhməd elmə, sənətə yüksək qiymət verən bir adam olmaqdan əlavə, həm də qəddar, qisasçı, iddialı, hakimiyyətpərəst, qaniçən və s. kimi keyfiyyətlərə də malik idi. Bu keyfiyyətlər isə tezliklə onun Şah Təhmasib ilə olan münasibətlərinə də özünəməxsus şəkildə təsir göstərdi. Xan Əhməd Biyəpəsə sahib olduqdan sonra bu bölgənin keçmiş hakimi, Şah Təhmasib tərəfindən Şiraza sürgün olunmuş Sultan Mahmudu da zəhərlətdirib öldürdü. Ola bilsin ki, Xan Əhməd Biyəpəsin keçmiş hakimi Sultan Mahmudun nə vaxtsa yenidən bu bölgəyə iddia qaldıra bilməsindən ehtiyat edirdi. Ona görə də ona müəllim təyin edilmiş Mövlana Məhəmmədlə sövdələşərək onun vasitəsi ilə Sultan Mahmudu zəhərləyib qətlə yetirə bildi. Aparılan araşdırmalardan sonra Sultan Mahmudun onun müəllimi tərəfindən zəhərləndiyi məlum oldu. Belə ki, Xan Əhməd tərəfindən Gilandan Şiraza göndərilmiş Molla Şəkər adlı birisi Mövlana Məhəmmədlə sövdələşə bilibmiş. Mövlana Məhəmməd də Sultan Mahmud hamama yollananda onun üçün hazırlanmış qarpızı zəhərləyə bilibmiş. Bunlardan xəbər tutandan sonra Şah Təhmasib qətlin təşkilində iştirak edən Molla Şəkərin Gilanda olduğunu eşidəndə Xan Əhməddən onu təhvil verməyi tələb etdi. Xan Əhməd isə bu tələbi icra etmədi və bununla Səfəvi sarayına qarşı müxalifətə başladığını ortaya qoydu. Mövcud olan məlumata görə, Şah Təhmasib bu vəziyyətdə Sultan Mahmudun ailəsini də qayğı altına götürdü. O, Sultan Mahmudun xanımının və onun yenicə doğulmuş oğlan uşağının mühafizəsini də etibarlı adamlara tapşırdı (92).

Həsən bəy Rumlu "Əhsənüt-təvarix" əsərində Xan Əhmədin göstərilən bütün qayğılara baxmayaraq Səfəvi sarayına qarşı üzüdönüklük etməsini belə dəyərləndirirdi: "Bu il Gilan valisi Xan Əhməd zəlalət bələdçisinin yol göstərməsi ilə cürət və cəsarət qədəmini müxaliflik və tüğyan vadisinə qoydu və başını inadkarlıq yaxasından çıxarıb müxaliflik üzündən uzlaşmanın qarşısına sipər çəkdi. Baxmayaraq ki, sözügedən şəxs və onun ata-babaları bu dövlətə (Səfəvilər dövlətinə) bac vermiş və itaət etmişdilər. Hərçənd onu növbənöv nəsihətlərlə dolu və cürbəcür öyüdlərlə əlaqəli olan misallar və hökmlərlə tənbeh etsələr də, faydası olmadı. O, süni bəhanələr və ağılsız sözlərlə özünü təmizə çıxarmağa çalışdı" (93).

Xan Əhməd bununla da kifayətlənmədi. O, səltənətin digər ərazilərini də zor tətbiq etməklə özünün idarəçiliyi altında olan ərazilərə birləşdirməyə başladı. Başqa sözlə, açıq şəkildə onu hakimiyyətə gətirən və ona vilayət yaradan Şah Təhmasibə meydan oxumağa başladı. Belə ki, Xan Əhməd onun vilayətinə qonşu olan Gəskər və Kuhdəmə qoşun çıxardı. Bu vilayətlərin hakimləri olan Əmirə Sasani və Mirzə Kamranla döyüşə girdi. Üstün hərbi qüvvəyə malik olduğu üçün Xan Əhməd onların hər ikisini məğlub etdi və onları öz vilayətlərindən qaçmağa məcbur etdi (94).

Mənbələrdə olan məlumata görə, Xan Əhmədin müxalifətçiliyini Şah Təhmasib nigarançılıqla qarşıladı. Lakin dərhal ona qarşı sərt tədbirlər qəbul etmək istəmədi. "Xülasüt-təvarix" əsərinin müəllifi və hadisələrin şahidi Əhməd Hüseyni Qumi yazırdı ki, Şah Təhmasibin sarayının yerləşdiyi Qəzvinlə Gilan arasında iki-üç günlük məsafə vardır. Buna baxmayaraq Şah Təhmasib sərt qərarlar verib silahlı yolla bölgənin nəzarət altına gətirilməsinə tələsmədi və Xan Əhmədin əməlləri qarşısında dözümlülük göstərirdi. Şahın çağırışlarına da məhəl qoymayan Xan Əhməd Qəzvinə yollanmaqdan da imtina etdi. Görünür, Şah Təhmasib Gilan hərəkatının aradan qaldırılması üçün bütün mümkün dinc vasitələrdən istifadə etməyi qərara almışdı. Onun göstərişi əsasında Qazi Məhəmməd Vəramini adlı birisi 65 beytlik bir qəsidə yazaraq Xan Əhmədə göndərdi. Bu qəsidənin də

məzmununu Xan Əhmədin asilik yolundan çəkindirilməsi təşkil edirdi. Qəsidə müəllifi də öyüd-nəsihət yolu tutaraq Xan Əhmədi doğru yola, Səfəvi sarayına itaət yoluna dəvət etməyə çalışırdı. Bu nəzm əsərində Xan Əhmədə edilən lütfdən söz açılır və onun da bu lütfü düzgün dəyərləndirilməsinin vacibliyi qeyd edilirdi. Səfəvi sarayına qarşı asilik və itaətsizlik məzhəb baxımından da doğru sayılmırdı. Qəsidə müəllifi Gilan hadisələri ilə bağlı Şah Təhmasiblə Şahzadə Bəyazid arasında olan bir söhbəti də nəzmə çəkərək Xan Əhmədin diqqətinə çatdırırdı. Həmin söhbətin məzmununa görə, bir dəfə Şahzadə Bayəzid Səfəvi şahından soruşur ki, əgər bir şah öz evini əlindı saxlaya bilmirsə bu şah Osmanlı xaqanı ilə necə mübarizə apara bilər? Şah Təhmasib hansı evdən söhbət getdiyini soruşanda Şahzadə Bəyazid cavab verir ki, o, Gilanı nəzərdə tutur. Şah Təhmasib deyilənin doğru olmadığını bəyan edəndə Şahzadə Bəyazid bir də bildirir ki, onda bəs nə üçün Gilan hakimi şahın çağırışları əsasında Qəzvinə gəlmir. Bu söhbətin xatırlanmasından sonra qəsidə müəllifi Xan Əhmədi də Səfəvi şahının lütfü qarşısında itaətsizlikdən əl çəkməyə, doğru yola qayıtmağa çağırırdı (95).

Bədii sahədə müəyyən istedada malik olan Xan Əhməd də Səfəvi sarayından aldığı qəsidəyə öz qəsidəsi ilə cavab verdi və həmin qəsidəni qiymətli hədiyyələrlə bərabər şah sarayına göndərdi. 68 beytdən ibarət olan bu qəsidə də "Xülasüt-təvarix" əsərində öz əksini tapmışdır. Bu qəsidədə şahın tərifi də var idi, Şahzadə Bəyazidin tənqidə tutulması da var idi, Səfəvi şahının dualarla xatırlanacağı ümidi də var idi. Amma ona ünvanlanmış öyüdlərin və nəsihətlərin qəbul olunması və itaət yoluna qayıtması haqqında Xan Əhmədin etirafı yox idi (96). Xan Əhməd Gilanın mərkəzi hakimiyyətdən qoparılması yolundan əl çəkmədi.

Bununla belə, Şah Təhmasib yenə də səbir və dözümlülük yolunu tərk etmədi. O, 1567-ci ildə Hüseynqulu bəy Şamlı adlı bir əmirini də Xan Əhmədin yanına göndərdi və ona çatdırdı ki, Biyəpəs Müzəffər sultanın övladına məxsusdur, bu vilayətdən o, əl çəkməlidir. Hüseynqulu bəy Şamlının Gilana göndərilməsində

belə bir məqsəd də var idi ki, Xan Əhmədin Səfəvi sarayına olan münasibəti aydınlaşdırılsın. Yəni müəyyən edilsin ki, doğrudanmı Xan Əhməd Səfəvi sarayına qarşı barışmaz müxalifət yolu tutub, yoxsa onu başa salmaqla bu yoldan çəkindirmək olar. Sözsüz ki, göstərilən böyük qayğı və səmimi münasibətdən sonra Xan Əhmədin Şah Təhmasibə qarşı belə üzüdönüklük etməsi anlaşılan deyildi. Xan Əhməd isə çox aydın şəkildə nümayiş etdirdi ki, tutduğu yoldan, yəni Şah Təhmasibə qarşı itaətsizlik yolundan əl çəkən deyil. Xan Əhməd hətta oğluna da tapşırdı ki, qoşun toplasın və Səfəvi sarayı tərəfindən göndərilə biləcək qoşunlara qarşı mövqe tutsun. Oğlu da topladığı qoşunla Lahicanda olarkən xəstələnib dünyasını dəyişdi. Belə olanda Xan Əhməd özü Lahicana yollandı ki, orada toplanmış olan qoşun dəstəsinə rəhbərlik etsin. O bu fikirdə idi ki, bu qoşun dəstəsini Biyəpəsə və Gəskərə göndərsin. Hətta belə bir vəziyyətdə də Şah Təhmasib ona qarşı sərt addımlar atmağı təxirə saldı və Kor Həsən adlı bir müdrik insan yenidən Xan Əhmədin yanına göndərildi ki, ona öyüd-nəsihət versin, onu tutduğu asilik yolundan çəkindirsin. Xan Əhməd uzun müddət Kor Həsəni qəbul etmədi, onu yaxına buraxmadı. Bir müddət Kor Həsəndən xəbər gəlməyəndə Xan Əhmədin yanına Kor Şahəli Rumlu da göndərildi. Ona da tapşırılmışdı ki, Xan Əhmədə öyüd-nəsihət versin, tutduğu yolun aqibəti ona anladılsın və o bu yoldan çəkindirilsin. Amma Xan Əhməd tutduğu yoldan əl çəkmədi. Kor Həsən geri qayıtdıqdan sonra Xan Əhmədlə bağlı müşahidə etdiklərini, bildiklərini Şah Təhmasibə ərz etdi. Şah Təhmasib üçün birdəfəlik aydın oldu ki, Xan Əhməd ona qarşı asilik yolundan əl çəkməyəcəkdir (97).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Xan Əhmədlə bağlı hadisələrin necə cərəyan etməsi belə təsvir olunmuşdur: "Beləliklə, şahın qayğıkeşliyi və şəfqəti sayəsində Xan Əhməd bütün Gilan ərazilərində hökmü keçən valiyə çevrildi və onun hakimiyyət bayrağı asimana ucaldı. O, hərəsi öz irsi mülklərində hakimlik edən Gəskər hakimi Əmirə Sasani və Kuhdəm hakimi Mirzə Kamranı qəhr və qələbə ilə o vilayətlərdən qovub, həmin yerləri ələ keçirdi və onun hakimiyyəti öz ata-babasının heç vaxt malik

olmadıqları bir səviyyəyə çatdı. Lakin o, öz bədbəxtliyi, cahilliyi və özbaşınalığı ucbatından şahın ona göstərdiyi qayğı və şəfqətin qədrini bilməyib, bir dəstə az düşüncəli ağzıgöyçəklərin və öz aqibətlərini fikirləşməyən şəxslərin təhriki ilə hökmdarın razılıq verməmədiyi işləri görməyə başladı. Eyni zamanda, cənnətməkan şah ulu orduda sərgərdan olan Əmirə Sasana rəhm edib, Gəskər vilayətini yenidən ona bağışlayaraq, onu oraya göndərdi. Lakin Xan Əhmədin tərəfindən Gəskər hakimi təyin olunmuş Səid adlı bir sipəhsalar onun göstərişinə əsasən, [şahın] hökmünə tabe olmadı. Onunla Əmirə Sasan arasında böyük bir döyüş baş verdi və Əmirə [Sasan] qüdrətli dövlətin səadətli qoşunlarının köməyi ilə onun üzərində qələbə çaldı. [Xan Əhmədin] sipəhsaları bir çoxları ilə birlikdə öldürüldü. Xan Əhməd havanın yüksək dərəcədə isti keçdiyi yayın ortasında öz oğlu Sultan Həsənə qoşun verib, onu Əmirə [Sasanın] üstünə, Gəskərə göndərdi. Lakin Sultan Həsən havanın üfunəti səbəbindən həmin səfərdə vəfat etdi. Xan Əhməd bununla kifayətlənməyərək, böyük bir qoşunla öz işğal və istila bayrağını o diyarda ucaltdı. Cənnətməkan şah nəsihətlə dolu bir məktub göndərib, onu doğru yola dəvət etsə də, bu öyüd-nəsihətin ona bir faydası olmadı. Nəhayət, cənnətməkan şah, Müzəffər sultanın nəvəsi olan və nənəsi tərəfdən cənnətməkan şaha qohumluğu çatan Cəmşid xana qayğı göstərərək, Biyə-pəs ölkəsini Xan Əhməddən alıb, ona verdi və Məsum bəyin oğlu Sədrəddin xanı talış tayfasından və digər tayfalardan olan bir sıra əmirlərlə birlikdə oraya göndərdi ki, Biyə-pəsi Cəmşid xan üçün zəbt etsinlər” (98).

Burada adı çəkilən Cəmşid xan vaxtilə Biyəpəsin hakimi olmuş və Xan Əhməd tərəfindən zəhərlənərək qətlə yetirilən Sultan Mahmudun oğlu idi. Sultan Mahmud zəhərlənib qətlə yetiriləndə onun xanımı hamilə idi və ərinin qətlə yetirilməsindən dərhal sonra Şah Təhmasib onu qayğı altına aldı. Oğlu dünyaya gələndə də ona Cəmşid adını Şah Təhmasib verdi və sonra da Cəmşidi anası ilə birlikdə etibarlı adamların mühafizəsinə tapşırdı.

Xan Əhməd qızılbaş qoşunlarına qarşı müqavimətin gücləndirilməsi üçün  Rəşt hakimi olan Kiya Rüstəmi də qoşun dəstəsi

ilə birlikdə qızılbaşların üzərinə göndərdi. Kiya Rüstəm də Xan Əhmə kim iddialı birisi idi və o da itaətsizlik yolunu tutmuşdu. Xan Əhməd onun qoşun dəstəsinə müəyyən ümidlər də bağlayırdı. Lakin bu ümidlər də özünü doğrultmadı və Şah Təhmasib tərəfindən bölgəyə göndərilmiş olan Sədrəddin xanın zərbəsi qarşısında Kiya Rüstəm də duruş gətirə bilmədi. Kiya Rüstəm və onun döyüşçülərinin bir hissəsi əsir götürülərək Qəzinə göndərildi. Şah Təhmasib onun həyatına son qoymadı. Amma mənbə məlumatlarına görə, Şah Təhmasib ona iki qan bahası təyin etdi. Yəni iki qanın tökülməsində ittihamlandırdı. Biri qardaşı Bəhram Mirzənin Gilan hakimi olduğu zaman ona qarşı yerli silahlı itaətsizliyə rəvac verilməsi idi, digəri isə Sədrəddin xanın rəhbərliyi altında bölgəyə göndərilmiş qoşun dəstəsinə qarşı silahlı müqavimət göstərilməsi idi. Bu məqama toxunan "Xülasüt-təvarix" müəllifi həmin qan bahasının necə alınmasından söz açmamışdır. Bütünlükdə, Xan Əhməd onun üstünə göndərilmiş qızılbaş qoşun dəstəsinin müqavimətini qıra bilmədi və dinc şəkildə ona qarşı irəli sürülmüş tələbi yerinə yetirmək məcburiyyətində qaldı. Onun tərəfindən Biyəpəs boşaldıldı və Cəmşid xanın hakimiyyəti altına verildi. Xan Əhməd yalnız Biyəpəsə aid olan Kuçesfahanı öz nəzarəti altında saxladı. Xan Əhmədə qarşı hələ də ciddi tədbir həyata keçirilməsini istəməyən Şah Təhmasib onun bu istəyi ilə də razılaşmadı və Kuçesfahanın da ondan alınaraq Cəmşid xanın nəzarəti altına verilməsini məqsədəuyğun saydı. Buna nail olunması üçün Şah Təhmasib bölgəyə başqa bir qoşun dəstəsi də göndərdi və həmin dəstəyə rəhbərlik Yolqulu bəy Zülqədərə tapşırıldı. Yolqulu bəy də 500 nəfərlik qoşun dəstəsi ilə dərhal bölgəyə yola düşdü. "Tarix-i aləmara-yi Abbasi" əsərinin müəllifinin fikrincə isə, Yolqulu bəy qoşun dəstəsi ilə deyil, elçilik heyəti ilə Xan Əhmədin yanına göndərilmişdi (99).

"Əhsənüt-təvarix" əsərində Yolqulu bəyin Gilana səfəri və onun nəticəsi belə təsvir edilmişdir: " Xan Əhməd Kuçsəfandan savayı, bütün Biyəpəs vilayətini Cəmşid xana təslim etdi. Bu əsnada dinin pənahı olan şah, Yolqulu bəy Zülqədəri göndərdi ki, Kuçsəfanı ondan alıb Cəmşid xana versin. Xan Əhməd cəhaləti

və dəliliyi səbəbindən alçaq adamların sözlərinə aldanıb Əmirə Şahmənsuru çoxlu qoşunlarla və divə bənzər gilanlılarla onu dəf etməyə yolladı. Onlar xəbərsizcə Yolqulu bəyə hücum çəkib xeyli döyüşdən sonra onu qətlə yetirdilər və bilmədilər ki, aslanın döşünü sağmaq və batil xəyal ilə ölümcül zəhər içmək öz həlakı üçün çalışmaq deməkdir" (100).

Mövcud olan məlumata görə, Yolqulu bəy özü ilə Şah Təhmasibin Xan Əhmədə ünvanlanmış məktubunu da gətirmişdi. Xan Əhməd bu dəfə də Şah Təhmasibin iradəsinə qarşı saymazlıq nümayiş etdirdi. Onun göndərdiyi elçi ilə qarşılşmamaq üçün ova yollanmaq bəhanəsi ilə Lahicanı tərk edib şəhərdən uzaqlaşdı. Sonra da Şahməhsur əmirlərindən birinə Yolqulu bəyi qətlə yetirməyi tapşırdı. Həmin əmir də yanındakı silahlı dəstə ilə Yolqulu bəyin üstünə hücum etdi, onu və onun ətrafındakıları qətlə yetirdi. Yəni Xan Əhməd neçənci dəfə Şah Təhmasibin iradəsinə qarşı hörmətsizlik və itaətsizlik nümayiş etdirdi və hətta onun tərəfindən göndərilmiş elçilik heyətini də qətlə yetirdi.

"Tarix-i aləmara-yi Abbasi" əsərində bu hadisə belə təsvir olunmuşdur: "Xan Əhməd tərəfindən Rəşt hakimi olan Kiya Rüstəm onun buyuruğu əsasında qoşun topladı, Sədrəddin xana və qüdrətli [qızılbaş] dəstələrinə qarşı döyüşə girdi və əsir düşdü. Xan Əhməd zərurət üzündən əlini Biyə-pəsdən çəksə də, amma Biyə-pəsə daxil olan Kuçesfəhan bölgəsini öz ixtiyarında saxlayıb, oranı təhvil vermədi. Gilana gedib öz irsi mülkünə yiyələnmiş Cəmşid xan Kuçesfəhan üzərinə hərəkət etdi. Tərəflər arasında münaqişə və döyüş baş verdi. Cənnət bargahlı şah həzrətləri ağsaqqal, xeyirxah və sülhpərvər bir kişi olan Yolqulu bəy Zülqədəri elçi kimi Gilana göndərdi və ona Xan Əhmədin həmişəlik səadətinə səbəb ola biləcək belə bir fərman imzalayıb verdi: «Bütün bu qəbahətli və utanmaz hərəkətlərinə baxmayaraq, irsi mülkün olan Biye-piş Gilanının sənin ixtiyarında qalmağına icazə veririk. Biye-pəs vilayəti isə oğulluğum Cəmşid xana aiddir. Sən oraya müdaxilə etmə və bir-birinizlə ata və oğul kimi rəftar ediniz!». Lakin Xan Əhməd yerinin möhkəmliyinə, oradakı meşə və cəngəlliklərin sıxlığına güvənərək, fəsadçıların hər-

zə-mərzə sözləri və yaramazlıq meşəsinin çaqqalları olan cahillərin və özbaşına fitnəkarların boş-boş danışıqları ilə yoldan çıxdı. O, sülh yaratmaq məqsədi ilə bir neçə adamla gəlmiş Yolqulu bəyin üstünə qəflətən öz əmirlərindən Şahmənsur adlı birisini qoşunla birlikdə göndərdi və beləliklə, onu yoldaşları olan qazilərlə bərabər qətlə yetirdilər" (101).

Biyəpəsin Xan Əhmədin nəzarəti altından çıxarılması üçün Şah Təhmasib tərəfindən göndərilən qoşun dəstəsinin ciddi bir müqavimətə rast gəlmədən bu vəzifəni icra etməsi bir daha göstərdi ki, Gilan asiliyini silahlı yolla asanlıqla həll etmək mümkündür. Şah Təhmasibin bütün Gilanı birdəfəlik Xan Əhməd təsirindən qurtarmaq imkanı var idi. Bununla, Gilanda davam edən asilik və itaətsizliyə də bir dəfəlik son qoymaq olardı. Amma bir tərəfdən Şah Təhmasibin qüdrətindən xəbəri olduğu halda Xan Əhmədin öz iddialarından əl çəkməməsi, məntiqsiz "ərköyünlüyünü" davam etdirməsi, digər tərəfdən də Şah Təhmasibin ona qarşı intəhasız bir səbir göstərməsi bu hərəkatın tarixinin maraqlı məqamlarındandır. Mənbə məlumatlarından göründüyü kimi, hətta Biyəpəsə qoşun çıxarılandan və bu bölgə onun əlindən alınandan sonra da Xan Əhməd tutduğu yoldan geri çəkilmədi, Şah Təhmasib tərəfindən göstərilən qayğılara qarşı hörmətsizlik yolunu tutmaqda davam etdi. Şah Təhmasibin ona qarşı sonsuz səbir nümayiş etdirməsinin mənbələrdə Xan Əhmədin əcdadlarının Şah İsmayıla etdiyi yaxşılıqların əvəzi kimi dəyərləndirilməsinə rast gəlmək mümkündür. Belə bir humanizmin nümayiş etdirilməsinin bir tərəfdən Şah Təhasibin xarakterindəki insansevərliklə bağlı olmasını anlamaq mümkündür. Amma digər tərəfdən məlumdur ki, Xan Əhməd itaətsizliyi elə Şah İsmayılın qurduğu dövlətin əsaslarının sarsıldılmasına istiqamətlənmişdi. Dəfələrlə nümayiş etdirilən humanistlik isə Xan Əhməd tərəfindən lazımınca qiymətləndirilmirdi. Bu "ərköyünlüyündə" Xan Əhmədin də nəyə arxayın olmasını müəyyən etmək qaranlıq olaraq qalmaqdadır. Bəzi araşdırmalarda Xan Əhmədin Gilanın qalın və ucsus-bucaqsız meşələrində özünə sığınacaq tapa biləcəyi haqqında fikirlər mövcuddur. Lakin Şah Təhmasib qətiyyət

göstərəcəyi təqdirdə sıx Gilan meşələrinin Xan Əhmədin həyatnı xilas edəcəyi də inandırıcı görünmür. Nəhayət Səfəvi şahının davamlı şəkildə təkrarlanan istəkləri, təklifləri qarşısında Xan Əhmədin hörmətsizcəsinə yayınması da bitmək bilmirdi.

Məlumdur ki, Xan Əhməd yalnız siyasi baxımdan Şah Təhmasibə itaətsizlik göstərmirdi. O eyni zamanda Şah Təhmasibin bütün səltənət üçün qüvvədə olan əmrlərini yerinə yetirməkdən də boyun qaçırırdı. Bu mənada tədqiqatçılar Şah Təhmasib tərəfindən səltənət daxilində şərab içilməsinə, musiqi istifadəsi ilə ifrat əyləncə məclislərinin qurulmasına qoyduğu qadağa da Xan Əhməd tərəfindən riayət olunmurdu. Əksinə, Xan Əhməd musiqinin onun nəzarəti altında olan ərazidə rəvac verilməsinə şərait yaradırdı, musiqiçiləri öz himayəsi altına alırdı və onlar üçün lazımı şərait də yaradırdı. Ayrı-ayrı musiqiçilər haqqında onun verdiyi təşviqedici əmrlər mənbələrdə də saxlanılmaqdadır (102). Bütün bunlar sözsüz ki, Şah Təhmasibin də nəzərindən qaçmırdı və heç də onun razılığı ilə qarşılanmırdı.

### a) Şah Təhmasibin Xan Əhmədə məktubu

Xan Əhmədin nümayiş etdirdiyi asilik və itaətsizlik hallarının bəziləri Şah Təhmasibin adından 1568-ci ildə (hicri qəməri tarixi ilə 27 səfər 975-ci il) Xan Əhmədə göndərilmiş məktubda da öz əksini tapmışdı. Bu məktubun əvvəlində bildirilir ki, Şah Təhmasibin hakimiyyəti yaradanın tövfiqindən güc alır və islam peyğəmbərinin dininin işığında heç bir dövlət sahibinin malik ola bilmədiyi bir talenin ifadəsidir. Sonra da əlavə olunurdu ki, məsumların mərhəməti nəticəsində Səfəvi şahının hakimiyyəti qarşısına çıxmış olan ən ağır çətinliklər belə insan zəkasının və rüzgarın heyran qala biləcəyi bir şəkildə aradan qalxmışdır. Eyni zamanda o da bildirilirdi ki, hakimiyyəti dövründə Səfəvi şahı elə fəthləri etmişdi, elə qəribə hadisələrlə qarşılaşmışdı və elə sevincləri bölüşmüdü ki, dünya ərsəsində heç bir hökmdar və sultan belə hallarla qarşılaşmamışdı. Yəni bildirilirdi ki, Şah Təhmasib həyatı boyu uğurlu işlərlə qarşılaşmışdı. Onun həyatında uğursuz

görünə biləck çox az məqamlar isə ona qarşı müxalifətin baş verməsi halları idi. Məktubda deyilirdi ki, yaradanın köməyi, məsumların şəfqəti ilə belə hallara qarşı çətinlik çəkilmədən elə bir əlac tapılacaq ki, bütün aləm üçün ibrət və təəccüb yeri olacaqdır. Orada belə bir fikir də var idi ki, hakimiyyətə qarşı çıxanlar elə məhrumiyyətlərə düçar oldular ki, başlarını yerdən qaldıra bilmədilər. Yaxşı əməl sahibləri isə əksinə, Şah Təhmasibin diqqətindən kənarda qalmadı və aləm içində də həmişə başları uca oldu. Sonra məktubda Gilanda baş verən hadisələrə toxunulurdu. Bildirilirdi ki, Biyəpiş, Biyəpəs və Kəsgər birlikdə ildə səltənət xəzinəsinə 700 tümən vergi verməli idi. Vilayətdən alınan bu verginin məzhəbin yayılması və təbliği, döyüşə göndərilən qazilərə kömək edilməsi, ərazilərin qorunması üçün xərcləndiyi bildirilirdi. Amma Gilandan bu vergilər səltənət xəzinəsinə daxil olmurdu. Bu da Gilan hakiminin ağılsızlığı və cahilliyi ilə bağlanılırdı. O da bildirilirdi ki, Şah Təhmasib bu hadisə ilə qarşılşadıqdan sonra Gilan hakiminə qarşı nəsihət yolunu tutdu və bunun davamı kimi, ona çatdırıldı ki, əməllərinə görə Allah əzabından qorxsun, doğru yolu tutaraq öz əməllərindən əl çəksin. Məktubda yazılana görə, Gilan hakimi Səfəvi şahının bu lütfünü qiymətləndirmədi, cəhalət üzündən şahın lütfünün bitəcəyi haqqında düşünmədi. Gilan hakimi öz asiliyinə və itaətsizliyinə son verməli olduğu halda nəzarəti altında olan ərazilərdə yüngül əyləncələrə, zorxanalara, güc oyunlarına, rəqqaslığa, qılınc oynatmağa, xoruz dalaşdırmağa, qoç oynatmağa, hoqqabazlığa, inəkbazlığa, dəvə oynatmağa, qissəxanlara, məsxərəbazlara, imansız mülhədlərə rəvac verdi. Bu da öz növbəsində şahın narahatçılığına yol açdı. Məktubda Gilanda baş verənlərə son qoyulması üçün Hüseynqulu bəy Rumlunun Xan Əhmədin yanına göndərildiyi və onun vasitəsi ilə Biyəpəsin azad edilməsinın çatdırıldığı xatırlanırdı. O da qeyd olunurdu ki, əgər bu tələb qəbul olunsaydı Xan Əhmədin Səfəvi sarayından edə biləcəyi iltimaslar da qəbul olunacaqdı. Şah nümayəndəsinin Xan Əhmədin yanına göndərilməsinin, əslində, bir sınaq səfərinin olması, Xan Əhmədin itaətə gələcəyi və ya gəlməyəcəyinin müəyyənləşdirmək

istəyinin olması məktubda da öz əksini tapmışdı. Şah Təhmasib adından təəssüflə bildirilirdi ki, Xan Əhməd nadanlıq üzündən şah təklifini qəbul etmədi. Əvəzində o öz oğlunu qoşun toplamağa göndərdi. Oğlu da isti havada Lahicanda xəstəlik tapdı, xan Əhmədin ağılsızlığı üzündən həmin xəstəlikdən dünyasını dəyişdi. Məktubda yazıldığı kimi, bundan sonra da Xan Əhməd ağlını başına yığmadı, qoşun topladı və Biyəpəsə girərək Kəsgərə qədər irəlilədi. Daha sonra məktubda Şah Təhmasib adından belə yazılırdı: "Bütün bu itaətsizliklərə göz yumaraq, biz yasovulbaşı Kor Həsəni göndərdik ki, səni nəsihətləndirsin və geri qayıtsın. Bir müddət onun yanında tutub saxladın. Kor Şahəli Quryasovulu da göndərdim və sənə yazdıqlarımı əslən qəbul etmədin, onlara əməl etmədin, onlara diqqət yetirmədin. Sonda Kor Həsəni yanıva apardın. Adamların da tamam xəstə düşüblər" (103).

Məktubda Xan Əhməd itaətsizliyinin qarşısının alınması üçün Gilana qızılbaş qoşun dəstəsinin göndərilməsindən, Rəşddə aparılan döyüşlər zamanı Xan Əhməd tərəfdarlarının çoxunun öldürülməsindən, Kiya Rüstəmin əsir düşməsindən və şah sarayına gətirilməsindən də söz açılırdı. Bildirilirdi ki, mərkəzi hakimiyyətə qarşı itaətsizlik etməsinə, qızılbaş qoşunlarına qarşı cəbhə tutmasına baxmayaraq hətta Kiya Rüstəmə də iltifat göstərildi, o və onun ətrafında olanlar qətlə yetirilmədilər. Əksinə, onların günahları bağışlandı və onlara qiymətli xələtlər paylandı. Kiya Rüstəmə qarşı iki qan bahası ittihamı olduğu halda, ona qarşı mərhəmət nümayiş etdirildi. Şah Təhmasibin adından Xan Əhmədə çatdırılırdı ki, haqq-təala səni aciz və yazıq günə qoydu: "Möhürdar, eşikağası kimi mütilərin əksəriyyətini Rəştdə saxladın ki, onların da əksəriyyəti öldürüldü və ələ keçirildi. Sənin tərəfindən özünü göstərən bütün bu xoşagələməz əməllərə baxmayaraq, Kiya Rüstəm və yoldaşlarını şahanə xələtlərlə ucaltdıq və ona bu iltifatın göstərilməsi ona görə idi ki, ruzigarın insanları arasında sənin hörmət və nüfuzun olsun. Kiya Rüstəmə iki qan bahası müəyyənləşdirdik – biri Bəhram Mirzə Gilana gələndə etdiklərinə görə, digəri isə hökumət nümayəndəsi Sədrəddin xan və Bayandır xana qarşı döyüşə çıxması üçün. Əlhəmdüllah mə-

lum oldu ki, həzrət haqq-təala səni aciz və zəbun elədi, məni yox. Sən mənim sözümü qəbul etmədiyin üçün, müxtəlif qəbahətləri və pis əməlləri etdiyin üçün sənə yazdım ki, Gilanın Biyəpəsi sənə vermək qərarım dəyişdi və onu Cəmşid xana verdim. Sənə aid olan ölkə sənin olsun və orada arxayın yaşa, ora səndən alınmayacaq. Amma hələ qədim zamanlardan Biyəpəsə aid olan Kuçsefahandan əl çəkmədin və bütün gün onun üçün [Cəmşid] xanla vuruşub döyüşdün. Axırda Yolqulu bəyi göndərdim ki, o imkan verməsin ki, adı çəkilən övladla sənin aranda dava baş versin. Onun [Yolqulu bəyi] dava aparmaq üçün yox, sülh yaratmaq üçün göndərdiyim üçün tapşırmışdım ki, Kuçsefahana getməsin, Rəştdə dayanıb bizim hökmümüzü bir nəfərlə sənə çatdırsın. Onun yanında 500 nəfər var idi və barışıq fikirləri ilə ora yollanmışdı. 30-40 nəfərlik dəstə ilə Rəştə gəldi və öz vəzirini sənin yanına göndərdi. Həmin adam sənin yanına çatmazdan əvvəl balıq ovu bəhanəsi ilə oranı tərk etdin, qoşunlarında olan bütün ox və kamanları çaqallara və tülkülərə atdın. Geri qayıdanda bütün qoşunu Yolqulu bəyin üstünə göndərdin” (104).

Yolqulu bəydən əlavə saray tərəfindən Biyəpəsdə vergilər toplanmasına göndərilmiş Şahqulu Zülqədər və onunla olan 20 nəfər də Xan Əhmədin adamları tərəfindən qətlə yetirilmişdilər. Şah Təhmasibə görə Xan Əhməd onun ətrafını bürümüş tiryəkçəkənlərin sözü ilə yolunu azmışdı və ona görə də batil işlərə rəvac verirdi. Şah Təhmasib məktubunda Xan Əhmədi Osmanlı şahzadəsi Bəyazidlə həmfikir olmaqda da ittihamlandırırdı. Məlumdur ki, Şahzadə Bəyazid atasının və qardaşının təqiblərindən qaçıb Səfəvi sarayına sığınsa da, Qəzvində Şah Təhmasibə qarşı sui-qəsd fikrinə də düşmüşdü. Şah Təhmasibə məlum idi ki, niyyətinə çatmaq üçün Şahzadə Bəyazid hətta Xan Əhmədlə də əlaqə yarada bilmişdi. Xan Əhməd də Şah Təhmasibə qarşı müxalifətçilik yolu tutduğu üçün Osmanlı şahzadəsi ilə əməkdaşlıq imkanlarını əldən vermək istəmirdi. Şahzadə Bayəzidin hətta öz adamlar ılə Gilana gəlməsi və oradan Həştərxana yollanması kimi planı da var idi. Şah Təhmasibin məktubunda yazılanlardan belə məlum olur ki, Şahzadə Bayəzidin adamlarından hətta xan

Əhmədin yanına qaçanlar da olubmuş. Amma xan Əhməd onların bir nəfərini də Şah Təhmasibə xəyanətə görə tutub saxlamamışdı. Başqa sözlə Xan Əhməd bu məsələdə də Şah Təhmasibə xəyanət edənlərə himayədarlıq etmişdi: "O cümlədən Şeytan Bayəzidlə yeddi min nəfər gəldilər və onların hamısını tutduğum gün mənim bir cilvədarım o mərəkədə qətlə yetirildi. Sən bu qəbil çörəktanımazların hərzə-hərzə söhbətlərinə aldandın, yalan söz-söhbətlərə uyan yol tutdun, vaxtilə bizə bildirdiyiniz dostluq və məhəbbətin əvəzində şeytan Bayəzidin ora gəlmiş bir min nəfər adamından bir nəfəri də tutmadın" (105).

Şah Təhmasib sonra Xan Əhmədin əməllərini həyasızlığın, abırsızlığın yüksək mərtəbəsi kimi dəyərləndirirdi. Yol verdiyi itaətsizliyə və asiliyə, şah hökmlərinin icrasına qarşı anlaşılmz hərəkətlərinə baxmayaraq Xan Əhməd Səfəvi şahına məktublar göndərərək baş verənlərdən, o cümlədən şah elçisi Yolqulu bəyin qətlə yetirilməsindən xəbərsiz olduğunu bildirirdi. Amma Şah Təhmasib onun bütün əməllərinin aşkar olduğu və bu əməllərin utanclıqdan başqa bir şey olmadığını bildirirdi. Səfəvi şahı bəyan edirdi ki, daha onun tərəfindən Xan Əhmədə heç bir şəfqət göstərilməyəcəkdir. O tələb edirdi ki, əgər Xan Əhməd yüz min tümən toplayaraq səltənət xəzinəsinə göndərsə Biyəpişin onun idarəçiliyi altında saxlanılmasının mümkünlüyünə baxıla bilər. Bundan başqa Xan Əhməd ildə 400 tümən vergi toplayıb verməli idi. Bu şərti qəbul edərdisə, onun sərəncamına bir min nəfərlik qoşun dəstəsi göndərilə və Tuləm qəsəbəsi də tiyul kimi ona verilə bilərdi. Eyni zamanda Xan Əhməddən tələb olunurdu ki, şəriətlə günah sayılan əməllərə son qoyulsun. Onun yazdığına görə, vilayət daxilində zina işlər artmışdı, vilayətin dini işlərinə rəhbərlik edən sədrin iştirakı ilə günah sayılan əyləncələr hər tərəfi bürümüşdü. Şah Təhmasib birmənalı şəkildə bəyan edirdi ki, islam peyğəmbərinin şəriəti ilə səsləşməyən əməllərin qarşısı alınmalıdır. O tələb edirdi ki, xatırlatdığı və xatırlatmadığı xoşagəlməz əməllərə görə peşmançılıq çəkilməli, əclafların, yolunu azmışların yolunu davam etdirilməməli idi. Bu deyilənlərə əməl ediləcəyi təqdirdə Xan Əhməd yenidən Şah Təhmasibin lütfü ilə

qarşılaşa və onun ehtiramını qazana bilərdi. Yəni Xan Əhmədin əvvəli əməllərinə görə peşmançılıq çəkəcəyi halda Şah Təhmasib də onun günahlarını əfv edə bilərdi. Bu halda Xan Əhmədin hətta illik gəlirləri daha çox olan vilayətlərə çıxıb getməsi də təklif edilirdi (106).

Bu şərtlərin qəbul edilməyəcəyi təqdirdə asilik yolunu tutanlara qarşı nə ediləcəyi də məktubda əksini tapmışdı. Şah Təhmasib bəyan edirdi ki, Gilanda başlanan itaətsizliyin qarşısının alınması üçün ora qoşun dəstəsi göndəriləcəkdir. Bu qoşun dəstəsinə tapşırılmışdı ki, vilayət ərazisində qızılbaş qoşunlarına müqavimət göstərməyən yerli qoşun üzvlərinə və yerli əhaliyə qarşı zor tətbiq edilməsin. Bununla eyni zamanda xüsusi bir vilayət kimi dəyərləndirilən Gilana dağıntılar və çətinliklər gətirilməməsi nəzərdə tutulmuşdu. Şah Təhmasib bəyan edirdi ki, əgər qızılbaş qoşunlarına müqavimət göstərilsə, onda onlara qarşı sərt tədbirlər həyata keçiriləcəkdir. Bu zaman uşaq və böyüklərin ziyan görməsinin və ya həyatlarını itirməsinin bütün günahı Xan Əhmədin boynunda qalmalı idi. Ona görə Xan Əhmədin özündən də tələb olunurdu ki, o, Biyəpiş, xüsusilə Lahican əhalisini səltənət qoşunlarına qarşı təhrik etməsin. Əks təqdirdə müqavimət göstərənlərə elə bir dərs verilməli idi ki, bütün dünyaya ibrət olmalı idi. O, tövsiyə edirdi ki, yerli qoşun döyüşçüləri sakitcə öz vəzifələrinin icrasını davam etdirsinlər, rəiyyət isə öz rəiyyətliyində qalsın. Məktubun sonunda bir daha Xan Əhməddən tələb olunurdu ki, şah hökmünü eşitsin, bədbəxtlik yolunu tərk etsin və bilsin ki, Səfəvi dövlətinə qarşı müxalifətçilik etmək onu hara aparıb çıxara bilər (107).

Bu məktub Xan Əhməd tərəfindən cavabsız qalmadı və o da düşündüklərini qələmə alıb Şah Təhmasibə göndərdi. O, şahın məktubundan sonra başladığı hərəkatın hansın şəraitdə meydana gəlməsi barədə bəzi məlumatları verməyi özünə borc bilirdi. Bundan sonra Xan Əhməd məktubunda Səfəvi şahının mədhinə və tərifinə bir neçə cümlə də həsr etmişdi. Onun mədhində Şah Təhmasib İsgəndər Zülqərneynə və Cəmşidə bənzədilirdi, ona əcəm və ərəb diyarının maliki kimi müraciət edilirdi, islamın

hamisi, peyğəmbər məzhəbinin təbliğatçısı, hümayun padşah, cahanın və cahandakıların pənahı adlandırılırdı. Xan Əhmədə görə, əgər onun Şah Təhmasibdən aldığı məktubun sədası dağlara çatsaydı, dağlar yerindən oynayardı, dəryalara çatsaydı dəryalar təlatümə gələrdi. O, belə bir məktuba cavab vermək cürətində olmadığını, lakin bıçağın sümüyə dirəndiyi bir vaxtda və baş-dan-ayağa günahlar içində olan birisi kimi şahın kərəminə və lütfünə sığınıb bəzi məqamları aydınlaşdırmağı lazım bilirdi. Xan Əhməd məktubunda Şah Təhmasibin lütfü ilə çox qarşılaşdığını bəyan edirdi. Amma bunu da xatırladırdı ki, onun əcdadlarının da Səfəvilər üçün böyük xidmətləri olmuşdur. O, əslində ona bağışlanmış Biyəpəsə də haqqı olduğunu bildirirdi və bu vilayətin onun əlindən alınması ilə bağlı öz etirazını da ifadə edirdi. Bununla belə, Xan Əhməd yazırdı ki, o, günahkar bir bəndə kimi Şah Təhmasibin şahanə kərəminə pənah aparır və Allahdan sonra yeganə ümidi padşahın lütfünədir. Ona görə də o, Şah Təhmasibdən ona qarşı lütf göstərilməsini xahiş edirdi. Sonra da məktubunda onun ayağına yazılan günahların doğru olmadığını əsaslandırmağa çalışırdı (108).

Xan Əhməd əvvəlcə şah elçisi olan Hüseynqulu bəyin Gilana gəlişi ilə bağlı bəzi məqamları aydınlaşdırmağa çalışdı. O yazırdı ki, Hüseynqulu bəy Biyəpəsin təhvil verilməsi ilə bağlı şahın hökmünü gətirmişdi. Xan Əhməd and içərək inandırmağa çalışırdı ki, bu tələbi qəbul etməyə hazırdır. Həmin tələbin icrası üçün o, Deyləmandan Gilana gedərək Lahicandan yaxınlarını çıxarmalı idi. Onun sözünə görə, şahın iradəsinə qarşı müqavimət göstərilməsi üçün oğlunu qoşun toplamağa göndərməmişdi. Xan Əhməd yazırdı ki, onun oğlunun ümumiyyətlə baş verənlərdən xəbəri yox idi. O belə fikirləşirmiş ki, bu dünyada heç kimin sözünə etibar yoxdur və ona görə də ehtiyatlandığını bildirirdi. Oğlunun Lahicanda dünyasını dəyişməsindən Xan Əhməd çox təəssüfləndiyini də məktubunda ifadə edirdi. Gəsgərin tutulması, sonra Kor Həsənlə bağlı baş verən hadisələrdə də Xan Əhməd günahsız olduğunu iddia edirdi. O cümlədən Yolqulu bəylə baş verən hadisədə onun günahının olmadığını iddia edirdi. Bununla

belə, Xan Əhməd Səfəvi sarayına gəlməkdən imtina etdi. Onun sözlərinə görə, əgər Xan Əhməd günahkar bir insan kimi saraya çağırılırdısa, onda onun saraydakıların qarşısına çıxmağa üzü olmazdı. Sonda Xan Əhmədlə təkidlə Allah, peyğəmbər və müqəddəslər xatirinə ona bir daha şəfqət edilməsini xahiş edirdi (109).

## b) Gilanda Xan Əhməd itaətsizliyinin aradan qaldırılması

"Xülasüt-təvarix" əsərinin müəllifinin yazdığına görə, Xan Əhməd Səfəvi şahına çatdırmışdı ki, 350 ildən artıqdır ki, Gilan onun nəslinə mənsubdur və bu vilayəti buraxaraq heç yerə getmək niyyətində deyil. Bu cavab isə Şah Təhmasibi qane etmədi. Çünki Xan Əhmədin mövcudluğu dövründə Gilanda itaətsizliyin aradan qalxacağı inandırıcı deyildi. Ona görə Şah Təhmasib fərman verdi ki, Azərbaycanın və İraqın qoşunları toplansın və Xan Əhməd itaətsizliyinin yatırılması üçün Gilana göndərilsin. Bu qoşunlara təcrübəli qızılbaş əmirləri rəhbərlik etməli idilər (110).

"Əhsənüt-təvarix" əsərində göstərilmişdir ki, Yolçu bəyin qətlindən sonra Şah Təhmasib son dərəcə qəzəbləndi və Gilana böyük qoşun dəstəsi göndərməyi qırar aldı: "Elə ki bu xəbər alicənab şaha çatdı, o həzrətin sinəsindən kin və intiqam atəşi şölələndi və mübarək çöhrəsində qəzəb əlaməti müşahidə olundu. Aləmin müti olduğu bir fərman verildi ki, Azərbaycan və İraq vilayətindən çoxlu piyadalar yaraqla ali taxtın ətəyinə yollansınlar və əmirlərlə birlikdə Gilana hərəkət edib o diyarı fəth etsinlər. Xan Əhməd qızılbaş qoşunlarının gəlişinin avazından vahiməyə düşüb, etdiklərindən peşman oldu və törətdiklərindən təəssüfləndi. O, aləmin pənahı olan dərgaha elçilər göndərib tüğyan tufanından xilas qayığında pənah axtardı. Ali taxtın ətəyinə gələn elçilər hərçənd o həzrətin (şahın) könlünü razı salmağa çalışsalar da, heç bir faydası olmadı. Çünki onun yalan və riyakarlığının surəti dinin pənahı olan şahın nurlu ürəyinə aydın olmuşdu və onun hiylə və məkrinin şüasını [şah] öz könül aynası ilə müşahidə

edə bilmişdi. Ona görə də [şah] elçiləri murada və arzuya yetirmədən, onlara geri qayıtmaq üçün rüxsət verdi. [Şah tərəfindən] ali əmr verildi ki, qazilər iki istiqamətdən Gilana hərəkət etsinlər: Sultan Mustafa mirzə, Əmir xan Türkman, Qoç xəlifə Möhürdar, Nəzər bəy Ustaclu, Qum hakimi Vəli xəlifə Şamlu, Əmirqeyb bəy Ustaclu, Savə hakimi Heydər bəy Türkman, Əhməd xəlifə Vəfadar Şamlu, Həmzə bəy Talış, Azərbaycan əmirlərindən İbrahim bəy Ziyadoğlu, Qaracadağ hakimi Xəlifə Ənsar, İbrahim xəlifə Alpavut, İbrahim xan Zülqədərin oğlu Zeynal bəy, Kəsgər hakimi Əmirə Sasan, Əhməd sultan Biyəpəsi, Kutəm (Kuhdəm) hakimi Kamran mirzə Azərbaycan piyadaları ilə Kuçsəfan yolundan Lahicana getsinlər; Məsum bəy Səfəvi, İbrahim xəlifə Alpavutun oğlu Sədrəddin xan, Bayandur xan Talış və İbrahim bəy Qacar Müsahib isə Xalxal yolundan Lahicana yollansınlar” (111).

Mövcud olan məlumata görə, böyük sayda qoşunun Gilana göndərilməsindən əvvəl Şah Təhmasib bir də məsələnin dinc yolla həll edilməsinə və Xan Əhmədin itaət yoluna gətirilməsinə cəhd göstərdi. Bununla bağlı o, Məsum bəyə müvafiq tapşırıq verdi. Ona göndərmiş olduğu fərmanda Şah Təhmasib bir daha nəslinə Xan Əhmədin əcdadlarının etdiyi xidmətlərin əvəzi olaraq məsələni dinc yolla həllinə meylli olduğunu göstərdi. O, Məsum bəy Səfəvidən tələb etdi ki, Əmir bəy Əfşarı Xan Əhmədin yanına göndərsin və Xan Əhmədin Səfəvi sarayına gəlməsinə razılıq alınsın. Xan Əhmədə çatdırılmalı idi ki, onun sağ-salamat Səfəvi sarayına gələ bilməsi üçün Şah Təhmasib Qurana da and içməyə hazırdır. Ona görə də Xan Əhməd heç bir təhlükə hiss etmədən Qəzvinə gələ bilərdi. Bu, onun üçün nəzərdə tutulmuş son şans idi. Əks təqdirdə, Xan Əhməd mütləq ələ keçirilməli idi. Şah Təhmasib tələb edirdi ki, Xan Əhməd müxalifətçiliyində davam etsə, Səfəvi qoşunları tərəfindən dünya onun başına dar edilsin, günü qara olunsun, bütün yollar üzünə bağlansın. Ona imkan verilməli deyildi ki, bölgədən qaçıb canını qurtara bilsin. İtaətsizlik edənlərə qarşı belə qətiyyət başqalarına da dərs olmalı idi (112).

Yuxarıdakı məlumatlardan göründüyü kimi, Gilan itaətsizliyinin birdəfəlik aradan qaldırılması üçün Şah Təhmasib çox böyük sayda qoşun dəstəsinin toplamasına fərman verdi. Həmin qoşunlar iki istiqamətdən Xan Əhməd üzərinə hərəkət etməli idi. Gilana qoşun göndərilməsi haqqında Xan Əhməd vaxtında xəbər tutmuş və o da bu qoşunlara qarşı müqavimət göstərmək üçün hazırlaşmağa başlamışdı. Bununla, Xan Əhməd həm də onu göstərdi ki, məktubunda Şah Təhmasibdən təkrar-təkrar bağışlanmasını istəsə də, əslində, Səfəvi sarayına olan mütiliyi heç də qəbul etmək istəmirdi. Əks təqdirdə Şah Təhmasibin həm təhdidləri, həm də itaət göstərəcəyi halda verdiyi vədlər qarşısında ona müqavimət göstərmək üçün böyük qoşun dəstəsi toplamazdı. "Əhsənüt-təvarix" müəllifinin yazdığına görə, Xan Əhmədin qızılbaş qoşunlarına müqavimət göstərmək üçün topladığı qoşunun sayı yağış qədər idi. Bu əsərdə olan məlumata görə, Gilana göndərilməli olan qoşunların hamısının toplanmasından əvvəl Əmir xan Türkman və Nəzər bəy Talış rəhbərlikləri altında olan qoşun dəstəsi ilə Qəzvin şəhərindən çıxıb bu şəhərin dörd fərsəxliyində düşərgə saldılar. Görünür Xan Əhməd qoşunlarına qarşı aparılacaq döyüşün ilkin ağırlığını öz üzərinə götürmək bu əmirlərə tapşırılıbmış. Adları çəkilən əmirlər Xan Əhməd qoşunlarının da toplanması haqqında məlumat alan kimi, həmin qoşunların üstünə hücum çəkdilər. Məlumata görə, elə ilk döyüşlərdən Xan Əhməd ciddi bir vəziyyətlə qarşılaşdığını hiss etdi və canını real təhlükədən xilas etmək üçün Lahicana qaçdı. Onun Deyləmanda olan düşərgəsi, çadırı, oradakı əmlakı qızılbaşların əlinə keçdi. Deyləman və Xargam Xan Əhməd qüvvələrindən bütünlüklə təmizləndi. Məsum bəy Səfəvinin rəhbərliyi altında olan qoşun dəstəsi isə bölgəyə yetişib Lahican üzərinə irəlilədi. Xan Əhməd burada qalmağın da təhlükəsini real olaraq hiss etməyə başladı. Bu təhlükənin qarşısını almaq üçün onun tapşırığı əsasında Lahican sipəhsaları Əmir Cahangir və Deyləman sipəhsaları Şahmənsur on min nəfərlik atlı və piyada dəstəsi ilə Səfəvi qoşunlarına qarşı çıxarıldı. Gilanlılar münasib bir yerdə səngərlər quraraq mövqe tutdular. Amma onlar Məsum bəyin rəhbərliyi

altında olan qoşunların qarşısını saxlaya bilmədilər. Nəticədə Xan Əhmədin qoşunlarının əsas hissəsinə güclü bir zərbə vurulmuş oldu, Lahican, Guge, Ləştənəşa və Kisəm məntəqələri gilanlı qüvvələrdən təmizləndi (113).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasib tərəfindən göndərilmiş Səfəvi qoşunlarının Xan Əhməd qoşunlarına qarşı döyüşü belə təsvir olunmuşdur: "975-ci (08.07.1567 -25.06.1568) ildə [Şah Təhmasib] böyük bir qəzəb və kinlə müzəffər əsgərlərə Gilana yürüş etməyi əmr etdi. Bir tərəfdən xoşbəxt şahzadə Sultan Mustafa mirzəni Əmir xan Türkman, Qoç xəlifə Möhürdar, [Mustafa] mirzənin lələsi Nəzər sultan Ustaclu və s. əmirlərlə birlikdə, digər tərəfdən isə Qarabağ hakimi İbrahim sultan Ziyadoğlunu, Sədrəddin xanı, Bayandur xanı, Talış əmirlərini və o hüdudun piyada və süvarilərindən ibarət qoşunları, Gəskər hakimi Əmirə Sasani, Mirzə Kamran Kuhdəmini və Cəmşid xanın vəkili Əhməd sultan Biyə-pəsini göndərdilər ki, Xan Əhmədin ölkəsini əhatə edib, onu ələ keçirsinlər. Həmçinin səltənətin dayağı («rüknüssəltənə») Məsum bəy Səfəvi də qüdrətli qoşunların bir hissəsi ilə birlikdə bu əməliyyata cəlb olundu. Həmin vaxt Xan Əhməd Deyləman yaylağında idi. Əmir xan və Nəzər sultan onun üstünə hərəkət etdilər. O, öz canının qorxusundan Lahican şəhərinə çəkildi və Lahican sipəhsaları Əmir Cahangiri və meşə sipəhsaları Şahmənsuru on min piyada və süvari ilə zəfər şüarlı əsgərlərin üzərinə göndərdi. Gilan qoşunu dar bir dərədə gilanlıların dilində «binəbər» adlanan taxtabənd qurdu və həmin taxtabəndin arxasında onlar çoxlu sayda əlindən iş gələn bacarıqlı tüfəngçilər və kamandarlar yerləşdirdilər. Lakin Məsum bəy və ali şöhrətli əmirlər o məkana çatan kimi bir igidcəsinə həmlə ilə o alçaq güruhu pərən-pərən salıb qaçmağa məcbur etdilər. [Gilan əsgərlərinin] bir qismi oxların hədəfinə tuş gəldi, bir hissəsi isə qılınclara yem oldu. Digər tərəfdən, Sədrəddin xan, Bayandur xan, Talış və Gəskər əmirləri və Biyə-pəs döyüşçüləri öz irəlilədikləri istiqamətdə Əmir Bahadırdan və onun tabeçilərindən ibarət olan başqa bir gilan qoşunu onlarla qarşıdurmaya girsə də, onlar döyüşüb qalib gəldilər. Əmir Bahadır bir

neçə nəfər [Biyə-piş] əmirləri və sipəhsalarları birlikdə qətlə yetirildi. [Bu döyüşlərdən sonra] Xan Əhməd qəflət yuxusundan bir qədər ayıldı, acizlik və biçarəlik mövqeyində duraraq, öz sədri Mövlana Əbdürrəzzağı o yanlardan bir neçə nəfərlə birlikdə səadətin məskən saldığı dərgaha göndərib, öz üzgünlüyünü və peşmançılığını izhar etdi. Amma [şahın] qəzəb şöləsi alovlandığından, onun hiyləgərliyə bulaşmış mücərrəd söz-söhbətlərinə əhəmiyyət vermədi" (114).

"Xülasüt-təvarix" əsərindəki məlumata görə, Səfəvi qoşunları Gilana toplaşıb döyüşə başlamazdan əvvəl Xan Əhməd öz elçilərini Şah Təhmasibin yanına göndərdi. Bu elçilik, yuxarıda qeyd edildiyi kimi, bir nəticə əldə etmədi. Çünki Xan Əhmədə onu gözləyən təhlükədən xilas olmaq üçün şans verilmişdi və o bu şansdan istifadə etməmişdi. Digər tərəfdən adı çəkilən mənbədə bildirilirdi ki, artıq Xan Əhmədə bir etibar qalmamışdı (115) və ona görə də onun barışıq istəyi səmimi görünmürdü.

Səfəvi qoşunlarının qətiyyəti ilə qarşılaşan "Xan Əhməd yağış ədədli və tufan mədədli ordunun hərəkətindən agah olduqda təfəkkür dərəsində və heyrət yolunda sərgərdan oldu. O, nəhs bəxtin və uğursuz taleyin nişanəsini müşahidə etdi. Bildi ki, müqavimət [göstərməyə] taqəti yoxdur və fərar atını altına çəkib Əşkur dağlarının yolunu tutdu. Göyərçin ovlamaq məqsədi ilə şığıyan qartal kimi düşmənin canına uçan oxu, sərçə kimi qutu yuvada pünhan oldu. Düşmən pusqusunda ağız açan kamanı, qorxusundan ox qabının içinə girdi. Döyüş günündə bayraq kimi başı uca və sabitqədəm olan nizəsi, başını qılafın dibinə soxdu. Düşmənin başına meyl edən qılıncı, həmayil kimi boynundan asılı qaldı. Düşmənin həmləsi qarşısında çəpər olan qalxanı, karvan torbası kimi çiyninə yükləndi" (116).

Əşkur dağları hündür dağlar idi və Xan Əhməd onun sıldırımlı yüksəkliyində özünə sığınacaq tapmışdı. O, güman edirdi ki, bu əlçatmaz məkanda Səfəvi təqibindən canını qurtara bilər. Qoşun gələcəyi təqdirdə isə həmin qoşunu bu dağın yüksəkliklərində az bir qüvvə ilə saxlamaq mümkün idi. Şah sarayı isə heç də Xan Əhmədin hansısa gilzində qalması ilə razı deyildi. Çünki onun

azad qalması da gələcəkdə yeni hərəkatlara yol aça bilərdi. "Əhsənüt-təvarix" əsərinin müəllifinin fikrincə, " Xan Əhməd həqiqətən bildi ki, üz döndərmiş bəxti və üzülmüş ürəyi onu qara torpağa oturtmuşdur və belə olan təqdirdə bundan sonra qızılbaş qoşunları ilə qarşıdurmaya, vuruşmağa və müqavimət göstərməyə qüvvəsi qalmamışdır. Onun sığınacaq tapdığı bir neçə yerin hamısı istehkamlı dağlar və möhkəm məkanlar olsalar da, amma onun dövlətinin və bəxtinin təməlinə düşmüş sarsıntını aradan qaldırmaq mümkün deyildi" (117).

Yuxarıda deyildiyi kimi, edilən bütün təklifləri qəbul etməyəndə Şah Təhmasibin göstərişi belə oldu ki, Xan Əhmədin bütün qaçış yolları bağlanmalı və onun həbsi həyata keçirilməli idi. Qızılbaş əmirləri daxil olduqları məntəqələrdə Xan Əhmədin harada gizlənməsi haqqında məlumatlar topladılar və sonra da onun ələ keçirilməsi üçün əməli fəaliyyətə başladılar. Qeyd etmək lazımdır ki, qızılbaş qoşunlarının bölgəyə gəlməsi ilə bir sıra məntəqələrin əhalisi qaçıb dağlara səpələnmişdilər. Qızılbaş əmirləri həm də bu məntəqələrin əhalisi arasında iş aparır və Xan Əhmədin əməlləri üzündən ev-eşiyindən didərgin düşənlərin geri qayıtmalarına çalışırdılar: "Xan Əhməd başılovlu və çaşqın bir vəziyyətdə Lahicandan Əşkur tərəfə qaçdı. Gilanın böyükləri o vilayətin ərazisində sığınmağa bir yer axtararaq, çaqqallar kimi meşədə sərgərdan oldular. Ali şöhrətli əmirlər Lahican şəhərinə gəlib, əyaləti işğal etdilər və oranın rəiyyətinin [öz tərəflərinə] cəlb olunması işinə başladılar. Aparılan təhqiqat nəticəsində Xan Əhmədin Əşkura getdiyi aydın olduqda səadətli qoşunun mübarizlərinin bir dəstəsi bədxahların ürəyindən də dar bir yol olan Tonakabon yoluna çıxıb, irəliləməyə başladılar. Bu, elə bir yoldur ki, əgər oradan keçən süvari bir balaca doğru yoldan sapıb, hər hansısa bir tərəfə meyl etsə, şübhəsiz ki, adam və at yıxılıb, həlak olarlar. Səadətli qoşun məhz belə bir yoldan üsulluca keçib, Tonakabona çatdı və orada Xan Əhmədin bacısının əri olan Məlik Üveys Rüstəmdarı ələ keçirildi. Xan Əhməd üç-dörd ay ərzində meşəli dağlarda və qalın cəngəlliklərdə, sərgərdanlığın rəzilliyi və qazilərin əlinə keçməyin qorxusu altında, hər gün bir

yerdə və hər gecə bir məkanda qalmaqla narahatçılıq içində dolandı" (118).

Qışın gəlməsi ilə havaların soyuması, dağları, meşələri qar bürüməsi Xan Əhmədin vəziyyətini xeyli mürəkkəbləşdirdi, onun hərəkət imkanlara xeyli azaldı. Mənbə məlumatlarına görə, Xan Əhmədin izlənilməsi ilə bağlı olan vəziyyət Şah Təhmasib tərəfindən də ciddi nəzarət altında saxlanılırdı. Çünki dağlara qar yağandan sonra Şah Təhmasib Gilana göndərilmiş əmirlərdən olan Allahqulu sultan Ayçəkoğlu Ustaclını və Mirzə Əli sultan Qacarı xüsusi seçilmiş dəstələrlə birlikdə Əşkura göndərdi və həmin əmirlərə göstəriş verildi ki, onlar göndərildikləri yerdə düşərgə salıb Xan Əhmədin axtarılmasına başlasınlar. Səfəvi əmirləri axtarış etməklə bərabər, məlumatlar da toplayıb Xan Əhmədin gizləndiyi yeri müəyyənləşdirə bildilər. Qızılbaş əmiri Hüsam bəy Qaramanlı yanındakı iyirmi nəfərlik qoşun dəstəsi ilə birlikdə bir gün sübhə yaxın Xan Əhmədin gecələdiyi məkana yaxınlaşdılar onu ələ keçirdilər. Xan Əhməd cəhd göstərsə də gizləndiyi yerdən qaçıb gedə bilmədi. O özünü yaxınlıqdakı çalalardan birinə atsa da qazilər onu tapıb həbs etdilər. Hüsam bəy onu aparıb Allahqulu sultana, o isə Mənsum bəy Səfəviyə təhvil verdi (119).

"Xülasüt-təvarix" müəllifinin verdiyi məlumata görə isə, Məsum bəy Səfəvi axtarışlar nəticəsində Xan Əhmədin harada ola biləcəyini müəyyənləşdirəndən sonra dərhal həmin məntəqəyə oğlu Sədrəddinin rəhbərliyi altında bir dəstə göndərdi. Biyəpəsin sipəhsaları Kiya Əhməd sultan, Bayandur xan Talış, Gəskər hakimi Əmirə Sultan, Kuhdəm hakimi Mirzə Kamran və başqa əmirlər də bu dəstəyə verilmişdi. Həmin dəstə Xan Əhmədin məskunlaşdığı sığnağın yerini müəyyənləşdirib sübh çağı ora basqın etdi. Məlumata görə, Xan Əhmədin ətrafında olan silahlılar müqavimət göstərməyə başladılar və onların bir çoxu qətlə yetirildi. Xan Əhməd özü isə sübh çağı ustad musiqiçi Zeytundan ud ifasının məşqini edirmiş və qızılbaş döyüşçülərinin sığnağa hücum edə biləcəyini gözləmirmiş. Qarışıqlıq yaranmasına baxmayaraq, Xan Əhməd fürsət tapıb udu nökərinə verir və ona

qaçmağı tapşırır. Sonra da özü bir neçə nəfərlə ata minərək dağın yüksəkliyinə tərəf üz tutur. Lakin qarın çoxluğu üzündən at uzun müddət hərəkət edə bilmir. Onda Xan Əhməd atdan düşüb piyada Əşkur dağının zirvəsinə doğru qaçmağa cəhd edir və buna müvəffəq də olur. Yerli şəraitə yaxşı bələd olan Xan Əhməd özünü Əşkur dağının yüksəkliklərinə çatdırır və orada gizlənir. Yəni qızılbaş döyüşçülərinin təqibindən canını qurtara bilir. Xan Əhmədin məskunlaşdığı sığnağda və onun ətrafında olan çoxlu sayda giləklilər və digərləri çox da müqavimət göstərməyərək özlərini qoşunlara təslim edirlər. Xan Əhmədi isə tutmaq mümkün olmur. Bu xəbər Şah Təhmasibə də çatır. Məqsədə nail olunması üçün bir müddət də səbir edilməsi məsləhət bilinir. Nəzərdə tutulurdu ki, güclü soyuqlar nəticəsində meşə ağaclarının hamısı yarpaqlarını töksünlər və bundan sonra Xan Əhmədin axtarışını da daha asanlıqla aparmaq mümkün olardı. Bir müddətdən sonra isə Şah Təhmasibin göstərişi ilə Allahqulu sultan Ayçəkoğlu Ustaclı, şahzadə Sultan Mahmud Mirzə və Kuhkələviyə hakimi Xəlil xan Əfşar seçmə qorçular və tüfəngçilərlə Əşkur dağının zirvəsinə doğru göndərildilər. Sultan Mustafa Mirzə ilə Məsum bəy Səfəvi Xan Əhmədin gizləndiyi yüksəkliyin ətrafındakı dərələri və sahələri qoşun dəstələri arasında bölüşdürdülər və onlara tapşırdılar ki, müəyyən edilmiş istiqamətlə yüksəkliyə doğru irəliləsinlər. Xan Əhməd özünə çox münasib bir yerdə sığınacaq tapmışdı. Onun ehtimal etdiyi nöqtəyə çatmaq üçün çox sıx meşələrdən keçmək, hündürlükləri aşmaq lazım idi. Mənbə məlumatına görə, meşələr və cəngəlliklər o qədər sıx idi ki, bu yerləri adlamaq mümkün olmadığı kimi, heç qarşıda olan yerləri sıxlıqdan müşahidə etmək də mümkün deyildi. Qoşun dəstəsi böyük çətinliklə Əşkur dağının zirvəsinə yaxınlaşanda güclü qar yağdı və qazilərin irəli hərəkətini mümkünsüz etdi. Allahqulu sultan qorçularla və tüfəngçilərlə birlikdə böyük çətinliklə qar tutmuş yerlərdə özlərinə yol açdılar və irəliləyə bildilər. Digər döyüşçülər də onların ardınca hərəkətlərini davam etdirdilər. Həmin günün axşamı yenidən güclü qar yağdı və bütün hərəkət yollarını bağladı. Əmirlər hətta hansı istiqamətə hərəkət edəcəklərini belə

bilmədilər. Bu zaman həmin bölgənin sipəhsaları olan Mirmülk onların köməyinə yetişdi, çərxçi kimi qoşunların qarşısına düşdü və onlara yol göstərdi. Allahqulu sultan və onun yanında olan əmirlər qorçular və tüfəngçilərlə birlikdə zirvəyə aparan sahəni tamamilə əhatə etdilər və ov təqib edirlərmiş kimi dairəvi şəkildə yuxarıya doğru hərəkətlərini davam etdirdilər. Məlum olmuşdu ki, Xan Əhməd iki nəfər qulam və on iki nəfər tüfəngçi ilə bir yerdədir və onlar qızılbaş dəstəsindən 4-5 fərsəxlik bir məsafədədir. Amma bu məsafə də çətin keçilə biləcək bir ərazi idi. Hüsam bəy Qaramanlı 60 nəfər döyüşçü ilə Xan Əhməd istiqamətində irəliyə göndərildi. Qalan dəstə isə onların ardınca irəliləyirdilər. İki fərsəf məsafəni arxada qoyandan sonra Hüsam bəy at belində hərəkət etməyin mümkün olmadığını gördü. O, dəstəsi ilə birlikdə piyada olub Xan Əhmədin sığınacağına tərəf yollandı və səhərə yaxın onun sığınacağı mühasirə olundu. Xan Əhməd, görünür, mühasirə olunacaqlarını gözləmirmiş. Çünki təhlükə hiss edəndə elə alt paltarında sığınacaqdan çıxıb atlar üçün düzəldilmiş sığnağa qaçdı. Lakin bununla da canını xilas edə bilmədi. O və onun yanındakılar ələ keçirildilər. Bölgəyə göndərilmiş olan Səfəvi əmirləri Xan Əhmədi, onun ailə üzvlərini, xəzinəsini, malını-mülkünü toplayıb Qəzvinə apardılar və Şah Təhmasibə təhvil verdilər (120).

“Tarix-i aləmara-yi Abbasi” əsərində Xan Əhmədin ələ keçirilməsi və onun Şah Təhmasibin hüzuruna gətirilməsi belə təsvir edilmişdir: “Uzun sözün qısası, Məsum bəy adlı-sanlı əmirlər və zəfər şüarlı qorçularla birlikdə Xan Əhmədi, onun ailəsini və yaxınlarını aləmin pənahı olan dərgaha gətirərək, onu darüssəltənə Qəzvində müzəffər şəhriyara təqdim etdi. O, xəcalət çəkə-çəkə və etdiklərindən peşman ola-ola acizlik və bicarəlik izhar etdi. Şahın mürvəti bunu lazım bildi ki, onun törətdiyi bütün bu üsyan və itaətsizliyə baxmayaraq, onu hakimlikdən kənarlaşdırsa da, qanını bağışlasın. Buna görə də onun halına rəhm edib, ona bir zərər vurmadı. [Xan Əhməd] Qəhqəhə qalasında məhbus edildi. Lahican əyalətinin hakimliyi Allahqulu sultan Aycəkoğluya həvalə olundu. Hüsam bəy Qaramanlu da əmirlik rütbəsinə layiq görüldü

və Əşkur ona verildi. Oranın hər yerinə hakimlər təyin olundu və ədalət bərqərar edildi. Gilan hakimlərinin şəriətə zidd təyin etdikləri saysız-hesabsız vergilər əyalətin üzərindən götürüldü. Rəiyyət və yoxsullar qayğı ilə əhatə olundular. Beləliklə, hökmdarın ədalət büsatı o vilayətə yayıldı və Xan Əhməd bir müddət Qəhqəhə qalasında qalmalı oldu.

«O, ömrünü [o vaxta qədər] naz-nemət və səadət içərisində keçirdiyi üçün qalanın cəfasına tab gətirməyərək, bu rübaini nəzmə çəkib, [şahın] ordugahına göndərdi:

**Rübai**

«Pis fırlandı çərxi-dövran, ağlaram,
Zamanın cövründən yaman ağlaram,
Bükülmüş qəddim ilə gecə-gündüz,
Qəhqəhədə olsam da, qan ağlaram».

Ulu ordugahın hazırcavablarından biri onun cavabında bu rübaini demişdir:

**Rübai**

«Sənin işlərin hamısı qəhqəhə olan zaman,
Sənin üzündən çəkirdi bütün səltənət ziyan.
Doyunca ağlamaqda ol sən bu gün Qəhqəhədə,
Bu Qəhqəhənin səbəbi o qəhqəhədir, inan!»(121).

Xan Əhmədin etdiyi bütün əməllərə, asilik və itaətsizliyə, şah sarayına qarşı olan hörmətsizliklərinə baxmayaraq Şah Təhmasib yenə onun həyatına qəsd etmədi və onu Qəhqəhə qalasında dustaq etdi. Hətta həbsdə olanda da Şah Təhmasib Xan Əhmədə qarşı yeni bir lütfkarlıq göstərdi, onu lazımi şəraiti olmayan Qəhqəhə qalasından çıxardıb Şirazın İstəxr qalasına göndərdi. Bu qala daha geniş qala idi və onun hücrələri də yaşayış üçün daha münasib idi. Şah Təhmasibin Xan Əhmədə qarşı olan lütfü bununla da bitmədi. Onun tapşırığı əsasında Xan Əhməd İstəxr qalasında layiqli içkilərlə, yeməklərlə, isti geyimlə təmin olundu, saxlana

şəraiti xeyli yaxşılaşdırıldı və onun daha rahat yaşayışı üçün lazım olan işlər görüldü (122)

### c) Lahican qiyamının yatırılması

Gilanda Xan Əhməd itaətsizliyi aradan qaldırılandan sonra bu bölgənin idarəçiliyi bir neçə qızılbaş əmiri arasında bölüşdürüldü. Yuxarıda qeyd edildiyi kimi, Lahicanın hakimliyi isə Allahqulu sultan Aycəkoğluya tapşırıldı. Bir neçə il bölgədə sabitlik hökm sürdü. Amma hadisələrin sonrakı mənzərəsi göstərdi ki, Gilan bölgəsində öz mövqelərinin itirilməsi ilə barışmayan qüvvələr də qalmaqdadır. Bu qüvvələr münasib fürsətin yetişdiyini ehtimal edən kimi yenidən baş qaldırmağa cəhd göstərdilər. Belə cəhdlədən biri 1571-ci ildə Lahicanda baş verdi. Həmin ilin yayında Allahqulu sultan yaylağa yollanmaq məqsədi ilə Lahicanı tərk etdi. Onun Lahicanda olmaması bu şəhərdə mövqeyini bərpa etmək istəyən bəzilərini hərəkətə keçməyə sövq etdi. Belələrinə Sultan Hüseyn adlı birisi rəhbərlik edirdi. Mənbələrdə olan məlumatlardan belə bir qənaətə gəlmək olar ki, Sultan Hüseyn hələ xeyli əvvəldən Lahicanda hakimiyyətə yiyələnmək həvəsinə düşmüş və bu həvəsinin həyata keçirilməsi üçün öz ətrafına müəyyən qüvvələri toplamağa çalışmışdı. Allahqulu sultanın müəyyən müddət üçün Lahicanı tərk etməsi Sultan Hüseynə və onun ətrafındakılara yaxşı bir fürsət verdi. Allahqulu sultanın yaylağa yollandığı il Sultan Hüseyn və onun ətrafındakılar böyük sayda silahlı dəstə də formalaşdıra bilmişdilər. Bundan ümidlənən Sultan Hüseyn özünü mərkəzi hakimiyyətə qarşı başlanan qiyamın rəhbəri elan etdi. Sonra da bir rəhbər kimi Əmirə Dəmac adlı birisini sipəhsalar təyin etdi və toplanmış olan silahlıları onun rəhbərliyi altına verdi. Sultan Hüseyn "çoxlu qoşununa, saysız dəstələrinə və [hərbi] birliklərinə arxayın olub xəyanət və məkr pusqusunda oturdu, cəfa əlini açdı, fitnə və şər alovunu alışdırdı. Onun könül sahəsində qiyam və inad kökü möhkəmləndi və sinəsində zülm fidanı qol-budaq açdı. O, çoxlu qoşunla və divə bənzər gilanlılarla Lahican qalasındakı sufilərin üstünə

gəldi. Dava-qırğından sonra [qiyamçılar] onlara qalib gələrək onların [arasında olan] qadınları, kişiləri və uşaqları qətlə yetirdilər. Daha sonra onlar, haqqında bəhs etdiyimiz Allahqulu bəyin oğlu Bəktaş bəyin üzərinə həmlə etdilər" (123).

Bəktaş bəyin ətrafında kifayət qədər qüvvə yox idi. Ona görə də o, qiyamçılara müqavimət göstərməyi məqsədəuyğun saymadı. Hətta Gəskər hakimi Əmirə Sasan da öz qoşun dəstəsi ilə bu qiyamın yatırılmasına gəldi. Lakin o da Sultan Hüseyn ətrafına toplanmış olan qüvvələrin müqavimətini qıra bilmədi və belə olanda döyüş meydanını tərk edib oradan uzaqlaşdı. "Tarixi aləmara-yi Abbasi" əsərində Lahican qiyamının vüsət alması belə təsvir olunmuşdur: "979-cu ildə (26.05.1571 - 13.05.1572) vaxtlarını məxfilik zaviyəsində keçirən Gilanın hərbçiləri və alçaqları öz rahatlıqlarının ənginliklərini təlatümə gətirib (öz rahatlıqlarını pozub), asayiş və sabitliyə zərbə vurdular. Belə ki, Allahqulu sultanın havanın istiliyi səbəbindən Lahicandan yaylağa getmiş olduğu vaxt bir dəstə alçaq baş qaldırıb, üsyan və tüğyan etdi. Onlar Seyid Hüseyn adlı birisinin Xan Əhmədin əcdadları ilə qohum olduğunu bildirib, onu öz hakimləri elan etdilər, Əmirə Dəmac [Əmirə Dəbac nəzərdə tutulur] adlı bir nəfəri isə sipəhsalar və qoşun başçısı edib, müxaliflik və yağılıq sədalarını ucaltdılar. Gələcəyi düşünməyən bir sıra fitnəkar səfehlər ətraf yerlərdən gəlib onların başına toplaşaraq, böyük bir dəstə ilə Lahicandakı qalada olan sufi (qızılbaş) camaatının üstünə yeridilər və onlarla döyüşməyə başladılar. O qalanın hasarı möhkəm olmadığından oranı ələ keçirib, sufi camaatını qətlə yetirdilər, hətta onların arvad-uşaqlarını da intiqam qılıncından keçirdilər. [Qiyamçılar] Allahqulu sultanın oğlu Bəktaş bəyin üstünə tökülüşdülər. O, özünü yüz təşviş və əziyyətlə oradan çıxarsa da, onun əksər adamları həlak şərbətini içdilər. Əmirə Sasan Gəskərdən bir dəstə igidlə birlikdə yağıların üzərinə gəlib, onlarla vurudu. Lakin Dəmacın əsgərlərinin sayı iyirmi min nəfərdən çox olduğuna görə, Əmirə [Sasan] böyük bir məğlubiyyətə uğrayaraq, çoxlu səylər və hədsiz əziyyətlər bahasına döyüş meydanından çıxıb getdi" (124).

Lahican qiyamının baş verməsi, heç şübhəsiz ki, həm də oranın hakimi Allahqulu sultanın idarəçilik kəsərsizliyinin bir nəticəsi idi. Vilayət daxilində lazımi qətiyyətlilik göstərməməsi, hakimiyyət iddiasında olanların fəaliyyətini nəzərdən qaçırması, özünün isə arxayınlaşması belə bir qiyamın formalaşmasına yol aça bilərdi. Böyük zəhmət bahasına fəth edilmiş Gilanın bir hissəsində yenidən mərkəzi hakimiyyət əleyhinə itaətsizlik baş verməsi, sözsüz ki, Şah Təhmasib tərəfindən narahatlıqla qarşılandı və dərhal da bu qiyamın yatırılması üçün əməli tədbirlər görülməsinə başladı. Onun göstərişi əsasında böyük bir qoşun dəstəsi təşkil edildi, Qoç xəlifə Möhürdar, Əmir Qeyb bəy Ustaclı və digər bir sıra əmirlər və sərdarlar bu qoşun dəstəsinin rəhbərləri təyin edildilər. Əlavə olaraq ustaclı və qəribli tayfalarından üç yüz nəfərlik seçmə qoşun dəstəsi də Lahicana yola salındı. Lahicana yaxınlaşarkən yüz otuz nəfər qorçu əmirlərinin icazəsi olmadan irəli çıxdılar. Lahicana  bir mənzillik məsafədə olarkən Kuke və Keym adlanan məntəqələrdə bu qorçular qyiamçıların bir dəstəsi ilə qarşılaşdılar. Qiyamçılar qorçuların sayca az olduğunu görüb onların üstünə hücum çəkmək həvəsinə düşdülər. Onlar belə ehtimal edirdilər ki, az sayda olan qorçuların ələ keçirilməsi yaxınlaşmaqda olan qızılbaş qoşun dəstəsini qorxudar və bununla da həmin dəstə geri qayıdar. Amma heç də onların gözlədiyi kimi olmadı: “Böyük qorçular «neçə dəfə olub ki, azsaylı dəstə çoxsaylı dəstəyə qalib gəlib» [ayəsinə - “Bəqərə” surəsi, 249-cu ayə] güvənərək, Allahın izni ilə mərdlik göstərib, həmin yaramazlar kütləsinə həmlə etdilər. Gilan ordusu bir-birinin ardınca dəstə- dəstə gəlib, vuruşma yerinə çatdılar və döyüş atəşi alovlandı. Qorçular gilanlıların çoxluğundan qətiyyən çəkinməyib, bir-birləri ilə arxa-arxaya duraraq, elə hərb etdilər ki, onun keyfiyyəti hələ də dillərdədir və o bədbəxtlərdən (gilanlılardan) bir çoxlarını qırıb yerə tökdülər. Bu əsnada ziyankar qoşunun sipəhsaları və sərdarı Əmirə Dəmaca bir tüfəng gülləsi dəydi və o, öz həyat atından yıxılıb, ölüm torpağına düşdü. O başdanxarabın öldürülməsi ilə alçaqlar kütləsinə qorxu və hürkü qalib gəldi və onlar vahimə üzündən məğlub oldular. Gilan qoşunun-

dan min nəfərdən çox adam qətlə yetirildi, qılıncdan qurtulanlar isə bəxtsizlik diyarında pərakəndə oldular. Bahadırlar bolluca qənimət ələ keçirib, igidcəsinə Lahicana getdilər. Taleyin gücünün köməkliyi ilə baş vermiş bu qəribə hadisə səbəbindən yenidən şahın böyük qorçularının şücaət və qəhrəmanlığının avazı ətraflara və ucqarlara yayılaraq, yüksək və aşağı təbəqələrdən olan insanların dillərinə düşdü. Böyük əmirlər camaatın nəzərində təqsirkar bilinib, məzəmmət və danlaq hədəfinə çevrildilər. Allahqulu sultan Gilan əyalətinin hakimi vəzifəsindən azad olundu. Həmin vilayətin hakimliyi cavanbəxt şahzadə İmamqulu mirzənin lələsi Pirə Məhəmməd xan Ustacluya tapşırıldı və o, şahzadə ilə birlikdə oraya yollanaraq, cənnətməkan həzrətin həyatda qaldığı müddətdə o vilayətdə hakimlik etdi" (125).

Allahqulu sultanın vilayət idarəçiliyindəki kəsərsizliyi mənbələrdə də öz əksini tapmışdır. O da bildirilir ki, idarəçilik bacarıqsızlığına görə Allahqulu sultan hətta Şah Təhmasibin də gözündən düşdü. Məlumata görə, Allahqulu sultan geri qayıdanda onu dövlətxanaya buraxmadılar. O, baş vermiş hadisədə öz günahını başa düşərək bir neçə ay bağışlanması ümidi ilə dövlətxananın qapısı qarşısında gözlədi. Bir də 1572-ci ilin yanvar ayının ortalarında ramazan ayının başlaması münasibəti ilə Şah Təhmasib seyidlərin və din alimlərinin xahişi ilə onun günahını bağışladı. Ramazan bayramı günü isə Allahqulu sultan şaha səcdə etmək imkanı da əldə etdi. Lakin mənbə məlumatlarına görə, Allahqulu sultan şahın yanında bir daha nüfuz qazana bilmədi. Gilanda isə sabitlik bərqərar oldu.

## 6.İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 327-331
2. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 339
   Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 378
3. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı, 2009, s.152-153

4. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev və Namiq Musalı. Kastamonı, 2017, s.507
5. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 339
6. Rumlu H. Əhsənüt-təvarix, s. 513
7. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.153-154
8. Rumlu H. Əhsənüt-təvarix, s. 515
9. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.154
10. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 340
11. Rumlu H. Əhsənüt-təvarix, s. 515-516
12. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.154
13. Rumlu H. Əhsənüt-təvarix, s. 516
14. Yenə orada
15. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.154
16. Rumlu H. Əhsənüt-təvarix, s. 516-517
17. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.154
Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 340
Məmmədova Ş. "Xülasüt-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s.78
18. Rumlu H. Əhsənüt-təvarix, s. 517
19. Yenə orada
20. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s.280-281
21. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.154-155
22. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 341
23. Rumlu H. Əhsənüt-təvarix, s. 518
24. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 341-342
25. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.155
26. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 342-343

27. Rumlu H. Əhsənüt-təvarix, s. 540
28. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 343-344
29. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.155
30. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006, s. 345
31. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.156-157
32. Yenə orada, s. 157-158
33. Rumlu H. Əhsənüt-təvarix, s. 524
34. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.157-158
35. Yenə orada, s. 158
36. Rumlu H. Əhsənüt-təvarix, s. 552
37. Yenə orada, s. 552-553
38. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.159
39. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s.348-349
Fərzəliyev Ş. Azərbycan XV-XVI əsrlərdə. Bakı, 1983, s. 84
Məmmədova Ş. "Xülasüt-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s.82
40. Xandəmir, Qiyasəddin. Tarix-e həbib üs-siyər. IV cild, Tehran,1380, s.454
41. Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 387
42. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 295
43. Rumlu H. Əhsənüt-təvarix, s. 522
44. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.160-161
45. Rumlu H. Əhsənüt-təvarix, s. 523
46. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.162
47. Rumlu H. Əhsənüt-təvarix, s. 534
48. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.163
49. Yenə orada, s. 163

50. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.163-164
Rumlu H. Əhsənüt-təvarix, s. 555
51. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.164
52. Yenə orada, s. 165
53. Rumlu H. Əhsənüt-təvarix, s. 570
54. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.164
55. Yenə orada, s. 165
56. Rumlu H. Əhsənüt-təvarix, s. 570
57. Yenə orada, s. 571-572
58. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.166
59. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s.384-385
Rumlu H. Əhsənüt-təvarix, s. 578
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.167
60. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.167-168
61. Rumlu H. Əhsənüt-təvarix, s. 583
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.168
62. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.168
63. Yenə orada, s. 169
64. Yenə orada
65. Rumlu H. Əhsənüt-təvarix, s. 608
66. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.170
67. Yenə orada
68. Yenə orada, s. 171
70. Yenə orada
71. Yenə orada, s. 172
72. Yenə orada, s. 172-173

73. Yenə orada, s. 173
74. Yenə orada
75. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s. 398
76. Yenə orada, s. 369
77. Yenə orada, s. 370
78. Yenə orada, s. 371-373
79. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.205
    Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 555
80. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.205
81. Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1378, s. 399
    Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 555
82. Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 558
83. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 256
84. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 256
    Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 559
85. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 256
86. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 206
87. Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 559-560
88. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 263
    Rumlu H. Əhsənüt-təvarix, s. 511
    Şah Təhmasib Səfəvi. Sənədlər və məktublar toplusu. Tərtib edən: Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.102-103
89. Rumlu H. Əhsənüt-təvarix, s. 511
90. Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 562
91. Yenə orada, s. 562-563
92. Şah Təhmasib Səfəvi. Sənədlər və məktublar toplusu. Tərtib edən: Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.103-104
    Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 563
93. Rumlu H. Əhsənüt-təvarix, s. 604
94. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.206

Rumlu H. Əhsənüt-təvarix, s. 604
95. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 463-464
96. Yenə orada, s. 466-468
97. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 469
98. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.206-207
99. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 470
Rumlu H. Əhsənüt-təvarix, s. 604
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.206
100. Rumlu H. Əhsənüt-təvarix, s. 605
101. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.207
102. Şah Təhmasib Səfəvi. Sənədlər və məktublar toplusu. Tərtib edən: Əbdülhüseyn Nəvayi.Tehran, 1368, s.110
Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 570
103. Şah Təhmasib Səfəvi. Sənədlər və məktublar toplusu. Tərtib edən: Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.118-121
104. Yenə orada, s. 121-122
105. Yenə orada, s. 123
106. Yenə orada, s. 124
107. Yenə orada, s. 125
108. Yenə orada, s. 128
109. Yenə orada, s.130-132
110. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 471
111. Rumlu H. Əhsənüt-təvarix, s. 605
112. Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 575
113. Rumlu H. Əhsənüt-təvarix, s. 605
114. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.207-208
115. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 471
116. Rumlu H. Əhsənüt-təvarix, s. 605
117. Yenə orada, s.606

118. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.208-209
119. Yenə orada, s. 209
120. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s.475-477
121. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.209-210
123. Rumlu H. Əhsənüt-təvarix, s. 613
124. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.210-211
125. Yenə orada, s.211

# II FƏSİL

## DAXİLİ HƏRBİ-SİYASİ SABİTLİYİN TƏMİN EDİLMƏSİ

Şah Təhmasib hakimiyyətə gələndən sonra Şah İsmayıl tərəfindən təşkilatlanmış dövlət idarəçilik sistemində elə bir ciddi dəyişiklik etmədi. Bu idarəçilik sistemi bir tərəfdən yeni siyasi sistemin dini-siyasi ideologiyasına dayaqlanırdısa, bir tərəfdən də dövrün dövlətçilik təcrübəsi üzərinə qurulmuşdu. Şah Təhmasib hələ gənc yaşlarından kifayət qədər güclü bir hakimiyyətin formalaşmasına nail ola bilmişdi. Bunun nəticəsi idi ki, Şah Təhmasib onun hakimiyyətinə qarşı istiqamətlənmiş özbək və Osmanlı hərbi müdaxilələrinin qarşısını uğurla ala bildi. Səfəvi şahı səltənət daxilində də hərbi-siyasi vəziyyəti öz nəzarəti altında saxlaya biləcək bir qüdrətə malik idi.

Doğrudur, sərt şaquli tabeçiliyin olmaması, vilayət hakimlərinə geniş idarəçilik səlahiyyətlərinin verilməsi, bir çox hallarda vilayətlərdə ənənəvi sülalə hakimlərinin saxlanması mərkəzi hakimiyyətə qarşı itaətsizlik və qiyam hallarının baş verməsinə gətirib çıxarırdı. Vilayət hakimlərinin hər biri öz yanında vilayət qoşunları saxlamaq səlahiyyətinə malik idi. Eyni zamanda vilayət hakimləri vilayət daxili vergiləri də özləri toplayır və onun müəyyən hissəsini səltənət xəzinəsinə göndərirdilər. Kifayət qədər maliyyə imkanlarının olması və yerli qoşun dəstələrinə dayaqlanması əyalət hakimlərində yeni iddialar yaradır və onların mərkəzi hakimiyyətdən qopmaq istəklərini gücləndirirdi. Bəzi hallarda hətta əyalət uzaqlığı və mövcud coğrafi şərait də itaətsizlik və qiyam üçün əlverilşi mühit görüntüsü yaradırdı. Belə qiyam və itaətsizliklərin baş verməsində xarici müdaxilələrin olması da istisna deyildi. Şah Təhmasib bu qiyamların yatırılmasına qarşı bəzən dözümlülük nümayiş etdirir, bəzən də çox çevik və qətiyyətli tədbirlərə əl atırdı. Bunun nəticəsi idi ki, səltənət daxilində Şah Təhmasib hakimiyyətinə qarşı xüsusi bir təhlükə mövcud deyildi.

## 1.Xoca Kəlan itaətsizliyinin aradan qaldırılması

Şah Təhmasib hakimiyyətinə qarşı baş vermiş itaətsizliklərdən biri səltənətin şimal-şərqində yerləşən Usta qalasında baş vermiş itaətsizlik idi. Bu qalanın hakimi olan Xoca Kəlan saray nəzarətindən çox kənarda qalmasından istifadə edərək itaətsizlik göstərməyə və mərkəzi hakimiyyətdən qopmağa cəhd göstərdi. Mənbələrdə Xoca Kəlan kifayət qədər cəsur, döyüşkən bir insan olmaqla yanaşı, həm də onun sığındığı qalanın çox güclü müdafiə imkanlarına malik olduğu qeyd edilmişdir. Usta qalası hündür sıldırımlar üzərində qurulmuş və çox möhkəm divarlara malik idi. Bu qala İsgəndər qalası ilə müqayisə edilirdi. O da bildirilirdi ki, ay və günəşdən başqa kimsənin gözü bu qalanın yüksək nöqtəsini görə bilmirdi. Usta qalası alınmazlığı ilə bölgədə məşhur idi. Qala daxilində müdafiə olunmaq üçün zəngin silah və sursat anbarı da yaradılmışdı. Bu silah və sursatın işlədilməsində isə Xoca Kəlan öz döyüşçülərinə nümunə idi. O, silah işlətməkdə elə bir məharət sahibi idi ki, zəncirin bir həlqəsinin içərisindən bir neçə ox keçirə bilirdi. Xoca Kəlanın kamanı elə bir güclü kaman idi ki, onun yayını çəkməyə kimsənin gücü çatmazdı. Mənbə məlumatlarına görə, Xoca Kəlanın bu döyüş keyfiyyətləri özbək hakimi Übeyd xan tərəfində təqdir olunurdu və vaxtilə Usta qalasının hakimliyini ona vermişdi (1).

Özü yüksək döyüş keyfiyyətlərinə malik olmaqla bərabər, Xoca Kəlan sözsüz ki, ətrafında da döyüşkən bir qoşun dəstəsi təşkilatlandıra bilmişdi. Mənbə məlumatların görə, ilk növbədə müdafiə imkanları böyük olan bir qalaya sığınması, Übeyd xanla müəyyən əlaqələrə malik olması üzündən Xoca Kəlan Səfəvi sarayına qarşı etinasızlıq yolunu tutdu və Şah Təhmasibə itaətdən üz çevirdi.

Mənbələrdə olan məlumata görə, Şah Təhmasib 1537-ci ildə Xorasanda olanda Xoca Kəlan onun yanına öz elçisini və qiymətli hədiyyələrini göndərdi. Amma onun bu elçisi Şah Təhmasib tərəfindən cəzalandırıldı. Xoca Kəlan elçisinin nə üçün Şah Təhmasibin qəzəbinə tuş gəlməsi barəsində mənbələrdə yetərli

məlumata rast gəlmək mümkün deyildir. Bəzi mənbələrdə Xoca Kəlanın qəddar bir insan olması, onun zülmünün ərşə qalxması haqqında məlumatlar mövcuddur. Məsələn, "Əhsənüt-təvarix" müəllifi yazırdı ki, Xoca Məlik Xafinin oğlu Xoca Kəlan o diyarın qalalarından biri olan və Usta (və ya Asta) adı ilə tanınan qalada oturmuşdu və gələnə-gedənə hücum edirdi. "Xülasüt-təvarix" müəllifi isə yazırdı ki, Xoca Kəlan hakimi olduğu məkanın bir çox ərbablarını qılıncdan keçirmişdi, onun zəlaləti və cəhaləti yüksək mərtəbəyə qalxmışdı (2).

Həmin mənbələrin məlumatına görə, Şah Təhmasib tərəfindən bu zəlalətin qarşısının alınması, habelə Usta qalasının itaət altına gətirilməsi üçün qoşun dəstəsi göndərildi. Çox ehtimal ki, Xoca Kəlanın elçisinə kəskin münasibət göstərilməsi və onun son nəhayətdə qətlə yetirilməsi elə Xoca Kəlanın əməllərinə olan münasibətin ifadəsi idi. Xoca Kəlanın elçisinin diqqəti cəlb edəcək qədər çox böyük saqqalı varmış və şah düşərgəsinə də axşam çağı gəlib çatıbmış. Əvvəlcə belə bir göstəriş olur ki, düşərgə ətrafına düzülmüş məşəllərdən biri onun saqqalının altına tutulsun və bununla onun saqqalına od vurulsun. Bundan sonra Xacə Kəlana yaxınlığı ilə seçilən və həmin vaxt şah düşərgəsində olan bir əyana göstəriş verilir ki, elçinin başını bədənindən ayırsın. Mövcud məlumata görə, həmin əyan heç vaxt heç qoyun başı da kəsməmişdi. Buna baxmayaraq, həmin əyan qılıncını alıb elçinin başını bədənindən ayırır. Şah Təhmasibin qəzəbi bununla da soyumur və fərman verir ki, qoşun dəstəsi təşkil edilsin və Usta qalasının alınmasına göndərilsin. Şiraz hakimi Qazı xan və Kirman hakimi Şahqulu sultan Şah Təhmasib tərəfindən bu qoşun dəstəsinin rəhbəri təyin edilirlər. Həmin qoşun dəstəsinin əsasını təcrübəli döyüşçülər təşkil etməli idi. Adları çəkilən hakimlərə belə bir tapşırıq verilmişdi ki, Usta qalası ətrafına yollansınlar, bu qalanı alaraq özündənrazı və iddialı olan qala hakimin layiqli cəzasına çatdırsınlar. Bu hakimlərə eyni zamanda tapşırılmışdı ki, Usta qalasının möhtəşəmliyini görməklə geri çəkilməsinlər, qala divarlarını fəth etməkdən əl götürməsinlər və o diyarın əhalisini zülmdən xilas etsinlər (3).

Qazı xanla Şahqulu sultanın rəhbərliyi altında olan qoşun dəstəsi Usta qalasına doğru istiqamət götürəndə Şah Təhmasib də Tehran yolunu tutub Xorasanı tərk etdi. Mənbələrdə olan məlumata görə, Tehran ətrafına gələndən sonra Şah Təhmasib burada da bəzi adamların qiyam qaldırmaq və öz iddialarını həyata keçirmək faktı ilə qarşılaşdı. Belə ki, dövrünün tanınmış alimlərindən biri olan Mir Qəvaməddin Nurbəxşi adlı birisi öz söhbətləri ilə çoxlarının rəğbətini qazana bilmişdi. Bu isə onda özünəarxayınçılıq hisslərinin yaranmasına yol açmışdı. Məlum olmuşdu ki, Reydən, Təbəristandan və Kuhistandan onun ətrafına çoxlu adamlar gəlib gedirlər. Yəni Mir Qəvaməddinin iddialı fəaliyyəti kifayət qədər ətrafa yayılmışdı və bu söhbətlər Şah Təhmasibin də qulağına çatmışdı. Mir Qəvaməddinin evində axtarış aparanda 400 dəst cübbə, cövşən və silahlar tapılmışdı. Bunlar isə onun doğrudan da hətta silahlı qiyam qaldırmaq fikrində olduğunu təsdiq edirdi. Ona görə Mir Qəvaməddin həbs edildi və zindana atıldı (4).

Qazı xanla Şahqulu sultanın rəhbərliyi altında olan qoşun dəstəsi Usta qalası ətrafına gələndə onun doğrudan da əzəmətli bir qala olmasının şahidi oldular. "Əhsənüt-təvarix" müəllifi qızılbaş əmirlərinin gördüklərini belə təsvir edirdi: "[Şah Təhmasib tərəfindən] ali əmr verildi ki, Qazi xan Zülqədər, Şahqulu sultan Əfşar və Əli sultan Tatıoğlu xeyli qoşunla o qalanın fəthinə yollansınlar. O fərmana uyğun olaraq, əzəmətli qazilər qalaya doğru yola çıxdılar. Elə ki qalanın ətrafı ulduzlar kimi ehtişamlı qoşunların çadırlarının qurulduğu yer oldu, qazilər qalanı tutmaq üçün hazırlıqlara başladılar. Ora elə bir qala idi ki, başı fələklər fələyinə çatırdı və ruzigarın gözü onun mislini görməmişdi. Onun bürcünün şiş ucları yer səthindən ucalaraq yüksək asimandan baş qaldırırdı və möhkəm divarı İsgəndər səddi ilə tən və bərabər olduğunu iddia edirdi.

"Qapısı İsgəndər səddi ilə əkiz idi,
Hasarı fələk bürcünə tay idi.
Əgər onun zirvəsindən bir daş aşağı diyirlənsəydi,
O yalnız qiyamət günü yerə çatardı.

Simurq Qaf dağının ətəyində təvaf etdiyi kimi,
Qoç bürcü onun xəndək ətrafındakı torpağını təvaf edirdi.
Zəfər yüklü, qələbə şüarlı ordu,
O hasarın ətəyində oturdu" (5).

Usta qalasının bu əzəmətinə baxmayaraq qızılbaş əmirləri onun mühasirəsinə qərar verdilər. Qüvvələr bölüşdürüldü, qalanın hər bir hissəsi bir dəstəyə tapşırıldı və həmin dəstələrə də tapşırıq verildi ki, qala divarlarının fəth edilməsi yollarını arasınlar. Mənbələrdə qızılbaş döyüşçüləri ilə qala müdafiəçiləri arasında ara bir döyüşlərin baş verməsi də öz əksini tapmışdır. Mövcud məlumatdan belə bir qənaətə gəlmək mümkündür ki, qala divarları altından lağım atma imkanı da yox idi. Bu da qala divarlarının möhkəm dağ süxurları üzərində tikilməsi ilə bağlı ola bilərdi. Qala daxilindəkilər isə əlverişli mövqedə olmalarından istifadə edərək qızılbaş döyüşçülərini tüfəng atəşinə tuturdular. Nəticədə vaxt ötdükcə qızılbaşlar arasında müəyyən itkilər də özünü göstərməkdə idi (6).

Qızılbaş dəstəsində Ustad Şeyxi Topçu kimi tanınan çox sərrast oxatan qoşun dəstəsinin qarşılaşdığı bu vəziyyəti görəndə bildirirdi ki, əgər Xoca Kəlana bir ox atışı məsafəsi boyunca qarşılaşa bilsə bu zaman qızılbaş döyüşçülərinin xatirini həmin fitnə mənbəyindən xilas edə bilər. Amma Ustad Şeyxi döyüş meydanında onunla qarşılaşmazdan əvvəl, elçi kimi onun yanına göndərildi. Xoca Kəlana yazılan məktubda vəd olundu ki, əgər bu müqavimətdən əl çəkib qalanı təhvil verərsə, onda onun günahlarının bağışlanması haqqında Şah Təhmasib qarşısında xahiş edilə bilər. Məktub müəllifləri and içərək bildirdilər ki, onun sağ qalması ilə bağlı Şah Təhmasibin lütfünə nail ola bilərlər. Bir şərtlə ki, Xoca Kəlan müqavimət göstərmədən qalanı təslim etsin. Əks təqdirdə, burada torpağın da göyə sovrulacağı bildirilirdi. Qızılbaş əmirləri bəyan edirdilər ki, Usta qalasının bütün əzəmətinə baxmayaraq Xoca Kəlan diz çökdürülməyincə döyüşçülər onun ətəklərini tərk etməyəcək və heç yana getməyəcəklər. Nəhayət, Xoca Kəlana məsləhət bilinirdi ki, öz taleyi və gələcəyi haqqında düşünsün (7).

Ustad Şeyxi lazımi tapşırığı alandan sonra Usta qalasına doğru hərəkətə başladı. Amma o fikirləşdi ki, Xoca Kəlanın oxla öldürülməsi əsas vəzifəsi olmalıdır. Ona görə Xoca Kəlana çatacaq məktubu yanındakı yoldaşlarından birinə bağışladı ki, məktub təqdim olunan vaxt onun əli ox atmaq üçün boş olsun. Ustad Şeyxi və onun yoldaşları qala darvazalarına çatanda onları dayandırdılar ki, qala daxilinə buraxılması üçün Xoca Kəlandan icazə alınsın. Xoca Kəlan isə bir qayda olaraq kənar adamların qala daxilinə buraxılmasına icazə vermirdi və onu görmək istəyənlərlə də qalanın girişində hazırlanmış xüsusi məkanda görüşürdü. Bu dəfə də Xoxa Kəlan belə etdi və qala darvazaları yanında hazırlanmış otaqda Ustad Şeyxinin rəhbərliyi altında olan nümayəndə heyətini qəbul etdi. O, qızılbaş əmirlərinin məktubunu oxuduğu vaxt Ustad Şeyxi öz məqsədinə çatmaq və oxla Xoca Kəlanı öldürmək üçün fürsət aramağa başladı. Xoca Kəlanın yanında olanlardan biri Ustad Şeyxinin şübhəli hərəkətini müşahidə edib onun ox atmasına mane olmağa çalışdı. Buna baxmayaraq, Ustad Şeyxi öz oxunu atmağa fürsət tapdı. Lakin yaranan qarşıqlıqda onun oxu hədəfdən yayındı. Vəziyyətin nə yerdə olduğunu görəndə Xoca Kəlan özü əlini kamana atdı və atdığı oxla Ustad Şeyxini qətlə yetirdi. Onun ardınca isə qızılbaş əmirlərinin məktubunu gətirmiş digərləri də qətlə yetirildilər (8).

Qızılbaş əmirləri Xoca Kəlanın yanına göndərilən elçilik heyətinin aqibətindən xəbər tutduqda qalanın tutulması üçün ümid yerini mühasirəni davam etdirməkdə gördülər. Mənbə məlumatlarına görə, Usta qalasının mühasirəsi, ümumiyyətlə, 2-3 ay davam etdi. Elə bu mühasirə dövründə Xoca Kəlanın yaxınlarından biri onun təhqiramiz hərəkətlərindən qəzəblənərək gizli şəkildə qalanı tərk etdi və qızılbaş əmirlərinin yanına gəldi. Həmin adam bildirdi ki, qalanın bir yerində kəmənd atmaqla qala divarlarını aşmaq mümkündür. Bu barədə yalnız Xoca Kəlan və bir neçə nəfər də onun yaxınları bilirdilər. Qızılbaş əmirlərinə təklif olundu ki, bir neçə nəfər həmin səmtə göndərilsin və elə həmin vaxt qoşun dəstəsi də qala üzərinə hücuma başlasın. Bununla Xoca Kəlanın və qala daxilindəkilərin bütün diqqəti bu hücumu qar-

şısının alınmasına yönəlsin və gizlincə göndərilmiş döyüşçülər isə kəmənd atmaqla nəzərdə tutulan yerdə qala daxilinə yollansınlar. Belə də edildi. Mənbə məlumatlarına görə, qızılbaş döyüşçüləri ələ düşmüş bu fürsəti Səfəvi padşahının iqbalının xoş aqibəti kimi dəyərləndirdilər. Nəzərdə tutulan gün qoşun dəstəsi qala üzərinə yeni bir hücum həyata keçirdi. Xoca Kəlanın yanından qaçan əyan və bir qrup qızılbaş döyüşçüsü isə qala daxilinə yol tapmaq üçün nəzərdə tutulan məkana yollandılar. Qala daxilindəkilərin və Xoca Kəlanın bütün diqqəti qala üzərinə başlamış hücumun qarşısının alınmasına yönəldiyi vaxt qala arxasına göndərilmiş döyüşçülər qala daxilinə yol tapa bildilər. Onlar doğrudan da kəmənd atmaqla divarlar üzərinə dırmaşıb qala daxilinə girə bildilər. Xoca Kəlan o zaman bu məsələdən xəbərdar oldu ki, onda iki tərəfli həmləyə müqavimət göstərməyin artıq gec olduğunu anladı. Yaranmış mürəkkəb vəziyyətdə çıxış yolunu o, ata minib qaladan uzalaşmaq cəhdində gördü. Amma buna imkan tapmadı (9).

"Əhsənüt-təvarix" əsərində Ustan qalasının fəth edilməsi belə təsvir edilmişdir: "Həmin vaxt Xoca Kəlanın etimadlı adamlarından biri inciklik üzündən qaladan fərar edib əmirlərin yanına gəldi və onlara ərz etdi:

- Bu qalaya bir yol var və oradan qalaya girmək mümkündür. Bu yolu məndən, Xoca Kəlandan və onun iki nəfər digər etimadlı adamından başqa heç kəs bilmir. Məsləhət budur ki, bu gecə qalaya hücuma keçəsiniz və qala müdafiəçilərini özünüzlə məşğul edəsiniz. Bir dəstə [əsgəri] isə mənə yoldaş edəsiniz ki, qalanı fəth edək. Əmirlər Əli Bayatı bir dəstə qazi ilə o şəxsə yoldaş edib göndərdilər və qoşunun qalan hissəsi döyüşə atıldı. Qorxunc qazilər və dağ görkəmli igidlər bir göz qırpımında özlərini qalaya saldılar və şeypur çaldılar. Qala əhli qətiyyən xəyal etmədikləri bu haldan agah olduqda, sərsəm olub can qorxusundan ox və kamana əl atdılar. Xoca Kəlan qazilərdən iki-üç nəfəri qətlə yetirdi. Axırda zəfər şüarlı qoşunlar o bədbəxt mərdimazarı əlibağlı aşağı endirdilər. Onun mülazimlərini gedər-gəlməzə göndərdilər, Xoca Kəlanın özünü isə Təbrizə yolladılar. Gözəl xilqətli şahın nəzəri o

pis etiqadlıya düşdükdə buyurdu ki, onu Nəsriyyə minarəsindən assınlar və tam məşəqqətlə cəza məkanına (axirətə) yollansın" (10).

Şah Təhmasib göstəriş vermişdi ki, Usta qalası fəth olunarsa, onun divarları sökülsün və bu qala dağıdılsın. Qızılbaş qoşunları bu tapşırığı da yerinə yetirdilər. Sonra da Xoca Kəlanın əl-qolunu bağlayıb Şah Təhmasibin düşərgəsinə doğru istiqamət götürdülər. Şah Təhmasib Usta qalasının fəthinə görə, qızılbaş əmirlərini və döyüşçülərini təqdir etdi. Xoca Kəlanın isə qətli barəsində fərman verildi. Mövcud olan məlumata görə, onu Təbriz qeysəriyyəsinin minarəsindən bir ayağından başı aşağı asdılar və sonra da onu atəşə tutub həyatına son qoydular (11).

## 2. Astrabaddakı (Xoca Saleh Məhəmməd Bitikçi və Aba Türkmən) qiyamlarının yatırılması

Ustad qalasındakı itaətsizliyin aradan qaldırıldığı il, yəni 1537-ci ildə Astrabadda da mərkəzi hakimiyyət əleyhinə qiyam dalğalanmağa başladı. Bu bölgədə də bir tərəfdən ənənəvi sülalə hakimləri hakimlik edirdilər və onlar öz maraqlarının təmin edilməsi üçün Səfəvi sarayının təsirindən kənar qalmaq istəyirdilər. Digər tərəfdən də bu vilayətin hakimləri, nüfuzlu dairələri ilə özbək xanları arasında müəyyən əlaqələr var idi ki, bu əlaqələr də mahiyyət etibari ilə Səfəvi hakimiyyəti əleyhinə yönəlmişdi. Bölgə əhalisinin Səfəvi sarayının rəsmi məzhəbindən fərqli məzhəbə malik olması da bu vilayət ilə saray arasında müəyyən gərginliyin olmasına yol açırdı. "Tarix-i aləmara-yi Abbasi" əsərində həmin dövrdə Astrabadda mövcud olan hərbi-siyasi vəziyyət belə dəyərləndirilirdi: "Astarabad şəhəri sabiq zamanlarda Cürcan və Təbəristan vilayətlərinin hökumətgahı olmuşdur. Oranın camaatının əksəri saleh, mömin və pəhrizkar adamlar olmasına baxmayaraq, onların əhvali-ruhiyyəsi vəsvəsə, ehtiras və qalmaqaldan xali deyildir. Elə bil ki, Cürcan meşəsinin və dağının havası onlarda çaxnaşma əhvali-ruhiyyəsi yaradır. [Astarabad əhalisi arasında] özlərini siyahpuşlar («qarageyimlilər») adlan-

dıran bir toplum var ki, onların qiyamçılıq və tüğyan həvəsləri zehinlərinə fəsad qarışdırmış və onların firavanlıq sərmayəsini kasadlaşdırmışdır. O bölgənin qalmaqalçılarından digər bir qismi ictimaiyyət arasında yaka-türkmənlər kimi tanınan və Xarəzm sultanlarından asılı olan sayinxani qəbilələri toplumudur. Onlar dikbaşlıqları və özbaşınalıqları üzündən özlərini Astarabadın böyük səhrasına və geniş çölünə vurub, Gürgan və Ətrək çayları arasında məskunlaşmışdılar. Onlar məmləkətə zərər və ziyan yetirirdilər. Buna görə də o mülkün ərazisi qalmaqaldan xali olmur və oranın hakimlərinin başı döyüşdən və savaşdan açılmırdı. Amma Allah-taalaya şükür olsun ki, Allahın kölgəsi olan əlahəzrət şahın əbədi dövləti zamanında onun qəhrəmanlığının güclü məşəlinin işığı ilə tüğyanın yaratdığı zülm və qübar zülməti məhv oldu və yoxa çıxdı. İndi hər iki tərəfin (siyahpuş və sayinxani tayfalarının) şuluqçuları başlarını aşağı salıb, firavanlıqla yaşayırlar" (12).

1537-ci ildə Astrabadda qiyam qaldırmağa cəhd göstərən Saleh Məhəmməd Bitikçi də bu vilayətdə ənənəvi şəkildə hakimlik etmiş sülalənin nümayəndəsi idi və vilayətin ələ keçirilməsini və onun müstəqil şəkildə idarə edilməsini özünün haqqı sayırdı. Məlumdur ki, Bitikçi nəslinin nümayəndələrindən biri olan Xoca Müzəffər Bitikçi hələ Şah İsmayılın vaxtında Səfəvi sarayına itaətini bəyan etmişdi. Şah İsmayıl özbək qoşunları ilə döyüş üçün Xorasan vilayətinə yollananda Xoca Müzəffər Bitikçi onun görüşünə gəlmiş, qiymətli hədiyyələr təqdim etməklə Səfəvi hakimiyyətinə sədaqətini bəyan etmişdi. Xoca Müzəffər Bitikçinin hətta özbək qoşunlarına qarşı döyüşdə Səfəvi qoşunları tərkibində iştirak etməsi haqqında da mənbələrdə məlumat mövcuddur. Şah İsmayılın da ona xüsusi ehtiramı var idi və Xoca Müzəffər Bitikçi də bu ehtiramı qoruyub saxlamağa çalışırdı (13). Qarşılıqlı ehtiram üzərində qurulmuş bu münasibətlər isə öz növbəsində Astrabad daxilində və ətrafında sabit həyatın bərqərar olmasına yol açırdı.

Mənbələrdə olan ayrı-ayrı məlumatlardan belə bir qənaətə gəlmək olar ki, Xoca Müzəffər Bitikçinin dünyasını dəyişmə-

sindən sonra Astrabadın hakimliyi onun nəslinin nümayəndələrinə verilmədi. Çünki 1537-ci ildə Saleh Məhəmməd Bitikçi qiyamı qalxanda Astrabad vilayətinin hakimi Sədrəddin xan Ustaclı idi. Xoca Məhəmməd Saleh Bitikçi isə bəzi məlumatlarda həm Müzəffər Bitikçinin oğlu, həm nəvəsi, həm də qardaşı oğlu kimi göstərilmişdir. İstənilən halda o, Xoca Müzəffər Bitikçinin nəslindən idi və Astrabad hakimliyini də bu nəslin haqqı sayırdı. Bu iddiasını həyata keçirmək və Astrabad hakimliyinə sahib olmaq üçün Saleh Məhəmməd Bitikçi əvvəlcə öz ətrafına həmfikirlər, sonra da silahlı dəstə toplamağa başladı. Mənbə məlumatlarına görə, onun ətrafına topladığı dəstə Astrabad siyahpuşlarından idi. Özünün yetərli bildiyi səviyyədə dəstə təşkilini başa vurduqdan sonra Saleh Məhəmməd Bitikçi Astrabad vilayətinə aid olan bəzi yaşayış məntəqələrini ələ keçirdi və özünü də həmin məntəqələrin hakimi elan etdi. Bundan sonra Xoca Məhəmməd Saleh Bitikçi Xarəzm hakimi Ömər Qazinin yanına öz adamlarını göndərdi, ona sədaqətini bildirməklə Astrabad vilayətini ələ keçirmək üçün ondan kömək istədi. Bölgəyə müdaxilə etmək üçün hər zaman münasib fürsət axtaran özbək hakimlərindən biri kimi Ömər Qazi xan ona ünvanlanmış kömək istəyinə dərhal müsbət cavab verdi. Xarəzm hakimi böyük bir qoşun dəstəsi toplayaraq Astrabad üzərinə hərəkət etdi. Özbək qoşunları Astrabad ətrafına yetişəndə Məhəmməd Saleh də ətrafında olan qoşun dəstəsi ilə Cürcan meşələrindən çıxaraq Ömər Qazi sultana qoşuldu. Bununla Astrabad ətrafında böyük bir hərbi qüvvə formalaşdı və vilayət daxilində mövcud olan Səfəvi qoşun dəstəsi ilə bu qüvvəyə müqavimət göstərilməsi imkandan kənara çıxdı. Vilayət valisi Sədrəddin xan Ustaclı yaranmış vəziyyət barəsində öz ətrafı ilə məsləhətləşmə apardı və bu məsləhətləşmənin nəticəsi kimi qərara alındı ki, vilayət daxilində mövcud olan qüvvələrlə qiyam qaldırmış qüvvələrə qarşı müqavimət göstərmək mümkün deyil. Ona görə də məsləhət bilindi ki, vilayətin qoşun dəstəsi, hakim və əyanları Astrabadı tərk edib Bistama yollansınlar və oradan vilayətdəki vəziyyət haqqında Şah Təhmasibə məlumat göndərsinlər. Sədrəddin xan və vilayətdəki yerli qoşun dəstəsi

Bistama yollandıqdan sonra Xoca Məhəmməd Saleh və onun ətrafında olan qüvvələr müqavimətə rast gəlmədən Astrabada daxil oldular. Xarəzm hakimi Ömər Qazi sultan da Xoca Məhəmməd Salehi Astrabad taxtına oturtdu və hədiyyə kimi vilayətin yeni hakimindən böyük həcmdə var-dövlət əldə etdikdən sonra öz yurduna geri qayıtdı. Xarəzm hakimi geri qayıtsa da, Xoca Məhəmməd Salehin Astrabadda hakimliyini birmənalı şəkildə dəstəkləyəcəyini vəd etdi (14).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Astrabadda qiyam qaldırılması və Xoca Məhəmməd Saleh Bitikçinin çox böyük iddiaları düşməsi haqqında belə bir məlumat vardır: "Cənnətməkan şahın zamanında baş vermiş hadisələrin icmalı bundan ibarətdir ki, 944-cü ildə (10.06.1537 - 29.05.1538) şahın dünyanı tutan bayraqları dördüncü dəfə Xorasan yürüşündən İraq tərəfə hərəkətə gəldikdən sonra Übeyd xanın o vilayətə gediş-gəlişinin arası kəsildi. Xoca Müzəffər Bitikçinin Məhəmməd Saleh adlı bir qardaşı oğlu vardı ki, təbiətində cahillik mövcud idi, tüğyan etmək sevdasına düşmüşdü və özbaşınalıq badəsi onun beyninin cövhərini dumanlandırmışdı. O, bu əbədi dövlətə itaət etməkdən üz çevirərək, öz mahalının ağası olmaq istəyi ilə başına Astrabad siyahpuşlarından ibarət bir dəstə yığıb, dikbaşlıq etməyə başladı və bəzi qəsəbələri ələ keçirib, Sultan Qazinin oğlu olan, Daşkəndin və Fərqanə şəhərlərinin valisi Budaq xanın isə bacısı oğlu olan və o zaman öz dayısının yardımı ilə Xarəzmi zəbt etmiş Ömər Qazi sultanın yanına adam göndərərək, ondan xahiş edib, kömək istədi. Ömər Qazi sultan o nadan cahilin sözü ilə əsassızcasına bir ordu götürüb, Astrabad səmtinə hərəkət etdi və Məhəmməd Saleh öz siyahpuşları ilə birlikdə Cürcan meşəsindən çıxıb, onlara qoşuldu. O vaxt Astrabad hakimi olan Sədrəddin sultan Ustaclu özbəklərin və siyahpuşların ittifaq etməsindən və birləşməsindən xəbər tutub, özündə müqavimət qüdrəti görmədi, malik olduğu ağıl və təcrübəyə əsaslanaraq, Astrabaddan Bistama gəlib, həqiqəti ali taxtın ətəklərinə çatdırdı. Məmləkətin yiyəsiz qaldığını görən Məhəmməd Saleh [Astarabad] şəhərinə daxil oldu, özbəklərin himayəsi ilə həmin vilayətdə öz hakimiyyət

bayrağını dalğalandırdı və Xarəzm valisinə və onun adamlarına layiqli töhfələr, hədiyyələr və peşkəşlər verdi. Ömər Qazi sultan o vilayətin (Astrabadın) idarə olunmasını onun öhdəsinə buraxıb, Xarəzmə qayıtdı. Onun getməsindən sonra Məhəmməd Saleh qəflət və qürur badəsindən sərməst olub, əbləhcəsinə öz səltənət xalçasını sərdi və başına hökmdarlıq və istiqlal havası düşdü. Amma gecə-gündüz vaxtını eyşdə və işrətdə keçirirdi. Bir həftə ərzində kef çəkib, bihuş oldu. O, kefcilliyin tüğyanı və məstliyin həddən aşması şəraitində, dünyanın [insanla] məskunlaşmış dörddə bir hissəsindəki şəhərləri əbləhlik badəsində ona yoldaş olan şəxslərə paylayırdı və hər bir vilayəti öz aqibətini düşünməyən mülazimlərindən birinə tapşırırdı. Onun özündən də axmaq olan həmin səfehlər ona səcdə edib, dualarını və minnətdarlıqlarını bildirirdilər. Belə bir əhvalat məşhurdur ki, bir gün onun mülazimləri arasında hər birinin ürəyindən keçən bir şəhərə hakim təyin olunmaq istəyindən, məmləkət bölgüsü üstündə qalmaqal baş vermişdi" (15).

Xoca Məhəmməd Saleh Bitikçinin Astrabadda qiyam qaldırması və vilayətdə idarəçiliyi ələ keçirməsi tezliklə Şah Təhmasibə də çatdırıldı. Şah Təhmasib də dərhal lazımi tədbirlərin görülməsi haqqında göstəriş verdi. Onun fərmanı əsasında qoşun dəstəsi təşkil edildi və həmin qoşun dəstəsinə rəhbərlik Əmir sultan Rumlu, Şahqulu sultan Ustaclu, Hüseyncan sultan Rumlu və Həsən bəy Şamluya tapşırıldı. Fərmana əsasən, bu qüvvələr Astrabada yollanmalı və bölgəyə yetişdikdən sonra Sədrəddin xan Ustaclı və onun ətrafında olan qoşun dəstəsi də həmin qüvvələrə qoşulmalı idi. Adları çəkilən əmirlər dərhal bölgəyə yollandılar. Sədrəddin xan isə Şah Təhmasib tərəfindən göndərilən qoşun dəstəsinin yaxınlaşması xəbərini eşidincə fəallıq nümayiş etdirdi və Astrabad üzərinə hərəkət etdi. Vilayət idarəçiliyini ələ keçirəndən sonra günlərini daha çox eyş-işrətdə keçirən Xoca Məhəmməd Salehin başı yüngül əyləncələrə qarışdığından Sədrəddin xanın rəhbərliyi altındakı dəstəyə müqavimət göstərilməsi üçün özünü səfərbər edə bilmədi: "...hadisələrin xəbəri qalibiyyətli və qüdrətli padşahın qulağına çatdı, o, Əmir sultan Rum-

luya, Şahəli sultan Ustacluya və Həsən sultan ġamluya müzəffər qoşunların bir hissəsi ilə Sədrəddin xanaköməyə getməyi tapşırdı. Amma Sədrəddin xan böyük əmirlərin gəlib çatmasından Öncə Ömər Qazi sultanın geri qayıtmasından, Məhəmməd Salehin qəflətdə olmasından və onun ağlının başında olmamasından xəbər tutub, təcrübəli döyüşçülərdən ibarət bir dəstə ilə Bistamdan çıxıb, Astarabada gəldi. Mübarək ramazan ayı (1538-ci ilin fevral ayı) idi. Məhəmməd Saleh günahkar yoldaşları ilə birgə həmin müqəddəs günlərdə qürur badəsi üzündən elə şüursuz və məmləkət işlərindən o qədər xəbərsiz idi ki, xanın nağara və şeypurunun avazı və qazilərin zurnalarının sədası onun və yoldaşlarının qulağına çatandan sonra anladılar ki, qızılbaş qoşunu şəhərə gəlmişdir. Onlar qorxaq və çaşqın bir vəziyyətdə cəngəllik tərəfə qaçdılar. Sədrəddin xanın mülazimlərindən kəngərlü tayfasından olan Şahverdi bəy adlı bir cavan Məhəmməd Salehi ələ keçirib, xana təhvil verdi və bunun müqabilində layiqli mükafat aldı. Sədrəddin xan [Məhəmməd Salehi] ali taxtın ətəklərinə göndərdi. Onu darüssəltənə Təbrizdə hökmdarın hüzuruna gətirdilər və şahın fərmanına uyğun olaraq, onu bir küpün içinə qoyub, Nəsriyyə minarəsinin başına çıxardılar və oradan yerə tulladılar. Onun bədbəxtliyə aludə olmuş vücudu qiyamçıların gözlərinə tutiya oldu” (16).

Mərkəzi hakimiyyətə qarşı qaldırılan qiyamların yatırılması üçün Şah Təhmasibin həyata keçirdiyi qətiyyətli tədbirlərinə baxmayaraq, bu yola əl atanlar qalmaqda idi. Şəriksiz hakimiyyətə yiyələnmək istəyənlər ayrı-ayrı vilayətlərdə müəyyən vaxtlarda bir növ bəxtlərini sınamağa cəhdlər göstərirdilər və hər dəfə də Şah Təhmasibin qətiyyəti ilə qarşılaşırdılar.

1550-ci ildə Astrabadda yenidən mərkəzi hakimiyyətə qarşı qiyam alovlanmağa başladı. Bu qiyam, əslində, yerli hakimə qarşı etiraz hərəkatı kimi başlasa da, sonradan onun miqyası genişləndi və mərkəzi hakimiyyətə qarşı qiyama çevrildi. Həmin il Şah Təhmasib tərəfindən Astrabadın hakimliyi Şahverdi xan Keçəl adlı birisinə həvalə olundu. Amma onun bu vilayətdəki fəaliyyəti və insanlara qarşı davranışı göstərdi ki, bu adam Şah

Təhmasibin etibarına layiq olmayan birisi imiş. Vilayət hakimliyi haqqında şah fərmanını alandan sonra Şahverdi xan Keçəldə ədalar, iddialar, sonsuz özünə arxayınçılıq, mənəvi-əxlaqi kəsadlıq göstərməyə başladı. Bu özünü onun hakim təyin edilməsi ilə bağlı təbrikə gəlmiş yaka-türkmən nümayəndələrinə qarşı da biruzə verdi. Həmin insanlara qarşı hörmətsiz münasibət son nəticədə Şahverdi bəy Keçələ qarşı müxalifətçiliyin yaranmasına yol açdı. Bu müxalifətçiliyə yaka-türkmənlərən mənsub olan oxlu tayfasının sərdarı Aba adlı bir gənc rəhbərlik edirdi. Aba Astrabadda Şahverdi xan Keçəlin hörmətsiz davranışına etiraz əlaməti olaraq xəlvətcə həmin şəhəri tərk edib öz ulusunun yanına qayıtdı və Şahverdi bəyə olan qəzəbinin qisası olaraq orada bu ulusa daruğalıq edən Şatur bəy adlı birisini qətlə yetirdi. Şatur bəy vilayət hakiminin nümayəndəsi olmaqla yanaşı həm də Şahverdi bəy Keçəlin qohumlarından biri idi. Şahverdi xan isə bu xəbəri eşidən kimi Abanın mənsub olduğu oxlu tayfası üzərinə qoşun çəkdi: "Astarabad hökumətinin Keçəl Şahverdi Ustacluya həvalə edildiyi 957-ci (1550) ildə yaka-türkmən camaatı yağı oldu. Onların yağı çıxmalarının səbəbi aşağıdakı kimidir. Elə ki Keçəl Şahverdi [Astarabada] hakim təyin olundu, yaka-türkmən sərdarları sultanı (Keçəl Şahverdini) təbrik etməyə və ona «mübarək olsun!» deməyə gəlib, peşkəşlər gətirdilər. Onların arasında oxlu tayfasının sərdarı olan Aba adlı bir cavan da vardı ki, mükəmməl yaraşığa və gözəlliyə, olduqca xoş lətafətə və hüsn-camala malik idi. Şahverdi sultan sərdarlar zümrəsi arasından yalnız Abaya qalmağı təklif edib, ona eşqini izhar etdi və bu əhvalatın xəbəri türkmənlər arasında yayıldı. Aba bədnam olacağının qorxusundan, rüxsət almadan gecə ikən atına minib, öz elinin arasına gəldi və öz tayfadaşlarının şübhələrindən yaxa qurtarmaq üçün sultanın türkmənlərin daruğası olan Şatır bəy adlı qohumunu qətlə yetirib, yağı oldu. Sultan onu cəzalandırmaq üçün yola düşdü. Elə ki oxlu tayfasının yaşadığı yerə çatdı, əsgərlərinə həmin tayfanı soyub-talamağı əmr etdi. Şahverdi sultan bir neçə nəfər xas mülazimi ilə təpənin başına çıxıb qarətə tamaşa edən zaman, haqqında bəhs etdiyimiz Aba türkmənlərdən ibarət bir dəstə ilə gözlənilməz bəla

kimi sürətlə sultanın başının üstünü alıb, onu qətlə yetirdi. Sultanın öldürülməsindən agah olan ustaclu qaziləri fərar edib, şəhərə gəldilər. Damğan və Bistam hakimi olan Əmir Qeyb sultan Ustaclu bu xəbəri eşidərək, Astrabada yollanıb, şəhəri mühafizə etdi və vəziyyət barədə gerçəklikləri cah-calallı hökmdarın ərzinə çatdırdı" (17).

"Aləmara-ye Şah Təhmasib" əsərində Şahverdi xan Keçəl həm də igid bir əmir kimi vəsf olunmuşdur. Bu əsərdəki məlumata görə, Astrabad üzərinə özbək qoşunlarının ehtimal olunan hücumu barəsində xəbər alınanda Şah Təhmasib bu vilayətin hakimi vəzifəsinə Şahverdi xan Keçəl təyin edildi. Şahverdi xanda Astrabada yollanmazdan əvvəl Şah Təhmasibin dərgahına gəldi və onunla vidalaşmaq istədi. Şahverdi xan bu zaman Şah Təhmasibə belə müraciət etdi: "Mənim canım mürşidə qurban olsun! Bu, mənim son səfərimdir və bilirəm ki, bir daha mürşidlə görüşə bilməyəcəyəm... Şahverdi xanın bu sözlərindən şahın gözləri yaşardı və dedi ki, bu nə sözdür ki, deyirsən. Əgər getmək istəmirsənsə, başqası getsin. Şahverdi xan dedi ki, sənə fəda olum. Aləmin şahzadəsi, şəhid Sultan Murad Mirzə özünün nurlu və pak yuxusunda həzrət İmam Həsəni və İsgəndər şanlı xaqanı görmüşdü. Onlardan dediklərini mənə çatdırdı ki, Astrabad vilayətində şəhid olacağam. O xoşbəxt şahzadənin yuxuda gördükləri, eşitdikləri və mənə dedikləri doğru oldu ki. Heç şəkk eləmirəm ki, onun bu sözü də doğrudur və mən Astrabadda bu dərəcəyə çatacağam. İnşaallah ki, mürşidi-kamilin başı sağ olsun". Bu söhbətdən sonra Şahverdi xan Astrabada yola düşdü (18).

"Aləmara-ye Şah Təhmasib"in məlumatına görə, Şahverdi xan Astrabada yetişəndə orada doğrudan da özbək qüvvələri var imiş. Amma həmin qüvvələr Şahverdi xanın vilayətə gəlməsi xəbərini eşidən kimi Xarəzmə tərəf istiqamət götürdülər. Şahverdi xanın vilayətə gəlməsi və onun gəlişinin nəticəsi kimi, özbək dəstəsinin də geri çəkilməsi vilayət əhalisi tərəfindən çox böyük sevinclə qarşılandı. O da bildirilir ki, əhali hətta onu şəhər kənarında qarşılayaraq təntənə ilə şəhər daxilinə müşayiət etdilər. Şahverdi xan Astrabadda yerləşəndən sonra vilayət əhalisinin nümayəndələri

onun hakimliyini təbrik etməyə gəlirlər. O cümlədən böyük saya malik olan yaka-türkmənlərinin də nümayəndələri Şahverdi xanın təbrikinə yollanırlar. Bu nümayəndə heyətini qəbul edərkən Şahverdi xanın nəzəri yaraşığı ilə seçilən gənc Abaya sataşır və onu nökər kimi yanında saxlamaq istəyir. Adı çəkilən mənbənin məlumatına görə, Aba yaka-türkmənlərinin sərdarının oğlu imiş. Şahverdi xan onun nümayəndələrin tərkibində olan əmisi ilə danışır və Abanın onun yanında qalmasını istəyir. Bu barədə Abaya deyiləndə o, qətiyyətli şəkildə etiraz edir və hətta Şahverdi xanın ünvanına ağır sözlər işlədir. "Aləmara-ye Şah Təhmasib"in məlumatına görə, təbrik üçün gələn heyət geri qayıtdıqdan sonra Şahverdi xan yaxınlarından biri olan Şatur bəy adlı birisini yaka-türkmənlərinə daruğa təyin edir. Şahverdi xanın tapşırığı əsasında Şatur bəy çalışmalı idi ki, Abanı Şahverdi xanın yanına qayıtmağa və onun nökəri olmağa razı salsın. Şatur bəy də yaka-türkmənlərinin yanına gələndən sonra Aba ilə bağlı aldığı tapşırığı da yerinə yetirməyə çalışdı. Aba bu təklifə razı olmadıqca Şatur bəy də müxtəlif bəhanələrlə yaka-türkmənlərini incitməyə başladı. Aba da bu işlərdən təngə gələrək Şatur bəyi qətlə yetirmək qərarına gəldi. Adı çəkilən mənbədə Şaturun Aba tərəfindən necə öldürülməsi haqqında da müxtəsər məlumat vardır. Bu məlumata görə, Aba bir gecə silahlanaraq Şatur bəyin qaldığı çadır yanına gəlir və ətrafda olan mühafizəçilərdən gizli şəkildə çadırın içərisinə daxil ola bilir. O, əlindəki xəncərlə Şatur bəyin başını bədənindən ayırıb sinəsi üstünə qoyur. Bundan sonra oradan uzaqlaşmaq istəyərkən Şatur bəyin mühafizəçilərindən üç nəfər məsələdən duyuq düşürlər. Aba onların hər üçünü qətlə yetirməyə müvəffəq olaraq oradan uzaqlaşa bilir (19).

"Aləmara-ye Şah Təhmasib"ə görə Aba çox-çox şücaətli idi və o, Şahverdi xanı da öldürə bildi. Bundan sonra o, ətrafda daha da şöhrətləndi. Şahverdi xan öldürüldükdən sonra Aba ətrafındakı dəstəsi ilə Astrabada soxuldu, Şahverdi xanın bütün əmlakını ələ keçirdi və Astrabad vilayətini də bütünlüklə öz nəzarəti altına aldı. Adı çəkilən mənbə Xarəzm hakimi Əli sultanın Abanın köməyinə gəlməsindən xəbər vermir. Bu mənbənin məluma-

tına görə, Aba gec-tez Səfəvi qoşunları ilə qarşılaşmalı olduğunu bildiyindən Səbzəvar hakimi Məhəmməd Salehə məktub yazdı və ondan xahiş etdi ki, Xarəzm hakimindən hərbi qüvvə alıb onun köməyinə gəlsin. Aba istəyirdi ki, Saleh Məhəmmədlə Astrabad vilayətinin nəzarət altında saxlamasında ittifaq təşkil etsinlər və birlikdə vilayətin sərvətlərini talasınlar. Saleh Məhəmməd də bu məktubdan sonra Xarəzm hakiminə müraciət edir və ondan dörd min nəfəlik bir dəstə alaraq Astrabada yollanır. Yəni "Aləmara-ye Şah Təhmasib"ə görə, Abanın köməyinə Əli sultan özü deyil, onun qoşun dəstəsi Səbzəvar hakimi Məhəmməd Salehin rəhbərliyi altında gəlmişdi. Bu qoşun dəstəsi Astrabad ətrafında Aba tərəfindən çox yüksək təntənə ilə qarşılandı. Məhəmməd Saleh bu qarşılanma zamanı Abanı hətta əmin etdi ki, bütün səltənəti alıb onun ixtiyarına verə biləcəkdir. Amma bir şərtlə ki, bu səltənətin idarə edilməsi açarı ona etibar edilmiş olsun. Məhəmməd Saleh qarşılanma zamanı Astrabad əhlinə də müraciət etdi, bu insanları Şah Təhmasibin qəzəbi ilə qorxudaraq ona qarşı mübarizəyə qaldırmağa çalışdı. Məhəmməd Saleh Astrabad əhalisinə müraciəti zamanı belə dedi: "Ey Astrabad əhli, bilin ki, bu gün fələyin gərdişi ilə bu diyarın hakimi olmuş Şahverdi xan öldürülmüşdür. Onun qətli xəbəri Şah Təhmasibə çatacaq və ehtimal olunur ki, o da vilayət əhalisinin qətliamına hökm versin. Əgər belə olsa, onda vay sizin halınıza ki, kiçik də böyük də bu rəhimsiz Səfəvi tayfasının əlində qalacaqdır. Qızılbaşlar bu vilayətə qədəm basanda siz gərək öz arvadlarınızdan, qızlarınızdan, oğlanlarınızdan, bacılarınızdan keçəsiniz və namusunuzdan əl götürəsiniz". İnsanlar da qorxuya düşüb başladılar Məhəmməd Salehə yalvarmağa ki, "əl bizdən ətək səndən", bizə kömək ol, nə buyursan ona əməl edərik. Məhəmməd Saleh də bundan istifadə edərək insanlardan pul toplamağa başladı və xeyli miqdarda da pul toplaya bildi. Eyni zamanda vilayətin cavanlarını da öz ətrafına yığdı və bu yolla 18 min nəfərlik bir dəstə formalaşdırmağa müvəffəq oldu (20).

"Tarix-i aləmara-yi Abbasi"nin məlumatına görə, Aba Türkmən hələ 1555-ci ildə vilayət idarəçiliyini öz əlinə keçirməyə

cəhd göstərdi. Lakin onun başladığı silahlı qiyam bir uğura gətirmədi: “Aba Oxlunun tüğyan və fitnəkarlıq xəbəri əşrəfin parlaq şəxsiyyətinə aydın olduqda, 962-ci ildə (26.11.1554 - 15.11.1555) Gökcə sultan Qacar, Əli sultan Tatıoğlu Zülqədər, Çərəndab sultan Şamlu və Mustafa sultan Varsaq o fitnəkarın qaldırdığı fitnənin dəf olunmasına məmur edildilər. Elə ki onlar oraya çatdılar, haqqında bəhs etdiyimiz Aba səadətli qoşunlara qarşı müqavimət göstərməyə tab gətirməyib, Xarəzm tərəfə qaçdı və Əli sultan Özbəkdən kömək istədi. Əli sultan qarət və talan törətmək həvəsi ilə ciddi bir qüvvə götürüb, Cürcana yollandı. Lakin o, böyük əmirlərin ordusuna yaxınlaşıb, qızılbaş qoşununun keyfiyyət və kəmiyyətindən agah olduqda gəlişindən peşman olub, əmirlərlə dostluq münasibəti yaratmağa çalışdı və tərəflər bir-birlərinə töhfələr və hədiyyələr göndərdilər. Qərara alındı ki, bundan sonra Aba öz halında qalıb, ayağını ədəb dairəsindən kənara qoymayacaq və əmirlər də ona heç bir zərər vurmayacaqlar. Sülh və əhdü-peyman bağlandıqdan sonra [Əli sultan Özbək] Xarəzmə geri qayıtdı. Gökcə sultan bu səfərdə öldü. Digər əmirlərin hər biri öz ölkələrinə getdilər” (21).

Amma Aba öz halında qalmadı və ətrafında gücləndirdiyi dəstə ilə yenidən silahlı qiyama cəhd göstərdi. 1558-ci ildə Şah Təhmasib tərəfindən İbrahim xan Astrabad hakimi təyin edildi. Bu təyinat Abanın silahlı qiyama başlamasına bir təkan verdi. Ola bilsin ki, Aba Türkman vilayətin yeni hakiminin idarəçiliyi hələ lazımi şəkildə təşkilatlandırmamasından istifadə edərək qarşıya qoyduğu niyyətə nail olmaq istəyirdi. İstənilən halda həmin il Aba Türkmən silahlı qiyama cəhd göstərdi və ətrafına topladığı silahlı dəstə ilə vilayət daxilində öz qiyamına rəvac verməyə çalışdı.

“Əhsənüt-təvarix” əsərinin müəllifinin verdiyi məlumata görə isə Aba türkmən ətrafına topladığı dəstə ilə Astrabada gəldi və vilayətin qarət və talan edilməsi ilə məşğul oldu. Əllərinə düşən fürsətdən istifadə edərək Aba və onun ətrafındakılar xüsusi bir amansızlıqla əhalinin həyatına bir qarışıqlıq gətirdilər. Bu hal bir müddət davam etdi. Vilayət hakimi şübhə etmirdi ki, malik ol-

duğu qüvvə ilə Aba idarəçiliyin də öz əlinə alınmasına cəhd edəcəkdir. Bunun qarşısının alınması üçün vilayət hakimi vəziyyət haqqında Şah Təhmasibə məlumat göndərdi və onun köməyinə arxalandı. Şah Təhmasib də Aba Türkmən tərəfindən qaldırılan bu qiyamın yatırılması üçün dərhal Şahqulu bəy Möhürdar və Bədr xan Ustaclının rəhbrliyi altında qoşun dəstəsi təşkil etdi və bu qoşun dəstəsini Astrabada göndərdi. Adları çəkilən əmirlər qoşun dəstəsi ilə birlikdə 1558-ci il may ayının 20-də Qəzvindən Astrabada doğru istiqamət götürdülər. Şah Təhmasibin hökmü ilə Yadigar Məhəmməd bəy Türkmən, Həsən bəy Qıcoğlu və Qasım bəy kimi təcrübəli əmirlər də Astrabada göndərilən dəstəyə qoşuldular (22).

"Aləmara-ye Şah Təhmasib"in məlumatına görə isə, Abanın Məhəmməd Salehlə birlikdə Astrabadda törətdikləri, Şahverdi xanın qətlə yetirilməsi haqqında məlumat alandan sonra bu qiyamın yatırılmasına Şah Təhmasib özü getmək istədi. Amma əmirlərin məşvərətindən sonra Şah Təhmasibin özünün Astrabada yollanmasını məqsədəuyğun bilinmədi. Onda hökm verildi ki, Kuçək sultan Qacar və Əli sultan Tatıoğlu Zülqədər on min nəfərlik qoşun dəstəsi ilə Astrabad qiyamının yatırılmasına yollansınlar. Çərəndab sultan və Mustafa bəy də Astrabada göndərilən dəstənin tərkibinə verildi (23).

Səfəvi tarixinə aid olan əsas mənbələrin məlumatına görə isə Səfəvi qoşun dəstəsinin Qəzvindən hərəkətə başlaması xəbərini eşidəndən sonra Aba qorxuya düşüb Xarəzm hakimindən kömək istədi. Bildirilir ki, Aba Türkmən qızılbaş əmirlərinin hərəkətindən xəbər tutduqda evini-eşiyini atıb qaçdı. Qızılbaş qoşunları onun ulusunu qarət edib orada dayandılar. Bu vaxt Aba Türkmən bədbəxt cahillərin bir dəstəsi ilə göründü və döyüşə əl atdı. Bəhram [kimi] intiqamçı əsgərlər tam sürətlə gəldiklərindən onların atları yorulmuşdu. Ona görə də döyüş odlarının alovlanması ta gecə vaxtınadək davam etdi. Abaya məlum oldu ki, bir iş görə bilməyəcək, üzünü çevirib sürətlə oradan uzaqlaşdı. O, yolda bir qatır qatarını ələ keçirib öz düşərgəsinə yollandı. Ertəsi gün isə o öz qoşununu nahiyələrin adamları hesabına çoxaldaraq döyüşə

gəldi. Qazilər istirahət etmək imkanı tapdıqlarından, hamısı birdən süvar olub ona həmlə etdilər. O, əfi ilan görkəmli nizənin ucundan böyük bir zəhmətlə xilas olub qaçmaq yolunu tutdu. Türkmənlər bu döyüşdən vahiməyə düşüb öz nümayəndələrini Xarəzm hakiminin yanına göndərdirlər və ondan yardım istədilər. Xarəzm hakimi Əli sultan da Aba Türkmənə yardım göstərmək qərarına gəldi (24).

"Tarix-i aləmara-yi Abbasi" əsərində qızılbaş əmirləri ilə Aba Türkmən arasında baş verən döyüşlər haqqında daha geniş təsvir mövcuddur. Həmin əsərdə deyilir: "Haqqında bəhs etdiyimiz Aba bu çaxnaşma və yağılıqdan özünə ad-san qazandığına görə öz tayfadaşları üzərində üstünlük əldə etməyə çalışdı və onun beyninə xudbinlik və böyüklük arzuları yol tapdı. 965-ci ildə (24.10.1557 -13.10.1558) İbrahim xan Zülqədər Astrabad hakimi təyin edilərkən o, üsyankar türkmənlərdən ibarət bir dəstə toplayıb, tam qüvvə üstünlüyü ilə Astrabad üzərinə gəldi. İbrahim xan onun dəf olunması üçün özündə qüdrət görməyib, onun əməlləri barəsində həqiqəti və onun tüğyanını əşrəfin xidmətinə ərz etdi. Həmin vaxt cənnətməkan şah həzrətləri darüs-səltənə Qəzvində qalırdı. O, möhürdar Şahqulu xəlifə Zülqədəri Bədr xan Ustaclu, Yadigar Məhəmməd sultan Tərxan Türkman, Rüstəm xan Əfşar və s. kimi adlı-sanlı əmirlər üzərində sərkərdə təyin edib, İbrahim xanın köməyinə göndərdi ki, [Abanı] dəf etmək yolunda səy göstərib, onun fitnəyə bürünmüş vücudunu həyat lövhəsindən silib atsınlar. Böyük əmirlər qoşun və ləşkər təşkil edib, lazımi qayda ilə Astrabad şəhərinə gələrək, İbrahim xana qoşuldular və hamısı birlikdə həmin qiyam əhlinin başçısı üzərinə gedib, türkmən camaatı arasına vəlvələ saldılar. Haqqında bəhs etdiyimiz Aba o [qızılbaş] qoşununun qarşısını almağa tab gətirmədi və öz məskənini və yüklərini ataraq, fərar etdi. Qazilər onun elini və ulusunu qarət və yağma edib, həmin yerdə düşərgə saldılar. Bu əsnada Aba mərdimazar türkmənlərdən ibarət bir dəstə ilə peyda olub, döyüşə girdi. Səadətli qoşunlar da hərbi səf çəkib, ona qarşı müharibəyə məşğul oldular. Sürətlə yol gəlməyin yorğunluğundan və asimandakı sərinliyi büryan

edən havanın yandırıcı istiliyindən qazilərin atları əldən düşüb, şətrənc (şahmat) atları kimi cansızlaşmışdılar. Türkmənlərə qarşı döyüş axşamacan davam etdi. Elə ki axşamın zülmət pərdəsi döyüş iştirakçılarının üzərinə çəkildi, tərəflər davadalaşdan əl çəkib, gözətçilər təyin etdilər. Ertəsi gün Aba oxlu tayfasından ibarət bir dəstə ilə döyüş meydanına gəldi. Hər iki tərəfdən həyata keçirilən ardıcıl həmlələrdən sonra [Aba] öz zəifliyinin və qızılbaş ordusunun qüdrətinin təsirini müşahidə edib, geri çəkildi və döyüşü udmaq imkanının olmadığını anlayaraq, Xarəzmə yollandı" (25).

"Rövzətüs-səfəviyyə" müəllifinin verdiyi məlumata görə, Aba Türkmənin yaratdığı fəsadlar haqqında bir neçə dəfə Şah Təhmasibə ərz olunmuşdu. O biləndə ki, Astrabad hakimi İbrahim xanın bu fəsadı aradan qaldırmaq üçün yetərincə gücü yoxdur, onda ora əlavə qüvvə göndərmək qərarına gəldi. Şah Təhmasib Qəzvini tərk edərək Xərqan çəməninə gələndən sonra Astrabad istiqamətinə qoşun dəstəsi göndərmək haqqında hökm verdi. Bu hökmə əsasən, yuxarıda adları çəkilən əmirlər qoşun dəstəsi ilə Astrabada yollanıb İbrahim xanla birləşməli və sonra da oxlu tərəkəmələrini sıxışdırıb vilayətdən çıxarmalı idilər. Şah Təhmasib istisna etmirdi ki, Aba Türkmənə Xarəzm hakimi Əli sultan əməli yardım göstərə bilər. Çünki bir tərəfdən Əli sultan da digər özbək hakimləri kimi Xorasana və ona qonşu olan bölgələrə maraqla yanaşırdı. Digər tərəfdən də məzhəb eyniliyi Əli sultanın qoşunla Astrabada gəlməsinə yol aça bilərdi. Bu isə Astrabada göndərilmiş qoşun dəstəsini çətin vəziyyətə sala bilərdi. Ona görə də qoşun dəstəsi Qəzvini tərk etməzdən əvvəl Şah Təhmasib qoşuna rəhbər təyin etdiyi Bədir xanla Şahqulu xəlifəni hüzuruna gətizdirdi və onları təlimatlandırdı. Şah Təhmasib onlara dedi: "Əgər Əli sultan sizinlə qarşılaşsa onunla döyüşə girməyə tələsməyin və həqiqi vəziyyəti öyrənin. Əgər onların sayı sizə az görünsə onunla müharibə başlamayın. Çünki özbəklərin hiylələri çox olur" (26).

Şah Təhmasibin bu ehtimalları heç də əbəs deyildi. Doğrudan da Xarəzm hakimi Əli sultan da Astrabad ətrafında yaranmış vəziyyəti öz məqsədlərinə çatmaq üçün münasib bir şərait kimi

dəyərləndirdi və qoşun toplayaraq Astrabad istiqamətində hərəkətə başladı. Mənbə məlumatlarına görə, Din Məhəmməd xanın qardaşı Əli sultan Səfəvi şahının lütfünü və göndərdiyi qiymətli hədiyyələri unudaraq böyük bir qoşunla Xarəzmdən Aba Türkmənin köməyinə gəldi. Bədr xan bundan xəbər tutduqda onun qarşısına çıxdı. Mövcud məlumata görə, Əli sultan elə də igid bir adam deyildi. Buna görə də düşərgəsi ətrafına xəndək qazdırmış, çuvalları qumla doldurub qoydurmuş, dəvələri orada yerə yatırtmış, tüfəngçilər oturtmuş və sanki istehkamlı bir qala düzəltmişdi. Əmirlər döyüşə başladılar. Çevik cavanlar və adlı-sanlı igidlər həmlə etdilər, döyüş qızışdı. Qızılbaş döyüşçüləri xəndəyin kənarına çatdıqda özbəklər onları ox və tüfəng atəşi ilə qarşıladılar. Bu vaxt Aba Türkmən iki yüz nəfər dilavərlə qızılbaş qoşununun arxasına keçdi. Hərçənd əmirlər Bədir xanç ehtiyatlı olmağa çağırsalar da o, qəbul etmədi. Aba Türkmən arxadan gəlib zərbə vurmağa başladı. Bu zərbədən qulluqçular qaçıb süvarilərə tərəf çəkildilər və qoşunun mərkəzində bir çaxnaşma yarandı. O əsnada Rüstəm xan Əfşar çoxsaylı qazilərdən ibarət bir dəstə ilə xəndəkdən adlayıb özbək dəstəsinin içinə girdi. Əli sultan vəziyyətin mürəkkəbləşdiyini görüb qaçmaq istədi. Bu zaman Rüstəm xana təsadüfi tüfəng gülləsi ilə həyatını itirdi. Özbəklər bundan cəsarətə gəlib qızılbaş döyüşçülərini tüfəng və ox atəşinə tutdular. Bu da döyüşün gedişində müəyyən dəyişiklik etdi və qızılbaş dəstəsinin vəziyyətini mürəkkəbləşdirdi. Qızılbaş döyüşçülərinin çoxu həyatlarını xilas etmək üçün özlərini Gurgan çayına atdılar və bu çayın suyunda boğularaq həyatla vidalaşdılar. Mənbə məlumatlarına görə, təxminən bir min nəfər beləcə dünyasını dəyişdilər. Öldürülənlər arasında Astrabad hakimi İbrahim xan da var idi. Qızılbaş əmirlərindən Bədir xanla Yadigar Məhəmməd bəy Türkman isə əsir alındılar (27).

"Tarix-i aləmara-yi Abbasi" əsərində qızılbaş dəstəsi üçün uğursuzluqla başa çatmış həmin döyüş belə təsvir edilmişdir: "Böyük əmirlər onu təqib edərək, Ətrək çayınadək irəlilədilər və səhranın yandırıcı havasında qoşunun sərdarı olan Şahqulu xəlifəni birdən-birə qarın sancısı tutdu və o, vəfat etdi. Qoşunun digər

əmirləri və əyanları Bədr xanın sərdarlığını qəbul etsələr də, hər biri özbaşına hərəkət etdilər və hər tərəfə soyğunçuluq və qarətə gedib, o qədər çox ora-bura [at] çapdılar ki, atlarını yorub əldən saldılar. Elə bu zaman qaravullar xəbər gətirdilər ki, Əli sultan Özbək yenidən düşmənçilik və bədzatlıq edərək, döyüşkən bir qoşunla Aba Oxlunun köməyinə gəlmişdir. Bədr xan ətraflı surətdə götür-qoy etmədən atlanıb, özbəklərlə döyüşə tələsdi. Qızılbaş qoşunundakı bahadırların inadkarlıq və mətanətindən çəkinən Əli sultan işini ehtiyatlı tutmuş, öz ordusunun ətrafında xəndək qazdırmışdı və daha sonra xəndəyi istehkama çevirib, orada qalaya oxşar bir şey yaratmışdı. Bu tərəfdən qazilər xəndəyin kənara gedib, döyüşə başladılar və özbəklər xəndəyin arxasından qazilərə ox və tüfəng aldılar. Özbəklərlə müharibə əsnasında Aba iki yüz nəfərlə birlikdə [qızılbaş] qoşununun arxasına keçdi. Əmirlər Bədr xana hər nə qədər desələr də ki, «düşmənlər məkr və hiylə qapılarını açmışlar və qoşunun arxasını Abanın məkr və hiyləsinin zərərindən qorumaq üçün bir dəstə göndərmək lazımdır», lakin o, bu təklifə etinasız yanaşdı və düşmənə əhəmiyyət verməyib, özbəklərlə döyüşə davam etdi. Nəhayət, iş o yerə çatdı ki, Aba [qızılbaş qoşununun] mehtərlərinin və cilovdarlarının olduğu yerin arxasına keçib, oradakı xidmətçiləri dövrəyə aldı. Türkmənlərin oxlarının qorxusundan bir-birinə dəyən xidmətçilər xəndəyin kənarında olan və bəziləri hətta xəndəyi keçib özbəklərlə əlbəyaxa vuruşan [qızılbaş] süvarilərinə doğru çəkildilər. Bundan cəsarətlənən özbəklər çoxlu ox və tüfəng atdılar və [qızılbaş qoşununun] cəmləşdiyi cərgələri ürəkdeşən oxlarla və canyandırıcı tüfənglərlə pərən-pərən etdilər. Beləliklə, əmirlər və qazilər hərbçilik adətlərinə və qaydalarına müvafiq hərəkət etməyib, ehtiyat tədbirləri görmədikləri üçün böyük bir məğlubiyyətə uğrayaraq, özlərini ixtiyarsızcasına, üzərində heç bir körpü və keçid yeri olmayan Gürgan çayına vurdular və onların bir çoxları fəna girdabında qərq oldular. Bu döyüşdə min nəfərə yaxın qızılbaş cavanı qətlə yetirildi və əsir düşdü. Əmirlər arasından İbrahim xan və Rüstəm xan qətlə yetirildilər, Bədr xan, Yadigar Məhəmməd xan və bəzi digərləri isə əsir düşdülər. Qalan

əmirlər salamatlıqla Damğana çatdılar. Əli sultan Özbək də döyüş meydanını tərk edib getdi. Cilovdarların əllərindən buraxdıqları və o səhrada otlamaqda olan gümüş və qızılla bəzədilmiş yəhərlərə malik atlarla bərəbər, mal və əşyalardan ibarət bol qənimət düşmənlərin əlinə keçdi" (28).

Şah Təhmasib qoşun dəstəsini Astrabada yollamazdan əvvəl Bədr xanla Şahqulu xəlifəyə verdiyi göstərişlərində onları, əslində, döyüş meydanında ehtiyatlı olmağa çağırdı. Yuxarıdakı məlumatlardan da göründüyü kimi, qızılbaş əmirləri bu ehtiyatı əldən verdilər. Onlar imkan verdilər ki, Aba Türkmən öz dəstəsi ilə qızılbaş qoşun dəstəsinin arxasına keçsin və qızılbaş döyüşçülərinə gözlənilməz zərbə endirsin. Mənbələrdə olan bəzi məlumata görə, Əli sultan da yaranmış şəraitdə qızılbaş döyüşçülərinə qarşı səmərəli döyüş təşkil edə bildi. Belə ki, onun öz düşərgəsi ətrafına xəndəklər qazdırması Əli sultanın döyüşə ehtiyatla yanaşmasının bir nəticəsi idi. O da bildirilir ki, qızılbaş döyüşçüləri yaxınlaşanda Əli sultanın göstərişi əsasında özbək tüfəngçiləri düşərgə ətrafında yaradılmış torpaq maneə arxasında səngərlənərək onları atəşə tutdular. Əli sultanın göstərişinə əsasən, onun döyüşçüləri düşərgə ətrafında ciddi mövqelər yaratmışdılar. Əli sultan şübhə etmirdi ki, qızılbaş dəstəsi təkrar-təkrar hücum edəcəkdir və yaxşı müdafiə olunmaqla onlara güclü zərbə də vurmaq olar. Bu taktika ona uğur gətirdi. Qızılbaş dəstəsi təkrar cəhdlər zamanı çoxlu itki verib gücdən düşdülər. Əli sultan qızılbaş dəstəsi zəifləyəndə bu dəstənin üzərinə qətiyyətli hücum əmri verdi. Qızılbaş əmirləri daha özbək döyüşçülərinin qarşısını almağa qadir olmadıqlarını görüncə geri çəkilmək məcburiyyətində qaldılar. Qızılbaş döyüşçülərinin çoxu öz canlarını çayı adlamaqda gördülər ki, bu vaxt onların çoxu elə çayı keçərkən suda boğulub həyatlarını itirdilər (29).

Beləliklə, gözlənildiyinin əksinə olaraq Şah Təhmasib tərəfindən göndərilmiş olan qızılbaş dəstəsi döyüşün təşkilində yol verilən ehtiyatsızlıq üzündən uğursuzluğa düçar oldu. Aba Türkmənin döyüş təfəkkürünün və imkanlarının lazımınca qiymətləndirilməməsi yalnız uğursuzluğa deyil, çoxlu itkilərə də yol

açdı. Bu uğursuzuq sözsüz ki, Şah Təhmasib tərəfindən narahatçılıqla qarşılandı. Amma onun tərəfindən Aba Türkmən qiyamını yatırılması üçün əlavə qüvvə göndərilmədi. Onun qoşun əmirlərinin əsirlikdən xilas olması üçün Əli sultan tərəfindən verilmiş təklifi də Şah Təhmasib qəbul etmədi. Əli sultan və onun əmirləri təklif etdilər ki, Səfəvi sarayının verdiyi müəyyən ödənc qarşısında bütün əsirlər geri qaytarıla bilər. Şah Təhmasib də əsir düşmüş döyüşçülərinin və əmirlərinin pul qarşılığında geri qaytarılmasına razı olmadı. Belə olanda əsir düşənlərin qohumlarının və ailə üzvlərinin verdikləri ödənclər qarşılığında əsirlər azad olundu. "Amma ondan sonra [əsirlikdən azad olunmuş] bu adamların əşrəfin hüzurunda heç bir hörməti olmadı və əşrəfin onlara etinasızlığı üzündən qısa müddət ərzində yoxluq diyarına yollandılar (öldülər)" (30).

Aba Türkmən isə Səfəvi sarayının gözləntilərinin əksinə olaraq qızılbaş qoşun dəstəsinə güclü zərbə vurmağa nail olaraq Astrabadın idarəçiliyini ələ keçirdi. Əldə edilmiş qələbə onda özünə arxayınçlığı daha da artırdı, vilayət daxilində idarəçiliyi öz istədiyi kimi qurdu, Səfəvi sarayı ilə əlaqələri kəsdi. Malik olduğu hakimiyyətdən istifadə edərək Astrabadın Bitikçilər nəslinin nüfuzlu nümayəndəsi və Astrabadın hakimi olmuş Xoca Müzəffər Bitikçinin oğlu Xoca Məhəmmədin qızını zorla özünə nikah etdirdi. Bununla o eyni zamanda özünü Astrabadda uzun müddət hakim olmuş bir nəslə calaşdıra bildi. Əslində, bu nikah da elə onun həyatına son qoydu. "Tarix-i aləmara-yi Abbasi" əsərinin müəllifinə görə: "Aba qələbə qazanıb, iqtidar əldə etdiyindən Xoca Müzəffər Bitikçinin oğlu Xoca Məhəmmədin qızını zorla götürüb apardı. O qız Abanın vəhşiliyinə görə onu rədd etsə də, axırda ona ərə getməyə ikrahla razılıq verməyə məcbur oldu. Aba o ismətli qızı öz nikahına saldı və Bitikçilər nəslinin mülazimləri o qadının yanına toplaşıb, ona xidmət göstərməyə başladılar. Amma o qadın gecə-gündüz bu fikirdə və düşüncədə idi ki, özünü Abanın əlindən xilas etsin. Aba ondan özünə qarşı vəfasızlıq hiss edib, onun mülazimlərini öldürməklə təhdid etdi. [Qadının] mülazimləri canlarının qorxusundan onunla (Abanın qadını ilə)

araya söz qoydular ki, əgər bu gecə bir tədbir görməsək, sabah hamımız öldürülmüş olacağıq. Xatun öz mülazimləri ilə vədələşib dedi:

- Gecə yarısı çadırın qapısına bir neçə at gətirib hazır olun ki, mən sizi münasib vaxtda xəbərdar edəcəyəm. Onlar qadının göstərişinə əməl etdilər. Gecə yarısı Aba yuxuda olarkən və onun qaravulçuları yağmurlu hava üzündən keçələrini başlarına çəkib mürgüləyərkən qadının mülazimləri arasından Mühibbəli adlı birisi cürət edərək, o aslanabənzər qadının işarəsi ilə onun yataq çadırına girib, [Abanın] başını bir qılınc zərbəsi ilə bədənindən ayırdı. Banu ərinin başını götürüb, özünü qaravulçularına və yoldaşlarına çatdırdı. Onlar ildırım tezliyi və külək sürəti ilə Astarabada tələsdilər. Mühibbəli o qiyamçının başını cahanın pənahı olan dərgaha gətirib, darüssəltənə Qəzvində Firidun məqamlı, Cəmşid vüqarlı şaha təqdim edərək, mükafat və bəxşiş aldı. Bununla da Astarabadda o bədzatın fitnə atəşi söndü" (31).

Mənbələrdə Xarəzm hakimi, Aba Türkmən qiyamını əməli köməyi ilə dəstəkləmiş Əli sultanın sonrakı taleyi haqqında da bəzi məlumatlar mövcuddur. Həmin məlumatlara görə, Əli sultan 1566-cı ildə dünyasını dəyişdi. Onun ölümündən sonra Səfəvi sarayına qarşı iddialı mövqedə olan türkmənlər də əsas dəstəklərini ititrdiklərindən öz fəallıqlarını bir qədər məhdudlaşdırmağa başladılar. Əli sultanın ölümündən sonra Hacı Məhəmməd xan Xarəzmin hakimi oldu. Hacı Məhəmməd xan isə Əli sultandan fərqli olaraq Səfəvi sarayı ilə xoş münasibətlər qurulmasına üstünlük verdi. Bununla bağlı o, dəfələrlə Səfəvi sarayına elçiliklər göndərdi, bu elçiliklər vasitəsi ilə qarşılıqlı xoş münasibətlərə tərəfdar olduğunu bəyan etdi. Yəni Astrabad türkmənlərinin Xarəzm dəstəyindən məhrum olması onların vilayət daxilində qiyam qaldırmaq ümidlərini də xeyli məhdudlaşdırdı. Ümumiyyətlə, mənbə məlumatlarına görə Aba Türkmənin qətlindən sonra Astrabadda əmin-amanlıq və Səfəvi hakimiyyəti bərqərar oldu.

### 3. Heratdakı Qazax xan qiyamının yatırılması

Şah Təhmasibin hakimiyyəti dövründə mərkəzi hakimiyyətə qarşı baş vermiş qiyamların biri də Heratdakı Qazax xan qiyamı idi. Bu qiyamın baş verməsi 1574-cü ilin sonlarına təsadüf edir və qarşıya qoyulan məqsəd də Səfəvi hakimiyyətindən qopmaq və müstəqil hakimiyyətə nail olmaq idi. Herat məlumdur ki, Səfəvi səltənətinin şimal-şərqində yerləşirdi və səltənət üçün strateji əhəmiyyət kəsb edən Xorasan vilayətinin mərkəzi idi. Məlumdur ki, bu vilayət davamlı olaraq özbək qoşunlarının müdaxilələrinə məruz qalırdı. Ona görə də bu vilayətin, o cümlədən də Heratın gücləndirilməsi Səfəvi sarayının diqqət mərkəzində idi. Eyni zamanda davamlı təsirlərə məruz qalması baxımından Herat və bütünlükdə, vilayət kifayət qədər həssas bir hərbi-siyasi şəraitə malik idi. Xorasan vilayətinin mərkəzlə bağlılığının gücləndirilməsi üçün hələ Şah İsmayılın vaxtından şah ailəsi üzvlərinin bu vilayətə hakim təyin edilməsi təcrübəsi var idi. Məlumdur ki, Şah Təhmasib özü də Şah İsmayılın hakimiyyəti dövründə Heratın hakimi olmuşdu. Şah Təhmasibin hakimiyyəti illərində isə onun qardaşları Sam Mirzə ilə Bəhram Mirzə Herat hakimliyinə təyinat almışdılar. Şah Təhmasibin həyatının sonlarına doğru Heratın hakimi tanınmış qızılbaş əmirlərindən olmuş Məhəmməd xan Şərəfəddinoğlu Təkəlinin oğlu Qazax xan idi. Məhəmməd xan Şərəfəddinoğlu Səfəvi sarayına sədaqətli olan əmirlərdən biri idi və Heratda Səfəvi hakimiyyətinin möhkəmləndirilməsi məqsədi ilə o, bu şəhərin hakimi təyin edilmişdi. Şah Təhmasibin oğlu Məhəmməd Mirzə də bir müddət Herat hakimi olmuş və Qazax xan da onun ləlıliyinə təyin edilmişdi. Əslində, real hakimiyyət də onun əlində idi. Amma malik olduğu səlahiyyətlər, əldə etdiyi sərvətlər vaxt ötdükcə Qazax xanda iddialı istəklərin yaranmasına yol açdı. Mənbə məlumatlarına görə, Qazax xan hətta Şah Təhmasibin oğlu İsmayıl Mirzəni də atasına, o cümlədən də mərkəzi hakimiyyətə qarşı mövqe tutmağa sövq edə bilmişdi. Bunun nəticəsində, İsmayıl Mirzə də həbs edilərək Qəhqəhə qalasına göndərilmişdi (32).

Ətrafında baş verənlərdən lazımi nəticə çıxarmayan Qazax xan özü də, qeyd edildiyi kimi, Şah Təhmasibin hakimiyyətinin sonlarına yaxın asilik yolunu tutdu. “Bu bargahın (Səfəvi xanədanının) yüksəltdiklərindən və bu dərgahın himayə etdiklərindən olan Qazaq nankor olub, Xeybər cühudları kimi başını itaət çənbərindən çıxararaq ayağını tabeçilik dairəsindən kənara qoydu və qəti surətdə nankorluq və üsyan mövqeyi tutdu. Onun beyinsiz başına pozğun xəyallar yol tapdı və bədşüküm könlündə Herat səltənətinin sevdası möhkəmləndi. Avaraçılıqdan bu abhavanı və həvəsi ələkdən keçirdi, qiyamçılıq alovunu alışdırmaqla öz abır-həyasını yandırdı və [Səfəvilər] dövlətinin cəmi düşmənlərinin aqibətinin pisliyindən və əhvalının puçluğundan ibrət götürmədi. Onun gümanı bu idi ki, dinin pənahı olan şahdan başqa ona müqavimət edə biləcək və ona həmlə etməyə gücü yetəcək kimsə yoxdur. Ona görə də Heratı xaraba qoymaqla və bəndələrə əzab verməklə məşğul olub əksər rəiyyətləri şəhərdən və bölükatdan xaric etdi, onların mallarını və əşyalarını mənimsədi və əhalinin cəmiyyətinin binasını zülmün sərsəri [küləyi] ilə viran edib sitəm qapılarını rəiyyətin, məiyyətin və digərlərinin üzünə açdı. O, “Bir hökmdar küfr ilə qala bilər, lakin zülm ilə qala bilməz” hədisinin məzmunundan xəbərsiz idi. Bilmirdi ki, miskinin əlindən alınmış bıçaq dönüb peyğəmbərin iti qılıncı olmaz, fəqirlərin malının vəsaiti hesabına düzəldilmiş qalxan qəzavü-qədər tüfənginə mane ola bilməz və məzlumların pulu ilə tərtib edilmiş cövşən (zireh) bəlanı dəf etməz” (33).

Mənbə məlumatlarına görə, İsmayıl Mirzənin həbs edilməsindən sonra Qazax xanda mərkəzi hakimiyyətə qarşı ehtiyatlı münasibəti xeyli gücləndirmişdi. Qazax xan mərkəzi hakimiyyətin siyasətinə lazımi diqqət də göstərmirdi. Atasının dünyasını dəyişməsindən sonra isə Qazax xanda mərkəzi hakimiyyətə qarşı soyuqluq daha da gücləndi və hər zaman çalışırdı ki, mərkəzi hakimiyyətin təsirindən uzaq qalsın. Daxilində etdikləri əməllərə görə cəzalandırılması qorxusu da Qazax xanın asiliyinə bir zəmin yaradırdı. Bununla belə, Qazax xan onu da anlayırdı ki, ətrafında olan qızılbaş qoşun dəstəsi onun niyyətini, mərkəzi hakimiy-

yətdən qopmaq cəhdini dəstəkləməyə bilər. Buna görə də o öz ətrafına daha sədaqətli ola biləcək qüvvələr axtarır və eyni zamanda hindlilər arasından da özü üçün qüvvələr formalaşdırmağa çalışırdı. Mənbə məlumatlarına görə, Qazax xan ətrafına iki min nəfərlik hindlilər dəstəsi toplaya bilmişdi. O bu dəstdə olan adamları silah və sursatla təmin edir, onları döyüş hazırlığı ilə məşğul olur və onlara lazımi səviyyədə maliyyə təminatı verirdi. Bildirilir ki, Qazax xan ətrafına topladığı hindlilərə müəyyən səlahiyyətlər də vermişdi. O, daha çox bu adamlara etibar və istinad edirdi, hətta bəzi məclislərdə hindlilər türk və tacik əyanlarından da yuxarı başda əyləşirdilər. Yəni Qazax xan məqsədyönlü şəkildə mərkəzi hakimiyyətə qarşı qiyam qaldırmaq üçün hazırlaşırdı və onun bu hazırlığı tezliklə əməldə də ifadəsini tapdı (34).

"Qazaq Təkəlüdür ki, öz ağılsızlığı və həddini aşması ucbatından ağzıgöyçəklərin sözlərinə aldanıb, pis əməllər törətdi və özünü məhv etdi. O, öz atası Məhəmməd xan Şərəfəddinoğlunun göstərdiyi sədaqətli xidmət və dövlətsevərlik səbəbindən atasının ölümündən sonra onun yerinə darüssəltənə Heratın bəylərbəyisi və kama çatmış şahzadə Sultan Məhəmməd mirzənin lələsi vəzifəsinə yüksəldildi. Lakin o, zülm və sitəm etməyə meylləndi və rəiyyətin malını-mülkünü qəsb etməyə başladı. Get-gedə mal-dövlətinin bolluğuna və malik olduğu şahanə mülkiyyətə arxalanaraq, ayağını itaətkarlıq yolundan kənara qoydu və müstəqillik xəyalı ilə öz ətrafına çoxlu məiyyət və qoşun topladı" (35).

"Aləmara-ye Şah Təhmasib"in məlumatına görə, Qazax xan asilik yolunu tutanda vilayət əyanlarından da bəziləri ona qoşuldular və ona sədaqətini bəyan etdilər. İstər Qazax xanda, istərsə də onun ətrafındakılarda belə bir güman var idi ki, Şah Təhmasib artıq qocalıb və o, Heratda baş verən qiyamın qarşısını ala bilməyəcəkdir. Nəticədə də Herat mərkəzi hakimiyyətdən qopa biləcəkdir (36).

Mənbə məlumatlarına görə, Şah Təhmasib mərkəzi hakimiyyətə qarşı Qazax xanın qiyam qaldırması xəbərinə əvvəlcə səbirlə yanaşdı. O belə ehtimal edirdi ki, Qazax xanın atası Məhəmməd xan Şərəfəddinoğlu Səfəvi hakimiyyətinə öz sədaqəti ilə tanı-

nırdısa, onun oğlu da bəlkə öyüd-nəsihətlərlə haqq yoluna qayıda bilər. Qazax xanın doğru yola qaytarılmasına nail olunması üçün Şah Təhmasib onun ətrafındakılara, qohum-əqrəbasına, hətta xidmətçilərinə hökm yazıb göndərdi. Həmin hökmdə deyilirdi: “Qürur divi Qazax xanı yolundan çıxarıb asiliyin batil xəyalları onun daxilində yer tutubdur. Belə gümana düşübdür ki, bu əbədi dövlət mövcud olsa da bu batil fikrin öhdəsindən gələ bilər. Onun valideyninin bu dövlətə sədaqətli xidməti sabit olduğundan, hərəkətinə qarşı tədbir görülmür. Ola bilsin ki, yol göstərənlərin hidayəti nəticəsində xəta yolundan savab yoluna meyl etsin. Ona görə də sizin hər birinizin qulluq borcunuzdur ki, onun nəsihət edilməsi üçün sözünüzü deyəsiniz və elə edəsiniz ki, o, qiyam yolundan bizə itaət və sədaqətin müstəqim yoluna meyl etsin. Əgər o öz iddialarında israr etsə və nəsihətlərdən bir nəticə çıxarmasa, onda sizin hər biriniz onun asiliyinin və fəsadlarının aradan qaldırılması üçün çalışın. ...Yenə sizin hər birinizə tamamilə aydındır ki, onun fəsadının və asiliyinin dəf edilməsi sizin üçün bu dərgahın qulamlarına nisbətən daha asan başa gələ bilər” (37).

Şah Təhmasibin hökmü gizli şəkildə Cunabed qəsəbəsinin əyanlarından olan Qazi Qütbəddin Hüseyn Cunabediyə verildi ki, onu Herata çatdırsın. Qazi Qütbəddin Hüseyni də Herata yollanaraq bu şəhərin kələntəri olmaqla şəriət məsələlərinin həllini də üzərinə götürmüş Əmir Hüseyn Xətiblə görüşdü, hökm yayılması üçün ona təqdim olundu. Şah Təhmasibin hökmü Herat sarayının əyanlarına, əşrəflərinə, əmirlərinə, hətta Qazax xanın qardaşlarına da çatdırıldı. Qazax xanın qardaşları da daxil olmaqla əmir və əyanları çoxu Şah Təhmasibə sədaqətli olduqlarını nümayiş etdirdilər. Herat əhalisinin Qazax xan qiyamına münasibətini öyrəndikdən sonra Qazi Qütbəddin Hüseyn vəziyyət haqqında Şah Təhmasibə məktub göndərdi. Bu məktubunda Qazi Qütbəddin bildirdi ki, Qazax xanın hətta yaxın adamları da onun başladığı qiyamın yatırılması haqqında düşünürlər. Amma mövcud şəraitdə onlar öz narazılıqlarını açıq şəkildə biruzə verə bilmirdilər. Ona görə də Qazi Qütbəddin məsələnin həlli üçün Şah

Təhmasibdən kömək göstərilməsini arzu edirdi (38). Şah Təhmasib də Qazi Qütbəddinin fikrini qəbul etdi və Qazax xan qiyamının yatırılması üçün Herata qızılbaş qoşun dəstəsi göndərməyi qərar aldı.

"Qazağın tüğyan etməsi [haqqında] xəbər dinin pənahı olan şahın qulağına çatdıqda onun qəzəb atəşi alışdı, qeyz qığılcımı yandırıcı alov kimi şöləlləndi və küləyin şiddətindən dənizin təlatümə gəldiyi kimi, onun hiddət seli coşdu. [Şah tərəfindən] cahanı müti edən əmr verildi ki, Sultan İbrahim mirzə, Bədiüzzaman mirzə, Məsum bəy Səfəvi, Əmir xan Türkman, Vəli xəlifə Şamlu, Şahqulu sultan Əfşar, Nəzər bəy Ustaclu, Sədrəddin xan Səfəvi, Araz bəy Rumlu, Heydər bəy Türkman, Əmiraslan bəy Əfşar və Xəlil bəy Kürd Herata yollansınlar, əvvəlcə onu tabeçilik göstərməyə, təslim olmağa və doğru yola riayət etməyə dəvət etsinlər. Əgər itaət boyunduruğunu və sədaqət halqasını bəzək və zinət kimi boynuna və qulağına taxarsa, səadət və uğur məkanı olan aləm dərgahına əyilməyi qəbul edərsə, [ixtiyarındakı] beş min süvarini [şah] ordusunun əmirlərinin sərəncamına verərsə, o zaman ona izzət və ehtiram göstərsinlər. Yox, əgər inadkarlıqda və üsyankarlıqda israr edərsə, onu dəf etməklə məşğul olsunlar" (39).

Sultan İbrahim Mirzə və Bədiüzzaman Mirzə Şah Təhmasibin qardaşı Bəhram Mirzənin övladları idi. Birincisi Məşhəd hakimi, ikincisi isə Sistan hakimi idi. Onlardan başqa Bəhram Mirzənin Hüseyn Mirzə adlı oğlunun da bu hərəkatda iştirak edildiyi bildirilir. O isə Qəndəhar hakimi idi.

"Əhsənüt-təvarix" müəllifi Həsən bəy Rumlu daha sonra bildirirdi ki, Qazağın qardaşları Mustafa bəy və Müseyib bəy ona qəsd etdilər, lakin bir iş görə bilmədilər və ona görə də onlar Quryana gedərək, o diyarın valisi olan Safi Vəli xəlifə Rumluya qoşuldular (40).

Bu məqamla bağlı "Aləmara-ye Şah Təhmasib" əsərindəki məlumat bir qədər fərqlidir. Həmin əsərdə deyilir ki, Mustafa bəylə Müseyib bəy çalışdılar ki, Qazax xana nəsihətlər versinlər və onu bu yoldan çəkindirsinlər. Qazax xan isə bu nəsihətləri

nəinki qəbul etmədi, hətta öz qardaşlarını da qətlə yetirmək fikrinə düşdü. Belə olanda Mustafa bəylə Müseyib bəy Heratdan qaçaraq Məşhəd hakimi Vəli xəlifənin yanına gəldilər və baş verən əhvalatı ona danışdılar. Müseyib bəy təklif etdi ki, Vəli xəlifə qoşun toplasın və onlarla birlikdə Herata doğru hərəkət etsinlər. Qardaşların fikrincə, bu yolla həm Qazax xanın namərdliyinin qarşısını almaq olar, həm də mürşidi-kamilin yanında etibar qazanmaq olar. Vəli xəlifə bu təkliflə razılaşdı və on min nəfərlik qoşun dəstəsi təşkil edərək qardaşlarla birlikdə Herat ətrafına yola düşdü. Adı çəkilən mənbənin məlumatına görə, Qazax xan da ətrafına iyirmi minlik bir qoşun dəstəsi toplamışdı və bu qoşunun əsasını təkəli döyüşçüləri təşkil ediridlər. Vəli xəlifə Herata yaxınlaşanda Qazax xan başqa bir qardaşı olan Hüseynqulunu qoşunla Vəli xəlifənin və digər qardaşlarının rəhbərliyi altında olan səltənət qoşunlarının qarşısına göndərdi. Bildirilir ki, bu qoşunlar arasında on iki gün döyüş davam etdi və yalnız 13-cü gün bu qarşıdurmada vəziyyət aydınlaşmağa başladı. Qüvvə üstünlüyündən istifadə etməklə qiyamçılar bu döyüşü öz xeyirlərinə başa vurmaq ərəfəsində idilər. Elə bu vaxt Səfəvi qoşunları köməyə yetişirlər və onların gəlməsi ilə Vəli xəlifənin qoşun dəstəsi bütünlüklə məhv olmaqdan xilas olur. Qazax xan eşidəndə ki, onun qoşun dəstəsi məhv edilib, onda yeni bir dəstə formalaşdırıb Heratın müdafiəsini təşkil etmək fikrinə düşdü. Amma biləndə ki, bu yolla canını Səfəvi qoşunlarından qurtara bilməyəcək, onda oğlu Cəfər bəylə birlikdə qalanı tərk edərək Xarəzm və ya Əbivərd tərəfə qaçmaq istədi. Amma buna da nail ola bilmədi. Məsum bəyin rəhbərliyi altında olan qoşun dəstəsinin Herat qalası ətrafına yetişməsi onun bu istəyinin də həyata keçməsinə imkan vermədi. “Aləmara-ye Şah Təhmasib”in məlumatın görə, Qazax xan, əslində, Herat qalasını tərk edib qaçmağa cəhd göstərmişdi. Ancaq Məsum bəyin göndərdiyi atlı dəstəsi onu tutaraq geri qaytara bilmişdi (41).

“Tarix-i aləmara-yi Abbasi” əsərində bu hadisə ilə bağlı deyilirdi ki, Şah Təhmasibin göstərişinə əsasən, Əmir xan Mosullu, Vəli xəlifə Şamlu, Nəzər sultan Ustaclu, Sədrəddin xan, Şahqulu

sultan Əfşar, Əmir Qeyb sultan, Xorasana göndərilmiş Məsum bəy Səfəvi, Sultan İbrahim mirzə və onun qardaşı Bədiüzzaman mirzəyə qoşularaq Herata getməli və qiyamı yatırmalı idilər. Məsum bəy Səfəvi hökmdarın göstərişinə uyğun olaraq dərhal bu tapşırığın icrasına başladı. Bu əsərdə də Qazax xanın qardaşları olan Mustafa bəylə Müseyib bəyin Qazax xan tərəfindən mərkəzi hakimiyyətə qarşı qiyam qaldırılması ilə razı olmadıqlarını və onların Quriyana yollanaraq Vəli xəlifə Rumluya qoşulduğu bildirilirdi. Həmin qardaşlar Vəli xəlifə ilə birlikdə Qazax xana qarşı mövqe tutdular. Qazax xan biləndə ki, Vəli xəlifənin rəhbərliyi altında olan qoşun dəstəsi Herata doğru hərəkətə başlamaqdadırlar, onda digər qardaşı Hüseynqulunu və oğlu Cəfər bəyi 2-3 min nəfərlik bir dəstə ilə onların qarısını almağa göndərdi. Güman etmək olar ki, Vəli xəlifənin rəhbərliyi altında olan qoşun dəstəsi də 2-3 min nəfərdən artıq deyildi. Çünki Məsum bəy Səfəvi eşidəndə ki, Qazax xanın 2-3 minlik dəstəsi müqavimət göstərmək tapşırığı alıb, onda o rəhbərliyi altında olan qoşun dəstəsi ilə Vəli xəlifənin köməyinə tələsdi. Adı çəkilən mənbənin məlumatına görə, tərəflər arasında Quryan ətrafında böyük bir döyüş baş verdi. Bu məlumata görə, Qazax xanın qoşun dəstəsinin əsasını təşkil edən təkəlilər çox ciddi müqavimət göstərirdilər. Lakin, elə ki Sultan İbrahim mirzənin, Məsum bəyin və əmirlərin qoşununun qaraltısı göründü, təkəliləri qorxu və vahimə bürüdü və onlar məğlub olub, qaçmağa başladılar. O tayfadan min səkkiz yüz nəfər döyüşdə qətlə yetirildi. Qılıncdan qurtulanlar isə özlərini Herat şəhərinə çatdırdılar. Səltənət qoşunları da onları təqib edərək özlərini Herat ətrafına yetirdilər. Qoşun dəstəsinin məğlub olması və Herata geri qayıtması xəbəri Qazax xana çatanda o döyüşçüləri səfərbər edərək bir də müqavimət göstərmək istədi. Amma bir nəticə alınmadı. Çünki ilk döyüşün həyəcanı və qorxusu təkəlilər arasına elə bir vahimə salmışdı ki, onlar yenidən toparlana bilmədilər. Qazax xanın oğlu Cəfər bəy isə vəziyyətin mürəkkəbləşdiyini görüncə Heratı tərk edib Kabul və Hindistan istiqamətinə üz tutdu. Qazax özü isə canını qurtarmaq üçün şahzadə Sultan Məhəmməd mirzəni və onun oğlu

Sultan Həsən mirzəni özü ilə götürüb İxtiyarəddin qalasına yollandı. O güman edirdi ki, şahzadələri yanında girov saxlamaqla həyatını da salamat qurtara bilər. Görünür, sonradan Qazax xan müqavimət göstərməyin mənasız olduğunu və onun qiyam cəhdinin sonunun çatdığını başa düşdü. Məsum bəy Səfəvi İxtiyarəddin qalasına yaxınlaşanda Qazax xan müqaviməti dayandırdı. Çünki onun səhhəti də artıq yerində deyildi. Şahzadələri Məsum bəyə təhvil verdikdən sonra istisna (bədən boşluqlarına su toplanma xəstəliyi, sulu şiş] mərəzinə və xəstəliyinə malik Qazaq qalanı tərk etdi. Bir neçə güdən sonra isə elə həmin xəstəlikdən vəfat etdi. "Tarix-i aləmara-yi Abbasi" müəllifi yazırdı ki, o öz rahatlığının qədrini bilmədi və öz nankorluğunun cəzasına çatdı (42).

Qazax xan qiyamının yatırılması "Əhsənüt-təvarix" təvarix əsərində daha geniş və bir qədər də fərqli şəkildə təsvir edilmişdir. Vəli xəlifə və Mustafa bəylə Müseyib bəyin rəhbərliyi altında olan qoşun dəstəsi Qazax xana tərəf hərəkətə başlayandan sonra hadisələrin gedişi adı çəkilən mənbədə belə təsvir edilmişdir: "O əsnada Qazaq öz qardaşı Hüseynqulu bəyi şeytanın tabeçilərindən [ibarət] pərişan bir dəstə ilə qardaşlarına və Safi Vəli xəlifəyə qarşı döyüşə göndərdi. Safi Vəli xəlifə ildırımdan və küləkdən daha cəld bir qasidi əmirlərin [yanına] göndərib [onları] Qazağın qoşununun gəlişindən xəbərdar etdi. Məsum bəy bu xəbəri eşitdikdə, xəncər vuran bahadırlardan [ibarət] bir dəstə ilə onların üzərinə sürətlə hərəkət etdi. Düşənbə gününün sabahı [əmirlər] dəmir dağ və təlatümlü dəniz kimi bir qoşunla müxaliflərə yetişdilər. O vaxtadək Hüseynqulunun və Qazağın qoşunu arasında əmirlərin onlara tərəf hərəkət etməsi [haqqında] xəbər öz təsdiqini tapmışdı. Onların gəlişindən sonra [qiyamçılar] iztiraba düşüb qaçmağa üz qoydular. Qəzəbli qartalın şövkətindən heyrət girdabında qalmış su quşları kimi əndişə lövhəsinə fərar surətini çəkdilər. Amma ölüm qılıncının camından acı damla içməli və ox səfirindən can odlayan xəbər eşitməli olan bir dəstə qeyri-mümkün bir xəyalla döyüş və vuruş iddiasına düşüb savaş meydanı təyin etdi. Şənbə səhəri, rəbiülaxır [ayının] 10-da (15.11.1564)

zəfər şüarlı əsgərlərin mənqəlayı müxaliflərə çatıb dərhal həmlə etdi. İlk həmlədə bahadırcasına hücum həyata keçirdilər və mərdanə səy göstərdilər. Hərb qığılcımı şöləlendi və savaş alovu canların xırmanına ölüm atəşini saldı. Əcəlin sərt küləyi həyat fidanını mövcudluq bağçasından qopardı və döyüş dəryasının təlatümü nəticəsində ətrafda ölülərdən [ibarət] yığınların yaranması ilə böyük dəhşətin (qiyamətin) surəti göründü və məhşər çölünün nümunəsi müşahidə edildi. ... Qalibiyyətli qoşunun bahadırları o məğrur güruhun çərxçilərini yerindən dəbərdib [özlərini] mərkəzə yetirdilər və onlar qaziləri tüfəng zərbələri ilə geri oturtdular. O əsnada Vəli xəlifə Şamlu aslan xasiyyətli bahadırlardan bir dəstə ilə və dava axtaran pələnglərdən bir bölüklə mənqəlayın köməyinə çatıb bir həmlədə onları məğlub etdi. Qazağın qoşunu sürətli ox kimi və küləklə sovrulan tozanaq kimi üzünü fərara doğru çevirdi. Qalibiyyətli qoşun onlardan min səkkiz yüz nəfəri qətlə yetirdi. Onların fərar etməsindən sonra Sultan İbrahim mirzə və Məsum bəy Səfəvi kimi adlı-sanlı əmirlərin vücudu ilə möhkəmləndirilmiş qoşunun mərkəz hissəsi (qəlbi) döyüş meydanına çatdı və [orada] dayandı. Qazağın qoşununun qılıncdan qurtulanları özlərini savaş meydanından kənara çıxarıb, bəziləri çoxlu məşəqqətdən sonra şəhərə çatdılar. Digər bir qismi isə cahanın [müxtəlif] tərəflərinə səpələndilər. O cümlədən [Qazağın] böyük oğlu Cəfər bəy heyran, sərgərdan və pərişan bir halda atasını qoyub, qılıncdan qurtulanların bir dəstəsi ilə Bəlx tərəfə qaçdı və Pir Məhəmməd xanın yanına getdi. O, rədd əlini onun ümid sinəsi üzərində qoyduğundan, naçar şəkildə Hindistana yollandı. Qoşununun məğlubiyyəti xəbəri Qazağa çatdıqda kədər və qəm qoşunu onun könlünü istila etdi və o, öz əhval səhifələri üzərində acizlik və zəiflik əlamətlərini müşahidə etdi. İstədi ki, öz qoşunu cəmləyib şəhəri müdafiə etsin, amma müyəssər olmadı. ... O, əlacsızlıq və iztirab üzündən ali mənşəli şahzadə Sultan Məhəmməd mirzə və Sultan Hüseyn mirzə ilə İxtiyarəddin qalasına gedib başını narınqalanın içinə soxdu və dəniz kimi coşan qoşunun qorxusundan heyrət dəryasına qərq olub qurtuluş sahilinə yol tapa bilmədi. Nəhayət, Məsum bəy

tənha şəkildə o qalaya gedib Sultan Məhəmməd mirzəni oradan çıxardı. Axırda Qazaq acizlik və biçarəlik üzündən dəlisovluğu tərk edib cümə gününün əsr vaxtında, rəbiülaxır [ayının] 16-da (21.11.1564) qaladan çıxdı. Əmirlər onu bir məkanda dustaq etdilər. Bu xəbəri ali taxtın ətəyinə məruzə etdilər. O, Herat əhlinə qarşı törətdiyi sitəmkarlığın və zülmkarlığın uğursuzluğu ucbatından cürbəcür müsibətlərə və gündən-günə artan bəlalara giriftar oldu. "Zülm edənə əzab verəcəyik" [*Qurani-Kərim, Kəhf surəsi, 87-ci ayə.*] zərurətinə uyğun olaraq, asimandan gələn qəziyyələrin hökmü ilə bu hal əsnasında, hələ bunlar baş verməzdən öncə Qazaq istisqa xəstəliyinə mübtəla olmuşdu. Həmin vaxt o rəzilin ruh quşu əcəl toruna düşdü, əyyamın əli onun həyat səhifəsi üzərinə bitmək və tükənmək ayəsi yazdı və bir gün neçə-neçə varlıq mismarı ilə tikilmiş ömür gəmisi fanilik sahillərinə çatdı. Əmirlər onun şərlə dolu başına saman təpib aləmin pənahı olan dərgaha göndərdilər və həmin cənnət misallı şəhərdə (Heratda) qışlaq etdilər" (43).

Mənbə məlumatlarına görə, Şah Təhmasibin Herat bölgəsinə xüsusi bir bağlılığı var idi və ona görə də Heratdakı qiyama son qoyulması onun böyük sevincinə səbəb oldu. Onun sərəncamına əsasən, Herat qiyamının yatırılamsında iştirak etmiş şahzadələr, əmirlər, əyanlar və digərləri şah mükafatlarına layiq görüldülər. Herat əhalisinin bir illik vergilərinin bağışlanması haqqında da mənbələrdə məlumat vardır. Heratda başlanan qiyama son qoyulması ilə bağlı Şah Təhmasib bu şəhərin əhalisinə müraciətlə xüsusi bir hökm imzaladı. Həmin hökmdə Herat şəhəri ən yaxşı sözlər və bənzətmələrlə vəsf olunurdu. Şah Təhmasib məmnunluqla xatırladırdı ki, vaxtilə Şah İsmayıl onu Herat hakimi təyin etmişdi. Şah Təhmasib eyni zamanda son 28 ildə bu şəhər əhalisinin Məhəmməd xan və onun oğlu Qazax xanın zülmü və haqsızlıqları altında olmasını da qeyd edirdi. Qazax xanı Şah Təhmasib "haramzadə it" adlandırırdı və təəssüflə bidirirdi ki, bu şəhərdə insanların sevincinə və xoş əhval ruhiyyəsinə səbəb ola biləcək bayramların və tədbirlərin keçirilməsi də yaddan çıxmışdı. Bundan sonra Şah Təhmasib bəyan edirdi ki, indi şəhər

əhli belə bir adamdan canlarını qurtarmışlar və şəhər əhlinin sevincinin və şadlığının bərpası onun özünün də diqqət mərkəzində olacaqdır. Səfəvi şahı şəhər əhalisinə də müraciət edirdi ki, bu narahat günlərdən nicat tapmalarını şadyanalıqla qarşılasınlar, sevinc və fərəh içərisində olsunlar. Şah tərəfindən tövsiyə olunurdu ki, Novruz bayramının yaxınlaşmağını nəzərə alaraq şəhərdə və evlərdə bayram tədarükü görülsün, məhəllələrdə səməni bişirilməsi ənənəsinə yenidən başlansın. O qeyd edirdi ki, səməni (halvası) bişirilməsinə çoxdandır ki, Heratda rast gəlinmir. Halbuki, bu məsələdə hər bir məhəllənin öz təcrübəsi və ənənəsi var idi. Şah Təhmasib şəhər əyanlarından tələb edirdi ki, yaşadıqları məhəllərə getsinlər, həmin məhəllələrdə bayram şənliklərinin təşkilinə yardım göstərsinlər. Xüsusi ilə, məhəllələrdə səməni bişirilməsinə diqqət yetirilməli və bu sahədə fərqlənənlərlə xələtlər verilməli idi. Bayram şənliklərinin təşkilində fərqlənəcək insanlara şah tərəfindən də xələt göndərilməli idi. Heratın kələntəri olan Qazi Qütbəddin Həsəndən də tələb olunurdu ki, şəhərdə bayram şənliklərinin necə təşkil olunması və keçirilməsi barəsində ətraflı məlumat yazıb saraya göndərsin. Şah Təhmasib eyni zamanda Heratda idarəçiliyin nizama salınması barəsində qərar qəbul etdi və bu şəhərin hakimi vəzifəsinə Məşhəd vilayətinin hakimi əmir Qeyb bəy Ustaclını təyin etdi (44). Bununla Heratda Qazax xanın rəhbərliyi altında baş qaldıran qiyama da son qoyuldu.

## 4.Şah Təhmasibin hakimiyyəti illərində baş vermiş digər qiyamların yatırılması

Şah Təhmasibin hakimiyyəti illərində yuxarıda haqqında danışılan qiyam və itaətsizliklərdən başqa da bir sıra qiyam və itaətsizlik halları baş vermişdi. Onların bəzilərinin miqyası və əhəmiyyəti böyük olduğu üçün salnaməçilərin diqqətini cəlb etmiş, bəzilərinə isə xüsusi bir diqqət ayrılmamışdı. Bu mövzu ilə bağlı "Tarix-i aləmara-yi Abbasi" əsərinin müəllifi İsgəndər bəy Münşi belə bir qeyd etmişdi: "Həmçinin bu qəbildən olan bir çox digər

hadisələr də baş vermiş və nankorluğa, üsyankarlığa cürət etmiş hər bir kəs öz əməlinin cəzasına çatmışdır. Lakin bunların hamısının qələmə alınması sözün uzanmasına səbəb olacaqdır. Çünki bunların xırdalıqlarının şərh olunması, əsas məqsədimizi təşkil edən Allahın kölgəsi olan əla-həzrət şahın əbədi hakimiyyəti zamanının hadisələrinin yazılması məramına uyğun gəlmir. Buna görə də [Şah Təhmasib dövrünün] digər hadisələri, xüsusiyyətləri və onların təfərrüatı üçün Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» kitabına baxa bilərsiniz” (45). Yəni İsgəndər bəy Münşi də məsləhət bilirdi ki, bu mövzu ilə daha geniş tanışlıq üçün Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» kitabına müraciət edilsin.

Həsən bəy Rumlu da doğrudan da öz əsərində Şah Təhmasib hakimiyyəti illərində baş vermiş bir sıra digər qiyam və itaətsizlik halları haqqında məlumat vermişdir. Onların təhlili və dəyərləndirilməsi, bütünlükdə, belə bir qənaətə gəlməyə imkan verir ki, haqqında danışılan qiyam və itaətsizliklər Şah Təhmasib hakimiyyətinin idarəçiliyinə qarşı etirazlardan yox, daha çox ayrı-ayrı hakimlərin və imkanlı adamların fərdi iddialarından irəli gəlirdi. Ona görə də belə hadisələr ciddi bir ictimai bazaya malik olmurdular və nəticədə xüsusi bir çətinlik olmadan onları aradan qaldırmaq da mümkün olurdu.

Şah Təhmasib hakimiyyətinə qarşı baş vermiş qiyam və itaətsizliklərdən danışanda sözsüz ki, onun qardaşları Sam Mirzə ilə Əlqas Mirzənin qiyamlarını, Ülamə Təkəlinin itaətsizliyini kənara qoymaq mümkün deyildir. Bu qiyamların hər biri Şah Təhmasib hakimiyyəti üçün ciddi bir sınaq təşkil etdilər. Sam Mirzə ilə Əlqas Mirzə Səfəvi xanədanına daxili bir sınaq oldusa, Ülamə Təkəli qiyamı Səfəvi dövləti ilə Osmanlı dövləti arasında münasibətlərin daha da gərginləşməsində müəyyən bir təsirə malik oldu. Bu qiyamlar barəsində Osmanlı-Səfəvi müharibələrinin araşdırıldığı fəsildə geniş danışılmışdır. Şah Təhmasib həmin qiyamların da öhdəsindən bacarıqla gəldi və bununla malik olduğu hakimiyyətin gücünü və qüdrətini ortaya qoydu.

Şah Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş əmirlərinin bir-birinə qarşı hətta silahlı qarşıdurmaya belə çıxdıqları

da məlumdur. Amma bu qarşıdurmalar daha çox Şah Təhmasib sarayında nüfuzlu mövqelərin ələ keçirilməsi uğrunda aparılırdı. Həmin əmirlər öz aralarında didişsələr də, Şah Təhmasibin hakimiyyətini qəbul edirdilər və heç də bu hakimiyyətdən qopmağa çalışmırdılar.

"Əhsənüt-təvarix" əsərinin müəllifinin verdiyi məlumata görə 1534-cü ildə bəzi qızılbaş əmirləri Şah Təhmasibə sui-qəsd təşkil etməklə dövlət çevrilişinə də əl atmaq istəyirmişlər. Həmin məlumata görə, Durmuş xanın kiçik qardaşı Hüseyn xan Şamlı Çuxa sultanın qətlindən sonra Şah Təhmasibin vəkili olmuşdu. Amma Şah Təhmasib onun vəkilliyindən heç də razı deyildi. Hüseyn xanın öz əməllərində yol verdiyi bəzi qəbahətli hərəkətlər də şahın ona qarşı olan narazalığını bir qədər də artırdı. Belə ki, Hüseyn xanın qohumlarından olan Başdan Qara adlı bir əmir Şah Təhmasibin zəhərləyərək öldürməyə cəhd göstərmişdi. Bu məqsədlə o, Şah Təhmasibin şərbət şüşəsinə zəhər qatmışdı. Yalnız təsadüf üzündən Şah Təhmasib həmin şərbəti içməmişdi. Bu hadisənin mahiyyətindən Şah Təhmasib xəbərdar olanda Başdan Qara səltənəti tərk edərək Mavəraünnəhrə yollandı. "Bəzi adamlar söz saldılar ki, Başdan Qaraya bu yaramaz sui-qəsdi törətməyi Hüseyn xan buyurmuşdur və bu söz zəmanə padşahının ürəyində yer tutdu. Hüseyn xan belə bir qəbahətə əl ataraq şeytani vəsvəsələrin zərurəti və nəfsani qayğıların arzusu ilə dövlət çevrilişi yolunda lazımınca səy göstərmək və insanları Sam mirzənin səltənətinə rəğbətləndirmək istəyirdi. Amma bilmirdi ki, mehtabın nuru boşboğazların fəryadından zavala uğramaz və günəşin çırağı ovsunçuların üfürməsi ilə sönməz. …Dinin pənahı olan şah onu [hüzuruna] tələb etdi və işarə etdi ki, onu parça-parça etsinlər, Qənbəroğlu isə onun başını nizənin ucuna keçirib şah ordusunda gəzdirsin. Onun qoşununu Bəhram mirzəyə verdilər" (46).

1537-ci ildə Şah Təhmasib Tehran ətrafında olarkən Əmir Qivaməddin Nurbəxş adlı birisinin həbsinə hökm verdi. Bu adam dərviş kimi tanınsa da, nüfuzunun genişlənməsindən istifadə etməklə dünyəvi idarəçilik işlərinə meyl edib itaətsizlik etmək üçün evinə silah və sursat toplayırdı. Şübhə edilmirdi ki, bu silah

və sursat gələcəkdə qoşun dəstəsi toplanması üçün istifadə edilə bilərdi. Həsən bəy Rumlu bu hadisəni belə təsvir edirdi: “Bu əhvalatın təfsilatı belədir ki, Şah Qivaməddin Nurbəxş əbədi həyat xələti olan dərvişlik paltarını əynindən çıxarıb, ayağını öz həddindən kənara qoyaraq ali mənşəli padşahların və iqtidar sahibi xaqanların üsulu ilə rəftar edirdi. Gecə-gündüz ov itləri ilə ovda idi, kəsralarla qeysərlərin qaydasına uyğun şəkildə öz evinin qapısında haciblər saxlayırdı və bunlar insan fərdlərindən heç bir fərdə onun məclisinə daxil olmaq imkanı vermirdilər. Əgər hər kim onun azacıq xoşuna gəlməyən bir iş törətsəydi, gecə ikən onun üstünə bir dəstə göndərib qətlə yetirərdi. ...Hökmdar ordusu təzimi vacib olan Həzrət Əbdüləzimin imamzadəsi ətrafında dayanan vaxt [Şah Qivaməddin] aləmin pənahı olan dərgaha gəlib bütün əmirlərdən, seyidlərdən, məvalilərdən və digərlərindən irəli keçdi. Rey əhli illərlə onun zülmünün təpiyi altında qalmış, canları ağızlarına gəlmiş, bıçaq sümüyə dirənmişdi. Bu səbəbdən onlar ondan şikayət etdilər. Əvvəlcə öz idrakının məziyyəti və kəlamının şirinliyi ilə zəmanə böyüklərindən üstün və müstəsna olan fəzilət sahibi Qazı Şükrulla oğlu Qazı Məhəmməd danışmağa başlayıb söylədi:

- Ey Şah Qivaməddin! Siz padşahsınız, ya dərviş?

O, cavab verdi:

- Mən dərvişəm.

Qazı həzrətləri buyurdu:

- Qala qurmağınızın, cəbbə və cövşən cəm etməyinizin səbəbi nədir?

O, susmağı üstün tutdu. Qazı yenə dilləndi:

- Siz qan tökməkdə elə bir həddə çatdınız ki, cahan sakinləri Übeyd xanla Cəllad Qasımı unutdular.

Və qazı onun qılıncı ilə öldürülmüş adamların adlarını sadalamağa başladı. Elə ki Mövlana Ümidiyə çatdı, [Şah Qivaməddin] bunu inkar etdi. Dinin pənahı olan şah buyurdu:

- Əgər siz onu qətlə yetirməmişsinizsə, onda nə üçün əmlakını mənimsəmişsiniz?

O əsnada hökmdar ordusunun xəbərçisi olan Mir Feyzi dedi:

- Sənin nə həddin var ki, Seyid Məhəmməd Kəmunənin oğlundan yuxarı başa keçirsən?

Dinin pənahı olan şah buyurdu:

- Doğru deyirsən. Qalx, bura sənin yerin deyildir!

Çoxlu söz-söhbətdən və saysız mübahisədən sonra o həzrətə günəş kimi aydın oldu ki, [Şah Qivaməddinin] iddiası yalandır və seyidliyi qeyri-dürüstdür. Buna görə də onun həbsinə dair ali hökm verildi və neçə gün Qazı Cahanın evində məhbus olduqdan sonra Əlincəq qalasına göndərildi" (47).

1537-ci ildə Şirvanda isə açıq silahlı qiyam baş verdi. Bir nəfər qələndər iddia etməyə başladı ki, o, şirvanşah Şeyxşahın oğlu Sutan Məhəmməddir və Şirvan hakimliyinə iddia irəli sürdü. Bu niyyətini həyata keçrimək üçün qələndər ətrafına qoşun dəstəsi də toplaya bildi. Bu dəstə kifayət qədər böyük bir dəstə idi və bu dəstə vasitəsi ilə qiyam qaldırmış qələndər əvvəlcə Salyanı, sonra Şamaxı şəhərini ələ keçirə bildi. Şirvan hakimi Şahrux bu qiyamı yatırmağa gücsüz olduğunu görəndə Biqurd qalasına qaçdı. Amma qələndər Şamaxıda çox uzun müddət qalmadı. Bir müddətdən sonra o səbəbsiz yerə Şamaxını tərk edib yenidən Salyana qayıtdı. Şahrux bu xəbəri eşidəndə Biqurd qalasını tərk etdi və öz qoşun dəstəsi ilə qələndərin arxasınca yollandı. Salyan yaxınlğında tərəflər arasında döyüş baş verdi. Şirvan qoşunları bu döyüşdə uğur qazandı və qiyam qaldırmış qələndər də qətlə yetirildi (48).

1539-cu ildə Astarada itaətsizlik halı özünü göstədi. "Astara hakimi Əmirə Qubad dəfələrlə itaətsizlik əlamətləri nümayiş etdirdiyindən, dinin pənahı olan şah Şahqulu xəlifə Möhürdarı xeyli qazilərdən ibarət bir dəstə ilə o diyara yolladı. Əmirə Qubad qazilərin gəlişindən xəbər tutduqda öz tabeçilərini cəngəllikdə pərakəndə etdi. Şahqulu xəlifədən öncə Süleyman bəy Topçubaşı Ərdəbil mütəvəllisi Mir Əşrəflə ittifaqda əmirlərin mülazimlərindən bəziləri ilə Ərcüvana gəldi. O əsnada Əmirə Qubad hamısı divə bənzər çoxlu süvarilər və piyadalarla qarşıdurma və vuruşma məqsədi ilə qədəmini irəli qoyub döyüşə başladı. Qazilər bir həmlədə onları məğlub etdilər. O gün Süleyman bəy Topçubaşı elə döyüşdü ki, İsfəndiyarın və Rüstəmin ruhu ona afərin oxudu.

Əmirə Qubad qaçmağı qənimət bilib özünü cəngəlliyə saldı. Qazilər onları təqib edib o bədbəxt güruhdan səkkiz yüz nəfəri qətlə yetirdilər və başlarını bədənlərindən ayırıb hökmdarın dərgahına göndərdilər. Dinin pənahı olan şahın fərmanı ilə o diyarın idarəçiliyi Bayandur xanda qərar tutdu" (49).

1540-cı ildə Şüştər qalasında da qiyam özünü göstərdi. Şah Təhmasib tərəfindən bu qalanın hakimi təyin edilmiş Mehdiqulu sultan Əfşar bir müddətdən sonra mərkəzi hakimiyyətdən qopmaq arzusuna düşdü. O, qalanı zəbt edib əhaliyə əziyyət vermək yolunu tutdu. Şüştərdə qiyam baş verməsi xəbəri Şah Təhmasibə çatan kimi, bu qiyamın yatırılması haqqında sərəncam verdi. Onun hökmü əsasında Heydərqulu sultan Əfşar qoşun dəstəsi ilə Şüştərə yola düşdü. Mövcud məlumatdan belə bir qənaətə gəlmək mümkündür ki, Mehdiqulu sultan müqavimət göstərərək öz müstəqilliyini qorumaq niyyətində idi. Bunun üçün idi ki, o, bir neçə gün müqavimət göstərdi. Bununla belə, Heydərqulu sultan qalanı ələ keçirməyə müvəffəq oldu. 1540-cı il aprel ayının sonlarında qiyam qaldırmış Mehdiqulu sultanı elə öz qardaşı qətlə yetirdi və onun başı bədənindən ayrılaraq Şah Təhmasibin dərgahına göndərildi (50).

1540-cı ildə həm də Hacı Şeyx Kürd adlı birisi ətrafına qeyri-qanuni yolla silahlı dəstə topladı. Bu dəstənin tərkibinin sayı xeyli artanda Hacı Şeyx Kürd hakimiyyət iddiasına düşdü. Bu qiyamım əhatə dairəsinin hansı səviyyədə olub-olmaması haqqında mənbədə məlumat mövcud deyil. Amma bu qiyam Şah Təhmasibin də diqqətini cəlb etdi və dərhal da onun qarşısının alınması üçün tədbir görməyə başladı. Onun hökmü ilə Hacı Şeyx Kürdün qiyamının qarşısının alınması üçün qoşun dəstəsi təşkil olundu və təcrübəli qızılbaş əmirlərindən olan Abdulla xan Ustaclı, Şahqulu xəlifə Möhürdar, Qazi xan Təkəli, Qara Vəli Ərəbgürlü də bu qoşun dəstəsinin tərkibinə verildilər. Hacı Şeyx Kürd eşidəndə ki, qızılbaş qoşun dəstəsi onun üzərinə göndərilmişdir, onda ətrafındakı qüvvələrlə dağlara çəkildi və daha əlverişli coğrafi şəraitdə mövqe tutdu. Bu da ona imkan verdi ki, qızılbaş dəstəsinə müqavimət göstərsin və öz həyatını qoruyub

saxlaya bilsin. Məlumdur ki, qızılbaş dəstəsi bu yürüş zamanı öz niyyətinə nail ola bilmədi (51).

1540-cı ildə Rüstəmdar hakimi Məlik Cahangir ibn Kavus da ətrafına qüvvə toplayaraq mərkəzi hakimiyyətə qarşı qiyam qaldırdı. Bu qiyam da Şah Təhmasibin çevik və qətiyyətli qərarları nəticəsində vaxtında yatırıldı. "Pirsultan xəlifə Rumlu, Hüseyncan sultan Rumlu, Şahqulu sultan Ustaclu və Əhməd bəy Türkman bir dəstə bahadırla Rüstəmdara yollandılar. O vilayətin hakimi Məlik Cahangir ibn Kavus namussuz rüstəmdarlılarla birlikdə Larican qalasına pənah apardı. Qızılbaş əsgərləri hay-küylə qalaya həmlə etdilər. Əhməd bəy Türkman bir dəstə dilavərlə qala darvazasına gəldi və bədkirdar rüstəmdarlıları ov heyvanı kimi pərən-pərən etdi. Məlik Cahangir dünyanı tutan qoşunların qılınclarının qorxusundan aman dilədi. O əsnada ordu sərdarı Pirsultan xəlifə "ağlının və biliyinin" kamal dərəcəsində olması səbəbindən qala ətrafındakı bir bağa gəlib bir qaysı ağacına dırmanmışdı və [qaysı] yeməklə məşğul idi. Buna görə də Əhməd bəyin imdadına çatmadı. Pirsultan xəlifənin namərdliyini müşahidə edən rüstəmdarlılar Əhməd bəyin üstünə töküldülər. Onlar ox və zubin yarası ilə Əhməd bəyi bir dəstə mülazimlə birlikdə qətlə yetirdilər" (52).

Elə həmin ildə Reyşəhərdə də qiyam cəhdinin olması haqqında mənbədə məlumat vardır. Həmin məlumata görə, Reyşəhər hakimi Həsən sultan dəfələrlə mərkəzi hakimiyyətə qarşı yönəlmiş hərəkətlərə yol vermişdi. Onun qanunsuz hərəkətləri təkrarlananda Şah Təhmasib müvafiq tədbir görülməsi haqqında qərar verdi. Onun sərəncamı əsasında təcrübəli əmir Qazi xan Zülqədər dərhal Fars vilayətinin qoşun dəstəsi ilə Reyşəhərə yollanmalı və Həsən sultana layiqli cəza verməli idi. Reyşəhər qiyamı yatırılmaqla bərabər Həsən sultan da həbs olunaraq şahın hüzuruna gətirilməli idi. Fars hakimi Qazi xan Zülqədər və Kuhkələviyyə hakimi Şahrux xan Əfşar 20 min nəfərlik qoşun dəstəsi ilə Reyşəhəri mühasirəyə aldı. Həsən sultan və onun qardaşı Şaheli Reyşəhər qalasında müdafiə olunmağa başladılar. Bu qalanın mühasirəsi bir neçə ay davam etdi. Qazi xan və onun yanındakı

əmirlər gördülər ki, Reyşəhər qalası çox möhkəm bir qaladır və onun mühasirəsi uzun müddət davam edə bilər. Ona görə Qazi xan tədbir yolu ilə bu qalanın tutulması yolunu aramağa başladı. O, Həsən sultanın yanına öz elçilərini göndərdi ki, ona nəsihət versinlər, müxalifətçilik etməyin bir faydası olmayacağını, gec-tez ələ keçəcəyini ona anlatsınlar. Həsən sultana o da çatdırıldı ki, asilik yolundan əl çəkərsə onun bağışlanması Şah Təhmasibdən xahiş oluna bilər. Həsən sultan da ona edilən təklifi qəbul etdi və xahiş etdi ki, günahlarının bağışlanması və onun həyatına toxunulmayacağı barəsində Şah Təhmasibin zəmanəti alınsın. Bu məqsədlə Qazi xan özü Şah Təhmasibin dərgahına yollandı. Lakin elə yolda ikən xəstələnib dünyasını dəyişdi. Şah Təhmasib onun Reyşəhər qiyamının yatırılması sahəsindəki fədakarlığını yüksək qiymətləndirdi, dünyasını dəyişməsindən xeyli təəssüfləndi. Lakin Həsən sultanın bağışlanmaıs haqqında onun istəyini qəbul etmədi. Çünki Həsən sultan idarəçiliyi altında olan əhaliyə qarşı çox ədalətsizlik etmişdi. Bu insanların haqqının əldən verilməməsi və haqqın-ədalətin bərpası naminə çoxlu cinayətlərə yol vermiş bu hakimi qətl etməyi məqsədəuyğun saydı. Onun qətli ilə Reyşəhər də zülm və fəsadlardan xilas oldu (53).

1542-ci ildə Dizfulda da mərkəzi hakimiyyət əleyhinə qiyam meydana gəldi. Dizful valisi Əlaüddövlə Rənaşi bu qiyamın təşkilatçısı oldu. Görünür bu qiyamın əhatə dairəsi geniş imiş. Çünki Əlaüddövlə Rənaşinin mərkəzi hakimiyyətə qarşı başladığı qiyamın yatırılmasına Şah Təhmasib də yollanmışdı. “Bu il şahın məiyyəti səadət və uğurla Xuzistan vilayətinə tərəf hərəkət etdi. Bu yürüşün səbəbi o idi ki, Dizful valisi olan Əlaüddövlə Rənaşi başını itaət boyunduruğundan və boynunu tabeçilik çənbərindən çıxarmışdı. Ordu başçılarının və dərgah böyüklərinin toplanması haqqında hökmdar fərmanı verildi. Döyüşkən bahadırlar mükəmməl olduqdan sonra [şah] məqsədə doğru yola çıxdı.

... Xürrəmabadın hüdudu dindar və ədalətli padşahın dayanacaq yeri olduqda Kiçik Lur [vilayətinin] hakimi Cahangir [özünü] sultanların pənahı olan dərgaha yetirdi. Dinin pənahı olan şah Dizfula irəlilədi. Əlaüddövlə Rənaşi küləyin tünd əs-

məyindən öncə qaçan ağcaqanad kimi, hətta ondan da betər bir şəkildə, kədərlə və könülsüzcəsinə qaçıb Bağdad tərəfə getdi.

... O diyarın rəiyyəti [Şah Təhmasibi] qarşılamağa tələsib qalanın açarlarını təslim etdilər. Dinin pənahı olan şah o vilayətin idarəçiliyini Heydərqulu sultan Əfşara tapşırdı. Orada Hüveyzə hakimi Seyid Səccad ibn Bədiran Müşəşəyi itaət və sədaqət kəmərini canının ortasına bağlayıb aləmin pənahı olan dərgaha tələsdi. Dinin pənahı olan şah Hüveyzə hakimliyini yenidən ona tapşırdı. O həzrət (Şah Təhmasib) İbrahim xan Zülqədəri və Hüseyncan sultan Rumlunu Bayat qalası vilayətinə basqına göndərdi. Əmirlər o diyara basqın edib sağlam şəkildə, qənimətlərlə birlikdə hökmdar ordusuna qayıtdılar. Elə ki dinin pənahı olan şah Xuzistanın bütün işlərindən xatircəm oldu və hadisələrin oxundan xatirlərinə azar dəymiş rəiyyətləri şahanə mərhəmətlə əzizlədi, geri qayıtmaq arzusuna düşüb hərəkət yüyənini Qum şəhərinə tərəf döndərdi və həmin şəhərdə qışlaq etdi" (54).

Səltənət daxilində əmin-amanlığın yaradılması istiqamətində Şah Təhmasibin gördüyü ciddi işlərdən biri də həyatının sonlarına yaxın, yəni 1573-cü ildə Təbrizdə qanunçuluğun bərpası istiqamətində həyata keçirdiyi qətiyyətli tədbirlər idi. Doğrudur, burada mərkəzi hakimiyyətdən qopmaq üçün qiyam başlanmamışdı. Lakin Təbrizdə rəvac tapmış qanunsuzluqlar, özbaşınalıqlar və cinayətkarlıq, əslində, elə mərkəzi hakimiyyətin dayaqlarını zəiflədə biləcək bir hadisə idi. Qiyam və itaətsizliklərin aradan qaldırılması istiqamətində görülən işlərdən fərqli olaraq, Şah Təhmasib bu hadisənin aradan qaldırılmasında çeviklik nümayiş etdirmədi. Görünür, həyatının sonlarına yaxın Şah Təhmasib qanunsuzluq yolunu tutanlara qarşı daha dözümlü münasibətdə idi. Təbrizdə baş verən qanunsuzluqlar və onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlər "Əhsənüt-təvarix" əsərində aşağıdakı kimi təsvir edilmişdir:

"Bu il Təbrizdəki əclaflarının qətli baş verdi. Səbəb odur ki, dinin pənahı olan şah Təbriz hakimliyini Şahqulu sultan Ustaclunun oğlu Allahqulu bəyə həvalə etmişdi. Vicuyə küçəsinin adamları onun mülazimini tutub çoxlu əziyyətlər etdilər. O, yar-

dımçılarının və tərəfdarlarının azlığı üzündən tənəzzül edib üzrxahlıqla və ah-zarla öz mülazimini xilas etdi. Neçə gündən o, sonra bir təqsirkarı qətlə yetirdi. Öldürülən adamın qohumları onu Gəcil məzarlığında dəfn etdilər. Adı çəkilən cənab hakim onun qəbrini qazdırmaq istədi. Bir dəstə avara və lotu-potu o bədbəxtə maneçilik törətdilər. O, qılınc və mizraq işlətdikdən sonra fərar yolunu tutub öz evinə sığındı. Əclaflar kin qılıncını qılafdan sıyırıb onun bəzi mötəbər mülazimlərini yaraladılar və öldürdülər. Əclafların şeytanları zəbt şüşəsindən çıxdıqları üçün əllərini soyğun və qarətə uzatdılar. Onlar qadınları ərlərinin və qohumlarının [gözləri] önündə və oğlan uşaqlarını (qılmanları) ana-atalarının qarşısında zorlayaraq üzüqara və rüsvay edirdilər. Seyidlər, qazılar, əyan-əşrəflər, həqirlər və şəriflər, güclülər və zəiflər, varlılar və kasıblar (dərvişlər), qəriblər və şəhərlilər onların qorxusundan elə sərsəm olmuşdular ki, yazmaqla və deməklə onu şərh etmək mümkün deyil. İnsanlar arasında birlik və dostluq qalmamışdı. Hər küçədə əclaflardan biri istila bayrağını yüksəltdi: Pəhləvan Yari – Səncar məhəlləsində, Nəşmi – Vicuyə məhəlləsində, Topal Mustafanın oğlu Şərəf – Sərv məhəlləsində, Şeyxi Kardzən – Məhad-Məhində, Ağa Məhəmməd – Novbər məhəlləsində, Pəhləvan Əvəz – Meydanda, Aslan – Dərbi-Əlada, Mirzə Məlikani ilə Gögcə – Dəvəçilər məhəlləsində və Əlayi-Həsəncan – Şeşgilanda. Təxminən iki il bu bədbəxt qövm arasında dava qırğın oldu. Neçə dəfə əmirlər və dövlət ərkanı bu dövlətsiz tayfanın dəf olunmasının vacib olduğunu əşrəfə ərz etsələr də, dinin pənahı olan şah onların sözünə qulaq asmadı və düşündü ki, bəlkə, onlar fitnə-fəsadı tərk etsinlər və beləliklə də, möhtac rəiyyət qətl olunmasın, belə bir mülk viran qalmasın. O qaragünlər bundan əsla dərs almadılar və son dərəcə zalımlıq və cəhalət üzündən tüğyan və üsyanda israr etdilər. Nəhayət, dinin pənahı olan şah ağılda, müdriklikdə, fəhmdə və fərasətdə tay-tuşlarından üstün olan Yusif bəy Ustaclunu Təbrizə hakim göndərdi.

... Onun (Yusif bəyin) lətifliklərin nəzmindəki gözəl sözləri şərbət kimi dadlı idi və onun nəzəri incəliklərin həllində işıq saçan bir atəş idi. O, əclaflara bir də müxaliflik etməyəcəkləri

barədə and içdirdi və onları kətxudalara zamin verdi. Neçə aydan sonra Pəhləvan Yari müxalifliyə başlayıb hakimin mülazimlərindən iki nəfəri qətlə yetirdi. Ona görə də əclaflar fitnə və fəsad qaldırdılar.

... Ona görə də Yusif bəy ali taxtın ətəyinə bir ərizə göndərdi ki, o qövmün sayı dörd yüz nəfərdən artıq deyildir. Həmçinin o cənnət nişanlı şəhərin böyükləri və əhalisi onlardan son dərəcə şikayət etdilər və dedilər:

Şeir

“Ey dünyanın bəzəyi, ey iqlim tutan [şah],
Bunların zülmündən şeypur səsləndi2603.
Onların əlindən cahan pərişan oldu,
Bu mülkün xarabalığının səbəbi onlardır”.

Ülamə da onların qətlinə fitva verdi. Ona görə də hökmdar fərman verdi ki, Xəlifə Ənsarın oğlu Söhrab bəy çoxlu qoşunlarla Yusif bəyə kömək etməyə getsin və onun sözündən çıxmasın. Elə ki həmin ordu səf bağlayıb Sahibabad meydanına gəldi, Yusif bəy də savaş əhlindən [ibarət] bir dəstə ilə onlara qoşuldu. Heyrət və dəhşət tüstüsü əclafların beyninə yol tapdı. Alçaqlar və onların sərdarı Yari ov heyvanları kimi hansı tərəfə üz çevirdilərsə, xilas və nicat yolunu bağlı gördülər, can qorxusundan dəlmə-deşikdə gizləndilər. Yusif bəy zaminləri tutub onlara təzyiq göstərməyə başladı. Onlar (zaminlər) təhqiqat aparıb, onların (üsyan başçılarının) əksərini ələ keçirərək qətlə yetirdilər. Avaraların, lotu-potuların, ədəbsizlərin və rəzillərin sərdarlarından Gögcəni, Nəşmini, Şərəfi, Şeyxi Gazəri, Çəkməçi Həsəni, Uzun Hacını, Şahəli Çərtəki, Mirzə Babaqulunu və Göysatan Həsəni dar [ağacından] asdılar. Bunlardan savayı, təxminən yüz əlli nəfər qətlə yetirildi. Yari, Pəhləvan Əvəz və Əlayi-Həsəncan, Söhrab bəyin evində məhbus idilər. Onlar Söhrab bəyə rüşvət vermişdilər və o, onları himayə edirdi. Axırda Yusif bəy əqli və nəqli dəlillərlə Söhrab bəyi inandırdı. Onları Yusif bəyin mülazimlərinə təslim etdilər. Öldürüldükdən sonra onların başlarını Təbriz meydanında dara çəkdilər. Ona görə də həmin qövmün fitnə atəşi yatdı. Nadir təsadüflərdən [biri] odur ki, Pəhləvan Əvəz üç il müddətində bir

qarmaq saxlamışdı. Dar ağacı düzəldilən vaxt o qarmağı çıxarıb dara bağladı. Onun başı dara çəkilən gün həmin qarmağa bənd edildi" (55).

### 5.İstifadə olunmuş mənbə və ədəbiyyat


1.Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 467-468
2. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev və Namiq Musalı. Kastamonı, 2017, s.512
Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 276
3. Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 468
4. Yenə orada, s. 469
5. Rumlu H. Əhsənüt-təvarix, s. 512-513
6. Rumlu H. Əhsənüt-təvarix, s. 512
Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 470
7. Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 470
8. Yenə orada, s. 470-471
9. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 276-277
Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 471-472
10. Rumlu H. Əhsənüt-təvarix, s. 513
11. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı, 2009, s. 198
13. Parsadust M. Şah Təhmasib. Tehran, 1381, s. 515-516
14. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 284
Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 473
15. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.199
16. Yenə orada, s. 200
17. Yenə orada, s. 201
18. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.290
19. Yenə orada, s. 292-293
20. Yenə orada, s. 295-296

21. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.201-202
22. Rumlu H. Əhsənüt-təvarix, s. 583
23. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.297
24. Rumlu H. Əhsənüt-təvarix, s. 584
25. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.202
26. Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 548
27. Rumlu H. Əhsənüt-təvarix, s. 584-585
28. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.202-203
29. Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 549-550
30. Yenə orada, s.204
31. Yenə orada, s. 203-204
32. Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 559
33. Rumlu H. Əhsənüt-təvarix, s. 597
34. Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 559-560
35. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.213
36. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.380
37. Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 560-561
38. Yenə orada, s. 561
39. Rumlu H. Əhsənüt-təvarix, s. 597
40.Yenə orada
41. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.381-382
42. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.214
43. Rumlu H. Əhsənüt-təvarix, s. 597-599
44. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s.452-453
45. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.214
46. Rumlu H. Əhsənüt-təvarix, s. 497
47. Yenə orada, s. 511-512
48. Yenə orada, s. 513
49. Yenə orada, s. 520

50. Yenə orada
51. Yenə orada, s. 521-522
52. Yenə orada, s. 523-524
53. Rumlu H. Əhsənüt-təvarix, s. 524
Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 483
54. Rumlu H. Əhsənüt-təvarix, 524-525
55. Yenə orada, s. 617-618

# III FƏSİL
# ŞAH TƏHMASİBİN DÖVLƏTÇİLİK FƏALİYYƏTİ

## 1.Dövlətin mənşəyi və əraziləri

Səfəvi dövlətinin Şah İsmayıl Səfəvinin rəhbərliyi altında Azərbaycan ərazisində məskunlaşmış və Azərbaycan ətrafına səpələnmiş türk tayfaları tərəfindən yaradılması və onun türk mənşəli olması Şah İsmayıl haqqında aparılmış araşdırmada geniş şəkildə işıqlandırılmışdır (1). Şah Təhmasibin hakimiyyəti illərində bu dövlətin milli mənşəyi heç də dəyişməmişdi. Əksinə, onun türkçülük bazası daha da möhkəmlənmişdi. Səfəvi dövləti Azərbaycan türklərinin yaratdığı bir dövlət kimi qalmaqda və inkişaf etməkdə idi. Səfəvi dövlətinin inkişaf tarixi və bu tarixi əks etdirən tarixi mənbələr də bunu nümayiş etdirir.

Şah Təhmasibin hakimiyyəti illərində də Azərbaycan Səfəvi dövlətinin hərbi-siyasi proseslərinin mərkəzində dayanırdı. Böyük bir səltənət Azərbaycandan idarə olunurdu və həmin idarəçilik dövləti yaratmış türk mənşəli əmirlərin və əyanların üzərində qurulmuşdu. Mənbələrdə Səfəvi dövlətinin yaradılmasında 32 türk tayfa, oymaq və elinin iştirak etdiyinə işarə olunmuşdur (2). Məlum olduğu kimi, Ustaclı, Şamlı, Əfşar, Türkman, Qacar, Zülqədər, Təkəli və Bayat tayfaları həmin tayfaların ən böyüklərindən idilər. Səfəvi dövlətinin idarə olunmasında da bu tayfaların nümayəndələri aparıcı yer tuturdular. Ümumiyyətlə, Səfəvi dövlətinin hərbi-siyasi həyatının müəyyənləşdirilməsi birmənalı şəkildə Azərbaycan türklərinin üzərində idi, dövlətin mövcudluğu və möhkəmlənməsi də bu qüvvələrin üzərində idi. Səfəvi tarixinin təhrif edilməsi barəsində kifayət qədər yazılara və əsərlərə rast gəlinsə də, Səfəvi dövlətinin məhz türk tayfaları tərəfindən qurulmasını və onların dövlət həyatında mütləq aparıcı qüvvə olmasını etiraf etmək məcburuyyətində olanlar da istisna deyildir. Məsələn, bu mövzunu ayrıca araşdırmağa cəhd göstərən tədqiqatçılardan biri belə yazırdı: “Səfəvi hakimiyyətini təşkil edən əsas insan qüvvəsi iranlı deyil. ...İranlılar bu silsilənin

meydana çıxmasında və möhkəmlənməsində xüsusi bir rola malik deyildirlər. Fürsət axtaran bəzi divan adamlarının onlara birləşməsi əlbətdə ki, Səfəvi qızılbaş hakimiyyəti üçün də hər hansı bir əhəmiyyət kəsb etmirdi. Bu həm də onların bu dövlətdə xüsusi bir təsirə malik olması da demək deyildi. Hətta Şah Abbas dövründə qızılbaşların rolunun azaldılması iddiası haqqındakı səhv və tələsgən təsəvvür də islah olunmalıdır. Onlar elə təşkilatlanmışdılar ki, Səfəvi sülaləsinin süqutundan sonrakı iki sülalə - əfşarlar və qacarlar sülaləsi də qızılbaşların içindən çıxmışdı" (3).

Burada iranlı deyiləndə farsdilli əhali nəzərdə tutulmuşdur və müəllif demək istəyir ki, Səfəvi dövlətinin təşkilində aparıcı və hərəkətverici qüvvə kimi məhz türk tayfaları çıxış etmişdilər. Bu tayfalar o dərəcədə təşkilatlamışdılar ki, hətta Səfəvi dövlətinin süqutundan sonra da türk tayfaları İran arealında cərəyan edən hərbi-siyasi proseslərin aparıcı qüvvələri idilər.

Oxşar fikirləri başqa müəlliflərin yazılarında da görmək mümkündür. Məsələn, Səfəvi dövlətinin mənşəyi ilə bağı belə müəlliflərdən birinin gəldiyi qənaət belədir ki, Şah Təhmasib iqtidarı qızılbaş əmirlərinin üzərində bərqərar olmuşdu və qüdrətin ələ keçirilməsində taciklər tayfa başçılarına üstün gələ bilmədilər (4).

Araşdırmalarda türklərin İran coğrafiyasında hakim millətə çevrilməsi qənaətləri də mövcuddur (5).

Bu və buna oxşar fikirlər Şah Təhmasib dövrü Səfəvi dövlətinin mənşəyini və mahiyyətini düzgün başa düşmək üçün obyektiv qənaətlər kimi qəbul etmək olar. Şah Təhmasib atası Şah İsmayılın və onun ətrafında birləşmiş türk tayfalarının yaratdığı türk mənşəli dövlətin hökmdarı idi. Şah Təhmasib hakimiyyətinin idarəçilik sütununu təşkil edən də, bu idarəçilik daxilində nüfuz uğrunda mübarizə aparan da türk-qızılbaş əmirləri idilər. Səfəvi dövlətinin mənşəyinin bu dövlətin adında da müşahidə etmək mümkün idi. Bu mənada Səfəvi dövlətinin müasir ədəbiyyatda İran dövləti kimi adlandırılmasının da elmi-tarixi əsası yoxdur. Tarixi mənbələrdə Şah İsmayılın rəhbərliyi altında qızılbaş

tayfaları tərəfindən yaradılmış dövlətin Qızılbaş, yaxud Səfəvi dövləti kimi xatırlanmasına rast gəlmək mümkündür (6).

"Doğrudur ki, Səfəvi dövründə də qeyri-rəsmi şəkildə və ya istiarə kimi "İran" sözü işlənib. Keçmişdə də belə olmuşdu. Bütün dövrlərdə "İran" adı və sözü müxtəlif mənalarda işlənmişdir. Bu, səfəvilər aid deyil. Amma səfəvilər ...rəsmi məktublarda öz ərazilərini "məmləkəti məhrusə" adlandırırlar" (7). Bu fikrin təsdiqinə mənbələrdə də rast gəlmək mümkündür. Məsələn, "Xülasüt-təvarix" əsərinin müəllifi Şah İsmayıldan miras qalmış dövlətin ərazisini xatırladanda belə yazırdı: "Onun məmaliki məhrusəsinə Azərbaycan, ərəb İraqı, əcəm İraqı, Xorasan, Fars, Kirman, Xuzistan və hakimiyyətinin əvvəllərində Diyarbəkr daxil idi" (8).

Şah Təhmasibin hakimiyyəti dövründə hətta "dövlət" sözünün işlənməsi ilə rastlaşmaq çətindir. Bu anlayış da əslində, "məmaliki məhrusə"də öz ifadəsini tapmaqda idi. Elmi tarixi ədəbiyyatda da Səfəvi hakimiyyəti illərində "İran" sözünün işlənməsi hallarının olduğu, lakin bu hallarda bu sözün coğrafi məzmun kəsb etdiyinə işarə edilmişdir (9).

Qeyd etmək lazımdır ki, hətta Şah Təhmasib də öz təzkirəsində "İran" sözünü bir dəfə də olsun xatırlatmamışdır. Bu əsərində, o, hökmdarı olduğu dövləti "Qızılbaş vilayəti", "bizim ölkə", "Şərq ölkəsi" kimi təqdim etmişdi (10).

Səfəvi dövlət aparatının qurulmasında da türk idarəçilik təcrübəsi aparıcı yerə malik idi. Bir tərəfdən Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin idarəçilik təcrübəsi, digər tərəfdən də türk tayfa idarəçilik elementləri Səfəvi dövlətinin mənşəyini müəyyənləşdirən amillərdəndir. Səfəvi dövləti türk dövlətçilik mədəniyyətinin yeni bir inkişaf səviyyəsi idi. Əslində, bu dövlətçilik mədəniyyətinin başqa bir təcrübədən istifadə etmək imkanları da elə də güclü deyildi. Çünki bölgə tarixində mövcud olmuş fars və ərəb dövlətçilik təcrübəsindən uzun bir müddət keçmişdi və sözsüz ki, Səfəvi dövlətçilik mədəniyyəti üçün daha real baza atabəylərin, teymurilərin və onlardan daha yaxın olan Qaraqoyunlu və Ağqoyunlu türk dövlətçilik mədəniyyəti, habelə türk tayfa

idarəçilik mədəniyyəti ola bilərdi. Səfəvi dövləti bu dövlətlərin təcrübəsinin daha yüksək səviyyəsi idi.

Şah Təhmasib də belə bir idarəçilik sisteminə dayaqlanırdı və onun inkişafını da məhz türk tayfalarının fəallığında görürdü. Dövlətin ən yüksək idarəetmə aparatının mənsublarını nadir istisna ilə qızılbaş əmirləri təşkil edirdilər. Hətta Azərbaycan arealından kənarda olan vilayətlərin hakimlərinin də əksəriyyətini qızılbaş əmirləri təşkil edirdilər. Məsələn, mənbələrdə Xorasan hakimi kimi Durmuş xanın, sonra onun qardaşı Hüseyn xanın, Şiraz hakimi kimi Əli sultan Zülqədərin, Qazı xan Zülqədərin, İbrahim xan Zülqədərin, Həmzə sultan Camışlının, İsfahan hakimi kimi Cugə sultan Təkəlinin, Məşhəd hakimi kimi Burun sultan Təkəlinin, Səbzəvar hakimi kimi Çəkurgə sultanın, Bağdad hakimi kimi Məhəmməd xan Şərəfəddinoğlunun və digərlərinin adlarına rast gəlmək mümkündür. Adları çəkilən məntəqələrin hakimləri sözsüz ki, yalnız bunlar deyildilər və onları əvəz edən hakimlər də qızılbaş əmirləri idilər. Yalnız bəzi vilayətlərdə mövcud olmuş yerli sülalə hakimlərinin müəyyən vaxta qədər hakim vəzifəsində saxlanmasına rast gəlmək mümkündür. O cümlədən, kürddilli əhalinin məskunlaşdığı ərazilərdə, Gilnda, müəyyən müddət Şirvanda və bəzi digər ərazilərdə yerli sülalə hakimlərinin saxlandığını görmək mümkündür. Əvvəlki fəsillərdən də göründüyü kimi, həmin yerli hakimlərin Səfəvi sarayına sədaqəti şübhə doğuranda onları qızılbaş əmirləri ilə əvəzlənirdilər. Bu mənada, Şah Təhmasibin hakimiyyəti illərində vilayət hakimlərinin mütləq əksəriyyətini də qızılbaş əmirləri təşkil edirdilər. Yəni Şah Təhmasibin türk mənşəli hakimiyyətinin yerli idarəçiliyi də türk elementləri üzərində qurmuşdu.

Səltənətin hərbi gücünün əsasını da qızılbaş tayfaları təşkil edirdilər. Doğrudur, qeyri-türk dəstələrin Səfəvi qoşunlarının tərkibində olması istisna deyildir. Lakin Səfəvi dövlətinin qüdrəti məhz qızılbaş tayfalarının üzərində qurulmuşdu və qoşunların formalaşma mənbəyi də qızılbaş tayfaları idilər (11). Qoşunlara rəhbərlik də, əsasən qızılbaş əmirlərinin əlində idi. Tarixi mənbələrdə Şah Təhmasib dövrünün müharibələri və silahlı qarşı-

durmaları haqqında olan məlumatlarda qoşun rəhbərləri kimi, bir qayda olaraq qızılbaş əmirlərinin adı ilə rastlaşmaq mümkündür. Hətta Azərbaycan arealından kənarda olan vilayətlərin qoşunlarının rəhbərlərinin əksəriyyəti də qızılbaş əmirlərindən ibarət idi. Bir sözlə Səfəvi dövlətinin istər siyasi, istərsə də hərbi həyatını qızılbaşlar təşkil edirdilər və səltənətin hərbi-siyasi mühiti də onlar tərəfindən müəyyənləşdirilirdi (12). Şah Təhmasib dövrünün hərb məharəti də, əsasən, türk tayfalarının döyüşgənliyi üzərində qurulmuşdu.

Şah Təhmasib dövrünün əsas ünsiyyət dili də Azərbaycan türkcəsi idi. Bu, bir tərəfdən təbii bir durum idi. Səltənətin siyasi və hərbi elitası və idarəçilik piramidası, əsasən, türklərdən ibarət idi. Buna görə onların öz ana dillərinin işlək dil olması məntiqi bir göstərici idi. Azərbaycan mühitinin yetişdirməsi kimi Şah Təhmasibin də əsas ünsiyyət dili Azərbaycan türkcəsi idi. Saray daxilində o, Azərbaycan türkcəsində danışırdı və hətta xarici qonaqlarla da öz söhbətlərini Azərbaycan türkcəsində aparırdı. Şah Təhmasib sarayında olmuş ingilis səyyahı Antoni Cenkinson öz gündəliyində yazırdı ki, Şah Təhmasib onu “guoch gueldə” (xoş gəldi) sözləri ilə qarşıladı (13).

Digər Avropa səyyahlarının xatirələrində də Səfəvi sarayında Azərbaycan türkcəsinin işlək dil olması və şahların da bu dildə danışması haqqında qeydlər vardır (14). Azərbaycan türkcəsi Səfəvi dövlətinin əsasının qoyulduğu gündən əsas ünsiyyət vasitəsi kimi işlək bir status qazanmışdı. Şah Təhmasibin hakimiyyəti dövründə bu status daha möhkəm işləklik qazanmış və hətta ondan sonrakı şahların dövründə də aktual olaraq qalmışdı. Şah Təhmasibin dünyasını dəyişməsindən bir müddət sonra Səfəvi dövlətinə səfər etmiş başqa bir avropalı De Laveli öz xatirələrində belə yazırdı: “Ümumiyyətlə onlar İranda fars dilinə nisbətən türk dilində daha çox danışırlar. Xüsusi ilə də saray daxilində və yüksək vəzifə tutan insanlar arasında. ... İranlılar bu dildə ona görə danışmırlar ki, həmin dili fars dilindən daha üstün tuturlar. Ona görə ki, bütün qoşunlar qızılbaş türklərindən təşkil olunub. Şahın müxtəlif tayfalardan olan köməkçiləri türk dilində

danışırlar və onlar fars dilini bilmirlər. Ona görə də türkcə yalnız qoşun əmirləri arasında işlənilmir, həm də şah tərfindən öz fikirlərini ifadə etmək üçün işlədilir. Çünki o vaxtının çoxunu onlar arasında keçirir" (15).

Şah Təhmasibin hakimiyyəti illərində Azərbaycan türkcəsinin işlək dil kimi statusunun möhkəmlənməsinin nəticəsi idi ki, hətta Azərbaycan arealından kənarda olan şəhərlərdə də onun öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Başqa bir avropalı səyyah Adam Olearusun bu barədə olan qeydləri Şah Təhmasib hakimiyyətindən sonrakı dövrə təsadüf etsə də, əslində, Azərbaycan türkcəsinə olan böyük marağı Səfəvi dövlətinin türk mənşəli olmasının təsdiqi kimi qəbul etmək olar. O yazırdı: "Səfəvi dövlət aparatında olanlar, xüsusilə Şirvan, Azərbaycan, İraq, Bağdad və İranda yaşayanlar öz övladlarına türkcə öyrədirlər. Türk dili səfəvilərin paytaxtında( İsfahanda) o qədər yayılıb ki, çox çətinliklə burada farsca söz eşitmək olar" (16).

Səfəvi dövlətinin məhz türk mənşəyinin güclülüyü səltənət daxilində türk dilinin də işləkliyinə təbii bir zəmin yaratmışdı. Şah Təhmasib Azərbaycan türkcəsinin zənginliklərinə o dərəcədə bələd idi ki, özündən sonra bu dildə ədəbi əsər nümunələri də qoymuşdu və həmin nümunələr günümüzə qədər gəlib çıxmışdır.

Səfəvi dövlətinin paytaxtı kimi də Azərbaycan türklərinin yaşadığı şəhərlər seçilmişdi. Şah İsmayıl tərəfindən Təbriz şəhəri Səfəvi dövlətinin paytaxtı elan edilmişdi. Şah Təhmasib isə məlum olduğu kimi, dövlətin paytaxtını sonradan Qəzvin şəhərinə köçürdü və bununla səltənətin paytaxtını Azərbaycan daxilində saxladı.

Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi dövlətinin ərazi hüdudlarına gəlincə, qeyd etmək lazımdır ki, Şah İsmayıldan miras qalmış hüdudlarda müəyyən dəyişikliklər baş vermişdi. Bu da Səfəvi dövlətinin qarşılaşmış olduğu xarici təhdidlərin miqyası və səviyyəsi ilə bağlı idi. Amma bu təhdidlərin olmasına baxmayaraq, Şah Təhmasib ciddi ərazi itkilərinin qarşısını almağa müvəffəq olmuş və səltənətin əzəmətini qoruyub saxlaya bilmişdi.

Mövcud məlumatlara görə, Şah Təhmasibin hakimiyyəti illərində səltənətin cənub sərhədlərində nəzərəçarpacaq bir ərazi dəyişikliyi baş vermədi. Səltənətin şərq sərhədlərində də hüdudları qoruyub saxlamaq mümkün olmuşdu. Lakin buna çox ciddi sınaqlardan sonra müvəffəq olunmuşdu. Məlumdur ki, özbək hakimləri dəfələrlə Xorasan vilayəti üzərinə qoşun çəkmiş və hətta səltənətin qərbinə doğru irəliləyə bilmişdilər. Bir tərəfdən Şah Təhmasibin hakimiyyət başına gələrkən kiçik yaşda olması, digər tərəfdən də Şah Təhmasib hakimiyyətinin ilk illərində qızılbaş əmirləri arasında güclü qarşıdurmanın olması özbək hakimlərində Səfəvi dövlətinin şərq əyalətlərinin işğal edilməsi ümidləri yaratmışdı. Şah Təhmasibin hakimiyyəti illərində özbək qoşunları altı dəfə çox böyük qüvvələrlə və çox böyük iddialarla səltənətin şərq vilayəti üzərinə qoşun çəkdilər. Bu hücumlar zamanı qoşunlar Herat, Məşhəd kimi şəhərləri ələ keçirməklə qərbə doğru da irəliləyə bildilər. Amma hər dəfə Şah Təhmasibin rəhbərliyi altında Səfəvi qoşunlarının qətiyyəti ilə qarşılaşaraq geri qayıtmalı oldular. Aparılan döyüşlərin təhlili göstərir ki, Şah Təhmasib qətiyyət göstərsəydi şimal-şərq istiqamətində səltənətin sərhədlərini genişləndirə də bilərdi. Lakin Şah Təhmasib atasının hakimiyyəti illərində müəyyənləşdirilmiş sərhədlərin dəyişdirilməsini məqsədəuyğun saymadı və mövcud olan sərhədlərin müdafiəsi ilə kifayətləndi. Həmin istiqamətdə də xüsusi bir ərazi dəyişikliyi baş vermədi. Amma bu hüdudların dəyişdirilməsi və ərazi itirilməsi ilə də razı olmadı. Şah Təhmasib səltənətin şərq hüdudlarının müdafiəsi və qorunması üçün öz ailə üzvlərini, o cümlədən qardaşları Sam Mirzəni və Bəhram Mirzəni, habelə digər təcrübəli və yaxın adamlarını şərq ərazilərinin hakimi təyin etdi.

Səltənətin şərq sərhədlərinin ərazi hüdudlarına olan təhdidlərdən biri də hind hakimlərindən gəlirdi. Hind hakimləri xüsusilə, Qəndəharın nəzarət altında saxlanmasına çalışırdılar və müəyyən vaxtlarda buna müvəffəq də olurdular. Şah Təhmasibin qardaşı Sam Mirzə ilə lələsi Ağzıvar xan Heratda hakimlik edəndə Qəndəhar Hümayun padşahın qardaşı Mirzə Kamran tərəfindən idarə

edilirdi. Məlum olduğu kimi, 1535-ci ildə Ağzıvar xan Qəndəharı yenidən Səfəvi hüdudlarına qaytarmağa cəhd göstərdi. Amma onun bu cəhdi uğursuzluğa düçar oldu və özü də həyatla vidalaşmalı oldu. Yalnız Şah Təhmasibin həyata keçirdiyi qətiyyətli tədbirlər nəticəsində Qəndəharı yenidən Səfəvi hüdudlarına qaytarmaq mümkün oldu. Şah Təhmasib özü şəxsən qoşun dəstəsi ilə Qəndəhar üzərinə hərəkət etdi və bu şəhəri nəzarət altına aldıqdan sonra təcrübəli qızılbaş əmiri Budaq xan Qacar Qəndəhar hakimi təyin edildi. Bununla, səltənətin şərqində Səfəvi ərazilərinə olan təhdid aradan qaldırılmış oldu.

Səfəvi hüdudlarının dəyişdirilməsi ilə bağlı daha ciddi proseslər səltənətin şimal və qərb sərhədləri boyunca baş verdi. Şimal sərhədləri boyunca daha çox keyfiyyət dəyişiklikləri baş verdi. Belə ki, Şah Təhmasib hakimiyyət başına gələndə səltənətin şimalında yerləşən gürcü çarlıqları da, Şirvan və Şəki də nisbi müstəqilliklərini qoruyurdular. Bu ərazilərdə yerli hakim sülalələr idarəçiliyi öz əllərində saxlayırdılar. Lakin bu hakimlərin Səfəvi sarayına qarşı sədaqətsizliyi məlum olanda, qeyd edildiyi kimi, Şah Təhmasib həmin vilayətlərdə yerli sülalə idarəçiliyinə son qoymağı və bu vilayətləri səltənət daxili vilayətlərə çevirməyi məqsədəuyğun saydı. Bununla bağlı 1538-ci ildə Şirvana Səfəvi qoşun dəstəsi göndərdi və bu vilayət qoşunların nəzarəti altına alınandan sonra idarəçilik Əlqas Mirzəyə tapşırıldı. 1551-ci ildə isə Şəkidə yerli sülalə hakimiyyətinə son qoyuldu. Doğrudur, bu vilayətlərdə sonradan mərkəzdənqaçma meylləri də özünü göstərmişdi. Bununla belə, Şah Təhmasib həmin vilayətlərin səltənət hüdudlarında qalmasını təmin etmişdi 1567-ci ildə Gilan da birdəfəlik Səfəvi mərkəzi hakimiyyətinin idarəçiliyi altına gətirildi və burada mərkəzi hakimiyyət möhkəmləndirildi. Çünki Şah Təhmasibin hakimiyyəti illərində Gilanda da bəzi qüvvələr bu bölgəni Səfəvi hakimiyyəti altından çıxarmaq və onu müstəqilləşdirmək istəyirdilər.

Gürcüstanda isə Səfəvi hakimiyyətini qəbul edən yerli sülalə hakimiyyəti saxlanıldı. Yuxarıdakı məlumatlardan da bəlli olduğu kimi, gürcü hakimləri və gürcü torpaqlarında hakimliyə iddialı

olan qüvvələr tərəfindən müəyyən vaxtlarda Səfəvi nəzarəti altından çıxmağa cəhdlər göstərilmişdi. Lakin bu cəhdlərin də qarşısı alındı və yalnız Amasiya anlaşmasından sonra Gürcüstan ərazisi Səfəvi dövləti ilə Osmanlı dövləti arasında nəzarət zonalarına bölündü. Bu zaman da ərazilərin daha böyük hissəsi Səfəvi sarayının nəzarəti altında qaldı.

Şah Təhmasibin hakimiyyəti illərində az-çox ərazi itkiləri səltənətin qərb sərhədləri boyunca baş verdi. Sözsüz ki, bu istiqamətdə Səfəvi dövlətinin ən böyük itkisi Bağdad şəhərinin və ətrafının əldən çıxarılması idi. Eyni zamanda Bağdadla Van gölü arasında yerləşən bir sıra qalalar və yaşayış məntəqələri də Osmanlı dövlətinin nəzarəti altına keçdi. Şah Təhmasibin hakimiyyəti illərində Osmanlı dövləti bütün şərqi və Avropanı lərzəyə salan qüdrətli bir dövlət idi və bu qüdrəti nəticəsində Avropanın böyük bir hissəsini fəth etmişdi. Osmanlı dövlətinin həbi potensialı Səfəvi dövlətinin hərbi potensialından üstün idi və bu üstünlükdən istifadə etməklə Osmanlı sarayı hətta Səfəvi dövlətini çökdürməyə çalışırdı. Sultan Süleyman Səfəvi dövləti üzərinə həyata keçirdiyi dörd kampaniyadan sonra yalnız sərhəd boyu yerləşmiş əraziləri öz nəzarəti altına ala bildi və Amasiya anlaşması ilə əldə edilmiş ərazilər üzərindəki Osmanlı hakimiyyəti Səfəvi sarayı tərəfindən də qəbul edilməli oldu. Amasiya anlaşması əldə edildikdən sonra Sultan Süleyman Səfəvi sərhədləri boyunca yerləşən 11 vilayət hakiminə hökm göndərərək iki dövlət arasındakı sərhəd xəttinin gözlənilməsini tələb etdi. Hökm göndərilən vilayətlər bunlar idi: 1) Cəzayir; 2) Bəhreyn; 3) Bəsrə; 4) Səmavat; 5)İraqeyn (Bağdad və Şəhrizor); 6) Luristan; 7) Kürdüstan (İmadiyyə), 8) Van; 9) Bitlis; 10) Azərbaycan (Qars-Ərzrum); 11) Gürcüstan (Başıaçıq, Dəvəli) (17).

Bu o demək idi ki, adları çəkilən vilayətlərin şərq hüdudları Səfəvi dövlətinin qərb sərhədini və ya Osmanlı dövləti ilə olan sərhədini təşkil edirdi. Beləliklə, Şah Təhmasibin hakimiyyəti illərində müəyyən ərazi itkiləri Osmanlı dövləti sərhədi boyunca baş verdi və mövcud tarixi şəraitdə Şah Təhmasib də bu itkiləri qəbul etməli oldu.

Şah Təhmasib hakimiyyəti illərində də səltənətin hüdudları şimalda Qafqaz sıra dağlarından başlayıb cənubda Fars körfəzinin şərq sahillərinə, şərqdə Qəndəhar ərazilərindən başlayıb Van gölünə qədər uzanırdı. Konkret olaraq isə səltənətin şimal sərhədləri Qafqaz sıra dağlarının cənub yüksəkliklərindən başlayıb, Samur çayının yuxarılarından, Dərbənddən keçməklə Xəzər dənizinə qədər davam edirdi. Səltənətin şimal sərhədlərinin bir hissəsi də Xəzər dənizinin şərq hissəsində qalırdı. Xəzər dənizinin qərbi bütünlüklə Səfəvi dövlətinə aid idi və Xəzərin şərqində isə bu dövlətin sərhədi kiçik ölçülü Hüseynqulu körfəzindən başlayaraq Ətərk dərəsindən keçməklə Türkmən çöllərinə uzanır və orada Əbivərddən, Mərvin şimalından, Mürğab dərəsindən, Ceyhun (Amudərya) çayının cənubuna qədər davam edirdi (18).

Səltənətin şərq hüdudları bəluc tayfalarının yaşadığı ərazilərdən başlayaraq Qəndəharın şərqinə, Kabulun qərbinə, Bamiyanın şimal ərazilərindən keçməklə Bəlxə tərəf uzanır və sonra da davam edərək Ceyhun çayının cənubunda sona çatırdı. Qeyd etmək lazımdır ki, Herat və ona aid olan ərazilər də bu hüdudlar daxilində idi. Səfəvi dövlətinin cənub sərhədi Fars körfəzinin başlanğıcından etibarən cənuba doğru uzanır və bu körfəzin şimal şərqini əhatə etməklə Hörmüz boğazında tamamlanırdı. Oman dənizinin şərq sahili də Səfəvi dövlətinin hüdudlarına daxil idi. Səltənətin qərb sərhədləri isə şimalda Qafqaz sıra dağlarının cənub ətəklərindən başlayaraq Gürcüstanın Kartli və İmeretiya əyalətlərindən keçir və sonra Qars və Van vilayətləri ilə uzanırdı və bu zaman Çuxursəəd və Azərbaycan Səfəvi hüdudları daxilində qalırdı. Sonra bu sərhəd xətti cənuba doğru uzanırdı və kürddilli əhalinin yaşadığı ərazilərdən keçməklə Şəddül-ərəb çayının Fars körfəzinə bitişdiyi nöqtəyə qədər uzanırdı. Səfəvi dövlətinin qərbində Osmanlı dövlətinin hansı vilayətlərinin yerləşməsi yuxarıda göstərilmişdir. Sərhəd xətti həmin vilayətlərlə kəsişmə nöqtəsini təşkil edirdi (19).

Bir daha qeyd edilməlidir ki, Şah Təhmasib dövrünün səltənət sərhədlərinin dəqiq müəyyənləşdirilməsi mümkün olmasa da bu

dövlətin əraziləri yuxarıda göstərilən hüdudlar daxilində idi və Şah Təhmasibin hakimiyyəti bu ərazilərə yayılırdı.

### a) dövlətin paytaxtının Qəzvinə köçürülməsi

Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasibin hakimiyyəti illərində həyata keçirdiyi tarixi tədbirlərdən biri də paytaxtın Təbrizdən Qəzvinə köçürməsi oldu. Bir daha qeyd edilməlidir ki, bu şəhər Azərbaycan arealına daxil idi və Azərbaycan şəhəri idi. İtaliyalı səyyah Pyetro della Valle yazırdı ki, "Qəzvin şəhər olub Azərbaycan vilayətinin bir hissəsinin mərkəzidir". Səfəvi dövlətinə səfər etmiş ispan elçisi Don Qarsiya de Silva da Qəzvin yaxınlığındakı dağlara işarə edərək belə yazırdı: " Nə bir ağacı, nə də bir kolu olan bu dağlar Farsı Azərbaycandan ayırır". Bu müəllif Qəzvini də Azərbaycan şəhərləri sırasına aid edirdi (20).

Ərəbdilli mənbələrdə bu şəhərin adının Kəşvin sözündən təhrif olunaraq Qəzvin şəkli almasına işarə edilmişdir. Mövcud olan məlumatlara görə, Qəzvin öz adını Xəzər dənizi ətrafında yaşamış Kaspin tayfasının adından götürmüşdür. Ehtimal edilir ki, bu yaşayış məntəqəsinin adı Kəspin olmuş, sonra bu söz Kəşvin halına düşmüş və nəhayət Qəzvin sözü meydana gəlmişdi (21).

Qəzvinin bir yaşayış məntəqəsi kimi formalaşmasına heç şübhəsiz ki, onun əlverişli coğrafi mövqedə yerləşməsi öz təsirini göstərmişdi. Qədim insanlar üçün bu məntəqə həyatın və yaşayışın qurula biləcəyi bir məntəqə idi. Məhsuldar torpaqlar, əlverişli hava şəraiti Qəzvinin formalaşmasına münasib zəmin yaratmışdı. Ona görə hələ islamdan əvvəl Qəzvin bölgənin mühüm yaşayış məntəqələrindən biri olmaqla hündür divarlarla əhatə olunmuşdu. Müəyyən təbii müdafiə imkanlarına malik olduğu üçün idi ki, Qəzvin hələ sasanilərin dövründə siyasi və iqtisadi əhəmiyyətindən əlavə, həm də hərbi əhəmiyyət kəsb edirdi. 644-cü ildə ərəb qoşunları tərəfindən işğal edildikdən sonra da Qəzvin özünün hərbi əhəmiyyətini saxlamışdı və bu şəhər sərhəd mühafizə məntəqəsi kimi kənar qüvvələrin hücumlarının qarşısının alınmasında xüsusi rola malik idi (22).

Qəzvin şəhəri Elburus dağının cənub ətəklərində yerləşir. Onun şimalı, qərbi və cənubu dağlıq ərazi ilə əhatə olunmuşdur. Bu şəhərin ətrafında çoxlu təpəliklər və yüksəkliklər mövcuddur ki, bu da havanın yumşaq və mülayim olmasına öz təsirini göstərir. Ümumiyyətlə, Qəzvinin mənsub olduğu vilayətin ərazisi dağlıq-düzənlik ərazidir. Vilayət ərazisində az sulu çaylar vardır ki, yerli təsərrüfatın inkişafında onların böyük əhəmiyyət kəsb edirlər (23).

Zaman keçdikcə Qəzvinin həm inkişaf etməsi, həm də onun əhəmiyyətinin artması bu şəhərin strateji məkanda qərar tutması ilə də bağlı idi. Qəzvin bir tərəfdən Xəzər dənizindən Fars körfəzinə uzanan yolların, digər tərəfdən də qərbdən şərqə uzanan ticarət və səfər yollarının kəsişməsində yerləşirdi. Yəni bu şəhər bir tərəfdən ticarət fəaliyyətinin həyata keçirilməsi baxımından əhəmiyyət kəsb edirdi. Şimaldan və Avropadan gələn ticarət karvanları Qəzvindən Hindistana aparan daha yaxın yol kimi istifadə edirdilər. Qəzvindən şərqə və oradan da cənuba yönəlməklə ticarət karvanlarına daha Fars körfəzinə doğru istiqamətlənməyə ehtiyac qalmırdı. İslamiyyət dövründə Qəzvin həm də Məşhəd kimi bir ziyarət mərkəzinə aparan yolların üstündə idi. Bu baxımdan bu şəhər zəvvarların hərəkəti üçün xüsusi önəm kəsb edirdi. Qəzvin həm də hərbi-strateji baxımdan diqqəti cəlb edirdi. Səfəvi səltənətinin mərkəzində olmaqla şərq və qərb sərhədlərində baş verən hərbi hadisələrə qüvvə çatdırılaması üçün Qəzvin nəqliyyat və qışlama mərkəzi kimi də böyük maraq kəsb edirdi. Qəzvinin və onun ətrafının mülayim hava şəraiti də bu şəhərin inkişafına və məskunlaşmasına əlverişli zəmin yaradırdı (24).

Yəni Qəzvinin təbii-coğrafi şəraiti bu şəhərin inkişafına və səltənət həyatında mühüm əhəmiyyət kəsb etməsinə zəmin yaradırdı. Azərbaycan arealında yerləşən bir şəhər kimi, Qəzvinin əhalisinin də əksəriyyətini Azərbaycan türkləri təşkil edirdilər. Bəzi tədqiqatçılar Qəzvinin əhalisinin əksəriyyətinin qızılbaş türkləri olmasını bu tayfaların köçü ilə əlaqələndirirlər və bildirirlər ki, qızılbaş əmirləri yüksək vəzifələrə təyin olunanda mən-

sub olduqları tayfanın əhalisini də təyin olunduqları məntəqələrə köçürürdülər. Başqa sözlə belə bir fikir iddia olunurdu ki, Qəzvində təkəli, rumlu, şamlı, ustaclı, zülqədər, qacar, əfşar tayfalarının, Qaraqoyunlu və Ağqoyunlu türkman tayfalarının məskunlaşması bu şəhərə həmin tayfaların nümayəndələrinin hakim təyin edilməsi ilə əlaqədardır (25). Bununla, əslində, Qəzvinin türk şəhəri olmasına bir şübhə ortaya qoyulur və bu fikrin birmənalı şəkildə qəbul edilməsi isə yəqin ki, mümkün deyil. Çünki Şah Təhmasibin hakimiyyəti illərində Azərbaycan arealından kənarda olan vilayət və şəhərlərin mütləq əksəriyyətinin hakimləri qızılbaş əmirləri olsa da, həmin şəhərlərin əhalisinin milli tərkibi heç də ciddi dəyişikliyə məruz qalmamışdı. Başqa sözlə, bu məntiq qəbul edilsə, onda Azərbaycan arealından kənarda, İran arealında olan bütün yaşayış məntəqələrinin türkləşməsi baş verməli idi

Bəzi tədqiqatçıların fikrincə, Qəzvinin Səfəvi dövlətinin paytaxtı seçilməsi bu şəhərin coğrafi mövqeyi, təbii şəraiti və davamlı inkişafı ilə bağlı idi. İddia edilir ki, hələ səlcuqların hakimiyyəti illərindən Qəzvinin mərkəzi bir şəhər kimi seçilməsi fikirləri mövcud olmuşdu. Bu şəhərin yaşayış imkanları, Xəzər dənizinə yaxın olması kimi amillər də bu şəhərin Səfəvi dövlətinin mərkəzi seçilməsinin səbəbi kimi dəyərləndirilmişdir. İddia edilir ki, Şah İsmayıl da Təbrizdən başqa Qəzvinin və Heratın da paytaxt kimi seçilməsi planlarına malik imiş. Amma ətrafındakılar ona Qəzvini paytaxt seçməyi məqsədəuyğun bilmiş və o da bu fikirlə razılaşmışdı. Yəni Qəzvinin paytaxt kimi seçilməsi ideyası Şah İsmayıla aid edilir (26). Ona görə belə bir fikir irəli sürülür ki, Şah Təhmasib əslində, Şah İsmayıldan qalan ideyanı həyata keçirmişdi.

Səfəvi paytaxtının Qəzvinə keçirilməsi həm də hava şəraiti ilə bağlanılmışdır. Qeyd olunur ki, qış aylarında Qəzvində qışlamaq üçün münasib şərait var idi və ona görə də Şah Təhmasib çox vaxt qışı burada keçirirdi. Bundan başqa bəzi mənbələrdə paytaxtın Qəzvinə keçirilməsi həm də bu şəhərin səltənətin mərkəzində yerləşməsi ilə əlaqləndirilir. Həmin fikir "Xülasüt-təvarix" əsə-

rində də öz əksini tapmışdır. Bu əsərin müəllifi yazır ki, 1555-ci ildə Şah Təhmasib Təbrizdən Qəzvinə yollandı və o bu şəhəri bir tərəfdən səltənətin mərkəzində olması, digər tərəfdən qışlağın bu şəhərdə keçirilməsi imkanlarına görə dövlətin paytaxtı etməyi qərara aldı (27).

Amma Şah Təhmasib tərəfindən Səfəvi dövlətinin paytaxtının Qəzvinə köçürülməsi daha çox hərbi və təhlükəsizlik məsələləri ilə bağlanılır. Bəzi məlumatlara görə, hələ Çaldıran döyüşündən sonra Şah İsmayıl diqqətini Qəzvinə yönəltməyə başlamışdı. Çünki həmin döyüşdən sonra Osmanlı qoşunların Təbrizə daxil olması və səltənətin paytaxtının işğal altına düşməsi səltənət mərkəzinin təhlükəsizliyi məsələsini də aktuallaşdırdı. Şah Təhmasibin dövründə də məlum olduğu kimi, Təbriz şəhəri Osmanlı qoşunlarının işğalına məruz qaldı. O da bəllidir ki, orta əsrlərdə bir dövlətin paytaxtının fəth edilməsi çox hallarda həmin dövlətin süqutuna gətirib çıxarırdı. Təbrizin işğalı Səfəvi dövlətinin süqutuna yol açmasa da, sözsüz ki, dövlətin mərkəzi şəhərinin işğal altına düşməsi səltənətin idarəçiliyinə ciddi çətinliklər yaradırdı. Ona görə Şah Təhmasib də Osmanlı təhlükəsinin meydana gəldiyi vaxtlardan səltənətin paytaxtının harada olması məsələsi ilə maraqlanmağa başlamışdı. Bir məlumata görə, Şah Təhmasib hələ hicri tarixi ilə 940-cı ildə (1533-34) Qəzvində dövlət sarayının yaradılması məsələsinə diqqət yetirmişdi. Başqa bir məlumata görə isə, Şah Təhmasib (h.q.) 950-ci ildə (1544-1545) səltənət paytaxtının Qəzvinə köçürülməsi hazırlıqlarına başlanması haqqında qərar verdi. “Xülasüt-təvarix” müəllifinə görə, Şah Təhmasib həmin il Qəzvinin Zəngiabad məhəlləsində torpaq sahəsi aldı ki, orada bağ saldırsın. Sonra da tanınmış mühəndisləri və bənnaları həmin bağın tikilməsinə və abadlaşdırılmasına səfərbər etdi. Şahın hökmünə əsasən, həmin bağın daxilində saraylar, əzəmətli imarətlər, hovuzlar və eyvanlar tikilməli idi. Bağın giriş darvazası da möhtəşəm bir darvaza olmalı idi. Nəzərdə tutulmuşdu ki, bağ ərazisi yaşıl çəmənə çevrilsin və bu bağın ortasından su axsın. Bağın içərisində gül kolları və meyvə

ağacları da əkilməli idi. Yəni bu bağ Səfəvi hökmdarına layiq olan bir bağa çevrilməli idi (28).

Bir məlumata görə, isə Şah Təhmasib qədim Qəzvinin şimal hissəsində yeni bir şəhərciyin salınmasına göstəriş verdi və həmin şəhərcik imam Cəfər Sadiqin şərəfinə Cəfərabad adlandırıldı. Bu şəhərcikdə dövlət saraylarının tikilməsi üçün də qərar qəbul edildi (29).

1555-ci ildə Şah Təhmasib Təbriz şəhərində oğlu İsmayıl Mirzəyə toy etdirdi. Bu toydan sonra Şah Təhmasib birdəfəlik Qəzvinə köçməyi qətiləşdirdi və elə həmin il həmin şəhərə yollandı. 1555-ci ildə bu sarayın tikintisi hələ başa çatmamışdı. Ona görə də Şah Təhmasib hələlik köhnə sarayda yerləşməli oldu. O da bildirilir ki, şahın bu gəlişi yerli əhali tərəfindən çox böyük sevinc və şadyanalıqla qarşılandı. Şah Təhmasib bir neçə il köhnə sarayda səltənət idarəçiliyini həyata keçirməli oldu. Bir də 1558-ci ildə Səadətabad bağındakı saray tikililərini başa çatdırmaq mümkün oldu və həmin il də Şah Təhmasib həmin saraylara köçdü (30).

Qəzvinin Səfəvi dövlətinin paytaxtı seçilməsi bu şəhərin sürətlə inkişafına da təkan verdi. Şah Təhmasib özü də şəxsən Qəzvinin inkişafını diqqət mərkəzində saxlayırdı və onun göstərişi əsasında şəhərdə çoxlu sayda müxtəlif təyinatlı binaların tikintisi aparıldı. O cümlədən, qısa müddət ərzində şəhərdə dövlət idarəçiliyi binaları, dövlətxanalar, saraylar, yeni imarətlər, yeni bağlar, karvansaralar, bazarlar, ticarət mərkəzləri, hamamlar, mədrəsələr, su anbarları, müalicə mərkəzləri və s. obyektlərin tikintisi aparıldı. Yəni Qəzvin şəhəri yalnız Səfəvi dövlətinin deyil, bütünlükdə şərqin böyük şəhərlərindən birinə çevrildi. Səfəvi dövrünün mənbələrində bu şəhər Şam, Təbriz, Şiraz, Herat kimi şəhərlərlə müqayisə olunurdu. Qəzvinə aparan yollar da abadlaşdırıldı ki, bu da ticarət karvanlarının gəlişini-gedişini asanlaşdırdı (31).

Çehelsütun sarayı və Səadətabad bağı Şah Təhmasib dövründə Qəzvində göz oxşayan memarlıq abidələrindən idi. Avropalı səyyahlar da bu memarlıq abidələrinin gözəlliyini öz xatirə-

lərində dönə-dönə qeyd edirdilər. Şah Təhmasib dövrünün mühüm siyasi mərasimləri Çehelsütun sarayında keçirilirdi. Hazırda da öz əzəmətini qoruyub saxlayan bu imarət Şah Təhmasibdən sonra hakimiyyətə gəlmiş Heydər Mirzənin və İkinci İsmayılın dövlətxanası olmuşdu. Səadətabad bağı isə öz gözəlliyinə görə mənbələrdə İsfahanın mərkəzi meydanı ilə müqayisə edilirdi. Səadətabad bağı həmin meydandan öz ölçülərinə görə bir qədər kiçik olsa da, görünüşünə görə heç də geri qalmırdı. Bu bağ ətrafında olan tikililərlə də göz oxşayırdı (32).

Şah Təhmasib tərəfindən mərkəz kimi seçilən Qəzvin şəhəri 51 il Səfəvi dövlətinin paytaxtı olmuş və Şah Abbasın hakimiyyəti illərində paytaxt bu şəhərdən İsfahana köçürülmüşdü.

## 2. Dövlət idarəçiliyi

### a) şahın səlahiyyətləri

Şah Təhmasib dövrünün dövlət idarəçilik sistemi Şah İsmayıl tərəfindən əsası qoyulmuş dövlət idarəçilik sisteminin davamı idi. Bu idarəçilik sisteminin əsasını irsi monarxiya təşkil edirdi. Sözsüz ki, bu idarəçilik sisteminin qəbul edilməsində və formalaşdırılmasında orta əsrlər dünyasında, o cümlədən Şərqdə mövcud olan idarəçilik üsul-idarəsinin təsiri var idi. Lakin Səfəvi idarəçilik sistemi Şərqdə mövcud olmuş, o cümlədən Səfəvi dövlətindən əvvəl Azərbaycan ərazisində mövcud olmuş Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu kimi dövlətlərin idarəçilik sistemindən müəyyən xüsusiyyətlərinə görə fərqlənirdi. Bu da daha çox Səfəvi idarəçilik sisteminin həm də təriqət dəyərlərinə dayaqlanması, Səfəvi şahları tərəfindən dünyəvi və dini hakimiyyəti öz şəxslərində cəmləşdirməsi ilə bağlı idi. Şah İsmayıl kimi Şah Təhmasib də təriqət mürşidi idi və Səfəvi təriqətinə mənsub olanlar Şah Təhmasibi səltənət hakimi olmaqdan əlavə, həm də mənsub olduqları təriqətin mürşidi-kamili kimi qəbul edirdilər. Səfəvi dövlətinin əhatə etdiyi hüdudlar daxilində yaşayan bütün əhali heç də Səfəvi təriqətinin müridləri və ardıcılları

deyildilər. Məlumdur ki, bu səltənət daxilində digər dinlərə və məzhəblərə mənsub olan insanlar da yaşayırdılar. Lakin Səfəvi idarəçilik sisteminin və qüdrətinin əsasını təşkil edən qızılbaş tayfaları daxilində təriqət etiqadı güclü idi və Şah Təhmasib də öz idarəçilik sisteminin müəyyənləşdirilməsində bu qüvvələrə xüsusi istinad edirdi.

Şah Təhmasibin hakimiyyəti illərində də dövlət idarəçilik sisteminin mərkəzində şah dayanırdı. O, hüdudsuz səlahiyyətlərə malik idi. Səltənətin və dövlətin taleyinin həll edilməsi şahın iradəsi əsasında baş verirdi. Doğrudur, idarəçilik işlərinin həyata keçirilməsində şah islam şəriətinə istinad edirdi. Bununla belə, o, hakimi-mütləq idi. Həm şah kimi, həm də təriqət mürşidi kimi səltənətin dini mühitinin müəyyənləşdirilməsində və istiqamətləndirilməsində şahın iradəsi əsas götürülürdü. Şah İsmayılın hakimiyyəti illərində olduğu kimi, Şah Təhmasib də həm qanunverici, həm icra, həm də məhkəmə hakimiyyətini öz üzərinə götürmüşdü (33).

Qanunverici, icra və məhkəmə hakimiyyətində Şah Təhmasib hüdudsuz səlahiyyətlərə malik idi və onun bu istiqamətlər üzrə verdiyi hökmlər birmənalı şəkildə yerinə yetirilirdi. Şahın iradəsinin əksin hərəkət etmək, şaha qarşı asilik, dövlətə qarşı qiyam kimi qiymətləndirilirdi və bu halların aradan qaldırılması şahın qəbul etdiyi qərarlar və həyata keçirdiyi tədbirlər dövlət adından icra olunurdu. Dövlət idarəçilik sisteminin perpendikulyarının və üfqi münasibətlərinin müəyyənləşdirilməsi də şahın iradəsinə bağlı idi. Əvvəlki fəsillərdəki məlumatlardan bəllidir ki, bəzi vilayətlərdə və inzibati vahidlərdə irsi sülalə hakimiyyəti saxlanmışdı. Amma bu irsi hakimiyyətlərin saxlanıb-saxlanmaması da şahın iradəsinə bağlı idi və dövlətin maraqları zərurət kəsb etdiyi hallarda yerli idarəçilik sisteminə məqsədyönlü dəyişikliklər edilməsi də şahın səlahiyyətində idi.

Müharibə elan edilməsi, aparılması, onun dayandırılması, səltənətin bu müharibəyə səfərbər edilməsi, digər dövlətlərlə qarşılıqlı münasibətlərin müəyyənləşdirilməsi kimi məsələlər də şahın səlahiyyətlərində idi. Hakimiyyət irsi keçməli idi. Bu zaman

şah ailəsinin böyük oğlan övladı üstünlüyə malik idi. Şah Təhmasib də hakimiyyəti irsi olaraq qəbul etmişdi və irsi olaraq da özündən sonra böyük oğlan övladına verməli idi. Məlumdur ki, Şah Təhmasibin hakimiyyətindən sonra hakimiyyətin ötürülməsində başqa istisnalar da baş vermişdi. Lakin həmin istisnalar şah ailəsi daxilində baş verən qarşıdurmaların nəticəsi kimi özünü göstərmişdi.

Şah İsmayıl kimi Şah Təhmasibin də şahlığa qanuni haqqı istər səltənət daxilində, istərsə də səltənət xaricində şübhə altına alınmırdı və haqq birmənalı şəkildə qəbul edilirdi. Saray daxilində olan çəkişmələr, qarşıdurmalar da şahın qanuniliyinin şübhə altına alınmasına dəlalət etmirdi. Bu çəkişmələr daha çox şaha daha yaxın mövqe tutmaq və ya şahın daha çox etibarını qazanmaq istəyi ilə bağlı idi. Sözsüz ki, şaha daha yaxın mövqe tutmaq istənilən əyana və ya əmirə səltənət daxilində daha böyük idarəçilik səlahiyyətləri əldə etmək imkanı verirdi. Hətta əyalətlərdə özünü göstərən mərkəzdənqaçma meylləri də Şah Təhmasibin hakimiyyətinin qanuniliyini istisna etmirdi. Şah Təhmasibin hakimiyyətinin qanuniliyinə yalnız onun ailə üzvləri, konkret olaraq isə Şah İsmayılın digər oğlan övladları iddia irəli sürə bilərdilər ki, belə bir təcrübə də Səfəvi tarixində mövcuddur.

Səfəvilər dövlətində bir lələlik ənənəsi və təcrübəsi də mövcud idi. Şah övladlarına kiçik yaşlarında təcrübəli qızılbaş əmirləri arasından lələlər təyin edilirdi. Bu lələlər şah övladlarını tərbiyə etməklə və öyrətməklə yanaşı, həm də şah övladının təyin edildiyi vəzifələrin icrasını da öz üzərlərinə götürürdülər. Hakimiyyət başına gələndə Şah Təhmasibə də lələ təyin edilmişdi. Həmin lələ Div sultan idi və ona bu vəzifəni Şah İsmayıl özü tapşırmışdı. Şah Təhmasib yetkinlik yaşına çatana kimi şah lələsi dövləti idarə etməli və sonra bu hakimiyyəti cavan şaha təhvil verməli idi. Şah Təhmasibin hakimiyyətinin başlanğıcında bu təcrübədən istifadə olundu. Ancaq məlumdur ki, Div sultan qızılbaş əmirləri arasında aparılan çəkişmələrin qurbanı oldu. Onun qətlindən sonra Şah Təhmasibə hər hansı bir lələ təyin edilmədi və Şah Təhmasib bütün hakimiyyəti öz əlində cəmləşdirdi. Şah

Təhmasibin özünün qeyd etdiyinə görə, bu hadisə 1527-ci ildə baş vermişdi (34). Yəni Səfəvi şahı elan edilməsindən təxminən 3 il beş ay sonra Şah Təhmasib səltənət şahının bütün səlahiyyətlərini öz əlində cəmləşdirə bildi.

İdarəçilik məharəti, duyumu, dövlətin müstəqilliyinin qorunması istiqamətində qətiyyəti, dünyagörüşü, insanlara münasibəti və s. keyfiyyətlərinə görə Şah Təhmasib səltənət daxilində böyük nüfuz və ehtirama malik idi. O, ölkə miqyasında cərəyan edən bütün prosesləri nəzarət altında saxlaya və yeri gələndə bu proseslərə məqsədyönlü şəkildə müdaxilə edə bilirdi. Məlum olduğu kimi, Şah Təhmasibin hakimiyyəti illərində dövlət daxilində mərkəzdənqaçma və müstəqilləşmə halları baş vermişdi. Lakin bu niyyətdə olan qüvvələr ümidində olduğu nəticələri əldə edə bilmədilər. Çünki Şah Təhmasibin səmərəli tədbirləri nəticəsində səltənət daxilində özünü göstərən bütün separatçılıq hallarının qarşısı qətiyyətlə alındı.

Malik olduğu keyfiyyətlərə görə, Şah Təhmasib mənbələrdə çox müxtəlif ləqəb və titullarla xatırlanmışdır. Əbu Müzəffər Təhmasib Bahadur, Şahi xilafət pənah, Şahi ədalət nəhad (ədalət təminatçısı), Şahi aləmiyan, Şahi aləmpənah, Həzrət şah gərdun tavan (dünya qüdrətli), Şahi kamran soltan şah Təhmasib, Şahi cəm cah, Şahi sitarə sipah, Aləm pənah şahi cəm cah, Xaqani sahibqəran (dünya sahibi), Padşahi cəm cah ba ədl və dad (ədalətli), Şahi aləm ara, Padşahi gitistan (dünya padşahı), Padşahi mənsur, Padşahi cahan, Padşahi İsgəndər məsir (İsgəndərə bənzər), Həzrət şahi vilayət, Bəndeyi şahi vilayət, Bəndeyi şahi vilayət Təhmasib və s. (35). Şah Təhmasibin mənbələrdə öz əksini tapmış ləqəb və titulları, fəxri adları, müraciət formaları yalnız bunlar dan ibarət deyildi. Digər titul və ləqəblərlə də rastlaşmaq mümkündür.

Mövcud olan məlumatlara görə, Səfəvi şahlarına, o cümlədən də Şah Təhmasibə hansı ləqəblərin və fəxri müraciət formalarının şamil edilməsi şahın nüfuzuna dəlalət edən məqamlardan biri idi. Məsələn, bildirilir ki, "sahibqəran" müraciət forması səfəvilərdən əvvəl şərq tarixində üç hökmdara şamil edilmişdi: Makedonilayı

İsgəndə, Çingiz xana və Əmir Teymura" (37). Belə güman edilir ki, "sahibqəran" ləqəbi dünya sahibliyinə can atmış hökmdarlara verilən bir ləqəbdir. Bu mənada Şah Təhmasib dünyanın böyük sərkərdələri və hökmdarları ilə bir sıraya qoyulurdu.

Ləqəb və titullarla şaha necə müraciət edilməsinin öz təcrübəsi mövcud idi. Bu titullarla nə vaxt və hansı şəraitdə müraciət edilməsinin qaydaları müəyyənləşdirilmişdi. Həmin ləqəblərlə və titullarla müraciət edilməsi şaha səcdə edilməsi ilə müşayiət olunurdu. Məlumdur ki, Übeyd xan göndərdiyi məktubunda Şah Təhmasibə səcdə edilməsini şəriət normalarına əks sayır və bununla Şah Təhmasibin də şəriət yolundan çıxmasına işarə edirdi. Übeyd xan bəyan edirdi ki, səcdə yalnız yaradana ola bilər, insana yox. Ona görə Şah Təhmasibə səcdə edilməsini Übeyd xan Səfəvi şahının Allahlıq iddiasına düşməsi kimi dəyərləndirirdi. Şah Təhmasib doğrudan da, ona səcdə edilməsini etiraf edirdi. Lakin bu səcdənin Allah hüzurundakı səcdədən fərqləndiyini bildirirdi. Uyğun fəsillərdə qeyd edildiyi kimi, Şah Təhmasib yazdığı cavab məktubunda ona səcdə edilməsinin mənasını belə izah edirdi: "Amma səcdənin qadağan olduğu barədə xəta mahiyyətli ədanıza cavab budur ki, ibadət niyyəti ilə bəndələrə səcdə etmək haramdır və bu cür səcdə yalnız Uca Allaha edilməlidir. Lakin bəndələrə təzim mənasında səcdə etmək caizdir. Çünki Yusif peyğəmbərin – ona salam olsun – qardaşları ona səcdə etmişdilər. Necə ki, gerçəkləri bilən Mübarək və Ulu Allah öz kəlamında buyurur: "Hamısı onun qarşısında səcdəyə qapandılar" [*"Yusif" surəsi, 100-cü ayə*]. Bu mənadan imtina edib itaət və tabeçilikdən boyun qaçıran şeytan özünə əbədi olaraq tənə və lənət qazandı. Necə ki, Allah-taala buyurur: "Biz mələklərə: "Adəmə səcdə edin! – dedikdə İblisdən başqa [hamısı] səcdə etdi. [Yalnız] o, lovğalanaraq [səcdə etməkdən] imtina etdi və kafirlərdən oldu"[ *"Bəqərə" surəsi, 34-cü ayə*]. Beləliklə, bu səcdəni o səcdə ilə qarışdırmaq lazım deyil" (38).

Bəzi məlumatlara görə şaha təzim edilməsi ənənəsi sonradan qadağan edilmişdi (39). Amma şaha təzim edilməsinin bütünlüklə aradan qalxdığını söyləmək də çətin olardı.

Şah Təhmasibin idarəçilik sisteminin ictimai bazasının əsasını qızılbaş tayfaları təşkil edirdilər. Öz idarəçiliyində Şah Təhmasib ilk növbədə qızılbaş tayfalarının rəhbərlərinə və qızılbaş əmirlərinə dayaqlanırdı. Bu məsələ bir tərəfdən dövlətin etnik mənşəyinin mahiyyətindən irəli gəlirdisə, digər tərəfdən burada bir ənənəçilik də qalmaqda idi. Mütəxəssislər də iddia edirlər ki, Şah Təhmasibin hakimiyyəti illərində Ağqoyunlu dövlətində tayfalara istinad edilməsi ənənəsi qalmaqda idi (40).

Şah Təhmasib dövrünün idarəetmə aparatında tayfaçılıq xüsusi bir yer tuturdu. Yəni səltənətin idarəçilik sistemində müəyyən istiqamətlər tayfalara həvalə olunurdu. Hətta hansı tayfanın nümayəndəsinin ən yüksək vəzifəyə təyin edilməsi idarəçilik sistemində həmin tayfanın üstünlük qazanması anlamında qəbul edilirdi. Bəzi vəzifələrin təyinatında bir çox hallarda tayfa mənsubluğu saxlanılırdı. Müəyyən mənada idarəçilik sistemi qızılbaş tayfaları arasında bölüşdürülmüşdü. Bu isə mərkəzləşdirilmiş vahid idarəçilik aparatının möhkəmlənməsinə əks təsir göstərirdi. Belə bir şəraitdə isə idarəçilik sisteminin fəaliyyətində formalaşmış idarəçilik aparatı təcrübəsindən daha çox şahın nüfuzu xüsusi əhəmiyyət kəsb edirdi. Başqa sözlə, idarəetmənin yüksək eşelonlarında idarəçilik paralelləri hələ qalmaqda idi.

Konkret nümunə kimi, Şah Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş əmirləri arasında baş verən çəkişmələri göstərmək mümkündür. Ən yüksək vəzifə tutan əmirin göstərişi onun mənsub olduğu tayfanın üstünlüyünü təsdiq edən bir göstəriş kimi anlaşılırdı. Məlumdur ki, Şah İsmayıl tərəfindən Şah Təhmasibin lələsi vəzifəsinə Div sultan təyin edilmişdi. O, rumlu tayfasına mənsub idi. Div sultanın bu vəzifədə olması onun mənsub olduğu tayfanın səltənət idarəçiliyində üstünlük qazanması demək idi. Təkəli, ustaclı və zülqədər tayfası bu durumu qəbul etdilər. Amma şamlı tayfası rumlu tayfasının üstün mövqeyə malik olması ilə razılaşmadı. Bu vəziyyət isə tayfalar arasında qarşıdurmaya gətirib çıxardı (41).

Bu mənada mərkəzi idarəetmə aparatı bütün icraçılıq keyfiyyətlərini öz üzərinə götürəcək qədər təcrübəyə və işləkliyə

malik deyildi. Dövlət idarəçiliyində tayfa amilinin üstün mövqeyinin qalması isə məlum olduğu kimi səltənət idarəçiliyinin qızılbaş əmirləri üzərində qurulmasını daha da gücləndirirdi. Mövcud olan məlumatlara görə, Şah Təhmasibin hakimiyyəti illərində hakimiyyətdə qızılbaş tayfa elementi daha da gücləndirildi. Məlumdur ki, Şah İsmayılın hakimiyyətinin sonlarına yaxın səltənət idarəçiliyində şahdan sonra ən yüksək məqam olan vəkil vəzifəsinə qeyri-türk olan Mirzəşah Hüseyni təyin edilmişdi. Bu təyinat elmi-tarixi ədəbiyyatda bəzən qızılbaş əmirlərinin səltənət idarəçiliyində nüfuzunun zəiflədilməsi kimi də şərh edilir. Şah Təhmasibin hakimiyyəti illərində isə idarəçilik sistemində qızılbaş əmir və tayfalarının mövqeyinin daha da gücləndiyi bildirilir (42).

Ümumiyyətlə, Şah Təhmasibin hakimiyyəti illərində Şah İsmayıl dövründə mövcud olmuş idarəçilik sisteminin əsası saxlanmışdı. Bu da Şah İsmayılın həm şah kimi, həm də mürşidi-kamil kimi səltənətdəki nüfuzu ilə şərtlənirdi. Sözsüz ki, həmin sistemin saxlanması konkret tarixi şəraitlə bağlı idi və görünür bu idarəçilik sistemi öz səmərəliliyini qoruyub saxlaya bilmişdi.

Qeyd edildiyi kimi, Şah Təhmasib hüdudsuz səlahiyyətlərə malik idi. Bütün səltənət, bu səltənətin əhalisi, yerüstü-yeraltı sərvətləri, ictimai-siyasi-dini-hərbi həyat onun iradəsi əsasında idarə olunurdu. Onun hökmünün icrası müzakirə obyekti olmalı deyildi. Amma bu hökmlərin çıxarılması işində Şah Təhmasib öz ətrafı ilə də məsləhətləşirdi. Doğrudur, Şah Təhmasib malik olduğu səlahiyyətlərə görə, ona verilən məsləhətləri qəbul etməyə də bilərdi. Bununla belə, mühüm dövlət qərarlarının qəbul edilməsi zamanı Şah Təhmasibin öz ətrafı ilə məsləhətləşməsi haqqında məlumatlar mövcuddur. Avropalı səyyahlar da öz əsərlərində Şah Təhmasibin sarayında məşvərətçi məclisin olmasına işarə etmişlər. Bu məşvərətçi məclisin 12 nəfər yüksək vəzifə tutmuş qızılbaş əmirlərindən ibarət olduğu bildirilir. Avropalı səyyahlar bu məclisin işini belə təsvir etmişdilər: "Kral yerdən çox da hündür olmayan taxtda oturur və əgər oğulları saraydadırlarsa onun arxasında əyləşirlər. Xüsusən, kralın müavini, Sul-

tan Heydər Mirzə onun diqqət dairəsindən kənarda qalmır. Vitse-krallar adlanan dörd müşavir onunla üzbəüz əyləşir. Şah suallar qoyur, onların barəsində danışır. Sultanların fikrini soruşur və onlardan hər biri öz fikrini söyləyərkən ayağa durur, şaha yaxınlaşaraq həmkarlarının onu eşidə bilməsi üçün ucadan danışır. Əgər müzakirə zamanı şah maraqlı bir fikir eşidirsə, bu (onun göstərişi ilə) yüksək müşavirlər tərəfindən qeydə alınır. O, çox vaxt bunu şəxsən qeyd edir. Beləliklə, hər kəs növbə üzrə, kralın xahişi ilə öz fikrini söyləyir. Məsələnin mahiyyətinə kralın şübhəsi qalmırsa, həmin məsələ ilk şurada həll edilir. Əgər onun şübhəsi qalırsa, bütün şuranın fikrini dinləyir. Sonra isə məsələni şəxsən nəzərdən keçirir və həll edir" (43).

Bəzi məlumatlara görə, məşvərət məclisləri tez-tez təşkil olunardı. Bir qayda olaraq bu məclislər axşam saatlarında toplanardı. Müzakirə olunan məsələlərin mahiyyətinə görə bu məclislərin 3-6 saat davam etməsi haqqında da məlumatlar vardır. Məclis üzvlərinin özbaşına danışmaq ixtiyarları yox idi. Yalnız şah istəyərdisə, onda məclis üzvləri öz fikirlərini bəyan etməli idilər. Mənbələrin verdiyi məlumata görə, Şah Təhmasib hakimiyyətinin ilk illərində məclislərin təşkilinə daha çox meylli idi. Çünki onun idarəçilik təcrübəsinin az olması saray əyanlarının və əmirlərinin məsləhətlərinə bir ehtiyac yaradırdı. Lakin o da bildirilir ki, Şah Təhmasib sonradan da məclislərin təşkilinə ara vermədi (44). Bir daha qeyd edilməlidir ki, belə məclislərin toplanmasına baxmayaraq, şahın iradəsi istənilən qərarın qəbul edilməsində əsas idi və dövlət əhəmiyyətli qərarlar yalnız onun iradəsi ilə qəbul oluna bilərdi. Şah Təhmasi idarəçilik sisteminin perpendikulyarının və paralelinin səltənət maraqlarına uyğun gəlməyən istənilən qərarını ləğv etmək səlahiyyətinə də malik idi.

Şah Təhmasib dövrünün məşvərət məclislərinin fəaliyyəti və protokolu haqqında ətraflı məlumat yoxdur. Amma yuxarıda verilmiş müxtəsər məlumatdan belə məlum olur ki, bu məclislərin müəyyən formalaşmış protokolu və məclis üzvlərinin müəyyən edilmiş yerləri var idi. Avropalı səyyah "kral-müavini" dedikdə vəliəhdi nəzərdə tutduğunu görmək mümkündür. Sonra dörd

nəfər vitse-kralın adı çəkilir. Çox güman ki, onlar şahın vəzirləri olmuşlar. Onlar şahın qarşısında əyləşirdilər. Digər əyan və əmirlərin də çox güman ki, tutduqları məqama görə məclisdə müəyyənləşmiş yerləri mövcud idi.

Səltənət idarəçiliyinə aid olan mühüm məsələlərin həlli zamanı ətrafındakı əmir və əyanlarla məsləhətləşdiyini Şah Təhmasib özü də etiraf edirdi. Bununla bağlı, onun təzkirəsində də müəyyən məlumatlar qalmışdır. Məsələn, özbək qoşunlarının Xorasan vilayəti üzərinə ilk hücumundan sonra hansı qərarın qəbul edilməsi ilə bağlı şah əmirləri yanına topladı və onlarla məsləhətləşdi: "Əmirləri yığıb bu barədə məsləhətləşdik" (45).

Təzkirəsinin başqa bir yerində Şah Təhmasib Osmanlı qoşunlarının hücum xəbərini eşidəndən sonra apardığı məşvərətlə bağlı belə qeydlər etmişdi: "Əmirlərin yanına adam göndərdim ki, mən Sultaniyyəyə gəlirəm, siz də orada olun. Əmir bəy, Çıraq sultan və Zülqədəroğlunu göndərdim ki, Hüseyn xan, Müntəşa sultan və Şiraz hakimi Qazı xan Zülqədər hər biri 10 nəfər təcrübəli işbilənlə müşavirəyə gəlsinlər, görək nə etməliyik" (46).

Bu məlumatdan belə görünür ki, mühüm məsələlərin müzakirəsi zamanı Şah Təhmasib yanına daha çox adamı toplaya bilirdi. Mövcud olan faktlara görə, bir neçə etibarlı adamlar var idi ki, onları sarayda xüsusi bir vəzifə tutmasalar da şah məclislərində, məşvərət toplantılarında iştirak edirdilər. Belələri şah məclislərində söz demək səlahiyyətlərinə, eşitdiklərini ərz etmək icazəsinə malik idilər. "Tarix-i aləmara-yi Abbasi" əsərində bununla bağlı maraqlı qeydlər vardır: " Ulu dərgahda tacikiyyə təbəqəsinin böyüklərindən və əyanlarından ibarət digər bir qrup da vardı ki, onlardan bəzilərinə [hökmdarın] hüzurunda olmaq ixtiyarı verilmişdi. Bu şəxslər konkret olaraq hər hansı bir vəzifə tutmasalar da, behişt bəzəkli məclisdə iştirak etmək və oraya daxil olmaq hüququna malik idilər. Bunların arasında darülmöminin Qumun Musəvi seyidlərindən olan Mir Haşım Qumi xüsusi yer tuturdu. O, şirin sözlü, zarafatcıl bir kişi olub, əmlak, mülkiyyət, sərvət, var-dövlət sahibi idi və əşrəfin hüzurunda söz demək, mətləb ərz etmək, ehtiyac sahiblərinin diləklərini çatdır-

maq baxımından digərlərindən üstün idi. Bəzən burnuna ali divanın vəziri təyin olunacağının xoş qoxusu dəysə də həmin rütbəyə nail ola bilmədi. Cənnətməkan şah həmişə onunla zarafat edir və məzələnir, ona qarşı zarafatyana hüsn-rəğbət göstərir və əksər vaxtlarda onunla münasibətdə izzət və hörmətlə davrandığı əsnada onu gözlənilmədən cəzaya və müsadirəyə giriftar edirdi. O, cənnətməkan şahın vəfatınadək əziz və möhtərəm bir şəxs olaraq qaldı. Amma qaba istək və tələblərdən də xali deyildi. Bu təbəqənin əhali və əyanlarından digər birisi Xoca Əbdürrəşidin oğlu Xoca Əbdülqadir Kirmani idi. O, öz vilayətinin əsilzadələrindən, böyüklərindən və əyanlarından olub, əmlakının və sərvətinin, gəlirinin və mənfəətinin çoxluğuna görə seçkin və üstün bir şəxs idi. Hökmdarın fərmanına uyğun olaraq, darülaman Kirmandan ali taxtın ətəklərinə gələrək, behişt bəzəkli məclisin iştirakçıları zümrəsinə daxil oldu. Bəzən ona ali divan vəzirliyi vəd olunsa da, o da Mir Haşım kimi izzət və etibara malik olmasına baxmayaraq, vəzifə sahiblərinin ona qarşı olan sərt münasibətindən asudəlik tapmadı. Axırda öz razılığı və istəyi ilə on iki min tümən peşkəş alaraq Kirmana qayıtmaq və o vilayətdə əkinçilik və quruculuq işləri ilə məşğul olmaq icazəsi istəsə də, onun bu arzusu qəbul edilmədi. O, cənnətməkan şahın vəfatınadək ulu orduda qaldı və İsgəndər şanlı nəvvab zamanında getmək rüxsəti alıb, doğma vətəninə yollandı. Amma həmin vilayətdə özbaşınalıq bayraqlarını qaldıran və öz xeyri üçün vergilər yığan Bəktaş xan Əfşarın xoşagəlməz davranışları ucbatından orada qalmağa macal tapmayıb, imamların məqbərələri tərəfə yola düşdü və bir müddət darüssəlam Bağdadda və onun hüdudlarında yaşayıb, xiffət və etibarsızlıqla üzləşəcəyinin qorxusu səbəbindən vətənə [qayıtmaq] arzusuna düşmədi. Elə həmin vilayətdə də onun həyatının əyyamı sona çatdı. Bunlardan savayı, hörmətli adamlardan, ərbablardan və əhalidən bir çoxları da vardı ki, onlar da ulu dərgahda və behişt nişanəli məclisdəki söhbətlərdə iştirak etmək hüququna malik olub, xidmətə məmur edilmişdilər” (47).

Şah Təhmasibin hakimiyyəti illərində Şah İsmayılın hakimiyyəti illərində olduğu kimi kifayət qədər yığcam mərkəzi idarə-

çilik aparatı mövcud idi. Tədqiqatçılar bunu istər Şah İsmayılın, istərsə də Şah Təhmasibin çox vaxt hərbi yürüşlərdə olması ilə əlaqələndirirlər. Bildirilir ki, bu adları çəkilən şahlar hərbi yürüşlər zamanı idarəçilik aparatını da özləri ilə aparırdılar və buna görə daha yığcam idarəetmə aparatının mövcudluğu idarəçilik çevikliyini daha yaxşı təmin edirdi (48).

Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib dövründə idarəçilik sisteminin perpendikulyarı və paraleli formalaşdırılmışdı. Bu sistemdə hər bir vəzifənin öz səlahiyyətləri və hüquqları müəyyənləşdirilmişdi. Amma şah ailəsi üzvlərini və səltənət vəliəhdlərini idarəetmə sisteminin ayrıca bir bəndi kimi də xarakterizə etmək mümkündür. Həmin bəndə Şah Təhmasibin qardaşları və övladları daxil idi. Mövcud olan idarəçilik ənənəsi baxımından sözsüz ki, Şah Təhmasibin böyük oğlu taxt-tac varisi kimi formal üstünlüklərə malik idi. Lakin istər şahın qardaşları, istərsə də onun digər övladları da bu və ya digər dərəcədə taxt-tac haqqlarını saxlayırdılar. Formalaşmış tarixi şərait üzündən onların hər birinin taxt-taca sahib olması qanuni hal ala bilərdi. Şah Təhmasibin qardaşları və övladlarının vilayət hakimi vəzifəsinə təyin edilmələri haqqında mənbələrdə geniş məlumatlar vardır. Hərbi yürüşlər zamanı isə şah qardaşları və övladları qoşun dəstələrinin rəhbərləri təyin edilə bilərdilər. Bu zaman onların rəhbərliyi altına bir sıra vilayətlərin qoşun dəstələri və vilayət hakimləri verilə bilərdilər. Yəni lazım gələndə şah qardaşlarına və övladlarına daha böyük səlahiyyətlər verilirdi. Məsələn, Bəhram Mirzənin vilayət hakimi təyin edilməsindən başqa, bəzi vaxtlarda çoxsaylı qoşun dəstələrinə və həmin qoşun dəstələrinə daxil olan vilayət hakimlərinə rəhbərlik etməsi haqqında yuxarıdakı uyğun fəsillərdə konkret məlumatlar verilmişdir. Şah övladlarına, yəni şahzadələrə gəlincə isə "Tarix-i aləmara-yi Abbasi" əsərində bu məqamla bağlı belə bir fakt vardır: "[Səfəvi xanədanının] xoşbəxt şahzadələrin arasında Sultan Məhəmməd mirzədən və İsmayıl mirzədən kiçik, digər şahzadələrdənsə böyük olan Sultan Murad mirzə qızılbaş tayfalarının [döyüşçülərindən ibarət] on iki min nəfərlə birlikdə, mötəbər əmirlərdən sayılan və [Sultan Murad]

mirzənin lələsi və atalığı olan Budaq xan Qacarın sərkərdəliyi ilə və Kirman hakimi Şahqulu sultan Əfşar, Sistan hakimi Əhməd sultan Şamlu, onun qardaşı Hüseynqulu sultan, Çayan sultanın nəvəsi Ayğut mirzə, Div sultan Rumlunun oğlu Ədhəm sultan, Əli sultan Təkəlü, Məhəmmədi mirzə Mosullu, Yadigar Məhəmməd sultan Mosullu, Sani xəlifə Rumlu, Fərah hakimi Səncab sultan Əfşar, Məhəmməd sultan Adaşoğlu Ustaclu və s. əmirlər və əsgərlərin, həmçinin Keçəl Şahverdi Ustaclunun başçılığı altında şahın xüsusi qorçularından və dərgah mülazimlərindən üç yüz nəfərin iştirakı ilə o həzrətə (Hümayun padşaha) kömək etməyə təyin olundu. Onlara tapşırıldı ki, o həzrətin xidmətində olsunlar, onun hökm və fərmanını öz mürşidlərinin və vəlinemətlərinin ikinci hökmü və fərmanı hesab etsinlər, onun əmrindən boyun qaçırmasınlar, onlara nə buyursa əməl etsinlər və o həzrətdən rüxsət almasalar geri qayıtmasınlar" (49).

Göründüyü kimi, şahın üçüncü oğluna konkret şəraitdə şahın özünün ixtiyar və səlahiyyətlərinə bərabər olan səlahiyyətlər verilmişdi. Başqa sözlə, şahın qardaşlarının və övladlarının səltənət idarəçiliyindəki məqamı bütün digər vəzifəli məqamlardan yuxarı idi. Onların fikir və mülahizələri digər vəzifəli məqamların fikir və mülahizələrindən daha üstün yerə və təsirə malik idi. Şahın ailə üzvləri kimi onlar dövlət idarəçiliyi məsələlərində də şaha təsir etmək üçün də müəyyən imkanlara malik idilər. Sözsüz ki, bu zaman şah qardaşlarının və övladlarının şaha sədaqətli olması lazımi önəm daşıyırdı. Məsələn, Şah Təhmasibin qardaşları olan Sam Mirzə ilə Əlqas Mirzə mərkəzi hakimiyyətə qarşı asilik edəndən sonra onların şaha və səltənət idarəçiliyinə təsir imkanları də aradan qalxdı.

Şah qardaşlarına və övladlarına bir qayda olaraq ən böyük və ən əhəmiyyətli vilayətlərin hakimliyi həvalə olunurdu. Məsələn, Xorasan vilayəti bir qayda olaraq şah qardaşlarına və övladlarına həvalə olunurdu. Çünki bu vilayət səltənət üçün strateji əhəmiyyətli bir istiqamətdə yerləşirdi və bu vilayətin etibarlı adamların nəzarəti altında olması xüsusi əhəmiyyət kəsb edirdi. Şah Təhmasibin qardaşı Sam Mirzənin, sonradan isə onun oğlu İsmayıl

Mirzənin Şirvanda hakim olmaları da bu vilayətə verilən dəyərdən irəli gəlirdi. Böyük vilayətlərin hakimliyinə təyin olunmaları şah qardaşlarının və övladlarının həm də idarəçilik təcrübələrinin artırılması baxımından əhəmiyyət kəsb edirdi.

Mövcud olan məlumatlara görə, Şah Təhmasibin hakimiyyəti illərində onun qardaşları və övladları aşağıdakı vilayətlərdə hakim vəzifəsində olmuşdular (50):

1. Şirvan vilayəti. Əlqas Mirzə (Şah Təhmasibin qardaşı – 1534-1547-ci illərdə). Bu vəzifədə onun lələsi olmamışdı. İsmayıl Mirzə (Şah Təhmasibin oğlu -1547-1549). Bu vəzifədə onun lələsi Göyçə sultan olmuşdu. 1567-ci ildən etibarən Şultan Mahmud Mirzə (Şah Təhmasibin oğlu). Onun lələsi eşikağasıbaşı Fərruxza bəy Qaradağlı olmuşdu

2. Qarabağ. Sultan Əli Mirzə (Şah Təhmasibin oğlu – 1570-ci ildən etibarən). Lələsi – İbrahim sultan Ziyadoğlu.

3. Ərdəbil. Sam Mirzə (Şah Təhmasibin qardaşı – 1549-1562). Onun lələsi olmamışdı.

4.Həmədan. Bəhram Mirzə (Şah Təhmasibin qardaşı – 1546-1549). Bu vəzifədə onun lələsi Çıraq sultan Ustaclı olmuşdu. İsmayıl Mirzə (Şah Təhmasibin oğlu – 1555-1556). Ləsi məlum deyil.

5. Fars. Süleyman Mirzə (Şah Təhmasibin oğlu – 1554-1557). Lələsi - İbrahim xan Zülqədər. Sultan Məhəmməd Mirzə ( Şah Təhmasibin oğlu – 1571-1577). Lələsi - Vəli sultan Gülhançı.

6. Qəndəhar. Sultan Murad Mirzə ( Şah Təhmasibin oğlu -1545). Lələsi – Budaq xan Qacar. Sultan Hüseyn Mirzə (Şah Təhmasibin qardşı oğlu -1557-1574). Lələsi – Həmzə bəy Zülqədər.

7. Sistan. Sutan Hüseyn Mirzə (Şah Təhmasibin qardaşı oğlu – 1555-1557). Lələsi- Allahqulu sultan. Bədiüzzəman Mirzə (Şah Təhmasibin qardaşı oğlu – 1558-1577). Lələsi – İmamqulu bəy Bədirxan. Sonralar Sultan Hüseyn xan Mirzənin lələsi vəzifəsinə digər tanınmış qızılbaş əmirləri də təyin edilmişdilər.

8. Herat (Xorasan). Sam Mirzə (Şah Təhmasibin qardaşı – 1521-1529). Lələsi – Durmuş xan Şamlı, sonra isə Hüseyn xan

Şamlı. Əliqulu Mirzə (Şah Təhmasibin oğlu – 1529-1530). O, 1530-cu ildə dünyasını dəyişmişdi. Lələsinin kim olduğu məum deyil. Bəhram Mirzə (Şah Təhmasibin qardaşı - 1530-1533). Lələsi – Qazı xan Təkəli, sonralar isə Ağzıvar xan Şamlı. Sam Mirzə ( 1533-1535). Lələsi – Ağzıvar xan Şamlı. Sultan Məhəmməd Mirzə (Şah Təhmasibin oğlu – 1537-1556). Lələsi – Şəhəmməd xan Şərəfəddinoğlu Təkəli. İsmayıl Mirzə (Şah Təhmasibin oğlu – 1556). Lələsi – Məhəmməd xan Şərəfəddinoğlu Təkəli. Sultan Mahmud Mirzə (Şah Təhmasibin oğlu – 1556-1571). Lələsi – Məhəmməd xan Şərəfəddinoğlu Təkəli). Abbas Mirzə (Sultan Məhəmməd Mirzənin oğlu – Şah Təhmasibin nəvəsi – 1571-1580). Lələsi – Şahqulu sultan Yeqan.

9. Məşhəd. İbrahim Mirzə (Şah Təhmasibin qardaşı oğlu – 1555-1567). Onun vəziri vəzifəsini isə Mir Münşi Hüseyni, sonralar isə Mirzəbəy Sabiği icra etmişdi.

10. Səbzəvar. İbrahim Mirzə (Şah Təhmasibin qardaşı oğlu – 1567-1574). Lələsi məlum deyil.

11. Astrabad. Elqas Mirzə ( Şah Təhmasibin qardaşı – 1533-cü ildən etibarən). Lələsi – Bədir xan Ustaclı. 1539-cu ildən bu vilayətin hakimi vəzifəsində Şah Təhmasibin oğlu İsmayıl Mirzə olmuşdu.

12. Mazandaran. 1569-1577-ci illərdə bu vilayətin hakimi Şah Təhmasibin nəvəsi (Sultan Məhəmməd Mirzənin oğlu) Sultan Hüseyn Mirzə olmuşdu.

13. Lahican. Sultan Hüseyn Mirzə - Şah Təhmasibin nəvəsi (1536-cı ildən etibarən). 1567-1571-ci illərdə Lahican hakimi vəzifəsində Şah Təhmasibin oğlu Sultan Mahmud Mirzə, 1571-1576-cı illərdə isə həmin vəzifədə Şah Təhmasibin digər oğlu İmamqulu Mirzə olmuşdu.

### b) Avropalı səyyahlar Şah Təhmasibin divanxanası və saray daxili həyat haqqında

Venesiyadan Səfəvi sarayına göndərilmiş elçi Mikele Membrenin xatirələrində Şah Təhmasibin həm səyyar divanxanası,

həm də daimi divanxanası və bu divanxanalarda xidmətin necə qurulması haqqında maraqlı məlumatlar vardır. Bundan başqa, həmin xatirələrdə saray daxilində həyatın necə qurulması, şahın və saray əyanlarının adətləri, gündəlik yaşayışlarının necə cərəyan etməsi haqqında da bir sıra diqqət cəlb edən qeydlərlə də rastlaşmaq mümkündür. Bu qeydlər kənar adamın müşahidələri kimi bəzən ötəri xarakter daşısa da, amma Şah Təhmasib hakimiyyəti dövründə saray idarəçiliyi və həyatı haqqında təsəvvürləri genişləndirmək baxımından müəyyən əhəmiyyət kəsb etməkdədir.

Mikele Membre 1539-cu ilin yayında Şah Təhmasib sarayına gəlmişdi. Məqsəd də Venesiya sarayının məktubunu Şah Təhmasibə çatdırmaq idi. Bir sıra Avropa dövlətləri kimi, Venesiya da o zaman Osmanlı dövlətinə qarşı müharibədə Şah Təhmasibin dəstəyinə arxalanmağa çalışırdı. Mikele Membrenin Şah Təhmasibə gətirdiyi məktubda da bununla bağlı təkliflər var idi (bu barədə aşağıda danışılacaqdır). Venesiya sarayının elçisi Şah Təhmasibin Mərənd ətrafındakı səhra düşərgəsində 1539-cu ilin avqustunda olmuşdu. Onun şah düşərgəsi haqqındakı ilk qeydləri belə idi: “Şah Təhmasibi müşayiət edən çadırların sayı çox idi. Mənim gecəyarı saydığıma görə, onların sayı 5000 idi. Nökərləri çıxmaq şərtilə, məncə, onun atlıları 14 min idi. Onun o qədər atı və qatırı var idi ki, onları saymaq qeyri-mümkün idi. Bütün düzənlik atla dolu idi” (51).

Sonra Mikele Membre şah düşərgəsinin təsvirini verirdi. Bu düşərgədə şah yalnız istirahət etmirdi, həm də dövlət işlərini aparırdı. Bunun üçün düşərgədə xüsusi divanxana çadırı da quraşdırılmışdı: “Burada divarla dövrələnmiş həyət kimi, barmaq yoğunluğunda kəndirlə əhatə olunmuş, iki girişi olan dairə yaradılmışdır. Kəndir hər üç addımdan bir ağac dirəyə bərkidilmişdir. Bu dirəklərin başında kəndirin keçdiyi dəmir halqa var. Dirəyin aşağısında isə yerə bərkidilmiş dəmir ucluq var. Bu dirəklər yarım rod (5 metrə bərabər ölçü vahidi) uzunluğunda idi. Beləliklə, onun sarayı bu cür quruluşda idi. Bu kəndirin içərisində onun çadırları yerləşirdi. Bu kəndirdəki girişdən keçərkən ön hissədə və onunla üzbəüz onun divanxana adlanan rəsmi qəbul

yeri yerləşirdi. Bu yer 3 çadırdan ibarətdir. Biri digərinin arxasında yerləşən çadırlardan ikincisi çox böyükdür. Onun içərisində tağ tavan formasında zərli ağac parçalardan düzəldilmiş və üzəri al-qırmızı parça ilə örtülmüş, "otaq" adlanan yer var. Parçanın üzərində ipəklə tikilmiş yarpaqvari naxışlar var. Yerdə yun haşiyəli qırmızı keçə sərilmişdi və bu keçənin üstünə çoxlu heyvan və ağac yarpaqlarının təsviri olan zərif ipək xalçalar salınmışdı. Üçüncü çadırdan sonra onun uzun otaq formasında olan, müxtəlif çubuqlu parçalardan ibarət şəxsi otağı yerləşirdi. Beləliklə, onun sarayı bu cürdür" (52).

Şah Əmir və əyanlarından danışarkən Mikele Membre bir sıra vəzifə və mənsəblərin də adlarını çəkmişdir ki, bu da həmin mənsəb sahiblərinin vəzifələri haqqında əlavə məlumat almağa imkan verir: "Qəbul üçün nəzərdə tutulmuş birinci çadırda o, vassalları ilə birlikdə əyləşir. Birinci çadırın dörd tərəfində bir cərgədə sultanların ən şöhrətli olanları otururdular. Bu sultanların arxasında da azcıq məsafədə digər daha aşağı mənsəbli sultanlar, bu sultanlardan da arxada cərgə-cərgə süvarilər olan qorçilər əyləşirlər. Bu qayda ilə divanxana yerdə əyləşən adamlarla tam əhatə olunurdu. Bunlardan ən şöhrətlisi günün şüalarından qorunmaq üçün "sayeban" adlanan böyük çətir tuturdular. Digərləri isə şah öz otaqlarına gedənədək bütün günü yerdə əyləşrdilər. Onun əhatəsində çadırın bayırında, əllərində barmaq yoğunluğunda, 2 dirsək və daha uzun, gümüşü ucluğu və azacıq zərli və ya rənglənmiş dəstəyi olan çubuq tutan və yasavul adlanan qapıçılar dayanırdı.

Bunların arasında şaha daha yaxın dayanan mənim tanıdığım 6-7 yasovul var ki, onlr girişin ağzında dayanır və şah kimləsə söhbət etmək istədikdə, onlar həmin adamı çağırmağa gedirlər. Buna görə də, bu 6-7 nəfər "müsahib" adlanırlar, yəni şahın dostu və sevimlisi" (53).

Mikele Membre sonra həmin yasovullardan (müsahiblərdən) birinin adını çəkir və onun haqqında bir qədər ətraflı məlumat verirdi. Həmin yasovul Qara Xəlifə Şamlı idi. Görünür, Şah Təhmasibin ona xüsusi etibar var idi. Bunu elçi də öz xatirə-

lərində qeyd edirdi. Onun sözlərinə görə, Qara Xəlifənin daha iki qardaşı şahın qardaşı Bəhram Mirzənin qulluğunda idilər və onlar da Bəhram Mirzənin etibarını qazana bilmişdilər. Qara Xəlifənin 19 yaşlı oğlu da şahın yanında xidmətdə idi. Şah düşərgəsinin təsvirini edərkən Mikele Membre daha sonra yazırdı: "Dediyim kimi, yasovullar divanxada dayanırlar. Bu çadırlardan 30-35 addım arxada onun yatdığı otaqlar yerləşir. Hamamdan başqa bu otaqların hamısı günbəzli olaraq bir-birinə oxşardır. Bu günbəzin üstünü bəzən ağ, bəzən də qırmızımtıl keçəylə örtürlər. Girişin ağzında təxminən 5 nəfər yaşlı kişilərdən ibarət qapıçılar dayanırlar. Qərbə doğru içərisində rəssamlar olan və yuxarıda təsvir etdiyim kimi, al-qırmızı örtüklü digər günbəz yerləşir. Şahın sarayının çölündəki mətbəxdən başqa çadırlar təchiz edilir. Onlardan sonra ən sevimli əyanların: qardaşları Bəhram-mirzə və Sam mirzənin, Üskü seyidlərinin və digərlərinin çadırları yerləşir. Göz işlədikcə uzanan bu çadırlar küçələrlə nizami şəkildə düzülmüşdür.

Şah sarayda əyləşən kimi hamı əyləşir, o, duran kimi hamı ayağa qalxır. Səhərlər öz otağından divanxanaya gedərkən onun müşayiətində əllərində polad təbil tutaraq və Allahı mədh edərək "Səd hezar lənət bər Ömər, Osman, Əbu Bəkr" deyən iki adam olur və onlar şah taxtında əyləşənədək onun ardınca gedir və ucadan qışqırırlar. Sonra sakitlik çökür. O öz otağına qayıtmaq istədikdə onlar eyni qayda ilə o, otağa daxil olanadək bərkdən qışqırırlar. Onun qardaşı da saraya getmək istədikdə, təbərrəyi adlanan bu adamlardan biri o, əyləşənədək eyni qayda ilə qışqırır. Burada, həmçinin Üskü seyidləri, onun vəziri və xəlifəsi Qazi Cahan, şahın fərmanlarını möhürləyən Şahqulu Xəlifə Möhrdar da vardır. Gözündə bir qədər qüsuru olan bu möhrdar qısa saqqallı və xeyli kök adamdır. Onun oğlu şahın pərvanəçisidir. Onun evi Təbrizin şərqində, çayın sağ sahilindəki hamamla üzbəüz yerləşir. Ağsaqqal qorçubaşı da təbərrəyinin qışqırığı ilə müşayiət olunaraq gedir. Onun Təbrizdəki evi qərbə tərəf, hamamın yanındadır. Və onun həyətində, həqiqətən də gözəl bağ var. Bu böyük zadəganların da osmanlılara lənət yağdıran bir və ya iki təbərrəyiləri var" (54).

Şah Təhmasibin səyyar divanxanasının daxili görünüşü və xarici qonaqları qəbul edərkən şahın ətrafında kimlərin dayanması haqqında da Mikele Membrenin xatirələrində bəzi qeydlər vardır: "O vaxt o [şah], içərisinin hamısı ağac yarpaqları formasında kəsilərək bəzədilmiş və döşəməsi çox qiymətli xalçalarla döşənmiş, gözəl çadırları olan divanxanada idi. Şah Xorasanın çox qiymətli keçəsi olan təkya-nəməd üzərində oturmuşdu, onun yanında qını şir dərisi şəklində bəzədilmiş qılınc, kaman və 4-5 ox var idi. Onun bir tərəfindən vassalları, digər tərəfindən, əgər yanılmıramsa, onun qardaşı Bəhram Mirzə, Üskü seyidləri, Qazı Cahan, Gökcə Sultan, Şahqulu Xəlifə və Qorçubaşı əyləşmişdilər" (55). Mikele Membrenin yazdığına görə, bu adamlardan başqa şah divanxanasında bir neçə yasovul da var idi. Divanxananın fəaliyyətinin təşkilində yasovullar da özlərinə məxsus vəzifələrin icrasını həyata keçirirdilər.

1539-cu ilin dekabr ayında Mikele Membre Təbrizə gəldi və buranın həyatı ilə tanış oldu. Xatirələrində o, həm şah divanxanası, həm saray məişəti, həm də şəhər həyatı haqqında maraqlı qeydlər etmişdi. Şah sarayını, bu saray ətrafındakı tikililəri və bağları təsvir edərkən Venesiya sarayının elçisi yazırdı: "Dekabr ayında Təbriz şəhərinə daxil olduq. Şah divanxanaya getmədən iki gün evində qaldı. Onlar Şah Təhmasibin evini yenidən tikmişdilər. Bu ev çox gözəldir, bir tərəfi daş, digər tərəfi isə qalın torpaq divarlarla əhatə olunmuş bağın içərisindədir. Onun şərqə, digəri isə cənub-şərqə tərəf olan iki darvazası var. Şərqə tərəf olan hissədə meydan adlanan çox təmiz, düz və geniş bir sahə yerləşir. Meydanın ortasında taxtdan düzəldilmiş, başında zərli alma olan dirək var. Şimala doğru bir-birinin yanında iki gözəl məscid ucalır. Meydanın şərq tərəfində şah digər daha gözəl məscid tikdirir. Küçənin bu kənarında onların "çay" adlandırdıqları su axır. Digər tərəfdə, cənub-şərqə doğru içərisində bağ yerləşən hasar var. Beləliklə, digər tərəfdə, deyilən meydanın şərq tərəfindən şah sarayının qarşısına getdikdə, onun qardaşı Bəhram-mirzənin evi yerləşir. Cənub-şərqdə olan digər tərəfdə isə, darvazadan 19 addım aralı, küçəni cənub-şərqə aparan körpü

var. Bu küçənin başında dördü də bir yerdə yaşayan Üskü seyidlərinin evi yerləşir. Onlar gəncdir. Ən böyüyünün 37-38 yaşı var.

Şah sarayının içərisindəki bağların yolları taxta çəpərlərlə bir-birindən ayrılmışdır. Qapıçılar əllərində dəyənək qapının qarşısında dayanırlar. Körpüyə yaxın, cənub-şərqə tərəf olan birinci qapıdan keçərkən sağ tərəfdə qorçubaşının keşikxanası yerləşir. Sol tərəfdə zərgərlərin olduğu xəzinəyə gedən digər qapı var. Beləliklə, qorçubaşının keşikxanasından sonra, siz, dediyim kimi, hər iki tərəfdə cığırlarla ayrılan bağları görürsünüz. Sonra şahın yatdığı otaqlara tərəf, solda qardaşı Bəhram-mirzənin keşikxanası yerləşir, sağda isə Bəhramın keşikxanasının qarşısında sinəsində ləl-cəvahiratla bəzədilmiş qızıl zəncirdə möhür gəzdirən Şahqulu Xəlifənin keşikxanası yerləşir. Azacıq şərqə tərəf dönərkən, düz qarşıda böyük qapı var. Onu keçdikdən sonra sağ tərəfdə onun vəziri Qazi Cahanın keşikxanası, onun arxasında isə daş işləmə ilə tikilmiş, mavi divarı və girişi olan uca qüllə yerləşir. Bu qüllədə üzəri dəri ilə örtülmüş, ikisi bir dəvəyə yüklənən hərbi ehtiyatla dolu sandıqlar var. Bu sandıqların içərisində, mənim gördüyümə görə, oxlar, yaylar, qılıncla, zirehli geyimlər var. Sonra mənim dediyim kimi, Qazi Cahanın keşikxanasını keçib gedərkən qarşıda digər bir qapıya rast gəlinir ki, onu keçməklə şahın divanxanasına daxil olursan. Deyilən kiçik qapıdan keçərkən, burada süvarilər olan bütün qorçuların qılıncları ilə yerdə oturduqları bir neçə otaq var. Bunu da keçdikdən sonra qərb tərəfdə, solda bir-birinin ardınca yerləşən, xalçaları və dəhlizləri olan, dörd salondan ibarət böyük və gözəl saray var. Qapıların əhəmiyyətinə görə, hər birinin önündə qapıçılar dayanır. Bu salonlarda onlar cərgə ilə, bir-birinin yanında, divarlar boyu otururlar. Şahın olduğu otaq çox kiçik və gözəldir, başqa qübbəli otaqlar kimi mavi rəngdədir və yarpaqvari ornamentlərlə bəzədilib. Pəncərələrdə üzərində pəncərə şüşəsindən düzəldilmiş fiqurlara bənzəyən tanış təsvirlər var. İkinci otaq böyükdür. Otaq boyu yüksək mənsəbli sultanlar əyləşirlər. Üçüncü otaqda digər aşağı mənsəbli sultanlar əyləşir. Dördüncü otaqda şahın qulluğunda duran və sultan olmağı gözləyən qorçular yerləşir. Şahın

yatdığı dörd otaq bağda şərqə doğru yerləşir. Bu otaqların yanında onun hamamı var. Şərqə doğru meydana açılan qapıdan keçdikdə, hər iki tərəfə alçaq divarlar uzanır. Sonra şimala tərəf döndükdə, sağda sarayın tinindən burulub bir qədər getdikdə şimal-şərqdə at tövlələri yerləşir. Tövlələrdən aşağıda, düz şərqə tərəf onun mətbəxi yerləşir. Mətbəxdən qərbə tərəf birbaşa saraya doğru gedən kəsə yol var və bağın içərisində, sarayın digər tininə yaxın, şimala və ya şimal-şərqə tərəf nizələrin düzəldildiyi və boyandığı otaq yerləşir. Bundan azacıq aşağıda əyanların ibadət etdikləri kiçik məscid var. Beləliklə, dediyim kimi, hərbi sursat saxlanılan qübbənin yaxınlığında hər bir tərəfi 38 il (0,5 metrə bərabər uzunluq vahidi) olan, balıq saxlamaq üçün torpaqda daşlardan düzəldilmiş, gölməçəyə oxşar, dördkünc hovuz var. Onun içərisi şirin su ilə doludur və suda hər birinin başında qübbə olan dörd mərmər sütun var. Onun ətrafı rənglənmiş taxta ilə hasara alınmışdır. Şah oraya gedir və balıq tutaraq əylənir. Burada çoxlu balıq və arxa tərəfində taxta şəbəkədən arakəsməsi və avarları olan kiçik qayıq var” (56).

Mikele Membrenin təsvirindən görünür ki, sarayın yüksək vəzifəli əyanlarının evləri də şahın iqamətgahına yaxın idi. Venesiyalı elçi tez-tez bu əyanların evlərinə gedirdi və müşahidə etdikləri bəzi məqamları da qələmə alırdı. O, Səfəvi xanımlarını xoş sözlərlə anırdı. Mikele Membrenin yazdığına görə saray əyanlarının xanımları çox gözəl idi, onlar gözəl geyinirdilər və evin idarə edilməsində yaxından iştirak edirdilər. Məsələn, o, az qala təəccüblə yazırdı ki, əyanların pulunu onların xanımları saxlayırlar və əyanlara pul lazım olanda xanımlardan alırlar. Mikele Membre onu da yazırdı ki, qızılbaşlar öz xanımlarını çox sevirlər və bu xanımlar at çapmağı da bacarırdılar. Bildirilir ki, Səfəvi xanımları başlarına ağ örpək örtürlər və bu örpəkdən onların ancaq gözü görünür.

Saray məişəti ilə bağlı qeydlərini davam etdirən Mikele Memre daha sonra evlərin necə qızdırılmasını təsvir edirdi: “Bütün dekabr və yanvar ayları hava olduqca soyuq idi və qar yağırdı. Soyuq olduğuna görə onlar səhəngə oxşar, lakin dibi ge-

niş, ağzı dar olan və təndir deyilən ocaq qururlar. Onlar təndiri torpaqda yerləşdirir, yer səviyyəsinə qədər gəlib çıxan ağzını açıq saxlayırlar. Havanın içəri girib, alovlanması üçün torpağın altında təndirin dibindəki dəliyə birləşdirilən lağım düzəldirlər. Bu səhəngə onlar odun və ya kömür qoyub yandırırlar. Sonra təndirin yanında əyləşir, bəziləri əllərini, bəziləri isə ayaqlarını ona yaxın tuturlar. Hər bir evdə otağın birində bundan var, əks halda onlar 3-4 ay davam edən soyuqlara tab gətirə bilməzlər. Onlar çox vaxt yastı çörək yapıb, bu təndirin içində bişirirlər" (57).

M.Membrenin xatirələrində fevral ayında Təbrizdə təşkil olunmuş 3 günlük bayram haqqında da qeydlər vardır. Amma bu bayramın hansı bayram olduğu göstərilməmişdir. Keçirilməsinə xüsusi diqqət ayrıldığı üçün bu bayramın dini bayramlardan birinin olması qənaətinə gəlmək olar: "Şah fevral ayının ilk günündə bayram təşkil edir və bu, üç gün davam edir. Bunun üçün onlar şah sarayının yerləşdiyi meydanda giriş qapıları şərqə baxan çadırları sıra ilə qururlar. Bunun üçün sütunları zərli və sıx naxışlarla bəzədilmiş çox gözəl çadırlar var. Çadırlar xaricdən ağır, lakin içəri hissəsinə çoxlu əmək sərf olunub və onlar zərif xalçalarla döşənmişlər. Şah at belinə qalxır, bu meydanda dördnala çaparaq, əlindəki taxta dəyənəklə taxta topa vurur. O meydanda iki dirəyi hədəf kimi basdırırlar. Qardaşı tərəfdə 4 nəfər və özü tərəfdə də 4 nəfər müşayiəti ilə oynayırlar. Beləliklə, hər birinin hədəf kimi öz dirəyi olur. Şah öz topunu onun dirəyindən, qardaşı isə, həmçinin topun onun dirəyindən keçməsini hədəfə alır. Onlar at çaparaq yumurtadan bir qədər böyük olan kiçik taxta topu vururlar. Onlar bu qayda ilə çaparaq iki saat oynayırlar və saysız-hesabsız döyüşçülər və yerli əhali divarların yanında və küçədə dayanırlar. Şahı görərkən başlarını əyərək, "şah", "şah" deyirlər" (58).

Şahın saray həyatı ilə bağlı Mikele Membre daha sonra belə yazırdı: "Sultan atla saraya tərəf getdikdə, ondan qabaqda şatır adlanan piyada nökər gedir. Şatır dizlərinə qədər olan gen corab, mahud tuman və dizlərinə qədər uzanan ağ köynək geyir. Onun kəmərinin qabağında kiçik zınqırov var. Onun içərisində kiçik

xalça olan fütəsini çiyinlərində gəzdirən digər bir nökər sağ əlində uzun boğazı və lüləyi olan, su ilə dolu gümüş mehtərə gəzdirir. O, qabaqda piyada gedir. Onun ox və yayını gəzdirən və irəlidə gedən birisi ox-yay qorçusu adlanır. Burada bəzisi atla, bəzisi piyada gedən daha 20-30 nökər olur. Onlar şahın darvazasına çatan kimi çöldə durub, onun qapısına baş əyib yeri öpürlər. Sultan atdan enir və kiçik mehtərə ilə çiynində xalça olan futanı gəzdirən nökərlə birlikdə saraya tək daxil olur. Çünki o, divanxanaya getmək istədikdə, o, onun ayaqqabılarını çıxartmalı və bayırda dayanaraq onlara göz olmalıdır. Sultan məsciddə ibadət etmək istədikdə, o, onun xalçasını yerə sərir və o, ibadət edir. İbadətdən əvvəl onlar əllərini su ilə yuduqlarına görə bu mehtərəni gəzdirirlər. Hamı bu qayda ilə edir. Şah Təhmasib sarayda yemək yeyərkən, əhatəsində olanların hamısına yemək verir və onların qabağına çox yağlı və piyli ət və düyü ilə dolu qab qoyurlar. Şahın süfrəsinə qulluq edən və "fərraş" adlanan qulluqçular onların qabağından qalanları yığışdırıb, bayıra çıxır və onun xidmətçisini çağırırlar. O gəlib gümüş və çini qabı götürür, ürəyi istədiyi qədər yeyir, qalanını isə boşqabla birlikdə yerə qoyur. Beləliklə, hamı belə edir. Sonra şahın süfrəsinə qulluq edənlər gəlirlər və qabları və kasaları elə yığışdırırlar ki, gümüş qab və kasadan heç biri itmir" (59).

Mikele Membredən başqa Venesiyadan olan Vinçenso Alessandri adlı səyyah da Şah Təhmasiblə bağlı öz xatirələrini yazmışdı. Ondan fərqli olaraq M.Membrenin fikrincə, Şah Təhmasib daha ciddi həyat sürürdü, sadə paltarlar geyməyə üstünlük verirdi və insanlara qarşı səxavətlilik nümayiş etdirirdi. M.Membrenin Şah Təhmasib haqqında xatirələrindən: "Şah yeməyə tək başlayır, sultanlar isə ona baxırlar. Sonra o, bütün yeməklərin onun qabağına gətirdiyinə görə, onları hamının arasında bölüşdürür. İçkiyə gəldikdə isə, onun fərraşları suyu çini və ya gümüş dolçada gətirirlər. Mən iki cür dolça gördüm və şah bunu öz möhürü ilə möhürləyir. İçmək istədikdə onun möhürünü açır, yemək yığışdırıldıqdan sonra yenidən möhürləyir. Mən onun sarayında çoxlu şirniyyat gördüm. Şahın belə bir adəti var ki, o, hər gün vassalla-

rına bir dəst, bəzən də üç-dörd dəst paltar paylayır. O, çox bahalı geyimlər xoşlamadığına görə onun paltarları dəyərli deyil. ...O, çoxlu pul bəxşiş paylayır. O, 100, 200 və 300 tümən məbləğində hədiyyələr verir; bir tümən 40 dukata bərabərdir. O, qorçularına çoxlu məvacib verir, belə ki, onlardan ildə 30 tümən alanları var" (60).

M.Membrenin xatirələrində Səfəvi həyatının başqa sahələrinə aid olan maraqlı məlumatlar da vardır ki, onlar Şah Təhmasib hakimiyyəti illərinin tarixinin öyrənilməsi üçün dəyərli mənbə ola bilərlər.

**c) vəkil.**

Şah Təhmasibin hakimiyyəti illərində səltənət idarəçiliyi piramidasında ən yüksək məqam səltənət vəkilinə məxsus idi. Hələ Şah İsmayılın hakimiyyəti illərində vəkil vəzifəsi şahdan sonra səltənət idarəçiliyində ən yüksək səlahiyyətli məqam sayılırdı. Şah İsmayıl dünyasını dəyişəndə bu vəzifəni Xoca Cəlaləddin Təbrizi tuturdu. Lakin Şah Təhmasibin hakimiyyəti illərində onun bu vəzifədə qalması çox da uzun çəkmədi və Şah Təhmasibin lələsi olan Div sultanla onun arasında baş verən qarşıdurmadan sonra Xoca Cəlaləddin Təbrizi tezliklə bu vəzifədən azad edildi və od vurularaq yandırıldı(61).

Şah Təhmasibin hakimiyyətinin ilk illərində də vəkil vəzifəsi səltənət idarəçiliyində ən yüksək səlahiyyətə malik bir məqam kimi qalmışdı. Məlum olduğu kimi, bu vəzifəni ələ keçirmək üçün qızılbaş əmirləri arasında ciddi çəkişmələr və qarşıdurmalar başladı. Eyni zamanda elə həmin illərdən də vəkil vəzifəsinin səlahiyyətlərində dəyişikliklərin baş verməsi özünü göstərməyə başladı. Həm də bu dövrə aid olan mənbələrdə vəkil termininin başqa terminlərlə qarışdırılmasına rast gəlmək mümkündür. Məsələn, məlumdur ki, Xoca Cəlaləddin Təbrizi qətlə yetirildikdən sonra onun yerinə Qazi Cahan Qəzvini təyin edildi. Qazi Cahan Qəzvini isə mənbələrdə həm ali divan rəhbəri, həm də vəkil kimi təqdim olunmuşdur (62). "Əhsənüt-təvarix" əsərində isə Qazi

Cahan Qəzvininin vəzir vəzifəsinə təyin edildiyindən söhbət açılır.

Tədqiqatçıların fikrincə, belə qarışıqlığın yaranması bütünlükdə Şah İsmayıl hakimiyyəttinin Şah Təhmasib hakimiyyəti ilə dəyişməsinin ilkin dövründə baş vermişdi. Şah Təhmasibin kiçik yaşda olmasından istifadə edən qızılbaş əmirləri arasında ciddi çəkişmələrin və silahlı qarşıdurmanın olması tarixdən məlumdur. Belə bir zamanda arxasında güc və qüvvə dayanan qızılbaş əmirlərinin real təsir imkanları artır və onlar idarəçilik sistemində də öz yerlərini möhkəmləndirməyə çalışırdılar. Ənənəvi olaraq vəkil vəzifəsinin daha yüksək məqam olması bəzi əmirlərin öz adlarının qarşısında "vəkil" sözünü işlətməyə sövq edirdi. Bunun nəticəsi idi ki, mənbələrdə eyni vaxtda müxtəlif adamların vəkil adını daşıması ilə qarşılaşmaq mümkündür (63).

Amma o da məlumdur ki, Şah Təhmasibin hakimiyyəti illərində vəkil vəzifəsi Şah İsmayılın dövründə malik olduğu səlahiyyətlərə malik deyildi və o öz yerini vəzir vəzifəsinin sahibinə verməkdə idi. Bəzi tədqiqatçıların fikrincə, Şah İsmayılın hakimiyyəti illərində vəkil vəzifəsində Mirzəşah Hüseyn olanda bu vəzifənin xarakterində ali divan (vəzarət) keyfiyyətləri özünü göstərməkdə idi. Əslində, Mirzəşah Hüseynin dövründən vəkil vəzifəsinin transformasiyası başlamışdı. Bu vəzifə sahibinin dini və dünyəvi işlərlə məşğul olmasının əvəzində divan (vəzirlik) işlərinə məsuliyyətinin artırılması, diqqətin daha çox təşkilatçılıq məsələləri üzərində cəmləşdirilməsi vəkil vəzifəsinin məsuliyyət və səlahiyyətlərində də dəyişikliklərin baş verməsinə yol açırdı. Ona görə vəkil vəzifəsinə sahib olan Mirzəşah Hüseyn həm də vəkilüssəltənə, etimadüddövlə kimi adlarla da xatırlanırdı. Onun sahib olduğu vəkil vəzifəsi həm də "ali divan nəzarəti", "divan nəzarəti" adlanırdı. Mənbə məlumatlarına əsaslanan tədqiqatçılar belə bir qənaətə gəlirlər ki, Mirzəşah Hüseyn həm də vəzarət, şah divanının nəzarəti, ali divan nəzarəti vəzifələrini də icra edirdi. Bu vəzifəyə qızılbaş əmirləri sahib olanda isə vəkillik vəzifəsinin əmirül-üməra vəzifəsi ilə qovuşması meylini müşahidə etmək olardı. Bu da bütünlükdə vəzir vəzifəsinin transformasiyasına yol

açırdı. Onun nəticəsi idi ki, mənbələrdə "divan vəkili" və "nizami vəkil" və ya "əmirül-üməra" istilahlarının işlənməsini görmək mümkündür. Divan vəkili dedikdə, idarəçilik işlərinə rəhbərlik edən yüksək məqamlı vəzifə sahibi, nizami vəkil dedikdə isə daha çox hərbi işlərlə məşğul olan məqam nəzərdə tutulurdu (64).

Buna görə də elmi-tarixi ədəbiyyatda vəkil vəzifəsinə sahib olmuş adamların müxtəlif sıralanması ilə rastlaşmaq mümkündür. Məsələn, Şah İsmayılın hakimiyyəti illərində Mirzəşah Hüseyninin qətlindən sonra vəkil vəzifəsinə təyin edilmiş Xoca Cəlaləddin Təbrizi divan vəkili kimi qəbul olunmaqdadır. Onun qətlə yetirilməsinə nail olan Div sultan isə əmriül-üməra idi və onun səlahiyyətlərini ələ keçirməyə çalışmaqla vəkil vəzifəsi ilə əmirül-ümərа vəzifəsini qovuşdurmaq niyyətində idi (65).

Bəzi tədqiqatçıların fikrincə, Şah Təhmasibin hakimiyyəti illərində bu əmirlər və əyanlar vəkil vəzifəsini icra etmişdilər: Div sultan Rumlu və Mustafa sultan (Köpək sultan) Ustaclı – 1524-cü il; Div sultan Rumlu və Çuhə sultan Təkəli – 1525-ci il; Çuhə sultan Təkəli – 1527-ci il; Hüseyn bəy Şamlı və Abdulla xan Ustaclı – 1531-1533-cü illər; Məsum bəy Səfəvi – 1553-1567-ci illər (66).

Adları çəkilən bu əmirlərin, Məsum bəy Səfəvi istisna olmaqla vəkillik vəzifəsi elə də uzun sürməmişdi. Şah Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş əmirləri arasında davam edən çəkişmələr bu vəzifə sahiblərinin tez-tez dəyişməsinə yol açmışdı. Məlumdur ki, Şah İsmayıl tərəfindən Div sultan hakimiyyətə yenicə gəlmiş Şah Təhmasibin lələsi təyin edilmişdi və bununla, əslində, səltənətin idarəçiliyi də ona həvalə olunmuşdu. Div sultan səltənətin əmiril-ümərası idi və son dərəcə böyük səlahiyyətlərə malik idi. Amma sonradan məlum oldu ki, qızılbaş əmirlərinin və onların təmsil etdikləri tayfaların heç də hamısı Div sultanın şəriksiz hakimiyyəti ilə barışmaq niyyətində deyil. Xüsusilə, ustaclı tayfası Div sultana qarşı müxalifət yolunu tutdu. Ustaclı tayfası qızılbaş tayfaları arasında çoxsaylı tayfalardan biri idi və səltənətin paytaxtı olan Təbriz şəhəri də bu tayfa üzvlərinin nəzarəti altında idi. Ustaclı tayfasının rəhbəri olan Köpək sultanla

Div sultan arasında olan qarşıdurmanın mövcudluğu sözsüz ki, səltənətin həyatına mənfi təsir göstərirdi. Bunun qarşısının alınması üçün Şah Təhmasib öz hökmü ilə Div sultanın malik olduğu səlahiyyətlərə Köpək sultanı da ortaq etdi (67). Ona görə də yuxarıdakı siyahıda Şah Təhmasib hakimiyyətinin ilk illərində vəkil vəzifəsinin icraçısı kimi Div sultanla Köpək sultan birlikdə göstərilmişdir. Lakin bu vəzifə ortaqlığı çox da uzun sürmədi.

Div sultan birmənalı şəkildə Köpək sultanın səltənət idarəçiliyini onunla bölüşməsini istəmirdi. Ona görə də Div sultan bu dəfə təkəli tayfasının rəhbəri, nüfuzlu əmir olan Çuhə sultanla əlbir olub Köpək sultana qarşı mövqe tutdular. Bu qarşıdurmanın necə cərəyan etməsi haqqında aidiyyatı olan fəsildə ətraflı məlumat verilmişdir. Onu qeyd etmək lazımdır ki, Köpək sultan göstərdiyi cəhdlərə və müqavimətlərə baxmayaraq ona qarşı yönəldilmiş təzyiqin qarşısında duruş gətirə bilmədi və həyatını belə itirməli oldu. Köpək sultan kimi güclü bir rəqibinin aradan qaldırılmasında kömək göstərmiş Çuhə sultan göstərdiyi xidmətin əvəzi kimi vəkil vəzifəsini Div sultanla bölüşməyə nail oldu. Şah Təhmasib öz təzkirəsində bildirirdi ki, Köpək sultanın qətlindən sonra Div sultan məlikül-ümərа, Cuhə sultan isə rüknüs-səltənə elan edildi. Məlumdur ki, Şah Təhmasib də özünü bu hadisələrdən sonra padşahlıq səlahiyyətlərinin bütünlüklə öz əlinə aldığını bildirirdi (68).

Çox tezliklə Div sultanla Cuhə sultan arasında da qarşıdurma özünü göstərdi və bu qarşıdurmadan Cuhə sultan qalib çıxdı. Şah Təhmasib yanındakı böyük nüfuzundan istifadə etməklə, o, səltənət vəkili vəzifəsinə şəriksiz olaraq yiyələndi. Lakin onun da bu vəzifədə fəaliyyəti çox da uzun sürmədi və o da hakimiyyət daxili çəkişmələrdə qətlə yetirildi. Ondan sonra vəkil vəzifəsi Şah Təhmasibin yaxın qohumları olan Hüseyn bəy Şamlı ilə Abdulla xan Ustaclıya həvalə olundu. Şah Təhmasibə görə, Hüseyn bəy Şamlı onun bibisi oğlu, yəni Şah İsmayılın bacısı oğlu idi (69). Bəzi tədqiqatçıların fikrincə isə, Hüseyn bəylə Abdulla xan Şah İsmayılın qardaşı oğlanları idilər (70). Yəni Şah Təhmasib vəkil vəzifəsini özünə yaxın və sədaqətli adamlara həvalə etdi. Hüseyn

bəylə Abdulla xanın bu vəzifədə olmasından sonra vəkil sözünə mənbələrdə çox az rast gəlmək mümkündür. Tədqiqatçıların fikrincə, vəkil vəzifəsi vəzir vəzifəsinə qovuşmaqda və aradan çıxmaqda idi (71).

Araşdırmalar göstərir ki, 1534-cü ildə Şah Təhmasib tərəfindən Qazi Cahan vəkil vəzifəsinə təin edildi. Qazi Cahan bu zaman həm də vəziri-əzəm vəzifəsini də icra edirdi.Qazi Cahan vəkil vəzifəsini əvvəlcə digər iki nəfərli birlikdə icra edirdi. 1535-ci ildən etibarən isə Qazi Cahan hər iki vəzifəni təkbaşına icra etməyə başladı (72). "Əhsənüt-təvarix" əsərinin müəllifinin yazdığına görə isə, Qazi Cahan vəzifəsini Əmir Səədəddin İnayətulla Xuzani ilə bölüşürdü. Lakin Əmir Səədəddin bu vəzifəyə təkbaşına yiyələnmək istəyirmiş və ona görə onun başladığı intriqa və çəkişmə son nəhayətdə özünün uğursuzluğu və qətlə yetirilməsi ilə başa çatdı. Qazi Cahan Qəzvininin vəzifəyə gətirilməsi, onun gedişi və sonradan yenə yüksək vəzifəyə təyin olunması "Əhsənüt-təvarix" əsərində belə təsvir edilmişdir: "Vəkil Qazi Cahan, Qəzvinin Seyfi seyidlərindən idi. Doğrudan da, bu əzəmətli dövlətdə onun mislində qabiliyyət və istedadı özündə cəmləşdirmiş bir vəzir yox idi. Onun şanının ucalığını bəyan etməyə ehtiyac yoxdur. Onun lətif təbiətinin aynası xeyirxahlıq surətinin əksetdiricisidir və müşkülləri çözən rəyinin lampası fəzilətləri göstərən məzhərdir. O həzrətin dərrakəsi, uzaqgörənliyi, fəhmi, zəkasının itiliyi və yüksək fitrəti o dərəcədə idi ki, ali əşrəfin (Şah Təhmasibin) behişt ayinli məclisində elmlərdən hansı biri haqqında müzakirə və mübahisə düşsəydi, həmin mübahisəyə məqbul müdaxilələr edərdi və bəyənilən incə mənalar bəyan edərdi. İnşa və təhrir gözəlliyində, hüsni-xəttə, ibarələr düzəltməkdə və nitq lətifliyində elə həddə çatmışdı ki, qəliz məzmunları və müşkül müddəaları ən müxtəsər ibarələr, ən konkret bəyan və ən lətif işarələrlə, götür-qoy etmədən və təfəkkürə dalmadan, ən qısa zamanda dilə gətirərdi. Fəzilət yaymaq meydanında öz tay-tuşlarından üstünlük və seçkinlik topunu alıb qaçan fəsahət şüarlı münşilərdən və bəlağət əsərli söz ustadlarından heç biri bu vadidə onun səviyyəsinə malik deyildi. Belə ki,

onun hökmdar adından hər barədə itaəti lazım olan hökmlər yazması bu mənanın şahididir və [bu hökmlər hələ də] insanların əllərindədir. Hamı onun hörmətini saxlayırdı. Həmişə işlərin icrasında ədalətin və rəiyyətpərvərliyin sərmayəsini İlahi xof və qorxunun bəzəyi edib, dəqiqələrdən bir dəqiqə belə gözəl davranışı və yaxşı rəftarı əldən buraxmamışdı. Şanının yüksəkliyinə baxmayaraq, bütün insanlara təvazökarlıq və sadəliklə davranardı, nitqində və yazısında kamaliədəbə riayət edərdi və son dərəcə sadəlik nümayiş etdirərdi. Gözəl ədəb və təvazökarlıq elə bir vəchlə onun fitrətinin mərkəzi nöqtəsinə və xasiyyətinin mahiyyətinə çevrilmişdi ki, "(?)" ayəsinin dəlili ona münasib gələrdi. Nə zaman ki əşrəfin məclisində lazımi işləri ərz etməyə fürsət olmasaydı, o həzrət (Qazi Cahan) zərurət üzündən adamlara [öz-özündən] ziddiyyətli vədlər verərdi. O səbəbdən adamlar zərərçəkmiş və könlü incimiş olurdular. Halının əvvəlində sözügedən şəxs Qazı Məhəmməd Kaşinin mülazimi idi. Ondan sonra, Mirzə Şahhüseynin vəkilliyi əyyamında Xoca Cəlaləddin Məhəmməd Təbrizi ilə ittifaqda Mirzə Şahhüseynin vəziri oldu. Xoca Cəlaləddin Məhəmməd yandırıldıqdan sonra vəzarət mənsəbi təkbaşına surətdə adı çəkilən seyidə (Qazi Cahana) həvalə edildi. O zaman ki təkəlü və ustaclu tayfaları arasında münaqişə peyda oldu və döyüşlə nəticələndi, sözügedən şəxs (Qazi Cahan) Gilana qaçdı. Uzun müddət Müzəffər sultanın yanında məhbus oldu və nəzarət altında qaldı. Deyirlər ki, Əmir Hüsaməddin o seyidə qarşı malik olduğu qədim ədavət üzündən onu azarlamaq və təhqir etmək üçün heç bir fürsəti əldən vermədi. Qazi Cahanla Nurbəxşiyyə silsiləsi arasında irsi düşmənçilik bərqərar olduğundan və Müzəffər sultan özünü həmin silsilənin müridlərindən biri saydığından, o tərəfdən də [Qazi Cahana qarşı] təhriklər olur və bu da onun əlavə olaraq incidilməsi və təhqir edilməsinə gətirib çıxarırdı. Üzərinə bədbəxtliyin çökməsi ucbatından Müzəffər sultanın həyat qayığı əzab girdabına və burulğanına düşdü və o, taleyin pəncəsində əsir oldu. O hal-qəziyyədə Qazi Cahan Gilandan çıxdı. Yenidən dinin pənahı olan şahın vəzirliyi mənsəbi Əmir Səədəddin İnayətulla Xuzani ilə müştərək surətdə ona

həvalə edildi. Adı çəkilən şəxs (Əmir Səədəddin) sözünü etdiyimiz Qazi Cahanı həmişə hörmətdən salmaq və onu alçaltmaq məqamında dayanırdı. Axırda [Əmir Səədəddin] zamanın həmləsindən əziyyətə düşdü (edam edildi).Ondan sonra sözügedən seyid (Qazi Cahan) həmin mənsəbdə müstəqil oldu (təkbaşına vəzir oldu) və on beş il müddətində könlünün iradəsinə uyğun şəkildə, rahatlıq və hüzurla ovqatını keçirdi. Ömrünün axırında yaşı altmışı keçib yetmiş və səksən hüdudunda qərar tutduqda, qocalıq zəifliyi səbəbindən "ağarmış surət (saç-saqqal) eybin müqəddiməsidir (başlanğıcıdır)" [kəlamı] onun halında təzahür etdi və "ahıllıq məyusluqdur" [kəlamı] naümidlik əsasını onun əlinə verdi. Daha o vəzirlikdə [əvvəlki] qüdrətə malik olmadı. Divan işlərini tərk edərək rüxsət aldı ki, işdən çıxıb ayağını bekarçılıq ətəyinə çəksin və bir guşədə gündən-günə yüksələn dövlətin davamı üçün dua deməklə, itaət və ibadət vəzifələrini yerinə yetirməklə məşğul olsun. Daha sonra bu əməlindən heyifsiləndi və peşman oldu. Amma peşmançılığının faydası olmadı və Qəzvində məskən saldı. Qəzvində məskunlaşdıqdan bir neçə gün sonra izzətli və cah-calallı [hökmdarın] qulağına çatdı ki, vəqf kəndlərindən bəziləri uzun müddətdən bəri onun ixtiyarındadır və mülkiyyət baxımından o, onları öz təsərrüfatına keçirmişdir. Dinin pənahı olan şahın uzaqgörən düşüncəsi onun haqqında belə qərara gəldi ki, həmin yerləri ən qəbahətli bir vəchlə onun təsərrüfatından çəkib alsınlar və ötən əyyamın müəyyən məbləğ təşkil edən gəlirinin əvəzini ondan geri alsınlar. Bu hadisə gerçəkləşdirilməzdən öncə o, özünü ulu dərgaha çatdırdı. Ali hökmdar onun gəlişinin xəbərini eşidən kimi, onun yenidən vəzirlik arzusuna düşməməsi üçün vəkilliyi və ali divanın vəzirliyini Məsum bəy Səfəvi cənablarına verdi. …Kama çatmış səadətli hökmdar onun acizliyinə, çarəsizliyinə, qocalığına, halının zəbunluğuna və əhvalının pərişanlığına nəzər salıb o hadisənin üstündən keçdi, ona soyurğal qaydasınca bir məbləğ də ayırdı və o, rüxsət alıb Qəzvinə getdi" (73).

Qazi Cahan ahıl yaşlarında öz əcəli ilə dünyasını dəyişdi. Yuxarıdakı məlumatdan da göründüyü kimi, Qazi Cahan tutduğu

vəzifəni dünyasını dəyişməzdən xeyli əvvəl tərk etmişdi. Qazi Cahan, əslində, öz arzusu ilə vəzifəsini tərk etmiş və qalan həyatını istirahət etmək fikrində idi. Bəzi məlumatlara görə, Şah Təhmasib də söz veribmiş ki, nə qədər ki, Qazi Cahan sağdır, vəkil vəzifəsinə başqa birisini təyin etməyəcəkdir. Amma məlumatdan da göründüyü kimi, Şah Təhmasib istəmirdi ki, Qazi Cahan yenidən vəzifə həvəsinə düşsün və ona görə də Qazi Cahan dünyadan köçməmiş Məsum bəy Səfəvi vəkil vəzifəsinə təyin edildi.

Məsum bəy nüfuzlu qızılbaş əmirlərindən biri idi və həvalə olunan vəzifəni sədaqətlə icra etməklə Şah Təhmasibin ehtiramını da qazanmışdı. Məlumdur ki, həyatının sonlarına yaxın Məsum bəy oğlu Xanmirzənin xahişi ilə Həcc ziyarətinə yollanmaq qərarına gəldi. Məsum bəyi bu səfərdə oğlu Xanmirzədən əlavə 46 nəfərlik bir dəstə də müşayiət edirdi. Onun bu səfəri 1569-cu ildə baş verdi. Mənbə məlumatlarından belə bir qənaət hasil olur ki, yalnız Həcc ziyarətinə yollandığı üçün Şah Təhmasib uzun müddətə onun vəzifədən ayrılmasına razı olmuşdu. Məsum bəy həm də Ərdəbil xanəgahının mütəvalisi vəzifəsini icra etmişdi. Yəni o həm də Səfəvi təriqətinə dərindən bağlı olan bir insan idi. Amma bu səfər Məsum bəyin, onun oğlunun və yanındakı dəstənin faciəli sonluğu ilə başa çatdı. Osmanlı əraziləri ilə irəliləyərkən Fatimə vadisi adlanan bir yerdə bu dəstənin üzərinə silahlı basqın oldu. Nəticədə bütün dəstə qətlə yetirildi. Məsum bəyin qətlindən sonra isə vəkil vəzifəsinə təyinat baş vermədi.

Elmi-tarixi ədəbiyyatda olan başqa bir fikrə görə isə, Şah Təhmasibin hakimiyyəti illərində vəkil vəzifəsinə bu adamlar yiyələnmişdilər: Xoca Cəlaləddin Məhəmməd Keçəçi, Qazi Cahan Həsəni, Mir Cəfər Savəçi, Əhməd bəy Nurkamal, Qazı Cahan, Xoca Qiyasəddin Əli, Ağa Məhəmməd Fərahani, Xoca Əmir bəy və Məsum bəy Səfəvi (74).

### d) vəziri-əzəm

Mövzunun tədqiqatçısı olan bəzi müəlliflər yuxarıdakı sıralanmanı təkmilləşdirərək onu vəziri-əzəm kateqoriyasına aid etmişlər. Həmin sıralanma belədir: Xoca Cəlaləddin, Qazi Cahan Hüseyni, Mirzə Cəfər Savəçi, Əhməd bəy Nurkamal, Xoca Səədəddin İnayət Xuzani və Xoca Müin Yəzdi, Xoca Səədəddin İnayət Xuzani və Qazi Cahan Hüseyni, Xoca Əmirbəy Təbrizi-Xoca Qiyasəddin Əli-Ağa Məhəmməd Fərahani, Xoca Mirzəbəy Əbhəri, Xoca Seyfülmülk Tehrani, Məsum bəy Səfəvi, Əmir Seyid Şərif Sani (75).

Şah İsmayılın hakimiyyəti dövründən fərqli olaraq Şah Təhmasibin hakimiyyəti illərində vəzir vəzifəsi yeni səlahiyyətlər kəsb etdi və idarəçilik piramidasında ən yüksək mərtəbəyə qalxdı. Yuxarıda qeyd edildiyi kimi, Mirzəşah Hüseyndən başlayaraq vəzir vəzifəsinin nüfuzunun və səlahiyyətlərinin qalxmasını müşahidə etmək mümkündür. Şah Təhmasibin hakimiyyəti elan olunanda Xoca Cəlaləddin Məhəmməd Keçəçi vəzir vəzifəsini icra edirdi. Xoca Cəlaləddin Məhəmməd Keçəçinin vəzirliyi barəsində “Tarix-i aləmara-yi Abbasi” əsərinin müəllifi İsgəndər bəy Münşi belə bir məlumat vermişdir: “ Cənnətməkan şah həzrətlərinin vəfatı zamanı qələm sahiblərindən heç kim ali divanın vəziri vəzifəsini daşımırdı. Bu dəyərsiz zərrəyə (İsgəndər bəy Münşiyə) məlum olduğu qədərincə, cənnətməkan şah zamanında sabiq böyük vəzirlərin sayı on iki nəfər olmuşdur. Onun hakimiyyətinin əvvəllərində ali divanın vəziri kürsüsündə Xoca Cəlaləddin Məhəmməd Keçəçi əyləşmişdi. O, Mirzə Şahhüseynin qətlindən sonra Süleyman şanlı xaqan, əbədiyyət sahibi Şah İsmayılın - Allah qəbrini nurla doldursun – zamanında vəzir təyin olunmuşdu. O, Mirzə Şahhüseynlə dost idi. Deyirlər ki, o, vəzir təyin olunduğu gün cənab Mirzə [Şahhüseynin] ölümü barədə bu rübaini demişdi:

«Ey cahanın gözünün nuru, de, necə dözüm,
Sən getdin, gecə kimi qara oldu gündüzüm.
Sanki biz bir-birinə bağlı iki şam idik,
Əyyam səni öldürdü, mən də yanıram özüm».

«Yetərincə hay-küy salan şəxs oyundan qalxdıqdan sonra o hay-küy yatdı» beytinin məzmunu, haqqında bəhs etdiyimiz Xocanın vəziyyətinin təsdiqinə çevrildi. Süleyman şanlı xaqanın vəfatından və cənnətməkan xoşbəxt şahın hakimiyyətə gəlməsindən sonra o, əmrə əsasən, o həzrətin vəzirliyi rütbəsi ilə şərəfləndirildi. Lakin hələ onun vəzirlik dövranı heç bir il olmamışdı ki, o zamanlar vəkil vəzifəsini daşıyan və iqtidar sahibi olan Div sultan Rumlu onun barəsində bədgüman oldu və onlar arasında narazılıq baş qaldırdı. Bunun nəticəsində [Div sultan] onu həbs etdirərək, yandırılmasını əmr etdi" (76).

Bu adam qətlə yetirildikdən sonra Qazi Cahan vəzir vəzifəsinə təyin edildi. Şah Təhmasib öz təzkirəsində yazırdı ki, o, Qazi Cahanı Mirzəşah Hüseyndən sonra vəzir və sahib-divan etdi (77). Burdan belə bir qənaətə gəlmək olar ki, Xoca Cəlaləddin heç də belə səlahiyyətlərə malik deyildi. Qazi Cahan sadəcə vəzir deyildi. O həm də sahib-divan idi, divan işlərinə, digər vəzirlərin və idarəçilik mənsublarının fəaliyyətinə rəhbərlik edirdi. Mirzəşah Hüseyndən başlayaraq vəzir vəzifəsinə təyin olunanlar eyni zamanda "etimadüddövlə" ləqəbini daşıyırdılar. Bu ləqəb də bir daha onların səltənət idarəçiliyində onların yüksək mövqeyini təsdiqləyirdi. Bundan başqa vəziri-əzəmlərə "alicah" rütbəsi də verilə bilərdi. Bu rütbənin bütün vəzirlərə verilməsi məcburi deyildi. Həmin rütbəyə səltənət idarəçiliyində xüsusi xidmətləri olan qızılbaş əmirləri layiq görülürdülər və rütbə onlara səltənət daxilində böyük nüfuz qazandırırdı (78).

Vəzirlər eyni zamanda ali divana nəzarət səlahiyyətlərinə də malik idilər. Şah Təhmasibin hakimiyyətinin ilk illərində, qızılbaş əmirləri arasında çəkişmələr davam edəndə vəzir vəzifəsinə təyinatda və onların fəaliyyətində bir dağınıqlıq görmək mümkündür. Hakimiyyət savaşında daha yüksək səlahiyyətlər əldə etməyə çalışan qızılbaş əmirləri malik olduqları imkanlarla vəzir vəzifəsinə kimin təyin edilməsinə də təsir göstərməyə çalışırdılar. Belə ki, Şah Təhmasibin ləlləsi təyin edilmiş Div sultan malik olduğu səlahiyyətlərdən istifadə etməklə Qazi Cahanın vəzifədən

azad edilməsinə nail oldu. Onun yerinə Mirzə Cəfər Savəçi vəzir vəzifəsinə təyin edildi. Lakin yüksək səlahiyyətlər uğrunda mübarizə aparan qızılbaş əmirləri onun təkbaşına vəzir vəzifəsinin icrasına razı olmadılar. Nəticədə Div sultanın vəziri olan Ağa Molla Qəzvini və Cuhə sultanın vəziri olan Mirzə Aruh da vəzir vəzifəsinə təyin edildilər. Yəni vəzir vəzifəsi üç nəfər tərəfindən həyata keçirilməyə başladı. Vəzir vəzifəsinin üç nəfər tərəfindən icra edilməsi, əslində, səltənət idarəçiliyinə yaranmış vəziyyətin ifadəsi idi. Nə qədər ki, Şah Təhmasib hakimiyyətin bütün səlahiyyət və məsuliyyətini öz üzərinə götürməmişdi, səltənət idarəçiliyində belə müştərəklik qalmaqda idi. Lakin tarixi şəraitin dəyişməsi ilə vəzir vəzifəsinin icrasının iki nəfərə həvalə olunması da uzunömürlü olmadı. Div sultanın qətlə yetirilməsindən sonra onun təkidi ilə vəzir vəzifəsinə gətirilmiş Ağa Molla Qəzvini də həmin vəzifədən uzaqlaşdırıldı. Ondan sonra vəzir vəzifəsi iki nəfərin öhdəsində qaldı və bu vəziyyət də çox da uzun davam etmədi. 1531-ci ildə Şah Təhmasibin bibisi oğlu Hüseyn xan (bəy) Cuhə sultanla çəkişmədə üstün gələrək nizami vəkil və əmirülümərа vəzifələrinə sahib ola bildi. O da malik olduğu səlahiyyətlərdən istifadə etməklə Mir Cəfər Savəçi ilə Mirzə Aruhu vəzir vəzifəsindən kənarlaşdırdı. Mənbə məlumatlarına görə, bu vəzirlərin hər ikisi qətl edildilər. Bundan əvvəl isə onların var-dövləti əllərindən alındı. Çünki səltənət idarəçiliyinin müxtəlif pillələrində uzun müddət çalışmış həmin adamların kifayət qədər var-dövləti var idi və həmin var-dövlət də Hüseyn bəy tərəfindən talan edildi (79).

Hüseyn xan bu vəzirləri qətlə yetirməklə kifayətlənmədi və onların yerinə özünə yaxın olan Əhməd bəy Nurkamal adlı birisini vəzir vəzifəsinə təyin etdirdi. Əhməd bəy Nurkamal uzun müddət Hüseyn xanla birlikdə olmuşdu. Hüseyn xanın qətlindən sonra onun da vəzirliyinə son qoyuldu. Elmi-tarixi ədəbiyyatda, qeyd edildiyi kimi, Əhməd bəy Nurkamalın həm də vəkil vəzifəsini icra etməsi məlumatı ilə rastlaşmaq mümkündür. Vəzifədən kənarlaşdırıldıqdan sonra Əhməd bəy Nurkamal da təqiblərə məruz qaldı, onun da var-dövləti əlindən alındı və sonra da

Əlincə qalasında zindana atıldı. Lakin özündən əvvəlki vəzirlərdən fərqli olaraq Əhməd bəy Nurkamal ölüm cəzasından canını qurtara bildi (80).

Hüseyn xan Şamlının qətli h.q.tarixi ilə 940-cı ilə (1533-1534) təsadüf edir. Onun qətlindən və Əhməd bəy Nurkamalın vəzifəsindən uzaqlaşdırılmasından sonra vəzir vəzifəsinə Xoca Səəddin İnayət Xuzani gətirildi. Vəziri-əzəm vəzifəsini tutanların sırası ilə bağlı yuxarıdakı məlumata görə, Xoca Səəddin də bu vəzifəni müştərək şəkildə icra etməli olmuşdu. Əvvəlcə o bu vəzifəni Xoca Müin Yəzdi ilə, sonra isə Qazi Cahan Hüseyni ilə bölüşməli olmuşdu. Qazi Cahan Hüseyni ikinci dəfə bu vəzifəyə gətirildi. Bu, heç şübhəsiz ki, Şah Təhmasibin həmin adama olan münasibətindən irəli gəlirdi. Mövcud məlumatlara görə, Xoca Səəddin təyin edildiyi vəzifəsinin Qazi Cahanla bölüşməyə heç də maraqlı deyildi və ona görə də Qazi Cahanın bu vəzifədən uzaqlaşdıırlması üçün yollar axtarırdı. Xoca Səəddin hətta məkrli planlara da əl atırdı. O nəinki öz niyyətlərinə nail ola bilmədi, hətta vəzifəsini və həyatını da itirməli oldu. Onun qətlə yetirilməsi haqqında "Əhsənüt-təvarix" əsərində belə bir qeyd vardır: "Əmir Səəddin İnayətulla Xuzani fikrinin mətinliyi və tədbirinin doğruluğu ilə digər yüksək dərəcəli vəzirlərdən tam imtiyaza (üstünlüyə) malik idi. O, bu il şahın qəzəbinə düçar oldu. Səbəbi bu idi ki, o, Basliq bəyin oğlu İsa ilə fəsad törətmək arzusunda idi və [bu məqsədinin həyata keçməsi üçün] həmin oğlana müxtəlif hədiyyələr və bəxşişlər vəd etmişdi. Bu məsələ [hökmdarın] ərzinə çatdı. Buna görə də şahın qəzəb alovu alışdı. O həzrətin hökmü ilə Müzəffər sultan Gilaninin qəfəsə salınıb atəşə verildiyi gün sözügedən xocanı da Müzəffər sultanın qəfəsinin altında ... asdılar. Onların ikisini birdən yandırıb vücudlarının külünü fəna küləyinə verdilər" (81).

Yuxarıda qeyd edildiyi kimi, sonradan Qazi Cahan yaşlaşıb əldən düşənə kimi bu vəzifəni təkbaşına icra etmişdi. Onun uzun müddət bu vəzifədə qalması, ehtimal ki, vəzifəsini sədaqətlə yerinə yetirə bilməsindən irəli gəlirdi. Qazi Cahanın vəzirliyi ilə bağlı baş verən hadisələr "Tarix-i aləmara-yi Abbasi" əsərində

belə təsvir edilmişdir: “Qazi Cahan Seyfi Həsəni ən-Nəsəb - əvvəllər Mirzə Şahhüseynin vəziri idi. Sonradan o, şahın ali divanının vəziri olmuş, lakin təkəlülərlə ustaclular arasında baş vermiş qarşıdurma əsnasında bu fitnədən kənara qaçıb, Gilana sığınmışdı. Onun Gilana getməsindən sonra Çuxa sultanın vəziri Mir Cəfər Savəci, Çuxa sultanın iqtidarda olması səbəbindən divan vəziri təyin olundu, lakin onun vəzirlik əyyamı o qədər də uzun sürmədi. O da əmirlərin düşmənçiliyi üzündən qətlə yetirildi. Ondan sonra İsfahanın Nurkamaliyyə nəslinin böyüklərindən olan Əhməd bəy Nurkamal ali divanın vəziri təyin olunmaq şərəfinə nail olub, altı il tam ixtiyarla vəzir oldu. Ondan sonra bu [Səfəvi] dövlətinin yolunda Biyə-pəs hakimi Müzəffər sultana qarşı mübarizədə müəyyən zəhmətlər çəkmiş və onun əlindən xilas olaraq əşrəfin hüzuruna gəlmiş Qazi Cahan yenidən öz qabiliyyətinin və istedadının çoxluğu və o həzrətin ona göstərdiyi xüsusi şəfqət səbəbindən, Nəcmi-Saninin qohumu olan Mir İnayətulla Xuzani İsfahani ilə şərikli olaraq [vəzir təyin edildi]. Lakin bu sonuncusunun bəzi nalayiq əməlləri əşrəfin xoşuna gəlmədi. Xüsusən də o, ali məclisin pişxidmətləri zümrəsindən olan və şahın himayəsi altında olan Basliq bəy adlı bir oğlana münasibətdə eşqi və aşiqliyi ucbatından ittiham olunaraq, hökmdarın qəzəbinə düçar oldu. O, dövlətə qarşı müxalifət etməsi və yağı olması Gilan hadisələri yazılarkən qeyd olunmuş Müzəffər sultanla birlikdə dəmir qəfəsə salınaraq, Təbrizin Sahibabad [ərazisində] yerləşən Həsən padşah məscidinin iki minarəsi arasından salladılıb yandırıldı.

...Onun ölümündən sonra Qazi Cahan şəriksiz vəzir olub, on beş il ərzində tam əzəmət və iqtidarla təkbaşına vəzirlik etdi. ġah həzrətləri işlərin dəqiqlikləri haqqında daim vaxtı-vaxtında məlumat almaq istədiyindən [Qaz Cahan] həmişə divani məsələlər barədə ona məlumat verir və bu işin öhdəsindən müvəffəqiyyətlə gəlirdi. Lakin o, vəzifədə olduğu son zamanlarda vaxtında hesabat verə bilmirdi və bu işdə fasilələr meydana gəlirdi. Buna görə də cənab Qazi işin öhdəsindən artıq lazımınca gələ bilmədiyini anlayaraq, yaşının çoxluğunu və ahıllığını əsas gətirib, tutduğu

vəzifədən istefa etdi. O, xahiş edərək, şah həzrətlərini bu [istefanı] qəbul etməyə razı saldı və şah onu vəzirlikdən azad etdi. [Qazi Cahan] 960-cı (1553) ildə Tanrının rəhmətinə qovuşdu. Onun ölüm tarixi barədə deyilmişdir:

«Əgər on çıxarsan «Qazi Cahan»dan,
Ölüm tarixindən taparsan nişan».

O cənabın bəyənilmiş vəsfləri dillərdə və ağızlarda əzbər idi. Doğrudan da, bu böyük dövlətdə onun kimi özündə qabiliyyət, istedad, fəzilət və kamal məfhumlarını cəmləşdirmiş bir vəzir görünməmişdi. Onun şanının və ululuğunun yüksəkliyini sözlə təsvir etmək mümkün deyildir. O boyda şan-şöhrətə, əzəmətə və cah-calala malik olmasına baxmayaraq, camaatla münasibətlərini təvazökarlıq və sadəlik əsasında qurardı. Heç vaxt gözəl davranışdan və təvazökar ədəbdən əl çəkməzdi. Hər bir elm sahəsindən olan alimlərin arasında baş verən mübahisələrə xoş niyyətli müdaxilələr edərdi. Onun sözünü nüfuzlu alimlər mötəbər hesab edərdilər. İnşa yazmaqda və səlis danışmaqda mahir idi. Onun yazdığı ibarələr həm inşa səhifələri yazanlar, həm də siyaq və hesabla məşğul olanlar üçün tutarlı bir örnək idi. Gözəl xətlə yazmaq baxımından kamal dərəcəsinə malik idi. Ondan sonra qələm sahiblərindən dörd nəfər vəzirlik mənsəbinə layiq görülmüşdü" (82).

İsgəndər bəy münşi öz əsərində Qazi Cahandan sonra Xoca Qiyasəddin Əlinin, Ağa Məhəmməd Fərahaninin, Xoca Əmir bəy Keçəçi Təbrizinin, Mirzə bəy Əbhərinin və Məsum bəy Səfəvinin vəzir olmalarına işarə etmişdir: "Qiyas Kəhrə [adı] ilə məşhurlaşmış və ġərif Təbrizi [adı] ilə təriflənmiş Xoca Qiyasəddin Əli yaxşı bir mühasib idi və bəzi vaxtlarda mustovfi əlməmalik də olmuşdu. Ağa Məhəmməd Fərəhani - Fərəhan vilayətinin əyanlarından idi. Xoca Əmir bəy Keçəçi Təbrizi - Mir Zəkəriyya Keçəçinin qohumlarından olub, Əmir bəy Möhürdar [adı] ilə məşhur idi. O, qabiliyyəti, istedadı və fəziləti özünə şüar etmiş bir kişi idi. Əvvəlcə möhürdar Qazı xan Təkəlünün vəziri olmuş,

sonra bir müddət Xorasanda da vəzir olmuşdu. Cəfr, əcdad (ədədlər) və nirəncat elmlərində böyük məharətə malik idi. O, günəşin qabağını tutmaqda ittiham olunub, bir müddət Ələmut qalasında məhbus edilmişdi. İsmayıl mirzə zamanında həbsdən nicat tapsa da, Öz həyat vədəsini ölüm mələyinə tapşırdı (öldü). Mirzə bəy Əbhəri - Əbhərin köhnə nəsillərindən idi. Əvvəlcə qorçubaşı Sevindik bəy Əfşarın vəziri olmuş, sonra bir aralar divan vəziri vəzifəsini tutmuşdu. Vəzirlik məsələləri bir müddət bu əziz şəxs tərəfindən həyata keçirilmişdi" (83).

Qazi Cahandan sonra vəziri-əzəm vəzifəsinə təyin Məsum bəy də adlı-sanlı qızılbaş əmirlərindən biri idi. Mənbələrdə olan məlumatlara görə, Şah Təhmasib ona çox məsuliyyətli vəzifələrin icrasını da həvalə edərdi. Məsələn, Məsum bəy bir müddət Şah Təhmasibin oğlu Heydər Mirzənin lələsi olmuşdu. Yəni Şah Təhmasib öz oğlunun təlim-tərbiyəsini ona həvalə etmişdi. Şah Təhmasibin qardaşı Əlqas Mirzə mərkəzləşdirilmiş dövlətə qarşı qiyam qaldıranda Səfəvi şahının tapşırığı ilə Məsum bəy onunla danışıqlar aparmaq üçün Şirvana göndərilmişdi (84).

Səfəvi qoşunlarının 1551-ci ildə Ərciş qalası üzərinə yürüşünə də Məsum bəy rəhbərlik etmişdi. "Əhsənüt-təvarix" əsərində bu yürüşlə bağlı belə bir qeyd vardır: "Həzrət (Şah Təhmasib) aləm sakinlərinin şahzadəsi İsmayıl mirzəni, Məsum bəy Səfəvini və Şahqulu xəlifə Möhürdarı çoxsaylı qazilərdən ibarət bir dəstə ilə Rum padşahının vilayətinə basqına yolladı və Sultan Hüseyn mirzə ilə Şahverdi sultan Ziyadoğlunu Kürdüstana basqına göndərdi. Aləm sakinlərinin şahzadəsi İsmayıl mirzə Vanı, Vostanı, Ərcişi və Adilcevazı qarət edib sağlam şəkildə və qənimətlə orduya qayıtdı" (85).

Məsum bəy Səfəvi daşıdığı vəzifəyə görə mənbələrdə "əmir-divan" və "etimadüddövlə" kimi də xatırlanmışdır. Elə mənbə məlumatlarına görə, belə bir qənaətə gəlmək mümkündür ki, Məsum bəy son dərəcə böyük nüfuza malik idi və Şah Təhmasib dövrünün ən qüdrətli vəziri-əzəmi olmuşdu. Elə buna görə də Şah Təhmasib tərəfindən daim rəğbətlə qarşılanırdı və onun fəaliyyəti yüksək qiymətləndirilirdi. "Tarix-i aləmara-yi Abbasi"

əsərində Məsum bəy Səfəvinin vəzirliyi haqqında belə qeydlər vardır: “Bütün bunlardan sonra divan əmiri Məsum bəy Səfəvi yüksək vəzirlik mənsəbinə layiq görüldü. O, mülki və hərbi işləri özündə cəmləşdirmişdi və neçə il dövlətin intizamını həyata keçirərək, hökmdarın qayğısı ilə əhatə olunmuşdu. Cənnətməkan şah həzrətləri o cənaba «əmioğlu», yəni «əmizadə» deyə xitab edərdi. Cəmşid məqamlı şah həzrətləri ilə Rum məmləkətinin hökmdarı Sultan Səlim ibn Sultan Süleyman arasında sülh qaydaları bir daha təsdiq olunduqdan sonra Əcəm diyarından Beytül-hərama hacıların gediş-gəlişi bərpa olunduqda sözügedən şəxs doğru dəlillər əsasında o ali ziyarəti həyata keçirmək arzusuna düşərək, hər iki padşahdan icazə və rüxsət alıb, zəmanə fazilləri zümrəsindən olan oğlu Xanmirzə ilə birlikdə yola çıxdı. Lakin rumilər ona qarşı xəyanətkarlıq etdilər. Belə ki, o, artıq ehram bağlamış bir vəziyyətdə ikən bədəvi ərəblərin libasını geyib, bir gecə onun üzərinə tökülüşdülər və onu oğlu və bir neçə nəfər dostu ilə birlikdə həcc karvanının ortasında şəhidlik dərəcəsinə çatdırıb, bu yaramaz hərəkəti ərəb quldurlarının törətdiyini bildirdilər. Sözügedən şəxs səfərdə olduğu əyyamda onun vəziri Əmir Siracəddin Əli Qumi bu vəzifəni icra etməklə məşğul idi. Məsum bəyin öldürülməsindən sonra bir neçə il ərzində heç kim vəzirlik kürsüsünə təyin olunmadı. Yalnız [Şah Təhmasibin] həyatının axırlarında Mir Seyid Hüseyn Fərəhani və Xoca Cəmaləddin Əli Təbrizi bu ali mənsəbə layiq görülərək, bir il ərzində o xidməti yerinə yetirdilər. Lakin onların davranışı əşrəfin xoşuna gəlmədi və o, onların hər ikisini o ali mənsəbdən azad edib, bir daha heç kimsəni bu vəzifəyə təyin etmədi” (86).

Mənbələrdə Şah Təhmasibin hakimiyyəti illərində 12 nəfərin vəziri-əzəm vəzifəsində olduğu bildirilir (yuxarıdakı sıralanmada isə onların sayı çoxdur) və əlavə olunur ki, bu vəzirlər arasında Qazi Cahanla Məsum bəy digərlərindən seçilirdilər. Məsum bəy Səfəvinin qətlə yetirilməsindən sonra bu vəzifə Əmir Seyid Şərif Saniyə təklif olundu (87).

Səlahiyyətlərinin tədricən genişlənməsi ilə vəzir səltənət həyatında çox mühüm vəzifələrin icrasına məsuliyyət daşıyırdı.

Mənbələrdə göstərilir ki, vəzir səltənətin bütün mülki işlərinə və maliyyə məsələlərinə nəzarət edirdi. Səltənətin hüdudlarını nəzərə almaqla vəzirin üzərinə çox böyük miqyasda işlərin düşdüyünü təsəvvür etmək mümkündür. Konkret olaraq bildirilirdi ki, vəzirin vəzifəsinə divan gəlirinin artırılması, dövlət tapşırıqlarının yerinə yetirilməsi, inşaat və əkinçiliyin inkişaf etdirilməsi, qoşunlara və səltənət əhlinə diqqət göstərilməsi, bütünlükdə vilayətin abadlaşdırılması daxil idi. Səltənət divanının bütün maliyyə sənədləri vəzirin möhürü ilə möhürləndikdən sonra qüvvəyə minirdi. Vəziri-əzəmin hərbi məsələlər üzrə də müəyyən səlahiyyətləri var idi. Qeyd edildiyi kimi, o, da qoşunların toplanmasını və saxlanmasını diqqət altında saxlamalı və bu məsələdən irəli gələn məsələlərin həllində iştirak etməli idi (88).

### d) ali divan, müstövfiyül-məmalik

Səltənətin mülki və maliyyə idarəçiliyinin həyata keçirilməsində vəziri-əzəmə Ali divan adlanan bir qurum kömək edirdi. Bu qurumun təkmilləşib kamilləşməsi Səfəvi dövlətinin sonrakı dövrlərinə aid olsa da, Şah Təhmasibin hakimiyyəti illərində də onun varlığını müşahidə etmək mümkündür. Ali divana səltənət idarəçiliyində və saray həyatında xüsusi əhəmiyyət kəsb edən qurumlar daxil idi. Həmin qurumlara səltənətin maliyyə işlərinə baxan Dəftərxana və yazışmalara məsuliyyət daşıyan Darülinşa daxil idi. Bu qurumların hər ikisi səltənət idarəçiliyndə özünəməxsus yeri olan qurumlar idi və onların hər ikisinə də kifayət qədər təcrübəli və sədaqətli əyanlar daxil idilər.

Dəftərxananın meydana gəlməsi səltənətin və ya dövlətin gəlirlərinin yığılması və onların qeydiyyata alınaraq xəzinəyə toplanması ilə bağlı idi. Bu işlərə bir nizamlılıq gətirilməsi üçün əvvəlcə xüsusi adamlar ayrılmış, onlara xüsusi vəzifələr tapşırılmış və sonra da bu işlərin sistemləşdirilməsi maliyyə məsələləri ilə məşğul olan ayrıca bir qurumun formalaşmasına yol açmışdı. Səfəvi hakimiyyəti dövründə bu qurum Dəftərxana adlanırdı. Ali divana daxil olan Dəftərxana Müstövfiyül-məma-

lik tərəfindən idarə olunurdu. O da öz növbəsində vəziri-əzəmə tabe idi. Müstövfiyül-məmalik də səltənət idarəçiliyində mühüm bəndlərdən biri kimi tanınırdı. Səltənət hüdudlarında cərəyan edən maliyyə prosesləri onun rəhbərliyi altında həyata keçirdi. Bütün alış-veriş işləri, onlardan vergilər tutulması, vilayətlərdən toplanacaq vergilərin miqdarınını müəyyənləşdirilməsi, onların toplanması, qeydiyyatı, xəzinəyə daxil edilməsi, dövlət xərclərinin icrası müstövfiyül-məməlikin nəzarəti altında baş verirdi. Səltənət daxilində xəzinə gəlirlərinin bütün mənbələri bu vəzifəli əyanın nəzarəti altında idi. Heç şübhəsiz ki, hərbi yürüşlər zamanı əldə edilmiş qənimətlərin mühasibatı və onların xəzinəyə yönləndirilməsi də müstövfiyül-məmalikin rəhbərliyi ilə baş verirdi. Müstövfiyül-məmalik xəzinə gəlirlərinin qeydiyyatına, toplanmasına nəzarət etdiyi kimi, xəzinə hesabına baş verən ödənmələrin də vaxtında, düzgün həyata keçirilməsinə və onların düzgün qeydiyyatının aparılmasına məsuliyyət daşıyırdı. Belə ki, səltənət idarəçilik sistemində çalışan əmir və əyanların, o cümlədən bəylərin, xanların, hakimlərin, vəzirlərin və digərlərinin, həmçinin qoşun əmirlərinin, qoşun üzvlərinin və digərlərinin maaşlarının, tiyullarının, mükafatlarının, illik məvaciblərinin və digər maliyyə və nağd ödənclərinin həyata keçirilməsinə də müsövfiyül-məmalik cavabdeh idi. Vəziri-əzəm maliyyə məsələlərində müstəqil qərar vermək səlahiyyətinə malik olsa da, o öz qərarlarını bir qayda olaraq müstövfiyül-məmaliklə və müstövfiyül-xassə ilə razılaşdırırdı və onların münasibəti bilinmədən maliyyə işləri ilə bağlı qərarlar qəbul edilməzdi. Vəziri-əzəm və şah dəftardarı ay ərzində baş verən xəzinə xərclərini sistemləşdirərək müstövfiyül-məmalikə təhvil verir və o da yekun mühasibatı aparırdı. Mövcud olan məlumatlara görə, Şah Təhmasibin hakimiyyəti illərində bu adamlar müstövfiyül-məmalik vəzifəsində olmuşdular: Mir Məsud Qolpayqani (1524-1532), Xoca Şahhüseyn Saruği (1532), Xoca Qiyasəddin Əli (1551-ci ilə qədər), Xoca Qasım Nətənzi (1551), Xoca Mülkməhəmməd İsfahani (1560-cı illərdə), Mir Qiyasəddin Mahmud Şəhristani İsfahani (1573), Mirzə Şükrulla İsfahani (1573), Mirzə Şahqari (1573-1576) (89).

“Tarix-i aləmara-yi Abbasi” əsərində Şah Təhmasib dövrünün müstövfiyül-məmalikləri haqqında belə bir məlumat vardır: “Cənnətməkan şah zamanında ali divanın məlum və məşhur olan böyük mustovfiləri on nəfər olmuşlar. [Bunlardan] yeddi nəfəri mustövfi əl-məmalik, üç nəfəri isə mustövfiyani-bəqaya idilər. [Mustövfi əl-məmaliklərdən] əvvəlincisi Mir Məsud Cərbadqanidir. Digərləri bunlardır: Xoca Hüseyn Namsaruni, Qiyas Kəhrə Şirazi [adı] ilə məşhur olan Xoca Qiyasəddin Əli, Xoca Qasım Nətənzi, Xoca Məlik İsfahani, Mir Qiyasəddin Mahmud Şəhristani və məşhur Mirzə Şükrulla İsfahani. Bu yeddi nəfər mustovfi əl-məmalik olmuşlar. Bu təbəqə (mustövfi əl-məmaliklər) içərisində şanının ucalığına, böyüklüyünə, iqtidarına və xidmət zamanının sürəkliliyinə görə həmkarlarından üstün olan və camaat arasında nəfsi dəyanəti, təmizliyi, düzgünlüyü, xalqın xeyrini güdməyi və haqq tərəfdarları olması ilə məşhurlaşan şəxs Xoca Qasım Nətənzi idi. O, həmin [Nətənz] vilayətinin oyanlarından və əhalisindən idi. O, hesab biliciliyi və siyaq elmi qanunları sahəsində mahir idi və digərlərindən daha artıq dərəcədə padşahın qayğıkeşlik və şəfqət nəzərləri ilə əhatə olunmuşdu. Həmişə behişt bəzəkli məclisdə xalqın ehtiyaclarının təmin olunmasına, müsəlmanların vəziyyətinin yaxşılaşdırılmasına və hökmdarın şəninə dualar söylənməsinə səbəb olacaq xeyirli kəlmələri açıq-aşkar, çəkinmədən dilə gətirərdi. Dünyəvi qərəzlərdən uzaq olduğuna və xeyirxah niyyətlər güddüyünə görə onun fikirləri qəbul edilərdi və onun xidmətləri həmişə əşrəfin mübarək xatirinə xoş gələrdi. Həqiqətən də, nəcib və xeyirxah insan idi. O, «bəqaülxeyrat »ın (xeyriyyə mərkəzlərinin) banisi idi. Ona olan hörmətin çoxluğu üzündən onun ölümündən sonra onun möhtərəm övladları da atalarının göstərdiyi xidmətin müqabilində [şahın] qayğıkeşliyinə və şəfqətinə layiq görülərək, uca mənsəblərə yüksəldildilər. Onun [ölümündən] sonra yuxarıda adı çəkilmiş Mir Qiyasəddin Mahmud mustövfi əl-məmalik oldu. Lakin o, qısa müddətdən sonra işdən çıxarıldı. Birmüddət mustövfi mənsəbini hökmdarın dəftərxana avaracanevisləri arasında bölüşdürüldü və hər bir mustövfi öz öhdəsinə düşən işləri yerinə

yetirməyə başladı. Bir müddət isə [mustövfi əl-məmalik] səlahiyyətlərini icra etmək üçün bir-iki nəfər naib təyin olundu. Nəhayət, yenidən yuxarıda adı çəkilmiş Mir Qiyasəddin Mahmud mustövfi əl-məmalik vəzifəsinə gətirildi. O, heç də dərvişsayaq xasiyyətdən, nəfsi təmizlikdən və pəhrizkarlıqdan xali olan bir adam deyildi. Bu dəfə onun xidmət müddəti davamlı oldu. Cənnətməkan şahın vəfatından üç il öncə o, işdən çıxarıldı və yuxarıda adı çəkilmiş Mir Şükrulla bu rütbə ilə başucalığı tapdı. O, Xoca Həbibulla İsfahaninin oğludur. Atası sağlam nəfsli, təmkinli, vüqarlı, nəcib, yaxşı xəttə malik, gözəl davranışlı bir kişi olub, neçə-neçə illər ali divanda xidmət göstərməyə məmur edilmişdi və bir neçə il ulu dərgahda heç bir divan mənsəbinə təyin olunmamasına baxmayaraq, behişt bəzəkli məclisə yol tapıb, məclis iştirakçıları zümrəsinə və divannevislər firqəsinə daxil edilmişdi. Beləliklə, qeyd olunduğu kimi, Mir Qiyasəddin Mahmud Şəhristani işdən çıxarılaraq, Mirzə Şükrulla ilə əvəz edildi və cənnətməkan şahın vəfatı zamanınadək təkbaşına həmin xidmətin həyata keçirilməsi ilə məşğul oldu. İrəlidə işarə ediləcəyi kimi, o, İsmayıl mirzə zamanında vəzir və etimadüddövlə oldu, İsgəndər şanlı nəvvabın zamanında isə Xorasanın vəziri və müməyyizi təyin edildi, həm də [İmam Rzanın] feyz bəxş edən məqbərəsinin mülkiyyətinin «touliyyət»i ona tapşırıldı. Amma malik olduğu vüqardan irəli gələn və simasından müşahidə olunan təkəbbür və lovğalıq ucbatından və zəmanə xudpəsəndlərinin heç də xoşagəlimlilərindən olmadığı səbəbindən onunla Xorasanın bəylərbəyisi arasında narazılıq yarandı və onun işləri lazım olduğu kimi getmədi. O, Damğana gəlib, orada fani dünyadan əbədiyyət aləminə köçdü” (90).

Səltənətin idarəçiliyində, müdafiəsində, daxili fəaliyyətin qurulmasında iştirak edən böyük qurumların da müstövfiləri var idi. Yəni maliyyə məsələləri ciddi bir məsələ olduğu üçün həmin qurumların öz maliyyə məmurları var idi. Ona görə də mənbələrdə müxtəlif fəaliyyət sahələrinə aid olan müstövfilərin adları ilə də rastlaşmaq mümkündür. O cümlədən eşikağası müstövfisi, topçubaşı müstövfisi, tüfəngçibaşı üüstövfisi, qorçu müstövfisi

qullarağası müstöbfisi və s. (91). Onlar fəaliyyət sahələrinə aid olan maliyyə məsələlərinin həllinə məsuliyyət daşıyırdılar.

Dəftarxananın formalaşmasının sonrakı dövrlərində müstövfiyül-məmalikin tabeliyində müəyyən sahələrə məsuliyyət daşıyan əyanlar çalışırdılar: nazir, dəftər darğası, tövcih sahibi, zabitənüvis, avracenüvüs və digərləri. Sözsüz ki. Bu vəzifə sahiblərinin vəzifələrini Şah Təhmasib hakimiyyəti illərində də icra edən adamlar var idi. Məlumdur ki, Dəftərxanada ali divan katibləri də çalışırdılar. Onların xidmətə götürülməsi müstövfiyül-məmalikin səlahiyyətində idi. Bütünlükdə, müstövfiyül-məmalik Dəftərxanaya daxil olan vəzifəli əyanlar vasitəsi ilə ona həvalə olunmuş vəzifələri icra edirdi. O, yalnız onun məsuliyyət sahəsinə aid olan vəzifələrin icrasına nəzarət etmirdi. Eyni zamanda tabeliyində olan xidmət adamlarını vaxtaşırı təlimatlandırır və onların fəaliyyətini istiqamətləndirirdi (92).

Ali divanın tərkibində vəziri-əzəmə tabe olan vəzifəli məmurlardan biri də müstövfiyül-xassə idi. Yəni xüsusi işlər üzrə müstövfi. O da maliyyə məsələləri ilə məşğul olurdu. Amma ehtimal edilir ki, müstövfiyül-xassə xüsusi maliyyə vəsaitlərinin idarə edilməsi ilə məşğul idi. Bu vəzifə sahibinin vəzifəsi haqqında mənbələrdə və elmi-tarixi ədəbiyyatda geniş məlumatlar mövcud deyil. Xüsusi maliyyə işləri deyiləndə, çox güman ki, bir başa şaha, onun ailəsinə, şahın xüsusi nəzarəti altında olan fəaliyyət sahələrinin maliyyələşdirilməsinə və ya maliyyə daxil olmalarına aid olan məsələlər nəzərdə tutula bilərdi. Mövcud olan məlumata görə, şaha aid olan torpaq sahələrinin mühasibatı, bu torpaqlarından əldə olunan gəlirlərin qeydiyyatı və onların xərclənməsinə nəzarət də müstövfiyül-xassəyə aid idi. Məlumdur ki, hələ Şah İsmayılın hakimiyyəti illərində belə bir vəzifə mövcud idi və bu vəzifəyə şahın yaxın adamları təyin edilirdi. Şah Təhmasibin hakimiyyəti illərində də müstövfiyül-xassə mövcud olmuşdu. Bu vəzifə sahiblərindən yalnız birinin adı elmi-tarixi ədəbiyyatda öz əksini tapmışdır: Əbdi bəy Şirazi (93).

Mənbələrdə müstövfiyül-ammə və müstövfiyül-moqufat adlı maliyyə işçilərinin olması haqqında da məlumatlar vardır. Əgər

müstövfiyül xassənin vəzifəsi daha çox şahın və şah ailəsinin maliyyə məsələləri ilə məşğul olmaq idisə, müstövfiyül-ammə də səltənətə aid olan ümumi maliyyə məsələlərinin icrasını öz üzərinə götürmüşdü. Müstövfiyül moqufat isə vəqf mülkiyyətinə aid olan maliyyə məsələləri ilə məşğul olurdu (94).

Vəziri-əzəmin rəhbərliyi altında maliyyə məsələləri ilə məşğul olan vəzifəli əyanlar yalnız bunlardan ibarət deyildi. Bu sahəyə aid çoxlu sayda müxtəlif vəzifələri icra edən əyan və məmurların adları ilə rastlaşmaq mümkündür. Yüksək vəzifəli maliyyə məmurlarının yanında müəyyən sayda fərraşlar, katiblər, işçilər və xidmət personalı var idi. Adları çəkilən bu vəzifə sahibləri, habelə mirzələr, qeydiyyatçılar və digərləri maliyyə sistemində çalışanların ən aşağı təbəqəsi idilər (95).Görünən odur ki, maliyyə işlərinin düzgün qurulması üçün ciddi bir sistem formalaşmışdı və bu sistem də davamlı və ardıcıl fəaliyyət göstərirdi. Şübhə yoxdur ki, Şah Təhmasibin hakimiyyəti illərində bütünlükdə səltənətin maliyyə siyasətinin formalaşmasında da malliyyə mənsublarının özünəməxsus fəaliyyəti var idi. Çünki maliyyə vəsaitlərinin gəlirləri və xərcləri, onların necə toplanması və istiqamətləndirilməsi proqnozlaşdırılmasaydı səltənət idarəçiliyinin düzgün qurulması da müəyyən çətinliklərlə qarşılaşa bilərdi.

Maliyyə sahəsinə məsuliyyət daşıyan vəzifələrdən biri də **məirül-məmalik** idi. Bu vəzifə sahibi müstövfiyül-məmalikə deyil, vəziri-əzəmə tabe idi. Amma onlar öz fəaliyyətlərini bir qayda olaraq, bir-biriləri ilə qarşılıqlı əlaqədə qururdular. Məirül-məmalikin də rəhbərliyi altında xeyli sayda insanlar çalışırdılar. Bu vəzifə sahibinin başlıca vəzifə pulların kəsilməsi və buna aid olan məsələlər idi. Məirül-məmalikin rəhbərliyi altında məir və zərbçibaşı var idi. Məir zərb (pul kəsilməsi) üçün işlədilən qiymətli metalların əyarını müəyyənləşdirir, zərbçibaşı isə səltənət daxilində pulların kəsilməsi işlərinə rəhbərlik edirdi. Bu vəzifə sahiblərinin də hər birinin rəhbərliyi altında çoxlu sayda təcrübəli mütəxəssislər və ustalar çalışırdılar (96). Şah Təhmasibin hakimiyyəti illərində də qiymətli metalların işlənməsi, istifadəsi, təmizlənməsi və onlardan pul kəsilməsi sahəsində də

ciddi bir təcrübə mövcud idi. Bunun üçün xüsusi emalatxanalar da var idi. Hər bir hakimiyyətin bərqərar olmasının göstəricilərindən biri həmin hakimiyyəti bərqərar etmiş və ya hakimiyyəti qəbul olunan adamın adına pul kəsilməsi idi. Şah Təhmasib də hakimiyyətə gələndən sonra onun adına pul kəsildi. Onun hakimiyyəti illərində müxtəlif dəyərdə olan metal pullar kəsilmişdir. Bu pulların arasında qızıldan, gümüşdən və misdən kəsilmiş pullar da var. Gümüş pulların daha çox kəsilməsi güman olunur. Bir qayda olaraq bu pullar dairəvi şəkildə olurdu. Pulların üzərində şahların adına da rast gəlmək olardı, dini məzmunlu yazılar və dövlətin rəmzləri həkk olunurdu. Başqa yazılara və təsvirlərə də dəmir pullar üzərində yer verilirdi.

**e) münşi-məmalik**

Vəziri-əzəmin rəhbərliyi altında fəaliyyət göstərən mühüm vəzifəli adamlardan biri də **münşi-məmalik** (münşiyül-məmalik) idi. Münşi-məmalikin rəhbərliyi altında da xüsusi bir qurum fəaliyyət göstərirdi ki, bu qurum darül-inşa (yazı evi) adlanırdı. Şah sarayı tərəfindən və şah adından aparılan bütün yazışmalar münşi-məmalikin (məmləkət münşisi) rəhbərliyi altında icra olunurdu. Bu yazışmalara şah fərmanları, şah göstərişləri, dövlət məktubları, rəsmi sənədlərin hazırlanması, şah təlimatları və s. aid idi. Mənbələrdən məlumdur ki, bu sənədlərin hər birinin də müxtəlif sayda növləri və formaları var idi. Məlumdur ki, istər Şah İsmayıl hakimiyyəti illərində, istərsə də Şah Təhmasib hakimiyyəti illərində dövlət idarəçiliyi qızılbaş əmir və əyanları üzərində qurulmuşdu. Bəzi mütəxəssislərin fikrincə, şah sarayında yalnız münşi-məmalikin rəhbərliyi altında qeyri-türk əyanlarının və məmurlarının mövcudluğuna rast gəlmək olardı. Bu da dövrün yazışma ənənələrinin davam etməsi, yazışmaların fars dilində aparılması təcrübəsinin saxlanması ilə bağlı idi. Yazışmaların fars dilində aparılmasına olan ehtiyac isə bu sahədə çalışan insanların arasında farsdillilərin olmasını istisna etmirdi. Doğrudur, yerli türklər arasında da fars dilinin incəliklərinə bələd

olan az deyildi və Səfəvi dövlətinin ilkin dövrünə aid olan xeyli sayda farsdilli tarixi mənbələr məhz türklər tərəfindən yazılmışdı. Bununla belə, bu sahəyə farsdilli əyanların və bilik adamlarının cəlb edilməsinin mümkünlüyü qəbul edilə bilər.

Dövrün yazışma məsələlərinə çox sərt tələblər irəli sürülürdü. Şah Təhmasibin hakimiyyəti illərində dövlət yazışmalarının aparılmasına xüsusi diqqət yetirilirdi və hətta bu sahədə mövcud olan təcrübəyə xeyli yeniliklər gətirilmişdi. Məsələn, təkcə onu xatırlatmaq kifayətdir ki, 1566-cı ildə Sultan Səlimin Osmanlı taxtına çıxması münasibəti ilə Şah Təhmasibin ona göndərdiyi təbrik məktubu o vaxta qədər şah adından yazılmış ən böyük məktub sayıla bilər. Bu məktubda 1149 beytlik nəzm parçası var idi və həmin nəzmin də 95 beyti türk dilində idi (97). Belə bir məktubun yazılması isə bu sahədə çox ciddi təcrübənin olmasını tələb edirdi.

Bu baxımdan münşi-məmalikin üzərinə də çox ciddi məsuliyyət düşürdü. Onun rəhbərliyi altında fəaliyyət göstərən münşilərdən xüsusi bilik və təcrübə tələb olunurdu. Həmin münşilər hər şeydən əvvəl türk, fars və ərəb dillərini, ərəb dilində yazı normalarına kamil bilməli idilər. Məlumdur ki, o dövrün bütün yazışmaları ərəb qrafikasında aparılırdı və bu əlifbaya və bütünlükdə ərəb dilinə kamil bələd olmadan yazı orfoqrafiyasına riayət etmək də mümkün deyildi. Ərəb qrafikası türk dilində yazışma aparmaq üçün müəyyən çətinliklər yaradırdı. Buna görə ərəb qrafikası ilə türk dilində yazışma aparılmasının da müəyyən normaları var idi ki, münşi bu normalara da bələd olmalı idi.

Dövrün yazışmalarında Quran kitabına, islam peyğəmbərinin hədislərinə çoxlu sayda istinadlar edilirdi. Bəzi hallarda məktubun başlanğıc hissəsində dini məzmunlu fikirlərə böyük yer ayrılırdı. Yəni bu yazışmanı icra edən şəxs islam şəriətini, Quran kitabını, islam peyğəmbərinin hədislərini, onlarla bağlı olan təfsirləri o dərəcədə yaxşı bilməli idi ki, yazışmanın, toxunulan məsələlərin mahiyyətinə uyğun olan ayələri, hədisləri tapa və onları yazışmanın mətni ilə əlaqələndirə bilsin. Məlumdur ki, Şah Təhmasib həm də Səfəvi təriqətinin mürşidi idi. Deməli onun

yazışmalarının layihəsini hazırlayan münşilər həm də təsəvvüf və təriqət biliklərinə dərindən bələd olmalı idi. Şah Təhmasib dövrünün yazışmalarında tarixi şəraitlə, o dövrdə inkişaf etmiş müxtəlif elmlərlə, incəsənət və mədəniyyət haqqında maraqlı fikir və ideyalarla rastlaşmaq mümkündür ki, belə məsələlərin yazışmalarda əks etdirilməsi də münşilərdən zəngin bilik və dünyagörüşü tələb edirdi.

Şah Təhmasibə aid olan yazışmalarda çoxlu sayda nəzm parçalarına da rast gəlmək mümkündür. Elə Sultan Səlimə göndərilən təbrik məktubu demək olar ki, bütünlüklə nəzm üzərində qurulmuşdu. Onun digər məktublarında da çoxlu sayda nəzm parçalarına da rastlaşmaq mümkündür. Şah Təhmasib nəzm qoşmaq istedadına malik olsa da, onun yazışmalarında olan bütün nəzm parçalarının məhz onun tərəfindən qoşulduğunu söyləmək çətindir. Bu mənada şah yazışmalarını aparan adamların şairik istedadının olması da onlara qarşı irəli sürülən tələblərdən biri ola bilərdi.

Şah Təhmasibin özünün də yazışmaların aparılmasında, sənədlərin hazırlanmasında iştirak etdiyini istisna etmək mümkün deyildir. İstər Osmanlı sultanlarına göndərdiyi məktublarda, istərsə də özbək hakimlərinə göndərdiyi məktublarda elə məqamlar vardır ki, onların məhz Şah Təhmasib tərəfindən deyildiyinə və ya yazıldığına şübhə yeri qalmır. Bəllidir ki, Şah Təhmasibin yazmaq istedadı və marağı da var idi. Onun günümüzə gəlib çıxmış təzkirəsi və nəzm parçaları da bu deyilənlərə bir sübutdur. Yəni Şah Təhmasibin yazmaq qabiliyyəti, fikrin ifadə bacarığı yazışmaların aparılması ilə məşğul olan münşilərdən də bu sahədə ciddi təcrübəyə malik olmasını tələb edirdi. Əks təqdirdə, onların fəaliyyəti Şah Təhmasibin təqdiri ilə qarşılanmazdı.

Dövrün yazışmalarının özünəməxsus normaları var idi. Rəsmi yazışmaları adi təhkiyə forması deyildi. Sənədin janrından asılı olaraq onun necə başlanması, əvvəlcə hansı məsələlərin önə çəkilməsi, əsas məzmunun necə ifadə olunması və əsaslandırılması və yazışmanın necə tamamlanması müəyyən standartlar çərçivəsində aparılırdı. Bu standartlara riayət edilməklə yaradıcı ya-

naşma nümayiş etdirilməsi isə yazışmanın yüksək keyfiyyətlə icrasına dəlalət edirdi. Lazımi tələb və normalara riayət edilməsi həm də bir ədəb norması kimi qəbul edilirdi.

Bir sözlə, şah yazışmalarının aparılmasının xüsusi bir təcrübəsi formalaşmışdı və bu mənada mütəxəssislər bu sahədəki fəaliyyəti bir sənətkarlıq və yaradıcılıq kimi də dəyərləndirirlər. Mövcud olan məlumatlara görə Şah Təhmasibin hakimiyyəti illərində Mir Münşi Hüseyni Qumi, Mir Zəkəriyyə, Xoca Mirak, Məhəmməd bəy, Mirzə Kafi, Qazi Abdulla Cuyəni, Məhəmməd bəy və Xoca Əlaəddin Mənsur münşi-məmalik vəzifəsini icra etmişdilər (98).

İsgəndər bəy Münşi isə öz əsərində Şah Təhmasib sarayında münşi-məmalik vəzifəsini kimlər tutması haqqında belə bir məlumat verirdi: "Münsilər arasında Məhəmmədi bəy Təbrizi Keçəçi vardı ki, o, Mir Zəkəriyyanın qohumlarından olub, münşi əl-məmalik idi və uzun sürən bir xidmətkarlıq yolu keçmişdi. Onun ölümündən sonra münşi əl-məmalik vəzifəsi təkcə bir nəfərə tapşırılmadı. Belə ki həmin bu Məhəmmədi bəylə qohumluq əlaqəsinə malik olan Mirzə Məhəmməd ibn Xoca Əlibəy Sorx-i Kirmani, onunla yanaşı, Qazı Abdulla Xoyi və Xoca Əlaəddin Mənsur Kərəhrudi [üçlükdə] münşi əl-məmalik vəzifəsinin həyata keçirilməsi ilə məşğul olaraq, məclis iştirakçıları zümrəsinə daxil oldular. Mirzə Məhəmməd, İsmayıl mirzə zamanında münşi əl-məmalik olub, yetərincə əziz və möhtərəm bir şəxsə çevrildi, İsgəndər şanlı nəvvab zamanında Mirzə Salman qətlə yetirildikdən sonra isə mustövfi əl-məmalik oldu və nəhayət, Əbu-Talıb mirzə zamanında vəzirlik mənsəbinə yüksəldi. Onun əhvalatının təfərrüatı Allahın kölgəsi olan əlahəzrət şahın səadətlə dolu zamanının təsviri vaxtı bəyan qələmi ilə yazılacaqdır. Onların hər üçü qabiliyyət və istedad sahibi olub, xoşnevislər (xəttatlar) zümrəsindən idilər. Amma Qazı Abdulla inşa fənnində tay-tuşlarından üstün mərtəbəyə malik idi" (99).

Şah Təhmasibin yazışmalarının mühüm bir hissəsini onun fərmanları təşkil edirdilər. Mahiyyətinə və məzmununa görə fərmanların üç növü məlum idi: ərqam (rəqəm sözünün cəmidir və

əmr mənasında işlədilirdi), ehkam (hökmlər) və pərvançə. Başqa bir məlumatda isə şah tərəfindən verilən fərmanların üç növü (dərəcəsi) belə adlandırılmışdır: nişan, pərvançə və rəqəm. Bu sıralanmada yuxarıdakı ehkamın yerinə nişan göstərilmişdir. Mahiyyət etibari ilə isə onların arasında ciddi bir fərq yoxdur. O da bildirilir ki, Səfəvi hakimiyyətinin ilkin dövründə nişan və pərvançə daha çox tətbiq olunmuşdur. Sonradan isə rəsmi hökmlərin rəqəmlərdə təsdiqlənməsi daha geniş hal almışdı. Ərqam birbaşa şah tərəfindən verilən hökmləri, əmrləri, göstərişləri əks etdirən bir rəsmi sənəd idi. Ərqam bir qayda olaraq yazılı surətdə verilirdi. Amma şifahi şəkildə rəqəmin (ərqamın) verilməsi ilə də rastlaşmaq olardı. Onun vasitəsi ilə yüksək vəzifəli dövlət mənsublarının təyinatı və ya vəzifədən azad edilməsi, maliyyə məsələləri ilə bağlı göstərişlərin verilməsi və s. məsələlər rəsmiləşdirilirdi. Şah mərhəmətinin və qayğısının göstərilməsi ilə bağlı da rəqəmlər imzalana bilərdi. Bir sözlə, rəqəm (ərqam) ən yüksək səviyyəli şah hökmlərini əks etdirən rəsmi sənədlər idi. Şah rəqəmlərinin yazılmasının məsuliyyəti məclisnevis və ya vaqiənevisin üzərində idi. Bu mənada məclisnevislərin də şah sarayında böyük nüfuzları var idi və onlar şaha yaxınlığı ilə seçilirdilər. Məclisnevislər şahın göstərişi əsasında şah hökmünü yazılı şəklə salır və sonra da onu şahla razılaşdırırdılar. Müəyyən hallarda isə müxtəlif məsələlər üzrə şahın göstərişi vəziri-əzəm tərəfindən şifahi şəkildə məclisnevisə çatdırılır və o da həmin şifahi məlumat əsasında şah rəqəminin layihəsini hazırlayırdı. Məclisnevislər münşi-məmalikin rəhbərliyi altında fəaliyyət göstərirdilər. Məlumdur ki, Şah Təhmasibin hakimiyyəti illərində məclisnevis vəzifəsini Mirək bəy Ordubadi və Mir Münşi Hüseyni icra etmişdilər. O da bəllidir ki, Mir Münşi Hüseyni uzun müddət bu vəzifədə olmuş və Şah Təhmasibin həyatının sonuna qədər həmin vəzifəni icra etmişdi. Bu da sözsüz ki, Mir Münşi Hüseyninin bu sahədəki təcrübəsindən və sədaqətli xidmətindən irəli gəlirdi (100).

Məclisnevis bir qayda olaraq şahın sol tərəfində otururdu və şahın hökmlərini qeydə alırdı. Şah məclisində tutduğu yerə görə

onu hətta sol vəzir də adlandırırdılar. Vilayət hakimlərindən və digər vəzifəli mənsublardan şah adına gələn ərzlər şah tərəfindən məclisnevisin üstünə göndərilirdi. Məclisnevis həmin ərzləri şah məclisində səsləndirir və sonra da həmin ərzlərlə bağlı şahın hökmləri əsasında şah rəqəmlərini tərtib edərdi. Bütün məsul məclislərdə iştirak etdiyinə görə, məclisnevis səltənət daxilində baş verən işlərdən də xəbərdar olurdu və ona görə də o, şahın yaxın ətrafından biri kimi qəbul olunurdu. Səfəvi sarayında olmuş avropalı səyyahlar da apardıqları müşahidələrdən sonra məclisnevisi şaha çox yaxın olan əyanlardan biri kimi xarakterizə edirdi. Məclisnevisin günün istənilən vaxtında, istənilən məclislərin gedişində şahın hüzuruna daxil ola bilsin, daxil olan yazışmalar və ərzlər barəsində şaha ərz etsin və onun fikrini öyrənsin. Malik olduğu vəzifə bunu tələb edirdi və şah tərəfindən də ona tutduğu vəzifəyə görə digər əyanlardan daha tez-tez onun yanında olmaq icazəsi verilmişdi. Bu mənada məclisnevislər saray əyanları içərisində də böyük nüfuz sahibi olmuşdular. Çünki müəyyən hallarda əyan və əmirlər öz məsələlərini də məclisnevis vasitəsi ilə şaha çatdırmağa çalışırdılar. Şah yazışmalarının aparılması üçün məclisnevisin tabeliyində bir neçə nəfər işçi də var idi. Onların arasında rəqəm yazan da var idi, məktub yazan da, onların qeydiyyatını aparan da və s. Yəni şah yazışmalarının aparılması üçün məclisnevisin rəhbərliyi altında peşəkar bir dəstə yaradılmışdı. Bu adamların, o cümlədən məclisnevisin zəhməti aylıq maaşla və hədiyyələrlə ödənilirdi. Bundan əlavə məclisnevisə kağız və yazı rəngi əldə edilməsi üçün müəyyən məbləğdə vəsait ayrılırdı (101).

Şah rəqəmləri bir neçə üsulla hazırlanırdı: 1) şahın şifahi göstərişləri əsasında; 2) ərzlər əsasında; 3) vəziri-əzəmin və ya şaha yaxın olan vəzifəli mənsubların birinin qeydləri əsasında; 4) dəftərxananın təşəbbüsü əsasında. Şahın göstərişi əsasında hazırlanan rəqəmlərin icrasını məclisnevis və ya onun tapşırığı ilə rəqəm yazan əyanlardan biri həyata keçirirdi. Rəqəm hazırlanandan sonra sonun əvvəlində belə bir ifadə yazılırdı: "cahan hökmdarından hökm olundu". Rəqəmin arxasında isə sənədin şahın şifahi

göstərişi əsasında hazırlandığı qeyd olunurdu və bununla rəqəm möhürlənmək üçün təqdim olunurdu. İkinci üsulla rəqəm hazırlanmasının mahiyyəti ondan ibarət idi ki, şah adına daxil olan ərzlər şah hüzurunda oxunur və ona məlumat çatdırılırdı. Həmin ərzlə bağlı şahın hökmü nə olsaydı, məclisnevis həmin hökmün məzmununu oxuduğu ərzin kənarında qeyd edir və sonra da həmin qeydlər əsasında şah rəqəmini hazırlayırdı. Sonra da bu rəqəm möhürlənmək üçün təqdim olunurdu (102).

Üçüncü üsulla hazırlanan rəqəmlər birbaşa şahdan alınan göstərişlər əsasında deyil, yüksək vəzifəli məqamların göstərişləri əsasında hazırlanırdı. Məsələn, müəyyən hallarda şah tərəfindən vəziri-əzəmə və ya da digər yüksək vəzifəli əyana səltənət idarəçiliyi ilə bağlı göstəriş verilirdi. Vəziri-əzəm və ya vəzifəli əyan məclisnevisə təliqə göndərirdi və orada şah tərəfindən verilən hökmün mahiyyəti də açıqlanırdı. Məclisnevis də həmin təliqənin əsasında şah rəqəmini hazırlayırdı və ya da hazırlatdırırdı. Əgər məclisnevisə göndərilən təliqə vəziri-əzəm tərəfindən deyil, saray əyanlarından biri tərəfindən yazılırdısa, bu zaman həmin təliqə vəziri-əzəmin möhürü ilə təqsidlənməli və sonra məclisnevisə təqdim olunmalı idi. Bu üsulla hazırlanan rəqəmlərdə mütləq onun şah göstərişi əsasında hazırlandığı qeyd olunmalı idi. Dördüncü üsulla hazırlanan rəqəmlər keçmiş hökmlərə istinad etməklə dəftərxana tərəfindən hazırlanan rəqəmlər idi. Bəzən hər hansı məsələ ilə bağlı əvvəlki şahın hökmlərinə istinad edilməsi lazım gəlirdi. Belə hallarda dəftarxanaya müraciət edilirdi, dəftərxana anbarlarında saxlanılan köhnə rəqəmlərin qeydiyyatı kitabı tapılırdı və hansısa bir hökmün əsasında müəyyənləşdirilirdi ki, doğrudan da vaxtilə belə bir rəqəm imzalanmışdır. Əvvəlki hökm əsasında yeni bir rəqəm hazırlanırdı və bu rəqəmin əvvəlində şah göstərməli idi ki, möhtərəm cəddimin və ya şah babamın hökmü əsasında imzalanmış rəqəmə uyğun olaraq belə hökm verilir. Dəftərxana tərəfindən hazırlanmış həmin rəqəm şaha təqdim edilir və onun təsdiqi və razılığından sonra ünvana göndərilirdi (103).

Bütün rəqəmlər məclisnevis tərəfindən hazırlanandan sonra tuğralanmalı idi. Rəqəmin və bütünlükdə şah yazışmlarının tuğralanması şah sənədlərinin yuxarısında qara rənglə, şahın adının və ləqəblərinin böyük və əyilmiş xətlə yazılması idi. Bir növ bununla şah adının bir simvolikası yaradılırdı və bununla həmin sənədin hansı şaha məxsusluğu ilk baxışdan müəyyənləşdirilirdi. Sənədin tuğralanması həm də onun şah tərəfindən təsdiq edilməsi anlamını verirdi (104).

Şah fərmanlarının ikinci növü ehkamlar (hökmlər) idi. Bu ehkamlar daha çox maliyyə məsələləri və səltənət daxili idarəçilik məsələləri ilə bağlı olurdu. Səltənət idarəçiliyində, qoşunlarda və digər qurumlarda çalışanların maaşlarının verilməsi, vergilərin toplanması, istiqamətlənməsi, onlardan istifadə edilməsi və s. kimi məsələlərin həlli zaman şah ehkamlarına zərurət yaranırdı. Bu ehkamlar vəziri-əzəm (etimadüddövlə) tərəfindən hazırlana və möhürləndikdən sonra ünvanlara göndərilə bilərdi. Ehkamların mətninin yazılması isə münşi-məmalikin və onun adamlarının üzərində idi. Ehkamlar başqa vəzirlərin göstərişi əsasında da münşilər tərəfindən yazılır və sonra bu ehkamlar vəziri-əzəmə göndərilirdi. Vəziri-əzəm də həmin ehkamın mətni ilə razılaşırdısa öz möhürünü vurur və sonra da şah möhürünün vurulmasına göndərilirdi. Şah möhürünün vurulması ilə ehkamın hazırlanması başa çatırdı. Ehkamın rəqəmdən fərqi onda idi ki, səltənət idarəçiliyi ilə bağlı bu və ya digər məsələnin həlli üçün saray əyanlarının birinin xahişi və istəyi ilə hazırlanırdı. Ardınca bu ehkam əvvəlcə vəziri-əzəmlə, sonra da şahla razılaşdırılırdı. Belə ehkamların arxasında onun hansı məmur tərəfindən təklif edildiyi, vəziri-əzəmlə razılaşdırıldığı və şah tərəfindən də təsdiq olunduğu yazılırdı (105).

Şah fərmanlarının üçüncü növü olan pərvançə mahiyyəti etibari ilə ehkama (hökmə) yaxın olan bir sənəd idi. Lakin rəsmiyyət dərəcəsinə görə hökmdən aşağı sayılırdı. Ehkamla pərvançənin bəzi yazışmalarda sinonim sözlər kimi işlənməsinə də rast gəlmək mümkündür. Pərvançələr daha çox maliyyə məsələləri ilə bağlı verilirdi. Pərvançələr bir qayda olaraq vəziri-əzəmin göstə-

rişləri əsasında hazırlanırdı. Amma onlar da mütləq şəkildə tuğralanmalı idilər (106).

Səfəvi dövlətinin ilkin dövründə, yəni Şah İsmayılın və Şah Təhmasibin hakimiyyəti illərində şah fərmanları oxşar formada tərtib olunurdular. Bu fərmanların yuxarısında Allahın adı ilə bərabər belə bir ifadə yazılırdı: "Əl hökm Allah". Bu ifadənin aşağısından isə şah tuğrası qoyulurdu. Şah İsmayılın tuğrası belə idi: "Əbülmüzəffər Şah İsmayıl Bahadur sözümüz". Şah Təhmasibin tuğrası isə belə idi: "Əbülmüzəffər Təhmasib Bahadur sözümüz". Tuğranın aşağısında isə şah möhürü vurulurdu. Mövcud olan məlumata görə tuğralarda "sözümüz" sözünün işlənməsi hətta sonralara da davam etmişdi. II Şah Abbasın hakimiyyətə başlamaslndan sonra isə bu sözün işlənməsini görmək mümkün deyildir (107).

Göründüyü kimi, istər Şah İsmayılın, istərsə də Şah Təhmasibin tuğrası türk dilində olmuşdu. "Sözümüz" sözü burada, buyuruğumuz, fərmanımız, göstərişimiz anlamındadır.

Şah adından yazılan fərmanlar şah möhürü ilə möhürləndikdən sonra qanuni qüvvəsini alırdı. Hazır edilmiş fərmanlar şaha təqdim olunur və ya oxunurdu və şahın razılığı alınandan sonra şah möhürünü mühafizə edən əyan tərəfindən həmin sənəd möhürlənirdi. Şah möhürü möhürdar tərəfindən mühafizə olunurdu və Səfəvi dövlətinin sonrakı dövrlərinə aid olan mənbələrdə bu adam hətta möhür vəziri də adlandırılmışdı. Sənədlərin şah tərəfindən möhürlənməsi də istisna deyildi. Möhürlər xüsusi qablarda saxlanılırdı.

Möhürdarlar da dövrün və sarayın nüfuzlu əyanlarından biri sayılırdı. Rəsmi sənədlər və yazışmalar demək olar ki, bütünlüklə onun əlindən keçirdi və yalnız möhürdarın vurduğu möhürdən sonra yazışmalar qanuni hal alırdı. Bəzi müşahidəçilərin fikrincə, möhürdar digər əyanlardan və hətta dini mənsublardan da böyük nüfuza malik idi. Səfəvi hakimiyyətinin ilk dövründə sarayda yalnız bir möhürdarın olduğu bildirilirdi. Şah Təhmasibin hakimiyyəti illərində isə ikinci bir möhürdarın təyin edildiyi haqqında da məlumat vardır. Bu möhürdarlarn hər birinin öz məsuliyyət

sahəsi var idi və onlar bilirdilər ki, kim hansı sənədləri möhürləməlidir. Onlardan biri “möhrü-hümayun möhürdarı”, digəri isə “möhrü-şərəf nifaz möhürdarı” adlanırdı. Birinci möhürdar bütün təyinatlarla bağlı olan hökmləri, tiyul sənədlərini, syurqal sənədlərini, vergilərdən azad olunma haqqında olan sənədləri möhürləyirdi. İkinci möhürdar kiçik möhürə malik idi. O isə əmirlərə yazılmış məktubları, pərvançələri, istefa sənədlərini, cari sənədləri möhürləyirdi Şah Təhmasibin hakimiyyəti illərində Qasım bəy Möhürdarın, Kəbə xəlifə Təkəlinin, Mahmud bəy Zülqədərin, Şahqulu xəlifə Zülqədərin, Əliqulu xəlifə Zülqədərin saray möhürdarları olması haqqında məlumatlar vardır (108).

Məlumdur ki, Şah İsmayılın iki möhürü olmuşdu. Onlar kifayət qədər sadə möhürlər idi. Onların biri dairəvi şəkildə, digəri isə ellips (yumurta formasında) şəklində olmuşdu. Şah Təhmasib də hakimiyyətinin ilk dövründə də ellips şəklində olan möhürdən istifadə etmişdi. Sonradan Şah Təhmasibin digər möhürləri də meydana gəlmişdi. Həmin möhürlərin meydana gəlməsi hansı sənədlər üçün istifadə olunmsı zərurəti ilə bağlı idi. Yəni bu və ya digər rəsmiyyət daşıyan sənədlərə uyğun gələn mörürlər vurularmış. Məsələn, xarici dövlətlərlə aparılan yazışmalara böyük ölçüdə olan möhür vurularmış. Şah fərmanları üçün işlədilən möhürlər isə ölçülərinə görə daha kiçik idi və bu möhürün həm kənarında, həm də daxilində paralel dairəvi xətt var idi. Bu möhür “hümayun möhürü” və ya “möhrü-əşrəf” adlanırdı. Şah Təhmasibin əlavə kiçik bir möhürünün olması haqqında da məlumatlar vardır. Şah Təhmasibə məxsus olan böyük möhürdə onun adı və mənsubiyyəti ilə bağlı çoxlu sayda söz yerləşdirmək lazım gəlmişdi. Bu möhürün daxilində bu sözlər həkk olunmuşdu: “Bəndə şah vilayət Təhmasib, Məhəmməd əl-Mustafa, Əli əl-Murtuza, Həsən əl-Rza, Hüseyn əl şəhid Əli Zeynəlabdin, Məhəmməd əl-Bağır, Cəfər əs-Sadiq, Musa əl-Kazım, Əli Musa əl Rza, Məhəmməd ət-Tağı, Əli ən-Nağı, Həsən əl-Əsgəri, Məhəmməd əl-Hadi”. Bu möhürdən başqa mənbələrdə Şah Təhmasibə aid olan daha iki möhür haqqında məlumatlar vardır. Onun ellips şəklində olan möhrünün daxilində Şah Təhmasibin

adı və bir beyt şer həkk olunmuşdur: “Allah, Məhəmməd və Əli. Bəndə şah vilayət Təhmasib. Sənə 946. Gər konəd bədrəğe lotf-e to həmrahi-ye ma, çərx bər duş kəşəd qaşiye-ye şahi-ye ma”. (Əgər sənin lütfün bizə həmrah olsa, dövran da bizim şahlığımıza bir örtük olar). Şah Təhmasibin üçüncü möhüründə isə belə bir cümlə həkk olunubmuş: “Sultan-e keşvər-e (ölkə) din Təhmasib şah adil” (109).

Şah Təhmasibin elm aləminə məlum olan başqa bir möhürü isə dördküncdür və ölçülərinə görə da böyük möhür sayıla bilər. Möhürün daxilində Allahın, müqəddəslərin və Şah Təhmasibin adı çətin oxunacaq bir şəkildə yazılmış və bir rübayi də həkk olunmuşdur. Həmin yazılar belədir: “Allah, Məhəmməd, Əli. Bəndə şah-e vilayət Təhmasib. 963(-cü il).

Çün name-ye cormha behəm piçidənd
Bordənd və bemizan əməl səncidənd
Biş əz həme kəs günah-e ma bud, vəli
Ma ra beməhəbbət-e Əli bəxşidənd” (110).
(Günah (əməl) namələrini bir yerə toplayıb
Apardılar və əmələ görə haqq-hesab etdilər
Hamıdan çox bizim günahımız oldu, lakin
Bizi Əli məhəbbətinə görə bağışladılar)

Şah Təhmasib hakimiyyətinin tədqiqatçılarından biri onun üzük-möhürünün olması haqqında da söz açır və həmin möhürün dördkünc olmasını bildirir (111). Ola bilsin ki, söhbət haqqında yuxarıda danışılan dördkünc möhürdən gedir. Lakin daxilində bir rübai həkk olunmuş möhürün üzük kimi istifadə edilməsi inandırıcı görünmür. Həmin möhürlərdən bu və ya digər sənədlərin şahla razılaşdrılmasından dərhal sonra möhürlənməsi üçün istifadə edilərdi.

Şah fərmanları möhürləndikdən və qanuni qüvvəyə mindikdən sonra şah dəftərxanasından müvafiq ünvanlara göndərilirdi. Şah fərmanları maliyyə məsələlərinə aid olduqda onlar müstövfiyül-məmalik və ya müstövfiyül-xassə tərəfindən möhürlənməli və onların dəftərxanasında qeydiyyata düşməli idi. Eyni ilə digər

qurumların rəhbərləri də onlara aid olan fərmanları qəbul edib möhürləməli və sonra onlar qeydiyyata düşməli idi (112).

Şah yazışmalarının mühüm bir hissəsini də məktublar təşkil edirdi. Məzmununa və yazılma tərzinə görə Şah Təhmasib dövrünün məktublarını, yuxarıda qeyd edildiyi kimi ədəbi yaradıcılığın bir janrı kimi də qəbul etmək mümkündür. Çünki bu məktublarda nəzm parçalarının mövcudluğundan əlavə, məktubun ifadə tərzinin bir sənətkarlığını da müşahidə etmək mümkündür. Bu məktubların yazılmasını forma və strukturu, illərlə meydana gəlmiş təcrübəsi var idi. Onlara əməl olunması məktubların yazılmasının zəruri tərəfi idi. Məktublarda kifayət qədər ərəb və fars sözləri, habelə qədim türk sözləri işlənilirdi. Məsələn, Osmanlı sultanı adından Təhmasib şaha göndərilmiş məktublarda o qədər ərəb sözləri və ifadələri işlədilirdi ki, onların başa düşülməsi xeyli çətinlik təşkil edirdi. Sözsüz ki bu vəziyyət münşilərin bilik və təcrübəsi ilə də bağlı idi. Mövcud olan məlumatlara görə, Səfəvi sarayında xidmətdə olan münşilər arasında da mürəkkəb ifadə tərzi ilə tanınan münşilər mövcud olmuşdu. Hətta belə bir fakt ta məlumdur ki, münşi tərəfindən hazırlanan məktub elə bir ifadə tərzinə malik olmuşdu ki, həmin məktubun yazılmasını sifariş edənlər özləri də onun oxuyub bir şey başa düşə bilməmişdilər. Münşinin bu çətin ifadə tərzinə görə onun ovcuna cəza olaraq 200 şallaq vurulması əmr olunmuşdu (113).

Şah Təhmasibin hakimiyyəti illərində də yazılan məktubların aydın bir strukturu var idi. Bu struktur hələ Şah Təhmasibdən əvvəl formalaşmışdı və onun hakimiyyəti illərində də həmin təcrübə yaradıcı şəkildə davam etdirilirdi. Təhlillərin aparılması belə bir qənaətə gəlməyə əsas verir ki, Şah Təhmasibin hakimiyyəti illərində də məktubların yazılması həmin struktur üzrə aparılırdı: məktubun giriş hissəsi (miftah), məktub yazılan ünvanın tərifi və onun ləqəblərinin sadalanması (səna), məktub ünvanına xeyir-dua ifadəsi (dua), məktub ünvanlananın adının ifadəsi, məktub yazanın özü haqqında məlumat verməsi (zikri-katib), salamlama (salam və təhniyyət), qarşı tərəfə xoş arzuların ifadə olunması (eblaği-salam), məktub göndərilən adamla görüşə meyl (iştiyaq),

qarşı tərəflə görüş imkanlarının aranması (tələbi-mulaqat), məktubun yazılma tarixi, məktub yazanın öz işləri və durumu haqqında məlumatı (elami-əhval), gözlənilən və ehtimal olunan ümidlər, məktub göndərilən adama ünvanlanmış xahiş və iltimaslar (təvəqqe və iltimas), məktubun sonluğu (ehtimam), nəticə və dua (dua) (114). Məktubun məzmunundan, qarşıya qoyulam məqsəddən asılı olaraq bu strukturun dəyişməsi, təkmilləşməsi və tamamlanması da mümkün idi. Xüsusi ilə məktub yazılmasına yaradıcı münasibət onun tərtib olunmasına öz təsirini göstərə bilərdi.

Məktubun hansı strukturda qurulması onun kimə ünvanlanmasından da asılı idi. Şah Təhmasibin yazışmaları içərisində kifayət qədər müxtəsər məktublarla rastlaşmaq mümkündür (115). Amma kifayət qədər uzun məktubların yazılması da məlumdur. Şah Təhmasibin yazdığı məktublar həm də onun xarici siyasətinin qurulması üçün istifadə olunan vasitələrdən biri idi. Bu baxımdan onun Osmanlı sultanları ilə, özbək və hind hakimləri ilə yazışmaları maraq kəsb edə bilər. Ünsiyyət imkanlarının kəsad olduğu bir zamanda məktublar vasitəsi ilə Şah Təhmasib də rəhbəri olduğu dövlətin bu və ya digər dövlətə olan münasibətinin ifadəsi olan rəsmi sənədlər kimi də dəyərləndirilə bilər.

**ə) naziri büyutat.**

“Büyutat” sözü ərəb dilində olan “beyt” sözünün cəm formasıdır. Bu söz hərfi mənada ev, bina anlamındadır. Şah Təhmasibin hakimiyyəti illərində naziri büyutat şahın saray təsərrüfatının rəhbəri idi. Həmin vəzifə sahibi daha çox məişət-təsərrüfat işlərinin təşkilinə və icrasına cavabdehlik daşıyırdı. Şahın və onun ailəsinin iaşəsinin, məişət həyatının, təsərrüfat həyatının təşkili üçün zəruri olan obyektlərin normal fəaliyyəti, təchizi və təminatı naziri büyutatın rəhbərliyi altında olan personal tərəfindən həyata keçirilirdi. Ərzağın tədarükü, anbarlar, mətbəx binası, tövlələr, emalatxanalar, kitabxana, paltarların tikilməsi və s. kimi məişət işləri naziri büyutatın məsuliyyət dairəsində idi.

Bəzi məlumatlara görə saray əyanlarının məişəti və iaşəsi məsələsi də bu vəzifə sahibinin məsuliyyət sahəsinə aid idi (116).

Naziri büyutatın üzərinə çox ciddi vəzifələr düşürdü. Çünki şah sarayının gündəlik fəaliyyətinin ahəngdarlığı saray daxili məişət və təsərrüfat fəaliyyətinin normal qurulmasından çox asılı idi. Bundan başqa məlumdur ki, Şah Təhmasib çoxlu sayda hərbi yürüşlərdə olmuş, səltənətin müxtəlif məkanlarında davamlı olaraq qışlaq və yaylaq düşərgələri təşkil edilmişdi. Saray həyatından kənarda da şahın məişət, təsərrüfat və iaşə qayğılarının vaxtında və keyfiyyətlə icra olunması naziri büyutatın üzərində idi. Bu işlərin görülməsi üçün naziri büyutatın tabeçiliyində böyük bir xidmət personalı var idi. Naziri büyutatın şah fəaliyyətinin təşkilində xüsusi yeri olduğu üçün idi ki, İsgəndər bəy Münşi də öz əsərində bu vəzifə sahibinin işlərinin dəyələndirilməsinə xeyli yer ayırmışdır: “Naziri-büyutat vəzifəsini tutan səxslər: Bu həqir zərrənin (İsgəndər bəy Münşinin) xəbərdar olduğu qədərincə, Qazı İmad İsfahani tam səlahiyyətli nazir idi. Onunla Mehtər Camal İsfahani arasında münasibətlər soyuqlaşdıqda bu sonuncu şəxs onu işdə nöqsanlara yol verməkdə və divan malını mənimsəməkdə ittiham etdi. Buna görə də o, işdən çıxarıldı və ondan külli miqdarda vəsaitin müsadirə edilməsi əmr olundu. Amma Mehtər Camal sözügedən şəxsin işdən çıxarılmasından sonra özü onun müsadirə vəsaitinə zamin duraraq, onu izzət və ehtiramla İsfahana yola saldı. [Qazı İmad] xeyirxah düşüncəli bir kişi idi. Ondan sonra Xorasanın tam səlahiyyətli vəziri Ağa Kəmaləddin Zeynalibad Kirmaninin oğlu Ağa Cəmaləddin nazirlik mənsəbinə layiq görüldü. Mütəmadi bir müddətdən sonra o da düşmənlərinin və ona zidd olan adamların onu yanlış əməllər törətməkdə ittiham etməsi üzündən [hökmdarın] qəzəbinə tuş gəldi və cənnətməkan şahın ölümünədək Ələmut qalasında məhbus oldu. O, İsmayıl mirzə zamanında [həbsdən] xilas oldu və İsgəndər şanlı nəvvab zamanında yenidən bir qədər etibar qazandı. Axırda yaşının çoxluğu, ahıllığı və həbs müddətində əldə etdiyi zəiflik ona qalib gəldi və onun həyat müddəti sona çatdı. Cənnətməkan şahın ölümü zamanı üç nəfər nazir idi:

**1) Ağa Cəmaləddinin** işdən çıxarılmasından sonra Mirzə Salman əksər büyutatların naziri oldu. O, Ağa Mirzə Əli Cabiri İsfahaninin oğludur. Atası bir neçə il Fars [vilayətinin] hakimi İbrahim xan Zülqədərin vəziri olmuşdu. Sözügedən şəxs (Mirzə Salman) gözəl Şiraz torpağında fəzilət və kamal qazandıqdan və böyük qabiliyyətə, inkişafa və bacarığa yiyələndikdən sonra ulu orduya gələrək, Azərbaycanın vəziri Mirzə Ətaullanın dəstəyi ilə bir neçə il o vilayətin «hərz» (mühafizə) xidməti ilə məşğul olmuşdu. Daha sonra o, həmin şəxs tərəfindən saraya göndərilib, qabiliyyət və bacarığa malik olduğu üçün şahın qayğıkeşliyi ilə əhatə olundu. O, artıq qeyd olunduğu kimi, Ağa Cəmaləddin Kirmaninin işdən çıxarılıb həbs edilməsindən sonra xasseyi-şərifənin əksər büyutatlarının naziri olmaq mənsəbinə yüksəldilərək, hökmdar məclisinin yaxın adamları silkinə daxil oldu və ta o həzrətin vəfatınadək tam səlahiyyətlə həmin xidməti icra etdi. İsmayıl mirzə zamanında hökmdarın ona olan qayğısı və dəstəyi o qədər həddən ziyadə artdı ki, onun böyük əmirlərdən hər hansı birinə təzim etmək üçün vəzirlik kürsüsündən qaxmaması əmr olundu. İsmayıl mirzənin ölümündən və İsgəndər şanlı nəvvabın hakimiyyətə gəlməsindən sonra o, vəzir və etimadüddövlə təyin olunaraq, əvvəlkindən daha artıq səlahiyyətə və həmin ali mənsəbdə yüksək dərəcəyə nail oldu. Onun həyatının təfərrüatı İsgəndər şanlı nəvvabın [hakimiyyət] zamanının hadisələri içərisində qələmə alınacaqdır.

**2) Xoca Əbülqasim** - Fərəhan vilayətinin əyanlarından olub, ali divanın möhürdarının vəziri idi. Düzgün qələmli, doğru sözlü, dürüst danışıqlı, gözəl davranışlı və sadə rəftarlı bir kişi idi. Onun hərəkətləri Əşrəfin xoşuna gəlmiş və xasseyi-şərifə sərkarının ixtiyarındakı büyutatlardan bəzilərinin naziri təyin edilməklə tərəqqi tapmışdı. O, cənnətməkan şah həzrətlərinin vəfatı zamanınadək həmin xidmətlə məşğul idi. İsmayıl mirzə zamanında da bir müddət o xidmətə cavabdeh olmuşdu. Böyük etibara malik idi. Axırda ətəyini o vəzifədən çəkib, doğma vətəninə üz tutdu.

**3) Mir Əbülfütuh** - xasseyi-şərifə sərkarının imarət naziri olub, Mir Fəzlulla Şəhristani İsfahaninin qardaşı idi. Onlar

Süleyman şanlı xaqanın zamanında mustövfi əl-məmalik vəzifəsini daşımış Mir Seyid Şərif Şəhristaninin övladlarındandırlar. Onların nəsli həmişə bu dövlətdə ali mənsəblərə layiq görülmüşdü. Yuxarıda adı çəkilmiş Mir Fəzlulla bir müddət İsfahanın vəziri və oranın divan məsələlərinin icraçısı olmuşdur. Vəzifədə olduğu vaxt ərzində əmlakı və mülkiyyəti xeyli artmış və o, onları vəqf kimi sənədləşdirmişdi. Mir Əbülfütuha gəldikdə isə, o, bir müddət tamam dindarlıq və düzgünlüklə imarət naziri («nəzarəti-imarət») vəzifəsi ilə məşğul oldu. Onun Mirzə Məhəmməd adlı fazil, fəqih və [dini] fitva səhibi olan bir oğlu vardı ki, dünyanın mənsəblərinə və məşğuliyyətlərinə baş qoşmamışdı və onun fitvaları zəmanənin fəqihləri arasında mötəbər idi" (117).

Şah Təhmasibin hakimiyyəti illərində sarayın və səltənətin idarəçiliyndə kifayət qədər səlahiyyətli və vəzifəli adamlar iştirak edirdilər. Onların hər biri haqqında məlumat verilməsi ayrıca bir tədqiqatın mövzusu ola bilər. Sonrakı dövrlərdə bu sahədə xidmətdə olan vəzifələrin sayı daha da artdı. Lakin Şah Təhmasib dövründə səltənətin idarəçiliyini təmin etmək qüdrətinə malik olan bir sistem formalaşdırıla bilmişdi. Bu idarəçilik sisteminə dini və hərbi idarəçilik mənsubları da daxil idi ki, onlar haqqında aşağıda danışılacaqdır.

### 3.Şah Təhmasib dövrünün ərazi-inzibati bölgüsü

Şah Təhmasib dövrünün idarəçilik sisteminin mühüm elementlərindən biri də əyalət idarəçiliyinin mövcudluğu idi. Yuxarıda qeyd edildiyi kimi, hələ Şah İsmayılın hakimiyyəti illərində çox böyük ölçülərə malik olan bir məmləkət formalaşdırılmışdı. Şah Təhmasibin hakimiyyəti illərində bu məmləkətin sərhədlərində dəyişiklik baş verdi. Bu da Osmanlı dövlətinin hərbi müdaxiləsi ilə bağlı idi. Doğrudur, Osmanlı sultanı ümidində olduğu qədər əraziləri Səfəvi dövlətindən qopara bilmədi. Amma Şah Təhmasib məcburiyyət qarşısında qalaraq Osmanlı dövlətinin əldə etdiyi ərazilərin itirilməsi ilə razılaşmalı oldu. Həmin ərazilər Van gölü ilə Bağdad arasındakı haşiyədə yerləşən

qalalar və ərazilər idi. Şah İsmayıl tərəfindən fəth edilmiş ərazilərin mütləq əksəriyyəti isə Şah Təhasib tərəfindən qorunub saxlana bildi. Buna nail olunmasının bir səbəbi də Şah Təhmasib sarayı tərəfindən əyalət idarəçiliyinin düzgün və səmərəli qurulması idi. Şah Təhmasib dövrü əyalət idarəçiliyinin təşkilatlanmasında Şah İsmayıl dövrünün ənənələrini sözsüz ki, istisna etmək olmaz. Lakin həmin ənənələrin və təcrübənin istifadəsinin səmərəliliyinə, işləkliyinə nail olunması Şah Təhmasibin idarəçilik keyfiyyətlərinin, iradəsinin və səltənətə sahib çıxmaq əzminin nəticəsi idi.

Şah Təhmasibin hakimiyyəti illərində özündən əvvəl mövcud olmuş ərazi-inzibati bölgü də, ümumən, qorunub saxlanmışdı. Şah Təhmasibin hakimiyyətindən sonrakı illərə aid olan mənbələrdə Səfəvi dövlətinin dörd valilikdən və 13 bəylərbəyliyindən ibarət olduğu göstərilmişdir (118). Müəyyən vaxtlarda ərazi-inzibati bölgünün müəyyən dəyişikliklərə məruz qaldığını istisna etmək olmaz. Məsələn, məlumdur ki, Şah Təhmasibin hakimiyyəti illərində Gilanda yaranmış vəziyyət üzündən o bölgənin idarəçilik sistemində dəyişikliklər edilməsi məcburiyyəti meydana gəlmişdi. Qəndəhar da bir vaxtlar nəzarət altından çıxarılmış və sonra yenidən geri qaytarılmışdı.

Bəzi elmi-tarixi ədəbiyyatda ərazi-inzibati bölgünün fərqli variantı ilə də qarşılaşmaq mümkündür. Şah Təhmasibin hakimiyyəti illəri üçün də aktual olan bölgü isə belə idi: **Azərbaycan, Çuxursəəd, Qarabağ, Şirvan, Məşhəd, Herat, Fars, Astrabad, Qəndəhar, Kirman, Kuhkələviyyə, Həmədan, Qəzvin.** Bunardan başqa Səfəvi dövlətinin tərkibində dörd valilik (vilayət) də var idi: Gürcüstan, Xuzistan (Ərəbistan), Luristan, Kürdüstan (119).

Bəzi elmi-tarixi ədəbiyyatda Sistanın və Şirvanın da valilik kimi göstərilməsinə rast gəlmək mümkündür (120). Lakin bu bölgələrin ilk vaxtlar valilik səlahiyyətləri olsa da, sonradan onlar mərkəzi hakimiyyətin birbaşa idarəçiliyi altına gətirilmişdilər. Başqa ərazilərin də elmi-tarixi ədəbiyyatda valilik kimi göstərilməsinə rast gəlmək mümkündür. Amma istər mənbələrdə, is-

tərsə də elmi-tarixi ədəbiyyatda yuxarıda xatırlanan dörd valiliyin adı daha çox təkrarlanmaqdadır.

Valiliyin müəyyən fərqləndirici əlamətləri mövcud idi. Əvvəla, bu ərazilər Səfəvi dövlətinin sərhədində yerləşirdilər və onların xarici sərhədləri Səfəvi dövlətinin də sərhədini təşkil edirdi. Bu valiliklər müstəqil və ya yarım-müstəqil bölgə kimi Səfəvi dövlətindən əvvəl də mövcud idilər və onlar yerli sülalələr tərəfindən idarə olunurdular. Səfəvi hakimiyyəti dövründə də bu bölgələrin yerli sülalələr tərəfindən idarəçiliyi saxlanıldı. Həmin hakimlər Səfəvi dövlətini tanıyır və bundan irəli gələn müəyyən tələbləri həyata keçirirdilər. O cümlədən, məlumdur ki, valilər zərurət yarananda yerli qoşunlarla şah qoşunlarına qatılır və hərbi yürüşlərdə iştirak edirdilər. Vilayət ərazisində mərkəzi hakimiyyətə qarşı yaranan müxalifətçiliyin aradan qaldırılması da valilərin üzərinə qoyulmuş məsuliyyət idi. Dil və din müxtəlifliyi, habelə həyat tərzi də valilik ərazilərinin fərqləndirici əlamətlərindən idi. Məsələn, Gürcüstan həm dil, həm də məzhəb mənsubiyyətinə görə fərqli göstəricilərə malik idi. Kürdüstan, Luristan və Xuzistan valiliklərində də həm dil fərliliyi, həm də məzhəb fərqliliyi mövcud idi. Bu bölgələrdəki əhalinin əksəriyyəti sünni məzhəbinə mənsub olmaqla onların ana dili də səltənətdə işlənən əsas dillərdən fərqlənirdi. Bəzi elmi-tarixi ədəbiyyatda valiliklərin səltənətin əyalətində yerləşməsi, onların mürəkkəb coğrafi şəraiti, iqlim xüsusiyyətləri, hətta bu əyalətlərin Osmanlı hərbi təhdidləri zonasında olması da fərqləndirici əlamət kimi göstərilmişdir( 121).

Valiliklər nisbi müstəqilliyə malik idilər. Bu ərazilərin Səfəvi dövlətinə bağlılığında fərqli səlahiyyətlər qalmaqda davam edirdi. Valilik ərazisində Səfəvi şahının adına xütbə oxunur və onun adına sikkə vurulurdu. Müəyyən miqdarda vergi də ödənirdi. Valilik daxilində maliyyənin toplanması yerli hakimiyyətin üzərində idi. Toplanan vergilərdən şah adına hədiyyə və bəxşiş ayrılırdı ki, bu da valilik tərəfindən səltənət xəzinəsinə ayrılan vergini əvəz edirdi. Valilik daxilində müstəqil idarəetmə səlahiyyətləri saxlanılırdı. Yəni valilik daxilində təyinetmələr valinin

özü tərəfindən aparılırdı. Mərkəzi hakimiyyət bir qayda olaraq bu işə qarışmırdı. Müəyyən hallarda valilər öz övladlarından birini girov kimi saraya göndərirdilər. Vali səlahiyyətlərini əldə etmiş adama saray tərəfindən xan məqamı verilirdi (122). Mərkəzi hakimiyyəti maraqlandıran əsasən valinin sədaqətli adamlardan təyin edilməsi idi. Valilər arasında mərkəzdənqaçma meylləri güclənəndə mərkəzi hakimiyyət çalışırdı ki, asilik edənləri yerli sülalədən olan daha etibarlı birisi ilə əvəz etsin. Valilərin vali vəzifəsinə təyin edilməsi təntənəli şəkildə qeyd edilirdi. Belə mərasimlərin xüsusi protokolu da mövcud idi.

Yuxarıda adları çəkilən dörd valilik, mənbə məlumatlarna görə, Səfəvi dövlətinin bütün mövcudluğu dövründə öz nisbi müstəqilliklərini saxlamışdılar. Bu valiliklərlə Səfəvi sarayı arasında valilik səlahiyyətləri ilə bağlı hər hansı qarşılıqlı bir hüquqi razılaşma yox idi. Amma Səfəvi sarayı bu valiliklərin mövcudluğuna hörmətlə yanaşırdı və bunun nə ilə bağlı olması elmi-tarixi fikir üçün maraq doğuran bir məsələdir.

**Gürcüstan.** Səfəvi dövləti tərkibinə daxil olan böyük valiliklərdən biri Gürcüstan idi. Bu valilik səltənətin şimal-qərbində və Osmanlı Türkiyəsi ilə sərhəddə yerləşirdi. Həmin valiliyin möhkəmləndirilməsinə Səfəvi sarayı böyük əhəmiyyət verirdi. Məlumdur ki, Osmanlı Türkiyəsi də bu bölgənin nəzarət altına alınmasına böyük maraq göstərirdi. Çünki Gürcüstanın ələ keçirilməsi ilə Cənubi Qafqazı əldə saxlamaq və Şimali Qafqaza da çıxış əldə etmək mümkün idi. Bu baxımdan Gürcüstanın nəzarət altına alınması Səfəvi dövləti üçün strateji əhəmiyyət kəsb edirdi.

Səfəvi dövləti təşəkkül tapanda Gürcüstan ərazisi müxtəlif çarlıqlara bölünmüşdü. Həmin çarlıqlara Kaxetiya, Kartli, İmeretiya, Mesxetiya, Abxaziya, Minqreliya, Quriya aid idi. 1554-cü ildə Qarabağ bəylərbəyliyi təşkil edildi. Mərkəzi Gəncə olan bur bəylərbəylik Qazaxdan keçməklə Tiflis yaxınlıqlarına qədər olan əraziləri əhatə edirdi. Bu vaxta qədər isə Səfəvi qoşunları bir neçə dəfə Gürcüstan çarlıqları üzərinə hücum etmiş və Gürcüstana aid olan əraziləri nəzarət altına gətirə bilmişdi. Amasiya anlaşması əldə ediləndə Gürcüstana aid olan bəzi ərazilər Osmanlı dövlə-

tinin nəzarəti altında idi. Həmin anlaşmaya əsasən Axısqa, Kartli və Kaxet Səfəvi hüdudlarında saxlanıldı. Gürcüstana aid olan digər ərazilər isə Osmanlı dövlətinin nəzarəti altında qaldı (123).

Şah Təhmasibin hakimiyyəti illərindən başlayaraq gürcü hakim sülaləsinin üzvləri və gürcü əyanları ilə Səfəvi sarayı arasında müəyyən qarşılıqlı münasibətlər də formalaşmağa başlamışdı. Gürcü əsilzadələri və əyanları islam dinini qəbul etməklə Səfəvi sarayında yüksək vəzifələrə də yol tapa bilirdilər. Xüsusilə, Şah Təhmasib hakimiyyətindən sonrakı dövrlərdə Səfəvi sarayında çoxlu sayda gürcü əsilli əmirlər var idi.

Gürsüstanın böyük şəhəri olan Tiflis Kartli çarlığına aid idi. Məlumdur ki, Şah Təhmasibin hakimiyyəti illərində də bu şəhər üzərinə Səfəvi qoşunlarının hücumu təşkil edilmişdi. Yuxarıda yazılanlardan məlumdur ki, 1561-ci ildə Kartli çarı Simon Səfəvi dövlətinə itaət göstərilməsindən üz döndərmək fikrinə düşdü. O zaman Şahverdi xan Ziyadoğlunun rəhbərliyi altında Tiflis üzərinə Səfəvi qoşun dəstəsi göndərildi və bu itaətsizliyin qarşısı alındı. Simondan fərqli olaraq onun qardaşı David Səfəvi sarayına sədaqətini nümayiş etdirdi və bu da Səfəvi sarayı tərəfindən lazımınca qiymətləndirildi.

Tarixi mənbələrdə Gürcüstan valisinin "hakim" və "soltan" kimi adlandırılması ilə də rastlaşmaq mümkündür. Lakin o, daha çox "vali" kimi xatırlanmışdır.

**Xuzistan (Ərəbistan).** Səfəvi hakimiyyəti altında olan ərəbdilli əhalinin yaşadığı bölgədir. Bu bölgə Səfəvi dövlətinin cənub-qərbində yerləşir. Şah Təhmasibin hakimiyyəti illərində Bağdad ətrafı ərazilər Osmanlı dövlətinin nəzarəti altına düşəndən sonra Xuzistan da Səfəvi dövlətinin Osmanlı dövləti ilə sərhəd bölgəsinə çevrildi. Bu valilik Şüştəri, Dizfulu və Həvizənin əhatə edirdi. Həvizə şəhəri Xuzistanın mərkəzi sayılırdı. Səfəvi dövləti təşkil olunanda Xuzistanda Məşəşə sülaləsi hakimiyyətdə idi. Onlar da məzhəb baxımından şiə məzhəb idilər. Şah İsmayıl Səfəvi dövlətini bərqərar etdikdən sonra 1508-ci ildə Xuzistan üzərinə qoşun çəkdi və Məşəşə qoşunlarını məğlub etdi. Bu zaman Seyid Şücaəddin adlı birisi Xuzistanın hakimi idi. O,

yaranmış vəziyyətdə Səfəvi hakimiyyətini tanımaq məcburiyyətində qaldı. Şah İsmayıl da onu hakimiyyətdən uzaqlaşdırmadı və yerli idarəçilik ona həvalə olundu. Yəni Həvizədə hakimlik edənlər sülalə hakimiyyətini qoruyub saxlaya bildilər. Amma Dizful və Şüştər yerli hakimlərin idarəçiliyi altına verildi. Yəni Xuzistan vailiyi deyiləndə, Həvizənin mərkəz olduğu bölgə nəzərdə tutulurdu. Məlumdur ki, bir müddət sonra Xuzistan hakimi Bəsrəni də öz nəzarəti altına ala bilmişdi. Lakin bu müvəqqəti hal daşıyırdı (124).

Xuzistan valisi Səfəvi hakimiyyətini tanımış digər valilər kimi, Səfəvi şahının adına xütbə oxutmalı və sikkə vurdurmalı idi. Bundan başqa zərurət yarananda Xuzistan valisi də öz yerli qoşun dəstəsi ilə Səfəvi qoşunlarına qoşulmalı idi. Mövcud olan məlumata görə, Xuzistan valisinin qoşunu saray tərəfindən verilmiş hərbi tapşırıqların icrasını Fars bəylərbəyliyinin və ya Kuhkələviyyə bəylərbəyliyinin qoşunları ilə birlikdə həyata keçirirdi (125).

**Kürdüstan.** Kürdüstanın bir valilik kimi formalaşması, əslində, Şah Təhmasibin hakimiyyətindən sonrakı dövrə təsadüf edir. Bu bölgə Səfəvi dövləti ilə Osmanlı dövləti arasında yerləşirdi və malik olduğu coğrafi şərait bu bölgənin müdafiə və müqavimət imkanlarını artırırdı. Yerli hakimlər də bundan istifadə edərək müstəqil idarəçiliyi saxlamağa çalışırdılar. Amma Kürdüstana daxil olan bəzi ərazilər və hakimlərlə Səfəvi dövləti arasında müəyyən münasibətlər də formalaşmışdı. Məsələn, məlumdur ki, Bitlis hələ 1507-ci ildən etibarən Səfəvi hakimiyyətinin nəzarəti altına düşmüşdü. Səfəvi hakimiyyəti altına düşmüş Kürdüstan ərazilərində yerli hakimlərin idarəçiliyi saxlandı (126). Bir daha qeyd edilməlidir ki, Kürdüstanın bütünlüklə Səfəvi hakimiyyəti altına düşməsi Şah Təhmasibin hakimiyyətindən sonrakı dövrə təsadüf edir.

**Luristan.** Bu valilik də Səfəvi dövlətinin əyalətini təşkil etməklə mürəkkəb coğrafi şəraitdə qərar tutmuşdu. Valiliklə gediş-gəliş çətinlikləri var idi. Ona görə də burada da hakimiyyətin yerli hakimlərə tapşırılması məqsədəuyğun sayılmışdı. Luristanın

Səfəvi hakimiyyəti altına gətirilməsi Şah İsmayılın hakimiyyəti illərinə təsadüf edir. Bu bölgə Şah İsmayıl tərəfindən Bağdadın fəth edilməsindən sonra, 1508-ci ildə Səfəvi hakimiyyətini tanımalı oldu. Saray nəzarətindən uzaqda olması Luristanda mərkəzdənqaçma meyllərini də bəzi vaxtlar gücləndirirdi. Bəzi yerli hakimlərin bölgə ərazisində öz hakimiyyətlərini yaratmaq cəhdləri üzə çıxanda Şah Təhmasib Luristanı iki yerə böldü və həmin ərazilərin idarəçiliyini müstəqilləşdirdi (127). Şah Təhmasibin hakimiyyətinin sonrakı illərində daha Luristanda mərkəzi hakimiyyətə qarşı ciddi bir müxalifətin baş verməsi haqqında məlumat yoxdur.

**Sistan** da bəzi ədəbiyyatda valilik kimi təqdim olunur. Səfəvi hakimiyyətini qəbul etdiyi vaxtlar bu vilayətə valilik səlahiyyətlərinin verildiyini görmək mümkündür. Lakin bu vəziyyət çox da uzun sürmədi və yerli hakimlər müstəqil idarəçilik səlahiyyətini əllərində saxlaya bilmədilər. Məlumdur ki, Şah İsmayıl 1510-cu ildə Mərv yaxınlığında Şeybək xan üzərində qələbə əldə etdikdən sonra Sistan hakimi Məlik Sultan Mahmud Sistani Herat şəhərinə gələrək Səfəvi şahı ilə görüşdü və onun hakimiyyətini tanıdığını bəyan etdi. Bu zaman Məlik Sultan Sistaninin hakimiyyəti altında Noh, Qalagah, Haş, Xoşkrud, Hirmənd çökəkliklərində yerləşən ərazilər, habelə yenicə fəth edilmiş Uğ əraziləri var idi. Şah İsmayıl onu öz vəzifəsində saxladı. Lakin bir qızılbaş əmirini ona vəkil təyin etdi və həmin əmiri bir min nəfərlik qoşun dəstəsi ilə Sistana göndərdi. Şah İsmayılın hakimiyyəti illərində Sistan idarəçiliyi bu şəkildə davam etdi. Amma Şah Təhmasib hakimiyyətə gəldikdən dərhal sonra Sistanın idarəçiliyinin qızılbaş əmirlərinə həvalə edilməsi haqqında qərar qəbul etdi və Məlik Sultan Mahmuda təklif edildi ki, bölgəni tərk etsin. Məlik Sultan Mahmud da bu hökmü yerinə yetirmək məcburiyyətində qalsa da, yeni vəziyyətlə də razlaşmadı. 1537-ci ildə Məlik Sultan Mahmud Qalagah, Uğ, Fətah, isfəraz, Ğur, Derə, Eskən, Saxer və Tulək ərazilərində özünün yeni hakimiyyətini yaratdığın bəyan etdi. Lakin o bu ərazilər üzərində öz hakimiyyətini uzun müddət saxlaya bilmədi. Bir müddətdən sonra Məlik Sultan Mahmud bölgəni tərk

etmək məcburiyyətində qaldı və Sistana aid olan ərazilər qızılbaş əmirlərinin idarəçiliyi altına verildi (128). Bununla, Sistanın valilik statusu da ləğv edilmiş oldu.

Yuxarıda qeyd edildiyi kimi, Səfəvi dövlətinin əsas ərazi-inzibati vahidləri bəylərbəyliklər idi. Bu bəylərbəyliklər də müvafiq inzibati vahidlərə bölünürdü.

**Azərbaycan** bəylərbəyi Səfəvi dövlətinin böyük bəylərbəyliyi olmaqla səltənətin əsas nüvəsi hesab olunurdu (129). Məlumdur ki, Şah İsmayıl öz dövlətini Azərbaycanın hüdudlarında qurmuşdu və 1501-ci ildə Səfəvi dövlətinin təşkilini də Azərbaycanın mərkəzi şəhəri olan Təbrizdə elan etmişdi. Sonradan Səfəvi dövlətinin hüdudları da məhz Azərbaycan ətrafında genişləndirilməyə başlandı. Şah İsmayıl bu şəhəri öz dövlətinin paytaxtı etməsi yalnız bu şəhərin süquta uğratdığı Ağqoyunlu dövlətinin paytaxtı olmasından irəli gəlmirdi. Təbriz şəhəri həm də Azərbaycan türklüyünün siyasi, mədəni və iqtisadi mərkəzi idi və Səfəvi dövlətinin bütün mövcudluğu dövründə bu şəhər öz aparıcı mövqeyini heç də əldən verməmişdi. Azərbaycan bəylərbəyliyinə hakimlər tərəfindən idarə olunan bu ərazilər daxil idi: Astara, Marağa, Qaracadağ, Hurs, Qapaniyat, Vərəzqan, Kərmrud, Həştrud, Tab, Lahican Üçrud, Sərab, Zənuz, Meşkin, Qaraağac, Sultaniyyə və Zəncan. Bu ərazilərin hər biri ayrıca vergi toplayıb təhvil verirdi. Azərbaycan bəylərbəyliyini təşkil edən inzibati vahidlərin sayının çox olması haqqında da elmi-tarixi ədəbiyyatda məlumatlar vardır (130). İstənilən halda Azərbaycan bəylərbəyi həm Şah İsmayılın, həm də Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi dövlətinin mərkəzi inzibati-ərazi vahidlərindən biri kimi qalmaqda davam edirdi.

Mövcud olan məlumatlar belə bir qənaətə gəlməyə əsas verir ki, Təbriz bir müddət Azərbaycanın vahid inzibati idarəçiliyi tərkibində idi. Bəzi məlumatlara görə isə, Təbriz müəyyən vaxtlarda ayrıca xassə ərazisi, yəni bir başa şaha tabe olan inzibati vahid olmuşdu. Məsələn, yuxarıdakı fəsillərdə deyilənlərdən aydındır ki, Səfəvi sarayına qarşı itaətsizlik etmiş və Osmanlı sarayına pənah aparmış Ülamə Təkəli bir vaxtlar Azərbaycan əmiril-ümə-

rası idi. Amma onun vaxtında Təbrizdə ayrıca darğa mövcud idi və görünən odur ki, darğa heç də Azərbaycan əmirül-ümərasının tabeçiliyində deyildi. Bu da həmin vaxtlar Təbrizin xassə torpağı olması ehtimalı yaradır. Təbrizin malik olduğu siyasi, iqtisadi, mədəni əhəmiyyətinə görə onun belə idarəçilik səlahiyyətlərinə malik olması mümkün idi.

Şah Təhmasibin hakimiyyəti dövründə də Təbriz şəhəri uzun illər ərzində Səfəvi dövlətinin paytaxtı olaraq qaldı. Yalnız 1555-ci ilin sonlarına yaxın Şah Təhmasib dövlətin paytaxtını Təbrizdən Qəzvinə köçürdü (131). Yuxarıda qeyd edildiyi kimi, belə qərar qəbul edilməsinin başlıca səbəblərindən biri Təbrizin Osmanlı sərhədinə yaxın olması və bu şəhərin Osmanlı təhdidləri altında olması ilə bağlı idi. Bəlli olduğu kimi, həm Şah İsmayılın, həm də Şah Təhmasibin hakimiyyəti illərində Təbriz şəhəri Osmanlı qoşunlarının nəzarəti altına düşmüşdü. Paytaxt şəhərinin digər bir dövlətin nəzarəti altına düşməsi, sözsüz ki, səltənət idarəçiliyinin nizamlılığına əks təsir göstərirdi. Bu da ona təkan verdi ki, paytaxt Təbrizdən Qəzvinə keçirilsin. Lakin bu qərar qəbul ediləndə iki dövlət Arasında Amasiya anlaşması əldə edilmişdi və Şah Təhmasibin hakimiyyətinin sonrakı illərində Təbrizə qarşı elə bir ciddi təhlükə yox idi. Bununla belə, Şah Təhmasib bu qərarını dəyişmədi.

Azərbaycan bəylərbəyliyinə də digər bəylərbəyliklər kimi qızılbaş əmirləri rəhbərlik edirdilər. Şah Təhmasibin hakimiyyətinin ilk illərində Azərbaycan bəylərbəyi vəzifəsinə Ülamə sultan Təkəli təyin edilmişdi. Bildirilir ki, o eyni zamanda Təbrizin də hakimi idi. Ülamə sultanın Səfəvi sarayına asilik edib Osmanlı sarayına qaçdıqdan sonra onun yerinə Musa sultan Mosullu təyin edildi. İstər mənbələrdə, istərsə də elmi-tarixi ədəbiyyatda Azərbaycan bəylərbəyliyinin hakiminin həm əmirül-üməra, həm də bəylərbəyi adlandırılması ilə rastlaşmaq mümkündür (132).

Səfəvi dövlətinin tərkibinə daxil olan bəylərbəyliklərdən biri də **Çuxur-Səəd** idi. Bu bəylərbəylik Səfəvi dövlətinin şimal-qərbində Gürcüstanın Axısqa vilayəti ilə Qars vilayəti arasında yerləşməklə Araz çayından şimalda olan əraziləri əhatə edirdi.

Mövcud məlumata görə, bu bəylərbəylik öz adını Sədli oymağının adından almışdı. Hələ Qaraqoyunlu dövləti dövründən Naxçıvan və Sürməlinin bu oymağın yurd yeri olduğu bildirilir. Arazla Arpa çayı arasındakı çökəklik (çuxur) isə Sədli oymağının qışlaq yeri olub. Ona görə həmin çökəklik Sədli çuxuru adı almış və sonra da bütün bölgə Çuxur-Səəd adı ilə tanınmışdı.

Bu bəylərbəyliyin mərkəzi İrəvan şəhəri idi. Mənbə məlumatlarına görə, onun da əsası Səfəvi dövlətinin mövcudluğunun ilkin dövründə qoyulmuşdu. Türk tarixçisi və səyahətçisi Övliya Çələbinin "Səyahətnamə" əsərində olan məlumata görə, Şah İsmayıl adı çəkilən bölgəni fəth etdikdən sonra özünün Rəvanqulu adlı sərkərdəsinə Həmin bölgədə müdafiə qalası tikməyi tapşırdı. Yeni tikiləcək qala Səfəvi dövlətinin sərhədlərinin qorunmasına xidmət etməli idi. Rəvanqulu xan bu tapşırığın icrasına başlayır və qalanın təbii müdafiə imkanlarının artırılması üçün Zəngi çayının sərt sahilində müvafiq yer seçir. Qalanın tikilib tamamlanması 7 ilə başa çatır və sonradan bu qala qızılbaş əmiri Rəvanqulu xanın adına uyğun olaraq, "Rəvan" qala kimi tanınır. Həmin sözdən də İrəvan sözü yaranır. Ölkənin şimal sərhədinin qorunması üçün İrəvan qalasının möhkəmləndirilməsi Hər zaman Səfəvi hakimlərinin diqqət mərkəzində idi və elə buna görədir ki, İrəvan qalası Səfəvilər dövlətinin mühüm hərbi və yaşayış məskənlərindən birinə çevrilmişdi (133).

Çuxur-Səəd bəylərbəyliyinin təşkili Səfəvi dövlətinin təşkilinin ilk dövrünə təsadüf edir. Şah Təhmasibin hakimiyyəti illərində Div sultan Rumlu, Bədr xan Ustaclı, Hüseyn sultan Rumlu, Şahqulu sultan Ustaclı, Şahqulu sultanın oğlu olan Məhəmməd xan Ustaclı Çuxur-Səəd bəylərbəyi olmuşdular (134). Bu bəylərbəyi Osmanlı dövləti ilə sərhəddə yerləşdiyindən bir çox vaxtlarda gərgin hərbi-siyasi proseslərin mərkəzində olmuşdu. Osmanlı qoşunlarının Azərbaycan üzərinə hərbi yürüşləri zamanı da bu bəylərbəyi mənbələrdə tez-tez xatırlanmalı olurdu. Osmanlı şahzadəsi Sultan Bayəzid də Səfəvi dövlətinə pənah gətirərkən əvvəlcə Çuxur-Səədə gəlmiş, Şahqulu sultana sığınmış və onun vasitəçiliyi ilə Qəzvin sarayına yollanmışdı.

Azərbaycan ərazisində yaradılmış bəylərbəyliklərdən biri də **Qarabağ** bəylərbəyi idi. Mənbə məlumatlarına görə, Şah Təhmasibin hakimiyyəti illərində formalaşdırılmış bu bəylərbəylik Kür və Araz çayları arasındakı əraziləri əhatə edirdi. Bu bəylərbəylik şimal-şərqdə Gürcüstanla, şimal-qərbdə isə Çuxur-Səəd bəylərbəyliyi ilə həmsərhəd idi. Bu bölgəyə ilk hakimin hələ Şah İsmayılın hakimiyyəti illərində təyin edilməsi haqqında məlumat vardır. Şah Təhmasib tərəfindən isə mərkəzi Gəncə olan Qarabağ bəylərbəyi vəzifəsinə Kamaləddin Şahverdi xan Ziyadoğlu təyin edilmişdi. Qacar tayfasının nümayəndəsi olan Şahverdi xan çox güman ki, Səfəvi dövlətinin hərbi-siyasi həyatında fəal iştirak edirdi və ona görə də Qarabağ bəylərbəyliyi ona tapşırılmışdı. Məlumdur ki, Şah Təhmasib həm 1551-ci ildə, həm də 1554-cü ildə Gürcüstan üzərinə həyata keçirilən hərbi yürüşdə yaxından iştirak etdi və Gürcüstanda baş qaldıran itaətsizliklərin yatırılmasında xüsusi xidmətlər göstərdi. Mövcud məlumata görə, 1554-cü il hərbi yürüşündən geri qayıdarkən Şah Təhmasib Gəncədə Şahverdi xanın evində qonaq qaldı. Bu da Şah Təhmasibin Şahverdi xana qarşı rəğbətli münasibətdə olmasının nümayişi idi (135).

Ehtimal edilir ki, bu hadisədən sonra Qarabağ bəylərbəyliyi Şahverdi xan Ziyadoğluna həvalə edildi. Gürcü mənbələrində olan məlumatlara görə də, məhz Gürcüstan üzərinə 1554-cü il hərbi yürüşündən sonra ayrıca Qarabağ bəylərbəyliyinin yaradılması haqqında qərar qəbul edildi. Bu bəylərbəyi Qarabağ və Gəncədən başqa Muğanı, Qazaxı, Şəmşəddinlini və Tiflisi də əhatə etməli idi (136). 1556-cı ildə Gürcüstan üzərinə növbəti hərbi yürüş həyata keçiriləndə Şahverdi xan Ziydoğlu bu yürüşdə Qarabağ qoşunu ilə iştirak etmişdi (137). Ona görə də həmin il onun artıq Qarabağ bəylərbəyi olduğunu söyləməyə əsas verir.

Mənbə məlumatlarına görə, Şah Təhmasib xüsusi münasibət bəslədiyi üçün Şahverdi xana qardaş-mühasib deyə müraciət edərmiş. Onun fərmanına əsasən, rəsmi sənədlərdə həm Şahverdi xanın, həm də onun varislərinin adından sonra mühasib sözü yazılmalı idi. 1568-ciildə Şahverdi xan dünyasını dəyişdikdə

onun varislərinin bəylərbəylik haqqı saxlanıldı və yerinə oğlu İbrahim xan təyin edildi. İbrahim xan da Şah Təhmasibin xüsusi rəğbətini qazanmış bir hakim idi və məlumdur ki, İbrahim xan həm də Şah Təhmasibin oğlu Sultanəli Mirzənin lələsi təyin edilmişdi (138).

Şah Təhmasibin hakimiyyəti illərində Qarabağ bəylərbəyi kifayət qədər sabit ictimai-siyasi və hərbi həyata malik bir inzibati vahid idi. Həmin dövrdə bu bəylərbəylikdə mərkəzi hakimiyyətin ciddi narahatçılığına malik olacaq bir hadisənin baş verməsi haqqında mənbələrdə məlumat verilməmişdir.

**Şirvan** bəylərbəyliyi Səfəvi dövlətinin tərkibinə əslində bir valilik kimi daxil edilmişdi və bu bölgədə yerli hakim sülaləsinin hakimiyyəti saxlanılmışdı. Yuxarıda qeyd edildiyi kimi, Şirvan hakimləri ilə Səfəvi sarayı arasında yaranmış gərginlik üzündən bu bölgənin nisbi müstəqilliyinə son qoyulması və onun birbaşa mərkəzi hakimiyyətə bağlı inzibati-ərazi vahidinə çevrilməsi məqsədəuyğun sayıldı. Bu bəylərbəyi Kür çayından şimalda olan əraziləri əhatə edirdi. Konkret olaraq Şirvan ərazisinə Salyan, Ərəş, Şəki, Quba, Dərbənd habelə, Bakı, Çəşmgəzək və Ağdaş daxil idi. Bu bəylərbəyliyinin ərazisi şərqdə Xəzər dənizindən başlayaraq Şəkini də əhatə etməklə qərbdə Gürcüstan sərhədinə qədər uzanırdı. Cənubda isə Kür çayından başlayaraq şimalda Qafqaz dağlarına qədər uzanırdı. Şirvanda sülalə hakimiyyətinin təsirləri güclü olduğu üçün bu bölgədə mərkəzdənqaçma meylləri də güclü idi. Bu meyllərin qarşısının alınması üçün məlumdur ki, Şah Təhmasib vilayət hakimi vəzifəsinə öz qardaşı Sam Mirzəni təyin etmişdi. Yuxarıda yazılanlardan məlumdur ki, Şirvan bəylərbəyliyində sonradan da gərgin hərbi-siyasi proseslər baş verdi və nəhayətdə Şah Təhmasib bu vilayətdə hərbi-siyasi sabitliyi bərqərar etdi. Bu sabitliyin təmin edilməsində Şirvan bəylərbəyi təyin edilmiş Şah İsmayılın bacısı oğlu Abdulla xan Ustaclının böyük xidməti var idi. 1566-cı ildə Abdulla xanın dünyasını dəyişməsindən sonra Şirvana Araz sultan Rumlu, Sultanəli bəy, sonra da Şah Təhmasibin oğlu Sultan Mahmud Mirzə bəylərbəyi vəzifəsinə təyin edildilər (139).

Səfəvi səltənətinin şərqində **Herat** və **Məşhəd** bəylərbəylikləri təşkil olunmuşdu. Mənbələrdə olan məlumatları görə belə bir qənaətə gəlmək mümkündür ki, bu bəylərbəyliklər Xorasan vilayəti daxilində yaradılmışdı və müəyyən hallarda Herat hakimi həm də bütün Xorasanın hakimi sayılırdı. Herat bəylərbəyliyinə Mərucağ, Fərah, Xaf, Cam, Bala-Murğab, Pəncdeh, Badqis, Kərəc, Rudmi, Qur və Tun mahal və ölkələri daxil idi. Məşhəd bəylərbəyliyinə isə Sərəxs, Nişapur, Turşiz, Abiverd, Azadvar, Nisə, Səbzəvar, Əsfərayin, Horuz, Dərun, Türbət, Bəzavendəkin kimi mahal və ölkələr aid edilirdi (140).

Herat və Məşhəd bəylərbəylikləri Səfəvi dövləti üçün strateji əhəmiyyət kəsb edən bölgələr idi və bu bölgələr Səfəvi dövlətinin mövcudluğunun ilkin dövründə fəth edilmişdilər. Səfəvi dini-ideologiyası üçün mühüm əhəmiyyət kəsb edən İmam Rza ziyarətgahı da bu bölgədə yerləşirdi. Dövlət hakimiyyətinin bu bölgədə sabitliyə nail olunması üçün Xorasan hakimliyi daha çox şah ailəsi üzlərinə tapşırılırdı. Məlumdur ki, Şah Təhmasib özü də bir müddət Xorasan hakimi kimi Heratda məskunlaşmalı olmuşdu. Sonradan Şah Təhmasibin qardaşı Sam Mirzənin də Herat hakimi olması bəlli bir faktdır.

Bölgə davamlı olaraq özbək qoşunlarının hərbi yürüşlərinə məruz qalırdı. Həmin yürüşlər həm Şah İsmayılın, həm də Şah Təhmasibin hakimiyyəti illərində davamlı xarakter almışdı. Bölgənin Səfəvi paytaxtından xeyli uzaqda olması özbək hakimlərində onun ərazilərinin asanlıqla qoparılacağı təsəvvürünü yaradırdı. Paytaxtdan uzaqda olması bölgənin müdafiəsi üçün müəyyən obyektiv çətinliklər yaradırdı. Buna baxmayaraq məlumdur ki, Şah Təhmasib Heratın və Məşhədin müdafiəsi istiqamətində çox qətiyyətli addımlar atdı. Bunun nəticəsi idi özbək hakimlərinin bütün cəhdləri uğursuzluğa düçar oldu və Xorasanda Səfəvi hakimiyyətini möhkəmləndirmək mümkün oldu. Amma özbək qoşunlarının bölgə üzərinə hərbi yürüşləri təsirsiz də ötüşmürdü. Bu yürüşlər bəzi hallarda sərhəd xəttində müəyyən dəyişikliklərə yol açsa da, Şah Təhmasib sonradan əldən verilmiş bir sıra məntəqələri də geri qaytara bildi.

Qeyd edildiyi kimi, 8-ci imam Əli ibn Musa əl-Rzanın (İmam Rza) məqbərəsi də Məşhəddə yerləşirdi. Şiəliyin yayılması və möhkəmləndirilməsi baxımından İmam Rzanın məqbərəsinin Səfəvi hüdudlarında olması böyük əhəmiyyət kəsb edirdi. İstər Şah İsmayıl, istərsə də Şah Təhmasib bir neçə dəfə İmam Rzanın məzarını ziyarət etmişdilər. Şah Təhmasib Xorasan istiqamətindəki hərbi yürüşləri zamanı xüsusi olaraq İmam Rzanın ziyarətinə yollanardı və burada öz dualarını etməklə, nəzir-niyazını da paylayardı (141).

Mərkəzdən uzaq olmasına baxmayaraq, Şah Təhmasibin hakimiyyəti illərində də bu bəylərbəyliklərdə, o cümlədən Xorasan vilayətində hakim vəzifəsi birmənalı şəkildə qızılbaş əmirlərinin və əyanlarının əlində idi.

Səfəvi dövlətinin ən şərq hüdudlarında isə **Qəndəhar** bəylərbəyliyi yerləşirdi. Qəndəharın nəzarət altına alınması da Şah İsmayılın hakimiyyəti illərinə təsadüf edir. Yuxarıda Qəndəharın fəth edilməsi haqqında verilmiş məlumatdan da görmək mümkündür ki, əyalətdə yerləşdiyi və mərkəzdən çox uzaq olduğu üçün bu bölgəyə vaxtaşırı iddialar ortaya qoyulmuş və bəzi vaxtlar Qəndəhar hətta Səfəvi nəzarətindən çıxarılmışdı. Bununla belə, Şah Təhmasib bu vilayət üzərində Səfəvi hakimiyyətini bərqərar edə bilmişdi.

Şah İsmayıl 1510-cu ildə özbək qoşunlarının hücumunun qarşısını almaq üçün Xorasan vilayətinə doğru yürüşə başlayanda **Astrabadı** ələ keçirmiş özbəklər bu şəhəri tərk etdilər. Bundan sonra bu şəhərin ağsaqqalları Şah İsmayılın yanına gəldilər və Səfəvi hakimiyyətini tanıdıqlarını bildirdilər. Həmin vaxtdan etibarən Astrabad Səfəvi dövlətinin hüdudları daxilində idi. Şah İsmayılın və Şah Təhmasibin hakimiyyəti illərində Astrabad çox qısa istisnalarla Səfəvi idarəçiliyindən kənarda qalmışdı. Şah Təhmasibin hakimiyyəti illərində də bu bəylərbəyliyə hakimlik qızılbaş əmirlərinin əlində idi. 1550-1558-ci illər ərzində Astrabad və ətrafında yaka türkmanlarının qiyamı baş verdi və bəllidir ki, bu qiyamın yatırılması zamanı hətta Şahverdi xan Ziyadoğlu da həyatı ilə vidalaşmalı olmuşdu. Lakin Şah Təhmasibin həyata

keçirdiyi qətiyyətli tədbirlər nəticəsində bu qiyamı yatırmaq və bölgədə Səfəvi hakimiyyətini yenidən bərqərar etmək mümkün oldu. Məsafə yaxınlığına görə, Astrabad özbək qoşunlarının təhlükəsi altında yerləşirdi. Xorasan vilayətinə qarşı özbək təhlükəsinin qarşısı alınandan sonra Astrabadın təhlükəsizliyi də daha sabit xarakter aldı. Bu bəylərbəyliyin hakimləri də qızılbaş əmirləri arasından təyin olunurdu.

**Kirman** vilayəti də Şah İsmayılın hakimiyyəti illərində fəth olunmuş və Səfəvi dövlətinin hüdudları tərkibinə daxil edilmişdi. Sonra da bu vilayətin bazasında bəylərbəyi təşkil edilmişdi. Şah İsmayıl tərəfindən bu vilayətin hakimi vəzifəsinə Məhəmməd xan Ustaclı təyin edilmişdi. Sonradan Məhəmməd xan Diyarbəkir hakimi təyin edilsə də, Kirman üzərindəki hakimliyini də saxlayırdı. Ona verilmiş səlahiyyət daxilində Məhəmməd xan Ustaclı öz nümayəndələri vasitəsi ilə Kirmanı idarə edirdi. Mənbələrdə olan məlumatlara görə, Kirman bəylərbəyliyinin ərazisi elə də böyük deyildi. Bu bəylərbəylik Kirmanı və onun ətrafındakı əraziləri əhatə edirdi. Sonralar Kirman hakimləri çox da böyük əraziləri əhatə etməyən Cərunu, Mina yaylasını, Təzəc və Şəmili də bu bəylərbəyliyin hüdudları daxilinə gətirə bilmişdilər. Kirman hakimləri də saray tərəfindən müəyyənləşdirilmiş həcmdə vergi toplayıb xəzinəyə göndərir və zərurət yarandığı halda da yerli qoşun dəstəsi ilə Səfəvi qoşunlarının tərkibinə qatılırdılar.

Şah Təhmasib dövründə Səfəvi dövlətinin tərkibinə daxil olan bəylərbəyliklərdən biri dı **Fars** idi. Bu bölgə Səfəvi səltənətinin cənubunda yerləşirdi və onun cənub sərhədi Fars körfəzinə çıxırdı. Farsın fəth edilməsi də Səfəvi dövlətinin təşkilinin ilkin dövrünə təsadüf edir və Şah İsmayıl bu uğuru 1503-cü ildə əldə etmişdi.

Elmi-tarixi ədəbiyyatda Fars bəylərbəyi ilə **Kuhkələviyyə** bəylərbəyliyinin adı çox hallarda bir yerdə çəkilir. Onlar hər biri ayrı-ayrılıqda müstəqil bəylərbəyi idi. Lakin həmsərhəd olmalarına və eyni bölgələrdə yerləşmələrinə görə adları adətən, bir yerdə çəkilir. Fars bəylərbəyliyinin mərkəzi Şiraz şəhəri, Kuh-

kələviyyənin mərkəzi isə Behbehan idi. İstər mənbələrdə, istərsə də elmi-tarixi ədəbiyyatda bəylərbəyliklərin vilayət adlandırılmasına da rast gəlmək mümkündür. Vilayət sözünün işlədilməsi bəylərbəyliklərin inzibati-ərazi səlahiyyətlərinin dəyişdirilməsi ilə deyil, yəqin ki bu sözün daha asanlıqla işlədilə bilməsindən irəli gəlirdi. Fars fəth edildikdən sonra oranın hakimiyyəti Zülqədər tayfasının nümayəndələrinə, Kuhkələviyyənin hakimliyi isə əfşar tayfasının nümayəndələrinə həvalə olundu. Şah Təhmasibin hakimiyyəti illərində Farsın bəylərbəyləri arasında Murad sultan Rumlunun, Həmzə sultan Zülqədərin, Qazi xan Zülqədərin, İbrahim xan Zülqədərin, Əli xan Zülqədərin adlarına rast gəlmək olar (142).

**Həmədan** da Səfəvilər dövlətinin tərkibinə daxil olan bəylərbəyliklərindən biridir. Mənbə və elmi-tarixi ədəbiyyatda bu vilayətin adının Qələmrovi-Əlişəkər kimi verilməsi ilə də rastlaşmaq mümkündür. Həmədanın Şah İsmayıl tərəfindən fəth edilməsi 1503-cü ilə təsadüf edir. Mərkəzi eyni adlı şəhər olan bu bölgənin hakimliyi də qızılbaş əmirlərinə məxsus idi. Bu bölgənin hakimləri arasında daha çox təkəli tayfasının nümayəndələrinin adına təsadüf etmək mümkündür. Şah Təhmasib dövrünün inzibati-ərazi vahidlərindən biri də sözsüz ki, **Qəzvin** idi. Yuxarıda qeyd edildiyi kimi. Bu inzibati vahid kifayət qədər böyük imkanlara malik olan bir bölgə idi və elə bunun nəticəsi idi ki, Şah Təhmasib 1555-ci ildə Qəzvini səltənət paytaxtına çevirdi. Şah Təhmasibin hakimiyyəti dövründə Qəzvin səltənətin paytaxtı kimi qaldı.

## 4. Şah Təhmasib dövrünün əyalət idarəçiliyi

Şah Təhmasib dövrünün səltənət idarəçiliyində şah istisna olmaqla beş əsas vəzifə var idi: vəkil, vəzir, əmirül-üməra, qorçubaşı və sədr. Vilayət idarəçiliyinin təşkilində də bu vəzifələr əsas vəzifələr idi və vilayətlərdə bir növ mərkəzi idarəçiliyin kiçildilmiş strukturu yaradılmışdı (143). Bu vəzifəli adamların başında

isə sözsüz ki, inzibati-ərazi vahidlərinə şah tərəfindən hakim təyin edilmiş adamlar dayanırdı.

İnzibati-ərazi vahidlərinin statusundan asılı olaraq hakimlərin statusunda da müəyyən fərqliliklər var idi. Eyni zamanda ərazi-inzibati vahidlərinin statusundan asılı olaraq hakimlərə müxtəlif adlar və titullar da verilirdi. Mənbələrdə ümumiləşdirici söz kimi "hakim" sözünə rast gəlmək mümkündür. Bu söz inzibati statusundan asılı olmayaraq bütün ərazilərin idarəçiliyinin başında dayanan adamlara şamil edilə bilərdi və onlar hamısı ümumi şəkildə qeyri-dövlətxana əmirlərinə şamil edilirdilər. Belə ki, mərkəzi idarəetmə sistemində vəzifə tutan və ya xidmət edən yüksək səlahiyyətli mənsublar dövlətxana əmirləri, əyalətlərdə xidmət edən və ya yüksək səlahiyyətli vəzifə icra edən mənsublar isə qeyri-dövlətxana və ya sərhəd əmirləri adlanırdılar (144). Qeyri-dövlətxana əmirlərinin təyinatı da şah tərəfindən aparılırdı (145).

Şah Təhmasibin hakimiyyəti illərində də yüksək vəzifələrə təyinat bir qayda olaraq əmirlər arasından aparılırdı. **Əmir** müəyyən səlahiyyətləri özündə əks etdirən bir mənsəb idi. Bu mənsəb adətən qoşun başçılarına verilirdi və onun xüsusi əlamətləri də mövcud idi. Amma qoşun rəhbəri olmayan adamların da əmir olması şansı mövcud idi. Bu mənada əmir mənsəbi hərbi və mülki səlahiyyətləri özündə birləşdirmiş bir mənsəb idi. Məsələn, tayfa və el başçıları təyin olunanda onlara bir qayda olaraq əmir mənsəbi verilirdi. Tayfa rəhbərləri özlüyündə həm də tayfa qoşun dəstələrinin rəhbərləri idilər. Bu mənada onlar hərbi və mülki vəzifələri özlərində qovuşdurmuşdular. Tayfa və ya el başçısı olmadan da əmir mənsəbi almaq mümkün idi. Müəyyən kateqoriya vəzifələr var idi ki, həmin vəzifələrə təyin edilənlər həm də əmir mənsəbini almış olurdular. Xüsusilə ərazi hakimləri bu vəzifəyə təyin edilməklə onlar həm də həmin ərazinin qoşun başçısı səlahiyyətlərini öz üzərinə götürürdülər. Mənbələrdən məlumdur ki, hətta əmir sözü müəyyən hallarda hakim sözünü də əvəz edirdi və müəyyən ərazi hakimləri əmir kimi təqdim olunurdu (146).

Əmir mənsəbi verilən adamlara təbil (döyüş nağarası) və bayraq əta olunur, onun ixtiyarına qoşun dəstəsi verilirdi (147).

Yəni əmir mənsəbinə malik olan adam yanında qoşun dəstəsi saxlamaq səlahiyyəti alırdı. Əmirlər həmin qoşun dəstəsini öz vəsaitləri, yəni əmir olduqları ərazidə və ya tayfada toplanılan vergilər hesabına saxlayırdılar. Zərurət yarandıqda isə əmrilər ixtiyarlarında olan qoşun dəstəsi ilə səltənət qoşunlarının tərkibinə qatılırdılar.

Bundan başqa əmirlər həm də məiyyət sahibləri idilər və bu məqam mənbələrlə də təsdiq olunur. Qeyd edildiyi kimi, yüksək vəzifələrə təyinatlar, o cümlədən də əyalət idarəçiliyinə edilən təyinatlar əsas etibarilə əmirlər arasından aparılırdı. Şah Təhmasibin hakimiyyəti illərində də əmirlərin mütləq əksəriyyəti qızılbaş tayfalarından idi. Bu da türk tayfalarının dövlətin təşkilində və idarəçiliyində kəsb etdiyi əhəmiyyətdən irəli gəlirdi. "Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasib dövrünün səltənət əmirləri haqqında belə bir qeyd vardır: "Allahın mərhəmətinə tuş gəlmiş şah (Təhmasib) həzrətlərinin vəfatı zamanında əmirlik rütbəsi daşıyan böyük əmirlərin, yüksək dərəcəli xanların, kiçik və böyük sultanların əksəri təbil, ələm, süvari qoşun və məiyyət sahibi idilər. Ali divanın dəftərlərindəki qeydlərdən aydın olur ki, həmin vaxt onların sayı yüz on dörd nəfər olmuşdur" (148).

Adı çəkilən mənbədə qızılbaş tayfalarının əmirlərinin adı da Şah Təhmasib dövrünün səltənət idarəçiliyində xüsusi xidmətləri olmuş əmirlər kimi çəkilmişdir. Bu əmirlərin siyahısına diqqət edilməsi bir tərəfdən hər bir tayfanın Səfəvi dövlətinin təşəkkülündə və möhkəmləndirilməsində yerini göstərirsə, bir tərəfdən də Şah Təhmasib dövrünün ən qüdrətli əmirlərinin kim olduğunu təsəvvür etməyə imkan verir. Bir daha qeyd edilməlidir ki, bu əmirlər səltənətin mərkəzi idarəçiliyinin, həm də əyalət idarəçiliyinin təşkilində fəal xidmətləri olan əmirlər idi. Mənbə müəllifi əsərində əsasən, Şah Təhmasib dövrünün əmirlərindən söz açmışdır. Onların arasında şamlı, ustaclı, türkman, rumlu, zülqədər, əfşar, qacar, talış, bayat, bayburdlu, alpout, xınıslı, çepni, qazaqlar, cığatay, şeyxavənd, talış, habelə kürd tayfalarının əmirləri vardır. Mənbədə bu tayfaların hər birinin əmirlərinin ayrı-ayrılıqda məlumatları qələmə alınmışdır. Məsələn, böyük qızılbaş

tayfalarından olan şamlı və ustaclı tayfalarının əmirləri haqqında adı çəkilən mənbədə belə qeydlər vardır:

"**Şamlu tayfasının əmirlərinin adları:** Şamlu tayfası qızılbaş tayfalarının ən mühümüdür, xidmətlərinin, hüquqlarının və fədakarlıqlarının qədimliyinə görə digərlərindən irəlidədir və oymaqların ən öndə gedənidir. Cahanı fəth edən xaqanın (I Şah İsmayılın) zamanında, bu dövlətin və xanədanın zühuru vaxtında və cənnətməkan, səadətli Şah (Təhmasib) həzrətlərinin hakimiyyətinin əvvəllərində şamlu tayfası arasında böyük əmirlər və yüksək şöhrətli xanlar vardı. Misal üçün: əbədiyyətə qovuşmuş Süleyman şanlı xaqan Şah İsmayıl Bahadır xanın lələsi Hüseyn bəy, o həzrətlə (Şah İsmayılla) qohum olmaq şərəfinə nail olan Əbdi bəy və onun oğlu Durmuş xan, [sonuncunun] qardaşı və cənnətməkan şah həzrətlərinin bacısı oğlu olan Hüseyn xan, Zeynal xan, Ağzıvar xan və başqaları. Şamlular həmin zaman böyük mənsəblər və layiqli tiyullar baxımından digər oymaqlardan imtiyazlı idilər. Amma bəhs etdiyimiz zamanda (Şah Təhmasibin ölümü vaxtı) onlardan nağara və ələm sahibi olanların sayı beş nəfərdən artıq deyildi. Onların ən əzəmətlisi müqəddəs və ulu Məşhədin hakimi olan Vəli xəlifə Ovçu idi və o, digər [şamlu] əmirlərindən daha çox qoşuna və ləşkərə malik idi. Əksər şamlu əmirzadələri onun qoşununun tərkibinə daxil idilər. Fulad xəlifə Həmədan vilayətinin hakimi idi. Digəri Astarabad hakimliyindən azad edilərək ulu dərgahda olan Süleyman xəlifədir. Digər birisi isə Kübə İbrahim [ləqəbi] ilə məşhur olan İbrahim sultandır.

**Ustaclu tayfası** da dünyanı fəth edən Süleyman şanlı xaqanın və cənnətməkan şahın zamanlarında böyük əmirlərə malik olmuşdur. Misal üçün: Diyarbəkr hakimi Xan Məhəmməd, onun qardaşı Qaraxan, Qılıc xan, Çayan sultan, Köpək sultan, Məntəşa sultan, Sədrəddin xan, Faruq sultan, Abdulla xan, Çuxursəəd hakimi Şahqulu sultan və qeyriləri. Onların hamısı «məmaliki-məhrusə »də ölkə sahibi olmuşlar. Cənnətməkan şah həzrətlərinin cülusunun əvvəllərində ölkədaxili qarışıqlıqlar və Div sultan Rumlu ilə Çuxa sultan Təkəlünün inadı üzündən, həzrət şahın

cülusu hadisələrinin şərhi zamanı qələmə alındığı kimi, ustaclu əmirləri qəzəbə düçar olub, bir müddət Gilanda baş girlədilər. Amma təkəlülərin ağalığına son qoyulduqdan və onların hegemonluğu aradan qaldırıldıqdan sonra [ustaclu əmirləri] yenidən irəli çəkilib, tamam-kamal etibar əldə etdilər. O həzrətin ölümü zamanı bu tayfadan bir çoxları əmirlik rütbəsi daşıyıb, təbil, ələm, ordu və qoşun sahibi idilər və mötəbər tiyullara malik idilər. Onların ulu dərgahdakı böyüyü Həsən bəy Yüzbaşının oğlu Hüseyn bəy idi. O, əmisi Nəzər sultanın [ölümündən sonra onun] yerinə əmirlik alıb, şahzadə Sultan Mustafa mirzənin lələsi təyin olunmuşdu. O, əşrəfin hüzurunda böyük qədir-qiymətə və dərəcəyə malik idi, rəy və məşvərət sahibi kimi dövlət işlərinə müdaxilə edə bilirdi. Onun yaxşı təşkil olunmuş qoşunu vardı və o, qüdrətli dövlətin dayaqlarından biri sayılırdı. [Ustaclu əmirlərindən] digəri Teymur xanın oğlu Murad xan Süfrəçi idi. O, ulu dərgahın böyük əmirlərindən idi. Amma cənnətməkan şahın ölümü zamanı o, Kəcur qalasını fəth etməyə getmişdi və [şah] ordusunda deyildi.

Digər birisi Gilan əyalətinin [hakimi vəzifəsindən] uzaqlaşdırılaraq ulu dərgahın əmirlərindən olan Aycəkoğlu Allahqulu sultan Kərampadır.

Digər birisi Piri bəy Qoçuludur. O da dərgah əmirlərindən idi, amma həzrət şahın ölümü vaxtı öz iqtası olan Reydəki Vəramin [məntəqəsinə] getmişdi. «Məmaliki-məhrusə»nin əmirlərindən olan digər bir [ustaclu əmiri] Biyepiş əmirülümərası və İmamqulu mirzənin lələsi Pirə Məhəmməd xan Çavuşlu idi. O, qoşun sahibi olan böyük əmirlərdən idi.

Digər birisi Çuxursəədin əmirülümərası və böyük, mötəbər əmirlərdən biri olan Məhəmmədi xan Toxmaqdır. O, ordusunun və qoşununun say çoxluğuna görə tayfadaşlarından öndə idi və cənnətməkan şahın ölümü zamanı Ruma elçi getmiş, İsmayıl mirzənin [hakimiyyəti] zamanında geri qayıtmışdı.

Digər birisi darüssəltənə Heratın hakimi və Xorasanın əmirülümərası olan Şahqulu sultan Yegandır. O, İranda hökmranlığa

nail olan ali dərəcəli, qüvvət sahibi şahzadə Abbas Bahadır xanın lələliyi xidmətinin səadəti ilə əzizlənmiş və şərəflənmişdi.

Digər birisi Nəzər sultan Asayişoğludur. O, Heratda yasaqkeş idi və Lusuyədə və Quryanda ölkəsi vardı.

Digər birisi Şahqulu sutan Yeganın Sərəxs hakimi olan oğlu İbrahim sultandır.

Digər birisi ustacluların şərəfli oymağından olan Xorasan çərxçibaşısı Vəli xandır. O, Xəvaf və Baxərz hakimi idi.

Digər birisi Xorasan əmirlərindən olan və o vaxtlar Turşiz hakimi vəzifəsini tutan Mahmud xan Sufioğludur.

Digər birisi Murad xanın atası Teymur xan Şeyxlərdir ki, Sistanın hakimi və Bədiüzzaman mirzənin ləməsi idi.

Digər birisi Şüştər və Dizful hakimi olan və mötəbər əmirlərdən sayılan Ayğut sultan Çavuşlu idi.

Digər birisi [ustacluların] mahi-fəqihlü oymağından olan və Bəndi hakimi vəzifəsini tutan Şahqulu sultan Qarıncaoğludur. O, Tiflisdə Davud xan Gürcüyə kömək etməyə və onun problemlərini həll etməyə məmur edilmişdi.

Digər birisi Keçəl Şahverdinin oğlu Mustafa sultandır. O, Xorasanda idi ” (149).

“Tarix-i aləmara-yi Abbasi” əsərində digər qızılbaş tayfalarından vilayət idarəçiliyində olan digər əmirlərin adına da rast gəlmək mümkündür: türkman tayfasından Məhəmməd xan Mosullu – Sistan hakimi, Murtuzqulu xan Pornak – Məşhəd hakimi və Xorasanın yarısının əmirül-ümərası, Xorasandakı Tun və Təbəs hakimi – Süleyman xəlifə; rumlu tayfasından Şirvan əmirülümərası – Araz xan, Xoy və Səlmas hakimi – Dəli Budaq; zülqədər tayfasından Astrabad hakimi – Məhəmməd xəlifə, Şiraz hakimi – Vəli sultan Qalxançıoğlu, Darahcərd, Lar və Bəhri-Fars hakimi – Şahqulu xəlifə; əfşar tayfasından Kuh-Kələviyyə hakimi Xəlil xan, Savə hakimi – Mahmud xan, Hezarcirib hakimi – İsgəndər xan, Xorasanda Fərah və İsfizar hakimi – Yeqan sultan; qacar tayfasından Qarabağ bəylərbəyi Şahverdi xan Ziyadoğlu, Damğan və Bistam hakimi – Əli xəlifə Ağcalı; təkəli tayfasından Gilanda ölkə hakimi – Solağ Hüseyn, Xorasanda ölkə hakimi –

Vəli sultan Şərəfəddinoğlu, bayburd tayfasından Çuxur-səəddə Şuragöl və Ələşgərd hakimi – Qara xan; alpaut tayfasından Çuxur-səəddə bölgə hakimi İbrahim xəlifə; Cağatay tayfasından İbnihüseyn – Sərəxs hakimi və s. (150).

Dövlətxana əmirləri arasında da eləlləri var idi ki, onlara müəyyən bölgələr və ya ərazilər tiyul kimi verilirdi. Yəni həmin ərazilərin hakimliyi, idarəçiliyi onlara verilirdi. Belə əmirlər bir qayda olaraq saraydakı vəzifələrini tərk etmirdilər və onlar yerlərdəki idarəçiliyi etibar etdikləri adamlara tapşırırdılar. Həmin adamlar da bu idarəçiliyin həyata keçirilməsi üçün dövlətxana əmirləri qarşısında məsuliyyət daşıyırdılar (151).

Yüksək vəzifəyə təyin olunan adamlara digər titullar da verilə bilirdi. Bu titullar arasında bəy, xan və sultan titulları mənbələrdə də öz əksini tapmışdı. Bəy titulu ən aşağı titul sayılırdı və görünən odur ki, bəylərin xüsusi nişanları olmurdu. Mənbə məlumatları onu deməyə əsas verir ki, bəylər nisbətən daha aşağı səlahiyyət sahibləri idilər və daha çox məhəlli xarakterə malik idi. Məlumdur ki, bəylər xidmətləri ilə fərqləndirkləri halda onlara xan titulu verilə bilərdi. Məsələn, Şah Təhmasibin hakimiyyəti illərində Bayram bəy adlı bir qızılbaş əyanı yaxşı xidmətlərinə görə şahdan xan titulu qazanmışdı. Xan tituluna malik olan qızılbaşlara da təbil və bayraq verilirdi (152). Bu titulun verilməsi də şahın səlahiyyətində idi. Amma saray vəkilinin də xan titulunu verməsi haqqında faktlar vardır. Çox güman ki, saray vəkili bunu şah adından və ya onun tapşırığı ilə edə bilərdi. Yerli idarəçiliyə təyin olunmuş qızılbaş əmirlərinin əksəriyyəti xan tituluna malik idilər. Bu titul qızılbaş əmirlərinin nüfuzunun və ictimai mövqeyinin daha da möhkəmlənməsinə yol açırdı. Mövcud məlumatlara görə, xan titulundan başqa əmirlərə və əyanlara sultan titulunun verilməsi təcrübəsi də mövcud idi. Şah Təhmasib sarayında yuxarı mərtəbə sultanlar və aşağı mərtəbə sultanlar var idi. Çox güman ki, sultanların yuxarı və aşağı mərtəbədə qərar tutmalarını onların vəzifələri müəyyən edirdi. Sultan titulu nüfuzuna və ictimai mövqeyinə görə xan titulundan aşağı sayılırdı. Yəni burada xatırlanan titulların nüfuz sıralanması belə idi: bəy,

sultan və xan. Bu titul sahiblərinin tutduqları vəzifələrin səlahiyyət imkanları isə elmi-tarixi ədəbiyyatda belə açıqlanmışdır: əyalətlərdə ən böyük hakim bəylərbəyi sayılırdı. Xanlar böyük hakimlər, sultanlar isə vilayətlərə aid olan inzibati vahidlərin, yəni ölkə və ya mahalın hakimləri idilər. Hər bəylərbəyinin tabeliyində bir neçə xan və sultan ola bilərdi (153).

Xan və sultan titulları Şah Təhmasibin hakimiyyəti illərində də ən nüfuzlu titullar idi və bu titula layiq görülənlər arasında bəylərbəyi vəzifəsinə təyin olunan əmirlər də az deyildi. Yuxarıdakı məlumatlardan da görmək mümkündür ki, Səfəvi dövlətinin ərazisinə daxil olan bəylərbəyliklərin əksəriyyətinin bəylərbəyi məhz xan və sultan idi. Mövcud olan məlumata görə, Şah Təhmasibin hakimiyyəti illərində səltənət daxilində 50-70 nəfər arasında xan və sultan var idi və onların əksəriyyəti əyalət idarəçiliyində vəzifə icra edirdilər (154).

Şah Təhmasibin hakimiyyəti illərində əyalət idarəçiliyində ən yüksək nüfuza və səlahiyyətlərə malik olan vəzifəli adam **vali** idi. Bu vəzifə sahibləri yuxarıda haqqında danışılan valiliklərin hakimləri idilər. Onlar səltənət daxilində daha geniş səlahiyyətə və nüfuza malik idilər. Eyni zamanda sülalə hakimiyyətinin saxlanılması da valiləri digər hakimlərdən fərqləndirirdi. Valilər həm də digər hakimlərə nisbətən daha böyük müstəqilliyə malik idilər. Məlum olduğu kimi, valilər hakim olduğu sərhədlər daxilində məhəlli hakimləri özləri təyin edir, valilik daxilində vergiləri özləri müəyyənlşdirir və toplayır və səltənət xəzinəsinə vergi ödəmirdilər. Bu, heç də onların tam maliyyə müstəqilliyi demək deyildi. Valilər şaha müxtəlif bəxşişlər, hədiyyələr və maliyyə ödəncləri göndərirdilər. Bunlar normativləşdirilməmiş maliyyə ödəncləri idi və onu da valilər özləri müəyyən edirdilər (155).

Məlum olduğu kimi, Şah Təhmasibin hakimiyyəti illərində dörd valilik mövcud idi. Mənbələrdə bu valiliklərin malik olduğu nüfuz haqqında belə yazılmışdı ki, Ərəbistan valisi şücaətinə, etibarına, hakimi olduğu ellərin çoxluğuna səltənətin digər valilərindən daha böyük və daha əzəmətli idi. İkinci yerdə Luristan valisi göstərilirdi və onun da böyük nüfuza malik olduğu bil-

dirilirdi. Ondan sonra isə Gürcüstan və Kürdüstan valilərinin gəldiyi bildirilirdi (156).

Şah Təhmasib tərəfindən də valilərə xüsusi ehtiram göstərilir və dövlət idarəçiliyində də onların yüksək səlahiyyətlərə və nüfuzu malik olması əməli olaraq öz ifadəsini tapırdı. Bunu xüsusilə onun Gürcüstan valiliyinə münasibətində görmək mümkündür. Mənbə məlumatlarından bəllidir ki, Gürcüstan valisinin vəzifə təyinatı xüsusi mərasimlə həyata keçirilirdi. Bildirilir ki, Gürcüstan valilərindən birinin hakimiyyətə gəlişi şah sarayı tərəfindən verilən çoxlu sayda qiymətli hədiyyələrlə qeyd edilmişdi. Məsələn, Şah Təhmasib Kartliyə Davud xanı vali təyin edərkən ona 2 min tümən pul, qiymətli paltar, uzun geyim, bir ədəd qiymətli kəmər, qiymətli xəzlərə tutulmuş üst geyimi, tac, qılınc, xəncər, mirvarilərlə bəzədilmiş çomaq, bir baş at və qiymətlıi daşlarla bəzədilmiş at təchizatı, bir ədəd güldan, bir ədəd cam (157). Gürcüstan valisinə taxta çıxan zaman belə hədiyyələr verilməsi Şah Təhmasibdən sonra bir ənənə şəklini aldı.

Gürcüstan valisi ilə bağlı Şah Təhmasib tərəfindən daha maraqlı bir ənənənin əsası qoyuldu. Davud xan həm də Gürcüstan valisi elan edilmiş ilk müsəlman idi. Şah Təhmasib ümumiyyətlə, digər valiliklərdə də vali vəzifəsinə gətirilənlərin müsəlman olması ilə bərabər, onların həm də şiə məzhəbinə mənsub olmasına xüsusi diqqət yetirirdi. Şah Təhmasib gürcü vəliəhdlərinin sadəcə olaraq müsəlman olmasında maraqlı deyildi. O həm də Səfəvi sarayına sədaqətli ola biləcək gürcü vəliəhdlərini özünə oğulluğa qəbul edirdi. Kartli valisi olmuş I Simon müsəlman olduqdan sonra Sultan Mahmud xan adlanmaqla Şah Təhmasibin qardaşı məqamına qəbul olunmuşdu. Qardaş olmaq bütün müsəlmanlar arasında zəruri münasibət kimi qəbul olunurdu və sənədlərdə də Sultan Mahmud xana qardaş kimi müraciət olunurdu. O da məlumdur ki, Gürcüstan valiləri də imzaladıqları sənədlərdə şah tərəfindən övladlığa və qardaşlığa qəbul olunmalarını rəsmi şəkildə göstərirdilər. Məsələn məlumdur ki, Gürcüstan valisi Sultan Mahmud xanın və Rüstəm xanın tuğraları belə idi: "Əbülmənsur Sultan Mahmud Mirzə sözüm", "Əbülqazi Sultan Rüstəm xan

Mirzə sözüm" (Rüstəm xan Şah Təhmasibdən sonrakı dövrə aiddir) (158).

Valilərin öz adlarından sonra "Mirzə" sözünün işlətmələri şah övladı olmalarına bir işarə idi. Çünki o zamanlar "Mirzə" bir qayda olaraq şah övladlarının adlarından sonra işlədilirdi və onların şahzadəliyini təsdiqləyirdi. Diqqət yetirilərsə Gürcüstan valisinin tuğrasında "sözüm" sözünün işlədilməsi də Səfəvi şahına olan ehtiramın bir nümayişi idi. Azərbaycan türkcəsində olan bu söz – fərman, hökm mənasında işlədilməklə türk dilində olan dövlətçilik protokoluna riayətdən irəli gəlirdi.

Səfəvi mərkəzi hakimiyyətinə sədaqət gözlənildiyi halda Şah Təhmasib tərəfindən valilərə ehtiramlı münasibət qalmaqda davam edirdi.

Əyalət idarəçilik sisteminin formalaşmasında **bəylərbəyi** mühüm bəndlərdən birini təşkil edirdi. Bəylərbəyi bəylərbəyliklərin hakimi idi və bu vəzifəyə o, Şah Təhmasib tərəfindən təyin edilirdi. Bəylərbəyliklər Səfəvi dövlətinin inzibati-ərazi təşkilinin əsasını təşkil etdiyindən onların hakimləri də səltənət idarəçiliyinin təşkilində, bu idarəçilik perpendikulyarının möhkəmləndirilməsində xüsusi yer tuturdular. Bəylərbəyi sözünün mənbələrdə və elmi-tarixi ədəbiyyatda xanlarxanı kimi işlədilməsinə də rast gəlmək mümkündür. Eyni zamanda bəylərbəyi vəzifəsində olan vəzifəli adamın mənbələrdə və elmi-tarixi ədəbiyyatda hakim kimi və əmirül-ümərа kimi adlandırılmasına da rast gəlmək mümkündür. Bəzi məlumatlara görə, bəylərbəyi ifadəsindən, ümumiyyətlə, ilk dəfə 1543-cü ilə aid olan sənəddə istifadə olunmuşdu (159). Yəni bəylərbəyi anlayışının fomalaşmasına Şah Təhmasibin hakimiyyəti illərində başlanmışdı.

Bəylərbəyi ikili vəzifəni özündə birləşdirirdi. O, hakimiyi olduğu inzibati-ərazi vahidinin mülki işlər üzrə hakimi olmaqdan əlavə, həm də yerli qoşunların rəhbəri idi. Vilayət daxilində idarəçiliyin təşkili, şah hakimiyyətinin yerlərdə icrası və mərkəzi hakimiyyətin yerlərdə möhkəmləndirilməsi, vilayət daxilində vergilərin toplanması və onların şah xəzinəsinə çatdırılması, vilayət qoşunlarının təşkili, formalaşdırılması və təchizi, vilayət

sərhədlərinin qorunması bəylərbəylərinin məsuliyyət sahəsində idi. Sərhəddə yerləşən bəylərbəylikləri mərkəzdən çox uzaqda idi. Bu mənada sərhəd bölgəsindəki bəylərbəyləri ilə əlaqə saxlanması, şah qərarlarının və hökmlərinin vaxtında yerlərə çatdırılması obyektiv çətinliklərlə qarşılaşırdı. Mərkəzdən uzaq olması həm də sərhəd vilayətlərinin təhlükəsizliyini çox həssas edirdi və bu vilayətlər daha tez-tez kənar hərbi müdaxilələrlə qarşılaşa bilərdilər. Ona görə bəylərbəyi vəzifəsinə sınanmış və etibarlı qızılbaş əmirləri təyin edilərdilər. Həmin vəzifələrə ilk növbədə şah ailəsinin üzvləri təyin edilərdilər. Kiçik yaşda olan şahzadələrin yanına isə lələlər verilərdi. Yəni şahzadələrin vilayət hakimliyi vəzifəsinə təyin edilməsi onların idarəçilik təcrübəsi əldə etmələri istəyindən əlavə, həm də vilayət idarəçiliyinin etibarlı əllərdə olması istəyindən irəli gəlirdi.

Lələlik institutu Şah Təhmasibin hakimiyyəti illərində də geniş tətbiq edilən bir təcrübə idi. Onlar həddi-buluğa çatmamış şah övladlarının və şah ailəsi üzvlərinin rəsmi hamiləri idilər. Mənbələrdə lələlərə daha çox şah ailəsi üzvlərinin vilayət hakimləri (bəylərbəyi) təyin edilməsi ilə rast gəlmək mümkündür. İstifadə olunmuş məlumatlardan da görmək mümkündür ki, Şah Təhmasibin qardaşları da, onun övladları da vilayət hakimləri təyin olunmuşdular və onların yanına da rəsmi şəkildə lələlər təyin olunurdular. Lələ (atabəy) həm böyük məsuliyyətə, həm də böyük səlahiyyətlərə malik idilər. Onların məsuliyyəti onunla bağlı idi ki, kiçik yaşlı şah ailəsi üzvlərinin tərbiyəsinə, formalaşmasına, döyüş keyfiyyətləri əldə etməsinə məsuliyyət daşıyırdılar. Lələlər eyni zamanda şah qarşısında cavabdeh idilər. Onlar şah övladlarının həyatı üçün də məsuliyyət daşıyırdılar. Bu mənada lələlər bəzən şahzadənin atası kimi də təqdim olunurdular. Səlahiyyətləri isə onunla bağlı idi ki, lələsi olduğu şahzadənin hakim təyin edildiyi vilayətin idarəçiliyini demək olar ki, öz üzərlərinə götürmüşdülər. Ona görə mənbələrdə bu və ya digər lələnin hətta hakim kimi xatırlanmasına da rast gəlmək mümkündür. Məsuliyyət və səlahiyyətləri nəzərə alınaraq lələ vəzifəsinə bir qayda olaraq ən təcrübəli və ən etibarlı qızılbaş əmirləri

təyin olunurdular. Amma mənbələrdə belə lələlərdən bəzilərinin mərkəzi hakimiyyətə qarşı sədaqətsizlik nümayiş etdirməsi, böyük sərvət sahibi olandan sonra daha böyük hakimiyyət iddiasına düşməsi halları ilə də rastlaşmaq mümkündür. Nümunə üçün Herat bəylərbəyi Sam Mirzənin lələsi Ağzıvar xanın asilik yolunu tutması və mərkəzi hakimiyyətdən qopmağa çalışmasını misal göstərmək olar. Məlumdur ki, onun bu cəhdinin qarşısı alınsa da həmin cəhd səltənət üçün müəyyən narahatçılıqlar da yaratdı.

Yerli idarəçiliyin təşkil edilməsində Şah Təhmasibin qardaşları Sam Mirzə, Əlqas Mirzə, Bəhram Mirzə, Şah Təhmasibin övladları Məhəmməd Mirzə, İsmayıl Mirzə, Hüseyn Mirzə və digərləri, habelə Bəhram Mirzənin övladları, Şah Təhmasibin digər qohumları birbaşa iştirak edirdilər. Yəni, şah ailəsinin üzvləri vilayət idarəçiliyinə təyinatda üstün mövqeyə malik idilər. Onlardan əlavə isə Səfəvi dövlətinin təşkilində və qorunmasında xüsusi xidmətləri olan qızılbaş əmirləri bu vəzifələrə hakim təyin edilirdilər. İstər Şah İsmayılın, istərsə də Şah Təhmasibin hakimiyyəti illərində vilayət hakimlərinin əsasını qızılbaş türk əmirləri təşkil edirdilər. Bir daha qeyd edilməlidir ki, bu vəzifəyə təyinatı Səfəvi dövlətinin möhkəmlənməsində xüsusi xidməti olan əmirlər alırdılar. Bəzi hallarda bu vəzifənin irsi olaraq keçməsi ilə da qarşılaşmaq olar (160). Lakin vilayət hakimlərinin təyinatında irsilik qəbul edilmiş bir norma deyildi. Yalnız dünyasını dəyişən bəylərbəyinin xüsusi xidmətləri nəzərə alınaraq onun vəzifəsinin icrası övladına tapşırıla bilərdi. Başqa sözlə vilayətlərdə valiliklərdən fərqli olaraq sülalə hakimiyyəti mövcud deyildi.

Vilayət hakimliyinə təyinatda mərkəzi hakimiyyətə sədaqətlə bərabər, həm də idarəçilik bacarığı da nəzərə alınırdı. Hətta vilayət hakimliyinə təyin edilmiş şah ailəsinin üzvlərinin də idarəçilik qabiliyyəti və bacarığı onların həmin vəzifədə qalması üçün əsas sayılırdı. Məlumdur ki, məhz idarəçilik bacarığının yetərli olmadığı üçün Sam Mirzə Herat hakimliyindən kənarlaşdırıldı. Yuxarıdakı məlumatlardan da görünür ki, əyalət idarəçiliyində

yaxşı keyfiyyətlər nümayiş etdirmiş əmirlərin vəzifələri böyüdülərək sarayda mühüm məqamlara təyin edilirdilər. Əks təqdirdə isə onlar digərləri ilə əvəzlənirdilər. Bununla bağlı mənbələrdə də çoxlu məlumatlar vardır ki, vəzifəsinin öhdəsindən gələ bilməyənlər, əhaliyə qarşı münaibətdə şahın etimadını doğrulda bilməyənlər birmənalı şəkildə öz vəzifələrindən azad edilirdilər (161).

Səfəvilər dövrünün idarəçilik sisteminin tədqiqatçıları daha çox olaraq 13 bəylərbəyliyin mövcudluğundan söz açırlar. Yuxarıdakı məlumatda da 13 bəylərbəyliyin adı göstərilmişdir. Amma Şah Təhmasibin hakimiyyəti illərində Məşhədin ayrıca bir bəylərbəyi olması haqqındakı fikir müəyyən mübahisə doğura bilər. Çünki məlumdur ki, Səfəvilərin hakimiyyəti illərində Herat şəhəri Xorasan vilayətinin mərkəzi şəhəri idi və Məşhəd də bu vilayətin tərkibində idi. Eyni zamanda Şah Təhmasib dövrünün bəylərbəylikləri sırasına Bağdad və ərəb İraqının daxil edilməsi mümkün sayıla bilər. Çünki Osmanlı hərbi yürüşlərinin başlanmasına qədər ərəb İraqı mərkəz Bağdad olmaqla ayrıca bir vilayət idi və Şah Təhmasibin hakimiyyətinin ilkin dövründə İbrahim xan və Məhəmməd xan Şərəfəddinoğlu da Bağdad və onun ətrafının hakimi olmuşdular.

Mövcud olan məlumatlardan görmək mümkündür ki, bəzi bəylərbəyliklər səltənət idarəçiliyində daha böyük nüfuza malik idilər. Məsələn, Herat (Xorasan), Fars, Bağdad, Qəndəhar və Şirvan. Bu, çox güman ki, həmin bəylərbəyliklərin ərazisinin miqyası və həm də strateji imkanları ilə bağlı idi. Bu bəylərbəyliklərin bəylərbəyləri eyni zamanda əmirül-üməra adlanırdı və rəsmi sənədlərdə də onların adlarının qarşısına bu titul və mənsəb artırılırdı. Yəni dövrün rəsmi yazışmalarında belə bir təcrübədən də istifadə olunurdu ki, hər bir hakimin adının qarşısında onun vəzifəsinə uyğun olan titullar və ləqəblər də artırılırdı. Bu mənada hər bir bəylərbəyinin də adının qarşısında uyğun titul və ləqəblərin sadalanması qəbul olunmuş norma idi (162).

Bəylərbəylərinə hakimi olduğu inzibati-ərazi vahidi daxilində olan məhəlli hakimlərin təyin və azad edilməsi səlahiyyəti ve-

rilirdi. Məsələn, Şah Təhmasib hakimiyyətinin ilk ilində Durmuş xanın Xorasan hakimi təyin edilməsi ilə bağlı verdiyi fərmanında yazmışdı ki, onun məhəlli hakimləri və vilayət daxilindəki digər vəzifəli əyanları öz vəzifəsindən kənarlaşdırmaq səlahiyyəti vardır (163).

Səltənətin əyalətlərində daxili hərbi-siyasi vəziyyətin sabit saxlanması sözsüz ki, ilk növbədə vilayət hakimlərinin (bəylərbəyilərin) üzərində idi. Lakin mərkəzlə əlaqələrin möhkəm olmaması, idarəçilik perpendikulyarının güclü olmaması və mərkəzlə vilayətlər arasında bağlılığın obyektiv zəifliyi müəyyən hallarda mərkəzi hakimiyyətə qarşı yayınmalara da yol aça bilirdi. Bunun qarşısının alınmasının bir yolu da vilayət hakimlərinin yanına mərkəzi hakimiyyət tərəfindən **vəzirlərin** təyin edilməsində görülürdü. Bu vəzirlər yerli hakimlərin gücünün və qüdrətinin artmasının qarşısını almalı, onların mərkəzi hakimiyyətə qarşı sədaqətsizlik göstərməsinə yol verməməli idilər. Məhəlli vəzir vilayət idarəçiliyində hakimdən sonra ikinci adam idi və o bu vəzifəyə bir qayda olaraq şah tərəfindən təyin olunurdu. Başqa sözlə məhəlli vəzir həm də şahın yerlərdəki xüsusi nümayəndəsi kimi də tanınırdı və ona da şah tərəfində böyük səlahiyyətlər verilirdi. Məsələn, məlumdur ki, Şah Təhmasib oğlu İsmayıl Mirzəni Məşhəd hakimi təyin edəndə onun vəzirinə mülki işlərə rəhbərlik, vergilərin toplanmasına nəzarət, qoşunların təşkili ilə bağlı böyük səlahiyyətlər vermişdi (164).

Səfəvi dövlətinin təşkilin ilk illərində vilayət vəzirləri vilayət hakimlərinin özləri tərəfindən təyin edilirdilər. Bir çox hallarda vilayət hakimləri ya işlərin çoxluğundan, ya mülki və maliyyə işlərini bilməməsindən və ya da özünü idarəçiliyin ağır yükü altına vermək istəməməsindən özlərinə vəzir seçirdilər. Bu vəzirlərin səlahiyyət və məsuliyyət dairəsi elə vilayət hakimlərinin özləri tərəfindən müəyyənləşdirilir və onların vəzifədən kənarlaşdırılması da vilayət hakimlərinə bağlı idi. Lakin idarəçilik sistemi formalaşdıqca və təkmilləşdikcə mərkəzi hakimiyyətə bağlı olan vilayət vəzirləri institutunun təşkilinə bir ehtiyac yarandı. Xüsusilə ilk vaxtlar Azərbaycan və Xorasan kimi strateji vila-

yətlərdə mərkəzə bağlı olan vilayət vəzirlərinin təyinatı məsələsi məqsədəuyğun sayıldı. Həmin vəzirlərin fəaliyyəti yerli hakimlərin göstərişləri əsasında deyil, başlıca olaraq mərkəzdən alınan göstərişlər üzərində qurulmalı idi. Elə Şah İsmayılın hakimiyyəti illərində vilayət vəzirlərin səlahiyyətləri xeyli genişləndirildi və vilayətlərin idarəçiliyində onları rolu artırıldı. Şah Təhmasibin hakimiyyəti illərində isə baş vəzir vəzifəsi daha da aktuallaşdı. Baş vəzir o demək idi ki, vilayət idarəçiliyinin təşkilində bir neçə vəzir iştirak edirdi ki, onlardan biri baş vəzir idi və digər vəzirlər onun rəhbərliyi altında fəaliyyət göstərirdilər (165).

Vilayət vəzirlərinin fəaliyyətinə mərkəzi hakimiyyət tərəfindən xüsusi dəyər verilməsi ilə də rastlaşmaq mümkündür. Məsələn, məlumdur ki, vilayət vəzirinin səlahiyyəti bir vilayət üçün deyil, bir neçə vilayət üçün keçərli idi. Yəni vilayət hakimi yalnız öz vilayəti daxilində hakim idisə, bəzi vilayət vəzirləri bir neçə vilayətin vəziri idilər və onların səlahiyyəti hakimlər kimi bir vilayət daxilində deyil, bir neçə vilayətlə əhatə olunurdu. Bu heç də o demək deyildi ki, vəzirin səlahiyyəti vilayət hakiminin səlahiyyətlərindən daha geniş idi. Vilayət hakimi vilayətin idarəçiliyinə məsuliyyət daşıyırdı. Vəzir isə onun köməkçisi, müavini statusunda idi (166). Vəzirlər təyin edildikləri vilayətlərdə mülki idarəçilik işlərinə, maliyyə və vergilərin toplanmasına, məhkəmə işlərinin aparılmasına, idarəçilik sənədlərinin mühafizəsinə, əhali arasında xoş münasibətlərin və davranışın formalaşmasına, xüsusi ilə idarəçilik məmurları ilə əhali arasında yaxşı münasibətlərin yaranmasına cavabdehlik daşıyırdı.

Məsələyə konkret yanaşdıqda isə vilayət vəzirləri mülki idarəçilik sahəsində mərkəz tərəfindən və vilayət daxilində bütün fərmanların məzmunundan xəbərdar olmalı, sədr, xəlifə, qazi, kələntər kimi vəzifələrə kimlərin təyin edilməsini bilməli, bütünlükdə vilayət daxilində aparılan təyinatları nəzarət altında saxlamalı, həmin vəzifə sahiblərinin öz vəzifələrinin icrasına kömək göstərməli və onların fəaliyyətinə yersiz müdaxilələrdən çəkinməli idi. Maliyyə məsələləri ilə bağlı vəzir vilayət daxilində vergilərin düzgün təyin edilməsinə və onların vaxtında toplan-

masına nəzarət etməli, vergi sahəsində kimlərə güzəşt verilməsindən məlumatlı olmalı, əlavə və qeyri-qanuni vergi toplanmasının qarşısını almalı, digər maliyyə ödəmələrinin vaxtında ödənməsini və mərkəzi xəzinəyə çatmalı olan vəsaitin vaxtında göndərilməsini təmin etməli idi. Maliyyə ilə bağlı olan digər məsələlərin, o cümlədən qoşunların maaşlarının vaxtında ödənməsi də vəzirlərin nəzarəti altında idi (167).

Vəzirlərin mühüm vəzifələrindən biri qeyd edildiyi kimi, əhali arasında mərkəzi hakimiyyətə qarşı xoş münasibətin formalaşdırılması idi. Bunu isə o ilk növbədə idarəçilik işlərində və əhalinin haqqlarının qorunmasında ədalətə nail olunması ilə əldə edə bilərdi. Mənbələrdə olan məlumatlara görə, Şah Təhmasibin hakimiyyəti illərində öz insafı ilə, ədaləti ilə həm mərkəzi hakimiyyətin həm də əhalinin rəğbətini qazanan xeyli sayda əyalət vəzirləri var idi. Onlardan bir neçəsi haqqında "Tarix-i aləmara-yi Abbasi" əsərində də maraqlı məlumatlarla rastlaşmaq mümkündür. Həmin əsərin müəllifi İsgəndər bəy Münşi yazırdı: "«Məmaliki-məhrusə»nin bövük vəzirləri arasında iki nəfər xüsusilə əzəmətli, yüksək şöhrətli və iqtidar sahibi idi. Onlardan biri əvvəlcə vəziri-möhr olmuş, sonra isə bütün Azərbaycanın və Şirvanın vəziri və müməyyizi təyin olunmaq şərəfinə layiq görülmüş Mirzə Ətaulla İsfahanidir. Digəri isə yuxarıda işarə edildiyi kimi, Xorasanın vəziri və müməyyizi olan Ağa Kəmaləddin Zeynalibad Kirmanidir. Lakin cənnətməkan şahın vəfatı zamanı Ağa Kəmaləddin artıq ölmüşdü. Yaşlanmış və qocalmış Mirzə Ətaulla isə artıq o mənsəbdən azad edilmişdi. Onların hər ikisi ağıllı, sağlam nəfsli və rəiyyətpərvər vəzir olmuşlar. Onların xeyirxahlığı və yaxşı ad-sanı barədə söhbətlər Xorasanda və Azərbaycanda xalqın dilində əzbərdir və onların əməlləri həmin vilayətlərdə örnək və qanun kimi bir şeydir. Cənnətməkan şahın vəfatı zamanı dövlətin əyalətlərində vəzirliklə məşğul olanlardan biri sabiq vəziri-tərxan Xoca Şahhüseyn Saruninin oğlu Mirzə Hidayətulladır. O, Gilanın Biye-piş [vilayətinin] vəziri vəzifəsinə mənsub edilib, həmin vəzifənin yerinə yetirilməsi ilə məşğul idi. Amma buna baxmayaraq, o, Gilana getməmişdi və ulu dərgahda

yaşayırdı. O, İsgəndər şanlı nəvvab zamanında mustovfi əl-məmalik oldu. Öz yeri gələndə qələmə alınacağı kimi, Mirzə Salman Heratda qətlə yetirildikdən sonra o, ali divanın vəziri və etimadüd-dövlə təyin olundu. Amma məsələlərə çox da müdaxilə edə bilmirdi və ali vəzirlik vəzifəsinin tam səlahiyyət sahibinə çevrilmədi. Əvvəllər Hüseyn bəy Yüzbaşı Ustaclunun vəziri olmuş Xoca Qasım Əli Azərbaycanın vəziri vəzifəsinə yüksəldilərək, bir neçə il o xidmətlə məşğul oldu. Amma o da cənnətməkan şahın vəfatınadək ulu dərgahda qalıb, Azərbaycana getmədi. Xeyirxah düşüncəli bir kişi idi və sağlam nəfsli olmağı ilə məşhur idi. Onun əsli təbrizli idi, İsfahan əhlinə də qohumluğu çatırdı. Onun qardaşı Xoca İnayətulla Tərkə öz qardaşının yerinə Hüseyn bəyin oğlu Həsən bəyin vəziri olmuşdu. O, zəmanəsinin mötəbər vəzirlərindən olub, ləyaqətli, insanpərvər və gözəl rəftarlı bir kişi idi. Xoca Mahmud Şərif Tehrani darülibadə Yəzdin vəzirliyindən azad olunub, darüssəltənə İsfahanın vəziri təyin edilmişdi. Onun məşhur Ağa Təlayi Dəvatdar Qəzviniyə qohumluq əlaqəsi vardı. O da xoşrəftar və sağlam nəfsli bir adam idi. Yuxarıda adı çəkilmiş Ağa Təlayinin oğlu Mirzə Bədiüzzaman darülmömінin Kaşanın vəziri idi. O və qardaşları sağlam nəfsli olduqlarına və rəiyyətlə gözəl rəftar etdiklərinə görə şahın şəfqət nəzərlərinə tuş gəlmişdilər. Onun bir qardaşı Ağa Məhəmməd Zaman darüssəltənə Təbrizdə bəzi xidmətlərin həyata keçirilməsinə məmur edilmişdi, digər qardaşı Əhməd bəy isə Xorasanın bəzi mahallarının vəziri idi.

**Mir Fəzlulla Şəhristaninin** «Zadə Məxdum» [adı] ilə məşhur olan oğlu Mirzə Əbdülbaqi darüssəltənə Qəzvinin vəziri Mir Seyid Əli Rizəvi Quminin ölümündən sonra həmin mülkün vəziri təyin olunaraq, o xidmətin həyata keçirilməsi ilə məşğul olmuşdu. Yuxarıda qeyd olundu ki, Fəzlulla külli miqdarda əmlak və mülkiyyət sahibi idi və özünün bütün əmlakını vəqf edərək, «touliyyət»ini böyük oğluna vermişdi. Lakin həmin bu Mir[zə] Əbdülbaqi öz ağılsızlığı və bəxtinin zaylığı üzündən onların hamısını yox edib, özü də cənnətməkan şah həzrətlərinin vəfatından sonra səmərəsiz arzuları, yersiz iddiaları və qaba istək və tələbləri

ucbatından cürbəcür bəlalar çəkib, halı pərişan oldu və həyatı təşvişlər girdabına düşdü.

**Mirzə Əhməd** - Mirzə Nurulla Küfrani İsfahaninin oğludur. O, Fars [vilayətində] şah ailəsinə məxsus mülkiyyətin vəziri («vəzir-i sərkar-i xasse-yi şərifə») idi. Cənnətməkan şah həzrətlərinin onun atası Mirzə Nurullaya xüsusi hörməti vardı və sözügedən şəxs də atası kimi şahın qayğısı ilə əhatə olunmuşdu. O, İsgəndər şanlı nəvvab zamanında o həzrətə hələ Şirazda olarkən göstərdiyi gözəl xidmət səbəbindən nəzarəti-küll (naziri-büyutat) mənsəbinə layiq görülərək, təkbaşına mütləq ixtiyar sahibi olan bir nazirə çevrildi.

**Mir Seyid Hüseyn Xətib Qaini** darüssəltənə Heratın xasseyi-şərifəsinin bəzi yerlərinin vəziri olub, o mülkdə olduqca mötəbər və məşhur idi. Əvvəllər qorçubaşı Əhməd bəy Əfşarın vəziri olmuş Mirzə Məhəmməd Kirmani darülirşad Ərdəbilin vəziri idi “ (168).

Bu məluatlardan göründüyü kimi, vilayət vəzirlərinin öz vəzifəsini sədaqətlə yerinə yetirməsi Şah Təhmasib tərəfindən də layiqincə qiymətləndirilir və onlar bir qayda olaraq şah qayğısı ilə əhatə olunurdular. Belələrinə həm də şah tərəfindən daha böyük etimad göstərilir və onlar daha böyük vəzifələrə irəli çəkilirdilər. Məsələn, məlumdur ki, vaxtilə Herat hakiminin vəziri olmuş Əhməd bəy Nurkamal sonralar səltənət vəziri vəzifəsinə təyin olunmuşdu. O cümlədən Keçəl İnayət İsfahani də sədaqətli xidmətinə görə səltənət vəzirliyinə irəli çəkilmiş vilayət vəzirlərindən biri idi (169).

Şah Təhmasib dövründə səltənət idarəçiliyinin təşkilinin dövrün tələblərindən və təcrübəsindən irəli gələn bir sıra xüsusiyyətləri var idi. Onun hakimiyyəti illərində əyalətlərin idarəçiliyində istər məkəzdənqaçma halları, istərsə də əmir və əyanların şəxsi iddialarının müəyyən vaxtlarda qabarıqlaşması faktlarının mövcudluğu sözsüz ki, istisna edilə bilməz. Lakin o da məlumdur ki, səltənət daxilində baş verən bütün proseslər Şah Təhmasibin nəzarəti altında idi. Bunun nəticəsi idi ki, mərkəzi hakimiyyətə qarşı istiqamətlənmiş proseslərin qarşısı vaxtında alınırdı. Eləcə

də səltənət idarəçiliyində sui-istifadə hallarına yol verilməsi heç də cavabsız qalmırdı.

### 5. Şah Təhmasibin ayinnaməsi

Şah Təhmasib səltənət idarəçiliyinin təşkilində yalnız mövcud olan ənənə və təcrübəyə istinad etməmişdi. Həm də bu prosesin hüquqi bazasını yaratmağa, onun hüquqi-bəşəri normalarını hazırlayaraq rəhbərlik üçün qəbul edilməsinə cəhd göstərmişdi. Bu mənada hazırda elmi dövriyyədə olan bir sənəd tarixi əhəmiyyət kəsb etməkdədir. Həmin sənəd Şah Təhmasib tərəfindən səltənət idarəçiliyində tətbiq edilməsi və rəhbər tutulması lazım bilinən normalar toplusudur. Elmi-tarixi ədəbiyyatda və tədqiqatlarda bu sənəd elə də geniş təhlil və tədqiq obyekti olmamışdır. Lakin həmin sənədə toxunan tədqiqatçılar onun Şah Təhmasibə məxsusluğuna heç də şübhə etməmişlər

Mövcud olan məlumatlara əsasən belə bir qənaətə gəlmək mümkündür ki, adı çəkilən sənəd ilk dəfə hicri qəməri tarixi ilə 1301-ci ildə Bombeydə daş basma ilə çap olunmuş topluda işıq üzü görmüşdür. Həmin topluda bu sənəd belə adlandırılmışdır: “Həzə kitab ayini Şah Təhmasib Səfəvi mərhum dər qanuni səltənət” (Şah Təhmasib Səfəvi mərhumun səltənət qanunu haqqında ayin kitabı) (170). Şah Təhmasibin hüquqi normalar toplusunu öz məqaləsinə əlavə etmiş tədqiqatçı M.Danişpejvə isə onu “Səltənət qanununa aid Şah Təhmasib ayini” adlandırmışdır (171). Şah Təhmasib haqqında böyük tədqiqat əsərinin müəllifi olan başqa bir araşdırmaçı isə onu “Şah Təhmasib ayinnaməsi” adlandırmışdır.

Adı çəkilən tədqiqatçı M.Danişpəjvə Şah Təhmasibin ayinlər toplusunu çapa təqdim edərkən onun təzkirəsindən söz açır və bununla Şah Təhmasibin yazılı mətnin hazırlanması sahəsində təcrübəsi olmasına işarə etməklə ayinlər toplusunun da ona məxsusluğunun doğruluğunu ortaya qoymağa çalışmışdır. Amma bu toplunun nə zaman meydana gəlməsi barəsində tədqiqatçılar hər hansı bir fikir irəli sürməmişlər. Çox güman ki, bu toplunun

meydana çıxması Şah Təhmasibin həyatının müdriklik dövrünə təsadüf edir.

Orta əsrlər tarixində hökmdarlar tərəfindən ictimai birgəyaşayış normaları toplusunun hazırlanması təcrübəsi əvvəllər də mövcud idi. Bu baxımdan Ağqoyunlu hökmdarı Uzun Həsənin "Qanunnaməsi" ("Həsən padşahın qanunları") nümunə ola bilər (172). Şərqin orta əsrlər tarixində böyük izlər buraxmış Əmir Teymurun da səltənətin və cəmiyyətin idarəçiliyi üçün normalar hazırlaması haqqında da məlumatlar mövcuddur. Sözsüz ki, cəmiyyətin və dövlətin idarəçiliyində islam şəriətinin normaları əsas tutulurdu. Lakin görünür, Şah Təhmasib çox uzun sürən hökmdarlığının nəticəsi kimi, daha praktik və anlaşıqlı olan normalar toplusunun hazırlanmasına bir ehtiyac hiss etmişdi və belə bir işi də öz üzərinə götürmüşdü.

Şah Təhmasibin ayinlər toplusu kiçik bir girişdən və 70 bənddən ibarətdir. Toplunun giriş hissəsində tərtib olunmuş normaların ali rütbəli qardaşlar və övladlara, bəylərbəylərə, valilərə, xüləfalara, sərdarlara, əmirlərə, böyük xanlara, digər mənsəb sahiblərinə və vəzirlərə, müstövfilərə, zabitlərə, böyük və kiçik adamlara, qala kutvallarına, el ağsaqqallarına, kələntərlərə, kətxudalra, yol sahiblərinə, şah sarayının xidmətçilərinə, nahiyyələrin  və ərazi vahidlərinin hakimlərinə ünvanlandığı bildirilmişdir. Ayinlər də məhz bu adamlara müraciətlə tərtib edilmişdir. Sonra o da əlavə edilmişdir ki, adları çəkilən vəzifə sahibləri bu normaların icrasından bir tük qədərincə də olsa yayınmamalı, həmin normalara riayət edərkən Allah rizasına arxalanmalı, onlara əməl etməlidirlər (173).

Ayinlər toplusunun sonunda isə tələb olunurdu ki, həmin toplu Azərbaycan və İraqın bəzi böyük şəhərlərində daş üzərində yazılsın və hər zaman görünən bir yerdə qoyulsun ki, insanlar onu görə bilsinlər. Ayinlər toplusu bütün inzibati-ərazi vahidlərinin müstövfiləri tərəfindən qeydiyyata alınmalı idi ki, itib-batmasın və hər zaman ona istinad olunsun: "Böyük müstövfilər bu zəruri fərmanı əbədi qeyd dəftərlərinə salsınlar, yüksək vəzifəli bəylərbəyləri, hakimləri və xəlifələri onun məzmununu onlara aid olan

nahiyyələrin, kəndlərin, ulusların əhalisinə çatdırsınlar, mətni səsləndirsinlər. İraqın və Azərbaycanın məşhur olan 3-4 şəhərində bu fərman daş lövhəyə həkk olunsun və layiqli yerlərdə qoyulsun, bu hakimiyyət xanədanından səltənət qanunu dünyada yadigar qalsın" (174).

Bu qeydlər ayinlər toplusunun 70-ci bəndini təşkil edirdi və bununla da ayinlər toplusu yekunlaşırdı. Ayinlər toplusu ilk növbədə bütün səviyyələrdə olan hakimlər üçün fəaliyyət və idarəçilik normaları idi. Bu ayinlərdə hakimlərdə və vəzifəli insanlarda hansı idarəçilik keyfiyyətlərinin olması öz əksini tapmışdı. Həmin ayinlərdə ikili məzmunun olması özünü göstərməkdədir. Ayinlərdə bir tərəfdən səltənət hakimlərinin hansı etik-əxlaqi keyfiyyətlərə malik olması ifadə olunmuşdur. Bir tərəfdən də bu ayinlərdə Şah Təhmasibin özünün mənəvi-əxlaqi keyfiyyətləri öz əksini tapmışdır. Ona görə də bu ayinlər toplusunda siyasi və mənəzi-əxlaqi məzmun sıx şəkildə bir-birinə qovuşmuşdur.

Şah Təhmasib ayinlərində həm də bir tərəfdən onun sərt tələbləri, həm də onun tövsiyələri özünü göstərməkdədir. Yəni bu ayinlərdə onun tələbkarlığı ilə insani humanizmi vəhdət şəklində ortaya qoyulmuşdur. Məsələn, səltənətin qorunmasını, bunun üçün yerli hakimlərin hakimi olduqları ərazilərdə, sərhəd xəttində mövcud olan durumla hər zaman tanış olmaları və uyğun tədbirlərin həyata keçirilməsi tələb olunurdu. Ayinlər toplusunun 21-ci bəndində deyilirdi: "Ona aidiyyatı olan hər bir şeyin, habelə hüdudların durumu və vəziyyətindən xəbərdar olsunlar. Padşahlıq, sərdarlıq və hökumətçilik onların qorunmasından ibarətdir".

Padşahlığın və hökumətçiliyin həyata keçirilməsi işində yerli qoşunların təşkili, onların yetərli səviyyədə təchiz edilməsi və qoşunların döyüş hazırlığı ilə bağlı lazımi işlərin həyata keçirilməsi ciddi bir vəzifə kimi yerli hakimlərin qarşısında qoyulurdu. O da tələb olunurdu ki, qoşunlar nəzarət altında saxlansın və elə edilsin ki, qoşunlar yerli əhaliyə hər hansı bir çətinlik gətirməsinlər. Ayinlər toplusunun 38-ci bəndində yazılmışdı: "Qoşunların təchizi və təminatı yaddan çıxmasın". Toplunun 27-ci bəndində isə hakimlər qarşısında yerli qoşunlarla bağlı belə bir

vəzifə qoyulurdu: "Qadağan edilsin ki, insanların razılığı olmadan onların yaşadığı yerlərdə qoşun və qeyrisi düşərgə salmasın". Qoşun əhlinin fiziki keyfiyyətlərinin təkmilləşdirilməsi üçün isə toplunun 50 və 51-ci maddələrində konkret vəzifələr müəyyənləşdirilmişdi. Bu bəndlərin məzmunu həm də onu göstərir ki, Şah Təhmasibin hakimiyyəti illərində səltənət qoşunlarının döyüş keyfiyyətlərinin əldə edilməsinə xüsusi diqqət yetirilirdi: "Qoşunlar hər zaman gərək fiziki hərəkətlə məşğul olsun". "Ov və gəzintiyə çox meyl edilməsin. Yalnız qoşunların fiziki təmrinləri üçün, bəzi vaxtlar isə fikrin dağıdılması üçün ov və gəzinti qərarı verilsin".

Şah Təhmasib tərəfindən yerli hakimlərin qarşısında qoyulan ciddi vəzifələrdən biri vilayətlər daxilində, bütünlükdə isə səltənət daxilində hərbi-siyasi sabitliyin və asayişin yaradılması idi. Bu isə öz növbəsində səltənət daxili yollarda təhlükəsizliyin bərqərar edilməsinə zəmin yaratmalı idi. Şah Təhmasib yaxşı bilirdi ki, yolların təhlükəsizliyi yalnız asayiş deyil, həm də səltənətin daxili inkişafı, ticarətin və iqtisadiyyatın rövnəq tapmasının əsası idi. Ona görə də Şah Təhmasib tələb edirdi ki, səltənət daxili yollar oğrulardan, quldurlardan təmizlənsin və yollar boyu belə halların özünü göstərməsinə imkan verilməsin: "Yolların təhlükəsizliyinin təmin edilməsinə diqqət göstərilsin. Səltənət yollarında yaxşı və pis nə baş versə hakimlərin və kətxudaların məsuliyyətinə aiddir. Yollar oğrular və yolçapanlardan qorunsun, yollarda və keçidlərdə cibgirlərdən və gecə oğrularından əsər-əlamət qalmasın".

İdarəçiliyin təşkili ilə bağlı Şah Təhmasib yerli hakimlərdə bir sıra keyfiyyətlərin olmasını tələb edirdi. Bu tələblərdən biri yerli hakimlərin öz idarəçilik təcrübələrini artırması idi. Məlumdur ki, bir çox hallarda qızılbaş əmirləri döyüş xidmətlərinə və ya səltənətə sədaqətlərinə, bir çox hallarda isə qohumluq əlaqələrinə görə inzibati-ərazi vahidlərinin hakimləri təyin edilirdilər. Belə əmirlərin idarəçilik təcrübəsinin olmaması məlum fakt idi. Ona görə də şah Təhmasib tələb və tövsiyə edirdi ki, idarəçilik işlərində yalnız özlərinə, öz iradələrinə arxayın olmasınlar, ətraf-

larına bilikli və təcrübəli adamları toplasınlar, onlarla məsləhətləşsinlər və düzgün qərar qəbul edə bilsinlər. Tolunun 28-ci bəndində deyilirdi ki, hakimlər öz fəaliyyətində yalnız özünə arxayın olmasın, bilikli adamlarla da məsləhətləşməyi özlərinə yol seçsinlər. Toplunun 30-cu bəndinin məzmunu isə idarəçiliyin düzgün təşkili ilə bağlı idi. Həmin bənddə deyilirdi ki, hakimlər xidmətçilərin görə biləcəyi işi öz övladlarına tapşırmasınlar. Övladların görə biləcəyi iş isə öz boynuna götürməsinlər. Çox güman ki, belə bir təcrübə dövrün hakimləri arasında yayılmış bir təcrübə idi. Əslində, daha geniş mənada Şah Təhmasib səltənət idarəçiliyində yer almış hər bir əmir və əyanın vəzifəsinin düzgün müəyyənləşdirilməsi və onların öz vəzifələrini doğru-düzgün icra etməsi məsələsinə toxunurdu. Aydın məsələ idi ki, idarəçilik işlərində yer almış bütün adamların bütünlüklə öz vəzifələrinin icrasına səfərbər ediləcəyi təqdirdə idarəçilik uğurlarına nail olmaq olardı.

Səltənət idarəçiliyində maliyyə məsələlərinin düzgün həll edilməsi də Şah Təhmasibin ayinlər toplusunda yer almışdı. O tələb edirdi ki, xərclər gəlirlərdən az olsun. Bu, həm də o demək idi ki, vilayət daxili maliyyə və vergi toplamaları düzgün təşkil edilsin ki, ortaya çıxan xərcləri həyata keçirmək imkanı yaransın. Səltənət idarəçiliyində bədxərclik etməyi Şah Təhmasib düzgün saymırdı. Ümumiyyətlə, o belə adamları ağıllı adam hesab etmirdi: "Xərclər gəlirlərdən az olsun. Xərci gəlirindən artıq olan adam axmaqdır. Xərci və gəliri bərabər olan isə axmaq olmasa da, ağıllı da deyil".

Bununla belə, Şah Təhmasib maliyyə vəsaitlərinin artırılması xatirinə möhtəkirliyə yol verilməsini də birmənalı şəkildə qəbul etmirdi. Xüsusilə, müəyyən münasib vaxtlarda satışda olan malların ucuz qiymətə alınması və sonradan onun baha qiymətə satılması kimi hallara qarşı Şah Təhmasib barışmazlıq nümayiş etdirirdi. O bütün səviyyədən olan hakimlərdən tələb edirdi ki, belə hallar baş verərsə, günahkar adamlar ciddi şəkildə cəzalandırılsınlar. Ayinlər toplusunun 52-ci və 56-cı bəndləri bu məsələlərə həsr olunmuşdu: " Bütün səltənət ərazisində kimsə rəiyyət-

də olan taxılı bahalıq yaratmaq məqsədilə almasın və toplayıb saxlamasın. Əgər belə bir hal məlum olsa, ciddi cəza verilsin". "Ucuzluq zamanı imkan verilməsin ki, bəzi dəllallar dövlətin icazəsi olmadan tamah məqsədi ilə malları alıb anbarlara yığsınlar, sonra da onu baha satmağa başlasınlar".

Şah Təhmasib səltənət idarəçiliyinin yaxşı təşkil edilməsi üçün səltənət daxilində mövcud olan vəziyyətdən xəbərdar olunmasını da vacib sayırdı. Onun üçün o, müxtəlif səviyyəli hakimlərdən də tələb edirdi ki, hakimi olduqları ərazilərdə casuslar saxlasın, onların vasitəsi ilə nahiyyədə və ya bölgədə baş verənlər haqqında ətraflı məlumata malik olsunlar. Amma o da tövsiyə olunurdu ki, casusların fəaliyyəti də düzgün təşkil edilsin, onların mövcudluğunun və fəaliyyətinin gizliliyi qorunsun, onların topladıqları məlumatlar ayrı-ayrılıqda dinlənilsin və yalnız toplanmış bütün məlumatlar öyrənildikdən sonra qərar çıxarılsın. Ayinlər toplusunun 46-49-cu bəndlərində bu məsələ haqqında Şah Təhmasibin tələbi və tövsiyəsi belə idi: "Casuslar (məlumat toplayanlar) hər zaman nəzarət altında olsun". "Yalnız bir casusun gətirdiyi xəbərə etibar etməsin. Çünki iddiasız doğruluq az tapılandır". "Hər bir iş üçün bir neçə casus təyin olunsun və onlar biri-digərindən xəbərsiz olsun. Hər birinin gətirdiyi məlumat ayrıca dinlənilsin və bununla istənilən əldə edilsin". "Casuslar gərək tanınmasın".

Həm dərin etiqad sahibi, həm də təriqət rəhbəri kimi Şah Təhmasib bütün səviyyələrdə olan idarəçilik işlərində Allah rizasının əsas tutulmasını tələb edirdi. O özü də şübhə etmirdi ki, hakimiyyət ona yaradan tərəfindən əta olunub və hakimiyyətin həyata keçirilməsi zamanı da Allahın dərgahına sığınmaq, onun buyuruqlarını unutmamaq hər bir hakimin vəzifəsi və borcu olmalı idi. Allah dərgahına sığınmaq isə istənilən halda hakimiyyətin ədalət üzərində qurulması, hakimiyyət altında olan bütün insanların və canlıların hüquqlarının qorunması və gözlənilməsi demək idi.

Ayinlər toplusunda o da tələb olunurdu ki, hakimlər insanlardan təcrid olunmasınlar, bir kənara çəkilib insanlardan qaç-

masınlar. Əksinə, onlar hər zaman insanlar arasında olmalı, onların dərdinə bir dərman tapmalı və insanları idarə etməli idilər. Şah Təhmasib onu da tövsiyə edirdi ki, yerli hakimlər ətraflarına lazımsız adamlar da toplamasınlar, belə adamların məclislərindən uzaq qaçsınlar. Onun fikrincə, çoxluğa adət etmək bazar adamlarının xasiyyəti ola bilərdi (2-ci bənd).

Şah Təhmasibin ayinlər toplusunun mətni aşağıda verilmişdir (175). Həmin mətn qısa ixtisarla müəllif tərəfindən tərcümə edilmişdir:

## Səltənət qanununa aid Şah Təhmasib ayini

Aləm hökmdarının şahənşah lütfünün hökmündən əmr olundu ki, səcdəgah sultan dərgahı tərəfindən mənsəb sahibi olanlar və ümid yeri olan şah sarayının icraçıları, ali nəslə mənsub qardaşlar və övladlar, bəylərbəyiləri, valilər, xəlifələr, sərdarlar, böyük əmir və xanlar, başqa mənsəb sahibləri və müstövfilər, zabitlər, böyük və kiçik vəzifəlilər, qala kutvalları (komendantları), oymaqların ağsaqqalları, kələntərlər, kətxudalar, yol mühafizləri, xilafət nişanlı dərgahın bütün xidmətçiləri, bölgə və nahiyələrin mühüm adamları itaət edərək bilsinlər ki, indi izzətli cəlal tərəfindən hökm olunan bu göstərişlərin icrasından baş tükü qədərincə yayınmasınlar və onları öz vəzifəsi bilsinlər:

1.Bir qayda olaraq bütün işlərdə, əməllərdə, ibadətdə Allahın rizasına meyl göstərsinlər, yaradanın dərgahına sığınsınlar, həm özləri, həm də başqaları ona çalışsınlar ki, məqsəd güdmədən yalnız Allah niyyəti ilə işlər görsünlər;

2. Təkliyi sevənlərdən olmasınlar ki, bu adət səhralara üz tutmuş dərvişlərin adətidir. Həmişə insanlar arasında olsunlar. Çoxluğa da adət etməsinlər ki, bu, bazar adamlarının xasiyyətidir. Bir sözlə orta mövqeni tutsunlar və bu mövqeni əldən verməsinlər;

3. Allahın ali yaratdıqları olan ağıllı insanlar, böyük alimlər, düz əməl sahibləri əziz və hörmətli tutulsun;

4. Sübh, şam, gecə yarısı və gündüz oyaqlığı adət edilsin;

5. Yaradana məxsus məqamlar istisna olmaqla, insan ruhunun təbibi olan əxlaq kitabları kimi hikmət və səfa kitabları mütaliə edilsin. İşsizliyə, dincliyə və arxayınçılığa adət edilməsin ki, bu hallar kişilərin yox, ölülərin və qadınların adətidir;

6. İş və fəaliyyət zamanı səbir və hövsələ nümayiş etdirilsin, çoxsaylı əyanların və ərbabların yalan və yaltaqlıqlarına yol verilməsin, qohumluq, düşmənçilik, dostluq, yadlıq nəzərə alınmadan hamını işi xoşluqla və ürək rahatlığı ilə sona çatdırılsın;

7. Öz dərdlərini dilə gətirməyən küncdə-bucaqda qalan fəqirlərə, misginlərə, möhtaclara, xüsusilə kimsəsizlərə və tənhalara imkan daxilində kömək və yardım göstərilsin;

8. İnsanların təqsirləri, günahları ədalətli şəkildə haqq-hesab edilsin, onların hər biri əməlinə görə qiymətləndirilsin, hər birinə ədalət gözü ilə baxılsın, bu qrup adamlara düzgün yanaşılsın ki, hansı təqsirin üstündən keçmək və güzəştə getmək olar, hansı iş günah kimi qəbul edilə bilər, hansı işə görə cəza verilə, hansı günaha göz yumula bilər;

9. Yolunu azanlar nəsihətlə, xoş münasibətlə, davamlı olan yaxşılıqlarla düz yola istiqamətləndirilsinlər. Əgər nəsihət və tədbirlər nəticə verməsə, onda onun həbsi, cəzalandırılması və bədən üzvlərinin kəsilməsi törətiyi əməllərə görə olsun. Edam etmək hünər sayılmasın, mümkün qədər səbir nümayiş etdirilsin ki, öldürüləni geri qaytarmaq olmaz, öldürülməli olanlar haqqında hökmdar dərgahına bildirilsin, hökm olsa həbs edib göndərsinlər. Əgər onun (günahkarın) mühafizısində və göndərilməsində fitnə-fəsad olsa, onda həmin adam cəzalandırılsın ki, bu da pis əməl sahiblərinə ibrət olsun;

10. Böyük sultanlar insan dərisini soymaqdan, onları yandırmaqdan və bu kimi ağır cəzalardan çəkinsinlər. Hər bir adamın cəzası onların əməllərinə uyğun olaraq müəyyənləşdirilsin. Başa düşən adamlar üçün bir baxış da ölümə bərabərdir;

11. Ağlı, dəyanəti, zəkası etimad doğuran hər bir kəsə imkan verilsin ki, onların etdikləri qəbahət göründükdə öz fikrini ayrılıqda söyləyə bilsin;

12. Əgər fikrini söyləyən səhv etmiş olsa, onu töhmətləməsinlər. Çünki töhmətləmək etirafın qarşısını alır və fikri açıqlamağa imkan vermir;

13. Allah tərəfindən öz nöqsanını etiraf etmək qabiliyyəti verilmiş insanlara hörmət edilsin və onlar əziz tutulsun. Çünki insanlar doğrunu dilə gətirməyə çox aciz və gücsüzdürlər. Bəziləri pis xasiyyətli və şər adamlardır, doğrunu etiraf etməyə meyl göstərmirlər, istəyirlər ki, belə də qalsın. Yaxşı adamlar isə ehtiyatlı olurlar və güman edirlər ki, mən danışsam təzyiqlə qarşılaşaram və bəlaya düşərəm;

14. Özlərinə ziyan dəysə də başqalarının faydasını düşünən xeyirxahlar işıq mənbəyinə bənzərlər;

15. Xoş gəlmisən deyənlərə sevgi göstərilməsin ki, çox günahlar xoş gəlmisən deyənlərin əməllərindən doğur;

16. Başqasının dadına çatmaqda və onun dərdinin öyrənilməsində nəfsə yer verilməsin;

17. Hüzura gələnlərin adları sıra ilə siyahılansın və növbə ilə onlara qulaq asılsın ki, əvvəlcə gələn növbəsini itirib intizar dərdini çəkməsin;

18. Başqaları haqqında pis danışanların cəzalandırılması üçün tələsgənlik göstərilməsin. İftira söyləyənlər çoxdur, xoş fikirli doğruçular isə azdır;

19. Qəzəblənən zaman ağıl əldən verilməsin, ehtiyatla və səbirlə iş görülsün. Yaxınları və xidmətçiləri arasında ağlı və zəkası ilə fərqlənənlərə sərbəstlik verilsin ki, qəm və qəzəb zamanında belələri susmasınlar, haqq sözü deməkdən çəkinməsinlər;

20. Günahların bağışlanması, təqsirlərin qabardılmaması daha yaxın bilinsin ki, bununla fəsada yol açılmasın. Adamların çoxunun təqsirsiz və günahsız olması mümkün deyil. Bəzi vaxt tənbih yetərli sayılsın. Elələri var ki, onları günahı olmadan da tənbih etmək olar. Elələri də var ki, onların min günahından keçmək olar. Belə ki, siyasət səltənətin ən yaxşı vasitəsidir. Onu ehtiyatla, ağıl və fərasətlə aparmaq olar.

21. Ona aidiyyatı olan hər bir şeyin, habelə hüdudların durumu və vəziyyətindən xəbərdar olsunlar. Padşahlıq, sərdarlıq və hökumətçilik onların qorunmasından ibarətdir;

22. And içən olmasınlar. And içmək özünü yalan danışmağa bağlamaq deməkdir. Bu zaman qarşı tərəf onun haqqında bəd gümana düşə bilər;

23. Söyüş söymək adət edilməsin ki, bu, əclafların və rəzillərin adətidir;

24. Əkin-biçin üçün əgər gərək olarsa rəiyyətə toxum və borc verilməsinə kömək göstərilsin. İldən ilə şəhərlər, kəndlər və qəsəbələr artır. Elə şərait yaradılsın ki, ziraət üçün torpaq hamıya əlçatan olsun;

25. Hər zaman malların (məhsulların) artmasına meydan açılsın, insanlara kömək göstərilməsi fəaliyyət üçün seçim olsun, insanlara kömək edilsin, onların dərdləri bölüşdürülsün;

26. Verilən sözdən və qərardan geri dönmək heç vaxt olmasın;

27. Qadağan edilsin ki, insanların razılığı olmadan onların yaşadığı yerlərdə qoşun və qeyrisi düşərgə salmasın;

28. Öz fəaliyyətində yalnız özünə arxayın olmasın, bilikli adamlarla da məsləhətləşməyi özünə yol seçsin. Beləri gəlməsə və məşvərət verməsələr onda nadanlardan ibrət götürülsün;

29. Çox adamla da məsləhət aparılmasın ki, ağıl da Allah vergisidir, oxumaqla və gün keçirməklə əldə olunmur;

30. Xidmətçilərin görə biləcəyi işi öz övladlarına tapşırmasın. Övladların görə biləcəyi iş isə öz boynuna götürülməsin;

31. Bütün təbəqələrdən olan xeyirxahlara ehtiram göstərilsin;

32. Çox yatmaq və yemək uzaq tutulsun ki, heyvan xasiyyətindən üstünlük əldə edilsin, insan dərəcəsinə yüksəlmək mümkün olsun;

33. Ziyankar, fasid və qəzəbli olmasınlar, sinələr kin-küdurət məskəninə çevrilməsin. İnsanların ağır işləri qarşıya çıxanda onlar aradan qaldırılsın, gülüşə və zarafata az yer verilsin;

34. Bəzək-düzəyə, nəfis paltara və libaslara meyl göstərilməsin;

35. Hər kəs öz əldə edə biləcəyindən daha aza qane olsun;

36. İnsanlar arasında bilik və hikmət təliminə, kamal əldə edilməsinə kömək göstərilsin ki, istedad sahibləri zay olmasınlar;

37. Qədim ailələrin (sülalələrin) təlim-tərbiyəsinəköməklik edilsin;

38. Qoşunların təchizi və təminatı yaddan çıxmasın;

39. Xərclər gəlirlərdən az olsun. Xərci gəlirindən artıq olan adam axmaqdır. Xərci və gəliri bərabər olan isə axmaq olmasa da, ağıllı da deyil;

40. Əhdə vəfasızlıq edilməsin;

41. Sözdə doğruluq olsun;

42. Nəcabətsiz və şər adamlar uzaq tutulsun. Əgər belələri yaramaz adamlara qarşı mövqe tutsalar belə, onlara etibar etmək olmaz;

43. ...

44. Yaxınlar və xidmətçilər barəsində lazımi məlumat mövcud olsun;

45. Dost görkəmində düşmənçilik edib yağlı danışanlar uzaq tutulsun. Çünki onlardan yalnız ziyan gələr. Böyük adamların çox danışmaq vaxtı olmur, pis əməllər sahibi isə çoxdur;

46. Casuslar (məlumat toplayanlar) hər zaman nəzarət altında olsun;

47. Yalnız bir casusun gətirdiyi xəbərə etibar etməsin. Çünki iddiasız doğruluq az tapılandır;

48. Hər bir iş üçün bir neçə casus təyin olunsun və onlar biri-digərindən xəbərsiz olsun. Hər birinin gətirdiyi məlumat ayrıca dinlənilsin və bununla istənilən əldə edilsin;

49. Casuslar gərək tanınmasın;

50. Qoşunlar hər zaman gərək fiziki hərəkətlə məşğul olsun;

51. Ov və gəzintiyə çox meyl edilməsin. Yalnız qoşunların fiziki təmrinləri üçün, bəzi vaxtlar isə fikrin dağıdılması üçün ov və gəzinti qərarı verilsin;

52. Bütün səltənət ərazisində kimsə rəiyyətdə olan taxılı bahalıq yaratmaq məqsədilə almasın və toplayıb saxlamasın. Əgər belə bir hal məlum olsa, ciddi cəza verilsin;

53. Yolların təhlükəsizliyinin təmin edilməsinə diqqət göstərilsin. Səltənət yollarında yaxşı və pis nə baş versə hakimlərin və kətxudaların məsuliyyətinə aiddir. Yollar oğrular və yolçapanlardan qorunsun, yollarda və keçidlərdə cibgirlərdən və gecə oğrularından əsər-əlamət qalmasın;

54. İtən, oğurlanan və talan olunan hər şey tapılsın. Yoxsa, lazımi tədbir görülsün;

55. İstənilən dinə və məzhəbə mənsub olanlar arasında dünyasını dəyişən və itkin düşən olarsa, onların əmlakı müəyyənləşdirilsin, varis varsa ona təhvil verilsin, kimsə bu işə mane olmasın. Əgər varis yoxdursa, həmin əmlak hər məhəldə etibarlı bir adama tapşırılsın, əmlakın siyahısı tutulsun, sonra saraya məlumat verilsin, haqqı olan adamlar tapılsa ona təhvil verilsin. Bu məsələdə xeyirxahlıq üçün lazım olan göstərişlər verilsin;

56. Ucuzluq zamanı imkan verilməsin ki, bəzi dəllallar dövlətin icazəsi olmadan tamah məqsədi ilə malları alıb anbarlara yığsınlar, sonra da onu baha satmağa başlasınlar;

57. Zəruri olan taxıla ticarət qaydaları tətbiq edilsin;

58. Davamlı nəzarət edilsin ki, şərabdan əsər-əlamət qalmasın;

59. Şərab içənə və satana qarşı elə bir siyasət aparılsın ki, başqalarına da ibrət olsun;

60. Səltənət daxilində saraya aid olan nağaraxanalardan başqa bir yerdə zurna və saz çalınmasın. Məlum olsa ki, kimsə saz düzəldib, o, günahkardır;

61. Novruz şənliyinin, bayramların, mövludun və digər günlərin keçirilməsinə köməklik göstərilsin;

62. Bayram günləri şəhərlərdə nağara çalınsın;

63. Ehtiyac yaranmasa qadınlar heç vaxt ata minməsin. Əgər zərurət yaranarsa, yəhər üzərində oturmasın və yüyəni əlinə almasın;

64. Kişilər və qadınlar qələndərlərin, oyunbazların mərəkəsində yer almasınlar. Bu adamların mərəkələrə getməsi qadağan olmasa da, göstəriş verilmişdir ki, 12 yaşından yuxarı olan uşaqlar mərəkələrə gətirilməsin;

65. Əgər səltənətin hər hansı bir şəhərində və kəndində bir yetim uşaq qalmış olsa və onun bir qohumu olmasa onun tərbiyəsi təmin edilsin. Əgər o, kiçikdirsə ona dayə təyin olunsun və uşaq dayəyə tapşırılsın ki, o da uşağı tərbiyə etsin. Yuxarı yaşa çatanda oğlan uşağı üçün bir əməli saleh müəllim, qız uşağı üçün isə ismətli dul qadın müəllim təyin edilsin, yetimlər onlara tapşırılsın, onların təlim-tərbiyəsi aparılsın. Oğlan uşağı münasib sənət və peşə öyrənmək istəsə gündüz bu işlə məşğul olub gecə müəlliminin yanına gəlsin. Həddi-büluğa çatanda isə oğlan uşağı bir xanımla nikah edilsin. Hər ilin novruzunda uşağa və onun müəlliminə iki dəst təzə paltar, qışın başlanğıcında isə bir dəst qış paltarı verilsin;

66. Onların (yetim uşaqların) toyu zamanı həyat ehtiyaclarının ödənməsi üçün hər şey ali divan hesabına ödənsin – yetim uşaqların sayı bir nəfər də olsa, yüz nəfər də olsa. Ona görə də hər bir şəhərin kələntəri və hakimləri deyiləni icra edib hər il onların (yetim uşaqların) adlarını saraya təqdim etsinlər;

67. ...

68. Altı aylıq halallıq dövrünə çatmayan quzu və buzovlar heç bir məkanda və yerdə kəsilməsin. Xəstə və ölüm qorxusu yaşayan heyvanlar da kəsilməsin. Ölmüş heyvanlar kəsilməsin.

69. Mal sahibləri və kirayədarlar zərurət olmadan yük dəvələrinə 100 məndən (çəki vahidi) artıq, qatırlara 80 məndən artıq və ulaqlara 50 məndən artıq yük yükləməsin, bu işdə insaf və mülayimliyə yaxın olan qaydalar əsas tutulsun.

Böyük müstövfilər bu zəruri fərmanı əbədi qeyd dəftərlərinə salsınlar, yüksək vəzifəli bəylərbəyləri, hakimləri və xəlifələri onun məzmununu onlara aid olan nahiyyələrin, kəndlərin, ulusların əhalisinə çatdırsınlar, mətni səsləndirsinlər. İraqın və Azərbaycanın məşhur olan 3-4 şəhərində bu fərman daş lövhəyə həkk olunsun və layiqli yerlərdə qoyulsun, bu hakimiyyət xanədanından səltənət qanunu dünyada yadigar qalsın.

## 6. İstifadə olunmuş mənbə və ədəbiyyat


1.Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı 2018, s. 589-605

2. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı, 2015, s. 35

3. Salarişadi Ə. Nəğd və bərrəsi-ye nəzəriyyəha-ye mövcud dər bare-ye təşkil-e dövlət-e Səfəviyye, s. 86//Tarixname-ye İran bəd əz islam. Sal-e pəncom, şomare-ye nohom, payiz və zemestan 93, s. 71-106

4. Haciyanpur H. Oza-e siyasi-ye İran dər dövre-ye Şah Təhmasib.http://ensani.ir/fa/article/46287/ وضاع-سیاسی-ایران-در-دوره-شاه-طهماسب-صفوی

5. Salarişadi Ə. Nəğd və bərrəsi-ye nəzəriyyəha-ye mövcud, s.87

6. Məmmədova Ş. “Xülasüt-təvarix” Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s.45

7. Salarişadi Ə. Nəğd və bərrəsi-ye nəzəriyyəha-ye mövcud, s.89

8. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 155

9. The Cambridge history of İran. Volume VI, London, 1986, s.352

10. Təzkərə-ye Şah Təhmasib. Tehran, 1363, s. 35, 58, 71
Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 26, 48, 60, 72

11. Adoğmuşoğlu C. 16. yüzyılda Safevi devletinde etkili olan dört türkmen aşireti, s.18// The Journal of Academic Social Science Studies, Volume 5 Issue 6, December 2012, p. 17-25,

12. The Cambridge history of İran. Volume VI, London, 1986, s.352

13. Cenkinson A. Gündəlik, s.201/ Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 2007, s. 200-207

14. Huseynova Z. Turkish language in İran, s. 47// Khazar Journal of Humanities and Social Sciences, s.42-52

15. Huseynova Z. Turkish language in İran, s. 47
Gəncəli T. Dövlət-e Səfəvi və zəban-e türki, s. 294//Peyam-e Baharistan, zemestan 1388, sayı 6, s.293-298

16. Gəncəli T. Dövlət-e Səfəvi və zəban-e türki, s. 295

Kılıc R. Kanubi devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006, s. 353
17. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953, s. 243-244
18. Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.126
19. Yenə orada, s. 126-127
20. Sitatlar Z. Bayramlının "Azərbaycan Səfəvi dövlətinin quruluşunda və idarə olunmasında türk qızılbaş əyanlarının rolu" kitabından götürülmüşdür. Bakı, 2015, s. 206
21. Ostanşenasi-ye qəzvin. Tehran, 1398, s.86
22. Əşrafi E. Şəhr-e tarixi-ye Qəzvin. S. 2-3 //Məcəlle-ye pəjuheşha-ye olum-e tarixi. Dövrə 3, nömrə 2, 1390, s.1-16
23. Purməhəmməd Ə., Fərahanifərd R. Nəqş-e əvamel-e təbii bər tosee və rokud-e şəhri Qəzvin, paytaxt-e dövre-ye Səfəvi, s. 9 // N-12, 1391, s.1-23
24. Adilfər B., Məhəmmədi Z. Oza-e iqtisad və ticari-ye Qəzvin əsr-e Səfəvi (dər dövreye pəs əz paytaxti), s.95 //Pəjuheş-name-ye tarixha-ye məhəlli-ye İran, N-1, 1395, s. 93-106
Purməhəmməd Ə., Fərahanifərd R. Nəqş-e əvamel-e təbii bər tosee və rokud-e şəhri Qəzvin, paytaxt-e dövre-ye Səfəvi, s. 2 // N-12, 1391, s.1-23
25. Adilfər B., Fərahanifərd R. Kalbedşenasi-ye şəhri-ye Qəzvin dər dövre-ye Səfəvi, s.57//Təhqiqat tarix-e ictimai, pəjuheş-qah-e olum insani və mütaliat-e fərhəngi. N-2, 1390, s. 51-70
26. Talebi T. Bərrəsi-ye eləl-e intixab-e Qəzvin be ünvan-e paytaxt dər ərse-ye Səfəvi. http://www.noormags.ir/view/fa/articlepage/ 83912
27. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 379
Talebi T. Bərrəsi-ye eləl-e intixab-e Qəzvin be ünvan-e paytaxt dər ərse-ye Səfəvi. http://www.noormags.ir/view/fa/articlepage/ 83912
28. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s.313-314
29. Əşrafi E. Şəhr-e tarixi-ye Qəzvin. S.4
30. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 379

Cavanşir B. İrandakı türk boyları və boy mənsubu kişilər (Safevi dönemi – I Şah Tahmasb hakimiyyetinin sonuna kadar (1576). Doktora tezi. İstanbul 2007, s. 241-242
31. Purməhəmməd Ə., Fərahanifərd R. Nəqş-e əvamel-e təbii bər tosee və rokud-e şəhri Qəzvin, paytaxt-e dövre-ye Səfəvi, s. 5 // N-12, 1391, s.1-23
32. Əşrafi E. Şəhr-e tarixi-ye Qəzvin. S.8-9
33. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.224
Tarix-e İran. Dövre-ye Səfəviyan. Tehran, 1388, s.161
Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakı, 1983, s.21
Məmmədova Ş. "Xülasüt-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s.45
Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.106
34. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 21
35. Təbatəbayi M.H. Bərgi əz tarix-e Qəzvin. Tehran, 1361, s.150
Xurşah. Tarix-e elçi-ye nizam şah. Tehran, 1379, s.156, 158, 170, 174, 190, 203
Cunabedi M. Rövzətüs-səfəviyyə. Tehran, 1378, s. 400, 402, 409
Veliyeva Z. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007, s. 153
36. Nəvidi D. Təğyirat-e ictimai-iqtisadi dər İran-e əsr-e səfəvi. Tehran, 1386, s. 54
37. Rizayipənah Ə. Təhlil-e keyfiyyət-e baznəmayi məqam səltənət də qofteman-e səfərnamenevisi-ye əsr-e Səfəvi, s.132//Tarix-e islam, N-3, 1395, s. 121-152
38. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev, Namiq Musalı Kastamonı, 2017, s.482-484
Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s.42-44

39. Məşkurian M. Macəra-ye səcdə dər dərbar-e Şah İsmayıl (h.q. 907-930) və Şah Təhmasib- e əvvəl (h.q. 930-984): bər təkye mənabe-ye səde-ye dəhom və əvayel-e sədeye yazdəhom, s.117//Pəjuheşha-ye tarixi. N-2, 1388, s. 107-122
40. Nəvidi D. Təğyirat-e ictimai-iqtisadi dər İran-e əsr-e səfəvi. Tehran, 1386, s. 54
41. Səfəviyan. Tehran, 1380, s. 239
42. Yenə orada
43. Bax: Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.224
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.50
44. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.50
45. Təzkərə-ye Şah Təhmasib. Tehran, 1363, s. 17
46. Yenə orada, s. 34
47. Tarix-i aləmara-yi Abbasi, s.295-296
48. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.225
49. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi).
Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı, 2009, s. 186
50. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi. Tehan, 1349, s. 62-68
51. Venesiyalılar Şah I Təhmasibin sarayında. Tərcümə edən – Oqtay Əfəndiyevdir. Bakı, 2005, s.37-38
52. Yenə orada, s. 38
53. Yenə orada, s. 39
54. Yenə orada, s.40
55. Yenə orada, s. 41
56. Yenə orada, s. 51-52
57. Yenə orada, s. 52
58. Yenə orada, s. 53
59. Yenə orada, s. 56
60. Yenə orada, s. 56-57
61. Səfəviyan. Tehran, 1380, s. 251

Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.27
62. Bax: Səfəviyan. Tehran, 1380, s. 251-252
63. Tarix-e İran. Dövre-ye Səfəviyan. Tehran, 1388, s.170
64. Səfəviyan. Tehran, 1380, s. 250-251
Seyvori R. Təhqiqati dər tarix-e əsr-e Səfəvi. Tehran, 1391, s.110
65. Səfəviyan. Tehran, 1380, s. 251
66. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.28
67. Təzkərə-ye Şah Təhmasib. Tehran, 1363, s. 3
Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 15
68. Təzkərə-ye Şah Təhmasib. Tehran, 1363, s. 5
Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 18, 20
69. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 17
70. Seyvori R. Təhqiqati dər tarix-e əsr-e Səfəvi. Tehran, 1391, s.29
71. Dəsturül-mülük-e Mirzə Rəfi. Tehran, 1385, s. 375
72. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.30
73. Rumlu H. Əhsənüt-təvarix, s.567-568
74. Şayəstə F., Mircəfəri H., Foruqi Əbri Ə. Bərrəsi-ye karname-ye vəkil-e nəfs-e nəfis-e hümayun dər dövre-ye səltənət-e Şah İsmayıl və Şah Təhmasib (1502-1577), s. 116//
Mütaleat-e islami, N.87, 1390, s. 107-119
75. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.58
76. Tarix-i aləmara-yi Abbasi, s.283-284
77. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 16
78. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.42
79. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.229
Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, s. 252-253
80. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.229
Səfəviyan. Tehran, 1380, s. 253
81. Rumlu H. Əhsənüt-təvarix, s.508
82. Tarix-i aləmara-yi Abbasi, s.284-286

83. Yenə orada, s. 286
84. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.229
Səfəviyan. Tehran, 1380, s. 255-256
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.44
85. Rumlu H. Əhsənüt-təvarix, s.568
86. Tarix-i aləmara-yi Abbasi, s.286-287
87. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.230
Səfəviyan. Tehran, 1380, s. 256
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.44
88. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakı, 1983, s. 35
89. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.47, 64-66
Veliyeva Z. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007, s. 264
90. Tarix-i aləmara-yi Abbasi, s.287-288
91. Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.119
92. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi, s.47, 64-65
Veliyeva Z. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007, s. 264-265
93. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi, s.47, 69
Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.119
94. Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.120
95. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.74
96. Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.121-122
97. Parsadust M. Şah Təhmasib əvəl. Tehran, 1381, s. 361
98. Фарзалиев А., Мамедова Р. Сефевиды и великие моголы в мусульманской дипломатике. Санкт-Петербург, 2004, с.22
99. Tarix-i aləmara-yi Abbasi, s.296

100. Simsar M.H. Fərman nevisi dər dövre-ye Səfəvi, qesmət-e əvvəl,131-132//Pəjuheşha-ye tarixi, s.127-152
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi, s.77, 82, 89
101. Simsar M.H. Fərman nevisi dər dövre-ye Səfəvi, qesmət-e əvvəl,133-134 //Pəjuheşha-ye tarixi, s.127-152
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi , s.82
102. Simsar M.H. Fərman nevisi dər dövre-ye Səfəvi, qesmət-e əvvəl,134-135 //Pəjuheşha-ye tarixi, s.127-152
103. Yenə orada, s. 140-141
104. Yenə orada, s. 141-142
105. Yenə orada, s. 146-147
106. Yenə orada, s. 147-148
107. Simsar M.H. Fərman nevisi dər dövre-ye Səfəvi, qesmət-e dovvom, 80 //Pəjuheşha-ye tarixi, s.60-83
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.90
108. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.100-103
109. Simsar M.H. Fərman nevisi dər dövre-ye Səfəvi, qesmət-e dovvom,62-64 //Pəjuheşha-ye tarixi, N-2, s.60-83
110. Simsar M.H. Fərman nevisi dər dövre-ye Səfəvi, qesmət-e sevvom,141 //Pəjuheşha-ye tarixi, s.135-147
111. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.94
112. Simsar M.H. Fərman nevisi dər dövre-ye Səfəvi, qesmət-e dovvom, 71-72 //Pəjuheşha-ye tarixi, s.60-83
113. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.76
114. Фарзалиев А., Мамедова Р. Сефевиды и великие моголы в мусульманской дипломатике. Санкт-Петербург, 2004, с.30
115. Bax: Şah Təhmasib Səfəvi. Tarixi sənədlər və məktublar məcmuəsi. Tərtib edəni Əbdülhüseyn Nəvayi. Tehran, 1368
116. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.235
117. Tarix-i aləmara-yi Abbasi, s.289-290
118. Bayramlı Z , s. 204

Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.128
119. Bayramlı Z., s. 204
Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.128-131
120. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi, 1387, s.117-123
121. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi, 1387, s.112-113
Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi. Tehran, 1349, s. 110-111
122. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.113
Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 110-111
123. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 112-113
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi, s.118-119
124. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 118-119
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.120
125. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 120
126. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 120-121
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehra, s.120-121
127. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.118
128. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 125-126
129. Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.128
Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 7
130. Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.128
Bayramlı Z, s. 207
131. Məmmədova Ş. "Xülasüt-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s.45
132. Bayramlı Z., s.207-208
133. Bax: Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 6
Süleymanov M. Gülüstan müqaviləsi. I cild. Bakı, 2014, s.84
134. Bayramlı Z. , s.214-215
135. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 3

Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.128
136. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 3-4
137. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s.384-385
Rumlu H. Əhsənüt-təvarix, s. 578
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.167
138. Bayramlı Z. , s. 228
139. Yenə orada, s. 237
140. Bayramlı Z. , s. 243, 246
Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.129
141. Əhmədi (Sərraf) N. Röya və siyasət dər sər-e Səfəvi. Tehran, 1388, s.71
142. Bayramlı Z. , 2015, s. 268-269
Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 13
143. İsmayili M. Saxtar-e idari və icrayi dər dövre-ye Səfəviyye. http://www.mazdaknameh.ir/Publish/PublishID/ArticleId/317
144. Veliyeva Z. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007, s. 185
145. Yusififər Ş., Bəxtiyari M. Mənsəb-e daruğə dər dövre-ye Səfəvi, s. 100// Pəjuheşname-ye tarix-e ictimayi və iqtisadi. N-1, 1391, s. 97-119
146. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.126
147. Yenə orada, s. 126
148. Tarix-i aləmara-yi Abbasi, s.252
149. Yenə orada, s. 254-255
150. Yenə orada, s. 255-258
151. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.128
152. Yenə orada, s. 130-131
153. Yenə orada, s. 130-131
154. Yenə orada, s. 135
155. Qədyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.127

156. İsmayili M. Saxtar-e idari və icrayi dər dövre-ye Səfəviyye. http://www.mazdaknameh.ir/Publish/PublishID/ArticleId/317
157. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi. Tehran, 1349, s. 132
158. Yenə orada, s. 132
159. Yenə orada, s. 29
160. Veliyeva Z. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007, s. 303
161. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 681
162. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 31-33
Veliyeva Z. Safevi devlet teşkilatı. Doktora tezi. Ankara, 2007, s. 303
163. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 35
164. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 149-150
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 678
165. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.146
166. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.147
Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi, s. 154
167. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387, s.148-149
168. Tarix-i aləmara-yi Abbasi, s.292-294
169. Sevori R. Təhqiqat dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s.156
170. Danişpejvə M. Ayinname-ye Şah Təhmasib, s. 139// Məcəlle-ye bərrəsiha-ye tarixi. N-1, 1351, s. 121-139
171. Yenə orada, s. 130
172. Mahmudlu Y. Seçilmiş əsərləri. II cild, Bakı, 2011, s. 473
173. Danişpejvə M. Ayinname-ye Şah Təhmasib, s. 130
174. Yenə orada, s. 138
175. Danişpejvə M. Ayinname-ye Şah Təhmasib// Məcəlle-ye bərrəsiha-ye tarixi. N-1, 1351, s. 121-139

# IV FƏSİL

# ŞAH TƏHMASİB HAKİMİYYƏTİ İLLƏRİNDƏ DİN-DÖVLƏT MÜNASİBƏTLƏRİ

## 1. Şah Təhmasibin etiqadı

Şah Təhmasib atası Şah İsmayıldan təkcə hakimiyyəti deyil, həm də təriqət mürşidliyini irs olaraq almışdı. O da Şah İsmayıl kimi yalnız səltənət hökmdarı deyildi, həm də səltənət hüdudlarından da kənarlara səpələnmiş olan Səfəvi təriqət müridlərinin və tərəfdarlarının mürşidi idi. Bu məqam, əslində, onun etiqadını müəyyənləşdirən amil idi. Şah Təhmasib dərin etiqada malik və bu etiqadında mürşidlik zirvəsində olan bir inam və iman sahibi idi. Onun bu etiqadı və inamı şiə məzhəbinə dayaqlanırdı və həmin etiqad Səfəvi xanədanının ənənəvi dəyərləri ilə bərabər, həm də şəxsi biliyi, zəkası, inamı üzərində qurulmuşdu. Bu mənada onu da demək olar ki, Şah Təhmasibin hakimiyyəti dövründə məzhəb etiqadı, təsəvvürləri, bilikləri daha da sistemləşdi, elmi əsasları daha da dərinləşdi və ictimai-dini fikirdə daha bütöv bir şəkil aldı.

Şah Təhmasibin etiqadının dəyərləndirilməsi üçün dövrün tarixi mənbələrində kifayət qədər məlumatlar mövcuddur. Amma bu məsələnin aydınlaşdırılması üçün daha etibarlı mənbələr sözsüz ki, Şah Təhmasibin öz baxışlarını əks etdirdiyi təzkirəsi, yazışmaları və ayinlər toplusudur. Bu sənədlərin hamısında Şah Təhmasibin yalnız bir hökmdar kimi deyil, həm də dərin bir etiqad adamı kimi portretinin bitkin mənzərəsini görmək mümkündür. “Dinimi dünyaya satmaram” (1) ifadəsi sözsüz ki, Şah Təhmasibin həyat və yaşayış şüarı, fəaliyyətinin ana xətti və mahiyyəti kimi qəbul edilə bilər. Məlumdur ki, Osmanlı sultanı Avropaya hərbi yürüş edəndə qızılbaş əmirləri Osmanlı dövləti sərhədlərini aşmağı təklif etdilər. Onda Şah Təhmasib cavab verdi ki, Osmanlı sultanı din uğrunda mübarizəyə yollanmışdır. Ona görə də onun yoxluğundan istifadə edib səltənəti üzərinə qoşun

çəkmək dini dəyərlərə bir araya sığan əməl deyildir. Şah Təhmasib birmənalı şəkildə bildirirdi ki, belə bir məqamda Osmanlı dövləti üzərinə qoşun çəksələr belə onların işi irəli getməyəcəkdir. O, sonra da əlavə edirdi ki, Osmanlı sultanı mənim qardaşımı və uşağımı öldürmüş olsaydı belə, kafirlərlə din uğrunda döyüşə getdiyi üçün onun ölkəsinə qoşun çəkməzdi (2).

Yəni Şah Təhmasib hələ çox kiçik yaşlarından öz etiqadını öz doğmalarından da üstün sayırdı. O, şübhə etmirdi ki, doğmaları da, yaxınları da, malik olduğu hakimiyyət də yaradanın ona lütfüdür və yaradanın iradəsindədir. Bunu Şah Təhmasib öz təzkirəsində də etiraf edirdi və belə yazırdı: "Çünki həqiqətən mənə aydın oldu ki, dövləti Allah verir. Əmirlərin ciddi-cəhdi və qüvvəti, zor işlətmələri ziyandan başqa heç kimə bir şey verməyib. Beləliklə, Allahın rizasını nəzərdə tutmaq, acizlərin, miskinlərin və rəiyyətin halına qalmaq daha vacibdir" (3).

Hakimiyyəti illərində əldə etdiyi bütün uğurları və rastlaşdığı sevincli anları da Şah Təhmasib yaradanın ona olan lütfü ilə bağlayırdı və onun istəyinə uyğun olaraq baş verənləri də Allahın ona olan lütfündən irəli gəldiyinə inanırdı: "Böyük Allah tərəfindən üz verən bu qələbə həqiqətən böyük qələbənin başlanğıcı idi" (4). Bu sözləri Şah Təhmasib o vaxt demişdi ki, qızılbaş əmirləri arasındakı intriqalar, silahlı çəkişmələr başa çatmış və hakimiyyətin real sahibi olmuşdu. Şah Təhmasib səltənət hakimiyyətini real olaraq əlində toplaya bilməsini də Allahın iradəsinin ifadəsi kimi qəbul edirdi və buna dərindən inanırdı.

Onun dini inanclarının mərkəzində yaradana etiqad, islam peyğəmbərinə və onun yolunun davamçısı Həzrət Əliyə inam dayanırdı. Bütün fəaliyyətində də o, Allahın lütfünə, islam peyğəmbərinin, Həzrət Əlinin və digər müqəddəslərin şəfaətinə arxalanırdı. Təzkirəsinin başlanğıcında Allahın, islam peyğəmbərinin və Həzrət Əlinin vəsfi ilə bağlı belə yazırdı:

"Bağışlayan və mehriban Allahın adı ilə!

Hədsiz-hesabsız şükür bir Allaha layiqdir. Qalib və müzəffər padşahların hakimiyyət və dövləti onun hüsn-rəğbətinin yardımı ilədir. Zəmanənin padşahlarının yüksək rütbəsi onun himayəsinin

şəfqət və mərhəməti ilədir. Və bu təbəqəni bütün insanlardan xüsusi qayğı ilə ayırıb seçmişdir.

...Peyğəmbərin sonuncusuna – Allahın ona və onun övladlarına hədsiz dua və salamı olsun.

“Adəm hələ su ilə gil arasında olanda (yəni adəm dünyaya gəlməmişdən mən peyğəmbər idim”.

“Mən güman edirəm ki, Allah tərəfindən öz nəcib əxlaqıma görə göndərilmişəm. O, (Allah) bəyan etdi ki, məndən sonra peyğəmbər toxdur”.

Yəni həzrət Əmirəlmöminin, mömin imam, dinin başçısı, Allahın qalib şiri, möcüzə, qəribəliklərin təzahürü və “hal-əta” surəsinin tacdarı (burada əl-Dəhr surəsinin ilk ayəsinin ilk sözlərinə işarə edilmişdir. Şiə məzhəbi davamçılarının gümanınca burada Həzrət Əliyə işarə olunmuşdur), “La fəta” (bu sözlər islam peyğəmbərinə məxsusdur . Onun Həzrət Əli haqqında deyildiyi bildirilir) meydanının mübarizi, peyğəmbərin - ona və ailəsinə salam olsun – hədislərinin biri ki, onun şənində deyilmişdir, budur: “Əgər adamlar Əli ibn Əbutalibə olan məhəbbətə görə cəm olub birləşsə idilər, Allah onda od-alovu yaradıb xəlq etməzdi”.

Dünya əhlinin dili onun sifətlərini tərif etməkdə qısadır. Əgər dənizlər mürəkkəb, ağaclar qələm, yeddi göy vərəq olsa, ins-cins qiyamət gününə qədər yazsa, tərifinin mindən birini yaza bilməz. Allahın peyğəmbəri (Məhəmmədin) elm şəhərinin qapısına Həsən və Hüseynin atası Əli ibn Əbutalibə və günahsız imamlara Allahın salamı olsun” (5).

“Şah Təhmasibin Rum elçiləri ilə söhbəti” Şah Təhmasibin bu sözləri ilə başlayır: “Allahın hədsiz-hesabsız şükründən sonra peyğəmbər və imamlara, xüsusilə İmam Əliyə salavat və salamdan sonra xatırladıq ki, ulu Allah və hikmətli və əziz “Quran”ında buyurur: “Ey, Məhəmməd, xalqı gözəl nəsihətlər yolu ilə öz Allahını tanımağa və ona ibadətə çağır və mülayimcəsinə onlar ilə söhbət et”.

Demək lazımdır ki, yuxarıdakı ayədə Allah öz peyğəmbərinə əmr edir: İslam dini ehkamlarını xalqa təbliğ edərkən aşağıdakı üç üslubdan birinə riayət etməlisən:

1.Müəyyən və qəti dəlillər ilə məqsədi sübut etmək.

2. Gözəl nəsihətlər və ürəyəyatan izahatlarla haqq sözü və həqiqəti aşkar etmək.

3. Aydın, əyani müqəddimələr ilə öz iddialarını müqabil tərəfə sübut etmək” (6).

Şah Təhmasib yaradan tərəfindən göndərilən bu buyuruqları qəbul etdiyi və həyatını da bu buyuruqlar üzərində qurduğu üçün onu öz təzkirəsində də təkrarlayırdı. O, həm də islam peyğəmbərinin və onun davamçısı olan İmam Əlinin yolunu davam etdirməyi özünün borcu bilirdi. Ona görədir ki, Şah Təhmasib qarşısına çıxan çətinliklərin həllində də ilk növbədə Allahın iradəsinə arxalanırdı, peyğəmbər və imam yolu ilə irəliləyirdi. Özü də Şah Təhmasibin bu inancı yalnız fanatizm və təvəkkül üzərində qurulmamışdı. Şah Təhmasib kifayət qədər fəal, mübariz, ardıcıl və qətiyyətli bir insan idi və o, etiqad inamını da sirati-müstəqimə (düz yola) istiqamətlənmiş fəaliyyəti ilə qovuşdururdu.

Şah Təhmasib hər zaman həm özünə, həm də ətrafındakılara təlqin edirdi ki, Allah rizasını və iradəsini heç zaman yaddan çıxarmasınlar. Təzkirəsində bununla bağlı qələmə aldığı fikirlərdən biri də belədir: “...Vaxt gözləyirdilər və daim bizim öz işlərimizdə müvəffəqiyyətsizliyə uğrayacağımıızn intizarını çəkirdilər. Mən bu vaxt əlacsız qalaraq Allaha pənah apardım. Din və dövlətin bədxahlarını ona tapşırdım. “Quranın əlacsızlara aid dua və ayələrini: “Allah bizlərə kömək edər” [Ali-İmran surəsi, 173-cü ayədən bir hissə], “[Allah] yaxşı dost və yaxşı köməkdir” [əl-Ənfal surəsi, 40-cı ayədən bir hissə] oxumağa başladım” (7).

Bu fikrin ardınca Şah Təhmasib Nizami Gəncəvinin yaradanın vəsfinə həsr etdiyi nəzm parçasına istinad etmişdir. Yəni Şah Təhmasib burada Şeyx Nizami tərəfindən Allahın vəsfi ilə bağlı söylədiyi fikirləri bölüşdüyünü təsdiqləmişdir. Başqa sözlə, bu nəzm parçası həm də Şah Təhmasibin dini etiqadının, yaradana həyati inamının yazılı ifadəsi kimi də qəbul edilə bilər. Həmin nəzm parçası belədir:

Ey bütün mövcudatı yaradan,
Aciz torpağı qüdrətli edən!

Kainat sənin bayrağının altında oturmuşdur,
Bizim varlığımız səndən, səninsə varlığın zatındadır.
Sənin varlığının nə surəti var, nə peyvəndi,
Sən heç kimə bənzəmirsən və kimsə sənə bənzəyə bilməz.
Dəyişmək bilməyən təkcə sənsən,
Ölməz və ölməyəcək təkcə sənsən.
Biz hamımız faniyik, əbədi sənsən,
Uca və müqəddəs hakimiyyət sənindir.
Qafilə köçüb və bizə nəzər sal,
Ey kimsəsizlərin kimsəsi.
Bizə çarə et ki, köməksizik,
Əgər sən qovsan, kimə üz tutaq (8).

Bu sətirlərin ədəbi tərcüməsi isə belədir:

Ey bütün varlıqlara bu dünyada can verən,
Gücsüz torpağa belə qanad verən, qan verən!
Bayrağının altında əyləşib bütün cahan,
Sən özündən doğuldun, biz sənin cəlalından.
Varlığında görünmür nə surət, nə də tərkib,
Heç kimə bənzəməzsən, de kim sənə bənzəyib?
Dönməz, dəyişməz varlıq tapılarsa o, sənsən,
Ölməyib, ölməyəcək qüdrət varsa, o, sənsən.
Sən - yaşarı və sonsuz, bizsə - gəldi-gedəri,
Hökmündədir kainat, yerin, göyün mehvəri
Karvan sovuşur, bizsə qalmışıq geri,
Kimsəsizlər kimsəsi, atına kimsəsizləri.
Köməksizik, çarə qıl, sənsən ümid yerimiz,
Sən də qovsan qapıdan, kimə yalvaraq biz (9).

Şah Təhmasibin təzkirəsində islam peyğəmbərinin vəsfi ilə bağlı da maraqlı qeydlər vardır. Həmin qeydlər də, Şah Təhmasibin islam şəriətinə, islam peyğəmbərinə bağlılığını qabarıq şəkildə nümayiş etdirir. Başlıcası isə bu qeydlər onun islam peyğəmbəri haqqında şəxsi fikirlərini və inanclarını ifadə edir: “Bir

də mənim ağam Həzrəti-peyğəmbərdir ki, - Allahın ona və ailəsinə salamı olsun – böyük Allah onun haqqında deyibdir: “Sən olmasaydın kainatları yaratmazdım” (10).

Şah Təhmasib öz təzkirəsində daha sonra islam peyğəmbəri haqqında olan Quran ayələrinə də istinad etmişdir. Başqa sözlə, o, islam peyğəmbərinin hər bir müsəlmanın həyatında hansı rol oynadığını Quran ayələri ilə təsdiqləməyə çalışmışdır. Həmin ayələrdən biri budur: “Allaha itaət edin, peyğəmbərə itaət edin, əməllərinizi batil etməyin” [Məhəmməd surəsi, 37-ci ayənin bir hissəsi] ( 11).

Qeyd etmək lazımdır ki, Şah Təhmasibin islam peyğəmbəri mövzusunda çoxlu sayda Quran ayələrinə istinad etmişdir. Bu da bir daha Şah Təhmasibin Quranı dərindən bilməsinə dəlalət edir və Qurana istinad etməklə Şah Təhmasib həm də Allah tərəfindən islam peyğəmbərinin şəxsiyyətinə verdiyi dəyər ortaya qoyulmuşdur. Şah Təhmasib eyni zamanda bu ayələr vasitəsi ilə həm özünün, həm də ütün müsəlmanların islam peyğəmbəri qarşısındakı borclarını açıqlamağa çalışmışdır. Təzkirəsində Şah Təhmasibin islam peyğəmbəri ilə bağlı qələmə aldığı maraqlı fikirlərdən biri də belədir: “Peyğəmbər bir gün moizə söyləmək məqsədi ilə minbərə çıxarkən birinci pilləyə ayaq qoyduqda “amin” dedi və həmin sözü ikinci və üçüncü pillələrdə də təkrar etdi. Peyğəmbər moizəni qurtardıqdan sonra möminlər ondan bu sözü təkrarən söyləməsinin səbəbini soruşduqda, peyğəmbər dedi:

-Minbərin birinci pilləsinə ayaq qoyub çıxmaq istərkən Cəbrayıl – ona salam olsun – dedi: -Ya Məhəmməd, sənin adını eşidəndən sonra sənə salavat oxumayan adama lənətlər olsun. Ona görə mən də “amin” dedim. İkinci pillədə orucluq ayında sağlam olub oruc tutmayan adamlara Cəbrayıl lənət oxudu. Ona görə mən də “amin” dedim. Üçüncü pilləni çıxanda isə ata-anaya hörmət etməyən adamlara Cəbrayıl lənət oxudu. Mən də “amin” dedim” (12).

Burada diqqəti cəlb edən sözsüz ki, ilk növbədə islam peyğəmbəri haqqında deyilən fikirdir. Şah Təhmasib bununla islam

peyğəmbərinə dəyər verilməsini, əslində, bəşəriyyətin vəzifəsi sayırdı. Daha sonra orucluq və valideynlər haqqında səslənmiş fikirlər də Şah Təhmasibin etiqadını müəyyənləşdirən məqamlar idilər və Şah Təhmasib onları səsləndirməklə özünün də bu etiqadda olduğunu bəyan edirdi. Valideynlərə ehtiram məsələsi bir ümumbəşəri məzmun kəsb etsə də, Şah Təhmasib onu həm də islam inancından irəli gələn bir vəzifə kimi qəbul edirdi. Bu fikir Şah Təhmasib üçün həm də islam peyğəmbəri tərəfindən təqdir olunmuş bir fikir kimi qəbul edilirdi.

Şah Təhmasib bütün varlığı ilə öz Allahını, peyğəmbərini tanıyıb onlara ilqar gətirdiyi kimi, mənsub olduğu məzhəbin pişvası sayılan Əmirülmöminin Əliyə də etiqadlı idi. Özü də bu etiqad şəxsi inamda siyasi çalardan kənar idi. Şah Təhmasib İmam Əliyə etiqaddan irəli gələn bütün dəyərləri birmənalı şəkildə qəbul edir və bu dəyərlər yolunda mübarizə aparmağı da bir müsəlman və təriqət mürşidi kimi əsas vəzifəsi sayırdı. Onun İmam Əlinin pişvası sayılan məzhəbə bağlılığı da fanatik və ya ənənəvi bağlılıq deyildi. O öz məzhəb inamını və əqidəsini ciddi fakt və arqumentlərlə əsaslandırırdı. Bununla bağlı onun həm təzkirəsində, xüsusilə də yazışmalarında maraqlı fikirlər vardır.

Şah Təhmasibin istər təzkirəsində, istərsə də yazışmalarında məzhəb əqidəsinin doğruluğunu ilk növbədə islam peyğəmbərinin mövqeyi ilə əsalandırmağa çalışmışdır. O, hətta İmam Əlinin Allah yanında da böyük hörmət və ehtirama malik olmasını Qurandan istinad etdiyi ayələrlə də əsaslandırmağa cəhd göstərirdi. Şah Təhmasib şübhə etmirdi ki, Quranda İmam Əlinin adı çəkilməsə də bəzi ayələrdə məhz ona işarə olunmuşdur (13).

İmam Əlinin islam aləmindəki yerinin açıqlanması üçün Şah Təhmasib öz təzkirəsində islam peyğəmbərinin hədislərinə xeyli yer vermişdir. O belə yazırdı:

“Allahın elçisi [Məhəmməd] – Allah ona xeyir-dua versin və sakit etsin – demişdir:

“Ya Əli! Səninlə mən qandan bir, candan bir, cismən də ruhən də birik”.

Və [başqa] hədis:

“Sənin mənə görə yerin Hərunun Musaya görə tutduğu yer qədərdir, çünki məndən sonra peyğəmbər yoxdur”.

Başqa hədis:

“Mən kimin quluyamsa, Əli də onun quludur”.

Onun Həzrət [Əli] haqqında buyurduğu duadır:

“Allahümə! İmdadına yet o kəsin ki, onlar imdada çatıb. Düşmən çıx o kəsə ki, onlar ədavət edib. Havadar ol o kəsə ki, onlar arxa çıxıb. Dara sal o kəsi ki, onlar darda qoyub. Lənətə gətir o kəsi ki, onlar zülm edib!”

...Və müqəddəs hədis:

“Əli kimi cavan mərd yoxdur, Zülfüqar kimi qılınc”.

“Mən elmin şəhəri, Əli isə onun qapısıdır”.

Və başqası:

“Ya Əli! Səni sevər yalnız Allahdan qorxan mömin bir şəxs, səndən isə uzaq durar ancaq arsız, ikiüzlü bir riyakar”.

Və başqası:

“Mən də, Əli də bir nurdanıq”.

Və başqası:

“Mən də, Əli də Allahın bəndələri üçün Allahın sübut-dəliliyik”.

Və müqəddəs hədis:

“Əgər adamlar Əli ibn Əbutalibə olan məhəbbətə görə cəm olub birləşsə idilər, Allah onda od-alovu yaradıb xəlq etməzdi” (14).

Təzkirəsinin başqa bir yerində isə Şah Təhmasib dərin etiqad bəslədiyi İmam Əlini belə vəsf edirdi: “Bir də Məhəmməd ancaq mənim ağamı (əlini) çiyninə qaldırmışdır ki, Kəbə evindəki bütün bütləri sındırsın. Bir də Allah Cəbrayıl vasitəsilə beheşt quşlarından birini kabab etdirib Məhəmmədə göndərmişdi. Məhəmməd isə o xörəyi tək yemək istəməyib, Allahdan xahiş etdi ki, ilahi, xalq içərisindən sən ən çox sevdiyin və səni ən çox sevən adamı mənim yanıma göndər, bu xörəyi onun ilə birlikdə yeyək. Həmin saat Əli hazır oldu və xörəyi yeməkdə iştirak etdi.

-Mənim ağam Əli namazını vaxtında qılsın deyə, günəş də onun sözünə itaət etdi. Bir yerdə dayandı durdu və ancaq Əli namazını qurtardıqdan sonra batdı.

Bir də mənim ağam Əli Əmr ibni-Əbdövüdə zərbə vurub öldürdü. Məhəmməd bu haqda demişdir:

“Əbutalib oğlu Əlinin Xəndək günü etdiyi igidlik, mənim bütün ümmətimin qiyamətə qədər edəcəyi ibadətdən üstündür”.

Əli Xeybər qalası qapısını yerindən qopartdı. Allah ona Zülfüqar adlı qılınc verdi. “Hadi Əli” duası onun haqqında nazil oldu” (15).

Bir daha qeyd edilməlidir ki, Şah Təhmasib sadəcə olaraq faktları sadalamır və ya müqəddəs kəlamlara istinad etmirdi. Yazıya aldıqları həm də onun əqidəsinin ifadəsi idi.

Öz təzkirəsində Şah Təhmasib mənsub olduğu məzhəbin dəyərlərini açmaq üçün daha çox müqəddəs kəlamlara istinad edirdisə, onun bəzi yazışmalarında isə məzhəb baxışlarının öz bilikləri əsasında əsaslandırılmasına rast gəlmək mümkündür. Həmin yazışmalarda onun bəyan etdikləri həm də Şah Təhmasibin etiqad təfəkkürünün və zəkasının ifadəsi idi. Bu baxımdan Şah Təhmasibin 1530-cü ildə Übeyd xana və 1554-cü ildə Sultan Süleymana yazdığı məktubları xüsusilə xarakterikdir. Hər iki məktubda islam xəlifəliyinin məhz İmam Əliyə məxsusluğu Şah Təhmasib tərəfindən özünəməxsus bir məntiqlə bəyan edilmişdir. Həmin cavabları ilə Şah Təhmasib bir tərəfdən öz etiqadının dərin məntiqə və biliyə əsaslandığını göstərirdisə, digər tərəfdən də özünün islam ariflərindən heç də geri qalmadığını nümayiş etdirirdi. Bu məktubların hər ikisi haqqında uyğun fəsildə ətraflı danışılsa da, Şah Təhmasibin etiqad təfəkkürünün genişliyinin təsəvvür edilməsi baxımından onlara yenidən toxunulması mövzu baxımından yeni bir aktuallıq kəsb edir. Məsələn, Übeyd xana yazdığı məktubunda Şah Təhmasib peyğəmbərlərin rəsaləti haqqında öz fikrini belə ifadə edirdi: “Qurani-Məcid”də və doğru kəlamda əksini tapmış bəlağətlə dolu bu məzmundan xəbərsiz olmaq və ona laqeyd yanaşmaq olmaz. Mübarək və Ulu Allah

buyurmuşdur: “Onlar: “Biz atalarımızı bir din üzərində gördük və biz də onların ardınca getdik!” – deyirlər. [Ya Rəsulum!] Biz səndən əvvəl hər hansı bir məmləkətə [Allahın əzabı ilə] qorxudan bir peyğəmbər göndərdiksə, oranın naz-nemət içində yaşayan böyükləri (varlıları) sadəcə olaraq: “Biz atalarımızı bir din üzərində gördük və biz də (təqlidlə) onların ardınca getməkdəyik!” – dedilər. [Hər peyğəmbər öz ümmətinə] belə dedi: “Əgər sizə atalarınızın sitayiş etdiyini gördüyünüz dindən daha doğrusunu gətirmiş olsam necə?!” Onlar: “Biz sizinlə göndərilənləri inkar edirik!” – deyə cavab verdilər. Buna görə də Biz onlardan intiqam aldıq. [Ya Rəsulum!] Bir gör [peyğəmbərləri] yalançı sayanların axırı necə oldu!” (16).

Yəni Şah Təhmasib sadəcə iri yolla hakimiyyət sahibi olmuş birisi deyildi. O, həm də dövrünün kamil zəka sahiblərindən biri idi və bunu öz yazışmalarında da nümayiş etdirirdi. Həmin məktubunda məzhəb fərqinin nədən yaranması məsələsi ilə bağlı Şah Təhmasib özbək xanı ilə ciddi bir polemika da açmışdı. İslam dinin məzhəblərinin mahiyyətinin araşdırılması bu tədqiqatın mövzusu olmasa da, qeyd etmək lazımdır ki, şiə məzhəbinin dəyərlərinin ortaya qoyulması və əsaslandırılması baxımından Şah Təhmasibin bu məktubda yazdıqları onun etiqadının müəyyənləşdirilməsi üçün maraq kəsb etdiyi kimi, həm də mövzunun elmi-tarixi baxımdan təhlili üçün müəyyən maraq kəsb edir. Şah Təhmasib yazırdı:

“Yanlış düşüncənizə məfxi qalmasın ki, Raşidi xəlifələrindən əgər təkcə möminlərin əmiri, dindarların imamı, Allahın qalib aslanı olan Həzrət Əli ibn Əbu-Talib – Allahın salamı olsun ona – nəzərdə tutulursa, onun yolu, heç şəksiz və şübhəsiz, haqqın və düzgünlüyün yoludur və biz, Allahın köməyinə müvəffəq olub həmişə bu gözəl yola riayət edirik. Qəti əqli sübutlar və aydın nəqli dəlillər əsasında həm say-seçmə, həm sadə adamlardan ibarət olan bütün insanları küfr və üsyan səhrasından islamın gözəl vadisinə gətirəcəyik. Halbuki o qəddar kafirlərin və o yaramaz əclafların xasiyyəti onun (Həzrət Əlinin) bəyənilən yoluna tamamilə zidd və müxalifdir. ... Möminlərin əmiri, dindarların

imamı, kafirlərin və münafiqlərin qatili, Allahın qalib aslanı olan Həzrət Əli ibn Əbu-Talib – Allahın salamı olsun ona – ömrünün əvvəlindən başlayaraq dünyadan köçdüyü vaxta qədər xilafətin ismətini üsyan və xəta tozuna bulaşdırmamışdır. O, həzrət peyğəmbərə – Allahın salamı olsun ona və nəslinə – bütün möminlər və müsəlmanlar, yaxınları və qohumları arasında hamıdan daha yaxın olmuş, ən uca məramlara və peyğəmbərlərə xas olan yüksək və şanlı mərtəbələrin ən ali mərtəbələrinə çatmışdır. O həzrətin tərifəlayiq əhvalatları haqqında çoxlu ayələr və saysız hədislər mövcuddur. Onun düz qaməti "İnnəma" və "Həl-əta" xələti ilə süslənmiş, ali məramlı xilqəti də "Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır" [hədisinin] zinəti ilə bəzənmişdir. Həzrət peyğəmbər – Allahın salamı olsun ona və nəslinə – Qədir-Xum günündə, vida həccindən qayıdarkən səhabələrinə buyurdu ki, "Mən hər kimin mövlasıyamsa, bu Əli də onun mövlasıdır. Pərvərdigara! Əlini sevənləri sev, onun düşmənləri ilə düşmən ol! Ona məhəbbət bəsləyənlərə məhəbbət bəslə! Ona kömək edənlərə kömək et, köməyini əsirgəyənlərdən köməyini əsirgə!". [Peyğəmbər] o həzrətə buyurmuşdur ki, "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir". Həmçinin [peyğəmbər] bu fəsahətli kəlamı mübarək dilinə gətirmişdir: "Sən mənim qardaşımsan, sən mənim varisimsən, sən mənim xəlifəmsən və dinin qazısısan". O həzrətin əjdahanı məğlub etməsi, cinlərlə müharibəsi, böyük qayanı dəf etməsi, Xeybərin qapısını qoparması kimi açıq-aşkar möcüzələri və kəramətləri çoxdur və saysızdır.

... peyğəmbər həzrətləri – ona və nəslinə salam olsun – bu fani dünyadan gözəl cənnətə köçdüyü vaxt buyurmuşdu ki, vəsiyyət etməsi üçün qələm və dəvat gətirsinlər və vəsiyyətini gövhər saçan qələmlə yazıya alsınlar. Lakin o məlunlar həmin zaman elə sözlər söylədilər ki, onların yazılması və hətta anlatılması ədəbsizlikdir. Onlar Bəni-Haşim qəbiləsinin əksəriyyətinin gözləri qarşısında Fatimeyi-Zəhranın – ona salam olsun – evinə od vurdular. Cəmiyyət arasında məşhurdur ki, peyğəmbər həzrətləri – ona və nəslinə salam olsun – buyurmuşdur: "Fatimə mənim

bədənimin bir parçasıdır. Onu incidən məni incidər, məni incidən isə Allahı incitmiş olar". Allah-təala buyurur: "Allahı və Onun Peyğəmbərini incidənlərə Allah dünyada və axirətdə lənət eləmişdir" (17).

Yəni Şah Təhmasib əsaslandırmağa çalışırdı ki, İmam Əlinin ilk xəlifə olacağı islam peyğəmbəri tərəfindən irəli sürülsə də, onun bu haqqına riayət olunmamışdı. Sultan Süleymana göndərilən məktubda İmam Əlinin islam peyğəmbərinin xəlifəsi kimi seçilməsinin əsaslandırılmasına geniş yer ayılmışdı. Bununla bağlı Şah Təhmasib Qurana da istinad edirdi və bu müqəddəs kitabda da Həzrət Əlinin xəlifəliyinə işarə edildiyini bildirirdi. Şah Təhmasib bildirirdi ki, Həzrət Adəmdən başlamış son peyğəmbər Məhəmməd peyğəmbərə qədər belə bir ənənə var idi ki, dünyasını dəyişməzdən əvvəl hər bir peyğəmbər onun yolunun davamçısı olacaq xəlifəsinin adını açıqlayırdı. Onun sözlərinə görə, peyğəmbər xəlifəsinin kimliyi həm də Allah tərəfindən təsdiq və təqdir olunurdu və Allahın rizası olmadan heç bir peyğəmbər də özünə xəlifə müəyyənləşdirə bilməzdi. Şah Təhmasibin fikrincə, peyğəmbərlər də öz davamçılarını başsız qoymamaq üçün mütləq şəkildə xəlifə məsələsini həll edirdilər: "Adəm yaradılışının əvvəlindən son peyğəmbər səlliallahü əleyhə və səlləmə qədər belə qəbul olunmuşdu ki, dünyadan köçən hər bir peyğəmbər üçün həzrət vahibüləta vəsiyyət edir və xəlifə təyin edirdi. Həmin nəbinin vəsiyyəti Allah əmri idi və heç bir əsrdə belə olmamışdı ki, Allahın əmri olmadan nəbi vəsiyyəti ilə xəlifə təyin etsin. Ya da onun ümməti Allah rizası və Allah rəsulunun rizası olmadan xəlifə təyin etsin. Peyğəmbərlərin də heç biri öz gözünü bəqa aləminə dikməmişdi ki, onun vəsiyyəti və xəlifəsi olmasın, onun ümməti zay və gözü yolda qalmış olsun. ...Heç kəs də bunu inkar edə bilməz ki, ənbiyanın seyyidi, rəsulların üstünü və yaradılışın ən yaxşısı olan peyğəmbərimizin vəsiyyəti və xəlifəsi də vəsiyyətlərin və nəbilərin üstünüdür. ...Əgər o, peyğəmbərlərin sonuncusudursa, mümkündürmü ki, ulu Allah ona xəlifə təyin etməsin və nəticədə Allah rəsulu öz dinini sahibsiz,

ümmətini isə gözü yolda qoysun. Yəni özünə xəlifə təyin etməsin və özü vəsiyyətsiz bəqa alıminə köçsün" (18).

Şah Təhmasib bir daha qeyd edirdi ki, bu məsələ Quranda da əksini tapmışdır və fikrinin təsdiqi kimi Quranın Bəqərə surəsinin 207-ci ayəsinə istinad edirdi. Həmin ayədə deyilirdi: "İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda *(Allah rizası üçün)* öz canını fəda edər" (19). Şah Təhmasib şübhə etmirdi ki, bu ayə Həzrət Əli haqqındadır və bu ayədə söylənilənləri də Həzrət Əlinin xəlifə təyin edilməsi üçün əsas sayırdı. Onun yazdıqlarından belə bir qənaət hasil olur ki, həmin ayə islam peyğəmbərinin həyatının sonlarına yaxın nazil olmuşdu və bununla eyni zamanda islam peyğəmbərinin həyatının sonlarına yaxın Həzrət Əlinin gələcək xəlifəliyinə də işarə olunmuşdu. Şah Təhmasib, əslində, Həzrət Əlinin xəlifəliyə namizədliyini də təbii sayırdı. Onun fikrincə, Həzrət Əli əhli-beyt olmaqdan savayı, həm də heç nədən qorxmayan, islam yolunda Zülfüqar çalan və müsəlmanlar tərəfindən də qəbul edilən bir müqəddəs idi. Şah Təhmasib onu da əlavə edirdi ki, onun toxunduğu məsələ Quranın təfsirinə həsr olunmuş bir çox kitablarda da öz əksini tapmışdı. Bütün bunlar bir daha onu göstərirdi ki, Şah Təhmasibin etiqadı və inamı onun dərin zəkasına və biliyinə əsaslanan şüurlu bir etiqad idi.

Məhz belə bir etiqad sahibi olduğu üçün idi ki, Şah Təhmasib hələ çox cavan vaxtlarında səltənət daxilində şərab içməyi, qumar oynamağı, yüngül əyləncələri, musiqini, əxlaqsızlıq ocaqlarının mövcudluğunu qadağan etmişdi. Doğrudur, bu qadağada Şah Təhmasibin bəşəri və mənəvi-əxlaqi dəyərləri də özünü göstərirdi. Lakin şübhə yoxdur ki, bu qadağaların qanuniləşdirilməsi ilk növbədə Şah Təhmasibin dini etiqadından irəli gəlirdi. Şah Təhmasibin hələ gənc yaşlarında dünya əyləncələrindən tövbə etməsi bəzi tədqiqatçılar tərəfindən müxtəlif səbəblərlə və o cümlədən də ona edilə biləcək təsirlərlə əlaqələndirilmişdir (20). Şah Təhmasibin müdrik məsləhətlərə qulaq asması şübhəsizdir. Lakin 20 yaşında olduğu zaman dünya və saray əyləncələrinə tövbə etməsi ilk növbədə özünün etiqadının və inamının ifadəsi

idi. Bununla o, səltənət daxilində də yeni və daha sağlam bir mühitin formalaşmasına rəvac verdi.

Mənbələrdə Şah Təhmasibin Məşhəd ətrafında olarkən yüngül əyləncələrdən tövbə edilməsi haqqında məlumatlar vardır (21). Bununla, Şah Təhmasibin etiqad təmizliyinin baş verməsində müqəddəs məkanların təsiri də istisna edilmir. Sözsüz ki, bu məqam da diqqətdən kənarda qoyulmamalıdır. Məlumdur ki, Şah Təhmasibin etiqadının, dünyagörüşünün formalaşmasına yuxusunda müqəddəsləri görməsi və onlardan eşitdiyi nəsihətlər də müəyyən rol oynamışdı (bu barədə aşağıda danışılacaqdır). Məşhəd yaxınlığında müqəddəslərin Şah Təhmasibin yuxusuna girməsi və ona yüngül əyləncələrdən əl çəkməsini tövsiyə etməsi məlum tövbənin edilməsinə təsirsiz ötüşmədi. Bu hadisə belə baş vermişdi ki, Osmanlı qoşunları Azərbaycan üzərinə ilk hücum çəkən zaman Şah Təhmasib qoşunları ilə birlikdə Xorasan vilayətində idi. Osmanlı qoşunlarının hücum təhlükəsi haqqında məlumat alandan sonra Şah Təhmasib Təbrizə doğru hərəkət etmək göstərişi verdi. Mənbələrin birindi göstərilir ki, Məşhəddə olarkən Şah Təhmasib 8-ci imam olan İmam Rzanın məqbərəsini ziyarət etdi. Bu ziyarət zamanı Şah Təhmasib həm dualar etdi, həm də keçən günlərində etdiyi əməllərə görə peşmançılığını dilə gətirdi. O, üzünü İmam Rzanın qəbrinə sürtərək yüngül əməllərdən tövbə etdiyini, bu əməllərə bir daha yol verməyəcəyini bəyan etdi və İmam Rzanı da bu tövbəsinə şahid gətirdi. Mənbələrdə o da deyilirdi ki, Şah Təhmasib 40 il bu tövbəsini pozmadı və verdiyi vədə əməl etdi, yüngül əyləncələrə bir də üz çevirmədi. Eyni zamanda həmin müddət ərzində hökmdarı olduğu səltənət daxilində də yüngül əməllərin rəvac tapmasına yol vermədi. Bu məsələ mənbələrdə həm də Şah Təhmasibin etiqadının möhkəmliyi və dönməzliyi ilə də bağlanılırdı. Çünki Şah Təhmasib düz 40 il ərzində böyük bir səltənətə hökmranlıq etsə də (tövbədən sonra) hətta saraylar üçün ənənəvi sayıla biləcək belə yüngül əməllərə yaxın durmadı (22).

Şah Təhmasib böyük tövbəyə necə gəlməsini öz təzkirəsində belə təsvir edirdi: “Allaha şükr olsun ki, mənim ixtiyarımda olan

qoşun şərab və bütün başqa haram işlərdən tövbə etmişdir. Mənim məmləkətimdə qumarxana, fahişəxana və s. şəriətcə icazə verilməyən fitnə-fəsad ocaqları ləğv edilmişdir. Mən özün Heratdan köç edən vaxt İmma Rzanın – ona salam və dua olsun – mələklər yuvası olan müqəddəs məşhədini (məqbərəsini) ziyarətə getmişdim. Gecə Allahın elçisi həzrət Məhəmmədin – ona və ailəsinə Allahın salamı olsun – mübarək mədinəsinin pişnamazı Mir Seyid Məhəmmədi yuxuda gördüm. Mənə buyurdu ki, yaramaz işlərdən uzaq ol ki, fəthlər edəsən. Səhər Əhməd bəyə, orada olan əmirlərə bu yuxunu söyləyəndə, onlardan bəziləri dedilər:

-Bəzi haram işlərdən əl çəkək, lakin səltənət üçün zəruri olan şərab kimi elələri də vardır ki, onlarsız keçinmək olmaz.

Bu haqda hərə bir söz dedi. Mən dedim ki, bu gecə bu niyyətlə yataram, [yuxuda] hər nə görsəm, ona əməl edəcəyəm. Həzrət peyğəmbərdən – Allahın ona və ailəsinə salamı olsun – hədisdir ki, "Saleh mömin adam dindar yuxu görəndə: "Səni şadxəbər olasan!" – deyər.

Yenə həmin gecə yuxuda gördüm ki, həzrət İmam Rzanın – ona min-min tərif və salam olsun – ayağı altındakı pəncərənin bayır tərəfində seyidlərin pənahı möhtəsib Mir Hadinin əlindən tutaraq şərab içmək, zina və bütün qadağan edilmiş işlərdən tövbə etdim.

Səhəri bu yuxunu da camaata danışdım. Şəni yüksək olan böyük Allahın qüdrət və yardımı ilə o cür ki, yuxuda görmüşdüm, o cür də məzkur Seyid [Mir Hadi] hazır oldu. Əlini tutdum və bütün qadağan olunmuş şeylərdən tövbə etdim. 20 yaşında ikən bu səadət mənə nəsib olduqda bu rübaini yazdım:

Bir qədər cilalanmış zümrüd ardınca getdim
Bir qədər tər yaquta aludə oldum
Hər cür şeyə aludəliyim vardı,
Tövbə suyu ilə yudum, asudə oldum

Allaha şükür olsun ki, səadətin nəsib olduğu o tarixdən mənim bütün məmləkətimdə çirkin və pis əməllər yox olmuş və böyük

Allahın yardımı ilə gündən-günə cüzi bir hissəsi belə ağlıma gəlməyən cürbəcür qələbələr üz verib. Bütün ağıllı adamlar bu işə heyran qalıblar. Mən nə qədər mərdanə, bacarıqlı olsam [ Allahın mənə nəsib etdiyi] bu qələbələrin azacıq bir hissəsinin belə şükr duasını bütün ömrüm boyu yerinə yetirə bilmərəm" (23).

Göründüyü kimi, Şah Təhmasib özü də tövbə etməsini və bunun savabını səltənət idarəçiliyində və səltənətin müdafiəsində əldə etdiyi böyük uğurların əsası sayırdı. Onun sözlərinə görə, bütün ağıllı adamlar da Şah Təhmasibin uğurlarına heyran qalmışdılar. Əldə olunan böyük uğurların Allahın lütfündən irəli gəlməsinə əminlik və bu lütfün ifadəsi kimi böyük qələbələri qismət edən böyük yaradana şükr edilməsi yəqinliyi də Şah Təhmasibin etiqadının göstəricisi idi.

"Əhsənüt-təvarix" əsərində Şah Təhmasibin tövbə etməsi və bu tövbənin nəticələri barəsində belə bir məlumat öz əksini tapmışdır: "Bu il içində dinin pənahı olan şah bütün günahlardan tövbə etdi. Hökmdar şanlı bir fərman verdi ki, möhtəsiblər sonu əzab olan [şərab] piyaləsinin və camının abrını töküb onların namus şüşəsini əfsus daşına vursunlar və sürahinin qulağından pambığı çıxarıb "həqiqət acı olur" deyimini ona yetirsinlər. Əgər dikbaşlıq edərsə, onun boynunu üzsünlər. "Kefləndirən hər şey haramdır" hökmünə əsasən, pivə, bəng və [buna bənzər] hər nə görsələr, məhv etsinlər. Şəriət qanununa zidd şəkildə avaz edən, mənasız mahnılar oxuyan müğənniyə cəza yarası vuraraq onun ürəyindən fəryad çıxarsınlar. Hər kimdə utanmaz çəng [alətini] görərlərsə, simlərini kəssinlər. Əgər ney [aləti] şəriətin ahənginə xilaf rəftar edərsə, nəfəsini çıxarmağa imkan verməsinlər. Yöndəmsiz səslər çıxaran anlamsız tənburu elə vursunlar ki, odun kimi alışıb yansın. Hansı məclisdə xoş avazlı rübabı görərlərsə, onu bir eşşəyə oturdub oradan xaric etsinlər. Qumarxanalardan, şərəbxanalardan və pozğunluq yuvalarından hasil edilən külli məbləği isə dəftərlərdən silib atsınlar" (24).

Şah Təhmasibin yuxarıdakı qeydlərindən də göründüyü kimi, səltənət daxilində heç də bütün əmirlər və əyanlar yüngül əyləncələrin qadağan edilməsinin tərəfdarı deyildilər. Bu əyləncələr

bir tərəfdən bir çoxlarının başını qayğısız bir həyata qarışdırır, bir çoxlarına isə böyük gəlir gətirirdi. Ona görə onlar bu qadağalara tərəfdar deyildilər. Elan olunmuş qadağaların həyata keçirilməsi üçün Şah Təhmasib çox ciddi tədbirlərin həyata keçirilməsinə yol açdı. Yəni bir tərəfdən şərab və insan beynini dumanlandıran digər maddələrin istehsalı və satışı aradan qaldırıldı, yüngül əyləncə ocaqları bağlandı. Hətta qadağanın ziddinə olaraq müsiqi alətlərini ifa edənlərin əlləri kəsilirdi. Bundan başqa yüngül əyləncələri qadağan edən fərmanlar verildi və həmin fərmanlar əhali arasında yayıldı. Tədqiqatçıların fikrincə, hökmdar fərmanının yazılı şəkildə əhali arasında yayılması hələ Qazan xanın hakimiyyəti illərində mövcud olmuşdu. Əmir Teymur da səltənətinin bəzi hissələrində yazılı fərmanların əhali arasında yayılmasına rəvac vermişdi. Yazılı fərmanların hər zaman göz qarşısında olması, sözsüz ki, insanlara qadağalar haqqında davamlı xatırlatma idi. Şah Təhmasib də bu vasitədən istifadə olunmasını məqsədəuyğun sayırdı (25).

Yuxarıda haqqında danışıldığı kimi, Şah Təhmasibin ayinləri də yazılı şəkildə hazırlanaraq böyük şəhərlərin görüntülü yerlərində daş üzərinə həkk edilmişdi. Onun tövbəsinin icrası ilə bağlı da bəzi yazılı fərmanlar verilmiş və əhalinin toplandığı məkanlara yerləşdirlmişdi. Hazırda elmi-tarixi dövriyyədə olan belə fərmanlardan biri Kaşanın Mir İmad məscidi qarşısında yerləşdirilmişdi. Həmin fərmanda iman əhlinin hamisi olan Əbu Əlmüzəffər əs-sultan Şah Təhmasib Bahadur xanın fərmanının islam peyğəmbərinin şəriətinə və müqəddəslərin təriqətinə uyğun olaraq verildiyi bəyan edilir və bu fərmandan irəli gələn qadağalar əhalinin nəzərinə çatdırılırdı. Bildirilirdi ki, fərmanın verilməsindən sonra səltənət daxilində şərabxana, bəngxana, məcunxana, buzəxana, qavalxana, qumarxana, kəbutərxana kimi yerlər bağlanmalı idi. Eyni zamanda müstövfilərə göstəriş verilirdi ki, adları çəkilən məkanlarda vergi daxilolmaları dəftəri də qapadılsın. Yəni yüngül əyləncə məkanları qapadıldığı kimi, belə məkanlardan vergi daxil olmaları da aradan qaldırılmış olurdu. Yerli hakimlərdən, və məsul adamlardan tələb olunurdu ki, sadalanan

məkanlarda baş verən əməllərə, habelə tənbur çalınmasına və saqqal qırxılmasına yol verməsinlər. Bu qadağaları pozan adamlara ciddi cəzalar verilməli idi (26).

Şah Təhmasibin bu fərmanının tələblərini pozanlar doğrudan da ciddi cəzalara məruz qalırdılar və bu barədə də müəyyən faktlar mənbələrdə öz əksini tapmışdı. Məsələn, məlumdur ki, qorçuların vəziri Şahqulu şərab içilməsi haqqında şah qadağasına əməl etmədiyi üçün qətlə yetirilmişdi. Ondan başqa Şüştər hakimi Mehdiqulu sultan da şərab içmək qadağasını pozduğu üçün əvvəlcə döyülmüş, sonra da öldürülmüşdü. Günah işlərə yol verdiyi üçün bəzi əmirlərin hətta atəşə çəkilməsi haqqında da mənbələrdə məlumatlar qalmaqdadır. Bu sahədə Şah Təhmasib yalnız sərtlik nümayiş etdirmirdi. Eyni zamanda o özü bu qadağalara riayət edilməsinin nümunəsi idi. Tədqiqatçılar da qeyd edirlər ki, Şah Təhmasib bütün hakimiyyəti boyu etdiyi tövbəyə sadiq qaldı və yalnız bir dəfə bu tövbəni pozmalı oldu. Bu da hind padşahı Hümayunun Səfəvi sarayına pənah gətirməsi zamanı onun şərəfinə musiqi məclisinin təşkil edilməsi ilə bağlı idi (27).

Mənbələrin verdiyi məlumata görə, Şah Təhmasib 500 tümən dəyərində mövcud olan tiryəkin məhv edilməsi haqqında göstəriş vermişdi (28). Bu vəsait kifayət qədər böyük vəsait idi və bununla bildirilirdi ki, Şah Təhmasib səltənətin mənəvi-ictimai mühitinin sağlamlaşdırılması, islam şəriətinin tələblərinin tətbiqinə nəzarətin gücləndirilməsi ilə xəzinə gəlirlərinin çox zəngin bir mənbəsindən də imtina edilmişdi. Yəni Şah Təhmasib öz etiqadını vardövlətdən üstün tuturdu.

Şəriətlə günah sayılan yüngül əyləncələrin qadağan edilməsi ilə bağlı Şah Təhmasibin daha bir fərmanı Ərdəbildə Şeyx Səfi türbəsində daş üzərində yonulmuş və həmin fərman günümüzə qədər də gəlib çatmışdır. Həmin fərmanın bəzi sözləri oyulduğundan onları oxumaq mümkün deyil. Bununla belə mövcud olan yazı fərmanın məzmunun nədən ibarət olmasını ortaya qoyur. Bu fərmanın bir yerində deyilirdi: “Ərdəbil darülirşadında və vilayətində yaradan tərəfindən qorunan səltənətdə şərabxana, pəncxana, məcunxana, buzəxana, beytüllütf, qumarxana, qavalxana

və quşbazlığın qadağan olunması haqqında göstərişə uyğun olaraq hörmətli müstövfilər onların mal və xəraclarını dəftərlərdən silsinlər, bundan sonra onları toplamasınlar. Kimsə saqqal qırxdırmaq, tənbur çalmaq, nərd oynamaq... kimi qeyri şəri işlərlə məşğul olmasınlar" (29).

Göründüyü kimi, Şah Təhmasibin tövbəsindən irəli gələn sağlam mənəvi mühitin formalaşdırılması üçün səltənət miqyasında güclü bir qətiyyətin ortaya qoyulmasını tələb edirdi. Səfəvi şahının tövbəsi fərdi məzmundan əlavə, həm də ictimai məzmun və miqyas kəsb edirdi. Ona görə də həmin tövbədən irəli gələn tələblərin həyata keçirilməsi üçün Şah Təhmasib böyük təşkilatçılıq işini də nümayiş etdirməli oldu. Nəticəsi isə Şah Təhmasib dövründə cəmiyyətdə bir sağlamlaşmaya, çoxlu sayda insanların günah əməllərdən uzaqlaşmasına yol açdı. Bu tövbənin Şah Təhmasibin etiqadının saflaşması ilə bərabər, cəmiyyətdə mənəvi sağlamlaşmaya göstərdiyi müsbət təsir mənbələrdə də öz əksini tapmışdır. "Tarix-i aləmara-yi Abbasi" əsərinin müəllifi bu barədə belə yazırdı: "Həmişə «əmri-məruf»[ insanları yaxşı yola dəvət etmək] və «nəhyi-münkər» [insanları pis yoldan çəkindirmək] kimi dini məsələlər onun nurlu şəxsiyyətinin nəzər-diqqətində idi. Belə ki, o, dürüst niyyətlə və etiqad gözəlliyi ilə gəncliyinin çiçəklənən vaxtında, cavanlığının cücərən dövründə və ətrafında nəfsani ləzzətlər ola-ola, asimani bir yardımla tövbə etmək arzusuna düşüb, mübarək cülusundan doqquz il keçdiyi və iyirmi yaşında olduğu 939-cu ildə (03.08.1532 - 22.07.1533) sədaqət dili ilə «Allah qarşısında tövbə edirəm» kimi xoşagələn kəlməni söylədi və səmimi-qəlbdən bütün günahlardan tövbə edib, mənəvi cəhətdən o qədər sağlamlaşdı ki, tövbəni pozmaq heç vaxt xəyalından keçmədi. Şərəbxanaların, qumarxanaların və əxlaqsızlıq yuvalarının adlarını dəftərlərdən silib atdılar. Get-gedə qızılbaş tayfalarının bütün əmirləri o həzrətə müvafiq olaraq, tövbəyə rəğbət göstərdilər və 963-cü ildə (16.11.1555 -03.11.1556) böyük əmirlər və səadətli sarayın mülazimləri günahlardan əl çəkdilər. Şəriətə zidd olan pis əməllər bütün məmləkətlərin və şəhərlərin camaatına qadağan olundu. Bu əhvalatın

qəribəliyi üzündən «toubət-i nəsuhan» («səmimi tövbə») sözləri [əbcəd hesabı ilə] bu hadisənin tarixinə müvafiq gəldi. Xülasə, o həzrətin bəxtəvər hakimiyyəti zamanında Allahın xəlq etdikləri və bəndələri möminliyi və pəhrizkarlığı öz həyat tərzlərinə və şüarlarına çevirərək, Allaha itaət və ibadət etməklə yaşayırdılar. [Şah Təhmasib] «əmri-məruf» və «nəhyi-münkər» kimi dini məsələləri xeyli inkişaf etdirərək, qissəxanlara və mərəkəgirlərə hər hansı bir fırıldaq əlamətinə malik olan işlərdən əl çəkməyi buyurmuşdu. O, həmçinin «xasseyi-şərifə» sərkarının ixtiyarında olan beş yüz tümən dəyərində yüksək keyfiyyətli tiryəki haram olduğu üçün axar suya atdırmışdı" (30).

"Təkmilətül-əxbar" əsərində də Şah Təhmasibin tövbəsinin onun etiqadının formalaşmasındakı təsirinə xüsusi dəyər verilmişdir. Bu əsərin müəllifi Əbdi bəy Şirazi yazırdı: " Onun tövbəsi və peşman olmamasıdır. Onun qəti tövbə etməsinə nail olmasından 40 il keçsə də, [tövbəni] qoruyub saxlamaq onun mübarək təbiətində və səliqəsində iz qoymuşdur. Bu [tövbə barədə hər hansı bir nöqsana yol verildiyini təsəvvür etmək belə mümkün deyildir. Onun tövbəsinin bərəkətindən Günəş dünyaya işıq saçdığı kimi, hamı padşahın göstərdiyi yolu qəbul edib. Buna görə bütün xalq onun ədalətli rəhbərliyi altında rahat yaşayır. Onun zamanında o hansı bədbəxtdir ki, fitnə törətsin, lakin layiqincə cəzalandırılmasın və bu (cəza) onun canında qiyamətə qədər qalmasın" (31).

Ümumiyyətlə, Şah Təhmasibin etiqadı haqqında daha ətraflı təsəvvür əldə etmək baxımından "Təkmilətül-əxbar" əsərində maraqlı fikirlər vardır. Bu əsərin müəllifi də Şah Təhmasibin dərin etiqad sahibi olmasını məmnuniyyətlə təqdir edir və onun belə təmiz dini-mənəvi keyfiyyətə malik olmasını yüksək qiymətləndirirdi. Əbdi bəy Şirazi Şah Təhmasibin dərin və saf etiqadını belə xarakterizə edirdi:

"Birincisi-Nəsili yüksək Musəvi, Hüseyni, Fatimi və Ələvi ağalarından olduğu üçün hakimiyyətə miras olaraq çatmışdır.

İkincisi – Anadangəlmə şiədir. Hakimiyyətdən hakimiyyətə yüksək rütbəli 12-ci imam Əbilqasim Məhəmməd ibn əl-Həsən

Sahibəzzamana-ata-babasına daima Allahın salamı olsun-çox bağlı və yaxındır.

Üçüncüsü odur ki, vilayət, hidayət və irşad ailəsindəndir. «Xəbəriniz olsun ki, Allahın tərəfdarları üçün əsla qorxu yoxdur. Onlar məhzun da olmazlar (ayəsinə) əsasən ümid etmək olar ki, şərəfli olan Allah onu hər şeydən mühafizə edər, öz əmanəti kimi qoruyar" [Yunis surəsi, 62-ci ayə]. Kədər tozu müqəddəs ürəyinin güzgüsünün üstünə oturmasın.

Allaha məlumdur ki, (O,) əksər vaxtlarını əcdadlarının, xüsusilə millət və dinin başçısı, övliyalar sultanı həzrəti Şeyx Musa və pak insanların qütbü, haqqın, həqiqətin və dinin nəsib şeyxi həzrəti Səfiəddin İshaqın bütün xarüqüladə adət və kəramətlərini cəm etməyə sərf etdi. Onların heç onda birinin onda birini yaza bilmədi. Həzrəti (Şah Təhmasibin) - hakimiyyəti və sultanlığı əbədi olsun-həddən kəramətli və xarüqüladə adətləri vardır və hamıya məlumdur. Həzrəti Şeyx Səfiəddinin kəramətləri, keyfiyyət və söhbətləri barədə əsərlər yazmışlar və hamıya çatdırılmışdır. Müxalif və müvafiq (olanlar) onu qəbul etmiş və heç kimin şübhəsi yoxdur.

Dördüncü- Elminin mərtəbəsidir. Ağlabatan, söylənilmiş yəqin dini [elmlərdə] o həzrət əvəzsizdir. Xüsusilə təfsir, hədis, kəlam və fiqhdən bir məclisdə söhbət düşdükdə, əgər bir nəfər əlinə qələm və kağız götürüb, o həzrətin xatirində olanlardan söylədiklərini yazsa, ayə, hədis, şahbeyt və dərin mənalardan ibarət həqiqi və dəqiq bir kitabça olar. Fəsahət və bəlağət sahibləri, alimlər və filosoflar ona heyran qalarlar.

Beşincisi - haram şeylərdən çəkinən və pəhrizkardır. Səltənət və qüdrəti sayəsində dünyada hasil olan ləzzətli şeylərdən ürəyi hər nə istəsə, həddən artıq varıdır. Öz zəmanəsinin haram şeylərdən çəkinən və mömin adamlarındandır".

Mənbə müəllifi Əbdi bəy Şirazi burada Şah Təhmasibin etiqadının bir sıra konkret əlamətlərini sadalamışdır. Onun qeyd etdiyinə görə, Şah Təhmasib ilk növbədə imamlara bağlı olan, başqa sözlə etiqadı imamların etiqadı ilə müəyyənləşən birisi idi. O həm də Allahın tərəfdar kimi, bütün fəaliyyətində Allahın

iradəsinə tapınan bir şah kimi xarakterizə olunurdu. Şah Təhmasibin şiəliyi xüsusi ilə qabardılırdı. Mənbə müəllifinə görə, Şah Təhmasibin etiqadını tamamlayan başqa cəhətlərindən biri də onun ulu babası Şeyx Səfiəddinə bağlılığı idi. Məlumdur ki, Şeyx Səfiəddin istər dövrünün, istərsə də sonrakı dövrlərin böyük islam fazil və ariflərindən biri idi. Şah Təhmasibin öz ulu babasına bağlılığı həm də onun islami biliklərə meyli, bağlılığı mənasında diqqətə çatdırılırdı. Sonra da mənbə müəllifi qeyd edirdi ki, Şah Təhmasib elminin mərtəbəsidir, dini elmlərdə böyük bir zirvə idi. Bunun nəticəsi kimi, Şah Təhmasib Quran təfsirində, hədislərin, kəlamların, fiqhin dəyərləndirilməsində dərin biliyini göstərirdi. Bu cəhətləri ilə o, məclisdəkilərdən, eləcə də ətrafındakılardan fərqlənərdi, alimlər və filosoflar da onun biliyinə heyran qalardılar. Nəhayət, Şah Təhmasib həm də halal və mömin bir insan idi. Haram şeylərdən çəkinməsi onun müasirləri tərəfindən də təqdirlə qarşılanan xarakterik cəhətlərindən biri idi. Dünya nemətlərinə sahib olsa da, o, halal tikə ilə kifayətlənməyi bacarırdı.

Hallalıq və möminlik Şah Təhmasibin övladlarının tərbiyəsinin də əsasını təşkil edirdi. Məlumdur ki, kiçik yaşlarından şah övladlarına lələlər təyin edilirdi və həmin lələlərin vəzifələrindən biri də şahzadələrin dini tərbiyəsinin aparılması idi. Belə bir tələb eyni zamanda qızılbaş əmirlərinin də qarşısında qoyulurdu.

Şah Təhmasib etiqadında din təəssübkeşi kimi tanınırdı və bu baxımdan onun dini etiqadı daha tamamlanmış bir keyfiyyət kimi mənbələrdə elmi-tarixi ədəbiyyatda da layiqincə dəyərləndirilmişdir. O, davamlı olaraq həftənin üç günü 12 imama ehsan verirdi, mövcud olan məlumatlara görə, bu ehsanlar həftənin 1-ci, 2-ci və cümə günləri (Avropa təqviminə uyğun olaraq) həyata keçirilirdi. Ehsan zamanı 12 mən qənd, 40 mən bal, 200 kəllə qənd, 12 baş qoç, 2 min dinar pul paylanırdı (32). Bu məqam bir tərəfdən onun imamlara dərindən bağlılığını göstərirdisə, bir tərəfdən də onun kifayət qədər səxavətli bir insan olmasını nümayiş etdirirdi.

Bəzi avropalı səyyahlar və müşahidəçilər də Şah Təhmasibin dərin din təəssübkeşi olmasını qeyd edirdilər. Doğrudur onlar bu

zaman ifratlığa da yol verirdilər. Bununla belə, onların verdiyi məlumatlar da Şah Təhmasibin etiqad bağlılığının müəyyən cəhətlərinə işıq salmaq baxımından maraq kəsb edə bilər. Məsələn, ingilis hərbçisi və tarixçisi Ser Con Melkom ingilis kraliçası Elizabetnın elçisi olan Cenkinsonun Səfəvi sarayında qarşılanması zamanı Şah Təhmasib tərəfindən ifrat dini təəssübkeşlik göstərilməsini təsvir etmişdir. Tarixçinin verdiyi məlumata görə, ingilis kralıçası dövlətinin Səfəvi dövləti ilə ticarət əlaqələri qurmasının tərəfdarı idi və bu məsələnin həll edilməsi məqsədilə Şah Təhmasibə məktub yazmışdı. Həmin məktub Cenkinsona verildi ki, onu Şah Təhmasibə çatdırsın. Verilən məlumata görə, Şah Təhmasib ingilis elçisini saraya buraxmazdan əvvəl ona bir cüt ayaqqabı göndərdi ki, onu geyinsin. Məqsəd də bu imiş ki, xristian səyyahın ayağı müsəlman sarayının torpaına toxunmasın və bu torpağı mundarlamasın. Guya elçi hüzura yetəndən sonra Şah Təhmasib onun nə məqsədlə gəlməsini soruşmazdan əvvəl onun kafir və ya müsəlman olmasını soruşdu. Elçi də cavab verir ki, nə müsəlmanam, nə də kafir, isəviyəm. Məlumata görə, elçi geri qayıdanda da qızılbaş əyanlarından biri onu saraydan çıxana kimi müşayiət etdi ki, ayağının torpaqları saray həndəvərinə tökülməsin. Tədqiqatçılar bu faktın doğru olacağı halda belə Şah Təhmasibi ifrat müsəlmançılıqda təqsirləndirmirlər. Belə bir fikir irəli sürülür ki, Şah Təhmasib nə qədər məzhəb təəssübkeşi olsa da, qeyd olunan dərəcədə ifrata varmazdı. İngilis elçisinə qarşı göstərilən münasibətin isə Osmanlı dövləti ilə qurulan yeni münasibətlərdən irəli gəldiyi bildirilirdi. Güman edilirdi ki, bu yolla Şah Təhmasib Osmanlı dövlətinə rəğbətli olmayan dövlətə qarşı özünün də rəğbətli olmadığını və bununla Osmanlı dövləti ilə xoş münasibətləri saxlamağa çalışdığını göstərmək istəyirmiş (33).

Venesiyalı səyyah Mikele Membrenin xatirələrində də Şah Təhmasibin dini etiqadından irəli gələn bəzi keyfiyyətlərinin təsviri ilə qarşılaşmaq mümkündür. Bu səyyah isə Şah Təhmasibi dini etiqadının saflığına görə insanlar tərəfindən hətta müqəddəsləşdirilməsi barəsində bəzi fikirlər söyləmişdir. Mikele Membrenin xatirələrində, ümumən, Şah Təhmasibin həyatı ilə bağlı

bəzi başqa maraqlı məqamlarla da qarşılaşmaq mümkündür. O yazırdı: “Şah başına çalmadan papaq qoyur. Bu papaq başdan ayağa parça ilə sarınmışdır. Beləliklə, bu çalmanı hədiyyə kimi alanların hamısı onu 3 və ya 4 gün belə qoyur, sonra isə onu başqa cür bağlayırlar. Onlar bu cür bağlama üsulunu “Şah dəsturu” adlandırırlar. Üskü seyidləri, eləcə də Qazi Cahan, şahın qardaşları ilə qorçular başlarına şahın qoyduğu tacdan qoyurlar. Şahın özü verməyincə, onlardan heç kim məxmər tac, qızıl kəmər, qızıl mehtərə, başlarında lələklər, qızıl qınlı qılınc gəzdirə bilməzdilər. Şah həmişə bütün bu şeyləri buna layiq olana bağışlayır. O vaxt mən Anadoludan olan bir türkün şahın sarayına gəlib, onun yüksək qiymətə verməyə vərdiş elədiyi çalmalarından birini istədiyini gördüm. Bu gizlicə baş vermişdi. Bunu ona görə bildim ki, Anadoludan, Adanadan olan bir nəfər evində qaldığım Şahqulu Xəlifənin yanına gəlib, ona hədiyyə kimi bir kisə gözəl qurudulmuş əncir gətirərək, ondan şahla onun baş örtüklərindən bir parça ona verməsi barədə danışmağı xahiş etmişdi və o, şaha hədiyyə kimi at verməli idi. Beləliklə, bu Şahqulu Xəlifə çətinliklə olsa da, o parçanı əldə edə bildi və atı şaha verdi. Türk o parçanı gördükdə, əllərini göyə qaldırıb Allaha şükür etdi və başını yerə əyərək “şah, şah” deyə çox sevindi. O, deyilən parçanı götürüb, yola düşdü. Mən bu parçanın nəyə faydası olduğunu ondan soruşduqda, o, bunun təbərrük, yəni şəfaverici əşya olduğunu söylədi. Evində xəstə atası olan bu şəxs şahı yuxuda görmüş və atasının şad və yaxşı olması üçün bu parçanı arzulamışdı. Hər il çoxlu belə adamlar gəlir, lakin saray adamlarından başqa heç kəs bilmədən gizlicə gedirlər. Mən Xorasandan olan digər bir kişinin gəlib, şahın geydiyi ayaqqabılardan birini israrla xahiş etdiyini gördüm. Bu məqsədlə o, Şahqulu Xəlifənin yanına gəlmişdi. Beləliklə, o, ayaqqabını əldə etmək üçün bir ay burada qaldı və mənim yanımda bunu pambığın arasına qoyaraq, yüz dəfə öpdü, gözlərinə toxundurdu və çox xoşbəxt oldu. Sonra Əlahəzrət (Şahqulu Xəlifə) mənə dedi ki, şahın ayaqqabısını ona pərəstiş edən türkmanlara göstərməklə o, yaşayış üçün pul qazanır: o, xəstələrə rast gəldikdə, onlar bunu görmək istəyir və ona pul ve-

rirlər. Beləliklə, xorasanlı kişi ayaqqabını götürüb yola düşdü. Qara Xəlifənin böyük oğlu xəstə olduğu zaman, şahid olduğum kimi, o, şahın əllərini yuduğu sudan bir qədər götürmək üçün saraya xahişə yollandı. Onun əlləri yuyulduqdan sonra yerdə qalan suyu bizim kimi tullamırlar, saxlayırlar. Beləliklə, onlar ona gümüşü mehtərədə bir qədər sudan verdilər və o, sağlamlıq üçün onu içdi. Onların dediyinə görə, bu su müqəddəsdir. Onlar deyilən suyu yalnız adlı-sanlı adamlara verirlər.

Sufilər and içmək istədikdə "Şah başı" deyirlər və biri o birinə təşəkkür etmək istədikdə "Şah muradın versin" deyirlər. Onlar ata mindikdə. "Şah" deyir, atdan endikdə "En şah" deyirlər. Beləliklə, bu yerlərdə "şah"dan başqa heç nə eşidilmir. Onlar Əlinin 900 il əvvəl öldüyünə baxmayaraq Təhmasibin Əlinin oğlu olduğunu deyirlər. Şaha öz təşəkkürünü bildirmək istəyən bütün əyanlar onun hüzurunda və yoxluğunda başlarını yerə əyir və "Şah, Murtuza Əli" deyirlər.

Mən onların toylarında çox olmuşam. Toy zamanı onların toplaşarkən etdikləri birinci şey odur ki, onlar otağın bu başından o biri başınadək gözəl xalçaların üzərində sıra ilə əyləşirlər və Allahı, sonra isə Şah Təhmasibi mədh edirlər. Birinci xəlifə başlayır. Beləliklə, hamı "La ilah illa Allah" oxuyur və onlar təkcə bu ibarəni bir saat təkrar edirlər. Sonra onlar Şah İsmayıl və Təhmasibin qoşduqları və xətayi adlanan, şahı mədh edən bəzi mahnıları oxumağa başlayırlar. Bu, bitdikdən sonra əlində qaval tutmuş bir nəfər ortada iştirak edənlərin hamısının adlarını bir-bir ucadan sadalayır və adları çəkilən adamlar "Şah baş", yəni şah-başdır deyib, o adama hər biri öz ədəb-ərkanı nə dərəcədə göstərmək istəməsindədn asılı olaraq pul verirlər. Bu da bitdikdən sonra əlində möhkəm ağac dəyənək tutan xəlifə başdan ayağa başlayır: onlar şaha olan sevgi əlaməti olaraq bir-biri otağın ortasına yaxınlaşıb yerə uzanırlar və xəlifə onların belinə güclü zərbə endirir. Sonra xəlifə zərbə endirdiyinin başından və ayaqlarından öpür. Sonra onun özü ayağa qalxıb, dəyənəyi öpür və hamı bir-bir onun kimi edir. Orada olduğuma görə mənim də növbəm çatdı və mahud şalvarlı bir yaramaz mənə elə zərbə vur-

du ki, bu zərbənin yeri indi də ağrayır. Onlar bunu şahın əmrinə əsasən edirlər. Qorçulardan heç biri onun icazəsi olmadan evlənə bilməz. Toyun qaydalarını şahın özü müəyyənləşdirir. Deyilənə görə, bu zərbə onların əlif, bə, tə, sə ... adlanan əlifbalarındakı birinci hərbi ifadə edir. Bu da bitdikdən sonra onlar tənbur və başqa alətləri səsləndirməyə başlayırlar. ...May ayında onlar Yəzid adlandırılan birisilə döyüşdə başı kəsilmiş Əlinin oğlu İmam Hüseynin qətlini yad edirlər. Bu şəhidliyə görə onlar 10 gün matəm saxlayırlar və bunun üçün onların hamısı qara geyinir: qara çalma qoyur və qara geyim geyirlər. Bu 10 gün ərzində Şah saraydan bayıra çıxmır. Axşamdan saat 1-dək kəfənə bürünmüş dəstələr şəhəri və məscidləri dolaşır, farsca İmam Hüseynin şəhidliyini tərənnüm edərək oxuyurlar. Onlar bunu Aşura adlandırırlar. Bu, mayın 1-dən 10-a qədər davam edir" (34).

Bu xatirələrdə və eləcə də onun davamında şah sarayında keçirilən mərasimlərdə, habelə toy məclislərində musiqinin istifadə edilməsini görmək mümkündür. Baxmayaraq ki, Şah Təhmasib tərəfindən musiqinin istifadəsinə qadağa qoyulmuşdu, bununla belə tədqiqatlar göstərir ki, konkret olaraq musiqi haqqında qadağanın yumşaldılması cəhdləri də mövcud olmuşdu. Xüsusi ilə dini işlərə rəhbərlik edən müctəhidlərlə, bəzi din alimləri arasında bu barədə müəyyən fikir fərqliliyinin olması ilə də qarşılaşmaq mümkündür. Musiqi haqqında qadağaların yumşaldılmasına çalışan din alimləri bu məsələdə əhalinin musiqiyə olan münasibətinə əsaslanmağa çalışırdılar. Çünki məlum idi ki, əhali arasında musiqiyə bir bağlılıq da var idi və musiqi alətlərinin yaradılması və istehsalı sahəsində ciddi bir təcrübə də mövcud idi. Şah Təhmasibin hakimiyyəti illərində musiqiyə liberal yanaşan və sarayda böyük nüfuza malik olan din alimlərindən biri **Mühəqqəq Kərəki və ya İkinci Mühəqqəq kimi tanınan Şeyx Əli ibn Hüseyn ibn Əbdüləali** (bəzi mənbə və elmi-tarixi ədəbiyyatda o sadəcə Əli ibn Əbdüləali kimi təqdim olunur)**, digəri isə Şeyx İbrahim Qətifi** kimi tanınan İbrahim ibn Süleyman ibn Bəhreyni idi. Mühəqqəq Kərəki əslən Livanın Cəbəl bölgəsindən idi və o belə bir mövqenin tərəfdarı idi ki, qadın məclislərində qadın

müğənnilər musiqi oxuya bilərdilər. Bir şərtlə ki, onların səsinin kişilər eşitməsin. Adları çəkilən din alimləri bütünlükdə musiqidən istifadəyə qarşı xüsusi bir ciddiliyə meyl etmirdilər. Görünür, elə bunun üçün idi ki, Şah Təhmasibin qadağasına baxmayaraq musiqi istifadəsində müəyyən sərbəstliklər özünü göstərməyə başlamışdı. Həmin sərbəstliklər saray daxilində də mövcud idi. Saray əmirləri və əyanları mümkün fürsətlərdən istifadə edərək saraydaxili məclis və mərasimlərdə musiqiyə də yer verməyə başlamışdılar. Hətta mənbələrdə belə bir məlumat da yer alıb ki, Şah Təhmasib ikinci oğlunun toy mərasimində musiqi sədası altında rəqs də etmişdi (35).

Amma səltənət idarəçiliyində nüfuzu olan din xadimlərinin heç də hamısı musiqinin işlədilməsinə liberal yanaşmırdılar və onlar Şah Təhmasibin məzhəb təəssübkeşliyindən istifadə etməklə ona təsir etməyə çalışırdılar. Əslində, bu təsirlər öz nəticəsini verdi və hicri qəməri tarixi ilə 963-cü ildə Şah Təhmasib səltənət daxilində musiqinin qadağan edilməsi ilə bağlı yeni bir fərman imzaladı. Həmin fərmanla səltənət əhalisinə yenidən çatdırıldı ki, nəinki musiqi, hətta musiqi alətlərinin düzəldilməsi də qadağandır (36). Bu fərmandan sonra səltənət daxilində musiqinin qadağan edilməsi ilə bağlı vəziyyət dəyişdi və bu sahədə daha ciddi bir durum meydana gəldi. Mövcud olan məlumatlara görə, yeni şəraitdə hətta sufi mərasimlərinin icrası zamanı da musiqi alətlərinin istifadəsinin aradan qaldırılmasına başlandı.

Venesiya səyyahı Mikele Membrenin xatirələrində Şah Təhmasibin dini etiqadı ilə bağlı maraqlı məlumatlardan biri də onun kəramətinin nəinki səltənət daxilində, hətta səltənət xaricində belə qəbul edilməsi ilə bağlı idi. Venesiya səyyahı eşitdiklərini deyil, gördüklərini və müşahidə etdiklərini, yəni real hadisələri təsvir edirdi. Belə ki, Şah Təhmasibin kəramət sahibi olması səltənət daxilində qəbul edilmiş bir reallıq idi. Doğrudur, bu məsələdə insanların fanatizmi heç də istisna deyildi. Bununla belə, Şah Təhmasibin kəraməti də kütləvi şəkildə qəbul edilirdi. İnsanlar şübhə etmirdilər ki, Şah Təhmasib yaradanın kəramət lütfünə layiq görülmüş seçilmişlərdən biridir və onun şəfaəti ilə

Allahın rizasını qazanmaq olar. Məlumdur ki, Şah Təhmasib kəramət sahibi olan bir nəslin davamçısı, habelə Səfəviyyə təriqətinin mürşidi idi. Yəni o, bir Allah adamı idi. Bu keyfiyyət ona sadəcə olaraq kəramət sahibi olan nəslindən keçməmişdi. Şah Təhmasib həm də bir sufi kimi, təriqət adamı kimi, təriqət yolçusu kimi kəramət haqqını qazana bilmişdi. Ətrafındakılar əmin idilər ki, Şah Təhmasiblə müqəddəslər arasında bir əlaqə də mövcuddur və bu əlaqə çox zaman yuxular vasitəsilə qurulurdu. Şübhə edilmirdi ki, həmin yuxular vasitəsilə Allah nuru öz təcəllisini tapır və o yuxuların məzmunu həm də Şah Təhmasibin fəaliyyətini istiqamətləndirirdi. Bu mənada yuxuların Şah Təhmasibin etiqadının kamilləşməsində və onun dini həyatında önəmli rolu vardır. Mövcud olan məlumatlardan məlumdur ki, həyatının bir çox mühüm qərarlarını Şah Təhmasib məhz gördüyü yuxular əsasında qəbul etmişdi. O da və onun kəramətinə inananlar da şübhə etmirdilər ki, Şah Təhmasibin yuxuları şübhə edilməyəcək bir reallıqdır və yuxuda Şah Təhmasibə çatdırılanlar müqəddəslərin iradəsidir (37).

Şah Təhmasibin müqəddəslərlə bağlı gördüyü yuxularla bağlı müxtəlif mənbələrdə müəyyən məlumatlar vardır. Lakin bu barədə daha geniş məlumatlar Şah Təhmasibin təzkirəsində mövcuddur. Həmin yuxulardan biri haqqında yuxarıda məlumat verilmişdir. Şah Təhmasibin etiqadının və dini-mənəvi-əxlaqi sifətinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyəti olan tövbə məsələsi məhz Məşhəd yaxınlığında gördüyü yuxudan sonra həqiqətə çevrilmişdi. Şah Təhmasibi tövbə edilməsinə sövq edən qərarın qəbul edilməsini yuxuda ona müqəddəslər tərəfindən təlqin edildiyini bildirirdi və bu təlqinin müqəddəslərin iradəsini əks etdirdiyinə də şübhə etmirdi.

"Təkmilətül-əxbar" əsərində Şah Təhmasibin gördüyü yuxulardan biri haqqında belə bir məlumat vardır: "Pak olan imamların sonuncusu, aləmlərin tərbiyə verəni, Allahın dəlili, əsrin, zəmanənin ağası, əla-həzrət Əbülqasim Məhəmməd ibn əl-Həsən əl-Mehdi-Allahın yer üzərindəki xəlifəsi ona və ata-babasına hər bir zaman və hər bir anda Allahın xeyir-duası və salamı olsun -

iltifatının nurundan pakizə xasiyyətli şahın əhvalının meydanına düşdü və öz mübarək üzünü yuxuda o həzrətə (Şah Təhmasibə) göstərdi. Onların arasında başqa bir mənzumədə müfəssəl şərhini tapacaq söhbət oldu. Sabahısı köməklik göstərən Allahın kölgəsi olan şah-Allah onun mülkünü və səltənətini əbədi etsin - məxluqat üçün onun xeyirxahlığını, ədalətini və ehsanını bol etsin - ölkənin tamğa [vergisini] (hər cür qayda və qanunla olursa-olsun) bağışladı. Ali əmrə əsasən onun (tamğanın) alınmasından vaz keçdilər. Bu [tamğa] təxmini hesabla 30 min tüməndən artıq idi. Onun cavabını on dörd məsumə bağışladı. Allah onu cənabından pak olan imamların hörmətinə qəbul etsin" (38).

Yuxuda müqəddəslər ilə olan söhbətə ehtiram kimi Şah Təhmasib səltənət əhalisinə çox böyük məbləğlə ölçülən tamğa vergisini bağışladı. Yəni yuxuda müqəddəslərdən alınan tövsiyələri və təlqinləri Şah Təhmasib ilk növbədə insanların həyatının və güzəranının qurulmasına, səltənət daxilində əmin-amanlığın möhkəmlənməsinə yönəldirdi. Yuxarıdakı məlumatdan göründüyü kimi, müqəddəs yuxular Şah Təhmasibin mənəvi keyfiyyətlərinin formalaşmasına, səxavətliliyinin kamilləşməsinə də müsbət təsir göstərirdi. Mürşidi-kamil kimi Şah Təhmasib Allah rizasının qazanması üçün xəzinəyə daxil ola biləcək çox böyük məbləğdən imtina etməyi də qəbul edə biləcək bir hökmdar idi.

Şah Təhmasib yuxuda gördüyü müqəddəslərin buyurduqlarının doğruluğuna inanırdı və bunu o öz təzkirəsində də etiraf edirdi. "Bu zəif bəndə Təhmasib əl-Səfəvi əl-Musəvi əl-Hüseyninin etiqadı budur ki, hər kəs həzrət Əmirəlmöminin [Əlini] – ona Allahın salamı olsun – yuxuda görsə, o nə desə, elə də olacaqdır. Buna şəkk-şübhə yoxdur" (39).

O da məlumdur ki, daha çox səltənət həyatının məsuliyyətli günlərində Şah Təhmasib müqəddəsləri öz yuxusunda görürdü, onlardan məsləhət və ya tövsiyələr alırdı. Məsələn, Şah Təhmasibin təzkirəsində təsvir olunan yuxulardan biri Səfəvi şahının Xorasanda özbək qoşunlarının hücumunun qarşısını almağa çalışdığı günlərdə olmuşdu. Şah Təhmasib yazırdı: "Məzkur zülhəccə ayının 14-də (18-VII-1532) Heratdan üç mənzil aralan-

mışdıq ki, qızdırdım, neçə gün xəstə oldum. Gecə yuxuda gördüm ki, Əmirəlmöminin [Əli] – ona salam olsun – o zaman bizim mənzil etdiyimiz dövlətxana olan Zeynal xanın evində oturubdur. O həzrətin başının arxasında təxminən 25 yaşlı qarasaqqal bir gənc oğlan dayanmışdı. Mən o həzrətin qarşısına gedərək xidmət və itaət üçün torpağı öpdüm, diz çöküb soruşdum:

-Ya həzrət, qurbanın olum, mən çayın o tərəfinə gedirəm, görəsən mənimlə özbək camaatı arasında müharibə olacaq yay yox?

Həzrət Əmirəlmöminin [Əli] – ona salam olsun – buyurdu ki, ey Təhmasib, sənin hansı işin müharibə vasitəsilə düzəlmişdir ki, bu işin də düzələ.

Mən yenə ondan soruşdum ki, qurbanın olum, buyur görək, bizim halımız çayın o tərəfində necə olacaqdır? Cavabında buyurdu:

-Suyun o tərəfində bir şey yoxdur, hər nə varsa, bu tərəfindədir.

Mən bu sualı üç dəfə təkrar soruşdum, həmin cavabı verdi. Bundan sonra həzrət Əli – ona salam olsun – məni qabağına çağırıb buyurdu ki, sənə üç şey tapşırıram. Nəzir elə ki, mətləbinə çatasan.

1. Əlqəmi çayını unutma, onu əldən vermə.

2. Səmərqəndi fəth etdikdən sonra [qəbrimin] günbəzini sən, yaxud sənin övladın səkkizinci imam Rzanın – ona salam olsun - [məqbərəsinin] günbəzi kimi düzəldərsiniz.

3. Buyurdu ki, həzrət şah atamın pərvançəsi Fəthi bəyi bizdən olduğuna görə [İmam Rzanın] məqbərəsinin mütəvəllisi təyin edim.

Səhərisi yuxudan xoş əhvalla ayıldım. Səhər namazından sonra onu Fəthi bəyi və yaxın adamları toplayıb yuxunu danışdım və dedim:

-Çayın o tərəfindən bizimlə özbəklər [arasında] müharibə olacaqdır” (40).

Osmanlı qoşunlarının Azərbaycan üzərinə hücumunun yaratdığı ağır günlərdə Şah Təhmasib öz yuxusunda həm Əmirəlmöminin Əlini, həm də öz ulu əcdadı Şeyx Səfiəddini yuxuda gör-

müşdü və onların da kəraməti Şah Təhmasibə həmin ağır vəziyyətdən çıxmaq üçün bir ümid yolu göstərmişdi. Hadisələrin sonrakı inkişafı da göstərdi ki, doğrudan da bu yuxudan sonra Şah Təhmasibin ümidində olduğu dəyişikliklər baş verdi (41). Konkret olaraq bu yuxular həm də onu göstərirdi ki, Şah Təhmasib əcdadlarının müqəddəsliyinə və kəramətinə də şübhə etmirdi.

1554-cü ildə Naxçıvanda olarkən gördüyü yuxunu Şah Təhmasib öz təzkirəsində belə təsvir edirdi: "Başqa bir dəfə 961-ci ilin səfər ayının 18-i gecəsi (23-VI-1554) Naxçıvanda yuxuda gördüm ki, qiblə səmtində ikindi çağı (axşam gün batmamış) Günəşin olduğu yerdə bir xətt göründü ki, göyün üzəri İbrani xətt ilə yazılmışdı. Xəttin rəngi göyün rəngində idi. Amma göyün açıq çəhrayı hissəsində elə bil tündvari rəngli firəngi kağız üzərində yazılmış təmğayi xətt daha şəffaf idi. Özü də mehrab şəklindəydi. Onun eni 2 zər yarım [1 zər = 104 sm], uzunu 3 zər yarım olardı. O yazını oxudum, bu ayə yazılmışdı: Allah sənə bəsdir, o bilən və eşidəndir" [Bəqərə surəsi, 137-ci ayə].

O xətti gördükdə titrədim və həyəcanlandım. Gördüm ki, o xətt su kimi dalğalanır. Xəttin dövrəsində olan göyün bir parçası qərb tərəfi lərzəyə gətirdi. Az qalırdı ki, gör parçalansın. Mənə elə gəlirdi ki, xətt və mehrab lərzəyə gəlir. Sanki göydən bir qapı açıldı. Mən iztirablardan yuxuda görürəm ki, elə bil yuxudan ayılmışam və özümü Xoy yaylağında görürəm. Van tərəfdən böyük bir tufan yaxınlaşır və camaat deyir:

-Rum camaatı (qoşunu) üstünüzə gəlir.

Məni fikir götürmüşdü ki, əgər o tufan dünyaya (yer üzünə) gəlib çatsa, bizim çadırlarımızı dağıdacaqdır. Mən hərəmxananın keşikçiləri olan qorçulara və hərəmxananın yüzbaşısı İyqut ağaya deyirəm ki, Pərixan xanım və Sultan İbrahim mirzəni götürüb qaçın. Biz atlara minib irəli gedirik. Görürəm ki, tufan yavaş-yavaş irəli, biz düşərgə etdiyimiz çəmənə tərəf gəlir. [Ancaq] ordunun kənarına çatmamış yox oldu. Torpaq və toz bizə əsla toxunmadan birdəfəlik yox oldu. Toz-torpağın dalınca hamısı qoyun kimi quyruqlu çoxlu dağ öküzü və qoç göründü. Əmirlərə deyirəm:

-Qoşundan hər kim istəyir ov etsin, arxalarınca gedə bilərlər. Onlar gedirlər. Mən bir dağ öküzü və bir qoç vurub gətirirəm. Deyirəm ki, mənim atım xamdır, qabağa getmirəm. Sultan İbrahim Mirzəyə və o biri uşaqlara deyirəm ki, əmirlər gələnə qədər siz bunları kabab edin.

Mən çadırda otururam. Bundan sonra hər gələn, onlardan 30-40 [ədəd] tutub gətirir.

Ondan sonra yuxuda görürəm ki, ayılmışam, amma yenə də yuxudayam və görürəm ki, bacım dördkünc ayaqaltının hər küncünə döşək salıb. Hər küncdə çox gözəl ucaboy bir qadın oturub və özlərinə əsla bəzək vurmamışlar. Ancaq o qədər gözəldirlər ki, insanlar arasında o cür gözəl az olar. Ondan (bacımdan) soruşuram ki, bunlar kimdir? Deyir:

-Bunları Gürcüstandan sənin üçün gətiriblər. Biri vəzirin bizim evimizdə olan bacısıdır. Başqa üç qızı indi gətiriblər. Mən dedim:

-Vəzirin bacısı belə surətdə [gözəl] deyildi, haradan belə [gözəl] oldu.

Dedi:

-İndi belə [gözəl] oldu.

Bu vaxt həqiqətən yuxudan ayıldım, özümü o həyətdə və “fəsəyəkikəhəmullah” ayəsini oxuyan gördüm. Yenidən yuxuya getdim, əvvəl gördüyüm yuxunu olduğu kimi gördüm və “fəsəyəkikəhəmullah” ayəsini oxudum. Birdən xatirimə gəldi və heyrət etdim ki, axı [bu] ayə “düşməndən qorunmaq” üçündür. Onu müşahidə etməkdən (mənə) bu qədər iztirab və həyəcan nə üçün üz verir? [Sonra] yadıma düşdü ki, böyük olan Allahın nurunun parlanması və gözümə görünməsi məni həyəcanlandırmışdır.

Yuxuda görürəm ki, hekayət və əxbarda olduğu kimi həzrət Musa Kəlimullaha – bütün peyğəmbərlərə və ona salam olsun – Sina dağında bu nur parlayıb zahir olmuş və peyğəmbərlərin sonuncusu [Məhəmmədə] – ona və ailəsinə salam olsun – merac gecəsində pərdə arxasında dünyanın Allahı ilə danışarkən şəni uca olan Allahın vahiməsi o həzrətə təsir etmişdi. Yəqin ki, gördü-

yüm möcüzənin təsiri məni dəhşətə salmışdı. Beləliklə, bir ayə dilimdə cari oldu. Mən güman edirəm ki, Həzrət Xandigar biz tərəfə yola düşdü, belə də oldu" (42).

Tədqiqatçıların apardığı araşdırmalara görə, mənbələrdə Şah Təhmasibin müqəddəslərlə bağlı gördüyü yuxu haqqında məlumatlar öz əksini tapmışdır. Bu yuxulardan üçündə Şah Təhmasibə Allah nuru ayan olmuşdu. O, üç dəfə yuxuda Həzrət Əlini, iki dəfə qeybə çıxmış sonuncu imamı, iki dəfə müqəddəslərdən birini, bir dəfə Şeyx Səfiəddini, bir dəfə Şeyx Şəhabəddini, bir dəfə nurani bir adamı, bir dəfə Mədinə pişnamazı Mir Seyid Məhəmmədi görmüşdü. Onlardan bəyan olan təkliflər, buyuruqlar Şah Təhmasib tərəfindən qəbul edilmişdi (43).

Şah Təhmasibin müqəddəslərə bağlılığı onların adı ilə bağlı olan məkanların vaxtaşırı ziyarətində də özünü göstərirdi. Atası Şah İsmayıl kimi ona da Həcc ziyarətində olmaq qismət olmamışdı. Amma Şah Təhmasib ərəb İraqında olan imam məzarlarının ziyarətinin arzusunda olmuşdu. Lakin həmin məkanın Osmanlı nəzarəti altına keçməsi Şah Təhmasibin orada yerləşən müqəddəs məkanları ziyarət etməsini də çətinləşdirdi. Xüsusilə İmam Musa əl-Kazımın məzarının ziyarəti Səfəvi şahları üçün xüsusi bir önəm kəsb edirdi. Çünki səfəvilərin soy kökü mənbələrdə bir qayda olaraq Musa əl-Kazıma bağlanılırdı. İmam Musa əl-Kazımın məzarını ziyarət etmək qismət olmasa da, Şah Təhmasib onun oğlu İmam Rzanın məzarını dörd dəfə ziyarət etmişdi. Onun bu ziyarətləri bir qayda olaraq, əzəmətli bir dini mərasimə çevilirdi və bu ziyarətlər ona böyük bir mənəvi güc verirdi. Özbək qoşunları üzərində əldə edilmiş uğurlara şükranlıq əlaməti olaraq Şah Təhmasib İmam Rza ziyarətgahının günbəzinin və bu günbəz üzərindəki milin qızıldan düzəldilməsi üçüş 80 mən qızıl ayırmışdı. Şah Təhmasib həm də Həzrət Əbdüləzim Həsəninin Reydə yerləşən məzarını ziyarət etmişdi (44). Ziyarət etdiyi və edə bilmədiyi müqəddəslərin ruhuna ehsanlar verməsi, bunun üçün böyük maliyyə vəsaitləri xərcləməsi haqqında da mənbələrdə məlumatlar qalmaqdadır. Şah Təhmasib bunu bir etiqad sahibi kimi özünün borcu və vəzifəsi sayırdı.

## 2. Din-dövlət münasibətləri

Şah Təhmasibin hakimiyyəti dövrünün qabarıq xüsusiyyətlərindən biri dinin dövlət həyatında, insanların yaşayışında və şəxsi ictimai-siyasi-mənəvi keyfiyyətlərinin formalaşmasında xüsusi bir yerə malik olması idi. Şah İsmayıl Səfəvi dövlətinin bərqərar edilməsi ilə şiə məzhəbini yeni dövlətin rəsmi məzhəbi elan etmişdisə, Şah Təhmasib hakimiyyəti illərində bu məzhəbin dayaqlarını daha da möhkəmləndirdi, onu qeyd edildiyi kimi, sistemləşdirdi, səltənət daxilindəki yerini yeni bir səviyyəyə qaldırdı. Şah Təhmasibin hakimiyyəti illərində təriqətin özünün də yerinin şiəliyə verməsi, təriqət dəyərlərinin getdikcə şiəlik dəyərlərinə transformasiya olunmasını görmək mümkündür. Şah Təhmasib özü məzhəb etiqadında kifayət qədər ciddi olduğu kimi, səltənət həyatında da məzhəb dəyərləri kifayət qədər möhkəm bir yer tutmuşdu. Başqa sözlə tədqiqatçıların fikrincə, Şah Təhmasibin şəxsi nümunəsi səltənət daxilində də əməli təsirə malik oldu və onun seçdiyi etiqad yolu səltənət daxilində də izlənməyə başlandı. Yuxarıda qeyd olunanlardan da aydındır ki, Şah Təhmasib saray həyatı üçün ənənəvi olan bir çox adətlərdən əl çəkməsi səltənət daxilində də oxşar yanaşmanın güclənməsinə rəvac verdi (45).

Bəzi tədqiqatçıların fikrincə, qonşu dövlətlərin əhalisinin sünni məzhəbinə məxsus olması və həmin toplumlardan fərqli olan ictimai-dini keyfiyyətlərin əldə edilməsi istəyi Səfəvi dövləti daxilində şiəliyin güclənməsinə əlavə bir təkan verdi. Güman edilir ki, bununla dini-ictimai özəlliklər əldə edildi ki, Səfəvi dövləti arealında olan əhalinin qonşu dövlətlərin dini-ictimai özəlliklərinə transformasiyasının qarşısını aldı. Bununla da Səfəvi dövləti fərqli bir ictimai-siyasi-dini məzmun kəsb etdi və digər dövlətlərə qarşı təbii bir müqavimət durumu əldə edilmiş oldu (46).

Şiəliyin Səfəvi dövləti daxilində möhkəmlənməsi ilə bağlı müəyyən digər məqamlara da istinad etmək olar və belə məqamların mövcudluğu heç də istisna olunmamalıdır. Amma Şah Təhmasibə münasibətdə bu məqamın ifrata çatdırılması yəqin ki, ta-

mamilə doğru olmazdı. Şah Təhmasib məzhəb inanclarının səltənət daxilində möhkəmləndirilməsi üçün xüsusi meyl göstərirdi. Bu, onun şəxsi etiqadından, məzhəb inanclarından, malik olduğu biliklərindən irəli gəlirdi. O insanlarda məzhəb etiqadının qılınc gücünə deyil, şüurlu şəkildə yaradılmasının tərəfdarı idi. Şah Təhmasib şübhə etmirdi ki, hökmdarı olduğu səltənət hüdudlarındakı insanların məzhəb etiqadının güclü olması son nəhayətdə dövlətin də güclənməsinə gətirib çıxara bilər. Bu mənada dövlətin gücləndirilməsi yollarından birini də Şah Təhmasib həmin dövlətin dayağı olan qızılbaş tayfaları daxilində, eləcə də fəth olunmuş bölgələrdə məzhəb etiqadının şüurlu bir etiqada çevrilməsində görürdü. Lakin belə bir məqam da unudulmamalıdır ki, Şah Təhmasib bu məsələdə heç də ifratçılığa da varmaq yolunu tutmurdu və dövlətə sədaqətli olan digər məzhəblərə qarşı hörmətli bir mövqedə dayanırdı. Bəzi tədqiqatçılar belə iddia edirlər ki, Şah Təhmasibin hakimiyyət dövründə səltənət daxilində digər məzhəblərin təqibinə və səltənət ərazisindən təmizlənməsinə başlandı. Xüsusilə ona işarə edilir ki, rəsmi məzhəbi qəbul etməyən sünnilər daha çox təqibə məruz qaldılar və bu məzhəbin tərəfdarlarının həyatı sonralar müxtəlif şəkildə formalaşdı. Lakin bu fikrin tərəfdarları sünnilərin bütünlüklə aradan qaldırılmadığına və hətta onların müəyyən nümayəndərləinin müxtəlif vaxtlarda yüksək vəzifələrə təyin olunmalarına da işarə edirdilər. Sünni alimləri və müctəhidləri arasında elələri var idi ki, onlar Səfəvi sarayı ilə əməkdaşlığı davam etdirirdilər. Belələrinə qarşı Səfəvi sarayı tərəfindən liberal münasibət göstərilirdi. Bununla belə, bir daha qeyd edilməlidir ki, sünni ziyarətgahlarının sökülməsi və dağıdılması halları haqqında da bir sıra faktlar mənbələrdə öz əksini tapmışdır (47).

Elə tədqiqatçılar da var ki, Şah Təhmasibin hakimiyyəti illərində sünnilərə qarşı təqib və təzyiqin ümumiyyətlə olmamasını bəyan edirlər. Bildirilir ki, tarixi mənbələrdə də Şah Təhmasibin sünni məzhəbi tərəfdarlarının şiəliyi qəbul etməyə məcbur edilməsi ilə bağlı faktlara rast gəlmək çətindir. Amma sözsüz ki, Şah Təhmasib şiə məzhəbinin əhatə dairəsinin genişlənməsini təşviq

edirdi. Bu mənada Şah Təhmasib tərəfindən səltənət daxilində şiə fəqihlərinin və alimlərinin sayının daha çox artmasında maraqlı idi. Ona görə də dövrün bəzi sünni alimləri onlara qarşı diqqətin azaldığına görə bu məqamı sünni alimlərinə təzyiq kimi də dəyərləndirirdilər (48).

Şah Təhmasibin hakimiyyəti illərində din-dövlət münasibətlərinin başlıca xarakterik xüsusiyyəti şiə məzhəbinin dövlətin rəsmi məzhəbi olması ilə bağlı idi. Bu o demək idi ki, dövlət şiə məzhəbinə istinad etməklə və öz ideologiyasını da bu məzhəb üzərində qurmaqla bərabər, onun yayılmasında və möhkəmlənməsində maraqlı idi, şiə məzhəbinin yayılması və möhkəmlənməsi üçün lazımi şərait yaradılır və bunun üçün dövlətin imkanlarından da istifadə edilirdi. Şiə məzhəbinin simasında din Şah Təhmasib dövrünün çox ciddi dəyərlərindən birini təşkil etməklə, dövlətin və səltənətin bütün həyatına nüfuz etmişdi. Tarixi mənbələr də göstərirlər ki, Səfəvi dövlətinin əhatə etdiyi hüdudlarda heç vaxt Şah Təhmasibi dövründə olduğu kimi dindarlıq, haqq-ədalət və dövlətçilik belə güclü olmamışdı (49).

Bu mənada Şah Təhmasib atasından ona miras qalmış siyasəti yalnız davam etdirmədi, bu siyasəti daha da təkmilləşdirdi və şiəçiliyin yeni bir səviyyəyə qalxmasına və sistemləşməsinə yol açdı. Nəticədə istər səltənətin daxili həyatında, istərsə də onun beynəlxalq münasibətlərində şiəçilik kifayət qədər təsirli bir rol oynamağa başladı. Məlumdur ki, səltənət idarəçiliyində məzhəb dəyərləri güclü təsirə malik olduğu kimi, qonşu dövlətlərlə münasibətlərin müəyyənləşməsində də ciddi rol oynamış oldu. Belə ki, məzhəb fərqliliyinin aradan qaldırılması iddiaları istər Osmanlı dövləti ilə, istərsə də özbək hakimləri ilə münasibətlərin qurulmasında mühüm bir əsas kimi irəli sürülürdü. Şah Təhmasibin Osmanlı və özbək hakimləri ilə yazışmalarından da bəllidir ki, Səfəvi dövləti üzərinə hücumlar əsasən şiə məzhəbinin müsəlmanlar üçün qəbuledilməzliyi ilə bağlanılırdı. İlk baxışdan belə bir görüntü yaradılırdı ki, Səfəvi hüdudlarında fərqli məzhəb yayılmasaydı, bu dövlət üzərinə Osmanlı və özbək hücumları da olmazdı. Şah Təhmasibin belə iddialara necə cavab verməsi artıq

yuxarıda öz əksini tapmışdır. Səfəvi şahı öz yazışmalarında mənsub olduğu məzhəbin elmi-tarixi-dini köklərini əsaslandırmaqla birmənalı şəkildə bəyan edirdi ki, bu məzhəb Səfəvi dövlətinin rəsmi məzhəbidir və onun mövcudluğundan əl çəkilməyəcəkdir.

Məzhəb dəyərlərinin möhkəmlənməsində və səltənət həyatının bütün sahələrinə nüfuz etməsində Şah Təhmasib təkanverici və istiqamətverici rola malik idi. O, dinin dövlət həyatında rolunun artmasına hər şeydən əvvəl öz nümunəsi ilə istiqamət verirdi. Hələ cavan yaşlarında tövbə etməsi, dini normalara zidd olan əməllərdən çəkinməsi və bunu öz həyat normasına çevirməsi digərlərini də bu yolla getməyə sövq edirdi. Tövbədən irəli gələn tələblərin icrasına rəsmiyyət xarakteri verilməsi isə dini dəyərlərə daha ciddi şəkildə yanaşılması ilə müşayiət olunurdu. Səltənət idarəçiliyinin qurulması üçün Şah Təhmasibin hazırladığı ayinlər də, əslində, dini və dini-əxlaqi normalar üzərində qurulmuşdu. Bu da özlüyündə din-dövlət münasibətlərinin başqa bir istiqaməti idi.

Şah Təhmasibin hakimiyyəti illərində din-dövlət münasibətlərinin başqa bir xüsusiyyəti sufiliyin öz fəal mövqeyini itirməkdə olması və sufiliyin tədricən şiəliyə transformasiya olunması idi. Yuxarıda qeyd edildiyi kimi, bu proses, əslində, dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində təbii bir proses kimi özünü göstərməkdə idi. Sözsüz ki, sufilik bütünlüklə səltənət həyatından, eləcə də qonşu ölkələrin həyatından silinmədi, sufilik inancları aradan qalxmadı. Amma onun kütləviliyi xeyli məhdudlaşdı və onun əvəzində məzhəb inancları və etiqadı daha da gücləndi.

Məlumdur ki, Səfəvi təriqəti təkilatlanma baxımından digər sufi təriqətləri kimi mürşid-mürid münasibətləri üzərində qurulmuşdu. Sufilər arasında qurulan münasibətlər dövlət münasibətlərindən kənar idi və bu münasibətlərdə xəlifə sözü idarəedici bir təsirə malik idi. Xəlifələr Mürşidi-kamil tərəfindən yerlərə göndərilmiş nümayəndələr idilər. Onlar mürşidi-kamil adından yerlərdə təriqət tərbiyəsini aparırdılar və təriqət normalarına görə xəlifənin iradəsi müridlər tərəfindən birmənalı şəkildə qəbul

edilməli idi. Yəni, xəlifələr fəaliyyət göstərdikləri bölgələrdə sufilərin rəhbəri (rəisi) sayılırdı. Bütün xəlifələrin rəhbəri isə xüləfətül-xüləfa adlanırdı. Müridlər bir qayda olaraq fəal dünyəvi fəaliyyətdən kənara çəkilərək xəlifələrin rəhbərliyi altında fəaliyyət göstərir və onların göstərişləri ilə təsəvvüfün pillələri ilə irəliləyirdilər. Bu mənada xəlifələr müridlərin həyatında dünyəvi hakimlərdən daha təsirli rola malik idilər (50). Şah İsmayıl (İsmayıl Mirzə) öz hərəkatını başlayanda onun ətrafına təriqət münasibətləri çərçivəsində çoxlu tərəfdaş toplanmışdı. Şah İsmayılın hakimiyyəti illərində də təsəvvüf kifayət qədər təsirli olaraq qalmaqda idi, Şah İsmayıl özü də təriqət rəhbəri və mürşidi-kamil kimi təsəvvüf əhlini öz ətrafında birləşdirirdi. Lakin elə onun hakimiyyəti dövründən etibarən Səfəvi təriqətinin şiəliyə transformasiyasına başladı. Çünki, qeyd edildiyi kimi, səltənət idarəçiliyinin qurulması bunu tələb edirdi. Dövlət idarəçiliyinin möhkəmləndirilməsi də təsəvvüf münasibətlərinin zəifləməsini şərtləndirirdi. Yeni şəraitdə bütün səltənət daxilində idarəçiliyin mürşid-mürid və ya xəlifə-mürid münasibətləri üzərində qurulması dövlətçiliyin möhkəmləndirilməsi tələbləri ilə bir araya sığmırdı. Ona görə də Şah İsmayılın hakimiyyəti illərindən etibarən sufiliyin şiəliyə transformasiyası başlandı və Şah Təhmasibin hakimiyyəti illərində bu proses demək olar ki, tamamlandı. Məlumdur ki, Səfəvi təriqətinin mürşidi-kamilliyi də Şah Təhmasiblə başa çatdı.

Lakin bu proses tədrici baş verdi. Uzun müddət Şah Təhmasibin sarayında xəlifətül-xüləfa vəzifəsi qalmaqda idi. Hüseynqulu xan Rumlu kimi nüfuzlu bir adam da bu vəzifənin sahibi idi. Müəyyən mənalarda elə xəlifələrin özlərindən də dövlət idarəçiliyinin möhkəmlənirilməsində istifadə olunurdu. Məlumdur ki, xəlifələrdən yerli hakim vəzifələrinə təyinat alanlar da olurdu. Məsələn, Məşhəd hakimi Şah Təhmasibin tövbəsindən irəli gələn qadağalara əməl etmədikdə vəzifəsindən azad edildi və onun yerinə xəlifə Əsədulla İsfahani təyin edildi. Hətta o da məlumdur ki, bəzi vilayətlərin hakimi vəzifəsinə təyin edilmiş xəlifə həmin vilayətin yerli qoşun dəstəsi ilə səltənət miqyasında apa-

rılan döyüş tapşırıqlarının icrasında da iştirak etmişdi. Elə vilayətlər də var idi ki, Şah Təhmasibin hökmünə əsasən, həmin vilayətin digər vəzifəli adamları vilayət xəlifəsinin əmrlərini qəbul etməli idilər (51).

Bəzi tədqiqatçılar onun da bəyan edirlər ki, sufiliyin şiəliyə transformasiyası Səfəvi dövlətinin müdafiə qabiliyyətinin formalaşmasına da öz təsirini göstərdi və bunun nəticəsi kimi özbək və Osmanlı qoşunlarının hücumlarının qarşısını almağa zəmin yaratdı. Belə ehtimal edilir ki, şiə toplumunun formalaşması fərqli məzhəbə qarşı səfərbərliyi daha da gücləndirdi və nəticədə Səfəvi hüdudlarını da qorumaq mümkün oldu (52).

Doğrudur, Şah Təhmasibin hakimiyyəti illərində sufiliyin şiəliyə transformasiyası daha bitkin bir şəkil aldı. Lakin Şah Təhmasib şiəliyin ifrat şəkil almasına heç də razı deyildi və bu sahədə daha liberal bir yol seçilməsinin tərəfdarı idi. O cümlədən, Şah Təhmasibin "imam-zaman" adlandırılması kimi ifratlığı o qəbul etmirdi. Mövcud olan məlumatlar onu göstərir ki, imam-zamanın zühur edəcəyi barəsindəki məsələlərə də Şah Təhmasib ehtiyatla yanaşırdı və bu məsələdə dini təsəvvürlərlə bərabər, məntiqə istinad edilməsinin də tərəfdarı idi.

Hələ Şah Təhmasibin sağlığında, 1543-cü ildə Tusi adlı birisi bir risalə yazaraq 1556-cı ildə imam-zamanın zühur edəcəyini açıqlamışdı. Müəllif bir sıra hədisləri özünəməxsus şəkildə təfsir etməklə, bəzi nücum məsələlərinə və hadisələrinə istinad etməklə, cərəyan edən bəzi hadisələri dəyərləndirməklə belə bir qənaətə gəlmişdi ki, 1556-cı ildə imam-zaman zühur edəcəkdir. Müəllifin bu proqnozlarından belə çıxırdı ki, elə Şah Təhmasibin hakimiyyəti illərində imam-zaman zühur edəcəkdir. Ona görə Şah Təhmasibin hakimiyyəti həm də imam-zaman hakimiyyətinin ərəfəsi kimi də təqdim edilirdi. Maraqlıdır ki, Şah Təhmasibin hakimiyyəti illərində imam-zamanın zühur edəcəyi barədə başqa bir risalə də işıq üzü görmüşdü. Həmin risalənin müəllifi imam-zamanın nə zaman zühur-edəcəyini konkret olaraq göstərməsə də, Şah Təhmasibin hakimiyyətinin imam-zamanın zühurundan əvvəlki son hakimiyyət olacağına işarə edirdi. Şah Təhmasib belə

iddiaları qəbul etmirdi və yalnız şayiələrə istinad edərək yayılan oxşar söhbətlərin meydana çıxmasını düzgün saymırdı (53).

Şah Təhmasib xüsusilə onun imam-zaman adlandırılmasına qarşı çox sərt mövqe tuturdu və belə müraciət edənlərə ciddi cəzalar verməkdən də çəkinmirdi. Məsələn, mənbələrdə olan bir məlumata görə, 1555-ci ildə Şah Təhmasib onu imam-zaman adlandıran bir neçə nəfəri hətta ən ağır cəzaya belə məhkum etmişdi: "Deyirlər ki, bu il pis etiqadlı qələndərlərdən bəziləri bir yerə toplaşıb cənnətməkan xaqana həzrət sahibül-əsr və zaman deyə müraciət edib onu "imam-əsr" adlandırdılar. Nəvvab-xaqan onları yanına çağırdı və bu məsələni onlardan soruşdu. Onların hamısı öz əqidələrini açıqladılar və məhdəviyyət (imam Mehdi haqqında) barədə faktları o həzrətə çatdırdılar və başlarını onun ayağına qoydular. Dünya xaqanı əqli dəlillərlə və aydın sözlərlə onları başa sala bilmədi və onlar bu fasid əqidədədn dönmədilər. Nəhayətdə onların başını toxmaqla əzdilər" (54).

Bu hadisə haqqında dövrə aid digər mənbələrdə də təsdiqedici məlumatlar vardır. Həmin məlumatlara görə, Şah Təhmasibin imam-zaman olması iddiasını ortaya atanların sayı 30-40 nəfər idilər. Onlar bəzi faktlara istinad etməklə Şah Təhmasibə onun son imam olmasını əsaslandırmağa çalışırdılar. Həmin adamların nə səbəbə belə iddia ilə meydana çıxmaları haqqında mənbələrdə yetərincə məlumat yoxdur. Görünür, onlar iddialarının Şah Təhmasib tərəfindən qəbul olunacağına əmin imişlər. Şah Təhmasib isə bu cəfəng iddianı qəbul etmədi, həmin iddianın doğru olmadığını qələndərlərə də aşılamağa çalışdı. Amma onun fikirləri qəbul edilməyəndə bu fanatiklərin cəzalandırılmasına göstəriş verdi. Bildirilir ki, fərraşlar bu fanatik qələndərlərin hər birinin başını toxmaqla vurub xurd-xəşil etdilər (55).

Bütün bunlar isə onu göstərir ki, Şah Təhmasib dərin etiqadlı bir insan olsa da fanatik şiəliyin rəvac tapmasına da razı deyildi və din-dövlət münasibətlərində belə fanatizmin meydana gəlməsinə heç də razı deyildi. Bunun qarşısının alınması yollarından birini Şah Təhmasib islami biliklərin düzgün təbliğ edilməsində, belə biliklərin meydana çıxmasına yol açan elmi araşdırmaların

aparılmasında görürdü. Xüsusilə, məzhəb araşdırmalarının genişləndirilməsi, məzhəb inanclarının düzgün, sistemli, ətraflı biliklər üzərində qurulmasına böyük diqqət yetirilirdi. Ona görə idi ki, din alimlərinin fəaliyyəti təşviqləndirilirdi və mötəbər dini biliklərin ortaya qoyulması üçün xaricdən də din alimləri saraya dəvət edilirdi. Hətta bəzi hallarda səltənət daxilində dini işlərə rəhbərlik edən sədr vəzifəsi də din alimlərinə tapşırılırdı (56).

Din adamlarının yüksək vəzifələrə təyin edilməsi onların səltənət daxilində həm nüfuzunu artırır, həm də dövlətin imkanlarının daha geniş şəkildə məzhəb dəyərlərinin təbliğinə cəlb edilməsinə yol açırdı. Bu da son nəticədə din-dövlət münasibətlərinin daha da möhkəmlənməsinə, məzhəb dəyərlərinin dövlət və səltənət həyatında daha möhkəm yer tutmasına zəmin yaradırdı. Din adamları, xüsusilə fəqihlər tərəfindən yazılan elmi əsərlər isə məzhəb maariflənməsini dini biliklər üzərinə qoyulması insanların məzhəb etiqadının güclənməsinə də gətirib çıxarırdı. Ona görə də həyatını təmənnasız məzhəb dəyərlərinin öyrənilməsinə və yayılmasına həsr etmiş fəqihlərin Şah Təhmasib yanında da böyük nüfuzu var idi. Nəticədə Şah Təhmasibin hakimiyyəti illərində səltənət daxilində fəqihlərin və din xadimlərinin böyük bir təbəqəsi meydana gəldi. Bu təbəqə istər məzhəb təbliğində, istər məktəblərin açılmasında və dini biliklərin yayılmasında, istər məscidlərin idarə edilməsində, istərsə də dini mövzuda kitabların və risalələrin yazılmasında dəyərli xidmətlər göstərə bilmişdilər. Nəzərə alınsa ki, Səfəvi dövləti fərqli məzhəbi dövlətin rəsmi məzhəbi elan etməsindən elə də böyük bir vaxt ötməmişdi, bu məzhəbin mahiyyəti və dəyərləri haqqında insanlarda yetərli məlumat hələ formalaşmamışdı. Həmin məlumatların formalaşdırılması üçün isə müvafiq əsərlərə, kitablara, risalələrə ehtiyac var idi. Şah Təhmasib sarayı tərəfindən qayğı altına alınan etiqadlı din alimləri həm də bu vəzifənin icrasını öz üzərinə götürməli idilər.

Şah Təhmasib hakimiyyəti illərində bu istiqamətdə görülən işlərdən biri məzhəb dəyərləri və imamlar haqqında ərəb dilində olan əsərlərin fars dilinə tərcümə edilməsi oldu. Şah Təhmasibin

göstərişi ilə artıq ərəb dilində mövcud olan əsərlərin seçimi aparıldı və onlardan səltənət əhalisinin maarifləndirilməsi üçün daha böyük önəm kəsb edənlərin tərcüməsi edilirdi. Nəticədə Şah Təhmasibin hakimiyyəti illərində xeyli sayda risalələr və əsərlər fars dilinə tərcümə edildi (57). Yəni bu iş də məzhəb biliklərinin təbliğinin, məzhəb maarifləndirilməsinin elmi bilikləri üzərinə qoyulması baxımından Şah Təhmasibin xüsusi diqqəti altında idi.

Məzhəb biliklərinin sistemləşdirilməsi və təkmilləşdiirlməsi baxımından Şah Təhmasib hakimiyyəti illərində görülmüş ciddi işlərdən biri heç şübhəsiz ki, Livanın Cəbəl bölgəsində anadan olan tanınmış alim və bilim adamı Mühəqqəq Kərəkinin Səfəvi sarayına dəvət edilməsi idi. Tədqiqatçıların fikrincə, Mühəqqəq Kərəki və digər tanınmış şiə alimləri ilə Səfəvi sarayı arasında əməkdaşlıq yaradılmasının səbəblərindən biri də Səfəvi hakimiyyətinin qanuniliyinin tanınmasına nail olunması idi. Belə ki, şiə alimləri yalnız imam hökumətinin qanunuliyini qəbul edirdilər və imam hakimiyyətini təmsil etməyən hakimiyyətləri qeyri-qanuni hesab edirdilər. Hətta belə bir fikir irəli sürülürdü ki, imamların hakimiyyətindən sonra mövcud olan hakimiyyətlər sitəmkar, qəddar hakimiyyətlər olmuşlar. Şiə alimlərinin müdafiə etdiyi baxışlara görə, imam hakimiyyəti Allah tərəfindən verilmiş hakimiyyət idi və yalnız Allah tərəfindən verilmiş hakimiyyətlər qanuni hakimiyyət kimi qəbul edilirdi. Səfəvi dövlətinin, yəni rəsmi məzhəbi şiə olan bir dövlətin meydana gəlməsi şiə alimləri arasında da müəyyən fikir və baxış dəyişikliklərinin yaranmasına, bu dövlətin qanuniliyinə haqq qazandırılması meylinə yol açdı. Bu mənada Mühəqqəq Kərəkinin təmsil etdiyi Cəbəl Amol hövzəsi Səfəvi sarayı ilə münasibətlər qurulmasına etiraz etmədi və Səfəvi sarayının dəvəti ilə Mühəqqəq Kərəki kimi tanınmış bir din alimi Səfəvi hüdudlarına səfər etməyə razı oldu. Amma elə Şah Təhmasibin hakimiyyəti illərində Nəcəf hövzəsinə göndərilən dəvət qəbul edilmədi və Nəcəf hövzəsini alimləri Səfəvi sarayı ilə geniş əməkdaşlığa meyl göstərmədi (58).

Mənbələrdə olan məlumatlara görə, Mühəqqəq Kərəkinin Səfəvi hakimləri ilə tanışlığı hələ Şah İsmayılın hakimiyyəti illə-

rində başlamışdı. Konkret olaraq Bağdad üzərinə yürüş zamanı Şah İsmayılın buradakı tanınmış şiə alimləri ilə görüşləri və həmin alimlərə qayğı göstərilməsi haqqında bilgilər verilməkdədir. Bu məsələ ilə bağlı "Əhsənüt-təvarix" əsərində də müxtəsər qeyd mövcuddur: "O həzrət cəmadiülaxır [ayının] 25-də (21.10.1508) cah-calalla Bağdada daxil oldu. Qəzavü-qədər kimi cərəyan edən fərman verildi ki, pornak camaatını həlak vadisinə çatdırsınlar. Ali məqamlı qazilər həmin ordunun çoxunu qətlə yetirdilər və Barikin bir quyuda həbs etdiyi İraqi-Ərəbin kübar seyidlərindən olan Seyid Məhəmməd Kəmunəni məhbusluqdan xilas etdilər. Nəcəfi-Əşrəfin touliyyətini İraqi-Ərəbin bəzi şəhərlərinin idarəçiliyi ilə birlikdə ona lütf etdilər" (59).

Məlumdur ki, Seyid Məhəmməd Kəmunə ilə birlikdə quyuya Mühəqqəq Kərəkinin babası Şeyx Əbdülali də salınmışdı. O da həbsdən azad edilmiş və onun da idarəçiliyinə müəyyən məntəqələr verilmişdi. Bu da Şah İsmayılın həmin alimləri olan ehtiramı ilə bağlı idi. Mühəqqəq Kərəkinin də məhz həmin vaxt Şah İsmayıl ilə tanış olduğu bildirilir (60).

Ehtimal edilir ki, Şah İsmayıl elə 1508-ci ildə Bağdadda rastlaşdığı tanınmış şiə alimlərini Səfəvi hüdudlarına dəvət etdi ki, onlar Səfəvi dövləti daxilində şiə məzhəbinin elmi təbliğini aparsınlar (61).

Mühəqqəq Kərəki də bu dəvəti məmnuniyyətlə qəbul etdi və 1510-cu ildə (hicri qəməri tarixi ilə 916-cı ildə) Səfəvi dövləti hüdudlarına səfər etdi. Mövcud olan məlumatlara görə, Şah İsmayılın dəvətini qəbul edəndə Mühəqqəq Kərəki artıq çox məşhur bir din alimi idi. Onu zəmanəsinin adamları İkinci Mühəqqiqi, Şeyxül-tayifə, zəmanə ülaməsi, mühəqqiqlərin əfzəli, zamanın nadiri, şeyxül-cəlil, xatəmül-müctəhidin və s. kimi adlarla adlandırırdılar (62).

İlk gəlişində Mühəqqəq Kərəki təxminən üç ilə yaxın Səfəvi hüdudları daxilində qaldı və burada olduğu müddətdə bəzi dini əsərlərini də yazdı. Onun səfəri Xorasan vilayətindən başladı. Həmin vaxt Şah İsmayıl da özbək qoşunlarının hücumlarının qarşısını almaq üçün Herat ətrafında idi. Heratın o zamankı şeyxül-

islamı Səədəddin Təftazani öz məzhəbini dəyişmək təkliflərinə qarşı qətiyyətli münasibət göstərdiyi üçün qətlə yetirilmişdi. Otuz yaşlarında olan Təftazani zəmanəsinin böyük din alimlərindən biri sayılırdı və onun bölgədə böyük nüfuzu var idi. Mühəqqəq Kərəki bölgəyə yetişəndən sonra şeyxülislam Təftazaninin qətlindən təəssüfləndiyini bildirməklə və belə bir hadisənin baş verməsini xəta kimi dəyərləndirdi. Onun fikrincə, Herat şeyxülislamı sağ qalmış olsaydı şiə dəyərləri haqqında ona geniş məlumat verər və bu məlumatlar da Təftazaninin baxışlarının və inanclarının dəyişməsinə təsir göstərə bilərdi (63).

Mövcud olan məlumata görə, Mühəqqəq Kərəki birinci ili Məşhəddə keçirdi və Məşhəddə "Cəfəriyyə" adlı risaləsini yazdı. Səfəvi hüdudlarında olduğu zaman M. Kərəki başqa bir neçə risaləsini də yazdı və bu risalələrdə şiə tərəfdarlarının marağını kəsb edəcək bir sıra aktual mövzuların şərhi verildi. Məsələn, adı çəkilən risalədə M .Kərəki imam-zamanın qeybdə olduğu zaman cümə namazlarının fəqihlərin imamlığı ilə qılınmasının mümkünlüyünü əsaslandırdı. M. Kərəki hətta Şah İsmayılın sifarişi ilə də bir risalə yazdı. Bütün bu risalələrində M. Kərəki şiə məzhəbinin dəyərlərini əsaslandırmağa və bu mövzuda sünni alimlər tərəfindən yazılmış əsərlərə öz meyarları baxımından cavab verməyə çalışdı (64).

Təxminən üç il Səfəvi hüdudlarında qaldıqdan sonra M. Kərəki yenidən İraqa qayıtdı. İstər Şah İsmayılın qonağı olarkən, istərsə də İraqa qayıtdıqdan sonra M. Kərəki dini araşdırmalarını davam etdirdi və mənsub olduğu məzhəbin dəyərlərinin, habelə şiə dövlətinin qanuniliyinin əsaslandırılması üçün bir sıra əsərlər yazdı. Tədqiqatçıların fikrincə, Şah Təhmasibin dəvəti ilə yenidən Səfəvi sarayına qayıdana qədər M. Kərəkinin dini fikirləri içərisində iki məsələ daha çox diqqəti cəlb edirdi. Birinci məsələ, yuxarıda qeyd edildiyi kimi, imam-zamanın qeybdə olduğu zaman fəqihlərin imamlığı ilə bu zaman namazların qılınmasının mümkünlüyü, ikinci məsələ isə İraqda olarkən yazdığı risalələrdə əsaslandırdığı imam-zamana nayibliyin mümkünlüyü məsələsi idi. M. Kərəki əsaslandırmağa çalışırdı ki, imam-zamanın

zühuruna qədər onun adından yer üzündə nayib (müavin) dini işlərə rəhbərlik edə bilər. Onun etiqadına görə, bu nayiblik səlahiyyəti fəqih insanlardan birinə verilə bilərdi (65).

M. Kərəkinin Səfəvi hüdudlarına növbəti gəlişi, qeyd edildiyi kimi, Şah Təhmasibin hakimiyyəti illərinə təsadüf edir. Zəkalı bir insan kimi Şah Təhmasib də hökmdarı olduğu hüdudlar daxilində şiə məzhəbinin elmi əsaslarının formalaşmasına və ictimailəşməsinə maraqlı idi. Bu baxımdan o da M. Kərəkinin elmi-dini yaradıcılığına və baxışlarına böyük hörmətlə yanaşırdı. Mövcud məlumata görə, onların da əyani görüşü Şah Təhmasibin İraq üzərinə qoşun çəkdiyi dövrə təsadüf edir. Bildirilir ki, 1529-cu ilin yayında Şah Təhmasib Bağdad ətrafına qoşun çəkəndə Mühəqqəq Kərəki ilə görüşdü və ona dərin ehtiramını bəyan etdi. Elmi-tarixi dövriyyədə həmin il Şah Təhmasib tərəfindən M.Kərəkinin adına yazılmış bir vəqfnamə mövcuddur. Həmin vəqfnaməyə görə Fərat çayından Nəcəf və Kərbalaya su çəkilməsinə nəzarət, habelə bu kanalların istifadəsindən gələn gəlir M.Kərəkiyə həvalə olunmuşdu. Bu vəqfnamədə diqqəti cəlb edən məqamlardan biri Şah Təhmasibin M. Kərəkiyə ehtiramının təsdiqi idisə, digəri də M. Kərəkinin adının qarşısına çox təmtəraqlı ləqəblərin əlavə edilməsi idi. Həmin ləqəblər arasında bunlar da var idi: şeyxülislam, aləmin ələmi, həllali müşkilat, kəşşafi müəzzəlat, qütbü fələk elm, sultanül üləma və mühəqqiqin, sahibül təhqiqati fayiqə, xatəmül müctəhidin, süyyidül-mürsəlin elminin varisi və s. (66).

Həmin ləqəblər də M. Kərəkinin Şah Təhmasib yanında hansı hörmət və ehtirama malik olmasının nümayiş etdirir. Onun Səfəvi hüdudların gəlməsi 1530-cu ilə təsadüf edir. Bu səfər heç şübhəsiz ki, Şah Təhmasibin dəvəti əsasında həyata keçmişdi. M.Kərəki Səfəvi sarayına gələndə Şah Təhmasib yenidən Xorasan vilayətinə hərbi yürüşə hazırlaşırdı. M. Kərəki də ona qoşularaq Xorasana yollandı və növbəti dəfə İmam Rzanın qəbrini ziyarət etdi. Əbdi bəy Şirazi bu səfər barəsində belə bir qeyd etmişdir: “Cəlal bayraqları (Şah Təhmasib) səadət və xoşbəxtliklə Təbəs çölü ilə Yəzdə və sonradan İsfahana gəlib, orada qışladı.

Bu səfərdə zamanın müctəhidi Şeyx Əli ibn Əbdülali onun yol yoldaşı idi. [o da] İsfahana gəldi. Onunla Seyid Qiyasəddin Mənsur Şirazi sədr arasında mübahisə baş verdi. Zamanın müctəhidinin bütün məsələlərdə qalib gəlməsinə baxmayaraq, Mir Qiyasəddin Mənsur onun müctəhidliyini etiraf etmədi və öz inadında qaldı" (67).

Mühəqqəq Kərəki ilə Şah Təhmasib arasında çox yaxşı münasibtlər mövcud idi və Şah Təhmasib dövründə din-dövlət münasibətlərinin müəyyənləşməsində M.Kərəkinin dini baxışları mühüm əhəmiyyət kəsb edirdi. Bu və ya digər şəri məsələlər üzrə mübahisəli məqamlar yarananda da Şah Təhmasib çox hallarda M.Kərəkinin tərəfini saxlayırdı. M.Kərəkinin Səfəvi sarayının qonağı olduğu zamanda səltənət daxilində məzhəb dəyərlərinin və biliklərinin təbliği və yayılması daha da genişləndi. M. Kərəki səltənətin demək olar ki, bütün böyük şəhərlərinə səfər etdi və həmin şəhərlərdə də məzhəb biliklərinin yayılması və əsaslandırılması ilə məşğul oldu. Öz fəaliyyəti ilə M. Kərəki həm də şiəliyin dərin kök almasına və Səfəvi hakimiyyətinin qanuniliyinin ictimailəşməsinə kömək göstərdi.

Mənbələrdə olan məlumata görə, M. Kərəki Qəzvinə gələndə Şah Təhmasib onu qarşılayaraq bəyan etdi ki, siz bu gün imamın nayibisiniz və səltənət məqamına daha layiqsiniz. Mən sizin xidmətçilərinizdən biriyəm və sizin əmrləriniz yerinə yetiriləcəkdir (68). Göründüyü kimi, Şah Təhmasib sadəcə öz ehtiramını bildirmirdi, həm də M. Kərəkinin çox böyük səlahiyyətlərə layiq görüldüyünü də tanıyırdı. M. Kərəkinin imam-zamanın nayibi kimi qəbul edilməsi, əslində, həm də imam-zamanın qeybində şiə dövlətinin qanuniliyinin təsdiqlənməsi üçün bir zəmin idi. Bununla, M. Kərəki şiə aləmi üçün çox yüksək bir dini məqam kimi qəbul edilirdi. Onun yüksək səlahiyyətlərə malik olması Səfəvi hüdudlarında qaldığı müddətdə əməli olaraq ifadə olundu. M.Kərəki həm dini məsələlərlə, həm də səltənət idarəçiliyi ilə bağlı yerli hakimlərə hökmlər yazıb göndərir və bu hökmlər də yerlərdə icra olunurdu. Həmin hökmlər arasında yerli hakimlərlə insanlar arasında münasibətlərin necə formalaşması, vergilərin

hansı miqdarda, nə zaman toplanması və təhvil verilməsi və digər məsələlərlə bağlı göstərişlər var idi. Bu göstərişlər Şah Təhmasib tərəfindən birmənalı şəkildə dəstəklənirdi. Şah Təhmasib hətta vilayət hakimlərinə də fərmanlar göndərmişdi ki, M. Kərəkinin göstərişləri şah göstərişləri kimi qəbul edilsin və icra edilsin (69).

M.Kərəki həm də kəramət sahibi kimi tanınırdı. Bununla bağlı Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsərində maraqlı bir hadisə təsvir edilmişdir: "Həzrət şeyxin (Xətamül-müctəhidin Əli ibn Əbdüləalinin) kəramətləri cümləsindən sayıla biləcək işlərdən biri odur ki, o həzrətin ən qatı rəqiblərindən və düşmənlərindən olan Mahmud bəy Möhürdar bir gün Sahibabad meydanında qüdrətli sahibqiranın xidmətində çövkən oynayırdı və xeyli lovğalıq və qürurla o geniş sahədə hər tərəfə [at] çapırdı. O gün cümə günü idi, ikindi vaxtına yaxın idi. Həzrəti-Xatəmül-müctəhidin onun şərinin, fitnəsinin və fəsadının dəf olunması üçün "duayi-seyfi" (qılınc duası) və himmətli imam Əba-Abdulla əl-Hüseynə – ona dua və salam olsun – məxsus olan məzlumun zalımdan qurtulması duasını oxudu. Hənüz ikinci duanı tamama yetirməmişdi və "onun əcəli yaxındır və oğlu yetim qalacaqdır" kəlmələri dilində idi ki, Mahmud bəy çövkən oynayan əsnada atdan yıxıldı, başı ayaq altda qalan top kimi at tapdaqları altındaköməksiz qaldı, torpağın üstündə zillətə düşdü və rəzilliklə yeksan oldu" (70).

Mühəqqəq Kərəki şiə məzhəbinin elmi-dini əsaslarını işləyib ictimailəşdirməklə insanların məzhəb etiqadlarının möhkəmlənməsinə yol açmaqla yanaşı ictimai durumun ədalət üzərində qurulması üçün də əməli fəaliyyət göstərirdi. Bildirilir ki, səltənət daxilində əxlaqsızlığın, günah əməllərin kökünün kəsilməsində, şərab içilməsinin, qumar oyunlarının qarşısının alınmasında, dinin fərzlərinin təbliğ və şərhində, cümə namazlarının rəvac almasında, namaz və orucluq ehkamlarının bəyan edilməsində, azanın vaxtlı-vaxtında verilməsində, alimlərə qayğı göstərilməsində fədakarlıq nümayiş etdirirdi. Bu da Şah Təhmasibin əlavə bir ehtiramı ilə qarşılaşırdı. Tədqiqatçıların fikrincə, Şah Təhmasiblə M.Kərəki arasında yaranmış olan ehtiramlı münasibət heç

bir Səfəvi şahının dövründə yaşamış hansısa bir din alimınə qarşı olan adi münasibət deyildi. Şah Təhmasib onu imam-zamanın nayibi (müavini) səviyyəsində qəbul edir və həm də qəbul etdirirdi. Şiə alimi üçün bundan da uca bir məqam yox idi. Şah Təhmasib ona həm də xatəmül- müctəhidin, müctəhidül-zaman, əsrin üləmalarının əfzəli kimi də müraciət edirdi. Bu müraciətlər də Şah Təhmasib tərəfindən Mühəqqəq Kərəkiyə, onun dini və fəqih biliklərinə verilən dəyərin ifadəsi idi. Mövcud olan məlumata görə, Şah Təhmasib hətta Mühəqqəq Kərəkiyə həvalə olunmuş şəriət hakimiyyətini taxt-tac hakimiyyətindən daha üstün tuturdu. Şah Təhmasib fəaliyyəti zamanı davamlı olaraq M.Kərəkiyə istinad edirdi və onun fikirlərini üstün tuturdu. Hətta səltənətdə yüksək vəzifə sayılan sədrlərə münasibətdə də Şah Təhmasib daha çox M.Kərəkinin fikir və baxışları ilə hesablaşırdı (71).

Mühəqqəq Kərəki ilə Şah Təhmasib hakimiyyətinin sədri olan Mir Qiyasəddin Dəştəki arasında qiblənin dəyişdirilməsi üzərində bir mübahisə yaranmışdı. Mühəqqəq Kərəki şəri məsələlərə istinad edərək Səfəvi hüdudlarında olan məscidlərdə qiblənin istiqamətinin dəyişdirilməsinin zəruriliyini iddia edirdi (İstifadə olunun mənbə və ədəbiyyatda bu məsələnin mahiyyəti və səbəbləri haqqında yetərli məlumat əldə edilməmişdir). Hətta bəzi məscidlərdə köhnə qiblə yeri ilə bərabər, yeni qiblə yerləri də düzəldilmişdi. Mir Qiyasəddin Dəştəki bununla razı deyildi və o təkid edirdi ki, qiblənin istiqamətinin təyin edilməsi heç də şəri məsələ deyil. Onun fikrincə, qiblənin istiqaməti astronomlar, münəccimlər tərəfindən müəyyənləşdirilməli idi. Şah Təhmasib də bu məsələdə Mühəqqəq Kərəkinin fikrini dəstəklədi və hətta M.Kərəkiyə dəstək əlaməti olaraq Mir Qiyasəddini də səltənətin sədri vəzifəsindən azad etdi (72).

Mənbələrdə öz əksini tapmış bir mübahisə də Mühəqqəq Kərəki ilə Mir Qiyasəddin Dəştəki ilə eyni vaxtda səltənət sədri vəzifəsini icra edən Əmir Nemətulla Hilli arasında yaranmışdı. Bu mübahisənin isə cümə namazı ilə bağlı yarandığı ilə bağlı olduğu bildirilir. "Əhsənüt-təvarix" əsərinin müəllifi Həsən bəy Rumlu həmin mübahisənin mahiyyətinin təfərrüatına varmayaraq

onun necə nəticələnməsini belə təsvir etmişdir: “Əmir Nemətulla Hilli Hillənin ulu seyidlər zümrəsindən idi. O həzrətin fəzilətləri, kamillikləri və ictihad üçün lazım olan elmlərdəki məharəti o həddə çatmışdı ki, bir sıra insanlar onun ictihad dərəcəsinə yetişdiyini güman edirdilər və onun özü də ictihad iddiası ilə [çıxış] edirdi. Amma ülәmalar bunu qəbul etmirdi. Onun ali fəhminin itiliyi və zəkasının qavrama qabiliyyəti o dərəcədə idi ki, bir sıra ülәmalar maddi və dini cəhətdən ondan daha üstün rütbəyə malik olsalar da, mübahisədə ona müqavimət göstərməyə tab gətirmirdilər və o, sözünü onlara qəbul etdirirdi. Bəzən isə mahiyyətindən xəbərdar olmadığı bir elm haqqında bəhs edirdi və fəhminin itiliyi, nitqinin səlisliyi sayəsində önə çıxırdı. Belə ki, heç kəs məsələnin gerçək üzünü görə bilmirdi və insanlar zənn edirdilər ki, o, həmin elmdə məharət sahibidir. O, “Həzrəti-Xatəmül-müctəhidin” (müctəhidlərin möhürü) və “Varisi-ülumi-seyyidül-mürsəlin” (peyəmbərlər ağasının elmlərinin varisi) ləqəblərinə malik olan Əli ibn Əbdüləalinin tələbələrindən idi və onun bütün tərəqqisi o həzrətin [elmindən] istifadə etməsi səbəbindən üz vermişdi. Amma axırda nankorluq edərək o həzrətin haqqını tapdalamışdı. Belə ki, Xatəmül-müctəhidinlə Şeyx İbrahim Qətifi arasında münaqişə vardı və sözügedən Əmir Nemətulla öz müəllliminə məhəl qoymayaraq bəzi fiqhi məsələlərdə onun rəqibinin tərəfini saxlayırdı. Bəzən isə xilafət təyinatlı taxtın ətəyində olduğu vaxt İbrahim Qətifiyə məktub yazırdı və onu Həzrəti-Xatəmül-müctəhidinin ziyanına səbəb ola biləcək işlərə həvəsləndirirdi. Amma haqqında bu cür söz-söhbətlərin yayılmasına baxmayaraq, [Xatəmül-müctəhidinin] şanına nöqsan yol tapmadı. [Əmir Nemətulla isə] çeşidli dini və dünyəvi azarlara və zərərlərə düçar oldu. İmamın və ya imam naibinin olmadığı yerdə cümə namazının səhihlik şərtləri haqqında fiqhi hökmün nədən ibarət olması məsələsində də o, Həzrəti-Xatəmül-müctəhidinin rəyinə xilaf çıxdı və behişt ayinli məclisdə onunla bu barədə mübahisə etdi. O, ülәmalardan və fəqihlərdən Qazı Müsafir, Mövlana Hüseyn Ərdəbili kimi bəzilərini və Həzrəti-Xatəmül-müctəhidinə qarşı ədavət və küdurət məqamında dayanan bir

dəstə adamı həmin bəhsdə özünə müttəfiq etmişdi və şahın əmirlərindən və dövlət ərkanından da Mahmud bəy Möhürdar, Məlik bəy Xoyi və başqaları onlara himayəçilik edirdilər. Amma həmin məclis mütləq bir qərarın qəbulu ilə sona çatmadı, o bəhsdə irəli sürülən fikirlər fəaliyyətə keçmədi və məsələ [onların] mətləbinə uyğun şəkildə nəticələnmədi. O zaman Həzrəti-Xatəmül-müctəhidinə münasibətdə çeşidli yalanlardan və böhtanlardan ibarət şər bir məktub yazıb o həzrətin darüssəltənə Təbrizin Sahibabadında, Nəsriyyə zaviyəsi yanında yerləşən evinə gizlicə atdılar. Bu məktub məchul bir xətlə yazılmışdı və orada o həzrət müxtəlif günahlarda və əxlaqsızlıqlarda ittiham edilmişdi. Qüdrətli padşah – onun hökmranlığı və səltənəti uzun olsun – məktubun katibinin və baiskarlarının aşkarlanmasına xeyli cəhd göstərdi. Axırda bəlli oldu ki, Həzrət Mirin (Əmir Nemətullanın) bundan xəbəri varmış. Günlər ötdükcə Xatəmül-müctəhidinin ona qarşı küdurəti elə bir həddə çatdı ki, bu iş onun sürgün edilməsi və [saraydan] uzaqlaşdırılması ilə nəticələndi. Ona ali divandan bir bukavulu müvəkkil [təyin] etdilər ki, onu Təbrizdən çıxarıb Bağdada aparsın. O zaman Bağdad hakimi olan Məhəmməd xan Təkəlünün adına ali divandan bir hökm verildi ki, Mir Nemətullanın Şeyx İbrahim Qətifi ilə və Xatəmül-müctəhidinin digər düşmənləri ilə əlaqə və münasibət saxlamasına imkan verməsin və onun əhvalına dair gerçəkliklərə vaqif olsun (onun hərəkətlərinə nəzarət etsin). O, Bağdada getdikdən bir az sonra Həzrəti-Xatəmül-müctəhidin də mürəxxəs olub İraqi-Ərəbə yollandı və o həzrətin vəfatı ilə Mir Nemətulla Hillinin vəfatı arasında on gündən artıq fasilə olmadı" (73).

Mir Qiyasəddindən sonra səltənətin sədri vəzifəsinə kimin təyin edilməsi məsələsini də, əslində, Mühəqqəq Kərəki müəyyənləşdirdi. Onun tövsiyəsi əsasında bu vəzifəyə Şah Təhmasib tərəfindən Əmir Müəzzəddin təyin edildi. Yəni, Şah Təhmasib birmənalı şəkildə M.Kərəkinin iradəsini qəbul edirdi. Bu, həm də M.Kərəkinin təmənnasızlığına olan inamdan irəli gəlirdi. M.Kərəki bəyan etdi ki, o dövrkü alimlər, seyidlər və din adamları arasında Əmir Müəzzəddindən başqa kimsə sədr vəzifəsini icra

etməyə layiq deyildir. O zaman Əmir Müəzzəddin İsfahanda fəaliyyət göstərirdi. Şah Təhmasibin göstərişi əsasında onu Qəzvinə çağırdılar və o gəlib yetişənə kimi onun sədr vəzifəsinə təyin edilməsi haqqında fərman da hazırlandı (74).

Mühəqqəq Kərəkinin Səfəvi hüdudlarını tərk edib Nəcəfə qayıtması 1533-cü ilə təsadüf edir. Bu zaman Şah Təhmasib hələ 19 yaşında idi. Yəni Şah Təhmasib belə gənc yaşlarında olanda dini biliklərin öyrənilməsinə, yayılmasına, səltənət daxilindəki həyatın şəriət normaları üzərində qurulmasına, məzhəb biliklərinin təbliğinə, din alimlərinə qayğı göstərilməsinə xüsusi diqqətlə yanaşırdı. Bu məqam özü də Şah Təhmasibin şəxsiyyətinin xarakterini müəyyənləşdirən mühüm cəhətlərdən biri idi. Bu mənada Şah Təhmasib həm də məzhəb etiqadının məzhəb bilikləri üzərində qurulmasının təşkilatçılarından biri idi.

Şah Təhmasibin oğlu II Şah İsmayıl hakimiyyətdə olarkən Mühəqqəq Kərəkinin oğlu Şeyx Əbdüləali ibn Əliyə müraciətlə belə demişdi: "Bu səltənət həqiqətən də həzrət sahibəz-zaman əleyhüssəlama məxsusdur və siz də o həzrətin nayibi mənsəbindəsiniz və islam ehkamına və şəriətinə uyğun onun tərəfindən seçilmisiniz. Mənim xalçamı siz açın, məni bu taxt-taca oturdun ki, mən də sizin rəyinizə və iradənizə uyğun olaraq hökumət və hökmranlıq başında olum" (75).

Əslində, Şah Təhmasibin də M.Kərəkiyə yanaşması belə idi. Yəni M.Kərəkinin imam-zamanın nayibi elan edilməsi ilə Səfəvi hakimiyyətinin şəri baxımından təsdiqlənməsinə nail olunmuş olurdu. Şah Təhmasib isə M.Kərəkinin şəxsində şəri baxımından təsdiqlənmiş və qəbul olunmuş hakimiyyətin idarəçiliyini öz üzərinə götürmüş hesab edilə bilərdi. Bu isə şiə fəqihlərinin Səfəvi hakimiyyətinin şəri baxımından legitimləşdirilməsinə bağladıqları şübhələri aradan qaldıra bilərdi.

Səfəvi hüdudların tərk etməsi ərəfəsində Şah Təhmasib bir daha Mühəqqəq Kərəki haqqında yeni bir fərman imzaladı. Bu fərmanda da həm M.Kərəkinin yüksək səlahiyyətləri, imam-zamanın nayibi olması və ona verilmiş olan syurqalları təsdir olunurdu. Kifayət qədər həcmli olan bu fərmanın əsasının bu hökm-

lər təşkil edirdi: 1) məzhəb maariflənməsinin aparılması və imam-zamanın zühuruna zəmin yaradılması Səfəvi dövlətinin qarşısında dayanan başlıca vəzifədir; 2) bu məqsədə yalnız din alimlərinin buyurduğu yolla çatmaq mümkündür; 3) Mühəqqəq Kərəki dövrün ən böyük şiə alimi və imam-zamanın nayibidir; 4)səltənət idarəçiliyində vəzifə tutan bütün adamlardan tələb olunurdu ki, M.Kərəkinin buyurduqları birmənalı şəkildə qəbul olunsun və icra edilsin: "Qərara alındı ki, böyük seyidlər, böyüklər, əşrəflər, əmirlər və vəzirlər və müqəddəs dövlətin digər mənsubları adı çəkiləni (M.Kərəkini) özlərinin pişvası və amiri hesab etsinlər, bütün işlərdə ona tabe olub itaət etsinlər. Onun əmr etdiyi icra olunsun, ləğv etdiyi ləğv olunsun. Bu səltənətin dini işlərinə cavabdeh olanlardan, xidmətçilərdən kimsəni vəzifəsindən azad etsə, azad edilmiş, kimsəni də vəzifəyə təyin etsə təyin olunmuş hesab edilsin. Onların təyinatı və vəzifədən azad olunması haqqında başqa sənədə ehtiyac yoxdur. Azad olunanların yerinə o ali məqam tərəfindən birisi təyin edilməsə, o vəzifəyə kimsə təyin olunmasın"; 5) M.Kərəkinin hərəkət marşrutu üzərində olan bütün vilayət hakimlərindən tələb olunurdu ki, onun qarşılanmasına şəxsən yollansınlar və ona yüksək ehtiramı nümayiş etdirsinlər; 6) fərmanda daha sonra Mühəqqəq Kərəkiyə verilən syurqallar və maliyyə güzəştləri sadalanırdı (76).

Qeyd edildiyi kimi, Mühəqqəq Kərəki 1533-cü ildə Nəcəfə qayıtdı və elə həmin ildə də dünyasını dəyişdi. O, Səfəvi dövləti ilə qurulan münasibətlərin nəticəsi kimi həm Şah İsmayıla, həm də Şah Təhmasibə əsərlər həsr etmişdi. Şah Təhmasibə həsr olunmuş əsər "Came əlməqasid fi şərh əlqəvaid" adlanırdı. O eyni zamanda Şah Təhmasibin sifarişi ilə də əsər yazmışdı. Həmin əsər "Risalətün fi təyin əl-müxalifin inn əmirülmöminin" adlanırdı. Həmin əsərlərdə Şah Təhmasibin marağında olan şəri məsələlərin şərhi öz əksini tapmışdı. Sözsüz ki, M.Kərəkinin əsərləri yalnız bunlardan ibarət deyildi. Onun digər əsərlərindən biri "Qəvaid əl-məqasid" adlanırdı. Həmin əsər şiə fiqhinin mühüm əsərlərindən biri olan Əlamə Hillinin "Qəvaid ül-ehkam" kitabının şərhinə həsr edilmişdi. Müqəddimədə M.Kərəki yaz-

mışdı ki, bu əsərini Səfəvi şəhriyarlarına təqdim edir. Onun maraq doğuran əsərlərindən biri "Risalətül xəraciyyə" adlanırdı. Bu əsər imam-zamanın qeybi dövründə müsəlmanlardan xərac toplanmasının normalarına həsr edilmişdi, Şah Təhmasibin hakimiyyəti illərində də bu məsələ kifayət qədər gündəmdə olan bir məsələ idi. Din fiqh alimləri arasında belə bir mübahisə yaranmışdı ki, imam-zamanı təmsil etməyən bir hakimiyyət vergi-xərac toplamağa haqqı var ya yox? M.Kərəki bu risaləsində əsaslandırırdı ki, sultanlara xərac verilməsi düzgün və vacibdir. Dövrün tanınmış din alimləri, o cümlədən böyük din alimi sayılan Şeyx İbrahim ibn Süleyman Qətifi onun bu mövqeyi ilə razılaşmadı və hətta onun fikirlərinin əksini öz əsərlərində də əsaslandırmağa çalışdı. Bu məsələ, əslində, dövrün tanınmış din alimləri arasında ciddi mübahisəyə səbəb olmuş bir mövzuya çevrilmişdi. Şeyx Qətifi din alimlərinin və fəqihlərinin dövrün sultanlarından hədiyyə almalarını halal saymırdı. Amma Şah Təhmasib M.Kərəkinin əsərinə üstünlük verdi və onun fikirlərini qəbul etdi (77).

Bir daha qeyd edilməlidir ki, Şah Təhmasib də öz atası kimi səltənət daxilində mənsub olduğu məzhəbin daha geniş yayılmasını təşviq etsə də, bu işin bilik və məntiq üzərində qurulmasına meylli idi. O həm də Səfəvi şahları arasında məzhəb inanclarının elmi biliklər üzərində qurulmasına daha çox çalışan və bunun üçün əməli işlər görən şahlardan biri kimi tanınırdı. Bu sahədə onun istinad etdiyi din alimi isə yalnız M.Kərəki deyildi. Şah Təhmasibin hakimiyyət illərini həm də dinlə bağlı olan elmlərin və bu elmləri inkişaf etdirən alimlərin rövnəq tapdığı bir dövr kimi də xarakterizə etmək mümkündür. Elmi-tarixi əsərlərdə bu mövzu ilə bağlı geniş araşdırmalar da aparılmışdır (78).

Bu din alimləri arasında M.Kərəkinin həm ailə üzvləri, həm tələbələri, həm də ona müxalif olan din alimləri var idi. M.Kərəkinin ailə üzvlərindən olan və Şah Təhmasib hakimiyyəti tərəfindən təqdir olunan belə alimlərdən biri onun oğlu Şeyx Əbdüləali idi. Elmində və biliyində çox böyük nüfuz qazanmış bu alim dövrünün alimləri arasında da böyük nüfuza malik idi. Onun elmi və biliyi Şah Təhmasib tərəfindən də yüksək qiymətləndi-

rilirdi və Şah Təhmasib hüzurunda şəri məsələlərin şərhi adətən onun tərəfindən aparılırdı. “Tarix-i aləmara-yi Abbasi” əsərində onun haqqında belə bir məlumat mövcuddur: “O ali təbəqədən olan üstün fəzilət və bilik sahiblərinin başında mərhəmətli zəmanə müctəhidi Şeyx Əli Əbdüləalinin sadiq oğlu, əsrin və dövrün nadir şəxsiyyəti olan Müctəhidüs-Sani Şeyx Əbdüləal gəlir. O, əqli və nəqli elmlər sahəsində zəmanənin öndəgedəni idi. Çox xoşsöhbət, yaxşı görünüşlü və əxlaq sahibi olan bir adam idi. Tam ixtiyar və istedadla ali müctəhidlik kürsüsünə əyləşmişdi və dövrün əksər üləmaları o cənabın ictihadına əməl edirdilər. Əksər vaxtlarda xoşagəlimli Kaşan şəhərində yaşayıb, dərs demək və ibadət etməklə məşğul olurdu. O, şəriət məsələlərinin həlli və camaatın islah olunması kimi işlərlə məşğul olmaq üçün bir sıra şəxslər təyin etmişdi. Bəzən şəxsən özü də parlaq şəriətin ehkamları əsasında çətin məsələləri həll etməyə meyl göstərərdi. Nə vaxt ki, ulu dərgaha təşrif gətirsəydi, cənnətməkan şah həzrətləri o cənabın hörmətini və ehtiramını həddən artıq saxlayardı. Sarayda və Kaşanda olmasından asılı olmayaraq, onun qapısı həmişə üləmaların və ziyalıların müraciət yeri idi. Əksər üləmalar üsuliddin və füruiddin məsələlərində onun sözlərinə əməl edərdilər. O cənabın ictihadları üləmaların əksəriyyətinin təsdiqinə məruz qalardı və həqiqətən də, onun mələksifət zatı o zamanlar İran mülkünü və dünya insanlarını zinətləndirirdi” (79).

Mühəqqəq Kərəkinin ailə üzvləri arasından Şah Təhmasib hakimiyyəti dövrünün tanınmış alimləri səviyyəsinə yüksələn nümayəndələrindən biri də Mir Seyid Hüseyn əl-Hüseyni Cəbəlamili idi. O, M.Kərəkinin qız nəvəsi idi. Mir Seyid Hüseyn, Şah Təhmasibin hakimiyyəti illərində Cəbəlamildən gələrək, bir müddət Ərdəbildə dini elmləri tədrisilə, sonra şeyxülislamlıqla və şəriət məsələlərinin həlli ilə məşğul oldu. Daha sonra isə o, şah sarayına gələrək müctəhid olmaq iddiasına düşdü və Şah Təhmasibin qayğısı ilə əhatə olundu. O, yüksək ruha və fitrətə, kamil xasiyyətə və dərin hafizəyə malik idi, şah qoşunlarının şəriət məsələlərini həll etməklə məşğul olardı. Çoxlu sayda adamlar gün ərzində onun ali məhkəməsinə müraciət edərdilər. Rəsmi

sənədlərdə onun imzası yerində «seyyidül-mühəqqiqin» (ruhani alimlərin rəhbəri), «sənədül-müdəqqiqin» (din tədqiqatçılarının istinadgahı), «varis-i ülum-i ənbiya vəl-mürsəlin» (peyğəmbərlərin elmlərinin varisi) və «xatəmül-müctəhidin» (müctəhidlərin möhürü) yazardılar. Dövrün din alimlərinin bu vəziyyətə dair daxilən etirazları olduğuna və öz-özlüklərində bununla razılaşmadıqlarına baxmayaraq, nüfuzlu din alimlərindən heç biri bu barədə danışmağa cürət etməzdi. Mir Seyid Hüseyn əl-Hüseyni Cəbəlamilinin çox səlis nitq qabiliyyəti varmış və o, şirindil adam imiş. Şah Təhmasibin hüzurunda dövlət ərkanının, hətta yüksək dərəcəli şahzadələrdən heç birinin izah edə bilmədiyi müşkül məsələlərin şərh edilməsi çox vaxt Seyid Hüseyn əl-Hüseyniyə həvalə olunardı. Onun xahişləri Həzrət Şah Təhmasib tərəfindən qəbul olunardı. Bildirilir ki, Seyid Hüseyn əl-Hüseyninin camaata, xüsusən də dövranın hadisələri ucbatından çətin vəziyyətə düşənlərə çox köməyi dəymişdi. Fiqh haqqında, isna-əşəriyyə (on iki imam) məzhəbinin həqiqiliyi və bidətçi məzhəblərin rədd edilməsi mövzusunda o, bir sıra əsərlər də yazmışdı (80).

Dövrünün bəzi din üləması ilə Şah Təhmasibin özünəməxsus münasibətləri formalaşmışdı. Belə alimlərdən biri Müqəddəs Ərdəbili idi (Molla Əhməd). Əslən Ərdəbildən olan bu din alimi Səfəvi dövründə xüsusi bir fiqh məktəbinin yaradıcısı kimi tanınmışdı və islam alımində də nüfuzlu və mötəbər alimlərdən biri kimi qəbul olunurdu. Müqəddəs Ərdəbili sadəcə fiqh alimi deyildi. O həm də tanınmış zühd və təqva sahibi idi və onun bu keyfiyyətləri dövrünün üləmalarının əsərlərində də öz əksini tapmışdı. M.Ərdəbilinin alimlik fəaliyyəti Nəcəf hövzəsi ilə bağlı idi. Dəfələrlə Səfəvi sarayına dəvət edilsə də, Müqəddəs Ərdəbili bu dəvəti qəbul etmədi və Nəcəfi tərk etmədi. Bu məsələ onun imam-zaman dövlətinə inanclarından və etiqadlarından irəli gəlirdi. Müqəddəs Ərdəbili yer üzündəki hakimiyyətin müqəddəs məsumlara aid olduğunu qəbul edirdi və bu mənada Səfəvi hakimiyyətinin qanuniliyinin şəri baxımdan təsdiqlənməsində o, M.Kərəkidən fərqli baxışlara da malik idi. Yəni M.Ərdəbilinin inancına görə, Səfəvilər nəsli müqəddəs məsumlara aid olmadığı

üçün bu nəslin hakimiyyəti də dini baxımdan qanuni hesab olunmurdu.

Yuxarıda qeyd edildiyi kimi, M.Ərdəbili sultanlara xərac verilməsini və sultanlardan bəxşişlər qəbul edilməsini də dini baxımdan düzgün saymırdı. Belə baxışlarına görə o, M.Kərəkidən fərqlənirdi və onun bu baxışları çoxlu sayda məzhəb üləması tərəfindən də müdafiə olunurdu. Sözsüz ki, M.Ərdəbilinin elmi yaradıcılığı yalnız M.Kərəkiyə müxalif olan mövzuların araşdırılmasından ibarət deyildi. O özündən sonra dini-fəlsəfi mövzuda, dinin irşadı və şərhi üsulları və s. mövzularda dəyərli əsərlər irs qoymuşdur. Səfəvi sarayının dəvətini qəbul etməsə də, Şah Təhmasibin ona qarşı böyük hörmət və ehtiramı var idi. Bunu Şah Təhmasib açıq şəkildə bəyan da etmişdi. Müqəddəs Ərdəbili bir dəfə Şah Təhmasibə məktub yazaraq bir seyidə kömək göstərilməsini ondan xahiş etmişdi. Müqəddəs Ərdəbili bu məktubda Şah Təhmasibə "qardaşım" – deyə müraciət etmişdi. Bu məktubu oxuyandan sonra Şah Təhmasib göstəriş veribmiş ki, onun üçün kəfənlik hazırlasınlar. Kəfənlik hazır olandan sonra o, M.Ərdəbilinin məktubunu həmin kəfənin içinə yerləşdirir və göstəriş verir ki, onu dəfn edəndə həmin məktubu başının altına qoysunlar. Şah Təhmasib deyibmiş ki, qəbirdə inkirlər onu sorğu-suala çəkəndə həmin məktubu şahid gətirərək M.Ərdəbilinin ona qardaş dediyini inkirlərə çatdıracaq və bununla da onların sorğu-sualından xilas olacaqdı (81).

"Tarix-i aləmara-yi Abbasi" əsərində haqqında səxavətlə söhbət açılan Şah Təhmasib dövrünün tanınmış din alimlərindən biri Şeyx Bəhaəddin Məhəmməddir. Bu əsərin müəllifi onu əsrin yeganəsi və dövrünün vahidi kimi xarakterizə edirdi. Yəni öz elmində Şeyx Bəhaəddin bu dərəcəyə yüksələ bilmişdi və ona görə də Şah Təhmasib tərəfindən də dərin ehtiramla qarşılanırdı. O da əslən Cəbəlamildən idi və dövrünün böyük alimi olan Şeyx Əbdüssəmədin oğli idi. Şeyx Əbdüssəməd də dövrünün böyük alimlərindən biri idi və məzhəb biliklərinin öyrənilməsinə bütün həyatını sərf etmişdi. Adı çəkilən mənbədə mövcud olan məlumata görə Əbdüssəməd bütün elm sahələrinə dərindən bələd idi.

Ancaq daha çox fiqh, təfsir və hədis elmi sahəsində araşdırmalar aparmışdı. Şah Təhmasibin hakimiyyəti illərində o da Səfəvi sarayına dəvət almış din alimlərindən biri idi. "Tarix-i aləmara-yi Abbasi" əsərində onun həyatı və Şah Təhmasib sarayında hansı məqama malik olması haqqında müxtəsər bir məlumat mövcuddur: "O, şahın behişt bəzəkli məclisinin iştirakçısı olmaq izzəti ilə əzizlənib, cürbəcür mərhəmətlərə layiq görüldü. Zəmanə üləmalarının izni və razılığı ilə o, ali fəqihlik və ictihad mərtəbəsinə yüksəldi. Millət üləmaları arasında cümə namazının tərtibinin şərtləri barədə ixtilafların mövcud olduğu və uzun müddətdən bəri bu mübahisənin həllinin tərk edilib boş buraxıldığı bir halda, o, bu məsələni gözəl bir şəkildə hazırlayıb təqdim etdi və çoxsaylı möminlər kütləsi ona əməl elədi. Axırda ümumən Xorasan vilayətinin və xüsusən darüssəltənə [Heratın] şeyxülislamlıq mənsəbi və orada şəriət hökmlərinin icrasına nəzarət etmək ona tapşırıldı. Uzun müddət həmin könül oxşayan bölgədə parlaq şəriətə rəvac verdi və o xeyirbərəkətli torpaqlar üzərində qayda-qanunun təmin olunmasını həyata keçirib, dini elmlərin tədris olunmasına, risalələrin və kitabların yazılmasına, müşkül məsələlərin həllinə və [elmi] anlaşılmazlıqların və çətinliklərin aradan qaldırılması ilə məşğul oldu. Nəhayət, Beytül-həramı həcc etmək və insanların ən yaxşısı olan həzrətin (Məhəmməd peyğəmbərin) və ali məqamlı imamların – hamısına Allahın salamı olsun - müqəddəs məzarlarını ziyarət eləmək səadətini dərk etmək şövqünə bürünərək, o tərəflərə yollandı. O, orada qalıb, həmin yerin alimləri ilə vaxtını keçirdi. Axırda əcəli gəlib çatdı və həyat evi kitabının büsatını bir tərəfə buraxıb, gözünün nuru ilə axirət aləminin dəftərini mütaliə etməyə başladı (vəfat etdi)" (82).

Şeyx Əbdüssəməd dünyasını dəyişəndə Bəhaəddin kiçik yaşlarında imiş. O, anası ilə birlikdə Səfəvi hüdudlarına gəlmiş və burada elm və bilik yolunu seçmişdi. Bəhaəddin də atasının vaqif olduğu elm sahələrinin öyrənilməsinə daha çox diqqət yetirmişdi və nəticədə o da fiqh, təfsir, hədis, ərəb filologiyası kimi elm sahələrində dərin biliklərə yiyələnə bilmişdi. Bəhaəddin kəlam elmini və bəzi əqli elmlərin hikmətinə Mövlana Abdulla Yəzdi-

nin, riyazi elmlərə Molla Əli Müzəhhəbin, İmam Rza məqbərəsinin müdərrisi Mövlana Əfzəl Qaininin, təbabət və tibb elminə isə dövrünün çox məşhur alimi olan Həkim İmadəddidn Mahmudun köməyi ilə yiyələnə bilmişdi. Bu mənada Şeyx Bəhaəddin Məhəmməd dövrünün universal bilikli alimlərindən biri kimi yetişə bilmişdi. "Tarix-i aləmara-yi Abbasi" müəllifi də bildirirdi ki, Şeyx Bəhaəddin Məhəmməd çıx qısa zaman ərzində sadalanan bu elm sahələrində çox ciddi biliklər əldə etmişdi ki, bu onun dərin istedad və qabiliyyət sahibi olmasından xəbər verirdi. O, yiyələndiyi elm sahələrində dövrünün ən məşhur alimlərindən də yuxarı yüksələ bilmişdi. Şeyx Bəhaəddinin müxtəlif elm sahələri üzrə çoxlu əsərlər yazması da onun bilikli və zəkalı bir alim olmasının sübutu idi. "Tarix-i aləmara-yi Abbasi" əsərində həmin əsərlərin bir hissəsinin siyahısı verilmişdir. Elə həmin əsərlərin adına diqqət yetirilməsi Şeyx Bəhaəddin Məhəmmədin neçə universal və dərin bilikli bir alim olması haqqında müəyyən təsəvvür əldə etməyə imkan verir: "«Quran-i məcid» əsərinin təfsirinə dair «Ürvətül-vüsqa» («Qırılmaz Pağlıhq») əsəri; özündə səhih hədislərin toplusunu və hər bir hədisin faydası, sübutu və şərhi məsələlərini əks etdirən «Kitab-i cəbəlülmətin» («Mətanətli dağ kitabı»); «Kitab-i məşriqüş-şəmseyn» («İki günəşin doğması kitabı») və «Təfsir-i ayat-i ehkam və əhadis-i səhihə» («Ehkam ayətlərinin və səhih hədislərin təfsiri») əsərləri - «Haşiye-yi təfsir-i Qazi» («Qazının təfsirinə haşiyə») əsəri; «Qəvaid-i şəhidi» («Şəhidlik qaydaları») əsərinə haşiyə; «Səhife-yi ka-milə» («Kamil səhifə») əsərinin şərhi barədə «Kitab-i hədayiqüs-salehin» («Salehlər bağçası kitabı») əsəri; «Kitab-i eynül-həyat fi təfsir-I ayat» («Ayələrin təfsirinə dair dirilik bulağı kitabı») əsəri; «Kitab-i çehel hədis» («Qırx hədis kitabı»); astronomiya («heyət») barəsində «Şərhüş-şərh-i Çəğmini» («Çəğmininin şərhinə dair şərh») əsəri; «Haşiye-yi şərh-i müxtəsər-i üsül» («(Dinin) əsaslarına dair müxtəsər şərhə haşiyə») əsəri; «Haşiye-yi mütəvvəl» («Geniş haşiyə») əsəri; yenə astranomiya («heyət») barədə «Risale-yi təşrihüləflak» («Fələklərin şərhinə dair risalə») əsəri; «Risale-yi xülasətül-hesab»

(«Qısa hesab risaləsi») əsəri; üstürlab haqqında «Risale-yi səhifə» («Səhifə risaləsi») əsəri; «İsna-əşəriyyat» («On iki imam (əqidəsi)») əsəri; «Ərbəe-yi təharət» («Paklıq dördlüyü») əsəri; «Sovm» («Oruc») əsəri; «Sələvat» («Namazlar») əsəri; «Həcc» əsəri; «Kitab-i zübdətül-üsul» («(Dinin) əsaslarının xülasəsi kitabı») əsəri; xəstəliklərin sünnət (Məhəmməd peyğəmbərin qoyduğu ənənə) vasitəsilə müalicəsi barədə «Miftahül-fəlah» («Səadətin açarı») əsəri" (83).

Şah Təhmasib də bu böyük alimin fədakarlıqlarına böyük dəyər verirdi və onun biliklərindən bəhrələnməyə çalışırdı. Onun hökmü ilə Şeyx Bəhaəbbin Məhəmməd İsfahanın şeyxülislamlığı vəzifəsinə də təyin edilmişdi. Yuxarıda adı çəkilən mənbənin məlumatına görə, Şeyx Bəhaəddin vəkaləti-həlaliyyət və şəriət mütəsəddiliyi vəzifələrinə də təyinat almışdı. Amma bir müddət sonra Şeyx Bəhaəddin həcc ziyarətinə yollanmağı qərara almış və ona görə də Şah Təhmasibin təyin etdiyi vəzifələrdən ayrılmalı olmuşdu. Şeyx Bəhaəddin bu səfəri də uğurla başa vurduqdan sonra daha rəsmi vəzifələrdə çalışmamışdı. O, müəyyən mənada tərki-dünyalığı seçərək qalan həyatını elmi biliklərin öyrənilməsinə həsr etmişdi. Məlumdur ki. Şeyx Bəhaəddin hətta Şah Abbasın hakimiyyəti illərində də yaşamışdır və dərin biliyinə, zəkasına və müdrikliyinə görə ona Şah Abbas tərəfindən də çox böyük ehtiram göstərilmişdi (84).

Həm "Tarix-i aləmara-yi Abbasi" əsərində, həm "Əhsənüt-təvarix" əsərində xeyli sayda alimlərin adları çəkilir ki, onlar Şah Təhmasib dövrünün alimləri olmaqla Şah Təhmasibin diqqəti və qayğısı altında fəaliyyət göstərirdilər. Yəni alimlərə qayğı və dini biliklərin araşdırılaraq insanlara çatdırılması Səfəvi sarayının daimi nəzarəti altında olan bir məsələ idi. Dinin, xüsusi ilə də məzhəb dəyərlərinin elmi şəkildə öyrənilməsi və onların doğru şəkildə insanlara çatdırılması, məzhəb biliklərinin təbliğinin yayılmasının dövlətin nəzarəti altında olması Şah Təhmasibin hakimiyyəti illərində din-dövlət münasibətlərinin xarakterik xüsusiyyətlərindən biri idi.

Din-dövlət münasibətləri ilə bağlı Şah Təhmasibin diqqət mərkəzində olan məsələlərdən biri də etiqadı, davranışı, əməlləri ilə hörmət və nüfuz qazanmış seyidlərin xüsusi qayğı altına alınması idi. Çünki seyidlərə olan münasibət məzhəb etiqadlarının və dəyərlərinin daha da kütləviləşməsi və yayılması baxımından təsirli bir vasitə ola bilərdi. Şah Təhmasibin böyük hörmətinə və qayğısına layiq görülmüş seyidlərin çoxu dərin bilikli alimlər, çoxlu müridlərə malik olan şərif və fazil insanlar idilər. Bu insanlar həm bilikləri ilə, həm də onlara bağlı olan müridlər vasitəsilə din və məzhəb dəyərlərinin insanlar arasında yayılmasında, insanların təmiz dini dəyərlərə bağlanılmasında, din-dövlət-səltənət münasibətlərinin sağlamlaşmasında, daha da güclənməsində və möhkəmlənəsində, habelə səltənət daxilində ictimai-mənəvi mühitin formalaşmasında əhəmiyyətli rol oynaya bilərdilər. Ona görə idi ki, etiqadlı və təmannasız seyidlərə səltənət daxilində yüksək dəyər verilirdi. "Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasibin seyidlərə münasibətini təsəvvür etməyə imkan verən maraqlı məlumat mövcuddur: "Tamamilə gözəl və pak nəsildən olan böyük seyidlər əziz və istəkli sayılırdı, onlara artıq dərəcədə hörmət və ehtiram göstərilirdi. Bu mövzunun sübutu həddən ziyadə saygıya və hörmətə malik olan Təbrizin Üskuyə seyidləridirlər. Onlar bir müddət cənnətməkan şahın hüdudsuz ehtiramı ilə əhatə olunmuşdular. Onların əhvalatının icmalını burada yazmaq münasib görüldü. Haqqında bəhs etdiyimiz bu seyidlər dörd qardaş olmuşlar: Mir Sədrəddin Məhəmməd, Əmir Nizaməddin Əhməd, Əmir Qəmərəddin və Əmir Əbülhamid. Onların babası olan Mir Əbülqasim yüksək şöhrətli seyidlərdən idi, maddi və mənəvi kamillikləri özündə cəmləşdirmişdi və sultanların hüzurunda hörmət və izzət sahibi idi. Amma onlar cənnətməkan şahın hüzurunda yüksək səviyyəyə tərəqqi edib, elə bir mehribançılıq, izzət və etibar mərtəbəsinə çatdılar ki, o vaxtadək heç bir zamanda heç bir kəs sultanların hüzurunda o yaxınlığın, o ixtiyarın və o iqtidarın heç onda birinə də nail olmamışdı. Onların mümkün və qeyri-mümkün olan hər bir arzusu hələ dilə gətirilmədən, him-cim və işarə ilə təxirə salınmadan

həyata keçirilmiş olardı. Hətta dövlət işlərində qənaət etmək lazım gəldikdə belə, onların həftəlik ənamları və ehsanları günbəgün, yubadılmadan ödənilərdi. Onlar o dərəcədə arsız idilər ki, «sərkari-xassə»dəki hansısa libasa, töhfələrə və hədiyyələrə onların gözü düşsəydi, həmin saat hökmdarın fərmanı ilə onlara təslim edilərdi. Əksər vaxtlar [diləklərini] ərz etməyə möhtac olmamıçlar. O həzrət (Şah Təhmasib) dəfələrlə onların Üskuyə ərazisində olan mənzilinə qədəm qoyub, şəhərdən oraya təşrif aparmışdır və onların xatirinə sevinc və fərəh gətirmişdir. Lakin haqqında bəhs etdiyimiz həmin seyidlər hökmdarın onlara layiq gördüyü bu mərtəbənin və bu dərəcənin qədrini bilməyib, öz səadətlərini qoruyub saxlamağı bacarmadılar. Onlar özlərinə aid məsələləri ağılsızcasına dilə gətirməyə başladılar. Çünki onlar divan işlərinə vaqif deyildilər və ali üsul və qaydadan heç nə bilmirdilər. Beləliklə, gerçəklikdən uzaq olan istəklərə düşdülər. Onların get-gedə baş qaldıran müxalif diləkləri əşrəfin könlünün onlardan inciməsinə səbəb oldu. Belə ki, onlar səltənət karxanasının içlərində əvəzləmə və dəyişikliklər etmək istədilər. Məsələn, vəkil, vəzir, sədr və s. kimi vəzifələrə kimlərisə təyin etmək arzusuna düşdülər. Belə olduqda, onların hiyləgərliklərinin başlanğıcında onların himayəçisi olan, lakin sonradan onların pis xüsusiyyətlərini görüb mövqeyini dəyişən vəzir Qazi Cahan ağlabatan dəlillər əsasında tədricən onları o həzrətin (Şah Təhmasibin) gözündə etibardan saldı və hökm olundu ki, onlar öz evlərində oturub, bundan sonra çağırılmayınca ulu dərgaha gəlməsinlər. Lakin onlara verilmiş syurğallar onlardan geri alınmadı. Bu hekayəti söyləməkdə məqsəd o həzrətin bu yüksək hörmətli [seyidlər] təbəqəsinə bəslədiyi gözəl etiqadın nə dərəcədə olduğunu göstərməkdir.

Bu «vilayət» nişanəli [Səfəvi] sülaləsində [qayda] bu cür idi ki seyidləri və ruhaniləri himayə etmək, onların işlərinə cavabdeh olmaq, vəqflərin idarə olunması və şəriətin yayılması üçün vəsaitlərin xərclənməsi kimi öhdəliklər daşıyan sədarət (sədr) vəzifəsi yüksək dərəcəli və pəhrizkar seyidlərdən savayı, digər bir kimsəyə tapşırılmazdı” (85).

Bu məlumat da onu təsdiq edir ki, Şah Təhmasib etiqadlı və məlumatlı seyidlərə həm inanırdı, həm də onları hər cürə qayğı ilə əhatə edirdi. Səltənətin dini işlərinin idarəçiliyinə aid olan məsuliyyətli vəzifələr də onlara həvalə olunurdu. Çünki həmin vəzifələrə seçilən seyidlər savadlı və bilikli olmaqdan əlavə həm də insanlar arasında hörmət və ehtirama malik idilər. Şah Təhmasib də şübhə etmirdi ki, belə adamların sözü insanlar tərəfindən də daha arxayınlıqla eşidiləcəkdi.

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasib dövrünün tanınmış və hörmətli seyidlərinin böyük bir siyahısı və onların həyat yolu haqqında məlumatlar öz əksini tapmışdır. Bu seyidlər arasından hətta Şah Təhmasibin övladlarının təlim-tərbiyəsi ilə məşğul olanlar da var idi. Məsələn, Mir Məhəmməd Mömin Astrabadi beləlⅹərindən idi və o, Şah Təhmasibin oğlu Sultan Heydər Mirzənin təlim-tərbiyəsi ilə məşğul idi (86). Adı çəkilən mənbədə Şah Təhmasib dövrünün tanınmış seyidlərindən olan Mir Qiyasəddin Məhəmməd, Şah Qasım Nurbəxş, Mir Fəxrəddin Simaki, Mir Rəhmətulla Pişnamaz, Mir Əlaünnəbi İmadülmülk Mərəşi, Mir Məhəmməd Bağır Damad, Şah Təqiəddin Məhəmməd, Mir Mahmud Şulistani, Əmir Əbdülvəli Əncu, Mir Əbdülməhəmməd, Mirzə Məxdum Şərifi, Şah İnayətulla İsfahani, Mir Seyid Əli Şüştəri, Mir Kamaləddin Məhəmməd Astrabadi, Mir Əbülqasım İsfahani, Mirzə İbrahim Həmədani, Mirzə Əbülhüseyn Cahanşahi, Mir Kəlan Astrabadi, Mir Seyid Əli Xətib, Mir Tahir Kaşi, Mir Məhəmməd Əşrəf Astrabadi və digərləri haqqında məlumatlar vardır. Bu seyidlər dövrünün insanlar tərəfindən qəbul olunmuş və şah qayğısı ilə əhatə olunmuş seyidləri idilər. "Tarix-i aləmara-yi Abbasi" əsərində Təbrizin, İsfahanın və Həmədanın seyidləri isə ayrıca olaraq belə xarakterizə edilmişdir: "Təbrizin Əbdülvəhhabiyyə seyidləri: Əbdülvəhhabiyyə nəslinin böyüklərinin əksəri darüssəltənə Təbrizdə yaşayırdılar. Bəhs olunan dövrdə (Şah Təhmasibin ölümü vaxtı) onlardan bəziləri Yəzddə, Kaşanda və İsfahanda da yaşayırdılar. Onların ulu əcdadı olan Əbdülvəhhab böyük səviyyəli və yüksək şöhrətli bir seyid idi və zəmanə sultanlarının qayğısı ilə əhatə olunmuşdu. O,

Həsən padşahın oğlu Yusif mirzə ilə qohum olmaq şərəfinə nail olmuş və onun övladlarından biri olan Seyid Həsən bəy həmin Yusif mirzənin möhtərəm qızından doğulmuşdu. Buna görə də cənnətməkan şah həzrətlərinin zamanında Həsən padşahın Təbrizin Sahibabad [ərazisində] yerləşən və Nəsriyyə [adı] ilə məşhur olan ulu məqbərəsinin «touliyyət»i əksər vaxtlar bu nəslə mənsub idi və indi də onun övladlarına məxsusdur.

Haqqında danışılan [Əbdülvəhhabiyyə] seyidlərinin digər bir nümayəndəsi də Mir Nemətulladır. O, yüksək dərəcəli, dindar və pəhrizkar bir seyid idi. Onun Cahanşah sülaləsinin qızlarına qohumluğu və əqrəbalığı çatırdı. O, rumilərin istilası vaxtı İraqa gəlib, Kaşanda şəriət məsələlərinin mütəsəddisi, axırda isə İsfahan qazısı olmuşdu. Vəzifədə olduğu müddətdə özünü tamahkarlığa aludə etməmişdi. Yaşı doxsanı adlamışdı. Onun qardaşı Mir Əbül-qasim darüssəltənə Təbrizin qazısı vəzifəsində idi.

İsfahan və Həmədan vilayətlərində də böyük seyidlər yaşayırdılar. Bunların arasında Əmir Siracəddin Qasım vardı ki, çox alicənab və mötəbər [bir adam] idi. Onun Luristan valisi Əmir Cahangir Abbasinin sülaləsinə qohumluğu çatırdı. Cənnətməkan şah zamanında Əmir Cahangir üsyan qaldırdı, lakin məğlubiyyətə uğradı. Onun oğulları Məhəmmədi və Şah Rüstəm Bağdadda qərar tutmuşdular. Əmir Siracəddin Qasımın xahişi ilə onların təqsiri bağışlandı və öz irsi mülkləri onlara qaytarıldı. Həmin zaman (Şah Təhmasibin ölümü vaxtı) onun (Əmir Siracəddin Qasımın) oğlu Mirzə Abdulla olduqca dindar və mömin [bir şəxs] idi.

O, öz ustadından dini təbliğat və ibadətə rəhbərlik etmək rüxsəti almışdı və onun özünün də ixtiyarı vardı ki, layiq bildiyi hər kəsə bu işlər barəsində izin və rüxsət versin. Luristanın və o ətrafın əhalisinin həmin bu Mirzə Abdullaya böyük etiqadı vardı. Onlar onu mürşid, özlərini isə onun müridləri hesab edirdilər. [Əmir Siracəddin Qasımın və onun oğlu Mirzə Abdullanın] külli miqdarda əmlakı və mülkiyyəti vardı ki, indi onların əmmaməli xələfləri arasında bölüşdürülmüşdür. Onların nəsli şah (Abbas) həzrətləri tərəfindən layiqli soyurğallar və bəxşişlərlə mükafatlandırılmaqdadır” (87).

Din-dövlət münasibətlərinin nizamlanması baxımından səltənət miqyasında məscidlərin tikilməsinə və onların fəaliyyətinin ahəngdarlığına xüsusi diqqət yetirilirdi. Çünki məscidlər konkret tarixi şəraitdə insanların həm dini mərkəzi, həm dini maarifləndirmə mərkəzi, həm də ictimai fikirlərin, habelə məzhəb etiqadının formalaşma mərkəzi kimi əhəmiyyət kəsb edirdi. Məzhəb biliklərinin və dəyərlərinin təbliği və insanlara çatdırılması baxımından da məscidlər daha əlverişli imkanlara malik idilər. Məscidlərdə dua və namaz mərasimlərindən əlavə, dini söhbətlər aparılır, təfsir və hədislərin şərhi insanlara çatdırılır, moizələr oxunur, insanları maraqlandıran suallara cavablar axtarılırdı. Yəni dövlətin dinə dayaqlanan ideologiyasının kütləviləşməsi və özünə dəstək tapması baxımından məscidlər ciddi rol oynayırdılar. Məscidlər həm də tədris mərkəzləri idilər və məscidlərdə təşkil olunmuş məşğələlərdə dinin əsasları öyrədilirdi. Bu məqsədlə savadlı insanlar dinin tədrisi işlərinə cəlb olunurdular. Bütün bu cəhətlərinə görə idi ki, məscidlərin tikintisi də dövlətin nəzarəti altında idi. Şah Təhmasibin hakimiyyəti illərində də şəhərlərdə, xüsusilə Səfəvi dövlətinin paytaxtlarında Təbriz və Qəzvin şəhərlərində yeni və möhtəşəm məscidlərin tikintisinə lazımi diqqət yetirilirdi (88).

Böyük məscidlərin nəzdinə mədrəsələr də yaradılırdı. Mədrəsələrin yaradılması və bu işə rövnəq verilməsi də Şah Təhmasib dövründə dövlətin qayğısı altında olan məsələlərdən biri idi. Çünki qonşu ölkələrlə müqayisədə fərqli etiqad olan şiə məzhəbinin dəyərlərinin öyrədilməsi, din təhsilinin kütləviləşdirilməsi, Səfəvi dövlətinin etiqad əsasları olan məsələlərin təbliğ edilməsi mədrəsələrin mövcudluğunu və onların səmərəli fəaliyyətini tələb edirdi. Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib məzhəb dəyərlərinə şüurlu münasibətin və inancların tərəfdarı idi və belə şüurlu münasibəti də elmi biliklərin öyrənilməsi və yayılması ilə əldə etmək mümkün ola bilərdi. Dövrün böyük din alimlərinə həm də ona görə qayğı göstərilirdi ki, onlar məktəb və mədrəsələr vasitəsi ilə məzhəb dəyərlərini insanlara öyrətsinlər və təbliğ etsinlər. Hakimiyyət tərəfindən bunun üçün zəruri olan mühit də

formalaşdırılır və təşviq edilirdi. Aparılan tədqiqatlar da göstərirdi ki, istər Şah Təhmasibin hakimiyyəti illərində, istərsə də ondan sonra Səfəvi dövləti daxilində mədrəsələrin, məktəblərin tikintisinə və onların davamlı fəaliyyətinə lazımi diqqət ayrılırdı. Çoxlu sayda mədrəsələr tikildi, bunun üçün lazım olan vəsait ayrıldı. Nəticədə qısa müddətdən sonra Səfəvi dövləti məzhəb dəyərlərinin əsaslarını öyrədən böyük bir mərkəzə çevrildi və dini biliklərin təbliği və yayılması üçün bir elmi-dini baza yaradılmış oldu. Şah Təhmasibin hakimiyyəti illərində səltənət daxilində məşhur mədrəsələr tikilmiş və istifadəyə verilmişdi. Onların arasında Qəzvindəki Peyğəmbəriyyə mədrəsəsi, İsfahandakı Zülfüqar mədrəsəsi və onun nəzdində böyük kitabxana, İsfahandakı Pərixan xanım mədrəsəsi, habelə səltənət daxilində tikilmiş olan İltifatiyyə mədrəsəsi, Ağa mədrəsəsi, Heydəriyyə mədrəsəsi, Sərdar mədrəsəsi, Şeyxülislam mədrəsəsi, Salehiyyə mədrəsəsi və s. mədrəsələr var idi (89).

Bütünlükdə, Şah Təhmasibin hakimiyyəti illərində din-dövlət münasibətlərinin möhkəmləndirilməsi üçün daha kamil bir sistem formalaşdırılmış və onun fəaliyyətinin ahəngdarlığı təmin edilmişdi. İdeologiyası dini dəyərlər üzərində qurulmuş bir hakimiyyət üçün bu məsələ sözsüz ki, xüsusi önəm kəsb edirdi. Lakin bu işlərin mərkəzində də Səfəvi dövlətinin möhkəmləndirilməsi, bu dövlətin qüdrətinin artırılması dayanırdı.

## 3. Şah Təhmasib dövründə dini idarəçiliyə səlahiyyətli olan vəzifələr

Şah Təhmasib dövrünün din-dövlət münasibətlərinin bir mühüm xüsusiyyəti də səltənət miqyasında dövlət tərəfindən dini işlərə rəhbərliyin və dini idarəçiliyin həyata keçirilməsi üçün müvafiq və işlək strukturların formalaşdırılması idi. Əslində, bu struktur hələ Şah İsmayılın hakimiyyəti illərində yaradılmışdı. Hətta bəzi dini idarəetmə vəzifələri Səfəvi dövlətindən əvvəl mövcud olmuş dövlətlərdən əxz edilmişdi. Şah Təhmasibin hakimiyyəti illərində isə bu strukturlar nəzəri-təcrübi baxımdan

daha da təkmilləşdilər və onların fəaliyyətində sistemlilik daha tamamlanmış bir şəkil aldı. Xüsusilə, tanınmış din alimlərinin Livandan dəvət edilməsi, habelə yerli fəqihlərin fəaliyyətinə diqqətin artırılması dini idarəetmə strukturlarının fəaliyyətinin təşkilində də özünü göstərməyə başladı. Bu zaman nəzəri biliklərlə praktiki fəaliyyətin qovuşması və bir-birini tamamlaması, bütünlükdə, dövlətin özünə qarşı daha mükəmməl yanaşmalara yol açdı.

Şah Təhmasibin hakimiyyəti illərində də əvvəllər mövcud olmuş əsas dini vəzifələr qalmaqda davam edirdi. Həmin vəzifələrin zirvəsində sədr, şeyxülislam və xəlifətül-xüləfa vəzifələri dayanırdı. Bu vəzifələr səltənət idarəçiliyinin rəsmi strukturuna daxil idilər, onlara təyinat rəsmi şəkildə aparılırdı və rəsmi şəkildə də vəzifədən azad olunurdu. Amma elə vəzifələr də var idi ki, onlar daha çox ictimai xarakter daşıyırdı və həmin vəzifə sahiblərinin səlahiyyətləri ictimai çərçivədə idi. Məsələn, pişnamaz, imam-cümə, müctəhid, müdərris və s. Rəsmi dini idarəçilik strukturlarına təyinat alanlar maaşlarını da dövlətdən alırdılar. Bu maaşlar nağd şəklində də ola bilərdi, onlara bağışlanmış olan torpaq sahələri və yaşayış məntəqələrinin əhalisindən toplanan vergilər vasitəsi ilə də ola bilərdi (90).

### a) sədr

Sədr vəzifəsi Səfəvi dövlət idarəçiliyində ən yüksək dini vəzifə idi. Bu vəzifə Şah İsmayılın hakimiyyəti illərində mövcud olsa da dövlət idarəçiliyində onun tətbiqinin daha qədim tarixinin olduğu məlumdur. Belə ki, bu vəzifəni hələ Teymirilər idarəçiliyində görmək mümkündür. Səfəvi dövlətindən əvvəl mövcud olmuş Azərbaycan dövlətlərində də sədr vəzifəsi tətbiq edilmişdi. Səfəvi dövlətinin qurulması ilə bu vəzifənin tətbiqinə təbii bir ehtiyac yarandı. Çünki dini dəyərlərin dövlət və ictimai həyatda xüsusi yeri olan Səfəvi dönəmində dini işlərin aparılması dövlətin siyasi-dini məzmunundan irəli gəlirdi. Ona görə də dövlət bər-

qərar olan kimi səltənət daxilində bütün dini işlərə rəhbərlik edəcək sədr vəzifəsi də təsis edildi.

Səfəvi dövlətində əvvəlki dövlətlərə nisbətən fərqli məzhəbin rəsmi dini inanc kimi qəbul edilməsi də sədr vəzifəsinin əhəmiyyətini daha da aktuallaşdırırdı. Yeni şəraitdə səltənət daxilindəki əhalinin böyük əksəriyyətinin sünni məzhəbinə malik olduğu bir vaxtda şiə məzhəbinin hakim mövqeyinin təmin edilməsi məqsədyönlü və davamlı fəaliyyətin aparılmasını tələb edirdi. Bunun üçün isə davamlı fəaliyyət göstərən bir idarəçilik sisteminin formalaşması dövləti əhəmiyyət kəsb edirdi.

Səfəvi dövlətinin idarəçilik sistemində dini idarəçiliyin də perpendikulyarı yaradıldı. Sədr vəzifəsi bu perpendikulyarın zirvəsində dayanırdı. Birbaşa şaha tabe olan sədrin çox böyük səlahiyyətləri var idi. Geniş mənada səltənət sədri səltənət hüdudlarında dini sahədə baş verən bütün proseslərə, bu proseslərin dövlətin maraqları çərçivəsində istiqamətləndirilməsinə və inkişaf etdirilməsinə məsuliyyət daşıyırdı. Konkret mənada isə sədr səltənət daxilində olan bütün səviyyəli din mənsublarının rəhbəri olmaqla onların fəaliyyətinə nəzarət edirdi. Bu din xadimlərinə nəqiblər, namaz imamları, qazilər, xətiblər, seyidlər, müqəddəs ziyarətgahların xadimləri, mədrəsə və məscid rəhbərləri və digərləri daxil idi. Paytaxt istisna olmaqla digər şəhər və vilayətlərin din mənsublarının hamısı sədr tərəfindən təyin olunurdu. Mərkəzi idarəçiliyə daxil olan din mənsubları da sədr tərəfindən təyin olunurdu (91). Şah tərəfindən müəyyənləşdirilmiş dini siyasətin həyata keçməsinin təşkili sədrin üzərində idi. Bu siyasəti həyata keçirməklə sədr səltənət hüdudlarında məzhəb dəyərlərinin kütləviləşməsinə və bu dəyərlərin etiqada çevrilməsinə nail olmalı idi. Həmin məqsədə çatmaq üçün din elmlərinin inkişafı və bunun üçün zəruri şəraitin və mühitin yaradılması sahəsində də sədrin üzərinə ciddi vəzifələr düşürdü.

Sədr vəzifəsinə bir qayda olaraq fəqihlər və din alimləri seçilirdilər. O adamlar seçilirdilər ki, onların dini bilikləri etibar doğururdu və səltənət daxilində müəyyən nüfuz sahibi idilər. Şah Təhmasibin hakimiyyəti illərində isə sədr vəzifəsinə tələblər bir

qədər də yüksəldi və bu vəzifəyə seçilənlərin elmi-bilik səviyyəsinə münasibət daha da ciddiləşdi. Bu da daha çox Livandan olan din alimi Mühəqqəq Kərəkinin Səfəvi sarayına dəvət edilməsi ilə bağlı idi. Onun özünün sədr olması imkanları da var idi. Lakin M.Kərəki rəsmi vəzifələrdə olmaqdan çəkindi. Bununla belə, sədr vəzifəsinə təyinat zamanı Mühəqqəq Kərəkinin mövqeyi hər zaman üstün tutulurdu.

Şah Təhmasibin hakimiyyəti illərində sədr vəzifəsinə təyinat alanlar bunlar idi: Camaləddin Astrabadi, Mir Qivaməddin Hüseyni, Əmir Nemətulla Hilli, Əmir Qiyasəddin Mənsur Şirazi, Mir Müəzzəddin Məhəmməd İsfahani, Əmir Əsədulla Mərəşi, Şah Təqiəddin Məhəmməd İsfahani, Əmir Məhəmməd Yusif Astrabadi, Mir Seyid Əli ( Mir Əsədulla Mərəşinin oğlu), Mir Qiyasəddin Məhəmməd ( Mir Miran) (92).

Yuxarıda qeyd edildiyi kimi, sədr vəzifələrin təyinatda din alimi Mühəqqəq Kərəkinin fikirləri birmənalı şəkildə nəzərə alınırdı. Hətta mövcud sədlərin onunla olan bu və ya digər məsələlər üzrə mübahisələri zamanı da Mühəqqəq Kərəkinin mövqeyinə üstünlük verilərdi. Mühəqqəq Kərəki ilə aparılan mübahisələrdən sonra Əmir Nemətulla Hilli ilə Əmir Qiyasəddin Mənsurun da öz vəzifəsini itirməsi məlumdur. Bu barədə "Tarix-i aləmara-yi Abbasi" əsərində də müəyyən məlumat mövcuddur: "Şanı uca olan bu [seyidlər] təbəqəsinin zümrəsindən iki nəfər cənnətməkan şah həzrətləri zamanında ali sədarət mənsəbinə təyinat almışdı. [Şah Təhmasibin] hakimiyyətinin əvvəlində Əmir Qivaməddin Hüseyn İsfahani sədrlikdə Mir Camaləddin Astarabadiyə şərik edilmiş, bu sonuncunun ölümündən sonra Əmir Qivaməddin Hüseynlə birlikdə Hillə ruhanilərindən olan Mir Nemətulla Hilli şərikli sədrlik rütbəsinə layiq görülmüşdür. Əmir Qivaməddin Hüseynin ölümündən sonra Mir Nemətulla Hilli ilə yanaşı, «Əllamətül-üləmayi» («Alimlərin ustadı») ləqəbini daşıyan Əmir Qiyasəddin Mənsur Şirazi sədarət vəzifəsinə şərik edildi. Daha sonra Mir Nemətulla «Xatəmül-müctəhidin» («Müctəhidlərin möhürü») ləqəbini daşıyan Şeyx Əli Əbdüləali ilə düşmənçilik və rəqabət etməsi və «Xatəmül-müctəhidin»ə

müxalif olan Şeyx İbrahim Qətifi ilə dost olması səbəbindən sədarətdən uzaqlaşdırılaraq Hilləyə getdi və «Əllamətül-üləma-yi» təkbaşına sədr oldu. Lakin onunla «Xatəmül-müctəhidin» arasında da pis münasibət yarandı. Mir («Əllamətül-üləmayi») onu («Xatəmül-müctəhidin»i) cahillikdə günahlandırdı və o da öz növbəsində Miri [dini məsələlərə] laqeydlikdə ittiham etdi. Bir gün əşrəfin hüzurunda onlar arasında söz döyüşünə gətirib çıxaran elmi mübahisə baş verdi. Get-gedə onların bu mübahisəsi böyük bir qəbahət halına gəlib çatdı. Şah [Təhmasib] həzrətləri «Xatəmül-müctəhidin»in tərəfini saxlayıb, Miri («Əllamətülül-əmayi »ni) sədarət vəzifəsindən çıxardı. Bu sonuncu şəxs həmin hadisədən sonra bir neçə gün ərzində icazəsiz olaraq Şiraza yollandı. Zəmanə müctəhidinin istəyinə uyğun olaraq, sədarət mənsəbi elmi və əməli kamillikləri özündə cəmləşdirmiş Mir Müizzəddin Məhəmməd İsfahaniyə tapşırıldı və o, səkkiz il müddətində təkbaşına və tam ixtiyarla sədrlik etdi. Axırda o, Həkim Kazeruninin fırıldağı nəticəsində işdən çıxarıldı. Ondan sonra Mir Əsədulla Mərəşi Şüştəri ali sədarət mənsəbinə layiq görüldü və o, həyatda olduğu qalan müddət ərzində sədr oldu. Onun ölümündən sonra Şah Təqiəddin Məhəmməd İsfahani bu vəzifəyə təyin edildi. Lakin əşrəfin mübarək xasiyyətinə xoş gəlməyən əməllər törətdiyinə görə o da tutduğu vəzifədən azad olundu və sədarət mənsəbini bilikli ruhanilər zümrəsindən olan Mir Məhəmməd Yusif Astarabadi ilə Mir Əsədullanın oğlu Mir Seyid Əli arasında bölüşdürüldü" (93)..

Hakimiyyəti dövründə ilk sədrlərin təyinatı məsələsinə Şah Təhmasib öz təzkirəsində də münasibət bildirmişdi. O yazırdı: "Sədarət mənsəbini Mir Camaləddin Astrabadi və Mir Qəvaməddin Nəqib İsfahaniyə verdim ki, alimənsəb olduğu üçün birlikdə idarə etsinlər və biri-birilə yola getsinlər. Böyük mənsəb olduğu üçün külli miqdarda məbləğlər əldə edilirdi, bu da müəyyən ehtiyaclar və ehtiyacı olanlara xərclənməli və çatmalı idi. Özüm həmişə mədaxil və məxaricə nəzər yetirirdim ki, məbada, Allah eləməmiş bir balaca səhv edib təqsirkar olsalar, şiddətli surətdə cəzalandırılsınlar. Xacə Camaləddin Məhəmməddən bəzi

qəbahətlər baş verdiyinə görə həbs və cəzaya layiq görüldü. Axırda onu yandırdılar" (94).

"Əhsənüt-təvarix" əsərinin müəllifi Həsən bəy Rumlu yazırdı ki, Cəfəri məzhəbinin və on iki imam əqidəsinin bəyan edilməsi sahəsində müqəddəslik sarayının tədqiqatçısı olan Xoca Nəsirəddin Məhəmməd Tusidən sonra heç kəs Əmir Camaləddin Məhəmməd Astrabadi qədər xidmət göstərməmişdi. Bildirilir ki, o, əxlaqsızlığın və pozğunluğun qadağan edilməsi və sıxışdırılması, bidətçi qaydaların aradan qaldırılması və ram edilməsi, günahların və imansızlığın rədd edilməsi, şəraba və sərxoşluğa qarşı mübarizə, əxlaqi məsələlərdə hədd-hüdudun gözlənilməsi, yaramaz əməllərin məzəmmət olunması, dini fərzlərə və vacibata riayət edilməsi, cümə və camaat namazlarının vaxtlarının dəqiqləşdirilməsi, orucun və namazın ehkamı, imamların və müəzzinlərin əhvalının təhqiqi, müfsidlərin (fəsadçıların) və xəbislərin şərinin rədd edilməsi və günah işlər törədənlərin dəf olunması istiqamətlərində mümkün qədər ciddi işlər görmüş, əhalini islam şəriətinin hökmlərinin təliminə rəğbətləndirmiş və həvəsləndirmişdi. Dünyasını dəyişəndən sonra onu Kərbalada dəfn etdilər (95).

Yuxarıdakı qeydlərdən göründüyü kimi, Əmir Nemətulla Hilli ilə şərlikli sədr vəzifəsinə təyin edilmiş Əmir Qiyasəddin Mənsur Şirazi alimlərin ustadı ləqəbinə layiq görülmüşdü. Bu da onun elmində və biliyində yüksək mərtəbəyə qalxmasından xəbər verirdi. Amma mövcud məlumata görə, dərin elmi biliklərə malik olan Əmir Qiyasəddin Mənsur dünyəvi işlərə və cazibələrə çox meyl etdiyindən davranışında sədr vəzifəsi ilə bir araya sığmayan hərəkətlər müşahidə edilməyə başladı. Şah Təhmasibin yanında böyük nüfuza və təsir gücünə malik olan Mühəqqəq Kərəki onun bu hərəkətlərini qəbuledilməz saydı və onun tövsiyəsi əsasında Şah Təhmasib tərəfindən vəzifəsindən azad edildi.

Mənbələrdə mövcud olan məlumat bu barədə müəyyən təsəvvür də əldə etməyə imkan verir: "Əmir Qiyasəddin Mənsur ibn Əmir Sədrəddin Məhəmməd Şirazi elmi və əməli hikməti özündə cəmləşdirməsi üzündən üçüncü müəllim ("salisi-müəl-

limin”) idi. Onun əhvalının tale üfüqündən mənəvi fəzilət ulduzları doğmuş və onun əsərlərində əksini tapmış elmlərin məqsədlərindən nurlu kamal şəfəqləri parlamışdır.

...Onun şanının uca və biliyinin çox olmasını göstərmək üçün təkcə bunu qeyd etmək kafidir ki, İsgəndər şanlı xaqan öz səltənəti zamanında tədqiqatçı alimlərin alimi, araşdırmaçı fazillərin ən kamili, peyğəmbərlər ağasının (Məhəmməd peyğəmbərin) elmlərinin varisi, bəşərin ustadı, on birinci ağıl (“əqli-hadiəşər”) Xoca Nəsirəddin Tusi həzrətlərinin Marağada yerləşən və tamamən viran olan rəsədxanasını təmir etmək üçün məhz onu tələb etmişdir (çağırmışdır). Lakin bu işin tamamlanması otuz ilə baş verəcək Zühəl dövrünə təsadüf etməli olduğu üçün İsgəndər şanlı xaqan zamanın uzunluğunu ərz edib bu işin tamamlanmasına səy göstərmədi. Cənab Mir [Qiyasəddin Mənsur] atəşək xəstəliyindən çəkinərdi və o səbəbdən cəmi aləm əhlindən iyrənərdi, əlini insan fərdlərindən heç bir fərdin əlinə vurmazdı. Qorxardı ki, birdən həmin adamda atəşək olar. Əgər bəzən böyüklər və alilər onunla görüşmək istəsəydilər, əlini ətəyinə tutub görüşərdi. Əgər bir kəs onun tabeçilərindən birini onun etibar nəzərindən salmaq istəsəydi, sübutsuz-dəlilsiz həmin adamı adı çəkilən xəstəlik vasitəsilə [onun] nəzərindən salardı və [Əmir Qiyasəddin Mənsur] bu [iddianın] doğru olub-olmadığına diqqət yetirməzdi. O, sədarət [vəzifəsini tutduğu] zaman Qazı Əli Bağdadi onun divan işlərinin icraçısı idi. Bir gün Qazı Müsafir zarafat və məzə üzündən ərz etdi ki, Qazı Əli bundan öncə atəşək xəstəliyinə mübtəla olmuşdur. Növbəti gün Qazı Əli o həzrətin yanına gəldi ki, Mirin cibindən möhürü çıxarıb buyruqları və hökmləri möhürləsin. Mir, Qazıdan nifrət edərək özünü ondan uzaq saxladı. Hərçənd Qazı onun yanına getsə də, Mir özünü ondan aralı tutdu. Bu minvalla Mir ilə Qazı bütün divanxananı gəzdilər. Ondan sonra Qazı bildi ki, [Mirin ona olan] nifrətinin səbəbi nədir. Bu [nifrəti] aradan qaldırmağa nə qədər səy göstərsə də, faydası olmadı.

…Zəmanə müctəhidi olan həzrət (Şeyx Əli ibn Əbdüləali) ikinci dəfə İraqri-Ərəbdən xilafət məqamlı taxtın ətəyinə gəldiyi zaman o həzrət (Əmir Qiyasəddin Mənsur) sədarət şərəfinə malik

idi. Zəmanə müctəhidi Mirin müqəddəs şəriətin qeydinə qalmaması və onun bəzi fitnə-fəsad işlərə, yaramazlıqlara və cahilliklərə baş qoşması haqqında söhbətləri eşidib ona qarşı ədavət etməyə başladı. İki tərəf arasında elə güclü bir düşmənçilik yarandı ki, bunu heç bir şəkildə aradan qaldırmaq mümkün deyildi. Axırda bu məsələ tamamilə qəbahətli bir şəkil aldı. Bir gün zəmanə müctəhidi behişt ayinli məclisdə hazır idi ki, Mir təşrif gətirdi və elmi mübahisə ortaya çıxdı. O mübahisə kobudluq və münaqişə ilə nəticələndi. Dinin pənahı olan şah zəmanə müctəhidini himayə etdi və həmin məclisdə onu (Qiyasəddin Mənsuru) sədarətdən çıxardı. O, bir neçə gün dərgah mülazimi olduqdan sonra Şiraz tərəfə yola düşdü və bu il dünyadan köçdü. Əsərləri sırasında bunlar vardır: “Haşiyeyi-hikmətül-eyn” (“Varlıq hikmətinin haşiyəsi”), “Haşiyeyizövra” (“Zövra haşiyəsi”), “Əxlaqi-Mənsuri” (“Mənsurun əxlaq kitabı”), “Mühakimat” (“Mühakimələr”), “Haşiyeyi-işarat” (“İşarələr haşiyəsi”), “İsbati-vacib” (“Vacib olanın isbatı”), “Məşariq” (“Məşriqlər”), “Haşiyeyi-təcrid” (“Təcrid haşiyəsi”), “Təfsiri-sureyi-həl-əta” (“Həl-əta surəsinin təfsiri”), “Miratül-həqaiq” (“Həqiqətlər aynası”), “Səğir dər heyət” (“Astronomiya haqqında kiçik kitab”), “Ləvameyi-heyət” (“Astronomiya şəfəqləri”), hesab haqqında “Kifayeyi-Mənsuri” (“Mənsurun yetərli əsəri”), “Riyazi-rizvan” (“Cənnət bağları”), kəlam elmi haqqında “İmanül-eyman” (“Əmin iman”) və “Dəlili-hüda” (“Doğru dəlil”)” (96).

Əmir Qiyasəddin Mənsurun yuxarıda sadalanan elmi əsərlərinin siyahısı da onu göstərir ki, ona alimlərin ustadı ləqəbinin verilməsi heç də əbəs deyildi. Bu əsərlər həm də onu göstərir ki, Əmir Qiyasəddin kifayət qədər geniş bilikli bir insan imiş və onun maraq dairəsinə müxtəlif elm sahələri daxil imiş.

Yuxarıda qeyd edildiyi kimi, Əmir Qiyasəddin Mənsurun vəzifəsindən azad edilməsindən sonra həmin vəzifəyə kimin təyin edilməsi məsələsində Mühəqqəq Kərəkinin fikri əsas götürüldü. Şah Təhmasib onun təklifini dərhal qəbul etdi və Mir (Əmir) Müizzəddin Məhəmməd İsfahanini həmin vəzifəyə təyin etdi. “Əhsənüt-təvarix” əsərində onun şəxsiyyəti və fəaliyyəti belə

təsvir olunmuşdur: "Əmir Müizzəddin Məhəmməd İsfahani İraqi-Əcəmin yüksək dərəcəyə malik seyidlərinin ən dindarı, ən mömini, ən zahidi, ən biliklisi və ən fəzilətlisi idi. Fiqh elmində, xüsusilə də ibadətlər kitabında tam məharət əldə etmişdi. Əksər fiqhi məsələləri zəmanə müctəhidindən (Şeyx Əli ibn Əbdüləalidən) öyrənmişdi. Gəncliyinin çiçəklənən dövründə Beytullahı (Kəbəni) ziyarət etmək şərəfinə nail olmuşdu. Zəmanə müctəhidi, Mir Qiyasəddin Mənsurun sədarət mənsəbindən çıxarılmasına bais olduğu vaxt, elə həmin gün Mir [Müizzəddin Məhəmməd] həzrətlərinin gözəl vəsflərinin bir qismini əlahəzrətin (Şah Təhmasibin) məclisində söyləmişdi və ərzin zirvəsinə (şaha) yetirmişdi ki, bu gün o həzrətdən (Əmir Müizzəddin Məhəmməddən) başqa seyidlər, əziz nəqiblər və alimlər cümləsindən heç kimin bu yüksək mərtəbəyə və adlı-sanlı mənsəbə (sədarət vəzifəsinə) ləyaqəti çatmır. O zaman Mir [Müizzəddin Məhəmməd] İsfahanda idi. Onun [şah] hüzuruna gəlməsi haqqında qəzavü-qədər kimi cərəyan edən fərman verildi. Onun ali dərgaha gəlişinə qədər zəmanə müctəhidi həzrətləri onun üçün naiblər və vəkillər təyin etdi, möhür və nişan (tovqi) tərtib etdirdi. O, səkkiz il müddətində sədarət [vəzifəsini icra] etdi, pak şəriətə rəvac vermək üçün, aydın dinin nizam-intizamı üçün çox çalışdı və qeyri-məhdud cəhd zühura gətirdi. Bidətin aradan qaldırılması baxımından sədrlərdən heç biri onun qədər cəhd və səy göstərməmişdi. Həzrət məxsusən tiryəkxanaların, əxlaqsızlıq yuvalarının, şərabxanaların, keflǝndirici içki yerlərinin dağıdılması, oyun və qumar alətlərinin sındırılması, əxlaqsızlığın, pozğunluğun və mülhidliyin sıxışdırılması yönündə çox iş görmüşdü. Bu rütbəyə (sədarət mənsəbinə) baxmayaraq, o həzrətin təbiətinə zarafatcıllıq qalib gəlmişdi və ondan ürək oxşayan lətifələr və zarafatlar zühura yetmişdi. O həzrətin gözəl xilqəti, təvazökarlığı və sadəliyi elə bir mərtəbədə və dərəcədə idi ki, iki dilli qələm onun heç cüzi qismini də bəyan sapına düzə bilməz. Amma Mövlana Rüknəddin Məsud Təbib Kazeruni tərəfindən o həzrətə qarşı törədilmiş məkr və hiylə nəticəsində, dinin pənahı olan şahın könlü ondan incidi

və o həzrəti sədarətdən çıxardı. Ondan sonra İmam Rzanın ərş mərtəbəli məqbərəsində qərar tutub öz vaxtını dini elmlərin tədrisinə, [Allaha] itaətə və ibadətə sərf etdi. Bu il o, şərəfli Hərəmeyni təvaf etməyə yollan- dı və Bəsrə yolunda vəfat etdi. Şərəfli cəsədini Kərbəlada dəfn etdilər. Əsərləri cümləsindən "Əqsami-miyah" ("Suların qisimləri") [adlı] bir risaləsi vardır. Vəfat tarixi [əbcəd hesabı ilə] "Xeyrün-nas" ("İnsanların ən xeyirlisi") [ifadəsindən] məlum olur" (97).

Şah Təhmasibin hakimiyyəti illərində sədr vəzifəsinə təyin olunmuş daha iki nəfər haqqında "Tarix-i aləmara-yi Abbasi" əsərində ayrıca məlumat mövcuddur. Onlardan biri Şah Təqiəddin Məhəmmədir. O da dövrünün tanınmış alimlərindən biri idi və məhz elə dərin dini biliklərə malik olduğu üçün də belə yüksək vəzifəyə layiq görülmüşdü: "Şah Təqiəddin Məhəmməd – darülmülk Şirazın «Nəsabə seyidləri» nəslindəndir. Çox fəzilətli və bilikli olub, Əllamə ġah Fəthulla ġirazinin tələbələrindən idi. «Əllamətül-üləmayi» rütbəsinə malik Mövlana Mirzəcan Şirazi ilə mübahisə edib, əqli və fəlsəfi elmlərdə açıq-aşkar tərəqqiyə nail olmuş və fazillər torpağı olan Şirazın elm öyrətmək və tədris etmək taxtına əyləşmişdi. Fazillərdən və elm tələbələrindən bir çoxları onun dərslərində iştirak edib, onun savadından bəhrələnirdilər. O, həmin dövrün ziyalıları zümrəsindəndir" (98).

"Tarix-i aləmara-yi Abbasi" əsərindəki digər məlumat isə Mir Qiyasəddin Məhəmmədə aiddir: "Mir Qiyasəddin Məhəmməd - «Mirmiran» [adı] ilə məşhur olub, Şah Təqiəddin Məhəmmədin qardaşı idi. O, həmin vaxtlar İsfahanın Həsəniyyə seyidlərinin böyüklərindən idi və «nəqibül-nüqəba» (nəqiblər nəqibi) idi. İrsi mənsəbə talib olub, axırda ali sədarət rütbəsi ilə şərəfləndirildi. Cənnətməkan şah həzrətlərinin vəfatı zamanı sədarət xalçası üzərində əyləşmişdi. Çox gözütox və pəhrizkar bir adam idi. Darüssəltənə İsfahanda külli miqdarda əmlaka və mülkiyyətə sahib olduğundan öz şəxsi qazancı ilə dolanardı. İki oğlu vardı. Onlardan biri Mirzə Məhəmməd Məxdum zəmanənin fəzilətlilərindən və ziyalılarından idi, digər oğlu Məhəmməd Əmin də yetərincə əməlisaleh, dindar və pəhrizkar idi" (99).

Vilayətlərdə də sədr vəzifələri mövcud idi. Məlumdur ki, vilayət sədrlərinin qarşısında dayanan vəzifə yalnız vilayət daxilindəki dini işlərə rəhbərlik etmək deyildi. Onlar şahın tapşırığına əsasən, həm də vilayət hakimlərinin fəaliyyətini nəzarət altında saxlamalı, onların qanunsuz hərəkətlərini məhdudlaşdırmağa çalışmalı idilər.

Mənbələrdə heç də bütün vilayətlərdə sədr vəzifəsinin olması faktı ilə rastlaşmaq mümkün deyil. Ola bilsin ki, bəzi vilayətlərdə sədr vəzifəsi ümumiyyətlə mövcud olmamış və ona görə də mənbələrdə xatırlanmamışdır. Lakin bunu birmənalı şəkildə təsdiqləmək də mümkün deyildir. Bununla belə, mənbələrdə Azərbaycanın, Xorasanın, Şirvan-Şəkinin, İraq-Fars-Xuzistanın, Gilanın sədrlərinin olması haqında məlumatlar mənbələrdə öz əksini tapmışdır. Bəzi mənbələrdə vilayətlərdəki ən yüksək dini vəzifə sahiblərinin başqa adla adlandırılmasına da rast gəlmək mümkündür. Məsələn Heratın ən yüksək dini vəzifə sahibinin "şeyxülislam", Bağdadın ən yüksək dini vəzifə sahibinin isə "qaziyül-qəzzat" adlandırılmasını da görmək mümkündür (100). Hər halda hər bir vilayətdə mövcud olan din xadimlərinin bir rəhbəri olmasını istisna etmək olmaz.

b) **digər dini vəzifələr**.

Şah Təhmasibin hakimiyyəti illərində mövcud olmuş dini vəzifələrdən biri də şeyxülislam vəzifəsidir. Səfəvi dövlətində bu vəzifə kifayət qədər səlahiyyətli vəzifələrdən bir sayılırdı. Şeyxülislam vəzifəsinin tarixi də Səfəvi dövlətindən əvvəlki dövlətlərin mövcudluğu dövrünə gedib çıxır. Osmanlı dövlətində də belə bir vəzifə var idi. Şah İsmayılın hakimiyyəti illərində belə bir vəzifə yox idi. Səfəvi dövləti daxilində bu vəzifənin meydana gəlməsi Şah Təhmasibin hakimiyyəti illərinə aid edilir. O da bildirilir ki, Mühəqqəq Kərəkinin Qəzvinə gəlməsinə qədər bu vəzifə səltənət idarəçiliyində tətbiq olunmurdu. O zaman səltənət idarəçiliyində ən yüksək səlahiyyətli dini vəzifə sədr sayılırdı.

Məlumdur ki, Şah Təhmasib onun dəvəti ilə Qəzvinə gəlmiş Mühəqqəq Kərəkiyə xüsusi ehtiram göstərirdi. Ona görə də Mühəqqəq Kərəki şeyxülislam adlandırıldı. Səfəvi dövlətinin idarəçilik təcrübəsindən görmək mümkündür ki, şeyxülislam vəzifəsi öz səlahiyyətlərinə görə sədr vəzifəsindən aşağı bir vəzifə olmuşdu. Amma Mühəqqəq Kərəki şeyxülislam kimi Şah Təhmasibin hakimiyyəti dövründə bütün din adamlarından yüksəkdə dayanırdı. Yuxarıda qeyd edildiyi kimi, M.Kərəki şeyxülislam adlandırılsa da hətta sədr vəzifəsinə kimlərin təyin edilməsi məsələsinə də müdaxilə edə bilirdi. Mühəqqəq Kərəkinin şeyxülislam kimi hansı səlahiyyətlərə malik olmasına da yuxarıda toxunulmuşdu. Şübhə yoxdur ki, bu səlahiyyətlər bütünlükdə şeyxülislam vəzifəsinin sahibinə deyil, yalnız Mühəqqəq Kərəkinin özünə verilmişdi.

Ümumi təcrübə isə belə idi ki, şeyxülislamlar sədr vəzifəsindən aşağı səlahiyyətlərə malik idilər. O da ehtimal edilir ki, şeyxülislam vəzifəsinə kimin təyin edilməsi sədr tərəfindən irəli sürülür və şah tərəfindən təsdiq olunurdu. Şahidlərin ifadəsinə görə, şeyxülislamlar səltənət daxilində şəri məsələlərə baxırdılar və bu məsələdə əsas səlahiyyətlərə malik idilər. Avropalı səyyahlar xüsusi olaraq qeyd edirdilər ki, dul qadınlar və yetim uşaqlarla bağlı olan şəri məsələlər şeyxülislam tərəfindən həll edilirdi. Bütünlükdə, şeyxülislamlar şəri, məhkəmə, hüquqi kimi məsələlərin həllinə cavabdeh idilər (101).

Belə vəzifələri icra etməsi heç şübhəsiz ki, şeyxülislam vəzifəsini tutan din xadimlərindən şəriət məsələlərinə dərindən bələd olmalarını tələb edirdi. Ona görə Şah Təhmasibin hakimiyyəti illərində bu vəzifəyə seçilmiş din alimlərinin və xadimlərinin təyin edildiyi məlumdur. “Tarix-i aləmara-yi Abbasi” əsərində İsfahan və Heratın şeyxülislamları haqqında verilən məlumatlar da bu vəzifəyə kifayət qədər ciddi din alimlərinin təyin edildiyini göstərir. Bu məlumat həm də onun göstəricisidir ki, şeyxülislam vəzifələri vilayətlərin yerli idarəçilik sistemində də var idi. İsfahanın şeyxülislamlarından biri haqqında adı çəkilən mənbədə belə yazılmışdır: “Şeyx Əli Menşar - fəzilətli və

fəqih bir ərəb idi. O, rəhmətlik müctəhid Şeyx Əbdüləalinin savadlı şagirdi olmuşdur. Onun şəriət məsələləri barədə fitvaları mötəbər və etibarlı idi. Şəriət və ictimai məsələlərin yoluna qoyulmasında düzgün fikirli olub, tay-tuşlarının öndəri idi. Cənnətməkan şah həzrətlərinin hüsnrəğbətinin və iltifatının nurları onun əhvalı üzərində parlamış və dünyada məşhur olan darüssəltənə İsfahan kimi böyük bir vilayətin və şəhərin şeyxülislamlıq mənsəbi ona tapşırılmışdı. O, həmin vəzifədə tam ixtiyar sahibi olaraq, sözügedən vilayətin dini və dünyəvi məsələlərinin tənzimlənməsi və zülmkarlığın hökm sürməsinin qarşısının alınması sahəsində bacarıqla çalışmışdır" (102).

Şeyx Əli Menşarın dünyasını dəyişməsindən sonra onun yerinə İsfahan şeyxülislamlığı vəzifəsinə Şeyx Bəhaəddin Məhəmməd təyin edilmişdi. Yuxarıda onun haqqında verilən məlumatdan görünür ki, Şeyx Bəhaəddin Məhəmməd də dövrünün son dərəcə bilikli və zəkalı alimlərindən biri olmuşdu. Məhz bu keyfiyyətinə görə o, İsfahanın şeyxülislamı vəzifəsinə təyin olunmuşdu. Mövcud olan məlumatdan o da görünür ki, dini biliklərin öyrənilməsinə olan dərin maraq onu həmin vəzifədən uzaqlaşmağa sövq etmişdi. "Tarix-i aləmara-yi Abbasi" əsərində onun həyatı və şəxsiyyəti haqında belə yazılmışdır: Şeyx Bəhaəddin Məhəmməd "elə bir şəxs idi ki, cahan sarayının gülşəni onun şərəfli vücudundan zinətlənib, dəyər qazanmışdı. O, kiçik yaşlarında möhtərəm anası ilə birlikdə Əcəm vilayətinə gəlib, öz ata-babasının və əcdadlarının yolu ilə gedərək, böyük ciddi-cəhdlə elmləri öyrənməyə və biliklərə yiyələnməklə məşğul oldu. O, təfsir, hədis, ərəb filologiyası, fiqh və s. bu kimi elmlərdə yüksək məqamlı atasından irsən ona keçmiş qabiliyyət sayəsində kamal mərtəbəsinə çatdı. Kəlam elminin və bəzi əqli elmlərin hikmətlərinə Mövlana Abdulla Müdərris Yəzdinin söhbətinin zövqü sayəsində yiyələnmiş, riyazi fənləri Molla Əli Müzəhhəbin, [İmam Rzanın] feyz bəxş edən məqbərəsində müdərris işləyən Mövlana Əfzəl Qaininin və o fənnin bilicisi olan bəzi digərlərinin yanında öyrənmiş, təbabət elmini və tibbi qanunları isə haqqında təbiblərin sadalanması vaxtı məlumat veriləcək olan

«zəmanə Büqratı» [Hippokratı] adlanan Həkim İmadəddin Mahmud vasitəsilə mənimsəyib, ondan kamal bəhrəsi qazanmışdı. Xülasə, o cənab qısa vaxt ərzində əqli və nəqli elmlərdə böyük tərəqqi tapmış, hər bir fənn sahəsində zəmanə fazillərinin öndəgedəninə çevrilmiş və müxtəlif elm fənləri üzrə onun bilik dənizinin damcılarından süzülən mötəbər əsərləri nüfuzlu alimlərin nəzər-diqqətini cəlb etmişdi.
... Sözün qısası, Şeyx Əli Menşarın ölümündən sonra o cənab darüssəltənə İsfahanın şeyxülislamlığı, vəkaləti-həlaliyyəti və şəriət mütəsəddiliyi mənsəblərinə təyin olundu. O, bir müddət tam ixtiyarla o vəzifələrin icrasını həyata keçirdi. Axırda şövqə gəlib, Beytül-həramı həcc etməyə getmək istədi. Bu səfərin zövqü onu tutduğu vəzifələrin icrası ilə məşğul olmaqdan yayındırdı və o, xeyirli səfərə yollandı. Həmin böyük səadətə qovuşduqdan sonra onun şərəfli xasiyyəti fəqirlik və dərvişlik həyat tərzinə büründü" (103).

Şeyx Bəhaəddin Məhəmmədin atası Şeyx Əbdüssəməd də dövrünün dərin zəkalı alimlərindən idi. O, əslən Cəbəlamildən idi və çox güman ki, Mühəqqəq Kərəki ilə birlikdə Səfəvi hüdudlarına gəlmişdi. Şah Təhmasib də onun savadını və şəri biliklərini nəzərə alaraq Heratın şeyxülislamı vəzifəsinə təyin etməklə Xorasan vilayəti üzrə bütün şəri məsələlərə nəzarət etməyi ona tapşırmışdı. "Tarix-i aləmara-yi Abbasi" sərində olan məlumata görə Əbdüssəməd " Cəbəlamilin böyük şeyxlərindən idi və bütün elm sahələrində, xüsusilə də fiqh, təfsir, hədis elmlərində və ərəb filologiyasında («ərəbiyyət») bilikli və ziyalı bir şəxs idi. O, gənclik əyyamının və cavanlıq dövrünün əsas hissəsini «şəhidi-sani» («ikinci şəhid») və əbədiyyətin seçilmişi Şeyx Zeynalabidinin - Allah rəhmət eləsin - söhbətində keçirmişdi. Onlar hədislərin şərhində, rical elmində, ictihad məsələlərinin təhsilində və ümumi bilik səviyyəsində bir-birlərinə tən gəlirdilər. Cənab Şeyx [Zeynalabidin] şiə olduğu üçün rumilərin əlində şəhidlik dərəcəsinə çatdıqdan sonra sözügedən şəxs (Əbdüs-səməd) doğma vətənindən ayrılıb, Əcəm tərəfə gəldi. O, şahın behişt bəzəkli məclisinin iştirakçısı olmaq izzəti ilə əzizlənib,

cürbəcür mərhəmətlərə layiq görüldü. Zəmanə üləmalarının izni və razılığı ilə o, ali fəqihlik və ictihad mərtəbəsinə yüksəldi. Millət üləmaları arasında cümə namazının tərtibinin şərtləri barədə ixtilafların mövcud olduğu və uzun müddətdən bəri bu mübahisənin həllinin tərk edilib boş buraxıldığı bir halda, o, bu məsələni gözəl bir şəkildə hazırlayıb təqdim etdi və çoxsaylı möminlər kütləsi ona əməl elədi Axırda ümumən Xorasan vilayətinin və xüsusən darüssəltənə [Heratın] şeyxülislamlıq mənsəbi və orada şəriət hökmlərinin icrasına nəzarət etmək ona tapşırıldı. Uzun müddət həmin könül oxşayan bölgədə parlaq şəriətə rəvac verdi və o xeyir-bərəkətli torpaqlar üzərində qayda-qanunun təmin olunmasını həyata keçirib, dini elmlərin tədris olunmasına, risalələrin və kitabların yazılmasına, müşkül məsələlərin həllinə və [elmi] anlaşılmazlıqların və çətinliklərin aradan qaldırılması ilə məşğul oldu. Nəhayət, Beytül-həramı həcc etmək və insanların ən yaxşısı olan həzrətin (Məhəmməd peyğəmbərin) və ali məqamlı imamların - hamısına Allahın salamı olsun – müqəddəs məzarlarını ziyarət eləmək səadətini dərk etmək şövqünə bürünərək, o tərəflərə yollandı. O, orada qalıb, həmin yerin alimləri ilə vaxtını keçirdi. Axırda əcəli gəlib çatdı və həyat evi kitabının büsatını bir tərəfə buraxıb, gözünün nuru ilə axirət aləminin dəftərini mütaliə etməyə başladı (vəfat etdi)” (104).

Şah Təhmasibin hakimiyyəti illərində mövcud olmuş dini vəzifələrdən biri də xəlifət əl-xülafa idi. Bu vəzifə əslində təriqətə bağlı olan bir vəzifə idi və təriqət ənənələri və təsirləri qaldıqca bu vəzifə də səltənət idarəçiliyində saxlanılmışdı. Xəlifələr təriqət əhlinin idarəçiliyində müəyyən səlahiyyətlərə malik olan birisi idi. Səfəvi dövləti bərqərar olandan sonra sufilik təcrübəsindən birdəfəlik ə çəkmək mümkün olmadı və dövlətin idarəçiliyi də sufilik təcrübəsi üzərində deyil, dövlət idarəçiliyi üzərində quruldu. Yuxarıda qeyd edildiyi kimi, sufiliklə şiəliyin qovuşması xəttinə başlanıldı. Təriqət idarəçiliyinin birdən-birə aradan qaldırılması mümkün olmadığı və bunun əslində dövlət maraqlarına cavab vermədiyi üçün sufilərin idarəçiliyinə məsuliyyət daşıyan xəlifətül xüləfa vəzifəsi də səltənət idarəçiliyində. Sax-

lanıldı. Bu vəzifə əslində, səltənət idarəçiliyi (divan) sisteminə daxil deyildi və daha çox dini-ictimai məzmun daşıyırdı. Bununla belə, bu vəzifə sahibi Şah Təhmasibin hakimiyyəti illərində də öz nüfuzunu qoruyub saxlaya bilmişdi. Çünki xəlifətül-xüləfa təriqət işləri üzrə mürşidi-kamilin köməkçisi sayılırdı. Bu da xəlifətül-xüləfaya müəyyən hallarda hətta şahın adından da danışmağa imkan verirdi Bir qayda olaraq türk tayfalarının nümayəndələrindən təyin olunan xəlifətül xüləfa öz nüfuzu ilə türk tayfa başçılarına müəyyən təsir göstərmək qabiliyyətinə malik idi. Şah Təhmasibin hakimiyyəti illərində bu vəzifəyə Hüseynqulu xəlifə Rumlu tutmuşdu (105).

Səltənət daxilində məhkəmə işlərinin təşkilinə və aparılmasına məsul olan qazi vəzifəsi də mövcud idi. O öz fəaliyyətini sədrin rəhbərliyi altında qururdu. Qoşun daxilində hüquq məsələləri ilə məşğul olan ayrıca qazılar da var idi. Ümumiyyətlə, səltənət daxilində yuxarıdan aşağı bütün səviyyələrdə dini işlərə məsuliyyət daşıyan adamlar var idi və onların fəaliyyəti insanların dini ehtiyaclarının ödənməsinə istiqamətlənmişdi.

### 4. İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Şah Təhmasibin təzkirəsi. Tərcümə edən Əbülfəz Rəhimov. Bakı, 1996 s.28
2. Yenə orada
3. Yenə orada, s. 23
4. Yenə orada, s. 21
5. Yenə orada, s. 14-15
6. Yenə orada, s. 82
7. Yenə orada, s. 37
8. Yenə orada, s. 38
9. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Tərcümə Xəlil Rza Ulutürkündür. Bakı, 2004, s. 27-28
10. Şah Təhmasibin təzkirəsi, s. 105
11. Yenə orada, s. 52
12. Yenə orada, s. 121

13. Yenə orada, s. 54
14. Yenə orada, s. 54-55
15. Yenə orada, s. 106
16. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev,
Namiq Musalı. Kastamonı, 2017, s.479
17. Yenə orada, s. 479-483
18. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Əbdül-hüseyn Nəvayi Tehran, 1368, s.218
19. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Tərcüməçilər: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı, 2004, s. 18
20. Tövbe-ye Şah Təhmasib və fərman-e əmr be məəruf..
http://kakheaseman.ir/aseman.php?name_id=79479&b=safaveye/&name=safaveye_1_9
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 613-617
21. Hüseyni Qumi, Q. Xülasüt-təvarix. C.I, Tehran,1359, s.225
22. Tövbe-ye Şah Təhmasib və fərman-e əmr be məəruf.. s. 381
23. Şah Təhmasibin təzkirəsi. Tərcümə edən Əbülfəz Rəhimov. Bakı, 1996 s.34-37
24. Rumlu H. Əhsənüt-təvarix, s. 493
25. Tövbe-ye Şah Təhmasib və fərman-e əmr be məəruf.. s. 375
26. Yenə orada, s.376
27. Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 97
28. İsfahani M.Y. Xolde bərin. Tehran, 1372, s. 396
29. Tövbe-ye Şah Təhmasib və fərman-e əmr be məəruf.. s. 377
30. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı,2009, s.229-230
31. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Farscadan tərcümə edən Əbülfəz Rəhimli.Bakı, 1996, s. 54
32. Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 102
33. Yenə orada, s. 99

34. Venesiyalılar Şah I Təhmasibin sarayında. Tərcümə: Oqtay Əfəndiyevindir. Bakı, 2005, s.63-65
35. Rudgər Q., Məhəmmədi Ə. Şahan-e Səfəvi və musiqi, s.83//Tarix və təməddon-e islami, N-14, 1390, s.77-98
36. Yenə orada, s. 84
37. Bax: Əhmədi (Sərraf) N. Röya və siyasət dər əsr-e Səfəvi. Tehran, 1343, s.66-75
38. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Farscadan tərcümə edən Əbülfəz Rəhimli.Bakı, 1996, s. 92
39. Şah Təhmasibin təzkirəsi, s.29
40. Yenə orada, s. 29-30
41. Yenə orada, s. 42
42. Yenə orada, s. 69-71
43. Əhmədi (Sərraf) N. Röya və siyasət dər əsr-e Səfəvi. Tehran, 1343, s.70-72
44. Hüseyn İ. Şahan-e Səfəvi və ziyarət, s. 6-7 //Fəsilname-ye Şiəşenasi. N-39, 1391, s. 131- 152
45. Səvaqeb C., Mürvəti F. Eğdamat-e fərhəngi-ye Şah Təhmasib-e əvvəl dər nəhadine sazi-
ye təşəyyo dər camee.
http://www.shiitestudies.com/index.php/article_26355.html#
46. Yenə orada
47. Məşkurian M., Rəncbər M. Mühəqqəq Kərəki və dövlət-e Səfəvi. Tehran, 1387, s.51-52
48. Nəcəfinejad s., Cədidi N., Yusifcamali M. Boruz və zohur-e bavərha-ye dər siyasət-e məzhəbi-ye Şah Təhmasib-e əvvəl-e Səfəvi, s. 131-132//Şiəpojuhi, N-4, 1396, s.121-145
49. Nəcəfinejad s., Cədidi N., Yusifcamali M. Boruz və zohur-e bavərha-ye dər siyasət-e məzhəbi-ye Şah Təhmasib-e əvvəl-e Səfəvi, s. 127
50. Mircəfəri H., Haşemi Ərdəkani M. Fərman-e Şah Təhmasib Səfəvi be Mövlana Rzaəddin
Məhəmməd, s. 97-98 // Bərrəsiha-ye tarixi, N-2, 13---, s.95-106
51. Yenə orada, s. 99-10

52. Novruzi C., Ramazani Ş. Eləl-e təamolat-e səlatin-e Səfəvi ba oləma-ye şiə və nətayec-e an, s.128-129 /Pəjuheşname-ye Tarix-e islam, N-15, 1394, s. 119-148
53. Cəfərian R. İmam zaman darəd miyayəd, Şah Təhmasib axərin dövlət qəbl əz zühur.
https://www.entekhab.ir/fa/news/73822/
54. Astrabadi S. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 80
55. Bax: Cəfərian R. İmam zaman darəd miyayəd, Şah Təhmasib axərin dövlət qəbl əz zühur.
https://www.entekhab.ir/fa/news/73822/
56. Rəşidi T. Vilayət-e fəqih dər əsr-e Səfəviyyə. https://article.tebyan.net/223605/
57. Səvaqeb C., Mürvəti F. Eğdamat-e fərhəngi-ye Şah Təhmasib-e əvvəl dər nəhadine sazi- ye təşəyyo dər camee. http://www.shiitestudies.com/index.php/article_26355.html#
58. Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 130-131
59. Rumlu H. Əhsənüt-təvarix, s. 400
60. Cəfərian R. Nəqş-e xanədan-e Kərəki ..., s.173-174
61. Zendgi-ye siyasi-ye Mühəqqəq Kərəki.
http://smhi.ir/index.php/library/book/item/897-2013-12-08-15-23-49
62. Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 131
Zendgi-yü siyas-ye Mühəqqəq Kərəki.
http://smhi.ir/index.php/library/book/item/897-2013-12-08-15-23-49
63. Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 132
Zendgi-yü siyas-ye Mühəqqəq Kərəki.
http://smhi.ir/index.php/library/book/item/897-2013-12-08-15-23-49
64. Məşkurian M., Rəncbər M. Mühəqqəq Kərəki və dövlət-e Səfəvi. Tehran, 1387, s.67-68
Cəfərian R. Nəqş-e xanədan-e Kərəki ...s.174-175

65. Məşkurian M., Rəncbər M. Mühəqqəq Kərəki və dövlət-e Səfəvi. Tehran, 1387, s.73-74
Zendgi-yü siyas-ye Mühəqqəq Kərəki.
http://smhi.ir/index.php/library/book/item/897-2013-12-08-15-23-49
66. Cəfərian R. Nəqş-e xanədan-e Kərəki ...s.182-183
Məşkurian M., Rəncbər M. Mühəqqəq Kərəki və dövlət-e Səfəvi. Tehran, 1387, s.77
67. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar, s. 45
68. Zendgi-yü siyas-ye Mühəqqəq Kərəki. -----------------
http://smhi.ir/index.php/library/book/item/897-2013-12-08-15-23-49
69. Yenə orada
70. Rumlu H. Əhsənüt-təvarix, s. 498
71. Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 135
Cəfərian R. Nəqş-e xanədan-e Kərəki ...s.199
72. Cəfərian R. Nəqş-e xanədan-e Kərəki dər təsis və tədavüm-e dövlət-e Səfəvi. Tenran, 1387, s.193-194
Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 135
73. Rumlu H. Əhsənüt-təvarix, s. 497-498
74. Cəfərian R. Nəqş-e xanədan-e Kərəki...,, s.194
75. Bax: Yenə orada, s. 205
76. Cəfərian R. Nəqş-e xanədan-e Kərəki...,s.200-203
Zendgi-ye siyasi-ye Mühəqqəq Kərəki.
http://smhi.ir/index.php/library/book/item/897-2013-12-08-15-23-49
77. Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 135
Zendgi-ye siyasi-ye Mühəqqəq Kərəki.
http://smhi.ir/index.php/library/book/item/897-2013-12-08-15-23-49
78. Bax: Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 140-175

Cəfərian R. Nəqş-e xanədan-e Kərəki...,s.321-349
79. Tarix-i aləmara-yi Abbasi, s. 276
80. Yenə orada, s. 263-264
81. Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s. 165
82. Tarix-i aləmara-yi Abbasi, s. 278-279
83. Yenə orada, s. 280
84. Yenə orada, s. 280-281
85. Yenə orada,s. 260-261
86. Yenə orada, s. 264
87. Yenə orada, s. 275
88. Səvaqeb C., Mürvəti F. Eğdamat-e fərhəngi-ye Şah Təhmasib-e əvvəl dər nəhadine sazi- ye təşəyyo dər camee. http://www.shiitestudies.com/index.php/article_26355.html#
89. Yenə orada
90. Cəfərian R. Səfəviyye dər ərse-ye din, fərhəng və siyasət. Tehran, 1379, s. 193-194
91. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 649
Zarian M. Münasibat-e ruhaniyan dər əsr-e Səfəvi, s.93//Cameşenasi-ye tarixi, N-2, 1391, s. 87-112
Cəfərian R. Din və siyasət dər dövre-ye Səfəvi. Tehran, 1370, s. 78-79
Seyvori R. Təhqiqati dər tarix-e İran dər əsr-e Səfəvi. Tehran, 1391, s.140-141
92. Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran,
1388, s. 122
93. Tarix-i aləmara-yi Abbasi, s. 261-262
94. Şah Təhmasibin təzkirəsi, s. 16-17
95. Rumlu H. Əhsənüt-təvarix, s. 451
96. Rumlu H. Əhsənüt-təvarix, s. 526-527
97. Yenə orada, s. 532-533
98. Tarix-i aləmara-yi Abbasi, s. 267
99. Yenə orada, s. 262

100. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi. Tehran, 1349, s. 109
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 647
101. Cəfərian R. Din və siyasət dər dövre-ye Səfəvi. Tehran, 1370, s. 93-94
Qədyani A. Tarix və fərhəng və təməddün-e İran dər dövre-ye Səfəviyye. Tehran, 1387, s. 125
102. Tarix-i aləmara-yi Abbasi, s. 276
103. Yenə orada, s. 279-280
104. Yenə orada, s. 278-279
105. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.237

# V FƏSİL

## ŞAH TƏHMASİB DÖVRÜNÜN XARİCİ SİYASƏTİ

Hakimiyyətdə olduğu müddətdə Səfəvi dövlətinin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi üçün Şah Təhmasibin qarşısında dayanan mühüm vəzifələrdən biri də səltənət maraqlarına cavab verən xarici siyasət formalaşdıraraq həyata keçirmək, Səfəvi dövləti ətrafında əlverişli beynəlxalq şərait yaratmaq, ehtimal oluna biləcək xarici təhdidləri aradan qaldırmaq və Səfəvi dövlətinin əzəmətini qoruyub saxlamaq idi. Bu məqsədə nail olunması kifayət qədər səy, iradə və ardıcıllıq tələb edirdi. Çünki bir tərəfdən Şah Təhmasibin hakimiyyət başına gəldiyi vaxt Səfəvi dövləti ətrafında mürəkkəb beynəlxalq şərait qalmaqda davam edirdi, digər tərəfdən də Şah Təhmasibin yetərincə dövlətçilik təcrübəsi yox idi. Məlumdur ki, Şah İsmayılın dünyasını dəyişməsi ərəfəsində Osmanlı dövləti Səfəvi dövləti üzərinə yeni bir hücuma başlamışdı. Yalnız Osmanlı sultanının qəfil şəkildə xəstələnərək dünyasını dəyişməsi bu hücumun həyata keçirilməsini təxirə salmalı oldu. Yəni Osmanlı təhlükəsi aradan qalxmamışdı və Şah Təhmasib də hakimiyyətinin elə ilk günlərindən bu gərginliyi hiss etməkdə idi. Digər tərəfdən səltənətin şərqində sabit bir duruma nail olunmamışdı və şərq hüdudları boyunca da gərginlik qalmaqda davam edirdi. Avropa ölkələrinin bölgə ilə bağlı olan maraqları da Şah Təhmasibin uyğun siyasət formalaşdırılmasını tələb edirdi.

Şah Təhmasibin hakimiyyəti illərində dövlətin izlədiyi xarici siyasətə bir sıra amillər öz təsirini göstərməkdə idi. Bu amillərdən biri səltənətin əlverişli geosiyasi mövqedə qərar tutması idi. Qərbdən şərqə, o cümlədən Hindistana uzanan ticarət yollarının Səfəvi dövləti ərazisindən keçməsi bu yolların nəzarət altında saxlanması maraqlarına meydan verirdi. Xüsusilə Avropada bir oyanışın başlaması, iqtisadiyyatın inkişafı siyasətinin güclənməsi yeni bazarlara və xammal bazalarına olan marağı da artırmaqda idi. Avropa dövlətlərinin şərq siyasətinin güclənməsi, sözsüz ki,

müəyyən mənalarda Səfəvi dövlətinin də inkişafı üçün faydalı ola bilərdi. Amma bu, o vaxt ola bilərdi ki, Səfəvi dövləti izlədiyi siyasətlə öz maraqları ilə qərb maraqlarını düzgün əlaqələndirə bilsin.

Mövcud iqtisadi inkişaf, xüsusi ilə ipək istehsalı qərb dövlətlərinin Səfəvi dövləti ilə əlaqələrinin güclənməsinə təbii bir zərurət yaradırdı. Səfəvi dövləti özü də maraqlı idi ki, səltənət daxilində istehsal olunan ipəyin və digər məhsulların qərb bazarlarına çıxarılması üçün əlverişli beynəlxalq mühit əldə edilmiş olsun və bunun üçün lazımi münasibətlər qurulsun.

Səfəvi dövlətinin xarici siyasətinə təsir edən mühüm amillərdən biri də sözsüz ki, məzhəb mənsubluğu məsələsi idi. Həm şərqdən, həm də qərbdən Səfəvi hüdudlarını fərqli məzhəbə mənsub olan dövlətlər əhatə etmişdilər. Bəllidir ki, hər iki dövlət də məzhəb məsələsində çox ciddi mövqeyə malik idilər. Müəyyən hallarda isə qarşıya qoyulan məqsədə nail olmaq üçün qonşu dövlətlər tərəfindən məzhəb mənsubluğu məsələsi ifrat dərəcədə qabardılırdı. Şərqdən özbək hakimləri, qərbdən isə Osmanlı dövləti məzhəb məsələsini qabartmaqla Səfəvi dövləti üçün ciddi narahatçılıq mənbəyinə çevrilmişdilər. Bu narahatçılığın aradan qaldırılması Səfəvi dövlətinin maraqlarına cavab verən siyasətin formalaşdırılması və həyata keçirilməsini tələb edirdi. Məlumdur ki, mövcud olan xarici təhdidlərin qarşısının alınması üçün Şah Təhmasib hər vasitə ilə hərbi gücün artırılmasını diqqət mərkəzində saxlayırdı. Bununla belə, Şah Təhmasibin xarici siyasətinin mərkəzində səltənət üçün əlverişli olan beynəlxalq mühitin dinc yaradılması istəyi dayanırdı. Ona görə idi ki, Şah Təhmasibin xarici siyasətində xüsusi bir təcavüzkarlıq meyli hiss olunmur. Hərbə əl atılması isə daha çox xarici müdaxilələrdən müdafiə olunmaq məqsədilə edilirdi.

### 1. Səfəvi-Osmanlı münasibətləri

Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi-Osmanlı münasibətlərini iki dövrə bölmək olar. Birinci dövr Amasiya razılaş-

masına qədər olan dövr, ikincisi isə bu razılaşmasından sonrakı dövr. Birinci dövr hələ Şah İsmayılın hakimiyyəti illərində iki dövlət arasında başlanan gərginliyin davam etdiyi dövr idi. Həmin dövrün xarakterik xüsusiyyəti qarşılıqlı münasibətlərin formalaşmasında hərbi qarşıdurmanın mövcudluğu və bu qarşıdurmanın ən yüksək həddə çatması idi. İki dövlət arasındakı münasibətlərin belə gərgin səviyyəyə çatmasının bir çox səbəbləri var idi. Bu səbəblərə siyasi, iqtisadi, hərbi, dini xarakterli məqamları aid etmək mümkündür. Güclənməkdə olan qərb dövlətlərinin Səfəvi və Osmanlı dövlətlərinə qarşı siyasət də bu dövlətlər arasında münasibətlərin gərginləşməsinə yol açırdı. Çünki Osmanlı dövlətinin zəiflədilməsi və bu dövlətin Avropaya istiqamətlənmiş fatehlik yürüşlərinin qarşısının alınması üçün qərb dövlətlərinin əl atdığı vasitələrdən biri də Səfəvi-Osmanlı dövləti arasındakı münasibətləri hərbi qarşıdurmaya çatdırmaqla Osmanlı dövlətini zəiflətmək idi. Başqa sözlə, qərb dövlətləri "Osmanlı imperiyası ilə Səfəvi dövlətini toqquşdurub, hər ikisini zəiflətmək və Şərqdə möhkəmlənmək siyasətini" (1) izləyirdilər.

Bütünlükdə, Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi-Osmanlı münasibətlərinə qiymət verərkən də demək mümkündür ki, Şah Təhmasib bu münasibətlərin hərbi müstəvidə qurulmasının tərəfdarı deyildi və çalışırdı ki, iki dövlət arasında hərbə dayaqlanan qarşıdurmalara son qoyulsun. O, heç vaxt iki dövlət arasındakı münasibətlərin hərbi qarşıdurmaya gətirib çıxarmasının da təşəbbüskarı olmamışdı. Əksinə, Şah Təhmasib Osmanlı dövlətinin bir islam dövləti kimi qərb dövlətlərinə qarşı mübarizəsini təqdir edirdi və bu mübarizədə Osmanlı dövlətinin qalib olmasını arzulayırdı. Başqa sözlə, Şah Təhmasib bu mübarizədə qalib olmaq üçün Osmanlı dövlətinin güclənməsinə də rəğbətlə yanaşırdı. Bu məqamla bağlı Şah Təhmasibin təzkirəsində maraqlı bir fakt mövcuddur. Məlum olduğu kimi, Osmanlı qoşunları Avropaya yürüş edəndə qızılbaş əmirləri Osmanlı hüdudlarına hücum etməyi və Osmanlı qoşunlarının olmamasından istifadə edərək üstünlük qazanmağı təklif etdilər. Şah Təhmasib isə bunu qəbul etmədi ki, Osmanlı qoşunları kafirlərə qarşı mübarizə

aparır. Bu halda bu dövləti çətin vəziyyətə salmaq olmaz. "Əgər o mənim qardaşımı və uşağımı öldürsə belə, kafirlərlə din uğrunda döyüşə getdiyi üçün onun ölkəsinə getmərəm"(2) – deyə Şah Təhmasib bu sözlərlə Osmanlı dövlətinə olan münasibətini də ifadə etmişdi. "Dinimi dünyaya satmaram"–ifadəsini də Şah Təhmasib bu zaman işlətmişdi.

Şahidlər də Şah Təhmasibin Osmanlı dövlətinə qarşı doğrudan da belə bir münasibətdə olmasını təsdiqləyirdilər. Bu şahidlərin ifadələrinə görə, Şah Təhmasib təşkil etdiyi böyük məclislərinin birində Osmanlı dövləti haqqında belə deyibmiş: "Əgər Osmanlı səltənəti olmasaydı, mən və digər soltanlar küfr və tüğyan camaatının, xüsusilə də dinsizlərin qarşısında aciz qalardıq" (3).

Bununla belə, qeyd edildiyi kimi, Amasiya razılaşmasına qədər iki dövlət arasında çox gərgin münasibətlər mövcud olmuşdu. Tarixdən məlumdur ki, Amasiya razılaşmasına qədər Osmanlı sarayı Azərbaycan üzərinə üç hərbi kampaniya təşkil etmişdi. Həmin kampaniyaların nəticəsi kimi Səfəvi dövləti ciddi sınaqla qarşılaşmış, səltənətin qərb məntəqələri ağır məşəqqətlərlə üzləşmiş və Şah Təhmasib hətta Təbriz şəhərini də müvəqqəti olaraq təhvil vermək məcburiyyətində qalmışdı. Qarşılıqlı münasibətlərin bu dövründə böyük fəthlərə nail olmuş Osmanlı dövləti şərq sərhədləri boyunca yerləşən Səfəvi dövlətini də fəth edərək öz hüdudları tərkibinə daxil etmək siyasətini izləyirdi (4). Osmanlı sarayının buna böyük ümidləri də var idi. Çünki Avropanın az qala yarısını fəth etmiş Osmanlı dövləti gücünün və qüdrətinin zirvəsində idi və Səfəvi dövlətinin süquta uğradılması reallıqdan elə də uzaq görünmürdü.

Səfəvi dövlətinin süquta uğradılması üçün Osmanlı sarayı özbək hakimləri ilə əlaqələr qurmağa və özbək qoşunlarını Səfəvi hüdudlarına hücuma təşviq etməyə çalışırdılar. Bir tərəfdən məzhəb eyniliyi və şiəliyə qarşı müqavimət siyasəti, digər tərəfdən də Səfəvi dövlətinin mövcudluğuna qarşı barışmaz siyasət Osmanlı dövləti ilə özbək hakimlərini bir-birinə yaxınlaşmağa sövq edirdi. Bu dövlətlərin hər ikisinin Səfəvi dövlətinin parça-

lanmasında oxşar maraqları var idi və onların eyni vaxtda fəal hərbi siyasət izləməsi Səfəvi dövlətinin süqutunu daha da yaxınlaşdıra bilərdi. Səfəvi-özbək münasibətləri haqqında uyğun fəsildə yazılanlardan aydındır ki, şərq sərhədləri boyunca yaranan gərginliyə baxmayaraq, özbək hakimlərinin qüvvələri Səfəvi dövləti üçün böhranlı bir təhlükəni təşkil etmirdi. Hadisələrin gedişi də göstərdi ki, Şah Təhmasib özbək təhlükəsinin qarşısını almağa qadir idi. Doğrudur, Şah Təhmasib səltənətin şərq hüdudlarında özbək qoşunları tərəfindən gərginliyin yaradılmasını istəmirdi. Bununla belə həmin təhlükənin qarşısının alınması üçün Səfəvi dövlətinin yetərincə gücü və qüvvəsi var idi. Amma özbək hakimləri ilə Osmanlı sarayının əlaqələndirilmiş hərbi müdaxiləsi Səfəvi dövləti üçün ciddi təhlükə təşkil edə bilərdi. Osmanlı sarayı da məhz buna nail olmağa çalışırdı. Ona görə hələ Şah İsmayılın hakimiyyəti dövründə Osmanlı sultanı ilə Şeybani xan arasında müəyyən müttəfiqlik əlaqələri formalaşmağa başlamışdı. Şah Təhmasibin hakimiyyəti illərində isə Osmanlı sarayı Übeyd xanla sıx əlaqələr qurmağa müvəffəq olmuşdu. Mövcud olan məlumatlar da göstərir ki, Şah Təhmasibin hakimiyyəti illərində Osmanlı qoşunları ilə özbək qoşunlarının Səfəvi hüdudlarına hərbi yürüşlərinin həyata keçirilməsində müəyyən bir əlaqələndirmə də mövcud olmuşdu (5).

Məsələn, 1534-cü ildə Osmanlı qoşunlarının və özbək qoşunlarının təxminən eyni vaxtda Səfəvi dövləti üzərinə hücumu üçün bir əlaqələndirmə mövcud idi. Məlumdur ki, Sultan Süleymanın öz qüdrətli qoşunları ilə Azərbaycan üzərinə hücum xəbəri alınanda Übeyd (Übeyd) xan ona məktub göndərdi və Səfəvi dövlətinin şərq hüdudlarına hücum etməyə hazır olduğunu bildirdi. Həmin hücum baş tutdu, lakin bəlli olduğu kimi özbək qoşunları Səfəvi qoşunlarından güclü zərbə alıb geri qayıtmaq məcburiyyətində qaldı. Amma bu uğur Səfəvi dövlətinin gərgin günlər yaşadığı bir zamanda baş verdi. Çünki səltənətin qərb sərhədləri də Osmanlı qoşunlarının hücumuna məruz qalmışdı.

1539-cu ildə Übeyd xanın dünyasını dəyişməsindən sonra da Osmanlı dövlətinin özbək hakimləri ilə Səfəvi dövlətinə qarşı

münasibətləri davam etməkdə idi. Doğrudur, Übeyd xanın vəfatı ilə Şeybani dövləti daxilində bir parçalanma yarandı, bir sıra xanlıqlar meydana gəldi. Məsələn, Buxara hakimi Übeyd xanın oğlu Əbdüləziz xan oldu. Səmərqəndə hakimlik Kuçkun xanın oğlu Əbdüllətif xanın əlinə keçdi. Borraq xan isə Daşkənd hakimi idi. Osmanlı sarayı Səfəvi dövlətinə qarşı hərbi kampaniyanı əlaqələndirmək üçün bu xanların hər biri ilə də ayrılıqda əlaqə saxlamağa çalışırdı. Belə ki, 1549-cu ildə Sultan Süleyman Səmərqənd hakimi Əbdüllətif xana məktub göndərdi və onu Səfəvi dövlətinə qarşı müharibəyə səslədi. Türk dilində yazılmış həmin məktubda Osmanlı sultanı belə bir kampaniyanın başlanması üçün hərbi qüvvələrinin həmişə hazır olduğunu bəyan etdi (6).

Mövcud məlumatlardan aydın olur ki, Osmanlı sultanı hətta az sayda hərbi qüvvə, yəni 300 nəfərlik bir yeniçəri dəstəsi, bir neçə ədəd top və zərbzən də göndərmişdi ki, özbək hakimləri onların köməyi ilə şərq sərhədlərində Səfəvi dövlətinə qarşı ciddi təhlükə yarada bilsinlər. Amma XVI əsrin ortalarında özbək hakimləri daha çox öz aralarında başlanan daxili mübarizə ilə məşğul idilər. Ona görə Osmanlı tərəfindən gözlənilən hərbi fəallıq özbək hakimləri tərəfindən müşahidə edilmədi. Borraq xan da yazdığı məktubunda başının daha çox daxili mübarizəyə qarışdığı və yaxın gələcəkdə Xorasan üzərinə hücuma başlayacağını bildirirdi (7).

Bir müddət sonra yazdığı məktubunda isə Borraq xan Osmanlı sultanının göndərdiyi hərbi köməyi məmnunluqla anırdı və nəhayət ki, həmin köməkdən istifadə etməklə Səfəvi dövlətinə qarşı mübarizəyə başlaya biləcəyini vurğulayırdı. Özbək xanı bəyan edirdi ki, bütün həyatını kafirlərlə mübarizəyə həsr etməyə hazırdır. Onun fikrincə, bu mübarizədə kafirlərə və fasidlərə ciddi zərbə vurmaqla Məkkə və Mədinəyə səfərə yollarının da mömin insanların üzünə açılmasına nail olacaqdır. Məktubda qeyd olunurdu ki, Mavərannəhrdə yaşayan müsəlmanlar da Məkkə və Mədinə yollarının açılmasını səbirsizliklə gözləyirdilər. Borraq xan məktubunda yenidən Osmanlı sultanından hərbi kömək diləyirdi. O, əvvəlcə Osmanlı sultanından yenidən müttəfiqlik əlaqə-

lərinin canlandırılmasını xahiş edir və sonra da bu müttəfiqliyin nişanəsi kimi, bir dəstə yeniçərinin və xidmət bölməsinin onun ixtiyarına göndərilməsi haqqında məsələ qaldırırdı. Borraq xan həmin qüvvələrin gəlməsi ilə müqəddəs islam yolunda yeni mübarizənin başlayacağını bildirirdi. Borraq xan tərəfindən fars dilində yazılmış məktuba Sultan Süleyman tərəfindən yenidən türk dilində cavab verildi. Bu cavab isə artıq Səfəvi dövləti ilə barışıq anlaşmasının əldə edildiyi dövrə təsadüf edirdi. Ona görə Sultan Süleyman Səfəvi dövləti ilə anlaşmada olduğunu və bu dövlətə qarşı özbək hakimləri ilə artıq hərbi əməkdaşlıq qurulmasında maraqlı olmadığına işarə edirdi (8).

Göründüyü kimi, Səfəvi dövlətinə qarşı Osmanlı sarayının özbək hakimləri ilə əlaqələr yaratması hərbi müdaxilələrə yol açsa da, Səfəvi dövlətinin qüdrətini zəiflətmək mümkün olmadı. Osmanlı sultanının özünün böyük miqdarda qoşunla Səfəvi hüdudlarına hücum çəkməsi isə Şah Təhmasibin tətbiq etdiyi ağıllı strategiya nəticəsində nəzərdə tutulan planlarının icrasına imkan vermədi. Səfəvi dövləti müəyyən məhrumiyyətlərlə rastlaşsa da öz mövcudluğunu qoruyub saxladı və bu strategiya son nəhayətdə Osmanlı dövləti ilə Səfəvi dövləti arasında dostluq münasibətlərinin formalaşmasına yol açdı.

Amasiya razılaşmasının əldə edilməsi iki dövlət arasında qarşılıqlı münasibətlərin yeni bir səhifəsini açdı. Bu yeni münasibətlər Şah Təhmasibin istəklərini müəyyən dərəcədə qane edən münasibətlər idi. Doğrudur, Amasiya razılaşmasının əldə edilməsi Səfəvi dövlətini müəyyən ərazi güzəştlərinə getməyə məcbur etdi və Bağdad daxil olmaqla qərb hüdudlarında yerləşmiş bir çox şəhərlər, qalalar və məntəqələr Osmanlı dövlətinə güzəştə gedildi. Bu güzəşti Şah Təhmasib tərəfindən səltənətin möhkəmləndirilməsi, səltənət əhalisinin viranedici müharibələrdən nicat verilməsi üçün müvəqqəti bir güzəşt kimi də qəbul etmək olar. Çünki məlumdur ki, Şah Təhmasibin xələfləri Bağdad məsələsinə yenidən qayıda bildilər və Bağdad kimi böyük bir şəhəri Səfəvi hüdudlarına qaytarmağa müvəffəq oldular. Şah Təhmasib isə konkret tarixi şəraitdə bu reallıqla razılaşmalı oldu və nəticədə

səltənətin asayişi, rifahı, inkişafı və möhkəmləndirilməsi üçün əlverişli şərait əldə edə bildi. Bununla, qüdrətinin zirvəsində olan Osmanlı dövləti kimi bir dövlətin Səfəvi dövlətinə qarşı yaratdığı güclü təhdidləri neytrallaşdırmaq mümkün oldu. Tədqiqatçılar da haqlı olaraq belə bir qənaətə gəlirlər ki, Amasiya razılaşmasının əldə edilməsi Şah Təhmasibin uzaqgörən və praqmatik siyasətinin nəticəsi idi (9).

Qeyd edilməlidir ki, qarşılıqlı dost münasibətlərin əldə edilməsi elə Osmanlı dövlətinin də marağına cavab verirdi. Belə ki, Osmanlı dövləti Səfəvi cəbhəsində böyük itkilərlə rastlaşmaqdan xilas oldu və bütün potensialını Avropa istiqamətində yeni fəthlərə istiqamətləndirə bildi.

Sultan Süleymanın dünyasını dəyişməsi və II Sultan Səlimin taxta çıxması münasibəti ilə Şah Təhmasibin Osmanlı sarayına göndərdiyi elçilik heyəti və bu elçilik heyətinin apardığı məktubda yazılanlar Səfəvi şahının iki dövlət arasında dinc münasibətlər qurmasına verdiyi dəyərin ifadəsi idi. Sultan Səlimə göndərilən təbrik məktubunda Şah Təhmasibin ifadə etdiyi fikirlər onun səmimi mövqeyi idi və bu mövqeyi həyatının sonuna qədər qorudu. Şah Təhmasibə bəlli idi ki, Osmanlı qoşunları Avropa istiqamətində böyük bir hərbi yürüşə çıxmışdı və Sultan Süleyman da həmin yürüşün gedişində dünyasını dəyişmişdi. Bu hadisədən sonra Sultan Səlim baş verənlər haqqında məktub yazıb Şah Təhmasibə göndərdi. Sultan Səlim həmin məktubda həm atasının dünyasını dəyişməsi, həm də özünün taxta çıxması haqqında Səfəvi şahına məlumat verirdi. Sultan Səlim hakimiyyət başına keçəndən sonra gördüyü ilk işlərdən biri bu oldu ki, Məhəmməd bəyin rəhbərliyi altında Səfəvi sarayına elçilik heyəti göndərdi. Məhəmməd bəy də ləngimədən yola düşdü və çalışdı ki, tez bir şəkildə sultanın məktubunu Səfəvi sarayına çatdırsın. Şah Təhmasib Osmanlı elçisinin gəlməsi xəbərini alanda göstəriş verdi ki, Səadət meydanında yenidən qurulmuş olan bazar bağlansın, dövlətin türk və taciklərdən olan bürün mənsubları və əmirləri elçinin qarşılanmasına çıxsınlar və onu ehtiramla şəhər daxilinə gətirsinlər. Belə də edildi və Osmanlı elçisi böyük

ehtiramla Səfəvi sarayına gətirildi və Osmanlı sultanının məhəbbət və sədaqət ifadələri ilə dolu olan məktubu Şah Təhmasibə təqdim edildi (10).

II Sultan Səlimin məktubunu Səfəvi sarayına gətirən Osmanlı elçiliyinin Qəzvində böyük təntənə ilə qarşılanması, Şah Təhmasibin yazdığı cavab məktubunun o dövr üçün gözlənilməyəcək dərəcədə böyük olması, məktubla bərabər böyük sayda qiymətli hədiyyələr göndərilməsi də Şah Təhmasibin iki dövlət arasında dinc münasibətlərin qorunmasına göstərdiyi münasibətin ifadəsi idi. Şah Təhmasib Osmanlı qoşunlarının Avropa istiqamətində yürüşünü məmnunluqla qarşılamışdı. Etiqadlı bir müsəlman kimi, Şah Təhmasib əmin idi ki, bu yürüş Avropada məscidlərin artmasına, islamın daha da yayılmasına rəvac verəcəkdir. Ona görə də, səltənətin bütün böyük şəhərlərində Osmanlı qoşunlarının uğuru üçün dua mərasimləri təşkil edilmişdi. Şah Təhmasib yazırdı ki, o özü şəxsən Osmanlı qoşunlarının qələbəsi üçün "Quran" xətmi üzərində çalışırmış (11). Bu fikirlərlə, Şah Təhmasib eyni zamanda II Sultan Səlimin hakimiyyəti illərində də iki dövlət arasında dinc münasibətlərin davam etməsinə tərəfdar olduğunu bəyan etdi. Məlumdur ki, Şah Təhmasibin istədiyi kimi II Sultan Səlimin hakimiyyəti illərində də Səfəvi-Osmanlı münasibətləri sülh və dinclik üzərində quruldu və Sultan Bayəzidin Səfəvi sarayına sığınması ilə Məsum bəy Səfəvinin qətli məsələsi istisna olmaqla bu münasibətləri poza biləcək ciddi hadisələr də baş vermədi.

Sultan Bayəzidin atasının və qardaşı Şahzadə Səlimin təqibindən qaçaraq Səfəvi sarayına sığınmasının və bu məsələnin çözülməsinin təfərrüatları uyğun fəsildə açıqlanmışdır. Onu əlavə etmək olar ki, bu məsələ iki dövlət arasındakı münasibətlərin yenidən müharibə müstəvisinə keçməsi üçün real təhlükə yaratmışdı. Şah Təhmasib bir tərəfdən Şahzadə Bayəzidin salamat qalması, digər tərəfdən də iki dövlət arasında münasibətlərin gərginləşməməsi üçün kifayət qədər qətiyyət və həm də dözümlülük nümayiş etdirdi. Bayəzidlə bağlı məsələnin uzadılması ilə onun salamat saxlanılması cəhdi son nəticədə gözlənilən nəticəni ver-

mədi. Bununla belə, Şah Təhmasib iki dövlət arasında əldə edilmiş razılaşmanı da pozmağı məqsədəuyğun bilmədi. Belə ki, Şahzadə Bayəzidin verilməməsinin iki dövlət arasında müharibəyə gətirib çıxaracağına şübhə yeri yox idi. Şah Təhmasib isə səltənətinin və bu səltənət insanlarının yenidən müharibə fəlakətləri ilə qarşılaşmasını istəmirdi. Mövcud vəziyyəti və iki dövlət arasında əldə edilmiş razılaşmanın şərtlərini reallıqla qiymətləndirəndən sonra Şah Təhmasib qərara gəldi ki, Şahzadə Bayəzidi təhvil versin. Onun gözləmədiyi halda Şahzadə Bayəzid Osmanlı sarayından gəlmiş adamlar tərəfindən elə Qəzvində qətlə yetirildi. Şah Təhmasib bu hadisəni sonsuz kədərlə qarşıladı. Lakin Şahzadə Bayəzidin təhvil verilməsi hökmdarı olduğu səltənəti daha böyük fəlakətlərdən xilas etməklə iki dövlət arasındakı sülh razılaşmasının da qorunub saxlanmasını təmin etdi.

Bir sıra tarixçilər Şahzadə Bayəzidin təhvil verilməsinə və onun qətlə yetirilməsinə görə Şah Təhmasibi qınamaq yolunu tutmuşlar (12). Amma o da məlumdur ki, Şah Təhmasib heç bir vəchlə Şahzadə Bayəzidin qətlini istəmirdi və hətta bunun üçün Osmanlı tərəfinin zəmanətini də almışdı. Digər tərəfdən onun Şahzadə Bayəzidi qaytarmaması da mümkün olan məsələ deyildi. Belə bir addım iki dövlət arasında sülh razılaşmasının pozulması ilə müharibənin başlanmasına gətirib çıxara bilərdi ki, Şah Təhmasib də bunu istəmirdi.

Şahzadə Bayəzidin təhvil verilməsi Osmanlı sarayını sözsüz ki, razı saldı və bu hadisə ilə bağlı Sultan Süleyman öz məmnunluğunu çatdırmaq üçün Səfəvi sarayına elçilik nümayəndəsi göndərdi. Həmin elçiliyə İlyas bəy rəhbərlik edirdi. İlyas bəy Osmanlı sultanının məktubunu və onun göndərdiyi hədiyyələri Səfəvi sarayına çatdırmalı idi. Onu bu səfərdə Səfəvi sarayı tərəfindən Osmanlı sarayına elçi kimi göndərilmiş Cəfər bəy Kəngərli Ustaclı müşayiət edirdi. Həmin elçilik 1563-cü il mart ayının 9-da Qəzvinə yetişdi. Həmin ayın 12-də isə Osmanlı elçisi Sultan Süleyman tərəfindən göndərilən hədiyyələri Şah Təhmasibə təqdim etdi. Məlumdur ki, bu hədiyyələrlə bağlı müxtəlif fikirlər irəli sürülməkdədir. İddia olunur ki, guya Şah Təhmasib

məqsədyönlü şəkildə Şahzadə Bayəzid məsələsindən sui-istifadə etməklə Osmanlı sarayından çoxlu qənimətlər əldə etmək istəyirdi. Hazırkı araşdırmanın uyğun fəslində bu barədə fikir söylənilmişdir. Şahidlər Osmanlı elçiliyinin Qəzvinə daxil olmasını və gətirdiyi hədiyyələri təqdim etməsini belə təsvir edirdilər: "Elçinin gəldiyi gün əvvəlcə Səadət meydanında qızılbaş qoşunlarından bir dəstəsi bahalı paltarları ilə özlərini bəzədilər və sıraya düzüldülər, meydanın ortasında şah üçün ali bir taxt düzəldilər, ona kölgəliklər yaratdılar. Şah Təhmasib yaxınlarından bir neçə nəfərlə meydanın ortasına gəldilər.... Elçi ilə görüşdən bir az əvvəl səltənət şəhriyarı bildirdi ki, rum qeysəri İraq padşahlarının heç biri ilə görüşməmiş və dövlət xəzinəsindən olan bu qədər töhfəni heç kimə göndərməmişdi.. Bütün zər, cəvahir, qumaşlar meydanın mərkəzinə düzülsün ki, yaxın-uzaq olan insanlar ona tamaşa etsinlər. Elçi yaxınlaşanda Şah Təhmasib yanında olan on nəfərlə birlikdə atdan yerə düşdü və taxta qalxdılar. Rumlar atlarını meydanın mərkəzinə gətirəndə Şah Təhmasibin toplarından atəş açıldı. Elçi Osmanlı sultanının öz əli ilə yazdığı məktubu yaxına gətirdi. Şah Təhmasib kürsüdən qalxıb onu özü təhvil aldı. Şahın ayaqlarını öpmək şərəfi qazanmış elçiyə nəvaziş göstərildi. Dövlətxananın böyük eyvanından hökm oldu ki, rum elçisinin gətirdikləri hamısı bir-birinin üstünə tökdülər. Dövlətin bütün ərkan və əmirləri dəvət olundu və bütün qumaşlar onlara paylandı. Zərlərin bir hissəsi də hər kəsə malik olduğu məqama görə paylandı" (13).

Bu şahid ifadələri də Şah Təhmasibin Osmanlı sarayına maddi maraq mövqeyindən yanaşması fikirlərinin obyektivliyini şübhə altına almağa əsas ola bilər. Şah Təhmasib iki dövlət arasında sülh münasibətlərinin qorunmasını lazım bilirdi və Şahzadə Bayəzid məsələsində də bu məsələ əsas tutulurdu.

Şahzadə Bayəzidin qətlindən sonra da onunla bağlı olan məsələ iki dövlət arasında mövcud olan münasibətlər çərçivəsində yenidən gündəmə gəlmişdi. Belə ki, Osmanlı casusları saraya şayiə xarakterli məlumatlar çatdırırdılar ki, guya Şahzadə Bayəzidin böyük oğlu Orxan qətlə yetirilməyib və Səfəvi

ərazisində sağ-salamat qalmaqdadır. Bu xəbər II Sultan Səlimi kifayət qədər təşvişə saldı və hakimiyyətə yiyələndikdən sonra tez-tələsik Səfəvi sarayına öz elçisini göndərməkdə məqsəd də həmin məlumatın doğru olub-olmadığını yoxlamaq idi. Çünki Orxanın sağ qalması və onun taxt-tac üçün iddia qaldırması Sultan Səlim hakimiyyəti üçün təhdidə çevrilə bilərdi. Osmanlı elçisi Qəzvində olarkən bu məsələ ilə ətraflı maraqlandı. Səfəvi sarayının əmir və əyanları da onu inandıra bildilər ki, Şahzadə Bayəzidin oğlunun sağ qalması və onun Səfəvi hüdudları daxilində yaşaması məsələsi həqiqətdən uzaqdır. Bu məlumat Sultan Səlimə çatdırıldı və bildirilir ki, bu məlumatı alandan sonra Sultan Səlim də öz taxt-tacının gələcəyinə görə bir qədər xatircəm oldu. Lakin mövcud olan məlumatlar görə, Sultan Səlimin bu narahatçılığı aradan qalxmayıbmış. Şah Təhmasib tərəfindən çox böyük həcmdə yazılmış təbrik məktubunun Sultan Səlimə çatdırılması üçün Şahqulu sultanın rəhbərliyi altında Osmanlı sarayına böyük nümayəndə heyəti göndəriləndə həmin məsələ yenidən müzakirə obyekti olubmuş. Şahqulu sultan Osmanlı sədr-əzəmi qarşısında and içərək Osmanlı sarayını əmin etdi ki, Şahzadə Bayəzidin oğlunun sağ qalması və onun Səfəvi hüdudlarında yaşaması mümkün deyil (14).

Səfəvi-Osmanlı münasibətlərində sülhün və dincliyin bərqərar olmasında və davam etdirilməsində Şah Təhmasib təşəbbüskarlığı daha qabarıq şəkildə özünü nümayiş etdirirdi. Bəllidir ki, Şah Təhmasibin vəziri Məsum bəyin və onu müşayiət edən nümayəndə heyətinin Həcc səfərinə yollanarkən Osmanlı hüdudları daxilində qətlə yetirilməsi iki dövlət arasında münasibətlərin yenidən gərginləşməsi üçün yol aça bilərdi. Osmanlı sarayı bu qətlin məsuliyyətini öz üzərindən atmaq istəsə də (bu barədə uyğun fəsildə danışılmışdır) məsələnin mahiyyəti Səfəvi sarayına bəlli idi. Osmanlı sarayına belə bir məlumat daxil olmuşdu ki, Məsum bəy Səfəvi Osmanlı daxilində şiə məzhəbinə mənsub olan ələviləri Osmanlı dövlətinə qarşı qiyama qaldırmaq istəyir və bu hərəkətin qarşısının alınması üçün onun və dəstəsinin qətlinə fərman verilmişdi. Əslində, Şah Təhmasib heç bir vəchlə Os-

manlı dövləti daxilində belə hərəkətlərə meyl göstərmirdi və əgər lazım olsaydı Osmanlı daxilində təriqət təbliğatının gücləndirilməsi üçün daha etibarlı vasitə olan təriqət xəlifələrindən istifadə edə bilərdi (15).

Bununla belə, Şah Təhmasib iki dövlət arasında bərqərar olmuş dinc münasibətlərin yenidən gərginlik üzərinə keçməsinə razı olmadı və iki dövlət arasında sülhün qorunub saxlanmasını məqsədəuyğun saydı. Hətta Osmanlı dövlətinə qarşı yeni müharibə başlamaq üçün əlverişli şərait yarananda belə Şah Təhmasib əldə etdiyi razılaşmanı pozmağı məqsədəuyğun saymadı. Başqa sözlə, əldə edilmiş razılaşmaya qarşı bir sabitlik nümayiş etdirdi. Belə ki, 1570-ci ildə Kiprin Osmanlı qoşunları tərəfindən fəth edilməsi ilə Avropadan şərqə doğru uzanan ticarət yolları nəzarət altına alındı. Bu vəziyyət Avropa dövlətlərinin ciddi narahatçılığına səbəb oldu. Amma həmin dövlətlərin bu vəziyyətin qarşısını almaq gücü yox idi. Ona görə 1571-ci ildə Avropadan Alessandri adlı bir elçi Qəzvinə gəldi, Səfəvi sarayının mənsubları ilə görüşdü, yaranmış şəraitdə Osmanlı dövləti üzərinə hücum edilməsini və bunun nəticəsi kimi həm də Bağdadın və itirilmiş digər ərazilərin Səfəvi hüdudlarına qaytarılması imkanından istifadə edilməsi üçün çağırış edildi. Şah Təhmasib Avropa tərəfindən edilmiş bu təklifi qəbul etmədi, bir daha Osmanlı dövlətinə qarşı xristian dövlətləri ilə ittifaq bağlanmasını qəbul etmədi. Tədqiqatçıların qənaətinə görə, bu məsələdə Şah Təhmasib Osmanlı sultanına nisbətən daha müdrik siyasət izlədi, islam dünyasının parçalanması üçün Avropa ilə sazişə getmədi. Baxmayaraq ki, Avropa dövlətlərinin təklifi qəbul olunsaydı Səfəvi dövləti itirilmiş müəyyən əraziləri geri qaytara bilərdi (16).

Kipr adası fəth edildikdən sonra Venesiya, İspaniya və katolik Papası arasında Osmanlı dövlətinə qarşı üçlü ittifaq yaradıldı. Alessandrinin Qəzvinə gəlməsində məqsəd də Səfəvi dövlətini bu üçlü ittifaqa cəlb etmək və Osmanlı dövlətinə qarşı iki cəbhədə müharibə başlamaq idi. Alessandri israrla onu da çatdırmağa çalışdı ki, Şah Təhmasib Osmanlı dövləti ilə əldə etdiyi razılaşmaya çox da arxayın olmasın. Onun sözlərinə görə, Osmanlı

sarayı istədiyi vaxt bu razılaşmanı pozar və bu zaman Səfəvi dövləti də çətin vəziyyətdə qala bilərdi. Avropalı elçinin israrına baxmayaraq, Şah Təhmasib Osmanlı dövlətinə qarşı ittifaqa daxil olmadı və tərəfdarı olduğu razılaşmaya sədaqətli qaldı. Bununla belə, Avropa dövlətləri Osmanlıya qarşı cəbhə açmaqdan çəkinmədilər. 1571-ci il oktyabr ayının əvvəllərində Lepant körfəzində Osmanlı dəniz qüvvələri ilə Avropa dövlətlərinin dəniz qüvvələrinin döyüşü oldu və bu döyüşdə Osmanlı qüvvələri uğursuzluğa düçar oldu. Roma papası bu uğurdan sonra Şah Təhmasibə məktub göndərdi və ona Osmanlı qoşunlarına qarşı əldə edilmiş qələbə haqqında məlumat verdi. Papa eyni zamanda tövsiyə etdi ki, Şah Təhmasib bu fürsətdən bəhrələnsin, Osmanlı dövlətinin zəifləməsindən istifadə edərək ona qarşı döyüşə başlasın. Şah Təhmasib Avropadan edilən tövsiyələri yenə də qəbul etmədi və Osmanlı dövlətinə qarşı münasibətini dəyişməyərək əldə edilmiş razılaşmaya sədaqətli qaldı (17).

II Sultan Səlimin dünyasını dəyişməsindən sonra da (1574) Şah Təhmasib çalışırdı ki, Osmanlı dövləti ilə əldə edilmiş razılaşma pozulmamış qalsın və bu məsələyə o, III Muradın Osmanlı taxt-tacına çıxması münasibətilə göndərdiyi məktubunda da toxunmuşdu. Sultan Səlimin vəfatına görə başsağlığı və III Muradın taxta çıxması münasibətilə təbrikləri çatdırmaq üçün Şah Təhmasib tərəfindən Çuxursəəd bəylərbəyi Məhəmməd xan Toxmaq Ustaclının rəhbərliyi altında Osmanlı sarayına elçilik heyəti göndərildi. Məhəmməd xan Ustaclı vaxtilə Çuxursəəd bəylərbəyi olmuş Şahqulu sultanın oğlu idi və atasının vəfatından sonra onun vəzifəsinə sahib olmuşdu. Məhəmməd xan Ustaclının rəhbərlik etdiyi elçilik heyəti 1576-cı il may ayının 4-də İstanbula çatdı. Səfəvi elçiliyi bu dəfə də çox böyük təntənə ilə qarşılandı. Belə ki, elçilik heyəti İstanbula daxil olanda yeniçəri ağası olan Çığalzadə (Sinan paşa) at belində Məhəmməd xan Ustaclını qarşılayıb onun sol tərəfində qərar tutdu. Elçilik heyətinin qarşılanmasına gəlmiş Bolqarıstan bəylərbəyi isə Məhəmməd xanın sağ tərəfi ilə hərəkət etməyə başladı. Bununla Səfəvi elçisinə yüksək qonaqpərvərlik göstərildi. O vaxta qədər Osmanlı sara-

yına gəlmiş heç bir xarici elçilik heyəti belə təntənəli qarşılanma mərasimi ilə qarşılaşmamışdı. Həmin il may ayının 22-də Osmanlı sultanı Səfəvi elçisini qəbul etdi və Şah Təhmasibin göndərdiyi hədiyyələr III Murada təqdim olundu. Həmin hədiyyələrə yüksək zövqlə tərtib edilmiş bir ədəd Quran kitabı, bir ədəd "Şahnamə" əsəri, tanınmış şairlərin divanlarından ibarət 60 ədəd digər kitab, qızıl və qiymətli daşlarla bəzədilmiş bir ədəd böyük çadır, 40 ədəd xalça, almaz, zümrüd, yaqut, mirvari, firuzə və digər cəvahiratın toplandığı altı sandıqca daxıl idi. Mənbələrdə olan məlumata görə, Şah Təhmasib tərəfindən son dərəcə qiymətli hədiyyələr göndərilmişdi və Osmanlı sultanlarına heç vaxt heç bir dövlətin padşahı tərəfindən belə qiymətli hədiyyələr göndərilməmişdi. Şah Təhmasibin məktubunun və hədiyyələrinin təqdim edilməsi münasibətilə böyük bir ziyafət də təşkil edildi. Şah Təhmasib tərəfindən göstərilən diqqət III Murad tərəfindən məmnunluqla qarşılandı və onun göstərişi ilə Səfəvi elçiliyi İstanbulda qaldığı günlərdə Osmanlı sarayının hərtərəfli qayğısı ilə əhatə olundu. Elçilik geri dönəndə isə III Murad tərəfindən 5 min ədəd qızıl sikkəsi, 2 baş cins at və digər əşyalar hədiyyə verildi. Bir müddətdən sonra III Murad özünün cavab elçiliyini və Şah Təhmasibə təşəkkür məktubunu göndərdi. Lakin məlumdur ki, həmin elçilik Qəzvinə çatanda Şah Təhmasib artıq dünyasını dəyişmişdi və həmin elçilik yenicə taxta çıxmış II Şah İsmayıl tərəfindən qəbul edildi (18).

Şah Təhmasib göndərdiyi elçilik heyəti vasitəsi ilə həm də üçüncü oğlu Heydər Mirzənin gələcəkdə Səfəvi şahı olmasının Osmanlı sultanı tərəfindən qəbul edilməsini və lazım olarsa onun hakimiyyəti öz əlində saxlamasına köməklik göstərməsini də xahiş etmişdi. Şah Təhmasib həyatının sonlarına yaxın övladları arasında hakimiyyət ehtiraslarının qızışdığını hiss edirdi. O, gələcək hakimiyyətin Heydər Mirzəyə keçməsini istəyirdi. Lakin Şah Təhmasibin digər övladları bununla razılaşmaq istəmirdilər. Şah Təhmasib şübhə etmirdi ki, onun övladları arasında hakimiyyət mübarizəsinin qızışması bütünlükdə səltənətin parçalanmasına da yol aça bilər. Buna yol verməmək üçün Şah

Təhmasib yollar arayırdı. Elmi-tarixi ədəbiyyatda olan məlumatlara görə, III Murad elçilik heyətinə böyük ehtiram göstərməklə bərabər, Şah Təhmasibin Heydər Mirzə ilə bağlı xahişinə də rəğbətlə yanaşdı (19).

Səfəvi-Osmanlı münasibətlərinin qurulmasına və istiqamətlənməsinə təsir göstərən amillərdən biri məzhəb fərqliliyi məsələsi idi. Bu barədə kifayət qədər danışılsa da, qeyd etmək lazımdır ki, əslində, hər iki tərəf məzhəb amilindən öz maraqlarının təmin edilməsinə çalışırdı. Məzhəb məsələsi hələ Səfəvi dövlətinin bərqərar olmasından əvvəl bölgənin ictimai-siyasi-hərbi həyatının müəyyənləşməsində kifayət qədər ciddi rol oynayırdı. Səfəvilər dövlətinin qurulmasından sonra, o cümlədən də Şah Təhmasibin hakimiyyəti illərində məzhəb məsələsi Osmanlı dövlətinə qarşı güclü siyasi təzyiq səviyyəsinə belə qalxmışdı. Xüsusilə, Osmanlı daxilində mövcud olan ictimai-siyasi durumun mürəkkəbləşməsi məsələsində məzhəb fərqliliyi Osmanlı sarayının baş ağrısına çevrilmiş məsələ idi. Ölkə daxilində şiə məzhəbinin mövcudluğu və onun tərəfdarlarının çoxalması Səfəvi təsirinin güclənməsi, daxili istimai-siyasi durumun isə zəifləməsi kimi qəbul edilirdi və ona görə də məzhəb sabitliyinin yaradılması daxili idarəçilikdə Osmanlı sarayı qarşısında dayanan mühüm vəzifələrdən biri kimi qəbul olunmuşdu. Hətta Səfəvi sarayının iştirakı olmadan belə şiə əhalinin sayının artması Osmanlı sarayı tərəfindən təhdid kimi dəyərləndirilirdi.

Bu mövzunun bir çox tədqiqatçıları da belə hesab edirdilər ki, Osmanlı daxilində təriqət təbliğatı istiqamətində aparılan işlər Osmanlı daxilində ictimai-siyasi sabitliyin pozulması üçün əsaslı səbəblərdən biri idi. O da bildirilirdi ki, bu təbliğat sünni əhali arasında etiqad və iman inanclarının sarsılmasına, bu insanların ibadətinin və asayışinin pozulmasına, şübhələrin artmasına yol açırdı. Təriqət xəlifələri kimi Osmanlı ərazisində təbliğat aparanlar qızılbaş missiyonerləri adlandırılırdı. O da vurğulanırdı ki, bu xəlifələr apardıqları təbliğatla Osmanlı təbəələrini Səfəvi hüdudlarına köçməyə təşviq edir, öz aralarında nəzir adı ilə topladıqları maliyyə vəsaitini gizli bir yolla Səfəvi daxilinə göndə-

rirdilər. Belələri Osmanlı daxilində beşinci qol (kalon) və ya vətənə xəyanət edən insanlar kimi təqdim olunurdular (20).

Əslində, bu sadalananlar doğru idi. Lakin bir daha qeyd edilməlidir ki, Osmanlı daxilində aparılan təriqət təbliğatı yalnız Səfəvi sarayının nəzarəti altında aparılmırdı. Səfəvi təriqətinə bağlılıq şəxsi inam və etiqad üzərində qurulurdu və təriqət xəlifələri də siyasi sifarişlər əsasında deyil, şəxsi etiqad və inam əsasında fəaliyyət göstərirdilər. Səfəvi təriqəti Şah Təhmasibin hakimiyyəti illərində də kifayət qədər canlı bir cərəyan kimi qalmaqda idi və Osmanlı daxilində də şəxsi etiqaddan bu təriqətə qoşulmaq istəyənlər az deyildi. Onların Səfəvi daxilinə gəlmələri də çox hallarda Ərdəbil xanəgahını ziyarət etmək istəyi ilə bağlı idi. Toplanılan nəzirlər də siyasi məqsədlər üçün deyil, təriqət həyatı üçün verilən sədəqələr idi. Bununla belə, bu məsələ Osmanlı sarayı üçün dövlətin daxili sabitliyinə ciddi təhdidlərdən biri kimi qəbul edilirdi.

Məlumdur ki, Sultan Süleyman Qanuni də Şah Təhmasibə yazdığı məktublarından birində şərq türkləri ilə qərb türkləri arasında Səfəvi-şiə dövlətinin mövcudluğuna heç vaxt yol verməyəcəyini bəyan edirdi (21). Yəni Amasiya sülh razılaşması əldə edilənə qədər Osmanlı dövləti tərəfindən Səfəvi dövlətinə qarşı izlənilən siyasətin məzmunu bundan ibarət idi. Şah Təhmasib də həmin xətti Osmanlı dövlətinə qarşı izlədiyi siyasətdə nəzərə almaq məcburiyyətində idi.

İstər Şah İsmayılın hakimiyyəti illərində, istərsə də Şah Təhmasibin hakimiyyəti dövründə Osmanlı müctəhidləri Osmanlı sarayının siyasətinin davamı kimi, şiəliyin küfr elan olunması üçün dini-nəzəri baza da yaratmağa çalışır və bununla, Osmanlı dövlətinin Səfəvi dövlətinə qarşı barışmaz münasibətini şəri baxımdan qanuniləşdirməyə çalışırdılar. Bu baxımdan 1524-cü ildə, yəni Şah Təhmasibin hakimiyyətinin ilk illərində Osmanlı şeyxülislamlığı vəzifəsinə irəli çəkilmiş Kamal Paşazadənin əsərlərinə daha çox istinad olunur. Onun şiəliyə qarşı yazılmış əsərlərinə "Risale fi ikfdriiş şiə", "Risale fi tekfiir ravafiz", "Risale fi bəyani firakid-dalle", "Risale fi bəyani fitrakil islamiyyun" kimi

risalələr də daxil idi (22). Bu risalələrdə Şah İsmayıl hakimiyyəti dövrü daha çox mövzu obyekti kimi seçilsə də məqsəd bütünlükdə şiə məzhəbinə qarşı Osmanlı dövlətinin mövqeyinin əsaslandırılması idi. Kamal Paşazadə islam hümmətini iki qrupa ayırırdı - əhli-sünnət və əhli bidət. Yəni sünnilikdən kənar olan cərəyanlar onun nəzərində bidət idi. Bu bidət əhlini də Kamal Paşazadə bir neçə qrupa ayırmışdı. Onun təsnifatına görə şiələr rafizlər qrupuna daxili idi. Bütünlükdə bu qrupa şiədən başqa Ələviyyə, Bədəviyyə, Zeydiyyə, Abbasiyyə, İsmruliyyə, Eyyamiyyə (İmamiyyə), Tənasühiyyə, Ləniyyə, Raciyyə, və Mirasiyyə də daxil idi. Adı çəkilən müctəhid bu cərəyanların hamısını küfr və bidət sayırdı və bildirirdi ki, Osmanlı sultanı (o həm də islam xəlifəsi hesab edilirdi) bu cərəyanların tərəfdarlarını tövbəyə dəvət etməli və tövbə qəbul edilmədikdə onların öldürülməsi gündəmə gəlməlidir. O bəyan edirdi ki, sünni məzhəbindən kənar digər məzhəb və firqələr islamdan kənardır və ona görə də onlar günahdırlar. Şah Təhmasib və onun hökmdarı olduğu səltənət daxilində yaşayan şiə məzhəblər də beləcə islamdan kənar qəbul edilirdi. Kamal Paşazadənin dini vəzifələrdə olduğu zamanlarda da Osmanlı daxilində təriqət təbliğatının aparılması narahatçılıq doğuran məsələlərdən biri idi. Ona görə o da bütünlükdə şiə məzhəbinə qarşı barışmaz mövqe tutulmasının tərəfdarı idi. O hətta şiələrə qarşı mübarizə aparılmasını digər kafirlərə qarşı mübarizə aparılmasından daha fəzilətli hesab edirdi. Bu mübarizəni Kamal Paşazadə öz əsərlərində həzrət Əbu Bəkrin xəlifəliyi dövründə zühur etmiş yalançı peyğəmbərə qarşı, Həzrət Əlinin isə haricilərə qarşı savaşmasına bənzətmişdi (23). Həmin fikirləri irəli sürməklə Kamal Paşazadə Səfəvi dövləti üzərinə hücumlara da həm fitva verir, həm də bu dövlətə qarşı müharibə başlanmasını təşviq edirdi.

Səfəvilərə qarşı Osmanlıların və bütünlükdə müsəlmanların hansı mövqedə olmalarını Kamal Paşazadə “Risale fi ikfati Şah İsmayıl” adlı risaləsində aşağıdakı kimi açıqlayırdı. Qeyd edilməlidir ki, onun bu fitvası yaşadığı dövrdə Osmanlı dövlətinin Səfəvi dövlətinə qarşı izlədiyi xarici siyasətin də əsasını təşkil

edirdi. O yazırdı: “Onlar şahın halal qıldıqlarını halal, haram qıldıqlarının haram olduğunu iddia etməkdədirlər. (Məsələn) şahın şərabı halal qıldıqlarından dolayı şərabın halal olduğunu söyləməkdədirlər. Qısacası, onların kafir olduğu xüsusi bizə təvatir yoluyla nəql edilmişdir. Bu durumda biz onların küfründə və mürtədliyində əsla şübhə etməyiz. Ölkələri darül-hərbdir. Erkəkləri və qadınlarıyla evlənmək ittifaqla batildir. Övladlarının hər birinin vələdi-zina olduğu kəsindir. Kəsdikləri murdardır. Onlara məxsus olan qırmızı qalənsuvayı (başlığı) zərurət olmadan kim geyərsə küfr qorxusu qalibdir (kafir olmasından qorxuludur). Çünki bu (qalənsuva) zahirən küfrün və dinsizliyin əlamətlərindəndir. Sonra, onların hökmü mürtədlərin hökmü kimidir. Öylə ki, onların şəhərləri ələ keçirilirsə oraları darül-hərb olur və müsəlmanlara onların malları, qadınları və cocuqları halal olur. Erkəklərinin isə müsəlman olmaları durumu müstəsna qətli-vacibdir. Bunlar müsəlman olduqları təqdirdə müsəlman hür kimsələr kimi hür olurlar. Fəqət zındıq olduğu ortaya çıxan kişinin həmən öldürülməsi gərəkdir. Bir insan darül-islamı tərk edib onların batil dinini tərcih edərək onların diyarlarına getsə bu durumda qazi onun öldüyü hökmünü verə bilir, malını varisləri arasında təqsim edə bilir, zövcəsini başqa bir erkəyə nikahlaya bilir. Bu bilinməlidir ki, onlara qarşı cihad etmək, onlarla savaşda gücü yetən bütün müsəlmanlara fərzi-ayındır” (24).

Osmanlı dövlətinin sünni üləmaları və müctəhidləri şiə üləmalarının və fəqihlərinin hakimiyyət barəsində irəli sürdükləri fikirlərlə də razı deyildilər. Yuxarıda qeyd edildiyi kimi, şiə fəqihlərinə görə, dövlət rəhbərliyi insanların seçiminə verilə bilməyəcək bir məsələ idi və yer üzündəki hakimiyyət tanrı hakimiyyətinin ifadəsi kimi qəbul olunurdu. Məhz buna görə də imamların hakimiyyəti tanrı hakimiyyətinin ifadəsi kimi qəbul olunurdu. Sünni müctəhidləri isə belə qənaətdə idilər ki, yer üzərindəki hakimiyyət etiqadla bağlı olan bir məsələ deyil, müsəlmanların dünyəvi işlərini davam etdirə bilmək üçün ehtiyac duyduqları bir məsələ idi. Ona görə də belə hesab edilirdi ki,

elmi, biliyi, etiqadı, qabiliyyəti olan hər bir müsəlman dövlət rəhbəri seçilə bilərdi (25).

Osmanlı üləmaları məzhəb fərqliliyinə qarşı barışmaz münasibət nümayiş etdirdikləri kimi, islam xəlifəsi səlahiyyətlərini öz üzərinə götürmüş Osmanlı sultanı da məzhəb fərqliliyinə qarşı barışmazlığın bir nümunəsi idi. Osmanlı qoşunlarının Səfəvi hüdudlarına olan bir neçə hücumu üçün də məzhəb fərqliliyinə qarşı mübarizə aparılması zahiri səbəb kimi irəli sürülmüşdü. Məzhəb fərqliliyinin mövcudluğu Səfəvi hüdudlarında yaşayan insanların Osmanlı torpaqlarından keçməklə Həcc ziyarətinə getmələrinə də ciddi çətinliklər yaradırdı. Məzhəb eyniliyi üzərində Səfəvi dövlətinə qarşı hərbi ittifaqın yaradılması cəhdi də var idi. Osmanlı-özbək münasibətləri buna misal ola bilər. Məzhəb fərqliliyindən istifadə etməklə eyni zamanda Osmanlı dövlətinə qarşı da hərbi ittifaq yaradılması cəhdləri var idi. Avropa dövlətlərinin Səfəvi dövləti ilə anlaşaraq Osmanlı dövlətinə qarşı birgə mübarizə aparmaq cəhdi də bunun bir nümunəsidir. Doğrudur, Şah Təhmasibin Osmanlı dövlətinə qarşı münasibətində sağlam islam təfəkkürü və yanaşması mövcud idi. Bununla belə, Amasiya anlaşmasının əldə edilməsinə qədər Səfəvi dövlətinin Osmanlı dövlətinə qarşı münasibətində məzhəb amili təsiredici rola malik idi. Amasiya razılaşmasının əldə edilməsi onu da göstərdi ki, məzhəb ayrılığına baxmayaraq bu dövlətlər üçün dinc-yanaşı yaşamaq və qarşılıqlı faydalı münasibətlər qurmaq mümkündür. Yuxarıda yazılanlardan da aydındır ki, məzhəb fərqliliyinə baxmayaraq belə münasibətlərin qurulması üçün Şah Təhmasib də bütün imkanlarından istifadə etdi və hətta lazım gələndə bunun üçün müəyyən güzəştə getməyi də bacardı. Məsum bəy Səfəvinin Osmanlı ərazisində qətlə yetirilməsi buna misal ola bilər. Həmin hadisə bir tərəfdən Osmanlı sultanının şiə məzhəbinin mövcudluğu ilə bağlı narahatçılıqlarının aradan qalxmadığını götərirdisə, digər tərəfdən də qarşılıqlı sülhün qorunması üçün Şah Təhmasibin daha müdrik siyasət tərəfdarı olduğunu nümayiş etdirirdi.

Mövcud olan məlumatlara görə, hətta Amasiya sülh razılaşmasının əldə edilməsindən sonra da Osmanlı daxilində Səfəvi

təriqət təbliğatı Osmanlı sarayını narahat edəcək dərəcədə öz mövcudluğunu saxlaya bilmişdi. Bir daha qeyd edilməlidir ki, Amasiya sülh razılaşmasına sədaqətli olan və onu hər vasitə ilə qorumağa çalışan Şah Təhmasibin bu məsələdə istiqamətverici təsirini qəbul etmək çətin olsa da, hər halda belə bir durumun mövcudluğu elmi-tarixi ədəbiyyatda da öz əksini tapmışdır. Hətta o da bildirilir ki, Osmanlı ərazisində olan təriqət tərəfdarları arasında təriqət meyllərini ifadə edən nəzm parçaları da yazılaraq yayılırdı. Həmin nəzm parçalarından biri belə idi:

Könül çıxmaq istər şahın köşkünə
Haqdan inayət olursa
Cam boyanmaq istər Əli müşkünə
Şahın Uruma gəlir bir gün
Pirim Əli, on iki imam eşqinə
Qəzada bu zülfüqarı
Açın qapıları şaha gedəlim
Kafirlərə çalar bir gün... (26).

Bu halların qarısının alınması üçün Osmanlı sarayının konkret cəza tədbirləri həyata keçirdiyi də məlumdur. Xüsusilə, Səfəvi təriqət xəlifələrinin təriqət dəyərlərini təbliğ etməsi Osmanlı sarayı tərəfindən təhdid kimi qarşılanırdı və bu xəlifələrin təriqət təbliğatının qarşısının alınması üçün yerli hakimlərə də fərmanlar göndərilmişdi. Məsələn, II Sultan Səlim Amasiya və Kastomanı valilərinə fərman göndərmişdi ki, həmin vilayətlərdə qızılbaşlara rəğbətli münasibətlər göstərənlər tutulub məhv edilsinlər. Bağdad valisinin qarşısında vəzifə qoyulmuşdu ki, Həzrət Əlinin və İmam Hüseynin məqbərələrinə Səfəvidən gətirilmiş xalçalar toplansın və onların yerinə Osmanlı ərazisində toplanmış xalçalar sərilsin. Bununla həmin müqəddəs məkanlarda şiələrin izləri görünməsin (27).

Sultan Səlimin təxminən 1559-cu ilə aid olan fərmanlarından birində Amasiya hakimindən tələb olunurdu ki, vilayət ərazisində məzhəb təbliğatı aparan adamlar tapılsın və onlar qətlə yetirilsin.

Həmin fərmanda deyilirdi ki, vilayət ərazisində bəzi adamların xəlifə adı altında məzhəb təbliğatı aparması haqqında məlumatlar alınmışdır. Tələb olunurdu ki, həmin adamlar tapılsınlar, sonra onlar gizli şəkildə aparılırb Qızılirmağ çayında boğdurulsunlar və ya başqa bir yolla onların həyatına son qoyulsun. Bu adamların həyatlarına son qoyulması üçün müxtəlif bəhanələr tapılmalı idi. Bir müddətdən sonra Amasiya hakimi Osmanlı sultanına məlumat göndərdi ki, vilayət ərazisində təriqət təbliğatı aparan adamlar tapıldı və kimsə başa düşməmiş onlar hamısı müxtəlif bəhanələrlə qətlə yetirildilər (28).

Bu kimi hallara baxmayaraq, Şah Təhmasib, qeyd edildiyi kimi, iki dövlət arasında dinc münasibətlərin davam etməsinin tərəfdarı idi və hər vasitə ilə bu münasibətlərin qorunub saxlanmasını istəyirdi. İki dövlət arasında dinc münasibətlərin qorunub saxlanması isə hər iki dövlətin inkişafına və möhkəmlənməsinə əlverişli şərait yaradırdı. Hərbi gərginliyin aradan qalxması bu dövlətlərin daxili sabitliyinə, daxili inkişafına yol açmaqla bərabər, iki ölkə arasında iqtisadi əlaqələrin genişlənməsinə də yeni imkanlar açırdı.

Səfəvi və Osmanlı dövlətləri arasında dinc münasibətlərin olması yalnız bu dövlətlərin deyil, bütünlükdə bölgənin iqtisadi-ticarət əlaqələrinin inkişafı üçün əlverişli zəmin yaradırdı. Bu dövlətlərin hər ikisi qərblə şərqi birləşdirən ticarət yollarının üzərində yerləşirdi. Həmin ticarət yolları bu iki dövləti həm öz arasında, həm də bölgənin və dünyanın inkişaf etmiş böyük dövlətləri ilə birləşdirirdi. Səfəvi və ya Osmanlı ərazisində qeyri-sabitliyin olması və ya bu dövlətlərin müharibə vəziyyətində olması sözsüz ki, ticarət yollarının da işləkliyinə əks təsir göstərirdi. Həm də bu yolların işlək olmaması bu dövlətlərin hər ikisini əlavə gəlirlərdən məhrum edirdi. Ona görə də dinc münasibətlərin mövcudluğu bir tərəfdən Səfəvi-Osmanlı arasında iqtisadi fəaliyyəti gücləndirir və həm də ticarət yollarının işləməsi ilə bu iki ölkənin şərq və qərb ölkələri arasındakı iqtisadi əlaqələri genişləndirirdi. İqtisadi əlaqələrin genişlənməsinə isə hər iki tərəf maraqlı idi. Çünki hər iki tərəfin kifayət qədər ciddi iqtisadi

imkanları var idi və istehsal olunan malların dünya bazarlarına çıxarılması hər iki dövlət üçün təbii bir zərurətə çevrilmişdi.

Şah Təhmasibin hakimiyyəti illərində də səltənət daxilində ipək istehsalı yüksək səviyyədə qalmaqda idi (29). İstər qonşu ölkələrdə, istərsə də Avropada bu ipəyə qarşı böyük maraq var idi. Səfəvi ipəyinin ticarətinin həyata keçirilməsi üçün Avropa ölkələrinin tacirləri də bölgədəki ticarət yollarının fasiləsiz işləməsini istəyirdilər. İpək ticarəti isə əsasən, Osmanlı ərazisindən keçən yollar vasitəsi ilə həyata keçirilirdi. Doğrudur, Avropa dövlətləri Səfəvi və Osmanlı dövlətlərinin güclənməsini istəmirdilər. Bununla belə, onlar Səfəvi dövləti ilə ticarətdə maraqlı idilər və bu da o zaman uğurlu şəkildə həyata keçirilə bilərdi ki, Səfəvi-Osmanlı münasibətləri ticarətin inkişafını təşviqləndirə bilsin.

Şah Təhmasibin hakimiyyəti illərində də artıq dəniz ticarət yollarından istifadə olunmasına başlanmışdı. Bununla belə, səltənətin şimalından qərbə doğru uzanan quru ticarət yolları da öz əhəmiyyətini saxlamaqda idi. Xüsusi ilə, ipək istehsalının başlıca olaraq Xəzərətrafı bölgələrdə cəmləşməsi Osmanlı ərazisindən keçən yolların əhəmiyyətini saxlamaqda idi. Bunun nəticəsi kimi Osmanlı ərazisindən keçən yollar Osmanlı dövləti ilə bərabər, həm də Səfəvi dövlətinə böyük gəlirlər təmin edirdi (30).

İki dövlət arasında münasibətlərin gərgin olduğu zamanlar Osmanlı dövləti Səfəvi hüdudlarından keçən ticarət yollarının marşrutlarını dəyişməyə cəhd göstərmişdi. Xüsusilə, Bağdadın fəth edilməsindən və Osmanlı qoşunlarının Təbrizə daxil olmasından sonra işlək ticarət yollarının bütünlüklə nəzarət altına alınması təsəvvürləri yaranmışdı. Osmanlı sarayı təkbaşına şərqi qərblə birləşdirən ticarət yollarını nəzarət altına almaq və bu yolların gətirdiyi gəlirlərə sahiblənmək arzusu ilə yaşayırdı. Lakin bu cəhdlər ciddi bir nəticə vermədi. Çünki ticarət yollarının səmərəliliyi Səfəvi ərazisindən keçən ənənəvi yolların saxlanmasını şərtləndirirdi. İpək ticarətinin fəallaşdırılması da bu yolların saxlanmasını tələb edirdi. İki dövlət arasında sülh razı-

laşması əldə ediləndən sonra həmin yolların işləkliyi daha da artırıldı. Bu da hər iki dövlətə eyni dərəcədə faydalı oldu (31).

Qərblə şərqi birləşdirən ticarət yolları Osmanlı ərazisində İstanbul-Toqat-Qarsdan keçməklə Səfəvi sərhədlərinə doğru uzanırdı. Sonra bu yollar İrəvan-Naxçıvan-Culfa-Mərənd-Sufiyan-Təbriz marşrutu üzrə davam edirdi. Təbrizdə bu yollar haçalanırdı. Oradan bir yol Təbrizdən keçməklə Qaraçəmən-Zəncan-Əbhər-Sultaniyyə-Savə-Qum-Kaşan marşrutu üzrə İsfahana uzanırdı. Ikinci marşrut da İsfahana aparırdı. Lakin həmin marşrut Ərdəbil-Tarım-Xalxal-Qəzvindən keçməklə İsfahana doğru gedirdi. Təbrizdən bir işlək yol da Bağdada doğru uzanırdı. Səfəvi hüdudlarından keçən digər yollar da mövcud idi və onlar da Səfəvi dövlətinin digər dövlətlərlə əlaqələrinin qurulmasında mühüm rol oynayırdılar (32).

Səfəvi hökmdarları iki dövlət arasında mövcud olan ticarət yollarının iqtisadi və siyasi faydasını lazımınca dəyərləndirirdilər və ona görə də bu yolların təhlükəsilziyinin qorunmasına çalışırdılar. Hələ Şah İsmayılın hakimiyyəti illərində iki dövlət arasındakı ticarət yollarının təhlükəsizliyinin qorunması diqqət mərkəzində idi. Bu siyasət Şah Təhmasibin hakimiyyəti illərində də davam edirdi. Amma Səfəvi-Osmanlı arasında olan hərbi gərginlik sözsüz ki, bu yolların təhlükəsizliyinə təsirsiz ötüşmürdü. Məlumdur ki, hətta Şah Təhmasiblə Sultan Süleymanın yazışmalarında da bu məsələ öz əksini tapmışdı. Yolların təhlükəsiz olmamasının nəticəsi idi ki, Həcc karvanları da Osmanlı ərazisində müəyyən çətinliklərlə qarşılaşırdılar. Bu yollar həm də ticarət yolları idilər. Təhlükəsizliklə bağlı mövcud olan çətinliklər sözsüz ki, iki dövlət arasında ticarətin genişlənməsinə də mane olurdu.

Şah Təhmasibin hakimiyyəti illərində səltənət daxilində istehsal olunan və digər dövlətlərə, o cümlədən də Osmanlı dövlətinə ixrac olunan əsas mallar bunlar idi: ipək, qiymətli daşlar, qızılla işlənmiş qumaş parçalar, tənbəki, tütün, yemiş qurusu, fısdığ, at və eşşək dərisi, aşılanmış keçi dərisi, badam, digər meyvələr, xalça, ətirlər, tiryək və satlıq ev heyvanları. Bu dövrdə

Osmanlı dövləti daxilində xarici ticarət üçün maraq kəsb edən əsas mallar isə bunlar idi: bürünc, müxtəlif növ parçalar, pambıq, mədən əşyaları, çini qablar, qoyun yunu, mum, bal və s. (33). Bu malların arasında ipəyə daha böyük tələbat var idi. Sözsüz ki, Osmanlı daxilində də ipəyə olan tələbatın ödənməsi üçün Səfəvi ipəyindən istifadə olunurdu. Lakin Səfəvi ipəyi başlıca olaraq Osmanlı ərazisindən keçməklə qərbə daşınırdı.

İki dövlət arasında dinc münasibətlərin bərqərar olması hər şeydən əvvəl elə iki dövlət arasında iqtisadi münasibətlərin inkişafına təkan verdi. Qonşu olmaları və böyük iqtisadi imkanlara malik olmaları bu dövlətlər arasında ticarət əlaqələrinin genişləndirilməsini şərtləndirirdi. Xüsusilə, sərhəd bölgələrində iqtisadi əməkdaşlıq hər iki tərəf üçün lazımi faydanı verirdi. Məsafə yaxınlığı, nəqliyyat xərclərinin azlığı iqtisadi-ticarət əlaqələrinin də artmasını təşviq edirdi. Sərhəd bölgəsində iqtisadi əlaqələrin genişlənməsi isə öz növbəsində bölgədə siyasi sabitliyə bir zəmin olurdu. Bir daha qeyd edilməlidir ki, Amasiya sülh razılaşmasının əldə edilməsi iki dövlət arasında iqtisadi əlaqələrin genişlənməsinə daha əlverişli imkanlar yaratdı.

Məzhəb fərqliliyinə baxmayaraq bu iki dövləti islam mədəniyyəti birləşdirirdi. Islami dəyərlərin inkişafı, dini elmlərin genişlənməsi, xüsusilə ədəbi-mədəni həyat da iki dövlət arasında uyğun əlaqələrin qurulmasını şərtləndirirdi. Dil eyniliyi isə ictimai münasibətlərin qurulmasına, ədəbiyyat və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrə və zənginləşməyə səmərəli kömək göstərirdi. Məlumdur ki, istər Şah Təhmasib, istərsə də Sultan Süleyman həm də qələm sahibləri idilər və onların arasında hətta ədəbi mübadilə də mövcud idi.

## 2. Səfəvi dövlətinin Avropa dövlətləri ilə münasibətləri

### a) Səfəvi-Venesiya münasibətləri

Səfəvi dövlətinin Avropa dövlətləri ilə münasibətləri hələ Şah İsmayılın hakimiyyəti illərində başlamışdı. Səfəvi dövlətinin bö-

yük əraziləri əhatə etməsi, bölgənin böyük dövlətlərindən birinə çevrilməsi, bu dövlətin əlverişli geosiyasi və iqtisadi mövqedə yerləşməsi Avropa dövlətlərinin diqqətini daha sıx şəkildə özünə cəlb etməkdə idi. Səfəvi dövləti ilə münasibətlərin qurulması həm siyasi, həm də iqtisadi baxımdan Avropa dövlətlərinin maraqlarına cavab verirdi. Iqtisadi baxımdan bu maraq onunla bağlı idi ki, həm Səfəvi daxilində istehsal olunan malların ticarəti, həm də Səfəvi daxilindən keçən ticarət yollarından istifadə edilməsi avropalıları özünə cəlb edirdi. Bu isə Avropa tacirlərinə böyük gəlirlər qazandıra bilərdi. Siyası münasibətlərin qurulması isə daha çox Avropa dövlətlərinin təhlükəsizliyi məsələsi ilə bağlı idi. Məlumdur ki, Osmanlı dövlətinin günü-gündən güclənməsi və Şah Təhmasibin hakimiyyəti illərində bu dövlətin öz qüdrətinin zirvəsində olması Avropa dövlətlərinin təbii təşvişi ilə qarşılanırdı. Elə Şah Təhmasibin hakimiyyəti illərində Sultan Süleyman Avropa istiqamətində bir neçə fatehlik yürüşləri keçirmişdi. Osmanlı təhlükəsinin qarşısının alınması və ya zəiflədilməsi üçün Avropa dövlətləri Səfəvi dövlətinin müttəfiqliyinə nail olmağa çalışırdılar. Səfəvi dövlətinin Avropa dövlətləri ilə ittifaqa razı olması və Türkiyənin şərqindən Avropa dövlətləri ilə razılaşdırılmış şəkildə müharibəyə başlaması Avropa dövlətlərinin diplomatiyası qarşısında dayanan başlıca vəzifələrdən biri idi. Şah Təhmasib də hakimiyyəti illərində Avropa dövlətləri ilə münasibətlər qurulmasının tərəfdarı idi. Lakin o, heç bir şərtlə Avropa dövlətləri ilə qurulan münasibətlərin Osmanlı dövlətinə qarşı istiqamətlənməsinə tərəfdar deyildi. Yuxarıda qeyd olunanlardan da məlumdur ki, Osmanlı dövlətinə qarşı başlanacaq müharibədə əlverişli nəticələrin əldə edilməsi ehtimalları olduqda belə, Şah Təhmasib bunun üçün Avropa dövlətləri ilə ittifaqa girməyi birmənalı şəkildə qəbul etmədi. Əksinə, Şah Təhmasib Avropa dövlətlərinə qarşı (dinsizlərə qarşı) müharibələrdə Osmanlı dövlətinin möhkəmlənməsini istəyirdi və həmin dövlətlərə qarşı müharibələri din uğrunda mübarizə kimi dəyərləndirirdi. Bunun nəticəsi idi ki, Şah Təhmasibin Osmanlı dövlətinə qarşı hərbi ittifaqa cəlb edilməsi siyasəti gözlənilən nəticəni vermədi.

1534-35-ci illərdə Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə hücumu Avropa dövlətləri tərəfindən də diqqətlə izlənilirdi. Bu müharibənin iki il davam etməsi Avropa dövlətləri tərəfindən məmnunluqla qarşılandı və onlarda belə bir ehtimal yaratdı ki, Osmanlı dövləti bu müharibənin gedişində bu və ya digər dərəcədə zəifləmişdir. Bəzi Avropa dövlətləri də belə bir məkrli siyasət yeritməklə bu vəziyyətdən bəhrələnməyə çalışdılar. Belə ki, Fransa dövləti Almaniyaya qarşı apardığı müharibədə Osmanlı dövlətini dəstəkləməyə söz versə də, bu vədinə əməl etmədi. İtaliya ərazisində möhkəmlənmiş olan Almaniya dövlətinə qarşı Fransanın da 1536-cı ildə Osmanlı dövlətinin başladığı müharibəyə qoşulmaması son nəticədə Osmanlı qoşunlarının uğursuzluğu ilə nəticələndi. Osmanlı donanamasının 1537-ci ildə Aralıq dənizində ağır zərbə alması və geri çəkilməsi digər Avropa dövlətlərini də Osmanlı dövlətinə qarşı müharibəyə girməyə təşviqləndirdi. Venesiya yaranmış fürsətdən faydalanmağa çalışaraq Almaniya və Papalıqla Osmanlı dövlətinə qarşı ittifaq yaratdı (34).

Venesiya hakimi Osmanlı dövlətinə qarşı yalnız Avropa dövlətlərinin ittifaqını yaratmaqla kifayətlənmədi. Osmanlı dövlətinə qarşı müharibənin daha səmərəli olması məqsədilə Səfəvi dövlətinin də bu ittifaqa cəlb edilməsi məqsədəuyğun sayıldı. Bu məqsədlə Səfəvi sarayına, Şah Təhmasibə məktub göndərilməsi qərara alındı. Osmanlı dövləti ilə Səfəvi dövləti arasında münasibətlərin kifayət qədər gərgin olduğu bir vaxtda bu məktubun çatdırılması xeyli dərəcədə mürəkkəb bir məsələ idi. Ona görə də Osmanlı ərazilərindən adlayaraq məktubu gizli şəkildə Şah Təhmasibə çatdıra biləcək birisinin axtarışına başlandı. Venesiya sarayı həm də çalışırdı ki, bu məktubu aparacaq elçi türk dilinə bələd olsun ki, Şah Təhmasiblə birbaşa ünsiyyət yarada bilsin. Nəhayət 1539-cu ildə Kiprdən olan Mikele Membre adlı birisi bu məktubun Şah Təhmasibə çatdırılması üçün seçildi və elçilik missiyası ona həvalə olundu (35).

Mikele Membre öz xatirələrində yazdıqlarından aydın olur ki, Şah Təhmasib sarayına elçilik heyəti göndərilməsi çox məxfi

şəkildə icra edilirdi. Bu elçiliyi həyata keçirəcək adamın tapılması da məxfi saxlanılırdı. Yalnız bir dəfə onun yanında olan söhbətlərin birində Şah Təhmasib sarayına getməyi öz üzərinə götürə biləcək bir adamın axtarıldığını eşitdi və xüsusi bir tərəddüd keçirmədən də belə bir vəzifəni öz üzərinə götürə biləcəyini bəyan etdi. O öz xatirələrində yazırdı: " ...cənab Bernardo Benedettidən xahişin əsas məqsədi o idi ki, o, Əlahəzrət Sinyorluğun maraqlarını əks etdirən məktubunu Sufi Cənablarına [yəni Şah Təhmasibə] çatdıra biləcək adam tapsın. ...Həmin cənab Bernardo mənim bu bölgələrdən gələn bütün tacirlərlə və bu dili bilənlərlə görüşməyimdən çox yaxşı xəbərdar olduğundan, səhv etmirəmsə, 1538-ci il fevral ayının 23-ü və ya 28-də nahar yeməyindən sonra məndən bu şəhərdə türk dilini bilən və Əlahəzrət Sinyorun türklərlə müharibədə olduğu bir zamanda Əcəmə gedə biləcək birisini tanıyıb-tanımadığımı soruşdu" (36).

Bu söhbəti eşidəndən sonra Mikele Membre belə bir missiyanı yerinə yetirməyə hazır olduğunu bildirir. O, yerli hakimlərlə görüşür və Venesiya sarayının məktubunu Şah Təhmasib sarayına aparmaq üçün icazə verilməsini istəyir. Onun bu cavabı məmnunluqla qarşılanır və Venesiya hakiminin məktubu ona təqdim olunur. Məktubun başqaları tərəfindən aşkarlanmaması üçün onun gizlədilməsi lazım bilinir və bunun necə edildiyini M.Membre belə təsvir edirdi: "Cavabında mən özüm üçün ən təhlükəsiz yolu Xios adasından keçdiyini bildirdim. Buna görə, ilk növbədə Kritə, sonra isə Xiosa gedərək, quru yolla Anadoludan keçib Sufiyə yetişmək; bu yolla mən təhlükəsiz səyahət edə bilərəm. Bunları eşidən Əlahəzrət məmnun oldu və məndən məktubu təhlükəsiz və yaxşı vəziyyətdə çatdıra bilməyim üçün onu hansı münasib yerə qoyacağımı soruşdu. Mən ona bunu gəminin hər iki tərəfindəki yeşiklərdə olan yunan kitabının – psaltırın birinin içərisinə qoya biləcəyimi bildirdim. Nazik lövhə ilə örtülmüş tərəflərdən birinin içərisinə məktubu qoyaraq, onu möhkəm taxtadan düzəldilmiş digər tərəflə eyni görünüşə salıb, hamısını dəri ilə üzləməyin mümkün olduğunu və bu təqdirdə onun təhlükəsiz yerdə olacağını söylədim" (37).

Mikele Membre 1539-cu ilin mart ayında Şah Təhmasib sarayına yetişmək üçün hərəkətə başlayır. Lakin o, Osmanlı ərazilərindən Səfəvi dövlətinin hüduduna yetişməyin mümkün olmayacağı ilə qarşılaşır. Çünki bu dövrdə Osmanlı-Səfəvi münasibətləri kifayət qədər gərgin idi və bu gərginlik iqtisadi-ticarət əlaqələrində də özünü göstərirdi. M.Membrenin bu barədə yazdıqları həmin dövr üçün Osmanlı-Səfəvi iqtisadi münasibətlərinin xarakterini təsəvvür etmək baxımından da tarixi əhəmiyyət kəsb edir. O yazırdı: "Bu zaman Əcəm sərhədi olan Ərzincan istiqamətindən karvan gəldi. Bu karvanda İstanbula ipək aparan çoxlu türk və erməni tacirlər var idi. Bu adamlardan öyrəndim ki, Əcəmin içərilərinə karvan keçirməyə icazə verilmir. Eləcə də, osmanlılar Əcəmin bu yerlərindən gələnlərin mallarını qaçaq kimi müsadirə edirlər. Həm tacirlər, həm də zavallı qəriblər o sərhəddə görünən kimi onlardan zəmanət istəyirlər. Bu zəmanəti verə bilməyənləri həbsxanaya salırlar. Beləliklə, bu torpaqlarda böyük qarışıqlıq hökm sürür. Onlar, həmçinin Sinyorun icazəsi olmadan Əcəmə getmək istəyənlərə bəyan etmişdilər ki, kim tutulsa, boynu vurulacaq, onun mülkiyyəti isə vuranın ixtiyarına keçəcək. Bu sözləri eşitdikdən sonra bu yolla getməyin qeyri-mümkün olduğu qərarına gəldim. Lakin böyük Tanrı mənim üçün digər ən təhlükəsiz Qara dəniz yolunu açdı" (38).

Qeyd olunduğu kimi, M.Membre Qara dəniz yolu ilə Səfəvi hüdudlarına yetişməyi qərar aldı. O, əvvəlcə Krıma, oradan isə yenə də dəniz yolu ilə Gürcüstan ərazisinə gəldi. Lori qalasında M.Membre qızılbaş əmirləri ilə görüşdü və Şah Təhmasibə apardığı məktubun tezliklə çatdırılması üçün onlardan kömək istədi. Bu köməyi alan M.Membre yerli adamların müşayiəti ilə Şah Təhmasibin sarayına yollandı. Yazdıqlarından aydın olur ki, M.Membre 1539-cu ilin avqustunda Mərənd yaxınlığında Şah Təhmasiblə görüşə bildi. "Qeyd etdiyim kimi, şahın əmirinə əsasən 3 gün keçdikdən sonra Şah Əli Sultan məni Sufiyə təqdim etdi və mən də Əlahəzrət Sinyorluğun məktubunu Sufiyə verdim. Bu barədə Portuqaliya kralı Əlahəzrətin Lissabon şəhərindən zati-alinizə olan ilk məktubumda ətraflı məlumat vermişəm.

Sonra Şah Təhmasib Sufi buranı tərk edib, ordusu ilə birlikdə Marağa istiqamətində yola düşdü" (39).

Venesiyalı elçi Şah Təhmasib tərəfindən hörmət və ehtiramla qarşılandı və o, divanxanaya dəvət edilərək gəlişinin məqsədi haqqında məlumat verməsinə imkan yaradıldı. Bu hadisə də M.Membre tərəfindən müfəssəl şəkildə təsvir edilmişdir. O yazırdı: "Beləliklə, yuxarıda qeyd etdiyim kimi, Sultan Şah Əli Çepninin müşayiəti ilə şahın sarayına daxil oldum və ona lazımi qaydada təzim etdim. Mən əyləşmək işarəsi aldım və hamı artıq əyləşmişdi. O, mənə oturmaq icazəsi verəndən bir an sonra məndən nə məqsədlə gəldiyimi soruşdu. Mən ona bildirdim ki, əlahəzrət sinyorluq sidq ürəklə və dostcasına onun qanuni imperator olduğunu tam səmimiyyətlə tanıyaraq, onunla dostluq münasibəti qurmaq arzusundadır. Bu məqsədlə o, məni müəyyən təlimat və tapşırıqla və onun səadəti naminə, düşmənləri osmanlılaır isə darmadağın olunmasına yönəlmiş məlumatların müfəssəl şəkildə təsvir olunduğu məktubu Sizə çatdırmaq üçün Sizin hüzurunuza göndərmişdir. Beləliklə, Sufi mənim niyyətimi başa düşən kimi çox şad oldu və mən dərhal üzəri taxta lövhə kimi cildlənmiş, içərisində məktub olan kitabı ona göstərdim. Məktubun bu kitabın içərisində olduğunu bildirdim. Onun qardaşı Bəhram Mirzədə Qara xəlifənin verdiyi kitab vardı. Üzlüklərin ikisi də eyni olduğuna görə məndən məktubun hansı tərəfdə olduğunu soruşdu. Mən onun yerini göstərdim. Qara xəlifə kiçik bıçaq götürdü və üstdəki dərini və lövhəni kəsdi. Yapışqanla möhkəm yapışdırılmış məktubu görənlərin hamısı çox şad oldular və məktubu kitabdan ayırdılar. O, kitabın digər lövhəsindən bir hissəsini kəsməyə başladı. Orada da digər bir məktubun ola biləcəyini fikirləşdi, lakin oradan taxta lövhə çıxdı. Sonra o, kitabı mənə verdi, məktub isə onda qaldı. Bu vaxt Qorçubaşı dedi: Bütün xalqların bir, frankların isə iki gözü var" deyənlər yanılmayıblar".

Beləliklə, Sufi məndən hansı yollarla səyahət etmiş olduğunu soruşdu. Ona mənim sərhədi necə keçə bilməyim və bu cür təhlükələrdən yayına bilməyim çox böyük iş kimi görünürdü, xüsusilə ona görə ki, Türkün sərhədindən bir nəfər də olsun

buraxmamaq üçün etdiyi səylərdən xəbərdar idi. Beləliklə, mən ona səyahətimi danışdım və o, çox məmnun qaldı" (40).

Şah Təhmasib venesiyalı elçinin gətirdiyi məktubla tanış olsa da irəli sürülən təkliflə bağlı hər hansı bir fikir bildirmədi. Bir neçə gündən sonra Venesiyanın yaratmaq istədiyi ittifaq haqqında daha geniş məlumat almaq üçün Şah Təhmasib bir daha elçini qəbul etdi. M.Membre bu barədə belə yazırdı: "Bir neçə gündən sonra o, yenə məni öz hüzuruna, oturduğu qəbul çadırına çağırtdırdı. Yuxarıda adını çəkdiyim sultanların əhatəsində olan şah sözünə məndən əlahəzrət Sinyorluğun yaratdığı liqanın nəticələri, onun gücü və frankların torpaqlarında baş verən bütün hadisələr barədə danışmağımı xahiş etməklə başladı, çünki o, bunları eşitməyə can atırdı. Mən ona əlahəzrət Sinyorluğa yazdığım məktuba uyğun olaraq mənə münasib görünənləri dedim. O mənə göstərdiyim məktublardakı kimi cavab verirdi. O məni gecə düşənədək qəbulunda saxladı. Sonra mənə getməyə izin verdi və mən getdim" (41).

M.Membre təxminən bir ilə yaxın Səfəvi sarayında qaldı. Bu müddət ərzində Şah Təhmasib tərəfindən ona təklif olunan ittifaqa qoşulmaq barədə konkret cavab vermədi. Əslində, buna heç ehtiyac da qalmadı. Belə ki, Venesiya dövləti Osmanlı dövləti ilə sülh müqaviləsi imzaladı və bununla həmin dövlət arasında başlanan müharibəyə də son qoyuldu. Mövcud olan bəzi məlumatlara görə, Şah Təhmasibin Venesiya tərəfindən Osmanlı dövlətinə qarşı təklif olunan hərbi ittifaqa qoşulmaq meyli var imiş (42). Ola bilsin ki, Osmanlı-Səfəvi gərginliklərinin davam etdiyi bir vaxtda Şah Təhmasib səltənətin təhlükəsizliyini təmin etmək üçün belə bir ittifaqın mümkünlüyünü qəbul edibmiş. Amma istənilən halda bu ittifaq baş tutmadı və M.Membrenin elçiliyi də qarşısına qoyulmuş vəzifənin həllinə nail olmadan Səfəvi sarayını tərk etməli oldu.

M.Membrenin elçiliyi onu göstərdi ki, Venesiya sarayının Şah Təhmasiblə əlaqələr qurmaqda əsas məqsədi Osmanlı dövlətinin zəifledilməsinə nail olmaqdır. Osmanlı dövləti ilə sülh anlaşması əldə ediləndən sonra Venesiya dövləti Səfəvi sarayı ilə münasi-

bətlərin qurulmasını elə də aktual saymadı. Amma Osmanlı dövlətinin qərbə doğru fatehlük yürüşləri yenidən başlayanda Səfəvi dövləti ilə əlaqələrin qurulması yenidən Avropa dövlətlərinin, o cümlədən də Venesiya sarayının gündəminə gəldi. Osmanlı təhlükəsi yenidən güclənəndə Avropa dövlətləri bir daha Səfəvi dövlətini təhrik etməyə və şərq sərhədlərindən Osmanlı üzərinə müharibəyə sövq etməyə çalışdılar. Səfəvi-Osmanlı hərbi gərginliklərinin davam etdiyi bir vaxtda belə bir siyasət yeridilməsi faydalı və məqsədəuyğun hesab edilirdi. Avropanın müəyyən dairələri üçün Səfəvi dövləti ilə əməkdaşlıq qurulması hətta çıxış yolu kimi qəbul edilirdi. Məsələn, Roma papasının elçisi Paolo bildirirdi ki, "əgər Tanrı Böyük türkə (Sultan Süleymana – red.) qarşı İran (Səfəvi-red.) şahı Təhmasibin şəxsində qüdrətli bir düşmən göndərməsəydi, Avropa və xristianlıq çoxdan məhv olardı" (43).

Avropa diplomatları Osmanlı dövləti ilə Səfəvi dövləti arasında Amasiya sülh razılaşmasının əldə edilməsini heç də Avropanın maraqlarına uyğun görmədilər. Çünki bu müqavilənin qüvvədə qaldığı müddətdə Səfəvi dövlətindən Osmanlı dövlətinə qarşı istifadə etmək ehtimalı da aradan qalxırdı. Bu isə o demək idi ki, gələcək Osmanlı təhdidləri qarşısında Avropa real kömərdən məhrum olmalı idi. Venesiyalı diplomatlar da Amasiya sülh razılaşmasının əldə edilməsini öz ölkələrinin siyasi maraqlarına zidd olduğunu qeyd edirdilər. Çünki şərq cəbhəsinə qüvvə ayırmaqdan xilas olmuş Osmanlı dövləti artıq heç bir təhlükədən ehtiyatlanmadan bütün qüvvələrini qərb cəbhəsinə səfərbər edə bilərdi. Bölgədə yaranmış hərbi-siyasi durumu İstanbulda olarkən yaxından müşahidə etmiş Venesiya diplomatı Antonio Erissonun fikrincə, Amasiya sülh razılaşması Avropa üçün "təhlükəli bir fakt" idi. Çünki Osmanlı dövlətinin təhlükəsinin aradan qaldırılması üçün ən təsirli qüvvələrdən biri Səfəvi dövləti sayılırdı. Antonio Erisso da öz yazışmalrından birində göstərirdi ki, "Böyük Türk hər hansı başqa hökmdarlardan daha əvvəl, hətta xristian hökmdarlarından da əvvəl İran (Səfəvi-red.) şahını məhv etmək istəyirdi" (44).

Yəni venesiyalı diplomat əsaslandırmağa çalışırdı ki, Avropaya qarşı Osmanlı təhlükəsi qaldığı halda Səfəvi dövlətindən əl üzmək düzgün deyildir. Çünki elə Osmanlı dövlətinin də ehtiyat etdiyi əsas dövlətlərdən biri Səfəvi dövləti idi və bu dövlətin Osmanlıya qarşı qaldırılması Avropanın maraqlarına daha yaxşı cavab verə bilərdi. Marino Kavalli adlı venesiyalı deputat da Venesiya senatına təqdim etdiyi hesabatında bu fikri təsdiqləyirdi: "Yalnız üç şey Osmanlı imperiyası dağıda bilər: 1) daxili ixtilaflar və didişmələr; 2) hökumət üzvləri arasında yayılmış rüşvətxorluq; 3) igid İran (Səfəvi- red.) hökmdarı. O, yəni Səfəvi hökmdarı, qonşu tatarlarla sülh bağlayıb xristian hökmdarlardan kömək almağa çalışır. Bu kömək ən azı beş və ya altı il çəkməlidir. Çünki türkləri tabe etmək və ya onlara qalib gəlmək barədə düşünmək əbəsdir. Onları ancaq qırmaq lazımdır. Bu işi isə az bir vaxt içərisində - iki və yaxud üç döyüşlə həyata keçirmək mümkün deyil" (45).

Venesiyadan olan Markantonio Barbaro adlı başqa bir diplomat da Avropanın və o cümlədən də Venesiyanın təhlükəsizliyi üçün Səfəvi dövləti ilə sıx münasibətlər qurulmasının tərəfdarı idi. O öz fikrini belə əsaslandırırdı ki, Osmanlı dövlətinin Avropaya qarşı yaratdığı təhlükənin qarşısının alınması üçün "xristian hökmdarları ilə İran (Səfəvi-red.) şahı arasında qarşılıqlı anlaşmadan yaxşı heç bir vasitə ola bilməz" (46).

Bununla belə, uzun müddət Venesiya sarayı ilə Səfəvi sarayı arasında əlaqələr və gediş-gəlişlər mövcud olmadı. Bir də Sultan Süleymanın dünyasının dəyişməsindən sonra Venesiya sarayı yenidən Səfəvi dövləti ilə sıx münasibətlər yolunu tutmaq haqqında düşünməyə başladı. Bu da əslində, Osmanlı dövlətinin Avropa istiqamətində başladığı yeni fatehlik yürüşünün qarşısının alınması istəyi ilə bağlı idi. Belə ki, 1570-ci ildə Osmanlı qoşunları Kipr adası üzərinə hücum etdilər. O zaman Kipr adası Venesiyaya məxsus idi. Venesiya sarayı üçün aydın idi ki, təklikdə Osmanlı qoşunlarına qarşı müqavimət göstərə bilməyəcəkdir. Ona görə Venesiya sarayı Roma papası V Piylə, İspaniya padşahı II Filiplə və Almaniya kralı V Şarlın oğlu ilə ittifaq ya-

ratdı. Hətta bu ittifaq da Osmanlı qoşunlarının qarşısının alınması üçün yetərli olmadı. Onda belə qərara alındı ki, Səfəvi dövləti də Osmanlı dövlətinə qarşı ittifaqa cəlb edilsin. Çünki Səfəvi dövlətinin Osmanlı dövlətinə qarşı müharibəyə başlaması Osmanlı qüvvələrinin parçalanmasına gətirib çıxara bilərdi ki, bu da Venesiyanın yaratdığı ittifaqın maraqlarına cavab verə bilərdi (47).

Mövcud olan məlumata görə, yeni Osmanlı sultanı olan II Sultan Səlim Kipr adasına hücum ərəfəsində ona qarşı ittifaq yaradıla biləcəyini görürdü. Ona görə o da bu ittifaqa qarşı müəyyən addımlar atmağı məqsədəuyğun saydı. Sultan Səlim əvvəlcə Şah Təhmasibin Amasiya razılaşmasına sədaqətli qalıb- qalmayacağı məsələsini aydınlaşdırmağa çalışdı. Osmanlı sultanı 1568-ci ildə Ədirnəyə gəlmiş Səfəvi elçisi Şahqulu sultanla görüşündə Şah Təhmasibin Amasiya razılaşmasına sədaqətli qalacağına əmin oldu və bir daha yəqin etdi ki, Avropa istiqamətində aparılacaq fatehlik yürüşləri zamanı Səfəvi dövləti tərəfindən heç bir təhlükə baş verməyəcəkdir. Elə həmin ildə Osmanlı sarayı Avstriya ilə də sülh müqaviləsi imzaladı. 1569-cu ildə isə Osmanlı dövləti Fransa ilə yeni münasibətlər qurmağa çalışdı, fransalı tacirlərə Osmanlı ərazisində ticarət güzəştləri verildi və bununla da Fransanın ən azı neytral qalmaq ehtimalı əldə edilmiş oldu. Bundan sonra isə 1570-ci ildə Kipr adası üzərinə qoşun yeridildi (48).

Səfəvi dövlətinin də Venesiyanın təşkil etdiyi hərbi ittifaqa cəlb edilməsi üçün Şah Təhmasibin yanına elçi göndərilməsi məqsədəduyğun sayıldı. Amma Venesiya elçisinin göndərilməsindən əvvəl həmin dövrdə bu ölkədə olan qızılbaş taciri Xoca Əli ilə Şah Təhmasibə məktub yola salındı. Yəni Venesiya sarayı Səfəvi tacirinin orada olmasından da istifadə etdi və onun vasitəsilə göndərilən məktubda Səfəvi-Venesiya ittifaqının əhəmiyyətinin açıqlanmasına cəhd göstərildi. Şah Təhmasibə göndərilən məktubda Venesiya sarayı iki dövlət arasında münasibətlərin tarixinə toxunmaqla bu münasibətlərin faydalı ola biləcəyini də Şah Təhmasibin diqqətinə çatdırmaq və onu bu münasibətlərin yenidən qurulmasına maraqlandırmaq istəyirdi. Yuxarıda da qeyd edildiyi kimi, Venesiya sarayı Şah Təhmasibi Osmanlı

dövlətinə qarşı hərbi ittifaqa dəvət etməklə onu Osmanlı dövlətinə qarşı yeni cəbhə açmağa çağırırdı. Bəyan edilirdi ki, Səfəvi dövləti belə bir müharibəni başlamaqla Osmanlı dövləti tərəfindən ələ keçirilmiş əraziləri geri qaytara bilər. Məktubda Səfəvi dövlətinin qərb sərhədi boyunca itirdiyi ərazilərin Osmanlı dövləti tərəfindən haqsız olaraq əldə edildiyi bildirilir və bu haqsızlığa son qoyulması üçün əlverişli fürsətin yaranacağını yazan Venesiya sarayı Səfəvi dövlətini ümumi düşmənə qarşı ittifaqa səsləyirdi (49).

Xoca Əli 1570-ci il oktyabr ayının 27-d Venesiyadan yola düşdü. Onun hərəkətə başlamasından cəmi üç gün sonra, yəni oktyabr ayının 30-da Venesiya sarayı Səfəvi şahı ilə danışıqlar aparılması üçün xüsusi bir elçilik heyətinin göndərilməsi haqqında qərar da qəbul etdi. Həmin qərara əsasən, Səfəvi sarayına yerli elçilik heyəti göndərilməli və Osmanlı dövlətinə qarşı ittifaq yaradılması üçün Venesiya sarayının mövqeyi Şah Təhmasibin nəzərinə çatdırılmalı idi. Belə bir elçilik Vinçenso Alessandri adlı birisinə həvalə olundu. Vinçenso Alessandri uzun müddət İstanbulda yaşamaqla Osmanlı Türkiyəsinin daxili həyatına yaxından bələd olan bir əyan idi. Elçi göndərilməsi ərəfəsində bu adam Venesiya senatının katibi vəzifəsində çalışırdı və Səfəvi-Osmanlı münasibətlərinə də yaxşı bələd idi. Ehtimal edilirdi ki, Vinçenso Alessandri Səfəvi sarayına elçilik vəzifəsini başqalarından daha yaxşı icra edə bilər. Venesiya sarayında hətta Səfəvi şahına göndəriləcək məktubun mətni də müzakirə edilərək səsveməyə çıxarıldı. Səsvermədə iştirak edənlərdən yalnız bir nəfər bitərəf qaldı. Qalanlar isə məktub mətninin təsdiq edilməsinə müsbət səs verdilər (50).

Səfəvi şahına göndərilən məktubda Osmanlı dövlətinin Avropa dövlətlərinə qarşı apardığı siyasət açıqlanırdı. Bildirilir ki, Osmanlı dövləti artıq Kipr, Albaniya və Dalmasiyaya qarşı müharibəyə başlamışdır. Venesiya sarayı Səfəvi şahını inandırmağa çalışırdı ki, Osmanlı dövləti öz düşmənlərini ayrı-ayrılıqda haqlayaraq məhv etməyə çalışır. Başlıca olaraq belə bir məqam Səfəvi şahının nəzərinə çatdırılırdı ki, Osmanlı dövləti bütün

qüvvələrini qərb cəbhəsinə istiqamətləndirmişdir. Belə bir vaxtda Səfəvi qoşunları Osmanlı üzərinə hücum edəcəkləri təqdirdə böyük uğurlar əldə edə bilərdilər. Venesiya sarayı həm göndərilən məktub vasitəsilə, həm də Vinçenso Alessandrinin verəcəyi şifahi məlumatlarla Səfəvi şahına onu da inandırmağa çalışırdı ki, Osmanlı sarayının sülh razılaşmasına həmişə sədaqətli qalacağına inanmaq olmaz və fürsət yaranan kimi Osmanlı dövləti Səfəvi dövləti üzərinə yenidən qoşun çəkə bilər ki, bu da Səfəvi dövləti üçün daha ağır nəticələrlə başa çata bilər (51).

Səfəvi sarayına yetişmək üçün Vinçenso Alessandri uzun və ağır bir yol keçməli oldu. Onun hərəkət marşrutu Avropadan Qara dənizə çıxmalı və dəniz vasitəsilə özünü Trabzona yetirməli idi. O öz yolunu Almaniyadan başlayıb Polşaya gəldi. Buradan Ukraynaya çıxan elçi özünü qara dəniz sahillərinə yetirdi Don çayının mənsəbində gəmiyə oturan Vinçenso Alessandri Trabzona getmək niyyətində olsa da, dənizdə əsən güclü külək gəminin istiqamətini dəyişdirdi və elçi Sinopa gəlib çıxdı. Buradan o, quru yolla hərəkət edərək Kutahyaya doğru istiqamət götürdü. Osmanlı sarayında Venesiya elçisinin səfəri barəsində məlumat alınmışdı. Ona görə də Osmanlı ərazisinə çıxan xaricilər nəzarət altında idi. Vinçenso Alessandri də belə bir şəraitdə Osmanlı məmurlarının əlinə keçir, bir müddət onların əsirliyinə qalır. Lakin fərasəti və qabiliyyəti nəticəsində bu əsirlikdən qaça bilir. O, gizli şəkildə özünü Ərzruma çatdırır və oradan da Gürcüstan sərhədinə yollanır. Bu yolla Vinçenso Alessandri özünü Səfəvi hüdudlarına yetirir (52).

Ağır yolçuluqdan sonra Venesiya elçisi özünü Təbrizə yetirə bildi və burada xəbər tutdu ki, Səfəvi şahının iqamətgahı Təbrizdə deyil, Qəzvindədir. O, on iki gün Təbrizdə qalaraq istirahət etdi və sonra Qəzvinə doğru hərəkətə başladı. Vinçensonun 1571-ci il avqustun 4-də Qəzvinə yetişdiyi, həmin ayın 14-də isə Şah Təhmasibin üçüncü oğlu Heydər Mirzə tərəfindən qəbul olunduğu bildirilir. Çox güman ki, Heydər Mirzəyə belə bir tapşırıq Şah Təhmasib tərəfindən verilmişdi. Vinçenso Səfəvi şahına gətirdiyi məktubu Heydər Mirzəyə çatdırdı. Heydər Mirzə isə

venesiyalı elçinin tezliklə Şah Təhmasib tərəfindən qəbul ediləcəyinə çalışacağını bildirməklə bu görüşün məxfi saxlanılmasının zəruruliyini qonağın diqqətinə çatdırdı. Güman edilir ki, Heydər Mirzənin bu ehtiyatlılığı Amasiya sülh razılaşmasının qorunub saxlanması istəyi ilə bağlı idi (53). Çünki Osmanlı dövlətinin müharibədə olduğu Avropa dövlətinin nümayəndələri ilə Səfəvi sarayının gizli danışıqlar aparması Osmanlı sarayının xoşuna gəlməyə bilərdi. Bu isə Səfəvi-Osmanlı razılaşmasının pozulmasına gətirib çıxara bilərdi.

Sözsüz ki, Alessandri gəlişinin məqsədi, Avropada Osmanlı dövlətinə qarşı ittifaq yaradılması və Səfəvi dövlətinin də bu ittifaqa qoşulması istəyi Heydər Mirzənin diqqətinə çatdırıldı. Heydər Mirzə bu məlumatları diqqətlə dinləmiş və sonra da Osmanlı Türkiyəsinə qarşı qərbdə yaradılmış hərbi ittifaq barəsində daha geniş məlumatlar almağa çalışmışdı. Heydər Mirzə hətta ittifaqa qoşulmayan Avropa dövlətlərinin də bu yaradılmış ittifaqa qarşı hansı münasibətdə olduğunu öyrənməyə çalışmışdı. Amma Səfəvi sarayının Vinçenso Alessandrinin elçilik missiyasına rəğbətsiz yanaşması ilk gündən özünü göstərməyə başladı. Bunun da səbəbi aydın idi. Şah Təhmasib Osmanlı dövləti ilə əldə edilmiş sülh razılaşmasının əleyhinə getmək niyyətində deyildi. Baxmayaraq ki, qərb dövlətləri Osmanlı dövlətinin Səfəvi dövləti ilə əldə etdiyi razılaşmaya da sədaqətli qalmayacağını iddia edirdilər. Bununla belə, Şah Təhmasib öz mövqeyini dəyişmədi və Osmanlı dövlətinə qarşı yaradılmış hərbi ittifaqa doğru hər hansı bir addım atmadı. Bunu elə Vinçenso Alessandrinin şah tərəfindən xeyli gec, bir də 1571-ci ilin noyabr ayında qəbul etməsi də təsdiq edirdi. Vinçenso Alessandrinin səfəri barəsində əvvəlcə Heydər Mirzə atasına məlumat verdi, Venesiya sarayının məktubu ona çatdırıldı. Şah Təhmasib oğlu Heydər Mirzə ilə bu məktubda yazılanları, habelə Venesiyanın yaratdığı hərbi ittifaqın təkliflərini ətraflı şəkildə müzakirə etdilər və bu müzakirə zamanı Səfəvi sarayının mövqeyi bir daha dəqiqləşdi (54).

Ola bilsin ki, Vinçenso Alessandrinin gec qəbul edilməsi həm də Səfəvi taciri Xoca Əlinin geç gəlib çatması ilə bağlı idi. Çünki

Xoca Əlini verdiyi məlumatla Vinçenso Alessandrinin verdiyi məlumatların dəqiqliyini yoxlamaq və Avropada Osmanlı dövlətinə qarşı yaranmış yeni ittifaqın mahiyyəti haqqında daha geniş məlumat almaq mümkün idi. Xoca Əli isə 1571-ci il noyabr ayının 3-də gəlib Qəzvinə çatdı. O, dərhal da Şah Təhmasib tərəfindən qəbul edildi. Vinçenso Alessandri də Venesiya sarayı ilə yazışmalarında göstərirdi ki, ondan fərqli olaraq Xoca Əli şah tərəfindən dərhal qəbul olunmuşdu. Vinçenso Alessandri hətta onu da yazırdı ki, Xoca Əli neçə saat ərzində sarayda şah qəbulunda oldu. Bu zaman Xoca Əli Venesiya sarayından gətirdiyi hədiyyələri də Şah Təhmasibə təqdim etdi. Venesiya sarayının Şah Təhmasibə ünvanladığı məktub da Xoca Əlinin təqdim etdiyi kitablardan birinin cildində gizlədilmişdi. Şah Təhmasib bu məktubla tanış oldu. Mövcud olan məlumatlara görə, Venesiya sarayının Vinçenso Alessandri ilə göndərdiyi məktubla, Xoca Əlinin gətirdiyi məktubun məzmununda ciddi bir fərq yox idi (55).

Venesiyalı elçinin yazışmalarından aydın olur ki, Şah Təhmasib yanına topladığı əmir və əyanlarla, qoşun başçıları ilə də Xoca Əlinin gətirdiyi məktubun məzmununu ətraflı şəkildə müzakirə etmişdi. Xoca Əli də həm məktubda yazılan məsələlərin, həm də Avropada cərəyan edən proseslərin mahiyyətindən xəbər tutulması üçün obyektiv bir mənbə idi. Şah Təhmasib Osmanlı dövlətinə qarşı hərbi ittifaqın yaradılmasının, Osmanlı dövləti tərəfindən fəth edilmiş ərazilərdə Osmanlıya qarşı qiyamlar baş verməsinin doğruluğu haqqında da Xoca Əlidən ətraflı məlumat aldı. Vinçenso Alessandrinin yazışmalarında olan məlumata görə, Şah Təhmasib geniş məlumat ala bilsə də, Avropa dövlətlərinin Osmanlı dövlətinə qarşı hərbi ittifaq yarada biləcəyinə şübhə ilə yanaşmışdı. Səfəvi şahı hətta Osmanlı qoşunlarının Kipr adası üzərinə qoşun çəkməsi haqqındakı məlumata da şübhə ilə yanaşmışdı. Çünki bu barədə o, Osmanlı dövlətindən də etibarlı bir məlumat almamışdı. Şah Təhmasib Venesiya tərəfindən irəli sürülən təklifləri ətraflı şəkildə öyrənməyə çalışsa da, həmin təklifləri qəbul etmədi və Osmanlı dövlətinə qarşı ittifaqa girməyə

heç bir rəğbət göstərmədi. Vinçenso Alessandriyə verilən cavab isə bu oldu ki, Səfəvi sarayının öz mövqeyini müəyyənləşdirməyə xeyli vaxt lazımdır və Venesiya elçisi də bu cavabı gözləməli olacaqdı (56).

Səfəvi dövlətinin hansı cavab verəcəyindən asılı olmayaraq Venesiya dövləti 1571-ci il may ayının 25-də Roma Papalığı və İspaniya ilə Osmanlı dövlətinə qarşı hərbi ittifaq yarada bildi. Lakin bu ittifaq Kipr adasını Osmanlı fəthindən xilas edə bilmədi. 1571-ci il avqust ayının 1-də Lələ Mustafa Paşanın rəhbərliyi altında olan Osmanlı qoşunları Kiprin fəthini uğurla başa çatdırdı. Bununla belə, Venesiya sarayının yaratdığı hərbi ittifaq Osmanlı qoşunlarına qarşı öz gücünü göstərməyə müvəffəq oldu. Belə ki, bu ittifaqın hərbi dəniz qüvvələri Albaniyanın Lepanda körfəzində Osmanlı hərbi dəniz qüvvələri ilə üz-üzə gəldilər. Venesiya ittifaqının dəniz qüvvələrinə Maltanın, Genuyanın və Savoyyanın hərbi gəmiləri də qoşulmuşdular. Bu da ittifaqın hərbi dəniz qüvvələrini kifayət qədər möhkəmləndirə bildi. Genuyalı admiral Andrea Dorianın rəhbərliyi altında olan müttəfiq qüvvələri Osmanlı hərbi dəniz qüvvələrinə ağır zərbə vura bildilər. Bu hadisənin 1571-ci il oktyabr ayının 7-də baş verdiyi bildirilir. Beləliklə, Osmanlı dəniz qüvvələri Avropa cəbhəsində uğursuzluğa düçar olaraq geri çəkilməli oldu (57).

Bu qələbə Avropada çox böyük sevincə səbəb oldu. Osmanlı dövlətinə qarşı cəbhə tutmuş ölkələrdə bu qələbə böyük sevinc və şadyanalıqla qarşılandı. Roma papası V Piy bu uğurdan sonra Şah Təhmasibə məktub göndərdi və onu yenidən Osmanlı dövlətinə qarşı ittifaqa dəvət etdi. Roma papası ehtimal edirdi ki, Levantada əldə edilmiş uğur həm Osmanlı dövlətini ağır vəziyyətə salacaqdır, həm də Səfəvi şahı belə vəziyyətdə Osmanlı dövlətinə qarşı cəbhə tutacaqdır. Bununla belə, Şah Təhmasib Osmanlı dövlətinə qarşı Avropa dövlətlərinin təkliflərini qəbul etmədi və həyatının sonuna qədər əldə edilmiş razılaşmaya sədaqətli qaldı.

Bununla belə, məlumdur ki, Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaratmış Avropa dövlətləri arasında da uzun müddət birlik mövcud olmadı. Yaranmış ixtilaf üzündən Avropa dövlətləri itti-

faq şəklində Osmanlı dövlətinə qarşı müharibəni davam etdirə bilmədilər. Nəticədə, Fransanın vasitəçiliyi ilə Osmanlı 1573-cü il mart ayının 7-də Venesiya ilə Osmanlı dövləti arasında sülh müqaviləsi imzalandı. Həmin müqavilənin şərtlərinə görə, Osmanlı dövləti fəth etdiyi Kipr adasını özündə saxlaya bildi (58).

Beləliklə, Vinçenso Alessandri öz məqsədinə çata bilmədən Səfəvi hüdudlarını tərk etdi və bundan sonra Şah Təhmasibin hakimiyyəti illərində Venesiya ilə əlaqələr barəsində hər hansı bir irəliləyiş baş vermədi. Vinçenso Alessandri geri qayıtdıqdan sonra Səfəvi daxilində müşahidə etdikləri barəsində ətraflı yazlar hazırladı ki, həmin yazılar Səfəvi dövləti haqqında qiymətli mənbə olaraq qalmaqdadır.

### b) Səfəvi-İngiltərə münasibətləri

Şah Təhmasibin hakimiyyəti illərində İngiltərə ilə ticarət-iqtisadi əməkdaşlığın qurulması Səfəvi dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən birini təşkil edirdi. Səltənətin iqtisadi və ticarət imkanlarının genişlənməsini hər zaman təşviq edən Şah Təhmasib digər Avropa dövlətləri kimi, İngiltərə ilə də sıx ticarət əlaqələrinin qurulmasını dəstəkləyirdi.

İngiltərə ilə ticarət əlaqələrinin qurumlanması XVI əsrin ortalarına təsadüf edir və qeyd edilməlidir ki, bu əlaqələrin qurulmasında hər iki tərəf maraqlı idi. İqtisadiyyatın inkişafı, xüsusilə yeni və böyük coğrafi kəşflər İngiltərə daxilində də beynəlxalq ticarətin artırılmasına, yeni bazarlar tapılmasına meylləri gücləndirirdi. Tarixdən bəllidir ki, XVI əsrin ortalarında İngiltərəyə nisbətən İspaniya və Portuqaliya yeni bazarların tapılmasında və ticarət münasibətlərinin formalaşmasında Avropada üstün mövqelərə malik idilər. Bir tərəfdən Amerika qitəsinin kəşf edilməsi, digər tərəfdən Portuqaliya tərəfindən Afrikanın cənubundan adlamaqla Hindistana aparan yolun kəşf edilməsi bu ölkələrin dünya ticarətində hegemon mövqe əldə etməsinə yol açmışdı. Bu da imkan verdi ki, Avropa şərq tacirlərinin vasitəçiliyi olmadan bir başa Hindistan kimi zəngin bazara birbaşa çıxış əldə etsin. Aralıq

dənizi ətrafı ölkələrlə ticarət işlərinin qurulmasında Osmanlı dövləti kifayət qədər fəallıq nümayiş etdirirdi. Osmanlı dövləti eyni zamanda Avropadan şərqə aparan mühüm ticarət yollarına nəzarət edə bilirdi (59). Yəni İngiltərədə iqtisadiyyatın yüksələn xətlə inkişafa başlaması şərq və qərbin ticarət sahəsində ən əlverişli bazarların digər dövlətlərin əlində olduğu bir dövrə təsadüf edirdi. Yeni bazarların əldə edilməsi isə yeni marşrutların tapılmasını, yeni təşəbbüskarlıqların əməli fəaliyyətə çevrilməsini tələb edirdi.

İngiltərə tacirləri hələ XV əsrin sonlarında bir çox dəniz ekspedisiyaları təşkil etməklə yeni bazarların tapılmasına cəhd göstərirdilər. Lakin bu ekspedisiyaların nəticəsi kimi tapılmış olan yeni bazarlar və ticarət marşrutları İngiltərənin inkişafda olan iqtisadiyyatının bütün tələblərinə cavab vermirdi. Digər tərəfdən də İspaniyanın güclü dəniz donanmasına malik olması İngiltərəyə imkan vermirdi ki, dünya okeanlarında bu dövlətlə rəqabətə davam gətirə bilsin. Bu mənada XVI əsrin ortalarında İngiltərənin diqqət yetirdiyi marşrutlardan biri Rusiyadan keçməklə Səfəvi dövlətinə aparan marşrut oldu. Sözsüz ki, Səfəvi dövlətinin ticarət imkanları İngiltərə ticarət dairələrini maraqlandırırdı. Lakin Səfəvi dövlətinə yeni marşrutların tapılması, həm də gələcəkdə Hindistana apara biləcək bir marşrut kimi baxılırdı.

Şimal sularından keçməklə Rusiya ərazisinə çıxmaq və sonra da Volqa çayı ilə Xəzər dənizinə yol tapmaq ideyası da birdən-birə meydana gəlməmişdi. Çünki hətta XVI əsrin ortalarına qədər Volqa-Xəzər marşrutu heç Rusiyanın özündə də işlək bir ticarət marşrutu deyildi. Yalnız Rusiyanın Xəzər dənizinin şimal hövzəsinə tam şəkildə sahib olmasından sonra Volqa-Xəzər marşrutunun işlək marşruta çevrilməsinə zəmin yarandı. Elə həmin vaxtlarda da İngiltərə əvvəlcə Rusiya dövləti ilə ticarət marşrutları müəyyənləşdirdi, həmin marşrutlar vasitəsilə Rusiya ərazisində ticarət-iqtisadi münasibətlərin təşkilatlandırılmasına çalışdı. XVI əsrin ortalarında ticarət işlərinin fəallaşdırılması üçün kral sarayının himayəsi altında "Məlum olmayan, habelə dəniz yolu ilə səfər edilməyən ölkələrin, ərazilərin, adaların,

dövlətlərin və ölkələrin kəşf edilməsi üçün tacirlər və sahibkarlar cəmiyyəti" adlanan bir cəmiyyət yaradıldı. Bu cəmiyyətə İngiltərənin imkanlı tacirləri daxil oldular və onların səyləri ilə cəmiyyətin ilkin kapitalı toplandı. Bu ilkin kapital o zamanlar üçün kifayət qədər böyük bir məbləğ idi və həmin məbləğ əsasında üç böyük gəmi hazırlandı. Nəzərdə tutulmuşdu ki, bu gəmilər vasitəsilə uzunmüddətli dəniz səfərləri təşkil edilsin, yeni ərazilər, daha doğrusu yeni bazarlar kəşf edilsin və ticarət dairələrinin istifadəsinə verilsin (60).

Adı çəkilən cəmiyyətin təşkil etdiyi ilk ekspedisiyalardan biri Rusiyanın şimalına doğru təşkil edildi. Həmin ekspedisiyaya 1553-cü ilin mayında başlandı. Əslində, bu ekspedisiyanın məqsədi Rusiyanın şimalından adlamaqla Çinə qədər hərəkət etmək və bununla Çinə aparan yeni bir ticarət yolunu açmaq idi. Belə bir ticarət marşrutunun açılması şərq ticarətində İspaniya ilə Portuqaliyanın monopoliyasına da son qoya bilərdi. Lakin bu ekspedisiya gözlənilən nəticəni vermədi. Belə ki, adı çəkilən cəmiyyətin üç gəmisindən ikisi Rusiyanın indiki Murmasnk şəhəri yaxınlıqlarında bütün heyət üzvləri ilə birlikdə məhv oldu. Bəzi məlumatlara görə, güclü soyuqlar bu gəmilərin məhvinə yol açdı. Yalnız kapitan Riçard Çenslorun rəhbərliyi altında olan gəmi Rusiyanın indiki Severodvinsk şəhəri yaxınlıqlarına qədər hərəkət edə bildi. İngilis gəmisinin kapitanı orada yerli hakimlər tərəfindən sevinclə qarşılandı və Piçard Çenslor hətta Moskvaya yola salındı. Burada ingilis kapitanı Rusiya çarı İvan Qroznı ilə görüşə bildi. R.Çenslor rus çarı ilə görüşündə bu yerlərə gəlib çıxmasının məqsədindən söz açmaqla eyni zamanda Rusiya ilə İngiltərə arasında ticarət əlaqələrinin qurulması təklifi ilə çıxış etdi. İvan Qroznı bu təklifi məmnunluqla qəbul etdi və ingilis tacirlərinin Rusiya ərazisində azad ticarət edə bilmələri üçün fərman da imzalayaraq R.Çenslora təqdim etdi. Rusiya çarı şübhə etmirdi ki, belə bir əlaqələrin qurulması ilə nəinki, iki ölkə üçün faydalı olacaq ticarətin rövnəq tapmasına nail olacaq. Eyni zamanda yeni münasibətlərin qurulması ilə Rusiya həm də İn-

giltərənin simasında özünə yeni bir hərbi müttəfiq qazanmaq istəyirdi (61).

1554-cü ildə R.Çenslor İngiltərəyə qayıtdı və kraliçanın qəbulunda olduğu zaman Rusiya çarı ilə görüşməsi və rus çarı tərəfindən ingilis tacirlərinə Rusiya ərazisində azad ticarət icazəsi verməsi haqqında məlumat təqdim etdi. Bu məlumat bütünlükdə, ingilis tacirləri tərəfindən sevinclə qarşılandı və Rusiya ilə ticarət əlaqələrinin qurulmasına böyük maraq göstərildi. Hətta yuxarıda adı çəkilən tacirlər və sahibkarlar cəmiyyəti də Rusiya ilə ticarətin əhəmiyyətini nəzərə alaraq 1555-ci il fevral ayının 5-də "Moskva şirkəti" adlandırıldı (62).

İngiltərənin hakim dairələri də Rusiya ilə ticarət əlaqələrinin genişləndirilməsinə fəal dəstək verdilər. Çünki bu əlaqələr İngiltərə üçün yeni bazarların açılmasına, yeni ticarət əlaqələrinin yaradılmasına, başlıcası isə İspaniya və Portuqaliya ilə ticarət rəqabətində yeni mövqelər əldə edilməsinə gətirib çıxara bilərdi. 1555-ci ildə R.Çenslor yenidən Rusiyaya qayıtdı. Bu dəfə o, həm də ingilis sarayının elçisi kimi Rusiyaya gəlmişdi. R.Çenslor bir daha rus çarı ilə görüşdü, Rusiya ilə ticarət əlaqələrinin qurulmasınnı perspektivlərini müzakirə etdi və nəticədə Rusiya ilə ticarət əlaqələrinin yaradılması haqqında razılaşma imzalanmasına nail oldu. Bu razılaşmaya əsasən ticarət karvanları sərbəst şəkildə Rusiyaya gəlməli və ingilislər burada ticarət fəaliyyəti həyata keçirməli idi (63).

İngilis tacirləri Rusiya ilə ticarət münasibətlərinin yaradılmasına həm də Çinə və Hindistana yeni marşrutların açılması imkanı kimi baxırdılar. Artıq onlara məlum idi ki, Buxaradan keçməklə Çinə ticarət səfərləri etmək mümkündür. Buxaraya isə Xəzər dənizi vasitəsilə çıxmaq mümkün ola bilərdi. Bu məsələlər "Moskva şirkəti" təmsilçilərinin Rusiyaya səfərləri zamanı da müzakirə obyektinə çevrildi. Məlumdur ki, adı çəkilən şirkətin təmsilçisi kimi Antoni Cenkinson 1557-c ildə Rusiyaya gəldi və rus çarı ilə apardığı müzakirələrdən sonra ingilis tacirlərinin Rusiya ərazisində ticarət etməsi üçün bir sıra güzəştlər əldə etməyə nail oldu. Amma A.Cenkinsonun Moskvaya gəlməkdə məqsədi

həm də Rusiyadan keçməklə Çinə və Hindistana aparan ticarət yollarının müəyyənləşdirilməsi idi. Ona görə də rus çarının qəbulunda olarkən ingilis taciri Xəzər dənizindən keçməklə Çinə ticarət marşrutunun açılması təklifini irəli sürdü. Rusiya çarı bu təklifə etiraz etmədi və ona Həştərxana getməyə icazə verdi. A.Cenkinson da bu fürsətdən dərhal istifadə edərək Həştərxana yollandı (64).

Bu məsələlərin həlli əslində, Rusiyanın da maraq dairəsində olan bir məsələ idi. Xəzərboyu ərazilərə Rusiya yenicə sahib olmuşdu və bu mövqenin ələ keçirilməsi yeni imkanların da əldə edilməsinə yol açmışdı. Belə ki, Rusiya çarlığı Xəzərboyu ərazilərin ələ keçirilməsi üçün Kazan xanlığı ilə mübarizədə qarşı-qarşıya gəlməli olmuşdu. Bu qarşılaşmadan üstün çıxmaqla Rusiya 1552-ci ildə Kazan xanlığını, 1556-cı ildə isə Həştərxan xanlığını öz hüdudlarına daxil etdi. Bu isə Xəzər dənizinə çıxışı təmin etdi ki, bununla şərq ölkələri ilə ticarətdə müəyyən üstünlüklərə şərait yaradırdı. Qeyd edilməlidir ki, şərqlə ticarət işlərində və iqtisadi əlaqələrin qurulmasında monopol vəziyyətin saxlanması üçün Osmanlı dövləti də Qara dəniz-Xəzər dənizi hövzəsinə nəzarəti bütünlüklə ələ keçirmək istəyirdi. Bunun üçün Osmanlı dövləti hətta Volqa və Don çayları arasında böyük kanal yaratmaq planı da var idi. Belə bir planın həyata keçəcəyi təqdirdə Osmanlı dövləti Səfəvi dövlətini də müəyyən ticarət əlaqələrindən məhrum edə bilərdi. Lakin Sultan Süleymanın hakimiyyəti illərində bu planı həyata keçirmək mümkün olmadı. Rusiya çarı isə həyata keçirdiyi siyasətlə Xəzər dənizinin şimal hövzəsində möhkəmlənməklə cənubla şimalı birləşdirən Volqa-Xəzər maşrutunu öz nəzarəti altına ala bildi (65).

Həştərxan xanlığını Rusiyaya birləşdiriləndən dərhal sonra, yəni 1556-cı ildə Rusiya dövlətinin elçisi Səfəvi sarayına gəldi (66). Bu səfər Rusiya ilə Səfəvi dövləti arasında həm də ticarət əlaqələrinin yaradılmasının başlanğıcı oldu. Çox qısa müddətdən sonra Səfəvi dövləti ilə Rusiya arasında fəal ticarət əlaqələrinin əsası qoyuldu. Bu əlaqələr qarşılıqlı şəkildə həyata keçirilirdi. Yəni həm rus tacirləri Səfəvi şəhərlərinə səfərlər edirdi, həm də

Səfəvi tacirləri Rusiya ərazisinə səfərlər edir, öz mallarını satır və ya yeni mallar alırdılar.

Avropa ölkələrindən və Rusiyanın şimalından Xəzər hövzəsinə gələn tacirlər üçün nəqliyyat Moskvadan başlayırdı. Buradan yüklər Moskva çayı vasitəsilə Volqa çayına çıxarılır və Həştərxana daşınırdı. Cənubdan gələn yüklər üçün də əsas dayanacaq nöqtələrindən biri məhz Həştərxan idi. Burada yüklər ya satılır, ya da buradan şimala və ya da cənuba yolu davam etdirirdilər. Moskvadan Həştərxana 3300 kilometrlik məsafə idi. Bu yolu çay nəqliyyatı ilə təxminən 2 aya başa vurmaq mümkün olurdu. Səfəvi hüdudları daxilində ən ucqar nöqtə isə Hörmüz idi. Bu yol da təxminən 2 aylıq bir müddətə başa vurulurdu. Yəni Həştərxan, həm Səfəvi tacirləri üçün, həm də Səfəvi hüdudlarına mal daşıyan tacirlər üçün mühüm tranzit məkanı idi. Tacirlərin fəaliyyətinin təşviqləndirilməsi və onların səfər əziyyətlərinin yüngülləşdirilməsi üçün Həştərxanda iki böyük mehmanxana-karvansara tikilmişdi. Bu mehmanxanaların biri Buxara istiqamətində ticarət edən tacirlər üçün, digəri isə Xəzərin cənubu ilə ticarətdə olan tacirlər üçün nəzərdə tutulmuşdu. Tacirlər bu mehmanxanalarda gecələməkdən əlavə, anbarlarda öz yüklərini da saxlaya bilərdilər. Bu mehmanxanalar həm də qarşılıqlı mal mübadiləsinin həyata keçirildiyi məkan idi. Şərq və qərb tacirləri burada öz mallarını mübadilə edirdilər. Rusiya ərazisində Səfəvi dövlətinin maraqları çərçivəsində şərqlə qərb arasında aparılan ticarətin mühüm qovşaqlarından biri də Kazan şəhəri idi. Mənbələrdə Azərbaycan ərazisindən, Səfəvi dövlətinin digər məkanlarından bu şəhərə də çoxlu sayda tacirlərin gəlməsi haqqında məlumatlar mövcuddur (67).

Rusiya çarlığı ticarət tranzitinə meydan açmaqla bərabər, ikitərəfli ticarətin genişlənməsinə də rəvac verdi. Ümumən, Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi dövləti ilə Rusiya arasında ticarət əlaqələri xeyli genişləndi və bu işdə Volqa-Xəzər nəqliyyat yolu mühüm rol oynamağa başladı. Ticarətin genişlənməsi iki dövlət arasında dəniz nəqliyyatının inkişafına və dəniz marşrutlarının mənimsənilməsinə şərait yaratdı.

Digər ölkələrlə olduğu kimi Rusiya ilə ticarət işlərində Səfəvi hüdudlarında istehsal olunan ipək əsas yeri tuturdu. Məlumdur ki, Səfəvi hüdudları daxilində ipəyin istehsal mərkəzləri Azərbaycan şəhərlərində və Xəzərin cənub hövzəsində yerləşirdi. Şamaxıda, Ərəşdə və Təbrizdə istehsal olunan ipək səltənət daxilində də, səltənət xaricində də çoxlu sayda alıcılara malik idi. Xarici ticarət nümayəndələri də həm Azərbaycan hüdudlarında, həm də Səfəvi dövlətinin digər şəhərlərində istehsal olunan ipəyə böyük maraq göstərirdilər və ipək ticarəti qərb tacirlərinə böyük qazanc gətirirdi. Amma Azərbaycan ərazisindən ixrac olunan mal yalnız ipəkdən ibarət deyildi. İpəkdən başqa müxtəlif heyvanlara məxsus xəz və dərilər, müxtəlif silah əşyaları, metal məmulatlar, baqqaliyyə və ədviyyat malları da Rusiyaya ixrac olunurdu. Orta əsrlərdə Azərbaycan ərazisində soyuq silah istehsalı da geniş yayılmışdı və Azərbaycan ərazisində toplanan qoşunların soyuq silahları da əsasən daxili istehsal hesabına ödənirdi. Rusiyaya soyuq silahların ixrac edilməsi də bu sahədə ciddi təcrübənin mövcud olduğundan xəbər verirdi. Rusiyadan isə Azərbaycana və bütünlükdə Səfəvi şəhərlərinə mahud, qarazəy, məxmər, şüşə, kağız və digər mallar gətirilirdi. Onların bəziləri Rusiyaya ixrac edilmiş Avropa istehsalı olan mallar idilər. Səfəvi dövləti ilə Rusiya arasında aparılan ticarətdə Bakı nefti də yer tuturdu. Neft həm də Rusiyanın Avropa ilə ticarətində müəyyən yer tuturdu. Bakı nefti xüsusi qablarda Rusiyaya çatdırılırdı. Burada neftin bir hissəsi Rusiyanın daxili tələbatı üçün saxlanılır, bir hissəsi də Avropa ölkələrinə ixrac olunurdu. Qeyd edilməlidir ki, Bakı neftinə Orta Asiyada da maraq var idi. Səfəvi tacirləri Bakı neftini Xəzər dənizinin şərqinə daşıyır, oradan isə bu neft Xivə və Buxaraya göndərilirdi (68).

Bolqa-Xəzər marşrutu üzrə qurulmuş olan ticarətin əsas mərkəzləri Şamaxı, Bakı, Ərəş Təbriz və Xəzər dənizinin cənub hövzəsində yerləşən şəhərlər idilər. Bu şəhərlər həm böyük ticarət mərkəzləri, həm də ticarət tranziti mərkəzləri hesab edilirdilər. Bir sözlə, XVI əsrin ortalarından etibarən Volqa-Xəzər marşrutu üzrə ticarətin qurulması Osmanlı ərazisindən və Osmanlı dövlə-

tinin nəzarəti altında olan Aralıq dənizi hövzəsindən, habelə Portuqaliyanın və İspaniyanın nəzarəti altında olan okean yollarından şərqə doğru uzanan ticarət yollarına alternativ kimi inkişaf başladı. Bu marşrut özünəməxsus perspektivlərə malik idi və ona görə həm Rusiya, həm də İngiltərə bu marşrutdan bəhrələnməyə çalışdılar.

Rusiya ilə ticarət əlaqələrini nizamlamağa müvəffəq olan ingilis ticarətinin nümayəndələri eyni zamanda Volqa-Xəzər marşrutunun öyrənilməsinə də başladılar. 1557-ci ildə Moskvaya gəlmiş "Moskva şirkətinin" nümayəndəsi Antoni Cenkinson Volqa-Xəzər ticarət marşrutunun öyrənilməsini Orta Asiyadan başladı. O, 1558-ci ildə Həştərxandan dəniz yolu ilə Orta Asiyaya yollandı və bu bölgənin bir sıra şəhərlərində oldu. O cümlədən Urgənc və Buxara şəhərlərinə səfər edən A.Cenkinsonun özbək xanları ilə görüşdüyü də bildirilir. A.Cenkinson əvvəlcə Orta Asiya daxilində ingilis ticarətinin qurulması imkanları ilə maraqlandı. Lakin yerli hakimlər arasında hakimiyyət uğrunda aparılan daxili mübarizə və çəkişmələr və bunların bölgədə yaratdığı qeyri-sabit şərait ticarət üçün əlverişli şərait yaratmadığından A.Cenkinson diqqətini həm də Çinlə ticarətin mümkünlüyünə yönəltdi. Ona görə A.Cenkinson Orta Asiyadan keçməklə Çin bazarlarına çıxmaq barəsində də müəyyən məlumatlar topladı. Lakin Orta Asiyadan keçməklə Çinə aparan marşrut onu qane etmədi. A.Cenkinson Səfəvi dövləti daxilinə də səfər etmək istəyirdi. Lakin yolların təhlükəli olması onu bu səfərdən daşınmağa sövq etdi (69).

Bununla belə, Səfəvi dövləti ilə ticarətin qurulmasına maraq qalmaqda idi. 1560-cı ildə İngiltərəyə qayıdan A.Cenkinson buradakı görüşlərində və apardığı müzakirələrində də Volqa-Xəzər marşrutundan istifadə etməklə Səfəvi dövləti ilə ticarət əlaqələrinin qurulması imkanlarından söhbət açdı. İngilis ticarət nümayəndiliyinin üzvləri Səfəvi dövləti ilə ticarət əlaqələrinin qurulmasın rəğbətlə yanaşdılar. Lakin bu ticarətin böyük imkanlara malik olacağına ingilis tacirlərində bir şübhə var idi. Ona görə onlar A.Cenkinsonun Volqa-Xəzər marşrutu ilə Səfəvi dövlətinə

səfər etməsinə razılıq versələr də, ilk dəfə daha az malın ticarət məqsədilə aparılmasına təkid etdilər. Mövcud məlumatlardan görünür ki, İngilitərə ticarət dairələri Səfəvi dövləti ilə qurulacaq ticarət əlaqələri zamanı mahud və qarazəyin ixracına daha çox meyl göstərirdilər (70).

Rusiya ərazisindən keçməklə Səfəvi dövləti ilə ticarət əlaqələrinin qurulmasına başlamaq üçün Antoni Cenkinson 1561-ci aprel ayının sonlarında yenidən Moskvaya doğru hərəkətə başladı. O özü ilə ingilis kraliçası Elizabetın iki məktubunu da gətirirdi. Bu məktublardan biri Rusiya çarı İvan Qroznıya, digər isə Şah Təhmasibə ünvanlanmışdı. Hər iki məktub 1561-ci il aprelin 25-də imzalanmışdı. İvan Qroznıya ünvanlanmış məktubda ingilis kraliçası Rusiya ərazisinə səfər edən ingilis təbəələrinə, habelə kraliçanın özünə göstərilən lütfkarlığa görə təşəkkür bildirilir və xahiş edilirdi ki, A.Cenkinonun Volqa-Xəzər marşrutundan istifadə etməklə Səfəvi ərazisinə səfər etməsinə icazə verilsin (71).

Səfəvi dövləti ilə əlaqələr yaradılması məqsədilə A.Cenkinsonun Londondan Moskvaya doğru hərəkətə başlaması 1561-ci ilin may ayının 14-nə təsadüf edir. Hərəkətə başlamazdan əvvəl "Moskva Şirkətinin" rəhbərliyi, konsulları və asistentləri Səfəvi dövləti ilə ticarət əlaqələrinin necə qurulması haqqında xüsusi bir təlimat hazırlayıb A.Cenkinsona təqdim etdilər. Bu təlimatdan göründüyü kimi, "Moskva şirkəti" tərəfindən A.Cenkinstonun Moskvaya səfər etməsi üçün "Qaranquş" adlanan bir gəmi ayrılmışdı. Təlimatda göstərilirdi ki, həmin gəmiyə xüsusi bir sandıq yüklənmişdir və həmin sandığın içərisində çoxlu sayda qiymətli əşyalar var idi. Moskvaya yetişdikdən sonra A.Cenkinson ingilis kraliçasının məktubu ilə sandıqda olan bəzi qiymətli əşyaları da rus çarına təqdim etməli idi. Qiymətli hədiyyələr ticarət şirkəti adından təqdim olunmalı idi. Bundan sonra rus çarından xahiş edilməli idi ki, o, Rusiya ərazisindən keçməklə Səfəvi şəhərlərinə və digər qonşu dövlətlərin ərazilərinə istənilən vaxt, istənilən satlıq mallarına aparılması üçün icazə versin və bu icazə rəsmi fərmanla təsdiq olunsun. Zərurət yarandığı halda Rusiya ərazinə

və Rusiya ərazisindən tranzit kimi daşınan ticarət malların gömrük vergiləri ilə bağlı A.Cenkinsona müvafiq razılaşma imzalamaq səlahiyyəti verilirdi. Amma A.Cenkinson bu zaman ingilis ticarətinin maraqlarını qorumağa çalışmalı idi (72).

"Qaranquş" gəmisini əlavə iki gəmi də müşayiət etməli idi. Həmin gəmilərə ticarət malları yüklənmişdi. Şirkətin nümayəndələri bildirirdilər ki, fürsət yaranarsa həmin malların elə Moskvada satılmasına cəhd göstərilsin. Çünki Səfəvi ərazisində həmin ticarətin necə olacağı haqda ticarət şirkətində hələ aydın bir təsəvvür yox idi. Malların müəyyən hissəsinin isə Səfəvi ərazisinə aparılması tövsiyə olunurdu. Təlimatda daha sonra deyilirdi: "Biz həmçinin istəyirik ki, lazımı bildiyiniz qədər qarazəy, qırmızı mahud və digər malları özünüzlə götürüb Həştərxan və Xəzər dənizindən keçən dəniz yolu ilə və ya münasib bildiyiniz digər yolla Allah adına Persiyaya (Səfəvi dövlətinə-red.) səfər cəhdi edəsiniz. Biz istəyirik ki, Tanrı Sizi Persiyaya yetirəndə kraliça həzrətlərinin fərmanı ilə əzəmətli Sufinin (Şah Təhmasib nəzərdə tutulur-red.) hüzurunda olasınız. Əgər o, Xəzər dənizindən uzaqda deyilsə və onun yanına getmək çətin deyilsə. Ona münasib bildiyiniz hədiyyəni təqdim edəsiniz. Əgər Sufi ilə görüşənə qədər və ya ondan sonra siz digər şahların, hökmdarların, hakimlərin ərazilərindən keçməli olsanız onlara da məqamlarına və vəziyyətlərinə uyğun olan və münasib bildiyiniz hədiyyələri təqdim edin" (73).

Daha sonra tövsiyə olunurdu ki, A.Cenkinson həm Səfəvi şahından, həm də ərazisindən keçməli olacağı ölkələrin hökmdarlarından ticarət işlərinin qurulması üçün həm güzəştlər almağa, həm də ticarət mallarının mühafizəsi üçün fərman əldə etməyə nail olsun. A.Cenkinson Səfəvi şahı ilə bir sıra məsələri razılaşdırmağa və onun icazəsini almağa çalışmalı idi. Bu məsələlərə ilk növbədə Səfəvi dövləti ilə qarşılıqlı ticarətin qurulması məsələsi daxil idi. Ticarət şirkətinin nümayəndələri istəyirdilər ki, Səfəvi şahı ilin istənilən vaxtında Səfəvi şəhərlərinə ticarət mallarının daşınması, satılması, sonra da Səfəvi şəhərlərində münasib bilinən malların əldə edilməsi və təhlükəsiz

şəkildə İngiltəryə daşınması üçün icazə verilsin. Bundan başqa, Səfəvi ərazisindən keçməklə Hindistanın istənilən hissəsinə mal aparılması və ya oradan mal gətirilməsi, eyni zamanda Səfəvi dövlətinə qonşu olan digər dövlətlərlə ticarət əlaqələri qurulması, Səfəvi ərazisindən keçməklə Rusiyaya daşınması üçün icazə verilməsi də ingilis ticarət şirkəti nümayəndələrinin maraq dairəsində idi. İngilis tacirləri istəyirdilər ki, onların ticarət karvanları Səfəvi hüdudlarında sərbəst hərəkət edə bilsin.

İngilis ticarət şirkətinin nümayəndələri onu da tövsiyə edirdilər ki, əgər Persiyaya səfər etmək alınmasa, onda növbəti il yenidən bu səfəri həyata keçirməyə cəhd göstərsin. Təlimatdan görünür ki, Səfəvi dövləti ilə əlaqələrin qurulmasına aydın bir əminlik yox idi. Amma ticarət nümayəndələri öz ümidlərini də kəsmirdilər və onlar Səfəvi dövləti ilə ticarət əlaqələri qurulmasına xüsusi maraq göstərirdilər. Şübhə yoxdur ki, Səfəvi dövlətinin ticarət imkanları haqqında ingilis şirkətinin nümayəndələrində geniş məlumat var idi və ona görə də Səfəvi dövləti ilə bu əlaqələrin yaradılması təkidlə tövsiyə olunurdu.

Beləliklə, 1561-ci il may ayının 14-də Londondan hərəkətə başlayan Antoni Cenkinson həmin ilin iyul ayının 14-də Rusiya ərazisinə, avqustun 4-də isə Moskvaya yetişdi. Bir müddətdən sonra o, Rusiya çarı ilə görüşməyə və ingilis kraliçasının məktubunu ona təqdim etməyə müvəffəq olur. Bu görüş zamanı Persiyaya səfər etməsinə razılıq verilməsi barəsində də məsələ qaldırılır. Lakin həmin məsələ xeyli müddət ləngiməli olur. A.Cenkinson bir də 1562-ci ilin mart ayında Rusiya ərazisindən keçməklə Səfəvi ərazilərinə səfər etmək üçün icazə ala bildi. Rusiya çarı A.Cenkinsona Rusiya ərazisindən keçməklə Səfəvi dövlətinə səfər etmək barədə fərmandan əlavə, ona lazımi kömək göstərilməsi xahişi ilə qonşu dövlətlərin başçılarına da məktub imzaladı. Lazımi hazırlıqları görəndən sonra A.Cenkinson Səfəvi dövlətinə yollanmaq üçün 1562-ci il aprel ayının 27-də Moskvanı tərk etdi (74).

A.Cenkinson bu səfərini Moskva çayı ilə Oka çayına çıxmaqla başladı. Buradan da o, Volqa çayı ilə Nijni-Novqoroddan keç-

məklə Həştərxana yollandı. İyun ayının 10-da A.Cenkinson Həştərxan yaxınlığına yetişdi. Onun dənizlə hərəkəti üçün gəmidən başqa 50 nəfərlik bir mühafizə dəstəsi də ayrılmışdı. Bu mühafizə dəstəsi köməkçi gəmilərdə yerləşməklə A.Cenkinsonu müşayiət edirdi. A. Cenkinson xatirələrində onunla eyni vaxtda cənuba doğru Persiya təmsilçisinin də hərəkət etdiyini yazırdı. Bu təmsilçinin kim olması barəsində xatirələrdə dəqiq məlumat yoxdur. Hər halda onun adının çəkilməsi həmin vaxtlarda Səfəvi dövləti ilə Rusiya arasında əlaqələrin davamlı xarakter daşımasından xəbər verə bilər. Xatirələrdəki məlumatdan o da aydın olur ki, gəmilər Həştərxana yan almadan Xəzər dənizinə çıxdılar və Səfəvi təmsilçisi A.Cenkinsonu gözləmədən irəli hərəkət edib ondan aralandı. 1562-ci il iyun ayının sonlarına yaxın A.Cenkinsonun olduğu gəmi Həştərxanla Dərbənd arasında güclü tufanla rastlaşdı və bu tufan bir həftə davam etdi. Ona görə A.Cenkinson mürəkkəb hava şəraitində bir həftə dənizdə dayanıb gözləməli oldu. Havalar sabitləşəndən sonra A.Cenkinson öz yoluna davam etdi. Bir neçə gündən sonra A.Cenkinson və onu müşayiət edənlər Şirvan sərhədinə yetişdilər və bir müddət burada istirahətə dayandılar. Onun yazdığına görə, bir də avqust ayının 3-də cənuba doğru hərəkətlərini davam etdirdilər. A.Cenkinsin xatirələrində Dərbənd şəhəri haqqında da söz açır və onun tarixi ilə bağlı bəzi məlumatlar da verirdi. Onun yazdığına görə, Dərbənd qalasının divarları Makedoniyalı İsgəndər tərəfindən tikilmişdi və bu divarların bir ucu Tiflis şəhərinə qədər uzanırdı. Avqust ayının 6-da isə A.Cenkinson Şabrana yetişdiyini yazırdı. Burada gəmilərdə olan yüklər sahilə çıxarıldılar və səfərin davamı Şabrandan başlayaraq artıq quru yolla davam etməli idi. İngilis ticarət nümayəndəliyi burada yerli hakim tərəfindən də mehribanlıqla qarşılandı. Çox güman ki, yerli hakimlərin belə bir heyətin gələcəyindən artıq xəbəri var idi. A.Cenkinson Şabran hakimini Alcan Murcy (ola bilsin ki, Alcan Mirzə, ya Elcan Mirzə və s.) adlandırmışdır. Şabran hakimi tərəfindən dərhal Şirvan hakimi Abdulla xan Ustaclıya məlumat göndərildi. Ondan icazə alınan kimi A.Cenkinson Şabranda gözləməli oldu. Xatirələrində o

yazırdı ki, ona Şabranda böyük qonaqpərvərlik göstərildi, mühafizəsi üçün 40 nəfərdən ibarət olan silahlı dəstə ayrıldı. Avqust ayının 12-də Abdulla xandan icazə daxil oldu və A.Cenkinson dərhal Şamaxıya yola düşdü. Şabran hakimi tərəfindən onun rəhbərlik etdiyi nümayəndə heyətinə ticarət yükünün daşınması üçün 45 baş dəvə ayrıldı. Bu karvan avqust ayının 18-də Şamaxı şəhərinə yetişdi. Burada o, heyət üçün ayrılmış malikanədə yerləşdi və yüklər də xüsusi müəyyənləşdirilmiş anbarlara daşındı (75).

"O biri gün, ayın 19-da (1562-ci ilin avqust ayının) mən göstəriş aldım ki, Abdulla xan adlanan kralın hüzuruna gəlim. Bu vaxt onun sarayı dəhşətli istilərdən qorunmaq üçün Şamaxıdan 20 mil aralı hündür dağlarda yerləşirdi. Avqustun 20-də mən onun hüzurunda oldum. O məni mehribanlıqla qarşıladı. Mən onun əlini öpəndən sonra birlikdə nahar etmək dəvətini aldım. Özü də bildirdi ki, ona yaxın oturum. Kral ipək və qızıl ilə işlənmiş zəngin bir çadırda oturmuşdu. Bu çadır hündürlük yamacında çox yaraşıqlı görünürdü. Onun uzunluğu 16 sajen, eni 6 sajen idi, qarşısında gözəl bir içməli su bulağı var idi. Kral və əyanlar həmin bulaqdan su içirdilər. Hökmdarın özü orta boylu olmaqla zəhmli görkəmə malik idi. Mirvari və digər qiymətli daşlarla işlənmiş, ipək və parçadan tikilmiş uzun və bahalı paltarlar geyinmişdi. Başında iti ucluğu olan turban var idi. Yarım yard hündürlüyündə olan bu turban bahalı qızıl parçadan tikilmişdi, dövrəsinə isə 20 yard uzunluğunda olan və qızılla işlənmiş hind ipəyi sarılmışdı. Turbanın sol tərəfində lələklər uzanırdı. Bu lələklər zərif işlənmiş və qiymətli daşlarla bəzədilmiş qızıl ucluqlara sancılmışdı. Sırğalarının sallanan hissəsi bir ovuc uzunluğunda idi və onun sonluğuna böyük qiymətdə olan iki yaqut bərkidilmişdi. Çadırın daxili bahalı xalçalarla döşənmişdi, onların altına isə qızıl və gümüşlə işlənmiş kvadrat formalı xalça salınmışdı. Onların da üstünə iki bahalı balış qoyulmuşdu. Kral və onun yaxınları ayaqlarını yığaraq yerdə oturmuşdular. Görəndə ki, bu şəkildə oturmaq mənim üçün çətindir əlahəzrət mənim üçün stul gətirməyi əmr etdi və bildirdi ki, mənə necə rahatdırsa

elə oturum. Nahar vaxtı yetişəndə yerə süfrə salındı və müxtəlif yeməklər gətirildi. Onlar yeyilmək üçün sıra ilə düzülmüşdülər. Mənim hesabıma görə orada 140 növ yemək var idi. Süfrə ilə birlikdə onları yığışdırandan sonra yeni süfrə döşəndi və 150 növ meyvə və digər çoxlu yeməklər gətirildi. Yəni iki dəfəyə 290 növ yemək gətirildi. Nahar ziyafətindən sonra kral mənə "xoş gəldi" (quosh quelde) dedi və əmr etdi ki, fincana bulaqdan su doldurulsun. Özü içdikdən sonra qalanı mənə verdi və soruşdu ki, bu su mənim xoşuma gəlirmi və belə su bizim ölkəmizdə də varmı? Mən elə cavab verdim ki, o razı qaldı" (75).

Nahar ziyafətindən sonra Abdulla xan müxtəlif suallarla qonağa müraciət etdi, Avropa ölkələri, o yerlərin adət və ənənələri, məzhəbi haqqında məlumat almağa çalışdı. Eyn zamanda A.Cenkinsondan Şirvana gəlişinin məqsədi soruşuldu. A.Cenkinson da bəyan etdi ki, gəlməkdə məqsədi ingilis kraliçasının məktubunu Səfəvi şahına çatdırmaq, ingilis tacirlərini Səfəvi hüdudlarında sərbəst ticarət etmək icazəsini almaq, iki dövlət arasında ticarət əlaqələrini qurmaqdır. Abdulla xan bu məlumatı məmnunluqla qarşıladı və bildirdi ki, nəinki A.Cenkinsonun bu səfərini təqdir edir, eyni zamanda onun Şirvan ərazisindən keçməklə Səfəvi şahının görüşünə getməsinə də icazə verir. Abdulla xan vəd etdi ki, Şamaxıdan 30 günlük məsafədə olan Qəzvin sarayına müşayiət etmək üçün ona mühafizə dəstəsi də verəcəkdir. Bir sözlə, A.Cenkinson öz xatirələrində Şamaxıda olan görüşlərini məmnunluqla xatırlayırdı. Qəzvinə doğru hərəkətə başlamazdan əvvəl A.Cenkinsonun Abdulla xanla başqa bir görüşü də olmuşdu. İlk qarşılaşmadan 3 gün sonra baş verən həmin görüş də nahar vaxtına təsadüf etdi. Həmin görüşdən sonra Abdulla xan ona bir baş cins at bağışladı. A.Cenkinson öz xatirələrində bu atı da xüsusi olaraq vəsf edirdi (76).

A.Cenkinsonla Şirvan bəylərbəyi Abdulla xan arasında belə bir söhbət də olmuşdu: "Şirvan kralının yanında və onun qəbulunda olduğum zaman müxtəlif məsələlər barəsində danışıqlar zamanı ...Abdulla xan məndən soruşdu ki, biz – ingilislər türklərlə dostuq, ya yox? Mən cavab verdim ki, biz türklərlə heç

vaxt dost olmamışıq. Çünki onlar bizə heç zaman öz ölkələrindən keçib Sufinin torpaqlarına gəlməyə icazə verməmişlər. Lakin bzim yaxınlığımızda venesiyalılar adlı bir millət var. Onlar türklərlə böyük razılıq şəraitində yaşayır, onların torpaqlarında bizim mallarımızla alver edirlər. Onlar bizim mallarımızı, başlıca olaraq xam ipəyə dəyişirlər. Xam ipək isə oraya bizim bildiyimizə görə, İrandan (Səfəvi dövlətindən – red.) aparılır. ... Əgər türklər venesiyalılara icazə verdikləri kimi, Sufi də ... bizə öz torpaqlarında ticarət etməyə ixtiyar versə, bizə pasport və toxunulmazlıq vərəqələri versə, mən şübhə etmirəm ki, burada ticarət heç bir dövrlə müqayisə olunmayacaq dərəcədə genişlənəcək" (77).

Göründüyü kimi, hələ Şirvan bəylərbəyi ilə görüşündə A.Cenkinson Səfəvi mallarının Avropaya daşınmasında monopol hüquqları əldə etməyə çalışırdı. Çox güman ki, ingilis şirkətinin nümayəndəsi Abdulla xanın Səfəvi şahla ailə qohumluğu əlaqələrindən xəbərdar idi və ona görə də onun yanında Səfəvi ipəyinə daha geniş çıxış əldə edilməsi məsələsini qaldırmışdı. Digər tərəfdən Şirvan həm də ipək istehsalının mərkəzlərindən biri idi. Bu mənada A.Cenkinson Şirvanla yaxşı əlaqələr qurulmasına çalışırdı.

Bu görüşdən sonra A.Cenkinson Şamaxıya qayıtdı və orada səfər üçün son hazırlıqlara başladı. Oktyabr ayının 6-na qədər A.Cenkinson Şamaxıda qaldı. Yay düşərgəsindən ayrılmazdan əvvəl Abdulla xan ona həm də yerli əyanlara məxsus olan bahalı bir geyim dəsti bağışladı. Bu paltarı bağışlayan əyanlar A.Cenkinsona əynindəki libası dəyişməyi təklif etdilər. Abdulla xanla sonuncu görüşə də A.Cenkinson yerli əyanlara məxsus libasda gəlmişdi (78).

Xatirələrində A.Cenkinson bir qədər də Şamaxının tarixindən söhbət açmışdır. Onun yazdıqlarından aydın olur ki, həmin vaxtlar Şamaxının əvvəlki əzəməti qalmamışdı və ticarət sahəsində Ərəş şəhəri daha böyük mərkəzlərdən biri sayılırdı. A.Cenkinsonun verdiyi məlumata görə, bu şəhər Şirvan ipəyinin əsas ticarət mərkəzi idi. Bura Osmanlı dövlətindən, Suriyadan və digər dövlətlərdən çoxlu sayda tacirlər gəlirdilər. Ərəşdə hətta

Hindistandan gəlmiş tacirlərlə də qarşılaşmaq mümkün idi. İpəkdən başqa bu şəhərdə digər keyfiyyətli malları da tapmaq mümkün idi.

Abdulla xan həm də A.Cenkinsona öz fərmanını yazıb verdi. Bu fərman ingilis tacirlərinin gömrük rüsumundan azad edilməsi və onlardan alınmış rüsumların geri qaytarılması ilə bağlı idi. Həmin fərmanın mətni belə idi: “Biz, Abdulla xan, göyün və yerin yaradıcısı Allahın qüdrəti ilə təyin olunmuş və indi də səltənət sürən Şirvan və Girkan kralı, bizim əzizimiz və istəklimiz elçi Antoni Cenkinsonun inadlı ərzi-halı və xahişləri nəticəsində bizim təşəbbüsümüz və böyük mərhəmətimizlə yalnız çox möhtərəm ser Uilyam Gerretə, ser Uilyam Çestora, ser Tomas Loca, cənab Riçard Melleriyə və cənab Riçard Çemberlenə, onların İngiltərənin London şəhərindən olan bütün tacir-sahibkarlar dəstəsinə ticarət üçün malların bizim ölkəyə keçməyə, başqa şəxslərlə nağd pulla, yaxud mübadilə etməklə, alqı-satqı aparmağa, arzu etdikləri qədər bizim ölkədə qalmağa və yaşamağa və istədikləri vaxt, istər onların özlərinə, istərsə də mallarına münasibətdə yubanmadan, əngəl və maneəsiz getməyə tam sərbəstlik, təhlükəsiz buraxılış və icazə hüququ verdik və bağışladıq.

Sonra, hökm vermək istərdik ki, yuxarıda göstərilən ingilis tacirləri və onların şirkəti bizim mülklərimizdə alacaqları və satacaqları mallardan ötrü heç bir rüsum verməyəcəklər. Əgər ki, hər hansı bir vaxtda bizim vergi yığanlarımız, bizim qeyri-qulluqçularımız, yaxud onlardan kimsə bizim bu hökmümüzü pozaraq əngəl və sui-istifadə törədib, bu ingilis tacirlərindən, yaxud onların nümayəndələrindən, onların bizim mülklərə gətirdiyi, yaxud buradan apardığı mallardan hər hansı rüsum almağa güc işlədilərsə, yuxarıda deyilən yığıcılar və qulluqçular öz vəzifələrindən kənar edilsinlər, bundan sonra bizim gözümüzdən düşməyə düçar edilsinlər, yığıcılarımızın bizim xəzinə üçün onlardan topladığı bütün pullar və mallar isə ingilis tacirlərinə qaytarılsın. Göstərilən ingilis tacirləri, yaxud onların nümayəndələri bizim xəzinəmiz üçün yararlı olan hər hansı mallar gətirərlərsə, xəzinədar belə malları xəzinəyə qəbul etməli və ingilis tacirlərinə həmin

malların dəyəri həcmində nağd pul, yaxud xamna ödəməlidir. Bizim imtiyazlı fərmanımız mülklərimizin hər yerində təqdim edilirsə, yaxud oxunursa, biz tələb və hökm edirik ki, onun qüvvəsi olsun və bütün məntəqələrdə ona əməl edilsin" (79).

Bu fərman, əslində, A.Cenkinsonun ingilis tacirləri üçün bütün Səfəvi ərazisində əldə etməyə çalışdığı güzəştlər idi. Həmin güzəştlərin əldə edilməsi Şirvan ərazisində ingilis tacirlərinə monopol səlahiyyətləri təmin etmiş olurdu. Sözsüz ki, Səfəvi hüdudlarına səfərinin belə uğurla başlaması A.Cenkinsonu kifayət qədər məmnun etdi və bu güzəştlərdən aldığı xoş əhval-ruhiyyə ilə Şamaxını tərk edib Qəzvinə yola düşdü.

Qeyd edildiyi kimi, A.Cenkinson Şamaxı şəhərini 1562-ci il oktyabr ayının 6-da tərk etdi və həmin ayın 16-da Ərdəbilə yetişdi. Burada qonaqların yerləşdiyi karvansarada 3 gün ərzində onlara yemək və atlar üçün yem verildi. A.Cenkinson yazırdı ki, bu karvansara xüsusi olaraq səyyahlar və xarici tacirlər üçün nəzərdə tutulmuşdu və orada onlara lazımi xidmət və qayğı göstərilirdi. Yəni tacirlərin gəliş-gedişi və istirahəti üçün Səfəvi hüdudları daxilində xüsusi yerlər abadlaşdırılmışdı ki, bunda da məqsəd yerli və xarici ticarətə rövnəq vermək idi. Bir neçə günlük istirahətdən sonra A.Cenkinson oktyabrı ayının 21-də Ərdəbili tərk etdi və noyabr ayının 2-də Qəzvinə yetişdi. Verdiyi məlumata görə, onu Abdulla xanın oğlu qarşıladı və şahın qəbuluna düşməzdən əvvəl Abdulla xanın oğlu ona təmtəraqlı bir qonaqlıq və ziyafət verdi. A.Cenkinson bildirirdi ki, Osmanlı sarayının elçilik heyətinin Qəzvində olması ilə əlaqədar olaraq dərhal Şah Təhmasibin qəbuluna düşə bilmədi. Sonra da ingilis səyyahı Osmanlı sarayından gətirilmiş qiymətli hədiyyələr haqqında eşitdiklərini bəyan edirdi (80).

Bu elçilik heyəti Şahzadə Bayəzidin təhvil verilməsindən sonra Osmanlı sarayından göndərilmiş hədiyyələri gətirən elçilik idi. Həmin elçilik məlum olduğu kimi, Səfəvi sarayına böyük həcmdə və miqdarda hədiyyələr gətirmişdi. A.Cenkinsonun yazdığına görə, Osmanlı elçiliyinin Qəzvinə gəlməsi və bütünlükdə, Osmanlı dövləti ilə Səfəvi dövləti arasında münasibətlərin yax-

şılaşması heç də ingilis ticarətinin maraqlarına cavab vermirdi. Qəzvin daxilində olan Osmanlı tacirləri A.Cenkinsonun rəhbərliyi ilə ingilis ticarət nümayəndələrinin gəlişindən xəbər tutaraq Osmanlı sarayının hədiyyələrini gətirmiş elçidən də xahiş etmişdilər ki, ingilis ticarətinin Səfəvi hüdudları daxilində rövnəq tapmasının qarşısının alınmasını Şah Təhmasibdən xahiş etsin. Osmanlı elçisi də Şah Təhmasiblə görüşündə bu məsələyə toxunmuşdu və ingilis ticarət nümayəndəliyinin gəlişinin Osmanlı-Səfəvi ticarət əlaqələrinə mənfi təsir göstərə biləcəyindən ehtiyatlandığını dilə gətirmişdi. Yəni A.Cenkinson hiss edirdi ki, ondan əvvəl Osmanlı elçiliyinin Şah Təhmasiblə görüşməsi heç də xeyirliyə qurtarmaya bilər. Əslində, onun ehtimalları heç də əbəs deyildi və məlumdur ki, Şah Təhmasib də hər vəchlə Osmanlı sarayı ilə əldə edilmiş razılaşmanın qorunub saxlanmasını istəyirdi. A.Cenkinsonun qəbulu da ona qarşı ehtiyatlı münasibətin olduğunu nümayiş etdirdi. Məlum olduğu kimi, hələ şah sarayının kandarında A.Cenkinsona şah başmaqlarını geyindirdilər ki, bir xristian (gavur) kimi onun ayaqları sarayın torpağına və döşəməsinə toxunmasın. Nümayəndə heyətindən kimsə şahın hüzuruna buraxılmadı. Yalnız A.Cenkinson tərcüməçi ilə birlikdə saraya daxil ola bildi. Bu hadisə 1562-ci il noyabr ayının 20-də baş vermişdi. Şah hüzurunda olanda A.Cenkinson onu salamlayaraq gətirdiyi hədiyyələri və eyni zamanda ingilis kraliçasının məktubunu ona təqdim etdi. Məlum oldu ki, kraliça Elizabetin məktubu latın, İtaliya və yəhudi dilindədir. Yəni dərhal bu məktubu oxumaq mümkün olmadı. Belə olanda Şah Təhmasiblə ingilis nümayəndəsi arasında qısaca söhbət oldu. Amma bu söhbət heç də A.Cenkinsonun ürəyincə olmadı. Şah Təhmasib onu kafir adlandırdı və kafirlərlə iş qurmaq istəmədiyini bildirdi (81).

Kraliça Elizabetin Şah Təhmasibə göndərdiyi məktubun mətni belə idi:

“Allahın lütfü ilə İngiltərənin, Fransanın və İrlandiyanın kraliçası olan Elizabet farsların, midiyalıların hirkanların, Kirmanlıların, margiyalıların, Dəclə çayının o tayında, Xəzər dənizi ilə Fars buxtası arasında yerləşən bütün xalqların

imperatoru, əzəmətli, məğlubedilməz hökmdarı və böyük Sufiyə salamlarla birlikdə xoşbəxtlik və hər cürə uğur arzuları göndərir. Allahın lütfü ilə əgər hansısa xalqlar bir-birindən yalnız sonsuz ərazilərlə, əlçatmaz dəniz ənginlikləri ilə deyil, həm də yer üzünün hissələri ilə bir-birindən ayrılmışlarsa, bütün bu xalqlar öz düşüncələrini, mülahizələrini məktublar vasitəsilə asanlıqla bir-birinə ötürə, ümumbəşəri hisslərdən doğan xidmətləri göstərə və qarşılıqlı anlaşmanın nəticələrini bölüşə bilərlər. Ona görə də bu məktubun etibar edildiyi bizim sevimli və sədaqətli xidmətçimiz Antoni Cenkinson bizim icazəmiz, lütfümüz və iltifatımız əsasında vəkil edilmişdir ki, bizim krallığı tərk etsin və Allafın yardımı ilə Sizin hökmünüz altında olan Persiyaya və digər ölkələrə qədər getsin. Biz bütün iltifatımızla arzu edirik ki, onun tərifə layiq olan niyyətinin həyata keçməsinə kömək edək. Çünki onun bütün fəaliyyəti Sizin təbəələrinizlə və Sizin məmləkətinizdə ticarət edən xaricilərlə mal ticarətinin qurulması kimi təmiz niyyətə dayaqlanır. Bununla əlaqədar olaraq, məmnunluqla Siz əlahəzrətə yazmağı lazım bildim ki, bizim vəsatətimiz əsasında xidmətçimiz Antoni Cenkinsona açıq sənəd və mühafizə fərmanı lütf edəsiniz. Onların əsasında və köməyi ilə də ona öz yoldaşları, nökərləri, arabaları, malları və başqa əşyaları ilə birlikdə istədikləri qədər Sizin bütün ölkənizdə, məmləkətinizdə, hüdudlarınızda və vilayətlərinizdə maneəsiz olaraq səyahət etməsinə, yerdəyişməsinə, gəzməsinə, dayanmasına qanuni şəkildə icazə verilsin və onlara toxunulmasın. Əgər bizim aramızda, dövlətlərimizin və təbəələrimizin arasında belə müqəddəs qonaqpərvərlik münasibətləri, xeyirxah ümumbəşəri xidmətlər xeyirli könüllülük əsasında qurularsa və səmimi şəkildə qorunarsa və möhkəmcə riayət olunarsa onda ümüd edə bilərik ki, qadir Allahın köməyi ilə bu kiçik başlanğıc bizə şərəf və sevinc, xalqlarımıza isə böyük fayda gətirsin. Onda əminliklə aydın olacaq ki, bizi ayıran ərazilər, dənizlər, göylər bizi birləşdirən ilahi əməllərdən, insani hisslərdən və qarşılıqlı xeyirxah münasibətdən doğan möhkəm əlaqə-

lərin yaradılmasına qarşı çıxa bilməz. Tanrı Siz əlahəzrətə bu dünyada sonsuz xoşbəxtlik, o dünyada isə əbədi səadət bəxş etsin.

İngiltərədə, bizim məşhur London şəhərimizdə dünyanın yaradılışının 5523-cü ilinin, İsa Məsihin isə 1561-ci ilinin aprel ayının 25-də, bizim hakimiyyətimizin isə üçüncü ilində yazılıbdır" (82).

A.Cenkinsonun yazdığına görə, o, Şah Təhmasibin hüzurundan ayrılandan sonra xidmətçilərdən biri saraydan başlayaraq onun ayağının dəydiyi yerlərə qum səpdi və bir növ bununla onu ayağının mundarını təmizlədi. İngilis nümayəndəsini ilk uğursuz qəbuldan sonra bayırda yenə də Abdulla xanın oğlu qarşıladı və onun dərhal geri qayıtmasına imkan vermədi. İngilis ticarət şirkətinin nümayəndəsi bir müddət Qəzvində qaldı. Onun fikrincə, Şah Təhmasib A.Cenkinsonun Portuqaliyanın casusu olmasından da şübhələnirmiş. Belə ki, Şah Təhmasib Avropadan gələnlərin hamısını eyni millətin nümayəndələri kimi qəbul edirmiş. Ancaq A.Cenkinsonun Portuqaliyaya düşmən olan bir ölkənin nümayəndəsi olması aydınlaşanda da ona qarşı rəğbətli münasibət özünü göstərmədi. Çünki saray əyanlarının və əmirlərinin çoxu Osmanlı-Səfəvi razılaşmasının pozulmaması xatirinə hər vasitə ilə ingilis nümayəndəsini saraydan uzaqlaşdırmağı məsləhət görürdülər. Saray əyanları onu da məsləhət görürlərmiş ki, çox-çox uzaqlarda yerləşən İngiltərə ilə münasibət qurmağın heç bir faydası olmayacaq. Əksinə, bu münasibətlərin qurulması Osmanlı sarayı tərəfindən qəzəblə qarşılana bilərdi. Hətta A.Cenkinsonun həbs edilərək Osmanlı sultanına hədiyyə kimi göndərilməsi haqqında da Şah Təhmasibə təkliflər verilmişdi. Ona görə Şah Təhmasib də A.Cenkinsona rəğbət göstərilməsindən ehtiyat edirdi. Məhz belə bir vaxtda Şirvan bəylərbəyinin məsələyə müdaxilə etməsi ingilis səyyahına qarşı da münasibətin müəyyən qədər dəyişməsinə yol açdı. İngilis ticarət nümayəndəsinin qarşılaşdığı vəziyyət haqqında oğlundan məktub alandan sonra Abdulla xan Şah Təhmasibə məktub yazmaq qərarına gəldi. Həmin məktubda A.Cenkinsonun könüllü şəkildə, xeyirxah məqsədlər üçün Səfəvi ərazisinə gəldiyini yazan Abdulla xan

şahdan xahiş etdi ki, ona qarşı lütfkarlıq göstərsin. Abdulla xan onu da yazırdı ki, A.Cenkinsona qarşı hörmətsilzik göstərilməsi gələcəkdə xarici elçiliklərin Səfəvi ərazisinə gəlməsinə mane ola bilər. Abdulla xanın məktubundan sonra A.Cenkinsona qarşı kəskin münasibət göstərilməsindən əl çəkildi, şahın əmri ilə 1563-cü il martın 20-də A.Cenkinsona Şah Təhmasib tərəfindən qızıl saplarla işlənmiş uzun geyim dəsti göndərildi. Bununla, A.Cenkinsona qarşı daha insaflı bir müansibət göstərildi və onun üçün nəzərdə tutulan daha sərt tədbirlərdən imtina edildi. A.Cenkinsona icazə verildi ki, sağ-salamat Qəzvini tərk edə bilsin (83).

Şah Təhmasibin ingilis nümayəndəsinə göstərdiyi bu münasibət, yuxarıda qeyd edildiyi kimi, Osmanlı dövləti ilə əldə edilmiş razılaşmanın qorunub saxlanması istəyi ilə bağlı idi. Çox güman ki, Şah Təhmasib bu günlərdə A.Cenkinsona göstərə biləcəyi xoş münasibətin Osmanlı sarayına çatdırıla biləcəyindən də ehtiyat edirmiş. Çünki Şah Təhmasib Şirvan hakimi Abdulla xana xəbər göndərmişdi ki, A.Cenkinsona qayğı göstərsin, onu yenə də qonaqpərvərliklə əhatə etsin. A.Cenkinson özü də Şah Təhmasibin ona qarşı münasibətinin Osmanlı ilə əldə etdiyi razılaşma ilə bağlı olduğunu bildirirdi. A.Cenkinson bir müddət istirahət üçün Şamaxıda dayandı. Həmin müddət ərzində o özü ilə aparmaq üçün xeyli miqdarda ipək ehtiyatları topladı. Lazımi hazırlıqları gördükdən sonra A.Cenkinson Şamaxını tərk etdi və 1563-cü il aprel ayının 21-də Xəzər dənizi sahilinə gələrək burada dayanmış ingilis gəmilərini geriyə hərəkət üçün hazırlamağa başladı. Bununla da A.Cenkinsonun Səfəvi dövlətinə səfəri başa çatdı. O qarşısına qoyduğu məqsədə qismən nail ola bildi. Belə ki, A.Cenkinson ingilis tacirlərinin Səfəvi hüdudlarında azad şəkildə ticarət etmələrinə və Səfəvi hüdudlarından adlayaraq qonşu ölkələrə, o cümlədən də Hindistana çıxış imkanlarının əldə edilməsinə nail ola bilmədi. A.Cenkinson yalnız Şirvan ərazisində sərbəst şəkildə ticarət etmək icazəsini ala bildi ki, bu da İngiltərə sarayının bütün istəklərinin həyata keçməsi demək deyildi (84).

İstənilən halda, ingilis tacirləri Səfəvi dövləti ilə ticarət əlaqələrinin əsasını qoymuş oldular. Başlıcası isə Səfəvi dövləti ilə Rusiya ərazisindən keçməklə yeni ticarət marşrutunun təsis edilməsinin mümkünlüyü, Səfəvi dövləti ilə ticarət əlaqələri yaradılmasının böyük qazanclar vəd etməsi müəyyənləşdirildi. Elə buna görədir ki, A.Cenkinsonun elçiliyi Moskvaya geri qayıdan kimi yeni bir elçilik heyətinin Səfəvi dövlətinə səfəri başladı. A.Cenkinson Moskvanı tərk edib Londona yollanmazdan əvvəl həmin heyət Moskvadan cənuba doğru səfərə başladı. Bu heyətə Tomas Olkok, Corc Pen və Riçard Çini daxil idilər. Bu heyətə Tomas Olkok rəhbərlik edirdi. Heyət üzvlərindən olan Riçard Çini isə bu səfərin gedişi barəsində öz xatirələrini yazıb qoymuşdu. Həmin xatirələrdən belə aydın olur ki, 1563-cü il may ayının 10-da Yaroslavldan hərəkətə başlayan ingilis heyəti həmin il iyun ayının sonlarına yaxın Həştərxana, avqust ayının 21-də isə Şamaxıya yetişdi. Heç şübhəsiz ki, Şirvan hakiminin ingilis ticarətinə rəğbətlə yanaşması haqqında yeni ingilis heyətində ətraflı məlumat var idi. Ona görə Riçard Çininin Şamaxıya yetişmələri və Şirvan bəylərbəyi Abdulla xanla görüşmələri haqqında arxayınlıq hisslərinə dayaqlanan bir təsvir vardır. Bu heyət də Abdulla xan tərəfindən mehribanlıqla qarşılandı. Riçard Çininin yazdığına görə, qəbula gəldikləri zaman Abdulla xanın çadırında rus tacirləri də oturmuşdular. İngilis heyəti daxil olanda Abdulla xanın işarəsi ilə rus tacirləri öz yerlərini ingilislərə verməli oldular: "Avqustun 21-də biz Şamaxıya çatdıq. Abdulla xan çadırlardan ibarət olan düşərgədə idi. Bu bütpərəst (?) xalq bizi çox yaxşı qarşıladı və gəlişimizin üçüncü günü bizi kralın qəbuluna çağırdılar. Biz ona hədiyyələr verdik və o da bizə iltifat göstərdi. Saraya gələn kimi, bizi kralın hüzuruna dəvət etdilər. O bardaş quraraq öz çadırında oturmuşdu. Onun bütün əyanları xalçalarla döşənmiş çadırda onun ətrafında idilər. Bizə oturmaq əmr olundu. Özü də kimə harada oturmağı kral özü göstərirdi. O, rus çarının tacirlərinə əmr etdi ki, qalxsınlar və yerlərini bizə versinlər. Oktyabrın 20-da Tomas Olkok Şamaxını tərk edib Qəzvinə yollandı. Mən isə Şamaxıda qaldım ki, Olkok Qəzvinə yola

düşməzdən əvvəl Şamaxı əyanlarının ondan aldığı malların pulunu toplayım" (85).

Göründüyü kimi, hələ Şamaxıda ikən ingilislər gətirdikləri malların böyük bir hissəsini yerli tacirlərə və imkanla adamlara satdılar. Riçard Çini satılan malların pulun toplanması üçün Şamaxıda qaldı, Tomas Olkok isə Qəzvinə səfərini davam etdirdi. Riçard satılmış malların pullarını toplamaqda ikən Şamaxıda olan rus tacirlərindən biri yerli adamlardan birini qətlə yetirdi. Bu da həm əhali arasında, həm də Şirvanın hakim dairələrində rus tacirləri ilə birlikdə, bütünlükdə avropalı tacirlərə qarşı bir qəzəb yaratdı. Yəni vəziyyət o qədər gərginləşdi ki, həm rus tacirləri, həm də ingilislər satılmamış mallarını tez-tələsik toplayıb gəmilər vasitəsilə yenidən Rusiyaya göndərdilər. Əks təqdirdə onlar bu malların yerli əhali tərəfindən talan ediləcəyinə şübhə etmirdilər. Qəzvinə yollanmış Tomas Olkok isə Şamaxıya geri qayıdarkən yolda öldürüldü. Onun qətlinin nə ilə bağlı olması haqqında Riçard Çini öz xatirələrində məlumat verməmişdir. Bu heyətin də səfəri gözlənilən nəticəni vermədi və qarşıya qoyulan məqsədə tam şəkildə nail olunmadı. Bununla belə, Riçard Çini "Moskva şirkətinin" rəhbərlərinə verdiyi məlumatda Səfəvi dövləti ilə ticarət əlaqələrinin qurulmasının və möhkəmləndirilməsinin tərəfdarı olduğunu yazırdı. O bu əlaqələrin perspektivindən və faydalı olacağından danışmaqla bildirirdi ki, Səfəvi dövləti ilə əlaqələrin qurulmasına ciddi və iş bacaran adamlar göndərilsinlər. Onun fikrincə təsadüfi adamların elçi kimi Səfəvi dövlətinə göndərilməsi gözlənilən nəticəni verməyə bilərdi (86).

Səfəvi dövləti ilə ticarət əlaqələrinin qurulmasının və möhkəmləndirilməsinin gələcək faydaları lazımınca qiymətləndirildiyi üçün idi ki, ikinci heyətin səfəri başa çatandan az sonra yeni bir heyət, üçüncü heyət yeni bir səfərə hazırlaşmaq tapşırığı aldı. Bu heyətə Riçard Conson, Aleksandr Kitçin və Artur Edvards daxil idilər. Heç şübhəsiz ki, yeni bir heyətin göndərilməsi Səfəvi dövləti ilə daha faydalı ticarət əlaqələrinin qurulmasına bağlanılan ümidlərdən doğurdu. Əvvəlki iki heyətin səfərinin nəticələri də göstərirdi ki, Səfəvi dövlətinin qapıları hələ ki, ingilis ta-

cirlərinin üzünə qapanmamışdır. Ona görə də mövcud olan imkanlardan daha səmərəli istifadə edilməsi üçün yeni bir cəhd göstərildi. Üçüncü heyətin üzvləri də öz yazışmalarında belə bir ümidin olmasına şübhə etmirdilər. Məsələn, Artur Edvards 1566-cı il aprelin 26-da "Moskva şirkətinə" göndərdiyi məktubunda belə yazırdı: "Mən hər halda şübhə etmirəm ki, hərgah imtiyaz əldə edilərsə, biz arxayın yaşayacağıq, dincələcəyik. Tezliklə xamna və ipək parçalar, hər cür ədviyyat və rəngsazlıq malları, eləcə də buranın digər malları ilə ticarətdə böyük firmaya çevriləcəyik"(87).

Artur Edvardsın yazışmalarından bəlli olur ki, bu heyət 1565-ci ilin yazında Səfəvi sərhədlərinə doğru hərəkətə başladı və həmin ilin iyul ayının sonlarında bu heyət Həştərxana yetişdi. Burada lazımi hazırlıq işlərini başa çatdırdıqdan sonra heyət Şirvan sahillərinə hərəkətə başladı. Lakin Xəzər dənizində hava şəraitinin mürəkkəb olması üzündən bu heyətin səfəri ləng həyata keçdi və bir də avqust ayının 23-də Niyazabad limanına yetişmək mümkün oldu. Burada gəmilərlə gətirilmiş bütün ticarət malları sahilə daşındı və anbarlara toplandı. Bir neçə günlük istirahətdən sonra isə heyət ticarət malları ilə birlikdə Şamaxıya yollandı. Əvvəlki ingilis heyətləri kimi üçüncü heyət də Şirvan bəylərbəyi Abdulla xan tərəfindən çox böyük mehribanlıqla qarşılandı. Sentyabr ayının 11-də Şamaxıya çatmış heyət həmin ayın 17-də Abdulla xan tərəfindən qəbul edildi. Bu dəfə də Abdulla xan qonaqları düşərgədəki çadırında qəbul etdi. Artur Edvards bu qəbul və Abdulla xanın mehribanlığı haqqında öz yazışmalarında səmimi xatirələrini bölüşmüşdür. Onun yazdığına görə, Şirvan bəylərbəyi birmənalı şəkildə ingilis tacirlərinin Şirvanla əlaqələrinin möhkəmləndirilməsi fikirlərini rəğbətlə qarşıladı və bunun üçün özü də zəruri olan addımları atdı. Abdulla xan ilk növbədə qonaqların rahat yaşamaları üçün rahat məişət şəraiti təşkil etdi. İlk vaxtlar üçün onlara uyğunlaşdırılmış bir bina verildi. Amma nəzərdə tutulmuşdu ki, ən qısa zamandan sonra qonaqların rahatlığına təminat verəcək bir bina onların ixtiyarına verilsin. Bundan əlavə, Abdulla xan əyanların və əmirlərin yanında bəyan etdi

ki, kimsə ingilis tacirlərinin fəaliyyətinə mane olmasın. O, ingilis tacirlərinin fəaliyyətinə çətinlik yaradanları sərt cəzalandıracağını bildirdi. Eyni zamanda ingilis tacirlərinə çatdırdı ki, fəaliyyətlərinin və yaşayışlarının daha yaxşı qurulması üçün nə lazımdırsa onlar barəsində yazılı şəkildə məlumat təqdim etsinlər: "...Sentyabrın 11-də Şamaxıya çatdıq, 17-də isə Abdulla xanla – bu ölkənin kralına 40 samur xəzi, 3 morj dişi, 4 arşın qırmızı mahud, 3 top yun parça, 40 ədəd qırmızı tülkü dərisi hədiyyə verdik. O, bizim hədiyyələrimizi qəbul etdi və soruşdu: cənab Cenkinsonun səhhəti necədir? O, yenidən bu yerlərə gəlmək istəmirmi? Kral özü ilə üzbəüz oturmağı bizə yaxın məsafədə əmr etdi. O, alaçıqda müşavirləri və əyanları ilə birlikdə oturmuşdu. Abdulla xan bizə öz süfrəsindən xörək göndərdi. Bizimlə söhbətdən sonra bildirdi ki, kimsənin bizə zərər yetirdiyini eşitsə onu cəzalandıracaq ki, qoy bu başqaları üçün də nümunə olsun. Belə ki, biz sakit yaşayacaq və şikayət üçün heç bir əsasımız olmayacaq. Hələlik bizə kiçik bir ev ayrılacaq, sonra isə özümüzün münasib bildiyimiz yerdə yaxşı bir bina hazır ediləcək. O heç istəmirdi ki, biz qalxıb oradan uzaqlaşaq. Bu o vaxta qədər davam etdi ki, öz təşəbbüsümüzlə oradan qalxmağı lazım bildik. Xudahafizləşərkən bizə əmr etdi ki, bütün arzu və xahişlərimizi yazılı şəkildə verək, onun da gələcəkdə bunlardan məlumatı olsun (88).

Bütün bunları ingilis tacirləri böyük məmnunluqla qarşıladılar. Amma 1565-ci il oktyabr ayının 2-də Abdulla xan dünyasını dəyişdi. Bununla ingilis tacirləri yaxın hamilərini itirmiş oldular. Doğrudur, onun vəfatından sonra ingilis tacirlərinə qarşı əks münasibət yaranmadı. Lakin ingilis tacirləri Abdulla xanın itkisini təəssüflə qarşılayırdılar. Onlar ümid edirdilər ki, Abdulla xanın yerinə onun oğlu təyin olunacaq və bununla əvvəlki qayğını yenə də hiss edəcəklər. Yazışmalarda Abdulla xanın oğlu sadəcə "Mirzə" kimi xatırlanır (89). Lakin tarixdən məlumdur ki, Abdulla xandan sonra Şirvan bəylərbəyi vəzifəsinə onun oğlu deyil, Araz xan Rumlu təyin edildi.

Bununla belə xeyli sayda yerli tacir ingilis tacirlərinin Şamaxıya gəlişini sevinclə qarşıladılar və onlarla işgüzar əlaqələr qurmağa çalışdılar. Heyət üzvləri burada yeni-yeni insanlarla, hətta şah sarayında nüfuz və hörmət sahibi olan əyanlarla tanış oldular. Həmin adamlar ingilis tacirlərinə həm əvvəlki heyətə vaxtında verilməmiş borcların toplanmasına, həm də şah sarayında qəbul olunmasına kömək göstərəcəklərini vəd etdilər. Heyət üzvləri də belə insanlarla daha yaxşı əlaqələr qurmağa və bununla işgüzar əlaqələrini genişləndirməyə çalışdılar. Heyət üzvü olan Aleksandr Kitçinin və heyətin tərkibində olan köməkçi adamlardan birinin Şamaxıda dünyasını dəyişməsi görüləcək işləri bir qədər çətinləşdirsə də, Artur Edvards və digərləri iki dövlət arasında ticarət əlaqələrinin möhkəmləndirilməsi üçün mövcud olan imkanların aranmasını dayandırmadılar. Artur Edvards hətta Tomas Olkokun qətlinin səbəblərini və şəraitini araşdırmağa da çalışdı. Bu təhqiqat zamanı o, ciddi məlumatlar əldə edə bilməsə də, bu qətlin sifarişli və ya məqsədli olması barəsində şübhə doğuracaq xəbərlər də tapa bilmədi. Yəni şah sarayının bu qətldə əli olmadığı ehtimalı daha da gücləndi (90).

Şamaxıda olduğu müddətdə Artur Edvards həm Səfəvi dövləti ilə İngiltərə arasında qurula biləcək ticarət əlaqələrinin imkanlarını və yollarını araşdırdı, həm də satış məqsədilə İngiltərəyə göndərmək üçün xeyli miqdarda mal aldı. Bu malın da əsasını ipək təşkil edirdi. O, Şamaxını ipək alverinin mərkəzlərindən biri kimi xarakterizə edirdi. Onu da bildirirdi ki, ticarətin davamlı şəkildə qurulacağı təqdirdə ipəyi yerlərdə, birbaşa istehsalçıların özlərindən almaq olardı ki, bu da onun xərclərinin azalmasına gətirib çıxara bilərdi. Artur Edvards həm də Gilanla ticarət əlaqələri qurulmasının imkanları haqqında yazmışdı. Londona göndərdiyi yazışmalarında o, həm Gilanla, həm də Hörmüz boğazı ilə ticarət əlaqələrinin qurulmasının mümkünlüyünü yazırdı. "Moskva şirkəti"nin üzvlərinə daha yaxşı aydın olsun deyə Artur Edvards satılması və alınması mümkün olan malların dəyərini həm yerli pulla, həm də onun qarşılığı olan ingilis pulu ilə hesablamış və öz hesablarını da göndərmişdi. Bununla Səfəvi döv-

ləti ilə qurulacaq ticarət əlaqələrinin İngiltərəyə hansı faydaların gətirə biləcəyi rəqəmlərin dili ilə də Londona çatdırılırdı. Səfəvi dövləti ilə ticarət əlaqələrinin genişləndirilməsinə türk tacirlərinin fəallığının mane ola biləcəyi haqqında da Artur Edvardsın yazışmalarında məlumat vardır. Lakin o ümid edirdi ki, Şah Təhmasiblə görüşdə Səfəvi dövləti ərazisində ingilis ticarətinin genişlənməsi üçün lazımi icazə və güzəşti ala biləcəkdir (91).

Ümid edilən güzəşt və icazənin alınmasına nail olunması üçün Artur Edvards 1566-cı il aprel ayının 22-də Şamaxıdan Qəzvinə doğru hərəkətə başladı. May ayının 25-də o, Qəzvinə yetişdi və bu şəhərə gəldiyi gündən də Şah Təhmasibin qəbuluna düşməyə çalışdı. Ayın 29-da o nəhayət ki, Şah Təhmasibin qəbuluna düşə bildi və onunla təxminən iki saata yaxın söhbətdə oldu. Artur Edvardsın yazdıqlarından belə bir qənaət hasil olur ki, onların arasında daha səmimi və işgüzar söhbət baş verdi. Yəni əvvəlki heyətlərlə müqayisədə A.Edvardsın rəhbərlik etdiyi heyət daha işgüzar şəkildə Şah Təhmasib tərəfindən qarşılandı. Şah Təhmasib özü konkret olaraq maraqlandı ki, ingilis nümayəndə heyəti nəyə nail olmaq istəyir. Səfəvi şahı bu söhbət zamanı bir çox məsələlərlə maraqlandı. O həm ikitərəfli ticarətin qurulmasının imkanları haqqında, hansı ticarət mallarının İngilitərədən gətirilməsi, hansılarına isə İngiltərədə maraq göstərilməsi haqqında A.Edvardsdan məlumatlar topladı. Sonra Şah Təhmasib Avropadakı ümumi beynəlxalq vəziyyət, Rusiyadakı vəziyyət haqqında maraq doğuran suallara cavab tapmaq istədi. Bu görüş zamanı A.Edvards əmin oldu ki, Şah Təhmasib də ikitərəfli ticarət münasibətlərinin qurulmasına maraq nümayiş etdirir. Hətta İngiltərədən şəxsən onun özü üçün bəzi malların gətirilməsi barəsində də təkliflərini ortaya qoydu. Səfəvi şahını maraqlandıran malların siyahısı da tərtib olunaraq A.Edvardsa təqdim olundu. Xatirələrdən məlum olur ki, Şah Təhmasib daha çox ingilis mahudunun gətirilməsinə maraq göstərirdi. Bu görüş zamanı ingilis nümayəndə heyətinə Səfəvi hüdudlarında olması onların fəaliyyətinin təşkili ilə bağlı şah fərmanının yazılması da xahiş olundu. Şah Təhmasib bu xahişlə razılaşdı və belə bir fərmanın

hazırlanması barəsində göstəriş verdi. Bu görüşün nəticəsi kimi Şah Təhmasib qonaqlara yerli əyanlara məxsus paltar da bağışladı: “Həmin ayın 29-da mən onun qarşısında dayandım və onunla, zənnimcə, düz iki saat söhbət etdim. O iki dəfə əmr edib məni özünə yaxın çağırdı və nə kimi xahişlərimin olduğunu soruşdu. Xahişlərimi dinləyib lütfkarlıqla vəd etdi ki, mənə arzu etdiyim fərmanları verəcəkdir. Bundan sonra o məni daha iki dəfə yanına çağırıb bizim qüdrətli krallığımız və ölkəmiz haqqında, bizdə nə kimi mallar olması və bizim hansı malları almaq istədiyimiz barədə sorğu-sual etdi; o həmçinin bizimlə qonşu olan başqa ölkələr və onlarda nə kimi mallar olması haqqında da suallar verdi” (92).

Mövcud olan mənbələrin birində Artur Edvardsın Səfəvi şahı ilə ilk görüşü belə təsvir olunmuşdur: “İlk dəfə öz tərcüməçisi ilə Səfəvi padşahının hüzuruna gedəndə şahın əyləşdiyi və ətrafına İran (Səfəvi-red.) əyan və sərdarlarının toplaşdığı taxtdan uzaq dayandı. Şah ona dedi ki, onun taxtına yaxın gəlsin. Sonra ondan soruşdu ki, hansı ölkədən gəlmişdir. Cavab verdi ki, İngilistan. Şah ona yaxın dayanmış əyanlardan soruşdu ki, onlardan hansının bu ölkədən xəbəri var? Edvards müşahidə etdi ki, kimsənin onun ölkəsindən xəbəri yoxdur. Onda İngilistan sözünü İtaliya dilində səsləndirdi və “İngitərə” dedi. Bu vaxt məclisdəkilərdən biri xristian olmayan ölkələrdə İngilistandan daha çox tanınan London şəhərinin adını dilinə gətirdi. Edvards şaha izah etdi ki, London İngilistanın paytaxtıdır. Necə ki, Təbriz əvvəllər İranın paytaxtı olmuşdu. Sonra şah İngilistan haqqında çoxlu şeylər soruşdu və çox təəccüb etdi ki, Firəngistanda belə qüdrətli və sərvətli bir ada mövcuddur. Səfir öz ölkəsinin gücü, sərvətləri, ticarətin rövnəq tapması, qanunları, ədəbləri və qaydaları haqqında söz açdı, şah fars dilində təkrar-təkrar “bərəkalla” dedi. Sonra səfirdən soruşdu ki, İrana nə məqsədlə gəlmişdir? O deyəndə ki, ticarət müamiləsi üçün gəlmişdir, yenə soruşdu ki, hansı növ malları axtarır. Səfir dedi ki, onun ölkəsində venesiyalı tacirlər çoxdurlar, onlar hər il İrandan Osmanlı şəhərlərinə, Hələbə, Trablusa, Şama, Venesiya və Londona gedirlər və mal

yükləri ilə İrana geri qayıdırlar. Şah soruşdu ki, bu mallar hansılardır? Edvards cavab verdi ki, müxtəlif növ lətif mahud, ipək parçalar və onlara bənzər əşyalar. Şah soruşdu ki, hansı yolla bu malları İrana gətirə bilərlər? Cavab verdi ki, Rusiyadan Moskva yolu ilə ki, təhlükəsi daha azdır və məsafəsi venesiyalıların istifadə etdiyi başqa yollardan, yəni İngilistan-Venesiya-Osmanlı-İran yolundan daha yaxındır. O sonra şahdan xahiş etdi ki, ingilis tacirlərinə İranda ticarət etməyə icazə versin ki, onlar da azad şəkildə onun bütün məmləkətinə səfər edə bilsinlər, onların malı və canları hifz olunsun. Sonra da əlavə etdi ki, mütləq şəkildə bizim tacirlər iranlılara daha ucuz və daha yaxşı mallar gətirəcəklər" (93).

1566-cı il iyun ayının 29-da A.Edvards yenidən Şah Təhmasibin qəbulunda oldu və o bu qəbula yerli əyanların geyimində gəldi. Səfəvi şahı ingilis tacirləri üçün nəzərdə tutulan fərmanın yazılıb-yazılmaması ilə maraqlandı və sonra da bildirdi ki, fərmanda nəzərdə tutulan məqamlar ingilis nümayəndələrini qane etməsə, onda bu fərmana əlavə və dəyişikliklər də edilə bilər. A.Edvards göstərilən qayğıya görə Şah Təhmasibə öz minnətdarlığını bildirdi və çox tezliklə ingilis nümayəndələrinə göstərilən qayğı barəsində ingilis kraliçasına məlumat çatdıracağını vəd etdi. A.Edvards onu da əlavə etdi ki, ingilis kraliçasının Səfəvi şahının xeyirxah münasibəti haqqında məlumatı alandan sonra Şah Təhmasibə cavab yazacağına və öz məktubunda ingilis tacirlərinə münasib şərait yaradılması üçün şəxsən Şah Təhmasibdən xahiş edəcəyinə əmindir. Şah Təhmasib də əvəzində belə bir cavab verdi: "Onun belə xoş niyyətli xahişini görəndən sonra biz də ona öz gələcək iltifatımızı göstərərik" (94).

A.Edvardsın yazdıqlarına görə, Səfəvi şahı Avropa ilə ticarət əlaqələrinin qurulması üçün Osmanlı tərəfinin yaratdığı çətinliklərdən müəyyən narahatçılıq da keçirirdi. Məsələn, ingilis mahudunun və qarazəyinin gətirilməsi məsələsi Osmanlı tərəfindən əngəllənirdi və bununla bağlı açıq şəkildə də bildirilmişdi ki, Osmanlı tərəfi bu ticarətin təşkilinə imkan verməyəcəkdir. Aydın məsələ idi ki, Osmanlı dövləti Avropanın şərq ölkələri ilə ticarəti

üzərinə monopoliya və nəzarət qoymaq istəyirdi. Bu məhdudiyyətlərin qarşısının alınması üçün Şah Təhmasib ingilis nümayəndələrində 100 min top yun parçanın və qarazəyin İngiltərədən gətirilməsi imkanı ilə maraqlandı. A.Edvards da cavabında bildirdi ki, hətta 200 min top da gətirmək mümkündür. Bu xəbər Şah Təhmasibin məmnunluğu ilə qarşılandı. İngilis nümayəndəsi onu da yazırdı ki, Şah Təhmasibin ona və həmkarlarına qarşı xoş münasibəti çoxlu sayda qızılbaş əyanlarının da ingilislərə qarşı münasibətini dəyişmişdi. Bu da ona yol açmışdı ki, ingilislər Qəzvində olarkən çoxlu sayda yerli əyanlarla və tacirlərlə işgüzar münasibətlər qura bilmişdilər: “ O, bizim qüdrətli krallığımız və ölkəmiz haqqında, bizdə nə kimi mallar olması və bizim hansı malları almaq istəməyimiz barədə mənimlə sorğu-sual etdi; o, həmçinin bizimlə qonşu olan başqa ölkələr və onlarda nə kimi mallar olması haqqında da suallar verdi... Şah məndən soruşdu ki, siz ona hər il 100000 top yun parça göndərə biləcəksinizmi? Mən cavab verdim ki, siz onun ölkəsini 200000 top parça ilə təmin edə bilərsiniz. Əlahəzrət buna çox şad oldu” (95).

Bu görüşün nəticəsi kimi, A.Edvards Londona göndərdiyi məktublarda yazırdı ki, Şah Təhmasib də artıq ingilislərlə ticarət əlaqələri qurmağa maraqlıdır. Onun fikrincə, Səfəvi şəhərlərindən Londona lazım olan qədər ipək və digər şərq malları, Londondan isə Səfəvi hüdudlarında satıla biləcək malları gətirmək mümkün idi. Şah Təhmasib bəyan etmişdi ki, hər iki tərəfin faydasına ola biləcək bir ticarət qurulmasında maraqlıdır. Başqa sözlə, Şah Təhmasib bununla ingilis tacirlərinə Səfəvi hüdudlarında sərbəst ticarət fəaliyyəti ilə məşğul olmalarına icazə vermiş oldu və ingilis nümayəndələrinin əldə etməyə çalışdıqları da, əslində, elə bu idi. Bununla yanaşı, ingilis elçiliyinin nümayəndələri heç də şübhə etmirdilər ki, Səfəvi bazarında onların yer tutmasına venesiyalı və həmçinin yerli tacirlər mane ola bilərlər. A.Edvards Londona göndərdiyi məktublarında Səfəvi hüdudlarında mövcud olan ticarət şəraitini də təhlil edir və ticarətdə rəqabətin qarşısının alınması barəsində öz fikir və mülahizələrini də çatdırırdı.

Şah Təhmasiblə görüşdən bir neçə gün sonra A.Edvards yenidən Şamaxıya qayıtdı. Yazışmalarından belə bir qənaətə gəlmək mümkündür ki, onun Şamaxıya qayıdışı orada paylanmış olan ingilis ticarət mallarının haqqının toplanması idi. A.Edvards da bildirirdi ki, Abdulla xanın dünyasını dəyişməsindən sonra xaricilərin Şirvanda ticarət fəaliyyəti göstərməsinə müəyyən çətinliklər yaranmışdı. Vilayət bəylərbəyinin olmaması vilayət daxilində qanun-qaydanın mövcudluğuna da müəyyən təsir göstərmişdi və nəzarətsizlik müəyyən qədər çoxalmışdı. O da ümid edirdi ki, Abdulla xanın oğlunun bəylərbəyi vəzifəsinə təyin edilməsi vilayət daxilində vəziyyətin yaxşılaşmasına müsbət təsir göstərə bilər. Vilayət daxilində yaranmış nəzarətsizlik A.Edvardsa da paylanmış ticarət mallarının haqqının toplanmasına çətinlik yaratmışdı. O, hətta ingilis nümayəndələrinə verilməli olan maliyyə vəsaitini sui-istifadə etmiş yerli məmurlardan birinin həbsinə də nail olmuşdu. Bununla belə, A.Edvards yaxşı insanlarla da qarşılaşdığını məmnunluqla öz yazışmalarında qeyd edirdi. Səmimi münasibətlər yaratdığı əyan və əmirlərdən bəziləri hətta Şah Təhmasibə yaxınlıqları ilə seçilirdilər. Bu insanlar Şah Təhmasiblə ünsiyyət qurmaq imkanı əldə edəndə ingilis heyətinin üzvlərinin fəaliyyətini təqdir edir və onların gördükləri yaxşı işlərdən söhbət açırdılar. A.Edvardsın yazdığına görə, Şah Təhmasibə onun və onun həmkarları haqqında verilən belə məlumatlar Səfəvi şahının ingilislərlə iş qurmaq meylini daha da artırırdı.

Bu səfərin nəticəsi ingilis heyəti üçün uğurlu oldu və ingilislər nəhayət ki, arzusunda olduqları fərmanın şah tərəfindən imzalanmasına nail oldular. Həmin fərman Səfəvi hüdudlarında ingilis tacirlərinin sərbəst şəkildə ticarət fəaliyyəti ilə məşğul olmasına imkanlar açdı. Artur Edvards da bu barədə böyük məmnunluqla Londona məlumat verirdi. Şah Təhmasib tərəfindən imzalanmış olan xüsusi fərmanda bir sıra ingilis nümayəndələrinin adları konkret şəkildə göstərilir və onlara Səfəvi hüdudlarında azad ticarətlə məşğul olmaq güzəştləri verildiyi bildirilirdi. Həmin nümayəndələr bunlar idilər: Uilyam Qarrard, Uilyam Çester, Tomas

Loc, Antoni Cenkinson, Tomas Nikols və Artur Edvards. A.Edvards “Moskva şirkətinin” rəhbərliyinə göndərdiyi məktubda bildirirdi ki, Şah Təhmasib tərəfindən ingilis nümayəndələrinə Səfəvi hüdudlarında ticarət fəaliyyəti ilə bağlı güzəştlər nəzərdə tutan fərmanın məzmunu belədir:

1.Bizə indi və gələcəkdə şahın varislərinin dövründə hər cür gömrük və rüsumlardan azad olmaq hüququ bəxş edilir. Sizin indi və ya gələcəkdə təyin edəcəyiniz ingilis tacirləri istədikləri adamlarla ticarət məqsədilə sərbəst surətdə məmləkətin bütün şəhərlərinə, şahın bütün mülklərinə və bütün qonşu ölkələrə gedə bilər, istədikləri malları alıb-sata bilərlər;

2. İngilis tacirlərinin gedəcəyi və qalacağı bütün şəhərlərin baş canişinləri, yerli hakimləri və məhkəmə hakimləri onları himayə etməli, hər cür kömək göstərməli, pis adamlardan qorumalı, onlara hər hansı bir zərər vurmuş adamları cəzalandırmalı idilər;

3. Kimliyindən asılı olmayaraq hər hansı şəxsin borcunu təşkil edən bütün pul məbləği üzrə onun ödənilməsi müddəti bitmişsə, borclu məhkəməyə gətirilməli və pullar həmin gün ödənilməlidir;

4. Bizim icazəmiz və razılığımız olmadan heç kəs, mövqeyindən və ad-sanından asılı olmayaraq, haqqını ödəmədən ingilislərdən hər hansı mal və ya hədiyyə almağa cəsarət edə bilməz;

5. Bizim tacirlərimizdən və qulluqçularımızdan kimsə, hər hansı bir təsadüf üzündən şahın təbəələrindən bir kimsəni öldürsə, bu işə görə kompaniyanın mallarına toxunulmamalı, təqsirkardan başqa kimsə məsuliyyət daşımamalıdır; təqsirkar üzərində ədalətli məhkəmə qurulmalı, həm də o hökmdarın xəbəri və icazəsi olmadan cəzalandırılmamalıdır;

6. Hazırda bizdən borc alınmış, yaxud gələcəkdə borc alınacaq bütün məbləğlər bizlərdən birinə digərinin iştirakı olmadan, həm də onun sağ olub-olmamasından asılı olmayaraq ödənilməlidir;

7. Əgər hər hansı bir mal alınmışsa və ya satılmışsa, onu qaytarmağa heç kəsin haqqı yoxdur;

8. Allahın lütfü ilə bizim mallar dəniz sahilinə çıxarıldıqda şahın təbəələri bu malların quru yolla daşınmasına kömək göstərməlidirlər (96).

Göründüyü kimi, A.Edvardsın səfəri gedişində Şah Təhmasibin vermiş olduğu bu güzəştlər ingilis tacirlərinin Səfəvi hüdudları daxilində azad şəkildə ticarətlə məşğul olmalarına şərait yaradırdı. Səfəvi şahı bununla göstərdi ki, onun İngiltərə ilə ticarət əlaqələri qurmaq niyyəti ciddidir və hətta o da məlumdur ki, sonralar ingilis ticarətinə verilən güzəştlər Şah Təhmasib tərəfindən daha da genişləndirildi. A.Edvards da Londona göndərdiyi məktubunda bəyan edirdi ki, bu şərtlər daxilində ticarət fəaliyyətinə başlamaq olar. Londondan yeni təkliflər irəli sürüləcəyi təqdirdə onların da şah tərəfindən nəzərə alınacağına A.Edvards şübhə etmirdi. Onun yazdıqlarından belə məlum olur ki, ingilis tacirlərinə verilən güzəştlər dörd məktubda əksini tapmışdı ki, onlardan ikisi türkcə yazılmışdı. A.Edvardsın qeydlərinə görə, məktubların birinin arxasında Şah Təhmasib öz əli ilə hansı malların İngiltərədən gətirilməsinə maraq göstərdiyini yazmışdı. Həmin siyahıda bu malları görmək mümkündür: qızıl və gümüş zərxara, habelə qızılla işlənmiş məxmər; qırmızı, qara, yaşıl məxmər. A.Edvards bildirirdi ki, Şah Təhmasib şəxsən bu məxmərə maraq göstərirdi və onun Səfəvi hüdudlarında yaxşı satılacağına əmin idi. Kaşanda da məxmər istehsal olunurdu. Amma İngiltərədə istehsal olunan məxmərin keyfiyyəti daha yaxşı idi. Ona görə də Şah Təhmasib İngiltərədən məxmər parça gətirilməsinə maraq göstərirdi. A.Edvards Londondakı həmkarlarına göndərdiyi məktubunda yazırdı ki, məxmər ticarəti böyük gəlirlər vəd etməsə də, Səfəvi şahının şəxsən maraqlanmasına görə onun ticarət malları sırasına daxil edilməsi yaxşı olardı. Bundan əlavə bütün növlərdən olan atlas və naxışlı ipək parça, habelə 100 top sıx toxunmuş yun parça göndərilməsi sifariş olundu. A. Edvards bu parçaların da qırmızı, açıq mavi, yaşıl və qara rənglərdə olmasını istəyirdi. Çünki bu rənglərdə olan materialların daha çox alıcısı var idi. Eyni zamanda bu malların da gətirilməsi sifariş olundu; 3-4 komplekt zirehli geyim. Bu geyimlər elə keyfiyyətə və möhkəmliyə malik olmalı idilər ki, pistolet atəşindən mühafizə edə bilsin; 10-12 dəst toxunma zirehli geyim və camış dərisindən düzəldilmiş 2 ədəd gödəkçə; 10-12 top qalın və al qırmızı rəngdə

toxunmuş qərb karazey parçası. A. Edvardsın yazdıqlarından görünür ki, bu parçalardan baş geyimlərinin və papaqların hazırlanmasında istifadə olunurdu; şah üçün nəzərdə tutulmuş 6 top nazik holland parçası və əyanlar üçün nəzərdə tutulmuş bir qədər aşağı keyfiyyətli parça; 12 ədəd böyük və 6 ədəd kiçik pistolet; səfərlər zamanı un üyütməyə imkan verən kiçik dəyirmanlar; müxtəlif növ və rəngdə olan 4050 top mahud. Şah Təhmasib müxtəlif parlaq rənglərdə olan mahudun gətirilməsini arzu etmişdi. Mahud Səfəvi şəhərlərinə venesiyalı və türk tacirləri də gətirirdilər. A. Edvardsın fikrincə, ingilis mahudunun gətirilməsi bu materialın ticarətini edən digər tacirlərin Səfəvi hüdudlarından sıxışdırılmasına kömək edə bilərdi (97).

Məktublarının birində A.Edvards Londondan Səfəvi hüdudlarına qədər olan marşrutun şərhini də vermişdi. Böyük şəhərlər arasındakı məsafə, su yolunun haradan keçməsi, qış zamanı marşrut üzərində meydana gələn çətinliklər və s. bu şərhdə öz əksini tapmışdı.

Səfəvi şəhərləri ilə ticarətin ahəngdar şəkildə həyata keçirilməsi üçün ingilis tacirləri Yaroslavl şəhərində ingilis ticarət məntəqəsi yaratdılar. Bu məntəqə bir növ aralıq əlaqələndirmə mərkəzi kimi nəzərdə tutulmuşdu. Azərbaycan ərazisindən, Səfəvi dövlətinin digər ərazilərindən alınan mallar Xəzər-Volqa marşrutu ilə Yaroslavla daşınır, oradan da İngiltərəyə göndərilirdi. İngilitərədən gətirilən mallar üçün də Yaroslavl mərkəz rolunu oynayırdı. Buradan həmin mallar Səfəvi hüdudlarına göndərilirdi. Amma mövcud olan imkanlar da ingilis tacirlərini qane etmədi və onlar Səfəvi şahından daha geniş güzəştlərin əldə edilməsini qarşıya məqsəd qoydular. Səfəvi dövlətinə göndərilmiş növbəti heyətin məşğul olduğu işlərdən biri də məhz bu məsələ oldu.

İngilis ticarət nümayəndələrinin Səfəvi hüdudlarına növbəti səfəri 1568-1569-cu illərdə baş tutdu. Artur Edvards bu səfərə yollanan heyətin tərkibində də var idi. Ondan başqa ingilis ticarət nümayəndəliyinə Con Spark, Lorens Çepmen, Xristofor Fouset və Riçard Pinql daxil idi. Bu heyətin səfərinin gedişi və nəticələri

barəsində heyət üzvü Riçard Çepmenin ingilis ticarət nümayəndəliyinə göndərdiyi məktubda maraqlı məlumatlar mövcuddur. Adı çəkilən adamlardan və onların köməkçilərindən ibarət olan heyət malik olduqları ticarət yükləri ilə birlikdə 1568-ci il avqustun 14-də Xəzər dənizi ilə Şirvan sahillərinə yetişdilər. Riçard Çepmenin yazdığına görə, onlar Şirvana yetişəndə bu vilayətdə artıq digər çoxlu tacirlərin də geniş fəaliyyəti ilə rastlaşdılar. Quruya yan alandan və yükləri sahilə daşıyandan sonra malların müəyyən hissəsi elə yerli adamlar arasında satıldı. Lakin bu dəfə qiymətlər yerli əhali tərəfindən müəyyənləşdirildi. Yəni ingilis tacirlərinin gətirdikləri mallar yerli əhali üçün artıq bir yenilik deyildi və qiymət məsələsində də ingilis tacirləri öz istədiklərini onlara diktə edə bilmədilər. Bir neçə gündən sonra isə ingilis tacirləri öz malları ilə Şamaxıya yollandılar və sentyabr ayının 1-də həmin şəhərə yetişdilər. Burada da ingilis tacirləri mal bolluğu ilə qarşılaşdılar və hətta bu mal bolluğu ingilis mallarının tez bir zamanda satılmasına imkan vermədi. Bir aydan sonra Artur Edvards nümayəndəliyin üzvlərini ingilis malları ilə birlikdə Azərbaycanın müxtəlif şəhərlərinə göndərdi. Bunun nəticəsi kimi ingilis tacirləri gətirdikləri mallarla Ərəşə, Ərdəbilə və Təbrizə yolandılar. Amma bu şəhərlərdə də ingilislərin gətirdikləri mallardan artıq satışda olanlar var idi. Həmin mallar yerli tacirləri tərəfindən həm Hələbdən, həm də elə Venesiyanın özündən gətirilmişdi. Ticarət çətinliklərinin aradan qaldırılması və ziyana yol verilməməsi üçün A. Edvars isə Con Spark və Lorens Çepmenlə Qəzvinə yola düşdülər. Bu heyət gətirdiyi malların xeyli hissəsini də özü ilə aparırdılar. Güman edilirdi ki, Qəzvində bu malları satıb qurtarmaq mümkün olacaqdır. Lakin Qəzvinə bağlanan ümidlər də özünü doğrultmadı. İngilis tacirlərinin gətirdikləri mahud burada da öz alıcısını tapmadı. Səfəvi sarayı tərəfindən isə mahudun ticarətinə xüsusi bir maraq göstərilmədi (98).

Mənbələrdə ingilis nümayəndə heyətinin üzvü olan Lorens Çepmenin adı ilə bağlı olan yeni ticarət güzəştləri haqqında da məlumat vardır. Bu məlumat Riçard Uills adlı birisinin yazış-

malarında öz əksini tapmışdır. Hazırkı tədqiqat üçün istifadə olunmuş mənbədə (99) ingilis nümayəndə heyətinin dördüncü səfəri haqqında Lourens Çepmenin məktubundan sonra Riçard Uillsin qeydləri verilmişdir. Belə bir güman yaranır ki, bu qeydlər bütünlüklə dördüncü səfərin gedişinin təsvirinə həsr olunmuşdur. Lakin diqqət yetirilərsə bu qeydlərdəki ilk məlumatlar A.Edvardsın Qəzvinə ilk səfəri haqqındadır. Sonra isə L.Çepmenin adı ilə bağlı olan güzəştlər sadalanmışdır. Müəllif özü də bildirir ki, o öz qeydlərini A.Edvardsın söylədikləri əsasında etmişdir. Lakin həmin güzəştlərin hansı şəraitdə alındığını və nə üçün Lourens Çepmenin adı ilə bağlı olduğunu bildirməmişdir. Bu güzəştlər sadalanarkən sıra nömrəsi 10-dan başlanır və bununla bir növ ona işarə olunur ki, onlar ingilis tacirlərinə əvvəlcə verilmiş güzəştlərin davamıdır. Ola bilsin ki, dördüncü səfərin gedişində Lourens Çepmen həmkarı A.Edvardsla birlikdə Qəzvində olarkən Şah Təhmasibin qəbulunda olmuşdu və Şah Təhmasibdən əlavə güzəştlər verilməsi xahiş olunmuşdu. İngiltərə ilə ticarət əlaqələrinin genişləndirilməsində maraqlı olan Şah Təhmasib də bu əlavə güzəştləri onlara vermişdi. Yeni verilmiş güzəştlər məzmun etibari ilə ilk verilmiş güzəştlərə yaxındırlar. Lakin bu güzəştlər daha çox Səfəvi hüdudlarında tacirlərin gediş-gəlişi, onların yüklərinin daşınması ilə bağlı idi. Yeni güzəştlərdə daha çox Səfəvi təbəələrinin və yerli hakimlərinin ingilis tacirlərinin məmləkət daxilində yerdəyişmələri ilə bağlı məsuliyyəti öz əksini tapmışdı. Bununla, Şah Təhmasib yerli hakimlərdən və məmləkət təbəələrindən tələb edirdi ki, ingilis tacirlərinin fəaliyyətinin təşkili üçün lazım olan köməkliyi göstərsinlər. Şah Təhmasib bu güzəştləri də verməklə bir daha İngiltərə ilə ticarət əlaqələrinin möhkəmləndirilməsinə meylli olduğunu nümayiş etdirdi.

Lakin qeyd edilməlidir ki, Lourens Çepmenin adı ilə bağlanan güzəştlərin sıra nömrəsi ilə 10-dan başlaması da bəzi suallar doğurur. Əgər bu güzəştlər əvvəlki güzəştlərin davamıdırsa, onda sıra nömrəsi 9-dan başlamalı idi.

Riçard Uills tərəfindən qələmə alınan və Lourens Çepmenə aidliyi iddia edilən güzəştlər aşağıdakı kimidir:

“10. İlk güzəştlərdə deyildiyi kimi, tacirlərin tam ixtiyarı vardır ki, indi və ya fürsət yarananda Gilana və şah məmləkətinin digər şəhərlərinə səfər edə bilərlər;

11. Əgər şah məmləkətinin bu və ya digər hissəsində arzu olunmadan ingilis gəmilərindən hər hansı biri qəzaya uğrayarsa və ya sahilə oturarsa onda şahın bütün təbəələri dərhal qəzaya uğrayanlara kömək göstərməli, malları xilas edib sağ qalmış tacirlərə çatdırmalı və ya da onları saxlayaraq tacirlərdən kimsə tələb edəndə ona təhvil verməlidir;

12. Bu xatırlanan tacirlərdən kimsə böyük və ya kiçik şəhərlərdən hər hansı birində və ya karvan yolunda dünyasını dəyişərsə, hakimlər çalışmalıdırlar ki, onun bütün əmlakı qorunsun və bu mallar üçün gələn digər bir tacirə təhvil verilsin;

13. Haqqında danışılan tacirlər öz mallarını daşımaq üçün kənd əhalisindən istədikləri dəvəçini götürə bilərlər. Heç bir qızılbaşın bu işə qarışmaq və əngəl törətmək haqqı yoxdur. Yük daşıyan dəvəçilər tacirlərdən qəbul etdikləri yüklərə görə tacirlər qarşısında cavabdehdirlər və səfər zamanı ölən dəvələrin və atların zərərini onlar özləri çəkməlidirlər;

14. Bu yükdaşıyanların haqqı yoxdur ki, razılaşma ilə müəyyənləşdirilmiş məbləğdən əlavə nə isə tələb etsinlər;

15. Əgər yükdaşıyanlarla razılaşma varsa və beh verilibsə, dəvə sahibləri çalışmalıdırlar ki, razılaşma icra olunsun;

16. Əgər haqqında danışılan tacirlərdən kimsə səfər etməyə qorxursa, onda dəvə sahibləri səfər ediləcək şəhərə qədər tacirlərin müşayiət edilməsi və onların yüklərinin mühafizəsi üçün bir və ya bir neçə adam ayırmalıdır;

17. Karvan yolları üzərində yerləşən bütün böyük və kiçik şəhərlərdə, kəndlərdə və digər yerlərdə bütün şah təbəələri tacirlərə ödənc əsasında yer verməyə və onları yeməklə təmin etməyə borcludurlar;

18. Haqqında danışılan tacirlər münasib bildikləri və istədikləri şəhərdə şəxsi istifadələri üçün ev və ya evlər tikə bilərlər.

Kimsənin haqqı yoxdur ki, onları incitsin və onları narahat etsin. Onlar uyğun olan və ya münasib saydıqları karvansaralarda da qala bilərlər" (100).

İngilis heyətinin dördüncü səfərinin gedişində əldə edilmiş bu güzəştlər çox güman ki, Səfəvi hüdudlarında ticarət rəqabətinin güclənməsi ilə bağlı ola bilərdi. Yuxarıda qeyd edildiyi ki, ingilis tacirləri bu dəfəki səfərləri zamanı Səfəvi şəhərlərində tələbat olan malların satışının xeyli artdığının şahidi oldular. Bu isə onların ticarət fəaliyyətinin faydalılığına bir müşgül yaradırdı. Yəqin ki, bu ticarət rəqabətində müəyyən üstünüklər əldə edilməsi üçün yeni güzəştlərin əldə edilməsinə cəhd göstərilmişdi.

Riçard Uills öz qeydlərində həm də Səfəvi dövləti ilə ticarətin genişləndirilməsinin böyük faydalar gətirə biləcəyinə də toxunmuşdu. O da şübhə etmirdi ki, Səfəvi daxilində möhkəmlənməklə həm bu məmləkətin daxilində aparılan ticarətdən, həm də Səfəvi hüdudlarından keçməklə Hindistanla aparılan ticarətdən böyük gəlir əldə etmək mümkündür. Səfəvi dövləti ilə ticarət əlaqələrini möhkəmləndirməklə, Riçard Uillsin fikrincə, həm də Avropanın Hindistanla apardığı ticarətdə monopol mövqe əldə etmək olardı: "Güman etmək olar ki, tacirlərin Persiya ilə ticarətdən mənfəəti olduqca çox olacaq və zaman keçdikcə ola bilər ki, portuqaliyalıların Şərqi Hindistan ticarətindən əldə etdikləri mənfəətdən də çox olsun. Xüsusilə ona görə ki, Persiya yolu ilə ingilislərin gedib qayıtması bir ilə başa gələ bilər. Halbuki portuqalların Kəlküttəyə gedib-gəlməsi 2 ilə başa çatır. Bəzən isə daha uzun müddətə, özü də hər zaman dənizdə üzmək təhlükəsi ilə üz-üzə qalmaqla başa çatır. Belə ki, Fars körfəzində yerləşən Hörmüz şəhəri və adası Şərqi Hindistanın ən böyük ticarət şəhəri sayılır. Ora Hindistanın hər yerindən mallar daşınır. Həmin mallar çox qısa zaman ərzində və daha güclü təhlükəsizlik şəraitində Persiyadan keçməklə Xəzər dənizi, sonra çaylarla Rusiya və Moskvaya çıxmaq və Yaroslavla çatdırmaq və oradan da yenə su yolu ilə İngiltərəyə daşımaq olar" (101).

Şah Təhmasibin hakimiyyəti dövründə ingilis nümayəndə heyətinin Səfəvi hüdudlarına sonuncu səfəri 1568-ci ildə başladı

və 1574-cü ilə qədər davam etdi. Bu səfəri həyata keçirən nümayəndə heyətinin tərkibinə Tomas Benister, Cefri Deket, Layonel Pelemtri daxil idilər. Bəzi məlumatlara görə, Lourens Çepmenin də bu heyətlə bağlılığı olmuşdu (102). Şübhə yoxdur ki, bu heyətin də qarşısında dayanan başlıca məqsəd Səfəvi hüdudlarında əldə edilmiş imkanlardan istifadə etməklə ticarət fəaliyyətini genişləndirmək, Səfəvi dövləti və bütünlükdə bölgə ilə sıx əlaqələr yaratmaq idi.

Bu heyətin üzvlərinin yazışmalarından aydın olur ki, Xəzər dənizinə doğru səfər 1568-ci ilin iyul ayında Yaroslavl şəhərindən başladı. Amma Həştərxana doğru üzərkən bu heyət Volqaboyunca yaşayan tayfaların basqınına məruz qaldılar. İngilis heyətini müşayiət edən adamlarda atıcı silahların olması onları bu basqından xilas edə bildi. Həştərxana yetişəndə nümayəndə heyəti yeni bir hərbi gərginliklə üzbəüz qalmalı oldu. Bu dəfə Həştərxanın özü türk tayfalarının basqınına məruz qalmışdı. Lakin müəyyən vaxtdan sonra bu qoşunlar geri çəkilməli oldular və ingilis nümayəndə heyətinin Şirvana doğru hərəkəti üçün çətinlik də aradan qalxdı. 1568-ci il oktyabr ayının sonlarında ingilis nümayəndə heyəti Şirvana doğru hərəkətə başladı. Heyət üzvü Layonel Pelemtrinin bildirdiyinə görə, onlar Şirvanda mehribanlıqla qarşılandılar. Hətta məlumdur ki, Şirvan bəylərbəyi ingilislərin gəlişi barəsində məlumat alanda hədiyyə kimi nümayəndə heyətinə bir qaban cəmdəyi də göndərmişdi. Bu heyət sahilə çıxdıqdan sonra 3-4 gün ərzində quru ilə səfərin davam etdirilməsi hazırlıqlarını apardılar. Həmin hazırlıqlar başa çatandan sonra heyət Şamaxıya doğru hərəkətə başladı. Nümayəndə heyəti qərara aldı ki, qışı da bu şəhərdə keçirsinlər. Növbəti ilin aprel ayına kimi nümayəndə heyəti Şamaxıda qaldı. Şamaxıda olarkən nümayəndə heyətinin nə işlərlə məşğul olmaları haqqında yetərli məlumat mövcud deyildir. Nümayəndə heyəti üzvlərinin qeydlərindən belə bir qənaətə gəlmək olar ki, Şamaxıda ingilis mallarının ticarətini aparmaq istiqamətində ciddi bir iş görülməmişdi. Görünür elə buna görədir ki, Şamaxıda bir neçə ay keçirdikdən sonra daha fəal ticarət mərkəzləri tapmaq ümidi ilə heyət bu

şəhəri tərk etdi və Ərdəbilə yollandı. Lakin Ərdəbildəki ticarət şəraiti də nümayəndə heyətini qane etmədi. Bildirilir ki, Ərdəbil daha çox dindarların səfər etdiyi bir şəhər idi və bu şəhərdə tacirlər elə də çox deyildilər. Təxminən yarım il nümayəndə heyəti Ərdəbil şəhərində qaldı. Bir də Şah Təhmasib onların ardınca adam göndərəndən sonra heyət üzvləri Ərdəbili tərk edib Qəzvinə yola düşdülər. Heç şübhəsiz ki, heyət üzvlərinin gəlişindən Şah Təhmasib məlumat almışdı və İngiltərə ilə ticarət əlaqələrinin təşkilatlanmasına maraqla yanaşan Səfəvi şahı növbəti nümayəndə heyəti ilə də görüşməyi lazım bilmişdi. (103).

Heyət üzvlərindən olan Cefri Deket Ərdəbildə ikən xəstələndiyindən Qəzvinə, Şah Təhmasibin görüşünə Tomas Benister yollandı. Mövcud qeydlərdən aydın olur ki, Tomas Benister də Şah Təhmasib tərəfindən çox mehribanlıqla qarşılandı və ona hər cürə qonaqpərvərlik göstərildi. Tomas Benister xatırlayırdı ki, görüş zamanı qaldırdığı bütün məsələlərə Şah Təhmasib tərəfindən müsbət cavab aldı. Yalnız bir xahişi cavabsız qaldı. O da Səfəvi hüdudlarından keçməklə Hindistana atlar aparılması məsələsi idi. Şah Təhmasib bu xahişə müsbət cavab verməsə də mənfi cavab da vermədi və bu məsələ ilə bağlı cavab təxirə salındı. Eyni zamanda Şah Təhmasib özü də ingilis tacirindən xeyli mal aldı. Tomas Benister məmnunluqla qeyd edirdi ki, Şah Təhmasib aldığı mallar üçün kifayət qədər yüksək məbləğ ödəyirdi. Hətta ingilis taciri özü də belə bir məbləğin ödənəcəyini güman etmirmiş. Bəzi vaxtlarda isə Şah Təhmasib mal almazdan qabaq onun xərcini göndərirmiş və bu da ingilis taciri tərəfindən çox böyük məmnunluqla qarşılanırdı (104). Yəni bununla Tomas Benister demək istəyirdi ki, Şah Təhmasib heç də öz məqamından sui-istifadə etmirdi və ticarətdə halallığa çalışırdı.

Yarım il Qəzvində qaldıqdan sonra Tomas Benister Təbrizə yollandı. Məqsəd bu şəhərdə ticarət işlərinin qurulması idi. Ərdəbildə xəstə düşmüş Deket də səhhəti düzəldikdən sonra bu şəhərə gəldi və onlar birlikdə ticarət işlərini davam etdirdilər. Mövcud qeydlərdən məlum olur ki, Deket də Şah Təhmasibin qəbulunda olmuşdu. Belə ki, bir müddətdən sonra Tomas Benis-

ter Təbrizdən Şamaxıya, oradan da Ərəşə yollanmışdı. Bu səfərlər ingilis mallarının satılması və İngilitərəyə göndəriləcək yüklərin alınması ilə bağlı idi. Ərəşdə xüsusilə ipək alınması nəzərdə tutulubmuş. Lakin Ərəşdə olarkən Tomas Benister, Lourens Çepmen və bir neçə digər ingilis dünyasını dəyişdilər. Ölüm səbəbi kimi, onların yerli hava şəraitinə və suyun vəziyyətinə uyğunlaşa bilməməsi göstərilmişdir. Ərəşdə İngiltərəyə göndərilməsi üçün böyük həcmdə satlıq mallar toplanmışdı. Həmin mallar sahibsiz qaldığı üçün Deket ora yollanmış və bu mallara sahib durmaq istəmişdi. Lakin yerli məmurlar Deketin bu istəyinə qarşı çıxmışdılar. Belə olanda Deket Qəzvinə gəlmiş və Şah Təhmasibin qəbuluna düşə bilmişdi. Yalnız Şah Təhmasibin işə qarışması ilə ingilis tacirlərinin mallarını geri qaytarmaq mümkün olmuşdu (105).

Ticarət işlərinin həll edilməsi ilə bağlı ingilis tacirləri bir sıra digər şəhərlərə də səfər etdilər. Nəhayət, lazım bildikləri malları topladıqdan sonra 1572-ci ildə Şirvandan yenə də Həştarxana yola düşdülər. İstər Xəzər dənizində, istərsə də yol boyu rastlaşdıqları çətinliklər üzündən bu heyət bir də 1574-cü ildə Londona yetişə bildi. Xəzər dənizində kazakların basqınına məruz qalaraq yüklərin çoxunu itirdikləri üçün ingilis tacirləri bu səfər zamanı ümidində olduqları faydanı əldə edə bilmədilər. Bununla belə, İngiltərə ticarət nümayəndəliyi ilə Səfəvi sarayı arasında ticarət sahəsində əldə edilmiş güzəştlər qalmaqda davam edirdi. Lakin İngiltərə-Səfəvi ticarət münasibətləri sonralar heç də işgüzar səviyyədə qalmadı. Xüsusilə, Rusiya tərəfindən yaradılan çətinliklər ingilis tacirlərinin Səfəvi şəhərlərinə gediş-gəlişini xeyli çətinləşdirdi və bu da qarşılıqlı ticarət əlaqələrinin zəifləməsinə yol açdı.

### c) Şah Təhmasibin hakimiyyəti illərində digər Avropa dövlətləri ilə münasibətlər

Şah Təhmasibin hakimiyyəti illərində qarşılıqlı münasibətlərin qurulmasına maraq göstərilən Avropa ölkələrindən biri

İspaniya idi. İspaniya imperatoru Şarlkon böyük bir imperiyanın hökmdarı idi. Onun imperiyasına İspaniyadan başqa Almaniya, Hollandiya, Belçika və Neapol da daxil idi (106). İspaniya imperator hələ Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi dövləti ilə qarşılıqlı əlaqələr qurmağa çalışırdı. Məlumdur ki, Şah İsmayıl ilə Şarlkon arasında məktub mübadiləsi aparılırdı. İspaniya imperatoru Səfəvi dövləti ilə daha sıx əlaqələr qurulmasında maraqlı idi. Çünki Osmanlı təhlükəsi İspaniya sarayını da məcbur edirdi ki, bu təhlükənin qarşısının alınması üçün etibarlı bir yol tapılsın. Səfəvi dövləti məhz belə bir vasitə kimi dəyərləndirilirdi və güman edilirdi ki, Səfəvi dövlətini Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etməklə Omanlı dövlətini zəiflətmək mümkün olacaqdır. Osmanlı dövlətinin zəifləməsi isə Avropa dövlətlərinə qarşı ehtimal edilən təhlükəni zəiflədə bilərdi.

Qarşılıqlı münasibətlərin təşkilatlanması məqsədilə İspaniya imperatoru 1529-cu ildə Səfəvi sarayına bir nümayəndə heyəti göndərdi. Həmin heyət həm də İspaniya və Almaniya imperatorunun məktubunu Səfəvi şahına çatdırmalı idi. Bu məktubda da ifadə olunan əsas fikir Osmanlı dövlətinə qarşı Səfəvi dövləti ilə ittifaq yaradılması idi. Elçili heyətinin gətirdiyi məktub Şah İsmayıla müraciətlə yazılmışdı. Çünki İspaniya imperatorunun Şah İsmayılın dünyasını dəyişməsindən hələ məlumatı yox idi. Ona görə məktubda Şah İsmayılın ünvanına tərifli sözlərin yazıldığı da bildirilirdi. İspaniya imperatoru Səfəvi şahının nəzərinə çatdırmaq istəyirdi ki, həm Aralıq dənizindən, həm də Macarıstandan keçməklə quru yolu ilə Osmanlı dövləti üzərinə hücum etmək niyyətindədir. Bunu çatdırmaqla Şarlkon Səfəvi qoşunlarının da şərqdən Osmanlı hüdudları üzərinə hücum etməsini arzulayırdı. Elçilik heyətinə rəhbərlik edən Yoahan Balbi də İspaniya imperatorunun bu istəyini Səfəvi şahına çatdırmalı idi. Belə bir vəzifənin həyata keçirilməsinə məsul olan Yoahan Bilbinin Osmanlı ərazisindən keçməklə Təbrizə gəlməsi sözsüz ki, təhlükəli idi. Ona görə ispan səfiri Aralıq dənizindən keçməklə Suriyaya çıxmalı, oradan isə Təbrizə doğru istiqamət götürməli idi. İspan elçiliyi 1529-cu ilin avqust ayında Suriya ərazisinə yetişdi. Burada

olarkən Yoahan Bilbi Səfəvi qoşunlarının Bağdad ətrafında olması haqqında məlumat aldı. Əslində, bu məlumat doğru idi və Şah Təhmasibin rəhbərliyi altında Səfəvi qoşun dəstəsi doğrudan da Bağdad ətrafına gəlmiş və bu şəhərin Səfəvi dövlətindən qoparılması cəhdinin qarşısını almışdı. İspan səfiri bu hadisəni bütünlükdə, Səfəvi dövlətinin Osmanlı dövlətinə qarşı müharibəyə başlaması kimi qəbul etdi. Ona görə də o, dərhal İspaniya imperatoruna məktub göndərib Osmanlı dövlətinə qarşı müharibə başlanması təklifini irəli sürdü. Onun gümanınca, Osmanlı dövlətinə təsirli zərbə vurulması üçün əlverişli zaman yetişmişdi (107).

Yoahan Bilbinin Səfəvi sarayına gedib çıxması məlum deyil. Ümumiyyətlə, Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi dövləti ilə İspaniya imperiyası arasında fəal münasibətlərin yaradıldığını müşahidə etmək çətindir. Bununla belə məlumdur ki, Yoahan Bilbinin elçiliyindən sonra Səfəvi sarayına başqa bir elçilik də göndərildi. Bu elçiliyə Piyetro de Neqro və Simon de Lilis daxil idilər. Mövcud olan məlumatlara görə, bu elçilər Şah Təhmasibin qəbuluna düşə bildilər və 1531-ci ildə Şah Təhmasibin cavab məktubu ilə geri qayıtdılar (108).

Şah Təhmasibin hakimiyyəti illərində Portuqaliya ilə də özünəməxsus münasibətlər mövcud idi. Bu münasibətlər də Şah İsmayılın hakimiyyəti illərindən başlayırdı. Portuqaliya Fars körfəzindən keçən dəniz yollarını öz nəzarəti altına almışdı. Bu da istər-istəməz Səfəvi dövlətinin maraqlarına cavab vermirdi. Şah İsmayılın dünyasını dəyişməsi ərəfəsində Baltaza Pesao adlı birisinin rəhbərliyi altında Portuqaliya sarayının elçiliyi Səfəvi sarayına gəldi. Həyatının sonunda Şirvan və Şəkiyə səfər edən Şah İsmayıl bu elçilik heyətini də özü ilə aparmışdı. Bu heyətin üzvləri Şah İsmayılın ağır xəstəliyə tutulması haqqında məlumat alan kimi geri qayıtmağı qərara aldılar. Onlar güman edirdilər ki, Şah İsmayılın dünyasını dəyişməsindən sonra qarışıqlıq və xaos yarana bilər. Ona görə də portuqal elçiləri öz missiyasını yarımçıq qoyaraq geri qayıtdılar. Portuqaliya sarayı Səfəvi daxilində hakimiyyət dəyişikliyindən və Şah Təhmasibin hakimiyyətinin

ilk illərində qızılbaş əmirlərinin kəskin qarşıdurmasının yaratdığı qarışıqlıqdan istifadə etməklə Fars körfəzi hövzəsində yeni əraziləri nəzarət altına almağa başladılar. Nəticə Fars körfəzinin şərq sahilləri boyunca xeyli yeni ərazilər də portuqal qoşunları tərəfindən nəzarət altına alındı. Bu ərazilər bir neçə il portuqal qoşunlarının nəzarəti altında qaldı. Çünki Şah Təhmasibin bir tərəfdən özbək qoşunları ilə, digər tərəfdən də Osmanlı qoşunları ilə apardığı müharibələr səltənətin cənubuna xüsusi diqqət ayırmağa imkan vermirdi. Belə bir fürsət ələ düşən kimi Şah Təhmasib portuqal qoşunlarının işğalı altında olan ərazilərin azad edilməsinə başladı. Bununla bağlı Şah Təhmasib 1543-cü ildə Fars bəylərbəyi İbrahim xan Zülfüqara müvafiq tapşırıq verdi. İbrahim xan da dərhal bu tapşırığın icrasına başladı. O, əvvəlcə işğal altında olan bölgəyə hakim təyin edilmiş Martim Alfonso de Meloya məktub göndərdi, Fars körfəzi boyunca ərazilərin işğal altına alınmasının hələ 1515-ci ildə Şah İsmayılın hakimiyyəti illərində Səfəvi dövləti ilə Portuqaliya arasında imzalanmış müqaviləyə zidd olduğunu bəyan etməklə bu ərazilərin azad edilməsi zəruriliyini onun nəzərinə çatdırdı. Əks təqdirdə bunun hərbi yolla ediləcəyi bildirildi (109).

İşğal olunmuş ərazilərin hakimi bu məktubu alandan sonra məsələnin müzakirə edilməsi üçün Aleksis Karvahalho adlı nümayəndəsini Şiraza göndərdi. Bu adam Şiraza o zaman gəlib çıxdı ki, İbrahim xanın doğrudan da portuqal qoşunları üzərinə hücum üçün ciddi hazırlıqlar aparmasının, qoşun toplamasının şahidi oldu. O, müşahidə etdikləri barədə dərhal portuqal hakiminə məlumat çatdırdı. Nəticədə portuqal mövqeləri də lazımınca möhkəmləndirildi, bu mövqelərə əlavə qüvvələr gətirildi və nəticədə İbrahim xana qarşı müqavimət göstərmək mümkün oldu. Amma mövcud olan bəzi faktlar sonrakı illərdə Səfəvi sarayı ilə Portuqaliyanın Hindistandakı hakimliyi arasında bəzi əlaqələrin qurulmasına cəhd göstərildiyini nümayiş etdirir. Xüsusilə, Osmanlı qoşunlarının hücumlarının qarşısının alınması, Osmanlı dövlətinin Fars körfəzinə yaxınlaşmasına maneçilik törədilməsi Səfəvi dövləti ilə birlikdə Portuqaliyanın da böl-

gədəki maraqlarına cavab verirdi. Bölgədən sıxışdırılmaq təhlükəsi ilə üzləşməmək üçün Portuqaliyanın bölgədəki hakimliyi 1551-ci ildə Səfəvi sarayına yeni bir elçiliyinin göndərilməsi barəsində mənbələrdə də məlumat mövcuddur. Məsələn, "Əhsənüt-təvarix" əsərində bu barədə belə deyilir: "Bu il Firəngdəki Portuqal padşahının elçiləri Hörmüz yolundan gəlib, dünyanın pənahı olan dərgaha çoxlu töhfələr gətirdilər və neçə gündən sonra mürəxxəs olub (rüxsət alıb) geri qayıtdılar" (110).

"Əhsənüt-təvarix" əsərində bu barədə xeyli müxtəsər məlumat verilmişdir. Amma görünür, bu hadisə elə bir diqqətəlayiq hadisə olmuşdu ki, mənbədə də öz əksini tapmışdı. Bununla belə, portuqal qoşunları işğal olunmuş Səfəvi ərazilərini heç də tərk etmədilər. Şah Təhmasibin həyatının sonlarına yaxın Portuqaliya hakimi Den Sebastian tərəfindən böyük bir elçilik heyəti Səfəvi sarayına göndərildi. Bu elçilik uzun bir yol keçməklə Səfəvi sarayına 1574-cü ildə gəlib yetişə bildi. Həmin elçiliyin də gəlməkdə məqsədi Fars körfəzi ətrafında yaranmış problemin aradan qaldırılması deyil, Şah Təhmasibin Avropa dövlətləri ilə ittifaqda Osmanlı dövlətinə qarşı müharibəyə cəlb etmək idi. Məlumdur ki, bu məsələ ilə bağlı Avropanın digər dövlətləri də müəyyən cəhdlər göstərmişdilər. Fars körfəzində Osmanlı təhlükəsi ilə üz-üzə qalması Portuqalyanın hakimini də Səfəvi sarayı ilə ittifaq yaratmağa sövq edirdi. Şah Təhmasib isə Osmanlı dövləti ilə əldə edilmiş razılaşmaya sədaqətli qaldığı üçün Portuqaliyanın təkliflərini qəbul etmədi. Digər tərəfdən portuqal qoşunlarının işğal etdikləri ərazilərdə müsəlman əhaliyə qarşı xoşagəlməz hərəkətləri də Şah Təhmasibin Portuqaliya ilə xoş münasibətlər qurmasını mümkünsüz edirdi. Xüsusilə, Portuqaliya təbəələrinin islam dəyərlərinə qarşı hörmətsizlik göstərmələri Şah Təhmasibin qəzəbi ilə qarşılanırdı. Bunun nəticəsi idi ki, onun görüşünə gəlmiş elçiliyə lazımi münasibət də göstərilmədi: "Həmçinin bu il Portuqal [adı] ilə məşhur olan Firəng padşahı Dan Sebastin öz elçilərini müşahidə zamanı nəzər-diqqət əhlinin gözünü qamaşdıran töhfələr və hədiyyələrlə aləmin pənahı olan dərgaha göndərdi. Bundan öncə onlar (portuqallar) məscidlərin xaraba

qoyulması və "Kəlami-məcid"in ("Qurani- kərim"in) yandırılması kimi neçə-neçə ədəbsizlik törətdikləri üçün [şah] elçilərə iltifatlı nəzərlərlə baxmadı və bir sıra əmirlərə o dövlətsiz qövmü ədəbləndirməyi həvalə etdi" (111).

Bundan sonra Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvi sarayı ilə Portuqaliya arasında hər hansı bir əlaqənin olması haqqında məlumat mövcud deyil.

### 3. Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi-hind münasibətləri

Səfəvi dövləti ilə digər dövlətlərin xarici əlaqələrinin təşəkkül tapmasından danışarkən "Tarix-i aləmara-yi Abbasi" əsərinin müəllifi İsgəndər bəy Münşi belə yazırdı: "Özündə maddi və mənəvi səltənəti cəmləşdirmiş müqəddəs nişanəli Səfəvi sülaləsinin mənşəyinin vilayət və kəramət xanədanına gedib çıxdığı günəş kimi aydın olduğuna görə cahan sultanları və ölkələrin hökmdarları nicat tapmaq üçün öz əllərini uzadıb, dili pak olan bu xanədanın möhkəm ipindən yapışmışlar. Hind və Firəng məmləkətlərinin uzaq yerlərindən [hökmdarlar] səmimi istək və sədaqətlə [Səfəvi sarayına] elçilər, məktublar və hədiyyələr göndərir, həmişə sədaqət və ittihada əsaslanan münasibətləri inkişaf etdirirdilər. O kəslər ki, həyatın enişli-yoxuşlu mərhələlərindən keçərkən bir hadisə baş verdikdə saf niyyət və təmiz məqsədlə bu kəramət nişanəli sülaləyə yalvarıb-yaxarmışlar, onlar həmin aləm hökmdarlarının zahiri dəstəyi və batini köməklikləri ilə həm maddi, həm də mənəvi cəhətlərdən müvəffəqiyyətlə öz arzularının hədəflərinə nail olmuş, yüksək səviyyələrə və uca mərtəbələrə qalxmışlar. Lakin hər kim ki, [Səfəvi sülaləsinə sığınarkən] xəyalında yaramaz dünyəvi qərəzlər tutaraq düşüncə və etiqaddan bir bəhrəyə malik olmamışdır, onların ümid ağacı murad səmərəsindən uzaq düşmüş, onlar öz pozğun niyyətlərindən irəli gələn istəklərinə çatmamışlar" (112).

İsgəndər bəy Münşinin təəssüflə qeyd etdiyi son fikri Hindistanda bərqərar olmuş Kürəkaniyan və ya Moğol səltənətinin

ikinci şahı olan Nəsrəddin Məhəmməd Hümayun haqqında idi. Bu hökmdarın mənsub olduğu Kürəkaniyan və ya Moğol imperatorluğunun təşəkkül tapması Şah İsmayılın hakimiyyəti illərinə təsadüf edirdi və elə ilk yaradılışından da bu imperatorluqla Səfəvi dövləti arasında xoş münasibətlərin əsası qoyulmuşdu. Kürəkanilər nəsli mənşəcə türklüyə bağlı idi. Belə ki, Humayun şahın atası Zəhirəddin Məhəmməd Babur nəsil şəcərəsi ata tərəfdən Əmir Teymur Kürəkaniyə, ana tərəfdən isə Çingiz xan Moğola bağlanırdı. Hindistan hüdudlarında və onun ətrafında yeni bir səltənətin əsasını qoymuş Zəhirəddin Məhəmməd Babur 1483-cü il fevral ayının 14-də Fərqanədə anadan olmuşdu. O hələ uşaq yaşlarından cəsarətli bir döyüşçü kimi formalaşmışdı və bunu döyüş meydanlarında da nümayiş etdirirdi. Zəhirəddinin atası həmin vaxtlar Əndican və Fərqanənin hakimi idi. 1494-cü ildə Zəhirəddin 12-ci yaşında ikən atası dünyasını dəyişdi və o, atasının yerinə adı çəkilən vilayətlərin hakimi oldu. Döyüşgənliyi ilə Zəhirəddin 1497-ci ildə Səmərqəndi də öz hakimiyyəti altına gətirdi və bununla da kifayət qədər geniş ərazilərə sahib oldu (113).

Amma Zəhirəddin Baburun Orta Asiya hüdudlarında yaratdığı bu hakimiyyətinin ömrü çox da uzun olmadı. 1505-ci ildə özbək qoşunları ilə apardığı döyüşdə Zəhirəddin Babur uğursuzluğa düçar oldu və hətta sahib olduğu əraziləri də itirərək Kabula çəkildi. O, ətrafında olan qoşun dəstəsi ilə Kabula yiyələndi. Burada da Zəhirəddin Babur hakimiyyəti altında olan ərazilərin hüdudlarının genişləndirilməsinə nail oldu. Belə ki, 1507-1508-ci illərdə o, Zəmindavər və Qəndəharı da öz hakimiyyəti altına gətirdi. Mövcud olan bəzi məlumatlara görə, Zəhirəddin Babur bundan sonra Orta Asiyada olan keçmiş ərazilərini geri qaytarmağa cəhd göstərdi. Bu işdə o hətta müvəffəq də oldu, Səmərqənd və Buxaranı öz nəzarəti altına gətirdi. Lakin onun bu uğuru çox da uzun sürmədi. Özbək qoşunları ilə qarşıdurmada o, yenidən geri çəkilməli oldu. Orta Asiyadakı əraziləri itirib Kabulda möhkəmləndikdən sonra Zəhirəddin Babur indiki Hindistanın bəzi ərazilərin, o cümlədən də Dehlini ələ keçirdi və 1526-cı ildə

(bəzi məlumatlara görə isə 1525-ci ildə) Hindistanın bir hissəsində hind Kürəkanilərinin (Moğollarının) hakimiyyətini elan etdi. Bu uğurun əldə edilməsi üçün Zəhirəddin Babur 12 min nəfərlik qoşun dəstəsi ilə əfqan Sultan İbrahimin 100 minlik qoşun dəstəsinə qarşı döyüşə girməli oldu. 1526-cı ilin aprel ayının 19-da bu qoşun dəstələri Panipət adlanan məntəqədə üz-üzə gəldilər və Zəhirəddin Babur həmin döyüşdə böyük qələbə əldə edərək Hindistanın bir hissəsinə sahib oldu. Dehli və Aqra da nəzarət altına alınandan sonra Kürəkanilər imperatorluğunun əsası qoyuldu (114).

Kürəkanilər imperatorluğunun əsası Şah Təhmasibin hakimiyyətinin ilk illərində qoyuldu. Amma hələ Şah İsmayılın hakimiyyəti illərində Zəhirəddin Baburla Səfəvi sarayı arasında işgüzar münasibətlər formalaşmaqda idi. Xüsusilə, özbək hakimlərinə qarşı oxşar maraqlar Şah İsmayılın Zəhirəddin Babura qarşı işgüzar münasibətlərinə bir əsas olmuşdu. Zəhirəddin Baburun Orta Asiyada itirdiyi ərazilərin geri qaytarılmasına da Şah İsmayıl dəstək vermişdi. Məlumdur ki, Səmərqənd və Buxaranın ələ keçirilməsinə göstəriləcək kömək üçün Zəhirəddin Babur həmin şəhərlərdə Şah İsmayılın adına sikkə də vurduracağını vəd etmişdi. Bu şəhərlər ələ keçiriləndən sonra Zəhirəddin Babur doğrudan da öz vədinə əməl etdi və Şah İsmayılın adına sikkələr vurdurdu. Bundan başqa Şah İsmayılın daimi qayğısını qazanmaq üçün Zəhirəddin Babur şiə məzhəbinə rəğbətli yanaşma nümayiş etdirdi (115).

Kürəkani imperatorluğu elan ediləndə kiçik yaşlarında olan Şah Təhmasib yenicə hakimiyyətə gəlmişdi. Zəhirəddin Babur onun hakimiyyəti dövründə də əvvəllər mövcud olmuş xoş münasibətləri davam etdirmək niyyətində idi. Elə bunun üçün idi ki, Zəhirəddin Babur öz imperatorluğunu elan etdikdən az sonra Xacəgi Əsəd adlı bir əyanın rəhbərliyi altında Səfəvi sarayına elçilik heyəti göndərdi. Mövcud olan məlumatlara görə, bu heyət Xorasan əhalisinə də müəyyən hədiyyələr və töhfələr gətirmişdi. Sonra isə Səfəvi sarayına yollanan Xacəgi Əsəd həm Şah İsmayılın vəfatı münasibətilə Zəhirəddin Baburun başsağlığını, həm

də Şah Təhmasibin hakimiyyətə gəlməsi münasibətilə təbriklərini çatdırdı. Başlıcası isə Zəhirəddin Baburun iki dövlət arasında xoş münasibətlərin saxlanılmasına tərəfdar olduğu Şah Təhmasibin diqqətinə çatdırıldı. Şah Təhmasib də iki dövlət arasında belə xoş münasibətlərin saxlanılmasına tərəfdar olduğunu bildirdi və bunun Zəhirəddin Babura çatdırılması üçün o, Xacəgi Əsədlə birlikdə öz elçisi Süleyman ağanı da Hindistana yolladı. Səfəvi elçisi çoxlu qiymətli hədiyyələrlə bərabər, özü ilə Şah Təhmasib tərəfindən hədiyyə edilmiş iki kənizi də aparırdı ki, onlar sonradan rəsmi olaraq Zəhirəddin Baburun hərəmxanasına qatıldılar (116).

Səfəvi sarayının elçisinin gəlişi Zəhirəddin Babur tərəfindən də çox mehribanlıqla qarşılandı və qarşılıqlı münasibətlərin xoş məramlar üzərində davam etməsi onu bir daha məmnun etdi. Süleyman ağa Hindistanda olduğu zaman Zəhirəddin Babur Racputlara qarşı böyük bir döyüş keçirdi və Süleyman ağa da həmin döyüşü müşahidə etdi. Bununla Süleyman ağa əmin oldu ki, Babur hakimiyyəti möhkəm bir hakimiyyətdir və onun kifayət qədər böyük gücü vardır. O, Hindistanda çox az vaxt qaldı və qısa müddətdən sonra Xacəgi Əsədin müşayiəti ilə yenidən geri qayıtdı. Xacəgi Əsəd sadəcə onu müşayiət etmirdi. O, yenə də Zəhirəddin Baburun elçisi statusunda Şah Təhmasibin görüşünə gedirdi. Bu dəfə də Babur elçisi özü ilə çoxlu hədiyyələr aparmaqla Zəhirəddin Baburun Şah Təhmasibə olan ehtiramını yenidən ifadə etməli idi. Az sonra isə Şah Təhmasib özü də Hindistan sarayına yeni bir elçilik göndərdi. Bu elçiliyə Həsən Çələbi adlı bir Səfəvi əyanı rəhbərlik edirdi. Həmin elçiliyin göndərilməsində məqsəd bir tərəfdən 1528-ci ildə Cam döyüşündə özbək qoşunların qarşı əldə edilən uğur haqqında Zəhirəddin Babura məlumat verilməsi, həm də qarşılıqlı münasibətlərin davam etdirilməsinə sadiqliyin çatdırılması idi (117).

Bu elçilik mübadiləsi Şah Təhmasiblə Zəhirəddin Babur arasında son elçilik mübadiləsi oldu. Belə ki, 1530-cu ilin sonlarında Zəhirəddin Babur dünyasını dəyişdi. Özündən sonra böyük bir imperatorluq qoymuş olan Zəhirəddin Baburun vəziyyəti əsa-

sında onun yerinə böyük oğlu 14 yaşlı Məhəmməd Hümayun taxta çıxdı. Zəhirəddin Baburun Məhəmməd Hümayundan əlavə daha üç oğlan övladı var idi: Kamran Mirzə, Əsgəri Mirzə və Həndal Mirzə. Zəhirəddin Babur tərəfindən bu övladların hər birinə imperatorluğun bir vilayətinin hakimliyi tapşırılmışdı. Məsələn, məlumdur ki, Səfəvi hüdudlarına yaxın olan Kabul və Qəndəharın hakimliyi Kamran Mirzəyə həvalə olunmuşdu və onun bu ərazilərə hakimliyi dövründə Kürəkanilərlə Səfəvi dövləti arasında müəyyən gərginliklər yarandı (118).

Bəlli olduğu kimi, 1535-ci ildə Xorasan hakimi olan Sam Mirzənin lələsi və Xorasan əmirül-üməarası Ağzıvar xan Şah Təhmasibin icazəsi olmadan Qəndəhar üzərinə qoşun çəkdilər. Qəndəhar hakimi Kamran Mirzə (Məhəmməd Hümayunu qardaşı) bu zaman Qəndəharda deyildi və Qəndəhar onun tərəfindən təyin edilmiş Xoca Kəlan tərəfindən idarə olunurdu. Yuxarıda yazılanlardan məlumdur ki, Sam Mirzə və Ağzıvar xan bu yürüşdə məğlubiyyətə düçar oldular. Baxmayaraq ki, Sam Mirzə ilə Ağzıvar xan razılıq olmadan Qəndəhar üzərinə hücum etmişdilər və belə bir qərar Şah Təhmasibin heç də xoşuna gəlmədi, bununla belə Səfəvi hüdudları yaxınlığında Kamran Mirzənin özünə arxayınçılığı Səfəvi şahının heç də xoşuna gəlmədi. Ona görə də Şah Təhmasib Qəndəhar üzərinə qoşun çəkərək bu şəhəri Səfəvi hüdudlarını tərkibinə daxil etdi. Bununla belə, Qəndəhar məsələsi üzərində Səfəvi-Kürəkani gərginliyinə son qoyulmadı. Şah Təhmasib İraq istiqamətinə yollananda Kamram Mirzə yenidən Qəndəhar üzərinə qoşun çəkdi. Qəndəharda yerləşdirilmiş olan Səfəvi qarnizonu azsaylı olduğu üçün bu şəhəri təhvil verməli oldu. Kamran Mirzə bu dəfə də Qəndəhara sahib olduqdan sonra onun idarəçiliyini öz əmirlərindən birinə tapşırıb oradan uzaqlaşdı. Kamran Mirzə bununla da kifayətlənmədi. O, Hümayun padşahın zəifliyindən istifadə edərək Lahoru da öz hakimiyyəti altına aldı və bununla Kamran Mirzə Məhəmməd Hümayunun nəzarəti altında olan ərazilərlə Səfəvi dövləti arasında böyük bir əraziyə sahib oldu. Bununla Səfəvi dövləti ilə Məhəmməd Hümayun arasındakı əlaqələrin davam etdirilməsində də müəyyən

çətinliklər ortaya çıxdı. On ildən artıq bir müddətdə Məhəmməd Hümayunla Şah Təhmasib arasında elçilik əlaqəsi mövcud olmadı (119).

Məhəmməd Hümayun kifayət qədər zəif iradəli bir padşah idi və bunun nəticəsi idi ki, səltənətin möhkəmləndirilməsi istiqamətində bir sıra çətinliklərlə qarşılaşdı. Hər şeydən əvvəl o öz qardaşları ilə fikir və əməl birliyinə nail ola bilmədi və bu da səltənət daxilində parçalanmalara yol açdı. Digər tərədən də səltənət daxilində digər separatçı qüvvələr baş qaldırdılar və onlar Məhəmməd Hümayuna qarşı ciddi müxalifət təşkil etdilər (120). Bütün bunlar çox tezliklə Məhəmməd Hümayunun süqutuna gətirib çıxardı və Kürəkani padşahı öz hakimiyyətini qoruyub saxlaya bilmədi.

1539-cu ildə Benqal hakimi Şirxan Suri Əfqani öz hakimiyyətini genişləndirmək üçün Məhəmməd Hümayunun üzərinə qoşun çəkdi. Məhəmməd Hümayun göstərdiyi bütün cəhdlərə baxmayaraq bu hücumun qarşısını almaqda gücsüz oldu və düşdüyü mürəkkəb vəziyyətdən çıxmaq üçün Şirxana sülh danışıqları aparmağı təklif etdi. Şirxan da bu təklifə razı oldu və tərəflər arasında təxminən üç ay müzakirələr davam etdi. Məhəmməd Hümayun özünün təhlükəsizliyinə zəmanət almaq üçün Şirxana müzakirələr bitməyincə yenidən döyüşə başlamayacağı haqda and içməyi təklif etdi. Şirxan da Qurana and içərək müzakirələr bitməyincə yenidən döyüşə başlamayacağına and içdi. Lakin müzakirələr yekunlaşmaq ərəfəsində olanda, yəni 1539-cu il iyun ayının 26-da səhər açılar-açılmaz Qonuç adlanan məntəqədə yerləşən Şirxan qüvvələri Hümayun qoşunlarının üzərinə hücum çəkdi. Tərəflər arasında döyüş baş verməyəcəyinə arxayın olan Hümayun qoşunları üçün bu hücum son dərəcə gözlənilməz oldu və bu gözlənilməzlik də Hümayun qoşunlarına ciddi bir uğursuzluq gətirdi. Mənbə məlumatlarına görə, Hümayun qoşunlarından təkcə 7-8 min nəfəri canlarını xilas etməyə çalışarkən Qanq çayında boğulub öldülər. Hətta Hümayun da real təhlükədən xilas olmaq üçün özünü Qanq çayına atdı. O da minlərlə döyüşçü kimi, Qanq çayında boğulmaq təhlükəsi ilə üzləşdi. Belə

bir zaman onun döyüşçülərindən biri köməyə yetdi və bir çətinliklə onu sudan sahilə çıxara bildi (121).

"[Həmin əhvalatların] şərhi belədir: Geniş Hindistan məmləkətinin hökmdarı olan və Qəndəhar, Kabil və Bədəxşandan başlayaraq ta Benqal torpaqlarına qədər uzanan əraziləri öz taxt-tacının ixtiyarı altında və öz hökmünün dairəsi çərçivəsində saxlayan günahları bağışlanmış mərhum [Hümayun] padşah asimanın təqdiri, dövranın hadisələri səbəbindən və alın yazıları nifaq olan namehriban qardaşlarının ona ittifaq etməmələri üzündən, «Tarix-i Əkbəri» əsərinin müəllifi Şeyx Əbülfəzlin öz bəlağətli kitabında ətraflı şəkildə qeyd etdiyi kimi, Qanq çayı kənarında [baş vermiş döyüşdə] hətta onun mülazimlərinə nökərçilik etməyə layiq olmayan Əfqan Şirxan qarşısında böyük bir məğlubiyyətə uğrayaraq, əlacsız qalıb, atını suya vurdu. Elə oldu ki, onun xidmətində olan Sultan Hüseyn mirzə Bayqaranın nəvəsi Məhəmməd Zaman mirzə bütün cağatay əmirləri və əsgərləri ilə birgə ölüm dalğaları içində qərq oldu. O həzrət (Hümayun) də suyun içində atından ayrı düşmüşdü. Bir «səqqa» [su daşıyan] canfəşanlıq edib, özünü suya ataraq o həzrəti [oradan] çıxardı" (122).

Mövcud olan məlumatlar onu deməyə əsas verir ki, Qanq çayını adladıqdan sonra Məhəmməd Hümayun öz qoşunlarını toparlayaraq yenidən Şirxana müqavimət göstərməyə və hakimiyyətini geri qaytarmağa cəhd etdi. Lakin növbəti qarşıdurmada da Məhəmməd Hümayun uğursuzluğa düçar oldu və bundan sonra Məhəmməd Hümayun yalnız canını xilas etmək barəsində düşündü. O, Aqraya üz tutu və qısa müddət orada qaldıqdan sonra Dehliyə döndü. Məhəmməd Hümayun anlayırdı ki, Dehlidə qalmaq onun üçün təhlükəlidir. Ona görə də o, Dehlin tərk edib Lahora yollandı. Burada Məhəmməd Hümayun çalışdı ki, Kabul hakimi olan qardaşı Kamran Mirzə ilə razılaşıb Şirxan qoşunları üzərinə hücum çəksin. Kamran Mirzə də böyük iddialarla yaşayan birisi idi və hakimiyyət davasında heç də qardaşı Məhəmməd Hümayunla yola getmək istəmirdi. Kabulu ələ keçirəndən sonra Kamran Mirzə öz ərazilərini bir qədər də genişlən-

dirməyə müvəffəq oldu, kiçik qardaşı Həndal Mirzəni Qəndəhara hakim təyin etdi. Lakin Həndal Mirzənin etibarına arxayın olmadığı üçün onu Qəndəhardan uzaqlaşdıraraq Kabulda həbsə aldı. Qəndəharın yeni hakimi vəzifəsinə isə Kamran Mirzə digər qardaşı Əsgəri Mirzəni təyin etdi (123). Məhəmməd Hümayunun faciəli günləri başlayanda da Qəndəhar hakimi Əsgəri Mirzə idi

Məhəmməd Hümayunun Dehlini tərk etməsindən az sonra Şirxan Əfqanın qoşunları Dehli və Aqraya daxil oldular və o özünü şah elan etdi. Şirxana qarşı Məhəmməd Hümayunun öz qardaşı Kamran Mirzə ilə ittifaq yaratmaq cəhdi isə baş tutmadı. Əksinə, Kamran Mirzə hətta onu həbs etmək niyyətinə də düşdü. Belə ki, Məhəmməd Hümayun qardaşından lazımi kömək ala bilməyəndə Sind hakimi Şah Hüseyn Ərğunun yanına üz tutdu və ondan istədi ki, Behkər qalasını ona təhvil versin. Görünür, Məhəmməd Hümayun Behkər qalasına sığınmaqla həyatını orada keçirmək istəyirmiş. Kamran Mirzə bundan xəbər tutanda öz adamlarını Şah Hüseyn Ərğunun yanına göndərdi və onu öz tərəfinə çəkə bildi. Məhəmməd Hümayun yenidən təklənməli oldu və bir müddət yaxın şəhərlərdə vaxt keçirdikdən sonra nəhayət ki, Qəndəhar şəhərinə yollanmağı qərara aldı. O güman ediridi ki, bu şəhərdə özünə sığınacaq tapa biləcəkdir. Lakin Qəndəhar hakimi olan kiçik qardaşı Əsgəri Mirzə də ona qarşı çıxdı və hətta onu həbs edib Kamran Mirzənin yanına göndərmək barəsində planlar qurmağa başladı. Yalnız təsadüf nəticəsində Məhəmməd Hümayun onun üçün qurulan tələdən canını qurtara bildi (124).

"Xülasə, [Hümayun padşah] məğlub və pərişan bir vəziyyətdə o vurhavurdan qurtulub, Aqra şəhərinə gəldi, oradan da Lahora yollandı. Lakin müxtəlif səbəblər üzündən Lahorda da qalmağa macal tapmayıb, varını-dövlətini itirmiş bir halda Sind vilayətinə gəldi. Əmir Zünnun Ərğunun övladları həmin mülkü zorla ələ keçirmişdilər. Onlar həmdəmlik darvazalarını onun üzünə bağlayıb, ona qarşı düşmənçilik qapılarını açdılar. O, məcbur olub Qəndəhara yollandı. Elə ki Saldəşk vilayətinə çatdı, Qəndəhar hakimi olan kiçik qardaşı Əsgəri mirzə, padşahın acınacaqlı bir vəziyyətdə olmasından xəbər tutaraq, vəlinemətləri olan böyük

qardaşlarının (Hümayunun) əleyhinə nifaq törətməyə məşğul olan digər bir qardaşı Mirzə Kamrana yarınmaq üçün [Hümayuna qarşı] hiyləgərlik və xəyanət mövqeyində durub istədi ki, o həzrəti ələ keçirib, dustaq etsin. O, belə bir yaramaz niyyətlə izdihamlı bir dəstə götürərək, Qəndəhardan çıxıb Hümayunun ordugahına yollandı. Lakin təmiz ürəkli, yaxşı əqidəli insanlardan biri o pis düşüncəli cahilin çirkin fikrindən agah olub, özünü ordugaha yetirərək, padşah cənablarını o qəddarın hiyləsindən xəbərdar etdi " (125).

"Əhsənüt-təvarix" əsərində Məhəmməd Hümayunun başına gələnlər və onun nəhayətdə Səfəvi hüdudlarına pənah gətirməsi bir qədər daha təfərrüatlı şəkildə verilmişdir. Həmin əsərdəki təsvir belədir: "Bu il Hümayun padşah dinin pənahı olan şaha sığındı. Onun gəlişinin səbəbi budur ki, Şirxan Əfqan, Hümayun padşaha qarşı müxaliflik etməyə başladı. Padşah Hümayun o alçaq əfqanın üzərinə yollandı. Benqal sərhədində ona çatıb döyüş səfi tərtib etdi. Olduqca ağır bir hərb baş verdi. Hümayun padşah qeyri-məhdud qoşunlara malik olduğu üçün məğrur idi və o, "Huneyn [vuruşu] günündə çox olmağınız xoşunuza gəlmişdi" [*Qurani-Kərim, "Tövbə" surəsi, 25-ci ayə.*] kəlməsinə əsasən, çox az olan düşmən qoşununa əsla diqqət yetirmirdi. Lakin onun xəbəri yox idi ki, "Neçə dəfə olub ki, az bir dəstə Allahın izni (iradəsi) ilə çox bir dəstəyə qalib gəlib! Allah səbr edənlərlədir!" [*Qurani-Kərim, "Bəqərə" surəsi, 249-cu ayə.*]. Xeyli savaşdıqdan sonra Şirxana qələbə üz verdi. Cağatay ordusu acınacaqlı məğlubiyyətə uğradı. Sultan Hüseyn mirzənin nəvəsi Mirzə Məhəmməd Zaman bir sıra əmirlərlə birlikdə Qanq çayında qərq oldu. Padşah pərişan və bədhal bir vəziyyətdə Lahora gəldi. Oradan isə əfqanların hərəkəti və qardaşlarının müxalifliyi səbəbindən Bəkrə gəldi. O vilayətin hakimi Mirzə Şahhüseyn ibn Şüca bəy Ərğun səadətin qapılarını öz üzünə bağlayıb asilik bürcündə inad bayrağı qaldırdı. Neçə dəfə ali mənşəli padşah etibarlı adamları Mirzə Şahhüseynin yanına göndərib onu həmrəylik yoluna riayət etməyə dəvət etsə də, faydası olmadı. Padşaha məlum oldu ki, o hüdudun qalalarını o mərdimazarın əlindən

almaq çətindir. Buna görə də köç edib Qəndəhara yollandı. O diyarın hakimi Əsgəri mirzə, padşahın qardaşı idi. O, Hümayun padşahın gəlişindən agah olduqda xatirindən keçirdi ki, bacardığı tərzdə Hümayun padşahı və onun dövlət ərkanını əsir etsin. Padşahın tərəfdarlarından və sədaqətlilərindən olan bir şəxs Əsgəri mirzənin xidmətində idi. O, peşəsi zəlalət olan [Əsgəri mirzənin] niyyətindən xəbər tutub [Hümayun padşahın] ordusuna tələsdi və Şalü-Məstun vilayətində uca mərtəbəli astanaya gəlməyə müvəffəq olub Əsgəri mirzənin təqsiri barəsində halın keyfiyyətini ərz etdi. Hümayun padşah zərurət üzündən mallarını, əşyalarını və yüklərini o nahiyədə qoyub, otuz-qırx nəfər igid mülazimlə birlikdə o bədbəxtin qorxusundan kədər və xof karvanı ilə qeyri - məlum bir yolla köhlən atının yüyənini Sistan tərəfə döndərdi. "O gün insan qaçacaq öz qardaşından" [*Qurani- Kərim, "Əbəsə" surəsi,34-cü ayə.*] əhvalı müşahidə olundu. Yolları qət etdikdən sonra sözügedən vilayətə çatdı. O vilayətin hakimi Əhməd sultan Şamlu əksər əyan-əşrəflə birlikdə yüksək şanlı padşahı qarşılamağa çıxdı. Onlar həmin vilayətin məkanlarından olan bir məkanda o həzrətlə görüşdülər və o padşaha layiq olan bir mənzildə onu qonaq etdilər. Zəmanə padşahı Əhməd sultanla birlikdə Herat səmtinə hərəkət etdi" (126).

Göründüyü kimi, əlacsızlıq içərisində qalan Məhəmməd Hümayun Qəndəharda qala bilməyəndə üzünü sistana tutdu və Səfəvi hüdudlarında sığınacaq tapacağına ümid etdi. O, Şah Təhmasibin xəbəri olmadan Sistana gəlmişdi və yalnız burada olanda o, düşdüyü vəziyyət haqqında Şah Təhmasibə məktub göndərdi. Mənbə məlumatlarından o da aydın olur ki, Məhəmməd Hümayun elə bir vəziyyətdə Səfəvi hüdudlarına üz tutmalı oldu ki, kiçik yaşlı südəmər oğlunu və anasını da taleyin ixtiyarına buraxmaq məcburiyyətində qaldı. Bu yaxınlarını o, etibar etdiyi adamlara tapşıraraq Sistana doğru üz tutuldu. Əslində, Məhəmməd Hümayunun başqa bir seçimi də yox idi. Ola bilsin ki, Məhəmməd Hümayunun tələsik şəkildə Qəndəhar ətrafından Sistana tərəf hərəkətə başlaması qardaşı Əsgəri Mirzənin onun həbsi üçün sərt addımlar atması ilə bağlı idi. Əsgəri Mirzə artıq onun

həbsinə yollanmışdı. Lakin Məhəmməd Hümayunun tez-tələsik hərəkətə başlaması əsgəri Mirzənin niyyətini də həyata keçməmiş qoydu. Əsgəri Mirzə beluc tayfalarının başçısına məktub göndərdi və onu ondan Məhəmməd Hümayunun həbs olunmasını istədi. Əsgəri Mirzə bundan sonra Məhəmməd Hümayunun südəmər oğlu Əkbəri tapıb özü ilə Qəndəhara gətirdi (127).

“Tarix-i aləmara-yi Abbasi” əsərində Məhəmməd Hümayunun Qəndəhar ətrafında Məhəmməd Hümayunun başına gələnlər və onun Səfəvi hüdudlarına üz tutması belə təsvir olunmuşdur: “O həzrət dövranın gərdişinə heyrət edərək, bu müşkül işin çarəsini İrana getməkdə və «vilayət» nişanlı [Səfəvi] xanədanına sığınmaqda gördü. [Bu məqsədlə] o, özünün ali ordugahını, yüklərini və əşyalarını yerindəcə buraxıb, bu hadisədən bir qədər öncə Sind vilayətində yoxluğun gizlinliyindən mövcudluğun meydanına yenicə qədəm qoymuş südəmər körpə olan xoşbəxt və səadətpərvər şahzadə Cəlaləddin Məhəmməd Əkbəri insanların pərvərdigarı olan Allaha tapşıraraq, onu xidmətkarlarla birlikdə ordugahda qoydu. Çünki o səadətli körpənin aparılması müşkül və çətin bir iş idi. Amma onun möhtərəm anasını bir neçə nəfər məhrəm xədimlərlə birlikdə özü ilə getmək izzətinə nail edən [Hümayun] təvəkkül biyabanına qədəm qoydu. Əmirlərdən, seçkin şəxslərdən, fədakar mülazimlərdən altmış-yetmiş nəfər, sədaqəti özlərinə şüar edən, o cənaba vəfadarlıq göstərən xidmətçilərdən ibarət bir dəstə ilə birlikdə onunla yol yoldaşı olmaq və birgə getmək şərəfinə yetişdilər. Onların arasında ən əzəmətli şəxs Əlişəkər bəy Türkmanın nəvəsi olan Bayram xan Bahadır idi. Onun ata-babası türkmanların (Ağqoyunluların) tənəzzülü vaxtı İran mülkünü tərk etmişdilər. Onun özü Allahın təqdiri ilə Kabilə gəlib, Baburun yanında qulluğa daxil olmuş və həmin sülaləyə göstərdiyi ləyaqətli xidmətlərin müqabilində ali mənsəblərə yüksəlmişdi. Haqqında danışdığımız bu hadisələr cərəyan edən vaxt o, Hümayunun dövlət [işlərinin] təşkilatçısı idi.

Onlar bütün biyabanlıqdan ötüb keçərək, çöl yolu ilə Sistan vilayətinə gəldilər və oradan [Hümayun] öz xətti ilə, ətirsaçan bir

qələmlə sədaqət dolu bir məktub və şövq dolu bir səhifə yazaraq, onu ali şərəfli [Şah Təhmasibin] hüzuruna göndərdi” (128).

Məhəmməd Hümayun Sistan hakimi Sultan Əhməd Şamlı tərəfindən mehribanlıqla qarşılandı. O, Səfəvi şahının Məhəmməd Hümayunun gəlişinə necə münasibət bəsləyəcəyindən xəbərsiz olsa da hind padşanhına mehribanlıq göstərməyi məqsədəuyğun saydı və qardaşı Hüseynqulu Şamlını bir dəstə adamla Məhəmməd Hümayunun hələ sərhəd xəttində qarşılanmasına göndərdi. Qonaqların Sistan paytaxtına çatmasına dörd fərsəng qalanda isə Sultan Əhməd özü də Məhəmməd Hümayunun pişvazına yollandı. Belə bir qarşılanmadan sonra Sultan Əhməd hətta öz sarayını da onun ixtiyarına verdi. Məhəmməd Hümayun və onu müşayiət edən dəstə onlar üçün ayrılmış məkanlarda yerləşdikdən sonra Sultan Əhməd o zaman Xorasan əmirülümərası olan Məhəmməd xan Şərəfəddinoğluna məktub göndərdi və Məhəmməd Hümayunun Sistana gəlməsi barəsində ona məlumat çatdırdı. Həmin məktubda bildirilirdi ki, hind padşahını müşayiət edən dəstə 50 nəfər ətrafındadır və onlar silahsızdırlar. Bu məktubda Məhəmməd Hümayunun Şah Təhmasiblə görüşmək arzusunda olması da bəyan olunurdu. Məhəmməd xan Şərəfəddinoğlu da bu məktubu alandan dərhal sonra Səfəvi sarayına qasid göndərdi və Məhəmməd Hümayunun xahişi Şah Təhmasibə çatdırıldı: “Xülasə, elə ki o həzrət (Hümayun) Sistana yaxınlaşdı, oranın hakimi olan Əhməd sultan Şamlu öz qardaşını layiqli töhfələrlə onun qabağına göndərdi və daha sonra özü də əyan və əşrəflərlə birlikdə onu qarşılamağa çıxıb, ona xidmət göstərmək xoşbəxtliyinə yetdi. [Əhməd sultan Şamlu] padşahın qədəmlərinin təşrif gətirməsi barədə həqiqəti Xorasan əmirülümərası Məhəmməd xan Şərəfəddinoğluya elan etdi və bu [sonuncu] da öz növbəsində [sürət baxımından] səba və şimal küləklərinə tay olan bir qasidi ali taxtın ətəklərinə göndərib, [Hümayun padşahın] ali məiyyətinin gəlişini ərz etdi” (129).

Hümayun şah Sistanda olduğu günlərdə hind sarayının bir neçə nüfuzlu əyanı gizli şəkildə onun görüşünə gəldi və Hümayun şahın geri qayıtması təklifini etdi. Bu əyanların fikrincə,

Hümayun şah geri qayıdardısa Zəmindavər hakimi və şahın qardaşı Əsgəri Mirzənin qoşunlarının bəzi əmirləri ona qoşulacaq və onlar birlikdə hakimiyyəti geri qaytara biləcəkdilər. Amma istər Sistan hakimi Sultan Əhməd Şamlı, istərsə də Hümayun şahın yanında olan yaxınları bu təklifi məsləhət bilmədilər. Əvəzində Hümayun şah 1544-cü ilin iyununda Şah Təhmasibə məktub yazdı və Cuki Bahadır adlı bir elçisi ilə həmin məktubu Qəzvin sarayına göndərdi. Kifayət qədər müxtəsər olan həmin məktubda Hümayun şah Səfəvi şahı ilə görüşmək ümidində olduğunu bəyan etməklə, başına gələnləri də həmin görüş zamanı nəlq etmək arzusunda olduğunu bildirdi. Həmin məktubda deyilirdi: «Həqiqi dostların münasibətlərində vacib olan dua və ixlas vəzifələrimi yerinə yetirdikdən sonra bildirirəm ki, bəndəliyim az və utanılacaq əməllərim çox olduğuna görə mən özümü kamillik vəsflərinin məzhəri və Allahın kölgəsi olan əlahəzrətin (Şah Təhmasibin) həşəmət və calal fəzasının günəşi qarşısında bir zərrə hesab edib, ona doğru gəlirəm. Bu vaxtadək özümü açıq-aydın bir surətdə Sizin tərəfdarlarınız sırasına aid etməsəm də, Sizə münasibətdə məhəbbət və ixlas kəməndini qəlbimin qübbəsinə bağlamışdım. Çeşidli səadət və kəramətlərin vasil və hasil olmasının məkanı olan zati-alinizin misilsiz hüzurunun həmişə həsrətini çəkirdim və şərəfli simanıza doğru üz tutmağa hər an həvəs göstərirdim. İş elə gətirdi ki, alçaq zəmanənin axarı və alt-üst olmuş buqələmun çərxi-fələyin gərdişi üzündən böyük Hind ölkəsinin genişliyindən Sindin zülmlü darısqallığına gəlib çıxdım. Nə sərgüzəşt vardısa, gəldi mənim başıma, Dəryada, dağda, çöldə bəla çıxdı qarşıma. İndi ki, bu mücahidin iqbal qanadları əzəmət və calal günəşinin camalını müşahidə etmək üçün pərvaza gəlmişdir, rəhman olan Allahdan ümid odur ki, arzularımın əsasını təşkil edən sizinlə görüşmək səadətinə nail olduqdan sonra başıma gələn hadisə və əhvalatlardan ərz edilməyə qabil olanları Sizə söyləyəcəyəm, inşallah!» (130).

Qeyd edilməlidir ki, Hümayun şahın Səfəvi hüdudlarına pənah gətirməsi Şah Təhmasib tərəfindən böyük məmnunluqla qarşılandı. Çünki hind şahı Şah Təhmasib tərəfindən dövrünün böyük

şahlarından biri kimi tanınırdı və onunla xoş münasibətlərin qurulması Səfəvi hüdudlarının cənub şərqində daha güvənli bir durumun yaradılmasına yol aça bilərdi. Görünür, Şah Təhmasib ona pənah gətirmiş Hümayun şahın hakimiyyətinin yenidən bərpa edilməsinə şübhə etmirdi. Belə olduğu təqdirdə Kürəkanilər hakimiyyəti ilə Səfəvi dövləti arasında ittifaq münasibətləri yarana bilərdi ki, bu da Səfəvilər dövlətinin beynəlxalq vəziyyətinin xeyli möhkəmlənməsinə zəmin yarada bilərdi. Hümayun şahın şiəliyə rəğbətli meyl göstərməsi də Şah Təhmasibin diqqətindən kənarda qalmırdı və güman edilirdi ki, Hümayun şahın bu etiqadı Hindistan arealında da şiəliyin yayılmasına bir təkan ola bilərdi.

Şah Təhmasib həm Hümayun şaha məktub, həm də Məhəmməd xan Şərəfəddinoğluna Hümayun şahın yüksək səviyyədə qarşılanması üçün fərman göndərdi: "Bunun ardınca o həzrətin (Hümayunun) sədaqət üslubunda yazılmış naməsi xeyirxah hökmdarın nəzərinə çatdı. Comərdlik ədəb-ərkanının məzhəri və mərdlik məfhumunun mənbəyi olan [Şah Təhmasib] [Hümayun] padşahın qədəmlərinin təşrif gətirməsi müjdəsini aldıqda çoxlu sevinc və hədsiz şadyanalıq nümayiş etdirərək, məktubun cavabını sonsuz fərəh, istək və görüşmək diləyi ilə öz şərəfli xətti ilə qələmə alıb, bu beyti də oraya əlavə etdi:

**Beyt**

«Əgər ki, yolunuz məqamımıza düşmüşdür,
Sanki səadət quşu damımıza düşmüşdür» (131).

Şah Təhmasib yazdığı cavab məktubunda Hümayun şahın Səfəvi hüdudlarına gəlməsindən məmnun olduğunu bəyan edir və onun məktubunu böyük sevinclə oxuduğunu yazırdı. O, Hümayun şahı zəmanənin yeganəsi, yaradanın seçilmiş bəndəsi, həzrət peyğəmbərin və həzrət Əlinin təqdir etdiyi birisi adlandırırdı. Sonra da bildirirdi ki, Hümayun şahın məktubu ilə tanış olduqdan sonra yuxarıdakı beyt onun dilinə gəldi. Şah Təhmasib eyni zamanda Hümayun şahı əmin edirdi ki, o, mütləq öz düşmənlərinə üstün gələcək və bütün aləm də Hümayun şahın cəsarəti haqqında söz açacaqdır. Bir sözlə, Şah Təhmasib cavab məktubunda Hümayun şahın Səfəvi hüdudlarına pənah gətirməsini xoşluqla

qarşıladı və ona öz hakimiyyətini geri qaytarmağa kömək edəcəyinə bir ümid də verdi. Şah Təhmasib eyni zamanda Hümayun şahı Qəzvinə dəvət etdi. Mövcud olan məlumatlara görə, Şah Təhmasib hind şahının ona pənah gətirməsini yalnız yazdığı məktubda ifadə etmədi. O göstəriş verdi ki, üç gün ərzində təbilçilər davamlı olaraq öz təbillərini vursunlar və bununla ali qonağın Səfəvi hüdudlarına gəlməsi şəhərdə şadyanalığa çevrilsin (132).

Qeyd edildiyi kimi, Şah Təhmasib həm də Hümayun şahın onun adına və məqamına layiq qarşılanması üçün Xorasan əmirül-ümərası Məhəmməd xan Şərəfəddinoğluna fərman göndərdi. Həmin vaxt Xorasanın hakimi Şah Təhmasibin oğlu Sultan Məhəmməd Mirzə idi. O kiçik yaşlarında olduğu üçün Məhəmməd xan Şərəfəddinoğlu Xorasan əmirül-ümərası olmaqla, həm də Sultan Məhəmməd Mirzənin ləlləsi idi. Vilayətin idarəçiliyi də əslində, ona həvalə olunmuşdu. Bu fərmanda da Şah Təhmasibin Hümayun şahın Səfəvi hüdudlarına pənah gətirməsini sevinclə qarşılamasını görmək mümkündür. Çünki, fərmandan da göründüyü kimi, Hümayun şahın gəlməsi barədə Məhəmməd xan Şərəfəddinoğlunun verdiyi məlumatı bir muştuluq kimi qarşılamış və bu muştuluğun qarşılığı kimi Səbzəvar vilayətini ona tiyul vermişdi. Şah Təhmasib sonra da Hümayun şahın necə qarşılanması barəsində öz göstərişlərini də verirdi. Onun başlıca tələbi bundan ibarət idi ki, Hümayun şahla bağlı şahanə qarşılanma mərasimi təşkil edilsin. Şah Təhmasib göstəriş verdi ki, Hümayun şah Herata yaxınlaşanda Heratın tanınmış və nüfuzlu adamlarından 500 nəfər fəxri qonaqların qarşılanmasına çıxsınlar. Bu adamların hər biri özləri ilə əlavə bir baş at və onlar üçün lazım olan təchizat da götürməli idilər. Çox güman ki, bu atlar Hümayun şahın müşayiət edən adamlara hədiyyə verilməsi üçün nəzərdə tutulmuşdu. Hümayun şahın özünə isə şah tövləsindən 100 baş bədöv at ayrılmış və həmin atlar Qəzvindən Herata yola salınmışdı. Bu atların yəhər və yüyən təchizatı qızıl, bahalı daş-qaş və digər əşyalarla bəzədilmişdi. Hümayun şaha göndərilən hədiyyələr arasında qızıl və digər qiymətli metal və daşlarla

bəzədilmiş qılınc, xəncərlər və digər əşyalar da var idi. Şah Təhmasib yazırdı ki, bu qiymətli əşyalar ona Şah İsmayıldan qalmışdı. Yəni Hümayun şaha elə bir yüksək qiymət verilirdi ki, Şah İsmayıldan qalmış yadigarlar da ondan əsirgənmirdi. Əlavə olaraq şəxsən Hümayun şahın özünə Avropada və Yəzddə məxmərdən və atlasdan hazırlanmış 120 dəst qiymətli paltar, onu müşayiət edən adamlara da yenə həmin parçalardan tikilmiş 280 dəst paltar, Hümayun şah üçün üç çüt qiymətli xalça, qırmızı, yaşıl və ağ rənglərdə olan 12 ədəd çadır göndərdi. Məhəmməd Şərəfddinoğlu hind şahının Herata doğru hərəkətini nəzarət altında saxlamalı və səfər boyunca onun iaşəsinin təmin edilməsini də həll etməli idi. Yəni Hümayun şah və onun müşayiət edən dəstə hərtərəfli qayğı ilə əhatə olunmalı idi (133).

Hümayun şahın qarşılanması üçün əvvəlcə 500 nəfərlik bir dəstə irəli göndərilməli idi. Həmin dəstə həm Hümayun şahın və ətrafının təhlükəsizliyini təmin etməli, həm də xidməti qayğını təmin etməli idi. Yüksək qonaq və onu müşayiət edən dəstə Herata doğru müəyyən məsafəyə yetişəndə onun qarşısına 1000 nəfərlik başqa bir dəstə göndərilməli idi. Şah Təhmasib tələb edirdi ki, Məhəmməd xan Şərəfəddinoğlunun övladlar və qohumları da bu dəstəyə qatılmış olsun. Vilayətin əyan və əmirlərinin övladlar da bu dəstəyə daxil edilməli idi. Həmin dəstə Hümayun şaha göstərilən hörmət və ehtiramın başqa bir nümayişi olmalı idi. Bununla Hümayun şahın qarşılanmasına bir əzəmət də verilməli idi. Yüksək qonağın qarşılanmasına göndərilmiş dəstələrin üzvləri hind şahını müşayiət edən dəstə üzvlərinə qarşı da son dərəcə nəzakətli olmalı idilər. O da tələb olunurdu ki, Hümayun şahın qarşılanmasına göndərilənlər onun xidmətində öz şahının xidmətində olduğu kimi dayansın və ona qarşı ən yüksək ehtiram göstərilsin. Belə bir tələb Herata qədər olan yol üzərində yerləşmiş məntəqələrin hakimləri, həmçinin Heratdan Qəzvinə doğru hərəkət zamanı marşrut üzərində olan vilayətlərin hakimləri qarşısında da qoyulurdu. Herat şəhərinə 12 fərsənglik məsafədə Hümayun şahın qarşılanmasının əsas mərasimləri başlamalı idi. Yüksək məqamlı qonaqlar həmin məsafəyə yetişəndə Mə-

həmməd xan Şərəfəddinoğlu özü 30 min nəfərlik qoşun dəstəsi ilə Hümayun şahın qarşılanmasına yollanmalı idi. Vilayətin hakimlərindən yalnız Sultan Məhəmməd Mirzə Heratda qalmalı idi. Məhəmməd xan Şərəfəddinoğlu hind şahının dərgahına yetişdikdən sonra özünü onun xidmətçisi hesab etməli və onun xidmətində dayanmalı idi. O, hind şahına şahlara layiq olan bir xidməti göstərməli idi. Şah Təhmasibə görə, belə bir padşahın Səfəvi hüdudlarına gəlməsi Allahın bir hədiyyəsi idi və ona göstərilən ehtiram və qonaqpərvərlik də bu məqama uyğun olmalı idi. Məhəmməd xan Şərəfəddinoğlunun hind şahının xidmətinə yetişdiyi məkanda üç gün istirahət edilməsi də şah Təhmasibin verdiyi tapşırıqlar sırasında idi. Həmin günlər ərzində Səfəvi dövlətinin qonaqpərvərliyi ən yüksək səviyyədə hind şahına göstərilməli idi. Bu günlər ərzində Hümayun şahı müşayiət edən dəstə üzvlərinin hər birinə qiymətli hədiyyələr, bahalı paltarlar və digər əşyalar bağışlanmalı idi. Nəzərdə tutulmuşdu ki, Hümayun şahın qulluqçularının və mühafizəçilərinin hər birinə iki Təbriz tüməni məbləğində pul gündəlik xərc üçün verilsin. İaşə təminatı isə artıq yerli hakimlərin öhdəsinə qoyulmalı idi. Məhəmməd xan Şərəfəddinoğlu xəzinəyə verilməli olan vəsaitlərdən 2500 Təbriz tüməni məbləğində pul götürərək hind şahının və onu müşayiət edən dəstənin xərclərinə sərf etməli idi (134).

Herata yetişməyə bir mənzillik məsafə qalanda Məhəmməd xan Şərəfəddinoğlu hind şahından icazə alaraq şəhərə qayıtmalı və Sultan Məhəmməd Mirzə ilə birlikdə onun son qarşılanmasına hazırlaşmalı idi. Məhəmməd Mirzə hind şahının qarşılanmasına gedəndə ötən il Şah Təhmasibin Novruz bayramı münasibətilə ona bağışladığı bahalı paltarı geyinməli idi. Məhəmməd Mirzə qarşılanma mərasiminə Məhəmməd xan Şərəfəddinoğlunun müşayiətində getməli idi və qarşılanma mərasimi şəhər kənarında baş verməli idi. Vilayətin ən yüksək məqam sahibi və həm də Səfəvi sarayının nümayəndəsi kimi Məhəmməd Mirzə də fəxri qonağa həm özünün, həm də Səfəvi sarayının hörmət və ehtiramını çatdırmalı idi. Məhəmməd Mirzə yüksək məqam sahibi olduğu üçün qarşılanma zamanı Hümayun şahın atdan yerə

düşməsi və onunla görüşməsi ehtimal edilirdi. Şah Təhmasib istəmirdi ki, Hümayun şah qarşılanma mərasimi zamanı atdan yerə düşsün. Bununla onun şahlıq məqamına xüsusi bir hörmət göstərilməli idi. Məhəmməd Mirzənin dəstəsi Hümayun şahın dəstəsinə bir ox uçuşu məsafəsinə çatanda şah Təhmasibin tələbi ilə Məhəmməd xan Şərəfəddinoğlu irəliyə hərəkət edib özünü Hümayun şaha çatdırmalı və şahzadə ilə görüş zamanı onun atdan yerə enməsinə ehtiyac olmadığını bildirməli idi. Əgər qarşılanma zamanı Hümayun şah atdan yerə enərdisə, onda hərəkət üçün yenidən atlara minən zaman Məhəmməd Mirzə gözləməli idi ki, birinci Hümayun şah atlansın və onun ardınca da Məhəmməd Mirzə atlana bilərdi. Bununla da Hümayun şaha qarşı daha bir nəzakət ifadə olunmalı idi. Hümayun şahı görən kimi, Məhəmməd Mirzə dərhal atdan yerə enməli, piyada hind şahının yanına getməklə onun ətəklərini öpməli və zəruri olan qayğı və ehtiramı ona göstərməli idi. (135).

Hümayun şahın dəstəsinin Herata yetişməsindən bir gün əvvəl şəhərin bütün küçələri al-əlvan bəzədilməli idi ki, hind şahı onun gəlişinin yaratdığı sevinc və şənliyi duya bilsin. Hümayun şah hiss etməli idi ki, onun qarşılanmasına çıxmış olan qoşunlar da, əyan və əmirlər də bu yüksək qonağa xidmət göstərməyi şərəf kimi qəbul edirlər. Məhəmməd Mirzə atlı olaraq Hümayun şahı müşayiət etməli idi. Şah Təhmasib öz fərmanında Məhəmməd xan Şərəfəddinoğludan da tələb edirdi ki, o da Məhəmməd Mirzə ilə birlikdə Hümayun şahı müşayiət etsin. Əgər Hümayun şah Məhəmməd Mirzədən nə isə soruşardısa və Məhəmməd Mirzə də yaşının azlığı üzündən qaneedici cavab verə bilməzdisə, onda Məhəmməd xan Şərəfəddinoğlu hind şahını maraqlandıran məsələ ilə bağlı ətraflı məlumat təqdim etməli idi. Hümayun şaha Heratda Məhəmməd Mirzənin sarayının yaxınlığında iqamətgah tapılmalı idi. Yemək vaxtı yetişəndə 300 tabaq ən müxtəlif yeməklər hazırlanaraq Hümayun şahın süfrəsinə gətirilməli idi. Bu yeməklər qızıl qapaqlarla örtülmüş qızıl, gümüş və çini qablarda süfrəyə gətirilməli idi. Yemək məclisinə cürbəcür dadlı mürəbbələrin və şirniyyatın verilməsi də lazım bilinirdi (136).

Şah Təhmasib tərəfindən Hümayun şahın qarşılanmasının ən xırda detalları belə nəzərə alınmışdı. O, Məhəmməd xan Şərəfəddinoğluna göstəriş verdi ki, yaxşı xətti olan katib və münşilər tapsın və onlara Hümayun şahın dastanını yazmaq tapşırığı verilsin. Həmin katib və münşilər Hümayun şahın söhbətlərinə qulaq asmalı və onun başına gələnləri qələmə almalı idilər ki, Şah Təhmasib oxuyanda nələr baş verdiyini təsəvvür edə bilsin. Heratın ən yaxşı xanəndələri və musiqiçiləri Hümayun şahın xidmətinə gətirilməli idilər. Hind şahının ürəyi istədiyi vaxt musiqiçilər onu əyləndirməli idilər. Şah Təhmasibin fərmanında hətta o dövrün məşhur musiqiçilərinin adları da sadalanmışdı. Həmin musiqiçilər daim hümayun şahın yanında olmalı idilər. Bütün Herat əhli hind şahının qarşılanmasına çıxmalı idi. Xüsusi carçılar küçələrin kəsişmələrində yerləşməklə hind şahının gəlişini Herat əhalisinə çatdırmalı idi (137).

Şah Təhmasibin göstərişi əsasında Hümayun şahın qarşılanmasına belə xüsusi bir diqqət yetirilməli idi. Səfəvi şahı öz fərmanında Hümayun şahın yolu üstündə olan vilayət hakimlərinə də konkret vəzifələr müəyyənləşdirmişdi. Hind şahı belə bir diqqət və qayğı altında Sistandan Herata doğru hərəkətə başladı. "Əhsənüt-təvarix" əsərində bildirilir ki, Hümayun şahın Herata yaxınlaşması xəbəri alınanda Məhəmməd xan Şərəfəddinoğlu onun qarşılanmasına çoxlu hədiyyələrlə birlikdə Əli sultanı göndərdi. Ali qonaqlar Herat yaxınlaşanda isə Məhəmməd xan Şərəfəddinoğlu şəhər böyükləri, əyanları ilə birlikdə Malan kəndinə gəldilər. Bu kənddə Hümayun şahın qarşılanma mərasimi oldu (138).

"Tarix-i aləmara-yi Abbasi" əsərində isə Hümayun şahın Sistandan hərəkətə başlaması və onun Heratda qarşılanması belə təsvir olunmuşdur: Həzrət (Şah Təhmasib) tərəfdən yüksək məqamlı [Hümayun] padşaha münasibətdə göstərilmiş şəfqət və mehribanlıq hökmdarlar nəslinin davamçısı olan [Hümayun padşaha] və onun ali məiyyətinin mülazimlərinə hörmət və ehtiram etmək barədə Məhəmməd xan Şərəfəddinoğlunun adına yazılmış bir fərmanının məzmunundan görünür. Bu, Hümayunun haki-

miyyət zamanının hadisələrini əvvəldən-axıra qədər nəql etmiş Əllami Əbülfəzl ibn Şeyx Mübarəkin «Tarix-i Əkbəri» əsərindən də məlum olur. Sözün qısası, 951-ci il aylarında (25.03.1544-14.03.1545) o yüksək məqamlı padşah Sistandan çıxıb, seyr edə-edə, yavaş-yavaş məsafələri qət edərək, darüssəltənə Herata çatdı və bir müddət dövranın gərdişindən kədərlənmiş xoş niyyətli xatirini şənləndirmək üçün ov etmək şadlığı ilə ürəyinin kaşanəsinin qəmini qovdu. Məhəmməd xan Şərəfəddinoğlu [Şah Təhmasibin] əməl olunması vacib olan fərmanında göstərilən tərzdə dəbdəbəli qoşunla və cürbəcür bəzəkli zinətlərlə cah-calal dairəsinin mərkəzi olan [Hümayun padşahı] qarşılamağa və ona xidmət göstərməyə çıxıb, Malan körpüsü üzərində onunla görüşmək səadətinə nail oldu.

Onlar şəhər bağına təşrif gətirən gün dünya sakinlərinin şahzadəsi Sultan Məhəmməd Mirzə ona tapşırılmış qaydada [Hümayun padşahı] qarşıladı. Həzrət (Hümayun padşah) gəlib çatdıqda [şahzadə] atdan yerə enib, onu salamlamaq adət-ənənəsini yerinə yetirdi. O həzrət də öz növbəsində piyada olub, şahzadəni mehribancasına ağuşuna çəkdi və birlikdə atla yol getdikləri vaxt irəli keçmək və geri qalmaq cəhətlərində şahzadəyə münasibətdə böyüklüyün və xeyirxahlığın üsulu və qaydası olan təvazökarlıqlar göstərdi. Eyni zamanda, şahzadə ona münasibətdə öz oğulluq davranışlarını nümayiş etdirib təvazökarlıq və insaniyyətçilik ədəb-ərkanını əldən vermədi.

Həzrət (Hümayun padşah) bir müddət həmin ürək oxşayan bölgənin gözəl yerlərində, fərəh bəxş edən bağlarında və bostanlarında, xüsusilə də Murad bağında, Zağan bağında və Cahanara bağında eyş-işrət tərtib edib, qüssəli xatirinə sevinc qazandırdı. Məhəmməd xan hökmdarın fərmanına gündəlik əməl edərək, artıqlaması ilə layiqli xidmətlər göstərdi və [Hümayun padşahın] nurlu nəzərləri qarşısına dəyərli hədiyyələr gətirib ona təqdim etdi" (139).

Hümayun şahın Herata daxil olması 1544-cü il yanvar ayının 26-na təsadüf edir (140). Onun yaşaması üçün çox böyük bir iqamətgah ayrılmışdı. Hind şahını müşayiət edən adamlar üçün

də onların bütün rahatlığını təmin edə biləcək məskənlər ayrılmışdı. Sultan Məhəmməd Mirzə və Məhəmməd xan Şərəfəddinoğlu iki gün sonra hind padşahının Herata gəlməsi münasibətilə Zağan bağında böyük bir bayram şənliyi təşkil etdilər. Bəzi mənbələrdə olan məlumata görə, Şah Təhmasibin oğlu Sultan Məhəmməd Xorasan hakimi kimi göstəriş vermişdi ki, Heratın 7 yaşından 70 yaşına qədər olan bütün sakinləri Hümayun şahın qarşılanması üçün küçələrə çıxsınlar. Ona görə də Hümayun şahın qarşılanması zamanı böyük bir şəhərdə izdiham yaşandı. Belə bir izdiham tərəfindən qarşılanması Hümayun şaha böyük bir məmnunluq yaşatdı. Mənbələrdə dövrün ən tanınmış musiqiçilərinin bu mərasimə dəvət edildiyi və həmin musiqiçilərin də təşkil olunmuş mərasimə əlavə bir şadyanalıq gətirdiyi bildirilirdi. Hümayun şah xanəndələrin oxumasından elə feyzyab olubmuş ki, hətta onlara qiymətli hədiyyələr də bağışlayıbmış. Mərasimin gedişində növbənöv dadlı yeməklər bişirildi və qızıl qablarda qonaqlara təklif olundu. Hümayun şah da, onun müşayiət edənlər də çox böyük hörmət və ehtirama layiq görüldüklərinin şahidi oldular və bəzi məlumatlara görə, Hümayun şah Novruz bayramının təntənələrini yaşamaq üçün 1544-cü il mart ayının sonlarına qədər Heratda qaldı. Burada qaldığı müddət ərzində Hümayun şah onu müşayiət edən yaxınları ilə birlikdə müqəddəs insanların vilayət daxilində olan məzarlarını və ziyarətgahlarını ziyarət etdi, vilayətin tarixi yerlərini, görməli məkanlarını gəzdi. Həmin ilin Novruz bayramı isə xüsusilə təntənəli şəkildə qeyd olundu. Novruz bayramında ölkə şahına xüsusi hədiyyələr göndərilərdi. Hümayun şah da bu bayramda həqiqi bir şah kimi qəbul olundu və ona çoxlu sayda qiymətli hədiyyələr göndərildi. Mövcud olan məlumatlara görə, bu hədiyyələrin dəyəri çox böyük məbləğdə idi (141).

Hümayun şah bir aya yaxın Heratda qaldı və həmin müddətdə bu şəhərdə son dərəcə böyük bir ehtiramın şahıdı oldu. "Tarix-i aləmara-yi Abbasi"nin və "Əhsənüt-təvarix"in məlumatına görə isə Hümayun şah Heratda cəmi bir neçə gün qalmışdı. Hər halda bildirilir ki, elə Heratda olarkən Hümayun şah Səfəvi

şahından məktub aldı. Həmin məktubda Hümayun şah Məşhədə, səkkizinci imamın məqbərəsini ziyarət etməyə dəvət olunurdu (142).

Bir başqa məlumata görə isə, Hümayun şah özü Şah Təhmasibə məktub göndərdi və ondan Məşhədə yollanaraq İmam Rzanın məzarını ziyarət etmək icazəsi istədi. O da bildirilir ki, Hümayun şah bununla Şah Təhmasibin daha yaxın rəğbətini qazanmaq istəyirdi. Çünki sünni məzhəbinə mənsub olan Hümayun şahın belə bir hərəkəti onun şiə məzhəbinə xoş münasibətinin göstəricisi ola bilərdi. Hümayun şah bu məktubunda imkanları daxilində islam dininin yayılmasına və möhkəmlənməsinə çalışdığını və indi onun yeganə arzusunun Məşhədə yollanaraq İmam Rzanın məzarını ziyarət etmək olmasını və bununla bağlı Səfəvi şahının rüsxətini intizarla gözlədiyini bəyan edirdi. Ümumən, Hümayun şaha böyük hörmət və ehtiram nümayiş etdirən Şah Təhmasib onun bu istəyini məmnunluqla qarşıladı. Çox güman ki, o, Hümayun şahın Məşhəd ziyarətinə yollanmaq barəsində xahiş məktubunu alandan sonra ona yenidən məktub göndərmiş və onun bu ziyarət səfərinə razılığını bəyan etmişdi (143).

1544-cü il mart ayının sonlarında Hümayun şah Heratı tərk edib Məşhədə doğru hərəkətə başladı. O, Cam yolu ilə Məşhədə yollandı və yol boyu o, yenə də böyük ehtiramın şahidi oldu. Camda olarkən Hümayun şah və onu müşayiət edənlər şəhər daxilində və ətrafında yerləşən ziyarətgahlarda oldular. Bir neçə gün Camda qaldıqdan sonra hind şahı Məşhədə doğru hərəkətini davam etdirdi. Şah Təhmasibin fərmanına uyğun olaraq Hümayun şah Məşhəddə də çox böyük bir təntənə və izdihamla qarşılandı. 1544-cü il aprel ayının 8-də Məşhəd hakimi olan Şahqulu sultan Ustaclı bu böyük qonağın gəlməsi xəbərini alınca şəhər əyanları və əmirləri ilə birlikdə onu Məşhədin üç fərsəngliyində qarşıladı. Bu izdihamın əhatəsində də Hümayun şah Məşhədə daxil oldu və mövcud məlumatlara görə, 40 gün ərzində bu şəhərdə qonaq qaldı. Hümayun şah özünün ən yaxın məsləhətçilərindən olan və onu daim müşayiət edən Bayram xanla birlikdə dəfələrlə İmam Rzanın məzarını ziyarət etdi, orada namaz qıldı,

qarşılaşdığı çətinliklərin aradan qalxması üçün yaradana dualar göndərdi. Eyni zamanda həmin günlər ərzində Hümayun şah həm İmam Rza ziyarətgahına, həm də bu ziyarətgahın xadimlərinə, bu şəhərdə olan tanınmış müctəhidlərə, ehtiyacı olanlara çoxlu sayda nəzir-niyaz payladı. Hümayun şahın xahişi ilə bir ədəd kaman hind şahından hədiyyə olaraq İmam Rzanın məqbərəsinin tavanından asıldı. Bildirilir ki, Hümayun şah İmam Rzanın məqbərəsini məzhəb ənənələrinə və tələblərinə uyğun olaraq ziyarət etdi və burada rastlaşmış olduğu aram mühit ona xoş təsir bağışladı. Hümayun şahın etibarlı və sədaqətli məsləhətçisi, şiə məzhəbinə mənsub olan Bayram xanın tövsiyələri ilə Hümayun şah da şiə-məzhəb dəyərlərinə ehtiramla yanaşdı və İmam Rza məqbərəsinin ziyarətləri zamanı da bu dəyərlərə rəğbətini nümayiş etdirməyə çalışdı. O güman edilirdi ki, bununla Şah Təhmasiblə bərqərar olan münasibətlər də möhkəm əsas üzərində qurula bilərdi (144).

Mənbələrin birində Hümayun şahın ziyarət zamanı sirli bir hadisə ilə qarşılaşması haqqında məlumat verilir. Həmin məlumata görə, Hümayun şah məqbərəyə gələndə İmam Rzanın məzarına açılan qapı zəncirlə bağlanmış və zəncirdən qıfıl asılmışdı. Oradakı məqbərə xadimləri zəncirdəki qıfılı açmağa çalışsalar da buna nail ola bilməmişdilər. Yəni Hümayun şahın ziyarətinin tamamlanmaması təhlükəsi ortaya çıxmışdı. Hümayun şah bir neçə addım o tərəf-bu tərəfə vargəl etdikdən sonra belə dedi: “Ey imam, bura gəlib əhd edən hər bir kəs öz arzusuna yetişir, sənin bu qulun da eyni ümidlə sənin ziyarətinə gəlib və öz duasının həyata keçəcəyinə ümid bağlayıb”. Bu duasını səsləndirəndən sonra Hümayun şah əlini yenidən qapıya sürtür və bu vaxt qapı üzərindəki zəncirdən asılmış qıfıl açılıb yerə düşür. Hümayun şah ziyarətgaha daxil olur, İmam Rzanın məzarı ətrafında dövrə vurub dualarını oxuyur, sonra da müəyyənləşdirilmiş yerdə əyləşərək müqəddəs Quranın qiraətinə başlayır (145).

Məşhəd ziyarətlərini başa çatdırdıqdan sonra Hümayun şah Qəzvinə doğru hərəkətini davam etdirdi. O, Qəzvinə doğru Səbzəvar və Nişapur marşrutu üzrə irəliləyirdi. Bu marşrut üzə-

rindəki bütün məntəqələrdə də Hümayun şah çox böyük hörmət və ehtiramla qarşılanırdı. Hind şahının Məşhədi tərk etməsi 1544-cü il may ayının 19-na təsadüf edir. Səbzəvar şəhərində olarkən də Hümayun şaha xüsusi bir qonaqpərvərlik göstərildi. Hümayun şahın Səbzəvar hakimi Şəmsəddin Əli sultanın əyanlarından olan əmir Bərka ilə yaxın münasibətləri var idi və ona görə də o, 40 gün Səbzəvarda dayandı. Qəzvinə qədər yol boyu olan digər şəhərlərdə də Hümayun şah eyni qonaqpərvərliklə qarşılandı. Hind şahının karvanı Soyuqbulqda olarkən Şah Təhmasibdən yeni bir məktub alındı. Həmin məktubda Səfəvi şahı həmin günlərdə Qəzvində olacağını bəyan etməklə Hümayun şahdan istənilirdi ki, məsləhətçisi Bayram xanı elçi kimi onun yanına göndərsin. Yəni Şah Təhmasib hind şahı yetişməzdən əvvəl Bayram xanla görüşməyi və onunla məsləhətləşməyi istəyirdi. Bayram xan da dərhal on nəfər atlı ilə birlikdə Şah Təhmasibin görüşünə yollandı və Əbhərlə Sultaniyyə arasındakı yaylaqda o, Səfəvi şahı tərəfdən qəbul olundu (146).

Bayram xanın Şah Təhmasib tərəfindən qəbul edilməsinə mənbələrdə və elmi-tarixi ədəbiyyatda toxunulmuşdur. Lakin Bayram xanın ayrıca olaraq istənilməsində və onunla görüş keçirilməsində Şah Təhmasibin məqsədinin nə olması barəsində aydın bir məlumat mövcud deyildir. Hətta onların arasında hansı söhbətin getməsi haqqında da aydın bir məlumat verilməmişdir. Güman edilir ki, Şah Təhmasib onunla Hümayun şah arasındakı münasibətlərin ciddiliyini nümayiş etdirmək istəyirmiş. Məlun olan isə odur ki, Bayram xanı dərgahına qəbul edən Şah Təhmasib onun qızılbaş görüntüsü almasını istəmişdi. Belə ki, Bayram xanın uzun saçları var imiş. Şah Təhmasib ona təklif edir ki, uzun saçlarını kəsdirsin və başına qızılbaş tacı (papağı) qoysun. Bayram xan da cavab vermişdi ki, belə bir hərəkəti yalnız Hümayun xanla məsləhətləşdikdən sonra edə bilər (147).

Baxmyaraq ki, Bayram xan şiə məzhəbinə mənsub olmaqla Şah Təhmasibə pənah gətirmişdi və əslində, onun taleyi Şah Təhmasibin əlində idi, bununla belə, o, Səfəvi şahının istəyinə əməl etmədi. Yəni Bayram xan özü ilə bağlı Hümayun şahın

iradəsini əsas tutduğunu bəyan etdi. Şah Təhmasib bu etiraza qarşı açıq qəzəb nümayiş etdirmədi. Amma mənbələrdə belə bir məlumat var ki, Şah Təhmasib dustaq olan bəzi adamların Bayram xanın gözləri qarşısında nümayişkaranə şəkildə qətlinə fərman verdi. Guya bununla, Bayram xana da dolayısı ilə bir mesaj çatdırıldı. Amma mənbələrə əsaslanan bəzi elmi-tarixi ədəbiyyatda belə bir hadisənin olması şübhə altına alınmışdır və bildirilir ki, Bayram xanın Şah Təhmasib tərəfindən son dərəcə böyük hörmət və mehribanlıqla qarşılandı (148).

Əslində, Hümayun şahın Səfəvi hüdudlarına daxil olduğu gündən Şah Təhmasibin ona qarşı nümayiş etdirdiyi münasibət də Səfəvi şahı ilə Bayram xan arasında anlaşılmağlığın baş verməsini istisna edir. Çünki Şah Təhmasibin hind şahı ilə bağlı siyasətində diqqəti cəlb edəcək daha ciddi məsələlər var idi. Özü də Bayram xanın şiə məzhəbinə mənsub olduğu halda onun hansı libasda olub-olmaması yəqin ki, münasibətlərin gərginləşməsinə yol açacaq bir müzakirəyə səbəb olmazdı. Çox güman ki, Şah Təhmasibin Bayram xanı öncədən yanına çağırmaqda məqsədi Hümayun şahın vəziyyəti, onun yenidən hakimiyyətə bərpa olunması haqqında zəruri olan məlumatları almaq idi. Bir mənbədə belə bir məlumat var ki, Bayram xanla görüşündən sonra Şah Təhmasib hind şahının yanına öz adamını göndərdi. Həmin adam vasitəsilə Hümayun şaha çatdırıldı ki, üç gün istirahətdən sonra Qəzvinə gələ bilər və orada Şah Təhmasiblə görüş olacaqdır. Amma Şah Təhmasiblə Hümayun şahın görüş yeri haqqında mənbələrdə və elmi-tarixi ədəbiyyatda fərqli məlumatlar mövcuddur. Həmin məlumatların bəziləri Şah Təhmasiblə Hümayun şahın Əbhərdə, bəziləri Surluq yaylağında, bəziləri isə Qəzvində görüşdüklərini bildirirlər (149).

Bu məkanlar, əslində, biri digərindən elə də uzaq deyildilər. Məlum olan odur ki, Qəzvin ətrafında da Hümayun şahın təntənəli qarşılanma mərasimi təşkil olundu. Sistandan başlayaraq Hümayun şaha qarşı nümayiş etdirilən yüksək qonaqpərvərlik və ehtiram Qəzvin ətrafında da təkrar olundu. Hümayun şahın karvanı Şah Təhmasibin düşərgəsinə çatmağa bir fərsəng məsafə

qalmış böyük seyidlər, Səfəvi sarayının əyanları, üləmalar onun qarşılanmasına göndərildilər. Hümayun şah yaxınlaşdıqca daha nüfuzlu adamlar onun qarşılanmasına çıxdılar. Bu dəfə Səfəvi sarayının vəkili vəzifəsində olan Qazi Cahan xan, böyük qızılbaş əmirləri bu mərasimə qoşuldular. Onlardan sonra isə Şah Təhmasibin qardaşları və övladları Hümayun şaha öz ehtiramlarını bəyan etdilər. Əvvəlki qarşılanma mərasimlərində olan böyük izdiham burada da təkrar olundu. Yalnız əhalinin nümayəndələri deyil, qoşun dəstələri də Hümayun şahın pişvazına axışdılar. Bir sözlə, Qəzvin ətrafında da Hümayun şahın yüksək məqamına layiq olan bir təntənə və sevinc bu qarşılanma mərasimi üçün də xarakterik oldu. Şah Təhmasibin çadırına yaxınlaşanda isə Hümayun şah atdan yerə düşüb Bəhram Mirzə ilə Sam Mirzənin müşayiətində həmin çadıra tərəf piyada irəliləməyə başladı. Şah Təhmasib də onun yaxınlaşmasını müşahidə etdikdə öz çadırından bayıra çıxdı, onu çox mehribanlıqla qarşıladı, qucaqlayıb üz-gözündən öpdü. Sonra da onlar mehriban şəkildə şah çadırına daxil oldular (150).

İsgəndər bəy Münşi özünün "Tarix-i aləmara-yi Abbasi" əsərində Hümayun şahın Qəzvinə gəlməsini və Şah Təhmasiblə görüşməsini belə təsvir edirdi: "[Hümayun padşah] darüssəltənə Qəzvinə gəldikdə o mülkün kələntəri olan Xoca Əbdülqəni Cəladətinin mənzilləri o həzrətin iqamət yerinə çevrildilər. O, bir müddət həmin mənzillərdə dincəlməyə və istirahətə məşğul oldu, oradan Bayram xanı əşrəfin hüzuruna göndərib, onunla görüşmək xahişini izhar etdi və bu qitəni nəzmə çəkib göndərdi:

Ey şah, mənim ali himmətim bir ənqa quşu kimi,
Çətinliyin ən yüksək zirvəsində məskən tutubdur.
Bu alçaq zəmanə məni elə bir hala salıb ki,
Mənim təbiətimin tuti quşu darıya möhtac qalıbdır.
Mənə qarşı düşmənçilik edən şir, kin və ədavət üzündən,
Bu anda mənim üzərimə həmlə etmişdir.
Şahdan xahişim budur ki, mənə kömək etsin,
Necə ki Ərjən çölündə Əli Salmana kömək edibdir.

Burada verilmiş məna vilayətpənah şahın (Həzrət Əlinin) möcüzələri və kəramətləri haqqında bir hekayətə işarədir. Camaat arasında məşhur olan bu hekayətdə deyilir ki, bir dəfə [Həzrət Əli] Ərjən çölündə Salmanı şirin pəncəsindən xilas edibdir. Bu məqamda [Hümayun tərəfindən] bu hadisənin xatırlanması münasib və ağrılı bir hərəkət idi. Bayram xanın gəlişindən sonra cənnətməkan şah Surluq yaylağına təşrif gətirdi. [Hökmdarlar arasında] görüş orada baş verdi. [Hümayun padşah] fələk cəlallı ordugahın bir fərsəxliyinə çatdıqda vəzir Qazı Cahan, qorçubaşı Sevindik bəy Əfşar, Bədr xan Ustaclu, möhürdar Şahqulu xəlifə Zülqədər, digər əmirlər və dövlət ərkanı ilə birlikdə yüksək məqamlı həzrət [Şah Təhmasibin] istəkli qardaşları Bəhram mirzə və Sam mirzə onu qarşılamağa gəldilər. Onlardan sonra bir-birinin ardınca dəstə-dəstə böyük yüzbaşılar, say-seçmə qorçular, xidmətçilər və məiyyət təbəqəsindən olan müxtəlif şəxslər tam dəbdəbə və bər-bəzəklə gəlib çatdılar, təzim etmək qaydasını və salamlamaq adətini yerinə yetirdilər. Daha sonra onlar [Şah Təhmasibin] asiman kimi uca bargahına çatdıqda atdan enib, piyada irəlilədilər.

Cənnətməkan şah öz şəxsi çadırından eşiyə çıxıb, xilafət bargahının səadətə bürünmüş büsatının üzərini öz qədəmləri ilə şərəfləndirərək, böyüklərin qaydası və hökmdarların adət-ənənəsi ilə o ali məqamlı padşahla görüşdü, onunla mehribancasına qucaqlaşdı. Sanki iki ulduzun bir-birinə yaxınlaşması və günəşlə ayın qovuşması baş verdi. [Şah Təhmasib] o həzrətin əlini tutub, onu çadırına gətirdi və onlar bir-biriləri ilə iki yekdil dost kimi nifaqsız, səmimi söhbət etdilər. Hər iki tərəf könül oxşayan həqiqətlə zinətlənmiş sevinc artıran sözlər söylədilər. O həzrətin (yəni Hümayunun Şah Təhmasibə) təqdim etdiyi töhfələr və hədiyyələr arasında bir neçə parça Bədəxşan ləli və bir parça bahalı almaz vardı. [Şahın] izzətli büsatının haşiyəsinin hüzurunda olan Həsən bəy Rumlu və «Tarix-i cahanara» əsərinin müəllifi Qazı Əhməd Qəffari həmin almazın vəzninin dörd tam üçdə iki misqal [4,68 qram] olduğunu yazmışlar" (151).

Mənbələrin birində bildirilir ki, Hümayun şah cənnəti xatırladan bir bağda Şah Təhmasiblə görüşdü. Onların görüşü yerə sərilmiş xalçanın kənarında qucaqlaşma ilə başladı. Sonra Şah Təhmasib hind şahını sağ yanına aldı və onlar oxşar taxtların üzərində oturdular. Səfəvi şahı ali qonağının səhhəti və səfərinin necə keçməsi ilə maraqlandı. Bu kiçik söhbətdən sonra Şah Təhmasib hind şahına təklif etdi ki, başındakı papağı qızılbaş papağı ilə əvəz etsin. Hümayun şah da onun bu təklifinə belə cavab verdi ki, bu papaq böyüklük nişanəsidir və böyük məmnuniyyətlə o papağı daşımağa hazırdır. Şah Təhmasib bu cavabdan sevindi və qızılbaş papağını öz əli ilə Hümayun şahın başına qoydu. Bu hadisə məclisdəkilərin coşqusu ilə qarşılandı və musiqi sədaları havaya qalxdı. İki şahın söhbətləri zamanı şahzadələr ayaqüstə dayanaraq Hümayun şaha öz ehtiramlarını nümayiş etdirirdilər. Hind şahı Şah Təhmasibdən xahiş edir ki, şahzadələr ayaq üstə dayanmasınlar, onlar da əyləşsinlər. Şah Təhmasib də cavab verdi ki, onların əyləşməsi bizim qaydalarımızın əksinə olardı. Başqa sözlə, şahzadələrin iki şahın qarşısında əyləşməsi hörmətsizlik kimi qəbul edilə bilərdi ki. Bundan sonra süfrə açıldı. Şah Təhmasiblə Hümayun şahın birgə naharı başa çatdıqdan sonra yenidən musiqi səsləndi. Şah Təhmasibin göstərişi ilə Bəhram Mirzə ali qonağı onun iqamətgahına qədər müşayiət etdi. Məlumata görə, bu iqamətgahda əvvəlcə Hümayun şahın uzun saçları qırxıldı və sonra da ona isti hamam təşkil edildi. Bəhram Mirzə tərəfindən Hümayun şaha üç dəst bahalı paltar da gətirildi (152).

Hümayun şahın şərəfinə verilən ziyafət zamanı, yuxarıda qeyd edildiyi kimi, Səfəvi və hind şahı biri-birinə qiymətli hədiyyələr də bağışladılar. “Təkmilətül-əxbar” əsərinin verdiyi məlumata görə, şahların bağışladıqları hədiyyələr arasında qiymətli daş-qaşlar, əşyalar heç də az deyildi: “Nəvvabi-kamyab (Şah Təhmasib) onun gəlişinə sevindi və heç bir padşahın vermədiyi bir ziyafət təşkil etdi. Ona səltənətə lazım olan padşahanə çadırlar, şahanə çətirlər, hərəmxanə və divanxana üçün naxışlı və sadə xeymələr, qızıl, gümüş, çini qablar, mis alətlər, ipək müxəlləfat,

nər dəvə qatarları, o padşahın bütün əsgərlərinin minməsi üçün tövlələrlə gözəl qaçağan atlar, həmçinin padşaha məxsus adamlar üçün misli-bərabəri görünməmiş atlar bağışlanıldı. Məzkur padşah [Humayun] onları (atları) çox bəyəndi və hər birinə bir ad qoyub, həmişə onlara tamaşa edirdi. Həmçinin onun əmirləri, yaxın adamları, əsgərləri, xidmətçilərinə-rəisdən tutmuş sərbanlarına qədər dərgahdan gözəl xələt, at, silah və əlahiddə xərclik bağışlanıldı. Neçə min tümən xalis qızıl, gümüş pul, daş-qaş, gümüşlə bəzədilmiş qılınc və xəncər kəmərləri, hazır və qayib əsgərlərinə döyüş günü kara gələn silah və yaraq bağışladılar. Onunla cürbəcür söhbətlər edildi və hörmətlər göstərildi. Əcəmdə misli-bərabəri olmayan Surluq və Təxti-Süleyman ovlaqlarında onunla birlikdə çoxlu ov etdilər" (153).

Mövzuya həsr olunmuş digər mənbələrdə də Hümayun şahın şərəfinə çox zəngin bir ziyafət təşkil edildiyi və bu ziyafət zamanı qiymətli hədiyyələr bağışlandığı bildirilirdi. Məsələn, "Əhsənüt-təvarix"də deyilir ki, yemək-içməkdən sonra Şah Təhmasib hind şahına nağd pullar, cavahirat, daş-qaşla bəzədilmiş kəmərlər, zərbaftadan, məxmərdən, atlasdan və kəmxadan ibarət çoxlu qumaşlar, xeyli Firəng (Avropa) malları, döyüş əşyaları və alətləri, ərəb atları, təchiz olunmuş dəvələr, bəzisi qatara bağlanmış, bəzisi fərdi və yorğa olan çoxlu qatırlar, xeymə, alaçıq, təbil və bargah çadırları hədiyyə etdi. Bundan əlavə, Hümayun şahın vəkili olan Bayram xan Baharluya təbil və ələm bağışlandı (154).

Bütün bunlar hind şahına hörmət və ehtiram nişanəsi olmaqdan əlavə, həm də Səfəvi dövlətinin əzəmətinin göstəricisi idi. Bununla həm də Kürəkani dövləti ilə daha yaxın münasibətlərin qurulmasına olan marağın ifadəsi idi. Sözsüz ki, belə zəngin səxavətin göstərilməsi ilə Şah Təhmasib ona pənah gətirmiş hind şahının öz hakimiyyətini geri qaytaracağına əmin idi və ona görə də Hümayun şahla qurulan möhkəm münasibətlər Səfəvi dövlətinin maraqları çərçivəsində idi.

"Tarix-i aləmara-yi Abbasi" əsərində isə Hümayun şaha qarşı göstərilən qonaqpərvərlik və Şah Təhmasibin xüsusi diqqəti belə təsvir olunmuşdur: "Uzun sözün qısası, cənnətməkan şah həzrət-

ləri həmin bir neçə gün ərzində hər gün xüsusi tərzdə bir söhbət tərtib edib, hökmdarlara layiq şənliklər və şahanə məclislər təşkil etdi. O, həmin yığıncaqlarda dəmbədəm şəfqətli kəlmələrlə və mehribancasına həmrəyliklərlə həzrətin (Hümayun padşahın) hüznlü xatirinə şadlıq bəxş etdi. Surluqda cərgə ovu təşkil olundu. Bir neçə günlük yol məsafəsindən ov heyvanlarını qovub, bir yerə cəmləşdirdilər. Elə ki cərgə tərtib olundu, onlar birlikdə cərgənin içərisinə gəldilər. Əvvəlcə Hümayun padşah həzrət şahın təklifinə uyğun olaraq, Bəhram mirzə və Sam mirzə ilə bərabər ox atmağa başlayıb, hər biri şikar vurmaqda, cəldlikdə və çeviklikdəki məharətlərini göstərdilər. Daha sonra cənnətməkan şah həzrətləri özünün «Bəhrami» kamanını əlinə alıb, ali məqamlı [Hümayun] padşahın və onun silahdaşları olan, ox atmaq sahəsində misilsiz olduqlarını iddia edən cağatay cavanlarının bərabərində, qaçışlarının yeyinliyi səbəbindən göz şüaları ilə izlənilməsi mümkün olmayan çoxsaylı sürətli ceyranları yerə sərdi. Xülasə, elə ox atışları etdi ki, sürünün canından fəryad qopdu. [Şah Təhmasibə] «əhsən» və «afərin» deməkdə fələyin məhvəri və asimanın qövsü dilbir və həmfikir oldular. Elə ki ox atmaqdan bezdilər, çoxsaylı kök əndamlı maralları və ov heyvanlarını iti qılıncla yerə sərməyə başladılar. Seyrdən, şikardan və hədəfə ox atmaqdan («qabaq-əndazi») əl çəkəndən sonra [Şah Təhmasib] müəyyən olunmuş bir gündə ali şənlik və böyük ziyafət («toy») təşkil etdi. Məclisin axırında həzrət (Hümayun padşah) üçün töhfələr, hədiyyələr və təltiflər təyin olundu. Bunlar nağd puldan, cavahirdən, tacdan, daşqaşla bəzədilmiş kəmərdən, İraqda, Rumda, Firəngdə, Çində və Xətayda [istehsal olunmuş] zərnigar qumaşlardan, əsləhədən və yaraqlardan, sıx halqalı «Davudi» zirehdən, cavahiratla bəzədilmiş tüfənglərdən, yorğa ərəb atlarından, Bərdənin minik qatırlarından, dağa bənzər bir qatarlı dəvələrdən, hərəm və divanxana üçün [nəzərdə tutulmuş] çoxlu çadırlardan və alaçıqlardan, naxışlı atlas, məxmər və darayi parçalardan toxunmuş sadə və naxışlı sayəbanlardan və xeymələrdən, bütün avadanlıqları ilə birlikdə karxanalar büyutatından, təbildən ələmdən və nağaraxana əşyalarından ibarət idilər.

Qonaqpərvərliyə yaraşan bir tərzdə bunları [Hümayun padşaha] təqdim etdilər. Həmçinin o həzrətin əmirlərinin və müqərrəblərinin hər birinə tutduqları mövqeyə uyğun olan qiymətli hədiyyələr və bol ənamlar mərhəmət etdilər. Bayram xana ələm və nağara şəfqət olundu və o, həmin uca sülalənin yüksək «xanlar xanı» mənsəbinə təyin edildi” (155).

Hümayun şahın Qəzvinə pənah gətirməsindən sonra Şah Təhmasiblə hind şahının arasındakı münasibətlərin məzmunu əsasən iki məsələ üzərinə qurulmuşdu: a) hind şahının və onun ətrafındakıların məzhəbinin dəyişdirilməsi və bununla iki şah arasında həm də məzhəb ittifaqının yaradılması və b) Hümayun şahın hakimlik etdiyi ərazilərin geri qaytarılması və onun yenidən öz taxt-tacına çıxarılması. Bu məsələlərin hər ikisinin Şah Təhmasibin istəyincə həll edilməsi ehtimalları mövcud idi. Xüsusilə, hind şahının məzhəbinin dəyişdirilməsi məsələsi də Şah Təhmasibə ümidverici görünürdü. Çünki Hümayun şah istər Səfəvi hüdudlarına pənah gətirməsi ilə, istərsə də Səfəvi hüdudları daxilindəki hərəkətləri ilə şiə məzhəbinə meylli olması görüntüsü yaratmışdı.

Baxmayaraq ki, Hümayun şahın Qəzvində və bütünlükdə Səfəvi hüdudlarında olduğu vaxt ona yüksək qonaqpərvərlik və ehtiram göstərilməsi haqqında geniş məlumatlar mövcuddur, bununla belə mənbələrdəki məlumatlar həm də iki şah arasında həssas anların olmasından da xəbər verirlər. Lakin son nəhayətdə iki hökmdar arasında strateji münasibətlərin yenidən öz qaydasına düşməsi də istinad olunan mənbələrdə öz əksini tapmışdır.

Hümayun şahın Qəzvində olduğu vaxtlar hinddə hakimiyyəti ələ keçirmiş əfqan Şirxan öz elçisini Şah Təhmasibin yanına göndərdi. Şirxan hind daxilində öz hakimiyyətinə qarşı sözsüz ki, Hümayun şahı təhlükə kimi qəbul edirdi. Hümayun şah sağ olduqca hər zaman onun öz hakimiyyətini bərpa etməyə çalışacağını gözləmək olardı. Ona görə də Şirxan onun zərərsizləşdirilməsi üçün addım atmaq qərarına gəldi və bu məqsədlə də elçisini Şah Təhmasibin yanına göndərdi. Şirxan təklif etdi ki, onun hakimi olduğu səltənətlə Səfəvi dövləti arasında yaxşı

münasibətlərin bərqərar edilməsi və qorunması üçün Hümayun şah ona təhvil verilsin. Şirxanın belə bir cəsarət göstərməsindən Şah Təhmasib son dərəcə qəzəbləndi və onun elçisinin burun və qulağının kəsilməsi barəsində göstəriş verdi. Elçisinə verilmiş cəzadan xəbər tutandan sonra Şirxan da oxşar əməli təkrar etmək qərarına gəldi və göstəriş verdi ki, onun hakim olduğu hüdudlarda rast gəlinən hər bir Səfəvi təbəəsinin burunu və qulağı kəsilsin. Bundan əlavə, Şirxan eyni zamanda Sultan Süleymanla Səfəvi dövlətinə qarşı ittifaq yaratmağa cəhd göstərdi. Lakin onun bu cəhdi gözlənilən nəticəni vermədi (156).

Hümayun şah Qəzvində olarkən onun Şah Təhmasiblə münasibələrində yaranan həssaslığın səbəbləri barəsində bəzi məlumatlar mövcuddur. Özü də bu məlumatlar daha çox Hümayun şahın ətrafında olan münşilərin yazdıqlarında öz əksini tapmışdır. Səfəvi dövrünə aid tanınmış və mötəbər farsdilli mənbələrdə bu məsələ elə də qabardılmamışdır. Hümayun şaha meylli olan mənbələrin müəllifləri hind şahı ilə Şah Təhmasib arasında olan münasibətləri üç dövrə bölürlər. Bildirilir ki, birinci dövrədə Şah Təhmasib çalışırdı ki, Hümayun şahın məzhəbini dəyişdirsin. İddia olunur ki, ikinci dövr iki ay davam etdi və bu dövr ərzində Şah Təhmasiblə Hümayun şahın münasibətləri xeyli gərginləşdi və hətta onlar arasında ünsiyyət də kəsildi. Amma sonradan bu münasibətlər yaxşılaşdı və bu da münasibətlərin üçüncü dövründə, yəni Hümayun şahın Səfəvi hüdudlarını tərk etməsi ərəfəsində baş verdi. Hətta o da bildirilir ki, Şah Təhmasib heç də Hümayun şaha hərbi kömək göstərmək fikrinə də meylli deyildi. Bununla bağlı olan səbəblərdən biri kimi, Hümayun şahın sünni məzhəb olması göstərilirdi. Ehtimal edilir ki, Səfəvi dövləti ilə Kürəkani dövləti arasında əvvəllər mövcud olmuş münasibətlər, o cümlədən Qəndəhar ətrafında baş vermiş hadisələr də iki şah arasındakı münasibətlərin məzmununa təsir göstərə bilərdi. Çox güman ki, bu şahlar arasında münasibətlərin yaxşılaşmasını istəməyən adamlar da var idilər və onlar da mümkün təsirləri göstərməyə çalışırdılar. Məsələn, Şah Təhmasibə çatdırılmışdı ki, 1535-ci ildə Hümayun şah özünə rəqib saydığı Bahadur Gəcərat

üzərindəki qələbədən sonra Səfəvi şahına açıq hörmətsizlik nümayiş etdirmişdi. Belə ki, fal açdırmaq üçün istifadə etməli olduğu yaxşı oxların üzərinə öz adını, keyfiyyətsiz oxların üzərinə isə Şah Təhmasibin adını yazdırmışdı. Bununla, Hümayun şah Səfəvi şahını aşağılamışdı və bunu onun ətrafındakılar da yaxşı başa düşürdülər. Elə onun ətrafındakılar da Hümayun şahın bu hörmətsiz hərəkətini Şah Təhmasibə çatdırmışdılar. Şah Təhmasib bu hadisə ilə maraqlanıbmış və Hümayun şahın verdiyi cavab onu qane etməyibmiş. Bu da iki şah arasındakı münasibətlərə öz təsirini göstəribmiş (157).

Hümayun şahın ətrafında olanlardan da ona qarşı sədaqətsizlik göstərənlər və ona qarşı Şah Təhmasibdə inamsız münasibət yaratmaq istəyənlər var idi. Məsələn, hind sarayının əyanlarından olan Rövşən bəy Kuka, Xoca Qazi Divan, Sultan Məhəmməd Hümayunun sarayında xidmət etsələr də, onun qardaşı Kamran Mirzə ilə də yaxşı münasibətdə idilər. Hümayun şah öz səltənətindən didərgin düşəndə bu adamlar Həcc ziyarətinə yollanmışdılar. Onlar geri qayıdarkən yollarını Səfəvi hüdudlarından saldılar və Şah Təhmasib onları öz dərgahında qəbul etdi. Həmin adamlar özlüyündə Hümayun şahdan narazı idilər və bunun səbəbini də Şah Təhmasibə açıqladılar. Onların sözünə görə Hümayunun şahlığa layiq keyfiyyətləri yox idi və ona görə də onu tərk edərək Kamran Mirzəyə qoşulmuşdular Hind əyanları Şah Təhmasibə də təklif etdilər ki, Hümayun şahı həbs etsin və sonra da onlara qoşun dəstəsi versin. Bu adamlar vəd edirdilər ki, həmin qoşun dəstəsi ilə Qəndəharı ələ keçirib Şah Təhmasibin ixtiyarına verə bilərlər (158).

Yəni bununla, Hümayun şaha etimadsızlıq göstərilməsi üçün güclü və işgüzar bir arqument ortaya qoyuldu. Hind əyanları Hümayun şahı kənara qoymaqla Şah Təhmasiblə yaxşı münasibətlər qurulmasının mümkünlüyünə işarə etdilər. Lakin Şah Təhmasib bu təklifi qəbul etmədi. Oxlarla bağlı olan məsələni Şah Təhmasib hind şahından soruşanda o bildirmişdi ki, o zaman Şah Təhmasibin səltənəti Hind səltənətinin heç yarısı boyda deyildi və ona görə də belə bir seçim etmişdi. Bəzi müəlliflərin

fikrincə, Hümayun şah bəzi uğurlardan sonra arxayınçılıq iddiasına düşmüşdü və belə güman edirdi ki, o artıq Şah Təhmasibdən daha böyük əzəmətə malikdir. Bildirilir ki, onun bu iddiaları da Səfəvi şahına çatdırılmışdı. Bütün bunların əvəzində Şah Təhmasib da demişdi ki, belə bir fikirdə olmaq Hümayun şahın düşüncəsiz hərəkətinin göstəricisidir və bunun nəticəsi idi ki, Hümayun şah çox böyük ölçülərdə olan əraziləri idarə edə bilməmişdi. Hümayun şah da cavabında onu demişdi ki, bizim taleyimizi yaradanın qədəri müəyyənləşdirir və onun hökmünü qəbul etməkdən başqa çarəmiz yoxdur. Hümayun şahın öz təvəkkülünü yaradanın iradəsinə bağlaması isə Şah Təhmasibin ona qarşı incikliyini bir qədər azaltmalı olmuşdu (159).

Şah Təhmasiblə Hümayun şah arasında münasibətlərin həssaslığına yol açan səbəblərdən birinin də qızılbaş əmirlərinin hind şahına inamsızlığı ilə bağlı olduğu ehtimal edilir. Qızılbaş əmirləri Hümayun şaha ehtiyatla yanaşırdılar və Şah Təhmasibi də ona etibar etməməyə çağırırdılar. Bu əmirlərin fikrincə, Hümayun şahın atası Zəhirəddin Babur vaxtilə Şah İsmayıldan çoxlu kömək almasına baxmayaraq, onun zərurət yarananda Səfəvi qoşunlarına kömək göstərməməsi Hümayun şah tərəfdən də təkrarlana bilərdi. Ona görə bəzi qızılbaş əmirləri Hümayun şahın ixtiyarına qızılbaş qoşun dəstəsi verilməsinin və həmin qoşun dəstəsinin Qəndəharın alınmasına göndərilməsinin əleyhinə idilər. Bu da öz növbəsində Hümayun şah haqqında müəyyən təsəvvürlər yaradırdı (160).

Şah Təhmasibin Hümayun şaha qarşı etibarının azalmasına Bəhram Mirzə də təsirini göstərdiyi ehtimal olunur. Bildirilir ki, Bəhram Mirzə də Hümayun şaha qarşı etibarlı münasibət bəsləmirdi və onun Hümayun şaha olan münasibəti və hissləri dolayısı yolla Şah Təhmasibin fikirlərinin dəyişməsinə də yol aça bilərdi. Bəhram Mirzənin Hümayun şaha qarşı etimadsız mövqedə olmasının da öz səbəbi vardı. Deyilənə görə, bir gün məclislərində birində Şah Təhmasib hind şahından belə vəziyyətə düşməsinin səbəbini soruşdu. Hümayun şah da cavab verdi ki, onun bu vəziyyətə düşməsinin başlıca səbəbi qardaşlarının ona

sədaqətsilzik göstərmələri oldu. Belə bir məlumat ortaya qoyulur ki, guya Hümayun şah bu sözləri ilə Şah Təhmasibə də öz qardaşlarına etibar etməməyi tövsiyə etdi. Yəni bu sözləri ilə Hümayun şah Səfəvi şahını qardaşlarına, o cümlədən də Bəhram Mirzəyə inanmamağa çağırdı. Ona görə də Bəhram Mirzənin Hümayun şaha qarşı münasibəti də dəyişikliyə məruz qaldı və onun Hümayun şaha qarşı düşmənçiliyi başladı (161).

Lakin etibarlı mənbələr, xüsusilə Hümayun şahın yanında olan şahidlər öz yazılarında hind şahı ilə Bəhram Mirzənin arasında hansısa bir gərginliyin olmasını təsdiq etmirlər. Əksinə, yuxarıda xatırlanan bəzi faktlardan da məlumdur ki, Bəhram Mirzə hind şahına qarşı xoş münasibətdə idi və onun xatirinə dəyə biləcək hər hansı bir hərəkət etməmişdi. Hər şeydən əvvəl Bəhram Mirzə öz qardaşının iradəsinə qarşı getməzdi. Məlumdur ki, qardaşlardan yalnız Bəhram Mirzə həyatının sonuna qədər Şah Təhmasibə sədaqətli qaldı və Şah Təhmasib də bunu layiqincə qiymətləndirdi. Digər tərəfdən şübhə yoxdur ki, Hümayun şahla qurulan xoş münasibətlərin bütünlükdə Səfəvi dövlətinin maraqlarına xidmət etdiyinə Bəhram Mirzə də şübhə etmirdi. Ona görə Bəhram Mirzə hind şahına hörmətlə yanaşırdı, ilk rastlaşdıqlarında Bəhram Mirzə də ona bir dəst bahalı paltar və "Qəzalə" (ceyran) adlı bir cins at bağışladı. Hümayun şah Səfəvi şahının düşərgəsinə gələndə ilk gecəni də Bəhram Mirzənin çadırında keçirdi. Sonrakı görüşlərində də Bəhram Mirzə ona olan ehtiramını nümayiş etdirdi. Hətta o da məlumdur ki, Hümayun şah Səfəvi hüdudların tərk edib geri qayıtmaq istəyəndə barmağındakı üzüyünü də çıxarıb Bəhram Mirzəyə hədiyyə etdi. Həmin üzük Hümayun şaha anasından yadıgar qalmışdı. Hümayun şah istəyirdi ki, Bəhram Mirzə bu üzüyü hər görəndə onu xatırlasın. Bəzi şahidlər hətta onu da iddia edirdilər ki, Hümayun şah Bəhram Mirzənin şəxsində özünün sədaqətli himayəçisini tapmışdı (162). Bəhram Mirzənin hind şahına qarşı belə səmimi münasibəti, sözsüz ki, Şah Təhmasib tərəfindən də təqdir olunurdu.

Elmi-tarixi ədəbiyyatda Şah Təhmasiblə Hümayun şah arasında məzhəb mənsubluğundan doğan bəzi həssaslığın da olması

barədə məlumat vardır. Bəllidir ki, Hümayun şah sünni məzhəb idi və Şah Təhmasib onun şiə məzhəbini qəbul etməsindən məmnun qala bilərdi. Hümayun şah Qəzvinə gəlişinin ilk günlərində Səfəvi sarayının vəkili olan Qazi Cahandan Şah Təhmasibin ona qarşı münasibətinin tutqun görünməsinin səbəbini soruşdu. Qazi Cahan da bildirdi ki, Hümayun şahı müşayiət edən sünni məzhəb tərəfdarları şiə məzhəbi haqqında xoşagəlməz sözlər danışıblar və bu da Şah Təhmasibin qulağına çatıb. Qazi Cahanla Hümayun şah arasında xoş münasibətlər mövcud idi və Səfəvi hüdudlarında olduğu müddətdə Qazi Cahan tərəfindən Hümayun şaha hər zaman dəstək göstərilmişdi. Aralarındakı münasibətlərin yaxşı olmasından istifadə edərək Qazi Cahan ona məsləhət bildi ki, şiə məzhəbini qəbul etsin və bununla Şah Təhmasiblə daha yaxın münasibətlərə nail olsun (163). Amma mövcud olan məlumatlar onu deməyə əsas verir ki, hətta Qəzvinə gəldikdən sonra da Hümayun şah bu barədə ciddi fikirləşməli olmuşdu.

Mənbə məlumatlarına görə, bu soyuqluq elə bir səviyyəyə çatdı ki, onun aradan qaldırılmasına Şah Təhmasibin bacısı Soltanəm bəyim də qarışmalı oldu. Bu məsələ ilə bağlı fakt Hümayun şahı müşayiət etmiş Cövhər Aftabeçinin yazısında öz əksini tapmışdır. Bu müəllifin yazmış olduğu “Təzkirə əl-vaqiat” əsərində, ümumiyyətlə, Şah Təhmasib-Hümayun şah münasibətlərinin müəyyənləşdirilməsi baxımından maraqlı faktlar çoxdur. Xüsusilə, Şah Təhmasibin hind şahına səmimi münasibəti haqqında bu əsərdə çoxlu faktlarla rastlaşmaq mümkündür. Amma bu əsərdə belə bir ruh da mövcuddur ki, Şah Təhmasib- Hümayun şah münasibətlərində gərginlik də var idi. Bununla bağlı olan faktları müəllif şahidi olduğu hadisələr kimi adı çəkilən əsərdə təsvir etmişdir. Qeyd edilməlidir ki, Səfəvi tarixi haqqında mövcud olan etibarlı mənbələrdə belə faktlarla rastlaşmaq mümkün deyildir. Bu isə Cövhər Aftabeçinin istinad etdiyi faktların doğruluğuna müəyyən şübhə yarada bilər.

Covhər Aftabeçinin əsərində mövcud olan faktların elmi-tarixi dövriyyəyə gətirilməsi Hümayun şahın şiəliyə münasibəti ilə

bağlı iki fikrin ortaya çıxmasına səbəb olmaqdaddır. Birinci fikir Cövhər Aftabeçinin yazdıqlarından doğur və bu fikrə görə, Hümayun şah məcburiyyət qarşısında qalaraq şiəliyi qəbul etmişdi. Yəni, Şah Təhmasibin ona qarşı olan təzyiqi və hədələri Hümayun şaha şiəliyi qəbul etməkdən başqa bir yol qoymamışdı. Hümayun şah da qarşıya qoyduğu məqsədə çatmaq, Şah Təhmasibin köməyi ilə hakimiyyəti geri qaytarmaq üçün şiəliyi qəbul etməli olmuşdu. Əks təqdirdə, Hümayun şahın Təhmasib şahdan hərbi kömək alması qeyri-mümkün ola bilərdi. İkinci fikir isə Səfəvi tarixi ilə bağlı elmi-tarixi dövriyyədə olan və hazırkı tədqiqatın da əsasını təşkil edən mənbələrdə olan məlumatlardan doğan fikirdir. Bu fikrə görə, Hümayun şahın özünün şiəliyə rəğbətli münasibəti var idi və həmin münasibət də onun şiə məzhəbini qəbul etməsinə gətirib çıxardı. Bildirilir ki, Hümayun şahın Şah Təhmasibə münasibəti, onun könüllü şəkildə Məşhədə, İmam Rzanın ziyarətinə yollanması və s. faktlar da Hümayun şahın şiə məzhəbinə rəğbətindən xəbər verir.

Cövhər Aftabeçiyə görə, Şah Təhmasib hətta Hümayun şaha xəbər göndəribmiş ki, şiəliyi qəbul edərsə ona istənilən köməyi edəcəkdir. Əks təqdirdə, onu atəşə atacaqdır. Guya Hümayun şah da Şah Təhmasibə belə cavab veribmiş ki, belə əməl şahlara yaraşan əməl deyildir və o öz məzhəbini dəyişməyəcəkdir (164).

Şah Təhmasibin bacısı Soltənəm bəyimlə bağlanılan hadisənin təsviri zamanı adı çəkilən müəllifin yazdığına görə, Səfəvi şahının Hümayun şah haqqında kəskin qərar qəbul etmək fikrini eşidəndə Bəhram Mirzə çox təəssüfləndi və hətta bu xəbərdən sonra onun gözlərindən yaş axmağa başladı. Bəhram Mirzə belə bir vəziyyətdə bacısı Soltənəm bəyimin yanına getdi və Hümayun şahın qaçqın düşməsindən, onunla hind şahı arasında yaxşı münasibətlər yaranmasından və nəhayət Şah Təhmasibin belə bir fikrə düşməsindən danışdı. “Təzkirə əl-vaqiat” əsərində Soltənəm xanımın adı çəkilmir. Amma tədqiqatçılar şübhə etmirlər ki, əsərdə şahzadə xanım kimi təqdim olunan xanım məhz Soltənəm bəyimdir. Bəhram Mirzənin danışdıqlarını eşidəndən sonra Soltənəm xanım da ağlamağa başladı. Elə bu vaxt Şah Təhmasib

onun otağına daxil olur. Bəhram Mirzə onu gördükdə təzim edib otağı tərk edir. Sonra Şah Təhmasib bacısından ağlamağın səbəbini soruşur. Bacısı da bildirir ki, hər zaman Şah Təhmasibin həyatının uğurları üçün Allaha dua edir, onun işlərinin yaxşı getməsini arzulayır. Sonra da əlavə edir ki, Səfəvi şahının türklərlə, özbəklərlə gürcülərlə və ruslarla olan mübahisələrinə son qoyulmayıb və belə bir vəziyyətdə Şah Təhmasib özünə Məhəmməd Hümayun şahın şəxsində yeni bir düşmən qazanmaq istəyir. Soltənəm xanımın fikrincə, Hümayun şaha qarşı kəskin qərar qəbul edilsə, onda bu şahın oğlanları və qardaşları gələcəkdə onun qisasını Şah Təhmasibdən almağa çalışacaqdılar. Şahın bacısı təklif edir ki, Hümayun şaha kömək göstərilməyəcəksə, heç olmasa ona çıxıb getmək icazəsi verilsin, o da gedib başqa yerdə özünə kömək tapsın. Şah Təhmasib bacısının tövsiyələrini eşidəndən sonra bildirir ki, ətrafındakılar ona başqa cür tövsiyələr veriblər. Lakin o, bacısının tövsiyələrini daha xeyirxah tövsiyə kimi qəbul edəcəyinə vəd verir. Cövhər Aftabeçinin yazdıqlarından belə bir qənaət hasil olur ki, bu söhbətdən sonra Şah Təhmasibin Hümayun şahın gələcəyinə olan münasibəti dəyişdi (165).

Başqa mənbələrə istinad edən tədqiqatçılar yazırlar ki, Soltənəm bəyim eyni zamanda Hümayun şahın artıq şiə olduğuna da Şah Təhmasibi inandırmağa çalışdı. Bu fikrin təsdiqi kimi, Soltənəm bəyim ona Hümayun şahın özünün yazdığı bir rübaini də oxudu. Həmin rübainin tərcüməsi belədir:

Canımla mən Əli övladıyam
Əlini yad etməklə mən həmişə şadam
Vilayət sirri Əlidən zahir oldu
Əlinin adını həmişə dilimin əzbəri etdim

Bu sətirlərdə Hümayun şahın özünü Əli övladı hesab etməsi, Əlinin davamçısı kimi görməsi açıq şəkildə bəyan edilmişdir. Rübai Şah Təhmasibin də xoşuna gəldi və onu eşitdikdən sonra bacısına bəyan etdi ki, Hümayun şaha istədiyi köməyi göstərəcəkdir. Soltənəm xanım da Şah Təhmasibin bu sözlərini Hümayun şaha çatdırdı. Bildirilir ki, Hümayun şaha yaxınlığı ilə seçilən onun məsləhətçisi Bayram xan və Səfəvi sarayının vəkili Qazi

Cahan xan da hər zaman ona şiəliyi qəbul etməyi tövsiyə edirdilər. Verilən məlumata görə, bu tövsiyələr də Hümayun şahı şirə məzhəbini qəbul etməyə sövq etdi (166).

Cövhər Aftabeçinin yazdıqlarına görə, Soltənəm bəyimlə söhbətdən sonra Səfəvi şahı Hümayun şaha xəbər göndərib onu ov mərasiminə dəvət edir. Şah Təhmasib axşama kimi Hümayun şahla birlikdə olur və bu zaman ona qarşı çox səmimi bir münasibət nümayiş etdirir. Bu ov mərasimi o vaxt baş vermişdi ki, Hümayun şah da artıq Səfəvi hüdudlarını tərk etməyə hazırlaşırdı. Ov zamanı Şah Təhmasiblə Hümayun şah arasında gələcək planlar barəsində bir söhbət baş verir. Şah Təhmasib hind şahına belə deyir: “Arxayın ol ki, yaxın zamanlarda mən səni lazım olan şəkildə öz ölkənə yola salacağam. Qazi Cahan bəzi məsələləri sənə xatırladacaq ki, onlara diqqət yetirməyini xahiş edirəm”. Bu sözlərin qarşılığında Hümayun şah ona öz dualarını çatdırır. Adı çəkilən müəllifin yazdığına görə, bu söhbətdən sonra hər iki şah öz çadırlarına qayıtmağı qərar alırlar. Hümayun şah atını çapıb Şah Təhmasibdən ayrılır. Amma bir azdan sonra Şah Təhmasibə məlum olur ki, Hümayun şah heç də öz çadırına gəlib çatmayıbdır. Havanın qaraldığından Şah Təhmasib hind şahının görünməməsindən narahatlıq keçirməyə başlayır və qorçuları Hümayun şahı axtarmağa göndərir. Nəhayət qorçular onu tapırlar və Şah Təhmasibin yanına kimi müşayiət edirlər. Sonra onlar şah çadırlarına qədər birlikdə at çapırlar. Cövhər Aftabeçi yazırdı ki, Şah Təhmasib çox səmimiyyətlə Hümayun şahı öz çadırına müşayiət etdi. Hümayun şah çadırına yollansa da, gecə ikən yemək istədiyini xidmətçilərə çatdırır. Şah Təhmasib eşidəndə ki, hind şahın gecə yarısı acıyıb, onda qulluqçulara tapşırıq verir ki, doqquz növ yemək hazırlasınlar və Hümayun şahın çadırına aparsınlar. Qulluqçular belə də edirlər. Hümayun şah bu dəfə də ona göstərilən qonaqpərvərlikdən məmnuluğunu ifadə edir və yeməkləri yeyəndən sonra arxayın şəkildə yatağa yollanır. Səhəri gün Hümayun şah Səfəvi şahının qayğısından razı qaldığını öz xidmətçiərinə çatdırır. “Təzkirə əl-vaqiat”ın müəllidi Cövhər Aftabeçi də həmin xidmətçilərin arasında Hümayun şahın

səsləndirdiyi bu fikrin şahidi olmuşdu. Hümayun şah Səfəvi şahının kömək vədi haqqında dediklərini də bu zaman ətrafındakılara açıqlayır və onu da bildirir ki, Qazi Cahan da Səfəvi şahınını bəzi fikirlərini hind şahının xidmətçilərinə çatdıracaqdır (167). Başqa sözlə, Hümayun şah bununla Şah Təhmasibin ona kömək göstərmək əzmində olduğunu və həmin köməklə birlikdə yaxın vaxtlarda geri qayıda biləcəyini məmnunluqla öz ətrafındakıların diqqətinə çatdırdı.

Sonrakı gün də Hümayun şah Səfəvi şahı ilə birlikdə yenə də ov mərasimində iştirak etdi. Ov mərasimin təşkili istirahət və əyləncə üçün təşkil edilmiş bir tədbir idi və Şah Təhmasibin göstərişinə əsasən, Hümayun şah üçün başqa əyləncələrin də təşkili nəzərdə tutulmuşdu. Elmi-tarixi ədəbiyyatda olan məlumata görə, Qazi Cahan tərəfindən Hümayun şaha bəzi şərtlər çatdırıldı ki, həmin şərtlərin hind şahı tərəfindən qəbul ediləcəyi gözlənilirdi. Konkret olaraq həmin şərtlərin aşağıdakılardan ibarət olduğu bildirilir:

1. Hümayun şah şiə məzhəbini qəbul edir;

2. Hindistan taxt-tacı geri alındıqdan sonra orada şiə imamlarının adına xütbə oxunur;

3. Qəndəhar şəhəri ələ keçirildikdən sonra Səfəvi sarayına təhvil verilir;

4. Qəndəharda ələ keçirilmiş bütün xəzinələr və sərvətlər də Səfəvi sarayına təhvil verilir.

Göründüyü kimi, bu şərtlər Hümayun şaha göstəriləcək hərbi köməyin qarşılığında Hindistanda şiəliyin yayılması ilə bağlı idi. Bildirilir ki, Hümayun şah bu təklifləri qəbul etdi və bununla Şah Təhmasibin hərbi köməyinə arxalanmaq şansı qazandı (168).

Başqa bir məlumata görə isə, Qazi Cahan Sultaniyyədə olarkən Şah Təhmasibin iki məktubunu Hümayun şaha çatdırdı. Həmin məktublarda hind şahı qarşısında konkret şərtlərin qoyulduğu güman edilir. Bildirilir ki, Hümayun şah həmin məktubları oxuduqdan sonra çadırının bir küncünə çəkildi və hündür səslə islam peyğəmbərinin və şiə imamlarının düşmənlərinə lənətlər söyləməyə başladı. Şah Təhmasib tərəfindən başqa bir məktub da

Hümayun şaha ünvanlanmışdı. Hümayun şah həmin məktubu Şah Təhmasibin yanında oxudu və bundan sonra şiə məzhəbini qəbul etdi. Bəzi mənbə məlumatlarına görə, məhz bu məktublardan sonra Hümayun şah şiə məzhəbini qəbul etdi (169).

Bu qarşılıqlı razılaşma da Hümayun şahın Səfəvi hüdudlarını tərk etməsi ərəfəsində baş vermişdi. Güman edilir ki, bu qarşılıqlı razılaşmanın əldə edilməsindən razı qalan Şah Təhmasib Hümayun şahın son günlərinin maraqlı olması üçün ov mərasimləri və müxtəlif əyləncələr təşkil etməyi məqsədəuyğun saydı. O da bildirilir ki, Hümayun şahın əlavə məmnunluğunun qazanılması üçün onun əleyhinə Təhmasib şaha məlumat çatdırmış Xoca Qazını, Rövşən Kukanı, Sultan Məhəmmədi həbs etdirdi. Yuxarıda qeyd edildiyi kimi, bu əmirlər Hümayun şahın qardaşı Kamran Mirzənin tərəfdarları idilər və onlar Hümayun şaha kömək göstərilməsini istəmirdilər. Amma həmin adamlar bağışlanmaları üçün Hümayun şaha, Hümayun şah da Şah Təhmasibə müraciət etdilər. Nəticədə adları çəkilən əmirlər yenidən azadlığa buraxıldılar (170).

Hümayun şah Səfəvi hüdudlarından ayrılmazdan əvvəl Şah Təhmasib onun şərəfinə üç günlük böyük bir ov mərasimi təşkil etdi. Həmin ov mərasiminə çoxlu əmirlər və əyanlar da dəvət olunmuşdular. Bu mərasimin təşkil edilməsi üçün 300 çadırdan ibarət bir düşərgə salınmış və bu düşərgəyə 12 musiqi dəstəsi gətirlimişdi. Həmin dəstələrin hər biri şahların yaxınlaşdığını görüncə əzəmətli müsiqilər səsləndirirdilər. Düşərgənin əhatə etdiyi ərazi bütünlüklə xalçalarla bəzədilmişdi. Birinci və ikinci gün hind şahı ilə Səfəvi şahı vaxtlarının çoxunu düşərgədə keçirdilər. Təhmasib şah çalışırdı ki, düşərgədə təşkil edilmiş bu tədbirlə Hümayun şahın vaxtının daha yaxşı keçirməsinə nail olsun. İkili söhbətlərində də Şah Təhmasib ondan daha nələri arzu etməsi barəsində soruçdu və bəyan etdi ki, onun bütün arzularının həyata keçməsinə çalışacaqdır. Elə bu söhbətləri zamanı Şah Təhmasib bildirdi ki, 12 min nəfərdən ibarət olan atlı dəstəsini Hümayun şahın köməyinə verəcəkdir. Bu qoşun dəstəsi Hümayun şahın hakimiyyətinin geri qaytarılmasını təmin etməli

idi. Söhbətləri zamanı Şah Təhmasib hind şahını qəbul etməkdən məmnun olduğunu çatdırdı və bu zaman mövcud ola biləcək çatışmazlıqların bağışlanacağına ümid etdiyini bildirdi: "Ey Hümayun, əgər hər hansı bir çatışmamazlığımız olubsa, inanıram ki, öz alicənablığınızla onu bağışlayacaqsınız" (171).

Mövcud olan bir başqa məlumata görə, bu ov mərasiminin təşkil üçün yaradılmış düşərgədə 300 deyil, 600 ədəd çadır qurulmuşdu. Elə bu mərasimdə Hümayun şaha hərbi kömək göstərilməsi üçün zəruri olan təchizat və təminat da müəyyənləşdirildi və məlum oldu ki, həmin təchizatın təmin edilməsi və onların daşınması üçün 20 min tümənə ehtiyac vardır. Bütün bunlar Şah Təhmasib tərəfindən təmin edildi və bundan əlavə 30 min tümən məbləğində nağd pul da verildi. Eyni zamanda Hümayun şahı müşayiət edən əyanlara və xidmətçilərə əlavə olaraq yenidən hədiyyələr bağışlandı. Sonra hər iki şah və onları müşayiət edən dəstələr Miyanəyə gəldilər. Hümayun şah artıq geri qayıtmaq hazırlıqlarını başa çatdırmaq üzrə idi və Miyanədə o da öz adından son ziyafəti təşkil etdi. Hümayun şahın göstərişi ilə bu ziyafət üçün hind ənənələri üzərində Şah Təhmasib üçün yeni olan yeməklər hazırlandılar. Şah Təhmasib bu yeməkləri, xüsusilə noxudplovu çox bəyəndi. Bu ziyafət zamanı qonaqlara tanış olmayan meyvələr də təqdim olundu. Ziyafətin başa çatmasından sonra hər iki şah ikilikdə gəzintiyə çıxdılar və bu gəzinti zamanı son dəfə fikirlərini bölüşdülər. Bildirilir ki, səhəri gün Hümayun şah öz vətəninə doğru hərəkətə başladı və Şah Təhmasib də onu bu yolçuluğun başlanğıcında bir müddət müşayiət etdi. Sonra isə Hümayun şahı Bəhram Mirzə də müşayiət etməli oldu (172).

Bəhram Mirzənin hind şahı ilə xudahafizləşmək məqamı çatanda Hümayun şah bir alma çıxarıb ikiyə böldü, birini Bəhram Mirzəyə verdi, digərini isə özü yedi. Sonra da Hümayun şah, yuxarıda qeyd edildiyi kimi, cibindən bahalı almaz daşı olan və anasından yadigar qalmış üzüyü Bəhram Mirzəyə təqdim etdi. Bəhram Mirzə bu üzüyü məmnunluqla qəbul etdi və Hümayun şahı əmin etdi ki, onunla olan dostluğun simvolu kimi həmin üzüyü həmişə özündə saxlayacaqdır (173).

Hümayun şahın Qəndəhara doğru hərəkətə başlaması 1544-cü ilin payızına təsadüf edirdi. Bəzi mənbələr Hümayun şahın təxminən altı ay Səfəvi hüdudlarında olduğunu qeyd edirlər (174). Beləliklə, Hümayun şah təxminən yarım il Səfəvi hüdudlarında sürgün həyatı keçirdikdən sonra böyük ümidlərlə geri hərəkətə başladı. Bu hərəkət zamanı onu 12 min nəfərlik qoşun dəstəsi müşayiət etməli idi. Müxtəlif mənbələrdə Hümayun şahın köməyinə verilmiş qızılbaş qoşun dəstəsinin sayı barəsində müxtəlif rəqəmlər göstərilmişdir. Həmin rəqəmlər 5-12 min nəfər arasında dəyişməkdədir (175). Mövzunun tədqiqatçıları daha çox 12 min rəqəmi üzərində dayanırlar. Yuxarıdakı qeydlərdən məlumdur ki, Cövhər Aftabeçi də şahidi olduğu söhbətə əsasən, Hümayun şahın köməyinə 12 min nəfərlik qoşun dəstəsinin verildiyi bildirilirdi. Şah Təhmasib bu qoşun dəstəsinin qarşısında qoyulan vəzifəyə çox ciddi yanaşırdı və ona görə bu dəstənin rəhbərliyini də etibar etdiyi əmirlərə tapşırdı. Həmin qoşun dəstəsinə Şah Təhmasibin kiçik yaşlı oğlu Murad Mirzə də qoşulmalı idi. Murad Mirzənin lələsi Budaq xan Qacar isə bu qoşun dəstəsinin rəhbəri təyin edildi. Şah Təhmasib fərman vermişdi ki, Budaq xan Qacar, onun rəhbərlik etdiyi qoşun dəstəsi və digər qızılbaş əmirləri "Zəmindavər və Qəndəhar vilayətinə getsinlər, o ərazisinin fəthindən sonra Kabil və Qəzneyn vilayətinə yollansınlar və o vilayəti də tutub Hümayun padşaha təslim etsinlər " (176).

"Tarix-i aləmara-yi Abbasi" əsəri Hümayun şahın köməyinə verilmiş qoşun dəstəsinin tərkibi və vəzifələri haqqında belə bir məlumat verir: "[Səfəvi xanədanının] xoşbəxt şahzadələrin arasında Sultan Məhəmməd mirzədən və İsmayıl mirzədən kiçik, digər şahzadələrdənsə böyük olan Sultan Murad mirzə qızılbaş tayfalarının [döyüşçülərindən ibarət] on iki min nəfərlə birlikdə, mötəbər əmirlərdən sayılan və [Sultan Murad] mirzənin lələsi və atalığı olan Budaq xan Qacarın sərkərdəliyi ilə və Kirman hakimi Şahqulu sultan Əfşar, Sistan hakimi Əhməd sultan Şamlu, onun qardaşı Hüseynqulu sultan, Çayan sultanın nəvəsi Ayğut mirzə, Div sultan Rumlunun oğlu Ədhəm sultan, Əli sultan Təkəlü,

Məhəmmədi mirzə Mosullu, Yadigar Məhəmməd sultan Mosullu, Sani xəlifə Rumlu, Fərah hakimi Səncab sultan Əfşar, Məhəmməd sultan Adaşoğlu Ustaclu və s. əmirlər və əsgərlərin, həmçinin Keçəl Şahverdi Ustaclunun başçılığı altında şahın xüsusi qorçularından və dərgah mülazimlərindən üç yüz nəfərin iştirakı ilə o həzrətə (Hümayun padşaha) kömək etməyə təyin olundu. Onlara tapşırıldı ki, o həzrətin xidmətində olsunlar, onun hökm və fərmanını öz mürşidlərinin və vəlinemətlərinin ikinci hökmü və fərmanı hesab etsinlər, onun əmrindən boyun qaçırmasınlar, onlara nə buyursa əməl etsinlər və o həzrətdən rüxsət almasalar geri qayıtmasınlar" (177).

Ö vətəninə doğru Hərəkətə başlamazdan əvvəl Hümayun şah Təbrizə və Ərdəbilə yollanmaq arzusunda olduğunu Şah Təhmasibə bildirdi. Şah Təhmasib də onun bu arzularını qəbul etdi və adları çəkilən şəhərələrə səfər təşkil edilməsi barəsində göstəriş verdi: "O həzrət (Hümayun) Təbrizə getmək həvəsini, Təbriz şəhərinə olan rəğbətini və övliyaların və alimlərin sultanı Şeyx Səfi əl-millət vəd-dinin nurlu qəbrini ziyarət etmək istəyini açıqlayaraq, əşrəfin hüzurundan mürəxxəs olub, darüssəltənə Təbrizə təşrif apardı. Təbriz əhalisi dünya şahı [Təhmasibin] fərmanına uyğun olaraq, şəhəri bəzək-düzəyə bürüdü, Qeysəriyyəni və [digər] bazarları zifaf otağına gedən gəlinlər kimi bəzədi və tamam bər-bəzək və zinətlə həmin fəza ehtişamlı padşahı qarşılayıb, ona rəğbət doğuran xidmətlər göstərdi. Sahibabad meydanında o ulu mənşəli hökmdarın nəzərləri qarşısında çovqan və digər oyunlar göstərərək və təbrizlilərin qaydası və ənənəsi olan gülməcələr icra edərək, onun şərəfli xatirinin sevincini artırdılar.

[Hümayun padşah] oradan Səfəvi şeyxlərinin - Allah onların ruhlarını müqəddəsləşdirsin - ziyarətini məqsəd tutub, darülirşad Ərdəbilə yollandı və həmin [ziyarətin] böyük səadətinə nail olub, yüksək səviyyəli şeyxlərin müqəddəs ruhlarından kömək istədi. O şərəfli bölgədə yaşayan şeyxavənd seyidləri səmimi-qəlbdən layiqli xidmətlər icra edib, onu yol boyu bir neçə mərhələdə müşayiət etdilər" (178).

Məlumdur ki, Şah Təhmasib səltənət vəkili Qazi Cahanı da Hümayun şahla birlikdə Təbrizə göndərdi. Yuxarıdakı qeydlərdən də göründüyü kimi, Təbriz əhalisi Şah Təhmasibin göstərişi əsasında Hümayun şahı çox böyük sevinc və təntənə ilə qarşıladı. Təbrizdə ali qonaqlar beş gün dayandılar. Bildirilir ki, həmin günlər ərzində Hümayun şah həm Təbrizin görməli yerlərini gördü, həm də Təbrizin elm və sənət adamları ilə görüşdü. Sonra Hümayun şahın heyəti Ərdəbilə yollandı. Bu şəhərə səfərini başa vurduqdan sonra hind şahı Xəzər dənizinin cənubundan keçməklə Xorasan istiqamətdində hərəkətini davam etdirdi.

Bəzi mənbələrdə Hümayun şahın Təbriz və Ərdəbildən başqa Azərbaycanın və İraqın başqa məntəqələrinə də səfər etməsi haqqında məlumat vardır (179).

Hümayun şahın və onu müşayiət edən karvanın 1544-cü ilin sonlarında Məşhəd ətrafına yetişdi. Onun və onu müşayiət edən əyanların həm İmam Rzanın məzarını, həm də Cam ətrafında Şeyx Əhməd Camın məzarlarını ziyarət etmələri bildirilir. Bəzi mənbələrdə belə bir məlumat da vardır ki, havanın çox qeyri- münasibliyi üzündən Hümayun şahın karvanının hərəkət etməsi çox çətinləşdi. Ona görə də Hümayun şah iki ay Xorasanda dayanmalı oldu (180). İstinad olunan mənbədə açıq qeyd edilməsə də, çox güman ki, burada havanın çox soyuq olmasından söhbət gedirdi. Səfəvi şahı tərəfindən verilmiş 12 minlik qoşun dəstəsi də Hümayun şahla birlikdə hərəkət edirdi və havaların yaxşılaşmasından sonra bu qoşunların Qəndəhara doğru hərəkəti yenidən bərpa edildi.

Başqa bir mənbə məlumatına görə isə, Şah Təhmasibin kömək üçün ayırdığı qoşun dəstəsi Sistanda Hümayun şaha qoşuldu. Hümayun şaha bildirilmişdi ki, o, Xorasandan keçməklə Sistana gəlməli və burada müxtəlif yerlərdən toplanmış qoşun dəstəsi onun rəhbərliyi altına keçməlidir. Hümayun şah Sistana toplanmış olan qoşun dəstələrinin ümumi sayını hesablayanda məlum oldu ki, ora 12 min deyil, 14 minlik bir qoşun dəstəsi toplanıb. Elə buradaca Hümayun şah qoşun başçılarına ilk vəzifəsini müəyyənləşdirdi. Hind şahı göstəriş verdi ki, qoşunlar ilkin

olaraq 30 mil məsafə irəlilədikdən sonra Büst qalasını ələ keçirsinlər. Hirmənd çayı üzərində yerləşən bu qala Qəndəhara aparan yol üzərində Əsgəri Mirzənin nəzarəti altında olan ilk qala idi. Hümayun şah göstəriş verdi ki, qoşun rəhbərləri əvvəlcə Büst qalasının hakimini dinc şəkildə qalanı təhvil verməyə çağırsınlar. Qala hakimi bu çağırışa qulaq asmadıqda onda qoşunlar silah gücünə qalanı tutmalı idilər. Qoşun başçıları əvvəlcə bu göstərişə etiraz etdilər və bildirdilər ki, Şah Təhmasib tərəfindən onlara başqa cür fərman verilib. Hümayun şah da bəyan etdi ki, o, Şah Təhmasibə məktub göndərib məsələ ilə bağlı ona məlumat verəcəkdir. Bundan sonra qoşunlar Büst qalasına doğru hərəkəti davam etdirdilər. Büst qalasının hakimi ona qarşı çox böyük bir qüvvənin gəldiyini görəndə müqavimət göstərməyi mənasız bildi və qaladan çıxaraq təslim oldu. Hümayun şah bu haldan razı qaldı və sonra qoşunlara Qəndəhara doğru irəliləmək əmri verdi (181).

"Tarix-i aləmara-yi Abbasi" müəllifi İsgəndər bəy Münşi öz əsərində Hümayun şahın geri qayıdışını müxtəsər şəkildə belə təsvir etmişdir: "[Hümayun şah] oradan Miyanəc çəmənində yerləşən ulu ordugaha təşrif gətirib, bu dəfə vidalaşmaq mərasimini yerinə yetirdi. O, qüvvətli ürək və gözəl əməllə məqsədinə doğru üz tutdu. Hümayun şahın ölkəsinin ərazisinə çatanadək hər yerdə onlara qaydasınca və üslubunca layiqli xidmətlər göstərdilər. O həzrət seyr edə-edə məsafələri qət edib, Xorasana gəldi. Orada kama çatmış şahzadə ilə, əmirlərlə və əsgərlərlə görüşdü. Beləliklə, o, bu [Səfəvi] sülaləsinin dəstəyindən, dostluğundan və səadətli qoşunların yoldaşlığından güc alıb, əqidəsinin dürüstlüyü və saflığı ilə haqlı niyyətinə yetişmək üçün yola düşdü. Hindistanın tuti sözlü, şəkər dilli tarixçiləri bu hadisənin şərhini müfəssəl surətdə, bəlağətli bir üslubla təsvir etdikləri kimi, o, qısa bir zamanda qiyam və tüğyan arzusunun səbəbindən beyinlərinin cövhəri pozulan və nifaq törədən namehriban qardaşlarına üstün gəldi, Kabil, Qəzneyn və Bədəxşanda baş qaldıran şəxslərin başlarını itaət buxovuna keçirdi, özünün hökmranlıq bayrağını Hindistan üzərində dalğalandırıb, həm maddi, həm də mənəvi cəhətlərdən kamına çatdı" (182).

Amma məlumdur ki, Hümayun şah öz hakimiyyətini elə də asanlıqla bərpa etmədi. Onun rəhbərliyi altında olan qızılbaş qoşunları ilə Kamran Mirzənin qoşunları arasında ilk ciddi qarşılaşma Qəndəhar ətrafında oldu. Qəndəhar qalasının hakimi olan Əsgəri Mirzə qızılbaş qoşun dəstəsinin yaxınlaşması xəbərini alanda qala daxilində və divarlarında möhkəmlənmə işləri apardı və müdafiə mövqelərini kifayət qədər gücləndirdi. Eyni zamanda o, qardaşı Kamran Mirzəyə qızılbaş qoşunlarının Hümayun şahın rəhbərliyi altında yaxınlaşması haqqında xəbər göndərdi. Hümayun şah Qəndəhara yaxınlaşanda öz nümayəndəsini Kabula, Kamran Mirzənin yanına elçi kimi göndərdi və ona dinc yolla təslim olmağı təklif etdi. Qəndəhara yaxınlaşanda isə Hümayun şah onun asanlıqla alınmasının mümkün olmadığı qənaətinə gəldi və ona görə də əmr verdi ki, Qəndəhar mühasirəyə alınsın. İstər Əsgəri Mirzə, istərsə də Kamran Mirzə dinc yolla təslim olmaq fikrində olmadıqlarını göstərdilər. Sözsüz ki, onlar təslim olduqları halda Hümayun şahın sərt qəzəbi ilə qarşılaşacaqlarına şübhə etmirdilər. Ona görə Kamran Mirzə təcrübəli əmirlərindən olan Əmir Cəmil və Qasım Hüseynə qoşun dəstəsi ilə Qəndəhar ətrafına yollanmaq tapşırığı verdi. Eyni zamanda Əsgəri Mirzənin yanına çapar göndərdi ki, Hümayun şaha qarşı müqaviməti davam etdirin və ən yaxın günlərdə ona kömək yetəcəkdir. Çox güman ki, Kamran Mirzə tərəfindən Qəndəhara kömək göndərilməsi Hümayun şahın qulağına çatmışdı. Ona görə də Kamran Mirzənin göndərdiyi qoşun dəstəsi yetişməmiş Qəndəhar üzərinə güclü bir hücum təşkil edildi. Qala divarları qoşun dəstələri arasında bölüşdürüldü, bu dəstələrə müvafiq tapşırıqlar verildi. Eyni zamanda nəqəbçilərə göstəriş verildi ki, qala divarları altına lağım atsınlar və divarları dağıtsınlar. Beləliklə, qızılbaş qoşunları Qəndəhar üzərinə elə bir hücum həyata keçirdilər ki, bu hücumla şəhərin taleyini həll etmək mümkün oldu. Əsgəri Mirzə vəziyyətin gedişini təhlil edəndən sonra belə bir qənaətə gəldi ki, müqaviməti bir qədər də davam etdirsə, nəticəsi onun üçün çox ağır olacaqdır. Çünki bir tərəfdən Kamran Mirzənin göndərdiyi qoşun dəstəsi gəlib çatmamışdı, digər tərəfdən də

qızılbaş lağımçıları Qəndəharın qala divarlarını artıq dağıtmağa yaxın idilər. Ona görə də Əsgəri Mirzə təslim olmağı qərar aldı və salamat qalması üçün qardaşı Hümayun şahın yanına öz adamlarını göndərdi, bağışlanmasını ondan xahiş etdi. Hümayun şah döyüşü davam etdirməyi lazımsız bilib qardaşını bağışladı. Əsgəri Mirzə qaladan çıxaraq Hümayun şahın yanına gəldi. Hümayun şahın fərmanına əsasən, şəhərin bir sıra əmir və əyanları həbs edildilər. Onun fikrincə, həmin adamlar qızılbaş qoşunlarına qarşı müqavimət göstərilməsində, habelə Əsgəri Mirzəyə düzgün məsləhətlər verilməməsində günahkar idilər. Şəhər xəzinəsi ələ keçirildi və bu xəzinə Hümayun şah tərəfindən Şahverdi bəyə və xassə qorçulara tapşırıldı. Onlar isə həmin xəzinəni və ələ keçirdikləri digər sərvətləri Şah Təhmasibə təhvil verməli idilər (183). Bu qərar iki şah arasında əldə edilmiş razılaşmaya uyğun olaraq qəbul edilmişdi.

Cövhər Aftabeçinin əsərində olan məlumata görə, Qəndəhar mühasirədə olanda Hümayun şah yaxınlıqdakı hündürlüklərdən birinin üstünə qalxdı və şəhər daxilində Əsgəri Mirzənin məskunlaşdığı sarayı müşahidə edə bildi. Bundan sonra o, əmr etdi ki, topçular həmin sarayı hədəf götürsünlər. Topçular belə də edirlər və həmin saraya ciddi xəsarət yetirdilər. Mənbə məlumatına görə, bu hadisədən sonra Əsgəri Mirzə vəziyyətinin mürəkkəb olduğunu anladı və Zəhirəddin Baburun bacısı, Əsgəri Mirzənin bibisi Xanzadə bəyimə məktub göndərdi və ondan bağışlanması üçün Hümayun şaha müraciət etməsini xahiş etdi. Bildirilir ki, Xanzadə xanım da Hümayun şaha məktub göndərdi və Əsgəri Mirzənin bağışlanmasını xahiş etdi. Hümayun şah da bu məktubdan sonra Əsgəri Mirzəni bağışladı və beləliklə Qəndəhar ələ keçirildi. Şəhərin alınmasından sonra Hümayun şah qızılbaş əmirləri ilə birlikdə qalaya daxil oldular və Əsgəri Mirzənin sarayına yollandılar. Onun əmri əsasında Əsgəri Mirzənin xəzinəsi açıldı. Xəzinənin açılmasında Şah Təhmasibin oğlu Sultan Murad Mirzə, Budaq xan Qacar, Sistan hakimi Sultan Əhməd, Kirman hakimi Şahqulu xan və digərləri iştirak etdilər. Xəzinəyə baxış keçiriləndən sonra Hümayun şah əmr etdi ki, onun qapısı

bağlansın və Şah Təhmasibin adamları tərəfindən möhürlənsin. Qarşılıqlı razılaşmaya əsasən, Hümayun şah bu xəzinəni Qəzvinə göndərmək üçün qızılbaş əmirlərinə təhvil verdi. Amma qızılbaş əmirləri Əsgəri Mirzənin də əsir edilərək Qəzvinə göndərilməsi məsələsini qaldırdılar. Hümayun şah bununla razı olmadı. Əksinə, qaladan çıxaraq onun tabeliyində olan qüvvələrə baxış keçirdi. Onun bu hərəkəti Hümayun şaha qarşı bir inamsızlıq yaratdı və belə bir güman oyatdı ki, vaxtilə onun atası Zəhirəddin Babur qızılbaş qüvvələrinə qarşı sədaqətsizlik göstərdiyi kimi, indi də Hümayun şah belə bir əmələ yol verə bilər. Məlumdur ki, Əsgəri Mirzə əsir alınmadı. Amma onun xəzinəsi qoşun bölmələrinin müşayiəti ilə Qəzvinə göndərildi. Adı çəkilən müəllifin məlumatından belə bir qənaət hasil olur ki, Hümayun şahın rəhbərliyi altında həyata keçirilən kampaniya hələ başa çatmamış Əsgəri Mirzənin xəzinəsi Qəzvinə çatdırıldı və Şah Təhmasib də bundan çox məmnun olaraq Hümayun şaha bahalı paltar hədiyyə göndərdi (184).

“Əhsənüt-təvarix” əsərində də Qəndəharın alınması haqqında məlumat vardır. Həmin məlumat daha çox Cövhər Aftabeçinin verdiyi məlumata yox, yuxarıdakı məlumata oxşardır. “Əhsənüt-təvarix” müəllifi Həsən bəy Rumlu yazırdı: “Adı çəkilən sərdarlar sözügedən vilayətə yola düşdülər. Onlar Gərmsirə çatdıqda Kamran mirzə tərəfindən Qəndəhar hakimi olan Əsgəri mirzə qalanı möhkəmləndirib xilaf bürcündə əyləşdi və Kabilə ərizə göndərib Hümayun padşahın gəldiyini bildirdi. Mirzə Kamran, Qasım sultanla Əmir Xəlili dilavərlik meydanının süvarilərindən ibarət bir dəstə ilə Mirzə Əsgəriyə yardım etmək üçün həmin vilayətə yolladı. Elə ki bu xəbər uca məqamlı [Hümayun] padşaha çatdı, o, qızılbaş qoşunu ilə birlikdə savaş əzmi ilə sürətlə hərəkətə keçdi. Bir sıra əmirlər mənqəlay şəklində irəli getdilər. Düşmənlər də cürət və igidlik nümayiş etdirdilər. Süvarilərdən və piyadalardan ibarət şövkətli bir dəstə döyüş və vuruş xəyalı ilə qaladan çıxdı. Döyüş başladı. Hər iki tərəf döyüşdü və səy göstərdi. Fitnə və rəzalət atəşinin şölələnməsindən sonra Mirzə Əsgərinin astanasının qılınc qurşananları və

dilavərlik meydanının çevik süvariləri qaçmağa üz qoydular və qalaya pənah apardılar. Çoxlu əsgərlər qalanı mərkəz kimi araya aldılar. Ora elə bir qaladır ki, fələklər fələyinə başını çəkibdir və ruzigarın gözü onun mislini görməyibdir. Onun bürcünə yüksəlmək arzusu qeyri-mümkün bir xəyaldır.

...Qiyamət şövkətli qoşunun gəlişindən dağa zəlzələ və o güruhun canına vəlvələ düşdü. Mirzə Əsgəri və onun adamları əllərini oxla kamana atıb döyüşə başladılar. Səkkiz ay ərzində Hümayun padşah və dövlətsevər qazilər qalanı mühasirədə saxladılar. Əsgəri mirzə Kamran mirzənin yardımından ümidini üzdü, onun əhvalı üzərində zəiflik və sınıqlıq əlamətləri zahir oldu və o, üzrxahlıq etməkdən, şəfaət istəməkdən başqa çarə görmədi. Hümayun padşaha xeyirxah elçilər göndərdi və aman dilədi. Yaxşı əxlaqlı hökmdar özünü "Qəzəblərini udanlar" [Qurani-Kərim, "Ali-İmran",134-cü ayə] zümrəsindən qərar verərək, "İnsanların günahlarından keçənlər" [Qurani-Kərim, "Ali-İmran",134-cü ayə] dəstəsindən sayaraq, "Allah yaxşılıq edənləri sevər" [Qurani-Kərim, "Ali-İmran",134-cü ayə] nəzərə alaraq qəzəbini boğdu. Mirzə Əsgəri və [onun] yardımçıları və tərəfdarları Qəndəhar məhbəsindən (mühasirədən) çıxıb, [Hümayun padşahın] feyz bəxş edən barmaqlarını öpmək iftixarına və şərəfinə nail oldular. Budaq sultan şəhərin içinə daxil olub şəhəri öz ixtiyarı altına aldı. Hümayun padşah və dinin pənahı olan şahın əmirləri Qəndəharda oturdular. Dörd gün sonra aləmi yandıran qazilər padşahın rüxsəti olmadan köç edib öz ölkələrinə yollandılar. Baxmayaraq ki, dinin pənahı olan şah Kabil vilayətini Kamran mirzədən almayınca geri dönməmələri haqqında hökm vermişdi. Hümayun padşah beş min süvari ilə Qəndəhar nahiyələrində qalıb, öz əmirlərini çağıraraq məşvərət etdi. Sultan Hüseyn mirzənin nəvələrindən olan Uluğ mirzə ərz etdi:

- Yaxşısı budur ki, Qəndəharı Budaq xandan alıb, köçlərimizi və ailələrimizi orada qoyaraq Kabilə yollanaq. Bu tədbir aydın ürəkli hökmdarın xoşuna gəldi. Uluğ mirzə məşhur dilavərlərdən üç yüz nəfərlə Maşur darvazası tərəfdən şəhərə yollandı. Əmir Hacı Məhəmməd Gugə bir dəstə bahadırla Kəndəgan darvazası

yolundan həmin şəhərə doğru hərəkətə gəldi. O iki sərdar Qəndəhar darvazasına çatdıqda darvaza gözətçilərinin qafil olduqlarını gördülər və özlərini qalanın içinə saldılar. Budaq sultanın mülazimləri ərk qalasına pənah apardılar. Ondan sonra Hümayun padşah şəhərə gəldi. Budaq xan ərkdən aşağı enib, [Hümayun] padşahdan rüxsət alaraq dinin pənahı olan şahın dərgahına yollandı. Elə ki Qəndəhar məmləkəti dinin pənahı olan şahın imdadı ilə yenidən Hümayun padşahın ixtiyarına keçdi, cağatay əmirləri dəstə-dəstə Kamrandan üz çevirib o həzrətə qoşuldular. Hümayun padşah xeyirxah adamların məsləhəti ilə Kabilə yollandı. O əsnada Qaraca bəy adlı-sanlı padşahın əlini öpmək şərəfinə nail olub müxtəlif lütfkarlıqlara layiq görüldü. Həmçinin o əsnada Qoç bəyin oğlu Şirəfkən Bahadır yaxşı silahlanmış min süvari ilə mərdimazar Kamrandan fərar edib orduya qoşuldu. Eləcə də Həzarə hakimi Xızır xan on min adlı-sanlı süvari ilə zəfər şüarlı qoşuna qatıldı. Padşahın gəlişindən agah olan Mirzə Kamran Kabili qoyub fərar etdi. Hümayun padşah son dərəcə əzəmət və şövkətlə Kabilə daxil oldu. Həzarələr, əşirətlər və səhra sakinləri bol peşkəşlərlə Hümayunun hüzuruna gəlib onun büsatına enmək səadəti tapdılar.

Bu il iki ulduzun qovuşması baş verdi. Dinin pənahı olan şah Qəzvində səadət və calalla qışlaq etdi" (185).

Məlumdur ki, qarşılıqlı razılaşmaya əsasən, Qəndəhar alındıqdan sonra Şah Təhmasibin tabeliyinə verilməli və bu şəhər Səfəvi hüdudları daxilinə qatılmalı idi. Ancaq "Əhsənüt-təvarix"dəki məlumatdan da göründüyü kimi, Hümayun şahla qızılbaş əmirləri arasında yaranmış münasibət Qəndəharla bağlı yeni bir durumu ortaya gətirdi, bu şəhər qızılbaş əmirlərinin nəzarəti altından çıxarıldı. Bu məsələnin təfərrüatı "Əhsənüt-təva rix"də açılmamışdır. Mövcud olan digər məlumatlara görə, Qəndəhar şəhəri 1545-ci il sentyabr ayının ilk günlərində Əsgəri Mirzədən təhvil alındı. Şah Təhmasibin göstərişi belə idi ki, Qəndəhar alınıb Sultan Murad Mirzəyə təhvil veriləndən sonra qızılbaş əmirləri Hümayun şahla birlikdə Kabul və Qəznəyə doğru hərəkətlərini davam etdirsinlər və həmin şəhərləri də

Kamran Mirzənin əlindən çıxarıb Hümayun şaha təhvil versinlər. Amma Qəndəhar şəhəri ələ keçiriləndən sonra qızılbaş əmirləri tabeliklərində olan qoşun dəstələri ilə bu şəhəri tərk edib geri qayıtdılar. Yuxarıda qeyd edildiyi kimi, bir neçə vilayət hakimi də öz qoşun dəstələri ilə Hümayun şahı müşayiət edirdilər. Bu əmirlərin öz qoşun dəstələri ilə geri dönməsindən sonra Qəndəharda Budaq xan Qacar öz qoşun dəstəsi ilə qaldı. Həmin qoşun dəstəsi isə şah Təhmasib tərəfindən verilmiş tapşırığı bütünlüklə yerinə yetirmək imkanında deyildi. Qızılbaş əmirlərinin bir neçə gündən sonra özbaşına Qəndəharı tərk edib geri qayıtması haqqında mənbələrdə yetərli məlumat mövcud deyildir. Məlum olmur ki, nə üçün bu dəstələr özbaşına geri qayıtdılar. Ola bilsin ki, ciddi bir əsas var idi. Yoxsa, onlar Şah Təhmasibin əmrinin icrasına belə laqeydlik göstərməzdilər. Bu isə Qəndəhar ətrafında və eləcə də Hümayun şahın qarşısında dayanan vəzifələrlə bağlı yeni bir situasiya yaratdı (186).

Elə həmin günlərdə Şah Təhmasibin oğlu Sultan Murad Mirzə dünyasını dəyişdi. Rəsmi olaraq kiçik yaşlarında olan Sultan Murad Mirzə Qəndəharın hakimi hesab olunmalı idi. Amma onun da dünyasını dəyişməsi yeni bir durumu ortaya gətirdi. Sultan Murad Mirzənin dünyasının dəyişməsinin səbəbləri barəsində mənbələrə yetərli məlumat yoxdur. Onun ölümü elə lələsi Budaq xan Qacarın özü üçün də gözlənilməz olmuşdu. Cövhər Aftabeçi yazırdı ki, Sultan Murad Mirzənin dünyasını dəyişməsi ərəfəsində Hümayun şah Kabul üzərinə hərəkət etmək niyyətində idi. Lakin bu qəfil xəbər onun hərəkətini təxirə saldı. Adı çəkilən müəllif səbəblərini açıqlamasa da bu xəbərdən sonra Hümayun şahda Qəndəharı öz nəzarəti altına gətirmək fikrinin yarandığına işarə etmişdir. Belə bir niyyət əslində, Şah Təhmasiblə Hümayun şah arasındakı razılaşmanın əksinə idi. Hümayun şah vəd etmişdi ki, qızılbaş qoşunlarının köməyi ilə Qəndəharı alıb Şah Təhmasibə təhvil verəcəkdir. Cövhər Aftabeçinin yazdığına görə, Sultan Murad Mirzənin ölüm xəbəri alınandan sonra Hümayun şah öz əmirlərinin və yaxınlarının toplantısını keçirdi və bu toplantıda Qəndəharın nəzarət altına alınması məsələsini qaldırdı.

Hümayun şahın yaxınlarından olan Hacı Məhəmməd xan adlı birisi bu işin ona tapşırmasını təklif etdi. Hümayun şah da bununla razı oldu. Cövhər Aftabeçinin verdiyi məlumata görə, adı çəkilən xan öz dəstəsi ilə səhər tezdən qala darvazalarına yaxınlaşdı və darvazalar açılan kimi, keşikdə dayanmış qızılbaş əmirlərini əsir etdi. Şəhərə nəzarəti itirdiyini hiss edən Budaq xan Qacar iç qalaya çəkilib orada özünə sığınacaq tapdı. O, gecə ikən qala divarlarını aşaraq Qəndəhardan uzaqlaşa bildi. Bununla, Qəndəhar bütünlüklə Hümayun şahın nəzarəti altına düşdü. Bu şəhərin nəzarət altına alınmasından sonra Kamran Mirzənin xidmətində olan bir çox əmirlər Hümayun şaha sədaqət nümayiş etdirdilər. Hətta Kabulda dustaq olan kiçik qardaş Həndal Mirzə də Hümayun şaha qoşuldu və bu da sonradan Kamran Mirzə üzərində üstünlük əldə edilməsinə yol açdı (187).

Qəndəharın nəzarət altına alınması üçün Hümayun şahın qüvvələrinin bu şəhərə gizli şəkildə yeridilməsi haqqında da məlumatlar vardır. İstənilən halda, Qəndəhar Hümayun şahın nəzarəti altına gətirildi. Hümayun şah sözsüz ki, bu hadisənin Şah Təhmasibin qəzəbinə səbəb ola biləcəyini anlayırdı. Ona görə də Qəndəharın nəzarət altına alınmasından sonra Şah Təhmasibə məktub göndərdi və onunla əldə etmiş olduğu razılaşmanın əksinə olaraq Qəndəharı nəzarət altına almasının səbəbini ona açıqlamağa çalışdı. Hümayun şah buna səbəb kimi, Sultan Murad Mirzənin dünyasını dəyişməsini, Budaq xan Qacarın Qəndəhar əhalisi ilə pis rəftar etməsini və Qəndəhar əhalisinin də ondan şikayətçi olmasını göstərdi. Şah Təhmasibin qəzəbini yumşaltmaq üçün Hümayun şah tərəfindən Bayram xan Qəndəhar hakimi təyin edildi. Hümayun şahın yaxın məsləhətçilərindən olan Bayram xan bir tərəfdən Şah Təhmasibin hörmət etdiyi adam idi, digər tərəfdən də o, şiə məzhəbinə mənsub idi. Bununla Hümayun şah göstərmək istəyirdi ki, Şah Təhmasibə rəğbətli münasibətini saxlamaqdadır. Bəzi məlumatlara görə, Şah Təhmasibin qəzəbini yatırmaq üçün Hümayun şah məktubunda yazmışdı ki, Qəndəhar Səfəvi şahına məxsus olaraq qalmaqdadır (188).

Şah Təhmasib Qəndəharın Bayram xanın idarəçiliyinə verilməsinə etiraz etmədi. Əksinə hətta məlumdur ki, sonralar o, mümkün olan vasitələrlə Bayram xanı müdafiə etməyə çalışdı. Bayram xan da öz müdrikliyi ilə elə bir siyasət yeritməyə çalışdı ki, Şah Təhmasiblə Hümayun şah arasında bir körpü rolunu oynasın. Qəndəharın Bayram xanın idarəçiliyinə verilməsi Şah Təhmasiblə Hümayun şah arasındakı münasibətlərə də bir ziyan gətirmədi. 1545-ci ilin sonlarında Şah Təhmasib Kabul şəhərinin Hümayun şah tərəfindən fəthinin təbrik edilməsi üçün Vələd bəy Təkəli adlı əmirini elçi kimi Hümayun şahın yanına göndərdi. Hümayun şah bu elçilik heyətini çox böyük mehribanlıqla qarşıladı. Vələd bəy bir ildən sonra geri qayıda bildi və o özü ilə Hümayun şahın Şah Təhmasibə ünvanladığı məktubu da gətirdi. Qarşılıqlı münasibətlərin pozulmadığına sevinən Hümayun şah Səfəvi şahından xahiş etdi ki, bəzi saray musiqiçilərini və sənətkarlarını onun sarayına göndərsin. Şah Təhmasib də onun bu xahişinə müsbət cavab verdi (189).

Şah Təhmasiblə Hümayun şah arasındakı xoş münasibətlər sonralar da davam etdi. 1548-ci ildə Hümayun şah tərəfindən Xoca Cəlaləddin Mahmud adlı birisi elçi kimi Səfəvi sarayına göndərildi. Lakin o gedib Qəzvinə yetişmədi. Səbəbi məlum olmayan çətinliklər üzündən Xoca Cəlaləddin Mahmud Qəndəhardan o yana hərəkət edə bilmədi. 1550-ci ildə Hümayun şahın maliyyə vəziri Qazı Şeyxəlinin rəhbərliyi altında başqa bir elçilik Səfəvi sarayına göndərildi. Bu elçiliyin göndərilməsində başlıca səbəb Bəhram Mirzənin dünyasını dəyişməsi münasibətilə Şah Təhmasibə başsağlığının çatdırılması idi. Qazı Şeyxəli geri qayıdanda Şah Təhmasibin elçilik heyəti də ona qoşuldu. Həmin elçilik heyətinə Kamaləddin Uluğ bəy rəhbərlik edirdi. Şah Təhmasib onunla göndərdiyi məktubda Hümayun şahla münasibətlərin xoş məram üzərində qurulmasından məmnun olduğunu bildirməklə Kamran Mirzəyə qarşı mübarizədə kömək göstərməyə hazır olduğunu da bəyan etdi. Mövcud olan məlumatlara görə, 1551-ci ildə, 1552-ci ildə 1554-cü ildə də Şah Təhmasiblə

Hümayun şah arasında elçilik mübadiləsi baş verdi ki, bu da iki şah arasındakı münasibətlərin inkişafından xəbər verirdi (190).

1555-ci ildə Hümayun şah öz qoşunları ilə Dehliyə daxil oldu və bununla Kürəkani imperatorluğunu yenidən bərpa etdi. Lakin onun imperatorluğu çox da uzun sürmədi və 1556-cı ildə dünyasını dəyişdi. Onun yerinə taxta oğlu Cəlaləddin Məhəmməd Əkbər şah çıxdı. Hümayun şahın dünyasını dəyişməsi ilə iki dövlət arasında yenidən Qəndəhar məsələsi gündəmə gəldi. 1556-cı ildə Şah Təhmasib qardaşı Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzənin rəhbərliyi altında qızılbaş qoşun dəstəsini Zəmindavəri və Qəndəharı ələ keçirməyə göndərdi. Bu yürüşün gedişində Zəmindavərin ələ keçirilməsi mümkün olsa da, Qəndəharın ələ keçirilməsi mümkün olmadı. Amma növbəti ildə, yəni 1557-ci ildə Qəndəhar üzərinə yeni bir yürüş həyata keçirildi və bu yürüş uğurla yekunlaşdı. Şah Təhmasibin hakimiyyətinin sonuna qədər Qəndəhar şəhəri Səfəvi hüdudlarında qaldı. Lakin Qəndəharla bağlı məsələ iki səltənət arasında müəyyən həssaslığın ortaya çıxmasına da səbəb oldu. Şah Təhmasibin dünyasını dəyişməsinə qədər iki səltənət arasında bir neçə elçilik mübadiləsi olsa da, iki dövlət arasındakı münasibətlərdə xüsusi bir yaxınlaşma özünü göstərmədi.

## 4. İstifadə olunmuş mənbə və ədəbiyyat

1.Mahmudov Y. Azərbaycan diplomatiyası: Səfəvilər və Avropa// "Kommunist" qəzeti, N-34, 16 fevral 1991
2. Şah Təhmasibin təzkirəsi. Tərcümə edən Əbülfəz Rəhimov. Bakı, 1996 s.28
3. Bax: Cəfərian R. Nəqş-e xanədan-e Kərəki dər təsis və tədavüm-e dövlət-e Səfəvi. Tenran, 1387, s. 198
4. Dehqani R. Rəvabet-e İran və Osmani dər mosabe-ye olqu-ye rəvabet-e şərqi-islami, s.88 //Fərhəng, N-71, 1388, s. 83-107
5. Хосейнширази С.С. Военно-политические отношения Мавераннахра и Ирана в XVI в. Диссертация на соискание

ученой степени кандидата исторических наук. Душанбе, 2014, с.103
6. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni: Əbdülhüseyn Nəvayi. Tehran, 1368, s. 195-196
Хосейнширази С.С. Военно-политические отношения Мавераннахра и Ирана, s. 105
7. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu,s. 314-315
8. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu, 1368, s. 316-318
Хосейнширази С.С. Военно-политические отношения Мавераннахра и Ирана, s. 106
9. Bax: Quliyev Ə. I Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvi-Osmanlı siyasi münasibətləri ingilisdilli tarixşünaslıqda, s.359 //Tarix və onun problemləri, N-2, 2014, s. 353-361
10. Borazeş Ə.H. Rəvabet-e siyasi-diplomatik-e İran və cahan dər əhd-e Səfəviyye. Tehran, 1392, s.160
11. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu, s. 460-464
12. Bax: Borazeş Ə.H. , s.157
13. Yenə orada, s. 157
14. Yenə orada, s. 161
15. Mohəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.817
16. Yenə orada, s. 819
17. Yenə orada, s. 834
18. Borazeş Ə.H., s.168-169
19. Mehdəvi A.H. Tarix-e rəvabet-e xareci-ye İran əz ibtida-ye dövran-e Səfəviyye ta payan-e cəng-e dovvom-e Cahani. Tehran, 1369, s. 41-42
20. Sarıkaya S. M. Dini ve siyasi bakımdan Osmanlı-İran münasebetleri, s.411/Türk kültürü, N-363, s. 406-422 ---------
21. Remzi Kılıc. Osmanlı devletinin İran politikası (16. Ve 17. Yüzyıl). Türk Dış Politikası Osmanlı Dönemi, C. I-II, Editör: Mustafa BIYIKLI, Gökkubbe Yayınları, İstanbul, C. I, s. 75-116,

22. Bulut X.İ. Osmanlı-Safevi mucadelesinde ülemanın rolü: Kamal Paşazade örnegi, s.180//Dini araştırmalar, c.7, s.179-195
23. Bulut X.İ. Osmanlı-Safevi mucadelesinde ülemanın rolü: Kamal Paşazade örnegi, s.180//Dini araştırmalar, c.7, s.186-187
Hakyemez C. Osmanlı-İran ilişkileri ve sünni-şii ittifakı. İstanbul, 2014, s. 58-59
24. Yenə orada, s. 188-189
25. Yenə orada, s. 190-191
26. Sarıkaya S. M. Dini ve siyasi bakımdan Osmanlı-İran münasebetleri, s.413
27. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 729-730
28. Yenə orada, s. 730
29. Bastani Parizi, M.İ. Siyasət və iqtisad dər əsr-e Səfəvi. Tehran, 1368, s. 118
30. Yenə orada, s. 119
31. Mohəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.849
32. Yenə orada, s. 850
33. Yenə orada, s. 847-848
34. Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011, s.268
35. Venesiyalılar Şah I Təhmasibin sarayında. Tərcüməsi O.Əfəndiyevindir. Bakı, 2005, s.5
36. Venesiyalılar Şah I Təhmasibin sarayında, s. 22-23
37. Yenə orada, s. 24
38. Yenə orada, s. 31
39. Yenə orada, s. 38
40. Yenə orada, s. 41-42
41. Yenə orada, s. 47
42. Borazeş Ə.H. , s.332
43. Bax: Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011, s.277
44. Yenə orada, s. 278
45. Yenə orada
46. Yenə orada

47. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 756
Borazeş Ə.H. , s.333
48. Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991, с. 177
49.Yenə orada, s.178
50. Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011, s.292-293
51. Yenə orada, s. 293-294
52. Borazeş Ə.H. , s.333
53. Borazeş Ə.H. , s.333
Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов..., с. 177
Süleymanov N. Azərbaycan Səfəvi dövləti 1501-1736-cı illər. Bakı, 2018, s.129
54. Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011, s.295
Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов.., с. 180
55. Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011, s.296
Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов..., с. 180
56. Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов..., с. 180
57. Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов..., с. 181-182
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 757
Borazeş Ə.H. , s.334
58. Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011, s.298
Borazeş Ə.H., 1392, s.334
59. Английские путешественники в Московском государстве в XVI веке. Москва, 1937, с.7
Азимли Д., Гасымов Х. Роль Волжско-Каспийского торгового маршрута в экономической и культурной жизни Сефевидского государства
http://bao.az/categories_Tarix/subcategories_azerbaycan-tarix/product_0810357372

Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 745
60. Английские путешественники в Московском государстве в XVI веке. Москва, 1937, с.11
Магарамов Ш. Англичане на Каспийском море в XVI в., с. 62// Вестник Кемеровского государственного университета, 2017, № 3, с.62-66
61. Английские путешественники ..., с.14
Магарамов Ш. Англичане на Каспийском море в XVI в., с. 62
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 746
62. Английские путешественники... , с.14
Магарамов Ш., с. 62
63. Магарамов Ш., с. 62
64. Магарамов Ш. , с. 62-63
Səfərnameha-ye ingilisha dər İran. Qum, 1396, s. 16
65. Азимли Д., Гасымов Х. Роль Волжско-Каспийского...
Дзарасов А. А., Рябцев А. Л., Дзарасов А. О. Особенности восточной торговли России в XVI веке. http://moscowstate.ru/osobennosti-vostochnoj-torgovli-rossii-v-xvi-veke/
66. Дзарасов А. А., Рябцев А. Л., Дзарасов А. О. Особенности...
67. Азимли Д., Гасымов Х. Роль Волжско-Каспийского...
Дзарасов А. А., Рябцев А. Л., Дзарасов А. О. Особенности...
68. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 216
69. Магарамов Ш. Англичане на Каспийском море в XVI в., с. 62-63
Səfərnameha-ye ingilisha dər İran. Qum, 1396, s. 17
70. Английские путешественники..., с.20
71. Yenə orada, s. 193
72. Yenə orada, s. 195
73. Yenə orada, s. 196
74. Английские путешественники...,с.200

Mehdəvi A.H. Tarix-e rəvabet-e xareci-ye İran əz ibtida-ye dövran-e Səfəviyye ta payan-
e cəng-e dovvom-e Cahani. Tehran, 1369, s.39
75. Английские путешественники...,c.203
76. Yenə orada, s. 204
77. Bax: Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011, s.283
78. Английские путешественники...,c.204
79. Bax: Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 219-220
80. Английские путешественники..., c.206-207
81. Yenə orada, s. 208-209
82. Английские путешественники..., c.193-194
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 747-748
83. Английские путешественники...,c.210
84. Yenə orada, s. 211-212
85. Английские путешественники...,c.216
Mahmudov Y. Odlar yurduna səyahət. Bakı, 1980, s.16
86. Английские путешественники..., c.218
Mahmudov Y. Odlar yurduna səyahət. Bakı, 1980, s.17
87. Bax: Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 220
88. Английские путешественники..., c.221
Mahmudov Y. Odlar yurduna səyahət. Bakı, 1980, s.18-19
89. Английские путешественники..., c.221
90. Yenə orada, s. 223-224
91. Yenə orada, s. 225-226
92. Английские путешественники..., c.227-228
Mahmudov Y. Odlar yurduna səyahət. Bakı, 1980, s.23
93. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 752-753
94. Английские путешественники..., c.227-228
95. Yenə orada, s.228
96. Английские путешественники...,c.234
Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011, s. 284-285
Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.221

97. Английские путешественники..., с.236
98. Английские путешественники..., с.240-243
Mahmudov Y. Odlar yurduna səyahət. Bakı, 1980, s.32-33
99. Английские путешественники..., с.246-247
100. Английские путешественники..., 1937, с.246-247
Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011, s. 286-287
101. Английские путешественники..., 1937, с.247
Mahmudov Y. Odlar yurduna səyahət. Bakı, 1980, s.36
102. Английские путешественники..., с.250
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 755-756
103. Английские путешественники..., с.252-253
104. Yenə orada, s. 251-252
105. Yenə orada, s. 252-253
106. Borazeş Ə.H. , s.291
107. Yenə orada, s. 291-292
108. Yenə orada, s. 292
109. Yenə orada, s. 308
110. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonı, 2017, s. 556
111. Yenə orada, s. 619
112. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı, 2009, s.179
113. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 403
Borazeş Ə.H. , s.197
114. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 403-404
Borazeş Ə.H. , s.201
115. Qərib Q. Əvamel-e müəssər bər rəvabet-e səfəviyan ba Kürəkaniyan, s. 24/Fəsilname-ye tarix-e rəvabet-e xarici, 1397, N-74, s. 21-49
116. Borazeş Ə.H. , s.202
Şəhriyar Nəqəvi S.H. Nomayəndeqan-e siyasi-ye İran və Hindustan dər zəman-e səfəviyan və baburian, s.37-38// Bərrəsiha-ye tarixi, N-6, sal-e həftom, s. 38-44

117. Borazeş Ə.H. , s.202
Şəhriyar Nəqəvi S.H. Nomayəndeqan-e siyasi-ye İran və Hindustan dər zəman-e səfəviyan və baburian, s.38
118. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 404
Sərxil F. Rəvabet-e Səfəviyan və Kürəkaniyan-e hend, s.137 //Tarix-e İslam, 1386, N-30, s. 133-162
Şəhriyar Nəqəvi S.H. Nomayəndeqan-e siyasi-ye İran və Hindustan dər zəman-e səfəviyan və baburian, s.39
119. Şəhriyar Nəqəvi S.H. Nomayəndeqan-e siyasi-ye İran və Hindustan dər zəman-e səfəviyan və baburian, s.39
120. Soltanian Ə., Kohənsal H. Bərrəsi-ye çegunegi-ye rəftar-e Şah Təhmasib ba Homayun (imperator-e pənahəndə-ye hind) ba negəriş-e didqah-e tarixnegari-ye hindi-ye an, s.104// Motaleat-e tarix-e islam, 1392, N-16, s. 101-120
121. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 404-405
122. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s. 179-180
123. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 405
124. Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s. 148
Oruc C., Dağlar M. Tahmasb-Humayun ittifakında şiilikin rolu, s.666// Odu Üniversitesi Sosyal Bilimler Araştırmaları Dergisi, 6(3), 665-670, Aralık 2016
125. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s.180
126. Rumlu H. Əhsənüt-təvarix , s.529
127. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 410
128. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s. 180-181
129. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 412
Sərxil F. Rəvabet-e Səfəviyan və Kürəkaniyan-e hend, s.137
130. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s.181
Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379, s. 149-150

131. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.182
132. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 415
Soltanian Ə., Kohənsal H. Bərrəsi-ye çegunegi-ye rəftar-e Şah Təhmasib ba Homayun (imperator-e pənahəndə-ye hind) ba negəriş-e didqah-e tarixnegari-ye hindi-ye an, s.106
133. Borazeş Ə.H. , s.208-209
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 416-417
134. Borazeş Ə.H. , s.208-209
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 418
135. Borazeş Ə.H. , s.208-209
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 418
136. Fərman-e Şah Təhmasib be hakim-e Xorasan, s. 946/ Bax: Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 941-948
137. Borazeş Ə.H. , s.208-209
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 419
138. Rumlu H. Əhsənüt-təvarix, s. 529
139. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s. 182-183
140. Borazeş Ə.H. , s.209
141. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun. London, 1832, s. 59
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 426-427
142. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.59
İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s.183
Rumlu H. Əhsənüt-təvarix, s. 529
143. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 428
Oruc C., Dağlar M. Tahmasb-Humayun ittifakında şiilikin rolu, s.667
144. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 307
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 428
Oruc C., Dağlar M. Tahmasb-Humayun ittifakında şiilikin rolu, s.667

145. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.60
146. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.62
Oruc C., Dağlar M. Tahmasb-Humayun ittifakında şiilikin rolu, s.667
147. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.62
Oruc C., Dağlar M. Tahmasb-Humayun ittifakında şiilikin rolu, s.667
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 430
148. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 431-432
149. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 307
Şirazi, Əbdi bəy. Təkmilətül-əxbar. Bakı, 1996, s. 65
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 445
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.184
Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.62
150. Hüseyni Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1359, s. 308-309
Nəvayi Ə. Rəvabet-e siyasi və iqtisadi-ye İran dər əsr-e Səfəvi. Tehran, 1386, s.46
151. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s. 183-184
152. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.64
153. Şirazi, Əbdi bəy. Təkmilətül-əxbar. Bakı, 1996, s. 65
154. Rumlu H. Əhsənüt-təvarix, s. 530
155. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s. 185-186
156. Borazeş Ə.H, s.212
157. Yenə orada, s. 213
158. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.68

Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 449
159. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.69
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 449-450
160. Borazeş Ə.H. , s.213
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 449
161. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 451
162. Yenə orada, s. 452
163. Yenə orada, s. 455
164. Bax: Soltanian Ə., Kohənsal H. Bərrəsi-ye çegunegi-ye rəftar-e Şah Təhmasib ba Homayun (imperator-e pənahəndə-ye hind) ba negəriş-e didqah-e tarixnegari-ye hindi- ye an, s.107
165. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.70
166. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 456
167. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.71
168. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 461
169. Yenə orada, s. 463
170. Yenə orada, s. 463
171. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.73
172. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.74
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 464
173. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.75
174. Cunabedi M. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 497
175. Borazeş Ə.H, s.215
176. Rumlu H. Əhsənüt-təvarix, s. 530
177. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s.186
178. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s.187

179. Cunabedi M. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 496
180. Cunabedi M. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 498
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 466
181. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.77
182. İsgəndər bəy Münşi Türkman.Tarix-i aləmara-yi Abbasi, s.187
183. Cunabedi M. Rövzətüs Səfəviyyə. Tehran, 1378, s. 498-500
184. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.78
185. Rumlu H. Əhsənüt-təvarix, s. 530-532
186. Borazeş Ə.H. , s.216
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 468
187. Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun, s.80
188. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 475-476
189. Borazeş Ə.H. Rəvabet-e siyasi-diplomatik-e İran və cahan dər əhd-e Səfəviyye. Tehran, 1392, s. 217
190. Yenə orada, s. 217-218

# VI FƏSİL

# ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ HƏRB İŞİ

## 1. Şah Təhmasibin hərbi strategiyası

Şah Təhmasibin hərbi strategiyası onun dövlət siyasətinin tərkib hissəsi idi. Bu strategiyanın mahiyyəti səltənətin mövcudluğunun qorunub saxlanması, onun hüdudlarının təhlükəsizliyinin təmin edilməsi, hərbi təhdidlərin qarşısının alınması üçün müdafiə potensialının formalaşdırılması zərurəti ilə şərtlənirdi. Dövrün və zamanın tələblərinə uyğun olan siyasət isə bu strategiyanın əsas istiqamətlərini müəyyənləşdirirdi. Onun üçün həm xarici hərbi təhlükəsizliyin, həm də daxili hərbi təhlükəsizliyin təmin edilməsi eyni dərəcədə tarixi əhəmiyyət kəsb edirdi. Çünki hakimiyyət başına gəlməsinin elə ilk illərindən Şah Təhmasib həm səltənət daxilində hərbi-siyasi sabitliyin təmin edilməsi, həm də səltənət xaricində mövcud olan təhdidlərin qarşısının alınması zərurəti ilə qarşılaşmışdı.

Şah Təhmasibə atası Şah İsmayıldan çox böyük ərazilərə malik olan bir səltənət irs qalmışdı. Bu səltənətin qorunub saxlanması və özündən sonrakı nəslə təhvil verilməsi həm də onun müəyyənləşdirdiyi hərbi strategiyanın düzgünlüyündən asılı idi. Bütünlükdə Şah Təhmasibin hərbi strategiyasının müəyyənləşməsinə bir neçə amil təsir edirdi ki, onların nəzərə alınmaması hərbi strategiyanın səmərəliliyinə də öz təsirini göstərə bilərdi. Bunlardan biri heç şübhəsiz ki, səltənətin hərbi-siyasi-mədəni mövcudluğunun türk həyatı üzərində qurulması idi. Türk tayfaları Səfəvi dövlətinin aparıcı qüvvəsi olaraq qalmaqda idi və səltənətin ictimai-siyasi-hərbi-mədəni həyatı türk tayfalarının fəallığı ilə müəyyənləşirdi. Bu tayfaların nümayəndələri səltənət daxilində aparıcı rolu öz üzərinə götürmüşdülər. Həmin tayfalar həm də səltənətin hərbi potensialının əsasını təşkil edirdi. Bu da sözsüz ki, türklüyün həyat tərzindən irəli gəlirdi. Həyatı at belində

keçən hər bir türk potensial döyüşçü idi və Şah Təhmasibin hakimiyyəti illərində səltənət qoşunlarının əsasını türklər təşkil edirdilər. Türk döyüş ənənələri də mövcud təcrübənin əsasını təşkil edirdi. Türk tayfalarının möhkəmləndirilməsi, əslində, Səfəvi döyüş potensialının artırılması demək idi. Türk tayfaları arasında ixtilafların yaranması isə öz növbəsində həm də Səfəvi dövlətinin döyüş potensialının zəifldədilməsinə apara bilərdi. Ona görə də türk tayfaları arasında birliyin və vəhdətin qorunması Şah Təhmasibin hər zaman diqqət mərkəzində idi.

Şah Təhmasibin hərbi strategiyasına təsir göstərə biləcək amillərdən biri də səltənətin hüdudlarının kifayət qədər geniş olması, səltənətin mərkəzi ilə əyalətlərin arasındakı əlaqələrin səviyyəsi ola bilərdi. Çox geniş ərazilərə malik olan səltənət daxilində hərbi-siyasi sabitliyin saxlanması uyğun hərbi strategiyanın da izlənməsini tələb edirdi. Vilayət hakimlərinin eyni zamanda hərbi rəhbərlər olması, onları ixtiyarında böyük qoşun dəstələrinin olması, vilayətlərlə mərkəz arasında inzibati bağlılığın zəifliyi hərbi sabitliyin qorunmasına mənfi təsir göstərə biləcək məsələlər idi. Bu məsələlərin düzgün həll edilməsi Şah Təhmasibdən əlavə hərbi fəallığın ortaya qoyulmasını tələb edirdi. Şah Təhmasib həm də diqqət mərkəzində saxlamalı idi ki, səltənət daxilində separatçılıq və qopmalar baş verməsin və belə halların baş verəcəyi halda onların aradan qaldırılması üçün qətiyyətli tədbirlər həyata keçirilsin. Daxili idarəçiliyin hərbi idarəçiliklə qovuşdurulmasının düzgün həllini tapmaq Şah Təhmasibin qarşısında dayanan mühüm vəzifələrdən biri idi.

Səfəvi dövlətinin hüdudlarında hansı dövlətlərin yerləşməsi də Şah Təhmasibin hərbi strategiyasının istiqamətlərinin müəyyənləşməsinə təsir göstərən amillərdən biri idi. Qərbdə Osmanlı dövləti kimi qüdrətli bir dövlətlə, qərbdə isə döyüşkən və hərbi fəallıqları ilə seçilən özbək xanlıqları ilə qonşu olmaq Şah Təhmasibin hərbi strategiyasının məzmununa birbaşa təsir göstərirdi. Hələ Şah İsmayılın hakimiyyəti illərindən istər Osmanlı Türkiyəsi, istərsə də özbək hakimləri Səfəvi dövlətinə qarşı barışmaz münasibət nümayiş etdirirdlər. Doğrudur, onlar öz barışmazlığını

bəzən məzhəb şüarları altında pərdələməyə çalışırdılar. Amma əslində, hər iki tərəf Səfəvi dövlətini süquta çatdırmaqda və onun ərazilərini parçalamaqda maraqlı idilər. Bu niyyətlərin qarşısının alınması isə Səfəvi dövlətinin müvafiq hərbi gücü ilə ola bilərdi. Şah Təhmasib hakimiyyətinin xüsusilə birinci yarısında bu qonşularla çox gərgin hərbi münasibətlərə malik oldu ki, bu vəziyyətdən çıxmaq səltənətin bütün hərbi potensialının səfərbərliyə alınması ilə mümkün oldu. Səfəvi dövlətinin yalnız yaxın qonşularla deyil, eyni zamanda uzaq dövlətlərlə münasibətlərin necə qurulmasının da onun hərbi strategiyasına təsirini inkar etmək olmazdı.

Şah Təhmasibin hərbi strategiyasının müəyyənləşməsinə təsir göstərən amillərdən biri də etiqad məsələsi idi. O, Səfəvi dövlətinin hökmdarı olmaqdan başqa, həm də Səfəvi təriqətinin mürşidi-kamili idi. Şah Təhmasibin ətrafında birləşənlər həm də təriqət inancları ilə ona bağlanmışdılar. Çoxlu sayda sufi üçün o, mürşidi-kamil kimi qalmaqda idi. Şah Təhmasib də rəhbərlik etdiyi təriqətin bir üzvü kimi, yaradana, müqəddəslərə bütün inancları ilə bağlanmış etiqad sahibi idi. O, şübhə etmirdi ki, yaradan, habelə öz şəfaətləri ilə ona yardımçı olan müqəddəslər hərbi kampaniyaların uğurunu şərtləndirən qüvvələr idilər. Ona görə Şah Təhmasib bəzi yürüşlərinin başlanıb-başlanmamasını ona müqəddəslər tərəfindən yuxuda əyan olunmuş fikirlər əsasında qurudu.

Şah Təhmasibin hərbi strategiyasına müəyyənləşdirici təsir göstərən amillərdən biri də heç şübhəsiz ki, onun dövlətçilik təfəkkürü idi. Səltənət üçün yaranmış təhdidlərin, səltənətin malik olduğu potensialın dəyərləndirilməsi ilk növbədə Şah Təhmasibin təfəkkürünün məhsulu idi. Hərbi təhlükəsizliyin, siyasi, iqtisadi, mənəvi amillərlə əlaqələndirilməsi, müvafiq siyasətin hazırlanması və onun icrasının təşkili də Şah Təhmasibdən müvafiq təfəkkür keyfiyyətlərinin olmasını tələb edirdi. Qarşıda duran strateji vəzifələrlə bağlı potensialın müəyyənləşdirilməsi, zaman və məkan amillərinin, icraçı qüvvələrin düzgün təyin edilməsi səltənətin qorunmasına və möhkəmləndirilməsinə də yaradıcı

təsir göstərirdi. Şah Təhmasib siyasətin pafosdan, özünəarxayınçılıqdan təmizlənərək reallığa istinad edilməsinin ən yaxşı nümunəsi oldu. Həmin reallıq da ona dünyanın ən uzun ömürlü hökmdarları sırasında yer tutmağa imkan verdi.

Şah Təhmasib səltənət hökmdarı kimi hüdudsuz səlahiyyətlərə malik idi. Ölkə və dövlət onun iradəsi əsasında idarə edilirdi. Bu səlahiyyət hüdudsuzluğu onun hərbi-strateji siyasətinə də aid idi. Şah Təhmasib səltənətin müdafiəsinin təşkili ilə bağlı siyasəti, onun icraçı qüvvələrini, təşkilini özü müəyyənləşdirirdi, strateji qərarlar qəbul edilməsində müstəqil idi, onun iradəsini məhdudlaşdıracaq heç bir struktur yox idi. Səltənətin müdafiəsinin təşkili və hərbi-siyasi sabitliyinin təmin edilməsi onun iradəsinin ifadəsi idi. Şah Təhmasib həm də qoşunların ali baş komandanı idi. Müharibə elan edilməsi, bu müharibənin necə aparılması və hansı qüvvələrin cəlb edilməsi, iştirak etdiyi döyüşlərin taktikasının seçilməsi, müharibənin başa çatdırılması, qarşı tərəflə danışıqlar aparılması və sülh məsələləri Şah Təhmasibin istisnasız səlahiyyətlərinə aid idi. Onun qəbul etdiyi qərarların, verdiyi hökmlərin müzakirəsi mümkün sayılmırdı. Səltənətin hərbi potensialının planlaşdırılması və səfərbərliyə alınması məsələlərində Şah Təhmasibin iradəsi əsas götürülürdü. Hərbi siyasətin səltənətin həyatı ilə əlaqələndirilməsi, xarici siyasətin istiqamətlərinin müəyyənləşdirilməsi, hərbi əlaqələrin qurulması da şahın istisnasız səlahiyyətlərindən idi. Səltənətin müdafiəsi, daxili hərbi-siyasi sabitliyin bərqərar edilməsi istiqamətində ən yüksək məqamlı əmir və əyanların qəbul etdiyi qərarlar da şahla mütləq şəkildə razılaşdırılmalı idi.

Belə istisnasız səlahiyyətlərə malik olmasına baxmayaraq, Şah Təhmasib bu və ya digər qərarların qəbul edilməsi və səltənətin müdafiəsinin təşkili ilə bağlı müəyyən məsələləri müəyyən adamlarla müzakirə edirdi və müvafiq qərar qəbul edilməsi üçün məqsədəuyğun saydığı məsləhətləri qəbul edirdi. Məsləhət və müzakirələrin aparılması üçün şahın yanında rəsmi məşvərət orqanı var idi və bu orqan divan adlanırdı. Divanın üzvləri səltənət vəkil və vəzirləri, sarayda yüksək vəzifə tutan əyan və

əmilər idi. Onların hər birinin divan iclaslarında öz yerləri var idi. Bu və ya digər məsələlərin, o cümlədən səltənətin müdafiəsinə aid olan məsələlərin müzakirəsi zamanı divan üzvləri öz fikirlərini söyləyirdilər (1). Şah Təhmasib də onlara qulaq asdıqdan sonra öz qərarını açıqlayırdı. Bu zaman sözsüz ki, irəli sürülən təkliflər məqsədəuyğun sayıldığı halda şah tərəfindən qəbul olunurdu.

Venesiyalı elçi M.Membrenin təsvirinə görə, Şah Təhmasibin dostu və sevimlisi olan insanlardan ibarət 6-7 nəfərlik müsahiblər də var idi (2). Həmin adamlar divanın üzvü deyildilər. Lakin şahın yanında xüsusi nüfuza və hörmətə malik idilər və Şah Təhmasib bu və ya digər məsələlərlə bağlı onlarla da məsləhətləşmələr aparırdı.

Şah Təhmasib hərbi-siyasi xarakterli məsələlər barəsində qərar qəbul edilməsi üçün yalnız divan məsləhətləşmələri ilə kifayətlənmirdi. Zərurət yaranan anlarda Şah Təhmasib həm sarayın, həm vilayətlərin, həm də qoşunların tanınmış və təcrübəli əmir və əyanlarını yanına toplayar və onlarla məsləhətləşərdi. Bununla bağlı onun təzkirəsində də çoxlu məlumatlar mövcuddur. Məsələn, 1525-ci ildə özbək qoşunları səltənət hüdudlarına hücum edəndə Şah Təhmasib əmirləri toplayıb bu hücumun qarşısının alınması üçün onlarla məsləhətləşdi və hansı əmirin özbəklərin hücumunun qarşısının alınmasına göndərilməsi bu məsləhətləşmə zamanı qərara alındı (3).

1534-cü ildə Osmanlı qoşunları Azərbaycan (Cənubi) üzərinə qoşun çəkəndə də Şah Təhmasib öz əmir və əyanlarını çöl şəraitində topladı və onlarla məsləhətləşmə apardı. Osmanlı qoşunlarının bu hücumu səltənət üçün çox ciddi bir hadisəyə çevrilmişdi. Çünki az qala bütün Avropaya meydan oxuyan Sultan Süleyman özünün qüdrətli qoşunları ilə hücuma keçmişdi və bu qoşunlarının qarşısının alınması üçün lazımi tədbirlər görülməsinə ehtiyac var idi. Şah Təhmasib öz təzkirəsində belə yazırdı: "Əmirlərin yanına adam göndərdim ki, mən Sultaniyyəyə gəlirəm, siz də orada olun. Əmir bəy, Çıraq sultan və Zülqədəroğlunu göndərdim ki, Hüseyn xan, Müntəşa sultan və Şiraz hakimi Qazı

xan Zülqədər hər biri 10 nəfər işbilənlə müşavirəyə gəlsinlər görək nə etməliyik” (4).

Göründüyü kimi, səltənət üçün xüsusi əhəmiyyət kəsb edən məsələnin həlli üçün Şah Təhmasib yalnız əmirləri və vilayət hakimləri ilə deyil, vilayətlərdə olan işbilən və təcrübəli adamlarla məsləhətləşməyi də lazım bilirdi.

Səltənətin müdafiəsi ilə bağlı olan digər hallarda da Şah Təhmasibin öz əmirləri və əyanları ilə məsləhətləşmələri hallarına da rast gəlmək mümkündür (5). Bütün bu məsləhətləşmələr zamanı Şah Təhmasibin əmirlər və digərləri tərəfindən irəli sürülən təklifləri birmənalı şəkildə qəbul etməsi ilə rastlaşmaq mümkün deyildir. Şah Təhmasibin nəzərincə, səltənətin müdafiəsi üçün məqsəduyğun sayılan təkliflər qəbul edilirdi, məqsədəuyğun sayılmayanlar isə qəbul edilmirdi. Belə hallarda Şah Təhmasib öz fikirlərini və qərarını ortaya qoyurdu. Məsələn, Osmanlı qoşunlarına qarşı necə mübarizə aparılması ilə bağlı bəzi əmirlərin verdiyi təkliflər qəbul edilmədi. Həmin əmirlər qoşunları uyğun şəkildə qruplaşdırmaqla Osmanlı qoşunları ilə üzbəüz döyüş aparılmasını təklif edirdilər. Məlumdur ki, Şah Təhmasib bu təklifləri qəbul etmədi və müdafiə taktikasının seçilməsini daha məqsədəuyğun saydı.

Səltənətin müdafiəsinin təşkili ilə bağlı Şah Təhmasibin məsləhətləşdiyi adamlar arasında onun ailə üzvləri də var idi. Xüsusilə, Şah Təhmasibin qardaşları və qızı Pərixan xanım onun həm də yaxın silahdaşları idi. Hərbi-siyasi qərarların qəbul edilməsində və onların icrasında Şah Təhmasib öz qardaşlarına həm etibar edirdi, həm də güvənirdi. Pərixan xanımla Şah Təhmasib məsləhətləşməsi isə yalnız onun sevimli qızı olmasından irəli gəlmirdi. Pərixan xanım həm təhsil görmüş və həm də təfəkkürlü bir xanım idi və dövlət işləri ilə bağlı onun müdrik təkliflərinə Şah Təhmasib hər zaman qulaq asardı.

Hərbi-siyasi xarakterli qərarların verilməsi zamanı lələlərin də müəyyən təsir imkanları var idi. Xüsusilə, Şah Təhmasibin hakimiyyətdə olduğu ilk illərdə Div sultan Rumlu səltənət idarəçiliyində fəal rol oynayırdı. Onun hətta hərbi-siyasi məsələlərdə

səltənət adından qərar vermək səlahiyyəti də var idi. Lakin bu çox da uzun sürmədi və Div sultanın qətlə yetirilməsindən sonra kiminsə Şah Təhmasibə lələ təyin edilməsi haqqında mənbələrdə məlumat mövcud deyil.

Müharibənin aparılması üçün Şah Təhmasib səltənət miqyasında ciddi hazırlıqların görülməsinin vacibliyini qəbul edirdi: "Mən lazım olan bütün hazırlıqları gördüm və təchiz olunmuş ordu ilə siçan ilinin başlanğıcında 934-cü (mart 1528) ildə Xorasana yola düşdüm" (6). Şah Təhmasib bu hazırlıqların detallarını açıqlamırdı. Sözsüz ki, burada söhbət müharibənin aparılması üçün zəruri olan hazırlıqlardan gedirdi. Belə hazırlıqların aparılması üçün isə səltənətin potensialı səfərbərliyə alınmalı idi. Şah Təhmasib bu məsələdə əsaslı məsələləri müəyyənləşdirir və sonra da onların icrası üçün lazımi göstərişlər verirdi. Aparılan döyüşlərin nəticəsi isə döyüş hazırlıqlarının hansı səviyyədə aparılmasını nümayiş etdirirdi.

Görülən bütün hazırlıq işlərinə baxmayaraq, Şah Təhmasib əldə edilən nəticəni Allahın lütfü və məsləhəti kimi qəbul edirdi. Yəni hansı hazırlıq işləri aparılsa belə, Şah Təhmasib bu işlərin gözlənilən nəticəni verməsi yaradanın lütfü ilə bağlayırdı. Bu məqamla bağlı Şah Təhmasibin təzkirəsində belə qeydlər vardır: "Bu qeyd olunan hadisələrə səbir edib dözürdüm ki, görüm Allahın istəyi nədir", "...mühasirə müddəti uzun çəkdi. Qalanı fəth etmək son dərəcə çətin idi. Allahın mərhəməti və günahsız imamların – onlara Allahın salamı olsun – şəfqəti bizə kömək etdi", "Böyük Allahın yardımı ilə gündən-günə cürbəcür qələbələr üz verib. Bütün ağıllı adamlar bu işə heyran qalıblar. Mən nə qədər mərdanə, bacarıqlı olsam [Allahın mənə nəsib etdiyi] bu qələbələrin azacıq bir hissəsinin belə şükür duasını bütün ömrüm boyu yerinə yetirə bilmərəm" (7).

Şah Təhmasib şübhə etmirdi ki, o, müqəddəslərin qayğısı altındadır və bu qayğı hərbi uğurların əldə edilməsində ona yardımçı olur. Həmin qayğı yuxular vasitəsilə Şah Təhmasibə əyan olurdu. Şah Təhmasiblə müqəddəslər arasında olan bağlılıq yuxular vasitəsilə ifadə olunurdu. O özü də bu yuxulara inanırdı və

onun ətrafındakılar da yuxular vasitəsilə müqəddəslərin ona əyan etdiklərinin doğruluğunu qəbul edirdilər. Şah Təhmasib müqəddəslərlə bağlı olan yuxuları haqqında öz təzkirəsində belə yazırdı: "Bizim əqidəmizə görə imam və peyğəmbərləri hər kəs yuxuda görsə, elə bil ki, onları ayıqlıqda görmüş və onların dedikləri də həqiqətdir. Buna heç şübhə ola bilməz" (8).

Şah Təhmasib də bəzən yuxuları vasitəsilə qarşıdakı sınaqların hansı nəticələrlə başa çatacağını öncədən müəyyənləşdirməyə çalışardı. Bu barədə onun təzkirəsində bir neçə fakt da mövcuddur. Bir daha qeyd edilməlidir ki, yuxular vasitəsilə ona əyan olanlara Şah Təhmasib heç də kor-koranə təvəkkül etmirdi. Əksinə, yuxuda gördükləri onun əminliyini və əzmkarlığını daha da artırırdı.

Özbək qoşunları ilə döyüş zamanı Şah Təhmasibin yuxuda gördüklərinə inanması və döyüşün nəticəsinin də yuxuda gördüyü kimi olacağına şübhə etməməsi barəsində "Tarix-i aləm-ara-yi Abbasi"yə istinad olunan bir qeyd hazırkı kitabın uyğun fəslində öz əksini tapmışdır. Həmin qeyd bu məqama aydınlıq gətirilməsi baxımından maraq doğura bilər: "Cəmşid məqamlı cənnətməkan şah həzrətləri röya aləmində müşahidə etmişdi ki, əlahəzrət məsum imamlar – onlara salam olsun – o həzrətə bu döyüşdə qalib gələcəyinə dair müjdə vermişlər. O həzrət qətiyyətinin kamilliyi, etiqadının gözəlliyi, rəşadət, şücaət və cəsarətinin çoxluğu üzündən öz dayandığı yerdən tərpənmədi və onun mübarək simasında əsla sarsıntı əlamətləri görünmədi" (9). Yəni Şah Təhmasib yuxuda gördüyünün doğruluğuna o dərəcədə əmin idi ki, uğur əldə edəcəyinə heç bir şübhə etmirdi.

Şah Təhmasib aparılan müharibələrin nəticələrinə bir qəza-vü-qədər kimi də yanaşmırdı. O yaxşı anlayırdı ki, istənilən bir işdə arzu edilən nəticənin əldə edilməsi üçün zəhmət çəkilməsi də yaradanın iradəsi idi. Ona görə də Şah Təhmasib hərbi-siyasi məsələlərin planlaşdırılmasında və həllində Allah lütfünü insan çalışqanlığı ilə əlaqələndirirdi. Yəni Şah Təhmasib müharibə aparılması kimi bir məsələdə yalnız təvəkkülə arxayın olmağı düzgün saymırdı. Bu məsələdə onun mövqeyi Allahın lütfünə bel

bağlamaqla məqsədyönlü fəaliyyət aparılması və bu fəaliyyət ilə Allahın rizasının əldə edilməsi ilə bağlı idi. Təzkirəsində də Şah Təhmasibin bu məsələ ilə bağlı maraqlı qeydləri vardır. Həmin fikirlər həm də Şah Təhmasibin müharibə və onun aparılması ilə bağlı strateji baxışlarını müəyyənləşdirən fikirlərdir. O yazırdı: "Bütün varlılardan yüksək olan şəni uca böyük Allah Quranında buyurur ki, kafirlərlə cihad və qəzada özünüzü ölümə verməyin. Bir halda ki, Allah bizə kafirlərlə müharibədə belə təhlükəyə düşməyi qadağan edir, mən iki müsəlman ordusu arasında müharibəyə necə fitva verim və sayca on adam bərabərində bir adam olmayan ordumu döyüşə apararaq bu müsəlmanları təhlükəyə salım" (10).

Yuxarıdakı qeydlərdən göründüyü kimi, Şah Təhmasib müsəlman dövlətlər arasında müharibə aparılmasını istəmirdi. Bunu Şah Təhmasibin hakimiyyəti illərində qonşu dövlətlərlə olan münasibətində də görmək mümkündür. Məlumdur ki, Şah Təhmasib həm özbək qoşunlarına qarşı, həm də Osmanlı qoşunlarına qarşı müharibədə iştirak etmişdi. Lakin hər iki halda Səfəvi qoşunları yalnız səltənət sərhədlərinin müdafiəsi üçün bu müharibəyə qoşulmuşdular. Yəni həmin müharibələrin təşəbbüskarı Şah Təhmasib olmamışdı. Amma qeyri-müsəlman xalqlara qarşı döyüşlər aparılmasını və həmin xalqların müsəlmanlaşdırılmasını isə Şah Təhmasib savab işi sayırdı.

Digər tərəfdən Şah Təhmasib lazımi dəyərləndirmə aparmadan, kor-koranə müharibəyə atılmağı da düzgün saymırdı. Dini tövsiyələrə istinad edərək, Şah Təhmasib müharibəyə girməzdən əvvəl qarşı tərəfin gücünün düzgün müəyyənləşdirilməsini və bərabər gücə malik olunduğu təqdirdə qarşı tərəflə müharibəyə girməyi məqsədəuyğun sayırdı. Özündən çox-çox güclü olan bir düşmənlə müharibəyə girməyi və bununla öz qoşunlarını real təhlükə ilə üzbəüz qoymağı Şah Təhmasib düzgün saymırdı. Bu mövqe onun müharibə aparılması ilə bağlı siyasətinin də əsasını təşkil edirdi. Osmanlı qoşunlarına qarşı fəal müdafiə siyasətinin həyata keçirilməsi də Şah Təhmasibin məhz bu siyasətindən irəli gəlirdi. Şah Təhmasib zəmanəsinin ən güclü qoşunla-

rından olan Osmanlı qoşunlarına qarşı elə bir strategiyanı seçdi ki, həmin strategiya ən az itki verməklə bu qoşunlara qarşı səmərəli müqavimət göstərmək imkanı verdi.

Müharibənin aparılması yolları ilə bağlı Şah Təhmasib öz təzkirəsində Həzrət Əlinin də bir fikrinə istinad edirdi. O yazırdı: “Müharibənin işi və ağırlığı ağıllı və huşyar adamlara aydındır. Müharibə oyun kimi bir şeydir və burada hiylə böyük rol oynayır. İrəli düşmək, üstün gəlmək və düşməni məğlub edib qalib gəlmək üçün nə mümkünsə, onu etmək lazımdır.

Həzrət Əmirrəlmömininin [Əlinin] – ona salam olsun – kəlamıdır: “əl-hərb xədə”, müharibə aldatmaq, hiylə işlətməkdir. Müharibədə istəyirsən qaç, istəyirsən hər növ ilə olursa-olsun aldat, ancaq fürsəti düşmənə vermə” (11).

Bu qeyd də onu göstərir ki, Şah Təhmasib nə qədər etiqadlı bir insan olsa da, müharibə və döyüşlərin aparılmasını kor-koranə təvəkkülə bağlamırdı. O yaxşı başa düşürdü ki, müharibəni uğurla başa vurmaq üçün uyğun taktika işlədilməsinə də ehtiyac vardır. Bu taktika çox amillərdən asılı ola bilərdi. Tələb olunan isə bu idi ki, qarşı tərəfin imkanları düzgün dəyərləndirilsin, sonra da zamana, məkana, qarşı tərəfin imkanlarına, səltənətin imkanlarına görə taktika tətbiq edilsin. Şah Təhmasibin istinad etdiyi fikir çevikliyi müharibənin aparılmasına yaradıcı münasibəti də özündə ehtiva edirdi. Yəni o taktika seçilməli idi ki, həmin taktika böyük qələbənin əldə edilməsini təmin etsin.

Osmanlı qoşunlarının Azərbaycan üzərinə həyata keçirdiyi dörd hücum kampaniyası zamanı Səfəvi dövlətinin tətbiq etdiyi müdafiə taktikası Şah Təhmasibin strateji düşüncəsinin əyani nümayişi idi. Məlumdur ki, Şah Təhmasib osmanlı dövlətinin çox qüdrətli qoşunları ilə açıq döyüşə girməkdən imtina etdi və səltənətin dərinliklərinə geri çəkilməklə fəal müdafiə taktikası seçdi. Bu barədə hazırkı kitabın uyğun fəslində münasibət bildirilmişdir. Şah Təhmasibin yuxarıda toxunulmuş fikri belə idi: “Biz Qəzvində idik. Hər yerdən böyükləri, əhalini, bütün məhəllələrin kədxudalarını çağırtdırıb dedim ki, öz qoşunumdan bir hissə ayırmışam ki, Rum qoşununun qarşısına çıxsınlar, [tarlalardan]



Şah Təhmasibin portreti




ش۱۸- طرحی از نقش مهرشاه تهماسب اول

Şah Təhmasibin möhürünün təsviri



Şah Təhmasib tərəfindən tikilmiş Çehelsütun sarayı



Şah Təhmasib tərəfindən tikilmiş Çehelsütun sarayı



Qəzvində Şah Təhmasibin sifarişi ilə tikilmiş məscid



“Şah Təhmasib Şahnaməsi”ndən bir minüatür. Rəssam Mir Müsəvvirə məxsus olan bu minüatürdə müxtəlif vəzifə sahibləri olan qızılbaş əmirləri təsvir olunmuşlar.



“Şah Təhmasib Şahnaməsi”ndə əks olunmuş qızılbaş əmirləri



“Şah Təhmasib Şahnaməsi”ndə əks olunmuş mühafizəçilər



Şah Təhmasib Şahnaməsi”ndə əks olunmuş xidmətçilər




Şah Təhmasib dövrünün döyüş bayraqlarından nümunələr

taxıl və digər ərzaq məhsullarını bacardıqları qədər [heyvanlara] yedirtsinlər, bütün qalanının isə yandırsınlar. Xatircəm olunuz, mənə bəd dua etməyiniz ki, bu fitnə və fəsadın baisi guya mən olmuşam. Sizə nə zərər dəysə sizin malücata hesab edəcəyəm" (12).

Şah Təhmasib Osmanlı qoşunlarının hərəkət edəcəyi marşrut üzrə bütün ərzaq ehtiyatlarının məhv edilməsi və əhalinin də səltənətin dərinliklərinə köçürülməsi ilə öz müdafiəsini qurmağı məqsədəuyğun saydı. Yəni əhali öz yurdunu tərk edib geri çəkiləndə həmin yerlərə gəlmiş Osmanlı qoşunları ərzaq çətinlikləri ilə qarşılaşacaqdı. Şah Təhmasib tərk edilmiş ərazilərdə ərzaq ehtiyatları saxlanmasını qadağan etdi. Yurdunu tərk edən insanlar bütün ərzaq ehtiyatlarını özləri ilə aparmalı idilər. Apara bilmədiklərini isə məhv etməli idilər ki, Osmanlı qoşunlarının əlinə keçməsin. Şah Təhmasibə görə, yalnız bu yolla Osmanlı qoşunlarını çətinliklər qarşısında qoyub onları geri qayıtmağa məcbur etmək olardı. Sözsüz ki, bu zaman yurdunu tərk edən insanlar həm çətinliklə, həm də təsərrüfat itkiləri ilə qarşılaşacaqdılar. Ona görə də Şah Təhmasib bütün tərk edilməli olan yaşayış məntəqələrinin kətxudalarını toplayıb vəziyyəti onlara anlatdı, bəyan etdi ki, bu müharibənin təşəbbüskarı o deyildir və əgər yerli əhali öz yerlərini tərk etməsələr onda daha artıq çətinliklərlə qarşılaşa bilərlər. Şah Təhmasib eyni zamanda onu da bildirdi ki, insanların verdikləri ərzaq itkiləri dövlətə verilməli olan vergilər hesabına silinəcəkdir və həmin itkilər dövlətə ödənmiş vergi kimi hesaba alınacaqdır. Bununla da insanların itkilərinin müəyyən hissəsini Şah Təhmasib dövlətin üzərinə götürürdü.

Məlumdur ki, Şah Təhmasibin bu taktikası uğur gətirdi və Osmanlı qoşunlarını geri çəkilməyə məcbur etmək mümkün oldu. Bu taktika həm də ona gətirdi ki, iki dövlət arasında Amasiya sülh razılaşması əldə edildi. Şah Təhmasib qonşu dövlətlərlə sülh və dinclik şəraitində yaşamağa üstünlük verirdi. Baxmayaraq ki, səltənətin qərb sərhədləri boyunca bəzi məntəqələr Osmanlı nəzarəti altına keçməli oldu, bununla belə Şah Təhmasib iki dövlət arasında sülh anlaşmasının əldə edilməsinə razı oldu. Çünki

konkret tarixi şəraitdə Səfəvi dövlətinin hərbi potensialı reallıqla qiymətləndirildi və Osmanlı dövləti ilə sülhün əldə edilməsi daha məqsədəuyğun sayıldı. Müvəqqəti olaraq itirilmiş olan bəzi ərazilər Səfəvi dövlətinə uzunmüddətli sülh əldə etməyə, öz potensialını artırmaq üçün fürsət qazanmağa imkan verdi.

Şah Təhmasib müharibələrin uğurla aparılması və səltənətin müdafiəsinin əminliklə təmin edilməsi üçün insanlar arasında sağlam mənəvi mühitin olmasını da mühüm məsələlərdən biri sayırdı. Doğrudur, o bu məsələni daha çox islam dininin tələbləri ilə bağlayırdı. Bununla belə, Şah Təhmasibin sorağında olduğu sağlam mənəvi mühit islam dəyərlərinə cavab verdiyi kimi, həm də insani dəyərlərə cavab verirdi. Şərab içilməsini, yüngül əyləncələrə qurşanmağı o, insanlar üçün, xüsusilə də döyüşçülər üçün dözülməz hal sayırdı. Bu baxımdan o, hətta Şah İsmayılın qoşunlarında şərab içilməsinə yer verilməsini birmənalı şəkildə qəbul etmirdi. Sözlərinə təsdiq kimi, Şah Təhmasib Çaldıran döyüşünə toxunurdu və o da iddia edirdi ki, bu döyüşdən qabaq qızılbaş əmirləri döyüşə hazırlaşmaq əvəzinə başlarını şərab içməyə qarışdırmışdılar. Bununla Şah Təhmasib ona da işarə edirdi ki, Şah İsmayılın əmirləri arasında mövcud olan qeyri-sağlam mühit qələbənin əldən verilməsinə aparan səbəblərdən biri olmuşdu. Şah Təhmasib isə yalnız qoşunlar arasında deyil, səltənət miqyasında şərab içilməsini, yüngül əyləncələrlə məşğul olmağı qadağan etmişdi: “Allaha şükür olsun ki, mənim hakimiyyətim altında yaşayan bütün qoşun və rəiyyət çaxır və başqa haram işlərdən tövbə etmişdi. Bütün ölkədə şərabxanalar, qumarxanalar, beytül-lütflər və başqa fitnə-fəsad ocaqlarının qapıları bağlanmışdır” (13).

Qoşunların təşkilinə qayğı göstərilməsi, onların təchizat məsələlərinin həlli Şah Təhmasibin hərbi siyasətinin tərkib hissələri idi. Onun hakimiyyəti illərində səltənət daxilində odlu silahın kütləvi istifadəsinə başlandı. Bu silahların əldə edilməsi üçün Avropa dövlətləri ilə işgüzar münasibətlərin qurulması tələb olunurdu ki, Şah Təhmasib də hakimiyyəti dövründə bu məsələyə xüsusi diqqət yetirirdi.

Müharibələrin başlaması ərəfəsində Şah Təhmasibin qarşı tərəfin hakimləri ilə məktublaşmasına da təsadüf etmək mümkündür. Özbək hakimləri ilə bu yazışmalar davamlı olmasa da, Osmanlı sultanları ilə bu yazışmalar müharibələrin başlamasından əvvəl aparılmışdı. Həmin yazışmalar hərbi-siyasi mövqeyini əks etdirər, qarşıya qoyulan məqsədlər açıqlanardı. Məktublar vasitəsilə tərəflər arasındakı ziddiyyətlərin mahiyyətinə baxış və yanaşma ifadə olunardı. Bu yazışmalarda qarşılıqlı anlamanın əldə edilməməsi isə ziddiyyətin silahlı yolla həll edilməsinə yol açardı.

## 2. Şah Təhmasibin qoşunları

Şah Təhmasibin qoşunları səltənətin hərbi potensialının ifadəsi idi. Bu qoşunların təşkilinin, təchizinin və döyüş hazırlığının səviyyəsi səltənətin hərbi potensialının üzə çıxarılması və səfərbərliyə alınmasından birbaşa asılı idi. Səltənətin iqtisadi imkanları, xəzinəyə toplanan maliyyə vəsaitlərinin miqdarı, səltənət əhalisinin sayı, hərbi istehsal sahəsinin inkişaf səviyyəsi kimi məqamlar qoşunların təşkilinə və onun döyüş hazırlığına ciddi təsir edən amillər idi. Şah Təhmasib dövründə qoşunların təşkili işi, əslində, hələ Şah İsmayılın dövründə və ondan da qabaq başlamış qoşun təşkili işinin davamı idi. Bu sahədə ənənəvi olan bir çox məqamlar Şah Təhmasib dövründə də qalmaqda idi. Başlıca olaraq qoşunların təşkilində tayfa və ərazi prinsipi saxlanılmaqda idi. Türk tayfaları səltənətin dayağı olmaqdan əlavə, həm də qoşunların canlı qüvvələrinin bazası idi. Bir tərəfdən türk tayfaları dövlətin əsas dayaqları idilər, digər tərəfdən də türk tayfaları öz həyat tərzləri etibarilə qoşunların canlı qüvvəsinin əsas ehtiyatı idi. Bəlli olduğu kimi, türk tayfalarının üzvləri anadan olduğu gündən həyatını at belində keçirirdi, at sürməsi, ox atmağı türklər hələ erkən yaşlarından öyrənirdilər. Tayfanın silah tutmağı bacaran əhalisi bu tayfanın silahlı döyüşçüsü idi. Qoşunlarda birləşmək isə hər bir türk silahlısının bacarığının açılması üçün geniş imkanlar yaradırdı.

Şah Təhmasibin hakimiyyəti illərində də əvvəllər olduğu kimi səltənət qoşunları mərkəzi qoşunlardan və əyalət qoşunlarından ibarət idi. Mərkəzi qoşunlar səltənətin paytaxtında və ya onun ətrafında toplanmış qoşunlar idi və şahın birbaşa nəzarəti altında idi. Şah hərbi yürüşlərə çıxanda ilk növbədə məhz mərkəzi qoşunları öz ilə götürürdü. Say etibarilə bu qoşunlar əyalət qoşunlarından az idi. Ehtimal etmək olar ki, onların təchizatı əyalət qoşunlarından daha yaxşı idi. Mərkəzi qoşunlar döyüş keyfiyyətlərinə görə də əyalət qoşunlarından fərqlənə bilərdilər. Çünki birbaşa şahın idarəçiliyi altında olması bu qoşunlara qarşı tələblərin də yüksək olmasını şərtləndirə bilərdi.

Əyalət qoşunları bir qayda olaraq ərazi prinsipi üzrə toplanırdı. Qoşunların bu prinsipi üzrə təşkil edilməsi Şah Təhmasib hakimiyyəti illəri üçün xarakterik əlamətlərdən biri idi. Yəni qoşun dəstələri türk tayfalarının məskunlaşdığı ərazilərdə təşkil olunur və yerli idarəçilik altına verilirdi. Bütünlükdə, ərazi qoşunları Şah Təhmasib qoşunlarının əsasını təşkil edirdi. Bu qoşunlar yerli hakimlərin nəzarəti altında olurdular. Həmin qoşunlar məhəlli miqyaslı hərbi tapşırıqları yerinə yetirə, şahın tələbi əsasında isə mərkəzi qoşunlara birləşərək daha miqyaslı tapşırıqların icrasında iştirak edə bilərdilər.

Qoşunların həm də tayfa prinsipi üzrə toplanması halına rast gəlmək mümkündür. Məsələn, hər bir türk tayfasının öz rəhbəri var idi və onun da rəhbərliyi altında qoşun dəstəsi var idi. Bu rəhbərlər əmir adlanırdı və onların rəhbərliyi altında toplanan qoşun dəstəsinin sayı tayfanın üzvlərinin ümumi sayından asılı idi. Bu tayfa qoşunları zərurət yarananda əyalət və ya mərkəzi qoşunlar tərkibində hərbi tapşırıqları yerinə yetirirdilər. Digər vaxtlarda isə onlar tayfa əmirlərinin rəhbərliyi altında qalırdılar. Şah Təhmasibin hakimiyyəti illərində tayfa qoşunlarının hətta öz aralarında da döyüşə girmələri faktları vardır. Məsələn, Şah Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş tayfaları arasında yaranmış qarşıdurmanın əsas iştirakçıları elə tayfa qoşunları idilər. Bu tayfa qoşunları həm öz aralarında ittifaq yarada bilir, həm də ayrıca qarşıda dayanan tapşırıqları icra edirdilər.

Tayfa qoşunlarına dayaqlanan bəzi əmirlərin hətta yüksək mövqe iddialarında olması da vardı (14).

Qeyd edildiyi kimi, Şah Təhmasib qoşunlarının əsasını qızılbaş türklər təşkil edirdilər. Qoşun dəstələri elə tayfaların adları ilə tanınırdı. Bundan başqa türk tayfalarının yaşadığı ərazilərin adı ilə tanınan qoşun dəstələri də var idi. Məsələn, "Əhsənüt-təvarix" əsərində Qarabağ və Muğan qoşunları xatırlanmışdır (15). Bu qoşunlar adları çəkilən bölgələrdə toplanmış qoşun dəstələri idi. Mövzuya aid olan tarixi mənbələrdə adları çəkilən əmirlər də əsasən elə türk tayfalarının üzvləridir. Bununla belə, Şah Təhmasib qoşunlarının tərkibində digər xalqlardan toplanmış qoşun dəstələrinə də rast gəlmək mümkündür. Mənbələrdə Fars vilayətindən toplanmış qoşun dəstəsinin fəaliyyəti haqqında məlumat vardır (16).

O da məlumdur ki, Şah Təhmasib qoşunların tərkibində gürcü əhalidən toplanmış qoşunların sayını artırmağa çalışırdı. Mənbələrdə gürcü əmirlərinin adlarına da tez-tez rast gəlmək mümkündür. Yüksək vəzifə tutan gürcü əsilli əmirlər bir qayda olaraq islamı qəbul etmiş insanlar idilər. Şah Təhmasib qoşunlarına qatılmış gürcü qoşun dəstəsinin bütün üzvlərinin islamı qəbul etmələrini təsdiq etmək isə mümkün deyildir. Avropalı elçilərin xatirələrində mövcud olan məlumata görə, Gürcüstan hakimləri Şah Təhmasibin tələb etdiyi zaman 10 min nəfərlik süvari dəstəsi şah sarayının ixtiyarına verməli idi (17). Çox güman ki, bu dəstənin bütün üzvləri heç də islamı qəbul etməmişdilər.

Şah Təhmasib qoşunlarının tərkibində başqa xalqlardan təşkil edilmiş dəstələr də var idi. Məsələn, mənbələrdə olan məlumatlara görə 1526-cı ildə Badıncan sultan Rumlunun rəhbərliyi altında kürdlərdən və talışlardan ibarət qoşun dəstəsi var idi. Özbək hücumlarının qarşısının alınması zamanı Astrabaddan toplanmış dəstə də iştirak edirdi. Bəhram Mirzənin oğlu Bədiüzzaman Mirzənin rəhbərlik etdiyi qoşun dəstələrindən birində farslardan toplanmış dəstə də var idi. Mütəxəssislərin fikrincə, 1530-cu ildə Şah Təhmasib qoşunlarının ümumi sayının 20 faizini qeyri-türklər təşkil edirdilər (18).

Səltənət hüdudlarında olan bütün vilayətlər və xalqlar qoşun toplanmasında iştirak edirdilər. Səltənət hüdudlarına xarici təhlükə yarananda Şah Təhmasib vilayət hakimlərinə hökm göndərirdi ki, onlar qoşun dəstəsi toplasınlar və mərkəzi qoşunlara qoşulsunlar. Bu məqsədlə vilayətlərə xüsusi elçilər göndərilərdi. Həmin elçilər tovaçi adlanan xüsusi adamlar da ola bilərdi, şahın etibar etdiyi qorçular da ola bilərdi. Qoşun toplanması üçün vilayətlərə nüfuzlu və təcrübəli əmirlərin göndərilməsi halları da var idi. Şah Təhmasib öz təzkirəsində yazırdı ki, Şahqulu xəlifə ilə Məhəmməd sultan Əfşarı qoşuna könüllülər toplamaq üçün vilayətlərə göndərdi. Onlar da qoşunlara qoşulmaq istəyənləri toplayaraq şah düşərgəsinə gətirməli idilər. Venesiyalı elçi V.Alessandri öz xatirələrində vilayət qoşunlarının sayı və onların necə toplanması haqqında maraqlı qeydlər etmişdir. Bu müəllifin fikrincə, vilayət qoşunları daim döyüşə hazır vəziyyətdə idilər və ona görə onları dərhal mərkəzi qoşunlara cəlb etmək olurdu: "Krallıq 50 hissəyə bölündüyündən onun qoşunları 50 sultan tərəfindən toplanır. Krala və onun hakimlərə tabe olmayan oğullarının ərazisi bura daxil deyil. Bu sərkərdələrin hər birinin ixtiyarında 500-dən 3 minədək süvari var. Onlara verilmiş vilayətlərdən tərəfdarlarını və atlılarını saxlamaq üçün lazım olan və onları asanlıqla idarə etməyə imkan verən gəlirləri alırdılar. Buna görə müharibə baş verdikdə, krala yalnız bir-iki ay öncədən sultanlara carçılar göndərmək lazım gəlir və onlar həmişə hazır olduqları üçün toplanma yerinə çətinlik çəkmədən gəlirlər. Kağızda daha çox olmasına baxmayaraq onlar 60 min süvaridən çox toplaya bilmirlər" (19).

Şah Təhmasib dövrünün qoşunlarının ümumi sayı haqqında sabit bir rəqəmin göstərilməsi mümkün deyildir. Müxtəlif vaxtlarda konkret zərurətdən irəli gələrək müxtəlif sayda qoşun toplanırdı. Elə vilayətlərin özündə də mövcud olan qoşun dəstələrinin sayı haqqında sabit rəqəm göstərmək yəqin ki, doğru olmazdı. Çünki qoşunların sayı mövcud zərurətlə birbaşa bağlı idi. Ona görədir ki, Şah Təhmasib qoşunlarının sayı barəsində müxtəlif mənbələrdə müxtəlif rəqəmlərlə qarşılaşmaq mümkündür. Mə-

sələn, Şah Təhmasib özü Sutan Süleymana yazdığı məktubunda 100 min nəfərlik atlı qoşunun olmasına toxunurdu (20). "Xülasüt-təvarix" əsərinin bir yerində Səfəvi qoşunlarının ümumi sayının 120 min nəfər olduğu göstərilmişdir (21).

1530-cu ildə özbək qoşunlarına qarşı döyüşə yollanmazdan əvvəl Şah Təhmasib tərəfindən keçirilən sıra baxışında aşağıdakı tərkibdə qoşun dəstələr iştirak etmişdi:

| | |
|---|---|
| Əlqas Mirzənin dəstəsi | 4000 nəfər |
| Bəhram Mirzə | 3000 |
| Təkəli dəstəsi | 15000 |
| Ustaclı dəstəsi | 16000 |
| Əfşar dəstəsi | 6000 |
| Şamlı dəstəsi | 9150 |
| Zülqədər dəstəsi | 8000 |
| Qacar dəstəsi | 6000 |
| Mosullu dəstəsi | 1000 |
| Çeqani, ziq və s. | 15550 |
| Seyid və nəqiblər | 4000 |
| Xacə Bətəkçinin dəstəsi | 1000 |
| Mazandaran dəstəsi | 2000 |
| Türşiz dəstəsi | 1000 |
| Təbərrayilər | 400 |
| Xidmətçilər | 1800 |
| Büyutat dəstəsi | 3800 |
| Qorşular, yüzbaşılar | 5000 (22). |

Bu dəstələrin heyətinin ümumi sayı 103 min nəfərə yaxındır. Göründüyü kimi, bu dəstənin şəxsi heyətinin hamısı döyüş heyəti deyildi və burada xidmət heyətləri də mövcuddur. Ümumi say səltənət qoşunları üçün canlı ehtiyat potensialını göstərir. Bu sayı da mütləq say kimi qəbul etmək doğru olmazdı. Çünki burada sadalanan dəstələr konkret hərbi vəzifənin icrası üçün toplanmışdı və həmin vəzifənin icrasından sonra bu dəstələrdən bəzilərinin buraxılacağı istisna edilməyə bilərdi. İcrası zəruri olan

hərbi vəzifənin miqyasından asılı olaraq toplanan qoşunların sayının dəyişməsi də mümkün idi.

Məsələn, Şah Təhmasib öz təzkirəsində 1548-ci ildə Osmanlı qoşunlarına qarşı mübarizədə iştirak etmək üçün fərqli sayda qoşun toplanmasından xəbər verirdi. Təbriz yaxınlığında Şah Təhmasibin düşərgəsində bu göstərilən sayda qoşunlar və dəstələr toplanmışdı: "Bəhram Mirzə - 1800 nəfər ilə, Çiraq sultan – 1500 nəfər ilə, Əliqulu bəy Türkman – 200 nəfər ilə, Dəricərd hakimi Allahqulu bəy – 500 nəfər ilə, İç eli və Şabanqara hakimi Çərəndab sultan – 500 nəfər ilə, Şiraz hakimi İbrahim xan – 3500 nəfər ilə, Kirman hakimi Şahqulu sultan – 2000 nəfər ilə, Kazerun hakimi Köpək sultan – 800 nəfər ilə, Kuhgiləviyə hakimi Mahmud xan – 3000 nəfər ilə, Əfşar, çərik və Qəzvin qoçuları – 1600 nəfər, Suklan və Ərdəbil camaatı -450 nəfər" (23). Cəmi 15850 nəfər. "Təkmilətül-əxbar" əsərində isə bu rəqəmlər bir qədər fərqli şəkildə göstərilmişdir. Bu əsərdə göstərilir ki, Şah Təhmasibin yanında Səfəvi qoşunları artıq toplanmışdı. Şah Təhmasibin düşərgəsinə doğru hərəkət etməkdə olan dəstələr də var idi ki, onların yetişməsi ilə qoşunların ümumu sayı daha da arta bilərdi: "Hələ gəlib ali orduya birləşməyənlər də var idi, bunlar: 1000 nəfərə malik olan Bəhram mirzə, 2500 nəfərə malik olan Şiraz hakimi İbrahim xan, 1000 nəfərə malik olan Kuhgiləviyə hakimi Mahmud xan Əfşar 500 nəfərə malik olan Darabsurd hakimi Allahqulu Əlsik oğlu Kərənpa Ustaclu. 500 nəfərə malik olan İç Neyriz və Fəsa hakimi Çərəndab Sultan Şamlu, 300 nəfərə malik olan Kazerun və fars hakimi Köpək Sultan Əfşar, 500 nəfərə sahib olan sunqər, Dinəvər və Kürdüstan hakimi Çıraq Sultan Kiranpa Ustaclu, 300 nəfərə sahib olan Əliqulu bəy Türkman, 350 nəfər olan Qəzvin qorçiləri ,200 nəfər Qəzvində olan Suklan və tatar nökərləri. Cəmi 7150 nəfər idi" (24).

Bu rəqəmlər həm də vilayətlərdə hansı sayda qoşun saxlanması haqqında ümumi bir təsəvvür yarada bilər. Aydındır ki, bu rəqəmlər də Səfəvi qoşunlarının ümumi say göstəricisi kimi qəbul edilə bilməz. Bu saylar Şah Təhmasib dövründə hansı sayda qoşunların toplanması və qoşun ehtiyatlarının hansı sayda

olması haqqında müəyyən bir təsəvvür yarada bilər. "Əhsənüt-təvarix" əsərində Səfəvi qoşunlarının sayı haqqında obrazlı şəkildə belə bir məlumat verilmişdir: "Qəzavü-qədər kimi cərəyan edən fərmana əsasən, aləmin pənahı olan dərgaha elə bir ordu cəmləşdi ki, onların atlarının tozundan fələklərin lətif aynası torpağın kəsif səthi kimi qaranlıq oldu və göz bəbəyi o ordunun qaraltısından bulandı. [Ordunun sayı] səyyarələr xosrovunun (günəşin) nur bəxş edən zərrələrindən daha ziyadə və asimanın geniş üzündəki ulduzların ədədindən daha çox idi" (25).

Amma real olaraq qoşunların 60 min nəfərdən artıq olmadığı bildirilir (26). Əslində, bundan artıq toplamağa heç ehtiyac da yox idi. Özbək qoşunları ilə müharibə aparmaq üçün 60 minə qədər qoşun kifayət idi. Osmanlı dövlətinə qarşı müharibə aparmaq üçün isə sadəcə bu sayda və ya ondan çox sayda qoşun toplamaq kifayət deyildi. Bu qoşunları Osmanlı qoşunları səviyyəsində təchiz etmək lazım idi.

Elmi-tarixi ədəbiyyatda olan bir məlumata görə, 1530-cu ildə Şah Təhmasib 70 min nəfərlik bir qoşun dəstəsi ilə özbək qoşunlarına qarşı müqavimət göstərmək üçün Xorasan vilayətinə yollandı (27).

Bir sözlə Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi qoşunlarının təxminən 60-70 min nəfər ətrafında olması reallığa daha uyğundur. Amma daha çox qoşun toplamaq imkanları da var idi. Hətta toplanan qoşunlar arasında seçimlər aparıldığı haqqında da məlumatlar mövcuddur. Yəqin ki, Şah Təhmasib tərəfindən verilən göstəriş əsasında vilayətlərdən mümkün olan qədər qoşun toplanıb şah düşərgəsinə göndərilir və orada isə bu qoşunlar arasında seçim aparılırdı. "Təkmilətül-əxbar"dakı məlumata görə, "Azərbaycan və İraq oymaqlarındakı yüz mindən təxminən 20-30 min atlı seçib, onlara nökər adı verdilər" (28). Bu məlumat da göstərir ki, qoşun toplanması üçün Səfəvi dövlətinin böyük potensialı var idi. Amma Şah Təhmasib qoşun toplayarkən say üstünlüyünə deyil, keyfiyyətə, qoşunların döyüşkənliyinə daha çox diqqət yetirirdi. Bunun bariz nümunəsini Özbək qoşunlarına qarşı döyüşdə görmək mümkündür. Şah Təhmasibin özünün

yazdığına görə, Cam döyüşündə 250 minlik özbək qoşunlarına qarşı 3 min nəfərlik qoşun dəstəsi ilə çıxmışdı (29).

Şah Təhmasibin hakimiyyətinin ikinci yarısında, yəni Osmanlı dövləti ilə Amasiya sülh razılaşmasının əldə edilməsindən sonra Səfəvi dövlətinə qarşı xarici təhdidlər səngidi və ona görə Şah Təhmasibim hakimiyyətinin sonlarına yaxın Səfəvi qoşunlarının say tərkibinin aşağı düşməsi də mümkündür.

Vilayət əmirlərinin rəhbərliyi altında toplanan qoşun dəstəsi bir qayda olaraq ayrıca bir struktur vahidini təşkil edirdi. Bu struktur vahidinin tərkibi müxtəlif ola bilərdi. Yuxarıdakı rəqəmlər də göstərir ki, müxtəlif vilayətlərdə müxtəlif sayda qoşun toplanırdı. Daha çox isə qoşunların min nəfərlik vahidlərdə qruplaşdırılması halları mövcud idi. İstər vilayət qoşunları tərkibində, istərsə də mərkəzi qoşunlar tərkibində müxtəlif sayda minliklər ola bilərdi. Bu minliklərin də hər birinin öz rəhbəri var idi.

Bütünlükdə qoşunların struktur vahidlərinə bölünməsində Şah İsmayıl dövründə mövcud olmuş təcrübə saxlanmaqda idi. Bu struktur bölgüsü həm də mövcud olan ənənəvi bölgü idi. Səfəvi qoşunlarında yüzbaşı vəzifəsinin (rütbəsinin) mövcudluğu (30) yüzlük vahidlərinin olmasını da deməyə əsas verir. Yüzlüyün tərkibində isə döyüşçülərin onluqda birləşməsini istisna etmək olmaz. Onluq da Şərq ölkələrinin qoşunları üçün ənənəvi olan struktur vahidi idi və ənənəvi bölgü kimi onun da tətbiqi mümkündür.

Şah Təhmasibin hakimiyyəti illərinə aid olan mənbələrdə fövc, həng, tip, tümən kimi struktur vahidlərinə də rast gəlmək mümkündür (31). Bu struktur vahidlərində nə qədər döyüşçünün birləşdiyi haqqında mənbələrdə aydın bir məlumat yoxdur. Amma Şah İsmayıl dövrünün təcrübəsi nəzərə alınarsa, güman etmək olar ki, fövclərdə 100-500 nəfərdən, tiplər 1000-5000 nəfərdən, tümən isə 10 min nəfərdən ibarət ola bilərdi. Həngin tərkibinin isə təxminən 1000 nəfərdən olması ehtimal edilir. Bu struktur vahidlərindən də qoşun dəstələri formalaşdırılırdı. Qoşunlara ümumi bir ad kimi mənbələrdə həm "ləşgər", həm də

"sepah" terminlərindən istifadə olunmuşdur. Bu terminlər də konkret say tərkibini əhatə etmirdi. İstər şahın rəhbərliyi altında, istərsə də vilayət hakimlərinin rəhbərliyi altında toplanan qoşunların ləşgər və ya sepah adlandırılması mümkündür.

Vilayət hakimləri təyin edilən hakimlərə bayraq və təbil verilərdi (32). Nəzərə alınmalıdır ki, vilayət hakimləri həm də vilayət qoşunlarının əmirləri idilər. Yəni qoşun əmirlərinin özlərinin döyüş bayraqları var idi. Döyüş bayrağına malik olmaq-əmirlərin göstərici əlamətlərindən biri idi və onlar döyüş tapşırıqlarının icrasına da bu bayrağın müşayiəti ilə gedirdilər. Döyüş bayrağı həm də konkret struktur vahidinin göstəricisi idi. Səltənət qoşunlarının baş komandanı kimi Şah Təhmasibin də döyüş bayrağı var idi. Amma bu döyüş bayrağının təsviri barəsində aydın fikir söyləmək çətindir. Burada da güman etmək olar ki, Şah İsmayılın hakimiyyət dövrü üçün ənənəvi olan bayraqlar Şah Təhmasib dövründə də istifadə oluna bilərdi. Şübhəsizdir ki bu bayraqların təsvirində dini məzmun güclü idi. Şah İsmayıla aid olan bayraqların üzərində "La ilahə illəllah, Əli vəliyullah mədəd" və Quranın Səf surəsinin 13-cü ayəsi olan "Nəsri min Allah və fəthi qərib" (Allahdan kömək olarsa qələbə yaxındadır) ayəsinin təsvirləri var idi (33). Şah Təhmasib dövrünə aid olan miniatürlərdə bir sıra döyüş bayraqlarının təsvirinə rast gəlmək mümkündür. Bu bayraqların təsviri də dini məzmun üzərində qurulmuşdur. Minüatürlərdə təsviri qalmış bayraqlar əsasən üçbucaqlı şəklində olmaqla daha çox mavi və qırmızı qumaşlardan düzəldilmişdir. Dördkünclü bayraqlara da rast gəlmək mümkündür. Belə bayraqlar bayraq ağacı boyu uzunsov, eni isə az olan bayraqlardır. Üçkünc bayraqların bəzilərinin üzərində Quranın Səf surəsinin "Nəsri min Allah və fəthi qərib" ayəsinin təsvirini görmək mümkündür (34). Digər bayraqların üzərində də Quran ayələrinin təsvirləri vardır.

Venesiyalı elçi M.Membrenin xatirələrində də Səfəvi bayraqları haqqında bəzi qeydlər vardır. Onun təsvir etdiyi bayraqların konkret olaraq Şah Təhmasibə mənsub olduğunu söyləmək çətindir. Bununla belə, Şah Təhmasibin bayrağının da onun təsvir

etdiyi bayrağa oxşarlığı istisna deyildir. M.Membre yazırdı: “Öndə onların “ələm” adlandırdıqları, nizəyə iki ucdan bağlanmış qırmızı, enli parça və nizənin ucunda yerləşən, içərisində misdən kəsilmiş zərli həflərlə “Əli vəli Allah, la ilahə illa Allah; Əli vəli Allah va Allahu əkbər” sözləri yazılmış dairənin olduğu bayraqlar aparılır. Onları əllərində at belində gəzdirirlər və adamların hamısı gedir, təxminən 5 və ya 6... Nə qədər bayraqlar aparılırsa, orada o qədər krallıq iştirak edir” (35).

“Əhsənüt-təvarix” əsərinin bir yerində Köpək sultanın bayrağının üzərində aypara olmasına işarə edilmişdir (36). Yəni əmirlərin bayrağı eyni bayraqlar deyildi. Bu bayraqlar üçün oxşar cəhət onların üzərində Quran ayələrinin olması idi. Bu ayələrin işlənmə üsulu, onların ətrafının təsvirləri isə fərqli ola bilərdi.

Şah Təhmasib dövrü Səfəvi qoşunları atlı və piyada qoşun növlərindən təşkil olunmuşdu. Səfəvi dövlətinin Xəzər dənizinə və Fars körfəzinə çıxışı olmasına baxmayaraq hərbi dəniz qüvvələri yox idi. Bu istiqamətdə hər hansı bir iş aparılması haqqında da bir məlumat mövcud deyil. Atlı qoşunlar Səfəvi qoşunlarının əsasını təşkil edirdi. Buna üstünlük verilməsinin başlıca səbəblərindən biri qoşunların döyüş sürətinin və keyfiyyətinin artırılması istəyi idi. Atlı qoşunları həm səhər hərəkətləri zamanı bir məntəqədən başqa bir məntəqəyə daha sürətlə atmaq mümkün idi. Digər tərəfdən döyüş tapşırıqlarının icrası zamanı çevikliyi və sürəti kifayət qədər artırmaq mümkün idi. Səltənət ərazilərinin genişliyi və əyalətlərlə sürətli əlaqələrin təmin edilməsi də atlı qoşunlara olan ehtiyacı artırırdı.

Atlı qoşunların üstünlük təşkil etməsi həm də türk tayfalarının həyat tərzindən irəli gəlirdi. Bu tayfaların bütün həyatı at belində keçirdi və onların həyatını atlardan ayırmaq mümkün deyildi. Atlardan məharətlə istifadə edilməsi eyni zamanda döyüş məharətinin artırılmasına zəmin yarada bilərdi.

Atlı qoşunlar Şah Təhmasib qoşunlarının əsas zərbə qüvvəsi idi. Səltənətin müdafiəsinin möhkəmləndirilməsi ilə bağlı qarşıya çıxan vəzifələrin həlli əsasən atlı qüvvələrin iştirakı üzərində planlaşdırılır və həyata keçirilirdi. Əsas vəzifələr atlı qüvvələrə

həvalə olunurdu və Şah Təhmasib dövrünün tanınmış əmirləri və sərkərdələri də məhz atlı qüvvələrin rəhbərləri idilər. Mövcud olan digər piyada və xidmət qüvvələri isə əsasən atlı qüvvələrin fəaliyyətini tamamlayırdılar. Döyüş meydanında hərbi şəraitin dəyişdirilməsi də əsasən atlı qüvvələr vasitəsilə həyata keçirilirdi.

Malik olduğu silahlara görə atlı qüvvələr müxtəlif dəstələrə bölünmüşdülər. Məsələn, ox-kamanla silahlanmış, qılıncla silahlanmış, nizə ilə silahlanmış atlı dəstələri. Döyüş zamanı onların hər birinə ayrıca vəzifələr müəyyənləşdirilirdi.

Səfəvi qoşunlarında piyadaların sayı atlılara nisbətən daha az idi. Lakin onlar da atlandırılmışdılar. Yəni bütün qoşunlar at belinə qaldırılmışdılar və atlarla hərəkət edirdilər. Piyada ixtisaslara aid olan döyüşçülərin də atları var idi və onlar döyüş səfərinə at belində yola yollanırdılar. Döyüş meydanında isə onlar piyada vəzifələrini icra edirdilər. Əslində, atlılar özləri də zərurət yarananda həm də piyada döyüşçüyə çevrilirdilər. Məsələn, qala döyüşlərində, mühasirə döyüşlərində atlılar da piyadaya çevrilir və verilən tapşırığı yerinə yetirirdilər. Bu isə onlardan həm at belində, həm də piyada olarkən silahlardan məharətlə istifadə etməyi tələb edirdi.

Səfəvi qoşunlarının tərkibində tüfəngçilər, topçular, nəqəbçilər, tovaçılər, ləşgərnevislər, musiqiçilər, ələmdarlar, həkimlər və xidmət personalı var idi. Onlarsız qoşunların fəaliyyətinin normal təşkil edilməsi mümkün deyildi. Xidmət personalı təchizat və təminat məsələlərinin həlli ilə, qoşunlarda xidmətin təşkilinin müxtəlif məsələləri ilə məşğul olurdular. Tüfəngçilər və topçular dəstəsinin ayrıca təşkilatlanması Səfəvi qoşunları üçün yeni bir hal idi. Bu silahların Səfəvi qoşunlarında kütləvi istifadəsi Şah Təhmasibin hakimiyyəti illərinə təsadüf edirdi. Qoşunlarda tüfənglərin sayı artdıqca bu silhla silahlananlar ayrıca vahiddə birləşdirildilər. Topçular da o şəkildə qurumlanmağa başladılar. Toplar ağır olduğundan onların bir məntəqədən başqa bir məntəqəyə daşınması da ayrıca bir dəstənin yaradılmasını tələb edirdi. Bu ixtisaslar üzrə təşkil olunan dəstələrin öz rəhbərləri var idi.

Nəqəbçilər (lağımçılar) isə dövrün qoşunlarının ənənəvi tərkib hissəsi idi. Döyüşlərin böyük hissəsinin qalalar ətrafında aparıldığı zaman nəqəbçilərin fəaliyyətinə böyük ehtiyac yaranırdı. Onların fəaliyyəti nəticəsində qala divarları dağıdılır və qoşunlar qala daxilinə adlaya bilirdilər. Bununla döyüşün taleyini də həll etmək mümkün olurdu.

Şah Təhmasib dövrünün qoşunları da xidmət müddətinə görə iki yerə ayrılırdılar- daimi və qeyri-daimi qoşunlar. Say tərkibinə görə qeyri-daimi qoşunlar daha çox idi. Adından da göründüyü kimi, qeyri-daimi qoşunların davamlı şəkildə silah altında olmasına ehtiyac yox idi. Onlar bir qayda olaraq hərbi şəraitin mürəkkəbləşdiyi zamanlar, xüsusilə də müharibələrin aparıldığı vaxtlar müəyyən bir müddət üçün toplanardılar. Qarşıda dayanan vəzifələr icra olunduqdan sonra isə onlar evlərinə buraxılardılar. Qeyri-daimi qoşunlar əsasən, əvvəldən müəyyənləşdirilmiş kontingent idi. Bu kontingent dövlətdən aldığı müəyyən ödənclər, güzəştlər qarşılığında lazım olan vaxt qoşunların tərkibinə daxil olmalı idilər Bu ödənc dövlət tərəfindən ayrılmış torpaq sahəsi də ola bilərdi. Qeyri-daimi qoşunlara cəlb olunanların adətən öz atları və silahları olurdu. Amma onların vilayət hakimləri və ya mərkəzi xəzinə tərəfindən təmin edilməsi halları da var idi. Yuxarıda qeyd olunan faktlardan məlumdur ki, qeyri-daimi qoşunlar əvvəlcədən müəyyənləşdirilməmiş kontingent arasından da toplana bilərdi. Qeyri-daimi qoşunların saxlanması, sözsüz ki, dövlətə daha ucuz başa gəlirdi. Amma bu kontingentə daxil olan döyüşçülərin uzun müddət xidmətdən kənarda qalması onların döyüş məharətinin aşağı düşməsinə səbəb ola bilərdi.

Daimi qoşunlar isə sayca daha az olsalar da döyüş hazırlığı baxımından onlar daha üstün keyfiyyətlərə malik idilər. Saray həyatının fəaliyyətinin təmin edilməsi, səltənət daxilində davamlı və sabit idarəçiliyin yaradılması, asayişin və əmin-amanlığın möhkəmləndirilməsi, habelə yüksək döyüş hazırlığına malik olan xüsusi qüvvələrin mövcudluğu daimi qoşunların saxlanmasını tələb edirdi. Daimi qoşunlar müddətsiz olaraq xidmətə cəlb edilmiş kontingentdən ibarət idi. Bu kontingentə daxil olan insanların

xidmət müddətinin nə qədər davam etməsi hər hansı bir təlimatla normalaşdırılmırdı. Heç şübhəsiz ki, daimi qoşunlara cəlb olunanlar döyüş qabiliyyətini itirdiyi zamana qədər bu qoşunların tərkibində qalırdılar. Bu qoşunlarda xidmət üçün yaş senzinin olması da şübhəsiz idi.

Daimi qoşunlar ilk növbədə sarayın, şahın və onun ailəsinin mühafizəsi üçün təşkil edilirdi. Şahın səfərləri zamanı, yaylaq və qışlaq düşərgələrində olduğu zaman onun həyatının mühafizəsi də daimi qoşunların üzərində idi. Şah İsmayılın hakimiyyəti illərində olduğu kimi daimi qoşun dəstələri Şah Təhmasibin hakimiyyəti illərində də hərbi səfərlərdə, döyüşlərdə iştirak edirdilər. Bu dəstələr bir qayda olaraq şahın ətrafında olurdular və ya da şahın tapşırığı ilə bu və ya digər vəzifəni icra edirdilər.

Şah Təhmasib dövrü daimi qoşunlarının əsasını qorçular təşkil edirdilər. Bu qoşun dəstəsinin adı türk mənşəli sözdən, “qorumaq” sözündən götürülmüşdü və bu dəstənin əsas vəzifəsi də şah sarayının və şah həyatının qorunması, mühafizəsi idi. Belə bir dəstənin meydana gəlməsi səfəvilərdən əvvəlki dövrlərə aid edilsə də, onun əsaslı şəkildə formalaşması Şah İsmayıl dövrünə təsadüf edir. Şah Təhmasibin hakimiyyəti illərində isə qorçular dəstəsi daha da təkmilləşdi, dəstənin sayı artdı və onun fəaliyyət istiqamətləri də genişləndi (37). Qorçular, əslində, şah qvardiyası idi, birbaşa şaha tabe olurdu və vəzifələri də şah tərəfindən müəyyənləşdirilirdi. İlk vaxtlar bu dəstənin vəzifəsi yalnız şahı, onun ailəsini və sarayını qorumaq idisə, sonradan bu dəstəyə müəyyən məsuliyyətli vəzifələrin icrası da tapşırıldı. O cümlədən, qorçular döyüşlərdə də iştirak etməyə başladılar.

Qorçular şaha yaxın olduqları kimi, ona sədaqətli olan bir dəstə idi. Ona görə də qorçuların seçilməsinə xüsusi diqqət yetirilirdi. M.Membre də öz xatirələrində şaha çox yaxın olan əmir və əyanların, vilayət hakimlərinin övladlarının qorçu dəstəsinə seçilməsinə toxunmuşdu (38). Qorçuların əsasını türk tayfalarının nümayəndələri təşkil edirdilər. Qorçuların seçilməsi zamanı əsas diqqət onların şaha sədaqətli olmasına yetirilirdi. Bundan başqa qorçuluğa fiziki keyfiyyətləri yaxşı olan, döyüş qabiliyyəti

yüksək olan insanlar seçilirdi. Çox güman ki, qorçuların seçilməsinə məsuliyyət daşıyan vəzifəli adamlar da var idi. Qorçu dəstələri qarışıq tərkibdə təşkil olunurdu. Şah Təhmasibin hakimiyyəti illərində isə ayrı-ayrı türk tayfalarından ayrıca təşkil edilmiş qorçu dəstələri də var idi. Məsələn, mənbələrdə zülqədər və şamlı qorçuları haqqında məlumat vardır (39). Başqa tayfalardan da qorçu dəstələrinin təşkil edilməsi istisna deyildir.

Qorçular xüsusi geyimə məxsus olmaqla digər xidmət adamlarından fərqlənirdilər. Onların silahları da digərlrindən fərqlənirdi. Qorçular soyuq silahlarla silahlanırdılar. Lakin bu silahlar öz yaraşığına və bəzəklərinə görə xüsusi bir gözəlliyə malik idilər. Həmin silahlar qiymətli silahlar olsalar da, yalnız bəzək üçün deyildilər. Qorçulardan hər zaman tapşırılan vəzifənin icrasına hazır olmaları tələb olunurdu. Bu məsələdə laqeydlik göstərən qorçular saray tərəfindən ciddi cəzalandırılırdı. Yaxşı xidmət edənlərə isə layiqli mükafatlar verilirdi. Bu barədə M.Membrenin xatirələrində maraqlı qeydlər vardır: “Şahın bütün qorçuları qını qızıldan olan qılınc, müəyyən igidlik göstərmiş qorçular və eləcə də bütün əyanlar firuzə ilə bəzədilmiş qızıldan xəncər gəzdirirlər. Onlar firuzə və yaqutla bəzədilmiş qızıl kəmər də taxırlar. Onlar mənim tez-tez gördüyüm Yəzd şəhərində istehsal olunan zərxara və məxmər geyinirlər. Onlar həmçinin başlarına qoyduqları çalmaların üzərinə firuzə və yaqutla bəzədilmiş qızıl zolaq da taxırlar. Bəziləri üç və ya dörd qızıl zolaq vurur. Onla aşağısı qiymətli daşlarla bəzədilmiş qızıl lələklər də taxırlar. Bəziləri üç və ya dörd qızıl zolaq vurur. Onlar aşağısı qiymətli daşlarla bəzədilmiş qızıl lələklər də taxırlar. Şah şənliklər keçirdiyi zaman onların hamısı belə geyinir. ...O, qorçulara çoxlu məvacib verir, belə ki, onlardan ildə 30 tümən alanlar var. Bəzisi 10, bəzisi 4 və ya 5 tümən alır, bu onların ən az alanlarıdır. Bu da həqiqətdir ki, onların yaxşı atları, yaxşı silahları var və onlar kəsici silahlardır. Onlar dəmir geyimdən başqa heç nə geyinmirlər. Bu günlərdə o, Şah Əli Çepniyə 100 tümən pul verdi, Xoy şəhərini və Van qalasını ona tapşırdı. Onun oğlu Dədə bəyi özünün qorçusu etdi. ...Şahın bəzi qorçularının əməliyyata

hazır olmayıb, arxada qaldıqlarına görə, Bəhram bunu dərhal şaha yazdı. Şah təcili olaraq Qara Xəlifəni ora göndərərək, arxada qalanların hər birini zınqırov olan eşşəklərin belində üzü quyruğa tərəf oturdub şəhərə şahın hüzuruna gəlmələrini əmr etdi. Beləliklə, Qara xəlifə onun göstərişləri və eşşəklərlə birlikdə gəldi. Arxada qalanlar eşşəklərə mindirildi. Onların arasında şah süfrəsinin hazırlayanı da var idi. Onlardan Köpək-qıran adlı birisi şahın çox sevimlisi olduğuna görə bağışlandı. Beləliklə, onlar meydana-şahın hüzuruna gəldilər və hamı onları görməyə gəlmişdi. Şah evindən çıxıb, onları sorğu-sual və mühakimə etməyə başladı. Onlar öz növbəsində onlara qarşı sürülən ittihamlardan təmiz çıxmağa can atırdılar. Onla eşşəyin belində oturmuşdular və nəhayət, oranı tərk etdilər. Şah onların hər birinə öz paltarlarından bir dəst verilməsini əmr etdi" (40).

Qorçuların mükafatlanmasına gəlincə, onlara yüksək məvaciblər verilməsi yuxarıda qeyd olunmuşdu. Xidmətini yüksək səviyyədə yerinə yetirən və bu zaman fədakarlıq göstərən qorçular da şah tərəfindən ayrıca mükafatlandırılırdı. Mənbələrdə və elmi-tarixi ədəbiyyatda xidmətdə fərqlənmiş qorçuların mükafat olaraq vilayət hakimliyinə təyin edilməsi haqqında da məlumatlar mövcuddur. Dünyasını dəyişmiş qorçuların xatirəsi də əziz tutulurdu və Şah Təhmasibin göstərişi ilə belələri Ərdəbildə Şeyx Səfi türbəsi ətrafında dəfn edilirdilər (41). Bu yer sufilərin nəzərində müqəddəs bir məkan kimi qəbul edilirdi və həmin məkanda dəfn mərasiminin keçirilməsi dəfn olunana verilən ehtiramla bağlı idi

Bu qeydlərdə qorçuların geyimləri və silahları haqqında ümumi bir məlumat vardır. Yuxarıda deyildiyi kimi, onlar soyuq silahlarla silahlanırdılar və əyinlərinə zərif toxunmuş zireh mühafizə vasitəsi də geyirdilər. Bu mühafizə vasitəsi daha çox soyuq silahdan qorunmaq üçün istifadə edilirdi. Başlarına isə qızılbaş papaqları qoyurdular. Döyüş bölgələrində olarkən dəbilqədən istifadə etmələri istisna deyildi. Hər bir qorçunun xidmətçi personalı var idi və səfərlərə gedərkən bu personal da onları müşa-

yiət edirdi. Mövcud olan məlumata görə, bir qorçunu səfər zamanı onun 5-də 50-yə qədər xidmətçi müşayiət edirdi (42).

Qorçular dəstəsinin tərkibinin ümumi sayı haqqında müxtəlif rəqəmlər mövcuddur. Mənbələrə istinad edən tədqiqatçıların bəzilərinin əsərlərində Şah Təhmasibin hakimiyyəti illərində qorçuların sayının 4500 və 5000 nəfər olduğu (43), başqa bir əsərdə isə onların sayının 10 min nəfər olduğu göstərilmişdir (44).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasib dövrü qorçularının sayı və onların döyüş keyfiyyətləri haqqında belə yazılmışdır: "Cənnətməkan şah həzrətlərinin ölümü zamanı böyük yüzbaşıların, mənsəb sahiblərinin, qorçuların və dərgahın digər mülazimlərinin ümumi sayı altı min nəfər idi. Bunlardan dörd min beş yüz nəfəri qorçu və min beş yüz nəfəri «qırçıyani-daş», yasavul, bukavul və b. şəxslərdən ibarət olan digər camaat idi. Yasavullardan, mötəbər qorçulardan, eşikağasılardan, qur və divan yasavulbaşılarından, mirşikarlardan və topçubaşılardan ibarət olan bu camaatın arasında hər təbəqədən və hər tayfadan bir çoxları vardı ki, onlar əmirlik səviyyəsinə çatmışdılar. Onlar əmirlik rütbəsinə layiq görülməsələr də, nüfuz baxımından əmirlərdən heç də əskik deyildilər. Onların hər biri öz tutduqları mövqeyə görə əlli nəfərdən beş nəfərə qədər işə yarayan nökərlərə malik idilər. Padşah xassəsinin mülazimləri olan həmin altı min nəfərin səhih sayla göstərilmiş xidmətkarlarının və nökərlərinin sayı təxminən iyirmi min nəfər idi, bəlkə, daha çox idi. Qorçular döyüşkənlikdə və şücaətdə elə bir ad çıxarmışdılar ki, əgər bir döyüşdə yüz nəfər şah qorçusu olsaydı, onlar min nəfər digər qoşun təbəqəsinə bərabər olardılar" (45).

Qorçuların əsas hissəsi mərkəzi hakimiyyətin tabeliyində idi. Onlarla yanaşı əyalətlərdə xidmət edən qorçular da var idi. Məsələn, mənbələrdə Qəzvin, Tehran, Məşhəd, Naxçıvan, Şəki qorçularının adlarına rast gəlmək mümkündür. Onlar vilayətlərdə ayrıca dəstələr kimi qurumlanmışdılar. Lakin həmin dəstələr sarayın qorçubaşısına tabe idilər (46).

Şah Təhmasibin hakimiyyəti illərində də Şah İsmayılın vaxtında olduğu kimi, qorçular bütünlükdə dörd struktur vahidinə

bölünürdülər: 1) qorçular dəstəsinə rəhbərliyi özündə birləşdirən qorçubaşı; 2) mülazim qorçuları; 3) silah (yaraq) qorçuları və 4) adi qorçular (xidmət qorçuları).

Qorçuların rəhbəri Səfəvi sarayında və şahın yanında kifayət qədər nüfuz və hörmətə malik olan əmir və əyanlar idilər. Onların seçiminə şah xüsusi münasibət göstərirdi. Sözsüz ki, bu vəzifəyə şahın yaxın ətrafında olan, sədaqəti şübhə doğurmayan və döyüş keyfiyyətləri ilə fərqlənən təcrübəli əmir və əyanlar seçilirdi. Çünki qorçular dəstəsinin necə formalaşması və fəaliyyət göstərməsi də qorçubaşının fəaliyyəti və şəxsi keyfiyyətləri ilə sıx bağlı idi. Elmi-tarixi ədəbiyyatda mənbələrə istinad etməklə Şah Təhmasib hakimiyyəti illərində qorçubaşı olmuş əmirlərin siyahısı ilə də qarşılaşmaq mümkündür. Bu siyahının tərkibi belədir: Nadir bəy, Bəkir bəy Ustaclı, Tataroğlu Təkəli, Durağ bəy Təkəli, Dədə bəy, Pərvanə bəy Təkəli, Oğlan xəlifə Şamlı, Şir Həsən, Sevindik bəy Əfşar, Əhməd bəy Əfşar, Yusifqulu sultan Əfşar, Qulu bəy Əfşar (47).

Qorçuların digər bir struktur vahidi mülazim qorçuları idi. Bu vahidə aid olan qorçular xidmət sahəsində şaha daha yaxın olan insanlar idilər. Məsələn, bu və ya digər yerə səfər zamanı şahın atlanmasına, atdan yerə enməsinə, onun atının hazırlanmasına kömək və təşkil etmək mülazim qorçularının vəzifələrindən idi. Atların seçilməsi və onların səfərə hazırlanması da mülazim qorçularının vəzifələrinə aid idi.

Silah qorçularının say etibarilə daha böyük vahid olduğu güman edilir. Mühafizə və döyüş xarakterli vəzifələrin icrası da bu vahidin üzərində idi. Ona görə həmin vahidə daxil olan qorçuların seçimi və xidməti xüsusi əhəmiyyət kəsb edirdi. Bu vahidə aid olan qorçular müxtəlif qruplara bölünürdülər və onlar "müqərrəbül həzrət" (həzrətə yaxın olanlar) ləqəbinə malik idilər. Yəni bu vahidə aid olan qorçular da şaha yaxın olan dəstə kimi xarakterizə olunurdu. İşlətdikləri silah növünə görə bu vahidə aid olan qorçular belə qruplaşdırılırdı: 1) müqərrəbbül həzrət qılınc qorçusu; 2) müqərrəbül həzrət sədəq qorçusu; 3) müqərrəbül həzrət ox və yay qorçusu; 4) müqərrəbül həzrət şişpər qorçusu; 5)

müqərrəbül həzrət xəncər qorçusu; 6) müqərrəbül həzrət zireh qorçusu; 7) müqərrəbül həzrət qalxan qorçusu; 8) müqərrəbül həzrət tüfəng qorçusu; 9) müqərrəbül həzrət mizraq qorçusu və 10) müqərrəbül həzrət nacaq qorçusu (48). Bəzi tədqiqatçılar belə güman edirlər ki, bu qorçuların vəzifəsi şahın müvafiq silahını gəzdirmək və lazım olanda onları şaha çatdırmaq idi (49). Amma bu fikir bir qədər şübhəli görünə bilər. Məsələn, Şah Təhmasibin nə vaxtsa tüfəngdən istifadə etməsi haqqında mənbələrdə hər hansı bir məlumata rast gəlmək çətindir. Şah Təhmasibin nacaqdan, mizraqdan istifadə etməsi də həqiqətdən uzaq görünür. Heç şübhəsiz ki, burada söhbət şahın mühafizəsini təmin edərkən qorçuların hansı silahla silahlanmasından gedir. Yəni şahın, onun ailəsinin, sarayı, xəzinənin mühafizəsini təmin edən qorçuların bir qrupu qılıncla, bir qrupu tüfənglə və s. silahlanmışdı. Mənbələrdə olan faktlar da bu fikri təsdiq etməyə əsas verir. Məsələn, 1552-ci ildə Ərciş qalasının mühasirəsi zamanı müvafiq silahla silahlanmış qorçular döyüş mövqeyi tutaraq qarşı tərəfə zərbə endirirdilər: "İtaəti lazım olan hökm verildi ki, hər tərəfdən əsgərlər bir döyüş mövqeyi tərtib etsinlər. Fərmana əsasən, ilk öncə Sevindik bəy Qorçubaşı qala yaxınlığındakı bir kilsədə döyüş mövqeyi tutdu. Həsən bəy Yüzbaşı, ox və kaman qorçusu (qurçiyi-tirü-kəman) Hüseyn bəy və b. qorçular da döyüş mövqeləri tərtib etdilər" (50).

Şah Təhmasibin təzkirəsində olan bəzi məlumatlar isə qorçuların döyüş tapşırıqlarının icrasında fəal şəkildə iştirak etmələrindən xəbər verir. Yəni qorçular malik olduqları silahlarla verilən tapşırıqların icrasını həyata keçiridilər: "Qiya bəy Şəkəroğlu və qorçubaşı Şir Həsənə tapşırdım ki, bir qədər adamla atlanıb Vanın üstünə getsinlər. O biri gün axşama yaxın iki nəfər qorçu gəlib xəbər gətirdi ki, Ülamə Vanı qoyub qaçmışdır. ...Şiraz hakimi Qazı xan və Yəqub sultan Qacarı, qorçulardan bir qədərini, Köpəkqıran yüzbaşı Həsən bəyə qoşdum və əmirlərin adamlarından da 500 nəfəri onlarla birləşdirib tapşırdım ki, gedib Seyid Məhəmmədin vilayətini qarət edib talasınlar. ...Orada

Osman paşa qarovul qoyduğumuz zülqədər və ustacllı qorçuları ilə rastlaşıb vuruşur və məğlub olub qaçır" (51).

"Tarix-i aləmara-yi Abbasi" əsərində də qorçuların ciddi döyüş tapşırıqları yerinə yetirməsi haqqında çoxlu sayda faktlar vardır. Bu əsərdə olan bir sıra məlumatlara görə, qorçu qüvvələri daxili struktur vahidlərinə bölünmüşdülər. Məsələn, bir neçə yerdə qorçu fövcünün olmasına işarə edilmişdir (52). Qorçuların sayını ən azı 4500 nəfər olacağı halda onların struktur vahidlərinə bölünməsi təbii görünməlidir. Bununla onların idarə edilməsini də asanlaşdırmaq mümkün ola bilərdi. Fövclərin olduğu halda onların da daxili strukturlara bölünməsi mümkün ola bilərdi.

"Tarix-i aləmara-yi Abbasi" əsərində əzam qorçularının və xassə qorçuların olması faktları ilə də rastlaşmaq mümkündür. Bəzi tədqiqatçıların fikrincə, əzam qorçular adi qorçular idi və onların vəzifəsi yalnız şahın özünün mühafizəsi idi (53). Amma adı çəkilən əsərdə olan məlumat bu fikrin doğruluğunu şübhə altına ala bilər. Çünki həmin məlumatlar əzam qorçuların da ciddi döyüşlərdə iştirak etməsindən xəbər verir. Məsələn, bu əsərin bir yerində deyilir ki, İsmayıl Mirzənin rəhbərliyi altında Ərzruma göndərilmiş qoşun dəstəsinin tərkibində əzam qorçuları da var idi. Bu qoşun dəstəsi Osmanlı qoşunlarına qarşı mübarizə aparmalı idi. Başqa bir yerdə isə deyilir ki, Şah Təhmasib nüfuzlu əmirlərdən olan Allahqulu sultan Ayçəkoğlunu və Mirzə Əli sultan Qacarı əzam qorçularının bir fövcü ilə döyüş tapşırığının icrasına göndərdi (54). Bu məlumatdan belə görünür ki, əzam qorçuları adi qorçular və ya yalnız şahı mühafizə edən qorçular deyildilər. Onlar da ciddi döyüş vəzifələrini icra etməyə hazır olan qorçular idilər. Eyni zamanda o da məlum olur ki, əzam qorçuları ayrıca strukturlarda birləşdirilmişdilər və çox güman ki, onların ayrıca rəhbərliyi də var idi. "Tarix-i aləmara-yi Abbasi" əsərinin bir yerində isə bildirilirdi ki, Ərəbkərli oymağından olan Əliqulu bəy əzam qorçularının vəziri idi və Səfəvi dövlətinin əsasının qoyulduğu vaxtdan əzam qorçularının vəziri vəzifəsi Ərəbkərli oymağının nümayəndələrinə məxsus idi. Bundan əlavə məlumdur ki, qorçu dəstəsinin müstövfisi də var idi (55). Qorçu

dəstələrinin vəziri qorçubaşına, konkret halda isə əzam qorçularının rəhbərinə tabe olan bir vəzifəli şəxs idi. Bu vəzifə sahibi qorçu dəstəsinin xidmətinin və fəaliyyətinin təşkili sahəsində qorşubaşı tərəfindən müəyyənləşdirilmiş vəzifələrin icrası ilə məşğul olur və bununla qorçubaşının işlərini yüngülləşdiridi. Qorçu dəstəsinin müstövfisi isə qorçuların maaş məsələlərinin həlli ilə məşğul olmaqla o da qorşubaşının tabeliyində idi.

Qeyd edildiyi kimi, "Tarix-i aləmara-yi Abbasi" əsərində xassə şah qorçularının olması haqqında da məlumat vardır (56). Bu qorçular xüsusi qorçular idi və çox güman ki, onlar şahın xüsusi tapşırıqlarını icra edirdilər. Şübhə etmək olmaz ki, bu qorçular həm də xüsusi hazırlıqlı və daha çevik qorçular idilər.

Müxtəlif silahla silahlanmaları, heç şübhəsiz ki, qorçulardan müəyyən təcrübə və hazırlıq səviyyəsində olmasını tələb edirdi. Güman etmək olar ki, qorçuların istifadə etdikləri silahların işlədilməsi məharətinə malik olmaları üçün müəyyən hazırlıqlar keçirdilər.

Adi qorçular da müxtəlif qruplara bölünürdülər. Məsələn: ayaqqabı qorçusu, nizə qorçusu, çətir qorçusu, nargilə (qəlyan) qorçusu, səndəli qorçusu, çövkan qorçusu və s. (57). Adlarından göründüyü kimi, bu qorçular qeyri-döyüş qorçuları, yəni xidmət personalı idilər. Lakin onlar da şaha yaxın olan insanlar idilər və ona görə onların da seçiminə xüsusi diqqət yetirilirdi. Mövcud olan məlumata görə, xüsusi kontingenti təşkil edən qorçular Şah Təhmasibin razılığı olmadan evlənə də bilməzdilər (58).

Bəzi məlumatlardan görmək mümkündür ki, şah qorçularından başqa şahın qardaşlarına və övladlarına məxsus olan qorçu dəstələri də var idi. Bu dəstələr, əslində, formal müstəqilliyə malik idilər. Çünki onların yaradılması da Şah Təhmasibin hökmü ilə baş verirdi. Məsələn, onun hökmünə əsasən qızılbaş tayfalarının hər birindən 30 nəfər qorçu alındı və Sam Mirzə üçün qorçu dəstəsi təşkil edildi (59). Bu qorçu dəstəsi Sam Mirzənin mühafizəsini təşkil etməklə bərabər, həm də onunla birlikdə döyüşlərdə də iştirak edirdi. Məsələn, Qəndəhar ətrafındakı döyüşdə

Sam Mirzə ilə birlikdə onun qorçularının döyüşməsi haqqında da mənbələrdə məlumat qalmışdır (60).

### 3. Qoşunların idarə edilməsi və təchizatı

Şah İsmayılın hakimiyyəti illərində Səfəvi qoşunlarının idarə edilməsi sahəsində mövcud olan təcrübə və ənənə Şah Təhmasibin hakimiyyəti dövründə də mövcudluğunu saxlamaqda idi. Şah səltənət idarəçiliyində hüdudsuz səlahiyyətlərə malik olduğu kimi, qoşunların idarə edilməsində də hüdudsuz səlahiyyətlərə malik idi. Ali baş komandan olmaqla qoşunların təşkili, təchizi, xidməti, fəaliyyəti, idarə edilməsi bütünlüklə şahın iradəsi əsasında baş verirdi. Qoşunların say tərkibinin müəyyənləşdirilməsi, onların toplanması və ya buraxılması, səfərbərlik məsələləri, əyalət qoşunlarının təşkilinin ümumi rəhbərliyi, qoşunların döyüş fəaliyyətinə cəlb edilməsi, təchizat məsələləri və s. kimi məsələlər şahın nəzarəti altında baş verirdi. Qoşunların ali rəhbərliyinin təyinatı və onların vəzifədən alınması məsələsi də şahın qərarı ilə baş verirdi.

Şah Təhmasibin sarayında qoşunların idarəçiliyinə məsuliyyət daşıyan bir sıra ali vəzifə sahibləri var idi. Onlardan biri əmirül-üməra idi. Hərfi mənada əmirül-ümərə əmirlər əmiri demək idi. Başqa sözlə, əmirül-ümərə qoşun əmirlərinin başçısı idi və bütün qoşun əmirləri ona tabe idi. Yəni əmirül-ümərə qoşunların idarəçilik piramidasında rəsmi olaraq şahdan sonrakı yeri tuturdu. Səltənət vəkilinin və şahzadələrin də qoşun idarəçiliyində özünəməxsus səlahiyyətləri var idi. Səltənət vəkili öz vəzifəsinə görə, şahzadələr isə öz mövqelərinə görə qoşunların idarə edilməsinə müəyyən təsir göstərmək imkanların malik idilər. Lakin onlar qoşunların idarə edilməsi piramıdasında deyildilər.

Əmirül-ümərənın qoşunların təşkilində və idarə edilməsindəki rolu Şah Təhmasibin hakimiyyətinin xüsusilə, ilk dövründə daha yüksək idi. Ona görə də qızılbaş əmirləri bu vəzifənin ələ keçirilməsi üçün öz aralarında ciddi rəqabət aparırdılar. Səltənət qoşunlarına rəhbərlik edilməsi heç şübhəsiz ki, bu və ya digər

qızılbaş əmirinin gücünü və nüfuzunu daha da artırırdı. Şah Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş əmirləri arasında baş verən kəskin qarşıdurmanın səbəblərindən biri də məhz əmirül-ümərа vəzifəsinin ələ keçirilməsi idi. Bu vəzifənin hətta 1533-cü ilə qədər səltənət vəkili vəzifəsi ilə birləşdirilməsi haqqında da məlumat vardır (61). Yəni səltənət vəkili eyni zamanda səltənətin əmirül-ümərası idi. Həmin vaxtdan sonra isə səltənət daxilində əmirül-ümərа vəzifəsinin əvvəlki nüfuzunun zəifləməsini görmək mümkündür. Qorçubaşının nüfuzunun artması, habelə şahzadələrin və şahın qardaşlarının qoşun idarəçiliyində daha fəal iştirakı əmirül-üməranın fəaliyyətinin zəifləməsinə yol açdı.

Bununla belə mövcudluğu dövründə əmirül-ümərаlar qoşunların fəaliyyətinin əlaqələndirilməsində, onların təchizat və təminat məsələlərində əhəmiyyətli rola malik idilər. Qoşunların idarə edilməsi, mərkəzi qoşunlarla vilayət qoşunlarının fəaliyyətinin əlaqələndirilməsi, o cümlədən də tayfa qoşunlarının arasında fəaliyyət əlaqələrinin yaradılması əmirül-ümərаların üzərində idi. Heç şübhəsiz ki, qoşunların təşkilində və təchizində olan çətinliklər haqqında məsələlər də əmirül-ümərаlar tərəfindən şaha ərz olunurdu. Şah Təhmasibin hakimiyyəti illərində aşağıdakı əmirlər əmirül-ümərа vəzifəsini tutmuşdular (62):

Div sultan Rumlu və Köpək sultan Ustaclı (1524-cü il), Div sultan Rumlu və Çuxa sultan Təkəli (1526), Çuxa sultan Təkəli (1527), Hüseyn bəy Şamlı, Abdulla xan Ustaclı (1531-1534), Şahqulu sultan Ustaclı ( 1567-68).

Mənbələrdə vilayət əmirül-ümərаlarının olması ilə də rastlaşmaq mümkündür. Məsələn, Ülamə Təkəli Azərbaycanın əmirül-ümərası idi, Şahqulu sultan Ustaclı həm Azərbaycan, həm də Xorasan əmirül-ümərası olmuşdu (63). Amma bu vəzifə sahibləri əslində vilayət hakimləri idilər. Vilayət hakimləri, bəlli olduğu kimi, həm də vilayət qoşunlarının əmiri idilər. Vilayət əmirül-ümərasının ayrıca bir institut kimi mövcudluğu Şah Təhmasib dövrü üçün xarakterik deyil və vilayət əmirül-ümərаları da yalnız yalnız qoşun əmirlərinə rəhbərlik etmirdilər. Belə bir vəzifə

sahibinin fəaliyyəti heç də qoşunlara rəhbərliklə məhdudlanmırdı.

Vilayət hakimləri də qoşunların idarə edilməsi sistemində mühüm bəndlərdən birini təşkil edirdilər. Yuxarıda qeyd edildiyi kimi, vilayətlərdə qoşunların təşkili, təchizi, idarə edilməsi, döyüş tapşırıqlarının icrasına cəlb edilməsi vilayət əmirlərinin üzərində idi. Onlar qoşunların toplanması, yeni səfərbərliyin aparılması və döyüş tapşırıqlarının icrası ilə bağlı şahın fərmanlarını yerinə yetirirdilər. Amma şah tərəfdən alınan fərmanların icrasında vilayət hakimləri müəyyən müstəqilliyə də malik idilər. Vilayət qoşununun toplanması, onların saxlanması və təchizi əsasən, vilayət hakimi tərəfindən həll edilirdi. Bu zaman vilayət hakimi həm döyüşçü, həm də təchizat ehtiyatlarını müəyyənləşdirib tapmalı idi. Vilayət qoşunları bir qayda olaraq vilayət əhlisindən toplanırdı. Lakin vilayət hakimi vəzifəsinə qızılbaş tayfalarının nümayəndələri təyin ediləndə həmin tayfa üzvlərindən toplanmış qoşun dəstəsinin də vilayətə aparılması mümkün idi. Məlumdur ki, vilayətlərdə böyük sayda qoşun saxlanmasına ehtiyac yox idi. Ona görə də vilayət hakimlərinin yanında məhdud daimi qoşun dəstəsi saxlanılır, zərurət yarananda isə əlavə qoşun dəstəsi toplanırdı. Döyüş tapşırıqlarının icrası zamanı vilayət hakimləri vilayət qoşunlarına rəhbərlik edirdilər.

Qoşunların idarə edilməsi sistemində mühüm bəndlərdən birini də qorçubaşı təşkil edirdi. Belə bir vəzifə ilk dəfə Şah İsmayılın hakimiyyəti illərində təsis edilmişdi. Qorçubaşı bir qayda olaraq qorçuların öz aralarından seçilirdi. Çünki belə olduğu təqdirdə qorçubaşı həm lazımi qorçuluq təcrübəsinə malik olurdu, həm də bununla qorçuluq ənənələrinin qorunmasına zəmin yaradılırdı (64).

Şah Təhmasibin hakimiyyəti illərində isə bu vəzifənin nüfuzu xeyli genişlənmişdi. Bunun bəzi səbəbləri də var idi. Əvvəla, əmirül-üməra vəzifəsinin səlahiyyətlərinin və nüfuzunun aşağı düşməsi ilə qorçubaşının nüfuzu və səltənət idarəçiliyindəki yeri daha da artdı. Digər tərəfdən qorçubaşı şahın tabeçiliyi altında mərkəzdə saxlanılan əsas hərbi qüvvənin rəhbəri kimi böyük

nüfuz əldə etdi. Qorçu dəstəsinin sayının kifayət qədər böyük olması müharibə aparılmadığı vaxt mərkəzdə əlavə qüvvələrin saxlanılmasını istisna edirdi. Belə bir vaxtda əmirül-üməranın nüfuzu zəifləyir və mərkəzdəki əsas hərbi qüvvənin rəhbəri kimi qorçubaşının nüfuzu daha da artırdı. Ona görə müəyyən vaxtlarda qorçubaşı daha önəmli bir füqur kimi önə çıxırdı. Qorçu dəstəsi birbaşa şahla əlaqəli olduğu üçün bu qüvvənin rəhbərinin də xüsusi etibarlı birisi olması zəruri idi. Bu məqam özü də qorçubaşının nüfuzunun artmasına zəmin yaradırdı.

Yuxarıdakı qeydlərdən məlum olur ki, qorçubaşı vəzifəsini uzun müddət, yəni 1533- 1562-ci illər ərzində Sevindik bəy Əfşar icra etmişdi. Səfəvi sarayına səfər etmiş avropalıların qeydlərində onunla bağlı bəzi maraqlı məlumatlarla rastlaşmaq mümkündür. Bildirilir ki, Sevindik bəyin 90-a yaxın yaşı var idi və qorçubaşı vəzifəsini icra edirdi. Bundan başqa müəllif qorçubaşının geyiminin Osmanlı yeniçərilərinin geyimini xatırlatdığını qeyd edirdi. Yaşının çoxluğuna baxmayaraq Sevindik bəyin yaxşı at sürdüyü və bildirilirdi. Şahidin verdiyi məlumata görə, səfərə çıxanda qorçubaşını xidmətçiləri müşayiət edirdilər. Həmin xidmətçilər qorçubaşının oxunu, kamanını, çantasını, gümüş su qabını gəzdirirdilər (65).

Bu məlumatdan göründüyü kimi, Sevindik bəy 90 yaşında olarkən qorçubaşı vəzifəsini icra edirdi. Heç şübhəsiz ki, bu yaşında olanda da Sevindik bəy səltənətin qorçubaşısı kimi, lazımi fiziki keyfiyyətlərə və hazırlığa malik idi. Yoxsa o, səltənətin xüsusi qüvvələri sayılan qorçu dəstəsinə rəhbərlik edə bilməzdi. Onun yaxşı at sürməsi, silahlarının daim yanında olması da malik olduğu döyüş keyfiyyətlərindən xəbər verirdi.

Səfəvi qoşunlarına daxil olan bütün xidmət sahələrinin öz idarəetmə strukturları mövcud idi. Bu strukturların bəziləri ənənəvi strukturlar idi, bəziləri isə yenicə fotmalaşmağa başlamışdı. Şah Təhmasibin hakimiyyəti illərində tüfəngçiağası və topçubaşı kimi idarəetmə mənsubları da meydana gəlmişdi. Topların və tüfənglərin qoşunlarda istifadəsinə hələ Şah İsmayılın hakimiyyəti illərində başlanmışdı. Lakin o zaman bu silahların

tətbiqi kütləvi xarakter daşımırdı və Şah İsmayılın hakimiyyəti illərində buna nail olmaq mümkün olmadı. Şah Təhmasibin hakimiyyəti illərində həmin silahların tətbiqinin artması bu silahla silahlanan döyüşçülərini ayrıca bölmələrinin təşkilinə də imkan verdi. Tüfəngçi dəstələri əslində, piyada qoşunlarına aid idi və təşkilinin ilkin vaxtlarında onların piyada olaraq fəaliyyət göstərmələri haqqında da məlumatlar mövcuddur. Mənbələrdə və elmi-tarixi ədəbiyyatda tüfəngçilərin tüfəng piyadaları kimi təqdim olunması ilə də rastlaşmaq mümkündür. Sonralar isə tüfəngçilər də atlandırıldılar və bununla da onların bir yerdən başqa bir yerə atılması da asanlaşdı (66).

Tüfəngçiağası tüfənglə silahlanmış bölmələrin rəhbəri idi. Bu bölmələrin təşkili, onların silahlandırılması, tüfəngdən istifadənin öyrədilməsi, bu silahların döyüş tətbiqi, tüfəng bölmələri tərəfindən döyüş tapşırıqlarının icrası tüfəngçiağasının məsuliyyət sahəsinə aid idi. Mənbələrdə və elmi-tarixi ədəbiyyatda Şah Təhmasibin hakimiyyəti illərində tüfəngçiağası (tüfəngçibaşı) vəzifəsində fəaliyyət göstərmiş əmir və əyanların adlarına rast gəlmək çətindir. Onlardan Kor Həsənin adı mənbələrdə öz əksini tapmışdır. Onun hələ 1529-cu ildə tüfəngçiağası vəzifəsində olması haqqında məlumat mövcuddur (67). Buradan belə qənaətə gəlmək mümkündür ki, sonrakı illərdə də Səfəvi qoşunlarında tüfəngçiağası vəzifəsi olmuşdur.

Tüfəngçiağası vəzifəsi ilə müqayisədə topçubaşı vəzifəsində olan daha çox əmir və əyanın adı elm aləminə məlumdur. Bu vəzifə sahibinin hələ Şah İsmayılın hakimiyyəti illərində mövcud olduğu haqqında mənbələrdə müvafiq məlumatlar vardır. Yuxarıda qeyd edildiyi kimi, Şah İsmayılın hakimiyyəti illərində Səfəvi qoşunlarında artıq topların olması haqqında məlumat vardır. Lakin onların sayı çox deyildi və ona görə topçubaşı elə də nüfuz qazanmış bir vəzifə deyildi. İlk baxışdan hətta belə bir vəzifənin Şah İsmayılın hakimiyyəti illərində mövcudluğu qəribə də görünə bilər. Lakin mötəbər mənbələr əsasında aparılmış elmi-tədqiqat əsərlərində Şah İsmayılın hakimiyyəti illərində top-

çubaşı vəzifəsində olmuş bəzi əmirlərin adı da müəyyənləşdirilmişdir (68).

Dövrün və zamanın tələbi Şah Təhmasibin hakimiyyəti illərində topların tətbiqini genişləndirməyi böyük bir zərurət kimi irəli sürürdü. Bu silahların qoşunlarda artması isə müvafiq bölmələrin və hazırlıqlı kontingentin meydana gəlməsinə yol açırdı. Toplar öz döyüş keyfiyyətlərinə görə soyuq silahlardan köklü şəkildə fərqlənən silahlar idilər və onların istifadəsi xüsusi hazırlıq görmüş şəxsi heyətin mövcudluğunu tələb edirdi. Topların bir yerdən başqa yerə daşınması da xüsusi xidmət nəfərləri olmadan mümkün deyildi. Yəni topların qoşunlarda tətbiqi yeni xidmət sahələrinin yaradılmasını tələb edirdi. Topçubaşı vəzifəsinə təyin edilmiş adamlar da, sözsüz ki, bu sahədə müəyyən təcrübəsi olan adamlar idilər. Bu vəzifəyə təyin olunmuş adamlar bu qoşun qisminin təşkilatlandırılması, topçuluq xidmətinin təşkili və onlardan döyüşdə istifadəsi məsələlərinə məsuliyyət daşıyırdı.

Mövcud olan məlumatlara görə, Şah Təhmasibin hakimiyyəti illərində Ustad Şeyxi bəy (1528-1529), Şeyxəli Topçubaşı (1538-1539), Dərviş bəy Topçu (1551-1552), Süleyman bəy (1556-1557) topçu vəzifəsində olmuşdular (69). Çox güman ki, Şah Təhmasib dövrünün topçubaşıları yalnız bunlardan ibarət deyildi və onların hamısının adları günümüzədək gəlib çatmamışdır.

Top və tüfəng Şah Təhmasib dövrü qoşunların istifadəsində olan əsas silahlar idi. Doğrudur, bu silahlar soyuq silahları sıxışdırıb aradan çıxara bilməmişdilər. Bununla belə, Şah İsmayıl dövrünə nisbətən Şah Təhmasibin hakimiyyəti illərində onların tətbiqi xeyli artmışdı və aydın bir təsəvvür də yaranmışdı ki, qoşunların döyüş potensialının artırılması odlu silahlardan daha geniş şəkildə istifadə edilməsi ilə bağlıdır. Bu silahların əldə edilməsi üçün Avropa ölkələri, xüsusilə də Portuqaliya ilə ticarət əlaqələri qurulmuşdu. Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi qoşunlarında iki növ tüfənglərdən istifadə olunurdu – fitilli (şamxal) tüfənglər və çaxmaqlı tüfənglər. Fitilli tüfənglər lülələrindən doldurulurdu və məlumdur ki, bu tüfənglərin vurma

uzaqlığı elə də böyük deyildi. Özü də bu tüfənglərdən istifadə edilməsi üçün əlavə təchizata ehtiyac var idi. Bütünlükdə, tüfənglə silahlananlar bu silahdan başqa onlardan istifadə edilməsi üçün yanlarında barıt qabı, qulaq adlanan kiçik çanta, mil, müxtəlif sünbələr, çaxmaq daşı, qırma qabı və s. əşyalar gəzdirməli idilər (70). Bu silahlar o dövr üçün xarakterik olan silahlar idi və onların gəzdirilməsi ilə istifadəsi döyüşçülərdən müəyyən təcrübə və çevikliyi tələb edirdi. Sözsüz ki, vaxt keçdikcə bu silahlar da təkmilləşməyə məruz qaldılar və sonradan Səfəvi qoşunlarına lülələri daha qısa olan tüfənglər də gətirilməyə başladı. Fitilli tüfənglər elmi-tarixi ədəbiyyatda həm də arkeyebus tüfənglər kimi də təqdim olunmaqdadır.

Toplardan istifadə də Şah Təhmasibin hakimiyyəti illərində xeyli genişləndi. Elə topçubaşı vəzifəsinin meydana gəlməsi və qoşun idarəçiliyində bu vəzifə sahibinin əsaslı yer tutması da toplardan istifadənin genişlənməsi ilə bağlı idi. Mövcud olan bəzi məlumatlara görə, Şah Təhmasibin hakimiyyəti illərində Portuqaliya ilə hətta top düzəldilməsi sahəsində də müəyyən əməkdaşlığa başlanmışdı (71).

Mənbələrdə olan məlumatlara görə, Şah Təhmasibin qoşunlarında odlu silahların sayı kifayət qədər çox idi. Məsələn, mənbələrin birində 5 min ədəd tüfəng, 120 ədəd zərbzən olması haqqında məlumat verilir (72). 5 min ədəd tüfəngin olması təxminən elə bu sayda da tüfəngçinin olmasını ehtimal etməyə əsas verir. Yəni Şah Təhmasibin qoşunlarında tüfənglə silahlananların sayı xeyli çox idi. Toplar haqqında göstərilən say da bu silahla təchizatın heç də aşağı səviyyədə olmadığını nümayiş etdirirdi.

Mənbələrdə Şah Təhmasib qoşunlarında istifadə olunan topların müxtəlif növlərinin olması haqqında məlumat vardır. Bu toplar kalibrinə və vurma məsafəsinə görə bir birindən fərqlənirdilər. Yuxarıdakı məlumatda zərbzənin adı çəkilmişdir. Ondan başqa qoşunlarda top, badlic, firəng topu (73) kimi topların olması haqqında da məlumatlar mövcuddur.

"Əhsənüt-təvarix" əsərində topların döyüşdə istifadəsi ilə bağlı maraqlı təsvirlər vardır. Bu təsvirlərdən də görünür ki, Şah

Təhmasib qoşunlarında topun zərbə qüdrətinə xüsusi bir diqqət yetirilirdi. Həmin təsvirlər Səfəvi qoşunlarının 1552-53-cü illərdə Ərciş qalası üzərinə hücumu ilə bağlı idi: “Topçular daş və top zərbəsi ilə qala divarını əlli gəz uçurdular. O zaman [Rum qoşunu tərəfdən] on dilavər candan-başdan keçib şücaət ayağını qala darvazasından bayıra qoydular və kin qılıncını intiqam qınından çəkib topun yerləşdirildiyi səngərə tələsdilər. Qazilər onlardan təxminən beş nəfəri qılıncla və tüfəng yarası ilə yerə sərdilər. Ondan sonra bir kəsin cürəti olmadı ki, qaladan bayıra çıxsın. Üç ay müddətində hərçənd çoxsaylı əsgərlər hərb və savaş meydanına qədəm qoymaqda heç bir təqsirə yol verməsələr də, amma qalanın möhkəmliyi səbəbindən və cəhənnəm quyusuna bənzər [qala] xəndəyinin xoşagəlməz dərinliyi ucbatından, hücum etmək və onun bürclərinə dırmanmaq heç cür mümkün olmadı. Dəhşətin və xofun çoxluğundan qala əhlinin ağıl bəbəyi tutulmuş, bəsirət gözü mat qalmışdı və onlar can qorxusundan qalanı qoruyurdular. Dərviş bəy Topçu din və dövlət düşmənlərinin dəf və məhv olunması üçün elə bir top tərtib etmişdi ki, o açılan vaxt zülmətdə göy gurultusu və şimşək kimi çaxırdı və qala əhli onları bürümüş xofu dağıtmaq üçün “İldırımın səsindən ölmək qorxusu ilə barmaqlarını qulaqlarına tıxayanlar” [*Qurani-Kərim, Bəqərə surəsi, 19-cu ayə*] kimi rəftar edirdilər.

... Bütün əsgərlərə qəzavü-qədər kimi cərəyan edən fərman verildi ki, hər tərəfdən döyüşə başlasınlar. Fərmana əsasən, dilavərlər qala divarı bərabərində top və qazğanlar quraşdırdılar. Əmirlərdən hər biri bir bürcün müqabilində səngər [tərtib] etdilər. Toplardan atəş açdılar. Quşların və vəhşi heyvanların qulaqları qazğan daşının fəryadının və gurultusunun təsirindən, sözlə ifadəsi mümkün olmayan bir dəhşət və hiddətlə “Qiyamət vaqe olacağı (qopacağı) vaxt”ın [*Qurani-Kərim, “Vaqiə” surəsi, 1-ci ayə.*] avazını dinləyirdilər. Günəşlə ayın qulağı top daşı zərlərinin zərbəsindən eşitmə duyğusu qüvvəti ilə “Ürəkləri dəhşətə salan qiyamət! Nədir qiyamət?! Sən nə bilirsən (haradan bilirsən) ki, nədir qiyamət?!” [*Qurani-Kərim, “Qariə” surəsi, 1-3-cü ayələr*] sədasını eşidirdi. Bürcləri və divarları elə dağıtdılar ki, “Onların

altını üstünə çevirdik" [*Qurani-Kərim, "Hicr" surəsi, 74-cü ayə*] [ayəsinin] doğruluğunun sübutu müşahidə edildi" (74).

Şah Təhmasib qoşunlarının döyüş zamanı tüfənglərdən kütləvi şəkildə istifadə etməsi haqında da mənbələrdə xeyli sayda məlumatlar mövcuddur (75). Bu isə həm qoşunların təchizatında tüfənglərin çox olmasını, həm də bu silahların istifadəsi taktikasının mənimsənildiyini göstərirdi. Hazırkı tədqiqat üçün istifadə olunmuş mənbələrdə Şah Təhmasib dövründə Səfəvi hüdudları daxilində top və ya tüfəng istehsal edilməsi haqqında məlumata rast gəlinməmişdir. Ona görə Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi hüdudları daxilində odlu silahların istehsalını birmənalı şəkildə təsdiqləmək mümkün olmasa da, bu istiqamətdə müəyyən işlərin aparıldığını da istisna etmək olmaz. Çünki bəllidir ki, Şah Təhmasibin hakimiyyətindən çox da uzun olmayan bir müddətdən sonra Səfəvi hüdudları daxilində odlu silahın istehsalı başlanmışdı.

Şah Təhmasib qoşunlarında soyuq silahların işlədilməsi ilə bağlı da maraqlı təsvirlərə rast gəlmək mümkündür. 1552-ci ildə Ərciş qalası ətrafında İsmayıl Mirzənin rəhbərliyi altında qızılbaş qoşun dəstəsinin Osmanlı qoşun dəstəsinə qarşı apardığı döyüşdən bir səhnə "Əhsənüt-təvarix" əsərində belə təsvir edilmişdir: "Qoşun dəstələri və ordu hissələri hər iki tərəfdən bir-birinə qarışdılar. Bir-birinə gürz, nizə, qılınc və xəncər vurdular. Buluddan yağış yağdığı kimi, qılıncdan qan yağırdı. Dilavərlərin meyitlərindən və mübarizlərin cəsədlərindən çöl asimanla bərabər olmuşdu. Xəncərin ildırımı bahadırların canına gülür və Misri qılıncın göz yaşı ölülərin halına ağlayırdı. İsgəndər paşa qızılbaş əsgərlərinin igidliyini müşahidə etdikdə qəm və kədər quldurU onun könül şəhristanına basqın etdi və qorxudan başında beyni və mədəsində ödü cuşa gəldi. Onun dərisi nərgiz gülü kimi sap-sarı saraldı və lalənin şehi kimi damarlarında qan donub qaldı. O, can qorxusundan bir dəstə rumi ilə mərkəzdən ayrılıb, qazilərə həmlə edərək onları geri oturtdu. Bu əsnada əmirlər və b. qazilər İsgəndər paşanın ətrafını və yan-yörəsini dövrəyə aldılar, iti qılınc və atəş saçan nızə yarası ilə o külbaş sərgərdanların həyat dama-

rını çıxardılar. Qılınc öz dilini çəkib, “Hər bir kəs (hər bir canlı) ölümü dadacaqdır. Sonra da (qiyamət günü) hüzurumuza qaytarılacaqsınız!”[ *Qurani-Kərim, “Ənkəbut” surəsi, 57-ci ayə*] ayəsinin məzmununa uyğun surətdə sərsəm rumilərin başına qaxınc etdi və şiddətli intiqam alan Qəhharın (Allahın) qəzəbinin zərurətinə müvafiq olaraq, qan tökən nizə əfi ilan kimi pis taleli düşmənlərin bədənlərinin divarlarında özünə yer elədi” (76).

Göründüyü kimi, bu təsvirdə Şah Təhmasib qoşunlarında istifadə olunan qılınc, xəncər, nizə, gürz kimi soyuq silahların adları çəkilmişdir. Sözsüz ki, bu silahlar Şah Təhmasib qoşunlarında istifadə olunan yeganə silahlar deyildilər. Bəllidir ki, bu soyuq silahlardan başqa Şah Təhmasib qoşunlarında ox və kaman, şişpər, mizrağ, təbərzin, balta, toppuz istifadə olunurdu. Bu silahlar hücum silahlarına aid idi. Eyni zamanda qoşunlarda çövşən, qalxan, dəbilqə, zirehli geyim kimi müdafiə təchizatımdan da istifadə olunurdu.

Venesiyalı elçi V.Alessandronun xatirələrində Şah Təhmasib qoşunlarında istifadə olunun silahlar haqqında da müxtəsər məlumat vardır. Həmin məlumat belədir: “Onlar adətən, yaraşıqlı, sağlam, qədd-qamətli, böyük cəsarətə malik və çox döyüşkən kişilərdir. Onların silahları qılınc, qalxan və bütün əsgərlərinin istifadə edə bildikləri arkebuzlardır. Onların silahları da, həmçinin bütün başqa xalqlarınkından daha keyfiyyətli və yaxşı hazırlanmışdır. Arkebuzların lüləsinin uzunluğu adətən, 6 qarışdır və 3 ünsiyadan bir qədər az çəkidə mərmi atır. Onlar bunlardan elə məharətlə istifadə edirlər ki, tələb olunanadək bu nə onların yəhərlərinə birləşdirdikləri yayı aparmalarına və nə də qılıncı tutmalarına mane olmur. Arkebuz digər silahın istifadəsinə maneçilik törətməsin deyə, çiyindən arxaya atılır” (77).

Venesiyalı elçi Şah Təhmasib döyüşçülərinin istər odlu silahları, istərsə də soyuq silahları çox böyük məharətlə işlətdiklərini təsdiq edirdi. Əgər odlu silah qoşunların təchizatına yeni qəbul edilmişdisə, soyuq silahdan istifadənin isə artıq çox zəngin bir təcrübəsi və tarixi mövcud idi. Bu silahlar Səfəvi hüdudları daxilində istehsal olunurdu və bu sahədə də böyük bir təcrübə

qazanılmışdı. Hücum silahlar kəsərliyi, möhkəmliyi, işləkliyi ilə fərqlənirdisə, mühafizə geyimləri də etibarlılığı, yüngüllüyü ilə fərqlənirdi. Qılıncların hazırlamasında xüsusi poladdan istifadə olunurdu və onun daha kəsərli olan bir forması tapılmışdı. Mühafizə geyimləri isə yüngül olmaqla bərabər bədənin bütün hissələrini örtə bilirdi. Zirehli geyim möhkəm dəmir həlqələrin polad saplarla bir-birinə birləşdirilməsi ilə düzəldilirdi. Bu zirehin şəxsi geyimi didib-parçalamaması üçün zirehə möhkəm parçadan astar tikilirdi. Bundan başqa döyüşçünün qol və ayaq hissəsinin mühafizəsi üçün də mühafizə elementlərindən istifadə olunurdu (78).

Döyüşçülərin istifadə etdiyi mühafizə geyimləri həm də rahatlığı və münasibliyi ilə seçilirdi. Onlar silahların işlədilməsi zamanı döyüşçünün hərəkətlərinə hər hansı bir məhdudiyyət yaratmırdılar. Araşdırmalara əsasən belə bir qənaətə gəlmək olar ki, Şah Təhmasib dövrünün qoşun əhlinin fərqləndirici xüsusi bir libası yox idi. İstər bütün qoşun üçün, istərsə qoşun qismləri və ya ayrı-ayrı qoşun dəstələri üçün xüsusi bir geyim forması tətbiq edilməmişdi. Bununla belə, müəyyən elementlər var idi ki, onlar yalnız qoşun əhlinə məxsus idi. Yuxarıda qeyd edildiyi kimi, qorçuların bəzi geyim elementləri, cövşən və dəbilqənin istifadəsi, qılınc və xəncər  və digər silah növlərinin gəzdirilməsi qoşun əhlini digərlərindən fərqləndirirdi. Tüfəngçilər adətən gödək ölçülü əbalar geyinir, yanlarında tüfəng istifadəsi üçün lazım olan əşyalar gəzdirirdirlər. Silahdan daha rahat istifadə edilməsi və səfər rahatlığının təmin edilməsi üçün geyimlərin də  bir ənənəvi təcrübəsi meydana gəlmişdi.

Şah Təhmasib qoşunlarını atsız təsəvvür etmək mümkün deyildi. At qoşunların həm çevikliyinin, həm döyüş qabiliyyətinin, həm də taktikasının mühüm elementi idi. At olmadan Şah Təhmasib qoşunları səltənət hüdudlarını qorumağa, qonşu dövlətlərin qoşunlarına qarşı uğurlu döyüşlər aparmağa Səfəvi qoşunlarının gücü çatmazdı. Yuxarıda qeyd edildiyi kimi, bütün Səfəvi qoşunları Şah Təhmasibin hakimiyyəti illərində atlandırılmışdı. Bütün qoşunun fəaliyyəti demək olar ki, at üzərində qurulmuşdu.

Bu isə Səfəvi hüdudlarında kifayət qədər at yetişdirilməsini tələb edirdi.

Qızılbaş tayfalarının həyatı atla sıx bağlı olduğundan at yetişdirilməsi bu tayfaların hamısına xas idi. Ona görə at yetişdirilməsi bir tərəfdən ictimai həyatla sıx bağlı idi. Mövcud olan faktlar da göstərir ki, səltənət daxilində kifayət qədər at ehtiyatları var idi və bu baxımdan hər hansı bir sıxıntı hiss olunmurdu. Yuxarıda da qeyd olunduğu kimi, qoşun toplanması barəsində şah fərmanı elan olunandan sonra yalnız Azərbaycan və İraqdan qısa müddət ərzində 100 mindən çox atlı şah düşərgəsinə gəlmişdi ki, onların da arasında seçim aparılaraq 20-30 mini qoşuna cəlb olunmuşdu (79).

Bundan başqa şahın öz at ilxıları da var idi. Həmin ilxılardan da hərbi məqsədlə istifadə olunurdu. Şah Təhmasibin təzkirəsində olan qeydlərdən belə aydın olur ki, xüsusi atların yetişdirilməsi də aparılırdı (80). Xarici şahidlər də Şah Təhmasibin hakimiyyəti illərində qoşunlarda istifadə üçün xüsusi cins atların yetişidirildiyindən xəbər verirdilər. Məsələn V.Alessandri yazırdı: “Atlar o qədər təlim görmüş, gözəl və yaraşıqlıdırlar ki, onları digər ölkələrdən gətirməyə daha ehtiyac qalmır. Bu, gözəl Qaraman və ərəb atları ilə İrana qaçmış Sultan Bayəzidin gəlişindən sonra baş vermişdi. Onlar bütün ölkə üzrə paylanmış və o, kralın əmri ilə edam olunduqdan sonra (məlumdur ki, Sultan Bayəzidin qətli Şah Təhmasibin əmri ilə baş verməmişdi –M.S.), bunlardan min at və madyan qalmışdı. Buna görə heç vaxt belə gözəl cins olmamışdı və osmanlıların belə buna bənzəri yox idi” (81).

Qoşunların məvacibinin və azuqə məsələlərinin təşkili də dövrün tələbləri səviyyəsində təşkil olunmuşdu. Bu məsələdə həm mərkəzi hakimiyyətin, həm də vilayət hakimlərinin konkret məsuliyyət sahələri var idi. Mərkəzi hakimiyyətin tabeçiliyində olan qoşun dəstələrinin məvacib və azuqə ilə təmin edilməsində sözsüz ki, əsas xərclər saraya xəzinəsinə aid edilirdi. Vilayət hakimləri də tabeliklərində olan qoşun dəstəsini təmin edirdilər.

Qoşunlarda xidmət edən kontingentə aylıq və ya illik məvacib verilirdi. Bu məvacib tutulan vəzifələrə görə fərqlənirdi. Vəzifə

yüksək olduqca aydındır ki, məvaciblər də artırdı. Bu məvaciblərin miqdarı konkret rəqəmlərlə ifadə olunurdu (82).

Qoşun əhlinin məvacibi həm nağd şəkildə, həm də müxtəlif ödənclər şəklində təmin olunurdu. Yüksək vəzifəli əmirlərə adətən tiyul torpaqları ayrılırdı ki, həmin torpaqların gəlirləri ilə dolansınlar. Bununla belə, əmirlərə nağd maaşlar da kəsilə bilərdi. Aşağı vəzifəli qoşun əhlinə isə daha çox nağd maaş kəsilirdi. Bu maaşlar razılaşdırılmış qaydada, aylıq və ya illik qaydada ödənə bilərdi. Maaşların mərkəzi hakimiyyət və ya vilayət hakimləri tərəfindən təmin ediləcəyi də məlum idi. Maaşların verilməsinə görə də vilayət hakimləri və ya mərkəzi hakimiyyət məsuliyyət daşıyırdı. Bu maaşların vaxtında ödənməməsi haqqında da məlumatlar mövcuddur. Məsələn, bəllidir ki, Herat hakimi olmuş Durmuş xanın vəziri Xoca Həbibulla vilayət qoşunlarının məvacibini ödəməkdən imtina etmişdi. Buna görə qoşun əhli qiyam qaldırmış və nəticədə Xoca Həbubulla da həyatını itirməli olmuşdu (83). Yuxarıda qeyd edildiyi kimi, mənbələrdə hətta Şah Təhmasibin də həyatının son illərində qoşun əhlinin maaşlarını verməməsi haqqında məlumatlar mövcuddur (84). Bir daha qeyd edilməlidir ki, Şah Təhmasib tərəfindən bu maaşların ödənməməsi səbəbsiz ola bilməzdi. Xarici elçilərin şahidliyinə görə, Şah Təhmasib döyüşçülərin məvaciblərini nağd pul ilə deyil, həmin məvacibə uyğun gələn geyim, at və başqa əşyalarla da ödəyirdi (85).

Yuxarıda qeyd edildiyi kimi, "Təkmilətül-əxbar" əsərində qoşunların məvacib təminatı ilə bağlı belə bir məlumat vardır: "Bununla bərabər, böyük əmirlərə öz vilayətlərindən hər il onlara çatacaq gəliri tez hökmdarın şəxsi xəzinəsindən ödədilər ki, onlar öz qoşunlarını tərtib edib, bacarıqla düşmənləri dəf etsinlər. Bunun əvəzində öz vilayətlərinin malü-cəhatlarını [gələcəkdə] xəzineyi-amirəyə çatdırsınlar. ... Şahın göstərişi ilə hökmdarın xəzinəsindən qorçulara illik məvacib təyin etdilər. Cəbbəxanadan lazımi silahları alıb, müharibəyə hazırlaşdılar" (86).

Bu məlumatdan da göründüyü kimi, qorçulara illik məvacib təyin edilməsi təcrübəsi mövcud idi. Vilayət qoşunlarının əmir-

lərinə isə məvacib yerli gəlirlər hesabına ödənməli idi. Amma zərurət yarandığı üçün, vilayət qoşunlarının əmirlərinin məvacibləri şah xəzinəsindən verildi və nəzərdə tutuldu ki, vilayətlərdən onlara verilməli olan vəsaitlər sonradan şah xəzinəsinə göndərilsin. Bu həm də onun göstəricisi idi ki, döyüşə yollanan qoşun əhlinin məvacibinin vaxtında və vaxtından əvvəl ödənməsi Şah Təhmasibin diqqət mərkəzində idi.

Qoşunlarda azuqənin hazırlanması əsasən qoşun əhlinin üzərində idi. Yəni azuqənin hazırlanması mərkəzləşdirilmiş şəkildə həyata keçirilmirdi. Şahın və onun ətrafı istisna olmaqla qoşun əhlinin hər bir üzvü gündəlik azuqə barəsində özü düşünməli və yolunu tapmalı idi. Bu iş əsasən əmirlərin, vəzifə sahiblərinin və hətta döyüşçülərin xidmət personalı tərəfindən həyata keçirilirdi. Yüksək vəzifəli əmirlərin və qoşun başçılarının xidmətində daha çox adam var idi və onlar da başqa xidməti işlərlə bərabər, həm də azuqə hazırlanması ilə məşğul olurdular. Qoşunlar döyüş tapşırığının icrasına yollanarkən xidmət personalı da döyüşçülərlə birlikdə döyüş meydanlarına yollanırdılar. Hər bir döyüşçü özü üçün ehtiyat ərzaq da aparmalı idi. Bu ərzağın tapılmasına və tədarük edilməsinə mərkəzi hakimiyyət də zəruri köməyi göstərirdi. Qoşunların ərzaqla təmin edilməsi işlərində müəyyən bir planlaşdırma var idi. Döyüş tapşırıqlarının icrasına yollanmazdan əvvəl ərzaq ehtiyatlarının mənbələri müəyyənləşdirilirdi və lazım gələndə bununla bağlı vilayət hakimlərinə də müvafiq göstərişlər verilirdi.

Qoşunların azuqə və digər məişət ehtiyaclarının aradan qaldırılmasında ordubazarların da müəyyən rolu var idi. Ordubazar qoşun əhli olmayan mülki adamlardan toplanmış ticarət və xidmət kontingenti idi. Şah İsmayılın hakimiyyəti dövründə də mövcud olmuş ordubazar təcrübəsindən Şah Təhmasibin hakimiyyəti illərində də istifadə olunurdu. Bu xidmətin tətbiqi qoşunları və qoşun rəhbərliyini müəyyən əziyyətlərdən azad edirdi.

Ordubazar təsadüfi insanlardan deyil, qoşun rəhbərliyinin razılığı ilə toplanan və xidmət təcrübəsinə malik olan insanlardan

ibarət idi. Bu dəstə qoşunların arxasınca gedir və qoşunların yerləşdikləri məntəqələrdə düşərgə salırdılar. Ordubazara qoşunlar üçün zəruri olan xidmət sahələri üzrə mütəxəssislər də toplanardı. Ordubazarın fəaliyyətinin əsasını isə qoşun əhlinin ehtiyac duyduğu ərzağın və digər əşyaların tədarük edilməsi və sonra da qoşun əhlinə satılması idi. Ordubazar əhli eyni zamanda yemək və çörək bişirilməsi və onların qoşun əhlinə satılması ilə də məşğul olurdu. Bunun üçün ordubazar tərəfindən lazım olan təchizat da döyüş meydanlarına daşınırdı (87).

Sözsüz ki, ordubazar böyük bir qoşun üçün zəruri olan ərzaq ehtiyatlarını özü ilə aparmırdı. Bu ərzaq ehtiyatları bir qayda olaraq yerlərdə alınıb tədarük edilirdi. Qoşun əhlinə zəruri olan azuqə və digər əşyalar ordubazara sifariş edilirdi və əgər ordubazarın ehtiyatlarında həmin azuqə və əşyalar mövcud olmasaydı, onda onlar yerli əhalidən və ya bazardan alınaraq qoşun əhlinə çatdırılırdı.

Qeyd edildiyi kimi, ordubazar qoşunların arxasında hərəkət etməklə, döyüş meydanlarından da kənarda olardılar. Amma onların qoşunların təminat və təchizatında böyük rol oynadığı nəzərə alındığı üçün düşmən qüvvələr tərəfindən də hücuma məruz qalardılar. Bununla qarşı tərəf çalışardı ki, Səfəvi qoşunlarını mühüm təminat və təchizat mənbəyindən məhrum etsin. Məsələn, məlumdur ki, 1529-cu ildə Cam ətrafında baş verən döyüşdə özbək qoşunları Şah Təhmasib qoşunlarının ordubazarını da hücuma məruz qoydu və bu zaman ordubazar əhlinə çox ciddi itkilər yetirildi. "Əhsənüt-təxarix" əsərində olan məlumata görə, "igid ordubazarçılar özbəkləri ox zərbəsi ilə özlərindən uzaqlaşdırmağa çalışsalar da, özbəklər qələbə qazanıb əksər ordubazarçıları yaraladılar və öldürdülər (88).

### 4. Şah Təhmasib qoşunlarının taktikası

Şah Təhmasibin qoşunlarında Şah İsmayıl dövrünün təcrübəsinin ənənəçiliyi güclü olaraq qalmaqda idi. Bu ənənəçilik qoşunların həyatının bütün sahələrini əhatə edirdi. Bununla belə

Şah Təhmasib qoşunlarının taktikasında müəyyən yeniliklərin və dəyişikliklərin baş verməsi ilə də rastlaşmaq mümkündür. Həmin yenilik və dəyişiklik dövrün və zamanın tələblərindən irəli gəlirdi və Şah Təhmasib də bu dəyişikliklərə biganə qalmırdı.

Şah Təhmasib dövrünün qoşunlarının taktikasının müəyyənləşməsinə bir sıra amillər təsir göstərirdi. Bunlardan biri sözsüz ki, dövlət və qoşun rəhbəri kimi Şah Təhmasibin özünün hərbi təfəkkürü idi. Onun tərəfindən müəyyənləşdirilmiş olan dövlət strategiyası qoşunların taktikasını da istiqamətləndirirdi. Şah Təhmasib fatehlik yürüşləri keçirməyə meylli olmadığı üçün bütün diqqətini səltənətin hüdudlarının müdafiəsinə yönəltmişdi. Ona görə Şah Təhmasib qoşunlarının taktikasında müdafiə məzmunu daha güclü idi. Şah Təhmasib dövrünün döyüşləri sırf müdafiə döyüşlərindən ibarət deyildir. Bu döyüşlər fəal müdafiə döyüşləri idi və onların aparılması konkret vəzifədən, coğrafi şəraitdən, qoşunların nisbətindən və digər bir sıra məqamlardan ibarət idi. Miqyaslı döyüşlərin əksəriyyətinə Şah Təhmasib özü şəxsən iştirak edirdi. Bu zaman onun tərəfindən döyüşün planlaşdırılması, qüvvələrin bölüşdürülməsi, döyüşün idarə edilməsi konkret taktikanın müəyyənlşməsinə təsir edən məsələlər idi.

Şah Təhmasib qoşunlarının taktikasına müəyyənləşdirici təsir göstərən amillərdən biri də odlu silahın kütləvi şəkildə istifadə olunması idi. Bu silahlar çox fəal şəkildə döyüşlərə cəlb edilirdilər və onların zərbə qüdrəti və döyüş imkanları yeni bir taktikanın tətbiq edilməsini zəruri edirdi. Əslində, odlu silahların kütləvi şəkildə tətbiqinə başlanması Şah Təhmasib qoşunlarının mənzərəsini ciddi şəkildə dəyişdi, yeni qoşun qisimlərinin meydana gəlməsinə səbəb oldu. Odlu silahın zərbə qüdrətinin soyuq silahla silahlanmış qüvvələrin döyüş fəaliyyəti ilə düzgün əlaqələndirilməsi fəaliyyət taktikasına da yeniliklər gətirdi. Bir sözlə, odlu silahların kütləvi tətbiqi Səfəvi qoşunlarının hərb sənətini yeni bir səviyyəyə qaldırdı.

Səltənətin coğrafi şəraiti, insan ehtiyatları, xarici hərbi təhdidlərin miqyası, təriqət etiqadı, qarşıya qoyulan konkret vəzifənin mahiyyəti kimi məsələlər də Şah Təhmasib qoşunlarının

taktikasının müəyyənləşməsinə bu və ya digər dərəcədə təsir göstərirdi. Qızılbaşlıq ənənələrinin də Şah Təhmasib qoşunlarının taktikasına təsir edən amillər və məqamlar arasında yer aldığını istisna etmək olmaz. Döyüşkənlik, mübarizlik, çeviklik, döyüş məharəti, silah işlətmək bacarığı qızılbaşların həyat tərzinə çevrilmişdi. Qızılbaş atlılarının sürətli manevrləri, gözlənilməz hücumları Şah Təhmasib qoşunlarının taktikasının seçilməsinə də təsir göstərirdi.

Aparılan araşdırmadan artıq məlumdur ki, döyüş tapşırığının icrasına yollanmazdan əvvəl qoşunların toplanış məntəqəsi təyin edilərdi. Şah Təhmasib mərkəzi tabelikdə olan qoşun dəstəsi ilə bura gələr və vilayətlərdən gələn qoşun dəstələri də burada ona qoşulardı. Qoşun dəstəsi toplandıqdan sonra ilkin olaraq onun qruplaşması aparılar, hərəkət marşrutu müəyyənləşər və lazımi hazırlıqlar başa çatandan sonra döyüş rayonuna doğru hərəkət başlayardı. 1530-cu ildə özbək qoşunlarına qarşı döyüşə yollanmazdan əvvəl Şah Təhmasib qoşunlara sıra baxışı keçirdi (bu barədə hazırkı kitabın ikinci fəslinin 5-ci paraqrafında geniş məlumat verilmişdir). Bu zaman Şah Təhmasib 16-17 yaşlarında idi. Amma elə bu sıra baxışının təşkili səviyyəsi onun hərbi təfəkkürünün dərinliyini nümayiş etdirdi. Bu sıra baxışını ümumiyyətlə o dövr üçün sıra baxışılarının təşkilinin yüksək bir nümunəsi kimi də qəbul etmək mümkündür. Həmin sıra baxışı tam döyüş təchizatında təşkil edildi ki, bu da belə bir tədbirin səviyyəsinin yüksəkliyindən xəbər verir.

Qazi Əhməd Quminin “Xülasüt-təvarix” əsrində bu sıra baxışının müfəssəl təsviri verilmişdir. Bu təsviri həm də Şah Təhmasib qoşunlarının müfəssəl təsviri kimi də qəbul etmək mümkündür. Qazi Əhməd Quminin bu sıra baxışı ilə bağlı təsviri belə başlayırdı: “Sonra Süleyman məkanlı padşahın fərmanına əsasən tovaçılər bəyan etdilər ki, adlı-sanlı şahzadələr, yüksək məqamlı əmirlər, tanınmış qorçular, zəfər taleli digər əsgərlər silah və təchizatını geyinib dəstə-dəstə (fövc-fövc) şahın qarşısından keçsinlər. Əmr olundu ki, elçilər (bu tədbirə dəvət olunmuş özbək elçiləri nəzərdə tutulur – M.S.) yüksək bir məkanda yerləş-

dirilsinlər ki, onlar qüdrətli qoşunları müşahidə edə bilsinlər. Bundan sonra şahzadələr, əmirlər, xanədanın bütün öncülləri hamılıqla toplaşdılar, verilən əmrə əsasən atlandılar və bütün ətrafa vəlvələ-qəlqələ yaydılar.

Ortaya çıxan qoşunun heybətindən yer titrədi, dağ oynadı,
Bu sırada şirlərin cövlana gəlməsindən yeddi asimanda zəlzələ yarandı

Şah ordusunda olan nağaraçalanlar yarım fərsəx aralıda nağara və təbil səsləndirməyə başladılar. Topun, firəng silahının (top), badlicin və zərbzənin altında olan arabalar nağara çalanların arxasında yer aldılar, 3-4 min nəfər tüfəngçi arabaların arxasında sıraya düzüldülər və atəş açdılar. Allahın kölgəsi olan padşah ayağa qalxdı və ətrafda olan qoşunları müşahidə etdi. Dalğa vuran o dənizdən bir sel, o ləşgərdən bir fövc (dəstə) ayrıldı" (89).

Mənbədə olan məlumata görə, sıra baxışını şahın qardaşları Əlqas Mirzə ilə Bəhram Mirzə açdılar. Bəllidir ki, onlar yaşca Şah Təhmasibdən də kiçik idilər və onların rəhbərlik etdiyi qoşun dəstəsinin hazırlıq səviyyəsi bu baxışda yüksək qiymətləndirildi. Bu məqam mənbədə belə təsvir edilmişdir: "Carçılar və tovaçilər əşrəfin diqqətinə çatdırdılar ki, şahzadə Əbülfazi Əlqas Mirzə 4 min mübariz və döyüş meydanının şirlərinə bənzər mükəmməl və silahlanmış atlı ilə şahın nurlu nəzərləri qarşısından keçəcəkdir. Kainat şahzadəsi Əlqas Mirzə sıra baxışının qaydasınca sürətlə gedən atın zərli yəhəri üstündə atın cilovunu çəkdi. Firudin taleli şah sonsuz şükürlərini dilə gətirərək qoşunun sağ cinahını xoş taleli qardaşına şəfqət etdi. Ondan sonra başqa bir tərəfdən böyük sayda bir dəstə hərəkətə gəldi:

Günəş təbiətli ali cahangir
Ölkələr fatehi Əbülfət Bəhram

Özünün mərəkə dağıdan 3 min nəfərlik atlı dəstəsi ilə o həzrətin gözləri qarşısından keçdi. Müzəffər bayraqlı Bəhram Mirzə şahın nurlu baxışları qarşısından keçəndə dua etməyə başladı. Ulduz bəxtli şah xeyirxah qardaşını nəvazişlərlə ucaltdı və sol cinahı ona tapşırdı" (90).

Əlqas Mirzə ilə Bəhram Mirzənin rəhbərliyi altıda olan dəstələrin hazırlıq səviyyəsi Şah Təhmasibi çox razı saldığı üçün onlar cinahların rəhbəri təyin edildilər. Bu isə o deməkidi ki, cinahlarda qərar tutmuş digər qoşun dəstələri də onların rəhbərliyi altında vəzifə icra etməli idilər.

Bütünlükdə bu sıra baxışının icra mənzərəsi öz əksini mənbədə belə tapmışdı: Şah Təhmasib və onun ətrafında olan saray əyanları onlar üçün ayrılmış yerləri tutduqdan sonra çarçılar və tovaçılər sıra baxışına başlanması üçün hər şeyin hazır olduğunu bəyan etdilər. Bundan sonra şahın əmrinə əsasən sıra baxışına başlandı. İlkin olaraq sıra baxışından Əlqas Mirzə ilə Bəhram Mirzənin dəstələri keçdilər. Bu dəstələrin hazırlıq səviyyəsi Şah Təhmasibi o dərəcədə razı saldı ki, qeyd edildiyi kimi, qoşunların sağ cinahı Əlqas Mirzəyə, sol cinahı isə Bəhram Mirzəyə tapşırıldı. Sonra sıra baxışını təkəli tayfasının qoşun dəstəsi davam etdirdi. Bu qoşun dəstəsinə təkəli əmirləri Quduz sultan, Ülamə sultan və Qazı xan rəhbərlik edirdilər. Təkəli qoşun dəstəsi 15 min atlıdan ibarət idi. Bu qoşun dəstəsinin də hazırlıq səviyyəsi Şah Təhmasibi qane etdi və təkəli əmirlərinin rəhbərliyi altında olan qoşun dəstəsinin qoşunların mərkəzində yerləşdirilməsi qərara alındı. Ardınca ustaclı tayfasından təşkil edilmiş qoşun dəstəsi Şah Təhmasibin qarşısından keçdi. Mənbə məlumatına görə, ustaclı qoşunları Abdulla xanın rəhbərliyi altında olan 2 min nəfərlik atlıdan və Bədir xanın, Əhməd xan Sufioğlunun, Şahqulu sultanın və Şah Əlinin rəhbərliyi altında olan 16 min nəfərik atlıdan ibarət idi. Ustaclı əmirləri də bu sıra baxışına lazımi hazırlıq görmüşdülər və ona görə onların rəhbərliyi altında olan qoşun dəstəsinin vəziyyəti də şahı qane etdi. Şah Təhmasibin göstərişi ilə bu qoşun dəstəsi qoşunların sol cinahına göndərildi. Sonra sıra baxışını əfşar dəstəsi davam etdirdi. Bu dəstənin say tərkibinin nə qədər olması mənbədə öz əksini tapmamışdır. Yalnız o bildirilir ki, əfşarlara Əhməd sultan rəhbərlik edirdi və onun 3 min nəfərlik atlı dəstəsi var idi. Əfşar tayfasından toplanmış digər dəstələr isə Əlvənd sultanın, Şahqulu sultanın, Təmur sultanın, Şir Məhəmməd sultanın, Sevindik sultanın

və digər əmirlərin rəhbərliyi altında idi. Bu dəstənin hazırlıq səviyyəsi də Şah Təhmasib tərəfindən təqdir olundu (91).

Şah Təhmasibin qarşısından sonra şamlı, zülqədər və qacar tayfalarının qoşun dəstələri keçdilər. Şamlı tayfasının qoşun dəstəsi 9150 nəfərdən ibarət idi. Bu qoşun dəstəsinə şamlı əmirləri olan Ağzıvar xan, Təbərrük sultan, Qara sultan, Həsən sultan, Əli sultan və Məhəmməd xan rəhbərlik edirdilər. Zülqədər tayfasının qoşun dəstəsinin sayı isə mənbədə 8 min nəfər göstərilmişdir. Bu dəstəyə Qazı xan Tovaçi, Şahqulu xəlifə, Əli sultan, Məhəmməd sultan rəhbərlik edirdilər. Qacar tayfasından olan qoşun dəstəsinin də sayı göstərilməmişdir. Bu dəstəyə Yaqub xan, Göyçə sultan, Şahəli sultan və digərləri rəhbərlik edirdilər. Onların ardınca mosullu tayfasının qoşun dəstəsi Şah Təhmasibin qarşısından keçdi. Bu dəstənin də tam sayı göstərilməyib. Mosullu tayfasından Məhəmmədi bəyin rəhbərliyi altında 1000 nəfərlik atlı dəstəsi var idi. Bu tayfadan olan Əli sultanın, Şəmsəddin sultanın, Həsən sultanın və digər əmirlərin rəhbərliyi altında hansı sayda qoşun dəstəsi olması haqqında isə məlumat mövcud deyil. Atlı qoşunlarını çini, türkman, bayandur, çegəni, kürd, ərəbgirli və digər tayfaların qoşun dəstəsi tamamladı. Bu dəstə 15 min nəfərdən ibarət idi. Sıra baxışında seyidlər, nəqiblər, üləmalar, fazil insanlar, şeyxlər, qazilər, müqəddəs məkanların xadimləri də iştirak edirdilər. Sıra baxışı zamanı Şah Təhmasibin qarşısından keçən növbəti dəstə onlar oldular və onların sayı 4 min nəfər idi. Bu kontingent haqqında ayrıca məlumat verilməsə də, güman etmək olar ki, hərbi yürüşlərdə onlar da iştirak edirdilər. Onların iştirakı dini mərasimlərin icrası, qoşunun dini-mənəvi əhval ruhiyyəsinin qaldırılması ilə bağlı ola bilərdi. Sonra sıra baxışını Corcan və Mazandaran kamandarları davam etdirdilər. Sayı 1000 nəfər olan kamandarlar dəstəsinə Xoca Müzəffərin rəhbərliyi altında idi. Mazandaran əmirzadələri olan Əmirşahi xan və Əmir Teymur xan 2 min nəfərlik atlı dəstəsi ilə kamandarlar dəstəsinin ardınca Şah Təhmasibin qarşısından keçdilər. Bu dəstənin seçmə dəstə olması ehtimal edilirdi. Sıra baxışından keçən daha bir kamandar dəstəsi isə Turşizdən

gəmişdi və bu dəstənin tərkibi də 1000 nəfərdən ibarət idi. Dəstəyə Müzəffər sultanla Ziyaəddin sultan rəhbərlik edirdilər. İki gün davam edən sıra baxışını xidmət dəstələri və qorçu dəstəsi tamamladı. Xidmət dəstələrinə 400 nəfərdən ibarət olan təbərrayi dəstəsi, 1800 nəfərdən ibarət olan mühasib, münşi, müstövfilər dəstəsi, saraya aid olan xidmətçilər dəstəsi daxil idi. Xüsusi qorçular dəstəsi isə 5 min nəfərdən ibarət idi. Bu dəstəyə də Duraq bəy Qorçubaşı rəhbərlik edirdi (92).

Qeyd edildiyi kimi, bu sıra baxışı iki gün davam etdi. Birinci gün sıra baxışı başa çatmayanda Şah Təhmasib əmr verdi ki, qoşunları təchiz olunmuş şəkildə səhərin açılmasını gözləsinlər. Səhər tezdən sıra baxışı davam etdi. Bu mərasim başa çatdıqdan sonra bütün dəstələr tovaçılərin göstərişi ilə onlar üçün ayrılmış yerləri tutdular. Şah Təhmasib meydana gələndə bütün dəstələr onun ətrafında dövrə vurdular. Sonra isə "Allah-Allah" kəlmələrini qışqırmaqla meydana böyük bir vəlvələ saldılar. Onların qışqırıqları musiqi alətlərinin səsi ilə daha da əzəmətlə səslənməyə başladı. Bu təntənəyə beş min ədəd tüfəngdən və çoxlu sayda toplardan açılan atəş də qoşuldu. Mənbə məlumatına görə, bu sıra baxışında 120 min nəfərlik bir qoşun dəstəsi iştirak etdi. O da bildirilir ki, sıra baxışı keçirilən meydanda 400 min nəfərlik insan dənizi var idi (93). Heç şübhəsiz ki, burada söhbət 120 minlik qoşun dəstəsindən əlavə qoşun əhlinin xidmətçilərin təşkil etdiyi kontingentdən gedir.

Şah Təhmasibin hakimiyyəti illərində aparılan hər müharibədən əvvəl belə müfəssəl sıra baxışının keçirilməsini söyləmək çətindir. Amma hər bir hərbi yürüşdən əvvəl mütləq şəkildə qoşunların toplanış məntəqəsi müəyyənləşdirilər və qoşunlar ora cəmlənərdilər. Verilən məlumatlar əsasında şah tərəfindən qüvvələrin sayı, tərkibi və hazırlıq səviyyəsi müəyyənləşdirilərdi. Bundan sonra isə ehtimal olunan döyüş meydanına doğru hərəkət başlayardı. Döyüş meydanına doğru marşın həyata keçirilməsi üçün də xüsusi tələblər mövcud idi. Bir tərəfdən qoşunlar mümkün qədər gizli, bir tərəfdən də mümkün qədər sürətlə hərəkət etməli idilər. Hər iki tələb eyni dərəcədə əhəmiyyətli idi. Qoşun-

ların marş zamanı sürət nümayiş etdirmələri haqqında mənbələrdən birində belə bir təsvir vardır: "Badıncan sultanın vuruşmada qətlə yetirilməsi və ustaclu əmirlərinin Təbrizə getməsi xəbəri dinin pənahı olan şaha çatdıqda o, Div sultanı, Çuxa sultanı və Zülqədəroğlu Məhəmməd xanı səkkiz min nizədar süvari və min nəfər xasseyi-şərifə qorçusu ilə onlara qarşı savaşa göndərdi. Əmirlər tam sürətlə üsyankarların üzərinə yürüdülər. ...Əmirlər sürətli hərəkətin ardından dayandılar və ordunun hazırlığı ilə məşğul oldular" (94).

Qoşunların hərəkətinin gizliliyinə nail olmaq üçün uyğun marşrutlar seçilir, qoşunların qəfil basqınlardan qorumaq üçün mühafizə tədbirləri həyata keçirilirdi. Marşrut istiqamətində irəliyə qarovul dəstələri göndərilərdi. Bu qarovul dəstələri rastlaşdığı qarşı tərəfin qüvvələri ilə döyüşə girə də bilərdilər, ya da döyüşə girmədən geri qayıdıb müşahidə etdikləri barəsində məlumat da verə bilərdilər (95).

Hərəkətdə olan qoşunlara eyni zamanda cinahlardan və arxadan da mühafizə dəstələri təyin edilirdi. Bu dəstələrin də əsas vəzifəsi qoşunların hərəkət gizliliyini və təhlükəsizliyini təmin etmək, qəfil düşmən basqınlarının qarşısını almaq idi. Həmin dəstələr cinahlar boyunca səpələnirdilər və müvafiq istiqamətdən gələ biləcək təhlükənin qarşısını almağa hazır olurdular. Qoşunların arxadan təhlükəsizliyinin təmin edilməsi də böyük əhəmiyyət kəsb edirdi. Adətən xidmət hissələri və bölmələri qoşun sırasının sonunda yerləşdirilirdi. Arxaya təyin edilmiş mühafizə dəstəsi xidmət dəstələrini qorumaqla bərabər, həm də qoşunların mühasirə olunmaq təhlükəsinin də qarşısını almış olurdu. Qoşunlar döyüşqabağı düşərgəyə yerləşəndən sonra da onların ətrafına qarovul və ya mühafizə dəstələri təyin edilirdi. Döyüşqabağı düşərgə düşmən tərəfə çox yaxın məsafədə yerləşdiyindən bu məntəqənin mühafizəsinə xüsusi diqqət ayrılırdı. Həmin düşərgənin mühafizəsinin etibarlı şəkildə qurulması ilə həm yaxınlıqda yerləşən düşmən qüvvələrinin təhlükəli hücumunun qarşısı almaq olardı, həm də qoşunların döyüşə son hazırlığı üçün etibarlı şərait yaratmaq olardı (96).

Mənbələrdə belə bir məlumat vardır ki, döyüşqabağı düşərgədə qoşunların mühafizəsinin təmin edilməsi üçün düşərgə ətrafında tonqallar qalandı və gözətçilər təyin edildi (97). Bu tonqalların qalanması ilə ətraf işıqlandırıldı ki, qarşı tərəfin dəstələrinin qəfil basqınını müşahidə etmək mümkün olsun.

İstər qoşunların təhlükəsiz hərəkətinin təmin edilməsi üçün, istərsə də döyüşün uğurla aparılması üçün qarşı tərəf haqqında kəşfiyyat məlumatlarının toplanması aparılardı. Bununla bağlı xüsusi dəstələr təşkil edilər və düşmən qüvvələrin yerləşdiyi istiqamətə göndərilərdi. Kəşfiyyat məlumatlarının toplanması ilə düşmənin qüvvə və vəsaitlərinin həcmi, onların yerləşdiyi ərazi, qarşılarına qoyduqları vəzifələr aydınlaşdırılır və bundan sonra Səfəvi qoşunlarının döyüş taktikası müəyyənləşdirilərdi. Hansı qüvvə və vəsaitin ayrılması, hansı miqdarda qoşun toplanması qüvvələrin qruplaşdırılması, ehtiyatın yaradılması və s. məsələlər də lazımi kəşfiyyat məlumatları toplandıqdan sonra müəyyənləşdirilərdi.

Kəşfiyyat işlərinin aparılması ilə bağlı mənbələrdə kifayət qədər məlumatlar mövcuddur. Məsələn, yuxarıda haqqında danışılan sıra baxışından sonra Şah Təhmasib hücumu ehtimal olunan özbək qoşunlarının qüvvə və vəsaitlərinin müəyyənləşdirilməsi üçün kəşfiyyatçılar göndərmişdi. Bu kəşfiyyatçılar libasların dəyişərək çox uzun məsafədə öz qüvvələrindən ayrılmalı oldular və ehtiyac duyulan məlumatları toplayıb Şah Təhmasib düşərgəsinə çatdırdılar. Şah Təhmasib də bundan sonra konkret qərar qəbul etdi (98).

Özbək qoşunlarına qarşı döyüşə başlamazdan əvvəl Şah Təhmasib hətta qarşı tərəfdən "dil" tutub gətirməyi də lazım bildi və bununla bağlı irəliyə xüsusi bir qrup göndərdi. Çünki "dil" tutulması ilə qarşı tərəfin qüvvələri və niyyətləri haqqında daha dəqiq məlumatlar əldə etmək mümkün idi. Qarşı tərəf haqqında ciddi məlumatların əldə edilməsini Şah Təhmasib qoşun başçılarından da tələb edirdi: "O məqamda zəfər aqibətli qoşunların qaravulları gəlib ərz etdilər ki, özbək xanları bu yaxınlıqda yerləşmişlər. O həzrət (Şah Təhmasib) qorçulardan on dörd nəfəri

“dil” tutmağa göndərdi. O tərəfdən də dörd yüz [özbək] süvarisi həmin iş üçün [irəli] gəlmişdi. Qazilər onlarla rastlaşıb bir neçə nəfəri ələ keçirdilər. Ertəsi gün dinin pənahı olan şah, Ülamə sultanı və Zülqədəroğlu Məhəmməd xanı göndərdi ki, düşməndən dürüst xəbər gətirsinlər. Onlar özbək xanları ilə qarşılaşdılar, [lakin] döyüşməkdə fayda görməyib geri qayıtdılar” (99).

Bəzi məlumatlara görə, qızılbaş əmirləri və döyüşçüləri bəzən çoxlu sayda “dil” tuta bilirdilər. Məsələn: “Əzəmətli qazilər kəşfiyyata getdilər. Çoxsaylı qazilər özbəklərdən iki nəfəri tutub dinin pənahı olan şahın yanına gətirdilər. Əsirlər vəziyyət barədə həqiqəti bəyan etdilər” (100).

Ciddi döyüş qərarlarının qəbul edilməsi ərəfəsində Şah Təhmasib özü də düşmən tərəfinin müşahidə edilməsində və bununla qarşı tərəf haqqında məlumatların dəqiqləşdirilməsində özü də iştirak edirdi. Məsələn, Osmanlı qoşunları haqqında məlumatın və təsəvvürün əldə edilməsi üçün Şah Təhmasib şəxsən özü müşahidə aparmalı olmuşdu. Öz təzkirəsində Şah Təhmasib belə yazırdı: “Mən 30 qorçu ilə birlikdə təpənin üstünə çıxdım ki, görüm Xandigarın ordusu Zəncandan köçüb, ya yox. Bir saat müşahidə etdim, gördüm ki, qoşunun çadırları tamamilə yığıldı. Özlərini Sultaniyyədən dağa tərəf verdilər” (101).

Döyüşə başlamazdan əvvəl toplanış məntəqəsində qoşunların qruplaşdırılması aparılırdı. Şah Təhmasibin iştirak etdiyi hərbi yürüşlərdə bu qruplaşma onun göstərişi və qərarı əsasında baş verirdi. Qoşunların qruplaşdırılması konkret şəraitə və qarşıda dayanan vəzifələrə görə aparılırdı. Müəyyən vaxtlarda bütün qoşunlar birlikdə döyüşdə iştirak edirdilər. Bəzi hallarda isə qoşunların müxtəlif istiqamətdə döyüş aparmasına ehtiyac yaranırdı. Bu zaman ayrıca taktiki qruplar formalaşdırılır və onların hər birinə döyüş istiqamətləri müəyyənləşdirilirdi. Yaradılmış taktiki qruplar da döyüş tapşırığının icrası zamanı qarşıda dayanan vəzifədən asılı olaraq daha kiçik qruplara bölünə bilərdi.

Məsələn, 1552-ci ildə Osmanlı qoşunlarına qarşı döyüşlər aparılarkən Şah Təhmasib öz qoşunlarını dörd dəstədə qruplaşdırdı. Onun qərarına əsasən Məsum bəy Səfəvi, Allahqulu bəy

Ayçəkoğlu, Əli sultan Təkəlü, Şərəfəddin xan Kürdün oğlu Şəmsəddin xan, Xəlifə Ənsar, Həmzə bəy Talış, Uluğxan bəy Səədlü və digər əmirlərin rəhbərliyi altında olan qoşunlar birinci dəstədə birləşdirildilər və bu dəstəyə Ərciş və Bargiri istiqamətində hərəkət etmək tapşırığı verildi. İkinci dəstəyə Şahverdi sultan Ziyadoğlu və Ədhəm bəy Rumlu daxil edildilər. Bu dəstə isə Pasin səmtinə yollanmalı idi. O zaman Farsda olan [əmirlərdən] İbrahim xan Zülqədər, Şahqulu sultan Əfşar və Çıraq sultan isə üçüncü dəstədə birləşdirildilər. Bu dəstə isə İraqi-Ərəb vilayətinə doğru hərəkət etməli idi. Nəhayət dördüncü dəstəyə Bayram bəy Qacar, Toyqun bəy Qacar və Gürcüstan valisi Keyxosrov daxil edildilər. Bu dəstə də Gürcüstan istiqamətində hərəkət etmək tapşırığı aldı. Davelinin fəthinə və o nahiyələrin qırılıb-biçilməsinə təyin edildilər. Mənbədə bildirilir ki, bu dəstələrin hər biri dərhal təyin olunmuş istiqamətə yola düşdülər (102).

Qoşunların döyüş düzülüşündə isə daha çox ənənəvi təcrübədən istifadə olunurdu. Döyüşün aparılması üçün bir qayda olaraq dörd əsas taktiki dəstə təşkil olunurdu: sağ cinah (mənbələrdə sağ cinah həm “meymənə”, həm də “bərangar” kimi xatırlanır), sol cinah (mənbələrdə həm “meysərə”, həm də “cəvanğar” kimi xatırlanır), mərkəz (“qol” və ya “qəlb”) və bir də ehtiyat qüvvə. Bu zaman döyüş düzülüşündə topçular, tüfəngçilər, ox atanlar üçün uyğun mövqelər müəyyənləşdirilirdi. Şah adətən mərkəzdə qərar tuturdu və döyüş meydanının mərkəzində cərəyan edən hadisələrə o rəhbərlik edirdi. Mərkəzdə qərar tutmaqla şah eyni zamanda cinahlarda döyüşün getməsini də nəzarət altında saxlayır və yeri gələndə əlavə qüvvə göndərməklə cinahlardakı döyüşün gedişinə müdaxilə edirdi.

Qoşunların qruplaşdırılmasına və bütünlükdə döyüş hazırlığı işlərinin lazımi şəkildə yerinə yetirilməsinə Şah Təhmasib çox böyük məsuliyyətlə yanaşırdı. Şah Təhmasib hazırlıq işlərinin aparılmasına göstəriş verməklə kifayətlənmirdi. O şəxsən həm hazırlıq işlərinin hansı səviyyədə aparılmasını nəzarət altında saxlayırdı, həm də təşkil edilmiş taktiki dəstələrə hansı qüv-

vələrin daxil edilməsini, xüsusilə də mərkəzdəki qüvvələrin hansı dəstələrdən təşkil edilməsini özü müəyyənləşdirirdi (103).

Qoşunların döyüşqabağı qruplaşdırılmasına Şah Təhmasibin şəxsən nəzarət etməsini mənbədə olan belə bir məlumat da təsdiq edir: “[Şah Təhmasib] ölkə tutan ordunun tərtibi ilə məşğul oldu. Çuxa sultan Təkəlü, Hüseyn xan Şamlu, Təbərrük xan Şamlu, Həmzə sultan Zülqədər, Həmzə sultan Təkəlü, Əhməd sultan Ustaclu, Əhməd sultan Əfşar, Məhəmməd xan Zülqədəroğlu, Pirqulu sultan Şamlu, Yaqub sultan Qacar, Məhəmməd sultan Şərəfəddinoğlu, Həsən Durğudoğlu və Məlik bəy Xoyi bəziləri sağ cinahda və bəziləri sol cinahda qərar tutdular” (104).

Yuxarıda qeyd edildiyi kimi, 1526-cı ildə qızılbaş əmirləri arasında münasibətlər gərginləşəndə vəziyyət silahlı qarşıdurmaya gətirib çıxardı. Köpək sultanla Div sultanın ətrafında toplanmış olan qüvvələr döyüş halına gələndə Şah Təhmasib də Div sultanın dəstəsində idi. O zaman Div sultan qüvvələri öz döyüş düzülüşlərini belə tərtib etdilər: “Hər iki tərəf səflərin tərtibi, nizələrin və qılıncların döyüşə hazır vəziyyətə gətirilməsi ilə məşğul oldu. Bu tərəfdən ordunun mərkəzi dinin pənahı olan şahın bədirlənmiş ay misallı simasının nuru ilə bəzəndi. Div sultan və Çuxa sultan o həzrətin yanında dayandılar. Sağ cinahda (“meymənə”də) Burun sultan Təkəlü, Qaraca sultan Təkəlü və Əxi sultan Təkəlü durdular. Sol cinahda (“meysərə”də) Dəmri sultan Şamlu və Zülqədəroğlu Məhəmməd xan qərar tutdular. Ustaclu qoşunlarının isə ümid gözü mərkəz (“qol”) tərəfdə Köpək sultanın bayrağının ayparasının nuru ilə işıqlandı. Sağ cinah (“bərangar”) Məntəşa sultanın rövnəqi və şövkəti ilə möhkəmləndi. Sol cinah (“cəvanğar”) Qazaq sultanın qılıncının və nizəsinin parıltısından zinət tapdı” (105).

Müəyyən hallarda “mənqəlay” adlanan xüsusi taktiki dəstə də təşkil edilirdi. Bu taktiki dəstəni ön dəstə (avanqard) də adlandırmaq olardı. Ön dəstələr bir qayda olaraq uzaq məsafəli marşlar icra olunarkən irəli göndərilirdi ki, düşmən qüvvələrlə qarşılşadıqda ilk zərbəni vursun və ya ilk zərbəni öz üzərinə götürsün. Mənqəlaya böyük qüvvələr ayrılırdı və onun təşkilinə

xüsusi əhəmiyyət verilirdi. Məsələn, özbək qoşunlarına qarşı həyata keçirilmiş hərbi yürüşlərdən birindi Şah Təhmasib tərəfindən təşkil edilmiş mənqəlaya (ön dəstəyə) tanınmış qızılbaş əmirləri olan Əmir sultan Rumlu, Sədrəddin xan Ustaclu və Əli sultan Tatıoğlunun rəhbərliyi altında olan qoşun dəstələri daxil edilmişdi. Şah Təhmasibin iştirak etdiyi həbi yürüşlərdən birində isə Div sultanın, Çuxa sultanın, Məhəmməd xan Zülqədəroğlunun, Əxi sultanın və Dəmri sultanın qoşun dəstələri mənqəlaya (ön dəstəyə) verilmişdi (106).

Ehtiyat qüvvələrin formalaşdırılması da döyüşlərin aparılması üçün eyni dərəcədə əhəmiyyət kəsb edirdi. Bu məqam Şah Təhmasibin tətbiq etdiyi taktikanın mühüm elmentlərindən biri idi. Ehtiyat qüvvə üçün böyük qoşun dəstəsinin ayrılması da bunun nümayişidir. Mənbələrin birində bildirilir ki, Məhəmməd xan Zülqədəroğlu tabeliyində olan qoşun dəstəsi ilə ehtiyatda saxlanıldı (107).

Toplar və tüfəngçilər döyüş düzülüşünün qarşısında mövqe tuturdular. Qarşıda toplar və onların arxasında da tüfəngçilər yerləşirdilər. Topların qoşunların qarşısında yerləşdirilməsi onların döyüş keyfiyyətləri ilə bağlı idi. Şah Təhmasib qoşunlarında istifadə olunan topların vurma uzaqlığı elə də böyük deyildi və onları qoşunların arxasında yerləşdirməklə atəş açmaq da imkandan kənar idi. Çünki bu zaman öz qoşunlarını atəşə məruz qoymaq olardı. Ona görə toplar ön sırada yerləşdirilirdi və döyüşün əvvəlində onlar öz işlərini görməli olurdular. Tüfəngçilər də bu qayda ilə döyüşün əvvəlində qarşı tərəfə itki yetirməklə döyüşün uğuruna zəmin yaratmalı idilər. Mənbələrdə olan məlumatlar da odlu silahların döyüş düzülüşünün qarşısında yerləşdirilməsindən xəbər verirlər. “Firəngi zərbzənlərin yükləndiyi arabalar ordu səfi önündə yerləşdirildilər” (108). “Ustad Şeyxi bəy Topçubaşının məsləhəti ilə Firəng zərbzənlərinin yükləndiyi arabalar səfin qarşısında yerləşdirilmişdi” (109).

Xidmət dəstələri və personalı düşərgədə saxlanılırdı. Döyüşlər adətən gün ərzində davam edir və əgər gün ərzində başa çatmırdısa qoşunlar döyüşü dayandırıb düşərgəyə çəkilirdi. Bu zaman

sözsüz ki, düşərgənin mühafizəsi təmin edilirdi. Döyüş düzülüşünün elementləri arasında bayraqlar və musiqiçilər dəstəsi də var idi. Yuxarıda qeyd edildiyi kimi, şahın öz bayrağı (ələmi) var idi. Bu bayraq şahın düşərgəsində, şah döyüşdə olan zaman isə onun qərar tutduğu mövqedə olurdu. Şah bayrağını daşıyan xüsusi adamlar var idi. Onlara ələmdar deyilidi. Hətta ələmdarbaşı vəzifəsi də Səfəvi qoşunlarında mövcud olan vəzifələrdən biri idi. Şah Təhmasib dövrünün döyüş bayraqlarının müxtəlif ölçüdə və müxtəlif məzmunda olması haqqında yuxarıda məlumat verilmişdir. Döyüş bayraqları üçün ümumi olan cəhət onların dini məzmuna da malik olması idi. Yəni, bayraqlarda başqa təsvirlərin olmasından asılı olmayaraq Quran ayələrinin və ya kəlmeyi-şəhadətin olması halları norma halını almışdı.

Bir məlumata görə, Şah Təhmasib dövrünün döyüş bayraqları nizəyə bağlanmış qırmızı rəngli mahuddan hazırlanırdı. Bu bayrağın üzərində qılınc və onun da yuxarısında bir dairə təsviri olurdu. Həmin dairənin daxilinə isə bu sözlər həkk olunurdu: "Əli vəliyullah, La ilahə illəllah, Əli vəliyullah və Allahu-əkbər". Qoşun əmirlərinin də bayrağının oxşar təsvirlərdə olduğu bildirlir (110). Mənbələrin birində isə qızılbaş əmiri Köpək sultanın bayrağında aypara təsvirinin olduğuna işarə edilmişdir (111).

Döyüş meydanında bayrağın dalğalanması döyüşün uğurla getməsinin bir təsdiqi idi. Bayrağın enməsi isə qoşun başçısının və ya şahın döyüşdə uğursuzluğa düçar olmasının və ya döyüşdən çəkilməsinin göstəriçisi idi. Döyüş bayrağının dalğalandığı məkana görə, onun sahibi olan qoşun başçısının döyüş meydanındakı yerini də müəyyənləşdirmək mümkün idi. Bu bayrağın havada olması qoşun əhli üçün həm də bir mənəvi güc mənbəyinə çevrilirdi. Bayrağa baxmaqla döyüşçülər bilirdilər ki, onların qoşun rəhbərləri də döyüş meydanındadır və döyüşü davam etdirirlər.

Döyüşün əvvəllərində bayrağın havaya qaldırılması musiqi sədalarının səslənməsi ilə bir vaxta təsadüf edirdi. Şah Təhmasib qoşunlarında musiqidən istifadə olunması təcrübəsi qalmaqda davam edirdi. Musiqi ilə həm döyüşün başlanması işarəsi verilir,

həm də qoşunlarda bir mübariz əhval-ruhiyyə yaradılırdı. Meydanı bürüyün musiqi sədaları döyüşçüləri irəli səsləyən çağırış kimi səslənirdi. Bunun üçün idi ki, musiqiçilər dəstəsinin formalaşdırılması və döyüş zamanı onlardan istifadə edilməsi döyüşün təşkilinin mühüm elementlərindən bir kimi qəbul olunurdu. Yuxarıda qeyd edildiyi kimi, hər bir əmirin öz bayrağı və təbili var idi. Yəni müharibə təbili də əmirlərin statusunun göstəricisi olan elementlərdən biri idi.

Musiqidən döyüş meydanında istifadə edilməsi ilə bağlı mənbələrdə çoxlu sayda məlumatlarla rastlaşmaq mümkündür. Məsələn: "Hər iki tərəfdən kurkə, şeypur və gərənay sədaları səmanın günbəzinə yüksəldi. Bayraqlar dalğalandırıldı, zurnalar çalındı" (112). "Şeypur və zurna sədaları asimanın mavi küpünə səs saldı". "Qazilər səflər bağlayıb nağaraları döyəclədilər və şeypur çaldılar". "Çuxa sultan bir dəstə bahadırla asimandan gəlmiş qəza və gözlənilməz bir bəla kimi Damğan ətrafında okeana çevrildi (oranı mühasirəyə aldı). Nağara vurdular və şeypur çaldılar. Kurkənin və borğunun sədasından, kosun nəriltisindən və nəfirin hay-küyündən o güruhun (özbəklərin) vəlvələ dağına zəlzələ düşdü". "Şeypur və zurna səsləri dairəvi bürclərin mühafizəçilərini təngə gətirdilər və sərsəm etdilər. Ülamə də bürc və hasarların başlarında şeypur və nağara çalınmasına göstəriş verdi" (113).

Bu məlumatlardan göründüyü kimi, Şah Təhmasib qoşunlarında kurkə (böyük təbil), şeypur, gərənay, zurna, nağara, borğu, kos kimi musiqi alətlərindən istifadə olunurdu. Gur səsə malik olan digər musiqi alətlərindən də qoşunlarda istifadə edilməsi istisna edilməməlidir. Döyüşün başlanması və bitməsi bir qayda olaraq musiqi sədaları ilə elan edilirdi. Eyni zamanda döyüşün gedişində də musiqidən istifadə olunurdu. Qoşunların tərkibində musiqiçilərdən ibarət ayrıca dəstələrin olması da ehtimal edilir.

Qoşunların döyüşqabağı düzülüşünün təşkilinə məsuliyyət daşıyan vəzifəli adamlar da mövcud idi. Bunlar tovaçıbaşı və onun köməkçiləri idi. Qoşunların qruplaşdırılması, hansı dəstənin

hansı mövqedə qərar tutması və onların hansı vəzifəni icra etməsi şah tərəfindən müəyyənləşdirilirdi. Amma onun qoşunların döyüşqabağı düzülüşlə bağlı qərarının icrasına tovaçılər nəzarət edirdilər. Tovaçıbaşı və onun köməkçiləri döyüşqabağı düzülüşdə hər bir dəstəyə öz yerini göstərir və onların bu yeri tutmasını nəzarət altında saxlayırdılar. Dəstələrin harada, hansı mövqedə dayanacağı barəsində şah qərarları da tovaçıbaşı tərəfindən çatdırılırdı. Eyni zamanda tovaçıbaşı şahın əmr və fərmanlarını da ictimai yerlərdə səsləndirməklə qoşun əhlinə çatdırırdı. Şahla birbaşa əlaqədə və təmasda olduğu üçün tovaçıbaşı qoşunların və eləcə də sarayın nüfuzlu məqamlarından biri hesab edilirdi. Mənbələrdə və elmi-tarixi ədəbiyyatda Şah Təhmasibin hakimiyyəti illərində tovaçıbaşı olmuş bəzi əmirlərin adları qalmaqdadır. Məsələn, Köpək sultan, Həmzə bəy Tobaçi, Quduz sultan Tovaçi, Səfivəli Tovaçi müxtəlif vaxtlarda bu vəzifəni icra etmişdilər (114).

Döyüşü bir qayda olaraq çərxçi dəstəsi başlayardı. Bu dəstə döyüşün başlanması üçün təyin edilmiş xüsusi dəstə idi. Onun tərkibinə əzmkarlığı, döyüş təcrübəsi ilə fərqlənən bölmələr daxili edilirdi. Çərxçilərin vəzifəsi düşmən tərəfə ilkin zərbəni endirmək, ona itkilər yetirmək, onu çaş-baş salmaq idi. İlkin vurulan zərbənin güclü və qəfil olması ilə qarşı tərəfin planlarını altüst etmək, qarşı tərəfdə qarışıqlığın baş verməsinə yol açmaq olardı (115).

Çərxçilərin fəaliyyəti döyüşün bütünlükdə necə cərəyan etməsinə böyük təsir göstərə bilirdi. Qarşı tərəfə vurulmuş güclü zərbə ilə döyüşün uğurlu davamına zəmin yaratmaq mümkün idi. Bu dəstə çevik və mobil bir dəstə idi. Səfəvi qoşunlarında yaradılan çərxçi dəstəsinin sayının təxminən 1000 nəfər ətrafında olduğu bəllidir.

Döyüşün təşkilinə gəlincə isə bu məsələ həm qarşı tərəfin say tərkibindən, həm coğrafi ərazinin imkanlarından, həm də qarşıya qoyulan məqsəddən asılı idi. Şah Təhmasib qoşunlarının daha miqyaslı döyüşləri özbək qoşunlarına qarşı baş vermişdi. Osmanlı qoşunlarına qarşı isə fəal müdafiə taktikası tətbiq edilirdi.

Özbək qoşunlarına qarşı döyüşlərdə Şah Təhmasib həm ərazi şəraitindən istifadə etməklə döyüş təşkil etdi, həm də qoşunların üzbəüz döyüşünə getdi. Məsələn, 1530-cu ildə Şah Təhmasib özbək qoşunları ilə dağlıq şəraitdə döyüşmək məcburiyyəti qarşısında qaldı. Belə bir şəraitdə uğur əldə etmək üçün o, qoşunları dərələrdə, təpələrdə yerləşdirdi, özbək qoşunlarının keçəcəyi marşrut üzrə gizli mövqelər tutdu. Lakin özbək qoşunlarının geri çəkilməsi ilə bu döyüş baş tutmadı (116).

Şəraitdən asılı olaraq döyüşə həm mərkəzdən, həm də cinahlardan başlanırdı. Şah və ya şah olmadığı təqdirdə qoşun başçısı bir qayda olaraq mərkəzdə qərar tuturdu. Ona görə mərkəzdə daha güclü qüvvələr cəmlənirdi. Üzbəüz döyüşə getməklə qarşı tərəfin mərkəzinə ağır zərbə vurulması ilə döyüşün taleyini də tezliklə həll etmək mümkün olurdu. Məsələn, özbək qoşunlarına qarşı döyüşlərin birində mərkəzdə gedən döyüş haqqında belə bir müxtəsər təsvir vardır: "Əxi sultan dəfələrlə özünü Übeyd xanın [ordusunun] mərkəzinə vurub, az qaldı ki, onun [ordusunun] mərkəzini darmadağın etsin. Lakin [özbək ordusunun] mərkəz («qol») hissəsindəki bahadırlar oxlardan yaylım atışları etməyə başladılar" (117).

Cinah döyüşləri təcrübəsi də Şah Təhmasib taktikasının mühüm elementlərindən biri idi. Konkret şəraitdə qarşı tərəfin gücü və imkanları qiymətləndirildikdən sonra cinahların birindən hücuma keçilməsi haqqında qərar qəbul edilirdi. Bu zərbə qarşı tərəfin döyüş imkanlarını məhdudlaşdırmaqla hücumun uğurla genişləndirilməsinə zəmin yaradırdı. Məsələn, məlumdur ki, 1528-ci ildə Cam ətrafında baş verən döyüşün əvvəlində Səfəvi qoşunlarının sağ cinahında mövqe tutmuş Cuxa sultanla Hüseyn xan Şamlı döyüşü başladılar. Sonradan bu cinahın əlavə qüvvələrlə möhkəmləndirilməsi bu istiqamətdə gedən döyüşün gərginliyini daha da artırdı. Doğrudur, bu zaman Səfəvi qoşunlarının sağ cinahı özbək qoşunlarına ciddi zərbə vura bildi, lakin özbək qoşunlarının müqayisəsiz say üstünlüyü döyüşdə təşəbbüsü ələ almağa imkan verdi. Səfəvi qoşunlarının əks-hücumu başlananda yenidən cinah döyüşünə üstünlük verildi. Sağ cinahın döyüşə

qoşulması və bu hücumun sol cinahla tamamlanması özbək qoşunlarını ağır məğlubiyyətə düçar etdi (118).

Cam döyüşü Şah Təhmasibin taktiki təfəkkürünün ən yaxşı nümunələrindən biridir. Məhz düzgün taktika seçilməsi, düşmənin yorulub əldən salınması, əsas zərbənin vaxtının və yerinin dəqiqliklə müəyyənləşdirilməsi, habelə qüvvələrin ustalıqla yerləşdirilməsi Cam döyüşündə çox ciddi bir uğurun əldə edilməsinə yol açdı. Bu döyüş az qüvvələrlə çox böyük qüvvə üstünlüyünə malik olan qarşı tərəf üzərində qələbə əldə edilməsinin tarixi bir nümunəsidir. Ümumiyyətlə, az qüvvələrlə qarşı tərəfə üstün gəlmək üçün Şah Təhmasib ustalıq və məharət sahibi idi. İstər özbək qoşunlarına qarşı olsun, istərsə də Osmanlı qoşunlarına qarşı olsun Şah Təhmasib qüvvələri say üstünlüyünə malik olmamışdı. Lakin düzgün taktikanın seçilməsi, geriləmə fəndindən məharətlə və səmərəli şəkildə istifadə etməsi Osmanlı qoşunlarını da çətin vəziyyətə salmışdı. Bunun nəticəsi idi ki, Osmanlı sarayı qarşısına qoyduğu böyük məqsədlərə nail ola bilmədi. Belə döyüşlərin təşkili həm də Şah Təhmasibin qətiyyətinin nümayişi idi. Onun bu qətiyyəti isə qoşun əhli üçün ilham mənbəyinə çevrilirdi. Yuxarıda qeyd edildiyi kimi, "Tarix-i aləmara-yi Abbasi" əsərində olan bir təsvir bu baxımdan maraq kəsb edə bilər. Bu təsvirdə söhbət Cam döyüşündən gedir: "...cənnətməkan şah özü ilə birlikdə o məkanda dayanmış olan səadət ölkəsinin döyüşçülərinə əmr etdi ki, mərdanəliklə [özbək] qoşununun üzərinə həmlə edib, ta ağ bayrağın yanına çatıncayadək sürətlə gedən atlarının yüyənlərini geri dartmasınlar, iti qılıncdan və qantökən şəmşirdən savayı, heç bir silaha əl atmasınlar və hər kimə bir yara vurdularsa, onun işini bitirmədən digər birisinin üzərinə həmlə etsinlər ki, məğlub olub qaçmaq - ar və utancdır, mərdliklə ölmək isə - dövranda yaxşı ad-san qazanmaq deməkdir" (119).

Bu təsvirdən də göründüyü kimi, sürətli hücum Şah Təhmasib qoşunlarının döyüşü zamanı üstünlük verdiyi məqamlardan biri idi. Böyük sürətin saxlanması düşmən tərəfi çaş-baş salmaqla onun toparlanmasının qarşısını alır və onu çıxılmaz vəziyyətə salırdı. Zaman amilinin düzgün dəyərləndirilməsi qızılbaş dəstə-

lərinin döyüş taktikasnın ayrılmaz əlamətlərindən biri idi. Mənbələrdə qızılbaş dəstələrinin və döyüşçülərinin böyük sürətlə döyüşə atılmaları haqqında çoxlu sayda təsvirlərlə qarşılaşmaq mümkündür. Onlardan biri belədir: "İlk öncə igidlik və mərdlikdə dövranın yeganəsi olan Tacəddin bəy göz qamaşdıran şimşək və şiddətli külək kimi qoşunun mərkəzinə at çapdı və ordunun səfini yarıb, qoşunun arxasında olan yedək atların arasına çatdı" (120).

Səfəvi qoşunlarının taktikasında qala döyüşləri mühüm yer tuturdu. Qala döyüşləri, ümumiyyətlə dövrün hərb sənətinin xarakterik elementi idi. Məlumdur ki, bu dövrdə də şəhərlər ətrafında müdafiə divarları tikilirdi və bununla da şəhərlər qala-şəhərlərə çevrilirdi. Çünki belə bir şəraitdə düşmən hücumlarından daha yaxşı müdafiə olunmaq mümkün idi. Səfəvi şəhərləri də hər biri ayrılıqda qala-şəhərlər idi. Eyni zamanda Səfəvi qoşunlarının hücumuna məruz qalan şəhərlər də qala-şəhərlər idi və onların fəth edilməsi xüsusi taktikanın tətbiq edilməsini zəruri edirdi. Bu sahədə də Səfəvi qoşunlarının lazımi təcrübəsi formalaşmışdı. Hücum edilən qala-şəhərləri böyük müdafiə imkanlarına malik olduqda, onda qala ətrafı hücum sektorlarına bölünür və hər sektor da qızılbaş əmirlərinə həvalə olunurdu (121). Mövcud olan silahlardan istifadə etməklə sektorlardan qala üzərinə hücum təşkil edilir və qarşıya qoyulan məqsədə nail olunurdu.

Bir daha qeyd edilməlidir ki, Şah Təhmasib soyuq silahla odlu silahın birgə istifadəsinin səmərəli təcrübəsini yarada bilmişdi və bunun nəticəsi idi ki, səltənətin hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində uğurlu nəticələr əldə edilmişdi.

## 5. İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Venesiyalılar Şah Təhmasibin sarayında. İngilis dilindən tərcümə O.Əfəndiyevindir. Bakı, 2005, s. 38-39
2. Yenə orada, s. 39
3. Şah Təhmasibin təzkirəsi. Tərcüməçi Ə.Rəhimovdur. Bakı, 1996, s, 17
4. Yenə orada, s. 34

5. Şah Təhmasibin təzkirəsi, s. 57-59
Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.126
6. Şah Təhmasibin təzkirəsi, s. 21
7. Yenə orada, s. 18, 23, 36,
8 Yenə orada, s. 87
9. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı, 2009, s.116
10. Şah Təhmasibin təzkirəsi, s. 35
11. Yenə orada, s. 55-56
12. Yenə orada, s. 55
13. Yenə orada, s. 92
14. Yenə orda, s. 18
15. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonı, 2017, s. 515-516
16. Rumlu H. Əhsənüt-təvarix, s. 524
17. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 178
18. Yenə orada, s. 178-179
19. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.121
Şah Təhmasibin təzkirəsi, s. 33
Venesiyalılar Şah Təhmasibin sarayında, s. 93
20. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu. Tərtib edəni Ə.Nəvayi. Tehran, 1368, s. 235
21. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s.210
22. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 179
23. Şah Təhmasibin təzkirəsi, s. 57
24. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Tərcüməçi Ə.Rəhimli. Bakı, 1996, s. 69
25. Rumlu H. Əhsənüt-təvarix, s. 557
26. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 180-181

27. Karadağ Çinar G. Safevi-özbek siyasi ilişkileri ve Osmanlının təsiri (1524-1630). Doktora tezi. Afyon-Karahisar, 2011, s.100
28. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Tərcüməçi Ə.Rəhimli. Bakı, 1996, s. 69
29. Şah Təhmasib Səfəvi. Sənədlər toplusu, s.211
30. Cunabedi Mirzabek. Rövzətüs Səfəviyye. Tehran, 1378, s. 373
31. Qazi Əhməd Qumi. Xülasət-təvarix, C.I, Tehran, 1383, s. 181, 198
Əbdi bəy Şirazi. Təkmilətül-əxbar, s. 69
32. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 126
33. Abbaslı M. Şah İsmayıl Xətayinin ömür yolu miniatürlərdə. Bakı, 1981, s. 36
Aləmara-yi Şah İsmayıl. Tehran, 1384, s. 162, 365, 391
34. Şateri M., Əhmədtəcri P. Motale-te təsirpəziri-ye neqareha-ye Şahname-ye Təhmasibi əz təğyir-e məzhəb dər dövre-ye Səfəvi, s.59//"Negəre", N-42, 1396, s. 47-62
35. Venesiyalılar Şah Təhmasibin sarayında, s.44
36. Rumlu H. Əhsənüt-təvarix, s. 452
37. Erdoğan E. Safevi ordusunda bir birlik – kurçiler, s. 77/Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi, N- 2 (2015), 75-88
Baseri V. Moqayese-yi miyan-e niru-ye nizami-ye dövlət-e Osmani və Səfəvi, s.109 //Nimsalname-ye tarix-e no, N- 4, 1391, s.95-121
38. Venesiyalılar Şah Təhmasibin sarayında, s.56
39. Rumlu H. Əhsənüt-təvarix, s. 628
40. Venesiyalılar Şah Təhmasibin sarayında, s.47, 57
41. Venesiyalılar Şah Təhmasibin sarayında, s.59
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 199, 201
42. Erdoğan E. Safevi ordusunda bir birlik – kurçiler, s. 82
43. Erdoğan E. Safevi ordusunda bir birlik – kurçiler, s. 82

Haneda M. Safevi hassa birliklerinin tekamülü, s.134// “Cihannüma” –Tarih və coğrafiya
araştırmaları dergisi, sayı II, 2016, s. 125-150
44. Baseri V. Moqayese-yi miyan-e niru-ye nizami-ye dövlət-e Osmani və Səfəvi, s.109
45. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, 259
46. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 196
47. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 187-188
Haneda M. Safevi hassa birliklerinin tekamülü, s.136-137
48. Erdoğan E. Safevi ordusunda bir birlik – kurçiler, s. 80-81
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 192
49. Erdoğan E. Safevi ordusunda bir birlik – kurçiler, s. 81
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 192
50. Rumlu H. Əhsənüt-təvarix, s. 564
51. Şah Təhmasibin təzkirəsi, s. 43, 61
52. İskəndər bəy Türkman. Tarix-i aləmara-yi Abbasi. Cild əvvəl, Tehran, 1390, s. 103, 112
53. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 195
54. İskəndər bəy Türkman. Tarix-i aləmara-yi Abbasi. Cild əvvəl, Tehran, 1390, s. 106, 152
55. İskəndər bəy Türkman. Tarix-i aləmara-yi Abbasi. Cild əvvəl, Tehran, 1390, s. 211
Erdoğan E. Safevi ordusunda bir birlik – kurçiler, s. 85
56. İskəndər bəy Türkman. Tarix-i aləmara-yi Abbasi. Cild əvvəl, Tehran, 1390, s. 136
57. Erdoğan E. Safevi ordusunda bir birlik – kurçiler, s. 81
58. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 192
59. Yenə orada, s.196
60. Qazi Əhməd Qumi. Xülasət-təvarix” C.I, Tehran, 1383, s.253
61. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 34
62. Yenə orada, s. 38-39
63. Seyvori R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s.159
64. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 185

Erdoğan E. Safevi ordusunda bir birlik – kurçiler, s. 83-85
65. José Cutillas Ferrer. War and diplomasy: A letter describing Shah Tahmasp I and his ministers, s.33 // Maquetación, N-1, 2016, s. 29-40
66. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 240
67. Yenə orada, s. 243
68. Yenə orada, s. 257
69. Yenə orada, s. 257-258
70. Matthee Rudi. Firearms in Persia, s. 619/Ensiklopedia İranica, volume IX, New York, s.619-628
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s.298-300
71. Qəfuri Ə. Tarix-e cəngha-ye İran əz madha ta be hal-e emruz. Tehran, 1389, s. 319
72. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s.205
73. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s. 198,
Rumlu H. Əhsənüt-təvarix, s.467, 537, 564
Cunabedi Mirzabek. Rövzətüs Səfəviyye. Tehran, 1378, s.397
74. Rumlu H. Əhsənüt-təvarix, s. 564-565
75. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar, s. 43
Rumlu H. Əhsənüt-təvarix, s. 464
76. Rumlu H. Əhsənüt-təvarix, s. 561
77. Venesiyalılar Şah Təhmasibin sarayında, s.93-94
78. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s.283-289
79. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar, s. 69
80. Şah Təhmasibin təzkirəsi, s. 25
81. Venesiyalılar Şah Təhmasibin sarayında, s. 94
82. Veliyeva Z. Safevi devlet teşkilatı. Çap olunmamış doktora tezi. Ankara, 2007, s. 392
83. Rumlu H. Əhsənüt-təvarix, s.455
84. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 893
85. Venesiyalılar Şah Təhmasibin sarayında, s. 93

86. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar, s. 68-69
87. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s.327-328
88. Rumlu H. Əhsənüt-təvarix, s. 468
89. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s.198
90. Yenə orada, s. 199
91. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s.200-201
Əşraqi E. Ərz-e sepah-e Şah Təhmasb və moqayese-ye an ba ərz-e Uzun Həsən Ağqoyunlu, s. 139//Bərrəsiha-ye tarixi, sal-e nohom, şomare dovvom, s. 123-148
92. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s. 201-204
Əşraqi E. Ərz-e sepah-e Şah Təhmasb və moqayese-ye an ba ərz-e Uzun Həsən Ağqoyunlu, s. 139-140//Bərrəsiha-ye tarixi, sal-e nohom, şomare dovvom, s. 123-148
93. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s.203
94. Rumlu H. Əhsənüt-təvarix, s.456-457
95. Şah Təhmasibin təzkirəsi, s. 57
Rumlu H. Əhsənüt-təvarix, s.457
96. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s.330-337
97. Rumlu H. Əhsənüt-təvarix, s.465
98. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s.205-207
99. Rumlu H. Əhsənüt-təvarix, s.465
100. Yenə orada, s. 469, 569
101. Şah Təhmasibin təzkirəsi, s. 34
102. Rumlu H. Əhsənüt-təvarix, s.557
103. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s.212
104. Rumlu H. Əhsənüt-təvarix, s.466
105. Rumlu H. Əhsənüt-təvarix, s. 452
106. Yenə orada, s. 509
107. Yenə orada, s. 457

108. Yenə orada, s. 466
109. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.115
110. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s.327
111. Rumlu H. Əhsənüt-təvarix, s. 451
112. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.115
113. Rumlu H. Əhsənüt-təvarix, s. 458, 464, 496, 563
114. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s.317-318
115. Yenə orada, s. 344
116. Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s.211-212
117. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.111
118. Cunabedi Mi. Rövzətüs Səfəviyye. Tehran, 1378, s. 396-397 Qazi Əhməd Qumi. Xülasət-təvarix" C.I, Tehran, 1383, s.182
119. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.117
120. Rumlu H. Əhsənüt-təvarix, s. 457
121. Yenə orada, s.496

# VII FƏSİL

# ŞAH TƏHMASİB TARİXİN SINAĞINDA

## 1. Şah Təhmasibin mənəvi keyfiyyətləri

Şah Təhmasib dünya tarixinin tək-tək simalarındandır ki, yarım əsrdən artıq bir müddətdə böyük bir imperiyaya hökmdarlıq etdi, tarixi sınaqlarla qarşılaşmasına baxmayaraq bu imperiyanı inkişafının yeni bir səviyyəsinə qaldırdı, məzmunlu fəaliyyəti ilə Səfəvilər tarixində dəyərli bir səhifə açdı və dövlətçilik keyfiyyətləri ilə nəinki Şərqin, bütünlükdə dünyanın böyük hökmdarları sırasına yüksəldi. O, milli-mənəvi köklərə dayaqlanmaqla dövlətə rəhbərliyin yeni bir nümunəsini yaratdı, son dərəcə mürəkkəb hərbi-siyasi şəraitdə ən düzgün seçimləri etməyi bacarmaqla idarəçilik sahəsində insan qabiliyyətinin hüdudlarının genişliyini nümayiş etdirə bildi və özündən sonra bu gün də öyrənilməyə layiq olan bir miras qoyub getdi.

Qısa zaman ərzində Şərqin və islam dünyasının çox böyük və güclü dövlətlərindən birinə çevrilmiş Səfəvi dövlətinin taxt-tacına sahib olanda Şah Təhmasibin cəmi 11 yaşı var idi. O, atası Şah İsmayıldan da tez səltənət hökmdarlığına yiyələnmişdi. Doğrudur, Şah İsmayıldan fərqli olaraq Şah Təhmasib təşkilatlanmış, sistemləşmiş bir dövlətin rəhbərinə çevrilmişdi. Bununla belə, 52 il belə böyük bir dövlətə hökmdarlıq etmək çox böyük müdrikliyi, təşkilatçılıq qabiliyyətini, ardıcıllığı, zəngin mənəvi-əxlaqi keyfiyyətləri tələb edirdi. Çünki mövcud tarixi şərait, hərbi-siyasi durum bunu tələb edirdi. Məlumdur ki, Şah Təhmasibin taxt-tac sahibi olmasından cəmi bir il sonra Səfəvi dövlətinin dayağı olan böyük qızılbaş əmirləri arasında hakimiyyət uğrunda kəskin qarşıdurma başladı, bu qarşıdurma hətta tayfalar arasında silahlı toqquşmalara da yol açdı. Belə bir zamanda da Şah Təhmasib bu tayfalar arasında birləşdirici rol oynaya bildi, müəyyən qüvvələri öz ətrafında saxlayaraq süqut yolundan kənarda qalmağı bacardı. Sözsüz ki, bu məsələdə Şah Təhmasibin

ətrafında olan sağlam qüvvələrin müdrikliyini də kənara qoymaq mümkün deyildir. Amma o da məlumdur ki, 14-15 yaşında olarkən Şah Təhmasib hakimiyyəti real olaraq öz üzərinə götürdü və yarım əsr ərzində Səfəvi dövlətinin hökmdarı oldu. Belə bir uzunömürlüyə nail olmaq üçün Şah Təhmasibdən çox ciddi keyfiyyətlər tələb olunurdu. Bunların bəziləri haqqında yuxarıdakı fəsillərdə danışılmışdır. Münasib tarixi şərait, milli dövlətçilik ənənələri, əlverişli idarəçilik mühiti, təşkilatçılıq qabiliyyəti, dövlətçilik təfəkkürü və s. Bütün bunlar Şah Təhmasibin xarakterinin və dünyagörüşünün ayrılmaz tərəfləri idi. O eyni zamanda Səfəvi təriqəti kimi çox kütləvi təriqətin mürşidi idi, bütün həyatı və varlığı ilə etiqada bağlı bir insan idi. Bu etiqad onun bir insan kimi, hökmdar kimi bütün dəyərlərinin mərkəzi xəttini təşkil edirdi – dövlətçiliyə münasibətdə də, həyata münasibətdə də, insanlara münasibətdə də. Özü də bu etiqad fanatik etiqad deyildi və etiqadının dərinliyinə baxmayaraq bütünlükdə, Şah Təhmasib fanatiklikdən uzaq olan bir din adamı idi. Onun etiqadı güclü məzhəb biliklərinə dayaqlanırdı və belə biliklərin yayılmasını həm mürşid kimi, həm də hökmdar kimi birmənalı şəkildə təşviqləndirirdi.

Bütünlükdə, mənəvi-əxlaqi dəyərlər Şah Təhmasibin dövlətçilik və mürşidlik təfəkkürünün əsasını təşkil edirdi. Şah Təhmasib dövlətçiliyə və məzhəb dəyərləri əleyhinə yönəlmiş əməllərə qarşı nə dərəcədə qətiyyətli və barışmaz idisə, həyatın çətinlikləri və sınaqları ilə rastlaşmış insanlara qarşı o dərəcədə səmimi və canıyanan idi, səxavətliliyi ilə isə sonsuz sayda insanların sonsuz ehtiramını qazana bilmişdi. Hələ 20 yaşında ikən tövbə edib yüngül əyləncələrdən, islami və insani inanclarla bir araya sığışmayan hərəkətlərdən əl çəkdiyini bildirdi və həyatının sonuna qədər bu tövbəsinə sadiq qaldı.

Şah Təhmasib Allahını, peyğəmbərini tanıyan, islamın müqəddəs kitabına etiqad edən və bu məsələlərdə şüurluluq nümayiş etdirən bir insan idi. O, müqəddəslərə bağlı olduğu qədər də öz əcdadlarına bağlı olan bir insan idi və bu məqamlar onun mənəvi-əxlaqi keyfiyyətlərinin də mərkəzində dayanırdı. Şah Təh-

masibin əcdadlarına bağlılığında sözsüz ki, təriqət inanclarının da öz yeri var idi. Amma Şah Təhmasibin valideynlər və əcdadlara bağlılığı və ehtiramı həm də islam dininin dəyərlərindən irəli gələn bir borc kimi qəbul edirdi. O, ulu əcdadı Şeyx Səfiəddinin təlimləri və öyüdləri üzərində tərbiyə almışdı və təriqət rəhbəri kimi də həmin təlimlərin yayılmasını və insanların da bu təlimlər üzərində tərbiyələndirilməsini hər vasitə ilə təşviq edirdi. Şeyx Səfiəddinin həyat yolunun və təlimlərinin adi insanlara çatdırılması üçün bu böyük zəka sahibinin həyat yoluna həsr edilmiş "Səfvətüs-səfa" əsəri də Azərbaycan türkçəsinə tərcüməsi Şah Təhmasibin sifarişi ilə edilmişdi (1). Şah Təhmasibin sifarişi ilə Şeyx Səfi məqbərəsi üçün elə indinin özündə də dünyanın sənətkarlıq nümunəsi sayıla biləcək Ərdəbil xalçası (Şeyx Səfi xalçası) da Şah Təhmasibin sifarişi ilə toxunmuşdu (2). Şeyx Səfi məqbərəsi Şah Təhmasibin hakimiyyəti illərində də insanların çox böyük istəklə ziyarət etdikləri müqəddəs məkanlardan biri olaraq qalmaqda idi və bu məqbərə Şah Təhmasibin ən ciddi qayğısı ilə əhatə olunmuşdu. Onun hakimiyyəti illərində Şeyx Səfi türbəsinin yerləşdiyi Ərdəbil ayrıca inzibati struktur kimi saxlanılmışdı və Ərdəbilə rəhbərlik Səfəvi sarayının ən etibarlı və sədaqətli nümayəndələrinə tapşırılırdı. Şah Təhmasibin təzkirəsində onun Şeyx Səfiəddini yuxusunda görməsi haqqında da qeydlər vardır (3). Bu yuxu da Şah Təhmasib üçün müqəddəslərlə bağlı gördüyü yuxulara bərabər idi və bu yuxuda Şeyx Səfiəddinin dilindən eşitdiklərini reallıq kimi qəbul edirdi.

Şah Təhmasib atası Şah İsmayıla da övlad ehtiramını heç zaman unutmamışdı və onun atasına olan münasibəti, bütünlükdə böyüklərə və əcdadlara olan münasibətin ən yaxşı göstəricisi idi. O hər zaman çalışırdı ki, Şah İsmayılın ona göstərdiyi etimada və sevgiyə layiq olsun, ondan yadigar qalmış olan dövləti də elə onun qədər sevsin və qorusun. Təzkirəsində də Şah Təhmasibin atalıq haqqının qorunması və əziz tutulması haqqında dəyərli fikirləri vardır. Məsələn, Sultan Süleymanın oğlu Bayəzidin ona asilik edərək Səfəvi hüdudlarına gəlib çıxması ilə bağlı Şah Təhmasib belə yazırdı: "Öz-özlüyündə deyirdim ki, bu adam

(Bayəzid) öz vəlinemətinin (onu böyüdüb saxlayanın) sözünə baxmadı, ata-ananın hüququna riayət etmədi. [Quran] ayələri və hədislərə görə isə onlara (ata-ana hüququna) riayət etmək vacibdir. Mən Xandigara pislik edib, atasının sözündən çıxan bir adama yardım edə bilərəmmi?” (4).

Şah Təhmasib ata-ana haqqının dəyərinin daha aydın şəkildə açıqlanması üçün islam peyğəmbəri ilə həzrət Cəbrayıl arasında olmuş bir hekayətə də toxunurdu. Bir qədər uzun olan bu hekayətin bir yerində deyilirdi ki, həzrət Cəbrayıl ata-anaya hörmət saxlamayan insanlara lənət söylədi və islam peyğəmbəri də onun bu sözünə amin dedi. Yəni islam peyğəmbəri də valideyn ehtiramına belə bir dəyər verirdi və Şah Təhmasib də bunu özü üçün bir meyar kimi qəbul edirdi. O bu barədə belə yazırdı: “Öz-özlüyümdə isə deyirdim ki, bu adam öz böyüyünün sözünə baxmır. “Quran” ayələri və dini hədislərə əsasən vacib sayılan ata-ana hüququna riayət etmir. Cəbrayıl – ona salam olsun – peyğəmbər həzrətlərinə bu barədə təkid edərək deyirdi ki, ata-ana hörmətini saxlamayan adama Allah hörmət etməz” (5).

Təzkirəsinin bir yerində Şah Təhmasib atası Şah İsmayılı “atam həzrət xaqan”, başqa bir yerində isə “atam həzrət Şah İsmayıl” deyə ehtiramla xatırlayırdı (6).

Şah Təhmasib bu dəyərlərlə yaşayırdı və başqalarına da belə dəyərlərlə yaşamağı tövsiyə edirdi. Valideynə verilən dəyər isə Şah Təhmasib üçün yalnız ata-anaya verilən dəyər yox, bütünlükdə, insanlara verilən dəyərin nümayişi idi. Qeyd edildiyi kimi, dövlətçiliyə və dini normalara qarşı çıxan insanlara qarşı Şah Təhmasib barışmazlıq nümayiş etdirirdi. Amma onun insanlara, ehtiyacı olanlara davamlı kömək göstərməsi və buna görə də ümumi sevgi ilə qarşılanması haqqında mənbələrdə də çoxlu sayda faktlar vardır.

Şah Təhmasib ulu babası Şeyx Cüneydi də ehtiramla xatırlayırdı və onun Qusar rayonunun Həzrə kəndində olan məzarının üzərində adına laiq olan bir türbə tikilməsi haqqında da göstəriş vermişdi. Onun bu göstərişinin icrası 1544-cü ildə tamamlanmışdı və həmin türbə günümüzə qədər öz görkəmini itirməmişdir.

Türbənin qərb qapısı üzərində onun Şah Təhmasib tərəfindən tikilməsi barəsində kitabə də vardır. Bu kitabə ərəb dilindədir və məzmunu belədir: “Bu mübarək və şərəfli imarətin, yüksək sultan, kəramətli və ədalətli xaqan, fars və ərəb hökmdarlarının ağası – Allah onun kölgəsini yerlərdən əskik eləməsin – qurunun və suyun qəhrəmanı, dini, dünyanı, xilafəti və səltənəti əzizləyən Mustafaya (Məhəmməd peyğəmbərə) mənsub olan şəriət qaydalarını yayan, Murtuzəvi təriqətinin (şiəliyin) əsasını qoyan, minnət və ehsan edən, Allah tərəfindən şərəfləndirilmiş, ehtiyacsız Allaha təvəkkül edən, Sultan oğlu Sultan Əbülmüzəffər Şah Təhmasib əl-Hüseyni Bahadur xanın – Allah hökmranlığını və sultanlığını daimi etsin və hər iki dünyanı onun yaxşı işləri və ehsanı ilə feyzləndirsin, öz qəlbini, biliyini Allaha və bəşər aləminə həsr etmək qüdrətliyi ilə həzrətlərindən seçsin – hökmranlığı zamanında səadət və əzizlik sahiblərinin ən fəxrlisi, vahid Allahın rəhmətinə qovuşmuş Xacə Fəxrəddin Əhməd Fərahaninin – yüksək Allah onun şükürlərini, səylərini və yaxşı işlərini qəbul etsin – oğlu, qəbilələrin pənahgahı olan böyük vəzir həzrətləri, Allah rəhmətinə getmiş Ziyaəddin Nizamülmülk oğlu və yüksək vəzirlərin vəziri, hökmdar və valilərin bəyənilmişi, xalqın bütün üzvlərinin tədbirçisi, xalqın yaxşı işlərinə zəmin olan, əmmamə sahiblərinin xidmətkarı, kəramət sahiblərinin itaət olunmuşu, yaxşı işlər binalarının banisi ...Ağa Məhəmməd, kəramət sahiblərinin sultanı, yetkin və bəyənilmişlərin rəhbəri, ariflərin rəisi, düy yolla gedənlərin yol göstərəni, təriqət məsləkində vahid yol seçmiş, həqiqət məmləkətlərinin sahibi, öz razılıqları ilə eyni məslək istəyənlərin mürşidi, kainatın sahibi, öz fazilliyi ilə dövlətli olan Sultan Şeyx Cüneyd Səfəvinin – Allah onun qəbrinə nur saçsın və şəhid olduğu yeri haqq eləsin – qəbri üzərində doqquz yüz əlli birinci ilin axırında tikilməsinə müvəffəq olmuşdur” (h.951/1544-1545) (7).

Şah Təhmasibin təzkirəsini, bütünlüklə, bu Səfəvi şahının dünyaya və həyata baxışının, mənəvi-əxlaqi dəyərlərinin, dini-dünyəvi təfəkkürünün ifadəsi saymaq olar. Bu əsərdə Şah Təhmasibin çoxlu sayda əxlaqi fikirləri, ibrətamiz düşüncələri özünə

yer almışdır. O cümlədən, bu əsərdə xeyli sayda nəzm parçaları işlənmişdir ki, onlarda da çox qiymətli fikirlər öz əksini tapmışdır. Şübhə yoxdur ki, həmin nəzm parçalarının çoxu da Şah Təhmasibin qələmindən çıxmaqla onun mənəvi-əxlaqi dünyagörüşünü əks etdirirdi. Hətta Şah Təhmasibə aid olmayan nəzm parçaları da onun mənəvi-əxlaqi dünyagörüşü ilə səsləşdiyi üçün həmin təzkirəyə daxil edilmişdir.

Məsələn, bu nəzm parçalarından birində şahların insanlara qarşı siyasətinin ədalətli olmasının zəruruliyindən söz açılır. Yəni Şah Təhmasib özü də daxil olmaqla şahlarda fitnə dəf edən siyasət izləməsinin əhəmiyyətini qeyd edir:

Şahların fitnəsini dəf edən siyasətinin kölgəsi olmasa
Heç kəs əmniyyət sarayında bir dəm qərar tutmaz.

Başqa bir nəzm parçasında da yenə şahların haqq və ədalətindən söz açılır və Şah Təhmasib onun bildirir ki, Şah tərəfindən vəzifəyə təyin olunanların insanları incitməsi, xəzinə xeyri görüntüsü adı altında onların xalqı soyub-talaması doğru deyildir. Bununla, Şah Təhmasib məmur və əyanların özbaşınalığına yol verilməsinin düzgün olmadığını bəyan edirdi:

Alçaq vergi məmuru xalqı incidir,
Bu işi ölkənin və xəzinənin xeyri hesab edirdi.
Əgər haqq deyənə riayət etməsən
Şahdanda sənə ziyan dəyər.

Bir sıra nəzm parçalarında Şah Təhmasib var-dövlət ardınca qaçmağın mənasızlığını açıb göstərirdi. Bu fikir, əslində, onun əqidəsini, sərvət toplanmasına olan münasibətini nümayiş etdirirdi. Etiqad sahibi kimi, Şah Təhmasib hər bir insana lazım olacaq var-dövləti onun mənəvi dəyərlərində görürdü:

Ey bəxtinin dalınca səy edən
Bəxt və dövlət iş bilməklə deyil.

Hər kimin ki, cah-cəlalı, malı və dəbdəbəsi var
[Bu], göyün (Allahın) köməyindən başqa [bir şey] deyil.

Ey ürək, bu iki günlük var-dövləti burax,
Çünki iki günlük var-dövlət [qiyamət günü] karına gəlməz.
Elə bir var-dövlət əldə et ki, haqq-hesab günü,
Sənin dərdinə gərək olsun.

Asilik yoluna qədəm qoymuş qardaşı Əlqas Mirzəyə yazdığı məktubunda Şah Təhmasib var-dövlət hərisi olmadığını və belə insanları dərindən qınadığını öz təzkirəsində belə təsvir edirdi: "O bəzəkli, qiymətli şeyləri ki, sən yazmısan, bilirsən ki, mənim hər bir əmirimdə bunlardan artıq vardır. Mən gərək sənin kimi əbləh olum ki, dünyəvi nəqdə (var-dövlətə), mülkə, müxəlləfata uyub, onlarla qürurlanım".

Təzkirəsində istifadə etdiyi bir çox nəzm parçalarında isə Şah Təhmasibin mənəvi-əxlaqi nəsihətləri və görüşləri öz əksini tapmışdır. Həmin nəzm parçalarının əsas məzmununu və aparıcı xəttini insanlara sevgi və yaxşılıq təşkil edir:

Hər kim yaxşılıq etsə, tapar yaxşılıq
Və pislik etsə tapar [pislik].

Pak Allah səni torpaqdan yaratmışdır,
Sən də torpaq kimi təvazökar ol.
Tamahkar, fitnəkar və lovğa olma,
Torpaqdan yaranmısan, atəş kimi olma.
Atəş dəhşətli şölə çəkdikdə,
Torpaq əlacsız qalaraq təvazökar oldu.

Ey cavanmərd, cavanmərdlik öyrən,
Dünyanın mərdlərindən mərdlik öyrən.
Kinli [adamlara] qarşı ürəyində kin saxlama,
Dili, pis deyənlərin tənəsindən saxla.
Sənə pislik edənə yaxşılıq et,

O adam ki, pislik edər, özünə edir.
Əgər yaxşılıq etmək qaydası qoysan,
O vaxt sənə yaxşılıqdan başqa bir şey (dost) olmaz (7).

Şah Təhmasib halallığı, təmiz zəhmətlə ruzi qazanmağı və bu dünyanın cazibələrinə çox da bağlanmamağı təlqin edirdi. Onun fikrincə, torpaqdan yaranmış olan hər bir insan həyatını da torpaq kimi təvazökarlıq üzərində qurmalı idi, mərd yaşamaqla kinli insanlardan uzaq olmalı, onların əməllərinin təkrarına meyl göstərməməli idi. Yaxşılıq etməyi, başqalarının köməyinə yetməyi Şah Təhmasib insanlıq üçün ən yaxşı keyfiyyət kimi qəbul edirdi.

Şah Təhmasibin belə mənəvi-əxlaqi keyfiyyətlərə malik olması bir sıra mənbələrdə də öz əksini tapmışdır. Məsələn, Şah Təhmasib tərəfindən Mir Münşi ləqəbini almış Qazi Əhməd ibn Ərəfəddin əl Hüseyni özünün "Xülasət-təvarix" əsərində Səfəvi şahını ədalətli bir hökmdar kimi vəsf edirdi. O bildirirdi ki, Şah Təhmasib dövlət xəzinəsi üçün vəsaitin toplanmasını peyğəmbər şəriətinin normaları əsasında həyata keçirirdi. Yəni bu zaman artıq tamahkarlığa, insanların var-yoxdan çıxmasına razı olmazdı. İslam şəriətinin müəyyənləşdirdiyi normalardan kənar vergilər toplanmasını da Şah Təhmasib düzgün saymırdı və buna imkan da vermirdi. Adı çəkilən müəllif bildirirdi ki, Şah Təhmasib rəiyyətin qayğısına qalırdı, xüsusilə şiə məzhəbindən olan əhali üçün müxtəlif vergiləri bağışlayardı. Bildirilir ki, Şah Təhmasibin hakimiyyəti illərində rəiyyət çox böyük bir qayğı altında idi, əmin-amanlıq şəraitində yaşayırdı. Şah fərmanı ilə kimsə haqsız yerə rəiyyətdən bir tümən pul almış olsaydı, həmin adam 50 tümən cərimə ödəməli idi. Səltənət yollarının və bu yollarla hərəkət edən tacirlərin də təhlükəsizlikdə olduğunu müəllif xüsusilə qeyd edirdi. Bu tacirlərə münasibət, onlardan vəsaitlərin tutulması da yalnız şəriətin müəyyənləşdirdiyi normalar əsasında aparıla bilərdi. Qazi Əhməd Qumi bütünlükdə məmləkət daxilində sənətkarların aram və rahatlıqla öz fəaliyyətləri ilə məşğul olduqlarını bildirirdi və lazımi fitva olmadan kimsə hansısa bir hərəkət etməzdi. Bu müəllif də Şah Təhmasib

hakimiyyəti illərində elm və biliyə xüsusi qiymət verildiyini, alim və fazil insanların səltənət daxilində böyük nüfuz və ehtirama malik olmalarını təsdiq edirdi. Bilik və zəka sahibləri məclislərin yaraşığı idi və onların söhbətlərinin dinlənilməsi, onlarla fikir mübadiləsi aparılması təqdir olunan əməllərdən sayılırdı. Dövlət xəzinəsinə toplanan vəsaitlərin böyük bir hissəsi nəzir-niyaza istiqamətləndirilirdi. Xüsusilə, nüqəddəs məkanların ehtiyaclarının ödənilməsi üçün pul vəsaitlərinin ayrılmasına Şah Təhmasib xüsusi bir səxavətlilik göstərilirdi. Adı çəkilən mənbədə bildirilir ki, o bu məsələyə əvvəlki hökmdarlardan daha artıq diqqət ayırırdı. Xəzinəyə toplanan vəsaitdən hər il İmam Rza kompleksinə, Qumdakı həzrət Məsumənin ziyarətgahına, həzrət Əbdüləzimin ziyarətgahına və Şeyx Səfi türbəsinin ehtiyaclarının ödənməsinə ildə 5-6 min tümən vəsait ayrılırdı. O dövrü üçün bu məbləğ çox böyük məbləğ idi və bu həcmdə olan məbləğin ayrılmasını Şah Təhmasib özünün borclarından biri kimi qəbul edirdi. Şah Təhmasibin bu qayğısı onun etiqadından doğurdu və bununla o həm də insanların öz həyatlarını etiqad və halallıq üzərində qurmasına olan inamını ortaya qoyurdu. Oxşar qayğı həm də Səfəvi hüdudlarından kənarda qalmış müqəddəslərə münasibətdə də göstərilirdi. Xüsusilə şiə müqəddəslərinin ziyarətgahları Şah Təhmasibin daimi diqqəti və qayğısı altında idi və bu ziyarətgahlara da çox böyük məbləğdə vəsaitlər ayrılırdı (9).

Şah Təhmasib səltənət şəhərlərində olan yetim uşaqların tərbiyəsinə və böyüdülməsinə xüsusi bir diqqət yetirirdi. Belə uşaqlar toplanardı və onlar üçün xüsusi müəllimlər tutulurdu. Bu müəllimlərin məvacibi dövlət xəzinəsindən ödənilirdi. Bütünlükdə səltənət şəhərlərində olan yetim uşaqların qayğı ilə əhatə edilməsi üçün həmin şəhərlərə Şah Təhmasibin göstərişi ilə böyük məbləğdə vəsaitlər göndərilirdi. Bu yetim uşaqlar vaxtaşırı dadlı yeməklərlə təmin edilir və onlara Şah Təhmasib tərəfindən bahalı paltarlar hədiyyə olunurdu. Şah Təhmasibin fərmanı ilə belə bir siyasət izlənilirdi ki, hər bir yetim qalmış uşaq diqqət və qayğı ilə əhatə edilsin. Eyni qayğı səltənət daxilində yaşayan seyidlərə də göstərilirdi. Qeyd olunurdu ki, Məşhədin, Qumun,

Səbzəvarın, Qəzvinin və digər şəhərlərin seyidləri bu qayğı ilə əhatə olunmuşdular. Onlar üçün də xəzinədən müəyyən məbləğdə vəsait ayrılırdı və xüsusilə islam müqəddəslərinin mövlud günlərində bu kateqoriyaya aid olan insanlar Şah Təhmasib tərəfindən mükafatlandırılırdı. Şah Təhmasibin qayğısı və diqqəti ilə əhatə olunan insanların sayı səltənət daxilində xeyli çox idi. Bunu Qazi Əhməd Qumi də öz əsərində təsdiq edirdi. Seyidlərdən başqa üləma və fazil insanlar da cümə günləri Şah Təhmasib hədiyyələrini alardılar. Islam biliklərini öyrənən və təbliğ edən və həyatını bu işə bağlayan zəka sahibləri də Şah Təhmasibin diqqətindən kənarda qalmazdı. Bununla həmin insanların ehtiyacları qarşılanar və onlar da elm və bilik sahəsindəki fəaliyyətlərini davam etdirirdilər. İnsanlar üçün gərəkli olan fazillərin və üləmanın qayğı altına alınması ilə Şah Təhmasib həm də səltənət daxilində sağlam işlərin rəvac tapmasını təşviq edirdi və insanları günahlardan, habelə yüngül əyləncələdən çəkindirməyə çalışırdı. Qəbahət işlərin, yüngül əyləncələrin rəvac tapdığı məkanlar Şah Təhmasibin fərmanına əsasən başlanılmışdı. Məlumdur ki, onun fərmanı əsasında şərab içilməsi, musiqinin yayılması da qadağan edilmişdi və bu məsələlərdə Şah Təhmasib həyatının sonuna qədər öz qətiyyətindən üz çevirmədi. Bu qətiyyətin nəticəsi idi ki, Şah Təhmasibin fərmanının pozanlar, onun qadağalarına riayət etməyənlər çox ciddi cəzalara məruz qalırdılar. Adı çəkilən mənbədə Şah Təhmasib tərəfindən islamın yayılmasına və möhkəmlənməsinə də xüsusi diqqət yetirdiyi qeyd olunmuşdur. Gürcüstan və Dağıstan ərazisində xeyli sayda cavanın islam dininə gətirilməsi də Şah Təhmasibin islam dininə olan qayğısının təsdiqi kimi qələmə alınmışdır. İslami dəyərlərə və normalara etiqadda Şah Təhmasib çoxlarına nümunə kimi göstərilirdi. Qazi Əhməd Qumi yazırdı ki, nəfsinə qarşı mübarizə aparmaqda, riyazət və mücahidatda Şah Təhmasib hər bir insanın edə biləcəyindən daha artıq edirdi və bu sahədə islamın böyük şəxsiyyətlərinin yolunu təkrar edirdi (10).

Şah Təhmasib adi insanlara qarşı da son dərəcə rəhmli və səxavətli idi. Qazi Əhməd Münşi yazırdı ki, Şah Təhmasibin il

ərzində payladığı xeyrat və ehsanın ümumi dəyəri 20 min tüməni aşırdı. Onun bu səxavəti Hindistan sərhədindən İrəvana qədər olan ərazidə yaşayanları əhatə edirdi. Müəllif qeyd edirdi ki, cahan tarixçiləri bütün həyatları boyu Şah Təhmasibin gözəl əxlaqından, səxavətli əməllərindən, yüksək mənəvi keyfiyyətlərindən nə qədər yazsalar da, yenə bu işi başa çatdıra bilməzlər. Adı çəkilən müəllif Şah Təhmasibin sərvətinin də çox olduğunu bəyan edirdi. Amma onun yazdığından alınan qənaət budur ki, Şah Təhmasibin başlıca keyfiyyəti sərvət toplamaq deyil, onu xeyirxah işlərə sərf etmək idi (11).

Müqəddəslər və müqəddəs məkanlar xatirinə səltənət miqyasında vergi güzəştlərinin tətbiq edilməsi ilə bağlı Şah Təhmasibin bəzi fərmanları daş kitabələr üzərində yazılar və bununla da bu fərmanlar insanların gözü qarşısında olardı. Şah Təhmasibin səxavətinin və insani qayğısının təsdiqi olan belə fərmanlardan biri Bakının Cümə məscidinin divarlarında daş üzərində yazılmışdır. Bu kitabə bəzi aşınmalara məruz qalsa da onun mətnini oxumaq mümkün olmuşdu. Həmin kitabədə deyilir: "Xoşbəxt hökmdar, üzəngisi asimana çatan Şah Təhmasib əl-Hüseyni – Allah onun hökmranlığını əbədilşdirsin, - daimi hakimiyyəti günlərində zülqədə ayı, doqquz altmış dördüncü ildə (26.VIII – 25. IX. 1557) ali hökm verdi, ondan ötrü ki, Səfəvi dövlətinə tabe olan ölkələrindən həddindən artıq [alınan] malcəhət, vücuhat azaldılsın, onun savabı ali həzrətlər, müqəddəslər 14 məsumənin – onların hamısına Allahın salamı və salavatı olsun – ruhlarına ehsan olaraq verilsin. Bu fərmanı dəyişənlər Allahın lənətinə gəlsin" (12).

Vergi güzəştləri ilə bağlı Şah Təhmasibin fərmanlarından biri də Təbrizdəki Cümə məscidinin mərmər lövhəsi üzərində həkk olunmuşdur. Həmin fərmanda deyilir: "...Bütün məhruzə məmləkətlərin: Azərbaycanın, İraqın, Farsın, Xorasanın, Şirvanın və Gilanın xüsusilə qızıl və gümüş zərbxanalarının əvvəllər yığılmalı olan tamğası ... ləğv olunur. Təbrizin, habelə Ərzrumun və İraqın 3885 tümən 800 dinar məbləğindəki bütün əbvabi-cəmi ləğv edilir" (13)

Şah Təhmasibin bu nəcib mənəvi-əxlaqi keyfiyyətləri haqqında "Təkmilətül-əxbar" əsərində də qiymətli məlumatlar vardır. Əbdi bəy Şirazi bu əsərində Şah Təhmasibin həyat yolunu qələmə alandan sonra onun mənəvi-əxlaqi keyfiyyətlərinə ayrıca toxunmağı qərara almışdı. O da Şah Təhmasibi yüksək və nəcib əxlaqi keyfiyyətlərə malik ədalətli, qabiliyyətli, elm və biliyin layiqli qiymətini verən, səxavəti ilə insanların hörmətini qazanmış bir hökmdar kimi vəsf etmişdir. Əbdi bəy Şirazi şübhə etmiridi ki, bu mənəvi-əxlaqi keyfiyyətlərinə görə Şah Təhmasib özündən əvvəl dünyaya gəlmiş hökmdarlardan daha yüksəkdə dayanırdı. Müəllif Səfəvi şahının yüksək mənəvi-əxlaqi keyfiyyətlərini konkret şəkildə, bəndlərlə xarakterizə etmişdi. Bu bəndlərin bəziləri yuxarıda xatırlanmışdır (IV fəsildə). Həmin bəndlər də daxil olmaqla Əbdi bəy Şirazı əsərinin sonluğunda Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətlərini belə xarakterizə edirdi:

"Zəfər qanunlu, göy üzəngili, müqəddəs qələbəli hökmdar, Allahın kölgəsi əlahəzrət Şah Təhmasibin - allah onun mülkünü, sultanlığını əbədi etsin və insanlara ehsanını bol etsin - başqa keçmiş və hazırkı seçilmiş sultanlarla bəzi xüsusiyyətləri haqqında.

Birincisi – nəsli yüksək Musəvi, Hüseyni, Fatimi və Ələvi ağalarından olduğu üçün hakimiyyətə miras olaraq çatmışdır.

İkincisi – anadangəlmə şiədir. Hakimiyyətdən hakimiyyətə yüksək rütbəli 12-ci imam Əbilqasim Məhəmməd ibn əl-Həsən Sahibəzzamana-ata-babasına daima Allahın salamı olsun-çox bağlı və yaxındır.

Üçüncüsü odur ki, vilayət, hidayət və irşad ailəsindəndir. «Xəbəriniz olsun ki, Allahın tərəfdarları üçün əsla qorxu yoxdur. Onlar məhzun da olmazlar (ayəsinə) əsasən ümid etmək olar ki, şərəfli olan Allah onu hər şeydən mühafizə edər, öz əmanəti kimi qoruyar. Kədər tozu müqəddəs ürəyinin güzgüsünün üstünə oturmasın.

Allaha məlumdur ki, (O,) əksər vaxtlarını əcdadlarının, xüsusilə millət və dinin başçısı, övliyalar sultanı həzrəti Şeyx Musa və pak insanların qütbü, haqqın, həqiqətin və dinin nəsib şeyxi həz-

rəti Səfiəddin İshaqın bütün xarüqüladə adət və kəramətlərini cəm etməyə sərf etdi. Onların heç onda birinin onda birini yaza bilmədi. Həzrəti (Şah Təhmasibin) - hakimiyyəti və sultanlığı əbədi olsun-həddən kəramətli və xarüqüladə adətləri vardır və hamıya məlumdur. Həzrəti Şeyx Səfiəddinin kəramətləri, keyfiyyət və söhbətləri barədə əsərlər yazmışlar və hamıya çatdırılmışdır. Müxalif və müvafiq (olanlar) onu qəbul etmiş və heç kimin şübhəsi yoxdur.

Dördüncü- Elminin mərtəbəsidir. Ağlabatan, söylənilmiş yəqin dini [elmlərdə] o həzrət əvəzsizdir. Xüsusilə təfsir, hədis, kəlam və fiqhdən bir məclisdə söhbət düşdükdə, əgər bir nəfər əlinə qələm və kağız götürüb, o həzrətin xatirində olanlardan söylədiklərini yazsa, ayə, hədis, şahbeyt və dərin mənalardan ibarət həqiqi və dəqiq bir kitabça olar. Fəsahət və bəlağət sahibləri, alimlər və filosoflar ona heyran qalarlar.

Beşincisi - haram şeylərdən çəkinən və pəhrizkardır. Səltənət və qüdrəti sayəsində dünyada hasil olan ləzzətli şeylərdən ürəyi hər nə istəsə, həddən artıq varıdır. Öz zəmanəsinin haram şeylərdən çəkinən və mömin adamlarındandır. «Allah yanında ən əziz olanınız, sizin Allahdan daha çox qorxanınızdır». Buna görə adil və möminlər arasında seçilir.

Altıncısı - Haqla iş görən insaflılığıdır. Sözdə və işdə haqqa zidd olan işlərə əməl etmir.

Yeddincisi - Bu zamanda yaşayanların nahaq qan töküb, yetim malı yeməkdən çəkinmədiklərinə baxmayaraq, o [Şah Təhmasib], qüdrət sahibi ola-ola qan tökməkdən çəkinir. Əgər birinin boynunda onun bir haqqı və yaxud alacağı varsa, o şəxsin vəfatından sonra, baxmayaraq ki, borcu vermək miras məsələsindən qabaqda durur, o [mərhumun] uşaqları həddibuluğa çatana qədər onları narahat edib, öz borcunu istəmir.

Səkkizincisi - Onun tövbəsi və peşman olmamasıdır. Onun qəti tövbə etməsinə nail olmasından 40 il keçsə də, [tövbəni] qoruyub saxlamaq onun mübarək təbiətində və səliqəsində iz qoymuşdur. Bu [tövbə barədə hər hansı bir nöqsana yol verildiyini təsəvvür etmək belə mümkün deyildir. Onun tövbəsinin

bərəkətindən Günəş dünyaya işıq saçdığı kimi, hamı padşahın göstərdiyi yolu qəbul edib. Buna görə bütün xalq onun ədalətli rəhbərliyi altında rahat yaşayır. Onun zamanında o hansı bədbəxtdir ki, fitnə törətsin, lakin layiqincə cəzalandırılmasın və bu (cəza) onun canında qiyamətə qədər qalmasın.

Doqquzuncusu - Camaat və rəiyyətlərlə rəftarının yaxşılığı. Qayda üzrə hər il şərabxana, tiryəkxana, qumarxana, şadlıq evi və fahişəxanadan alınan 50 min tümən tamğa və bac; ölkə maliyyəsinin onda biri və onda birinin yarısı olan savəri kimi keçmi vücuhat və ixracat; ölkə maliyyəsinin onda birinin yarısı olan hazırkı savəri və nozul; özü öz adından məlum olan onda bir rəiyyəti;-onun məxəzi məzkur mal və vücuhatın nəticəsi idi; yenə ölkə malının onda biri olan vücuhi-çerik; İsfahan, Kaşan, Qum və İraqın digər şəhərlərinin peşə və sənət sahiblərindən alınan maliyyənin hamısı, darüssəltənə Təbriz və Darülmülk Şirazdan alınanın yarısı; həmçinin indi yadıma düşməyən küllü və cüzi vergilərin hamısını qəti lənətilə camaata bağışladı. «Artıq hər kim onu (vəsiyyəti) eşitdikdən sonra dəyişərsə, bunun günahı ancaq onu dəyişənin boynunadır» halhazırda rəiyyətlərdən az miqdarda müəyyən olunmuş xərac və yardımdan başqa bir şey alınmır.

Onuncusu - Əlaqəsinin yaxşılığıdır. Hamısı ayağının torpağına and içən müasirləri olan sultanlara yaxşı münasibət bəsləyir. Qonşu [ölkələrin] hakimləri ilə sülhlə dolanar, əhd və peymanlara sozsuz əməl edərdi. Buna görə heç kimdə ona qarşı çıxmağa bir əsas yox idi. Əmirləri və qoşunları ilə ata-babalarının qoyduğu sufilik yolu ilə - insaf və ədalətlə rəftar edir. Əgər bir nəfərdən bir alçaqlıq baş verirsə, əgər mümkünsə, sufilik yolu ilə [günahından] keçir. [Özündən əvvəlki] yüksək məqamlı adamlar kimi xəlifələr təyin edir. Başqa rəiyyətlərlə ancaq şəriətə əsasən rəftar edir. Onun danışığı o dərəcədə eyibsizdir ki, dilindən heç vaxt söyüş eşidilməmişdir. Yalandan o qədər çəkinir ki, əkər bir sözdə yalan şübhəsi olsa, onu dilinə gətirməz.

Qərarlaşdırılmışdır ki, hər kəs sözündə sadiq olsa, onun [gördüyü] yuxular çin olar. Buna görə o həzrətin yuxuları çindir (doğrudur). Çox vaxt günahsız imamlar, peyğəmbərlərin ağası

(yəni Məhəmməd peyğəmbər) və özünün adlı-sanlı ata-babaları qeybdən ona xəbər verir və necə hərəkət etməyi buyururlar. Qadağan olunmuş şeylərdən tövbə etmək, tamğanın (verginin) bağışlanılması, Təbriz şəhəri (əhalisinin) siyasi şıltaqlıqlarının [bağışlanması] - bunlar hamısı o həzrətin yaxşı əməllərindən nümunələrdir.

Xeyriyyə, sədəqə, bəxşiş, hədiyyə, ehsan, kömək, təqaüd, nəzir və s. bu kimi işləri o qədər çox etmişdir ki, onları yazmaq imkan xaricindədir. Ölkənin yetimləri, fəqirləri və miskinlərinə yaxşı müəllim təyin etmişdir. Hər il orusluğun xərcinin hamısını bir yerdə verir ki, dini elmlər (daha doğrusu, qayda-qanun) inkişaf edib, itaət və ibadət artsın. Bunlar hamısı [gözəl] xasiyyət, kərəm və mərhəmətdir.

Onbirincisi - Ağıl və tədbiri. Bütün ağıllı adamlar onun [dövləti] idarə edilməsindəki tədbirlərini etiraf edirlər. O həzrətdən dövlətin bu günlərində ruzgarın arzusu ilə etdiyi dəyişikliklərin bəziləri bu qəbildəndir. Nəhayət, [onların] nəticəsi meydana çıxdı. O, elə bilirdi ki, etdikləri xətaya qarşıdır. Bunun təhqiqi ancaq allaha məxsusdur.

Onikincisi - Şücaətdir. Bu zamanda heç bir insan övladında onda olan ürək və cəsarət yoxdur. Bu iddianın həqiqiliyinə o həzrətin etdikləri bir əhvalatdır ki, onlar [əsərdə] yeri gəldikcə qısa şəkildə yazılmışdır. O cümlədən olan hadisələrdən onun uşaqlıq vaxtlarında hakimiyyət iddiasında olan əmirlərin ixtilaflarıdır. O həzrətin qardaşlarından hər biri, xüsusən, o gecə ki, Sam mirzə Hüseyn xanın əlindən tutmuşdu (yəni, güvənmişdi) və Hüseyn xan böyük bir ordu ilə onun dövlətxanasının üstünə hücum çəkmişdi və Cuhə sultan divanxananın qarşısında öldürülmüşdü - o həzrət tək-tənha divanxananın qapısı qabağında dayanıb, üsyançılara qarşı göstərişlər verirdi.

Başqası, Cam müharibəsi zamanı özbəklərin bütün sultan və xaqanları əmr etmişdilər, sağ və sol cinahların əmirləri möhkəm dayanmışdılar. O həzrət (Şah Təhmasib) sağlam ürəklə ordunun ortasında möhkəm durmuşdu. O həzrətin ətrafında və qarşısında dayananlar onu qoruyurdular. Onunla həmrah olan adamlarla

düşmənlərin mərkəzinə hücum etdi. Hüneyn davasında həzrəti [Məhəmməd] peyğəmbər və Əmirəl-möminin [Əlinin] - Allahın onlara salamı olsun - etdikləri kimi etdilər.

Başqası, sultan Bayəzid ibn sultan Süleyman - hamısı hökumət iddiasında olan 10 min silahlı süvari ilə - sığınma pərdəsi altında xidmətinə gələn gün o həzrət silahsız Qəzvin Səfərabadının yeni meydanının ortasında bir əsaya söykənmiş halda təmkin və mətanətlə dayanmışdı. Məzkur sultan [Bayəzid] o süvari camaatla çatıb, [atlarından) düşdülər. Əmirlərindən 3-4 yüz nəfər igidlə meydanın daxilinə gəlib, (Şah Təhmasibin) ayağını öpdülər.

Onun (Şah Təhmasibin) tərif və əxlaqının [gözəlliyi] saysız hesabsızdır. On iki [rəqəmi] xoş əlamət olduğu üçün biz bu on iki xasiyyəti qeyd etməklə o həzrəti ruzgarın keçmiş və indiki sultanları və xaqanlarından qısa şəkildə fərqləndirdik və «Kəraim asare» sözlərini [maddeyi] tarix yazdıq. İlahi, bizə Sahibəzzamanı görməyi qismət elə. Ona (yəni Əbdi bəyə) və onun ata-babalarına Allahın salamı olsun. Pərvərdigara, onu allahın və onun əhlinin (yəni, Məhəmməd peyğəmbərin) xatirinə bədbəxt hadisələrdən qoru" (14).

"Tarix-e elçi nizam şah" əsərində də Şah Təhmasibin zəngin mənəvi-əxlaqi keyfiyyətlərə malik olması öz əksini tapmışdır. Bu əsərdə də Səfəvi şahının dövrünün ədalətli hökmdarı olması, səxavət və şücaətdə digərlərindən fərqlənməsi, fəzilət və mərhəmət sahibi olması kimi gözəl keyfiyyətləri xüsusilə qabardılmışdır. Qeyd olunur ki, hətta taxt-tac da onun varlığından rövnəq almışdı, hakimiyyəti ilə elə bir səltənət yarada bilmişdi ki, onun siyasəti nəticəsində böyükdən kiçiyə hər kəs əmin-amanlıq içərisində yaşamaqla asudə həyat sürürdü və bu insanlar hər zaman onu təşəkkür və minnətdarlıqla xatırlayırdılar. Başqa sözlə, belə bir fikir irəli sürülürdü ki, insanlar onun şahlığından çox razı idilər, onun qayğısı altında hər kəs öz həyatını qura bilmişdi. Ona görə də Şah Təhmasib səltənət əhlinin böyük rəğbət və sevgisini qazanmışdı. Adı çəkilən əsərin müəllifi Şah Təhmasib haqqında öz fikrini ümumiləşdirərək belə bir qənaətə gəlirdi ki, səltənətlər tarixində heç zaman öz hökmdarlıq keyfiyyətinə, dini etiqadına

görə Şah Təhmasibə bərabər olacaq bir hökmdar səltənət taxt-tacına sahib olmamışdı və heç bir şah da Şah Təhmasib kimi rəiyyətinə qarşı belə ədalətli olmamışdı. Yəni Şah Təhmasib dövrünün son dərəcə ədalətli bir şahı kimi xarakterizə olunurdu və onun bu keyfiyyəti həm də onun dini etiqadı ilə əlaqələndirilirdi. Xüsusilə, Şah Təhmasibin məzhəb etiqadı və məzhəb dəyərlərinə bağlılığı bu əsərdə də ayrıca qeyd edilmişdir. Məlumata görə, bir tərəfdən onun bu etiqadı insanlar arasında bir etiqad meyarına çevrilmişdi, digər tərəfdən də Şah Təhmasibin etiqad bağlılığı və paklığı dövrünün söz ustalarının da ən yaxşı əsərlərinin mövzusuna çevrilmişdi. "Tarix-e elçi nizam şah" əsərində belə söz nümunələrindən parçalar da verilmişdi. Bu əsərdə də seyidlərin, fazil və arif insanların, alimlərin Şah Təhmasibi hakimiyyəti dövründə hər cürə qayğı ilə əhatə olunduğu, onların səltənətin hörmətli və nüfuzlu insanlarına çevrildiyi, bu insanlara keçmişlərdə olduğundan daha yüksək dəyər verildiyi öz əksini tapmışdır. Bildirilir ki, Şah Təhmasib özü də vaxtının çoxunu belə fazil və arif insanlarla söhbətlərdə keçirərdi, Səltənət əhlinin bir çox hallarda vergilərdən azad edilməsi də Şah Təhmasibin insanlara qayğısı və səxavəti kimi qeyd edilmişdir. Bildirilir ki, Şah Təhmasib hicri qəməri 972-ci ildə (1574-1575) ildə səltənət hüdudlarına gəliş-gedişin asanlaşdırılması üçün xüsusi fərman imzaladı. Həmin fərmana əsasən, tacirlərin səltənət daxilinə səfərləri, onların ticarət mallarının səltənət şəhərlərinə gətirilməsi hər cürə vergi və gömrük haqqından azad edildi və uzaq ölkələrdən tacirlər və adi insanlar Səfəvi sərhədlərini keçərkən heç bir ödənc vermir və azad surətdə səltənət daxilində öz işlərini görə bilirdilər. Belə bir fərmanın verilməsi ilə sadəcə olaraq tacirlərin və müsafirlərin işləri asanlaşdırılmadı, həm də ölkə xəzinəsi ciddi gəlir mənbələrinin birindən məhrum oldu. Yəni Şah Təhmasib insanların həyatının yaxşılaşdırılmasını öz xəzinəsini doldurmaq ehtirasından daha üstün tuturdu. Adı çəkilən əsərin müəllifi Xurşah ibn Qubad əl-Hüseyni Şah Təhmasibin bu keyfiyyətləri haqqında söz açandan sonra dua edirdi ki, onun hakimiyyəti davamlı və əbədi olsun (15).

“Fəvayed-e Səfəviyye” əsərinin müəllifi Əbdülhəsən Qəzvini də Şah Təhmasibin nəcib mənəvi-əxlaqi keyfiyyətlərə malik olmasını xüsusi bir şövqlə təsvir etmişdir. O da Şah Təhmasibi dövrünün həm şücaətli, həm də ədalətli bir hökmdarı kimi xarakterizə etmişdir. Müəllif qeyd edirdi ki, Səfəvi şahı fəzilət və kamal sahibi idi, öz fərqli keyfiyyətləri ilə şahlıq taxt-tacına bir zinət gətirmişdi, haqq və ədaləti qoruduğu üçün insanlar tərəfindən dərindən sevilirdi. Bildirilir ki, Şah Təhmasibin hakimiyyəti illərində böyükdən tutmuş kiçiyə qədər hamı rahat həyat içində yaşayırdı. Bu əsərdə də Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətləri haqqında yuxarıda söylənilən fikirlərin oxşarına rast gəlmək mümkündür. Əbdülhəsən Qəzvini də Şah Təhmasibi özündən əvvəlki şahlardan həm idarəçilik, həm mənəvi-əxlaqi keyfiyyətlərinə görə, həm də etiqadına görə fərqləndiyini və ən insani cəhətləri özündə birləşdirdiyini qeyd etmişdir. Müəllif Şah Təhmasibin səxavətliliyinə, insanlara qarşı qayğıkeşliyinə və digər keyfiyyətlərinə də toxunmuş və bununla Şah Təhmasibin simasında ədalətli, qabiliyyətli, etiqadlı, səxavətli bir şahın təsvirini öz oxucularına çatdırmışdır (16).

“Əhsənüt-təvarix” əsərinin müəllifi də Şah Təhmasibin xarakterinin bəzi xüsusiyyətləri haqqında müxtəsər qeydlər etmişdir. Həmin qeydlər belədir: “O həzrətin gəncliyinin əvvəlində xətt yazmağa və naqqaşlığa böyük həvəsi vardı. Ondan başqa, Misir eşşəklərinə minirdi və eyni zamanda nizə oynatmaqla məşğul olurdu. Ona görə də eşşəkləri qızıl yəhərlər və zərbafta yüyənlərlə bəzəyirdi. O səbəbdən Buqüleşq bu beyti demişdir:

“Nə gözəl tərəqqi etdilər bi-şəkk,
Katib, naqqaş, qəzvinli, bir də eşşək”.

Kamillik əyyamında isə səhərdən axşama kimi dəftəri qarşısına qoyub mülk (dövlət) işləri ilə məşğul olurdu və işlərin xırdalıqlarının hamısına şəxsən özü nəzarət edirdi. Belə ki, vəkillər və vəzirlər o həzrətdən izinsiz kimsəyə bir fəls (xırda mis pul) belə verə bilməzdilər. O həzrətin qaydası belə idi ki, bir gün dırnağını tutardı, digər bir gün isə səhərdən axşamacan hamamda olardı. ... özünün yarımçıq yeməyini suya və oda atardı, məclis-

lərdə yemək yeməzdi və şərab içməmək qaydasına böyük bir ifratla riayət edərdi. Təqribən beş yüz tümənlik saf tiryəki suda məhv etdirmişdi, cəmi ləzzətləri tərk etmişdi və təxminən iyirmi il [ata] minməmişdi. Əsərlərindən (quruculuq işlərindən): Tehrandakı qala divarı; İmam Rzanın müqəddəs Məşhədinin qala divarı; Qəzvin şəhərində yerləşən dövlətxana; həmçinin bu şəhərdə əla hamamlar tikdirmişdir; Təbriz şəhərində yerləşən bir məscid; Zəncanla Sultaniyyə arasında bir ribat bina etmişdir. Onun görkəmi uca boylu, uzunsov üzlü, əlləri uzun, çöhrəsi sarı və saqqalı tamam ağ idi. O həzrətin əyyamında rəiyyətin rifahı nəhayət dərəcəsinə çatmışdı. O həzrət əksər zamanlarda ölkəyə daruğa göndərməzdi. Ona görə də hər gün avam camaat arasında dava-dalaş olurdu. Qızılbaş qoşunu ona o qədər etiqad bəsləyirdi ki, on dörd il onlara məvacib verməsə də, heç kəs şikayət etmirdi və cidd-cəhdlə xidmət göstərirdilər" (17).

Mövcud olan məlumatlara görə, Şah Təhmasib uşaqlıq dövründə eşşəyə minməyi xoşlayardı. Yuxarıdakı beytdə də dolayısı yolla buna işarə edilmişdir (18). Həsən bəy Rumlunun qeydlərindən o da aydın olur ki, Şah Təhmasib səltənət daxilində baş verən bütün prosesləri ciddi nəzarət altında saxlayırdı Ona görə idi ki, səltənət daxilində asayişi təmin etmək mümkün olmuşdu. "Əhsənüt-təvarix" əsərində Şah Təhmasibin 20 il ata minməməsi və on dörd il ərzində qoşunlara məvacib verməməsi məqamına da toxunulmuşdur. Səfəvi şahının ata minməməsi çox güman ki, onun həyatının son dövrünə aid ola bilərdi. 1555-ci ildə Osmanlı dövləti ilə Amasiya razılaşması əldə ediləndən sonra müharibə təhdidləri də aradan qalxmışdı. Onun yalnız hakimiyyətinin və həyatının son illərində Qəndəhar ətrafında döyüş baş vermişdi ki, həmin döyüşdə də Şah Təhmasibin iştirakına ehtiyac yox idi. Heç şübhəsiz ki, Şah Təhmasibin 20 il ərzində ata minməməsi deyiləndə məhz onun döyüşlərdə iştirak etməməsi nəzərdə tutulmuşdur. Bu fikrin birbaşa mənada qəbul edilməsi yəqin ki, doğru olmazdı. Məlumdur ki, Şah Təhmasib səltənət daxilində yerdəyişmələr edirdi, yaylaq və qışlaq düşərgələrində olurdu. Mümkün deyildi ki, bu vaxt o ata minməsin. Bundan başqa Şah Təhmasib

tərəfindən qoşunlara məvacib verilməməsi məsələsi də yəqin ki, onun həyatının son dövrünə aid ola bilərdi. Yəni ölkənin müharibələrdə iştirak etməməsi, dinc dövrün bərqərar olması qoşunların fəaliyyətinə olan ciddi ehtiyacı da aradan qaldıra bilərdi. Digər tərəfdən çox güman ki, qoşunlara hansısa bir formada ödənc verilirdi və qoşun əhli də rastlaşdıqları vəziyyətlə razı idilər. Yoxsa qoşunla Şah Təhmasib arasında şikayətli hal yəqin ki, böyük olardı.

"Cəvahürül-əxbar" əsərinin müəllifi Budaq münşi Qəzvini isə Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətlərini belə təsvir edirdi: "...onun vəkilləri, vəzirləri, mustövfiləri və başqa məmurların haqqını bir karat belə azaltmağa, yaxud artırmağa imkanları qalmırdı. O, həftəni elə bölürdü ki, hər gün müəyyən iş görülsün. Sədrlər, qazilər və fəqihlər işlərə şəriətlə baxmaq üçün daim hazır olurdular. Onun fərmanı ilə dəftərxanalarda hesablanan bütün məsariflər (ixracat-i hükmü) ləğv edildi. O, hər il təqribən 80 min tümənə çatan vilayətlər üzrə tamğanı onlara güzəşt etdi, rəiyyətdən 10-20 illik vergini almaqdan imtina etdi. Bir sözlə, rəiyyət belə dinclik və əmin-amanlığı heç vaxt görməmişdi. Və əgər hər hansı bir rəiyyət saraya hakimdən şikayət edərdisə, sonuncu şikayətə baxıldıqdan sonra vəzifədən azad edilirdi" (19). Bu sətirlərdən sonra Budaq Qəzvini bəyan edirdi ki, Şah Təhmasib Osmanlı, hind və özbək hakimlərinə göndərilməsk üçün münşilərin hazırladıqları məktubları oxuyar, onlara əli ilə öz düzəlişlərini edərdi. O da bildirilir ki, Şah Təhmasibin çox güclü yaddaşı var idi. Bunun nəticəsi idi ki, Şah Təhmasib sarayın bütün əyanlarını adı ilə tanıyırdı, onun xidmətində olan minlərlə qorçu, yasovulu mühafizəçi və digərləri haqqında müfəssəl məlumata malik idi .

"Xolde-bərin" müəllifi Valeh İsfahani də Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətlərinin şərhinə kifayət qədər geniş yer ayırmışdır. Bu müəllif də bütünlükdə Şah Təhmasibi yüksək idarəçilik qabiliyyəti olan, haqq-ədaləti öz fəaliyyətində əsas tutan etiqadlı bir hökmdar kimi xarakterizə etmişdir. O yazırdı ki, Şah Təhmasib bir günəş kimi digər hökmdarlar arasında seçilirdi

və səltənət idarəçiliyində onun hətta digərlərindən üstün olduğu vurğulanırdı. Müəllif qısaca olaraq Şah Təhmasibin xarici görkəminə də toxunmuşdur. Bununla bağlı onun verdiyi təsvir "Əhsənüt-təvarix" əsərindəki təsvirlə oxşarlıq təşkil edir. Bu əsərdə də Şah Təhmasıbın səltənət daxilində asayişin yaradılması sahəsindəki xidmətlərinə toxunulur və bunun da insanların həyatında rahatlığa yol açması qeyd olunurdu. Adı çəkilən əsərdə Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətlərindən söz açarkən onun ədalətpərəst olması, öz əyanlarının və əmirlərinin haqqını qoruması və eyni zamanda əyan və əmirlərin də rəiyyətə qarşı haqsızlıqlara yol verməməsini istəməsi, günah işlərdən və yüngül əyləncələrdən uzaq olması, səltənət daxilində daha sağlam həyat mühitinin yaradılmasına çalışması və digər keyfiyyətlərə malik olması xatırlanmışdır. Müəllif tərəfindən müxtəsər şəkildə Şah Təhmasibin hərbi keyfiyyətlərinə də toxunulmuşdur. Bu mənada Şah Təhmasibin hakimiyyətinin ilk illərində qızılbaş tayfaları arasındakı qarşıdurmanı aradan qaldırması, Cam ətrafında özbək qoşunlarına qarşı böyük uğur qazanması, Osmanlı qoşunlarının dörd dəfə həyat keçirdikləri hərbi yürüşlərin qarşısında iradə nümayiş etdirməsi də təqdir olunacaq hadisələr kimi dəyərləndirilmişdir. Səltənətin müdafiə edilməsi, daxili parçalanmaların qarşısının alınması sahəsində Şah Təhmasibin nümayiş etdirdiyi əzmkarlıq da onun mənəvi-əxlaqi keyfiyyətlərinin müsbət tərəfi kimi xarakterizə edilmişdir. Bu əsərdə də bildirilir ki, həm xarici, həm də daxili təhdidlərin qarşısını aldıqdan sonra Şah Təhmasib özü də təxminən 20 ilə yaxın daha dinc və sakit bir şəraitdə hökmdarlıq edə bilmişdi. "Əhsənüt-təvarix" əsərində olduğu kimi, "Xolde-bərin"də  də qoşun əhlinin uzun müddət məvacib almadığı bildirilir. Lakin o da qeyd olunur  ki, Şah Təhmasibin hakimiyyəti illərində qoşunların və rəiyyətin rifahı ən yüksək səviyyədə idi, onlar çox böyük istəklə şaha xidmət etməyi arzulayırdıar və hətta şahın onların xidmətindən razı qalmasını öz həyatlarından belə üstün tuturdular. Adı çəkilən əsərdə Şah Təhmasibin yuxarıda xatırlanmış mənəvi-əxlaqi keyfiyyətlərinə də toxunulur və bildirilirdi ki, etnik mənsubiyyətindən, yaşından,

cinsində, həyatdakı mövqeyindən asılı olmayaraq bütün insanlar Şah Təhmasibin hakimiyyəti illərində razı olduqları bir həyatı yaşayırdılar (20).

İstər "Əhsənüt-təvarix" əsərində, istərsə də "Xolde-bərin" əsərində qoşun əhlinin uzun müddət məvacib almaması ilə bağlı məsələyə yuxarıda qeyd edildiyi kimi, venesiyalı tacir Vinçenso Alessandrinin xatirələrində olan bir fikir müəyyən aydınlıq gətirə bilər. Bu səyyah xatirələrinin bir yerində belə yazırdı: "O, yalnız krallığın ən yaxşı və ən gözəl kişilərdən seçilən, onun cangüdənləri kimi fəaliyyət göstərən, qorçu adlı, sayı 5 min olan döyüşçülərinə pul verməyə borclu olduğundan xəzinənin xərcləri çox azdır. O, hətta onların məvaciblərini pulla vermir; onun fikrincə, onların maaşlarına uyğun geyim və atlar verərək, buna qiymətli şeylər əlavə etmək bəs edər" (21).

Bu məlumatdan belə bir qənaət əldə etmək olar ki, söhbət bütün qoşunlardan deyil, daha az sayda olan daimi qoşun dəstəsindən gedir. Digər tərəfdən isə göründüyü kimi, bu qoşun dəstəsinin məvacibi başqa vasitələrlə ödənirmiş. Onların arasında qiymətli daşların və metalların olması da istisna deyildir. İstənilən halda haqqında danışılan qoşun əhli heç də çətin maddi duruma düşməmişdi. Şah Təhmasibin idarəçilik və mənəvi-əxlaqi keyfiyyətləri də yəqin ki, buna yol verməzdi.

"Tarix-i aləmara-yi Abbasi" əsərinin müəllifi İsgəndər bəy Münşi də öz əsərində Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətlərini yüksək dəyərləndmişdir. Bu əsərdə də Şah Təhmasib dərin etiqadlı, bacarıqlı, qətiyyətli, ardıcıl və ədalətli bir hökmdar kimi öz qiymətini almışdır. Bütünlükdə, Şah Təhmasibin hakimiyyəti dövrü insanların rifah və rahatlıq içərisində yaşadığı bir dövr kimi xarakterizə edilmişdir. Səfəvi şahının dünyasını dəyişməsini günəşin üzünün tutulması kimi qələmə alan İsgəndər bəy Münşi onun mənəvi-əxlaqi keyfiyyətləri bağlı fikirlərini isə belə açıqlayırdı: "Elə bir üstün xüsusiyyətli günəşin üzü tutuldu ki, dünya adamları onun ümumi qayğısından rahatlıq və asudəlik kamına qovuşmuşdular və elə bir görkəmli ay yox oldu ki, onun nurlu rəyinin şüalarından cahan asayiş və sabitlik işığına bürünmüşdü.

O dövran yeganəsinin xoşagəlimli vəsllərini yazmaqla qurtaran deyil. Hərçənd dəftərin əvvəlki hissələrində qələmin dili ilə bu barədə bir icmal bəyan olunmuşdur, lakin bu məqamda da o mübarək şəxsin bəyənilmiş cəhətlərindən cüzi bir qismini qeyd etmək vacibdir.

Uzun sözün qısası, o həzrət öz hökmranlığı əyyamında nə vaxt ki, səltənət və ölkə idarə etmək işlərindən rahatlıq tapıb asudə olurdu, şərəfli vaxtını ehtiyac sahiblərinin işlərini nizama salmağa və onların mətləblərini, məqsədlərini yerinə yetirməyə sərf edirdi. Onun parlaq şəriətə rəvac verməyə, üləmaya qayğı göstərməyə, ibadət sahiblərinin və iman əhlinin ehtiramını saxlamağa, dini mərkəzlərin, mədrəsələrin və xeyriyyə məkanlarının («büqa əl-xeyr») intişar tapmasına və rövnəqlənməsinə və məscidlərin təmir edilməsinə böyük həvəsi vardı. Həmişə «əmri-məruf» və «nəhyi-münkər» kimi dini məsələlər onun nurlu şəxsiyyətinin nəzər-diqqətində idi. Belə ki, o, dürüst niyyətlə və etiqad gözəlliyi ilə gəncliyinin çiçəklənən vaxtında, cavanlığının cücərən dövründə və ətrafında nəfsani ləzzətlər ola-ola, asimani bir yardımla tövbə etmək arzusuna düşüb, mübarək cülusundan doqquz il keçdiyi və iyirmi yaşında olduğu 939-cu ildə (03.08.1532 - 22.07.1533) sədaqət dili ilə «Allah qarşısında tövbə edirəm» kimi xoşagələn kəlməni söylədi və səmimi-qəlbdən bütün günahlardan tövbə edib, mənəvi cəhətdən o qədər sağlamlaşdı ki, tövbəni pozmaq heç vaxt xəyalından keçmədi. şərəbxanaların, qumarxanaların və əxlaqsızlıq yuvalarının adlarını dəftərlərdən silib atdılar. Get-gedə qızılbaş tayfalarının bütün əmirləri o həzrətə müvafiq olaraq, tövbəyə rəğbət göstərdilər və 963-cü ildə (16.11.1555-03.11.1556) böyük əmirlər və səadətli sarayın mülazimləri günahlardan əl çəkdilər. Şəriətə zidd olan pis əməllər bütün məmləkətlərin və şəhərlərin camaatına qadağan olundu. Bu əhvalatın qəribəliyi üzündən «toubət-i nəsuhan» («səmimi tövbə») sözləri [əbcəd hesabı ilə] bu hadisənin tarixinə müvafiq gəldi. Xülasə, o həzrətin bəxtəvər hakimiyyəti zamanında Allahın xəlq etdikləri və bəndələri möminliyi və pəhrizkarlığı öz həyat tərzlərinə və şüarlarına çevirərək, Allaha itaət və

ibadət etməklə yaşayırdılar. [Şah Təhmasib] «əmri-məruf» və «nəhyi-münkər» kimi dini məsələləri xeyli inkişaf etdirərək, qissəxanlara və mərəkəgirlərə hər hansı bir fırıldaq əlamətinə malik olan işlərdən əl çəkməyi buyurmuşdu. O, həmçinin «xasseyi-şərifə» sərkarının ixtiyarında olan beş yüz tümən dəyərində yüksək keyfiyyətli tiryəki haram olduğu üçün axar suya atdırmışdı. On dörd məsum həzrətlərinin - onlara salam olsun - hər birinin mövludu münasibəti ilə müəyyən bir məbləğ nəzir verirdi və hər il mövlud pulunu şiəliyi dəqiq olan böyük seyid təbəqələrindən birinə verirdi ki, onlar arasında bölüşdürülsün. Böyük və mötəbər şəhərlərin əksəriyyətində həmin şəhərin binəva kişi və qadın füqəralarına və möhtaclarına təsəddüq çörəyi adlanan qida verilməsini əmr etmişdi. Şiə şəhərlərində, xüsusən də müqəddəs və ulu Məşhəddə, Səbzəvarda, Astarabadda, Qumda, Kaşanda, Yəzddə, Təbrizdə və Ərdəbildə qırx nəfəri kişi cinsindən və qırx nəfəri qadın cinsindən olan yetimlərin geyimləri və ehtiyacları təmin olunur, şiə məzhəbli pəhrizkar müəllimlər və müəllimələr və doğru şüarlı xidmətkarlar təyin olunaraq, onlar tərbiyə edilir və onlardan hansısa biri həddi-buluğa çatdıqda digəri ilə əvəz olunur, onun yerinə yetkinlik yaşına çatmamış birisi gətirilirdi. Məmləkətin rəiyyətlərinin və ölkə yollarından istifadə edənlərin ödədikləri vergilərin yüngülləşdirilməsi istiqamətində atılan addımlardan ən önəmlisi yol tamğası vergisinin ləğvidir. Bu vergi keçmiş sultanlar zamanında sürəklilik qazanmışdı, tacirlərdən və zəngin yol adamlarından alınırdı və hər il [bu vergidən] otuz min tümən İraq şahisi məbləğində vəsait hasil olunurdu. Bir dəfə [Şah Təhmasib] yuxuda ikən Həzrət Sahib əz-Zamanı - ona Allahın salamı olsun – gördü və röya aləmində ondan bu [vergini ləğv etmək] barədə göstəriş aldı. Bunun nəticəsində 972-ci ildə (09.08.1564 -28.07.1565) tacirlərdən və yol adamlarından bu verginin alınması dayandırıldı, tamğaçıların əli-ayağı məmləkətdən yığışdırıldı və bu vergidən heç bir əsər-əlamət qalmadı.

... Mali-möhtərifə, məvaşi və mərai kimi vergilər məmləkətin əksər yerlərində, xüsusi ilə də şiələrin məskun olduqları mahallarda rəiyyətin üzərindən götürülüb, dəftərlərdən silindi. Gö-

zəl əməllərinin bərəkəti səbəbindən [Şah Təhmasibin] hakimiyyəti zamanı əlli dörd il sürdü. O, bu müddəti xoşbəxtlik və səadətlə keçirdi. İslam dövründə [o vaxtadək] Müstənsir Billah Ələvidən başqa heç bir padşah əlli dörd il hökmranlıq etməmişdi. [Şah Təhmasibin] səadətli hakimiyyəti dövründə hərbçilər və rəiyyət rahatlıq və asudəlik kamına qovuşmuşdular. Səltənətin bütün işlərinə elə bir nizam-intizam verilmişdi ki, indiyədək İran ərazisində bu cür idarəetmədən irəli gələn məsələlər nümunə və qanundur" (22).

İsgəndər bəy Münşi əsərində Şah Təhmasibin yetim uşaqlara olan diqqətini də onun yüksək mənəvi-əxlaqi keyfiyyəti kimi dəyərləndirirdi. Şah Təhmasibin bu məsələyə ciddi diqqət yetirdiyini onun Ayinnaməsindən də görmək mümkündür. Səfəvi şahı həmin Ayninamənin 65-66-cı bəndlərində bütün əyanlardan, əmirlərdən, vilayət hakimlərindən və məmurlarından tələb edirdi ki, yetim uşaqlara qarşı diqqətli olsunlar, onları qayğı ilə əhatə etsinlər. Belə uşaqların əsas xərcləri isə dövlət xəzinəsi hesabına ödənməsini Şah Təhmasib öz üzərinə götürürdü.

"65. Əgər səltənətin hər hansı bir şəhərində və kəndində bir yetim uşaq qalmış olsa və onun bir qohumu olmasa onun tərbiyəsi təmin edilsin. Əgər o, kiçikdirsə ona dayə təyin olunsun və uşaq dayəyə tapşırılsın ki, o da uşağı tərbiyə etsin. Yuxarı yaşa çatanda oğlan uşağı üçün bir əməli saleh müəllim, qız uşağı üçün isə ismətli dul qadın müəllim təyin edilsin, yetimlər onlara tapşırılsın, onların təlim-tərbiyəsi aparılsın. Oğlan uşağı münasib sənət və peşə öyrənmək istəsə gündüz bu işlə məşğul olub gecə müəlliminin yanına gəlsin. Həddi-büluğa çatanda isə oğlan uşağı bir xanımla nikah edilsin. Hər ilin novruzunda uşağa və onun müəlliminə iki dəst təzə paltar, qışın başlanğıcında isə bir dəst qış paltarı verilsin;

66. Onların (yetim uşaqların) toyu zamanı həyat ehtiyaclarının ödənməsi üçün hər şey ali divan hesabına ödənsin – yetim uşaqların sayı bir nəfər də olsa, yüz nəfər də olsa. Ona görə də hər bir şəhərin kələntəri və hakimləri deyiləni icra edib hər il onların (yetim uşaqların) adlarını saraya təqdim etsinlər" (23).

Qeyd edilməlidir ki, Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətlərini başqa müstəvidə dəyərləndirən müəlliflərə də rast gəlmək mümkündür. Elmi-tarixi ədəbiyyatda da belə mövqedə dayanan müəlliflər vardır. Əslində, belə mövqelərin və dəyərləndirmələrin işıq üzü görməsi müəyyən mənada məqsədyönlü şəkildə qarşıya qoyulmuş niyyətdən də doğa bilərdi. Belə hallarda Şah Təhmasibin hakimiyyəti illərində səltənət miqyasında cərəyan edən proseslərə xas olan ümumiləşdirmələrdən daha çox ayrı-ayrı qeyri xarakterik məqamlar qabardılır və bununla da bütünlükdə Şah Təhmasibin hakimiyyətinin xarakteri və o cümlədən də onun mənəvi-əxlaqi keyfiyyətləri haqqında tam olmayan təsəvvür yaradılır. Bu zaman da Şah Təhmasib haqqında mötəbər mənbələr deyil, şərq həyatının mahiyyətini bütünlüyü ilə qavrayacaqları şübhə doğuran avropalı səyyahların xatirələrinə daha çox istinad olunur. Belə müəlliflərdən biri də venesiyalı tacir Vinçenso Alessandridir. Onun xatirələrində sözsüz ki, dəyərli faktların olduğunu da inkar etmək olmaz. Ancaq bu müəllifin qeydlərinin hamısının birmənalı şəkildə qəbul edilməsi də yəqin ki, doğru olmazdı. Hətta adi müşahidə ilə də Vinçenso Alessandrinin Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətləri haqqında yazdıqlarında bir digərini təkzib edən faktların olduğunu da görmək mümkündür.

Vinçenso Alessandri öz xatirələrində Şah Təhmasib haqqında yazırdı: “64 yaşında və hakimiyyətinin 51-ci ilində olan kral [Şah Təhmasib nəzərdə tutulur – S.M.] qaraqabaq sifətinə, qalın dodaqlarına və çal saqqalına baxmayaraq, ortaboylu olaraq, yaxşı qamətə və üz cizgilərinə malikdir. O, bir çox əlamətlərindən, başlıca olaraq, onun 11 il ərzində öz sarayını tərk etməməsindən, ova və nə də digər əyləncələrə bir dəfə də olsun getməməsindən göründüyü kimi, daha çox bədbin təbiətə malikdir. Bu ölkənin adətinə görə, kralı görmədikdə onlar çox çətinliklə öz şikayətlərini bildirə bilirlər və məhkəmə qərarlarında səsləri yoxdur. Beləliklə, gecə-gündüz bəzən min, bundan çox və ya az, onlar sarayın qarşısında ədalət tələbi ilə bərkdən qışqırırlar. Kral bu səsləri eşitdikdə, onların qovulmasını əmr edir və deyir ki, ölkədə

ədaləti həyata keçirməli olan səlahiyyətli qazılar vardır. O, nəzərə almır ki, bu qışqırıqlar adətən küçələrdə adamları qətlə yetirmək üçün onları güdən zalım qazı və sultanlara qarşı yönəldilib. Bunu başqaları kimi mən də müşahidə etmişəm. Mənə bir fakt kimi demişdilər ki, son səkkiz ildə məhkəmə kitablarında 10 mindən artıq adamın qətlə yetirildiyi qeydə alınmışdır. Bu bəla maaşlarını almadıqlarından rüşvət almağa məcbur olan və kralın qayda-qanuna və məhkəmə işlərinə laqeyd olub heç bir qayğı göstərmədiyini görüb daha çox rüşvət alan qazılardan irəli gəlir. Buna görədir ki, ölkədə yollar təhlükədədir və onlar hətta öz evlərində belə təhlükəyə məruz qalır və qazıların əksəriyyəti rüşvətxordur" (24).

Bu cümlələrdə mübahisəli görünə biləcək bir neçə məqam mövcuddur. Məsələn, müəllif iddia edir ki, Şah Təhmasib ova getməmiş və 11 il ərzində öz sarayını tərk etməmişdir. Əslində, bunun zəruri olduğunu iddia etmək də doğru olmazdı. Məlumdur ki, Şah Təhmasibin ov etməyə, xüsusilə də balıq ovuna yollanmağa böyük marağı olmuşdu. Amma həyatının sonlarında Şah Təhmasibi ova getməməkdə qınamaq və ya onun 11 il ərzində Qəzvini tərk etməməkdə günahlandırmaq da məntiqdən kənar olardı. Ehtiyac yarandığı zaman, xüsusilə, səltənət hüdudlarına müdaxilələr olanda Şah Təhmasib sarayda gizlənməzdi. Osmanlı və özbək qoşunlarına qarşı həyata keçirilən kampaniyalara Şah Təhmasib özü rəhbərlik etmişdi və səltənət ərazilərini də ələk-fələk etmişdi. Həyatının sonlarına yaxın və kifayət qədər ahıl yaşında səltənət daxilində asayişin və dinc həyatın təmin edildiyi bir zamanda onun saraydan uzaqlaşmaması təbii də görünə bilər. Heç şübhəsiz ki, səltənət vilayətlərinin idarəçiliyinin təşkili məsələsində də onu təşvişə salacaq bir hal yox idi. Çünki vilayətlər ya şah ailəsi üzvlərinə, ya da ən təcrübəli qızılbaş əmirlərinə həvalə olunmuşdu. Səltənət daxilində baş verənlər isə Şah Təhmasibin nəzarəti altında idi. Onun səltənət daxilində görməli olduğu işlərin çoxunu isə şah övladları və yaxınları öz üzərinə götürmüşdülər. Səltənət daxilində baş verən bəzi itaətsizlik hallarının qarşısının alınması üçün isə şah tərəfindən qoşun

dəstələri göndərilmişdi və bu hadisələr elə də ciddi bir nahatçılıq doğuracaq miqyasda deyildi ki, Şah Təhmasib özü də həmin məkanlara yollanmış olsun. Çoxlu sayda insanın qətlə yetirilməsinə gəlincə isə, venesiyalı səyyah bu barədə danışarkən sözsüz ki, əlində hər hansı bir sənəd yox idi. Məlumdur ki, Şah Təhmasib dövlətçilik əleyhinə çıxanlara, onun qadağalarına əməl etməyənlərə, pis əməllərə qurşananlara qarşı kəskin mövqeyi ilə fərqlənirdi və belələrinə ən ağır cəzaları verməkdən çəkinmirdi. Lakin venesiyalı səyyahın güman etdiyi kimi, insanların qətlə yetirilməsi səltənət daxilində heç də adi bir hal deyildi və belə ağır cəza üçün sözsüz ki, səbəb olmalı idi. Şah Təhmasib də öz Ayinnaməsində insanların taleyinin müəyyənləşdirilməsi zamanı haqq-ədalət mövqeyindən yanaşılmasını, yerlərdə ölüm hökmünə məhkum olunanlar haqqında şah sarayına məlumat təqdim olunmasını hakimlərdən tələb edirdi. Həmin Ayinnamənin 8-10-cu maddələrində deyilirdi:

"8. İnsanların təqsirləri, günahları ədalətli şəkildə haqq-hesab edilsin, onların hər biri əməlinə görə qiymətləndirilsin, hər birinə ədalət gözü ilə baxılsın, bu qrup adamlara düzgün yanaşılsın ki, hansı təqsirin üstündən keçmək və güzəştə getmək olar, hansı iş günah kimi qəbul edilə bilər, hansı işə görə cəza verilə, hansı günaha göz yumula bilər;

9. Yolunu azanlar nəsihətlə, xoş münasibətlə, davamlı olan yaxşılıqlarla düz yola istiqamətləndirilsinlər. Əgər nəsihət və tədbirlər nəticə verməsə, onda onun həbsi, cəzalandırılması və bədən üzvlərinin kəsilməsi törətdiyi əməllərə görə olsun. Edam etmək hünər sayılmasın, mümkün qədər səbir nümayiş etdirilsin ki, öldürüləni geri qaytarmaq olmaz, öldürülməli olanlar haqqında hökmdar dərgahına bildirilsin, hökm olsa həbs edib göndərsinlər. Əgər onun (günahkarın) mühafizısində və göndərilməsində fitnə-fəsad olsa, onda həmin adam cəzalandırılsın ki, bu da pis əməl sahiblərinə ibrət olsun;

10. Böyük sultanlar insan dərisini soymaqdan, onları yandırmaqdan və bu kimi ağır cəzalardan çəkinsinlər. Hər bir adamın

cəzası onların əməllərinə uyğun olaraq müəyyənləşdirilsin. Başa düşən adamlar üçün bir baxış da ölümə bərabərdir” (25).

Həmin Ayinnamənin 16-cı maddəsində Şah Təhmasib birmənalı şəkildə tələb edirdi ki, başqalarının işinə baxan zaman, insanların dadına çatan zaman nəfsə yol verilməsin. Yəni rüşvətxorluq kimi hal rəvac tapmasın. Nəfsinə üstün gələ bilməyənlər, rüşvətxorluq kimi hallara yol verənlər isə Şah Təhmasibin nəzərində yolunu azanlar, günahkar insanlar idilər və onlarla da haqq-hesab çəkilməli idi.

Vilayətlərdə yerli hakimlər tərəfindən müəyyən özbaşınalıqlara yol verilməsi halları istisna deyildir. Bununla bağlı mənbələrdə də xeyli sayda məlumatlar mövcuddur. Bəllidir ki, səltənət idarəçiliyində vilayət hakimləri kifayət qədər geniş səlahiyyətlərə malik idilər. Mərkəzlə sıx əlaqə qurulmasının mümkün olmadığı bir vaxtda əyalətlərdə baş verənlərin ciddi nəzarət altında saxlanması mümkün deyildi. Bu cəhət yalnız Şah Təhmasib hakimiyyətinə deyil, bütünlükdə tarixi dövrə xas olan bir cəhət idi. Belə bir şəraitdə vilayət hakimləri özlərini kifayət qədər müstəqil sayırdılar, yerli idarəçiliyi öz istədikləri kimi həyata keçirirdilər və təsadüfi deyil ki, bu da bir çox hallarda vilayətlərdə separatçılığa yol açırdı. Ciddi nəzarətdən uzaq olan yerli hakimlər isə şah tərəfindən müəyyənləşdirilmiş siyasətdən kənara çıxmaqla öz bildiklərini həyata keçirməyə çalışırdılar. Məsələn, 1535-ci ildə Məşhəd hakimi Sufiyan xəlifənin istər Məşhəddə, istərsə də Heratda insanlara qarşı törətdiyi qanunsuzluqlar, adamların var-yoxunun əlindən alınması üçün törədilən əməllər çox ciddi narazılıqların yaranmasına səbəb olmuşdu. Bu qanunsuzluqlar elə bir həddə çatmışdı ki, Şah Təhmasib onun haqqında çox ciddi tədbirlərin həyata keçirilməsi üzərində düşünməyə başlamışdı. Yalnız özbək qoşunlarına qarşı döyüşdə həyatını itirməsi Sufiyan xəlifənin özbaşınalırlarına da son qoydu. Şah Təhmasibin etibarlı əmirlərindən olan Məhəmməd xan Şərəfddinoğlunun oğlu Qazax xanın separatçılıq yoluna düşdüyü zaman da insanlara qarşı haqsızlıqlar və talanlar kütləvi hal almışdı.

Məlumdur ki, bu separatçılığın və qanunsuzluqların qarşısı da qoşun yeridilməsi ilə alındı.

Belə faktların sayını artırmaq da olar. Lakin yerlərdə belə halların olması o demək deyildi ki, baş verənlər Şah Təhmasib tərəfindən məqsədyönlü şəkildə izlənilən siyasətin nəticəsi idi. Şah Təhmasib birmənalı şəkildə belə halların baş verməsini istəmirdi. Yerlərdə hakimlər tərəfindən əhaliyə qarşı baş verə biləcək qanunsuzluqların qarşısının alınması üçün Şah Təhmasib çalışırdı ki, daha çox öz yaxınlarını və etibar etdiyi adamları vilayət hakimliyinə gətirsin. Xüsusi xidmətlərinə görə hakimliyə yiyələnən əmirlər də az deyildi. Əslində, onlar da Şah Təhmasibin etibar etdiyi insanlar idi və onların da ədalətinə böyük ümidlər bağlanılırdı. Bundan başqa, Şah Təhmasib yerlərdə idarəçiliyin düzgün qurulması üçün Ayinnamə də hazırlamışdı. Həmin Ayinnamənin hazırlanmasında da başlıca məqsəd yerli hakimlərə idarəçilik işlərinin düzgün aparılması üçün müəyyən normativ bazanın ortaya qoyulması idi. Bu Ayinnamənin başlanğıcında Şah Təhmasib bütün səviyyələrdən olan vəzifə adamları qarşısında belə bir tələb qoyurdu: “Aləm hökmdarının şahənşah lütfünün hökmündən əmr olundu ki, səcdəgah sultan dərgahı tərəfindən mənsəb sahibi olanlar və ümid yeri olan şah sarayının icraçıları, ali nəslə mənsub qardaşlar və övladlar, bəylərbəyiləri, valilər, xəlifələr, sərdarlar, böyük əmir və xanlar, başqa mənsəb sahibləri və müstövfilər, zabitlər, böyük və kiçik vəzifəlilər, qala kutvalları (komendantları), oymaqların ağsaqqalları, kələntərlər, kətxudalar, yol mühafizləri, xilafət nişanlı dərgahın bütün xidmətçiləri, bölgə və nahiyələrin mühüm adamları itaət edərək bilsinlər ki, indi izzətli calal tərəfindən hökm olunan bu göstərişlərin icrasından baş tükü qədərincə yayınmasınlar və onları öz vəzifəsi bilsinlər” (26).

Vinçenso Alessandri daha sonra yazırdı: “Əslində, bu kral çox cəsarətli olmamaqla bərabər, onun heç vaxt müharibə etməyə meyli yoxdur, lakin bu barədə etdiyindən çox danışır. Əgər, doğrudan da, hansısa o, ordu ilə döyüş meydanına çıxıbsa, o, bunu könüllü olaraq deyil, məcburən etmişdir. O, düşmənə üzünü

göstərməyə heç vaxt cəsarət etməyərək, sonsuz rüsvayçılığa dözüb, hakimiyyəti dövründə Fərat çayı yaxınlığında yerləşən Babil şəhərini tutub. Bu şəhər Chinedy (?) adlanan camaatın hakimi Şərəf bəyə məxsus olub, türklərə qarşı kömək almadığından onun tərəfindən qovulmuşdu. Ona yaxın böyük əhəmiyyətə malik bir keçid, Əxlat, Ərciş, Vastan, Adilcevaz, Bərqri, Həsən kimi şəhərlərə və Van kimi böyük əhəmiyyətə malik şəhər və qalaya açar olan Bidlis adlı yeri və böyük krallıq üçün kifayət olan yuxarıda adı çəkilən ərazilərin hamısı itirildi" (27).

Bu sətirlərdə əks olunan fikirlər də venesiyalı səyyahın küçədə-bazarda eşitdikləri ötəri söhbətlərin yaratdığı yarımçıq təəssüratdan başqa bir şey deyildir. Şah Təhmasibi cəsarətsizlikdə qınanması yalnız onun şəxsiyyəti haqqında olan məlumatsızlıqdan doğa bilər. 15 yaşında olarkən Cam ətrafındakı döyüşlərdə təsəvvür edilməsi mümkün olmayan bir uğurun əldə edilməsi Şah Təhmasibin cəsarətsizliyinin deyil, fövqəladə cəsarətinin təsdiqi idi. Özbək qoşunlarının təhlükəsi mövcud olanda Şah Təhmasib heç zaman çəkinmədən səltənət hüdudlarının qorunmasını başlıca vəzifəsi saymışdı. Osmanlı qoşunları qarşısında müdafiə taktikasını seçməsi isə onun cəsarətsizliyindən deyil, yüksək strateji təfəkküründən irəli gəlirdi. Məhz bu strateji təfəkkürün nəticəsi idi ki, bütün Avropanı və Asiyanı lərzəyə salan Osmanlı dövləti Şah Təhmasibə qarşı müharibədə öz məqsədinə çata bilmədi. Doğrudur, ikiçayarası bölgədə Şah Təhmasib müəyyən qədər ərazini müvəqqəti olaraq itirməli oldu. Amma bu da mövcud hərbi-siyasi şəraitin reallığı idi. Amasiya razılaşması əldə ediləndən sonra Şah Təhmasibin müharibədə iştirak etməsinə heç bir tarixi zərurət yox idi. Həyatının sonlarında isə xüsusilə, buna bir ehtiyac qalmamışdı. Yəni səltənətin mövcudluğuna qarşı ciddi bir hərbi təhlükə yox idi ki, Şah Təhmasib də bu təhlükəyə qarşı qoşun çıxarmaq məcburiyyətində qalsın. Bununla belə, o da məlumdur ki, Şah Təhmasibin hakimiyyətinin sonlarına doğru səltənət daxilində qiyamlar və itaətsizliklər baş vermişdi. Bu halların qarşısının alınması üçün qoşundan istifadə edilmişdi. Məsələn, 1565-ci ildə Heratda Qazax xanın qiyamının

aradan qaldırılması, elə həmin ildə Əbivərddə mərkəzi hakimiyyətin bərpa edilməsi, 1567-ci ildə Gilanın fəthi və mərkəzi hakimiyyət altına gətirilməsi, 1569-cu ildə Gürcüstanda özünün göstərən separatçılığın aradan qaldırılması, 1573-cü ildə Təbrizdə asayişin təmin edilməsi və s. belə hallardan idi (28). Lakin bu hadisələr elə bir təhlükəli miqyasda deyildi ki, onların həll edilməsində Şah Təhmasibin özünün də iştirakına ehtiyac olsun.

Vinçenso Alessandrinin xatirələrində belə fikirlər də vardır: "Kral keyfi istədiyi əyləncələrə əl atır və bunun üçün çox adam saxlayır; bu sahədə fərqlənənlər böyük mükafat alırlar. ...O, paltarlarını gündə 50 dəfə dəyişməyə adət etdiyindən, sonra həmin paltarlar əhaliyə paylanır və öz dəyərindən 10 dəfə çox pul alınırdı" (29).

Elə ilkin tanışlıq bu fikirlərin də ciddiliyini şübhə altına ala bilər. Gündə 50 dəfə paltar dəyişilməsinin mümkünlüyünün müəllif tərəfindən hansı məntiqlə qəbul edildiyini anlamaq yəqin ki, çətindir. Əyləncələrə gəlincə isə, görünür venesiyalı səyyahın Şah Təhmasibin tövbəsindən və qadağalarından xəbəri olmamışdı. Səfəvi şahı insanların bütünlüklə əyləncələrdən kənar qalmasını tələb etmirdi. Lakin bu məsələdə Şah Təhmasib kifayət qədər ciddi idi və bu ciddilik həm onun Ayinnaməsində, həm də gündəlik fəaliyyətində öz əksini tapmışdı. Əyləncələrin necə təşkil olunması ilə bağlı Şah Təhmasibin Ayinnaməsində aşağıdakı bəndlərlə rastlaşmaq mümkündür:

"51. Ov və gəzintiyə çox meyl edilməsin. Yalnız qoşunların fiziki təmrinləri üçün, bəzi vaxtlar isə fikrin dağıdılması üçün ov və gəzinti qərarı verilsin;

...58. Davamlı nəzarət edilsin ki, şərabdan əsər-əlamət qalmasın;

59. Şərab içənə və satana qarşı elə bir siyasət aparılsın ki, başqalarına da ibrət olsun;

60. Səltənət daxilində saraya aid olan nağaraxanalardan başqa bir yerdə zurna və saz çalınmasın. Məlum olsa ki, kimsə saz düzəldib, o, günahkardır;

61. Novruz şənliyinin, bayramların, mövludun və digər günlərin keçirilməsinə köməklik göstərilsin;

62. Bayram günləri şəhərlərdə nağara çalınsın;

63. Ehtiyac yaranmasa qadınlar heç vaxt ata minməsin. Əgər zərurət yaranarsa, yəhər üzərində oturmasın və yüyəni əlinə almasın;

64. Kişilər və qadınlar qələndərlərin, oyunbazların mərəkəsində yer almasınlar. Bu adamların mərəkələrə getməsi qadağan olmasa da, göstəriş verilmişdir ki, 12 yaşından yuxarı olan uşaqlar mərəkələrə gətirilməsin" (30).

Vinçenso Alessandridən iqtibas olunmuş yuxarıdakı fikirlər müəllif tərəfindən Şah Təhmasibin xarakterinin tənqid edilməsi üçün qələmə alınmışdır. Ancaq venesiyalı səyyah həmin fikirlərin doğruluğunu dolayısı yolla özü də təkzib etmişdir. Vinçenso Alessandrinin qələmə aldığı xatirələrində Şah Təhmasib haqqında söylədiklərindən güman etmək olar ki, səltənət əhalisinin Səfəvi şahına qarşı böyük narazılıqları var idi. Amma belə deyildi və bunu Vinçenso Alessandri də etiraf edirdi. O yazırdı: "Yuxarıda deyilənlərdən kralın nifrətə layiq olduğu qənaətinə gələ biləcəyimizə baxmayaraq, xalqın ona sevgisi və ehtiramı inanılmazdır. ...Ona kral kimi deyil, Tanrı kimi pərəstiş edirlər" (31).

Başqa sözlə, Vinçenso Alessandri də farsdilli mənbələrin Şah Təhmasibin yüksək mənəvi-əxlaqi dəyərləri haqqında yazdıqlarını təsdiq etmiş olurdu. Sözsüz ki, xalqın Şah Təhmasibə sevgisi və ehtiramı güc üzərində qurulmamışdı, bütün səltənət əhalisini də öz şahlarını zor gücünə sevməyə məcbur etmək olmazdı. İnsanlarda Şah Təhmasibə hörmət və ehtiramın olması Səfəvi şahının mənəvi-əxlaqi keyfiyyətlərinə verilən qiymətin əməli ifadəsi idi.

## 2. Şah Təhmasibin hakimiyyəti illərində maarif və elm

Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətlərinin mühüm cəhətlərindən birini də onun elmə, biliyə, yaradıcı sahələrə, sənətkarlığa dəyər verməsi, bu sahələrin inkişafına çalışması idi.

Yuxarıda yazılanlanlardan məlumdur ki, o, islami elmlərin inkişafına və təbliğinə xüsusi diqqət yetirirdi və bununla bağlı islam aləminin ən tanınmış üləmalarını öz səltənətinə dəvət edirdi. Şah Təhmasib dərin etiqad sahibi olmaqla səltənət əhalisinin də islami inanclar üzərində formalaşmasına böyük əhəmiyyət verirdi. Amma Şah Təhmasib ona da çalışırdı ki, islami dəyərlər mövhumat və xurafat üzərində qurulmasın, elm və bilik səltənət daxilində geniş yayılsın və rövnəq tapsın. Yəni Şah Təhmasib yalnız islami elmlərin deyil, dünyəvi elmlərin də inkişafına rəğbətlə yanaşırdı, ədəbiyyatın, yaradıcılıq sahələrinin yeni səviyyəyə qalxmasına maraq göstərirdi. Onun tərtib etdiyi Ayinnamədə də elm və bilik məsələlərinə yer ayrılmışdı və bütün səviyyələrdən olan vəzifə sahiblərindən də elm və biliyə dəstək verilməsi tələb olunurdu. Bu Ayinnamənin 36-cı bəndində deyilirdi: "İnsanlar arasında bilik və hikmət təliminə, kamal əldə edilməsinə kömək göstərilsin ki, istedad sahibləri zay olmasınlar" (32).

Şah Təhmasib sadəcə olaraq səltənət daxilində elm və yaradıcı sahələrin inkişafına dəstək vermirdi. O özü də dərin mütaliə ilə, yaradıcı işlərlə məşğul olan bir insan idi. Əslində, onun biliyə və yaradıcı sahələrə şəxsi bağlılığı bu sahələrin səltənət daxilində inkişafına verilən əhəmiyyətin təsdiqi kimi qəbul edilə bilər. Şah Təhmasib kifayət qədər təhsilli bir şah idi və bu cəhət də Səfəvi xanədanına xas olan tarixi bir ənənə idi. O həm din elminə dərindən bələd olmuşdu, həm də malik olduğu yaradıcılıq istedadını əyani şəkildə nümayiş etdirirdi. Bu mənada yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasibin yazışmaları onun elminin, biliyinin və yaradıcılığının təsdiqidir. Həmin yazışmalarında islami dəyərlərə bələdliyindən əlavə, Şah Təhmasib özünə məxsus olan çoxlu sayda nəzm parçaları da miras qoymuşdur.

İslam tarixinin çoxsaylı məsələlərinə, islam peyğəmbərinin, imamların və digər müqəddəslərin həyatına dərindən bələd olması Şah Təhmasibin həm də mütaliələrinin göstəricisi idi. Bu məsələlərlə bağlı çoxlu sayda dəyərli əsərlər Səfəvi sarayında da mövcud idi. Bəllidir ki, Şeyx Səfi məqbərəsində çox qiymətli bir kitabxana toplanmışdı. İstər bu kitabxanada, istərsə də dövriy-

yədə islam tarixindən əlavə şərqin, Səfəvi dövlətindən əvvəl mövcud olan dövlətlərin tarixi haqqında maraqlı əsərlər və mənbələr mövcud idi. Şah Təhmasib öz əcdadları haqqında olan kitablarla tanış idi, təzkirəsindəki qeydlərinə görə "Tarixi-Teymuri" kitabını oxumuşdu (33). Heç şübhəsiz ki, digər şərq mənbələrindən də xəbəri var idi.

Təhsilə və maarifə Şah Təhmasibin nəslində ənənəvi bir bağlılıq var idi və bu bağlılıq sözsüz ki, səltənət miqyasında elmin və maarifin inkişafına da bir müsbət zəmin yaradırdı. Əslində, təhsilə münasibət məsələsində hələ Şah Təhmasibin hakimiyyətə gəlməsindən çox-çox əvvəl şərqdə, o cümlədən də Azərbaycanda və indiki İran arealında zəngin bir ənənənin əsası qoyulmuşdu. Elə Şah Səfi xanəgahı buna əyani bir misal ola bilərdi. Bu xanəgah qurumlandığı dövrdən təhsil və elmin mərkəzlərindən birinə çevrilmişdi. Baxmayaraq ki, bu xanəgahın fəaliyyətində dini biliklər və dəyərlər aparıcı xətt təşkil edirdi, bununla belə insanların maarifləndirilməsi sahəsində bu xanəgahın tarixi rolunu inkar etmək mümkün deyildir. Şah Təhmasib dövründə də bu xanəgah səltənətin elm və maarif mərkəzlərindən biri olaraq qalmaqda idi və bu mərkəzin fəaliyyəti Səfəvi şahının hərtərəfli qayğısı ilə əhatə olunmuşdu.

Tarixdən məlumdur ki, hələ səlcuqların hakimiyyəti dövründə bölgədə elmin və maarifin inkişafına xüsusi dəyər verilirdi. Xüsusilə səlcuq hökmdarı Alp Arslanın və Məlik şahın vəziri olmuş Xacə Nizamülmülkün himayəsi və rəhbərliyi altında təhsil və maarif geniş rövnəq tapmışdı. Bu müdrik insanın 30 illik vəzirliyi dövründə dövlətin bir çox böyük şəhərlərində, o cümlədən Bağdadda, Nişapurda, Bəxdə Heratda və bir çox digər şəhərlərdə mədrəsələr təsis edildi ki, sonradan həmin mədrəsələr Nizamiyyə adı ilə məşhur oldular. Orta əsrlər elminin, təhsilinin xarakterik cəhəti kimi bu nizamiyyələrin də fəaliyyəti dini biliklər və dəyərlər üzərində qurulmuşdu. Lakin həmin təhsil ocaqlarında zamanın aktual dünyəvi elmlərinin də ilkin bilikləri tədris olunurdu. Nizamiyyələr içərisində daha çox məşhur olan Bağdad nizamiyyəsində təhsilin və tədrisin aparılmasına dövrün

ən tanınmış alimləri cəlb edilmişdi. Fəaliyyətinin miqyasına və tədrisin təşkilinə görə bu nizamiyyə müasir dövrün ali təhsil müəssisələri səviyyəsində təhsil verirdi. Nizamiyyənin fəaliyyətinin davamlı təşkilinə nail olunması üçün vəqf torpaqlar və obyektləri ayrılmışdı və onlardan əldə edilən gəlir nizamiyyənin bütün xərclərini ödəyirdi. Tədrisin təşkili, verilən biliklərin səviyyəsi, nizam-intizamın vəziyyəti, fəaliyyətinin qurulması etibarilə Bağdad nizamiyyəsi bir nümunəyə çevrilmişdi və onun oxşarında bölgədə çoxlu sayda təhsil müəssisələrinin qurulmasına cəhd göstərilirdi (34).

Məlumdur ki, hələ XII ərdən Azərbaycan ərazisində də müxtəlif mədrəsə və təhsil obyektlərinin geniş şəbəkəsi mövcud idi. Ruhani təhsilinin üstünlük təşkil etdiyi belə təhsil obyektləri Naxçıvanda, Təbrizdə, Gəncədə, Şamaxıda və Həmədanda fəaliyyət göstərirdilər (35).

Səltənət daxilində təhsilin və maarifin kütləviliyinə nail olunmasında isə məscidlərin böyük rolu var idi. Şah Təhmasibin hakimiyyəti illərində də belə idi. Məscidlər dini mərkəz olmaqdan əlavə, həm də cəmiyyətin ictimai proseslərinin cərəyan etdiyi ictimai-dini mərkəz rolunu oynayırdılar. Bu obyektlər insanların toplanış yeri, ictimai müzakirələr yeri idi. Məscidlər eyni zamanda həm də təhsil və maarif mərkəzləri idilər. İnsanların ilkin savadlanması da əsasən məscidlərdə həyata keçirilirdi. Çünki din xadimləri dövrün savadlı adamlarının böyük bir hissəsini təşkil edirdilər və təhsilin və maarıfin qurulmasında da onların böyük rolu var idi. Bir çox məscidlər həm də kitabxanaların yaradıldığı mərkəzlər idilər (36). Yəni təhsilin və maarifin təşkil edilməsi üçün məscidlərdə təbii imkanlar var idi və bu imkanlardan da istifadə olunurdu.

Məscidlər sözsüz ki, ilk növbədə dini təhsilin mərkəzləri sayılırdı və insanlar da öz övladlarına dini təhsil almaq üçün məscidlərə göndərirdilər. Yaşlı insanlar özləri də bir qayda olaraq cümə günləri məscidlərə namaz mərasimlərinə toplaşır və eyni zamanda burada dini mövzuda müxtəlif söhbətləri, təfsirləri, şərhləri dinləyirdilər. Səltənət miqyasında açılmış təhsil müəssi-

sələrinin çoxu da məscidlərin nəzdində fəaliyyət göstərirdilər. Bir çox hallarda məscidlərlə təhsil müəssisələri bir yerdə fəaliyyət göstərirdilər. Bununla həm də təhsilin və maarifin təşkilinin səmərəliliynə nail olunurdu.

Mütəxəssislərin fikrincə, orta əsr təhsil müəssisələrini təşkil olunan təhsilin məzmununa görə iki yerə ayırmaq olardı. Birinci təhsil müəssisələri ənənəvi fəaliyyət göstərən təhsil müəssisələri idilər. Belə təhsil müəssisələrində hakimiyyətlərin dəyişməsindən asılı olmayaraq təhsil dəyişməyən proqram üzərində qurulurdu. İkinci növ təhsil müəssisələrində isə təhsil mövcud hakimiyyətlərin ideoloji-siyasi xətti üzərinə qurulurdu, yəni əvvəlki təhsil proqramı yeni dövrün tələblərinə uyğunlaşdırılırdı. Şah Təhmasibin hakimiyyəti illərində mövcud olan maarif və təhsil də iki növə aid edilir. Çünki Şah Təhmasib hakimiyyəti illərində səltənət daxilində mövcud olan maarif və təhsil müəssisələrində bütün fəaliyyət məzhəb dəyərləri üzərində qurulmuşdu. Başqa sözlə, şiə dəyərlərinin aşılanması bu müəssisələrin hamısının fəaliyyəti üçün ortaq olan tələb idi (37).

Maarif və təhsilin ilkin mərhələsi məktəblər sayılırdı. Bura uşaqlar bir qayda olaraq 5-7 yaşlarında qəbul olunurdular. Dövrün bütün məktəblərində təhsil adətən Quran kitabının oxunmasının öyrənilməsi ilə başlanırdı. Sonra hər bir müsəlman üçün zəruri olan ilkin dini biliklər uşaqlara aşılanırdı. Məktəblərin bəzilərində dini biliklərin verilməsi üstünlük təşkil edirdi. Belə məktəblərdə dini fənlərin öyrədilməsinə daha çox vaxt ayrılırdı. Digər məktəblərdə isə dini biliklərdən əlavə şagirdlərə ərəb dili öyrədilir, hesabdan dərs keçilir, ədəbi əsərlərdən parçalar qiraət olunur, məntiqlə tanışlıq yaradılırdı. Şagirdlər yerdə oturaraq dərs oxuyurdular. Bəzi məktəblərdə yaşlı olan şagirdlərdən kiçik yaşlı məktəblilərə dərs verilməsi prosesində istifadə olunurdu. Quran kitabının oxunmasının öyrənilməsi şagirdlər üçün də təhsilin ilkin nəticəsi kimi qəbul olunardı və bir çox hallarda Quran kitabının oxunmasının öyrənilməsi valideynlərin müəllimlərə müxtəlif hədiyyələr verməsi ilə müşayiət olunurdu. Bu hədiyyələr müəllimlərə verilən ödəncin bir hissəsini təşkil edirdi (38).

Məktəbləri bitirən şagirdlər arzu etdikləri halda öz təhsillərini mədrəsələrdə davam etdirə bilərdilər. Mədrəsələr təhsilin və maarifin daha yüksək səviyyəsi idi və bu onlar bir qayda olaraq ya şah sarayının qayğısı altında, ya da imkanları adamların köməyi ilə təsis olunardı. Onların fəaliyyətinin davamlı təşkili üçün vəqf əraziləri və obyektləri ayrılardı və həmin vəqfdən əldə edilən gəlirlə həm müəllimlərin məvacibi ödənər, həm də tələbələr müəyyən miqdarda təqaüd verilərdi. Mədrəsələrin çoxu öz tələbələrini həm də yaşayış sahələri ilə təmin edirdi. Bu da tələbələrin təhsil çətinliklərinin aradan qaldırılmasına müəyyən köməklik göstərərdi. Dini biliklərin verilməsi mədrəsələrin təhsil proqramlarının əsasını təşkil etsə də, onları daha çox şəhər mərkəzlərində, bazarlarda, ictimai yerlərdə təşkil olunardılar. Mədrəsələrin təşkili həm də daha çox böyük şəhərlər üçün xarakterik idi. Şah Təhmasibin hakimiyyəti illərində Təbriz, Şamaxı, Qəzvin, Qum, Məşhəd, İsfahan belə şəhərlərdən hesab olunurdu və mədrəsələrin sıxlığı da bu şəhərlərdə daha çox müşahidə olunurdu. Mədrəsələrin tikilməsində və onların fəaliyyətinin təşkilində şah sarayı, saraya bağlı insanlar və imkanları əyan və əmirlər də iştirak edirdilər. Məsələn, hələ Şah İsmayıl dövründə təşkil olunmuş Harun mədrəsəsi Şah Təhmasibin hakimiyyəti illərində də səltənətin ən məşhur mədrəsələrindən biri idi. Şah Təhmasibin bacısı Pərixan xanım da dövrün böyük mərdəsələrindən birinin yaradıcısı idi (39).

Mədrəsələrin tədris yükləri də sözsüz ki, məktəblərin tədris yükündən fərqlənirdi və burada istər islami mövzuda, istərsə də dünyəvi mövzuda daha dərin biliklərin verilməsi əsas məqsəd kimi qarşıda dayanırdı. Məktəblərdə təhsilin müddəti təxminən 6-8 il, mədrəsələrdə isə təxminən 15-20 il davam edirdi. Təhsilin belə uzanması bir çox hallarda şagird və tələbələrin qavramaq imkanları ilə bağlı olurdu. Müəllimlər tərəfindən nəzərdə tutulmuş proqramı daha tez mənimsəyənlər təhsil müəssisələrini daha tez başa vura bilərdilər. Bu təhsil ocaqlarının hər ikisində dini mövzularla bərabər ərəb və fars dillərinin tədrisi məcburi hal daşıyırdı. Bu, əslində tarixi şəraitin tələblərindən irəli gəlirdi.

Dinlə tanışlıq ərəb dilinin öyrənilməsini tələb edirdisə, yazışmaların aparılması təcrübəsinin qazanılması isə fars dilinin öyrənilməsini vacib edirdi. Dövrün bədii yaradıcılığında da fars dilinin işləkliyi bu dilin öyrənilməsini şərtləndirirdi. Fars dili həm də bölgənin ədəbi dil statusunu qazanmışdı və bu dili bilmədən bölgənin ədəbi aləmi ilə yaxın tanışlıq əldə etmək mümkün deyildi. Dərslik kimi istifadə olunan kitabların və əsərlərin çoxu da fars dilində idi. Məsələn, məlumdur ki, Şah Təhmasib dövrünün məktəb və mədrəsələrində Sədinin "Gülüstan" və "Bustan" əsərlərindən, Hafizin divanından Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasından, "Kəlilə və Dimnə" əsərindən, Əttarın "Pəndnaməsi"ndən, Şeyx Bəhayinin, Əlamə Məclisinin və başqalarının əsərlərindən istifadə olunurdu (40).

Mövcud olan məlumatlara görə, XVI sonlarına yaxın Təbrizdə və Azərbaycanın digər şəhərlərində çoxlu sayda mədrəsə və məktəb fəaliyyət göstərirdi. Bu mədrəsə və məktəblərdə çoxlu sayda şagird və tələbə təhsil alırdı. Şah Təhmasibin hakimiyyəti illərində səltənət daxilində nə qədər mədrəsənin tikilməsi haqqında dəqiq say göstərmək mümkün deyildir. Lakin mədrəsələrin rövnəq tapması onun hakimiyyəti illərinə aiddir. Mənbələrdə Şah Təhmasibin hakimiyyəti illərində İsfahanda Zülfüqari mədrəsəsinin təşkil edilməsi haqqında məlumat vardır ki, bu mədrəsə dövrünün ən yaxşı mədrəsələrindən biri hesab olunurdu (41).

Səfəvi hüdudlarına səfər etmiş avropalı səyyahlardan birinin xatirələrində səltənət daxilində mövcud olan mədrəsələr haqqında maraqlı qeydlərlə rastlaşmaq mümkündür. Bu qeydlər Şah Təhmasibin hakimiyyətindən cəmi bir neçə onillik sonra edilsə də, həmin qeydlərə əsasən, elə Şah Təhmasib dövrünün mədrəsələri haqqında bəzi təsəvvürləri əldə etmək mümkündür: "...mən bizim adamlardan bəziləri ilə birlikdə çox qəşəng tikilmiş və bazarın yanında yerləşən fəlsəfə kollecinə oxşayan bir binanın həyətinə girdim. Bu binanın çoxlu girişləri və otaqları vardı. Bir neçə yerdə böyüklərin və uşaqların əllərində kitabla gəzişdiklərini və oturduqlarını görcək biz buranın nə olduğunu soruşduq. Cavabında öyrəndik ki, bura mədrəsədir. Yəni gimnaziya və ya

akademiya ilə eyni bir şeydir ki, bunlardan Səfəvilər dövlətinin ayrı-ayrı yerlərində bir neçəsi var. ... Hərçənd ki, azad elmləri oxuyanların sayı bizdəki kimi çox olmasa da bu elmlərə və bu elm sahiblərinə böyük hörmət göstərilir. Belə adamları filosof adlandırırlar. Bu elmləri öyrənmək üçün bir neçə gimnaziya və akademiyaları vardır ki, bunları mədrəsə və oradakı müəllimləri isə müdərris adlandırırlar" (42).

Avropalı səyyahlar onu da yazırdılar ki, Səfəvi mədrəsələrində riyaziyyat, həndəsə, natiqlik, şairlik (poeziya), fizika, etika, astrologiya, hüquq və tibb kimi elmlər tədris olunurdu. Bu da Səfəvilər dövründə, o cümlədən də Şah Təhmasibin hakimiyyəti illərində elm və təhsilə göstərilən marağın nümayişi idi.

Şah Təhmasibin hakimiyyəti illərində təhsil və maarif yalnız məktəb və mədrəsələrdə aparılmırdı. Uşaqlara təhsil verilməsi üçün başqa imkanlardan da istifadə olunurdu. Məsələn, şah ailəsinin üzvlərinin, habelə imkanlı əyan və əmirlərin övladlarının təhsili bir qayda olaraq saraylarda və evlərdə qurulurdu. Bunun üçün müəllimlər tapılırdı və onlar verilən məvacib əsasında tədrisi elə evlərdə aparırdılar. Şah övladları üçün isə məlumdur ki, lələlər müəyyənləşdirilirdi və həmin lələlərin rəhbərliyi altında şahzadələrin təlim-tərbiyəsi təşkil olunurdu. İmkanlı adamlar da öz uşaqları üçün müəllim-lələ tuturdular və müəyyən hallarda bu müəllim-lələlər əyanların və əmirlərin evlərində yaşayaraq uşaqların təlim-tərbiyəsi ilə məşğul olurdular. İmkanlı ailələrin qız uşaqlarının savadlandırılması üçün da təhsilin bu üsulundan daha çox istifadə olunurdu. Şah övladlarının bu üsulla təlim və tərbiyəsi müəyyən bir ənənə və təcrübəyə də malik idi. Belə ki, şah övladlarının təlim və tərbiyəsi müəyyən hallarda daha çox davam edirdi və bu zaman şah övladlarına savaddan əlavə əxlaq, silah işlətmək, at minmək və s. əməli vərdişlər də aşılanardı (43).

Maarif və təhsilin aparıldığı məkanlarda biri də kitabxanalar idi. Şah Təhmasibin hakimiyyəti illərində də səltənət ərazisində xeyli sayda kitabxanalar mövcud idi və bu kitabxanalar bir qayda olaraq öz ətrafında çoxlu sayda savadlı və bilikli insanı da birləşdirirdi. Yəni elm və bilik mərkəzinə çevrilmiş kitabxanalar

həm də tədrisin elm və biliyi yayan mərkəzlər halına gəldilər. Çoxlu sayda kitabın və bilik mənbəyinin bir yerdə olması tədrisin aparılmasına geniş imkanlar açа bilirdi ki, bundan da istifadə olunurdu. Şah Təhmasibin hakimiyyəti illərində səltənət daxilində mövcud olan böyük kitabxanalardan biri Ərdəbildə Şeyx Səfi türbəsində idi. Hələ Şeyx Səfiəddinin dövründən burada kitabların toplanmasına başlanmışdı və nəticədə böyük bir kitabxana meydana gəlmişdi. Digər böyük bir kitabxana isə Şah İsmayıl tərəfindən Təbrizdə təsis edilmişdi və şah Təhmasibin hakimiyyəti illərində də həmin kitabxana fəaliyyət göstərirdi. Bundan başqa Məşhəddə, Qumda da böyük kitabxanalar var idi ki, həmin kitabxanalarda da təhsilin və maarifin aparılması imkanlarından istifadə olunurdu (44).

Bütünlükdə, Şah Təhmasibin hakimiyyəti illərində səltənət daxilində mövcud olmuş kitabxanaları üç yerə bölmək olar: saray kitabxanaları, mədrəsə və məscid kitabxanaları və şəxsi kitabxanalar (45). Onların hər biri ayrı-ayrılıqda elmin-biliyin inkişaf mərkəzi sayıla bilərdi. Çünki kitaba olan maraq elmə və biliyə olan maraq idi və onların mütaliəsi yeni-yeni biliklərin əldə edilməsi demək idi. Mövcud olan məlumatlara görə, Şah Təhmasib özü də kitabxana yaratmışdı və bundan başqa onun qardaşları olan Sam Mirzənin, Əlqas Mirzənin və Bəhram Mirzənin də zəngin şəxsi kitabxanaları olmuşdu. Şah Təhmasibin oğlu İbrahim Mirzənin də zəngin kitabxanaya malik olması haqqında məlumat mövcuddur. Mənbələrin birində mövcud olan məlumata görə, "Bəhram Mirzə özünün ən xoş saatlarını məmləkətin və xalqın işini sahmana salmağa, hekayə və tarixləri mütaliəyə sərf etdikdən sonra misilsiz şəxsiyyətlərin nəfis risalələrinə və ustaların yaxşı xəttinə diqqət yetirərdi. Sənətkarların hamısına mərhəmət göstərər və mehriban nəzərlə baxardı. O, keçmiş və müasir ustaların pərişan vərəqlərini dağılmaqdan qorumaq üçün onların toplanmasına meyl göstərirdi. Bu barədə bizə göstəriş verdi. Biz də əsərlərin toplanmasına və tərtibinə başladıq" (46).

Yəni şah ailəsinin elm və bilik örənilməsinə göstərdiyi bu maraq səltənət daxilində də maarif və təhsilin inkişafına əlverişli

bir zəmin yaradırdı. Şah Təhmasib hakimiyyəti illərində maarif və təhsilin aparıldığı məkanlardan biri də xanəgahlar idilər. Xanəgahlar öz təyinatı etibari ilə həm maarif və təhsil məkanı, həm də elm və biliyin yayılma məkanı idilər. Şah Təhmasib dövründə Ərdəbildə yaradılmış olan Şeyx Səfi xanəgahı inkişafının və tərəqqisinin ən yüksək dövründə idi. Məlumdur ki, xanəgahlar təriqət rəhbərləri ətrafında yaranırdı və bu məkanlarda təriqət biliklərinin öyrənilməsi və təbliği həyata keçirilirdi. Bu biliklərin əsasını dini biliklər təşkil edirdilər. Lakin xanəgahlar öz mahiyyəti etibari ilə müxtəlif biliklərin öyrənilməsini həm təşviq edir, həm də onun üçün zəmin yaradırdılar. Dini biliklər heç də dünyəvi biliklərin öyrənilməsini istisna etmirdi. Əksinə, bir çox bilik sahələri var idi ki, onların öyrənilməsi dini biliklərin dərindən öyrənilməsinə lazımi yol aça bilirdi. Digər tərəfdən müxtəlif təriqət rəhbərlərinin fərqli baxışlara malik olması təriqət tərəfdarlarından da həmin fərqli baxışların mahiyyətinin müəyyənləşdirilməsini tələb edirdi. Bu isə özlüyündə təriqət müridlərini yeni biliklərin öyrənilməsinə təşviq edirdi. Təriqət mürşidi-kamili kimi Şah Təhmasib Ərdəbil xanəgahının fəaliyyətinin səmərəli qurulmasına hərtərəfli kömək və qayğı göstərirdi. Bu isə öz növbəsində xanəgahda elm və təhsilin düzgün qurulmasına yol açırdı.

Mütəxəssislərin fikrincə, Səfəvilər dövründə maarif və elmin yayılma mərkəzlərindən biri də rəsədxanalar idi (47). Rəsədxananın mövcudluğu özlüyündə elə elm və biliyin inkişafının simvolu idi. Çünki onların yaradılması müəyyən sayda xüsusi alətlərin və dəstgahların hazırlanmasını tələb edirdi ki, bu da elmin uyun inkişaf səviyyəsi olmadan mümkün deyildi. Rəsədxanada nücum və ona bağlı olan elmlərin öyrənilməsi, göy cisimlərinin müşahidəsi aparılırdı ki, bu sahədə Səfəvi dövründə də artıq müəyyən təcrübə mövcud idi. Mənbələrdə olan məlumatlara görə, Şah Təhmasib hələ Nəsrəddin Tusi tərəfindən əsası qoyulmuş Marağa rəsədxanasının təmirinə və onun yenidən işə salınmasına xüsusi maraq göstərirdi. Onun göstərişi əsasında bu məşhur rəsədxananın təmirinə də başlanmışdı. “Əhsənüt-təvarix”

əsərində bununla bağlı belə bir məlumat mövcuddur: “Əmir Qiyasəddin Mənsur ibn Əmir Sədrəddin Məhəmməd Şirazi elmi və əməli hikməti özündə cəmləşdirməsi üzündən üçüncü müəllim (“salisi-müəllimin”) idi. Onun əhvalının tale üfüqündən mənəvi fəzilət ulduzları doğmuş və onun əsərlərində əksini tapmış elmlərin məqsədlərindən nurlu kamal şəfəqləri parlamışdır. ...Onun şanının uca və biliyinin çox olmasını göstərmək üçün təkcə bunu qeyd etmək kafidir ki, İsgəndər şanlı xaqan öz səltənəti zamanında tədqiqatçı alimlərin alimi, araşdırmaçı fazillərin ən kamili, peyğəmbərlər ağasının (Məhəmməd peyğəmbərin) elmlərinin varisi, bəşərin ustadı, on birinci ağıl (“əqli-hadiəşər”) Xoca Nəsirəddin Tusi həzrətlərinin Marağada yerləşən və tamamən viran olan rəsədxanasını təmir etmək üçün məhz onu tələb etmişdir (çağırmışdır)” (48).

Bu məlumatın həm də onu göstərir ki, Şah Təhmasib dövründə alimlər alimi kimi qəbul edilən Nəsrəddin Tusinin rəsədxanasını təmir etmək, onun yolunu davam etdirmək qüdrətində olan elm və bilik adamları var idi və onlar Şah Təhmasib tərəfindən də yüksək qiymətləndirilirdi. Elm və bilik adamlarına Şah Təhmasib tərəfindən yüksək qiymət verilməsi haqqında mənbələrdə digər məlumatlar da mövcuddur. Əslində, belə insanların adlarının və fəaliyyətinin Şah Təhmasib dövrünün tarixi mənbələrində yer alması özü də Şah Təhmasibin elm və biliyə verdiyi qiymətin ifadəsi ola bilər.

Yuxarıda haqqında danışılan Əmir Qiyasəddin Mənsur da dövrünün çox bilikli zəka sahiblərindən biri idi. Yüksək biliyə malik olmasının nəticəsi idi ki, o, Şah Təhmasib tərəfindən səltənət sədri vəzifəsinə təyin olunmuşdu. Doğrudur, Şah Təhmasib onu bu vəzifədən uzaqlaşdırmalı olmuşdu. Amma bu, heç də onun elmə verdiyi töhfənin azaldılması demək deyildi. “Əhsənüttəvarix” əsərində onunla bağlı aşağıdakı məlumatı da oxumaq mümkündür: “Zəmanə müctəhidi olan həzrət (Şeyx Əli ibn Əbdüləali) ikinci dəfə İraqi-Ərəbdən xilafət məqamlı taxtın ətəyinə gəldiyi zaman o həzrət (Əmir Qiyasəddin Mənsur) sədarət şərəfinə malik idi. Zəmanə müctəhidi Mirin müqəddəs şəriətin

qeydinə qalmaması və onun bəzi fitnə-fəsad işlərə, yaramazlıqlara və cahilliklərə baş qoşması haqqında söhbətləri eşidib ona qarşı ədavət etməyə başladı. İki tərəf arasında elə güclü bir düşmənçilik yarandı ki, bunu heç bir şəkildə aradan qaldırmaq mümkün deyildi. Axırda bu məsələ tamamilə qəbahətli bir şəkil aldı. Bir gün zəmanə müctəhidi behişt ayinli məclisdə hazır idi ki, Mir təşrif gətirdi və elmi mübahisə ortaya çıxdı. O mübahisə kobudluq və münaqişə ilə nəticələndi. Dinin pənahı olan şah zəmanə müctəhidini himayə etdi və həmin məclisdə onu (Qiyasəddin Mənsuru) sədarətdən çıxardı. O, bir neçə gün dərgah mülazimi olduqdan sonra Şiraz tərəfə yola düşdü və bu il dünyadan köçdü. Əsərləri sırasında bunlar vardır: "Haşiyeyi-hikmətül-eyn" ("Varlıq hikmətinin haşiyəsi"), "Haşiyeyi zövra" ("Zövra haşiyəsi"), "Əxlaqi-Mənsuri" ("Mənsurun əxlaq kitabı"), "Mühakimat" ("Mühakimələr"), "Haşiyeyi-işarat" ("İşarələr haşiyəsi"), "İsbati-vacib" ("Vacib olanın isbatı"), "Məşariq" ("Məşriqlər"), "Haşiyeyi-təcrid" ("Təcrid haşiyəsi"), "Təfsiri-sureyi-həl-əta" ("Həl-əta surəsinin təfsiri"), "Miratül-həqaiq" ("Həqiqətlər aynası"), "Səğir dər heyət" ("Astronomiya haqqında kiçik kitab"), "Ləvameyi-heyət" ("Astronomiya şəfəqləri"), hesab haqqında "Kifayeyi-Mənsuri" ("Mənsurun yetərli əsəri"), "Riyazi-rizvan" ("Cənnət bağları"), kəlam elmi haqqında "İmanül-eyman" ("Əmin iman") və "Dəlili-hüda" ("Doğru dəlil")" (49).

Səfəvilər dövründə elmin vəziyyətindən danışarkən mütəxəssislər elm sahələrini iki əsas istiqamətdə qruplaşdırmışlar: nəqli elmlər və əqli elmlər. Elm sahələrinin belə qruplaşdırılması üçün əsas götürülmüş meyarın elmi obyektivliyi ilə razılaşmaq mümkün olmasa da nəqli elmlərə mütəxəssislər daha çox humanitar sahəni, əqli elmlərə isə daha çox texniki, təbiət və tətbiqi elmləri daxil etmişlər. Bir daha qeyd edilməlidir ki, bu bölgünü şərti bir bölgü kimi qəbul etmək mümkündür. Konkret olaraq isə nəqli elmlərə şəriət elmləri və ədəbi elmlər daxil edilmişdir. Şəriət elmlərinə Quran qiraəti, fiqh, kəlam, təfsir, hədis elmi, ədəbi elmlərə xəttatlıq, nəhv, dil qaydaları, məna, bədii sahə, lüğətçilik, qafiyə şamil olunmuşdur. Əqli elmlərə isə təbiət elmləri, riya-

ziyyat, əxlaq, məntiq, siyasət və digər elm sahələri aid edilmişdir (50).

Bu elm sahələri, əslində, Səfəvilərdən əvvəl də şərqdə mövcud idi və onların inkişafı sahəsindən müəyyən nəticələr də əldə edilmişdi. Şah Təhmasib də elm sahələrinin inkişafına maraq göstərirdi. Yuxarıda sadalanan faktlar da bundan xəbər verir. Lakin tarixi şəraitlə əlaqədar olaraq bu elm sahələrinin hamısının eyni dərəcədə inkişaf etdiyini də yəqin ki, söyləmək düzgün olmazdı. Məzhəb etiqadlarının əsas götürüldüyü bir dövlət kimi Səfəvi dövlətində şəriət elmlərinin inkişafına, sözsüz ki, daha böyük diqqət yetirilirdi. Digər tərəfdən Səfəvi dövlətinin dini-ideoloji əsasını təşkil edən Səfəvi təriqətinin bölgədə geniş yayılması və möhkəmlənmsəi də şəriət elmlərinin inkişafı ilə şərtlənirdi. Ona görə şəriət elmlərinin inkişaf etdirilməsi Səfəvi sarayının maraqları çərçivəsində idi və bu sahədə kifayət qədər ciddi fəaliyyət ortaya qoyulmuşdu. Məlumdur ki, bu elm sahələri üzrə çoxlu sayda elmi əsərlər meydana gəlmişdi və əvvəlki fəsillərdə onların bir çoxunun adı çəkilmişdi. Şah Təhmasibin sifarişi ilə "Səfvətüs-səfa" əsərinin Azərbaycan türkcəsinə tərcümə edilməsi də şəriət elmlərinin inkişafı sahəsində əldə edilmiş çox mühüm nəticələrdən bir sayıla bilərdi. Yuxarıda adı çəkilən Əmir Qiyasəddin Mənsurun əsərlərinin içərisində bəzilərinin şəriət elmlərinə aid olduğunu görmək mümkündür. Hazırkı kitabın IV fəslində də Şah Təhmasibin hakimiyyəti illərində yaşayıb fəaliyyət göstərmiş bir çox şəriət alimləri haqqında da məlumat verilmişdir. Həsən bəy Rumlu "Əhsənüt-təvarix" əsərində həmin alimlərə əlavə olaraq Mövlana Əbülhəsənin, Mirzə Şərəfin, Mövlana Qütbəddin Bağdadinin, Mövlana Əmir Əbülfəthin, Mövləvi Müslihəddin Larinin də adlarını çəkmişdir. Bu alim və zəka sahiblərinin bəziləri nəqli elmlərlə bərabər, həm də əqli elmlər sahəsində maraqlı əsərləri irs qoyub getmişdilər.

Mövlana Əbülhəsən haqqında Həsən bəy Rumlu belə bir məlumat verirdi: "Mövlana Əhməd Bavərdinin oğlu Mövlana Əbülhəsən özündə elmləri və çeşidli hikmətləri toplamış, növbənöv fəzilət və kamillikləri cəmləmişdi. Ali fitrəti səbəbindən

misilsiz dərəcədə xoş təbiətli idi. Bilik və ibarələr gözəlliyi baxımından bənzərsiz idi. Əyyamın qulağı və boynu onun fəzilətinin cavahirindən zinət tapmışdı. ...Fəhminin gücü və nitqinin gözəlliyi o dərəcədə idi ki, bilikli alimlərin heç birinin onunla mübahisə etməyə macalı yox idi. ...Bu il, yekşənbə günü, ramazan [ayının] 26-da (02.07.1559) o dövran alimlərinin alimi qürur sarayından (dünyadan) sürur aləminə (axirətə) getdi. Əsərləri sırasında bunlar vardır: "İsbati-vacib" ("Vacib olanın isbatı"), hikmət haqqında "Rövzətül-cinan" ("Cənnət bağı"), "Risaleyi-məntiq" ("Məntiq risaləsi"), miras [hüququ] haqqında məlumat verən "Şərhi-fəraiz" ("Mirasın şərhi"), kəlam haqqında "Mətni-şəvariq" ("Parıltıların mətni"). Bu sətirlərin müəllifi olan dəyərsiz zərrə (Həsən bəy Rumlu) o böyük şəxsiyyətin yanında "Şərhi-təcrid" ("Təcrid şərhi") [əsərini] mütaliə etmişdir" (51).

Bu məlumatdan göründüyü kimi, Həsən bəy Rumlu da Mövlana Əbülhəsənin elmindən bəhrələnməli olmuşdu və onun böyük alim olmasını məmnunluqla xatırlayırdı. Şah Təhmasib dövrünün böyük alimlərindən sayılan Mirzə Şərəf haqqında da Həsən bəy Rumlunun əsərində maraqlı qeydlər vardır: "Mirzə Şərəf dinin pənahı olan şahın vəkili Qazi Cahan Qəzvininin oğlu idi. Müxtəlif elmlərə yiyələnmişdi, növbənöv fəzilətlərə və kamilliklərə sahib olmuşdu. Həqiqətən də, şərəfli atası nə cür fəzilət və istedada malik idisə, oğlunda həmin xüsusiyyətlər və fəzilətlər daha artıq idi. Bundan başqa, digər kamillikləri də vardı. Bəlkə də, onun inşası atası ilə müqayisədə daha yaxşı və fitrəti daha ali idi. Şeirdə səliqəsi çox müvafiq idi. Şairlikdə və natiqlikdə üfüqlərin yeganəsi idi. Onun şərəfli atası vəzirlik mənsəbində çalışan zaman o, həmin həzrətin naibliyində camaatın işlərinin intizama salınması ilə məşğul olurdu və səlahiyyət sahibi idi. Amma dinin pənahı olan şahın hüzuruna az-az gedib-gəlirdi. Bu səbəbdən atasının könlü həmişə ondan incik idi. Uzun sözün qısası, Mirzə Şərəf Cahanın bərəkətlərlə feyzlənmiş zatının malik olduğu yeganə nöqsan, zatının xəbisliyi cahan sakinlərinə aşkar olan Mövlana Fazil Xalxali ilə ünsiyyət və dostluq etməsi idi" (52).

Mövlana Qütbəddin Bağdadi “Əhsənüt-təvarix” əsərində həm nəqli elmlərin, həm də əqli elmlərin bilicisi kimi xarakterizə olunmuşdur. Bu mənbədəki məlumata görə, Mövlana Qütbəddin Bağdadinin elmi zəkasını və fəaliyyətini adi sözlərlə əhatə etmək mümkün deyildi. O, nəqli və əqli elmlərin bir çox sahələrində, hətta tibb sahəsində də çox böyük təcrübə qazanmışdı və buna görə Şah Təhmasibin təbibi vəzifəsinə də təyinat almışdı: “Qazıoğlu kimi məşhur olan Mövlana Qütbəddin Məhəmməd Bağdadinin ölümü. Mövlana Qütbəddin Bağdadi əqli və nəqli elmləri mənimsəmək sahəsində tay-tuşlarından çox irəlidə idi və [onlarla müqayisədə] hədsiz dərəcədə üstünlüyə malik idi. Dərrakəli zehni yəqinlik maarifinin qaranlıq məqamlarının kəşfedicisi və idraklı fəhmi dini məsələlərin müşküllərinin həlledicisi idi. Fəzilətlər və bilik sahibi olmaqla yanaşı, inşa və söz ustadlığı fənlərində bəlağət şüarlı münşilərin öndəgedəni idi. İbarələr bəzəmək üslubunda fəsahət əlamətli söz ustalarının rəhbəri idi. O, bəşər ustadı (ustadül-bəşər) Əmir Qiyasəddin Mənsurun tələbələri cümləsindən idi. Dinin pənahı olan şahın yanında çox hörməti vardı. Bu il o, Qəzvində əbədiyyət aləminə yollandı. Mövlana Kəmaləddin Hüseynin oğlu Həkim Mövlana Nurəddin Məhəmməd əqli elmlərə yiyələnmək baxımından əsrin yeganəsi idi. Dəqiqlik məsələlərindən hansı məsələ barədə müzakirə və mübahisə düşərdisə, o, düzgünlüyün təsiri altında olan öz könül sandığından çıxardığı ürək oxşayan sərvətinin parlaq cavahiri ilə onu həll edərdi. Hansı incə məna haqqında söhbət düşərdisə, onu öz sağlam zehninin dürləri və inciləri ilə gözəllərin kəməri kimi bəzəyərdi. Onun ali fəhm və idrakının dərəcəsi o qədər yüksəkdir ki, iki dilli qələm onun cüzi bir qismini belə bəyan edə bilməz. Onun kəlam elmində, xüsusən də təcriddə və [təcridin] haşiyəsində məharəti və təcrübəsi digər elmlərə nisbətən daha artıq idi. Öz şərəfli atasından sonra o, dinin pənahı olan şahın təbibi təyin edilmişdi. Axırda o həzrət (Şah Təhmasib) vəkalət mənsəbini ona təklif etdi, [lakin] o, qəbul etmədi. Bu il, düşənbə günü, rəcəb [ayının] 27-də (22.03.1563) dünyadan köçdü” (53).

Mövlana Əmir Əbülfəth haqqında "Əhsənüt-təvarix"də verilmiş müxtəsər məlumat onun da Şah Təhmasib dövrünün tanınmış elm adamlarından biri olmasını nümayiş etdirir: "Cənab Mövlana [Əmir Əbülfəth]Mövlana Üsaməddinin tələbələri cümləsindəndir və Mavəraünnəhrdə təhsil almışdı. Axırda adı çəkilən şəhərdə (Ərdəbildə) məskunlaşmışdı. Uğurlu qələminin məhsulu olan əsərlər sırasında bunlar vardır: "Haşiyə bər Kübra" ("Kübra əsərinə dair haşiyə"), "Haşiyə bər adabi-bəhs" ("Bəhs ədəb-ərkanına dair haşiyə"), "Haşiyə bər təhzibi-məntiq" (Məntiq təlimə dair haşiyə"), "Haşiyə bər kənzül-irfan" ("İrfan xəzinəsinə dair haşiyə"), "Haşiyə bər təhzibi-üsuli-fiqh" ("Fiqh üsulu təliminə dair haşiyə"), "Haşiyə bər bəhsi-məchulü mütləq" ("Məchul və mütləq bəhsinə dair haşiyə"), "Haşiyeyi-mətale" (Mətlələr haşiyəsi"), "Risalə dər üsuli-fiqh" ("Fiqh üsulu haqqında risalə"), ehkam ayətlərinə dair farsca "Şərhi-babi-hadi-əşər" ("On birinci fəslin şərhi")" (54).

Nəhayət, Mövləvi Müslihəddin Lari haqqında "Əhsənüt-təvarix" əsərində olan məlumat da onun böyük və hərtərəfli biliklərə malik olan bir alim kimi yetişdiyini nümayiş etdirir. Onun əsərləri arasında şəriət elmlərinə aid olan əsərlərdən başqa, şahmat, Osmanlı tarixi, baytarlıq və digər sahələr üzrə də dərin biliklərə malik olmasından xəbər verir: "Həyatının əyyamı təxminən doxsan il idi. Cənab Mövləvi (Müslihəddin Lari) Əmir Qiyasəddin Mənsur Şirazinin yanında tələbəlik şərtini yerinə yetirmişdi. Daha sonra Hindistan vilayətinə gedib Hümayun padşahın [sarayında] sədr oldu. Həmin ali məqamlı padşahın ölümündən sonra şərəfli Hərəmeynin ziyarətinə yollandı. Yol əsnasında gəmi sındı və dörd yüz cild kitabı tələf oldu. Mövlana (Müslihəddin Lari) tamam məşəqqətlə coşqun dənizin təlatümündən nicat sahilinə çıxıb İstanbul şəhərinə tələsdi. Rum padşahı Sultan Səlim ona qayğı göstərib axırda onu Amid şəhərinə göndərdi. Əsərləri sırasında bunlar vardır: "Haşiyə bər şərhi-müvafiq" ("Müvafiq şərhə dair haşiyə"), "Haşiyə bər haşiyeyi-qədimi-Mövlana Cəlaləddin Məhəmməd Dəvvani" ("Mövlana Cəlaləddin Məhəmməd Dəvvaninin qədim haşiyəsinə haşiyə"), "Haşiyə bər şərhi-Cami"

(“Caminin şərhinə dair haşiyə”), “Haşiyə bər Ənvari-fiqhi-Şafei” (“Şafei fiqhinin nurları” əsərinə dair haşiyə”), təfsir haqqında “Şərhi-Şəmaili-Tirmizi” (“Tirmizinin “Şəmail” əsərinə dair şərh”), Təfsiri-sureyi-Əna-ənzəlna” (“Əna-ənzəlna surəsinin təfsiri”), indi Rum padşahı olan [Osmanlılar] haqqında “Tarixi-Ali-Osman” (“Osmanlı sülaləsinin tarixi”), “Risaleyi dər şətrənc” (“Şahmat haqqında bir risalə”) və “Risaleyi dər baytari” (“Baytarlıq haqqında bir risalə”)” (55).

Nəqli elmlərin ədəbi elmlər qrupuna daxil olan (onların bəziləri haqqında aşağıda danışılacaqdır) sahələri və nəqli elmlərin inkişafı istiqamətində də Şah Təhmasibin hakimiyyəti illərində müəyyən bir təcrübə qazanılmışdı. Elə yuxarıda haqqında danışılan zəka sahiblərinin bir çox əsərləri də nəqli elmlərə aid idi və bu da onu göstərir ki, Şah Təhmasibin hakimiyyəti illərində əqli elmlər sahəsində də özünəməxsus bir məktəb formalaşmışdı. Doğrudur, bəzi mütəxəssislər Səfəvi hakimiyyəti illərində, o cümlədən də Şah Təhmasibin hakimiyyəti illərində məzhəb təqibləri üzündən bir çox sünni alimlərin səltənət hüdudlarını tərk etməsini və bunun da bəzi sahələr üzrə elmi axtarışların zəifləməsini iddia edirlər (56). Lakin həyatın bütün sahələrində baş verən dəyişikliklər əqli elmlərin də inkişafını təbii bir zərurət kimi irəli sürürdü. Eyni zamanda elə nəqli elmlərin inkişafı və bu sahələrdə aparılan axtarışlar həmin elmlərlə sıx əlaqədə olan əqli elmlərin də inkişafına bu və ya digər dərəcədə təsir göstərirdi. Elə elm sahələri də var idi ki, onlar ənənəvi xarakter daşıyırdı və bəzi alimləri səltənət hüdudlarını tərk etməsi həmin sahələrin heç də süqutuna gətirmirdi. Məsələn, riyaziyyat, həndəsə, astranomiya, musiqi, fizika, kimya, tibb və s. sahələr belə belələrindən idi. Həyat özü bu elm sahələrinin hər zaman aktual olmasını tələb edirdi.

Əqli elmlərdən sayılan nücum (astranomiya) elminin bərpasına Şah Təhmasib tərəfindən cəhd göstərilməsi barəsində yuxarıda qeyd edilmişdi. Doğrudur, Şah Təhmasibin hakimiyyəti illərində də Marağada Nəsrəddin Tusi tərəfindən əsası qoyulmuş rəsədxananı təmir edib əvvəlki vəziyyətinə gətirmək mümkün

olmadı. Bu rəsədxananın təmir edilməsi və bununla nücum elminin yenidən canlandırılmasına Şah İsmayıl da cəhd göstərmişdi. Lakin qarşıya qoyulan məqsədə nail olunmadı. Bununla belə, nücum elminə olan maraq səltənət daxilində heç də azalmadı. İstər hakim dairələr arasında, istərsə də insanlar arasında nücuma və münəccimliyə qarşı çox dərin və ənənəvi bir maraq mövcud idi. İnsanlar az qala bütün işlərini münəccimlərlə məsləhətləşərək qururdular. Hətta hakimlər taxta çıxması, qəbul edilən qərarların icrasına nə zaman başlanması, səfərlərin nə zaman başlanması və s. ilə bağlı münəccimlərin məsləhətləri nəzərə alınardı. Yəni səltənət daxilində münəccimlərə kütləvi bir bağlılıq var idi. Marağa rəsədxanası kimi böyük bir nücum mərkəzini bərpa etmək mümkün olmasa da, səltənət daxilində yaşayan münəccimlər sadə və primitiv vasitələrlə öz müşahidələrini davam etdirirdilər. Şah Təhmasibin isə nücum elmini daha da inkişaf etdirmək arzusu qalmaqda davam edirdi. Bunun nəticəsi idi ki, onun hakimiyyəti illərində nücum elmi ilə bağlı yeni bir risaləni yazmaq mümkün oldu. Həmin risalədə Marağa rəsədxanasında aparılan axtarışların nəticələri ilə bərabər, İsgəndəriyyə və Səmərqənd rəsədxanalarında əldə edilmiş nəticələr də öz əksini tapmışdı (57).

Münəccimlik sahəsindəki axtarışlar istər-istəməz hesablama, həndəsə haqqında müəyyən bilik və vərdişlərin olmasını tələb edirdi. Bu sahələrdə lazımi biliklərə malik olmadan göy cisimlərinin müşahidəsi ilə bağlı olan hesablamaları da aparmaq mümkün deyildi. Ona görə cəbr, hesab, həndəsə kimi fənlər təhsil müəssisələrində tədris olunurdu və bununla bağlı müəyyən yazılı əsərlər də ortaya qoyulurdu. Eyni zamanda münəccimlər göy cisimlərinin müşahidəsi və bu müşahidədən sonra uyğun hesablamaların aparılması üçün lazım olan cihazların hazırlanması sahəsində də müəyyən təcrübələr əldə etmişdilər. Avropalı səyyahların XVII əsrin əvvəllərində Səfəvi hüdudlarında nücum elmi və ona bağlı sahələrin inkişafının Avropa səviyyəsindən geri qalmaması barəsində yazdıqları (58) onu deməyə əsas verir ki, bu elm sahəsinin Şah Təhmasib hakimiyyəti illərində də müəyyən

bir bazası olmuş və sonra da bu baza üzərində daha da təkmilləşmişdi.

Şah Təhmasibin hakimiyyəti illərində inkişafına təbii və gündəlik ehtiyac olan elm sahələrindən biri də tibb idi. Bir tərəfdən adi yaşayış, digər tərəfdən də hərbi-siyasi proseslər tibbin bir elm və praktik sahə kimi inkişafını aktual olaraq saxlamaqda idi. Xüsusi ilə hərbi əməliyyatların davamlı aparılması, canlı itkilərin bərpasını və sıraya qaytarılmasını zəruri edirdi. Tibbi inkişaf etdirmədən müharibələr zamanı yaralanan çoxsaylı döyüşçülərin vaxtında müalicəsi də kifayət qədər çətin ola bilərdi. Şah Təhmasibin hakimiyyəti illərində bu sahədə də müəyyən təcrübə mövcud idi. Məsələn, haqqında yuxarıda qeyd olunan Mövlana Qütbəddin Bağdadi Şah Təhmasib dövrünün çox məşhur təbiblərindən biri idi və tibb sahəsində malik olduğu bilik və təcrübəyə görə o, Şah Təhmasibin təbibi vəzifəsinə də təyin edilmişdi. “Əhsənüt-təvarix” əsərində Şah Təhmasibin təbibi vəzifəsinə təyin edilmiş daha iki zəka sahibinin adı çəkilmişdir. Onlardan biri Mövlana Rüknəddin Məsud Kaşi, digəri isə onun oğlu Mövlana Kəmaləddin Hüseyn idi: “Mövlana Rüknəddin Məsud Kaşi – onun doğum yeri Şirazdır. Amma Kaşanda daha çox qaldığı üçün Kaşi kimi şöhrət tapmışdır. O, birbaşa olaraq Mövlana Sədrəddin Əli Təbibin şagirdlərindəndir. Doğrudan da, tibb elmi üzrə məharətdə Calinus, bəlkə, təcrübə çoxluğuna görə Betlimiyus (Betlimus) idi. Ömrünün axırında dinin pənahı olan şahın təbibi olmuşdu. ...Mövlana Məsud Kaşinin oğlu Mövlana Kəmaləddin Hüseyn fəzilətli və incəlikləri bilən bir həkim idi. Doğru rəyinin qanunu xəstəliklərin şəfasının vasitəsi idi və parlaq zehninin qaydalar külliyyatı qəziyyələri dəf edən sursat idi. Dinin pənahı olan şahın təbibliyi mənsəbi möhtərəm atasından sonra o cənabda qərar tutmuşdu. Həmişə sultanın (Şah Təhmasibin) qayğıkeşlik nəzəri altında idi və xaqanın hüsn-rəğbətlərinə şamil olmuşdu” (59).

Şah Təhmasibin təbibləri arasında İmadəddin Mahmud ibn Məsud Şirazinin də adı çəkilir. Bu adam yalnız həkim deyil, həm də tibb üzrə araşdırmalar müəllifi idi. Elm aləminə onun bir sıra

risalələri məlumdur ki, həmin risalələrdə bir sıra xəstəliklər və onların müalicəsi haqqında məlumat verilmişdir. “Tarix-i aləmara-yi Abbasi” əsərində bu alim və həkim haqqında belə bir məlumat verilmişdir: “Elm və hikmətdə hamı arasında başbilən, bilik və təcrübə üzrə aləmdə məşhur idi. Onun tibb elmi, məcunların tərtibi, xroniki xəstəliklərin və hərarət artımının müalicəsi, xüsusilə də kiçik (adi) qoturluq və camaat arasında «atəşək» (qanqrena) adı ilə məşhur olan böyük qoturluq barəsində yazdığı bəyənilən risalələr və qeyri-adi əsərlər təbiblər arasında etimadlıdır. O, əvvəllər Şirvan hakimi Abdulla xan Ustaclunun yanında xidmət etmişdir. Lakin bir məsələ üstündə Abdulla xan ona olan münasibətini mənfi yöndə dəyişərək, ona qarşı qəzəb atəşini alovlandırdı və onu şaxtalı bir havada dəlicəsinə cəzalandıraraq, qarın içərisində basdırdı. Sübh oluncaya qədər onu qarın altından çıxarmadılar. Həmin hikmətli cənab ifrat həddə tiryək atmaqla öz çarəsinə baxıb, o bəladan sağ çıxmağı bacarsa da, onu titrətmə tutdu və həyatda olduğu müddətcə bu titrətmə onu tərk etmədi. Artıq özü tiryəki olduğu üçün tiryəkə çox bağlılığı vardı. Cənnətməkan şah cinlərin və insanların imamı olan [İmam Rzanın] müqəddəs astanasını inkişaf etdirməyə və oranı rövnəqləndirməyə həddən artıq meyl göstərərək, hər sahə üzrə ən yaxşılardan olan mütəxəssisləri həmin məqbərəyə xidmət göstərməyə təyin etdiyindən sözügedən şəxsi də həmin feyz bəxş edən ziyarətgahın təbibliyinə məmur etdi. O, bir müddət müqəddəs və ulu Məşhəddə xəstələrin müalicəsi ilə məşğul oldu. Həqiqətən də, o, özündə seçkin şəxslərə və fəzilət sahiblərinə xas olan xüsusiyyətləri, kamalı və üstünlükləri cəmləçdirmiç bir adam idi” (60).

“Tarix-i aləmara-yi Abbasi” dərin elmi biliklərə yiyələnmiş həkim kimi xarakterizə olunanlardan biri də Mir Ruhulla Qazı-Cahani idi. Onun haqqında adı çəkilən əsərdə belə bir məlumat var idi: “Qəzvinin yüksək dərəcəli Seyfi-Hüseyni seyidlərindəndir. Onun atasının və babasının bəyənilmiş vəsflərinin şöhrəti o qədər çoxdur ki, onların bəyan edilməsinə ehtiyac yoxdur. Onun əhvalı üzərində cəlal və əzəmət nişanələri zahir olub

görünürdü, yetərincə ixlaslı və gözəl rəftarlı olması səbəbindən böyüklər və əyanlar arasında təriflənirdi və fəzilət və bilik zinəti, qabiliyyət və istedad bolluğu ilə bəzənib-düzənmişdi. Tədavüldə olan elmləri mənimsədikdən sonra tibb elmindən zövq alaraq, bu şərəfli fəndə tamam məharət sahibinə çevrilmişdi. Xəstəliklərin müalicəsi ilə az məşğul olmasına baxmayaraq, əməliyyatlardakı və xəstəliklərin müalicəsindəki nailiyyətləri görkəmli təbiblərin xoşuna gəlmişdi. Əksər təbibzadələr onun hüzurunda tibb elminə dair mübahisələr edib, onun şagirdi olmaqla iftixar edərdilər. Şikəstə-nəstəliq xətti ilə çox gözəl yazırdı. İsgəndər şanlı nəvvab zamanında Qəzvində naxoşluğa düçar oldu, qəzavüqədər təbibi əlini onun müalicəsindən çəkdi və o, öz cavanlıq dövründə əbədiyyət aləminin sakininə çevrildi”.

Mənbələrdə və elmi-tarixi ədəbiyyatda olan məlumatlara görə, Şah Təhmasibin hakimiyyəti illərində tibb sahəsində başqa əsərlər də meydana gəlmişdilər. Onların arasında Sultanəli Qunabadinin “Dəsrutul əlac”, “Riyazül ədviyyə”, “Dəlayül nəbz” əsərlərini göstərmək olar. Bu müəllifin tibb mövzusunda hətta mənzum əsərlər yazması haqqında da məlumatlar mövcuddur. Bunlardan başqa İbn Sinanın tibb haqqında olan əsərlərinə də bir sıra risalələr həsr edilmişdi (61).

Bütünlükdə isə mütəxəssislərin fikrincə, Şah Təhmasibin hakimiyyəti illərində təbabətin praktikası daha çox inkişaf etmişdi. Təbiblərin çoxu İbn Sinanın tibbə aid olan nəzəri əsərlərini öz fəaliyyətləri üçün əsas götürməklə, mövcud olan təcrübə üzərində öz fəaliyyətlərini davam etdirirdilər. Elə bir təcrübə əldə edilmişdi ki, hətta Hindistandan və digər ərazilərdən də xəstələrin müalicə üçün Səfəvi hüdudlarına gəldikləri bildirilirdi.

Şah Təhmasibin hakimiyyəti illərində tibb elminin inkişafını əczaçılıqdan ayırmaq mümkün deyildir. Dövrün təbibləri xəstəlikləri müəyyənləşdirməklə bərabər, onların müalicəsi üçün gərəkli olan dərmanları da çox zaman özləri hazırlayırdılar. Bu məsələdə də zəngin bir təcrübə meydana gəlmişdi. Xüsusilə, dərman bitkilərindən istifadə sahəsində çox zəngin təcrübə və ənənə mövcud idi. Bu dövrün təbabətinin başqa bir xarakterik

cəhəti isə bu sahənin strukturlaşması idi. Şah Təhmasibin hakimiyyəti illərində həkimbaşı, əttarbaşı, münəccimbaşı kimi saray vəzifələri meydana gəldi. Həkimbaşı şahın və onun ailə üzvlərinin müalicəsi ilə, əttarbaşı isə saray əhli üçün dərmanların hazırlanması işləri işə məşğul idi. Bu vəzifə sahibləri şah və onun ailə üzvləri ilə birbaşa əlaqədə olduqlarından saray daxilində kifayət qədər böyük nüfuza da malik idilər.

### 3. Şah Təhmasibin Azərbaycan dilinə, ədəbiyyatına və mədəniyyətə qayğısı

Şah İsmayıl tərəfindən Səfəvi dövlətinin əsasının qoyulması ilə yalnız Azərbaycan dövlətçiliyi tarixində deyil, Azərbaycan ədəbiyyatı, mədəniyyəti, ictimai-siyasi fikir tarixində də keyfiyyətcə yeni bir səhifə açıldı. Şah Təhmasibin hakimiyyəti illərində isə Azərbaycanda ədəbi-mədəni təfəkkür və ictimai-siyasi düşüncə yeni bir məzmun kəsb etdi, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin və bir sözlə bütün yaradıcılıq sahələrinin inkişafına yeni bir yol açıldı. Nəticədə Azərbaycan dili, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, elmi yeni bir səviyyəyə yüksəldi, bu sahələr Şah Təhmasibin və Səfəvi sarayının hərtərəfli qayğısı ilə əhatə olundu və bununla, Şah İsmayıl dövründən başlayan ədəbi-mədəni dirçəlişin davamlılığı təmin edildi.

Məlumdur ki, Şah Təhmasib hələ gənc yaşlarında olanda səltənət daxilində musiqinin və onunla bağlı olan əyləncələrin məhdudlaşdırılması haqqında hökmlər vermişdi. Musiqinin bağlı olduğu sahələrdən biri də söz yaradıcılığı idi. Lakin Şah Təhmasibin məlum qadağaları söz yaradıcılığına şamil edilmədi ki, bu da onun hakimiyyəti illərində Şah İsmayılın şəxsində yeni zirvəsinə yüksəlmiş Azərbaycan dilli ədəbiyyatın və bütünlükdə söz yaradıcılığının, kitab işinin inkişafına münasib bir zəmin yaratdı.

Şah Təhmasibin hakimiyyəti illərində ədəbiyyatın, kitab işinin və Azərbaycan dilinin inkişafının bir sıra səciyyəvi xüsusiyyətləri vardır. Bu xüsusiyyətlərdən birincisi həmin sahələr üzrə çox dəyərli təcrübənin və ənənənin olması idi. Belə ki, Şah Təhma-

sibə qədər Azərbaycan ədəbiyyatı, Azərbaycan dili və Azərbaycanda kitab işi çox qiymətli bir inkişaf yolu keçmişdi, Nəsimi və Füzuli kimi böyük söz ustaları istər ədəbiyyat, istərsə də Azərbaycan dilli ədəbiyyat sahəsində özünəməxsus məktəblər yaratmışdılar və onların bu sahədəki xidmətləri Şah İsmayılın yaradıcılığı ilə daha da təkmilləşmişdi. Bu təcrübə və ənənə Şah Təhmasibin hakimiyyəti illərində Azərbaycan ədəbiyyatının və Azərbaycan dilinin inkişafına yaradıcı və səmərəli təsir göstərə bildi.

Şah Təhmasib hakimiyyəti illərində ədəbiyyatın və kitab işinin inkişafının digər səciyyəvi bir cəhəti Azərbaycan ədəbi dilinin XVI əsr ədəbi həyatının aparıcı göstəricilərindən birinə çevrilməsi idi (62). Şərq ədəbi və elmi-ictimai fikir sahəsində ərəb və fars dilinin xüsusi bir yeri olsa da, Azərbaycan dili nəinki Azərbaycan çərçivəsində, bütünlükdə bölgənin ədəbi dili səviyyəsində özünə yer tuta bilmişdi. Şah Təhmasib hakimiyyəti illərində isə bu tendensiya daha da gücləndirilidi, Azərbaycan dilinin istifadə imkanları daha da genişləndirildi.

Şah Təhmasibin hakimiyyəti illərində ədəbiyyatın və kitab işinin başqa bir səciyyəvi xüsusiyyəti isə heç şübhəsiz ki, Şah Təhmasibin özünün bədii yaradıcılığa və elmi-bədii yaradıcılıqda Azərbaycan dilində əsərlər yaradılmasına xüsusi bir rəğbət və meyllə yanaşması idi. Sözsüz ki, Şah Təhmasib zəngin ənənələri olan farsdilli ədəbiyyatın və fars dilində söz yaradıcılığının inkişafına da xüsusi maraq göstərirdi və onun hakimiyyəti illərində farsdilli ədəbiyyatın da çox gözəl nümunələri meydana gəlmişdi. Hətta Şah Təhmasib özü də qələmə aldığı təzkirəsini fars dilində yazmışdı. Bu dövrdə farsdilli ədəbiyyatın da inkişafda olduğunu istisna etmək olmaz. Amma diqqəti cəlb edən məqam odur ki, söz yaradıcılığı sahəsində fars dilinin bölgədə çox güclü təsiri olmasına baxmayaraq, Azərbaycan dilinə olan diqqət nəinki azalmadı, əksinə daha da gücləndi. Mütəxəssislərin fikrincə, bu diqqət, əslində, Səfəvi dövlətinin dil sahəsindəki siyasətinə çevrilmiş və bu da Azərbaycan ədəbi dilinin tərəqqisinə müsbət təsir göstərmişdi (63).

Şah Təhmasib dövründə ədəbiyyatın inkişafından danışarkən onun özünün yaradıcılığına toxunmamaq mümkün deyildir. Bu yaradıcılıq onun yazışmalarında, nəzm əsərlərində və təzkirəsində öz ifadəsini tapmışdı. Qeyd edildiyi kimi, Şah Təhmasibin yazışmaları da əslində, onun söz yaradıcılığının bir forması idi. Həm xarici dövlətlərin rəhbərləri ilə, həm də səltənət daxili yazışmalarında Şah Təhmasibin ədəbi təfəkkürünü də görmək mümkündür. Əvvəla, dövrün yazışmalarının xüsusi bir təcrübəsi və ənənəsi var idi və bu dövrdə Şah Təhmasib tərəfindən yazılan məktubların hər biri ədəbi əsər təəssüratı yaratmaqdadır. Bundan başqa dövrün yazışmalarında, o cümlədən də Şah Təhmasibin məktublarında çoxlu sayda nəzm parçaları var ki, onların bir çoxunun elə Səfəvi şahının özü tərəfindən yazıldığını da istisna etmək olmaz.

Şah Təhmasibin yazışmaları Azərbaycan dilinin inkişaf etdirilməsi baxımından da elmi-tarixi əhəmiyyət kəsb etməkdədir. Belə ki, Şah Təhmasibin rəsmi yazışmalarında Azərbaycan dilində olan məktub nümunələri ilə rastlaşmaq mümkündür. Mütəxəssislər də belə bir fikir irəli sürürlər ki, Şah Təhmasib tərəfindən məktubların Azərbaycan türkcəsində yazılması bu dilin rəsmi statusunun, Azərbaycan türkcəsində nəsr yaradıcılığının əyani təsdiqidir. Farsdilli mənbələrdə olmasa da, Osmanlı mənbələrində Azərbaycan türkcəsində yazılmış məktub nümunələri ilə rastlaşmaq mümkündür. Məsələn, Şahzadə Bayəzidin bağışlanması haqqında Şah Təhmasib tərəfindən şahzadə Sultan Səlimə göndərdiyi məktub Azərbaycan türkcəsində yazılmışdı (64).

Şah Təhmasibin Azərbaycan türkcəsində yazdığı qəzəli də günümüzə gəlib çıxmışdır. Həmin qəzəl onun Sultan Süleymana göndərdiyi qəzəldir. Bu qəzəl Türkiyə Milli Kitabxanasının yazma əsərlər kolleksiyonunda saxlanmaqdadır. Bu qəzəl həmin kolleksiyonda mühafizə olunan üç fərqli şer məcmuəsində yer almışdır. Fərqli şer məcmuələrində olduğu üçün bu qəzəlin redaktə fərqlərinə də rast gəlmək mümkündür (65).

Belə bir qəzəlin mövcudluğu Şah Təhmasibin ədəbiyyata və Azərbaycan türkcəsinə marağının daha bir əyani təsdiqidir.

Həmin qəzəl belə bir ehtimal yaradır ki, Şah Təhmasibin Azərbaycan türkcəsində xeyli sayda digər əsərləri də ola bilər. Çünki müvafiq təcrübə olmadan birdən-birə belə bir əsər ortaya gəlməzdi. Bu qəzəlin ortaya çıxması həm də, Şah Təhmasib hakimiyyəti illərində Azərbaycan dilli ədəbi mühitin olmasına bir işarədir. Ana dilində Şah Təhmasibin qəzəl yazması həm də bu dildə bədii yaradıcılığın təşviq edilməsi kimi də dəyərləndirilə bilər.

Şah Təhmasibin bu qəzəli iki dövlət arasında münasibətlərin kifayət qədər gərgin olduğu vaxtlarda yazılmışdı. Məlumdur ki, Osmanlı qoşunları Sultan Süleymanın rəhbərliyi altında dörd dəfə Azərbaycan üzərinə qoşun çəkmişdi. Bu hərbi yürüşlər həm də iki hökmdar arasında təhdidlər dolu yazışmalarla müşayiət olunurdu. Haqqında danışılan qəzəli həmin yazışmaların davamı kimi də qəbul etmək olar. Şah Təhmasib mənzum şəkildə iki tərəfli münasibətlərin məzmununu bu qəzəlində də ifadə etməyə çalışmışdı. Həmin qəzəl belə idi (66):

Şah-i Mərdān dövlətində geydügüm nārıncıdır
Nara qarşu durmazam zira məni nar incidir
Şah Süleymān gəldi bizdən el vilayət istədi
Bir yola qoyduq biz anı yol əri zar incidir
Xanəsindən çıxıban dağlara düşsə bir kişi
Bad əsər, baran yağar, zəhmət çəkər, qar incidər
Hər nə gəlmişdir cahana yol ilə gəlmişdürür
Bir qədəm təşra düşən biganəyi xar incidir.
Şah Təhmasibəm cahanda şah beşah nəsli-Əli
Yar ilə yar olmuşam, sanma məni yar incidir.

Sonuncu misranın bəzi elmi-tarixi ədəbiyyatda “Yar ilə yar olmuşam, sanma ki, əğyar incidir” variantı da vardır (67). Məna baxımından bu misra daha məntiqli təsir bağışlayır.

Göründüyü kimi, qəzəl cəmi beş beytdən ibarətdir. İlk beytdə Şahi-Mərdan dövləti dedikdə Şah Təhmasib Səfəvi dövlətini nəzərdə tutur. Bu ifadə ilə Şah Təhmasib həm də Səfəvi döv-

lətinin gücünə və əbədiliyinə bir işarə edirdi və Sultan Süleymanın da nəzərinə çatdırmaq istəyirdi ki, o, belə bir dövlətlə üz-üzə gəlmişdir. Əynindəki paltarın qırmızı rəngdə olmasına işarə etməsi isə bir tərəfdən qızılbaşların istifadə etdikləri qırmızı rəngdə olan qızılbaş papağına işarədir, bir tərəfdən də türk xaqanlarının daha çox üstünlük verdiyi qırmızı rəngdə olan paltarlara işarədir. Qırmızı rəng eyni zamanda odun, atəşin simvolu kimi də qəbul olunur. Bununla Səfəvi dövləti ilə qarşıdurmanın odla qarşıdurmaya bənzədilməsi də ehtimal oluna bilər. İkinci misrada "nara qarşı durmazam" deyəndə Şah Təhmasib atəşə qarşı dayanmağın düzgün olmadığını bildirirdi. Çünki bu atəş insanı yandıra bilərdi. Burada Şah Təhmasib heç şübhəsiz ki, Osmanlı qoşunlarına qarşı tətbiq etdiyi strategiyanın mahiyyətinə toxunurdu (bu barədə əvvəlki fəsildə danışılmışdır). Məlumdur ki, Osmanlı qoşunlarının mütləq üstünlüyü bəlli olduğu üçün, Şah Təhmasib müdafiə strategiyasını seçdi və Osmanlı qoşunlarının hücumuna məruz qalacaq əraziləri boşaldaraq səltənətin şərqinə doğru geri çəkildi. Bununla Şah Təhmasib özünü və qoşunları da real atəşdən qorumuş oldu. O da məlumdur ki, Şah Təhmasibin özünü atəşdən bu yolla qoruması son nəticədə onun uğuru ilə başa çatdı.

İkinci beytdə Şah Təhmasib bildirirdi ki, Sultan Süleyman Səfəvi dövlətinə hücum etməklə yeni vilayət ələ keçirmək iddiasında idi. Yəni, Səfəvi ərazilərini ələ keçirmək niyyətində idi və onda belə bir inam var idi ki, malik olduğu qoşunlarla Səfəvi hüdudlarındakı vilayətləri və elləri öz nəzarəti altına ala biləcəkdir. Əslində, Osmanlı qoşunları doğrudan da çox böyük güclə Səfəvi üzərinə hərəkətə başlamışdılar. Beytin ikinci misrasında ona işarə olunur ki, Osmanlı qoşunları geri çəkilən Səfəvi qoşunlarını təqib etmək üçün yola düşdülər və bu yol da qoşunları sınaqlarla üzbəüz qoydu.

Üçüncü beytdə ikinci beytdə ifadə olunmuş fikrin davamı öz əksini tapmışdır. Burada Osmanlı qoşunlarının Sultaniyyə yaxınlığında çox ağır hava şəraiti ilə qarşılaşmasına işarə edilmişdir. Şah Təhmasib əvvəlcə Sultan Süleymanın öz evini tərk

edərək dağlara düşməsinə toxunur. Sözsüz ki, Səfəvi şahı həm də Osmanlı sultanının arzuolunmaz iddialarla digər bir məmləkətin dağlarına üz tutduğuna işarə edirdi. Dağlarda isə insanları qar, yağış, tufan tuta bilər. Necə ki, Osmanlı qoşunlarını qar, yağış və tufan tutdu və nəticədə döyüşə girmədən Osmanlı qoşunları çox böyük itki ilə geri çəkilməli oldu.

Dördüncü beytdə Şah Təhmasib Osmanlı sultanını doğru yolda olmağa çağırırdı. O bəyan edirdi ki, cahanda olan hər şey öz yolunda olmalıdır, öz yolu ilə hərəkət etməlidir. Başqa sözlə, bununla Osmanlı sultanına qismətində olanlarla kifayətlənmək, öz yolundan sapınmamaq tövsiyə olunurdu. Çünki kimsə öz yolundan bir addım yayınsa onu tikanlar incidər. Yəni əzab- əziyyətlə qarşılaşmalı olar.

Beşinci beytdə isə Şah Təhmasib həm özünün şah nəslindən olduğunu xatırladır, həm də nəslinin imamlarla bağlandığını bildirir. Heç şübhəsiz ki, Səfəvi şahı burada bir tərəfdən məzhəb mənsubluğuna, bir tərəfdən də nəslinin seyidliyinə işarə edirdi. "Yar ilə yar olmuşam" ifadəsi isə təsəvvüfdən (təriqətdən) gələn bir anlayış olduğu güman edilə bilər. Yəni Şah Təhmasib ümidini müqəddəslərə bağladığını və bu müqəddəslər tərəfindən də heç vaxt ümidsizliyə buraxılmayacağını bəyan edirdi. Bu məsələ ilə bağlı Şah Təhmasibin təzkirəsində də uyğun fikirlər mövcuddur. Daha geniş mənada isə Şah Təhmasib yaradanın və müqəddəslərin onu Sultan Süleyman hücumları qarşısında qoruyacağına əmin olduğunu bildirirdi (68).

Sultan Süleyman da bəlli olduğu kimi, yaradıcılıq istedadına malik olan bir hökmdar idi. Onun da günümüzə qədər xeyli sayda ədəbi əsər nümunələri gəlib çatmışdır. Osmanlı sultanı Möhübbi, Məftuni və Acizi təxəllüsü ilə nəzm əsərləri yazmışdır. Şah Təhmasibin ikitərəfli münasibətlər üçün istəklərini özündə əks etdirən qəzəlinə də o, "incidir" rədifli qəzəli ilə cavab verdi. Sözsüz ki, Sultan Süleymanın yaradıcılıq istedadına malik olması haqqında Şah Təhmasibin məlumatı var idi və çox güman ki, ona göndərdiyi qəzələ cavabın da nəzmlə olacağını istisna etmirdi. Mütəxəssislərin fikrincə, iki hökmdarın belə məktublaşması türk

ozan sənətində mövcud olan atışmanı (söz qarşıdurmasını) xatırladırdı. Sultan Süleymanın Şah Təhmasibin yazdığı qəzələ göndərdiyi cavab qəzəli belə idi (69):

Ali-Osman dövlətində geydiyim turuncudur
Mürtədi-din olanı yer yitirir, nar incidir
Qaçıban qanda varasan, tərki-diyarın eyləyib
Xainin meracıdır, axır anı dar incidir
Seydi-nəxcir etməyə dağlarla dostsa bir kişi
Adətidir ovçunun, daim onu qar incidir
Görmədinmi, seyyidi sən yol ilə nə etdiyin
Sor elindən, Xan Səlim etdiyini, ar incidir
Şah Süleymanam, cahanda ali-Osman nəsliyəm
Sancağı-islam mənimdir, küfr iman incidir.

Sultan Süleymanın cavab qəzəlində həm qəzəlin ölçüləri (failatün, failatün, failatün, failün), həm də məzmun oxşarlığı saxlanılmışdır. Qəzəlinin ilk beytində Sultan Süleyman bir tərəfdən Ali-Osman nəslinə mənsub olduğunu, həm də sultan olduğu dövlətdə turuncu rəngdə paltar geydiyini bildirirdi. Osmanlı sultanları da taxtda oturan zaman daha çox turuncu rəngdə libas geyməyə üstünlük verərdilər və qəzəldə də buna işarə edilib. İkinci misradkı “yitirir” sözü “itirir” mənasında işlədilmişdir. Osmanlı sultanı bununla bildirmək istəyirdi ki, dinə mürtəd olanları yer itirəcək, atəş də incidəcək (yandıracaq). Bəllidir ki, Sultan Süleyman da, bütünlükdə Osmanlı sarayı da şiə məzhəbini qəbul etmir və bu məzhəbi küfr kimi qəbul edirdilər. O cümlədən, şiə məzhəbinə mənsub olanlar Osmanlı sarayının nəzərində mürtədlər idilər. Bu mənada Sultan Süleyman demək istəyirdi ki, şiə məzhəbinə mənsub olan mürtədləri yer udacaq, atəş də onları yandıracaqdır. Mütəxəssislərin fikrincə, beytin ikinci misrasında Sultan Süleyman həm də Quranın Bəqərə surəsinin 217-ci ayəsinə də işarə etmişdir. Həmin ayəydə belə bir məqama toxunulur ki, mürtədlər öləcəklər, cəhənnəmə vasil olacaqlar və əbədi atəşdə yanacaqlar.

İkinci beytdə Osmanlı sultanı Şah Təhmasibin Osmanlı qoşunları ilə döyüşə girmədən səltənətin içərilərinə doğru geri çəkilməsinə toxunmuşdur. Sultan Süleyman ona qarşı belə bir strategiyanın tətbiq ediləcəyini gözləmirdi və istəyirdi ki, böyük bir döyüş keçirməklə Səfəvi qoşunlarını, bütünlükdə isə Səfəvi dövlətini süquta uğratsın. Ona görə də o, Şah Təhmasibin öz diyarını tərk edib geri çəkilməsinə təəccübünü bildirirdi. Hətta bu çəkilməni xəyanət kimi də dəyərləndirirdi. Amma əmin olduğunu da bəyan edirdi ki, xain hara çəkilsə də, sonda ələ keçib dar ağacından asılacaqdır.

Üçüncü beytdə Sultan Süleyman öz yurdunu tərk edib Səfəvi hüdudlarına gəlməsinin onun üçün hər hansı bir narahatlıq yaratmadığını ifadə etmək istəmişdir. Hərfi mənada o bildirir ki, ov heyvanlarını ov etmək üçün ovçu dağlara dostluq edirsə (tez-tez dağlarda olursa) onun qardan-borandan inciməsi mümkün deyil. Bu hal onun adətidir. Çox güman ki, Sultan Süleyman bununla özünün fatehlik yürüşlərinə işarə etmək istəmişdir. Yəni Osmanlı sultanı demək istəyirdi ki, fatehlik yürüşləri zamanı dağlarda olmaq, qarla-tufanla qarşılaşmaq onun üçün bir adət olubdur və bu adət də onu narahat etmir. O cümlədən də Səfəvi hüdudları daxilində qarşıya çıxan çətinliklərin Osmanlı sultanını incitməyəcəyinə işarə olunurdu. Belə bir fikir də vardır ki, bu beytdə Sultan Süleyman Səfəvi üzərinə hücumu həm də ova getmək qədər asan bir iş olduğunu ifadə etməyə çalışmışdır.

Dördüncü beytdə Sultan Süleyman bir daha Səfəvi hüdudlarına aparan yolun onu incitmədiyini açıqlayırdı. Bununla bağlı o, atası Sultan Səlim Yavuzun Səfəvi hüdudlarına hücumunu xatırladırdı. Burada söhbət 1514-cü ildə Sultan Səlimlə Şah İsmayılın Çaldıran düzündəki qarşıdurmasından gedir. Sultan Süleyman bildirmək istəyirdi ki, yol çətinlikləri onun üçün elə də mühüm deyil. Necə ki, Sultan Səlim üçün mühüm olmadı və Şah Təhmasibin qorxutmaq istədiyi yol çətinliklərinə baxmayaraq Sultan Səlim həmin döyüşdə qələbə qazana bilmişdi. Osmanlı sultanının fikrincə, Çaldıran döyüşündəki uğursuzluq Səfəvi şahına ar olmalı idi və bu ar da onu incitməli idi.

Nəhayt beşinci beytdə Sultan Süleyman bir daha ali-Osman nəslində olduğunu xatırladırdı. O, eyni zamanda onu da xatırladırdı ki, islam bayrağı onun əlindədir, islamın əsil müdafiəçisi odur. Yəni sünni məzhəbinə mənsub bir dövlət kimi islamın da bu dövlətin timsalında yaşadığını və davam etdiyini bəyan edirdi. Sultan Süleyman eyni zamanda islam xəlifəsi idi. Burada həm də ona işarə vardır ki, islam xəlifəsi kimi islam bayrağını da o daşıyır. Osmanlı sultanı qəzəlini belə tamamlayırdı ki, onu incidən küfrdür. Küfr isə qeyd olunduğu kimi, şiə məzhəbinə mənsub olanlar, o cümlədən bu məzhəbin əsas tutulduğu Səfəvi dövləti idi. Bununla belə bir fikir də ifadə olunurdu ki, əgər onu incidən küfrdürsə, deməli küfrün axırına çıxmaq lazımdır. Yəni Sultan Süleyman belə bir hərbə-zorba ilə öz qəzəlini tamamlayırdı (70).

Elmi–tarixi ədəbiyyatda Sultan Süleymanın cavab qəzəlinin fərlqli variantı da vardır. Yuxarıda qeyd edildiyi kimi, bu qəzəllər Türkiyə milli kitabxanasında saxlanılan üç məcmuədə mövcuddur. Çox ehtimal ki, bu məcmuələr tərtib olunarkən qəzəl münşilər tərəfindən müəyyən redaktə düzəlişlərinə məruz qalmışdır. Sultan Süleymanın Şah Təhmasibə yazdığı cavab qəzəlinin fərqli variant isə aşağıdakı kimidir:

Şah Süleymanam, cahanda geydiyim narıncıdır
Səbbi əshab eyləyənləri yaxar, nar incidir
Ol Rəsuli-kibriyanü yarüvü əshabına
Gər sən iqrar eyləməzsən, bəlkə inkar incidir
Cümlə aləm bu cahana yoll getmiş dürür
Yoldan azğın olubən çıxanları xar incidir
Bərrü-bəhrin şahıyam, seyran dilər könlüm mənim
Pəs müsafir evini yövmi-şitakar incidir
Ali-Osmanam cahanda taleyim qüvvətlidir
Səltənət sədrində sana məni əğyar incidir (71).

Şah Təhmasibin təzkirəsi də dövrün ədəbi həyatının maraqlı hadisələrindən biri kimi dəyərləndirilə bilər. Bu əsərin birmənalı şəkildə Şah Təhmasibə mənsubluğu müəyyən müzakirələr və

mübahisələr obyekti olsa da, onun hazırlanmasında Şah Təhmasibin də iştirak etməsi şübhəsizdir. Şah Təhmasibin təzkirəsi forma baxımından dövrün nəsr ədəbiyyatı ənənələri üzərində qurulmuşdur. Bu əsərdə həm təhkiyə ilə, həm də nəzm parçaları ilə qarşılaşmaq mümkündür.

Hazırda Şah Təhmasibin təzkirəsi elm aləminə iki variantda məlumdur. Əsər fars dilində yazılmışdır. Bu əsərin birinci variantı "Təzkire-yi Şah Təhmasib" ("Şah Təhmasibin təzkirəsi"), ikinci variant isə "Mükalime-yi Şah Təhmasib ba elçiyani Rum" ("Şah Təhmasibin Rum (Osmanlı) elçiləri ilə söhbəti") adlanır. Əsərin üslubuna və birinci şəxsin adından yazılmasına görə onun elə Şah Təhmasib tərəfindən yazıldığı təsəvvürü yaranır. Bir çox tədqiqatçılar da bu əsərin Şah Təhmasib tərəfindən yazıldığını qeyd edirlər. Çünki bu əsərdə elə təfərrüatlar və konkret məqamlar vardır ki, başqalarının belə məqamları qələmə ala biləcəyi şübhəli görünür. Nəzərə alınsa ki, Şah Təhmasibin yazmaq istedadı var idi və təzkirənin də elə onun tərəfindən yazılması məntiqini qəbul etmək olar. Hətta mənbələrdə mövcud olan bəzi məlumatlar da təzkirənin Şah Təhmasibə mənsubluğu ehtimalını gücləndirir. Bununla bağlı tədqiqatçılar Şah Təhmasibin müasiri olmuş Xurşah ibn Qubad əl-Hüseyninin "Tarix-e elçi-ye Nizamşah" əsərindəki bir məlumata istinad edirlər. Həmin məlumatda deyilirdi: "971-ci (1563-1564) ildə Şah Təhmasib Qiya bəy qorçibaşını çoxlu hədiyyə ilə Tələngənə valisi Qütbşahın yanına göndərmişdi. Şah Təhmasib rumlularla olan müharibəsinin əvvəlindən məzkur tarixə qədər yuxuda və ayıqlıqda baş vermiş əhvalat və hadisələrin hamısını qeyd etdiyi bir neçə fəsildən ibarət əsərini də töhfə və hədiyyələrə əlavə etmişdi. Mən bu əsəri yazarkən Şah Təhamsib öz əsərini bizə verdi ki, onda olan bəzi xəbərləri və əhvalatları da qısa şəkildə qeyd edim" (72).

Bəzi tədqiqatçılar isə belə bir fikir irəli sürürlər ki, Şah Təhmasib təzkirəsinin meydana gəlməsində Səfəvi şahı qismən iştirak etmişdir. Özü də güman edilir ki, ("Şah Təhmasibin Rum (Osmanlı) elçiləri ilə söhbəti" bu təzkirənin hazırlanmasında əsas götürülmüşdür. Hər iki variantı Azərbaycan dilinə tərcümə edib

birlikdə çap etdirmiş tədqiqatçı Əbülfəz Rəhimov da belə bir fikirə daha çox üstünlük verir ki, "Şah Təhmasibin Rum (Osmanlı) elçiləri ilə söhbəti" Səfəvi şahının münşiləri tərəfindən qələmə alınmışdır. Belə ki, şahzadə Bayəzidin geri qaytarılması məsələsinin müzakirə edilməsi ilə bağlı 1562-ci ildə Qəzvinə gəlmiş Osmanlı elçiləri ilə Şah Təhmasibin söhbət və müzakirələri iki münşi tərəfindən qələmə alınmış və sonra da qələmə alınan yazı Şah Təhmasibə təqdim olunmuşdur. Güman edilir ki, "Şah Təhmasibin Rum (Osmanlı) elçiləri ilə söhbəti" adı ilə mövcud olan variant Şah Təhmasibin Osmanlı elçiləri ilə müzakirələrinin protokoludur. Şah Təhmasib isə münşilərin tərtib etdiyi yazını oxuduqdan sonra ona öz əlavələrini etmişdir. Nəticədə "Şah Təhmasibin təzkirəsi" də meydana gəlmişdir. "Şah Təhmasibin təzkirəsi"ndə "Şah Təhmasibin Rum (Osmanlı) elçiləri ilə söhbəti"ndə olmayan giriş hissə vardır. Güman edilir ki, həmin giriş hissə, yəni Səfəvi dövləti daxilində baş verən hadisələr haqqındakı məlumatlar Şah Təhmasib tərəfindən əlavə edilmişdi (73).

Şah Təhmasibin təzkirəsinin bu yolla meydana gəlməsi daha real görünməkdədir. Əgər bu variant qəbul edilsə belə, bu təzkirənin müəyyən hissəsinin Şah Təhmasib tərəfindən yazılması qəbul edilməkdədir. İstənilən halda, məlumdur ki, Şah Təhmasibin ədəbi istedadı ona bu və ya digər əsəri yazmaq imkanı verə bilərdi. Konkret olaraq təzkirəyə gəlincə isə, o da məlumdur ki, Şah Təhmasibin çox yaxşı yaddaşı var idi və bu yaddaşı əsasında hətta hakimiyyətə gəldiyi uşaqlıq yaşlarında baş verənləri də xatırlaya bilərdi. Amma onu da nəzərə almaq lazımdır ki, "Şah Təhmasibin Rum (Osmanlı) elçiləri ilə söhbəti"ni sadəcə olaraq protokol yazısı kimi qəbul edilməsi də tamamilə doğru olmazdı. İlk baxışdan da görünür ki, burada Şah Təhamsibin xatirələri daha geniş yer almışdır və həmin xatirələr sözsüz ki, münşilər tərəfindən ədəbi vəziyyətə gətirilmişdir. Təzkirədə olan məlumatdan göründüyü kimi, Şah Təhmasib də xatirələrinin sənədli və sübutlu olmasına xüsusi diqqət yetirirdi. Bununla bağlı "Şah Təhmasibin Rum (Osmanlı) elçiləri ilə söhbəti"nin başlanğıcında

müvafiq qeydlər vardır. Həmin qeydlər həm də təzkirənin necə meydana gəlməsi haqqında oxucuda müəyyən təsəvvür yarada bilər:

"Allahın hədsiz-hesabsız şükründən sonra peyğəmbər və imamlara, xüsusilə İmam Əliyə salavat və salamdan sonra xatırladaq ki, ulu Allah öz hikmətli və əziz "Quran"ında buyurur: "Ey Məhəmməd, xalqı gözəl nəsihətlər yolu ilə öz Allahını tanımağa və ona ibadət etməyə çağır və mülayimcəsinə onlar ilə söhbət et". Demək lazımdır ki, yuxarıdakı ayədə Allah öz peyğəmbərinə əmr edir: İslam dini ehkamlarının xalqa təbliğ edərkən aşağıdakı üslubdan birinə riayət etməlisən:

1.Müəyyən və qəti dəlillər ilə məqsədi sübut etmək;

2. Gözəl nəsihətlər ilə ürəyəyatan izahatlarla haqq sözü və həqiqəti aşkar etmək;

3. Aydın, əyani müqəddimələr ilə öz iddialarını müqabil tərəfə sübut etmək.

Yuxarıdakıları nəzərə alaraq əlahəzrət padşah – Allah onun hakimiyyətini əbədiləşdirsin – öz böyük babasının yolu ilə gedən və məqsədinə nail olan hökmdar (Şah Təhmasib) ona sığınan və Xandigarın oğlu Sultan Bayəzidi tələb etmək üçün gəlmiş Həzrət Xandigarın elçiləri ilə 969-cu (1561) ildə yuxarıda göstərilən üç üsluba riayət etməklə müzakirələr-danışıqlar apardı və ürəyəyatan və yolagətirici sözlər ilə söhbətə başlayaraq dedi:

Dəfələrlə Həzrət Xandigarın hüzuruna elçi göndərir və bəzi sifarişlər edirdim. Ancaq Həzrəti Xandigarın əzəmət və qorxusu elçilələrin könlündə elə bir dəhşət yaradırdı ki onlar nəinki təkcə bizim sözləri, hətta özlərini də unudurdular.

Həzrəti xaqan (Şah İsmayıl) vəfat edərək taxt-tacı mənə qoyub getdiyi 39 il ərzində həmişə arzum bu idi ki, həzrəti Xandigarın adamlarından bir nəfər buraya gəlsin və mən bu əhvalatı danışım. İndi Allaha şükür sizin kimi iki nəfər inanılmış mötəbər kişi, həzrət Xandigarın iki yüz iyirmi nökəri ilə birlikdə və habelə üç yüz nəfər sizin öz adamınız ilə bu söhbətləri dinləməyə hazır olubsunuz. Bu sözləri həzrət xandigara söyləyəcəksiniz. Əgər siz özünüz bu sözləri ona deməsəniz də, sizin adamlardan bir nəfər

bu sözləri Xandigara çatdıracaqdır. Əgər şəxsən Xandigara özünüz deyə bilməsəniz də öz paşalarınıza və qohumlarınıza söyləyin, bəlkə onların vasitəsilə də olsa, bu sözlər xandigara çatsın.

Əgər mətləblər yazılsa, bir kitab olur və beş fəsildə tərtib olunur" (74).

Göründüyü kimi, bu istinadın bir hissəsi 3-cü şəxsin adından deyilibdir. Ona əsaslanmaqla tədqiqatçılar əminliklə söyləyirlər ki, "Şah Təhmasibin Rum (Osmanlı) elçiləri ilə söhbəti" münşilər tərəfindən qələmə alınıbdır (75). Bununla belə, təzkirənin Şah Təhmasibin söylədikləri əsasında qələmə alınması şübhə doğurmur. "Şah Təhmasibin Rum (Osmanlı) elçiləri ilə söhbəti" qısa bir girişdən sonra beş fəsildə tərtib olunmuşdur. Onların adları belədir: Birinci fəsil – Ülamənin hekayəti, ikinci fəsil – Qazı xanın hekayəti, üçüncü fəsil – Əlqasın hekayəti, dördüncü fəsil – İsgəndər paşanın hekayəti, beşinci fəsil – Sultan Bayəzidin hekayəti. "Şah Təhmasibin təzkirəsi"ndə isə belə bölgü yoxdur. Bu variantda Allahın, islam peyğəmbərinin və həzrət Əlinin vəsfindən dərhal sonra Şah Təhmasibin hakimiyyətinin ilk illərində baş verənlərin təsviri başlanır. Təzkirədə olan başlıqlar isə bunlardır: Başqa fəsil. Qazı xanın əhvalatından cüzi bir [məlumat]; başqa bir fəsil. Əlqasib Mirzənin əhvalatı haqqında; fəsil.Sultan Bayəzidin hekayəti. "Şah Təhmasibin təzkirəsi" kimi tanınan xatirələrdə isə bu əsərin yazılma səbəbini Şah Təhmasib belə şərh edirdi: "Daha sonra, şəni yüksək olan Allahın bu zəif bəndəsi və sonuncu peyğəmbərin – Allahın ona və ailəsinə xeyir-duası olsun – aciz ümməti, onun vəsisinin (canişininin) və övladlarının onların hamısına Allahın duası olsun - sədaqətli qulu Təhmasib ibn İsmayıl ibn Heydər əl-Səfəvi əl-Musəvi əl-Hüseynin xatirinə gəldi ki, cülusumun (taxta çıxmağımın) əvvəlindən bu günə qədər əhvalımın nə cür keçdiyini, öz əhvalat və sərgüzəştlərimi qələmə alım ki, məndən sonra bir yadıgar kimi dünyada qalsın. Əziz övladlarımın və dostlarımın təlimatı olsun. Nə vaxt dostların nəzərinə çatsa, xeyir-dua ilə yad etsinlər. Süniliklə yazılmadığına və təmənnasız olaraq qələmə alındığına görə xırdaçılığa yol

vermәsinlәr, şәk-şübhә, yalan vә ikiüzlülük kimi nöqsanlardan uzaq bilsinlәr. Allah qurtarmağa kömәk etsin" (76).

Şah Tәhmasibin özünün dә qeyd etdiyi kimi, belә bir әsәrin meydana gәlmәsini o, tarixi faktların saxtalaşdırılmasının qarşısını almaq mәqsәdi ilә etmişdi. Belә bir әsәrin ortaya çıxması Azәrbaycanın hökmdarlar tarixindә yeni bir hadisә idi. Çünki Şah Tәhmasibә qәdәr digәr şahlar vә hökmdarlar öz tarixlәrini qәlәmә almamışdılar. Bu iş bir qayda olaraq saray münşilәrinә hәvalә olunurdu vә şahların tarixi dә münşilәr tәrәfindәn qәlәmә alınırdı. Elm alәminә indi çoxlu sayda belә әsәrlәr mәlumdur. Şah Tәhmasib isә hökmdarlar arasında ilk dәfә öz xatirәlәrini kitab halına salmış vә dövrün tarixinin yazılması zamanı ona istinad edilmәsini dә tövsiyә etmişdir.

Mütәxәssislәrin fikrincә, Şah Tәhmasib bu tәzkirәsini hind hökmdarı Zәhirәddin Mәhәmmәd Baburun yazdığı "Baburnamә" әsәrinin oxşarı olaraq qәlәmә almışdı (77). Hәmin әsәr dә Şah Tәhmasibin tәzkirәsini andıran memuar әdәbiyyatı üslubunda yazılmışdı. İstәnilәn halda qeyd edilmәlidir ki, Şah Tәhmasibin tәzkirәsi bu Sәfәvi şahının tarixinin öyrәnilmәsi baxımından dәyәrli bir mәnbәdir.

Şah Tәhmasibin tәzkirәsinin әsas dәyәri ondadır ki, bu әsәr Sәfәvi şahının dilindәn yazılmışdır vә bu әsәrdә haqqında danışılan hadisәlәr öz mötәbәrliyi ilә seçilir. Dövrә aid olan mәnbәlәrdәki mәlumatların tutuşdurulması da göstәrir ki, Şah Tәhmasib tәzkirәsinin mәlumatları baş verәn proseslәr haqqında obyektiv mәlumat kimi qәbul edilә bilәr. Bu mәnada bu әsәrdә cәrәyan edәn hadisәlәrә Şah Tәhmasibin münasibәtini, mövqeyini onun öz dilindәn eşitmәk imkanı vardır. Bir sözlә bu tәzkirәdә olan mәlumatlara istinad etmәklә digәr mәnbәlәrin mәlumatlarının etibarlılığı haqqında lazımi tәsәvvür formalaşdırmaq olar.

Şah Tәhmasibin baxışları vә düşüncәlәri әsasında bu tәzkirәdәn dövrün ümumi mәnzәrәsi haqqında daha әhatәli tәsәvvür әldә etmәk mümkündür. Bu әsәrdә haqqında danışılan әmirlәrin, әyanların demәk olar ki, hamısı qızılbaş әmirlәri vә әyanlarıdır.

Yəni dövrün ictimai-siyasi prosesinin aparıcı və müəyyənləşdirici qüvvəsi Azərbaycan türkləri, türk tayfaları idilər. Təzkirənin materiallarından aydın şəkildə görünür ki, Səfəvi dövlətinin dayağı da, Səfəvi hakimiyyəti daxilində əlavə nüfuz və mövqe uğrunda mübarizə aparanlar da qızılbaş əyan və əmirləri idi. Şah Təhmasib həm birbaşa, həm də dolayısı yolla səltənətin aparıcı qüvvəsinin türk tayfalarının olduğunu qələmə almışdı.

Bu təzkirə həm də elə Şah Təhmasibin özünün dünyagörüşünü, baxışlarını, inanclarını, həyata və insanlara münasibətini müəyyənləşdirmək baxımından ilkin mənbədir.

Təzkirə fars dilində yazılmasına baxmayaraq, onun dili xalq danışıq dilinə çox yaxındır. Yəni dövrə aid məlum olan salnamələrlə müqayisədə Şah Təhmasibin təzkirəsi daha sadə dildə yazılmışdır. Bu və ya digər fikirlərin təsdiq üçün Qurandan və hədislərdən sitatlar gətirilmiş, nəzm parçalarından istifadə olunmuşdur. Forma və janr baxımından bu təzkirə dövrün ənənələrinə əsaslandığı üçündür ki, xalq danışıq dilinə yaxın olan üsluba riayət olunmuşdur.

Belə bir əsərin meydana gəlməsi, bütünlükdə, Şah Təhmasibin hakimiyyəti illərində söz yaradıcılığına verilən dəyərin müəyyənləşdirilməsi baxımından da əhəmiyyətlidir. Şah Təhmasib özü də əlinə qələm almaqla bu işin gərəkliliyini ortaya qoyur və bununla digərlərini də söz yaradıcılığı ilə məşğul olmağa təşviq edirdi.

”Şah Təhmasibin təzkirəsi” kifayət qədər müxtəsərdir və sözsüz ki, Şah Təhmasibin 52 illik hakimiyyətinin tarixini bu müxtəsər əsərə sığışdırmaq mümkün deyildir. Görünür ki, heç Şah Təhmasib də buna səy göstərməmiş və onun hakimiyyəti dövründə baş vermiş daha maraqlı və daha əhəmiyyətli hadisələri və prosesləri qələmə almışdır. Ona görə də bu əsər həm də digər mənbələrdə öz əksini tapmış hadisələrin və proseslərin obyektivliyinin müəyyənləşdirilməsi üçün mötəbər bir sənəd rolunu oynayır.

Mövzu baxımından bu əsərdə öz əksini tapmış məsələlərə gəlincə, heç şübhəsiz ki, ilk növbədə Şah Təhmasibin etiqadı, dini

inancları, islami və məzhəb dəyərlərinə bağlılğı, bütün bu dəyərlərin onun şəxsi həyatında və dövlətçilik fəaliyyətində hansı yer tutması qırmızı bir xətt kimi keçmişdir. "Şah Təhmasibin təzkirə"si şərqin ədəbi abidələrinin yazılış ənənəsinə uyğun olaraq Allahın, peyğəmbərin və müqəddəslərin vəsfi ilə başlamışdır. Bütün əsər boyu da Şah Təhmasibin dini və məzhəb etiqadı özünü göstrəməkdədir. Onun bu etiqad baxışları həm təhkiyəsində, həm də əsərdə istifadə olunmuş nəzm parçalarında öz ifadəsini tapmışdır. Bu nəzm parçalarından bəzilərinin isə onun özünə məxsusluğu şübhə doğurmur. Məsələn, 20 yaşında olarkən günah və yüngül işlərdən tövbə etməsini xatırladarkən belə bir rübai yazdığını bildirirdi:

Bir qədər cilalanmış zümrüd ardınca getdim
Bir qədər tər yaquta aludə oldum
Hər cür şeyə aludəliyim vardı
Tövbə suyu ilə yudum, asudə oldum .

Və ya

Ki, haqdır cahanda mədədkar olan
Quluna yaman gündə qəmxar olan

Və ya

Ey deyən ki, dünya işlərinin axırı necə olacaq
Dostların ürəyi istədiyi kimi olacaq
Qeybin sirrindən elə bir hikmət üz verəcəkdir
Ki, ona iki çox dəqiq görən göz heyran qalacaqdır
Bu əlamət və nişanələri ki, biz gördük
Əvvəldə deyildiyi kimi olacaqdır
İş [ancaq] Mustafa və Mürtəza xanədanının əlindədir
Onlar necə istəyirlərsə, elə də olacaqdır (78)

Şah Təhmasibin təzkirəsində müqəddəs Qurana, hədislərə və şərqin böyük şairlərinin əsərlərinə istinadlar vardır. Məsələn,

Quranın "İnsan" ("Əl-Dəhr"), "əl-Hicr", "Bəqərə", "Ali-İmran", "əl-Ənfal", "əl-Ənbiya", "ən-Nisa", "Məhəmməd", "Maidə", "əl-Rəəd", "əl-Əsra", "əl-Kəhf", "əl-Əzhab", "ət-Təhrim", "əş-Şüəra", "əl-Mücadilə", "Hud" surəsinə, şərqin böyük şairlərindən isə Nizaminin, Hafizin, Sədinin, Hatifinin, Həsən Kaşinin əsərlərinə istinad edilmişdir. Bunlar da Şah Təhmasibin zəkasının, biliyini, təfəkkürünün zənginliyindən xəbər verir. Bu istinadlar nəql olunan mövzulara uyğun olaraq seçilmişdir.

Təzkirədə xüsusi diqqət ayrılan hadisələr arasında isə Şah Təhmasib hakimiyyətinin ilk illərində qızılbaş əmirləri arasında baş verən qarşıdurma, özbək və Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumu və onların qarşısının alınması, Sam Mirzə ilə Əlqas Mirzənin Səfəvi sarayına üzüdönüklüyü və Osmanlı şahzadəsi Sultan Bayəzidin Səfəvi sarayına pənah gətirməsi və onunla bağlı olan hadisələrdir. Bəzi qızılbaş əmirlərini asilik edərək Osmanlı sarayına sığınması və bununla bağlı cərəyan edən hadisələr haqqında da təzkirədə maraqlı məlumatlarla rastlaşmaq mümkündür.

Şah Təhmasibin hakimiyyəti illərində Azərbaycan dilinin, söz yaradıcılığının və kitab işinin inkişafına göstərilən qayğının ən yaxşı ifadəsi bir sıra sanballı ədəbi və elmi-tarixi abidələrin Azərbaycan türkcəinə tərcümə edilməsi və yayılmasıdır. Şərqin böyük əsərlərinin tərcüməsi və yayılması sahəsində Azərbaycanda artıq dəyərli bir təcrübə mövcud idi və Şah Təhmasibin hakimiyyəti illərində isə bu təcrübə özünün zirvəinə yüksəldi. Bir-birinin ardınca xeyli sayda ədəbi və elmi-tarixi əsərlər tərcümə olundu və onlar Azərbaycan dilli oxucuların və maraqlı dairələrin istifadəsinə verildi.

Şah Təhmasibin hakimiyyəti illərində Azərbaycan dilində tərcümə edilmiş iki əsərin adının xüsusilə qeyd edilməsinə ehtiyac vardır. Onlar – "Şühədənamə" və "Səfvətüs-səfa" əsərləridir. Bu əsərlərin hər ikisi Şah Təhmasibin sifarişi və qayğısı ilə Azərbaycan türkcəsinə tərcümə edilmişdir (79). Adları çəkilən əsərlərin Azərbaycan türkcəsinə tərcümə edilməsi yalnız Azərbaycan tərcüməçilik tarixində deyil, Azərbaycan dili, Azərbaycan

mədəniyyəti tarixində son dərəcə böyük əhəmiyyəti vardır. Həmin əsərlərin Şah Təhmasibin sifarişi ilə tərcümə edilməsi isə həm də bu işin siyasi əhəmiyyətindən xəbər verir. Belə ki, belə bir sifarişin Şah Təhmasib tərəfindən verilməsi onun Azərbaycan türkcəsinin inkişafına göstərdiyi qayğının, eyni zamanda Azərbaycan türkcəsinin səltənət həyatında önəmli rol oynamasının təsdiqi ola bilərdi. Bu əsərlərin hər ikisinin əsas mövzusunu dini məsələlər təşkil edirdi və dini dəyərlərin, məzhəb tarixinin öyrənilməsində, dini dəyərlərin canlı saxlanılmasında həmin əsərlər dövrün ən yayılmış əsərlərindən idilər. Amma görünür, bu əsərlərin yalnız fars dilində olması Şah Təhmasibi qane etmirdi. Ona görə də onun göstərişi ilə bu əsərlər Azərbaycan türkcəsinə tərcümə olundu ki, Səfəvi dövlətinin əsasını təşkil edən qızılbaş tayfalarının camaatı bu əsərləri öz ana dilində də oxuya bilsinlər.

Şah Təhmasib tərəfindən bu əsərlərin tərcümə etdirilməsi bir sıra qənaətlərin ortaya qoyulmasına əsas ola bilər. Adları çəkilən əsərlərin Azərbaycan türkcəsinə tərcüməsi, heç şübhəsiz ki, ilk növbədə Azərbaycan dilinin səltənət daxilində işlək bir dil olmasının göstəricisi idi. Bu həm də onunla əlaqədar ola bilərdi ki, türk tayfaları daxilində fars dili ünsiyyət və danışıq dili kimi tam şəkildə bərqərar olmamışdı və ona görə də Səfəvi dini ideologiyasnın möhkəmlənməsində elmi-tarixi əhəmiyyət kəsb edən bu əsərlərin Azərbaycan türkcəsinə çevrilməsinə ehtiyac yaranmışdı. “Şühədənamə”nin tərcüməçisi Məhəmməd Nişati bu əsərin tərcüməsinə yazdığı müqəddəmədə də bu məqamı təsdiq ediridi və bildirirdi ki, fars dilini bilməyən türk oymaqlarının sakinləri üçün öz tərcümələrini etmişdi (80). Belə bir ehtiyac həm də Azərbaycan türkcəsinin səltənət daxilində malik olduğu statusdan irəli gələ bilərdi. Dövrün məşhur əsərlərinin tərcümə etdirilməsi həm də Şah Təhmasibin öz ana dilinin inkişafına göstərdiyi qayğıdan da doğa bilərdi.

İstənilən halda, Şah Təhmasibin bu sifarişinin yerinə yetirilməsi ilə onun hakimiyyəti illərində Azərbaycan dilində iki böyük yazılı abidəni ortaya qoymaq mümkün oldu. Hər iki əsərin tərcüməçisi dövrünün təcrübəli tərcüməçisi və mahir xəttatı

Məhəmməd Nişatiyə məxsusdur. Mövcud olan məlumatlara görə, Məhəmməd Nişati 1502-ci ildə XV əsrin tanınmış ilahiyyatçısı və yazıçısı Hüseyn Vaiz Laşifinin "Rövzətüs-şühəda" (Şəhidlər bağçası) adlı əsərini də Azərbaycan türkcəsinə çevirmişdi (81). Yəni Şah Təhmasibdən sifariş alana qədər Məhəmməd Nişati artıq kifayət qədər tərcüməçilik təcrübəsinə malik idi və yəqin elə belə bir təcrübəyə malik olduğu üçün idi ki, "Şühədənamə" və "Səfvətüs-səfa" kimi əzəmətli əsərlərin tərcüməsi də Şah Təhmasib tərəfindən məhz ona tapşırılmışdı.

Məhəmməd Nişatinin həyatı və fəaliyyəti haqqında mənbələrdə yetərli məlumat qalmamışdır. Amma çox ciddi əsərlərin tərcüməsi ilə məşğul olması, bu tərcümələrin daxilində özünə məxsus nəzm parçalarından istifadə etməsi onun savadlı, bilikli, yaradıcılıq istedadına malik bir adam olduğunun göstəricisidir. Başlıcası isə Məhəmməd Nişati Azərbaycan türkcəsinə dərindən bələd idi və bunun nəticəsi idi ki, tərcüməçilik fəaliyyəti ilə də məşğul olurdu. Doğrudur, onun tərcümələrində ərəb və fars ifadələri də az deyildir. Lakin bu da dövrün ədəbi və rəsmi yazı normalarından irəli gəlirdi. Bununla belə, Məhəmməd Nişati özündən sonra Azərbaycan dilində çox böyük abidələr miras qoya bilmişdi.

"Şühədənamə" əsərini Məhəmməd Nişati 1539-cu ildə, "Səfvətüs-səfa" əsərini isə 1543-cü ildə tərcümə edib başa çatdıra bilmişdi. Hər iki əsərdə də tərcüməçi tərcümə işini Şah Təhmasibin sifarişi ilə üzərinə götürdüyünü açıqlamışdı. "Şühədənamə" əsərinin tərcüməsinin əvvəllində Məhəmməd Nişati Şah Təhmasibin adını çəkmiş və hətta onun mədhinə bir nəzm parçası da həsr etmişdi.

"Şühədənamə" adından da göründüyü kimi, şəhidlərə, daha doğrusu Kərbəla şəhidlərinə həsr olunmuş bir tarixi əsər idi. Bu əsərdə islam aləmi üçün faciəvi bir hadisə kimi yaddaşlarda qalmış Kərbəla hadisələrinin tarixi mənzərəsinin yaradılmasına cəhd göstərilmişdi. Məzhəb tarixinin öyrənilməsi baxımından bu əsər Səfəvi sarayı üçün xüsusi əhəmiyyət kəsb edirdi və ona görə

də bu əsərin daha geniş kütləyə çatdırılması kimi böyük bir iş aparılmışdı.

Tərcümə zamanı sözsüz ki, əsərin orijinallığının saxlanmasına cəhd göstərilmişdir. Amma orijinalın tərcümə ilə müqayisəsi göstərir ki, "Şəhədənamə" əsərində qısa ixtisarlara yol verilmiş, tərcüməçinin özünə məxsus olan bir sıra nəzm parçaları isə tərcüməyə əlavə edilmişdir. Mütəxəssislərin apardığı araşdırmalar göstərir ki, Məhəmməd Nişati tərcümə zamanı Azərbaycan türkcəsinin əsaslı xüsusiyyətlərini saxlamağa çalışmış (82) və bu gün də elmi-tarixi əhəmiyyətini itirməmiş bur əsər yaratmağa müvəffəq olmuşdu.

Məhəmməd Nişatinin tərcümə yaradıcılığının digər möhtəşəm abidəsi olan "Səfvətüs-səfa" əsəri də ana dili tariximizin böyük nümunələrindən biridir. Bu əsər elm aləmində "Şeyx Səfi təzkirəsi" adı ilə də məşhurdur. Əslində, Məhəmməd Nişati özü də "Səfvətüs-səfa"nın tərcüməsini "Şeyx Səfi təzkirəsi" adlandırmışdır və bu əsərin meydana gəlməsi üçün bir neçə il gərgin şəkildə çalışmalı olmuşdu.

"Səfvətüs-səfa" əsəri XIV əsrdə Dərviş Təvəkkülü ibn İsmayıl ibn Hacı Təvəkkülü Ərdəbili tərəfindən yazılmışdır. Elmi-tarixi ədəbiyyatda İbn Bəzzaz kimi tanınan bu müəllifə Səfəvi xanədanının əsasını qoymuş Azərbaycanın və bütün islam aləminin böyük arifi və fazili Şeyx Səfiəddin haqqında belə bir kitab yazmağı Şeyx Səfinin oğlu Şeyx Sədrəddin sifariş vermişdi. Kitabın əsasını da elə Şeyx Sədrəddinin xatirələri təşkil edir. Müəllif onun xatirələri və danışıqları əsasında Şeyx Səfiəddinin həyat və ürfan yolunun mənzərəsini yaratmağa çalışmışdır.

Şah Təhmasibin ulu babası Şeyx Səfiəddinə böyük ehtiramla yanaşması məlumdur və Şeyx Səfiəddinə həsr olunmuş möhtəşəm bir abidənin Azərbaycan türkcəsinə tərcümə edilərək kütləviləşməsi və türk tayfaları üçün anlaşıqlı edilməsi də həmin ehtiramın nümayişidir. Bu əsərdə Səfəvi dövlətinin dini-ideoloji bazasının mahiyyətini müəyyənləşdirmək baxımından son dərəcə zəngin elmi-dini baxışlar və biliklər mövcuddur. "Səfvətüs-səfa" əsəri sadəcə olaraq Şeyx Səfiəddinin həyat yolunu əks etdirən bir

əsər deyildir. Bu əsərdə şəriət elmi haqqında, din tarixi haqqında, təriqət normaları haqqında, islam dininin mahiyyəti haqqında son dərəcə dəyərli biliklər vardır. Yəni öz əhatə dairəsinə və mövzularına görə "Səfvətüs-səfa" Şeyx Səfiəddinin həyat yolunun tarixi olmaqdan xeyli kənara çıxırdı və islam dəyərlərinin və şəriət elminin öyrənilməsi üçün son dərəcə əhəmiyyətli bir vəsait idi.

"Səfvətüs-səfa" eyni zamanda Azərbaycan həyatını, Azərbaycan türklərinin həyatını, Azərbaycan insanının yaşayışını, düşüncələrini, təfəkkürünü, həyat tərzini çox geniş şəkildə əks etdirən bir əsərdir. Şeyx Səfiəddinin bir-iki səfəri istisna olmaqla bu əsərdə öz əksini tapmış demək olar ki, bütün proseslər Azərbaycan arealında cərəyan edir. XIII-XIV əsrlərdə Azərbaycan həyatının öyrənilməsi baxımından bu əsər çox qiymətli bir mənbədir. Heç şübhəsiz ki, bu məqam da Şah Təhmasibin nəzər-diqqətini cəlb etmişdi və türk həyatı ilə bağlı olan və elə türk müəllif tərəfindən yaradılan bu əsərin Azərbaycan türkcəsinə tərcüməsinə göstəriş vermişdi. Elm aləminə "Səfvətüs-səfa"nın qismən tərcümə edilməsi də məlumdur (83) və ola bilər ki, həmin tərcümə də Şah Təhmasibin adı çəkilən əsərin tərcüməsinə olan marağın bir ifadəsi olmuşdur.

Şah Təhmasib tərəfindən "Səfvətüs-səfa"nın ilkin variantına müəyyən düzəlişlərin edilməsi barəsində göstəriş verməsi də elm aləminə bəllidir. Tədqiqatçıların fikrincə, Şah Təhmasib mənsub olduğu nəslin seyid və şiə məzhəbinə mənsubluğunun daha aydın şəkildə göstərilməsini Əbülfət Hüseyni adlı birisinə tapşırmış və o da uyğun düzəlişləri "Səfvətüs-səfa"ya daxil etmişdi (84).

Bu əsərlə bağlı Şah Təhmasibin diqqətini daha çox cəlb edən isə onun Azərbaycan türkcəsinə tərcüməsi olmuşdu. "Səfvətüs-səfa" əsəri məlum olduğu kimi, kifayət qədər həcmli bir əsərdir və onun tərcümə edilib başa çatdırılması böyük və uzunmüddətli bir zəhməti tələb edirdi. Məhəmməd Nişati də bu ağır işi boynuna götürərək onu uğurla başa çatdırmışdı. Əsərin Şah Təhmasibin sifarişi ilə tərcümə edilməsini Məhəmməd Nişati girişdə xatırlatmışdır. O özünü tərcümənin girişində belə təqdim edirdi: "Fəqirlərin bəndəsi və dərvişlərin ayağı torpağı Məhəmməd ibn

Hüseyn əl-Katib yərəf be-Nişati kim, Şirazun şəhərində bir bucaqda oturub, təmami-ovqati dərvişlik ilən Tanrının taət ilən ibadətinə keçirür və sələvati-xəmsədən sonra həzrət şahi-aləmpənahın duasına kim, taəti cəmiyi-xəlayiqə vacibdir, məşğul olur" (85).

Bu sətirlərdən göründüyü kimi, Məhəmməd Nişati Şirazda dərviş həyatı keçirən bir fazil insan idi və "Səfvətüs-səfa" əsərinin tərcüməsi üzərində də həmin şəhərdə işləmişdi. Bu əsərin tərcüməsinin səbəbinə gəlincə isə Məhəmməd Nişati belə yazırdı: "Əkməlül-mükəmməlin və əfzəliüi-mühəqqiqin məşhurül-afaqüs-sultan Şeyx Səfiyül-Həqq vəl-millət vəd-din İshaq (q.s.) əl-Əziznün sirəti gördi, xatiri-fatirində keçdi kim, çün həzrət Şeyxün təzkirəsi kim, əksəri-rəvayəti həzrət qütbül-əqtab fil-məşariq vəl-məğarib mürşidüs-səqəleyn ila təriqül-Həqq vəs-səvab məna dənizinin qəvvası və həzrət Rəbbüləlmün xassül-xassı "il məəllah" hərəminin məhrəmi və Xızır ilə İlyasın həmdəmi, kəhfül-möminin və məlazül-müslimin sultanül-məşayix fil-aləmeyn seyyidina və mövlana Şeyx Sədrül-həqq vəl-millət vəd-din Musa rəvvəhəllahü ruhəhü dilindən nəql oldi və həm ol həzrətün söhbətində farsi dili ilən yazılmış idi və türk talibləri ilə sufilər parsi dili anlamazlar və məlum etmədügindən faidəsindən məhrum qalurlar, əgər türkiyə dönsə, qamu türk müridləri, bəlkə bitün Türkistan adamları andan faidələr görərlər, bəqayət müstəhsəndür" (86).

Məhəmməd Nişati "Səfəvətüs-səfa"nı tərcümə etməklə ana dilində elə bir abidə yaratdı ki, nəinki onun zamanında, elə indinin özündə də öz əhəmiyyətini və aktuallığını itirməyibdir. Baxmayaraq ki, bu əsərin müəyyən hissələrinin, xüsusilə Quran ayələrinin, hədislərin, digər istinadların ərəb dilində olan mətnlərinin şərhində ərəbdilli ifadələrin çox işlənmiş və bu da fars dilli "Səfvətüs-səfa"nın dilini çətinləşdirmişdi, amma Məhəmməd Nişati həmin hissələri də çox ustalıqla tərcümə etmişdi. Bununla o, Azərbaycan türkcəsinin ifadə imkanlarının genişliyini də ortaya qoymuşdu.

Tərcümə zamanı "Səfvətüs-səfa"nın quruluşu, üslübu olduğu kimi saxlanılmışdır. Bu əsər tərcümədə də dibaçədən, müqəddimədə, 12 babdan və xatimədən ibarətdir. Hər baba da çoxlu sayda fəsillər daxildir. Tərcümədə müxtəsər ixtisarlara yol verilmişdir. Eyni zamanda əsərin dibaçəsinə də qismən dəyişiklik edilib. Dibaçədə tərcüməçi tərəfindən tərcümənin səbəbi göstərilib və Şah Təhmasibin mədhinə 30 beytdən ibarət nəzm parçası verilmişdir. Bu nəzm parçası həm əsərin dilinin anlaşıqlığı, həm də Şah Təhmasibin xarakterinin başa düşülməsi baxımından maraq kəsb edir. Bunu həmin nəzm parçasının bu sətirləri də təsdiq edə bilər:

Bu dərvişi sevən şahı, ilahi
Ki, aləm əhlinündür padşahı.
Səlatin eşigində bəndə qılgil,
Zilali-dövləti payəndə qılgil.
...Gecə taət qılır, gündüz ədalət,
Verür xəlqi-cəhanə istimalət.
Səfiyyül-əsfiyanun məzhəridir,
Xilafət mədəninün gövhəridür.
Ana tovfiqi-taət Həqq verübdür,
Xilafət doni Tanrı geydürübdür.
Bihımdüllah ki, şahın dövlətindən,
Cəhan arıldı oğrı zəhmətindən.
Ki, gər bir yük qızıl başinə alsa,
Yapayalğuz kişi yabandə qalsa,
Kimin var zəhrəsi yanına varmağ?
Bir altıncə anun malın aparmağ? (87).

"Şühədənamə" və "Səfvətüs-səfa" əsərlərinin Şah Təhmasibin sifarişi və qayğısı altında tərcümə edilməsi heç şübhəsiz ki, bu sahəyə rəğbət göstərilməsinin nümayişi idi. Ona görədir ki, Azərbaycanda əsası daha əvvəldən qoyulmuş olan tərcüməçilik məktəbi Şah Təhmasibin hakimiyyəti illərində daha da təkmilləşdi və Azərbaycan mədəniyyətinin ayrıca bir qolu kimi inkişafını davam etdirdi. Nəticədə bir-birinin ardınca Azərbaycan

dilinə çox maraqlı əsərlərin tərcüməsi həyata keçirildi. Belə tərcümələrin arasında Həzini adlı müəllifin "Hədisi-ərbəin", Məhəməd Füzulinin "Hədisi-ərbəin" və "Hədiqətüs-süəda", "Səfvətüs-səfa" əsərinin qismən tərcüməsi olan "Mənaqibi-Şeyx Səfi", Xızır ibn Əbdülhadi Bəvazicinin "Kəvamilüt-təbir" tərcüməsi, Mahmud Şirvaninin "Xəridətül-əcaib və fəridət əl-qəraib" tərcümələrini göstərmək olar (88).

Məhəmməd Füzuli Bağdad şəhəri Osmanlı dövlətinin nəzarəti altına keçdikdən sonra Səfəvi hüdudlarından kənarda qalsa da, onun Azərbaycan ədəbi mühitindən kənarda qaldğını sözsüz ki, söyləmək olmaz. Heç şübhəsiz ki, onun tərcümə ilə məşğul olması da Azərbaycan hüdudlarında tərcüməçiliyə göstərilən diqqətlə bir bağlılığı var idi.

Yuxarıda adları göstərilən tərcümə əsərləri hazırda elm aləminə məlum olan əsərlərdir. Amma Şah Təhmasib dövründə azərbaycandilli ədəbiyyatın inkişafına və dövrün məşhur əsərlərinin Azərbaycan türkcəsinə tərcümə edilməsinə göstərilən qayğını nəzərə almaqla belə əsərlərin çox olduğunu da istisna etmək olmaz. Elə yuxarıda adları çəkilən əsərlərdən görmək mümkündür ki, mövzu baxımından da tərcümə olunan əsərlərdə bir rəngarənglik vardır. Məsələn, "Kəvamilüt-təbir" əsəri yuxuyozmalara həsr olunmuşdu. "Xəridətül-əcaib və fəridət əl-qəraib" əsərində isə səyahətnamə xarakteri daha güclüdür və bu əsər ərəb dilindən tərcümə edilmişdi. İstənilən halda bu əsərlərin tərcüməsinin Azərbaycan türkcəsinin inkişafındakı rolu danılmazdır və onların meydana gəlməsi Şah Təhmasibin hakimiyyəti illərində bu sahəyə ayrılan diqqətin əyani bir nəticəsi idi.

Ədəbiyyatın və xüsusilə, azərbaycandilli ədəbiyyatın inkişafına Şah Təhmasibin diqqət və marağının nəticəsi idi ki, onun hakimiyyəti illərində azrəbaycandilli ədəbiyyatın inkişafının yeni bir səhifəsi açıldı. Sözsüz ki. Belə zəngin bir səhifənin açılması üçün ciddi bir baza və ənənə də mövcud idi. Şah İsmayılın hakimiyyəti illərində onun özünün Azərbaycan türkcəsində olan yaradıcılığı Şah Təhmasib dövrü yaradıcılığına da yaradıcı bir təkan verirdi. Şah Təhmasibin ana dilinin inkişafına olan qayğısı

isə bu istiqamətdə yeni bir səhifə açılmasına əlverişli bir zəmin oldu.

Şah Təhmasib dövründə Azərbaycan türkcəsində yaranan ədəbiyyatın zirvəsi, sözsüz ki, Məhəmməd Füzuli idi. O, Bağdadda yaşayıb yaradırdı və bu şəhər 1534-cü ilə qədər Səfəvi hüdudlarına daxil idi. 1534-cü ildə Bağdadın Osmanlı dövlətinin nəzarəti altına keçməsindən sonra da Məhəmməd Füzuli Azərbaycan və azərbaycandilli ədəbi mühitinin dayaqlarından biri idi. Bu baxımdan Şah Təhmasibin hakimiyyəti illərində azərbaycandilli ədəbiyyatın yeni və dəyərli nümunələrinin yaradılmasında Məhəmməd Füzuli yaradıcılığının təsiri danılmazdır.

Şah Təhmasib hakimiyyəti illərində azərbaycandilli ədəbiyyatın yaranmasında Xəzani, Həqiri Təbrizi, Məhəmməd Əmani, Fədayi Təbrizi, İlahi Ərdəbili, Ziyayi, Xülqi, Allahi kimi söz ustaları qələm sınamışdılar. Hamidi, Haşimi, Şahi, Süruri, Tüfeyli, Həbibi, Xəlili, Matəmi, Qasımi, Gülşəni, Bidari, Sahibi, Pənahi, Hafiz, Xəlifə, Bəsiri, Mir Qədri, Mühyiddin Məhəmməd kimi şairlər və qələm sahibləri isə Osmanlı Türkiyəsinə və digər ölkələrə mühacirət etsələr də (89) onlar da Azərbaycan ədəbi mühitində formalaşmış söz ustaları idi və ana dilli ədəbiyyatın formalaşmasında onların da özünəməxsus rolu var idi.

Şah Təhmasibin hakimiyyəti illərində səltənət daxilində elə bir yaradıcı ədəbi mühit formalaşmışdı ki, hətta onun özü ilə bərabər qardaşları Bəhram Mirzə, Əlqas Mirzə və Sam Mirzə, habelə Şah Təhmasibin qızı Pərixan xanım, oğlu İsmayıl Mirzə, Şah Təhmasibin qardaşı Bəhram Mirzənin oğlu İbrahim Mirzə də bədii yaradıcılıqla məşğul olurdular. Onların hər birinin ədəbi yaradıcılığının nümunələri günümüzə qədər gəlib çatmışdır (90). Şah Təhmasib ailəsinin digər üzvlərinin, nəvə və nəticələrinin də söz yaradıcılığı ilə məşğul olması haqqında məlumatlar mövcuddur. Yəni Şah Təhmasibin ailə üzvləri və yaxınları arasında elmə, biliyə, söz yaradıcılığına xüsusi bir meyl var idi və şübhəsizdir ki, Şah Təhmasibin bu sahəyə rəğbətli münasibəti olmasaydı onun ailə üzvləri arasında da söz yaradıcılığına belə bir münasibət olmazdı.

Yuxarıda adları çəkilən şahzadələr arasında İbrahim Mirzənin yaradıcılığı xüsusi diqqət çəkir. Müxtəlif məxəzlərdə və təzkirələrdə onun xeyli sayda əsərləri bu günə qədər gəlib çatmışdır ki, bunlar da bu şahzadənin kifayət qədər istedadlı bir qələm sahibi olmasından xəbər verir. Mövcud olan məlumatlar onu göstərir ki, Şah Təhmasib də ona xüsusi qayğı ilə yanaşırdı və hətta qızı Sultənəm xanımı ona nikah etdirmişdi. O da məlumdur ki, İbrahim Mirzə uzun müddət Xorasan hakimi olmuşdu və bu vəzifəyə də o, Şah Təhmasib tərəfindən təyin olunmuşdu. Digər Səfəvi şahzadələri kimi, İbrahim Mirzə də kiçik yaşlarında bilik və savad almaqla məşğul olmuş və kifayət qədər zəkalı bir insana çevrilmişdi. O, türk və fars dillərini kamil öyrənmişdi, söz yaradıcılığının bir çox sirlərinə bələd olmuşdu və hələ gənc yaşlarından da gözəl şerlər qoşmağa başlamışdı. İbrahim Mirzə ədəbi əsərləri üçün Cahi təxəllüsünü seçmişdi. Onun həm fars dilində, həm də türk dilində dolğun şerləri vardır. Dövrün mənbələri Sam Mirzənin 3 min beytə yaxın irsinin olduğunu yazırdılar. Bir sıra mənbələrdə və təzkirələrdə isə onun nəzm əsərlərindən parçalar günümüzə qədər gəlib çatmışdır (91).

İbrahim Mirzənin təzkirə yazması haqqında təsdiq olunmamış məlumatlar vardır. Bəzi elmi-tarixi ədəbiyyatda onun "Fərhəng-e İbrahimi" adlı təzkirəsinin olması haqqında məlumat verilir. Bəzi ehtimallara görə isə həmin təzkirə İbrahim Mirzəyə deyil, Şah İsmayılın vəziri olmuş Mirzə şah Hüseynin oğlu olan Mirzə İbrahimə məxsusdur (91a). Bununla belə, İbrahim Mirzənin dövrün ədəbi prosesi ilə yaxından maraqlandığını istisna etmək olmaz.

Mənbə məlumatlarına görə, İbrahim Mirzənin çox zəngin kitabxanası olmuşdu. Bu kitabxanada Şərqin böyük mütəfəkkirlərinin və söz ustalarının ən məşhur əsərləri toplanmışdı. Eyni zamanda İbrahim Mirzə kitabxanasında tanınmış rəssamların çox nəfis minüatürləri və qrafik rəsmləri də toplanmışdı. Təbriz rəssamlıq məktəbi tanınmış üzvü olan Behzad tərəfindən çəkilmiş çoxlu qiymətli rəsmlər də İbrahim Mirzənin kitabxanasında saxlanılırdı. Yenə də mənbələrdə olan məlumata görə, İbrahim Mirzə kitabxanasında toplanmış kitabların və rəsmlərin dəyəri o

qədər böyük idi ki, onu bir məmləkətin topladığı xəracla ödəmək mümkün deyildi. Xorasanda hakim olduğu zamanlar Sam Mirzə Hindistana gedib-gələn arif və fazil insanları bir müddət yanında qonaq saxlayar və onların söhbətlərinə qulaq asmağı xoşlayardı. Bu insanlarla fikir mübadiləsi etmək onun özünü də zənginləşdirərdi. Dövrün elm və bilik adamları arasında Sam Mirzə özünə böyük ehtiram qazana bilmişdi və Xoca Hüseyn Sənayi adlı bir şair onun mədhinə "Saqinamə" adlanan bir qəsidə də yazmışdı. II Şah İsmayılın hakimiyyəti illərində onun həyatına son qoyulmuş və qətlə yetirilmişdi (92).

İbrahim Mirzənin söz yaradıcılığının aparıcı istiqamətini onun anadilli əsərləri təşkil edirdi. Günümüzə gəlib çatmış anadilli nəzm əsərləri İbrahim Mirzənin xalq dilinə necə dərindən bələd olmasını nümayiş etdirir və bu əsərlər XVI əsr anadilli ədəbiyyatın ən yaxşı nümunələrindən sayıla bilər. Bu şerlər həm də Şah Təhmasibin hakimiyyəti illərində xalq arasında rəvac olan Azərbaycan türkcəsinin nə qədər sadə, anlaşıqlı və axıcı olmasının göstəricisidir. Şah Təhmasib də bu dildə danışırdı, onun sarayında müxtəlif məqamlara sahib olmuş insanlar da, Səfəvi sarayının şahzadələri də. İbrahim Mirzənin Azərbaycan tədqiqatçıları tərəfindən üzə çıxarılaraq çap etdirilmiş əsərləri bu deyilənlərin də təsdiqi ola bilər (93).

Məni böylə zar eyləmə,
Gül üzlü sərvi-rəvanım,
Aman dilbər, aman dilbər.
Mən necə səni görməyim.
Dərdə giriftar eyləmə,
Həsrətindən çıxdı canım,
Aman dilbər, aman dilbər.
Mən necə səni görməyim?

Qeyr ilə həmsüxən olma,
Ol dəm gəlməzsən yanıma,
Bəlayi-canü tən olma;
Gəl girməgilən qanıma

Mana böylə düşmən olma,
Görmədüm yütəm canıma
Aman dilbər, aman dilbər.
Mən səni necə görməyim?
Bir dəm mana yar ola gör,
Qəmi deyənlə qəmxarum
Mərhəmi-əsrar ola gör;
Həddən aşdı intizarım.
Qəmimə qəmxar ola gör, -
Ey vəfasız gösəl yarım,
Aman dilbər, aman dilbər.
Mə səni necə görməyim?
Gözdən qanlu yaşum axdı,
Könül hicründən xəstədür,
Hicrin məni oda yaxdı;
Qəm kuyində paybəstədür.
Həsrətindən canım çıxdı, -
Rəhm eyləmək xub nəstədür,
Aman dilbər, aman dilbər.
Mən səni necə görməyim?
İbrahim der, gözəl xanım,
Bəs ki, göz tökdü qanlu yaş,
Çıxdı əflakə əfğanım;
Məni qıldı alımə faş.
Hicrində qalmadı canım, -
İbrahim der, ey bağrı daş,
Aman dilbər, aman dilbər.
Mən necə səni görməyim?

Şol zamanın cövhərindən,
Könül, incinmə, səbr eylə.
Əhli-aləmin tövründən,
Könül, incinmə, səbr eylə.

Fələk sana cəfa qulur,
Görəlim kim, sonu nolur
Bu dünyadur, böylə olur,
Könül, incinmə, səbr eylə.
Seyli-qəm cuş edib daşdı,
Möhnətü-qəm həddən aşdı,
Neyləyəlim, böylə düşdi,
Könül, incinmə, səbr eylə.
Necə kim, bidad etmələr,
Sənin qətlünə yetmələr,
Necə səni incitmələr,
Könül, incinmə, səbr eylə.
İbrahim der: ol sərvi-naz,
Olmaz bizə məhrəmi-raz,
Həq kərimdür, böylə qalmaz,
Könül, incinmə, səbr eylə.

Şah Təhmasibin yaxınlarının bədii yaradıcılığının günümüzə gəlib çatmış nümunələri arasında diqqəti daha çox cəlb edən əsərlərdən biri də Sam Mirzənin “Töhfeyi-Sami” təzkirəsidir. Bu təzkirə kifayət qədər həcmli bir əsər olmaqla dövrün ədəbi mühitinin qiymətləndirilməsi baxımından da dəyərli bir mənbədir. Mütəxəssislərin yazdığına görə, bu əsər Şah Təhmasibə həsr olunmuşdur (94).

Bu əsər hər şeydən əvvəl müəllifin özünün çox ciddi bir yaradıcı insan olmasından xəbər verir. Sam Mirzə bu əsərlə öz dövrünün ədəbi mühitinə dərindən bələd olduğunu nümayiş etdirməklə, ensiklopedik bir əsəri ortaya qoymağa müvəffəq olmuşdur. Əsər fars dilində yazılmışdır. Bəzi tədqiqatçılar onun öz təzkirəsini fars dilində yazmasını Səfəvi sarayında hakim olan Azərbaycan türkcəsinə biganə qalması kimi qiymətləndirirlər (95). Əslində isə Sam Mirzənin öz ana dilinə biganə qalmaqda ittihamlandırmaq yəqin ki, doğru olmazdı. Çünki onun yaşadığı dövr üçün təhkiyə əsərlərinin fars və ərəb dilində yazılması ənənəsi daha güclü idi. Elə Şah Təhmasib də öz təzkirəsini fars

dilində yazmışdı. Buna görə Sam Mirzə də bu ənənəni davam etdirməyi görünür əsərin yazılması üçün daha münasib bilmişdi.

Digər tərəfdən bu təzkirə ilə ilkin tanışlıq göstərir ki, Sam Mirzə bu təzkirəsində dövrün bütün tanınmış ədiblərini və hətta onun üçün tanış olan bütün şair və ədibləri əhatə etməmişdi. O cümlədən Şərqdə öz ədəbi məktəblərini yaratmış Nəsimi və Füzuli kimi şairlərin, hətta Bəhram Mirzənin ana dilində əsərlər yaradan oğlu İbrahim Mirzənin adlarına bu təzkirədə rast gəlmək mümkün deyildir. Şah Təhmasib hakimiyyəti illərində anadilli ədəbi yaradıcılıqla məşğul olan və adları yuxarıda çəkilən şairlərdən Xəzaninin, Əmaninin, İlahinin və Xülqinin adları da bu təzkirədə yoxdur. Ola bilsin ki, Sam Mirzə türk dilində olan ədəbi mühit haqqında ayrıca bir təzkirə də yazmaq istəyirmiş. Əks təqdirdə Şah İsmayılın və onun dövrünün digər ana dilli ədiblərinin yaradıcılığı diqqətdən kənarda qoyulmazdı. Hətta bədii yaradıcılıqla məşğul olan Osmanlı sultanlarından, habelə özbək şairi Əlişir Nəvayidən söhbət açanda da Sam Mirzə onların yalnız fars dilində olan nəzmlərindən ayrı-ayrı parçalara istinad etmişdir.

Məlumdur ki, Sam Mirzə hələ uşaq yaşlarından siyasət meydanında idi, səltənət vilayətlərinin idarəçiliyi kimi məsuliyyətli və ağır işləri üzərinə götürmüşdü. "Töhfeyi-Sami" əsərinin yazılması isə geniş axtarışların aparılmasını, çoxsaylı şair və ədiblərin əsərlərinin toplanmasını və onların ədəbi baxımdan dəyərləndirilməsini tələb edirdi. Əks təqdirdə belə bir əsəri ortaya qoymaq mümkün olmazdı.

Bu təzkirədə 700-dən artıq şair və ədib haqqında məlumat verilmişdir (96). Adı çəkilən təzkirə dibaçədən və yeddi fəsildən (fəsillər təzkirədə "səhifə" adlandırılmışdır). Bu fəsillərdə əhatə olunmuş nəzm ustaları ictimai-siyasi mövqelərinə görə qruplaşdırılmışdır. Birinci fəsil Şah İsmayıl ilə başlayır və bu fəslə şahlar, şahzadələr, yüksək məqamlı saray əyanları daxil edilmişlər. Məsələn, bu fəsildə Şah İsmayıldan və Səfəvi şahzadələrinən başqa Sultan Səlimin, Sultan Süleymanın, özbək xanlarından Şeybək xanın, Übeyd xanın, hind hakimi Babur padşa-

hın, Məhəmməd Hümayunun, onun qardaşı Əsgəri Mirzənin və digərlərinin adlarına rast gəlmək mümkündür. Şah İsmayıl istisna olmaqla digər şahlar və şahzadələr haqqında çox müxtəsər məlumat verilmişdir. Qısa məlumatdan sonra haqqında danışılanın əsərlərindən də parçalar verilmişdir. Bəzi şairlərin əsərlərindən bir neçə parça verildiyi halda, bəzilərindən isə bir beyt və hətta bir misra verilmişdir. Məsələn, Babur padşahdan cəmi bir beyt verilmişdi, Əsgəri Mirzədən isə cəmi bir misranı oxumaq mümkündür (97).

Təzkirənin ikinci fəslində (səhifəsində) ədəbi yaradıcılıqla məşğul olmuş seyidlər, müctəhidlər, üləmalar və bu qəbildən olan insanlar haqqında məlumat və onların əsərlərindən parçalar verilmişdir. Onların arasında Səfəvi sarayında və idarəetmə strukturlarında yüksək məqamlar tutmuş din xadimlərinin adına rast gəlmək mümkündür. O cümlədən, Mir Qəvaməddin Hüseyn (səltənət sədri), Mir Müəzzəddin Məhəmməd (səltənət sədri) və digər üləmalar və din xadimləri (98).

Təzkirənin üçüncü fəslində səltənət idarəçiliyində vəzir və digər yüksək məqam tutmuş adamlar arasında ədəbi yaradıcılıqla məşğul olanlar haqqında məlumat və onların əsərlərindən parçalar öz əksini tapmışdır. Dördüncü fəsildə müxtəlif işlərdə çalışanlar, özlərini şair adlandırmasalar da ədəbi yaradıcılığa yer vermiş insanlardan danışılmışdır. Təzkirənin beşinci fəsli şair və ədəbi söz ustaları kimi tanınmışlara həsr olunmuşdur. Bu fəsil təzkirənin ən böyük fəslidir. Altıncı fəsildə türk kökənli şairlər haqqında məlumat verilmişdir. Bu fəslə həm Orta Asiya, həm də Azərbaycan arealına aid olan şairlər daxil edilmişdir. Yeddinci fəslə isə yuxarıdakı fəsillərə düşməyənlər şamil edilmişdir.

"Töhfe-ye Sami" təzkirəsi məkan baxımından Səfəvi hüdudlarında, habelə Osmanlı və Orta Asiya arealını əhatə etmişdir. Zaman baxımından isə bu təzkirə əsasən Səfəvi hakimiyyəti illərini, təzkirənin yazıldığı vaxta qədər əhatə edir. Amma çox az sayda Səfəvi hakimiyyətindən əvvəlki dövrə aid olan qələm ustaları da bu təzkirəyə daxil edilmişlər. Təzkirə mükəmməl bir ədəbi dildə yazılmışdır. Doğrudur, bu əsərin dilində xeyli sayda

ərəb istilahları ilə də qarşılaşmaq mümkündür. Lakin bu üslub dövrün yazı və təhkiyə təcrübəsindən irəli gəlirdi. Məlumdur ki, Səfəvi dövlətinin ilkin dövründə bir çox ərəbdilli alimlər dəvət olunmuşdu və ya ərəbdilli alimlərin əsərləri səltənət daxilində öyrənilirdi. Güman edilirdi ki, belə alimlərin Səfəvi hüdudlarına gəlməsi və ictimai fikrə təsiri yerli yazışmalarda ərəb təsirini gücləndirirdi. Bu təsir Sam Mirzənin dilindən də yan keçməmişdi.

Sam Mirzə çox böyük sayda şair və ədib haqqında topladığı məlumatı öz təzkirəsində əks etdirə bilmişdi. Aparılmış araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Sam Mirzə bu təzkirə üzərində 11 il iş aparmışdır (99). Yəni müəllif belə uzunmüddətli bir işi öz üzərinə götürməli olmuşdu və onun nəticəsi idi ki, 700-dən çox qələm sahibi haqqında məlumat toplaya bilmişdi.

Müəlliflər haqqında verilən məlumatların çoxu səthi xarakter daşıyır. Onların bəziləri haqqında verilən məlumatlar bir sətirdə öz ifadəsini tapmışdır. Burada müəllif heç şübhəsiz ki, qarşısına əsas məqsəd kimi dövrün ədəbi mühitinin nümayəndələri haqqında ilkin məlumatı vermək və onun ədəbi fəaliyyətlə məşğul olmasını təsdiq etməkdir. Qələm sahibləri haqqında verilən məlumatlarda bir qayda olaraq onun haradan olması, nə işlə məşğul olması öz əksini tapırdı. Sonra da məlum olan nəzm parçası əlavə olunurdu.

Mütəxəssislər şübhə etmirlər ki, Səfəvi sarayında üstün mövqeyə malik olan Azərbaycan türkcəsi "Töhfe-ye Sami" əsərinin dilinə də təsir göstərmişdi və bunun nəticəsi idi ki, təzkirə daxilində çoxlu sayda türk sözlərinə və ifadələrinə rast gəlmək mümkündür. Sam Mirzə bu təzkirədə 29 nəfər türkdilli şairdən söz açmışdır (100). Onların arasında Ziyayi Ordubadi, Heyrəti Qəzvini, Hilali Qəzvini, Hatifi Qəzvini, Qövsi Təbrizi, Nuri Təbrizi, Nami Təbrizi, Həqiri Təbrizi, Fəsihi, Hərami və digərləri də vardır (101).

Bəzi mütəxəssislər Şah Təhmasibin hakimiyyət illəri də daxil olmaqla bütünlükdə Səfəvi dövründə farsdilli ədəbiyyatın kölgədə qaldığını, farsdilli ədəbiyyatın istedadlı nümayəndələrinin

yetişmədiyini qeyd edirlər (102). Bu fikri sözsüz ki, azərbaycandilli ədəbiyyata şamil etmək olmaz. İstər Şah Təhmasib hakimiyyəti illərində, istərsə də ondan əvvəl və sonra azərbaycandilli yazılı və şifahi ədəbiyyatın çox əzəmətli nümayəndələri son dərəcə dəyərli əsərlər yaratmışlar ki, onlar bütünlükdə şərq və dünya ədəbiyyatının nadir incilərindən hesab oluna bilər. Bu mənada Səfəvi dövründə farsdilli ədəbiyyatın kölgədə qalmasında azərbaycandilli ədəbiyyatın inkişafına ayrılan diqqət və qayğının da yüksək olmasını istisna etmək olmaz.

Səfəvilər dövründə farsdilli ədəbiyyatın kölgədə qalması heç də Şah Təhmasibin, ondan əvvəlki və sonrakı Səfəvi şahlarının hansısa qadağaları ilə bağlı deyildi. Məsələn, Şah Təhmasib öz təzkirəsini fars dilində yazmışdı. Onun qardaşı Sam Mirzə də özünün məşhur "Töhfeyi-Sami" təzkirəsini də fars dilində tərtib etmişdi. Elmi və salnaməçilik sahəsində də fars dilində çox dəyərli əsərlər meydana gəlmişdi. Məsələn, Qiyasəddin Xondəmirin "Həbibüs-siyər" əsərinin III cildinin dördüncü hissəsi, Mir Yəhya ibn Abdullətif Qəzvininin "Lübbüt-təvarix", Xurşah ibn Qubad əl-Hüseyninin "Tarix-e elçi-ye Nizam şah", Əmir Sədrəddin Sultan İbrahim Əmininin "Fotuhat-e şahi" (və ya "Fotuhat-e Əmini"), Həsən bəy Rumlunun "Əhsənüt-təvarix", müəllifi bəlli olmayan "Cahanqoşa-ye xaqan", Qazi Əhməd ibn Məhəmməd Qaffari Qəzvininin "Tarix-e Cahanara", Əbdi bəy Şirazinin "Təkmilətül-əxbar", Mir Münşi kim tanınan Qazi Əhməd ibn Şərəfəddin əl-Hüseyni əl-Quminin "Xülasət-təvarix" və s. kimi əsərlər Şah Təhmasibin hakimiyyəti illərində yazılmışdı (103).

Şah Təhmasib hakimiyyəti illərində digər əsərlərin meydana gəlməsi də istisna deyildir. Yuxarıda adları çəkilən əsərlər Şah Təhmasibin həyatı və hakimiyyət tarixi ilə bağlı əsas mənbələr hesab edilirlər. Amma o da məlumdur ki, şəxsən Şah Təhmasibin özünə də çoxlu əsərlər həsr edilmişdi və həmin əsərlər də Şah Təhmasib dövrü salnaməçiliyin və ya tarixi əsərlərin inkişafının tərkib hissəsi kimi qəbul edilə bilər. Bu əsərlər müxtəlif mövzularda yazılmış əsərlər idilər və həmin əsərlər hazır olduqdan sonra müəlliflər tərəfindən Şah Təhmasibə təqdim olunurdular.

Bu əsərlərin çoxu dini mövzudadırlar və əsərlərin giriş hissəsində onların Şah Təhmasibin şərəfinə qələmə alındığı bəyan edilirdi. Sözsüz ki, belə əsərlərin meydana gəlməsi də Şah Təhmasibin elmə, biliyə, yaradıcılığa verdiyi dəyərdən irəli gəlirdi. Aşağıda adları çəkilən əsərlər belə əsərlərdəndir:

1.Fəthi təxəllüsü ilə tanınan Fətullan ibn Əzizulla Əyadinin "Fotuh əl-mömünin" əsəri. Bu əsərdə şiə maarifçiliyinin aparılması üçün dini nəsihətlər və öyüdlər toplanmışdı;

2. Mühəqqəq Kərəkinin "Risalətün fi təyin əl müxalifin ən əmirülmömininin" risaləsi Şah Təhmasibin özünün sifarişi ilə yazılmışdı və ona hədiyyə olunmuşdu;

3. Mühəqqəq Kərəkinin "Came əl məqased fi şərhül qəvaid" əsəri. Bu əsər şiə fiqhinin əsasları haqqındadır;

4. Faziləddin Məhəmməd ibn İshaq ibn Məhəmməd Əbhəri Həməvinin şiə məzhəbinin əsaslandırılmasına həsr olunmuş "Münhəc əl fazelin fi məarefətün əl əəmetün əl tahirin" əsəri;

5. Fəxrəddin Əbülhəsən Əli ibn Həsən Zəvvarei bir neçə dini əsərin ərəb dilindən fars dilinə tərcüməsini Şah Təhmasibə həsr etmişdi. Onların arasında imam Həsən Əsgəriyə aid edilən "Asar əl xəyyar" adlı təfsir, "Kəşfül əl ehticac" əsəri, Məhəmməd Vəramininin "Əhsən ül əkbar fi məərüfətün əl əthar" əsəri, Seyid Rza Musəvi Bağdadinin "Nəhcül bəlağə" əsərinin şərhinə həsr edilmiş "Rövzətül ebrar" əsəri, "Tərcümətül mənaqib";

6. Seyid Mir Məhəmməd ibn Əbu Talib Hüseyni Astrabadi də Mühəqqəq Kərəkinin dini məzmunlu əsərlərindən birini tərcümə edərək Şah Təhmasibə həsr etmişdi. Bu müəllif həm də Şah Təhmasibə həsr etdiyi "Təfsir-e Ayətülkürsi və fəzilət-e an" əsərini yazmışdı.

7. Camaləddin Hüseyn Ərdəbilinin "Münhəccül fəsahət fi şərh nəhcül bəlağə" əsəri;

8. Mir Fəxrəddin ibn Hüseyn Astrabadinin ayətül kürsinin şərhində yazdığı əsəri;

9. İmadəddin Əli Şərifin "Töhfeye Şami" əsəri;

10. Molla İbrahim Astrabadinin "Həsəniyyə risaləsi" əsəri;

11. Seyid Hüseyn ibn Həsən müctəhidin "Əl Təhmasiyyət fil imamətün" əsəri;

12. Şeyx İzzəddin Şamlının "Əl əqd əl Təhmasibi" əsəri, həmin müəllifin "Əl risalətün əl Təhmasiyətün fil foruğ əl fiqihıtün" əsəri və yenə onun "Ərbəin hədisa" əsəri;

13. Nəsrəddin Məhəmməd ibn Əbdülkərim Astrabadinin "Məhasen əl adab" əsəri;

14. Müəllifi bəlli olmayan "Fiqh-e məzahəb-e xəmsə" əsəri;

15. Seyid Əmir Əbdülrəhim ibn Məhəmməd Hüseyninin "Töhfe-ye şahi" əsəri;

16. Tacəddin Həsən Qurqani Kaşaninin "Fiqh-e şahi" əsəri;

17. Əbdüləli ibn Mahmudun "Risalətün fil sələvat əl-cümə" əsəri. Bu müəllifin Şah Təhmasibin bacısına da əsər həsr etməsi haqqında məlumat vardır;

18. Mahmud Yusif ibn Həsən Hüseyni Astrabadinin "Təhrətiyyə" əsəri;

19. Əmir Əbülfət Hüseyni Səfəvi şahının sifarişi əsasında "Səfvətüs-səfa" əsərinə dəyişikliklər etmişdi. Onun həm də "Təfsir-e şahi" əsərini, həmçinin Şah Təhmasibin sifarişi əsasında Qurandan fiqh ehkamlarına aid ayələrin şərhi haqqında yazdığı əsəri ;

20. Əbdüləhəd ibn Bürhanəddin Əli Sercaninin "Təfsir surətür rum" əsəri;

21. Əmir Şəmsəddin Məhəmməd ibn Əsədulla Şüştərinin "İqbalnamə" əsəri;

22. Nurəddin Məhəmməd ibn Əbülqasim Həbubullanın Töhfe-ye şahi" və tövhid mövzusunda yazdığı başqa bir əsər. Elmə məlum olan bu əsərlər dini mövzuda yazılmış əsərlərdir. Amma Şah Təhmasibə başqa mövzularda da əsərlər həsr edilmişdir.

23. Həyatinin "Tarix-e mürşidan-e Səfəvi" əsəri;

24. Təqiəddin Məhəmməd Heyrətinin mənzum tərcüməsi olan "Kətib-e möcüzat" əsəri. Bu müəllif eyni zamanda Şah Təhmasibə "Namaz risaləsi" adlı mənzum bir əsər də həsr etmişdi;

25. Siracəddin Məhəmməd Qasımın "Əsədiyyə dər insab-e sadat-e Ələviyyə mərəşiyye" əsəri;

26. Seyid Əhməd ibn Məhəmməd Gilaninin “Sirac ül-ənsab” əsəri;

27. Nurəddin Əli Mənəlin “Qumilər məşayixinin risaləsi” əsəri;

28. Seyid Mirzə Məhəmməd Qasım Qunabadinin “Şahənşahnamə” əsəri. Bu əsərin yazılmasına Şah İsmayılın hakimiyyəti illərində başlandığından birinci hissəsi ona, ikinci hissəsi isə Şah Təhmasibə həsr edilmişdir. Bu müəllifin bir neçə mənzum əsəri də var ki, onların əvvəlində Şah Təhmasibin mədhinə yer ayrılmışdır;

29. Məcnun Rəfiğinin “Adab-e xətt” mənzum əsəri;

30. Hüseyn Vəfayinin Şah Təhmasibə həsr etdiyi fars dilinin lüğəti kitabı;

31. Sam Mirzə özünün “Töhfeyi Sami” təzkirəsini Şah Təhmasibə həsr etmişdi;

32. Soltan Məhəmməd Fəxrinin “Cəvahirül əcayib” əsəri;

33. Mir Təqiəddin Məhəmməd ibn Şərifəddinin “Xülasət əl əşar” və “Zübdətül əfkar” təzkirələri;

34. Xoca Molla Zeynəlabdin Əbdi bəy Şirazi (“Təkmilətül-əxbar” əsərinin müəllifi) divanı və əsərlərinin külliyatı;

35. Məhəmməd ibn Nasirülhəqq Hüseyninin “Enşaye Aləmara” əsəri;

36. İmadəddin Mahmud Şirazinin tibbə həsr olunmuş “Mürəkkəbati şahi” əsəri;

37. Kamaləddin Hüseyn ibn Nurəddinin tibb mövzusunda olan “Hifz ülsəhhə” əsəri;

38. Əvhəddin Abdulla Bəlyaninin “”Cahan ürrəml” əsəri;

39. Qazi Əhməd Qaffari Qəzvininin “Tarixi Neqaristan” əsəri;

40. Seyid Müzəffər Məhəmməd Hüseyninin “Saədi şəfayi” əsəri;

41. Hüseyn Əqili Rüstəmdarinin “Riyazül ibrar” əsəri;

42. Şeyx Hacı Həsən Təbəsinin “Müftah əl kənuz fil romuz” əsəri;

43. Feyzulla Təfərroşinin ovçuluğa həsr etdiyi risaləsi (104).

Şah Təhmasibə həsr olunmuş bu əsərlər hələlik elm aləminə tanış olan əsərlərin adlarıdır. İstisna deyildir ki, Şah Təhmasibə həsr olunmuş başqa əsərlər də vardır və onlar tədqiqatçılar tərəfindən tapılaraq elmi dövriyyəyə gətiriləcəklər. Elə bu sadalanan və yuxarıda haqqında danışılan əsərlər də Şah Təhmasibin hakimiyyəti illərində bədii yaradıcılığa, elmin və ədəbiyyatın inkişafına neçə böyük diqqət yetirilməsini təsdiqidir.

Amma o da məlumdur ki, Şah Təhmasib ona ədəbi əsərlər həsr edilməsinə qarşı çıxardı. Onun fikrincə ədəbi əsərlər islam müqəddəslərinə həsr edilməli idi və bu müqəddəslərin vəsf edilməyə daha çox haqqı var idi. Bununla bağlı "Tarix-i aləmara-yi Abbasi" əsərində də belə bir məlumat vardır: "Sözlərə bəzək vurub, onları nəzmə çəkən və gözəl məna silsilələri tərtib edən ali şairlər təbəqəsindən o zamanlar ulu orduda və "məmaliki-məhrusə"də şeir qoşmaq məharətinə malik olan şairlər və bəlağətli söz ustadları saysız-hesabsız idi. Cənnətməkan şah həzrətləri öz hakimiyyətinin əvvəllərində bu təbəqənin halına böyük hüsn-rəğbət göstərirdi. Hətta bir müddət [şairlərdən] Mirzə Şərəf Cahan və Mövlana Hidayət hökmdarın yığıncağının həmsöhbətlərindən və müqəddəs məclisin iştirakçılarından olmuşlar. Lakin [Şah Təhmasib] həyatı əyyamının axırlarında əmri-məruf və nəhyi-münkər məsələlərinə böyük diqqət yetirdiyindən və bu ali təbəqəni (şairləri) içki düşkünü sayaraq, onları salehlər və dindarlar cümləsindən hesab etmədiyindən onların halına çox da hüsn-rəğbət göstərmir və onları qitə və qəsidə yazmağa həvəsləndirmirdi. Mövlana Möhtəşəm Kaşi o həzrətin mədhinə bir qəsidə və zəmanənin hörmətli xanımı olan şahzadə Pərixan xanımın mədhinə digər bir qəsidə nəzmə çəkərək, Kaşandan [saraya] göndərmişdi Bu qəsidə adı çəkilən şahzadə (Pərixan xanım) vasitəsilə [şaha] ərz edilmişdi. Bunun müqabilində cənnətməkan şah buyurmuşdu:

- Mən razı deyiləm ki, şairlər məni mədh etməyə və tərifləməklə məşğul olsunlar. Qoy onlar qəsidələri «vilayət»in pənahı olan şah həzrətlərinin (Həzrət Əlinin) və məsum imamlar həzrətlərinin - onlara salam olsun - mədhinə desinlər və belə olan

təqdirdə də mükafatı əvvəlcə o həzrətlərin müqəddəs ruhlarından, sonra isə bizdən təvəqqe etsinlər. Çünki zərif fikirlərlə, yüksək mənalarla və gerçəklikdən uzaq məcazlarla sözləri bəlağət sapına düzüb, hökmdarlara aid edirlər. Bunların (şairlərin) yalanları onların (hökmdarların) bunun müqabilində söylədikləri «əhsən»lərdən qaynaqlanır. Buna görə də şairlərin onların şəninə dedikləri sözlərin əksəri yerli-yerində olmur. Amma əgər [şairlər öz şeirlərini] müqəddəs həzrətlərə həsr etsələr və onların ulu nişanəli şanını təriflərsələr, bundan daha yaxşı və münasib olar. Nə isə, cənab Mövlana şeirin müqabilində əşrəfdən mükafat ala bilmədi. Elə ki bu xəbər Mövlanaya çatdı, o, mərhum Mövlana Həsən Kaşinin hidayət taxtının sultanı olan şahi-vilayət həzrətlərinin (Həzrət Əlinin) şəninə nəzm sapına düzdüyü həftbəndə sanki ilahi bir ilhamla cavab deyib, onu [şahın] hüzuruna göndərdi və [bunun əvəzində] layiqli mükafat aldı. Bunu görən dövlətin paytaxtının şairləri həftbəndlər deməyə başladılar. Onlardan əlli-altmış nəfərə qədərinin parlaq həftbəndləri tədricən [şahın] ərzinə çatdırıldılar və hamısı bəxşiş və mükafatlar almaqla iftixara və başucalığına nail oldular" (105).

Şah Təhmasibin bütün şairlərə hüsn-rəğbət göstərməməsi haqqında yuxarıda verilən məlumatın birmənalı şəkildə qəbul edilməsinə yəqin ki, ehtiyatla yanaşılmalıdır. Hər şeydən əvvəl ona görə ki, Şah Təhmasibin şerə hüsnü-rəğbəti olmasaydı onda heç özü də söz qoşmaqla məşğul olmazdı və onun ailə üzvləri də bu işlə məşğul olmazdılar. Burada yəqin ki, söhbət şəraba meyl göstərən şairlərə qarşı münasibətdən gedir.

Şah Təhmasibin hakimiyyəti illərində kitabçılıq işi də ədəbiyyatın və mədəniyyətin inkişafının ayrıca bir istiqamətini təşkil edirdi. Elmin, biliyin, söz sənətinin ən yaxşı nümunələrinin öyrənilməsi, təbliği, yayılması və gələcək nəsillərə çatdırılması baxımından kitab işinin tənzimlənməsi, onu nəfis hala çatdırılması sahəsində Şah Təhmasibin hakimiyyətindən əvvəl də müəyyən bir təcrübə formalaşmışdı. Amma Səfəvilər dövründə, o cümlədən də Şah Təhmasibin hakimiyyəti illərində bu təcrübə daha da zənginləşdi və kitabçılıq işi ədəbiyyatın və mədəniyyətin

bir qolu kimi formalaşdı, ayrıca bir fəaliyyət sahəsi kimi cəmiyyətdə və mədəni mühitdə özünə yer tapdı. Mütəxəssislər də qeyd edirlər ki, Şah Təhmasibin, Sam Mirzənin və İbrahim Mirzənin (Bəhram Mirzənin oğlu) qayğısı altında kitab işi daha da mükəmməl bir duruma gəldi.

Bilik xəzinəsi kimi kitaba olan maraq kitab işi ətrafında bir çox incə və bahalı peşə sahiblərinin birləşməsinə yol açdı. Yəni kitab hazırlanması bir sıra peşələri özündə birləşdirən bir fəaliyyət sahəsinə çevrilmişdi və bu peşələrin mükəmməlliyi son nəhayətdə müştərək məhsul olan kitabın da nəfis şəkildə meydana gəlməsinə yol açırdı. Əlyazma kitablarının hazırlanması xəttatların, rəssamların, dekorativ bəzək ustalarının və cildləmə mütəxəssislərinin birgə fəaliyyətini tələb edirdi. Mütəxəssislərin fikrincə, bütünlükdə orta əsrlərdə, o cümlədən də Şah Təhmasibin hakimiyyəti illərində kitabların hazırlanması bir neçə mərhələdən keçirdi və hər mərhələnin də öz mütəxəssisi var idi. Onlar aşağıdakılar idi (106):

**Xəttat** – hər hansı bir kitabın hazırlanması sözsüz ki, xəttatın işindən başlanırdı. Xəttatlar kitabı qəbul edilmiş xətt növü ilə və gözəl, göz oxşayan xətlə yazır və ya onların üzünü köçürür, mətnə müəyyən bir quruluş (kompozisiya) verir, mətni fəsillərə bölür, ayrı-ayrı başlıqları, hərfləri, hissələri fərqləndirir, səhifələrin ölçülərini müəyyənləşdirir və zahiri baxımdan bitkin bir forma yaradırdılar. Xəttatlıq hər adamın bacaracağı bir iş deyildi. Bu sahənin xüsusi istedad sahibləri var idi və Şah Təhmasib də çalışırdı ki, saraya məhz belə istedad sahiblərini cəlb etsin. “Tarix-i aləmara-yi Abbasi” əsərində Şah Təhmasib hakimiyyəti dövründə xəttatlığı ilə məşhur olan bir neçə sənətkar haqqında məlumat verilmişdir. Bu əsərin müəllifi İsgəndər bəy Münşi öz kitabında Şah Təhmasib dövrünün tanınmış xəttatları arasında Mövlana Əbdi Nişapuri, Mövlana Şahmahmud Zərrinqələm, Mövlana Dost Herati, Ustad Behzadın bacısı oğlu Mövlana Rüstəməli, Mənsur Hafiz Babaxan Türbəti, Mövlana Malik Deyləmi Qəzvini, Mövlana Məhəmməd İshaq Siyavuşani, Mir Seyid Əhməd Şəmrizi, Mir Seyid Əhmədi, Mövlana Məhəmməd Hü-

seyn Təbrizi, Mirzə Müizzi Kaşi, Mövlana Babaşah İsfahani, Mirzə Şərəf ibn Qazı Cahan, Mirzə İbrahim İsfahani, Pirbudaq bəy Şamlı, Xoca Əlaəddin Mənsur Münşi, Mövlana Əlabəy Təbrizi və digər sənətkarların adını çəkmişdir (107).

Xəttatlar kitab yazılması və ya köçürülməsi zamanı bir sıra yazı növlərindən istifadə edirdilər. Bunların arasında nəstəliq, şikəstə, süls kimi yazı növləri var idi. Nəstəliq – yazı növü bədii kitabların hazırlanmasında daha çox istifadə olunurdu. Bu xətt növü XIV əsrin II yarısında Azərbaycan xəttatı Mir Əli Təbrizi tərəfindən nəsx və təliq xətlərinin əlaqələndirilməsi nəticəsində yaradılmışdı. Şikəstə - xətt növü isə sürətlə yazmaq üçün istifadə olunan və mətndə az yer tutan bədii xətt növü idi. Şikəstə xətti XVII əsrin II yarısında nəstəliq xətti əsasında yaradılmışdı. Bu yazı növü xəttat Şəfiə tərəfindən yaradılmış və Əbdülməcid adlı bir dərviş tərəfindən daha da təkmilləşdirilmişdi (108).

**Ləvvah** – kitabın hazırlanmasında iştirak edən peşə sahiblərindən biri idi. Bu peşə sahibinin vəzifəsi daha çox kitabın tərtib edilməsi ilə bağlı idi. Səhifələrin hər birinin ayrılıqda hazırlanması, onun kənarlarının haşiyələnməsi, qızıl suyuna tutulması, üz qabığının hazırlanması, səhifələrin bir yerə toplanıb cildlənməyə hazırlanması ləvvaha aid olan işlər idi.

**Müzəhhib** – Kitab səhifələrinin bəzi sahələri qızlı suyu ilə örtülürdü. Xüsusilə, minüatürlü səhifələr, daha çox hallarda isə kitabın birinci səhifəsi qızıl suyuna tutulurdu, sətirlərarası qızıl suyu ilə örtülürdü. Müzəhhiblərə bəzən zərkub (zər vuran) da deyirdilər. Müzəhhibin işi, əslində, səhifələrin hazırlanmasında son iş idi və sonra səhifələr tikilmək üçün toplanardılar.

**Səhhaf** – kitab üçün hazır olan səhifələrin ardıcıllıqla toplanaraq tikilməsi ilə məşğul olan adamlara deyilirdi. Onun da işi kitabın hazırlanmasında görülən son işlərdən biri idi. Səhhaf səhifələri ardıcıllıqla düzərək tikir və sonra da son işin görülməsi üçün cildçiyə göndərirdi.

**Mücəllid** – kitabın cildçisi idi. Cildlənmə adından da göründüyü kimi, kitab hazırlanmasının son mərhələsidir. Kitabın mətni yazıldıqdan, səhifələndikdən, digər işlər tamamlandıqdan sonra

cildçiyə təhvil verilirdi. O da münasib bildiyi materialdan və ya sifarişdən asılı olaraq kitabı cildləyirdi. Kitab cildi bir qayda olaraq dəri materialdan hazırlanırdı və sonra səhifələnmiş vərəqlərə tikilirdi.

Kitabın hazırlanmasında sözsüz ki, rəssam (nəqqaş) da iştirak edirdi. **Rəssam (müsəvvir)** – kitabların hazırlanmasında xüsusi zəhməti olan peşə adamlarından biri idi. Rəssamlar hər kitabın hazırlanmasında iştirak etmirdilər. Onların iştirakı olan kitablar daha qiymətli, daha nəfis kitablar kimi qəbul edilərdi. Rəssam işi kitabın tərtibatına xüsusi bir gözəllik verirdi. Çəkilən illüstrasiyalar isə ayrıca sənət nümunələri olmaqdan əlavə, həm də mövzunun əyani şəkildə qavranılmasına kömək edərdi. Şah Təhmasibin hakimiyyəti illərində rəssamlığın əsaslı bir məktəbi formalaşmışdı. Məlumdur ki, hələ Şah İsmayılın hakimiyyəti illərində dövrün məşhur rəssamları Təbriz kitabxanasına toplanmışdı və Kəmaləddin Behzad kimi böyük bir sənətkar bu kitabxananın rəhbəri təyin edilmişdi (109).

Rəssamlıq (nəqqaşlıq) ümumiyyətlə, ayrıca bir sənət növü kimi formalaşmışdı və hələ Şah İsmayılın hakimiyyəti illərindən bu sahədə çox zəngin bir təcrübə qazanılmışdı. Təbriz kitabxanasına toplanmış rəssam-sənətkarlar Şah Təhmasibin hakimiyyəti illərində də öz fəaliyyətlərini davam etdirdilər və onlar Təbriz minüatür məktəbinin formalaşmasında böyük rol oynadılar. Həmin sənətkarlar qiymətli kitab işlərinin üzə çıxmasında da öz məharətlərini nümayiş etdirdilər. Lakin kitab illüstrasiyalarının hazırlanması dövrün rəssamlıq məktəbinin fəaliyyətinin istiqamətlərindən biri idi. Şah Təhmasib dövründə saray ətrafına toplanan və sarayın qayğısı altında olan rəssamların daha monumental əsərləri də mövcud idi. Həmin əsərlər dövrün mədəniyyətinin bu sahəsinin çox yüksək inkişafda olduğunu nümayiş etdirirdi.

Məlumdur ki, Şah Təhmasib özü də rəssamlığa meyl göstərirdi. Ustad sənətkarlardan dərs almış bu şahın özünün də maraqlı əsərləri olubmuş. "Tarix-i aləmara-yi Abbasi" əsərində dövrün rəssamlıq məktəbi və Şah Təhmasibin rəssamlığa marağı

haqqında belə bir məlumat vardır: "Cəmşid məqamlı cənnətməkan şah həzrətlərinin özü şəxsən nadir işləri olan bir nəqqaş və möcüzəli rəsmlər çəkən incə qələmli bir müsəvvir idi. O həzrətin şərəfli ismini o dövrün sənətkarları arasında çəkmək bir növ arsızlıq olsa da, onun xeyir məfhumlu əhvalatının bu gözəl nəqşlə daha da bəzənəcəyini nəzərə alaraq, onun haqqında burada yazmağa cürət etdik. O həzrət məşhur müsəvvir Ustad Sultan Məhəmmədin şagirdi olmuş, qələminin rəsmxəttini və incəliyini kamillik mərtəbəsinə çatdırmışdır. Cavanlığının başlanğıcında onun bu işə çox zövqü və şövqü vardı. Bu şərəfli sənətin tağı [zirvəsi] olan və qələmlərinin incəliyi üfüqlərdə şöhrət tapmış Ustad Behzad və Ustad Sultan Məhəmməd kimi bu fənnin misilsiz sənətkarları saray kitabxanasında işləyirdilər. İsfahanın böyük seyidlərindən olan nəqqaş Ağa Mirək İsfahani təkbaşına [şahla] xüsusi həmdəm olmaq və onun məclisində isinişmək hüququ almışdı. O həzrətin (Şah Təhmasibin) bu təbəqəyə böyük ülfəti vardı. O, ölkə idarəçiliyi məşğuliyyətlərindən və məmləkət məsələlərinin həllindən rahatlıq tapdıqca nəqqaşlıq üzrə məşq etməyə girişərdi. Axırda elə oldu ki, işinin çoxluğu ucbatından bu peşə ilə [məşğul olmaq] fürsəti tapmadı, həmçinin yuxarıda adları çəkilən ustadlar da həyat lövhəsindən öz varlıqlarının surətini kənarlaşdırdılar (vəfat etdilər). Ona görə də o həzrət bu işlə az məşğul olmağa başladı. Hələ həyatda qalmaqda olan bəzi kitabxana işçilərini isə xidmətdən azad etdi ki, gedib özləri üçün işləsinlər. [Şah Təhmasib] ömrünün axırlarında xassə qulamı olan, süls xətti ilə yaxşı yazan və o həzrətdən qayğıkeşlik görən Mövlana Yusifi kitabdar təyin edib, xasseyi-şərifənin mülkiyyətində olan kitabları ona həvalə etdi" (110).

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şah Təhmasibin ustadları olmuş və istedadına görə şah qayğısını qazanmış bəzi rəssamlar haqqında da məlumat verilmişdir. Məlumatdan göründüyü kimi, bu sənətkarların hər biri peşəkarlığın zirvəsinə qalxmışdılar. Məsələn:

***"Mir Zeynalabidin*** - cənnətməkan şahın ustadı olmuşdur. Olduqca sağlam nəfsli, gözəl əxlaqlı bir kişi idi və dövranın

pakizəsi idi. Özünü ağır aparırdı və ədəb-ərkanı özünə şüar etmişdi. Həm sadə xalqın, həm də əsilzadələrin yanında əziz idi və yaxşı kompozisiya quran bir nəqqaş, misilsiz bir müsəvvir olub, insan çöhrəsi çəkməkdə pakizə bir sənətkar idi. Onun şagirdləri bir nəqqaşlıq karxanası açıb, iş görürdülər. Amma özü həmişə şahzadələr, əmirlər və əyanlar üçün iş görüb, onlar tərəfindən mükafatlandırılardı və böyüklərin çeşidli rəğbət və mərhəmətləri onun əhvalının səhifələri üzərində parlayardı. İsmayıl mirzə zamanında kitabxana yenidən işə salınarkən sözügedən şəxs də kitabxana işçilərindən oldu.

***Sadiqi bəy Əfşar*** - o, əfşar tayfasının türklərindən idi. Özünəməxsus təbiətə malik olan rəngarəng bir şəxs idi. Sadiqi təxəllüsündən istifadə edirdi və cavanlığının başlanğıcından nəqqaşlıq üzrə məşq etməyin zövqünü tapıb, zəmanənin nadiri olan Ustad Müzəffər Əlinin yanında gecə-gündüz çalışmağı qərara aldı. [Həmin şəxs] onun əhvalı üzərində qabiliyyət və tərəqqi nişanələrini müşahidə edib, ona [nəqqaşlığı] öyrətməyə səy göstərdi. [Sadiqi bəy] onun şagirdi olaraq, kamillik mərtəbəsinə yüksəldi. ... Axırda böyük bir tərəqqi edərək, əvəzsiz bir rəssam, incə qələmli bir nəqqaş və misilsiz bir tərrah olmuşdu. O, məharətli qələmi ilə minlərlə bədii rəsm yaratmış, qabiliyyət və istedad zinəti ilə bəzənmiş, şairlik və söz ustadlığı yaraşığı ilə süslənmişdi.

***Mövlana Həsən Bağdadi*** - qızılı su ilə naxış vurmaq sahəsində zəmanənin vahidi və dövranın yeganəsi idi. Bir sözlə, o, qızılı naxış çəkmək fənnini möcüzə həddinədək inkişaf etdirmişdi. Cəmi ustadlar onun bu üslubunu həmin işdə örnək alırdılar. Hətta bu sahədə yüksək zirvəyə qalxa bilmiş Mürəhhib Mövlana Yarinin əsərlərinin də onun incə işləmələri və dəqiq tərtibatları bərabərində bir parlaqlığı yoxdur. Cənnətməkan şah öz əyyamının axırlarında onu tutdurub, daim əlini kəsdirməklə təhdid edirdi. Amma axırda o, Həzrət Əbu-Abdulla əl-Hüseynin (İmam Hüseynin) mübarək günbəzində iş görüb, həmin müqəddəs məqbərəyə bəzək və zinət vurduğu üçün onun cəzalandırılmasından imtina olundu. O da tövbə etdi ki, bir daha [pis]

əməllərə baş qoşmayacaqdır. İsmayıl mirzə zamanında o, kitabxana işçiləri sırasına daxil oldu” (111).

“Tarix-i aləmara-yi Abbasi”də ustad rəssamlar sırasında Mövlana Əbdülcabbar Astrabadinin, Çavuş bəy Gürcünün, Mövlana Şeyx Məhəmməd Səbzəvarinin, Mövlana Əli Əsgər Kaşinin, Mirzə Məhəmməd İsfahaninin də adlarına rast gəlmək mümkündür. Mütəxəssislərin fikrincə, Səfəvi dövlətinin mövcudluğu dövründə, o cümlədən də Şah Təhmasibin hakimiyyəti illərində rəssamlıq, xüsusilə də minüatür rəssamlığı inkişafının qızıl dövrünü yaşayırdı (112). Təbrizin adı ilə bağlı olan bu rəssamlıq məktəbinin belə bir səviyyəyə yüksəlməsində zəmanəsinin böyük sənətkarı Sultan Məhəmmədin böyük xidmətləri var idi. O, Şah Təhmasib dövrünün rəssamlıq məktəbinin aparıcı ustası idi. Ətrafına çoxlu sayda istedadlı rəssamlar toplaşan Sultan Məhəmmədin əsərləri Azərbaycan rəssamlıq məktəbində keyfiyyətcə yeni bir mərhələnin nümayişi idi.

Hələ Şah İsmayılın hakimiyyəti illərində rəssam-nəqqaş kimi fəaliyyətə başlayan Sultan Məhəmmədin həyatı haqqında təəssüf ki, yetərincə məlumat mövcud deyildir. Azərbaycan xalqının yetişdirmiş olduğu bu böyük sənətkarın XV əsrin 80-ci illərində anadan olduğu və 1555-ci ildə də dünyasını dəyişdiyi güman edilir (113). Onun rəssamlığa necə gəlməsi haqqında da bir məlumat vermək çətindir. Çox güman ki, onun təbii istedadı hələ erkən yaşlarında özünü göstərmişdi. Şah İsmayıl hakimiyyətə gəldikdən sonra Sultan Məhəmmədin saray emalatxanasında rəssam kimi çalışması haqqında məlumat vardır. Təbriz kitabxanası təsis olunanda Sultan Məhəmməd bir müddət bu kitabxananın rəhbəri olmuş və sonradan yerini rəssam Kəmaləddin Behzada vermişdi. Şah Təhmasib hakimiyyət başına gəldikdən sonra Təbriz kitabxanasına rəhbərlik yenidən Sultan Məhəmmədə həvalə olundu. Yuxarıda qeyd edildiyi kimi, o həm də rəssamlıq və nəqqaşlıq üzrə Şah Təhmasibin müəllimi olmuşdu (114).

Şah Təhmasib rəssamlıq və nəqqaşlıqda da çox böyük istedad nümayiş etdirmiş və özünü kifayət qədər bacarıqlı bir sənətkar

kimi tanıda bilmişdi. Onun hətta monumental rəngkarlıqda da öz gücünü sınaması və maraqlı əsərlər yaratması haqqında da məlumatlar vardır. Bildirilir ki, Qəzvində şah iqamətgahı kimi tikilmiş Çehelsütun sarayının bəzi eyvanlarının rəssamlıq işlərini Şah Təhmasib aparmışdı (115).

Şah Təhmasib tərəfindən Təbriz kitabxanasının rəhbəri təyin edilmiş Sultan Məhəmmədin sənət nümunələri olan çoxsaylı əsərləri hazırda dünyanın ən məşhur muzeylərinin kolleksiyalarına daxildir və nadir incilər kimi bu gün də öz dəyərini qoruyub saxlamaqdadır. Bu böyük sənətkarın bütün yaradıcılığında türk həyatına bağlılıq qırmızı bir xətt kimi keçir və onun ən məşhur əsərlərində də bu həyatın əlamətlərini görmək mümkündür. Sultan Məhəmməd qızılbaş dünyasının təsvirini rəssamlıqda xüsusi bir üsluba çevirən böyük sənətkardır. Qızılbaş papaqları, qızılbaş geyimləri, qəhrəmanlarının qızılbaş zahiri Sultan Məhəmməd əsərlərində çox qabarıq şəkildə öz əksini tapmışdır. Bu baxımdan Sultan Məhəmməd tərəfindən hansı dövrə mənsubluğundan asılı olmayaraq mövzu seçdiyi obrazların qızılbaşlaşdırılması, başqa sözlə türkləşdirilməsi sonradan dövrünün böyük rəssamları tərəfindən də təkrarlanan bir üsluba çevrilmişdi. Minüatür əsərlərinin qəhrəmanlarının baş geyimlərinin qızılbaş papaqları olaraq seçilməsi həmin rəsm əsərlərinin Azərbaycan rəssamlıq məktəbinə mənsubluğunun göstəricisi kimi də qəbul edilməkdədir (116).

Sultan Məhəmməd çoxlu sayda kitabların hazırlanmasında iştirak etmişdi və bu kitablar saray kitabxanasında, şahzadələrin kitabxanalarında, dövrün tanınmış adamlarının kitabxanalarında özünə yer almışdı. Ancaq onun iştirakı ilə hazırlanmış iki kitab yüksək sənət nümunəsi kimi bu gün də öz dəyərini itirməmişdir. Həmin kitablar "Şah Təhmasib Şahnaməsi" və "Şah Təhmasib Xəmsəsi" adlanırlar. Bu kitabların hər ikisi Şah Təhmasibin sifarişi və qayğısı altında hazırlanmışdır və onların meydana gəlməsi həm də Şah Təhmasibin kitaba, ədəbiyyata, rəssamlığa verdiyi dəyərin və göstərdiyi qayğının əməli nəticəsidir.

İstər Firdövsinin "Şahnaməsi", istərsə də Nizaminin "Xəmsəsi" Şərqin və bütünlükdə dünya mədəniyyətinin şah əsərləridir.

Bu əsərlər meydana gəldiyi vaxtlardan Şərq hökmdarlarının kitabxanalarının bəzəyinə çevrilmişdi və hər iki əsər özlərindən sonra böyük bir məktəbin yaranmasına təkan vermişdilər. Şərqin çoxlu sayda şairləri bu əsərlərə çoxlu nəzirələr yazmışdılar və onlar həm Firdövsini və həm də Nizamini özlərinin ustadı kimi qəbul etmişdilər. Bu əsərlərin Şah Təhmasibin adı ilə bağlanması isə onların yeni bir məzmunda və formada işıq üzü görməsi ilə bağlıdır. Şah Təhmasibin qayğısı və sifarişi əsasında dövrün ən istedadlı və mahir rəssam-nəqqaşları bu əsərlərin tərtibatına cəlb edildilər, həmin əsərlərə çoxlu sayda illüstrasiyalar çəkildi. Bununla, "Şahnamə" və "Xəmsə" kimi böyük əsərlərin görüntülüyü artırıldı və bədii sözlə rəssamlığın vəhdəti yaradıldı. Bu əsərlərdə iki sənətin – söz sənəti ilə rəssamlığın qovuşmasının misilsiz bir nümunəsi işıq üzü gördü. Şərqin bu iki böyük söz abidəsinə çəkilmiş olan minüatürlərin hər biri ayrılıqda böyük sənət nümunəsidir və dəyərinə görə onlar aid olduqların ədəbi əsərlərin sənətkarlıq səviyyəsini daha da tamamlayırlar. Şah Təhmasib bu əsərlərə yeni bir həyat verdi və onları yeni bir formada tərtib etdirdi.

İstər "Şahnamə", istərsə də "Xəmsə" əsərinə əvvəllər də, sonralar da çoxlu illüstrasiyalar çəkilmişdir. Lakin Şah Təhmasibin sifarişi ilə bu əsərlərə çəkilmiş illüstrasiyalar öz sənətkarlıq səviyyəsi ilə digərlərindən fərqlənirlər. Ona görə də Şah Təhmasibin sifarişi ilə tərtib edilən "Şahnamə" və "Xəmsə" həm də Şah Təhmasibin adı ilə tanınmaqdadır.

"Şahnamə" əsərinin möhtəşəm bir variantının hazırlanması ideyası Şah İsmayıla məxsus idi. O, Səfəvi dövlətini bərqərar edəndən sonra belə bir kitabın yaradılması barədə göstəriş verdi. O elə bir "Şahnamə" kitabı tərtib edilməsini istəyirdi ki, həmin vaxta qədər mövcud olan "Şahnamə" kitablarından daha əzəmətli olsun. Ümumiyyətlə, nəfis şəkildə hazırlanmış və tərtib edilmiş kitabların mövcudluğu və çoxluğu da sarayların əzəmətinin bir göstəricisi idi. Tarixdən məlumdur ki, Şah İsmayıla qədər "Böyük moğol Şahnaməsi", "Baysunqur Şahnaməsi" böyük abidələr kimi şöhrət tapmışdılar. Heratda işlənmiş və tərtib

edilmiş "Baysunqur Şahnaməsi"ndə 50 ədəd yüksək sənətkarlıqla işlənmiş minüatür var idi. Şah İsmayıl isə istəyirdi ki, onun sifarişi əsasında hazırlanacaq "Şahnamə" sənətkarlıq baxımından daha yüksək bit zirvədə olsun. Yeganə nüsxədə hazırlanacaq bu kitabı Şah İsmayıl öz oğlu Şah Təhmasibə ərməğan etmək istəyirdi. Bu məqsədlə də 1522-ci ildə belə bir kitabın yaradılması haqqında göstəriş verildi. Lakin bu işi sona çatdırmaq Şah İsmayıla qismət olmadı. Onun vəfatından sonra Şah Təhmasib bu ideyanın icrasını davam etdirdi və atasının arzusunda olduğu kitabın hazırlanmasını öz qayğısı altına götürdü. Sultan Məhəmməd, Ağa Mirək, Mir Müsəvvir, Sultan Məhəmmədin oğlu Mirzə Əli, Qədimi, Qasım Əli, Mir Müsəvvirin olğu Mirzə Seyid Əli, Əbdülsəməd, Əbdüləli, Əbdülvahab, Başdənqərə, Mirzə Məhəmməd, Müzəffər Əli, Dust Məhəmməd və Şeyx Məhəmməd kimi dövrün tanınmış rəssam-nəqqaşları bu kitabın hazırlanmasına cəlb edildilər. Mütəxəssislər də təsdiq edirlər ki, Şah Təhmasib "Şahnaməsi"nin tərtibatında on beş rəssam iştirak etmişdir. Bu rəssamların adları mənbələrdə olan məlumatlar və rəsm əsərlərinin üslübu əsasında müəyyənləşdirilmişdir. Kitabda olan minüatürlərdə yalnız iki rəssamın imzasına rast gəlmək mümkündür. Həmin rəssamlar Mir Müsəvvirlə Dost Məhəmməddir (117).

"Şah Təhmasib Şahnaməsi"nin yaradılması üzərində iş 20 il davam etmişdi. Bu müddət ərzində həm kitabın üzü köçürülmüş, həm də ona illüstrasiyalar çəkilmişdi. "Şah Təhmasib Şahnaməsi" 758 səhifədən ibarətdir. Kitabın içərisində 258 minüatür vardır. Mətn nəstəliq xətti ilə yazılmışdır. Kitaba illüstrasiyalar çəkilməsi əsasən, Sultan Məhəmmədin rəhbərliyi altında aparılmışdı. Bəzi məlumatlara görə isə, sonradan bu kitabın illüstrasiyaların çəkilməsinə rəhbərlik Mir Müsəvvirə, bir müddət də Ağa Mirəkə həvalə olunmuşdu. Kitabın 16-cı səhifəsində onun Şah Təhmasib kitabxanasına mənsubluğu haqqında yazı həkk olunmuşdur. Həmin yazıda deyilir: "Kitabxana-ye sultan ül-əzim və xaqan ...əl-Müzəffər Sultan Şah Təhmasib əl-Hüseyni əl-Səfəvi Bahadur şah" (118).

“Şah Təhmasib Şahnaməsi”nin üzərində 20 il iş aparılmışdısa, onda onun tamamlanması təxminən 1542-43-cü illərə təsadüf edir. Lakin hər bir saray kitabxanasının bəzəyi sayıla biləcək bu nadir sənət əsərinin qəribə taleyi olmuşdu. Elə Şah Təhmasibin hakimiyyəti illərində bu kitab Osmanlı sarayının mülkiyyətinə çevrildi. Nə üçün bu kitabın Osmanlı sarayında peyda olması haqqında dəqiq məlumat söylənmək çətindir. Lakin mütəxəssislər belə güman edirlər ki, həmin əsər 1566-cı ildə II Sultan Səlimin taxta çıxması münasibətilə Şah Təhmasibin ona göndərdiyi hədiyyələrin içində olmuşdu. Doğrudan da məlumdur ki, II Sultan Səlim Osmanlı taxt-tacına çıxanda Şah Təhmasib ona həm çox uzun bir təbrik məktubu, həm də çoxlu sayda qiymətli hədiyyələr göndərmişdi. Həmin hədiyyələrin içərisində Firdövsinin “Şahnamə” əsərinin olması haqqında mənbələrdə məlumat qalmışdır. Güman edilir ki, həmin “Şahnamə” məhz “Şah Təhmasib Şahnaməsi” idi və Səfəvi şahı iki dövlət arasında xoş münasibətlərin yaradılması xatirinə belı bir qiymətli əsəri Osmanlı sarayına hədiyyə etmişdi. 1800-cü ilə qədər bu əsərin Topqapı sarayında qaldığı məlumdur. 1903-cü ildə isə bu əsərin artıq Parisdə, Moris de Rotşildin şəxsi kolleksiyasında olduğu aşkarlanmışdır. 1959-cu ildə həmin əsər amerikalı kolleksiyaçı Artur Hayftonun əlinə keçdi və əsər Amerikaya aparıldı. “Şah Təhmasib Şahnaməsi” Amerikaya aparılandan bir müddət sonra onun sökülməsinə və vərəqlərin ayrı-ayrılıqda satılmasına başlandı. Artur Hayftonun əvvəlcə bu əsərin 28 (bəzi məlumata görə isə 78) minüatürünü Nyu-Yorkun Metropoliten muzeyinə bağışladı. Muzey isə bir müddətdən sonra həmin minüatürləri şəxsi kolleksiyaçılara satdı. Qalan minüatürlər isə sonradan hərraca çıxarıldı. Bir neçə dəfə “Şah Təhmasib Şahnaməsi”nin minüatürlərinin hərracı olmuşdu. Hər hərracda da satışa çıxarılan əsərlər qısa müddət ərzində, özü də çox böyük qiymətə satılmışdı. Məsələn, məlumdur ki, 1970-ci ildə keçirilən ilk hərracda qısa zaman ərzində “Firudinin Zöhhakı öldürməsi” minüatürü 634500 dollara, “Keykavusun Rüstəmə qulaq asması” əsəri 793500 dollara, “Mənuçehr sarayda” əsəri isə 353500 dollara satılmışdı.

1988-ci il oktyabr ayının11-də Kristi hərracında "Şah Təhmasib Şahnaməsi" minüatürlərinin növbəti satışı keçirilmişdi. Həmin gün satışa 14 minüatür çıxarılmışdı və onların qiyməti 40 000-250 000 dollar arasında dəyişirdi. 1991-ci ildə 258 minüatürdən cəmi 120-si qalmışdı. Onların da satışı planlaşdırılırdı. Nəzərdə tutulmuşdu ki, onların hamısı bir yerdə satılsın və bu əsərlər üçün 80 milyon dollar qiymət müəyyən edilmişdi. Bu minüatürlər İran dövləti tərəfindən alındı. Aparılan müzakirələrdən sonra satışa çıxarılan minüatürlərin qiymətini 20 milyon dollara endirmək mümkün oldu. Qarşılıqlı şəkildə razılığa gəlindi ki, həmin minüatürlər Tehranın müasir incəsənət muzeyində saxlanılan Villem de Kuninqin rəsm əsərləri ilə dəyişdirilsin. Bir məlumata görə isə bu dəyişdirilmə zamanı 118 minüatür İrana gətirildi. "Şah Təhmasib Şahnaməsi" minüatürlərinin hələlik məlum olan sonuncu hərracı 2011-ci il aprel ayının 11-də keçirilmişdir. Həmin tarixdə şəxsi kolleksiyada saxlanılan "Firudin öz övladlarını sınayır" minüatürü 7,4 milyon funt sterlinqə satılmışdı (119).

«Şah Təhmasib Şahnaməsi" Təbriz rəssamlıq məktəbinin şah əsəridir və onun meydana gəlməsi eyni zamanda Şah Təhmasibin ədəbiyyatın, rəssamlığın və kitab işinin inkişafına verdiyi diqqətin əyani nümayişidir. Bu əsərdə mətnin gözoxşayan bir xətlə yazılması, səhifələrin tərtibatı, onların haşiyələnməsi və qızıl suyuna tutulması, yüksək sənətkarlıq səviyyəsində minüatürlərin işlənməsi, kitabın tərtibatı və cildlənməsi hamısı bir-birini üzvü şəkildə tamamlamışdır. Belə bir əsərin ortaya çıxması hər şeydən əvvəl Səfəvi hüdudlarında sənətin və sənətkarlığın inkişaf zirvəsində olmasının göstəricisidir. Bu əsər elə indinin özündə də dünya mədəniyyətinin nadir incilərindən biri olaraq qalmaqdadır.

«Şah Təhmasib Şahnaməsi"nin başqa bir xarakterik xüsusiyyəti bu əsərdə iki mədəniyyətin, fars söz sənəti ilə Təbriz rəssamlıq sənətinin bir-birinə qovuşması və yeni bir məzun ortaya qoymasıdır. Firdövsinin "Şahnamə" əsərinin ədəbi dəyərini şübhə altına almadan qeyd edilməlidir ki, «Şah Təhmasib Şahnaməsi" bu əsərə yeni bir nəfəs verdi, onu daha da canlandırdı, onun əyanılıyini və qavranılmasını daha da artırdı. Zəmanəsinin

mahir sənətkarları tərəfindən çəkilmiş olan minüatürlər isə bu əsəri daha da müasirləşdirdi, onun mövzusunu Səfəvi dövrü ilə əlaqələndirdi. Bu baxımdan Şahnamə qəhrəmanlarının türkləşdirilməsi, Şahnaməyə türk ahənginin qatılması «Şah Təhmasib Şahnaməsi"nin başqa bir xarakterik cəhətidir. Yəni Şah Təhmasib sadəcə olaraq "Şahnamə"nin yeni bir nüsxəsini ortaya qoymadı. Onu həm də türk həyatı ilə bağladı, bu əsərin mövzuları işığında türk məişətini göz önünə çəkdi. Bununla bağlı «Şah Təhmasib Şahnaməsi"nin illüstrasiyalarına istinad etməklə çoxlu nümunələr göstərmək mümkündür.

«Şah Təhmasib Şahnaməsi"ndə çox az minüatür tapmaq mümkün olar ki, həmin minüatürün qəhrəmanlarında qızılbaş papağı olmasın. Yuxarıda deyildiyi kimi, Sultan Məhəmməd qızılbaş etnoqrafiyasının təsvirə çevrilməsinin ustalarından biri idi və bunu «Şah Təhmasib Şahnaməsi"nin minüatürlərində də görmək mümkündür. Qızılbaş papaqlarının istifadə edilməsi qızılbaş tayfalarının göstərici əlaməti idi və Şahnamə qəhrəmanlarına da bu papaqların geydirlməsi onların həm türkləşdirilməsi görüntüsü olmaqla, həm də təsvir olunan hadisələrin asan qavranılmasına yol açılması idi.

Şahnamə minüatürlərində müxtəlif ictimai təbəqələrin nümayəndələrini qızılbaş papağında və geyimində görmək mümkündür. Yəni bu minüatürlərdə təsvir olunanların böyük əksəriyyəti ictimai mövqeyindən asılı olmayaraq qızılbaşlardır. Onların arasında yüksək vəzifəli saray mənsublarını da görmək mümkündür, qızılbaş döyüşçülərinə də, qızılbaş xidmətçilərinə də, qızılbaş mühafizəçilərinə də. Bunların hər birini onların geyiminə, təsvir edildiyi məkana görə fərqləndirmək mümkündür. Qızılbaş əyanlarını saray daxilində, şah taxtı ətrafında və şaha daha yaxın məkanda, qiymətli paltarlarda görmək mümkündür. Qızılbaş əmirlərini və mühafizəçilərini bir qədər aralıda, həm də silahla təsvir edilmişlər. Şahnamə minüatürlərində odlu silahları görmək mümkün deyil. İstifadə olunan silahlar isə daha çox ox, qılınc və xəncərdən ibarətdir. «Şah Təhmasib Şahnaməsi"ndəki minüatürlərdə döyüş səhnələri çoxdur və həmin səhnələrdəki döyüşçülərin

çoxu qızılbaş papaqlarındadır. Bu səhnələrdə sanki rəssamlar qızılbaş döyüşçülrəinin qəhrəmanlığını əbədiləşdirməyə çalışmışlar. Bir çox minüatürlərdə qızılbaş qoşunlarının taktikasının müəyyən elementlərini də gömək mümkündür. Qızılbaş döyüşçülərinin tək döyüşü, kütləvi döyüşü, ayrı-ayrı döyüşçülərin irəli çıxarılması, döyüşlər zamanı musiqidən istifadə olunması və s. kimi səhnələr minüatürlərdə əks olunmuşdur. Ayrı-ayrı döyüş səhnələrində döyüş bayraqları da öz əksini tapmışdır. Həmin bayraqlar üzərində “Quran” ayələrini də asanlıqla oxumaq mümkündür. Bu bayraqlardan bəzilərində “Nəsri min Allah və fəthi qərib” ayəsi həkk olunmuşdur. Həmin ayə Səf surəsinin 13-cü ayəsidir və dövrün döyüş bayraqları üzərində bu ayənin yazılışına tez-tez rast gəlmək mümkündür (120). Bir sözlə «Şah Təhmasib Şahnaməsi”ndəki döyüş səhnələri Səfəvi qoşunlarının öyrənilməsi üçün də dəyərli bir mənbə ola bilər.

Bu minüatürlərdə tez-tez rast gəlinən obrazlar arasında müxtəlif vəzifəli xidmətçiləri və ovçuları da görmək mümkündür. Saray xidmətçiləri minüatürlərdə özlərinə məxsus vəzifələri icra edərkən təsvir edilmişlər. Saray ziyafətləri zamanı bu xidmətçilərin hər birini özünün vəzifəsi var idi. Minüatürlrədən də göründüyü kimi, onların bəzisi meyvə gətirir, bəzisi yemək gətirir, bəzisi qabları daşıyır, bəzisi də əmrə müntəzir şəkildə dayanırdılar. Bu minüatürlərdə əksini tapmış digər peşə sahiblərindən biri də musiqiçilər idi. Onlar ya tək halında, ya da cəm halında musiqi alətlərini ifa edərkən təsvir edilmişlər. Bəzi səhnələrdə isə xanəndələr musiqiçilərin müşayiəti ilə oxuduqları zaman təsvir olunmuşlar. Bütünlükdə, bu minüatürlərdə qızılbaşların Səfəvi dövlətinin həyatında aparıcı rola malik olmaları təsvir edilmişdir. «Şah Təhmasib Şahnaməsi”nin tədqiqatçıları da qeyd edirlər ki, bu minüatürlərdə Səfəvi dövlətinin ilk dövlərində qızılbaş tayfalarının səltənət həyatındakı üstün fəal rola malik olması öz ifadəsini tapmışdır (121).

«Şah Təhmasib Şahnaməsi”ndə məzhəb dəyərlərini əks etdirən elementlərin təsvirinə də rast gəlmək mümkündür. Bir çox minüatürlərdə Allah, Məhəmməd kəlmələri ilə yanaşı Əli kəlməsi

də yazılmışdır (122). Həzrət Əlinin adının təkrar-təkrar minüatürlərdə işlənilməsi şiə inanclarının mədəniyyətdə və incəsənətdə də mühüm yer tutmasının göstəricisidir. Məzhəb dəyərlərinin «Şah Təhmasib Şahnaməsi"ndə yer alması özü də qızılbaş həyatının təsvirinin bir parçası kimi qəbul edilə bilər. Çünki məlumdur ki, şiə məzhəbi Səfəvi hüduduna, bugünkü İran arealına qızılbaş tayfaları tərəfindən gətirilmişdi və bu arealda yaşayan qızılbaş tayfalarının dini etiqadı idi.

Şah Təhmasibin sifarişi ilə hazırlanmış və sənətkarlıq səviyyəsinə görə bütün dünyada şöhrət tapmış kitablardan biri də Nizaminin "Xəmsə"sinin nüsxəsidir. Bu kitab da "Şah Təhmasib Xəmsə"si kimi tanınmışdır. Qeyd edildiyi kimi, Nizaminin "Xəmsə"si Şərqin və eləcə də dünya mədəniyyətinin əzəmətli ədəbi abidələrindən biridir. Məlumdur ki, bu əsər yalnız bir ədəbi abidə kimi deyil, həm də elm və bilik mənbəyi kimi Şərqdə özünə əbədi bir şöhrət qazanmışdı və heç şübhəsiz ki, bu əsər istər saray kitabxanalarının, istərsə də şəxsi kolleksiyaların ən sevilən nüsxələrindən biri idi.

Nizaminin "Xəmsə"si həm də Şərqdə ən çox üzü köçürülən əsərlərdən biri idi. Heç şübhə yoxdur ki, Səfəvi saray kitabxanasında "Xəmsə" ən dəyərli əsərlərdən biri idi. Amma Şah Təhmasib bu əsərin əzəmətinin daha qabarıqlaşdırılması üçün onun yeni nüsxəsinin hazırlanmasına, bu ədəbi abidənin mövzularının yüksək sənətkarlıqla təsvirə çevrilməsinə göstəriş verdi. Səfəvi sarayının mahir rəssamları, o cümlədən Sultan Məhəmməd, Ağa Mirək, Sultan Məhəmməd Nişapuri, Mir Müsəvvir, Mir Seyidəli, Mirzə Əli və Müzəffər Əli kimi rəssam-nəqqaşlar da bu işə cəlb edilmişdilər. "Şah Təhmasib Şahnaməsi" kimi "Şah Təhmasib Xəmsə"sinin də həm üzü köçürüldü, həm də bu kitaba çoxlu sayda illüstrasiyalar çəkildi. Sultan Məhəmmədin bu kitabda yalnız dörd minüatürü vardır: "Peyğəmbərin meracı", "Sultan Səncər və qarı", "Xosrovun çimən Şirinə baxıb həzz alması", "Bəhram Gurun şir ovuna çıxması" (123).

"Şah Təhmasib Xəmsəsi" üzərində iş 1543-cü ildə başa çatdırılmışdı. Malik olduğu sənətkarlıq dəyərlərinə görə bu kitab

mütəxəssislər tərəfindən bütün dövrlərin və xalqların kitab sənətinin zirvəsi kimi qiymətləndirilmişdir. Hazırlanması başa çatdıqdan sonra bu kitabın hansı tale ilə qarşılaşdığını söyləmək çətindir. Məlum olan odur ki, bu kitab hazırda Londondakı Britaniya muzeyində saxlanılır (124).

İstər "Şah Təhmasib Şahnaməsi"ndə, istərsə də "Şah Təhmasib Xəmsəsi"ndə minüatürlərin əksəriyyəti ayrıca deyil, nəzm parçaları ilə əlaqələndirilmiş şəkildə səhifəyə yerləşdirilmişdir. Yəni minüatür ətrafında yerləşdirilmiş nəzm parçaları həm də minüatürün mövzusunun nədən ibarət olmasını ifadə edirdi. Mütəxəssislərin fikrincə, mətn və minüatürün planlaşdırılması zamanı sənətkarlıq tələbləri ilə bərabər, müəyyən bir təcrübə və ənənə də əsas götürülürdü (125).

«Şah Təhmasib Şahnaməsi"ndə olan kişi portretlərindən birinin elə Şah Təhmasibin özü olması haqqında ehtimallar vardır (126). Tədqiqatlar isə göstərir ki, Şah Təhmasib rəssamlığa qayğı göstərdiyi kimi, özü də dövrünün bir çox rəssamlarının mövzu obyekti olmuşdur. Bu portretlərin çoxu minüatür janrında çəkilmişdir və ona görə bu portretlərdə Şah Təhmasibin sifət cizgiləri də janrın tələblərinə uyğun olaraq qurulmuşdur. Bununla belə, onlar Şah Təhmasiblə bağlı dəyərli mənbə olaraq qalmaqdadırlar. Elmi-tarixi ədəbiyyatda Şah Təhmasibin məlum olan portretlərinin siyahısına da rast gəlmək mümkündür (127). Həmin siyahıda Şah Təhmasibin ömrünün müxtəlif anlarında çəkilmiş olan 15 portreti haqqında məlumat vardır. Ehtimal etmək olar ki, Şah Təhmasib haqqında daha çoxlu sayda rəssamlıq işləri mövcud olmuşdur. Səfəvi dövlətinin həyatında böyük rol oynamış Şah Təhmasib hətta həyatından sonra da rəssamların mövzu obyekti olmuşdu. Bunun təsdiqi olaraq onun hind padşahı Məhəmməd Hümayunu qəbul etməsi ilə bağlı olan divar rəsmini göstərmək olar.

Rəssamlıqla birbaşa bağlı olan xalçaçılığın inkişafı da Şah Təhmasibin hakimiyyəti illərində yüksək zirvəsinə çatmışdı. Ümumiyyətlə, Səfəvi hakimiyyəti illərində istər Azərbaycanda, istərsə də bütün Səfəvi hüdudlarında xalçaçılıq işinin zəngin bir

təcrübəsi və ənənəsi mövcud idi. Bu sahənin inkişaf etdirilməsi üçün isə Səfəvi daxilində bütün imkanlar mövcud idi. O cümlədən, xalça toxunuşunda istifadə olunan ipliklərin bütün xam malı Səfəvi daxilində istehsal olunurdu. Onların rənglənməsi, xalça toxunuşu üçün hazırlanması isə mahir ustalar tərəfindən həyata keçirilirdi. Hazırda dünya xalçaçılıq sənətinin nadir incilərindən hesab olunan "Şeyx Səfi" xalçası da Şah Təhmasibin hakimiyyəti illərində, onun sifarişi əsasında toxunmuşdu.

"Ərdəbil xalçası" kimi də tanınan bu xalça Şeyx Səfi türbəsinin fərşi üçün sifariş olunmuşdu. Şah Təhmasib ulu babası Şeyx Səfinin uyuduğu müqəddəs məkanın adına layiq olan elə bir xalçanın toxunmasını istəyirdi, həmin xalça elə Şeyx Səfinin adı və onun uyuduğu türbə kimi əbədiyaşar olsun. Bu xalçanın toxunması 3,5 ilə başa çatmışdı və onun üzərində toxuculuq işlərinin tamamlanması 1537-ci ilə təsadüf edir (128).

Öz gözəlliyinə, zərifliyinə və sənətkarlıq xüsusiyyətlərinə görə indi Şeyx Səfi xalçası dünyanın ən yaxşı 50 sənət nümunəsi sırasına daxil edilmişdir (129). Onun kifayət qədər böyük ölçüləri vardır. Bu xalçanın uzunluğu 11,52 metr, eni isə 5,32 metrdir. Xalçanın toxunması üçün 32 milyon ilmə vurulmuşdur. Hazırda bu xalça Londonda yerləşən Viktoriya və Albert muzeyində saxlanılır.

Bütünlükdə ədəbiyyatın, mədəniyyətin, incəsənətin, metaldöymə işlərinin elə bir sahəsi yox idi ki, Şah Təhmasibin hakimiyyəti illərində həmin sahədə dəyərli nümunələr yaradılmamış olsun. Azad fəaliyyət üçün yaradılmış imkanlar yeni bir sənətkarlar nəslinin formalaşmasına yol açırdı. Səltənət daxilində əmin- amanlığın olması, iqtisadi sahədə tərəqqinin əldə edilməsi yaradıcı sahələrin inkişafına da münasib zəmin yaradırdı. Qeyd edilməlidir ki, hətta müharibələrin aparılması silah istehsalı sahəsində də uyğun səviyyənin qazanılmasını zəruri edirdi. İstehsal olunan silahlar yalnız hərbi keyfiyyətlərinə görə deyil, həm də estetik kamilliyinə görə seçilirdilər.

Şah Təhmasibin qayğısı və nəzarəti altında səltənət daxilində aparılmış tikinti-abadlıq işləri haqqında isə "Tarix-i aləmara-yi

Abbasi" əsərində belə bir məlumat vardır: "Onun [hakimiyyəti dövrünün] abidələri bunlardır: Tehran şəhərinin qala divarlarının və müqəddəs Məşhədin qala divarlarının inşa edilməsi; cinlərin və insanların imamı [olan İmam Rzanın] mübarək günbəzinin üzərinin qızıl suyuna boyanaraq qızıla tutulması; darüssəltənə Qəzvindəki mübarək dövlətxananın inşası; Qəzvində bir neçə hamamın və Çaharbazarın tikilməsi; Səadətəbad adı ilə tanınıb, cahanda yaxşı şöhrət tapmış və cənnət bağlarından bir nümunə olan Baği-İrəmin salınması; və darüssəltənə Təbrizin Sahibabad ərazisində bir məscidin tikilməsi. Allah rəhmət eləsin! Ümidimiz budur ki, pak və təmiz Əhli-beyt həzrətlərinə bəslədiyi gözəl etiqadın nəticəsi olaraq, qiyamət günündə peyğəmbər və imam nəslinin məsumları ilə bir yerdə olsun, o Allah dərgahının bəyənilmişləri ilə birgə cənnət bağlarında yaşayıb, nur saçsın" (130).

Bu sadalananlar eyni zamanda Şah Təhmasibin hakimiyyəti illərində tikinti-arxitektura sahəsində çox zəngin bir təcrübənin qazanıldığını göstərirdi. Həmin illərdə çox güclü bir sənətkarlar nəsli yetişdi ki, sonrakı illərdə tikinti-arxitektura sahəsində əldə edilmiş uğurlarda bu nəslin böyük rolu var idi.

### 4. Şah Təhmasibin ailəsi

Ailə dəyərlərinə yüksək ehtiram göstərilməsi Şah Təhmasibin mənəvi-əxlaqi keyfiyyətlərinin mühüm cəhətlərindən biri idi. Dövrün bir çox səltənətlərində hakimiyyətin şəriksizliyinə nail olunması üçün hakimiyyətə səlahiyyətləri çatanların qırdırılması təcrübəsi Şah Təhmasibə xas deyildi. Ailə qayğısı ən azı elə səltənət qayğısı qədər Şah Təhmasibin diqqət mərkəzində idi və məhz bunun üçün idi ki, hələ ilk vaxtlardan ailə üzvlərinin təlim-tərbiyəsinin aparılması və uşaqlara savad və bilik öyrədilməsi üçün əməli addımlar atılırdı. Bu işin səmərəli bir təcrübəsi də formalaşmışdı. Məlumdur ki, Şah Təhmasib həm qardaşlarını, həm də yenicə doğulmuş oğlan övladlarını vilayət hakimləri təyin etməklə onlara məsul vəzifələr tapşırırdı. Bu zaman sözsüz ki, onların hər birinə lələ də təyin edilirdi. Ailə təlim-tərbiyəsində

lələlik təcrübəsi xüsusi bir rol oynayırdı və bu təcrübəyə məqsədli şəkildə yanaşılması öz əməli nəticələrini də verirdi. Şah Təhmasib hər zaman istəyirdi ki, ailə üzvlərini Şah İsmayıldan qalmış səltənətə sədaqətli və bu səltənəti qorumağa hazır olan varislər kimi görsün. Tarixi şəraitin və mühitin sınaqları ilə qarşılaşsa da, Şah Təhmasib hər zaman Şah İsmayıl ocağının istisini qorumağa və ailə üzvlərini də bu ocaq ətrafında sıx birləşdirməyə çalışırdı.

### a) Şah Təhmasibin qardaşları

Şah Təhmasibin üç qardaşı vardı. Əlqas Mirzə, Sam Mirzə və Bəhram Mirzə. Onun Rüstəm Mirzə adında bir qardaşı da olmuşdu. Lakin o, dünyanı vaxtsız tərk etmişdi. Şah Təhmasiblə onun qardaşları arasında elə də böyük yaş fərqi yox idi. Şah Təhmasib (Təhmasib Mirzə) 1514-cü ildə anadan olmuşdusa, Əlqas Mirzə 1515-ci ildə, Sam Mirzə ilə Bəhram Mirzə isə 1517-ci ilin sentyabr ayında anadan olmuşdular (131). Sam Mirzə cəmi bir neçə gün Bəhram Mirzədən böyük idi. Şah Təhmasiblə Bəhram Mirzə eyni anadan doğulmuşdular. Əlqas Mirzə ilə Sam Mirzə isə eyni anadan olmaqla Şah Təhmasibin atabir qardaşı idilər. Buna baxmayaraq, Şah Təhmasib onların hər birinə qarşı çox səmimi münasibət bəsləyirdi. Ümumiyyətlə, Şah Təhmasib qardaşlarını dərin məhəbbətlə sevirdi, onları özünün arxası və dayağı hesab edirdi, onlara güvənirdi və onların hər bir uğuruna da ürəkdən sevinirdi. Ən məsuliyyətli vəzifələri və işləri də Şah Təhmasib ilk növbədə öz qardaşlarına həvalə edirdi. Belə məsuliyyətli vəzifələrin icrasına Şah Təhmasibin qardaşları hələ kiçik yaşlarından başlamışdılar. Məsələn, məlumdur ki, Sam Mirzə hələ Şah İsmayılın hakimiyyəti illərində Xorasan hakimi təyin edilmişdi. Sonralar Sam Mirzə bir müddət Ərdəbil hakimi də olmuşdu. Əlqas Mirzə Astrabad hakimi olmuş və sonra da Şirvan kimi böyük bir vilayət onun hakimiyyəti altına verilmişdi. Bəhram Mirzə isə Xorasanın, Həmədanın, Gilanın hakimi vəzifələrini öz üzərinə götürmüşdü (132).

Hələ gənc yaşlarından da Şah Təhmasibin qardaşları onunla birlikdə səltənət ərazilərinin müdafiəsində iştirak edirdilər, qoşun dəstələrinə rəhbərlik edirdilər. Kifayət qədər gənc olmalarına baxmayaraq bu döyüşlər zamanı Şah Təhmasibin qardaşları müəyyən hərbi keyfiyyətlər də nümayiş etdirə bilirdilər. Yəni Şah Təhmasibin qardaşları hələ kiçik yaşlarından döyüş vərdişlərinə yiyələnməyə başlamışdılar və bu vərdişləri onlar döyüş meydanlarında da əməli işə çevirə bilirdilər.

Məsələn, məlumdur ki, 1527-ci ildə qızılbaş qoşunları ilə özbək qoşunları arasında baş verən döyüşdə Bəhram Mirzə də iştirak edirdi. Bu zaman döyüşlərin getdiyi Xorasan vilayətinin hakimi Sam Mirzə idi və kiçik olmasına baxmayaraq o da vilayətin müdafiəsi işinə cəlb edilmişdi. Bu döyüşün getdiyi vaxt Bəhram Mirzənin cəmi 10 yaşı var idi. Amma Şah Təhmasib bu döyüşün gedişində Xarəzm istiqamətinə göndərdiyi qoşun dəstəsinə rəhbərliyi məhz Bəhram Mirzəyə tapşırmışdı. Bəhram Mirzə də ona tapşırılan vəzifəni uğurla yerinə yetirdi və bu da Şah Təhmasibin məmnunluğu ilə qarşılandı (133).

1528-ci ildə çox böyük sayda olan özbək qoşunlarının Xorasan vilayəti üzərinə hücumunun qarşısını almaq üçün həyata keçirilən döyüşdə də Şah Təhmasibin qardaşları onun yanında idi və onlara bu dəfə də çox məsuliyyətli tapşırıqlar həvalə olunmuşdu. Cam ətrafında özbək qoşunları üzərinə əldə edilmiş tarixi qələbədə Şah Təhmasibin qardaşlarının da müəyyən xidmətləri var idi. Bu döyüşün başlanğıcında qızılbaş qoşunlarının sağ və sol cinahları Sam Mirzə ilə Əlqas Mirzəyə tapşırıldı (134). Bu qardaşlar da onlara tapşırılan vəzifənin icrası üçün böyük fədakarlıq nümayiş etdirdilər, qarşıda dayanan qüvvələrin çox böyük say üstünlüyünə baxmayaraq çox böyük əzmkarlıqla döyüşə atıldılar.

1530-cu ildə Şah Təhmasibin özbək qoşunlarına qarşı növbəti hərbi yürüşdən əvvəl keçirdiyi sıra baxışında Əlqas Mirzə ilə Bəhram Mirzə də tabeliklərində olan qoşun dəstəsi ilə iştirak edirdilər. Bu sıra baxışı zamanı əvvəlcə Əlqas Mirzə tabeliyində olan 4 min nəfərlik qoşun dəstəsi ilə Şah Təhmasibin önündən

keçdi. Əlqas Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsinin nizamı, təchizatı və xarici görünüşü çox yaxşı bir təəssürat yaratdı. Şah Təhmasib müşahidə etdiklərindən razı qaldı və qarşıdakı döyüşə yollanacaq qoşunların bütün sağ cinahına rəhbərlik ona tapşırıldı. Qoşunların sol cinahı isə Bəhram Mirzəyə tapşırıldı. O, 3 min nəfərlik bir qoşun dəstəsi ilə Şah Təhmasibin önündən keçdi. Bəhram Mirzənin qoşun dəstəsi də təchizatı, xarici görünüşü və nizamı ilə seçilirdi və Şah Təhmasib şübhə etmirdi ki, o, qoşunların sol cinahına uğurlu rəhbərlik edə biləcəkdir (135).

Şah Təhmasibin hakimiyyətinin ilkin dövründə onun qardaşlarının səltənətin müdafiəsi uğrunda aparılan döyüşlərdə yaxından və fədakarcasına iştirak etməsi haqqında çoxlu faktlar mövcuddur və bu barədə əvvəlki fəsillərdə danışılmışdır. Mövcud olan bəzi məlumatlar da göstərir ki, Şah Təhmasibin qardaşları vilayət hakimi olmadıqları vaxtlar səltənətdaxili işlərdə yaxşı bir fəallıq göstərirdilər və bu məqsədlə vaxtlarının böyük bir hissəsini də əyalətlərdə keçirirdilər (136).

"Aləmara-ye Şah Təhmasib" əsərində Əlqas Mirzənin evlənməsi haqqında müxtəsər bir məlumat mövcuddur. Həmin məlumatdan da görünür ki, Şah Təhmasib öz qardaşlarının xoş günlərinə necə dərindən sevinirdi. Əlqas Mirzənin özbək qoşunlarına qarşı mübarizədə göstərdiyi igidliklərdən sonra Şah Təhmasib onu Şirvan hakimi təyin etməyi qərar aldı. Şah Təhmasib əvvəlcə Əlqas Mirzəni başqa bir vilayətə hakim təyin etmək istəyirmiş. Lakin sonradan fikrini dəyişməli olmuşdu. Əlqas Mirzənin toyu haqqında məlumat da onun Şirvan hakimi təyin edilməsindən sonraya təsadüf edir. Bəllidir ki, Əlqas Mirzə 1538-ci ildə Şirvan hakimi təyin edilmişdi. Haqqında danışılan toy mərasimi də çox güman ki, həmin il, ya da bir müddət sonra təşkil edilmişdi.

"Aləmara-ye Şah Təhmasib" əsərində bildirilir ki, bir gün Şah Təhmasib toplantılarından birində hansı əmirdə Əlqas Mirzəyə layiq olan qız olması ilə maraqlandı. Söylənildi ki, Məntəşə sultanın ikinci Züleyxa ola biləcək bir qızı vardır. Şah Təhmasib də dərhal Məntəşə sultanın qızını Əlqas Mirzəyə nikah etdirdi və

bununla bağlı təntənəli bir toy mərasimi də təşkil etdi. Nikah mərasimindən sonra Şah Təhmasib taxt-tacı üç günlüyə Əlqas Mirzəyə vermək istədiyini bəyan etdi. Əlqas Mirzə bu təkliflə razılaşmayanda Şah Təhmasib ona and verdi və onu şahlıq taxtında əyləşdirdi. Özü isə onun yerini tutdu. Əlqas Mirzə taxta oturandan sonra dedi ki, məclisdəki əmirlərin oynamasını istəyir. Şah Təhmasib də bildirdi ki, sən indi şahsan, əmr elə, məclisdəkilər də durub oynasınlar. Belə olanda Əlqas Mirzə üzünü Abdulla xana çevirir, əmioğlu (bəzi məlumatlara görə isə Abdulla xan Şah İsmayılın bacısı oğlu idi) deyə ona müraciət edib onu oynamağa dəvət edir. Abdulla xan da cavab verir ki, mən rəqsi meydanlarda edirəm, özü də qılınc və nizə ilə. O sonra da əlavə etdi ki, məclisdə rəqs etmək xanımların işdir. Əlqas Mirzə təkid edir ki, Abdulla xan durub oynasın, yoxsa onun işi pis olacaq. Şah Təhmasib görəndə ki, Əlqas Mirzə ilə Abdulla xan arasında mübahisə ciddiləşdi, onda özü ayağa qalxdı və Abdulla xanın da əlini tutdu ki, gəl birlikdə oynayaq. Verilən məlumata görə, Əlqas Mirzə yaranmış gərginliyin Şah Təhmasib tərəfindən aradan qaldırıldığını görəndə taxtdan aşağı endi, Şah Təhmasibin ayağından öpüb taxtı yenidən ona verdi. Şah Təhmasib isə oynamağını davam etdirdi və ətrafdakılara da dedi ki, hər kəs bacardığı qədər şabaş versin. Məclisdə olanlar da böyük səxavət göstərdilər və çox böyük həcmdə şabaş toplandı. Məlum oldu ki, şabaşda toplanan pulu nümumi məbləği 90 min tüməndən yuxarıdır. Şah Təhmasib bu şabaşın hamısını Əlqas Mirzəyə bağışladı və qaynatası Məntəş sultanı da Şirvan hakimi kimi ona lələ təyin etdi. Şah tərəfindən Məntəş sultana tapşırıq verildi ki, Əlqas Mirzəni qayğı və nəzarət altında saxlasın, yararsız insanların ona təsirinin də qarşısını alsın (137).

Görünür, Şah Təhmasib onun qardaşlarına yad təsirlərin ola biləcəyini hiss edirmiş və bir müddətdən sonra Şah Təhmasib doğrudan da bu yad təsirlərin yaratdığı narahatçılıqlarla qarşılaşmalı oldu. Bir tərəfdən kifayət qədər yetkin olmamaları, bir tərəfdən də hakimiyyət aludəçiliyi həm Əlqas Mirzəni, həm də Sam Mirzəni Şah Təhmasibə qarşı asilik yolunu tutmağa sövq

etdi. Bəhram Mirzədən fərli olaraq Əlqas Mirzə ilə Sam Mirzə hakimiyyətə qarşı asilik yoluna qədəm qoydular ki, bu da Şah Təhmasibin həyatının acı bir səhifəsinə çevrildi.

Sam Mirzənin 1529, 1532 və 1534-cü illərdə Şah İsmayıldan miras qalmış taxt-taca xidmət yolundan yayınması haqqında məlumatlar mövcuddur. Sonuncu asilik hadisəsindən sonra Sam Mirzə peşman olması haqqında Şah Təhmasibə məktub yazdı. Hazırkı kitabın uyğun fəslində bu barədə danışılmışdır. "Aləmara-ye Şah Təhmasib" əsərində bu hadisədən sonra Şah Təhmasiblə Sam Mirzə arasında baş verənlər haqqında bir qədər fərqli məlumat mövcuddur. Bu əsərdə olan məlumata görə, Sam Mirzə qardaşı Şah Təhmasibə yazdığı məktubunda onu Əli ibn Əbu Talibə and verərək bağışlanmasını xahiş etdi. O həmin məktubu Abdulla xana göndərdi ki, Şah Təhmasibə çatdırsın. Mənbədə bildirilir ki, bu məktubla tanış olandan sonra Şah Təhmasibin gözləri yaşlandı və çox kədərləndi. Sonra da Sam Mirzənin bağışlanması haqqında qəsəmnamə yazdı və onu Abdulla xana göndərdi. Abdulla xan da Şah Təhmasibdən aldığı xəbəri Sam Mirzəyə çatdırdı. Sam Mirzə bundan sonra saraya gəlməyə özündə cəsarət tapdı. Abdulla xanla görüşdükdən sonra Sam Mirzə saraya, Şah Təhmasibin dərgahına yola düşdü. Məlumata görə, o, Şah Təhmasibin görüşünə boynuna qılınc asaraq yollandı. Bildirilir ki, dərgaha daxil olanda Sam Mirzə hətta huşunu itirdi. Şah Təhmasib onun başını qucağına alıb ayılmasını gözlədi. Sam Mirzə ayılanda Şah Təhmasibi başı üstündə görüb ağlamağa başladı və sonra da bildirdi ki, etdiyi əməllərə görə onun yanında xəcalətlidir. Şah Təhmasib onu sakitləşdirməyə çalışdı və onun günahsızlığına əmin olduğunu bildirdi. Sonra da könlünü alıb yanında ona yer verdi (138).

Şah Təhmasib qardaşını ona qarşı asilik etməsinə baxmayaraq nəinki bağışladı, hətta ona yenidən etimad göstərdi və bir müddət sonra onu Ərdəbil hakimi təyin etdi. Sam Mirzə də bir neçə il bu vəzifədə xidmət etdi. Lakin yenidən asilik yoluna yuvarlanmalı oldu və hakimiyyət iddialarına düşdüyü üçün 1561-ci ildə Şah Təhmasibin fərmanı ilə həbs olundu. Sam Mirzə bir neçə il Qəh-

qəhə qalasında həbsdə qaldı. 1567-ci ilin sonlarında Sam Mirzə həmin qalada iki oğlu ilə birlikdə qətlə yetirildi. Belə bir ehtimal var ki, onun qətli Şah Təhmasibin göstərişi əsasında baş vermişdi (139).

Başqa bir məlumata görə isə, Sam Mirzə həbsdə olarkən zəlzələ baş verdi və Sam Mirzə də övladları ilə birlikdə Qəhqəhə qalasının uçqunları altında qalaraq dünyasını dəyişdi. Yuxarıda qeyd olunduğu kimi, Sam Mirzə həm də ədəbi istedada malik olan qələm sahibi idi. Ondan bir divan və bir də "Töhfe-ye Sami" təzkirəsi miras qalmışdır (140). Məlumdur ki, Sam Mirzə öz təzkirəsində 700-dən artıq qələm sahibi və onların əsərləri haqqında məlumat vermişdi. Bu da onun söz sənətinə olan marağını və həm də tədqiqatçılıq məharətini göstərirdi. Sam Mirzə gözəl yazı məharətinə də malik olmuşdu.

Əlqas Mirzə də Şirvan hakimi olduğu illərdə Şah Təhmasibə qarşı asilik yolunu tutdu, Şirvanı mərkəzi hakimiyyətdən qoparmağa çalışdı. Məlumdur ki, Şirvanı mərkəzi hakimiyyətdən qoparmağa müvəffəq olmayanda Əlqas Mirzə Osmanlı sarayına sığındı, Osmanlı sultanının köməyi ilə Səfəvi hakimiyyətini ələ keçirməyə çalışdı. Bunun nə ilə nəticələndiyi isə əvvəlki fəsillərdə öz əksini tapmışdır.

"Tarix-i aləmara-yi Abbasi" əsərində Şirvan hakimliyi dövründə Əlqas Mirzənin asilik yolunu tutması və onun Şah Təhmasibə sədaqətsizlik göstərməsi belə təsvir olunmuşdur: "Mükalimə meydanının sərkərdələri xəbər ordusunun sıralarını belə düzmüşlər ki, Ülamə Təkəlü Əcəm məmləkətinin gözəlini Rum sultanının nəzərində elə məharətlə təsvir etmişdi ki, [Sultan Süleyman] heç vaxt onun arzusunu yadından çıxarmırdı və hər gecə onu ələ keçirmək xəyalını etmədən yata bilmirdi. Nəhayət, anlamaz və qanmaz şahzadə Əlqas öz düşüncəsinin azlığı ucbatından, özündən daha ağılsız olan bir dəstə adamın azdırması ilə hər iki dünyada öz xoşbəxtlik və səadətinin səbəblərini məhv edərək, aləmi yaradan Allahın meyli ilə yüksəlişə nail olmuş o cürə mehriban qardaşa (Şah Təhmasibə) xidmətdən üz çevirərək, Ruma getdi. Sultan Süleyman onun vücudundan Əcəm mülkünün

alınması üçün bir fürsət kimi yararlanaraq, belə bir xam xəyala qapılıb və cahillər başçısının (Əlqasın) boş sözlərinə uyub, bu tərəfə hərəkət etdi. Bu əhvalatın tarixi belədir ki, cənnətməkan şah həzrətləri Əlqas mirzəni başqa qardaşlarından çox sevirdi və onlardan daha artıq ona sevgi və mehribanlıq göstərirdi. Belə ki, Şirvan vilayətini aldıqdan sonra qardaşlarından onu üstün tutaraq, «şirvanşah» adını ona verdi və onu o vilayətin hökumət və ixtiyar sahibi etdi. Şahın [ona] göstərdiyi ehtiram və məhəbbət qardaşlarının həsədinə səbəb idi. Nadan [Əlqas] mirzə bəzi fitnəkarların azdırması və təhriki ilə o həzrətin onu bəsləyib böyütməsinin qarşısında nankorluq və qiyam etdi. [Əlqas mirzə] Şirvanda çoxlu qoşun, səltənət və padşahlıq ləvazimatını hazır gördükdə ayağını itaət dairəsindən kənara qoydu və müxaliflik qapılarını açaraq, o həzrətin razı olmadığı işlər görməyə başladı. Əşrəfin mübarək könlü ondan döndü və onun fitnəsini dəf etmək istədi. Adı çəkilən (Əlqas mirzə) o həzrətin üz çevirməsi səbəbindən qəflət yuxusundan bir qədər ayılaraq, nalayiq işlərindən peşman olub, təəssüf etdiyini bildirdi. [Əlqas mirzə] öz anasını və oğlu Əhməd mirzəni cənnətməkan şahın hüzuruna göndərərək söz verdi ki, bütün ömrü boyu ayağını itaət yolundan kənara qoymayacaq. Cənnətməkan şah onun üzrxahlığını qəbul edərək, onun təqsirindən keçdi. [Şah] Seyid Məhəmməd Kəmunə, Sevindik bəy Qorçubaşı, Məsum bəy Səfəvi, Şahqulu bəy Xəlifə Möhürdar və Bədr xan Ustaclu kimi dövlətin böyük əmirlərindən və ağsaqqallarından bir neçə nəfəri onun anası ilə göndərdi ki, ona and içdirsinlər ki, bir daha nalayiq işlər görməyəcək. Əmirlər, göstərişə əsasən, işləri görüb qayıtdılar. Qərara alındı ki, o qışda iki tərəfdən kafirlər diyarına qoşun yeridib, müharibə və cihad etsinlər" (141).

"Aləmara-ye Şah Təhmasib"də bildirilir ki, Əlqas Mirzə əvvəlcə lələsi və qayınatası Məntəşə sultanla düşmənçiliyə başladı. Bir sıra əmir və əyanların təhrikinə uyan Əlqas Mirzə Şirvanda öz adına sikkə vurdurmaq istədi. Məntəşa sultan buna mane olmaq istəyəndə Əlqas Mirzənin ətrafını sarımış bəzi əyanlar onun qətlini istədilər. Əlqas Mirzə qayınatası olduğu üçün onun qətlindən

əl götürdü və Təbrizə qayıtmasına imkan verdi. Şah Təhmasib qardaşının asilik yolunu tutması xəbərini ürək ağrısı ilə qarşıladı. Səhəri gün Şah Təhmasib divan toplantısına Məntəşə sultanı da çağırdı və Əlqas Mirzə haqqında olanları bir də təkrar etməsini istədi. Şah Təhmasib dedi ki, Əlqas Mirzəyə məktub yazacaq və ondan Məntəşə sultanın əlini öpməyi tələb edəcəkdir. Məntəşa sultan həmin məktubla geri qayıtsa da Əlqas Mirzə tutduğu yoldan dönmədi və belə olanda Şah Təhmasib Şirvana qoşun göndərməyi qərara aldı. Şirvanda isə Şah Təhmasibin göndərdiyi qoşun dəstəsinin yaxınlaşması xəbəri qorxu və təlaşa səbəb oldu. Əlqas Mirzənin rəhbərliyi altında olan qoşun əhli qorxudan qaçıb dağıldı və çoxu isə Şah Təhmasibin qoşunlarına birləşdi (142).

"Aləmara-ye Şah Təhmasib" əsərində olan məlumatların çoxu Səfəvi mövzusunda olan bir çox mötəbər mənbələrdə öz təsdiqini tapmır. Bununla belə, bu əsərdə Əlqas Mirzə ilə bağlı mövcud olan məlumatlar da müəyyən maraq doğura bilər. Əlqas Mirzənin əvvəlcə öz asiliyindən peşman olması və bağışlanması üçün anası ilə oğlunu Şah Təhmasibin hüzuruna göndərməsi ilə bu əsərdə də rastlaşmaq mümkündür. Şah Təhmasib ona edilən müraciətdən sonra Əlqas Mirzənin günahından keçdi və onun günahlarını bağışladı. Sonra da onu Dağıstan istiqamətinə göndərdi ki, oradakı islam düşmənləri ilə mübarizə aparsın. Şah Təhmasib özü isə Gürcüstana yollanmalı idi ki, orada baş verən itaətsizliyi aradan qaldırsın. Əlqas Mirzənin asiliyinin aradan qalxması Şah Təhmasibi xeyli sevindirdi. O, Əlqas Mirzəyə də çatdırdı ki, onların yenidən bir yerdə olması və səltənət maraqları üçün birlikdə mübarizə aparmaları dövləti daha da gücləndirər və Osmanlı sultanını da Səfəvi üzərinə qoşun çəkməkdən çəkindirə bilər. Amma Şah Təhmasibin ümidləri heç də doğrulmadı. Çünki Əlqas Mirzə Dağıstan istiqamətinə yollansa da yenidən hakimiyyət iddiasına düşdü. Bu niyyətinə nail olmaq üçün Dağıstanda mübarizə apardığı tayfaları da öz ətrafında birləşdirməyə çalışdı. Şah Təhmasib yenidən eşidəndə ki, Əlqas Mirzə bir daha mərkəzi hakimiyyətə qarşı itaətsizlik yoluna düşüb, onda ona qarşı ciddi tədbirlərin həyata keçirilməsini lazım bildi. Gürcüstan səfərindən

geri qayıtdıqdan sonra Şah Təhmasib divan topladı və əmirlərinə müraciət etdi ki, kim Əlqas üzərinə qoşun çəkə bilər. Kimsə dinmədikdə Şah Təhmasib "qarabağlı" kimi müraciət etdiyi Şahverdi sultan Ziyadoğluna üz tutdu, ondan Əlqas Mirzənin üzərinə getməyi istədi. Şahverdi sultan Ziyadoğlu bildirdi ki, onun bu tapşırığı icra etməyə gücü çatar, lakin cəsarəti çatmır. Sonra da bunun səbəblərini açıqladı: əvvəla ona görə ki, Səfəvi ocağına qarşı qılınc çəkmək istəmir; ikinci ona görə ki, Əlqas Mirzəni öldürməyə əli gəlməz; üçüncü ona görə ki, Əlqas Mirzə Şah İsmayılın oğlu, Şah Təhmasibin isə qardaşıdır. Bu sözləri eşidəndə Şah Təhmasib dedi ki, mən sizin mürşidinizəm. Adı çəkilən mənbənin verdiyi məlumata görə, bundan sonra Şah Təhmasiblə Şahverdi sultan Ziyadoğlu arasındakı söhbət tamamlandı və Şahverdi sultan qoşun dəstəsi ilə Şirvana yollanmalı oldu (143).

Əlqas Mirzənin Qafqazdan adlayaraq Osmanlıya pənah aparması, Osmanlı qoşunları ilə birlikdə Şah Təhmasibə qarşı mübarizə aparması və nəhayət onun təsəvvür edə bilməyəcəyi bir şəkildə süquta düçar olması haqqında əvvəlki fəsillərdə məlumat verilmişdir. Bəllidir ki, Şah Təhmasib onu yazıq və çarəsiz vəziyyətdə görəndə günahlarını bağışladı. Əlqas Mirzə Ələmut qalasına göndərildi və həyatını da orada başa vurdu. Şah Təhmasib sözsüz ki, çox sevdiyi qardaşının belə bir tale ilə qarşılaşmasını istəmirdi. Lakin təzkirəsində onu da yazırdı ki, Əlqas Mirzənin ələ keçməsindən sonra dünyada bir əmin-amanlıq da yarandı.

"Əhsənüt-təvarix"in müəllifi Həsən bəy Rumlunun yazdıqlarından belə bir qənaətə gəlmək mümkündür ki, Əlqas Mirzə 1549-cu ildə dünyasını dəyişmişdir (144). O da digər qardaşları kimi ədəbi istedada malik olmuş və bədii yaradıcılıqla da məşğul olmuşdur. Aşağıdakı rübainin ona məxsus olduğu bildirilir (145):

Çun şir-e dərənde dər şekarim həme
Daim be həva-ye xiş yarim həme
Çun pərdə ze ru-ye kar-e ma bərxizəd
Məlum şəvəd ki, dər çe karim

(Vəhşi şir kimi hamımız ovdayıq
Hər zaman ancaq öz fikrimizdəyik
Əgər bizim işlərimizin üstündən pərdə götürülsə
Məlum olar ki, nə ilə məşğuluq)

Əlqas Mirzə ilə eyni ildə, yəni 1549-cu ildə Şah Təhmasibin digər qardaşı Bəhram Mirzə də dünyasını dəyişdi. Bu zaman onun cəmi 32 yaşı var idi. Bəhram Mirzə ilə Şah Təhmasibin hər zaman yaxşı münasibətləri olmuşdu. Şah Təhmasib bütün işlərində ona güvənirdi və onun köməyinə arxalanırdı. Bəhram Mirzə də ömrünün sonuna qədər ona sədaqətli qaldı və onun ən yaxın silahdaşına çevrildi. Ən məsuliyyətli işlərin icrasını Bəhram Mirzə yüksək səviyyədə icra etməklə səltənətin möhkəmlənməsinə öz töhfəsini verirdi.

Bəhram Mirzə də kiçik yaşlarından vilayət hakimi vəzifəsinə təyinat almışdı. Məlumdur ki, o, Xorasanın, Həmədanın, Gilanın hakimi olmuşdu, həm özbək qoşunlarına qarşı, həm də Osmanlı qoşunlarına qarşı döyüşlərdə Şah Təhmasiblə birlikdə mübarizə aparmışdı. Şah Təhmasib tərəfindən ona ayrıca döyüş tapşırıqlarının icrası üçün müxtəlif tapşırıqlar verilməsi barəsində çoxlu faktlar da məlumdur. Həm qabiliyyətinə, həm də səltənət işlərində göstərdiyi xidmətlərə görə Şah Təhmasib çox zaman onunla məşvərət edərdi və bu zaman da Bəhram Mirzənin sədaqətli və işgüzar mövqeyi ilə rastlaşardı.

Bəhram Mirzə çoxsaylı döyüş tapşırıqlarının icrasında iştirak etməklə bərabər, ədəbi yaradıcılıqla məşğul olur, sənətə və mədəniyyətə qayğı göstərməyə vaxt tapırdı. Onun tərəfindən elm və sənət adamlarına böyük qayğı göstərilirdi, onların yaradıcılığı üçün şərait yaratmağa çalışırdı. Bəhrəm Mirzə tərəfindən Məşhəddə böyük bir kitabxana təsis edilmişdi və bu kitabxanaya çoxlu sayda qiymətli kitablar toplanmışdı. O, xəttatlıqla və musiqi ilə də məşğul olurdu. Digər qardaşları kimi Bəhram Mirzənin də ədəbi istedadı var idi, Bəhram və Bəhrami təxəllüsü ilə şerlər yazırdı (146).

Bəhram Mirzənin dünyasını dəyişməsinin səbəbi barəsində mənbələrdə və elmi-tarixi ədəbiyyatda ciddi bir məlumatla rastlaşmaq mümkün deyil. Məlumdur ki, o, Kürdüstanda olarkən dünyasını dəyişmişdi. Buradan belə bir qənaətə gəlmək olar ki, Bəhram Mirzənin səhhətində təşviş doğuracaq bir narahatçılıq olmamışdı. Onun qəfildən dünyasını dəyişməsi də bunun təsdiqi ola bilərdi. Amma Əlqas Mirzədən az sonra dünyasını dəyişməsinə görə ehtimal etmək olar ki, onun qətlə yetirilməsi Bəhram Mirzənin səhhətinə bu ya digər bir təsiri göstərə bilərdi. Lakin bununla bağlı da ciddi bir məlumat mövcud deyil. Bəhram Mirzə dünyasını dəyişdikdən sonra Məşhədə aparıldı və orada dəfn edildi (147).

"Aləmara-ye Şah Təhmasib"ə görə, Şah Təhmasib qardaşının dünyasını dəyişməsi xəbərini çox böyük hüznlə qarşıladı və ona sədaqətli olan qardaşının vəfatına göz yaşlarını saxlaya bilmədi. Elə onun tapşırığı əsasında da bəzi əmirlərin müşayiəti ilə Bəhram Mirzə dəfn olunmaq üçün Məşhədə yola salındı (148).

"Əhsənüt-təvarix" əsərində isə Bəhram Mirzənin dünyasını dəyişməsi ilə bağlı belə bir məlumat vardır: "Bu il dinin pənahı olan şahın qardaşı Bəhram mirzə cümə günü, ramazan ayının 19-da (11.10.1549) cənnətə tələsdi. Onun meyitini müqəddəs Məşhədə apardılar və orada dəfn etdilər. Həyatının müddəti otuz üç il idi. Ondan üç oğul yadigar qaldı: Sultan Hüseyn mirzə, Sultan İbrahim mirzə və Bədiüzzaman mirzə" (149).

Bəhram Mirzənin ailəsi və övladları haqqında "Aləmara-ye Şah Təhmasib" əsərində nisbətən daha geniş məlumat vardır: "Cənnətməkan şahın qardaşı olan Bəhram mirzənin oğullarından, oğullarının oğullarından və qızlarından ibarət övladlarının on üç nəfəri o həzrətin (Şah Təhmasibin) vəfatı zamanı həyatda idilər. Onun oğullarının sayı üç nəfər idi. Əvvəlincisi Sultan Hüseyn mirzədir. O, cənnətməkan şahın zamanında Qəndəhar vilayətinin və Zəmindavərin mirzə-valisi olmuş və ali dərəcəli əmisinin fərmanı ilə neçə-neçə illər ərzində o vilayətin mütləq hakimi olmuşdur. O, İsmayıl mirzənin hakimiyyəti zamanında təbii əcəllə vəfat etdi. Onun beş oğlu vardı. [Birinci oğlu] Məhəmməd

Hüseyn mirzə atasının ölümü vaxtı on səkkiz yaşında idi. Atası onu onun bacısı Oğlanpaşa bəyimlə birlikdə orduya (şah iqamətgahına) göndərmişdi və onlar cənnətməkan şahın hüzurunda birbaşa şahzadələr silkinə qatılaraq, əziz və istəkli olmuşdular. Lakin [Məhəmməd Hüseyn mirzə] İsmayıl mirzə zamanında şəhid edilmişdir. [İkinci oğlu] Müzəffər Hüseyn mirzə on beş yaşında idi. O, İsgəndər şanlı nəvvabın cülusu zamanında atasının yerinə Qəndəhara vali təyin edildi. [Üçüncü oğlu] Rüstəm mirzə on iki yaşında idi. Həmin vaxt Zəmindavər hakimliyi ona verildi. [Dördüncü və beşinci oğullar olan] Səncər mirzə və Əbu-Səid mirzənin hər ikisi azyaşlı idi. [Sonuncu] dörd qardaşın əhvalatı İsgəndər şanlı nəvvabın və Allahın kölgəsi olan əlahəzrət şahın hakimiyyət zamanlarının hadisələri daxilində təfsilatı ilə qələmə alınacaqdır. [Sultan Hüseyn mirzənin] yuxarıda adı çəkilən qızı İsgəndər şanlı nəvvab zamanında xoşbəxt şahzadə Əbu-qalib Həmzə mirzəyə ərə verildi. Ondan sonra o, Allahın kölgəsi olan əlahəzrət şahın səadətli sarayının möhtərəm qadınları silkində qərar tutdu və bir neçə ildən sonra o həzrətin izzətli hərəmxanasında fərman tapdı (vəfat etdi). Bəhram mirzənin ikinci oğlu İbrahim mirzədir. Onun anası Şirvan vilayətinin əsilzadələrinə mənsub idi. O, cənnətməkan şah həzrətlərinin kürəkəni idi və o həzrətin vəfatı zamanı ulu dərgahda eşikağası mənsəbi ilə əzizlənmiş və şərəflənmiş bir vəziyyətdə idi. O, yüksək qabiliyyətə, istedada, ağıla və idraka malik idi və ali dərəcəli əmisinin hüzurunda əziz, möhtərəm, sözükeçən, əhəmiyyətli, rəyi dinlənən və məşvərətçi bir şəxs idi. Daha sonra qeyd edəcəyimiz kimi, İsmayıl mirzənin zamanında şəhidlik şərbətini nuş etmişdir. Onun cənnətməkan şahın qızından doğulmuş bir qızı vardı. Həmin o qız dini elmlərə yiyələnib, fəzilətli və mömin bir xanım olmuşdu. O, Allahın kölgəsi olan əlahəzrət şahın zamanında Şirazdan çıxıb, Beytül-həramın (Kəbənin) ziyarətinə yollanaraq, Məkkeyi-müəzzimədə böyük Dəstəgi nəslinin seyidlərindən olan və adlı-sanlı ruhanilərdən və zəmanənin ən dindar adamlarından sayılan Əmir Nəsirəddin Hüseyni Şiraziyə ərə getmiş, həmin müqəddəs şəhərdə qalıb yaşamışdır. [Bəhram mirzənin üçüncü oğlu] Bədiüz-

zaman mirzədir. O, yüksək mövqeli əmisinin fərmanı ilə Sistandakı Nimruz vilayətinin valisi olmuşdur. Teymur xan Ustaclu onun lələsi və atalığı idi. Onun Bəhram adında kiçik bir oğlu və iki qızı vardı. İsmayıl mirzə zamanında onun (İsmayıl mirzənin) fərmanına əsasən, Teymur xan onların hər ikisini (ata və oğulu) aradan qaldırdı" (150).

### b) Şah Təhmasibin övladları

Şah Təhmasibin Şərq hökmdarlarına və məişət həyatına xas olan böyük ailəsi var idi. Mövcud olan məlumatlara görə, Şah Təhmasibin 12 oğlan övladı dünyaya gəlmişdi ki, onlardan üç nəfəri elə onun sağlığında dünyasını dəyişmişdi. Yəni, Şah Təhmasib dünyasını dəyişəndə onun 9 oğlan övladı həyatda idi (151). "Xülasüt-təvarix" əsərində isə Şah Təhmasibin 11 oğlan övladının adı sadalanır ki, onlardan ikisi vaxtsız olaraq dünyasını dəyişmişdi (152). Venesiyalı elçi V.Alessandri də öz xatirələrində Şah Təhmasibin 11 oğlan övladının olduğunu qeyd etmişdir (153).

Yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasib ailə qayğısını özünün mühüm vəzifələrindən biri hesab edirdi və buna görə idi ki, o, övladlarının və nəvələrinin böyüyüb başa çatmasına, onların təlim və tərbiyəsinə xüsusi diqqət ayırırdı. "Tarix-i aləmara-yi Abbasi"in müəllifi də öz əsərində bu fikri təsdiq edir, Şah Təhmasibin öz böyük ailəsinin üzvlərinə böyük səxavətlə qayğı göstərdiyini yazırdı: "O həzrət elə bir padşah idi ki, [kimsəyə] qüssə və kədər bəxş etmək onun xəyalından keçmirdi. Ədəb-ərkanlı davranmaq, bütün mülazimlərinə və qohum əqrəbalarına əl tutmaq və şəfqət göstərmək kimi qaydalara və dünyanın adət-ənənələrinə lazımınca riayət edərdi. Səltənəti və padşahlığı əyyamında dərya qədər nəcib əli ilə ehsan paylamaqda idi. Müxtəlif tayfalardan olan insanlar onun verdiyi ənamlardan və onun fəzilətlərindən faydalanırdılar. O, əmirlərin, qorçuların və saray mülazimlərinin sabiqdən qalmış külli məbləğdə olan məvaciblərinin hamısını dövlət xəzinəsindən ödəyərək, öz adlı-sanlı

atasının zamanından qalmış borcları verdi. Bu minvalla cənnət-məkan şahın neçə illərlə topladığı var-dövlət paylanıb səpələndi” (154).

“Tarix-i aləmara-yi Abbasi”nin müəllifi Şah Təhmasibin ailə üzvləri haqqında məlumat verərkən onun özünün və şahzadələrin ailə üzvlərinin bütünlükdə 35 nəfər olduğunu bildirirdi. Müəllif şahzadələr deyəndə Şah İsmayılın bütün övladlarını nəzərdə tuturdu. Amma kitabda Şah Təhmasibin övladlarından əlavə yalnız Bəhram Mirzənin övladları haqqında məlumat verilmişdi. Adı çəkilən mənbənin müəllifi eyni zamanda Şah Təhmasibin xanımları haqqında da bəzi müxtəsər məlumatlar vermişdir. Onun xanımları arasında Sultənəm (Sultanım) xanımın adı çəkilir. Bundan başqa Şah Təhmasibin gürcü qızından, çərkəs qızından övladlarının olması haqqında da məlumat vardır. Şahın gürcü əslilli xanımlarından birinin adı Hurixan xanım idi.

Venesiyalı elçi V.Alessandri öz xatirələrində Şah Təhmasibi hərəmxanaya meylli bir şah kimi təsvir etmişdir: ”Lakin onun ən böyük zövqü qadınlar və puldur. Bu qadınlar onun ağlına da hakim olmuşlar ki, o, vaxtını onlarla keçirərək dövlət işlərini onlarla müzakirə və məsləhət edir” (155). Venesiyalı elçinin qeyd etdiyi kimi, görüşdükləri zaman Şah Təhmasibin yaşı artıq 60-ı ötmüşdü və bu yaşda olan şahın venesiyalı elçinin təsəvvür etdiyi şəkildə hərəmxanaya bağlanması heç də inandırıcı görünmür. İsgəndər bəy Münşinin verdiyi məlumatda da Şah Təhmasibin hərəmxanaya xüsusi bağlılığını görmək mümkün deyildir.

Şah Təhmasibin hərəmxanası ilə bağlı digər bir venesiyalı elçi Mikele Membrenin xatırələrində də müxtəsər bir məlumat vardır. Bu elçi yazırdı: “Ordunun yarısından çoxu keçdikdən sonra şahın hərəmləri gözəl atlarda keçib gedirlər. Onlar kişilər kimi at çapır, onlar kimi geyinir, lakin başlarına papaq deyil, ağ örpək örtürlər. Bu hərəmləri 10-12 eşikağası adlanan qoca kişilər müşayiət edir. Mən təxminən 14-15 olan bu hərəmlərin üzlərini tam görə bilməsəm də, gözəl olduqlarının şahidi oldum. Görünə bilən hər şey gözəl və cazibəli idi. Bəzən onlar sürətlə çapır, atlarını tullandırmaqla və başqa bir çox məharətli fəndlər edərək, möcüzələr gös-

tərirdilər. Onlar şahın çadırları olan sarayın arxasında gedirdilər” (156).

Nəzərə alınmalıdır ki, hərəm yalnız şahın xanımlarından ibarət deyildi. Hərəmə şah ailəsinin qadın üzvləri, o cümlədən də onun qızları daxil idi. Yəni M.Membrenin xatırlatdığı 14-15 nəfər hərəm üzvü yalnız şahın xanımları kimi qəbul edilməməlidir.

Mikele Membrenin Şah Təhmasibin anası Taclı bəyim haqqında da tarixi maraq doğuracaq kiçik bir qeydi vardır. Bu qeyddə M.Membre Taclı bəyimin Şah Təhmasib tərəfindən həbs olunması səbəbinə toxunmuşdur: “Həmin günlərdə Şah Təhmasib Taclı bəyim adlı anasını sürgün edərək, onu Şirazda dustaq etdi. Çünki o, mənim eşitdiyimə görə, anasının onu zəhərləyərək, qardaşı Bəhram mirzəni şah elan etmək istəməsindən xəbər tutmuşdu. Şah bu məsələdən agah olduqdan sonra onun çox böyük olan əmlakını əlindən almışdı. O, onu yalnız üç hərəmin müşayiəti ilə yolladı və ona dolanması üçün ildə 300 dukat pul ayırdı. O, anasını öldürmək istəmədi, çünki atasının vəsiyyətinə görə, nə onu, nə də qardaşlarından heç birini öldürməməli idi” (157).

“Tarix-i aləmara-yi Abbasi”də Şah Təhmasibin ailəsi haqqında nisbətən geniş məlumat verilmişdir. Həmin məlumat olduğu kimi aşağıda təkrarlanmışdır: “[Şah Təhmasibin] övladlarından və nəvələrindən, həmçinin onun qardaşlarının övladlarından ibarət olan, o həzrətin həyatı dövründə onun qayğısının və rəğbətinin kölgəsi altında səadət və izzət kamına qovuşmuş Səfəvi nəslindən olan əziz şahzadələr otuz beş nəfər idilər. Bunların iyirmi üçü oğlan və on ikisi qızdır. Aşağıda aydın olacağı kimi, bütün bu oğulların, oğulların övladlarının və qızların cümləsindən o həzrətin həyatı zamanında ölüm paltarı geyərək, mövcudluq libasını əbədiyyət mənzilinin başına çəkmiş və adlarının sadalanmasının faydası olmayan kəslərdən savayı, şahzadələrin sayı iyirmi ikidir. [Şah Təhmasibin] oğulları doqquz nəfərdir. Əvvəlincisi İsgəndər şanlı nəvvab Sultan Məhəmməd mirzədir. Hökmdarlıq mərtəbəsinə ucalmış üç adlı-sanlı şahzadədən savayı, digər bəxtəvər şahzadələrin təvəllüd tarixləri bu kəmtərə (İsgəndər bəy Münşiyə) bəlli olmadığından onların

doğum tarixləri ərz olunmayacaqdır. [Buna baxmayaraq], onların adları, aydın xüsusiyyətləri və təmiz əhvalatları qələmə alınacaqdır. Sözün qısası, o həzrət (Sultan Məhəmməd mirzə) cənnətməkan şahın səadətli cülusundan səkkiz il keçdikdə, 938-ci ildə (15.08.1531 - 02.08.1532) Bayanduriyyə tayfasının böyük əmirlərindən olan Musa sultan Mosullu Türkmanın Sultanım adlı qızının bətnindən doğulmuşdur. «Fərzən-di Şah Təhmasib-i əvvəl Məhəmməd aməd» («1 Şah Təhmasibin oğlu Məhəmməd gəldi») sözləri [əbcəd hesabı ilə] bu əziz mövludun tarixidir. O, bu uca [Məhəmməd] adı ilə tanındı və «Xudabəndə» («Allahın bəndəsi») ləqəbi ilə çağırıldı. O, günahları bağışlanmış atasının vəfatı zamanı qırx altı yaşında idi. O həzrət hələ altı yaşında olarkən, 943-cü ildə (20.06.1536 - 09.06.1537) Xorasan diyarının hakimi vəzifəsinə yüksəldilmiş və Məhəmməd xan Şərəfəddinoğlu Təkəlü onun lələsi və əmirülümərası təyin edilmişdi. O həzrət darüssəltənə Heratda hökmranlıq taxtına əyləşdi və Məhəmməd xan o dövlət bağçasının nübarına xidmət etməyin məsuliyyətini daşıdı. Beləliklə, o, neçə illər ərzində adı çəkilən darüssəltənədə asudəlik, xoşbəxtlik, ruhi fəzilət və kamillik qazanmaqla yaşayıb, bütün cari işlərdən xəbərdar və agah oldu. Xasiyyətcə fəhmli, fərasətli, səxavətli idi. Elə böyük bir alicənablığa malik idi ki, onun alicənablığının nəzərində dünyanın bütün zənginliklərinin qədir-qiyməti yoldakı toz-torpaqla eyni idi. Bəzən şeir nəzm etməyə baş qoşub, «Fəhmi» təxəllüsündən istifadə edərdi. Zarafat, məzə və xoşhallılıq adəti və şüarı idi.

Bir müddətdən sonra Cəmşid məqamlı cənnətməkan şaha o xilafət və şəhriyarlıq sədəfinin və o ədalət bürcünün dürrünü, yəni səadətə qovuşmuş sevimli oğlu [Sultan Məhəmməd mirzənin] didarını görmək hissi qalib gəldi və onu ali taxtın ətəklərinə çağırıb, o həzrətin doğma qardaşı olan İsmayıl mirzəni Herata göndərdi. Lakin qısa bir zamandan sonra dövlətin asayişi səbəbindən və onun (İsmayıl mirzənin) tərəfindən hökmdarın təbiətinə müvafiq olmayan qeyri-mülayim hərəkətlərin baş verməsi üzündən [Şah Təhmasib] onu (İsmayıl mirzəni) geri çağırıb, Qəhqəhə qalasına göndərdi və yenidən şahzadə (Sultan Məhəm-

məd mirzə) həzrətləri həmin şərəfli mənsəbə təyin olunmaq iftixarına nail oldu. Məsum bəy Səfəvi əmirlərdən və əsgərlərdən bir dəstə ilə Qazaq Təkəlünün fitnə-fəsadını aradan qaldırmaq üçün göndərildikdən sonra, həmin əhvalat yazılarkən qələmə alındığı kimi, [Şah Təhmasib tərəfindən] hökm verildi və bu əmrə əsasən, şahzadə (Sultan Məhəmməd mirzə) həzrətləri sevimli oğlu Sultan Həsən mirzə ilə birlikdə ali taxtın ətəklərinə gələrək, [şahla] görüşdükdən və əhdü-peymanı təzələdikdən sonra getməyə rüxsət aldı. Şahqulu sultan Yegan Ustaclu onun lələsi və əmirülümərası təyin olundu.

Həmin əyyamda o həzrətin (Sultan Məhəmməd mirzənin) Heratda gözləri zəifləməyə başladı. Lakin o, buna əhəmiyyət verməyib, müalicədən yayındı. Məharətli cərrahlar və göz həkimləri («kəhhal»lar) müalicə aparmağın zəruriliyini vurğulasalar da, o həzrət bu [müalicə] işinin çətinliyinə qatlaşmadı. Getgedə gözlərinin zəifliyi qüvvətləndi və axırda gözləri tamam tutuldu. Eyni zamanda, o həzrətlə lələsi Şahqulu sultan arasında müxtəlif cəhətlərdən mübahisə yarandı və onlar bir-birlərinin bəd rəftarından şikayətlənməyə başladılar. Cənnətməkan şah öz sevimli oğlunun şərəfli xatirinə qayğı əlaməti olaraq, o həzrəti darülmülk Şiraza göndərib, onun əziz oğullarından Sultan Həsən mirzəni [şah] ordugahına gətizdirdi, səltənət və səadət xanədanının göz bəbəyi olan yüksək dərəcəli misilsiz şahzadəni, yəni Allahın kölgəsi olan əla-həzrət şahı isə möhtərəm atasının əvəzinə Xorasan mülkünün səltənətinə təyin etdi. O həzrət (Sultan Məhəmməd mirzə) də hökmdarın fərmanına uyğun olaraq, o səltənət bağçasının nübarını (Abbası) Heratda qoyub, özü digər bəxtəvər övladları ilə birlikdə Şiraza yollanaraq, vaxtilə Müzəffərilər sülaləsinin paytaxtı olmuş bu şəhərdə sərvərlik büsatı üzərinə qədəm qoydu. Orada Vəli sultan Qalxançıoğlu Zülqədər onun lələsi və idari işlərinin icraçısı oldu və o həzrət bir müddət həmin fərəh bəxş edən, könül oxşayan şəhərdə qalıb, yaşayışını asudəliklə sürdürdü. Nəhayət, günahları bağışlanmış Şah [Təhmasibin] vəfatından sonra İsmayıl mirzənin hakimiyyəti əyyamında onun şərəfli əhvalında bir sarsıntı meydana gəldi və o,

qeybdən bir hadisənin baş verməsini gözlədi. Nəticədə, qəza-vü-qədərin zərurəti ilə İsmayıl mirzənin [ölüm] hadisəsi üz verdi və o həzrət (Sultan Məhəmməd mirzə) anadangəlmə uğurlu bəxtinin köməyi ilə yüksək hökmdarlıq mərtəbəsinə çatdı. Bu məsələ öz yeri gələndə təfərrüatı ilə qələmə alınacaqdır” (158).

Venesiyalı elçi V.Alessandrinin xatirələrində də Sultan Məhəmməd Xudabəndə haqqında bəzi qeydlər vardır. O yazırdı: “...Ən böyüyünün adı Xudabəndə mirzədir. Qırx üç yaşı olan bu adam sakit təbiətlidir və atası tərəfindən Xorasan bölgəsində ona verilmiş, Herat adlanan kiçik mülklə kifayətlənərək, özünü dünyanın işləri ilə narahat etmir. Xudabəndənin üç oğlu var. Nəcib görünüşlü və xasiyyətli 15 yaşlı böyük oğlu ləyaqətinə və həm də digər uşaqların oğulları olmadığına görə şah tərəfindən çox sevilir” (159).

“Tarix-i aləmara-yi Abbasi”nin müəllifi Məhəmməd Xudabəndənin sonralar hakimiyyət başına gəlməsinə toxunur və onun hakimiyyəti illərində səltənət daxilində əmin-amanlığın sabit olmadığını açıqlayırdı. Bu qeyri-sabitlik isə bütünlükdə səltənət daxilindəki həyata və yaşayışa mənfi təsir edirdi. Mənbə müəllifi bir növ Şah Təhmasibin hakimiyyət illəri ilə onun oğlu Məhəmməd Xudabəndənin hakimiyyət illərini müqayisə edirdi və təəssüflə bildirirdi ki, Məhəmməd Xudabəndənin hakimiyyəti illərində səltənət daxilində sabitlik olmaması qızılbaş əmirləri arasında ikitirəliyə yol açdı, zəifləyən məmləkət xarici basqınlara da məruz qaldı. Adı çəkilən mənbədə bildirilir ki, Məhəmməd Xudabəndənin oğlu Sultan Həmzə Mirzənin dövlət işlərində atasına kömək etməsi səltənət daxilində vəziyyəti düzəltməyə kömək etdi, xarici müdaxilələrə qarşı müqavimət artırıldı. Lakin Sultan Həmzə Mirzənin şəhid olması səltənətin idarəçiliyini yenidən çətin bir hala saldı: “[Məhəmməd Xudabəndənin hakimiyyəti vaxtı] zəmanənin gərdişindən və dövranın hadisələri ucbatından əmniyyət və rahatlıq xalqdan uzaq düşsə də, möhnət və bəla qapıları rəiyyətin üzünə açılsa da, hərbçilər ənam və ehsan dənizinə qərq olub, ali mərtəbələrə yüksəlməkdə idilər. Nəticədə, dini və dünyəvi xeyirxahlıqları nəzərdə saxlayan ilahi hikmətin zəru-

rətindən məmləkətin və qoşun əhlinin əhvalına neçə-neçə fəlakətlər yol tapdı. İtaətsiz qızılbaş tayfaları müxtəlif istəklərə çatmağı qarşılarına məqsəd qoydular. Hər başda bir sevda oyandı və qoşun arasında ikitirəlik yayıldı. Şərqdən və qərbdən olan ətraf padşahlar Əcəm məmləkətlərinə tamah salıb, buraya öz təcavüz əllərini uzatdılar. Rum hökmdarı Sultan Murad xan öz ata-babasının əhdü-peymanını pozaraq, ard-ardına və dalbadal Şirvan və Azərbaycan üzərinə qoşun göndərdi. İsgəndər şanlı nəvvab qoşunun ittifaqsızlığı, oymaqların arasındakı münaqişə və orduda birliyin olmaması ucbatından qüvvətli düşmənə qarşı müdafiə olunmağa qüdrət tapmadı. Onun mülayim xasiyyətindən istifadə edənlər fitnə-fəsada rəvac verirdilər.

Lakin kama yetmiş xoşbəxt şahzadə Sultan Həmzə mirzə adlı-sanlı atasına kömək etmək üçün dövlət və hökmranlıq üzəngisinə ayaq qoydu. O, ətrafında olan bir dəstə adamla taqəti və bacarığı çatdığı qədər cəhd göstərib, düşmənə çox da fürsət vermirdi. Amma fələyin böyük qəziyyələrindən və dövranın ibrətamiz hadisələrindən biri olan o yüksək məqamlı şahzadənin şəhidlik hadisəsi baş verdikdən sonra rumilər tam üstünlük qazandılar. Bu hadisənin nəticəsi olaraq, onlar on ilə yaxın müddətdə işğal etməyə çalışdıqları bütün Şirvan vilayətini, darüssəltənə Təbrizi və Azərbaycanın əksər mahallarını, Tiflis qalasını, Axısqanı və Gürcüstanın bəzi mahallarını öz ixtiyarlarına keçirməyə nail oldular. Özbək padşahı Abdulla xan da Xorasan əmirləri arasındakı düşmənçiliyi görüb, o diyarı işğal etmək həvəsinə düşdü. O, Xorasana qoşun çəkdi və keçmişdəki yüksək şanlı padşahların taxtgahı olmuş darüssəltənə Heratı və bəzi mahalları ələ keçirdi. Dövranın hadisələrindən onsuz da kədərə və qüssəyə bürünən İsgəndər şanlı nəvvab öz ümid gözünün işığı olan sevimli oğlu [Sultan Həmzə mirzənin] ölümünün qəmindən tamamilə iztiraba düçar oldu və hökmdarlıq işlərindən birdəfəlik əl çəkdi “(160).

Şah Təhmasibin ikinci oğlu İsmayıl Mirzə haqqında “Tarix-i aləmara-yi Abbasi” əsərində belə bir məlumat vardır: “O həzrətin (Şah Təhmasibin) ikinci oğlu İsmayıl mirzədir. O da Musa sultan

Mosullunun qızı olan böyük xanım Sultanımdan təvəllüd tapmışdır və Sultan Məhəmməd mirzə cənablarının doğma qardaşıdır. [İsmayıl mirzə] adlı-sanlı atasının yanında böyümüş, həmişə onun şəfqət və tərbiyəsinin nəzərləri altında olmuş və həyatının üzərində şahın qayğıkeşlik nurları əks olunub parlamışdır. 962-ci ildə (26.11.1554 - 15.11.1555) islam məmləkətlərinin bəyənilmişi Şah Nemətulla Yəzdinin cənnətməkan şah həzrətlərinin bacısı olan mərhumə Xanış bəyimdən vücuda gəlmiş qızı onun (İsmayıl mirzənin) nikahına daxil oldu. Bu münasibətlə Təbrizin Şimalabad adlı könül oxşayan bağında böyük bir şənlik məclisi təşkil edilib, elə bir toy quruldu ki, hələ də həmin ziyafət və şadyanalıq qızılbaşlar arasında aşağı və yuxarı təbəqədən olan insanların dillərində əzbərdir. Beləliklə, o həzrətin (Şah Təhmasibin) atalıq şəfqətinin çoxluğu şəraitində onlar (İsmayıl mirzə və xanımı) bu cür şahanə şənlikdə və xosrovanə şadlıq məclisində qazının hüzurunda durdular (nikah bağladılar). O səadətli yığıncağın iştirakçılarının hər birisi öz vəziyyətinə münasib və zəmanənin tələbatına uyğun məbləğdə şabaş (nəmər) verdilər. Şənlik və saz əhli və nəğmə deyən müğənnilər həmin toyda toplanmış şabaşın (nəmərin) çoxluğundan razı qaldılar. Lakin o, (yəni İsmayıl mirzə) bu ali mərtəbənin və şahanə şəfqətlərin qədrini bilməyib, yüksək mövqeli atasının mübarək xatirinə acıq gələn işlərə baş qoşdu. Buna görə də şah həzrətləri şahzadənin hökmdarın hüzurunda qalmasını məsləhət bilməyərək, 963-cü ildə (16.11.1555 - 03.11.1556) Sultan Məhəmməd mirzə cənablarını darüssəltənə Heratdan orduya (şahın düşərgəsinə) tələb edib, İsmayıl mirzəni Herata göndərdi. Hökmdarın fərmanına əsasən. Əli sultan Təkəlü onu Herata çatdırdı və Sultan Məhəmməd mirzəni [saraya] gətirdi. Lakin Əli sultan Savucbulağ yaxınlığında [hökmdarın] qəzəbinə tuş gəlib, qorçuların təpik zərbələri ilə həlak edildi. Bunun ehtimal edilən yeganə səbəbi kimi onun [İsmayıl] mirzə cənablarını [Herata] apararkən onunla gizli əhd və şərt kəsmiş olmasını göstərmək olar. Doğrusunu Allah bilir. Eyni zamanda, [İsmayıl] mirzənin Xorasandakı davranışı da Əşrəfin xoşuna gəlmirdi. Bəzi məmləkət mənafeləri və dövlətin

maraqlarının qorunması üçün qısa bir müddət sonra şahzadə cənabları o vilayətin hakimliyindən də azad edildi və hökmdarın əmrinə müvafiq olaraq, qorçubaşı Sevindik bəy Əfşar Herata gedib, onu Təbəs və Yəzd yolu ilə gətirib gəldi. Elə ki onlar gəlib Savəyə çatdılar, vəkilüssəltənə Məsum bəy Səfəvi gedib, onu (İsmayıl mirzəni) Savədən Qəhqəhə qalasına apardı. Yuxarıda qeyd olunduğu kimi, Sultan Məhəmməd mirzə cənabları yenidən Herata təşrif apardı. İsmayıl mirzə isə on doqquz il, altı ay və iyirmi bir gün ərzində o qalada qalmalı oldu. Atasının ölümü vaxtı o, qalada məhbus idi və qırx yaşı vardı. O zaman onun Şah Nemətulla Yəzdinin qızından doğulmuş bir qızdan savayı, övladı yox idi. Cənnətməkan şahın ölümündən və Sultan Heydər mirzənin şəhidliyindən sonra o, yüksək səltənət və hökmdarlıq mərtəbəsinə çatdı" (161).

İsmayıl Mirzə haqqında Vinçenso Alessandrinin xatirələrində də bəzi qeydlər vardır. Bu qeydlər İsmayıl Mirzənin xarakterinin açılması və tamamlanması baxımından müəyyən maraq kəsb edir: "Qırx bir yaşlı ikinci oğlu möhkəm qəddi-qamətli, məğrur və cəsur İsmayıl hərbə meyllidir. O, igidliyini osmanlılara qarşı çoxlu toqquşmada, xüsusilə Ərzrum paşasına qarşı döyüşdə sübut etmişdir. Belə ki, o, kiçik süvari dəstəsi ilə çoxsaylı paşa ordusunu darmadağın etmişdi və əgər sonuncu sürətlə geri çəkilməsəydi. O, şəhərin sahibi ola bilərdi. Buna görə, kralın baş vəziri Məsum bəy bu gəncin iddialı olduğunu və atasının icazəsi olmadan ordu toplayıb, sülh şəraitində osmanlıların ölkəsinə girdiyini anlayıb, bunu itaətsizlik hesab edərək, kral onun bütün əyalətlərinin sultanlarına göndərdiyi, onları osmanlılara qarşı müharibəyə çağıran bəzi məktubları göstərdi. Beləliklə, o, kralı onu sultanların və əsgərlərin mühafizə etdiyi qalaya salınmasına inandırdı. Artıq onun zindana atılmasından 17 ildən çox vaxt ötür və bu il onlar keşikçiləri götürsələr də, onu azadlığa buraxmadılar. Kral ona xoş gəlsin deyə, yanına onu əyləndirmək üçün gözəl qadınlar yollamışdır, lakin o, onlarla heç bir əlaqədə olmamışdır. O, atasının onu həbsdə saxladığına səbirlə dözəcəyini,

amma uşaqlarının da dustaq olacağı ona çox ağır gəldiyini bildirdi; nökərlər isə qadınlara layiq deyil.

Bu İsmayıl atası tərəfindən xüsusi olaraq sevilir, lakin onun bütün xalq tərəfindən hökmdar kimi necə də hərarətlə arzu olunduğunu görərək, ondan çəkinir. Sultanlar onun olduqca məğrur xasiyyətinə görə ondan olduqca qorxurdular. Belə ki, əgər o, bir zaman taxta gələrsə, bir çox hərbi rəisləri dəyişə bilər və krallığın bir çox vilayətlərinə sahib olan qardaşlarına qarşı çıxar" (162).

Kral deyəndə V.Alessandri Səfəvi şahını nəzərdə tuturdu. "Tarix-i aləmara-yi Abbasi" əsərindən olan yuxarıdakı qeydlərdə İsmayıl Mirzənin Şah Təhmasibin hakimiyyəti illərində zindana atıldığı bildirilir və bunun səbəbi haqqında aydın olmayan məlumat verilirdi. Venesiyalı elçinin xatirələrində olan məlumat isə İsmayıl Mirzənin həbsinin səbəblərini bir qədər aydın şəkildə başa düşməyə imkan verir. Bu məlumatdan belə bir qənaətə gəlmək olur ki, İsmayıl Mirzə qoşun toplayaraq Şah Təhmasibin icazəsi olmadan Osmanlı qoşunları üzərinə hücum etmiş və bu hücum zamanı bəzi uğurlar da əldə etmişdi. Venesiyalı elçinin sözlərinə görə, səltənət vəkili olan Məsum bəy Səfəvi onun bu hərəkətini səltənətə qarşı bir təhlükə kimi qiymətləndirmiş və Şah Təhmasibi də bu fikrinə inandıra bilmişdi. Yuxarıdakı qeydlərdən onu da görmək mümkündür ki, bir sıra əmirlər və əyanlar da İsmayıl Mirzədən ehtiyatlanırmışlar və güman edirlərmiş ki, onun hakimiyyət başına gələcəyi halda öz vəzifələrini və məqamlarını itirə bilərlər. Çox güman ki, bu əmirlər və əyanlar da İsmayıl Mirzənin nüfuzdan salınması üçün öz işlərini görmüş və Şah Təhmasibdə ona qarşı bir inamsızlıq yarada bilmişdilər. Nəticədə İsmayıl Mirzə həbs edilmiş və sonra da Qəhqəhə qalasına göndərilmişdi. V.Alessandrinin qeydlərinə görə, həbsə atılmasına baxmayaraq İsmayıl Mirzə həm atası Şah Təhmasib tərəfindən, həm də xalq kütlələri tərəfindən dərindən sevilirdi. Bu da İsmayıl Mirzənin ciddi xarakterə malik olmasından xəbər verirdi.

Şah Təhmasibin üçüncü oğlu Sultan Heydər Mirzə idi. O, Şah Təhmasibin milliyətcə gürcü olan xanımından dünyaya gəlmişdi. Sultan Heydər Mirzə kifayət qədər ağıllı, tədbirli, hazırlıqlı bir

cavan idi və işgüzar keyfiyyətlərinə görə həm atası tərəfindən, həm də saray əyanları tərəfindən böyük hörmət və etimad qazanmışdı. Şah Təhmasib həyatının sonlarına yaxın səltənət idarəçiliyinin bir çox işlərinin həllini ona tapşırardı. Buna görə, saray əyanlarında belə bir ehtimal yaranmışdı ki, Şah Təhmasibin hakimiyyət varisi məhz Sultan Heydər Mirzə olacaqdır. "Tarix-i aləmara-yi Abbasi" müəllifinin qeydlərindən də görmək mümkündür ki, Sultan Heydərdə bu qabiliyyət var idi: "[Şah Təhmasibin] üçüncü oğlu Sultan Heydər mirzədir. O, gürcü böyüklərindən və əyanlarından birinin cənnətməkan şah həzrətlərinin pak zövcələri silkinə mənsub olan möhtərəm bir qızından təvəllüd tapmışdı. Onun doğum tarixi bu əsərin müəllifinə məlum deyildir. Amma o, cənnətməkan şah həzrətlərinin vəfatı zamanı iyirmi iki yaşında idi. Bu hesabla götürsək, o, 962-ci ildə (26.11.1554 -15.11.1555) anadan olmuşdur. [Sultan Heydər mirzə] doğumundan atasının ölümünə qədər ulu dərgahda yaşamış və yüksək mövqeli atasının tərbiyəsinin və şəfqətinin kölgəsi altında böyümüşdür. Mötəbər əmirlərdən birinin oğlu olan Sədrəddin xan [hökmdarın] əmri ilə şahzadəyə xidmət göstərməyə cavabdeh edilmişdi. Şah həzrətlərinin bu şahzadəyə böyük bir rəğbəti vardı. Eyni zamanda, o da atasının razılığına müvafiq gələn davranış nümayiş etdirirdi. Ömrünün axırlarında bəzi dövlət işlərinin və səltənət məsələlərinin həllinə çox da baş qoşmayan [Şah Təhmasib] onları şahzadə [Sultan Heydər mirzəyə] tapşırırdı. [Sultan Heydər mirzə] atasının onu lap çox istəməsi baxımından digər qardaşlarına nisbətdə imtiyaza malik idi. Məhz o səbəbdən idi ki, şahzadələrin və qızılbaş tayfalarının əmirlərinin nəzərində [Sultan Heydər mirzənin] qədir-qiyməti günbəgün artırdı. Bütün bunlar ona gətirib çıxarmışdı ki, [Sultan Heydər mirzə] o həzrətin (Şah Təhmasibin) zahiri hüsn-rəğbətinin təsirindən, özünün cavanlıq qürurundan və nəfsani təxəyyüllərindən öz-özünə vəliəhd və padşah olacağını qərarlaşdırmışdı. Əksər qoşun başbilənləri, xüsusən də şeyxavənd və ustaclu tayfaları, həmçinin gürcü təbəqəsi və qeyriləri onun səltənət başına keçəcəyinə könül bağlayıb, cənnətməkan şahın ölümündən bir-iki il öncə baş vermiş

xəstəliyi vaxtı hövsələsizlik göstərərək, sufiliyə və ixlasa zidd olan bəzi pis işlər törətmişdilər. Bu hadisələr üzündən şahzadəyə (Sultan Heydər mirzəyə) bir qədər xəcalət vurulmuş oldu. Buna baxmayaraq, o həzrət (Şah Təhmasib) xəstəlikdən sağaldıqdan sonra heç bir tədbir görməyərək, özünü bilməməzliyə vurdu. Buna görə də onun möhtərəm oğlu [Sultan Heydər mirzəyə] münasibətdə iltifatsızlıq üz vermədi və o, əvvəlki qaydada [şahın] hüsn-rəğbətinin nəzərləri altında yaşadı. Nəhayət, o, adlı-sanlı atasının qəmgin [vəfat] hadisəsindən bir gün sonra, 984-cü ilin səfər ayının 16-da (15.05.1576) şəhidlik dərəcəsi tapdı. Onun hakimiyyətinin fərmanı qəzavü-qədər lövhəsində əksini tapmadığı və ömrünün gündəliyi sona çatdığı üçün başına belə bir iş gəldi. Çox əməlisaleh, pəhrizkar, rəhimdil idi və insanlara münasibətdə şəfqətli, mehriban və ədalətpərvər idi. Bir qızından savayı, başqa bir övladı yox idi" (163).

Venesiyalı elçi Vinçenso Alessandri də öz xatirələrində Sultan Heydər Mirzə haqqında xoş fikirlərini yazmışdı. Səfəvi sarayına səfəri zamanı o, Sultan Heydər Mirzəni də görmüş və onunla bağlı olan müşahidələrini müxtəsər şəkildə qələmə almışdı: "Atasının üçüncü oğlu və müavini qısaboylu, zahirən cəlbedici, gözəl natiq, at çapmaqda mahir olan, 18 yaşlı Sultan Heydər Mirzə atasının ən sevimli övladıdır. O, adamların müharibə haqqında söhbətlərini dinləməyi sevdiyinə baxmayaraq, həddindən artıq nəzakətli, az qala qadın kimi xasiyyətinə görə olduqca ciddidir və özünün dövlət işlərindən başı çıxdığını göstərir və dünyanın başqa hökmdarlarının necə idarə etdiklərini bilir" (164).

"Tarix-i aləmara-yi Abbasi" müəllifi olan İsgəndər bəy Münşi öz əsərində Şah Təhmasibin digər oğlan övladları haqqında aşağıdakı məlumatı vermişdir: O həzrətin (Şah Təhmasibin) dördüncü oğlu Sultan Süleyman mirzədir. O, Şamxal sultan Çərkəzin hökmdarın pak zövcələri zümrəsinə daxil olan bacısından təvəllüd tapmışdı və günahları bağışlanmış atasının (Təhmasibin) vəfatı vaxtı iyirmi bir yaşında idi. Cəmşid məqamlı cənnətməkan şah həzrətləri onu tifillik çağında müqəddəs və ulu Məşhəd şəhərinə göndərdi, Məşhəd hakimini şahzadənin lələsi təyin etdi,

şahzadəyə fəzilət və kamal öyrətmək üçün bir müəllim ayırdı, həmçinin cinlərin və insanların imamı olan həzrətin (İmam Rzanın) məqbərəsinin xadimbaşılığı vəzifəsi ona həvalə olundu və o, bir müddət bu xidmətlə məşğul oldu. 978-ci ildə (05.06.1570 - 25.05.1571) Şahvəli sultan Tatıoğlu Zülqədər müqəddəs Məşhədin hakimi vəzifəsindən çıxarıldıqda şahzadə orduya (hökmdar iqamətgahına) çağırıldı. O, ulu dərgaha gələrək, yüksək mövqeli atasının hüzurunda əziz və möhtərəm oldu. Cənnətməkan şahın ölümündən sonra, işi-gücü şahzadələrin aradan qaldırılmasından ibarət olan İsmayıl mirzənin hakimiyyəti əyyamında bu şahzadənin işini bitirməyi öz dayısı Şamxal sultan Çərkəzə tapşırdılar. Bu sonuncu şəxs də İsmayıl mirzənin yanında özünə etibar qazanmaq üçün onun aradan götürülməsi işini icra etdi

O həzrətin (Şah Təhmasibin) beşinci oğlu Sultan Mustafa mirzədir. Onun anası gürcü tayfasından olub, cənnətməkan şah həzrətlərinin kənizləri sırasına daxil idi. [Sultan Mustafa mirzə] yüksək mövqeli atasının vəfatı zamanı iyirmi yaşında idi, öz atasının hüzurunda yaşayırdı və iki qızı vardı. Cənab mirzənin lələliyi ustaclu [tayfasının] böyük əmirlərinə məxsus idi və o, ustaclular arasında böyümüşdü. Çox qabiliyyətli, bacarıqlı və xoşsima bir şəxs idi. Gilanın Biye-piş [vilayətinin] fəthi əyyamında ki, gilanlılar bir-iki dəfə yağı olmuşdular və onların üzərinə qoşun göndərilmişdi, o zaman cənab mirzə də həmin xidmətə məmur edilib, döyüşdən qalib çıxmış və əyalət hakimi rütbəsi alaraq, ordu və qoşun sahibi olmuşdu. Mirzənin lələsi Nəzər sultan öldükdən sonra onun lələliyi Nəzər sultanın yerinə əyalət hakimi dərəcəsi əldə etmiş Hüseyn bəy Yüzbaşıya verildi. O, (yəni Sultan Mustafa mirzə) bütün məsələlərdə Sultan Heydər mirzə ilə müttəfiq idi. Cənnətməkan şahın ölümündən sonra ustaclu əmirləri Sultan Heydər mirzəni padşahlığa yüksəltmək üçün ittifaq edib dövlətxana üzərinə getdikləri vaxt [Sultan Mustafa] mirzə onlarla birlikdə idi. Sultan Heydər mirzənin şəhid olmasından sonra onun tərəfdarları arasında təfriqə düşən zaman [Sultan Mustafa] mirzə Qəzvindən çıxıb, öz mülazimlərindən olan bayat elinin yanına getdi. Lakin Hacı Üveys sultan Bayat

onu ələ keçirib İsmayıl mirzənin hüzuruna gətirdi və onun işini bitirmək Pirə Məhəmməd xan Ustacluya tapşırıldı. Ustaclu əmirləri öz faydalarını onun tələf edilməsi və edam olunmasında görüb, Pirə Məhəmməd xanın evində o növcavan şahzadəni boğaraq həlak etdilər.

O həzrətin (Şah Təhmasibin) altıncı oğlu onun bir cariyəsindən təvəllüd tapmış Sultan Mahmud mirzədir. O, yüksək məqamlı atasının hakimiyyəti sona çatarkən on səkkiz yaşında idi. Bir müddət Gilanın Biye-piş [vilayətinə] hakim təyin olunub, Lahican şəhərində yaşamışdı. Lakin gilanlıların yağı çıxmaları və fitnə-fəsad salmaları üzündən, [şahın] əmrinə əsasən, geri çağırılmışdı. O, cənnətməkan şahın [hakimiyyəti] zamanının axırlarında Şirvan hakimi vəzifəsinə gətirildi və Araz xan onun lələsi və atalığı təyin edildi. Amma yüksək mövqeli atasının vəfatı zamanınadək ali taxtın ətəklərində qalıb, Şirvana getmədi və rumlu tayfası arasında yaşamadı. Lakin Araz xanın oğulları onun xidmətində durmağa cavabdeh idilər və [rumlu tayfasının] əmirləri İsmayıl mirzənin tərəfdarları olduqlarından [Sultan Mahmud] mirzə cənabları da bu məsələdə onlarla müttəfiq idi. O da İsmayıl mirzənin hakimiyyəti zamanında Məhəmməd Bağır mirzə adlı tifil oğlu ilə birlikdə şəhidlik şərbətini içdi.

O həzrətin (Şah Təhmasibin) yeddinci oğlu İmamqulu mirzədir. O, gürcü təbəqəsinin mötəbər şəxslərindən olan Zal bəy Gürcünün bacısından təvəllüd tapmışdı və yüksək mövqeli atasının vəfatı zamanı on dörd yaşında idi. Cənnətməkan şah həzrətləri onu Gilanın Biye-piş [vilayətinin] darülmülkü və hökumətgahı olan Lahicana vali təyin etmişdi. O, həmin şəhərdə məskunlaşmışdı və Pirə Məhəmməd xan Ustaclu onun lələsi idi. İsmayıl mirzənin cülusu zamanı Pirə Məhəmməd xan Gilandan çıxıb yeni hökmdarı qarşılamağa gedərkən [İmamqulu mirzə] cənablarını da özü ilə gətirdi. [İmamqulu mirzə] Zəncanrudun Qarabağ üləngində qardaşının görüşünə gəlib çatdı. O, bir müddət [İsmayıl mirzənin] zahirən mərhəmət və şəfqətinin nəzərləri altında yaşasa da, nəhayət, darüssəltənə Qəzvində digər qardaş-

ları ilə birlikdə ömrünə və həyatına vida edərək, axirət aləminə tələsdi.

O həzrətin (Şah Təhmasibin) səkkizinci oğlu Sultan Əli mirzədir. O, Sultan Mustafa mirzə ilə eyni anadan doğulmuşdu. [Şah Təhmasib ölərkən] on dörd yaşında idi və Gəncə şəhərində yaşayırdı. Qarabağ bəylərbəyisi İbrahim sultan Ziyadoğlu onun lələsi idi. İsmayıl mirzə zamanında qacar [tayfasının] ağaları, hökmdarın əmrinə uyğun olaraq, onu orduya (saraya, şah düşərgəsinə) gətirdilər. O, şahzadələrin şəhid edilməsindən bir qədər sonra Qəzvinə çataraq, qardaşının hüzuruna gəlməyə nail oldu. İsmayıl mirzənin göstərşşi ilə onun gözləri çıxarılıb kor edildi. Bu səhifə yazılarkən o, hələ də həyatdadır və bu gün Allahın kölgəsi olan əlahəzrət şahın rəğbətinin və şəfqətinin kölgəsi altında əziz, istəkli və asudə bir vəziyyətdə yaşayışını sürdürməkdədir.

[Şah Təhmasibin] doqquzuncu oğlu Sultan Əhməd mirzədir. Şah həzrətləri ona «Sultan Əhməd Bağdadi» deyə xitab edərdi. Onun anası cariyələr zümrəsindən idi. O həzrətin (Şah Təhmasibin) vəfatı zamanı bu şahzadənin on üç yaşı vardı. Lələsi Əmiraslan sultan Ərəşlü Əfşar idi və bir müddət onunla birgə İsfahanda qalmışdı. Elə həmin ərəfədə hökmdarın əmrinə uyğun olaraq, orduya gətirilib, adlı-sanlı atasının hüzurunda hörmət və izzətlə yaşamışdı. Əfşar tayfası, xüsusilə də ərəşlülər İsmayıl mirzənin tərəfdarları silkinə daxil olduqlarından [Sultan Əhməd mirzə də] lələsinin istəyinə tabe olaraq, bu yolu tutmuşdu. Lakin İsmayıl mirzə zamanında o da digər şahzadələr kimi yoxluq yoluna göndərildi (öldürüldü)” (165).

Şah Təhmasibin qızları haqqında da “Tarix-i aləmara-yi Abbasi” əsərində bəzi məlumatlar mövcuddur. Həmin məlumatlar belədir: “Cənnətməkan şahın möhtərəm qızları səkkiz nəfər olmuşdur. Əvvəlincisi Gövhər-sultan bəyimdir. O, mərhum Bəhram mirzənin oğlu Sultan İbrahim mirzənin həyat yoldaşı idi. [İbrahim] mirzənin öldürülməsindən sonra bir neçə gün ərzində etdiyi nalənin və ahu-zarın, çəkdiyi qəm-qüssənin və matəmin

çoxluğundan zəiflik yatağına uzanıb, axirət səfərinə yollandı. Onun bir qızından savayı, başqa övladı yox idi.

İkincisi Pərixan xanımdır. O, Bəhram mirzənin oğlu Bədiüzzaman mirzəyə nişanlı olsa da, hələ onunla ailə həyatı qurmamışdı. [Pərixan xanım] yüksək mövqeli atasının yanında əziz, istəkli və çox mötəbər idi və camaat müşkül məsələlər barədə ondan xahiş edib, bunları onun vasitəsi ilə həll edərdi. O, ağlının və biliyinin bolluğu səbəbindən hökmdarın hüzurunda müşavir və üstün şəxs idi. Xülasə, o, cənnətməkan şahın vəfatından sonra İsmayıl mirzənin [hakimiyyətə gəlməsi] yolunda çox səy göstərsə də, bunun müqabilində mükafatlandırılmadı. [İsmayıl mirzənin] ölümündən sonra Sultan Məhəmməd mirzə cənablarının hakimiyyətə yiyələnməsi zamanı əhəmiyyətsiz bir şəxsə çevrildi və aradan götürüldü.

Üçüncüsü Xədicə-sultan bəyimdir. O, Biye-pəs hakimi Cəmşid xanın həyat yoldaşı idi. Cəmşid xanın ölümündən sonra, Allahın kölgəsi olan səadətli əlahəzrət şahın hökmranlığı zamanında Mir-miran Yəzdinin oğlu Şah Nemətullaya ərə getmişdir və indiyədək həyatda qalmaqdadır. Cəmşid xandan iki oğlu olmuşdur. Lakin onların hər ikisi cavanlıq vaxtı vəfat etmişlər.

Dördüncüsü Zeynəb bəyimdir. Cənnətməkan şah onu Anaxanım deyə çağırardı. O, şah həzrətlərinin hüzurunda izzət və ehtiram sahibi idi. «Qorçiyişəmşir » («qılınc qorçusu») vəzifəsini tutan Şahəli bəy Şamlu onun lələsi idi. Anası Hurixan xanım Gürcüstanın möhtərəm qadınlarından idi. İsmayıl mirzə onu Durmuş xan Şamlunun nəvəsi olan və Herat hakimliyinə göndərilən Əliqulu xana nişanlasa da, onlar evlənmədilər. Çox ağıllı və mülayim bir qadındır. Hal-hazırda, Allahın kölgəsi olan əlahəzrət şahın zamanında uca hərəmin banusudur, o həzrətin hüzurunda böyük hörmətə malikdir və ta bu kitabın yazılmasına qədər uca hərəmdə əziz və möhtərəmdir. Onun xeyriyyəçilik və əl tutmaq kimi əməlləri olmuşdur. Ümid odur ki, ömrü uzun olsun.

Beşincisi Məryəm-sultan bəyimdir. O, yuxarıda adı çəkilən ali xanımın doğma bacısıdır. İsgəndər şanlı nəvvab Sultan Məhəmməd padşahın zamanında Gilanın Biye-piş [vilayətinin] valisi

olan Xan Əhməd sultana ərə getmişdi və öz yeri gələndə qeyd olunacağı kimi, o, Xan Əhmədin bu [Səfəvi] dövlətindən üz döndərməsindən sonra Ruma getdi. Buna baxmayaraq, Xan Əhməddən doğulan mərhum şahzadəsini öz ata xanədanına yolladı. O, Allahın kölgəsi olan əlahəzrət şahın zamanında vəfat etsə də, onun qızı hal-hazırda səltənətin möhtərəm xanımlarındandır.

Altıncısı Fatimə-sultan xanımdır. O, İsgəndər şanlı nəvvab zamanında Əmir xan Mosullu Türkmana ərə getmiş, lakin bir neçə gün sonra onun evində vəfat etmişdi.

Yeddincisi Şəhrəbanu bəyimdir. O, İsgəndər şanlı nəvvabın zamanında cənnətməkan şahın bacısı oğlu olan Şahəli mirzə Ustaclunun övladı Salman xana ərə getmiş, lakin o da bir müddət keçəndən sonra onun mənzilində vəfat etmişdi. O, Cəmşid xanın zövcəsi olan Xədicə bəyimlə bir anadan idi. Onların anası Dağıstan hakiminin qızı idi.

Səkkizincisi İmamqulu mirzənin doğma bacısı Xanış bəyimdir. O, Mir-miranın oğlu Şah Nemətulla Yəzdiyə ərə getmiş və onun mənzilində vəfat etmişdi. Onun Səncər mirzə adlı bir oğlu vardır" (166).

Bu məlumatlardan da göründüyü kimi, Şah Təhmasib qızlarının da təlim-tərbiyəsinə xüsusi fikir verirdi, onlara lələlər təyin edirdi. Həmin lələlər də şah qızlarının təlim-tərbiyəsini qayğı və nəzarət altında saxlayırdılar. Şah Təhmasibin ikinci qızı olan Pərixan xanım biliyi, qabiliyyəti və işgüzarlığı ilə digərlərindən daha çox seçilirdi. Şah Təhmasib də onun biliyini və qabiliyyətini yüksək qiymətləndirirdi və hətta səltənət idarəçiliyinin bəzi məsələlərində onunla da məsləhətləşirdi. Bütünlükdə, Şah Təhmasibin ona xüsusi bir məhəbbəti var idi və buna görə onun saraydan uzaqlaşmasını da istəmirdi. Pərixan xanım Şah Təhmasibin qardaşı Bəhram Mirzənin kiçik oğlu Bədiüzzamanla nikahlansa da, həyatının çoxunu şah sarayında, atasının yanında keçirdi. O, elmə və biliyə də yüksək qiymət verirdi. Məlumdur ki, Pərixan xanım İsfahanda bir mədrəsə də açdırmışdı. Eyni zamanda o, ədəbi yaradıcılıqla da məşğul olurdu. Pərixan xanımın "Həqiqi" təxəllüsü ilə yazdığı nəzm parçaları günümüzə qədər gəlib çıxmışdır.

Pərixan xanımın Səfəvi dövlətinin siyasi həyatında iştirak etmək cəhdləri barəsində də məlumatlar mövcuddur. O cümlədən məlumdur ki, Şah Təhmasibin dünyasını dəyişməsindən sonra hakimiyyətin kimə keçməsi məsələsində də o, yaxından iştirak etmişdi (167).

## 5. Şah Təhmasibin xəstələnməsi və dünyasını dəyişməsi

Şah Təhmasib kifayət qədər sağlam bir insan idi və onun xəstələnməsi və səhhətinin zəifləməsi haqqında mənbələrdə demək olar ki, hər hansı bir məlumatla rastlaşmaq mümkün deyil. Bunu təbii saymaq olardı. Çünki dövrün bütün türkləri kimi, onun da həyatı at belində keçmişdi, hələ kiçik yaşlarından hərbi yürüşlərin fiziki gərginlikləri içərisində möhkəmlənmişdi. Dünyasını dəyişməsindən qabaq onun cəmi iki dəfə xəstələnməsi haqqında bəzi məlumatlar günümüzə qədər gəlib çatmışdır. Ilk məlumat 1560-cı ilə aiddir. Bu o vaxt idi ki, özbək qoşunlarına və Osmanlı qoşunlarına qarşı döyüşlər kampaniyası başa çatmışdı və Şah Təhmasib bütün səltənəti ilə birlikdə daha asudə bir həyat yaşayırdı. Şah Təhmasibin 1560-cı ilə aid olan xəstəliyi haqqındakı məlumat "Əhsənüt-təvarix" əsərində öz əksini tapmışdır. Amma bu əsərdəki məlumatda Şah Təhmasibin xəstəliyinin nədən ibarət olması haqqında açıqlama verilməmişdir: "Bu il, ramazan [ayının] (26.05-24.06.1560) əvvəllərində dinin pənahı olan şahın şərəfli və müqəddəs zatında xəstəlik peyda olub iki ay sonra sağaldı və möminlərə təzə həyat və əndazəsiz sevinc üz verdi, qəm və təhlükə rəngi ürəklərin aynasının üzərindən təmizləndi, xəstəlik əziyyəti din və dövlət düşmənlərinə keçdi. Hökmdarın vücudu elə bir bəladan şəfa tapdı ki, beləsi düşmənlərə nəsib olsun" (168).

Məlum olduğu kimi, Şah Təhmasibin həkimləri var idi və onlar dövrünün həm tanınmış, həm də bacarıqlı həkimləri idilər. Onların da işə qarışması nəticəsində Şah Təhmasib iki aydan sonra şəfa tapdı.

Şah Təhmasibin növbəti dəfə ciddi xəstələnməsi haqqında mövcud olan məlumat 1574-cü ilə aiddir. Bu zaman Şah Təhmasib artıq 60 yaşında idi və şübhəsiz ki, yaşının çoxluğu artıq onun səhhətində özünü göstərirdi. Həmin xəstəliyin də iki ay uzanması haqqında məlumat vardır. Hətta belə bir məlumat da var ki, xəstəliyin davam etdiyi müddətdə onun iki dəfə ağırlaşması halı baş vermişdi. Həsən bəy Rumlu da yazırdı ki, bu zaman ürəklər həyəcanlandı, könüllər pərişan oldu. Bununla belə, xəstəliyi aradan qaldırmaq mümkün oldu. Bu işdə saray təbibi Mövlana Qiyasəddin Əlinin böyük xidmətlərinin olması da mənbə məlumatlarında öz əksini tapmışdır (169).

Başqa bir məlumata görə isə, Şah Təhmasibin xəstəliyi 3 ay 10 gün davam etdi. Bu müddət bitəndən sonra Şah Təhmasib hamama yollandı və məlum oldu ki, onun səhhəti yaxşılaşmışdır (170).

Amma bu xəstəlik dövrü səltənət üçün başqa bir narahatçılığın baş qaldırması ilə müşayiət olundu. Bu da hakimiyyətin gələcəkdə kimə ötürülməsi məsələsi ilə bağlı idi. Şah Təhmasib artıq ömrünün yetkin çağına çatmışdı və məruz qaldığı xəstəlik onun həyatını apara da bilərdi. Ondan sonra kimi taxt-tac sahibi olması isə həll edilməmiş qalmışdı. Şah Təhmasib özü də bu barədə açıq bir qərar ortaya qoymamışdı. Bu isə həm şah ailəsi daxilində, həm də saray əyanları arasında təşviş və narahatçılığa yol açmışdı. Bir tərəfdən şah övladlarının taxt-tacla bağlı öz iddiaları var idi, bir tərəfdən də nüfuz və mənsəb sahibi olan əmir və əyanların öz mövqelərini qoruyub saxlamaq üçün fikir və planları var idi. Ona görə də Şah Təhmasibin dünyasını qəfil dəyişəcəyi təqdirdə bu iddia və mövqelərin çarpazlaşacağı şübhə doğurmurdu. Şah Təhmasibin xəstəlik zamanı halının iki dəfə pisləşməsi də bu narahatçılıqları xeyli qabartdı.

Nəticədə həm şah ailəsinin üzvləri arasında, həm də əmir və əyanlar arasında parçalanma yarandı. Ənənəvi qaydada Şah Təhmasibdən sonra taxt-tac onun böyük oğlu Sultan Məhəmməd Mirzəyə keçməli idi. Lakin Şah Təhmasibin həyatının sonlarına yaxın Sultan Məhəmməd Mirzənin gözlərinin zəifləməsi baş

vermişdi. Bu zəifləmənin konkret olaraq hər hansı bir səbəblə bağlı olması haqqında mənbələrdə bir məlumat yoxdur. Belə bir qənaət hasil olur ki, bu zəifləmə təbii bir yolla baş vermişdi. Sulan Məhəmməd Mirzə tamamilə görmə qabiliyyətini itirməsə də, kifayət qədər əziyyət çəkirdi. Həm saray mənsubları, həm də bəzi Səfəvi əmir və əyanları Sultan Məhəmməd Mirzənin bu vəziyyətdə səltənət idarəçiliyni öz üzərinə götürə biləcəyinə, yeri gələndə qətiyyət nümayiş etdirəcəyinə şübhə ilə yanaşırdılar. Ona görə Səfəvi taxt-tacına varislik məsələsində fərqli baxışlar ortaya çıxmağa başladı. Əmir və əyanların bir hissəsi belə bir vaxtda Şah Təhmasibin ikinci oğlu İsmayıl Mirzənin üzərində dayanmağı məqsədəuyğun bildilər. İsmayıl Mirzə də həmin vaxt Qəhqəhə qalasında həbsdə idi. Belə planlaşdırılırdı ki, İsmayıl Mirzə Qəhqəhə qalasından həbsdən çıxarılsın və saraya gətirilsin.

Qızılbaş əmirlərinin bir dəstəsi isə Səfəvi taxt-tacına Sultan Heydə Mirzənin namizədliyini dəstəklədilər. Yuxarıda qeyd edildiyi kimi, Sultan Heydər Mirzə həm atasının yanında, həm də bir çox saray əyanları və qızılbaş əmirləri yanında böyük nüfuzu malik idi. Səltənət idarəçiliyində atasına yaxından kömək göstərdiyi üçün V.Alessandri onu hətta öz xatirələrində Şah Təhmasibin müavini kimi təqdim etmişdi (171). Şah Təhmasibin ona olan xoş münasibəti və etibarı sarayın bəzi dairələrində də Sultan Heydər Mirzənin taxt-taca daha şanslı olması təəssüratı yaratmışdı. Bunun nəticəsi idi ki, Sultan Heydər Mirzənin də xeyli sayda tərəfdarı var idi. Onlardan biri Səfəvi sarayında böyük nüfuz sahibi olmuş Murad xan Süfrəçibaşı idi. Bu qızılbaş əmiri Müntəşa sultanın nəvəsi olmaqla qoşunlar daxilində də böyük nüfuz qazanmışdı. Yəni Murad xanın şəxsində qoşunların da Sultan Heydər Mirzənin taxt-tac namizədliyinə dəstək verəcəyi güman olunurdu. Bir sıra nüfuzlu qızılbaş əmirləri isə İsmayıl Mirzədən ehtiyatlandıqları üçün Sultan Heydər Mirzənin hakimiyyətə gəlməsinə istəyirdilər. "Tarix-i aləmara-yi Abbasi" müəllifinin yazıdığına görə, belə əmirlərin arasında Həsən bəyin oğlu Hüseyn bəy Yüzbaşı, tir və kaman qorçusu Piri bəy Qoçulu, Məhəmməd bəy Qoyunçuoğlu Əmiraxurbaşı və Allahqulu sultan

Ayçəkoğlu var idi. Bu əmirlər əsasən ustaclı tayfasına mənsub idilər. “Onlar İsmayıl mirzədən sonra digər şahzadələrdən yaşca böyük, üstün təbiətli atasının qayğısı ilə əhatələnmiş və ali taxtın ətəklərində hazır olan adlı-sanlı şahzadə Sultan Heydər mirzəni səltənətə yüksəltmək üçün birləşmişdilər. Həmçinin atasının yerinə [Heydər] mirzənin lələsi təyin olunmuş vəkil Məsum bəyin oğlu Sədrəddin xan şeyxavənd tayfasının bütün əyanlar təbəqəsi və [Heydər] mirzənin anasının qohumu olan gürcü camaatı ilə birlikdə onlarla (ustaclu tayfası ilə) bu məsələdə ittifaq edib, bir-birləri ilə əhdü-peyman bağlamışdılar. Ali dərəcəli şahzadələrdən Sultan Mustafa mirzə ustacluların arasında böyümüşdü, onun lələliyi ustaclu əmirlərinə məxsus idi və qardaşları arasında ən çox o, Sultan Heydərə məhəbbət bəsləyir, səmimi- qəlbdən onun hakimiyyətə gəlməsinə razı olub, bu işin həyata keçməsinə səy göstərirdi. Bəhram mirzənin oğlu Sultan İbrahim mirzə cənnətməkan şahın kürəkəni olub, əbədi dövlətin hökumətində ümdə şəxs idi və o da öz halının firavanlığı üçün sözügedən şahzadəyə (Heydər mirzəyə) öz yoldaşlığını izhar etmişdi” (172).

Bəhram Mirzənin oğlu Sultan İbrahim Mirzənin də Sultan Heydər Mirzənin namizədliyini dəstəkləməsi taxt-tac uğrunda mübarizədə təsiredici amillərdən biri sayıla bilərdi. Yuxarıdakı məlumatdan da göründüyü kimi, Sultan İbrahim Mirzə də Şah Təhmasibin yanında böyük hörmət və ehtirama malik idi. Xəstələnməsi ərəfəsində Şah Təhmasib onu Səbzəvar hakimliyindən azad edərək saraya gətirdi ki, yanında olsun. Qəzvinə gələndə Sultan İbrahim Mirzə təntənəli şəkildə qarşılandı, Şah Təhmasibin övladları olan Sultan Heydər Mirzə, Sultan Mustafa Mirzə və Sultan Həsən Mirzə də onu qarşılamağa çıxdılar. Qəzvinə gələndən bir müddət sonra isə Şah Təhmasib tərəfindən sarayın baş eşikağası vəzifəsi Sultan İbrahim Mirzəyə tapşırıldı (173). Yəni Sultan İbrahim Mirzə böyük nüfuza malik olmaqla yanaşı, həm də saray daxilində yüksək vəzifəyə malik idi və onun Sultan Heydər Mirzəyə dəstəyi taxt-tac uğrunda aparılan mübarizədə ciddi təsirə malik ola bilərdi. Taxt-tac varisliyi ətrafında gedən söz-söhbətlər artanda Sultan Heydər Mirzəni dəstəkləyən əmir-

lərin və əyanların sayı da artdı. Amma bu qüvvələrə müxalif olan dəstə də formalaşmaqda idi.

Sultan Heydər Mirzənin taxt-tac sahibliyinə müxalif olan dəstəyə isə Şah Təhmasibin qızı Pərixan xanım rəhbərlik edirdi. Məlumdur ki, Pərixan xanım da Şah Təhmasibin yanında böyük nüfuz və hörmətə malik idi və Pərixan xanımın Şah Təhmasıbin müəyyən qərarlarına təsir göstərmək imkanı da var idi. Pərixan xanım və onun ətrafında toplaşan qüvvələr öz mövqelərinin qəbul etdirilməsi üçün ilk növbədə varislik ənənələrinə riayət edilməsinə çağırırdılar. Onlar bir tərəfdən bəyan edirdilər ki, Şah Təhmasib sağ olduqca varis məsələsini ortaya gətirmək düzgün deyil, bir tərəfdən də onu irəli sürürdülər ki, şahın böyük oğlunun varisliyi şübhə doğurmamalıdır. Sultan Məhəmməd Mirzənin səhhətinin imkan verməyəcəyi təqdirdə isə ondan sonrakı oğlan övladın varisliyi düzgün sayılırdı. Yəni varislik prinsipinə əməl edildikdə Sultan Heydər Mirzənin taxt-tac şansları xeyli zəifləyirdi. “Tarix-i aləmara-yi Abbasi” əsərində bu məsələ ilə bağlı belə bir məlumat mövcuddur: “Digər tərəfdən Hüseynqulu xüləfa Rumlu, Əmiraslan sultan Əfşar və Heydər sultan Cabuq Türkman isə İsmayıl mirzəni hakimiyyətə gətirmək barədə ittifaq etmişdilər. Bütün əfşar, rumlu və türkman tayfaları bu məsələdə onlarla yekdil və dilbir idilər. Həmçinin ağlının və biliyinin çoxluğu baxımdan hakim sülaləyə mənsub qadınlar arasında tam üstün olan, atasının hüzurunda əziz və istəkli sayılan, rəy və məşvərət sahibi olan, tay-tuşlarının həsəd apardığı örpəkli şahzadə Pərixan xanım [şahzadə] analarının səltənət və padşahlıq iddiasında bulunan və faktiki olaraq [şahın] böyük oğlu və vəliəhdi sayılan Sultan Heydər mirzəyə olan kin-küdurətlərini nəzərə alaraq, onun vəliəhdliyinə razı olmadı və İsmayıl mirzə tərəfdarlarının uğur qazanması üçün səy göstərdi. Pərixan xanımın doğma qardaşı Sultan Süleyman mirzə, rumlu [tayfası] arasında yaşayan Sultan Mahmud mirzə, əfşar [tayfası] arasında olan Sultan Əhməd mirzə, Pərixan xanımın dayısı Şamxal sultan Çərkəz və [Pərixan xanımın] ana tərəfdən qohumları olan çərkəz camaatı da Sultan Heydər mirzəyə müxalif olduqlarını izhar etdilər. Onlar batinən

İsmayıl mirzənin hakimiyyətə gəlməsi üçün ittifaq etsələr də, zahirən Sultan Heydər tərəfdarlarını xəyanət və məkrdə ittiham edirdilər və belə deyirdilər:

- Bu xanədanın sufilik və müridlik yoluna əsasən, mürşidi-kamil birdir və nə qədər ki, mürşidi-kamil həyatdadır, mürşidliyi və padşahlığı digər bir şəxsin adına yazmaq sədaqətsizlik əla--mətidir. Şahın qaçmaz [ölüm] hadisəsindən sonra isə o kəs mürşid və padşah olmalıdır ki, şah öz vəsiyyətinin hökmü ilə onu özünün vəliəhdi və varisi təyin etmiş olsun. Əgər fərz etsək ki, o həzrət öz oğullarından heç birini vəliəhd təyin etmədən dünyasını dəyişərsə, onda sədaqətin və sufiliyin yoluna və qaydasına görə, böyük oğul vəliəhd olmalıdır. Cənnətməkan şahın böyük oğlu olan İsgəndər şanlı nəvvab Sultan Məhəmməd mirzənin gözləri zəif olsa da, ondan sonra o həzrətin (Sultan Məhəmmədin) doğma qardaşı İsmayıl mirzə [şahın] böyük övladıdır və biz sufilik yolunda bundan savayı heç nə bilmirik. Onlar özlərini «şahısevən» adlandıraraq, Sultan Heydər tərəfdarlarını vəfasızlıqda və xəyanətdə günahlandırıb ittiham etdilər, onlara «iki-birli» adı qoydular və həmin təbəqəyə tənə vurmağa başladılar” (174).

Şah Təhmasibin səhhətində yaxşılaşma baş verəndən sonra bu söhbətlərin də arası kəsilməli oldu. Amma qruplar arasındakı mübarizəyə heç də son qoyulmadı. Belə ki, Pərixan xanım və onun qardaşları baş verənlər haqqında Şah Təhmasibə məlumat çatdırılmasını analarından xahiş etdilər. O da bu xahişi yerinə yetirdi. Pərixan xanımın anası Şah Təhmasibə məlumat çatdırdı ki, onun xəstəliyi dövründə Sultan Heydər Mirzə ona sədaqətsizlik göstərdi, taxt-tacı ələ keçirmək istədi. Eyni zamanda Pərixan xanımın anası Şah Təhmasibdə İsmayıl Mirzə haqqında xoş münasibət yaratmağa da çalışdı. Əslində, bu fikir Pərixan xanım və onun ətrafındakılardan gələn bir fikir idi. Bu dəstə çalışırdı ki, İsmayıl Mirzənin şahlıq taxt-tacına daha layiq olması haqqında Şah Təhmasibdə də bir əminlik yaradılsın. Bundan başqa Şah Təhmasibə söz çatdırmaq imkanı olan bəzi əyanlar da Sultan Heydər Mirzənin və onun ətrafının düzgün mövqe tutmaması barəsində şahı inandırmağa çalışdılar. Bir sözlə, Pərixan xanım

atasına təsir imkanlarından istifadə etməklə Şah Təhmasibdə Sultan Heydər Mirzə haqqında kifayət qədər mənfi təəssürat yaratmağa çalışdı. Hər iki tərəfdən göstərilən təsirlərə baxmayaraq səhhəti yaxşılaşmaqda olan Şah Təhmasib baş verən söz-söhbətlərə səbəb olan taxt-tac varisliyi haqqında açıq bir fikir ortaya qoymadı və tərəflərin hansına üstünlük verdiyini də birmənalı şəkildə hiss etdirmədi. Bununla belə, taxt-tac məsələsi ətrafında saray daxilində yaranmış qruplaşmaların biri-birinə ziyan yetirməsinin qarşısını almaq üçün bəzi addımlar atmalı oldu.

"Bu minvalla adı çəkilən şahzadə (Heydər mirzə) və onun tərəfini saxlayanlar ulu orduda xəyanət və nifaq törətməkdə töhmətləndirildilər. Amma cənnətməkan şah hər iki tərəfin çürük qərəzlərini öz fəsahət nuru və ali fitrəti ilə aşkara çıxardı, könlünün aynası ilə onların niyyətlərini əks etdirdi və uzaqgörən zəkasının diktəsinə əməl edib, mübarək ağzını bu söz-söhbətə münasibət bildirmək üçün açmadı. Bəlkə, o, bununla həmin camaatı bu cür əhvalatları bəyan etməkdən daşındırmaq məqsədi güdürdü. Lakin, bununla yanaşı, qaradağlu tayfasının ağsaqqalı olan eşikağasıbaşı Fərruxzad bəyin Sultan Heydər tərəfdarları sırasına aid olmasını, Qəhqəhə qalasının hakimi Xəlifə Ənsarın da qaradağlu oymağından olmasını və onun Fərruxzad bəyin qohumlarından olub onun sözündən çıxmamasını nəzərə alan hökmdarın işıqlı fikri Sultan Heydər tərəfdarlarının Xəlifə Ənsar vasitəsilə İsmayıl mirzəyə qarşı qəsd edə biləcəklərindən ehtiyatlanaraq, əfşar tayfasından olan on iki nəfər qorçuya tapşırdı ki, Qəhqəhəyə gedib, şahzadəni mühafizə etsinlər. Bu hadisə İsmayıl mirzə tərəfdarlarının qüvvətlənməsinə səbəb oldu" (175).

Heydər Mirzənin anası gürcü əsilli idi və ona görə Səfəvi sarayında olan gürcü əsilli (islam dinini qəbul etmiş) əyanlar da onun tərəfini saxlayırdılar. Bu əyanların bəziləri kifayət qədər yüksək vəzifələrə malik idilər və onların da Şah Təhmasibə söz çatdırmaq imkanları var idi. O cümlədən, Heydər Mirzənin dayısı yüzbaşı Əli xan, Şah Təhmasibin xanımlarından birinin qardaşı Zal bəy belə əyanlardan idi. Zal bəy şahın hamam xidmətinə

rəhbərlik edirdi və vəzifəsinə görə o, şahın yaxınlarından biri sayılırdı. Yuxarıdakı məlumatlardan göründüyü kimi, gürcü əsilli əyanların yaxın ətrafından olan bəzi əyanların isə İsmayıl Mirzənin saxladığı Qəhqəhə qalasının hakimi ilə yaxınlıqları var idi. Ehtimal edilirdi, Heydər Mirzənin tərəfdarları Qəhqəhə qalası hakiminin vasitəsilə İsmayıl Mirzəyə ziyan yetirə bilərlər. Ona görə Heydər Mirzə ilə İsmayıl Mirzə tərəfdarları arasında dartışma və intriqalar qalmaqda idi. Məsələ o yerə gəlib çatdı ki, İsmayıl Mirzənin tərəfdarları Heydər Mirzənin tərəfdarlarından olan Zal bəyin şahla ünsiyyətininin qarşısını almaq üçün zorakı üsullara əl atdılar: "Sözün qısası, cənnətməkan şahın hamama getdiyi gün Hüseynqulu xüləfa Rumlu, Əmiraslan sultan və özlərini «şahısevən» adlandırmış digər şəxslər sufilərdən, rumlu tayfasından və başqa tayfalardan dörd-beş min nəfərlə Zal bəyə mane olmaq üçün əsləhə və yaraq qurşanıb, mübarək dövlətxananın qapısına cəmləşmişdilər. Eyni zamanda, gürcü, şeyxavənd və ustaclu camaatları və onların tərəfkeşlərindən də dörd-beş min nəfər toplaşıb, Zal bəyi himayə etmək üçün səy göstərirdilər və istəyirdilər ki, mükəmməl silahlanmış vəziyyətdə sarayın qapısına gəlsinlər. Əgər belə olsaydı, ümumi fitnə-fəsad və qırğın baş verə bilərdi. Tərəflərin bu vəziyyətdə olduğu axşam bu sətirlərin müəllifi (İsgəndər bəy Münşi) Hüseyn bəy Yüzbaşının məclisində idi. O, (yəni Hüseyn bəy Yüzbaşı) bu gedişatdan xeyli narahat idi və istəmirdi ki, tərəflər arasında dava-dalaş baş versin. O, sabaha qədər bu fikir və düşüncə ilə baş sındırdı. Nəhayət, onlar çoxlu adam yığmalarına baxmayaraq, səhər əsləhə və yaraq qurşanmadan, adi qaydada sarayın qapısına gəldilər. Lələsi Nəzər sultan öldükdən sonra [şahın] əmrinə əsasən ustacluların və [Nəzər sultanın] adamlarının arasında olan Sultan Mustafa mirzə də onlarla birlikdə gəlmişdi. [Sultan Heydər mirzə tərəfdarları] bayırda dayanmış rəqiblərindən olan cahillərin və fəsadçıların onlara qarşı çoxlu sayda kinayəli sözlər demələrinə baxmayaraq, həmin döyüşçülərə əhəmiyyət verməyib, Çehelsütun eyvanına qalxdılar və oradan İsmayıl mirzə tərəfdarlarına qarşı öz etiraz

səslərini ucaltdılar. Hüseyn bəy Yüzbaşı Hüseynqulu xüləfaya xitabən dedi:
- Bu nə fəsaddır ki, qızılbaşlar arasında salırsan və nə üçün camaata yaraq qurşandırıb, onları sarayın qabağına gətirmişsən? Allaha həmd və şükür olsun ki, padşahımızın, mürşidimizin, vəlinemətimizin başı salamatdır. Axı bizim və sizin nə həddimiz var ki, bu cür özbaşına hərəkət edək?!" (176).

Bu qarşıdurma silahlı toqquşmaya gətirməsə də, tərəflər arasında söz atışması oldu. Heydər Mirzənin tərəfdarları qarşı tərəfi ara qarıdırmaqda, fitnəkarlıq törətməkdə günahlandırdı, belə əməllərə son qoyulmasının zəruriliyi qeyd olundu. Bu sözlərin əvəzində qarşı tərəfdən də kobud və tikanlı sözlər eşidildi. Mübahisə və narazılıqların davam etdiyi əsnada Heydər Mirzə oraya gəlib çıxdı. Onun gəlməsi ilə İsmayıl Mirzənin tərəfdarları olanlar söz-söhbətlərinə son verməli oldular. Baş verən bu hadisə Şah Təhmasibə də çatdırıldı. O bu dəfə də açıq bir mövqe ortaya qoymadı, tərəflərdən heç birini açıq şəkildə dəstəkləmədi. "Tarix-i aləmara-yi Abbasi" müəllifinin verdiyi məlumata görə, Şah Təhmasib özünü görməməzliyə qoydu. Şah Təhmasib hamama getməyindən də qalmadı və Zal bəyi yanına çağıraraq ona hamam tədarükü görməyi tapşırdı. İsmayıl Mirzənin tərəfdarları Zal bəyi hamam xidmətindən uzaqlaşdırmağa çalışsalar da buna nail ola bilmədilər. Şah Təhmasib əvvəlki qaydada hamam xidmətini yenə ona tapşırdı. Bu isə Heydər Mirzə tərəfdarlarını bir qədər canlandırdı, onlar "sanki yeni həyat tapıb iftiraçıların töhmətlərindən və paxılların tənələrindən xilas oldular" (177).

Bu vəziyyətdə də Şah Təhmasib taxt-tac varisliyi barəsində öz qərarını müəyyənləşdirmədi. O yalnız ona çalışdı ki, hər iki tərəfi sakitləşdirsin, tərəflər arasında yeni bir qarşıdurma baş verməsin. Bu məqsədlə o, tərəflərin nüfuzlu adamlarını tədricən saraydan uzaqlaşdırmağa başladı. O cümlədən, Heydər Mirzənin tərəfdarlarından olan Murad xan Süfrəçibaşı Rüstəmdara göndərildi ki, Kəcur qalasının zəbtini həyata keçirsin. Piri bəy Qoçulu isə Rey hakimi təyin edildi və o da saraydan uzaqlaşdırıldı. Heydər Mirzənin tərəfdarları arasında böyük nüfuza malik olan Hüseyn bəy

Yüzbaşıya isə elçi kimi Osmanlı sarayına yollanmaq təklif olundu. Belə ki, 1574-cü ilin sonlarında Sultan Süleyman dünyasını dəyişmiş və onun oğlu Sultan Səlim Osmanlı taxt-tacına sahib olmuşdu. Sultan Süleymanın vəfatı ilə bağlı baş sağlığı verilməsi və Sultan Səlimin təbrik edilməsi üçün Osmanlı sarayına göndəriləcək elçilik heyətinə Hüseyn bəy Yüzbaşının rəhbərlik etməsi məqsədəuyğun sayılmışdı. Heydər Mirzənin tərəfdarları bu məsələdən narahat olmağa başladılar. Narahatçılığa səbəb bu idi ki, Hüseyn bəy Yüzbaşının saraydan uzaqlaşması ilə Heydər Mirzənin tərəfdarlarının mövqeyi zəifləyəcəkdir. Ona görə Hüseyn bəy öyrədildi ki, bir bəhanə tapsın və bununla da Osmanlı sarayına yollanmaqdan imtina etsin. Hüseyn bəy də Şah Təhmasibə ərz etdi ki, onun (şahın) xəstəlikdən şəfa tapması üçün İman Rzanın məqbərəsini ziyarət etməyi nəzir demişdir və xahiş etdi ki, ona bu niyyətini həyata keçirmək icazəsi verilsin. Şah Təhmasib də bu xahişlə razılaşdı və onu Osmanlı sarayına getmək məsuliyyətindən azad etdi. Onun yerinə Çuxursəəd hakimi Məhəmməd xan Toxmaq elçi kimi Osmanlı sarayına göndərildi. Hüseyn bəy Yüzbaşı Osmanlı sarayına getməyəcəyinə əmin olduqdan sonra Məşhədə getməkdən də imtina etdi. Şah Təhmasib onun Məşhədə ziyarətə getmədiyindən xəbərdar oldu. Lakin bununla bağlı ona heç nə demədi. Hüseyn bəy əvvəlki qaydada sarayda öz xidmətini davam etdirdi. Hətta yavaş-yavaş hörmət və izzəti daha da artdı. Bir müddətdən sonra isə ona daha yaxşı bir vəzifə verildi. Şah Təhmasibin oğullarından olan Sultan Mustafanın ləbəsi Nəzər sultan vəfat edəndə onun hakim olduğu Nətənzin hakimi vəzifəsinə Hüseyn bəy təyin edildi. Eyni zamanda Sultan Mustafanın lələliyi də ona tapşırıldı (178). Nəticədə Hüseyn bəyin nüfuzu bir qədər də qalxmış oldu.

Bununla, Heydər Mirzə ilə İsmayıl Mirzənin tərəfdarları arasında mövcud olan narazılıqlara bir müddət son qoyulmuş oldu. Şah Təhmasibin dünyasını dəyişməsinə qədər səltənət daxilində yenidən əmin-amanlığın bərqərar edilməsinə nail olundu. Bu hadisələrdən sonra Şah Təhmasib daha iki ilə yaxın həyat sürdü. Həmin müddət ərzində də Şah Təhmasib taxt-tac varisinin adını

açıqlamadı. Ənənəvi qaydada varislik şahın böyük oğluna keçməli olmasına baxmayaraq, Şah Təhmasib Sultan Məhəmməd Mirzə barəsində də öz fikrini bəyan etmədi. Ola bilsin ki, Şah Təhmasibin səhhəti kifayət qədər yaxşılaşmışdı və yaxın vaxtlarda səhhətinin pisləşəcəyi ehtimallarına inanmırdı. İlk baxışdan adi bir təsadüf Şah Təhmasibin səhhətinin qəfil şəkildə pisləşməsinə yol açdı. Çox güman ki, Şah Təhmasib hissə etmədən də onun səhhətində ciddi daxili dəyişikliklər baş verirdi və qarşıya çıxan təsadüf də bu dəyişiklikləri şiddətləndirmiş oldu.

Belə ki, Şah Təhmasib dünyasını dəyişməsindən bir qədər əvvəl hamama yollandı və orada bədənin tüklərinin təmizlənməsi üçün nurə adlanan məhluldan istifadə etdi. Bu məhluldan artıq istifadə edilməsi onun bədənində yara açılmasına səbəb oldu. Şah Təhmasibin xəstəliyi də elə bu yaradan başladı. Həmin yaranın verdiyi qızdırma Şah Təhmasibin səhhətinin pisləşməsinə və qəfildən ağırlaşmasına səbəb oldu. Mövlana Qiyasəddin Əli Kaşi və Mövlana Sədrüşşəriə Gilaninin oğlu Əbu-Nəsr kimi təbiblərin göstərdiyi cəhdlər də bir nəticə vermədi. 1576-cı il may ayının 13-də (səfər ayının 14-də) Şah Təhmasibin səhhəti daha da ağırlaşdı və tamamilə haldan düşdü. Yəni artıq onun son saatlarını yaşadığı yaxınlarına da aydın oldu. Həmin günün gecəsi Şah Təhmasibin övladları və yaxın ətrafı onun yanına toplaşdılar və intizarla Səfəvi şahının həyatının son saatlarını onunla bölüşdülər. Gecə yarısı Şah Təhmasib özünə gəlib halının yaxşılaşdığını söylədi və yanındakılardan da tələb etdi ki, dağılsınlar və gedib istirahət etsinlər. Şah Təhmasibin yaxınları onun bu istəyini yerinə yetirdilər və onu tərk etdilər. Yalnız Heydər Mirzə atasının yanında qaldı. "Tarix-i aləmara-yi Abbasi" müəllifinin fikrincə, yalnız Heydər Mirzənin Şah Təhmasibin yanında qalmasının iki səbəbi ola bilərdi. Həmin səbəblər belə izah olunurdu: "[Sultan Heydər mirzənin] orada qalmasının səbəbləri barədə iki izahat vardır. Biri odur ki, cənnətməkan şah həzrətləri Sultan Heydər mirzəni [digər şahzadələrdən] fərqləndirib, ona qalmağı əmr etmişdi. Digər rəvayət budur ki, [Sultan Heydər mirzənin] anası [Şah Təhmasibin ölümü] hadisəsindən sonra bayırda düşmən-

lərdən və rəqiblərdən möhtərəm oğluna bir xətər toxunacağını və onun mübarək dövlətxanada qalmasının daha güvənli olduğunu zənn edərək ona demişdi:

- İndi yüksək mənsəbli atanın halı bərbaddır və ehtimal çoxdur ki, o, bu gecə əcəlin zərurətindən vəfat etsin. Sən ki atanın yetişdirməsi və varisisən, padşahlıq taxtını qoyub haraya gedirsən?! Yaxşısı budur ki, dövlətxanada qalasan və faciəvi hadisə (Şah Təhmasibin ölümü) baş verdikdə şahlıq tacını başına qoyub, mübarək Çehelsütun eyvanına gedəsən, hökmdarlıq xalçası üzərinə cülus edəsən. Bir halda ki, xəzinələrin, «qurxana»nın (silah anbarının) və yaraqxananın açarı səndədir və əsgərlərin də dünya malında gözü vardır, xəzinələrin qapısını açıb, yüzbaşılara, qorçulara və qoşun əyanlarına böyük ənamlar verməklə onları şirnikləndirərsən və mənfəətləndirərsən, tərəfdarların dövlətxanaya toplaşarlar və yeni hökmdarın padşahlıq taxtına cülus etməsi camaat tərəfindən müşahidə olunar. Gerçəklikdə əlləri məqsədə çatmaqdan uzaq olan İsmayıl mirzə tərəfdarlarının da itaət etməkdən savayı çarələri yoxdur və hər kim ki gəlib [sənin] ayağını öpməkdən (itaət etməkdən) boyun qaçırsa, onu cəzalandırarsan" (179).

Əslində, bu səbəblərdən hər ikisinin olması mümkündür. Heydər Mirzənin Şah Təhmasibin sevimlisi olduğu məlumdur. Bununla belə, o həm də yəqin ki, taxt-taca sahib olmaq şansını da əldən buraxmaq istəməzdi. Heydər Mirzənin anası da Şah Təhmasibin ölümü ilə taxt-tac məsələsinin həll edilə biləcəyini görürdü və ona görə o da Heydər Mirzənin həlledici anı gözləməyini lazlm bilirdi. Şah Təhmasib isə həmin gecəni səhərə çıxara bilmədi. 1576-cı il may ayının 14-nə açılan səhər (səfər ayının 15-i) Şah Təhmasibin səhhəti yenə qəflətən pisləşdi və dünyasını dəyişdi (180).

"Əhsənüt-təvarix" müəllifi Şah Təhmasibin düynasını dəyişməsinin yaratdığı faciəli səhnəni belə təsvir edirdi: "...eyş və şadlıqla İrəm səhnəsi kimi xəndan olan bir şəhər (Qəzvin) sura bənzər bir bəla ilə qiyamət meydanı kimi coşub gurladı. İnsan tayfaları arasında böyük [qiyamət] gününün nümunəsi və məhşər

çölünün əlaməti müşahidə olundu. Mənzillərə hay-küy və vəlvələ düşdü. Onun (Şah Təhmasibin) fərağından camaatın gözü qanlı su axıtdı. Ruzigar həsrət dırnağı ilə amal çöhrəsini cırdı. Adamlar heyrət dənizinə düşdülər. Qəm-qüssə karvanları cavanın və qocanın könül fəzasına yük apardı. Seyidlər, qazılar, üləma, rəiyyət və bütün xalq şamın dili kimi öz həyatları üçün titrəməyə başladılar ki, ta ömürlərinin son gününəcən siyasət bıçaqlarının kəsiciliyindən nə cür xilas olacaqlar (yəni Şah Təhmasibin ölümündən sonra başlarına nə gələcəyi barədə həyəcanlanmağa başladılar)" (181).

"Tarix-i aləmara-yi Abbasi"də isə Şah Təhmasibin dünyasını dəyişməsinin yaratdığı hüzn belə təsvir olunub: "Səltənət sülaləsinə mənsub olan möhtərəm xanımlar can odlayan bu müsibət səbəbindən səbir paltarlarını yırtıb, fəğan və ahuzar etməyə başladılar və möhtərəm hərəmxananın xidmətçiləri o uca şahənşahın matəmində yas libası geyinib, zülmətli gecə kimi qarageyimli oldular. Aləm birbirinə dəydi, camaat həyəcan və iztirab burulğanına düşdü, bütün ürəklər kədərdən paralandı, könüllər pərişan oldu. Axı necə də olmasın?! Elə bir üstün xüsusiyyətli günəşin üzü tutuldu ki, dünya adamları onun ümumi qayğısından rahatlıq və asudəlik kamına qovuşmuşdular və elə bir görkəmli ay yox oldu ki, onun nurlu rəyinin şüalarından cahan asayiş və sabitlik işığına bürünmüşdü. O dövran yeganəsinin xoşagəlimli vəsllərini yazmaqla qurtaran deyil" (182).

Şah Təhmasib əvvəlcə müvəqqəti olaraq saray həyətində dəfn edildi. Dövrün tanınmış müctəhidləri və üləmaları onun dəfninin təşkilinə toplaşdılar. Müctəhid Mir Seyid Hüseyn Cəbəlamili Şah Təhmasibin qüslünü həyata keçirdi. Sonra isə Şah Təhmasib hərəm bağçası ilə divanxana arasında yerləşən "Şirvani yurdu" adlanan məkanda dəfn edildi. İsmayıl Mirzənin hakimiyyəti illərində isə Şah Təhmasibin cənazəsi Məşhədə aparıldı və İmam Rzanın məqbərəsi ətrafında torpağa tapşırıldı (183).

"Əhsnüt-təvarix"ə görə Şah Təhmasib 64 il bir ay 19 gün ömür sürmüş və 53 il altı ay 26 gün şahlıq etmişdi. "Xülasüt-təvarix" əsərində Şah Təhmasibin şahlıq dövrü 53 il altı ay 28

gün olduğu göstərilmişdir. “Tarix-i aləmara-yi Abbasi”nin məlumatına görə isə, Şah Təhmasib 64 il bir ay 25 gün ömür sürmüş və 53 il altı ay 26 gün şahlıq etmişdi. (184). Başqa mənbələrdə aparılmış hesablamalarda kiçik fərqlərlə rastlaşmaq mümkündür. Amma bu hesablamalar hicri qəməri təqvimi əsasında aparılmışdı. Miladi təqvimi ilə hesablandıqda isə Şah Təhmasibin ömrü təxminən 62 il səkkiz ay yarım, şahlıq dövrü isə 52 il davam etmişdi. Elə mənbələrin verdiyi məlumata görə, islam aləmində yalnız bir nəfər Şah Təhmasibdən daha uzun müddətə hakimiyyətdə olmuşdu. Həmin adam Misirdə hökmranlıq etmiş Fatimilər sülaləsinin xəlifəsi Müstənsir Billah Ələvidir ki, 1036-1094-cü illər arasında 58 il hakimiyyətdə olmuşdu (185).

### 6. Şah Təhmasibin vəfatından sonra hakimiyyət varisliyi məsələsi

Şah Təhmasibin dünyasını dəyişməsi Səfəvi taxt-tacına varislik məsələsini real olaraq ortaya gətirdi. Sultan Məhəmməd Mirzənin səhhətində mövcud olan məhdudiyyətlər, şahın ikinci oğlu İsmayıl Mirzənin həbsdə olması varislik məsələsində bir qeyri-müəyyənlik yaratmışdı. Dünyasını dəyişməsindən əvvəl Şah Təhmasibin istər Məhəmməd Mirzə ilə bağlı, istərsə də İsmayıl Mirzə ilə bağlı hər hansı bir fikir irəli sürməməsi varislik ənənəsində təbii suallar doğurmaqda idi. Məhəmməd Mirzənin hələ Şah Təhmasibin dövründə real varis kimi qəbul edilməməsi, İsmayıl Mirzənin isə həbsdə olması Şah Təhmasibin onların varisliyinə meylli olmadığı görüntüsü yarada bilərdi. Belə bir şəraitdə Heydər Mirzənin şansının artmasını isə hakimiyyətin saxlanmasında böyük təsirləri olan nüfuzlu qızılbaş əmirlərini qəbul etmirdilər. Bununla belə, Şah Təhmasibin vəfatı anında onun yanında Heydər Mirzənin olması, hakimiyyətə digər iddialı olan İsmayıl Mirzənin isə paytaxtdan çox uzaqda olması Heydər Mirzənin hakimiyyəti ələ alması üçün daha əlverişli bir zəmin kimi qəbul edilə bilərdi. Heydər Mirzə də dərhal bu imkandan

bəhrələnməyə çalışdı. Amma İsmayıl Mirzənin tərəfdarları da vəziyyətin gedişini nəzarət altında saxlayırdılar. Şah Təhmasibin vəfatı xəbəri alınan kimi, İsmayıl Mirzənin hakimiyyətə gətirilməsi tərəfdarlarından biri olan Pərixan xanımın dayısı Şamxal sultan Çərkəz tabeliyində olan qoşun dəstəsi ilə saray ətrafına gəldi, tövlə meydanında qərar tutdu. Eyni zamanda İsmayıl Mirzənin tərəfdarı olan çoxlu sayda digər əmirlər və əyanlar əməli hərəkətə keçdilər, həlledici addım üçün hazırlaşmağa başladılar, silah və təchizatlarını tədarük edərək əmrə müntəzir hal aldılar. İşarə alınan kimi onlar dərhal hərəkətə keçməli idilər (186).

Şah Təhmasibin dünyasını dəyişməsindən sonra hakimiyyət qovğası ilə bağlı nisbətən daha geniş məlumat vermiş“ Əhsənüt-təvarix” ilə “Tarix-i aləmara-yi Abbasi” müəlliflərinin hər ikisi Heydər Mirzənin hakimiyyət xülyalarına rəğbətsiz bir münasibət göstərmişlər. Yazdıqlarından belə bir qənaət hasil olur ki, onlar da Heydər Mirzəni səriştəsiz və hakimiyyətə daha az haqqı olan bir şahzadə kimi dəyərləndirirlər. Heydər Mirzənin özünə arxayınçılığını, ona qarşı istiqamətlənmiş məkrlərdən vaxtında baş çıxara bilməməsini də bu mənbələrdəki məlumatlardan görmək mümkündür. Sözsüz ki, ona rəqib olacaq İsmayıl Mirzənin uzaqda olması Heydər Mirzədə bir arxayınçılıq yarada bilərdi. Lakin bu arxayınçılıq və ətrafda baş verənlərin düzgün qiymətləndirilməməsi Heydər Mirzənin hakimiyyət qovğalarının nəticəsiz qalmasına yol açdı. “Tarix-i aləmara-yi Abbasi”yə görə, “cənnətməkan şahın kədərli [vəfat] hadisəsi üz verdikdə səltənətə və padşahlığa iddiaçı olan Sultan Heydər mirzə iki səbəbdən birinə görə - ya yüksək hörmətli atasının işarəsinə uyğun olaraq, yaxud da ki, öz anasının rəyi və tədbiri ilə dövlətxanada qalmışdı. O, oranı məqsədinə çatmaq baxımından daha əlverişli yer hesab etsə də, axırda iqbalının yoxluğu və bəxtinin qara olması ucbatından öz mətləbindən uzaq və həyatın nemətindən kənar düşdü” (187).

Tezliklə hakimiyyəti ələ keçirəcəyinə arxayın olan Heydər Mirzə bu hakimiyyət uğrunda gizli mübarizə getdiyinə ciddi əhəmiyyət vermədi. Heydər Mirzə ona yaxın olan və onu dəs-

təkləyən adamları saraydan kənarda qalmasına da diqqət yetirmədi. Eyni zamanda Heydər Mirzə sarayın mühafizəsində dayanan adamların da İsmayıl Mirzə tərəfdarları olmasının fərqinə varmadı. Həmin gün sarayın mühafizəsində rumlu, əfşar, qacar, bayat və varsağ tayfalarından olan qorçular dayanmışdılar. Bu tayfaların da İsmayıl Mirzənin hakimiyyətə gəlməsini dəstəklədikləri məlum idi. Həmin qüvvələr isə sarayın mühafizəsini təmin etmək adı ilə Heydər Mirzə adamlarının saray daxilinə gəlmələrinə yol vermədilər. Nəticədə Heydər Mirzə köməksiz qalmaqla, həm də saray daxilində İsmayıl Mirzənin tərəfdarlarının girovuna çevrildi (188).

Məlum olduğu kimi, İsmayıl Mirzənin tərəfdarları arasında onun və eləcə də Heydər Mirzənin bacısı Pərixan xanım da var idi. Pərixan xanımın İsmayıl Mirzənin ciddi şəkildə dəstəkləməsi Heydər Mirzəyə yaxşı məlum idi və bu da Pərixan xanımın həyatı üçün bir təhlükə yarada bilərdi. Yəqin ki, Pərixan xanım özü də belə bir təhlükə ehtimalını hiss edirdi. Ona görə də o, siyasət işlətməyə, öz həyatını təhlükədən xilas etməklə Heydər Mirzənin diqqətini də hakimiyyət uğrunda gizli mübarizədən də yayındırmağa çalışdı. Pərixan xanım Heydər Mirzənin görüşünə yollandı və bu görüş zamanı istədiyinə də nail ola bildi. Onunla Heydər Mirzə arasında maraqlı bir dialoq baş tutdu ki, bu barədə "Tarix-i aləmara-yi Abbasi" əsərində belə yazılmışdır: "İsmayıl mirzənin tərəfdarı olan zəmanənin aqil qadını Pərixan xanım həmin gecə Sultan Heydər mirzənin əlində dustaq olmasına baxmayaraq, [Sultan Heydər mirzəni] bəzi yaltaq və yağlı sözlərlə aldatmağa nail oldu. Hadisənin təfsilatı belədir ki, bu vəziyyət yaranan gecə saray hərəmxanasında olan Pərixan xanım özünün şahzadənin əlində əsir və dustaq vəziyyətdə olduğunu gördü, mülayimlik və mütilikdən savayı bir çarə tapmayıb, acizlik və əlacsızlıq üzündən ona ərz etdi:

- Qadınlar yüngülbeyin olurlar. Əgər ağlımın nöqsanlı və düşüncəmin az olması səbəbindən məndən bir təqsir baş veribsə, ümidvaram ki, səhv addımlarımı əfv edib, canımı bağışlayacaqsınız. Mən bu gündən etibarən tabeçilik və xidmətkarlıq yolunun

yolçusu olacağam və bundan sonra mən biçarədən heç vaxt əşrəfin razılığına xilaf olan bir hərəkət baş verməyəcəkdir. O, bunları söylədikdən sonra dərhal qardaşının ayağını öpüb, [Sultan Heydər] mirzənin anasına dedi:

- Şahid ol ki, padşahın ayağını öpməkdə və əşrəfin hakimiyyətə gəlişini təbrik etməkdə heç kəs məndən qabağa düşmədi. Şahzadə çox sadəlövh olduğundan bu yaltaqlığa aldanıb, bacısına lütfkarlıq və mehribanlıq göstərərək dedi:

- Hərgah sən mənimlə dost olub, qardaşın Sultan Süleymanı və dayın Şamxal sultanı mənimlə mehriban etsən, onda mənim yanımda atamızın zamanındakından daha da əziz olacaqsan.

Ülyahəzrət [Pərixan] xanım bu sözləri təsdiq etmək üçün ona and içməyi təklif etdi və o, (yəni Sultan Heydər mirzə) boynundan asdığı «Quran»ı çıxarıb and içdi. Belə olduqda [Pərixan] xanım rüxsət istədi ki, öz mənzilinə gedib, qardaşını və dayısını onun xidmətinə gətirsin. Şahzadə onun vədinə etimad edib, rüxsət verdi. [Pərixan xanım] hərəm bağçasından at meydanına gedən yolla çıxıb getdi və öz dayısı Şamxal sultanı [Sultan Heydər mirzənin hüruna] gətirib, dərgahın açarlarının ona tapşırılmasına nail oldu Beləliklə, [Şamxal sultan] hamısı şahzadənin düşmənlərindən ibarət olan üç yüz nəfər çərkəzlə birlikdə hərəmxanada ixtiyar sahibinə çevrildi” (189).

Saray daxilində və ətrafında nə baş verməsinə nüfuz də bilməyən Heydər Mirzə özünü artıq Səfəvi şahı hiss etdi və səhəri gün şahlıq tacını başına qoydu, Şah Təhmasibin qılıncını öz belindən asdı və özünü şah bildi. Onun şahlıq iddiasına şübhə yeri qalmasın deyə, Heydər Mirzə bir vəsiyyətnamənin olduğunu da bəyan etdi. Onun dediyinə görə, həmin vəsiyyətnamə Şah Təhmasib tərəfindən yazılmışdı. Bu vəsiyyətnamənin mətnində Heydər Mirzənin vəliəhd təyin olunduğu bildirilir, şahzadələrdən, əmir və əyanlardan, sufilərdən və digərlərdən tələb olunurdu ki, ona itaət etsinlər. Heydər Mirzə bu vəsiyyətnaməni rəsmi bir sənəd kimi təqdim etmək istəyirdi. Amma ona müxalif olan dairələr bu vəsiyyətnamənin doğruluğunu qəbul etmirdilər. Bildirilirdi ki, bu vəsiyyətnamə heç də Şah Təhmasib tərəfindən

yazılmayıb. Belə bir fikir də irəli sürülürdü ki, Şah Təhmasib tərəfindən yazıldığı iddia edilən vəsiyyətnamə əslində, onun vəfatından sonra hərəmxana xanımlarından biri tərəfindən yazılmış və sonra Şah Təhmasibin barmağında olan möhür çıxarılaraq həmin sənədə möhür vurulmuşdu. Həsən bəy Rumlu bu vəsiyyətnamənin ortaya çıxmasını bir fırıldaq sayırdı və yazırdı ki, Heydər Mirzə fırıldaq və hiylə yolu ilə padşahlıq tacını başına qoyub hökmdarlıq etmək istəyirdi. Bu müəllif də vəsiyyətnaməni saxta bir sənəd hesab edirdi (190).

Mövcud olan məlumatlardan belə bir qənaət hasil olur ki, İsmayıl Mirzə saraydan uzaqda olsa da onun tərəfdarları hakimiyyətin ələ keçirilməsinə daha yaxşı hazırlaşmışdılar. Bir tərəfdən sarayın mühafizəsi onların əlində idi, bir tərəfdən də əlavə qüvvələr gətirilərək saray ətrafında yerləşdirmişdilər. Heydər Mirzənin hətta ona da gücü çatmadı ki, saraydan kənardakı tərəfdarlarını saray daxilinə buraxdıra bilsin. O, divanxana daxilində olan keşikçilərə və xidmətçilərə hədiyyələr bağışladı, onların bəzilərinə yüksək vəzifələr vəd etdi və bu yolla onları ələ alıb saraydan kənarda olan silahlı tərəfdarlarının divanxana daxilinə buraxılmasına nail olmaq istədi. Görünür, keşikdə dayananlar da öyrədilmiş insanlar idilər. Çünki onlar Heydər Mirzənin əmrini yerinə yetirmədilər, müxtəlif bəhanələr gətirərək onun tərəfdarları üzünə qapı açmadılar. “Tarix-i aləmara-yi Abbasi”də bildirilir ki, tərəfdarlarının divanxana daxilinə buraxılmasına nail olmaq üçün Heydər Mirzə hərəmin mühafizəsində dayanan Vəli yüzbaşını yanına çağırdı, ona Kirman hakimi və qorçubaşı vəzifəsi vəd etdi ki, saraydan kənarda qalmış silahlı tərəfdarlarını saray daxilinə buraxdırsın. Vəli yüzbaşı sarayı qoruyan qorçuların yanına getməli və onlardan qapıları açmağı tələb etməli idi. Vəli yüzbaşı da qorçularla görüşmək bəhanəsi ilə geri qayıtdı və qorçuların adından saray qapılarının açılmaması üçün bəhanələr söyləməyə başladı. Bildirildi ki, Şah Təhmasibin vəfatından sonra əmir və əyanlar iki dəstəyə bölünmüşlər və bu dəstələrin hər biri ayrı-ayrılıqda öz iddialarını həyata keçirməyə çalışırlar. İrəli sürülən bəhanəyə görə, saray qapıları yalnız o zaman açıla

bilərdi ki, qarşı-qarşıya gəlmiş tərəflər arasında barışıq baş versin (191).

"Tarix-i aləmara-yi Abbasi"də olan məlumata görə, Heydər Mirzə bu sözlərdən o qədər əsəbiləşdi ki, hətta qılınca əl atıb özünə qəsd etmək istədi. Bu zaman anası hay-həşir salaraq onu bu fikirdən daşındırdı. Heydər Mirzə ona da əsəbiləşsə də, əlini qılıncdan çəkdi və incik halda hərəmxanaya yollandı. Yəni Heydər Mirzə başa düşdü ki, o, İsmayıl Mirzənin tərəfdarlarının girovudur və bu girovluqdan qurtarmaq üçün ciddi tədbirlər görməlidir. Belə ciddi tədbirlər görülməsini Heydər Mirzənin tərəfdarları da başa düşürdülər. Ona görə Şah Təhmasibin vəfatı xəbəri alınan kimi Heydər Mirzənin tərəfdarları toplaşmağa başladılar. Bu adamlar Hüseyn bəy Yüzbaşının evində toplaşdılar. Şah Təhmasib dövründə səltənət vəkili olmuş Məsum bəy Səfəvinin oğlu Sədrəddin xan bura toplaşan qüvvələrin rəhbəri idi. Həmin qüvvələrə tanınmış əmirlərdən Həmzə sultan Talış, Seyid bəy Kəmunə, Əlixan bəy Gürcü, Abdulla xan Ayçəkoğlu və digərləri daxil idilər. Bəhram Mirzəninoğlu İbrahim Mirzə də bu dəstəyə qoşuldu. İsmayıl Mirzənin tərəfdarları isə Hüseynqulu Xüləfanın mənzilində toplaşdılar. Heydər Mirzənin digər qardaşları Sultan Məhəmməd Mirzə ilə Sultan Əhməd Mirzə də bura toplaşanlar arasında idi. Səltənət həyatında mühüm rol oynayan bir sıra tanınmış və nüfuzlu əmirlər və əyanlar isə gözləmə mövqeyi tutdular və onlar heç bir dəstəyə qoşulmadılar. Onların arasında Heydər sultan Çabuq Türkman, Kirman hakimi Qulu bəy Əfşar, möhürdar Məhəmmədqulu Zülqədər, Mirzə Əli sultan Qacar və bəzi digərləri var idi (192).

"Əhsənüt-təvarix" əsərində hakimiyyət məsələsinin həll edilməsi ilə bağlı dəstələr arasında baş verən ilkin təmaslar belə təsvir edilmişdir: "O əsnada Heydər sultan Türkman, Əmiraslan bəy Əfşar, Məhəmmədqulu xəlifə Möhürdar, Mahmud bəy Əfşar, Söhrab xəlifə Türkmanın oğlu Süleyman bəy, Dəli Budaq Rumlu, Həsən bəy Xəzinədar Ərəbgirlü, Xanvəli bəy Baharlu çoxlu ordu və digər yüksək şanlı əmirlərlə bir-birinin ardınca Xüləfa Rumlunun yanına gəldilər. O əsnada xəbər çatdı ki, ustaclu əmirləri

Sultan Heydəri [saraydan] çıxarıb səltənətə əyləşdirmək istəyirlər. Yüksək şanlı əmirlər Sultan Heydər tərəfdarlarının və onların başbiləni olan Həsən bəy Yüzbaşının oğlu Hüseyn bəyin yanına bəyan sehri ilə vəhşət düyününü hər kəsin ürəyindən açan, lətif hiylələrlə razılıq quşunu havadan aşağı endirib tora salan, yaxşı nitq qabiliyyətinə malik olan elçilər göndərib dedilər:

- Bilin ki, aləm sakinlərinin şahzadəsi İsmayıl mirzəyə münasibətdə Yaradanın lütfünün gözəlliyi və Tanrının səxavətinin qeyri-adiliyi o qədər çoxdur ki, mühit nitqinin natiqləri onu şərh edə bilməzlər və fəhmin, idrakın qüvvəsi onun keyfiyyət və kəmiyyətinə çata bilməz. Onun (İsmayıl mirzənin) nəfis vücudu asimanın tərkibi kimi eybdən qorunmuşdur və günəşin çöhrəsi kimi ləkədən arınmışdır. O həzrətin məiyyəti hansı səmtə hərəkət etmişsə, fəth və zəfər qoşunları sağdan və soldan yüyən-yüyənə ona yoldaş olmuşlar və əzəli [Allahın] qayğısı onun müzəffər bayraqlarını hər savaş meydanında yüksəltmişdir. Səadət və uğur ənqası, qalibiyyət və cah-cəlal hümayı onun kölgəsində yuva etmişdir. Qeyri-məhdud qoşunlarla və uzun bayraqlarla hansı tərəfə üz tutmuşsa, ibadət olunan həzrət (Allah) fəth qapılarını onun üzünə açmışdır. Şirvan padşahı Bürhanla, Əli paşa ilə, Əhməd paşa ilə, İsgəndər paşa ilə döyüşlər o həzrətin (İsmayıl mirzənin) bahadırlığına [dair] dörd ədalətli şahiddirlər. Bunları inkar etmək mümkün deyildir. Əgər, Allah eləməmiş, o həzrət səltənət taxtına oturmasa, qızılbaş ordusu çobansız sürüdən və yağışsız tarladan daha betər zay olacaqdır və illərdir belə bir günün arzusunda olan həsədçilər və qəsdçilər İran şəhərlərinə qəsd edəcəklər. Onlar [isə] cəhalət və qürur üzündən dedilər:

- Bu diyardan ta Qəhqəhə qalasına qədər məsafə uzaqdlr. Sultan Heydər [isə] bəla əlamətli ordu ilə paytaxtdadır. O, gəncliyinin çiçəklənmə dövrünü yaşayan ağıllı və səadətli bir cavandır. Nisyə xəyal ilə hazır nağdı əldən vermək və xəyali mövcudluğu zahiri mövcudluqdan üstün saymaq son dərəcə ağılsızlıqdır. Elçilər dedilər:

- [İsmayıl mirzənin] dostlarını himayə etmək qüvvəti və düşmənlərini cəzalandırmaq qüdrəti məlumdur.

Əgər müxaliflik çöhrəsi düşmənçilik dırnağı ilə cırılarsa, o həzrətin qəzəb dənizinin dalğaları elə təlatümə gələr ki, əmin-amanlıq və salamatlıq gəmiləri cahanda yoxa çıxar" (193).

"Tarix-i aləmara-yi Abbasi"nin məlumatına görə isə, Heydər Mirzənin dəstəkləyən qüvvələr kifayət qədər gücə malik idilər. Bu qüvvələr şübhə etmirdi ki, divanxanaya hücum etməklə Heydər Mirzəni şahlıq taxtına otuzdura biləcəklər. Yəni onlar hakimiyyət məsələsini silahlı yolla həll etməyə üstünlük verirdilər. O da bildirilir ki, Qəhqəhə qalasının hakimi artıq onların adamı idi və əmin idilər ki, Heydər Mirzə taxta çıxarılana kimi İsmayıl Mirzə həmin qaladan azad edilməyəcəkdir. Heydər Mirzənin hakimiyyət məsələsi rəsmiləşəndən sonra isə İsmayıl Mirzə haqqında hansı qərar veriləcəkdisə, həmin qərar da icra olunacaqdı. Başqa sözlə, Heydər Mirzə tərəfdarlarında belə bir əminlik var idi ki, şərait onların xeyrinədir və onlar öz məqsədlərinə nail ola biləcəklər. Amma bu dəstənin bəzi üzvləri silahla divanxana üstünə hücum çəkilməsini düzgün saymırdılar. Belələri deyirdilər ki, Heydər Mirzə saray daxilində onu istəməyən adamların girovudur. Əgər saray üzərinə hücum çəkilsə onda Heydər Mirzə onu istəməyən keşikçilər tərəfindən öldürülə bilərdi. Ona görə də saray üzərinə silahlı hücum təxirə salındı. Saray üzərinə silahlı hücum həm də, sufiliyə xilaf hesab edilirdi. Əvvəlcə təklif olundu ki, günün sonuna qədər səbir edilsin. Çünki günün sonunda saray keşikçilərinin növbəsi dəyişəcək və növbəti gün üçün keşikçiliyi Heydər Mirzəni dəstəkləyən ustaclı tayfasına həvalə olunacaqdı. Bununla da məsələ həll oluna bilərdi. Başqa bir təklif isə ondan ibarət oldu ki, İsmayıl Mirzənin toplaşdığı Hüseynqulu Xüləfanın evi üzərinə hücum edilsin və nə qədər ki, ora çoxlu qüvvə toplanmayıb İsmayıl Mirzənin oradakı tərəfdarlarına güclü bir zərbə vurulsun. Heydər Mirzənin tərəfdarları bu təklifi məqsədəuyğun saydılar (194).

Heydər Mirzənin adamlarının hücum edə biləcəyini Hüseynqulu Xüləfa da ehtimal edirmiş. Ona görə də o, çalışırdı ki, İsmayıl Mirzənin tərəfdarlarının toplaşması üçün vaxt qazansın və Heydər Mirzənin tərəfdarlarının diqqətini kəskin addımlar at-

maqdan yayındırsın. Buna görə də o, Şah Təhmasibin oğlu Sultan Mahmud Mirzənin adından ağsaqqal kimi tanınmış Budaq Rumlunu və Şahqulu sultan Təbətoğlu Zülqədəri Heydər Mirzə tərəfdarlarının yanına göndərdi. Həmin elçilər Heydər Mirzənin tərəfdarlarına belə bir ismarıc çatdırdılar: «Gəlin, ikitirəlikdən əl çəkək, hamımız bir-birimizlə ittifaq edib, əvvəlcə qəm libasını geyinərək, cənnətməkan şahın təziyəsinin vacibatını və onun mübarək cəsədinin yuyulub kəfənə tutulmasını yerinə yetirək. Ondan sonra isə ağsaqqalların hamısı birlikdə oturub sülh və fəsad məsələlərini və hər iki təbəqənin arzu və istəklərini öz aramızda müzakirə edərək, dinin və dövlətin mənfəəti baxımından nə məsləhət olarsa, dinin və dövlətin mühafizəsini bu iki şahzadədən hansı daha yaxşı yerinə yetirə bilərsə və [şahlığa] daha layiq olarsa, onu padşah seçərik» (195).

Bu danışıqlar gözlənilən nəticəni vermədi. Onda Hüseynqulu Xüləfa başqa bir vasitəyə əl atdı ki, İsmayıl Mirzə tərəfdarlarının toplanmasına və güclənməsinə vaxt qazansın. O bir nəfəri Qəzvindən kənara göndərdi və ona tapşırdı ki, bir müddətdən sonra özünü tələsik bir şəkildə şəhərə çatdırsın və insanların gur yerində elan etsin ki, İsmayıl Mirzə şəhərə yaxınlaşmaqdadır. Həmin adam da belə etdi. Sözünün doğruluğuna inam yaratmaq üçün həmin adam şəhər kənarında atını o tərəf-bu tərəfə çapdı ki, atı tərləmiş vəziyyətdə olsun. Yəni şəhər camaatı inansın ki, o, doğrudan da uzaqdan gəlir. Sonra da şəhərə daxil olub insanlara belə bir şayiəni çatdırdı ki, İsmayıl Mirzə yaxınlaşmaqdadır. Şəhər daxilində belə bir məlumat yayıldı ki, guya Şah Təhmasib ölümündən 12 gün qabaq Qəhqəhə qalasına adam göndərmiş və onu saraya dəvət etmişdi. Başqa sözlə belə bir təsəvvür yaradılırdı ki, Şah Təhmasib özündən sonra hakimiyyətin ona keçməsini istəyirdi və ona görə də İsmayıl Mirzənin ardınca adam göndərmişdi. İsmayıl Mirzə də atasının tələbi əsasında artıq gəlməkdədir və az müddətdən sonra şəhərə daxil olacaqdır. “Tarix-i aləmara-yi Abbasi” müəllifi yazırdı ki, şəhər əhalisi arasında bu şayiənin doğruluğuna inananlar çox oldu. İsmayıl Mirzənin hakimiyyət başına gəlməsini istəyənlər isə bu xəbəri eşidəndən

sonra Hüseynqulu Xüləfanın ətrafına toplaşmağa başladılar. Nəticədə Hüseynqulu Xüləfanın evinin ətrafında böyük bir qələbəlik yarandı. Heydər Mirzənin tərəfdarları da əvvəlcə bu xəbərin doğruluğuna inandılar və ona görə Saray üzərinə silahlı hücum edilməsi təxirə salındı. Hətta Heydər Mirzənin hakimiyyətə gəlməsinin tərəfdarları olan bir sıra adamlar öz mövqelərini dəyişdilər və İsmayıl Mirzənin düşərgəsinə qoşuldular. Heç bir düşərgəyə qoşulmayıb gözləmə mövqeyindən olan bəzi nüfuzlu əmirlər, o cümlədən Heydər sultan, Çabuq Türkman və möhürdar Məhəmmədqulu Zülqədər də İsmayıl Mirzəni dəstəkləyənlərə qoşuldular. Onlar da Hüseynqulu Xəlifənin evinə gəldilər. Lakin günün sonunda məlum odu ki, İsmayıl Mirzənin gəlişi ilə bağlı yayılan xəbər şayiədir və onun yayılmasının təşəbbüskarı da Hüseynqulu Xüləfadır (196).

Heydər Mirzə tərəfdarları vaxt itkisi ilə qarşılaşmalı olsalar da günün sonunda qətiyyətli addım atmağa çalışdılar. Günün sonunda saray mühafizəçilərinin yeni növbəsi keşik vəzifəsini təhvil almalı idi. Bu dəfə növbəni ustaclı tayfasından olan qorçular təhvil almalı idilər. Heydər Mirzə tərəfdarlarına rəhbərlik edən Hüseyn bəy Yüzbaşı əmin idi ki, ustaclı tayfasından olan qorçular sakit şəkildə saraya daxil olaraq oraya nəzarəti əllərinə ala biləcəklər. Ona görə də axşam tərəfi Hüseyn bəy Yüzbaşı və onun ətrafına toplaşanlar atlanaraq saraya doğru hərəkətə başladılar. Onlarda belə bir inam var idi ki, şahlıq taxtına doğru hərəkətə başlayıblar və saraya daxil olmaqla Heydər Mirzənin hakimiyyətinin bərqərar olmasına nail olacaqlar. Heydər Mirzənin qardaşı Sultan Mustafa Mirzə də bu dəstənin tərkibində idi. Amma bəzi əmirlər bu dəstədən ayrıldılar və evlərinə yollandılar. Onların arasında Bəhram Mirzənin oğlu Sultan İbrahim Mirzə və həmçinin dövrünün nüfuzlu əmirlərindən sayılan Allahqulu sultan Ayçəkoğlu da var idi. Hələ saraya çatmamış Hüseyn bəy Yüzbaşı və onun ətrafında olanlar silahlı müqavimətlə qarşılaşdılar. Hüseyn bəy Yüzbaşı inandırmağa çalışdı ki, o və ətrafındakılar saraya keşik çəkməyə gedirlər və onların heç kimlə işləri yoxdur. Lakin dəstə saraya yaxınlaşanda darvazalar onların üzünə açıl-

madı. Belə olanda Hüseyn bəy Yüzbaşı başa düşdü ki, sarayın Heydər Mirzə tərəfdarlarından qorunması üçün ciddi işlər görülübdür və onlar öz məqsədlərinə heç də asanlıqla nail ola bilməyəcəklər (197).

İsmayıl Mirzənin tərəfdarları eşidəndə ki, Hüseyn bəy Yüzbaşı ətrafındakı dəstə ilə saraya doğru hərəkət edib onlar da oxşar addım atmağı qərar aldılar. Əks təqdirdə Heydər Mirzə şah elan edilməklə sarayda möhkəmlənə bilərdi. Ona görə Hüseynqulu Xüləfa da İsmayıl Mirzənin tərəfdarları ilə birlikdə saray yaxınlığındakı tövlə meydadına doğru hərəkətə başladı. “Əhsənüt- təvarix” əsərində İsmayıl Mirzənin tərəfdarlarının elçilərinin Heydər Mirzə tərəfdarları ilə apardıqları danışıqlardan sonra baş verən proseslər belə təsvir edilmişdir: “Amma [bu nəsihətlərin] bir faydası olmadı. Çünki [Sultan Heydər tərəfdarları] mənsəb-məqam şərabından elə məst olmuşdular ki, düz yolla quyu dibini bir-birindən ayıra bilmirdilər və xeyiri şərdən, faydanı zərərdən fərqləndirməyi bacarmırdılar. Onların beyin qəsrinə qürur küləyi yol tapmışdı. Onlar aləm sakinlərinin hökmdarının (İsmayıl mirzənin) nemət və ehsan səhifələri üzərinə unutqanlıq və nankorluq xəttini çəkib, Firon kimi “Məgər Misir səltənəti, altımdan (saraylarımın altından) axıb gedən bu çaylar mənim deyilmi?!” [*Qurani-Kərim, “Zuxruf” surəsi, 51-ci ayə*] deyərək üsyan və tüğyan təbilini döyəclədilər, yola düşdülər. Sülh və asayiş ümidi ətək kimi ayaq altına düşdü. İşi [sülhlə] yoluna qoymaq mümkün olmadı. Elçilər muradlarına və məqsədlərinə yetmədən o mərdimazar qövmün yanından qayıdıb, [İsmayıl mirzə tərəfdarı olan] əmirlərin hüzuruna gəldilər. Onlar bildilər ki, bu müşkül iş qılıncın kəsici bəyanından savayı heç nə ilə həll edilməyəcəkdir və iti xəncəri sıyırmadan bu hadisəni dəf etmək mümkün olmayacaqdır. Ona görə də döyüşə və vuruşa hazır oldular. Ordunun tərtib edilməsindən və bahadırların mükəmməl olmasından sonra dağı və səhranı bürüyən, səbanın nəfəsini qəzanın sinəsində sındıran, Yəcuc və Məcuc səflərindən daha artıq, bürclərdəki ulduzların sayından daha çox bir qoşunla dövlətxanaya tərəf yola düşdülər. ... Bəziləri ilan kimi zireh geyinmiş və bir qismi balıq

kimi cövşən qurşanmışdı. Hamısı əjdaha şəklində müharibə zəminində qıvrılan, səməndər kimi döyüş atəşinə bürünən, nəhəng görkəmli, çevik ahəngli, tez hərəkətli, pələngə həmtay şikar tutan və çox çalışqan, aslana bənzər davakar və döyüşkən, bəbir mislində qan tökən və tünd xasiyyətli, kərgədan kimi həmlə edən, atəş kimi coşan, fil kimi güclü, ildırım kimi yara vuran və şimşək kimi gurlayan idilər. Sarsaqoğlu Hüseyn bəy Yüzbaşı və bir dəstə şamlu qorçusu müzəffər əsgərlərdən öncə yola düşdülər. Xüləfa ilə çoxsaylı qazilər adlı-sanlı əmirlərlə ittifaqda bir dəfəyə özlərini tövlə meydanına saldılar. O meydanın səthi döyüşkən süvarilər və tüfəngçi piyadalarla dolub-daşdı. Zireh geymiş süvarilərin əlindən meydan dəmir hasara döndü və cövşənlərin ucbatından savaş məkanı sıx halqalı zirehin səthi kimi polad geyimli oldu" (198).

Hüseyn bəy Yüzbaşı da öz növbəsində İsmayıl Mirzənin tərəfdarlarının saray yaxınlığına gəlib toplaşmalarından xəbər tutdu. Ona görə də o çalışdı ki, Heydər Mirzənin taxta çıxarılmasını tezliklə həll etsin və İsmayıl Mirzəyə hər hansı bir şans saxlanmasın. Hüseyn bəy Yüzbaşı və onun ətrafında olanlar həm də ehtiyat edirdilər ki, İsmayıl Mirzənin tərəfdarları daha tez divanxanaya daxil olmaqla Heydər Mirzənin həyatına son qoya bilərlər. Bununla da onların bütün səyləri nəticəsiz qalmış olar. Belə olanda Heydər Mirzə tərəfdarları əllərindəki nacaqlarla saray qapılarını sındırmağa və sonra da saray daxilində var-gəl edib Heydər Mirzəni axtarmağa başladılar. İsmayıl Mirzənin tərəfində olan qorçular sarayın daxili qapılarını da qıfıllayaraq Heydər Mirzəyə aparan bütün yolları qapamışdılar. Heydər Mirzə özü isə hərəmxanada oturaraq taleyinin necə həll olunacağını gözləyirdi. O, hərəmxanadan çıxaraq tərəfdarları ilə birləşməyə bir cəhd göstərsə də, bağlı olan qapılardan kənara çıxa bilmədi. Heydər Mirzə də artıq başa düşməyə başladı ki, İsmayıl Mirzənin tərəfdarlarının girovunda qalması və onların saray üzərinə hücuma hazırlaşması onun həyatı üçün ağır nəticələrə gətirib çıxara bilər. Bununla belə, yenə ümid edirdi ki, saraya hücum edənlər hərəmxanaya girməyə cəsarət etməzlər. Ona görə Heydər Mirzə ana-

sının yanında qaldı ki, bəlkə bununla öz həyatını xilas edə bilsin. “Əhsənüt-təvarix”in yazdığından belə bir qənaətə gəlmək olar ki, Heydər Mirzənin tərəfdarları arasında daha qətiyyətli addımların atılması üçün ümumi bir fikir birliyi yox idi. Qeyd olunur ki, gürcü rəisləri, Həmzə bəy Talış, Əli xan Gürcü və Zal xan Gürcü kimi bəzi əmirlər yenidən Hüseyn bəy Yüzbaşı ilə məsləhətləşməyə başladılar. Amma Hüseyn bəy Yüzbaşı və onun ətrafında olan bəzi əmirlər bəyan etdilər ki, bu məsələdə qətiyyətsizliyə yol verilməməlidir, Heydər Mirzə şahlıq taxtına oturdulmalı və bununla da işlər yekunlaşdırılmalıdır. Bu sözlərdən sonra onlar saray darvazaları üzərinə hücum çəkdilər. Adı çəkilən mənbənin məlumatına görə, Bəhram Mirzənin oğlu Sultan İbrahim Mirzə də qan tökülməsinin və tərəflər arasında düşmənçilik başlanmasının əleyhinə olduğun bildirdi. Amma Hüseyn bəy Yüzbaşı onun da sözünü qəbul etmədi və saray darvazaları üzərinə hücum başladı. Belə hücumun qarşısının alınması üçün saray daxilində olan mühafizəçi qorçular lazımi hazırlıq görmüşdülər. Qüvvələrinin az olduğu üçün onlar əsas diqqəti müdafiənin gücləndirilməsinə yönəldilər. Saray qapıları Heydər Mirzə tərəfdarları tərəfindən sındırılanda mühafizəçilər əllərinə keçən vasitələrlə hücum edənlərin qarşısnı almağa çalışırdılar. Hətta bəzi qapıların arxasında sütunlar və başqa əşyalar toplanmışdı ki, irəli hərəkət etmək mümkün olmasın. Bir qapını keçə bilməyəndə Heydər Mirzə tərəfdarları digər qapıya yönəldilər. Hər tərəfdə onlar mühafizəçilərin oxları və tüfəng atəşləri ilə qarşılaşdılar. Heydər Mirzənin tərəfdarları arasında ölən və yaralananlar da oldu. Ona görə də onların cəhdləri bir nəticə vermədi və özlərini Heydər Mirzəyə yetirə bilmədilər (199).

Saray daxilində tərəflər arasında çox gərgin bir döyüş başladı. Şübhə yox idi ki, qarşıya qoyulan məqsədə yalnız amansız mübarizə ilə nail olmaq mümkündür. Məlumdur ki, bu döyüşün gedişində Heydər Mirzə tərəfdarlarının fəallığı qarşı tərəfin daha qətiyyətli addımlar atmasına səbəb olmuşdu. Ona görə də Hüseynqulu Xüləfa ətrafına toplananlardan bir dəstəni saray daxilinə göndərdi ki, oradakı qorçulara kömək etsin. Həmin dəs-

tənin əsasını zülqədər qorçuları təşkil edirdi. Amma bu dəstənin gəlişi də saray daxilindəki vəziyyətə ciddi bir dəyişiklik gətirmədi. Belə olanda Hüseynqulu Xüləfa rəhbərliyi altında olan bütün dəstə ilə hərəm bağçasına doğru hərəkətə başladı və “Əhsənüt-təvarix”in məlumatına görə, bununla da Heydər Mirzənin taleyi həll edilmiş oldu. Heydər Mirzə hərəmxana xanımları arasında gizlənib həyatını xilas etməyə çalışsa da, İsmayıl Mirzə tərəfdarları onu tapdılar və qətlə yetirdilər (200).

Heydər Mirzənin qətli səhnəsi “Tarix-i aləmara-yi Abbasi” əsərində belə təsvir edilmişdir: “Sultan Heydər ona müxalif olanların hücum etdiklərini gördükdə hərəmxanadan çıxmaq istəsə də, qapıları bağlı və dər-divarı özünə müxalif görüb, bayıra yol tapmayaraq, yenidən [hərəmxananın] içərisinə getdi və anasının yanında oturdu. O, ümid edirdi ki, qızılbaşlar şah hərəminin hörmətini saxlayaraq içəri girməzlər və öz adamları gəlib çatanadək o, bir qədər özünü orada hifz edə bilər. Amma o bilmirdi ki, sədaqət sahiblərinin həyatının bəxtəvərlik qayəsi olan hərəm bağçasına girmiş süvarilər dəstəsi ədəb-ərkana riayət etməyəcəkdir. O camaat öz ayaqlarını ədəb dairəsindən kənara çıxarıb, hərəmxanaya və qadınların arasına gəldilər və onu (Sultan Heydər mirzəni) tələb etdilər. Başqa bir əlacı olmayan şahzadə qadın libası geyinərək, öz anası, kənizlər və qadınlarla bərabər evdən bayıra çıxıb, digər bir evə getməyə başladı. Deyilənə görə, hərəm eşikağasıları zümrəsindən olan Əli bəy Şamlu onu tanıyıb işarə etdi ki, sizin axtardığınız [şəxs] budur. Sultan Süleyman mirzənin qulamı Cəmşid bəy Çərkəz və yüzbaşı Vəlixan bəy Rumlu [Sultan Heydər mirzənin] üzərinə atılaraq, onu tutub gətirdilər. Xüləfa və Şamxal sultan dərhal onun qətlinə göstəriş verdilər. Tanrıdan bixəbər olan həmin iki nəfər (Cəmşid bəy Çərkəz və Vəlixan bəy Rumlu) ona nəcəq, qılınc və xəncər vuraraq, səadət gülşənində boy atıb inkişaf etmiş və yanından səba küləyinin belə əsməyə macalı olmamış o səltənət bağçasının sərvini yerə sərdilər. Elə həmin andaca onun çərxi-fələyin çənbərində əyilməmiş mübarək başını bədənindən ayırdılar və şahzadə [Sultan Heydər mirzənin] dayısı Əlixan bəy Gürcü, Zal bəy Gürcü və şahzadənin

digər fədailəri qapıları sındırıb, «Şah Heydər» deyə-deyə və nərə çəkə-çəkə hərəmxana qapısının yaxınlığına çatdıqda həmin başı eyvanın damından həmin dəstənin üzərinə tullayıb bağırdılar: «Budur sizin padşahınızın başı» (201).

Bununla, hakimiyyət məsələsi də həll edilmiş oldu. İsmayıl Mirzənin tərəfdarları onun ardınca Qəhqəhə qalasına yollandılar. Heydər Mirzənin tərəfdarları olanlar isə uğursuzluğa düçar olduqdan sonra bir-bir qətlə yetirildilər

## 7.İstifadə olunmuş mənbə və ədəbiyyat


1.Şeyx Səfi təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi. Tərtibçilər: Möhsün Nağısoylu, Sevər Cabbarlı və Rauf Şeyxzamanov. Bakı, Nurlan, 2006, s. 8

2. Qali-ye Şeyx Səfi. / http://ardebilnews.comقالي-شيخ-صفي/

3. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s, 42

4. Yenə orada, s. 77

5. Yenə orada, s. 121, 126

6. Yenə orada, s. 25, 35

7. Azərbaycan tarixi. III cild. Bakı, 1999, s.312

8. Nəzm parçalarına bax: Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s,14, 31, 21, 51, 47, 74

9. Hüseyni Qumi. Xülasət-təvarix. C.I, Tehran, 1359, s. 598

10. Yenə orada, s. 598-599

11. Yenə orada, s. 600

12. Azərbaycan tarixi. III cild. Bakı, 1999, s.309

13. Yenə orada

14. Əbdi bəy Şirazi. Təkmilətül-əxbar. Tərcüməsi Ə.Rəhimlinindir.Bakı, 1996, s.119-122

15. Xurşah. Tarix-e elçi nizam şah. Tehran, 1379, s. 199-201

16. Qəzvini, Əbdülhəsən.Fəvayed-e Səfəviyye. Tehran, 1367, s. 29-31

17. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonı, 2017, s. 640-641

18. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.101
19. Yenə orada, s. 101-102
20. İsfahani. Xolde-bərin. Tehran, 1372, s. 396-399
21. Venesiyalılar Şah Təhmasibin sarayında. İngilis dilindən tərcümə O.Əfəndiyevindir. Bakı, 2005, s. 2005, s. 93
22. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi. Tərcümə edənlər – Oqtay Əfəndiyev və Namiq Musalı. I cild. Bakı, 2009, s.229-231
23. Danişpejvə M. Ayinname-ye Şah Təhmasib// Məcəlle-ye bərrəsiha-ye tarixi. N-1, 1351, s. 137-138
24. Venesiyalılar Şah Təhmasibin sarayında, s. 84-85
25. Danişpejvə M. Ayinname-ye Şah Təhmasib/ Məcəlle-ye bərrəsiha-ye tarixi. N-1, 1351, s. 131-132
26. Yenə orada, s. 130
27. Venesiyalılar Şah Təhmasibin sarayında, s. 2005, s. 85
28. Rumlu H. Əhsənüt-təvarix, s. 597, 603-607, 608, 617
29. Venesiyalılar Şah Təhmasibin sarayında, s. 85-86
30. Danişpejvə M. Ayinname-ye Şah Təhmasib/ Məcəlle-ye bərrəsiha-ye tarixi. N-1, 1351, s. 136-137
31. Venesiyalılar Şah Təhmasibin sarayında, s. 90
32. Danişpejvə M. Ayinname-ye Şah Təhmasib// Məcəlle-ye bərrəsiha-ye tarixi. N-1, 1351, s. 134
33. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s, 100
34. Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 77.
Book/et.pnuazion.ir/1395/03/tarix-təməddon-və-fərhəng-səfəvi
35. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s. 272
36. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s. 270
Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 78
Həsəni Ə. Amuzeşha-ye nəzəri dər əsr-e Səfəvi, s. 155// Olum-e insani, N-52, 1385, s. 153-168
37. Həsəni Ə. Amuzeşha-ye nəzəri dər əsr-e Səfəvi, s. 155
38. Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 79

Həsəni Ə. Amuzeşha-ye nəzəri dər əsr-e Səfəvi, s. 163
39. Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 80
40. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s. 273
Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 80
41. Kazımi P. Səfəvilər dövründə Azərbaycanda kitabxana işi. Bakı, 2008, s. 62
42. Yenə orada, s. 60-61
43. Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 86-87
44. Yenə orada, s. 89
45. Kazımi P. Səfəvilər dövründə Azərbaycanda kitabxana işi. Bakı, 2008, s. 89
46. Yenə orada, s. 65-67
47. Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 91
48. Rumlu H. Əhsənüt-təvarix, s. 526
49. Yenə orada, s. 527
50. Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 98
51. Rumlu H. Əhsənüt-təvarix, s. 588
52. Yenə orada, s. 592
53. Yenə orada, s. 594-595
54. Yenə orada, s. 609
55. Yenə orada, s. 616
56. Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 139
57. Yenə orada, s. 143
58. Yenə orada, s. 143-144
59. Rumlu H. Əhsənüt-təvarix, s. 521, 536
60. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.298
61. Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 148
62. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s. 251
63. Yenə orada
64. Firudin bəy. Mənşəati səlatin, II cild, s. 36-37
Baharlı M. Moşaereyi torki Şah Təhmasib ba Sultan Süleyman Qanuni

http://sozumuz1.blogspot.com/2015/12/blog-post_18.html
65. Çınarçı M. Söz meydanında iki hökmdar: Kanuni Sultan Süleyman ve Şah Tahmasbın muşairesi, s. 206// Türk okulu dergisi, N-XXIII, 2015, s. 187-210
Kesik B. Kanuninin Şah Tahmasbın qazeline cevabı, s. 205//Sosyal bilimler dergisi, N-2, 2005, s. 203-210
66. Baharlı M. Moşaereyi torki Şah Təhmasib ba Sultan Süleyman Qanuni
http://sozumuz1.blogspot.com/2015/12/blog-post_18.html
Çınarçı M. Söz meydanında iki hökmdar: Kanuni Sultan Süleyman ve Şah Tahmasbın muşairesi, s. 206
67. Çınarçı M. Söz meydanında iki hökmdar: Kanuni Sultan Süleyman ve Şah Tahmasbın muşairesi, s. 207
68. Şah Təhmasibin qəzəlinin şərhi ilə bağlı bax: Kesik B. Kanuninin Şah Tahmasbın qazeline cevabı, s. 205-206
Baharlı M. Moşaereyi torki Şah Təhmasib ba Sultan Süleyman Qanuni
http://sozumuz1.blogspot.com/2015/12/blog-post_18.html
69. Baharlı M. Moşaereyi torki Şah Təhmasib ba Sultan Süleyman Qanuni
http://sozumuz1.blogspot.com/2015/12/blog-post_18.html
Kesik B. Kanuninin Şah Tahmasbın qazeline cevabı, s. 205
70. Sultan Süleymanın qəzəlinin şərhi ilə bağlı bax: Kesik B. Kanuninin Şah Tahmasbın qazeline cevabı, s. 207
Baharlı M. Moşaereyi torki Şah Təhmasib ba Sultan Süleyman Qanuni
71. Çınarçı M. Söz meydanında iki hökmdar: Kanuni Sultan Süleyman ve Şah Tahmasbın muşairesi, s. 207
72. Bax: Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 4
73. Rəhimov Ə. "Şah Təhmasibin təzkirəsi" (Bakı, 1996) kitabına müqəddimə, s. 5-6.
74. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s. 82-83
75. Rəhimov Ə. "Şah Təhmasibin təzkirəsi" (Bakı, 1996) kitabına müqəddimə, s. 8
76. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.15-16

77. Əliməhəmmədi Z. Təhmasib be rəvayət-e Təhmasib, s.104//Ketab-e mah. Tarix və coğrafiya, N-133, 1388, s. 103-109
78. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.36, 38, 71-72
79. Nağısoylu M. XVI əsr Azərbaycan tərcümə əsəri “Kəvamilüt-təbir”. Bakı, 2011, s. 44
Nağısoylu M. Ana dilimizin dəyərli yazılı abidəsi, s.8/ Şeyx Səfi təzkirəsi. “Səfvətüs-səfa”nın XVI əsr türk tərcüməsi. Bakı, 2006, s. 3-22
80. Nağısoylu M. XVI əsr Azərbaycan tərcümə əsəri “Kəvamilüt-təbir”. Bakı, 2011, s. 46
81. Nağısoylu M. XVI əsr Azərbaycan tərcümə əsəri “Kəvamilüt-təbir”. Bakı, 2011, s. 44
82. Yenə orada, s. 46-47
83. Yenə orada, s. 50
84. Təmimdari Ə. Ürfan və ədəb dər əsr-e Səfəvi. Bəxş-e əvvəl. Tehran, 1372, s. 141
85. Şeyx Səfi təzkirəsi, s. 30
86. Şeyx Səfi təzkirəsi, s. 32
87. Yenə orada, s. 28-29
88. Nağısoylu M. XVI əsr Azərbaycan tərcümə əsəri “Kəva-milüt- təbir”. Bakı, 2011, s. 6
İbrahimov A. “Xəridətül-əcaib və fəridət əl-qəraib” abidə-sinin tərcümə xüsusiyyətləri, s.48//Bakı Universitetinin xəbərləri, 2008, N-2, s. 48-57
89. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s. 259-261
Cabbarlı N. Mühacirət və klassik ədəbi irs. Bakı, 2003, s. 88
Azərbaycan klassik ədəbiyyatından seçmələr. II cild, Bakı, 2005, s. 20
90. Bəhram Mirzə Səfəvi. http://wikifeqh.ir/بهرام_میرزای_صفوی
Bəhram Mirzə Səfəvi. http://lib.eshia.ir/23022/13/5261
Pərixan xanım, zən-e siyasətmədar və qüdrətmənd-e Səfəvi. http://khiaraji.blogfa.com/post/492

Əlqas Mirzə Səfəvi.
http://dictionnaire.sensagent.leparisien.fr/ميرزا20%القاس/fa-fa/
Sam Mirzə Səfəvi.
https://rasekhoon.net/mashahir/show/585648/
Musalı V. Azərbaycan təzkirəçilik tarixi. Bakı, 2012, s. 188
91. Tərbiyət M. Danişməndan-e Azərbaycan. Tehran, 1377, s.52
91a. Əlizadə Ə.,Baqirnejad P. Sultan İbrahim Mirzaye Səfəvi, divan və səbk-e şairi-ye u,s.215//Səbkşenasi-ye nəzm və nəsr-e farsi N-4, 1392, s.213-223
92. Tərbiyət M. Danişməndan-e Azərbaycan. Tehran, 1377, s. 53-54
93. Bax: Kərimov P. Şah İsmayıl Xətayinin nəvəsi İbrahim Mirzənin ana dilində şerləri. "Azərbaycan" jurnalı, N-1, 2010, s. 184-189
94. Danişpejvə M. Yek pərde əz zendeqani-ye Şah Təhmasib, s. 990//Məcəlle-ye daneşkəde-ye ədəbiyyat və olum-e insani, N-4, s. 915-998
95. Musalı V. Azərbaycan təzkirəçilik tarixi. Bakı, 2012, s. 99
96. Təvəkkolifərd F. Moərrəfi, bərrəsi və təhlil-e təzkire-ye Töhfe-ye Sami, s. 43//Ayene-ye miras, N.51, s. 43-77
Cığatayi S. Asibşenasi və tövsif rəhyaftha-ye nəğdi dər təzkire-ye Töhfe-ye Sami, s.42//Kohənname-ye ədəb-e farsi, N-2, 1394, s. 41-63
97. Töhfe-ye Sami. Təəlif-e Sam Mirza-ye Səfəvi. Tehran, 1314, s.6-21
98. Yenə orada, s. 22
99. Təvəkkolifərd F. Moərrəfi, bərrəsi və təhlil-e təzkire-ye Töhfe-ye Sami, s. 53
100. Yenə orada, s. 58
101. Töhfe-ye Sami. Təəlif-e Sam Mirza-ye Səfəvi. Tehran, 1314, s.119, 128, 139, 142
102. Braun E. Tarix-e ədəbiyyat-e İran. Əz ağaz-e əhd-e Səfəviyye ta zaman-e hazır. IV cild, Tehran, 1316, s.35
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 872

103. Səvaqeb C. Tarixneqari-ye əsr-e Səfəviyye və şenaxt-e mənabe və məəxəz. Tehran, 1380, s. 26-56
Mohəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015, s.28-45
104. Danişpejvə M. Yek pərde əz zendeqani-ye Şah Təhmasib, s. 967-993//Məcəlle-ye daneşkəde-ye ədəbiyyat və olum-e insani, N-4, s. 915-998
105. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.312
106. Kazımi P. Səfəvilər dövründə Azərbaycanda kitabxana işi. Bakı, 2008, s.74-75
Tarix-e təməddon və fərhəng-e Səfəvi, s.183-184
107. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 300-306
108. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.299
Ajənd. Nizaməddin Sultan Məhəmməd ki bud? http://nihoor.blogfa.com/post/30
109. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014, s. 181
110. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.307
111. Yenə orada, s. 306-311
112. Şateri M., Əhmədtəcri P. Motaleat-e təsirpəziri-ye neqareha-ye Şahname-ye Təhmasibi əz təğyir-e məzhəb dər dövre-ye Səfəvi, s.48//”Negəre”, N-42, 1396, s. 47-62
113. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.307
114. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s.287
Sultan Məhəmməd. http://portal.azertag.az/az/encyclopedia/post/6745
Sultan Məhəmməd. https://az.wikipedia.org/wiki/Sultan_Məhəmməd
115. Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 189

116. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s.287

Kərimi Ş. Nəqd-e elmi-ye neqare-ye cəşn şode dər Şahname-ye Şah Təhmasibi, s.4 //Rəvayet-e tarix, N-1, 1395, s.1-16

İzədi A., Xəzayi M., Purmənd H. Baznəmayi-ye qızılbaşha dər neqareha-ye Şahname-ye Təhmasibi, s. 45//Nəşriye-ye hönərha-ye ziba- honərha-ye təcəssomi, N-4, 1396, s. 43-52

117. Şateri M., Əhmədtəcri P. Motaleat-e təsirpəziri-ye neqareha-ye Şahname-ye Təhmasibi əz təğyir-e məzhəb dər dövre-ye Səfəvi, s.49

Tarix-e təməddon və fərhəng-e Səfəvi, s. 189

118. Şateri M., Əhmədtəcri P. Motaleat-e təsirpəziri-ye neqareha-ye Şahname-ye Təhmasibi əz təğyir-e məzhəb dər dövre-ye Səfəvi, s.49

119. Şateri M., Əhmədtəcri P. Motaleat-e təsirpəziri-ye neqareha-ye Şahname-ye Təhmasibi əz təğyir-e məzhəb dər dövre-ye Səfəvi, s.50

Алиева-Кенгерли А.И., Эфендиев А.Ф. История создания «Шахнаме-йе шахи» - уникального произведения книжного искусства, с. 274-275/ Библиотеки национальных академий наук: проблемы функционирования. 2014. Вып. 12, с.274-282

Əhmədiniya M.C. Neqareha-ye Şahname-ye Təhmasibi: Əz Harvard ta Fərhəngestan-e honər, s. 42-43//Fəsilname-ye nəqd-e ketab, N-1-2, 1393, s.37-54

120. İzədi A., Xəzayi M., Purmənd H. Baznəmayi-ye qızılbaşha dər neqareha-ye Şahname-ye Təhmasibi, s. 46-50

Şateri M., Əhmədtəcri P. Motaleat-e təsirpəziri-ye neqareha-ye Şahname-ye Təhmasibi əz təğyir-e məzhəb dər dövre-ye Səfəvi, s.51-56

121. İzədi A., Xəzayi M., Purmənd H. Baznəmayi-ye qızılbaşha dər neqareha-ye Şahname-ye Təhmasibi, s.51

122. Şateri M., Əhmədtəcri P. Motaleat-e təsirpəziri-ye neqareha-ye Şahname-ye Təhmasibi əz təğyir-e məzhəb dər dövre-ye Səfəvi, s.55-58
123. Sultan Məhəmməd.
http://portal.azertag.az/az/encyclopedia/post/6745
Sultan Məhəmməd.
https://az.wikipedia.org/wiki/Sultan_Məhəmməd
124. Azərbaycan dahisi Sultan Məhəmməd. http://qadinla.com/cemiyyet/tarixden/100731-azerbaycan-dahileri-sultan-mehemmed.html
Sultan Məhəmməd.
http://portal.azertag.az/az/encyclopedia/post/6745
125. Qasemi H. Şahname-ye Şah Təhmasib. Şive-ye səhifearayi, s. 59//Ketab-e mah. Honər, Mehr, 1388, s. 56-61
126. Nədirlu M., Aşuri M., Xəzayi M. Bəyan-e təsviri dər asar-e Ağa Mirək nəqqaş, s.103 //Negəre, N-44, 1396, s. 98-112
127. Danişpejvə M. Yek pərde əz zendeqani-ye Şah Təhmasib, s.967
128. Qali-ye Şeyx Səfi. / http://ardebilnews.comقالي-شيخ-صفي/
Razha-ye qali-ye Ərdəbil. “Turizm” qəzeti, 2 tir 1395, N.540
129. Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
https://www.kojaro.com/2016/6/30/120164/sheikh-safiodin-ardebili/
130. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 232
131. Youssef Camali M.K. The life and personality of Shah İsmail. Thesis submitted for the degree of Doctor of Philosofy University of Edinburgh, 1981, p. 339, 344, 348
132. Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi. Tehran, 1349, s. 62-68
133. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.27
134. Cunabedi M.Rövzətüs səfəviyye. Tehran, 1378, s. 397-398
135. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.199-200

136. Şah Təhmasibin təzkirəsi. Bakı, 1996, s.33
137. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.51-53
138. Yenə orada, s. 76-77
139. Venesiyalılar Şah Təhmasibin sarayında, s.100
Musalı V. Azərbaycan təzkirəçilik tarixi. Bakı, 2012, s.98-99
140. Nəzm və nəsr-e Sam Mirzə. https://rasekhoon.net/mashahir/show/585648/
141. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.138-139
142. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.87
143. Yenə orada, s. 89-90
144. Rumlu H. Əhsənüt-təvarix, s. 549
145. Əlqas Mirzə. https://www.wikizeroo.org/index.php?q=aHR0cHM6Ly9mYS53aWtpcGVkaWEub3JnL3dpa2kv2KfZhNmC2KfYtV_ZhduM2LHYstin
146. Bəhram Mirza Səfəvi. http://lib.eshia.ir/23022/13/5261
Əbülfəth Bəhram Mirza-ye Səfəvi. https://rasekhoon.net/mashahir/show/583270/
147. Bəhram Mirza Səfəvi. http://lib.eshia.ir/23022/13/5261
148. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.337
149. Rumlu H. Əhsənüt-təvarix, s. 549
150. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.251-252
151. Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 675
152. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.610
153. Venesiyalılar Şah Təhmasibin sarayında, s.82
154. Aləmara-ye Şah Təhmasib. Tehran, 1370, s.234-235
155. Venesiyalılar Şah Təhmasibin sarayında, s.85
156. Yenə orada, s. 45
157. Yenə orada, s. 52-53
158. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.233-234
159. Venesiyalılar Şah Təhmasibin sarayında, s.83

160. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.233
161. Yenə də orada, s. 245-246
162. Venesiyalılar Şah Təhmasibin sarayında, s.83-84
163. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.246-247
164. Venesiyalılar Şah Təhmasibin sarayında, s.84
165. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.147-249
166. Yenə orada, s. 249-250
167. Pərixan xanım, zən-e siyasətmədar və qüdrətmənd. http://khiaraji.blogfa.com/post/492
Pərixan xanım. .http://azadamirkhizi.blogfa.com/post/336
168. Rumlu H. Əhsənüt-təvarix, s. 590
169. Rumlu H. Əhsənüt-təvarix, s. 619
İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.223
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 771
170. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.588
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 772
171. Venesiyalılar Şah Təhmasibin sarayında, s.84
172. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.223-224
173. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.589-590
174. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.224
175. Yenə orada, s. 225
176. Yenə orada, s. 226
177. Yenə orada
178. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.227
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 776

179. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.228
180. Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.593
Rumlu H. Əhsənüt-təvarix, s. 623
Astrabadi S. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s.93
181. Rumlu H. Əhsənüt-təvarix, s. 623
182. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.227-228
183. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s. 232
Astrabadi S. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s.93
184. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.231
Rumlu H. Əhsənüt-təvarix, s.623
Qazi Əhməd Qumi. Xülasüt-təvarix. C.I, Tehran, 1383, s.593
185. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.231
Rumlu H. Əhsənüt-təvarix, s.623
186. Rumlu H. Əhsənüt-təvarix, s.623
187. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.332
188. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.333
Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s. 788
189. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.333
190. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.334
Rumlu H. Əhsənüt-təvarix, s. 624
191. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.334
192. Yenə orada, s. 335
193. Rumlu H. Əhsənüt-təvarix, s. 624-625

194. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.336
195. Yenə orada
196. Yenə orada, s.  337
197. Yenə orada
198. Rumlu H. Əhsənüt-təvarix, s. 625
199. Yenə orada, s. 627-628
200. Yenə orada, s. 628
201. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi, s.338

# NƏTİCƏ

Şah Təhmasibin hakimiyyət illəri Azərbaycan Səfəvi dövlətinin tarixinin çox dəyərli səhifələrindən birini təşkil edir. Aparılan araşdırmalar da göstərir ki, bu tarix kifayət qədər zəngindir və onun bütünlüklə əhatə edilməsi davamlı və obyektiv tədqiqatların işıq üzü görməsi ilə mümkündür. Şah Təhmasibin şəxsiyyətinə və fəaliyyətinə çoxalmaqda olan marağa da bu yolla cavab vermək mümkündür.

Hakimiyyətə gələndə Şah Təhmasibin üzərinə məsuliyyətli bir vəzifə düşürdü. O, Şah İsmayıl tərəfindən əsası qoyulmuş Səfəvi dövlətinin mövcudluğunu qorumalı və bu dövlətin yeni səviyyədə inkişafına, onun mürəkkəb hərbi-siyasi bölgədə daha da möhkəmlənməsinə nail olmalı idi. Şah İsmayılın da istəyi bu idi və bu istəklə də o, dünyanı tərk etmişdi. Amma həyatının son günlərində Şah İsmayılda belə bir gizli nigarançılıq da var idi ki, kiçik yaşlarında olan Şah Təhmasib bu bir məsuliyyətli işin öhdəsindən gələ biləcəkmi? Şah İsmayıl özü də etiraf edirdi ki, türk-qızılbaş tayfalarının fədakar xidmətləri üzərində qurulmuş Səfəvi dövlətinin mövcudluğunu istəməyən qüvvələr də var idilər və onlar fəallaşmaq üçün məqam gözləyirdilər. Şah Təhmasibin kiçik yaşlarda olması və onun dövlətçilik təcrübəsinin azlığı belə qüvvələrin yenidən meydana atılmasına yol aça bilərdi.

Şah Təhmasib atasından qalma taxt-taca sahib olanda 10-11 yaşlarında idi. Amma elə bu yaşlarında da Şah Təhmasib müəyyən dövlətçilik təfəkkürünə malik idi və şübhə etmirdi ki, səltənətin qorunması ağırlığı indi onun üzərindədir. Bu tarixi məsuliyyətin qəbul ediməsi ondan uyğun siyasətin həyata keçirilməsini, səmərəli və qətiyyətli addımların atılmasını tələb edirdi. Yalnız bu yolla Şah İsmayıldan miras qalmış səltənəti qorumaq və onu daha da inkişaf etdirmək mümkün idi.

Şah Təhmasibin hakimiyyətə başlamasından sonra səltənət üçün ciddi təhlükə kənardan deyil, səltənətin qurulmasında və möhkəmlənməsində tarixi xidmətləri olan qızılbaş tayfalarından gəldi. Bəzi tayfa rəhbərlərinin daha yüksək məqam və mövqe

uğrunda mübarizəsi səltənət üçün ciddi təhlükəni ortaya qoydu. Doğrudur, bu mübarizəyə qoşulan tayfa rəhbərləri və əmirləri Şah Təhmasibin hökmdarlıq səlahiyyətlətini şübhə altına qoymurdular. Bununla belə, səltənətə dayaq olan qüvvələrin bir-birinə qarşı dayanmaları və barışmaz cinahlarda qərar tutmaları, onların daxili parçalanmalara yol açmaları dövlətçiliyə qarşı istiqamətlənmiş təhlükəli bir amilə çevrilmişdi. Kiçik yaşlarında olmasına baxmayaraq, Şah Təhmasib qarşısına çıxan bu ciddi sınağı dövlətçilik maraqlarından dəf edə bildi, yaş çərçivələrindən kənara çıxan müdriklik və məqsədyönlülük nümayiş etdirdi, özünü göstərən real təhlükəni səltənət üzərindən uzaqlaşdıra bildi. Bununla Şah Təhmasib yalnız öz potensialını deyil, həm də Səfəvi dövlətinin gücünü, qüvvəsini, onun yaşamaq haqqını ortaya qoydu. Şah Təhmasib eyni zamanda qızılbaş tayfaları arasında olan ziddiyətləri aradan qaldıra və bu tayfaların bütün gücünü dövlətin qorunmasına və inkişafına səfərbər edə bildi, mərkəzi hakimiyyətin dayanıqlığını uzun müddət üçün təmin etdi.

Şah Təhmasib 52 il ərzində Səfəvi dövlətinə hökmdarlıq etdi. O, ən qədim dövrlərdən başlayaraq bu günə kimi Azərbaycan tarixində yeganə adamdır ki, belə uzun bir müddətdə hakimiyyət başında olsun. 52 illik hakimiyyət sadəcə bir tarixi dövr deyil, həm də Səfəvi dövlətinin inkişafda olan bir dövrüdür. Şah Təhmasibin hakimiyyət illərində Səfəvi dövləti inkişafının yeni bir səviyyəsinə qalxdı. Bu tarixi dövr Şah İsmayıl tərəfindən əsası qoyulan Səfəvi dövlətçiliyinin dərin köklərə malik olduğunu, çox ciddi təcrübəyə əsaslandığını və inkişafda olan bir dövlətə çevrildiyini nümayiş etdirdi. Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi dövləti Şərqin qüdrətli dövlətləri ilə bir sırada qərar tutdu, real xarici təhdidlərdən özünü qorudu, Avropanın ən güclü dövlətlərinin diqqətini özünə cəlb etdi. Həmin dövlətlərlə qurulan əlaqələr Səfəvi dövlətinin nüfuzunu beynəlxalq aləmdə daha da artırdı, iqtisadi və hərbi sahədə əməkdaşlıq daha da gücləndi. Şah Təhmasibin hakimiyyəti illərində dövlətçiliyin əsasları möhkəmləndi, dövlət idarəçilik ənənələri daha da təkmilləşdi, dövr üçün

məqbul sayılan idarəetmə sistemi quruldu. Şah Təhmasib hətta dövlət idarəçiliyinin hüquqi bazasının rəsmiləşdirilməsinə bir cəhd göstərdi, özünün Ayinnaməsini hazırladı və idarəçilik işlərində bu Ayinnaməyə əsaslanmağı bütün səviyyəli hakimlər qarşısında bir tələb kimi qoydu.

Səltənət daxili ictimai-siyasi-hərbi sabitliyin təmin edilməsi və möhkəmləndirilməsi Şah Təhmasibin dövlətçilik fəaliyyətinin mühüm istiqamətlərinən birinə çevrildi. O, şübhə etmirdi ki, daxili sabitliyin yaradılması səltənətdaxili inkişafın və dövlətçiliyin möhkəmləndirilməsinin çox mühüm bir şərtidir. Daxili sabitliyin bərqərar edilməsi həm də insanların dinc yaşayışının və fəaliyyətinin etibarlı bir zəmini idi. Elə bunun üçün idi ki, hakimiyyətinin ilk illərində daxili çəkişmələrin qarşısının alınması üçün Şah Təhmasib qətiyyət nümayiş etdirdi. Onun bu qətiyyəti mərkəzi hakimiyyətə qarşı yerlərdə baş verən itaətsizlik hallarının qarşısının alınmasında da göstərdi. Ayrı-ayrı vaxtlarda yerlərdə mərkəzi hakimiyyətdən qopma hallarına cəhd göstərilsə də, Şah Təhmasib onlara qarşı dövlətin gücünü ortaya qoydu, onlara heç bir şans vermədi və bununla mərkəzi hakimiyyətin möhkəmləndirilməsi və Səfəvi dövlətçiliyinin qorunması üçün qərarlı olduğunu təsdiqlədi.

Şah Təhmasibin hakimiyyəti türkçülüyə dayaqlanan bir hakimiyyət idi. Bu hakimiyyətin dayaqlarını türk-qızılbaş tayfaları təşkil edirdilər. Həmin tayfalar səltənətin ictimai-siyasi-hərbi-mədəni həyatında aparıcı və müəyyənedici rola malik idilər. Şah Təhmasib də hər vasitə ilə bu dayaqların möhkəmlənməsinə və türk mühitinin güclənməsinə çalışırdı. Dövlət idarəetmə sisteminin bütün elementləri demək olar ki, türk tayfalarının nümayəndələrinə həvalə edilirdi. Hətta Azərbaycandan kənarda olan vilayət hakimlərinin və onların idarəetmə aparatının əksəriyyətini də türk-qızılbaş tayfalarının nümayəndələri təşkil edirdilər. Mahiyyəti etibarilə bu hakimiyyət türk hakimiyyəti idi və bu mənada Şah İsmayılın hakimiyyəti dövründə əsası qoyulmuş ənənələr Şah Təhmasibin hakimiyyəti illərində də davam etdi və hətta daha da sağlamlaşdırıldı. Nəticədə türk-qızılbaş tayfalarının

nümayəndələrindən ibarət dövlət idarəçiliyinin yeni bir nəsli yetişdi.

Din-dövlət münasibətlərində də Şah İsmayıl tərəfindən əsası qoyulan təcrübə davam və inkişaf etdirildi. Səfəvi dövləti dini etiqadda məzhəb dövləti olaraq qalmaqda idi. Şah Təhmasib mənsub olduğu məzhəbə dərin etiqad bəsləyən və onun yayılmasını təşviq edən bir hökmdar idi. O eyni zamanda Səfəvi təriqətinin mürşidi-kamili olaraq qalmaqda idi. Şah Təhmasib də həm hökmdarlığı, həm də təriqət rəhbərliyini özündə birləşdirən Səfəvi şahı idi. Doğrudur, təriqət xətti Şah Təhmasibdən sonra öz fəal davamını saxlamadı. Amma Şah Təhmasib təriqət müridləri tərəfindən birmənalı şəkildə mürşidi-kamil kimi qəbul olunur və onun da Allah kəramətinə malik olmasına şübhə edilmirdi. Şah Təhmasib istər təriqət, istərsə də məzhəb etiqadında kor-koranəliyin və fanatizin mövcudluğunu təqdir etmirdi, təvəkkülə boyun əymirdi və bunu heç doğru da saymırdı. Ona görə Şah Təhmasibin hakimiyyəti dövründə etiqad biliklərinin elmi baza üzərinə qoyulmasının fəal şəkildə dəstəkləndiyini və bunun üçün dini araşdırmalara geniş meydan açıldığını görmək mümkündür.

Etiqad dəyərləri Şah Təhmasibin mənəvi-əxlaqi inanclarına da müəyyənləşdirici təsir göstərirdi. Hələ cavan yaşlarında ikən Şah Təhmasib etiqad dəyərləri və mənəvi-əxlaqi tələblərlə bir araya sığmayan əməllərə meyl etməkdən tövbə etdi, yüngül əyləncələrdən çəkindi, insan əxlaqını korlayan adətləri qadağan etdi. Bu qadağalara səltənət miqyasında riayət edilməsinə qətiyyət göstərdi. Nəticədə yüngül əyləncə ocaqları bağlandı, qadağalara əməl etməyənlər ciddi cəzalara layiq görüldü, yüngül əyləncə mərkəzlərindən dövlət xəzinəsinə daxil ola biləcək çox böyük həcmdə maliyyə vəsaitlərindən imtina edildi. O, bütün həyatı boyu özü müəyyənləşdirdiyi qadağalara riayət etdi və bu mənada Şah Təhmasib çoxlu sayda insanların inanc yerinə çevrildi, onların dərin ehtiramını və rəğbətini qazandı.

Hərb işi, səltənətin müdafiəsi işi Şah Təhmasibin hakimiyyəti illərində daha da inkişaf etdirildi. Onun hakimiyyəti illərində Səfəvi qoşunlarının yeni bir mərhələyə - odlu silah mərhələsinə

keçidi başa çatdı, odlu silahların kütləvi tətbiqinə başlandı. Bu isə Səfəvi qoşunlarının yalnız təchizat mənzərəsini deyil, onun taktikasını dəyişdirdi və inkişaf etdirdi. Nəticədə türk-qızılbaş qoşunları da keyfiyyətcə dəyişməyə başladı, bu qoşunların zərbə qüvvəsi artdı, döyüş imkanları daha da genişləndi. Odlu silahların əldə edilməsi üçün Avropa dövlətləri ilə işgüzar əlaqələr və münasibətlər quruldu, qoşunlarda yeni xidmət sahələri meydana gəldi.

Hərbi elitanın səltənət həyatındakı üstün rolu Şah Təhmasibin hakimiyyəti illərində də davam etdi. Daxili və xarici hərbi-siyasi şəraitin tələbləri səltənət daxilində hərbi gücün inkişafına diqqəti artırdı. Bir tərəfdən bəzi vilayət hakimlərinin müstəqilləşmək meylləri və bu məsələdə onların müəyyən xarici təzyiqlərə də məruz qalması mərkəzləşdirilmiş hakimiyyətə dayaq və zəmanət olan hərbi qüvvələrin möhkəmləndirilməsini aktuallaşdırdı. Real xarici hərbi təhdidlərin qarşısının alınması zərurəti isə hərbi gücün dövlətçilik həyatındakı əhəmiyyətini daha da artırdı. Mövcud olan xarici təhdidlərin qarşısının alınması üçün Şah Təhmasib yalnız hərbi gücə diqqəti artırmaqla kifayətlənmədi. Dövlətçilik üçün tarixi əhəmiyyət kəsb edən belə məsələlərin həllində Şah Təhmasib daha dəqiq və seçilmiş siyasətin və hərbi strategiyanın izlənilməsinə təşəbbüs göstərdi. Bu mənada Şah Təhmasib kifayət qədər aydın, konkret və səmərəli bir hərbi təfəkkür sahibi olduğunu nümayiş etdirdi. Bunun nəticəsi kimi, Şah Təhmasib özbək hakimlərinin davamlı və miqyaslı hücumlarının qarşısını aldı, səltənətin şərq sərhədlərinin təhlükəsizliyini təmin edə bildi. Dövrün qüdrətli dövlətlərindən biri olan Osmanlı dövlətinin güclü qoşunlarının hücumları qarşısında isə Şah Təhmasib fərqli bir taktikanı əsas tutdu, fərqli bir yanaşmaya əl atdı. Üzbəüz və açıq meydan döyüşündən çəkinməklə Şah Təhmasib Osmanlı qoşunlarını ciddi sınaqlar qarşısında qoydu və son nəticədə qarşıya qoyduğu məqsədinə nail ola bildi.

Osmanlı dövləti kimi qüdrətli türk dövləti ilə dinc yanaşı və asayiş daxilində yaşamağın ən yaxşı dövrlərindən birini də elə Şah Təhmasibin hakimiyyəti dövrü təşkil edir. Onun təşəbbüs-

karlığı ilə iki dövlət arasında sülh razılaşması əldə edildi. Şah Təhmasib həyatının sonuna kimi bu razılaşmaya riayət etdi, bu razılaşmanın saxlanmasını hər iki tərəf üçün zəruri saydı və Osmanlı sultanı ilə əldə edilmiş razılaşmaya sədaqətli qaldı. Hətta Səfəvi dövləti üçün əlverişli şərtlər çərçivəsində Osmanlı dövləti üzərinə hücum imkanı olanda da Şah Təhmasib Avropa dövlətlərinin təhrikinə uymadı və eyni etiqada mənsub Osmanlı dövləti ilə münasibətlərin dəyişməsinə yol vermədi.

Şah Təhmasibin hakimiyyət illəri həm də Azərbaycan dilinin, ədəbiyyatının mədəniyyətinin və incəsənətinin inkişaf dövrüdür. Özü yaradıcı bir insan olan Şah Təhmasib yaradıcılıq sahələrinin inkişafına çox ciddi diqqət göstərdi, bu sahədə aparılan işləri lazımınca təşviq etdi. O, Azərbaycan dilində ədəbi əsər nümunələri yaratdı və onun Osmanlı sultanın Sultan Süleymanla olan şerləşməsi günümüzə qədər gəlib çatmışdır. Kitabxanalara, kitabxanalar nəzdində ədəbiyyat və mədəniyyət xadimlərinin toplanmasına Şah Təhmasib yeni meydan açdı. Onun hakimiyyəti illərində Azərbaycan rəngkarlığı, tətbiqi sənəti öz zirvəsinə yüksəldi. Bunun nəticəsi kimi, Şah Təhmasib hakimiyyəti illərində dünya mədəniyyətinin şah nümunələri olan əsərlər meydana gəldi.

Bütünlükdə, 52 illik hakimiyyəti illərində Şah Təhmasib Azərbaycan dövlətçiliyinin inkişafına yol açan, öyrənilməyə və təqdir edilməyə layiq olan bir tarix yaratdı. Zaman ötdükcə bu tarixin dəyəri nəinki azalmır, əksinə, bu tarixə qürurlu münasibətin daha da dərinləşməsinə yol açılır.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

## Azərbaycan dilində


Abbaslı M. Şah İsmayıl Xətayinin ömür yolu mimiatürlərdə. Bakı, 1981

Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, 2006

Azərbaycan dahisi Sultan Məhəmməd. http://qadinla.com/cemiyyet/tarixden/100731-azerbaycan-dahileri-sultan-mehemmed.html

Azərbaycan klassik ədəbiyyatından seçmələr. II cild, Bakı, 2005

Azərbaycan tarixi. III cild. Bakı, 1999

Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının eolu. Bakı, 2015

Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. Bakı, 2007

Cabbarlı N. Mühacirət və klassik ədəbi irs. Bakı, 2003

Cenkinson A. Gündəlik, / Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 2007, s. 200-207

Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993

Fərzəlibəyli Şahin Fazil. Azərbaycan və Osmanlı imperiyası. Bakı, 1994

Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakıı, 1983

Fərzəliyev Ş. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, 2003

Füzuli M. Əsərləri. IV cild. Bakı 1961

Gəncəvi N. Sirlər xəzinəsi. Tərcümə Xəlil Rza Ulutürkündür. Bakı, 2004

İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Tərcüməçi – Şahin Fərzəliyev (Şahin Fazil). Bakı, 2010

İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). C.I, Bakı, 2009, Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.

Kazımi P. Səfəvilər dövründə Azərbaycanda kitabxana işi. Bakı, 2008

Kərimov P. Şah İsmayıl Xətayinin nəvəsi İbrahim Mirzənin ana dilində şerləri// "Azərbaycan" jurnalı, N-1, 2010, s. 184-189
Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008
Quliyev Ə. I Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvi-Osmanlı siyasi münasibətləri ingilisdilli tarixşünaslıqda, s.359 //Tarix və onun problemləri, N-2, 2014, s. 353- 361
Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi. Tərcüməçilər: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı, 2004
Mahmudlu Y. Seçilmiş əsərləri. II cild, Bakı, 2011
Mahmudlu Y. Seçilmiş əsərləri. IV c. Bakı, 2011
Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı, 2006
Mahmudov Y. Azərbaycan diplomatiyası: Səfəvilər və Avropa// "Kommunist" qəzeti, N-34, 16 fevral 1991
Mahmudov Y. Odlar yurduna səyahət. Bakı, 1980
Məmmədova Ş. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991
Musalı V. Azərbaycan təzkirəçilik tarixi. Bakı, 2012
Musəvi T. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər). Bakı, 1977
Nağısoylu M. XVI əsr Azərbaycan tərcümə əsəri "Kəvamilüt-təbir". Bakı, 2011, s. 44
Nağısoylu M. Ana dilimizin dəyərli yazılı abidəsi/ Şeyx Səfi təzkirəsi. "Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi. Bakı, 2006, s. 3-22
Onullahi S. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi oçerk), Bakı, 1982
Rumlu H. Əhsənüt-təvarix. Kastamonu, 2017. Tərcüməsi Oqtay Əfəndiyevə və Namiq Musalıya məxusdur.
dokupdf.com/download/hsn-by-rumlu-hsnt-tvarix-oqtay-fndiyev-namiq-musal-_5a3ce927d64ab2a614f64162_pdf
Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, 2014
Şah Təhmasibin təzkirəsi. Bakı, 1996

Şeyx Səfi təzkirəsi. “Səfvətüs-səfa”nın XVI əsr türk tərcüməsi. Tərtibçilər: Möhsün Nağısoylu, Sevər Cabbarlı və Rauf Şeyxzamanov. Bakı, Nurlan, 2006

Solakzadə M. Tarix. Bakı, 1992

Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı 2018

Süleymanov N. Azərbaycan Səfəvi dövləti 1501-1736-cı illər. Bakı, 2018

Sultan Məhəmməd. http://portal.azertag.az/az/encyclopedia/post/6745

Sultan Məhəmməd. https://az.wikipedia.org/wiki/Sultan_Məhəmməd

Venesiyalılar Şah I Təhmasibin sarayında. Tərcümə edən – Oqtay Əfəndiyevdir. Bakı, 2005

## fars dilində

Əbülfəth Bəhram Mirza-ye Səfəvi. https://rasekhoon.net/mashahir/show/583270/

Adilfər B., Məhəmmədi Z. Oza-e iqtisad və ticari-ye Qəzvin əsr-e Səfəvi (dər dövreye pəs əz paytaxti) //Pəjuheşname-ye tarixha-ye məhəlli-ye İran, N-1, 1395, s. 93-106

Əhmədi (Sərraf) N. Röya və siyasət dər sər-e Səfəvi. Tehran, 1388

Arimi M.İ. Tarix-e təməddon və fərhəng-e Səfəvi. Tehran, 1394

Ajənd. Nizaməddin Sultan Məhəmməd ki bud? http://nihoor.blogfa.com/post/30

Əlqas Mirzə Səfəvi. http://dictionnaire.sensagent.leparisien.fr/القاس%20میرزا/fa-fa/

Aləmara-ye Şah Təhmasib. Tehran, 1370

Aləmara-yi Şah İsmayıl. Tehran, 1384

Əhmədi N. Röya və siyasət dər əsr-e Səfəvi. Tehran, 1388

Əhmədiniya M.C. Neqareha-ye Şahname-ye Təhmasibi: Əz Harvard ta Fərhəngestan-e honər//Fəsilname-ye nəqd-e ketab, N-1-2, 1393, s.37-54

Ağacəri S.H. Müqəddimə bər münasibət-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388
İsfahani , Məhəmməd Yusif. Xolde bərin. Tehran, 1372
İsmayili M. Saxtar-e idari və icrayi dər dövre-ye Səfəviyye. http://www.mazdaknameh.ir/Publish/PublishID/ArticleId/317
Ostanşenasi-ye qəzvin. Tehran, 1398
Astrabadi , Seyid Hüseyn ibn Murtuza Hüseyni. Tarix-e soltani əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1358
Əşrafi E. Şəhr-e tarixi-ye Qəzvin//Məcəlle-ye pəjuheşha-ye olum-e tarixi. Dövrə 3, nömrə 2, 1390, s.1-16
Əşrəfi Ə. Təamol-e Osmani və özbəkan əvayel-e əsr-e Səfəvi və peyamədha-ye an|//Pəjuheşname-ye tarix-e islam. Sal-e sevvom, şomare-ye dəhom, tabestan, 1392, s. 35-53
Əşraqi E. Ərz-e sepah-e Şah Təhmasb və moqayese-ye an ba ərz-e Uzun Həsən Ağqoyunlu, s. 139//Bərrəsiha-ye tarixi, sal-e nohom, şomare dovvom, s. 123-148
İzədi A., Xəzayi M., Purmənd H. Baznəmayi-ye qızılbaşha dər neqareha-ye Şahname-ye Təhmasibi//Nəşriye-ye hönərha-ye ziba- honərha-ye təcəssomi, N-4, 1396, s. 43-52
Baharlı M. Moşaereyi torki Şah Təhmasib ba Sultan Süleyman Qanuni http://sozumuz1.blogspot.com/2015/12/blog-post_18.html
Bastani Parizi, M.İ. Siyasət və iqtisad dər əsr-e Səfəvi. Tehran, 1368
Baseri V. Moqayese-yi miyan-e niru-ye nizami-ye dövlət-e Osmani və Səfəvi, s.109 // Nimsalname-ye tarix-e no, N- 4, 1391, s.95-121
Braun E. Tarix-e ədəbiyyat-e İran əz ağaz-e əhd Səfəviyye ta zaman-e hazer. Tehran, 1345
Braun R. Nizam-e əyalət dər dövre-ye Səfəvi. Tehan, 1349
Bəhram Mirzə Səfəvi. http://wikifeqh.ir/بهرام_میرزای_صفوی
Bəyani X. Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353
Borazeş , Əmir Hüseyn. Rəvabet-e siyasi-diplomatik İran və cahan dər əhd-e Səfəviyye . Tehran, 1392

Bəqəə-e Şeyx Səfiəddin Ərdəbili.
https://www.kojaro.com/2016/6/30/120164/sheikh-safiodin-ardebili/
Bəyani X.Tarix-e nizami-ye İran. Dövre-ye Səfəviyan. Tehran, 1353
Parsadust M. Şah Təhmasib. Tehran, 1381
Pərixan xanım, zən-e siyasətmədar və qüdrətmənd-e Səfəvi. http://khiaraji.blogfa.com/post/492
Purməhəmməd Ə., Fərahanifərd R. Nəqş-e əvamel-e təbii bər tosee və rokud-e şəhri Qəzvin, paytaxt-e dövre-ye Səfəvi // N-12, 1391, s.1-23
Tahiri, Əbülqasım. Tarix-e siyasi və ictimai-ye İran. Əz mərg-e Teymur ta mərg-e Şah Abbas. Tehran, 1383
Tarix-e təməddon və fərhəng-e Səfəvi. Book/et.pnuazion.ir/1395/03/
Tarix-e İran. Dövre-ye Səfəvi (Kembric tarixi). Tehran,1388
Tarix-e İran. Doure-ye Səfəviyan (Kembric Universitetinin araşdırması). Tehran, 1380
Talebi T. Bərrəsi-ye eləl-e intixab-e Qəzvin be ünvan-e paytaxt dər ərse-ye Səfəvi. http://www.noormags.ir/view/fa/articlepage/ 83912
Təbatəbayi M.H. Bərgi əz tarix-e Qəzvin. Tehran, 1361
Tərbiyət M. Danişməndan-ne Azərbaycan. Tehran, 1377
Təzkərə-ye Şah Təhmasib. Tehran, 1363
Töhfe-ye Sami. Təəlif-e Sam Mirza-ye Səfəvi. Tehran, 1314
Təmimdari Ə. Ürfan və ədəb dər əsr-e Səfəvi. Bəxş-e əvvəl. Tehran, 1372
Tövbe-ye Şah Təhmasib və fərman-e əmr be məəruf..
http://kakheaseman.ir/aseman.php?name_id=79479&b=safaveye/&name=safaveye_1_9
Təvəkkolifərd F. Moərrəfi, bərrəsi və təhlil-e təzkire-ye Töhfe-ye Sami//Ayene-ye miras, N.51, s. 43-77
Cəfərian R. İmam zaman darəd miyayəd, Şah Təhmasib axərin dövlət qəbl əz zühur.
https://www.entekhab.ir/fa/news/73822/

Cəfərian Rəsul. Nəqş-i xanədan-e Kərəki dər təsis və tədavüm-e dövlət-e Səfəvi. Tehran, 1387

Cığatayi S. Asibşenasi və tövsif rəhyaftha-ye nəğdi dər təzkire-ye Töhfe-ye Sami //Kohənname-ye ədəb-e farsi, N-2, 1394, s. 41-63

Cunabadi , Mirzə bəy. "Rövzətüs Səfəviyyə", Tehran, 1378

Haciyanpur H. Oza-e siyasi-ye İran dər dövre-ye Şah Təhmasib. http://ensani.ir/fa/article/46287/ اوضاع-سیاسی-ایران-در-دوره-شاه-طهماسب-صفوی

Həsəni Ə. Amuzeşha-ye nəzəri dər əsr-e Səfəvi// Olum-e insani, N-52, 1385, s. 153-168

Həsəni Ə. Əvamel-e bohran dər rəvabet-e İran və Osmani əz mənzər-e müvərrexan-e İrani. http://ensani.ir/fa/article/143991/

Hüseyn İ. Şahan-e Səfəvi və ziyarət, s. 6-7 //Fəsilname-ye Şiəşenasi. N-39, 1391, s. 131- 152

Hümayun N.T. Təhəvolat-e qoşun dər tarix-e müasir-e İran. Cild I. Şekl gereftən-e niruha-ye nizami dər ağaz-e dövre-ye Qacariyye. Tehran, 1376

Hüseyni Qumi. Xülasət-təvarix. C.I, Tehran, 1359

Xandəmir, Qiyasəddin. Tarix-e həbib üs-siyər. IV cild, Tehran,1380

Xurşah ibn Qubad əl-Hüseyni. Tarix Elçi-ye Nizam şah. Tehran, 1379

Danişpejvə M. Ayinname-ye Şah Təhmasib// Məcəlle-ye bərrəsiha-ye tarixi. N-1, 1351, s. 121-139

Dehqani R. Rəvabet-e İran və Osmani dər mosabe-ye olqu-ye rəvabet-e şərqi-islami, s.88 //Fərhəng, N-71, 1388, s. 83-107

Dəsturül-mülük-e Mirzə Rəfi. Tehran, 1385

Razha-ye qali-ye Ərdəbil. “Turizm” qəzeti, 2 tir 1395, N.540

Ramazani , Abbas. Cəngha-ye tarix-e İran də əsr-e Səfəviyan. Tehran, 1391

Rəhimzadə S. Zendeqani-ye Şah İsmayıl Səfəvi. Tehran, 1378

Rzaqulu xan Hidayət. Tarix-e rövzət üs-səfa-ye Naseri. Cild həştom. Tehran, 1380,

Rəşidi T. Vilayət-e fəqih dər əsr-e Səfəviyyə. https://article.tebyan.net/223605/
Rudgər Q., Məhəmmədi Ə. Şahan-e Səfəvi və musiqi//Tarix və təməddon-e islami, N-14, 1390, s.77-98
Rumlu H. Əhsən-üt təvarix. Tehran, 1349
Rizayipənah Ə. Təhlil-e keyfiyyət-e baznəmayi məqam səltənət də qofteman-e səfərnamenevisi-ye əsr-e Səfəvi//Tarix-e islam, N-3, 1395, s. 121-152
Zarian M. Münasibat-e ruhaniyan dər əsr-e Səfəvi, s.93//Cameşenasi-ye tarixi, N-2, 1391, s. 87-112
Zendgi-ye siyasi-ye Mühəqqəq Kərəki. http://smhi.ir/index.php/library/book/item/897-2013-12-08-15-23-49
Fəlahzade M. Seyr-e tarixi-siyasi-ye təəziye dər dövran Səfəviyan. civilica.com/Paper-FSCONF02-FSCONF02_011=
Salarişadi Ə. Nəğd və bərrəsi-ye nəzəriyyəha-ye mövcud dər bare-ye təşkil-e dövlət-e Səfəviyye//Tarixname-ye İran bəd əz islam. Sal-e pəncom, şomare-ye nohom, payiz və zemestan 93, s. 71-106
Sam Mirzə Səfəvi. https://rasekhoon.net/mashahir/show/585648/
Sərxil F. Rəvabet-e Səfəviyan və Kürəkaniyan-e hend//Tarix-e İslam, 1386, N-30, s. 133-162
Səfakiş, Məhəmməd Rza. Səfəviyan dər qozərqah-e tarix. Tehran, 1390
Səfərnameha-ye ingilisha dər İran. Qum, 1396
Soltanian Ə., Kohənsal H. Bərrəsi-ye çegunegi-ye rəftar-e Şah Təhmasib ba Homayun (imperator-e pənahəndə-ye hind) ba negəriş-e didqah-e tarixnegari-ye hindi-ye an//Motaleat-e tarix-e islam, 1392, N-16, s. 101-120
Səvaqeb C., Mürvəti F. Eğdamat-e fərhəngi-ye Şah Təhmasib-e əvvəl dər nəhadine sazi- ye təşəyyo dər camee. http://www.shiitestudies.com/index.php/article_26355.html#
Simsar M.H. Fərman nevisi dər dövre-ye Səfəvi, qesmət-e dovvom//Pəjuheşhaye tarixi, s.60-83

Seyvory R. Təhqiqati dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391
Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1392
Şateri M., Əhmədtəcri P. Motale-te təsirpəziri-ye neqareha-ye Şahname-ye Təhmasibi əz təğyir-e məzhəb dər dövre-ye Səfəvi//"Negəre", N-42, 1396, s. 47-62
Şah Təhmasib Səfəvi. Sənədlər və məktublar toplusu. Tərtib edən: Əbdülhüseyn Nəvayi. Tehran, 1368
Şayəstə F., Mircəfəri H., Foruqi Əbri Ə. Bərrəsi-ye karname-ye vəkil-e nəfs-e nəfis-e hümayun dər dövre-ye səltənət-e Şah İsmayıl və Şah Təhmasib (1502-1577)// Mütaleat-e islami, N.87, 1390, s. 107-119
Şirazi, Hacı Zeynalabdin Əli Əbdi bəy. Təkmilətül-əxbar. Bakı, 1996
Əlizadə Ə.,Baqirnejad P. Sultan İbrahim Mirzaye Səfəvi, divan və səbk-e şairi-ye u//Səbkşenasi-ye nəzm və nəsr-e farsi N-4, 1392, s.213-223
Əliməhəmmədi Z. Təhmasib be rəvayət-e Təhmasib//Ketab-e mah. Tarix və coğrafiya, N-133, 1388, s. 103-109
Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1387
Qazi Əhməd Qumi. Xülasət ət-təvarix. C.I, Tehran, 1383
Qasemi H. Şahname-ye Şah Təhmasib. Şive-ye səhifearayi//Ketab-e mah. Honər, mehr, 1388, s. 56-61
Qali-ye Şeyx Səfi. / http://ardebilnews.comقالي-شيخ-صفي/
Qəzvini , Budaq Münşi. Cəvahir əl-əxbar. Tehran, 1387
Qəzvini , Əbülhəsən. Fəvayed-e səfəviyyə. Tehran, 1367
Qəzvini, Mirzə Məhəmmədtahir Vahid. Tarix-e cahanara-ye Abbasi. Tehran, 1383
Qəfuri Ə. Tarix-e cəngha-ye İran əz madha ta be hal-e emruz. Tehran, 1389
Qodyani A. Tarix-e fərhəng və təməddon dər İran dər əsr-e Səfəviyye. Tehran, 1387
Qali-ye Şeyx Səfi. / http://ardebilnews.comقالي-شيخ-صفي/
Kərimi Ş. Nəqd-e elmi-ye neqare-ye cəşn şode dər Şahname-ye Şah Təhmasibi//Rəvayet-e tarix, N-1, 1395, s.1-16

Gəncəli T. Dövlət-e Səfəvi və zəban-e türki//Peyam-e Baharistan, zemestan 1388, sayı 6, s.293-298

Mehdəvi Ə. Tarix-e rəvabet-e xareci-ye İran. Tehran, 1369,

Mehdəvi A.H. Tarix-e rəvabet-e xareci-ye İran əz ibtida-ye dövran-e Səfəviyye ta payan- e cəng-e dovvom-e Cahani. Tehran, 1369

Mohəmmədnejad H. Osmanlı-Safevi ilişkileri (1501-1576). Doktora tezi. Ankara, 2015

Məsum, Mirzə Məhəmməd. Tarix-e səlatin-e Səfəviyye. Tehran, 1351

Məşkurian M. Macəra-ye səcdə dər dərbar-e Şah İsmayıl (h.q. 907-930) və Şah Təhmasib- e əvvəl (h.q. 930-984): bər təkye mənabe-ye səde-ye dəhom və əvayel-e sədeye yazdəhom //Pəjuheşha-ye tarixi. N-2, 1388, s. 107-122

Məşkurian M., Rəncbər M. Mühəqqəq Kərəki və dövlət-e Səfəvi. Tehran, 1387

Mircəfəri H., Haşemi Ərdəkani M. Fərman-e Şah Təhmasib Səfəvi be Mövlana Rzaəddin Məhəmməd// Bərrəsiha-ye tarixi, N-2, 13---, s.95-106

Minorski. Sazman-e edari -ye hökumət-e Səfəvi. Tehran, 1334

Nəcəfinejad s., Cədidi N., Yusifcamali M. Boruz və zohur-e bavərha-ye dər siyasət-e məzhəbi-ye Şah Təhmasib-e əvvəl-e Səfəvi|/Şiəpojuhi, N-4, 1396, s.121-145

Nədirlu M., Aşuri M., Xəzayi M. Bəyan-e təsviri dər asar-e Ağa Mirək nəqqaş //Negəre, N-44, 1396, s. 98-112

Nəzm və nəsr-e Sam Mirzə. https://rasekhoon.net/mashahir/show/585648/

Novruzi C., Ramazani Ş. Eləl-e təamolat-e səlatin-e Səfəvi ba oləma-ye şiə və nətayec-e an //Pəjuheşname-ye Tarix-e islam, N-15, 1394, s. 119-148

Nəqəvi S.H. Nomayəndeqan-e siyasi-ye İran və Hindustan dər zəman-e səfəviyan və baburian, s.37-38// Bərrəsiha-ye tarixi, N-6, sal-e həftom, s. 38-44

Nəvayi Ə. Rəvabet-e siyasi və iqtisadi-ye İran dər əsr-e Səfəvi. Tehran, 1386

Nəvidi d. Təğyirat-e İctimai-iqtisadi dər İran-e əsr-e Səfəvi. Tehran, 1386
Valser S.Ş. İran əz didqah-e səfərnameha-ye Avropaiyan. Tehran, 1364
Yusififər Ş., Bəxtiyari M. Mənsəb-e daruğə dər dövre-ye Səfəvi// Pəjuheşname-ye tarix-e ictimayi və iqtisadi. N-1, 1391, s. 97-119

**Türk dilində**

Adoğmuşoğlu C. 16. yüzyılda Safevi devletinde etkili olan dört türkmen aşireti// The Journal of Academic Social Science Studies, Volume 5 Issue 6, December 2012, p. 17-25
Açıkel F. Osmanlı askeri düzeni və yeniçeriler. Ankara, 2009
Anadoludaki gelişmeler.
http://remzikilic.com/kanuni-sultan-suleyman-in-irakeyn-seferi-nde-1533-1535-dogu-ve-guneydogu-anadolu-daki-gelismeler.html
Aydüz S. Osmanlı silahları, silah üretim merkezleri ve literatürü tarihi. Tarih okulu, Mayıs-Ağustos 2011, sayı X, s.1-37
Bulut X.İ. Osmanlı-Safevi mucadelesinde ülemanın rolü: Kamal Paşazade örnegi, s.180//Dini araştırmalar, c.7 https://dergipark.org.tr/tr/pub/da/issue/4458/61458
Cavanşir B. İrandakı türk boyları ve boy mensubu kişilər (Safevi dönemi – I Şah Tahmasb hakimiyyetinin sonuna kadar/1576). Doktora tezi. İstanbul 2007
Çınarçı M. Söz meydanında iki hökmdar: Kanuni Sultan Süleyman ve Şah Tahmasbın muşairesi// Türk okulu dergisi, N-XXIII, 2015, s. 187-210
Dinler V. Osmanlı devletinin idari yapısı, s. 30 https://veyseldinler.com/wp-content/uploads/2018/11/
Ekber Diyanet A. İlk Osmanlı-İran anlaşması (1555 Amasiya musalahası). İstanbul, 1971
Ekin Ü. Osmanlı ordusunda moral yülseltici bir kurum olaraq ordu şeyhligi, s. 168

http://www.fed.sakarya.edu.tr/arsiv/yayinlenmis_dergiler/2008_1/2008_1_14.pdf
Elibol A. Yeniçəriulər və iktidar bağlamında Osmanlı sisteminin dönüşümü//Akademik baxış, kış 2009, cilt 3, sayı 5, s. 21-40.
Erdoğan E. Safevi ordusunda bir birlik – kurçiler //Ankara Üniversitesi Dil ve Tarih-Coğrafya Fakültesi Dergisi, N- 2 (2015), 75-88
Firudin bəy. Müşiatüs-səlatin. C.I, 1274(h.q.)
Güntan İ. Osmanlı neferi ve savaş (yüksek lisans tezi). Denizli, 2015
Hakyemez C. Osmanlı-İran ilişkileri ve sünni-şii ittifakı. İstanbul, 2014
Hallacoğlu Y. XIV-XVII.yüzyıllarda Osmanlılarda devlet teşkilatı və sosial yapı. Ankara, 1991
Haneda M. Safevi hassa birliklerinin tekamülü, s.134// "Cihannüma" –Tarih və coğrafiya araştırmaları dergisi, sayı II, 2016, s. 125-150
İpçioğlu M. Kanuni Sultan Süleymanın Nahçıvan seferi. Ankara, 2003
Karadağ Çinar G. Safevi-özbek siyasi ilişkileri ve Osmanlının təsiri (1524-1630). Doktora tezi. Afyon-Karahisar, 2011
Kesik B. Kanuninin Şah Tahmasbın qazeline cevabı, s. 205//Sosyal bilimler dergisi, N-2, 2005, s. 203-210
Kılıc R. Kanuni Sultan Süleymanın Irakeyn seferinde (1533-1535) doğu ve güneydoğu Anadoludaki gelişmeler// Bilig N-9, 1999, s.125-129
Kılıc R. Kanuni Sultan Süleymanın Irakeyn seferinde (1533-1535) doğu ve güneydoğu Anadoludaki gelişmeler. http://remzikilic.com/kanuni-sultan-suleyman-in-irakeyn-seferi-nde-1533-1535-dogu-ve-guneydogu-anadolu-daki-gelismeler.html
Kılıc R. Kanubi devri Osmanlı-İran münasibetleri (1520-1566). İstanbul, 2006

Kılıc R. Osmanlı devletinin İran politikası (16. Ve 17. Yüzyıl). Türk Dış Politikası Osmanlı Dönemi, C. I-II, Editör: Mustafa BIYIKLI, Gökkubbe Yayınları, İstanbul, C. I
Kırzıoğlu M.Osmanlıların Kafkas ellərini fəthi. İstanbul, 1953
Küpeli Ö. İrak-ı Arapta Osmanlı-Safevi mücadelesi (XVI-XVII. Yüzyıllar)// History
Studies Ortadoğu Özel Sayısı / Middle East Special Issue 2010, s.227-244
Kuzucu S. Osmanlı ordusu ve sefer lojistiği (1453-1789). İstanbul, 2017
Oruc C., Dağlar M. Tahmasb-Hmayun ittifakında şiilikin rolu, s.666//Odu Üniversitesi Sosyal Bilimler Araştırmaları Dergisi, 6(3), 665-670, Aralık 2016
Osmanlı askeri teşkilatı. http://www.sosyalbilgiler.gen.tr/osmanli-askeri-teskilati/
Osmanlı devletnin askeri yapısı. https://www.altayli.net/osmanli-devetinin-askeri-yapisi.html
Sarıkaya S. M. Dini ve siyasi bakımdan Osmanlı-İran münasebetleri, s.411/Türk kültürü, N-363, s. 406-422
Şevik İ. Şah Tahmasb (1524-1576) ile Osmanlı sarayı arasında teati edilən mektupları içeren "Münşüat-i atik"in edisyon kritig ve degerlendirilmesi (Doktora tezi). İzmir, 2008
Taneri A. Osmanlı kara ve deniz kuvvetleri (kuruluş devri). Ankara, 1981
Teyyibi S.M. Məbani-ye paydari-ye sepahiyan dər siyasət-e nizami-ye emperatori-ye Osmani// Nəşriyyeye ədəbiyyat-e paydari. Sal-e 9, şomare-ye 17, payiz və zemestan, 1396, s.201-226
Veliyeva Z. Safevi devlet teşkilatı. Çap olunmamış doktora tezi. Ankara, 2007
Ücel-Ayvet G. Avrupalı seyyahların gözüyle Osmanlı ordusu (1530-1699). İstanbul, 2010

**İngilis dilində**

Abisaab R.J. Religion and Power in the Safavid Empire. New-York, 2004

José Cutillas Ferrer. War and diplomasy: A letter describing Shah Tahmasp I and his ministers // Maquetación, N-1, 2016, s. 29-40

Jouher. The tezkereh al vakiat or private memoirs of the moghul emperor Humayun. London, 1832

Youssef Camali M.K. The life and personality of Shah İsmail. Thesis submitted for the degree of Doctor of Philosofy University of Edinburgh, 1981

Huseynova Z. Turkish language in İran// Khazar Journal of Humanities and Social Sciences, s.42-52

Matthee Rudi. Firearms in Persia, s. 619/Ensiklopedia İranica, volume IX, New York, s. 619-628

Matthee Rudi. Distant allies: Diplomatic contacts beetwen Portugal and Iran in the reign of Shah Tahmasb, 1524-1576/Portugal, the Persian gulf and Safavid Persia. Peeters, 2011, p.219-248

Matthee Rudi/ Firearms in Persia/Ensiklopedia Iranica/ New York, 1999, 619-628

The Cambridge history of İran. Volume VI, London, 1986

**Rus dilində**

Азимли Д., Гасымов Х. Роль Волжско-Каспийского торгового маршрута в экономической и культурной жизни Сефевидского государства

http://bao.az/categories_Tarix/subcategories_azerbaycan-tarix/product_0810357372

Алиева-Кенгерли А.И., Эфендиев А.Ф. История создания «Шахнаме-йе шахи» - уникального произведения книжного искусства/ Библиотеки национальных академий

наук: проблемы функционирования. 2014. Вып. 12, с.274-282

Английские путешественники в Московском государстве в XVI веке. Москва, 1937, с.7

Дзарасов А. А., Рябцев А. Л., Дзарасов А. О. Особенности восточной торговли России в XVI веке. http://moscowstate.ru/osobennosti-vostochnoj-torgovli-rossii-v-xvi-veke/

Фарзалиев А., Мамедова Р. Сефевиды и великие моголы в мусульманской дипломатике. Санкт-Петербург, 2004

Магарамов Ш. Англичане на Каспийском море в XVI в., с. 62//Вестник Кемеровского государственного университета, 2017, № 3, с.62-66

Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с Западноевропейскими странами. Баку, 1991

Петрушевский И.П. Азербайджан в XVI-XVII веках/ Сборник статей по истории Азербайджана. Выпуск I. Баку, 1949, с.225-298

Хосейнширази С.С. Военно-политические отношения Мавераннахра и Ирана в XVI в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Душанбе, 2014

## MÜNDƏRİCAT

**I FƏSİL. SƏLTƏNƏTİN MÖHKƏMLƏNDİRİL MƏSİ ..........................................3**

1.Şirvanin mərkəzi hakimiyyətə tabe etdirilməsi....................3
2.Şəkinin mərkəzi hakimiyyətə tabe etdirilməsi...................23
3. Gürcüstanın fəth edilməsi.. ..............................................31
4. Qəndəharın yenidən fəthi..................................................51
5.Gilanın yenidən fəthi..........................................................59
a) Şah Təhmasibin Xan Əhmədə məktubu.. ....................78
b) Gilanda Xan Əhməd itaətsizliyinin aradan qaldırılması. ....................................................85
c)Lahican qiyamının yatırılması.......................................95
6.İstifadə olunmuş mənbə və ədəbiyyat ..............................98

**II FƏSİL. DAXİLİ HƏRBİ-SİYASİ SABİTLİYİN TƏMİN EDİLMƏSİ..........................................................105**

1.Xoca Kəlan itaətsizliyinin aradan qaldırılması.. .............106
2. Astrabaddakı (Xoca Saleh Məhəmməd Bitikçi və Aba Türkmən) qiyamlarının yatırılması.. ...............................112
3. Heratdakı Qazax xan qiyamının yatırılması....................131
4.Şah Təhmasibin hakimiyyəti illərində baş vermiş digər qiyamların yatırılması. ...................................................141
5.İstifadə olunmuş mənbə və ədəbiyyat. .............................152

**III FƏSİL. ŞAH TƏHMASİBİN DÖVLƏTÇİLİK FƏALİYYƏTİ. .............................................................. 155**

1.Dövlətin mənşəyi və əraziləri. .........................................155
a) dövlətin paytaxtının Qəzvinə köçürülməsi. .................165
2. Dövlət idarəçiliyi.............................................................170
a) şahın səlahiyyətləti........................................................170
b) Avropalı səyyahlar Şah Təhmasibin divanxanası və

saraydaxili həyat haqqında.......................................183
c) vəkil.........................................................................192
ç) vəziri-əzəm...............................................................200
d) ali divan, müstövfiyül-məmalik...............................208
e) münşi-məmalik..........................................................214
ə) naziri büyutat.............................................................226
3.Şah Təhmasib dövrünün ərazi-inzibati bölgüsü..............229
4. Şah Təhmasib dövrünün əyalət idarəçiliyi......................244
5.Şah Təhmasibin ayinnaməsi...........................................262
6. İstifadə olunmuş mənbə və ədəbiyyat............................275

**IV FƏSİL. ŞAH TƏHMASİB HAKİMİYYƏTİ İLLƏRİNDƏ DİN-DÖVLƏT MÜNASİBƏTLƏRİ. ............................285**

1.Şah Təhmasibin etiqadı...................................................285
2. Din-dövlət münsibətləri. ................................................318
3.Şah Təhmasib dövründə dini idarəçiliyə səlahiyyətli olan vəzifələr...........................................................................339
a)sədr..............................................................................350
b)digər dini vəzifələr.......................................................359
4. İstifadə olunmuş mənbə və ədəbiyyat............................364

**V FƏSİL. ŞAH TƏHMASİB DÖVRÜNÜN XARİCİ SİYASƏTİ.................................................................371**

1.Səfəvi-Osmanlı münasibətləri.........................................372
2.Səfəvi dövlətinin Avropa dövlətləri ilə münasibətləri.....395
a)Səfəvi-Venesiya münasibətləri......................................395
b)Səfəvi-İngiltərə münasibətləri........................................410
c) Şah Təhmasibin hakimiyyəti illərində digər Avropa dövlətləri ilə münasibətlər.........................................450
3.Şah Təhmasibin hakimiyyəti illərində Səfəvi-hind münasibətləri.................................................................455
4.İstifadə olunmuş mənbə və ədəbiyyat.............................509

**VI FƏSİL. ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ HƏRB İŞİ.................................................521**

1.Şah Təhmasibin hərbi strategiyası. ..................................521
2.Şah Təhmasibin qoşunları...............................................541
3.Qoşunların idarə edilməsi və təchizatı.............................561
4.Şah Təhmasib qoşunlarının taktikası .............................. 575
5. İstifadə olunmuş mənbə və ədəbiyyat.............................593

**VII FƏSİL. ŞAH TƏHMASİB TARİXİN SINAĞINDA..................................................................600**

1.Şah Təhmasibin mənəvi keyfiyyətləri..............................600
2.Şah Təhmasibin hakimiyyəti illərində maarif və elm......632
3.Şah Təhmasibin Azərbaycan dilinə, ədəbiyyatına və mədəniyyətə qayğısı..........................................................653
4.Şah Təhmasibin ailəsi .......................................................707
a) Şah Təhmasibin qardaşları..........................................708
b)Şah Təhmasibin övladları. ..........................................720
5.Şah Təhmasibin xəstələnməsi və dünyasını dəyişməsi....737
6.Şah Təhmasibin vəfatından sonra hakimiyyət varisliyi məsələsi..........................................................................750
7.İstifadə olunmuş mənbə və ədəbiyyat.............................764

**NƏTİCƏ..........................................................................777**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT....783**

**Nəşriyyat direktoru:** İsmayıl Nərimanoğlu

Kitab hazır depozitivlərdən istifadə edilərək
“Maarif” nəşriyyatında çap edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin “Maarif” Dövlət
Tədris Pedaqoji Ədəbiyyatı nəşriyyatı

Çapa imzalanmışdır: 13.10.2019
Kitabın formatı: 60x84 1/16.
Həcm: 50 ç.v.

Ünvan: Mətbuat prospekti, 529-cu məh.